# AZƏRBAYCAN

## QƏZETİ

1918-1920

## VII CİLD

(Aprel 1919)

## TRANSLİTERASİYA EDƏNLƏR

**Mehdi Gəncəli**
Filologiya üzrə fəlsəfə doktoru

**Azad Ağaoğlu**
Filoloq, tərcüməçi

## ELMİ REDAKTOR

**Teymur Kərimli**
Akademik

**ADA Universitetinin**
**təşəbbüsü və dəstəyi ilə nəşr edilir.**

# MÜNDƏRİCAT

**Ön söz**
**Oxucuların diqqətinə**
**Nömrə 148** (2 aprel 1919) ..... **1**
**Nömrə 149** (3 aprel 1919) ..... **29**
**Nömrə 150** (4 aprel 1919) ..... **55**
**Nömrə 151** (7 aprel 1919) ..... **79**
**Nömrə 152** (8 aprel 1919) ..... **103**
**Nömrə 153** (9 aprel 1919) ..... **131**
**Nömrə 154** (10 aprel 1919) ..... **155**
**Nömrə 155** (11 aprel 1919) ..... **177**
**Nömrə 156** (13 aprel 1919) ..... **205**
**Nömrə 157** (14 aprel 1919) ..... **233**
**Nömrə 158** (16 aprel 1919) ..... **261**
**Nömrə 159** (17 aprel 1919) ..... **291**
**Nömrə 160** (18 aprel 1919) ..... **319**
**Nömrə 161** (20 aprel 1919) ..... **339**
**Nömrə 162** (21 aprel 1919) ..... **367**
**Nömrə 163** (22 aprel 1919) ..... **395**
**Nömrə 164** (23 aprel 1919) ..... **423**
**Nömrə 165** (24 aprel 1919) ..... **451**
**Nömrə 166** (25 aprel 1919) ..... **479**
**Nömrə 167** (27 aprel 1919) ..... **507**
**Nömrə 168** (28 aprel 1919) ..... **535**
**Nömrə 169** (30 aprel 1919) ..... **559**
**Adlar göstəricisi** ..... **587**

# ÖN SÖZ

ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olan "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatı ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək, lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşrə hazırlanmaqdadır. Təəssüflə qeyd etmək lazımdır ki, bu istiqamətdə ayrı-ayrı təşəbbüslər olsa da (mərhum professor Şirməmməd Hüseynovun çalışmaları xüsusilə yada salınmalıdır), "Azərbaycan" qəzeti kimi mühüm bir nəşrin müasir oxucu üçün əlçatan olmasını təmin edəcək bu səviyyədə bir iş, 30 illik müstəqillik dövründə həyata keçirilməmişdir.

"Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də, Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və

Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir.

"Azərbaycan" qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanmaqdadır.

Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə verməkdən ADA Universiteti qürur duyur.

**Hafiz PAŞAYEV,**
**ADA Universitetinin Rektoru**



## OXUCULARIN DİQQƏTİNƏ

"Azərbaycan" qəzetini transliterasiya edərkən, mətnin orijinallığını qorumaqla birgə, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışdıq. Bu səbəbdən, bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəldi. Məsələn, "çox" yerinə qəzetdəki kimi "çoq", "yox" yerinə "yoq", "etməyi" yerinə "etməgi", "kimi" yerinə "kibi", "nömrə" yerinə "numero" və s. yazmaq, oxucunun işini çətinləşdirməkdən başqa bir şeyə yaramayacaqdı. Üstəlik, bu sözlərin fərqli yazılışları qəzetdə bəzən eyni səhifədə yanaşı istifadə edilmiş, yəni imla birliyi prinsipi nəzərə alınmamışdı. Bu qəbildən olan sözlərin müasir yazılışına üstünlük verməyin, daha doğru bir addım olacağına inandıq.

Eyni zamanda, "teatro", "qəzetə", "böylə" kimi bəzi sözlərə toxunmadıq. Çünki əvvəla, bu sözlər qəzetdə həmişə eyni cür yazılmışdır; ikincisi də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Osmanlı türkcəsində və müasir Türkiyə türkcəsində indiki zaman şəkilçisi olan "-yor" qəzetdə qaydasız və pərakəndə bir şəkildə işləndiyi üçün (eyni cümlədə həm "-yor", həm "-ır, -ir, -ur, -ür" şəkilçisindən istifadə edildiyini görmək mümkündür) mətndən çıxarılmışdır. Şeir parçalarında vəznin pozulmasına yol verməmək üçün "-yor" şəkilçisinin saxlandığı istisnalar da var.

Yer adlarını, fərqli versiyaların işlənməsi baxımından (Bolqarıstan – Bolqariya, Lehistan – Polşa, Macarıstan – Venqriya və s.) qəzetdəki kimi saxladıq, fəqət yazılış baxımından müasirləşdirdik ("Bulqarıstan" yerinə "Bolqarıstan", "Kiyef" yerinə "Kiyev" və s.). Eləcə də, "Bakü" yerinə bugünkü kimi "Bakı" yazdıq. Soyadı sonluqlarını da ("-of", "-yef" və s.) müasirləşdirməyi ("-ov", "-yev" və s.) məqsədəuyğun hesab etdik.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etməyi münasib görmədik. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənası içindən məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğunu mətnin içində kvadrat mötərizədə göstərdik. Bu halda, kvadrat mötərizədəki sözlər normal mətndən daha kiçik şriftlə verilmişdir. Məsələn: "...xəstəliklərin bittamam rəf'inə [tamamilə aradan qaldırılmasına] qədər..." Qəzetdəki mətndə səhvən buraxılan sözləri də kvadrat mötərizə içində əlavə etdik. Bu halda, kvadrat mötərizədəki sözlərlə normal mətnin şrifti eynidir. Məsələn: "...Xarici [İşlər] nazirinin..."

Hər nömrədən sonra əlavə edilən "Qeyd və şərhlər"də, oxucular üçün faydalı məlumatlar yer alır. Qəzetdəki mürəttib xətalarından bəziləri (xüsusilə əhəmiyyətli olanları) də burada göstərilmişdir. Əlbəttə, bütün xətaları göstərmək lazım və mümkün deyildi. Xüsusilə Birinci Dünya müharibəsində Qərb cəbhəsi xəbərlərində keçən toponimlər qəzetdə demək olar ki, həmişə səhv yazılmışdır. Bu toponimlər mümkün qədər bərpa edilmiş, eləcə də "Adlar göstəricisi"nə əlavə edilərkən, toponimin aid olduğu dildəki yazılışı da verilmişdir.

Şeir parçalarında rastlanan çətin anlaşılan söz və ifadələrin lüğəti də "Qeyd və şərhlər" bölməsində verilmişdir.

Cildin sonunda "Adlar göstəricisi" verilmişdir. Mətndəki bütün şəxs, yer, dövlət, xalq, qurum, idarə, təşkilat, şirkət və s. adları, hətta bəzi xüsusi terminlər "Adlar göstəricisi"nə daxil edilmişdir.

**Mehdi Gəncəli** **Azad Ağaoğlu**


آذربایجان

**Çərşənbə, 2 aprel 1919-cu il, nömrə 148**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 1 rəcəbül-mürəccəb sənə 1337. 2 aprel 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## ELAN

1919 sənəsi aprel ayının 3-ündə pəncşənbə günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

## BALIQ

Balıq Ticarət Cəmiyyəti "Bank" bununla Bakı və dairəsi əhalisinə elan edir ki, cəmiyyət tərəfindən balıq satan dükanlara tazə Bank balığı satılmaqdan ötrü girvənkəsi aşağıdaki qiymət üzrə təqsim olunub [paylanıb]:

Sevryuqa [uzunburun] – 5 rublə, osyotr [nərə balığı] təzə – 5 rublə 25 qəpik, sazan [çəki balığı] – 2 rublə, boçka ikrası [çəlləkdə kürü] – 50 rublə, meşok ikrası [torbada kürü] – 55 rublə, bankada 1 girvənkəlik – 45 rublə, ikra zernisti [dənəvər kürü] – 40 rublə.

**Aşağıdaki dükanlarda:**

1) A. N. Saruxanov – Sisyanovski küçə, Lalayevin evində;

2) L. M. Qriqoryans – Telefonnı küçə, Səfərəliyevin pasajında;

3) Arsen Babayev – Sisyanovski küçə, Krasilnikovun evində;

4) S. Avakimov – Stanislavski və Balaxanski küçələrin küncündə, nömrə 63;

5) Artyom Babayev – Sisyanovki küçə, Krasilnikovun evində;

6) S. K. Mnasakanov – Telefonnı küçədə, Səfərəliyevin pasajında;

7) D. İ. Arutyunov – Sisyanovski küçə, Lalayevin evində;

8) N. Hacıyev – Çelyayevski küçə, Aleksandro-Nevski pasaj;

9) Y. Y. Yeqiazarov – Kolyubakinski və Sisyanovski küçələrin küncündə;

10) Y. Kasparov – Telefonnı küçə, Voskanovun evində, nömrə 3.

11) A. Kasparov – Naberejni balıqçı dükanları, sklad [anbar] nömrə 2;

12) M. Hacıyev – Çelyayevski küçə, Aleksandro-Nevski pasaj.

Bundan əlavə, "Bank" cəmiyyəti skladında, Naberejni balıq satan dükanlar cərgəsində (sklad nömrə 5) dəxi satılacaqdır.

Sevryuqa və osyotr bir dənədən az, 2 dənədən artıq satılmayacaq.

*5778*

## MÜRACİƏTNAMƏ

Zaqafqaziyada bu son illərdə müsəlmanlara edilən təcavüzü təhqiq edən Fövqəladə İstintaq Komitəsi bizzat Şamaxı şəhərində və mahalında müsəlmanların başına gələn fəlakətləri təhqiq eyləmişdir. Şamaxı şəhərindən bu gün bir xarabazarlıq qalmışdır. Bu xarabazarlıqda müsəlman hissəsindəki yanmış məscidin minarələri isbat[i-vücud] edir [özünü göstərir]. Bu həman məsciddir ki, tam 800 il bundan əvvəl inşa edilmişdi. Şəhərdə qırğından qurtarmış olan 15 min müsəlman Zaqafqaziyanın müxtəlif şəhərlərinə pənah aparmışdılar. Bu zavallılar torbaları çiyinlərində, ağacları əlində, aclıq ölümündən nicat axtarırdılar. Şamaxı uyezdində [qəzasında] olan həştad ədəd müsəlman kəndləri də bu müsibətə düçar olmuşdular. "Bolşevik" adı ilə özlərini adlandıran quldur dəstələrindən özlərini xilas edən və türklərin istilasından sonra öz yerlərinə qayıdan minlərlə müsəlmanlar öz yerlərini yandırılmış, mallarını talan edilmiş, malqaralarını sürülmüş gördülər. Bu bədbəxtlər eşidilməmiş bir fəqr və ehtiyac içindədirlər. Onlar o dərəcədə bədbəxtliyə düçar olmuşlardır ki, müavinət [yardım] diləməyə də gücləri çatmayırdı. Amma bununla bərabər, hərgah kənardan müavinət olmazsa, bizim həlakətimiz şübhəsizdir. Öylə kəndlər vardır ki, orada nə bir inək və nə də bir cücə yoxdur. Əhali pərişan bir halda, əli qoltuğunda gəzir. Soyuqdan, aclıqdan gündə onlarla adamlar ölürlər. Bu da şübhə xaricindədir ki, millət tərəqqi və təalisinə [ucalmasına] və camaat işlərinin islahına çalışmağa əzm etmiş olan hökumət Şamaxı fəlakətzədələrini yaddan çıxarmayacaqdır. Lakin hökumət edəcəyi bu müavinət və rəhm vətən[daşları], xüsusən müsəlmanları məsuliyyətdən qurtarmaz. Onlar da, yəni camaat da beqədri-qüvvə [gücləri çatdığı qədər] bu bədbəxt, bu fəlakətzədələrə müavinət əlini uzatmalıdır.

Vətəndaş müsəlmanlar! Məhv olan Şirvanı xilas ediniz!

*Fövqəladə İstintaq*
*Komitəsinin sədri:*
*Ələkbər Xasməmmədov*

## QİSMİ-RƏSMİ

**Dövlət Kontrolunun [Dövlət Müfəttişinin] əmri**

31 mart 1919, nömrə 34

1919 sənəsi aprel ayının 1-dən etibarən (dün) darülfünun tələbəsi Cahangir bəy Aşurbəyov və tələbə texnoloq Ağabala Məhəmmədov Hökumət Kontrolu İdarəsində xüsusi sifariş məmuru təyin edilirlər.

*Kontrol naziri vəzifəsini ifa edən:*
*Ə. A. Həsənov*
*Mətninə mütabiqdir [uyğundur].*
*Katib əvəzinə (imza)*

———

**İcbari qərardad**

Ərzaq təşkilatının 2-ci maddəsi, Müvəqqəti hökumət qərardadının 4-cü maddəsi, Ərzaq işləri barəsində olan xüsusi şuranın 9-cu və 10-cu maddələrinə görə, 1915-ci il qanununun 1760, 1917-ci il qanununun 358 və 1073-cü maddələrinə görə, Qarabağ general-qubernatorluğundan: Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur mahallarından hər növ taxıl çıxarmaq qadağan edilir.

Bu icbari qərardadı xələldar edən [pozan] şəxslər 29-cu maddə mövcibincə [əsasında] təhti-məsuliyyətə [məsuliyyət altına] alınacaqdırlar.

*30 mart 1919*
*Ərzaq naziri: K. Lizqar*

## NÜMUNEYİ-İMTİSAL
## BİR GÜN

"Müsavat" firqəsinin təşəbbüsü ilə çağırılan Müsəlman Əmələ [Fəhlə] Konfransı martın 31-ni vətəni bir matəm olmaq üzrə elan [etməyə] və o günü ümumi tətil ilə keçirməyə qərar vermişdi.

Müsəlman əmələsinin bu qərarına Bakının bütün məhəllələri kəza [həmçinin] tabe olub Matəm Tətil Komitəsi cənbində [nəzdində] məhəllə məscidlərinin nümayəndələrindən ibarət bir şəhər şöbəsi təşkil etdilər. Bu günə məxsus qəzetələr nəşr olundu. Azərbaycan qəzetələri ilə "Müsavat" vasiteyi-nəşri-əfkarları [fikirlərini yayma vasitələri] olan qəzetələr matəm nömrələri çıxardılar.

Matəm səhər saat 8-dən axşam saat 6-ya qədər təyin olunmuşdu.

Tətilə müsəlman olmayan əmələ təşkilatı nasıl baxacaq? Tətil müntəzəm və mütəşəkkil bir surətdə gedəcəkmi?

İştə, Azərbaycan paytaxtını düşündürən bir məsələ!

Kəndilərini bilməm hangi haqqa görə bütün Bakı füqərayi-kasibəsinin [proletariatının] nümayəndəsi adlandıran "Raboçi Konfrans" heyəti-idarəsi ilə keçmişdəki tətilləri idarə edən "Staçeçnıy Komitet" [Tətil Komitəsi] ağızlarına su almışlardı.

26 bolşevik komissarlarından ötrü ümumi tətil etdirmək istəyən və əllərində qara bayraqlar və Şaumyanın fotoqrafı olaraq nümayişlər yapan "fəhlə nümayəndələri" on minlərlə şəhid düşən bigünah Mart qurbanlarını xatırlamaq üçün çox da tələsmək istəmirlərdi.

Nəhayət, müsəlman əmələlərinin qəti qərarları təsirindən olmalıdır ki, "Raboçi Konfrans" idarəsi ayın 31-ni deyil, 30-nu matəm günü və bu münasibətlə mitinqlər tərtibini elan eylədi. Fəqət nə mitinqlərə gələn oldu, nə də mitinqi çağıranlar özləri gəldilər.

Onlar bildikləri kimi Mart faciəsinə gözəyarı baxa bilərlərdi. "Raboçi Konfrans" idarəsində bağdaş quran bolşevik biçar "rəislər" Mart gününü "matəm" deyil, bacarsalardı "bayram" edərlərdi. Onun üçün də onlar matəmin rövnəqlə keçməsinə çox əhəmiyyət verməmişlərdi.

Fəqət türk demokratiyası [xalqı] kəndi qərarında sabitqədəm [möhkəm, sözündən dönməyən] idi. Onun macərapərəst politikalarla işi yox idi. O, Martın 31-də kəndi qüvvətini göstərəcək, Mart şühədasının [şəhidlərinin] matəmi ilə müvəffəqiyyətsiz mitinqlər yapmaq surətilə oynamaq mümkün olmadığını isbat edəcəkdi. O bu gün bütün həyatı durduracaq, bununla kəndisinin nə kimi xatiri

sayılır bir qüvvət olduğunu bildirməklə bərabər, martda tökülən nahaq və məsum qanların dəxi ağız sürütdürmə bir "matəm"lə yad olunacaq "əhəmiyyətsiz" bir vəq'ə [hadisə] olmadığını bütün cahana qarşı elan edəcəkdi.

Martın 31-i yaxınlaşırdı. "Raboçi Konfrans" rəisləri içlərində mövcud olan azçox mətləb anlayanlarının "sözünə baxaraq" martın 30-da matəm mitinqləri elan etmiş ikən bir də 31-ni matəm günü və eyni zamanda da tətil elan etdilər. Fəqət tamamilə "Müsavat"a tabe olmamaq üçün olmalıdır ki, tətilə saat 6-dan deyil, 12-dən etibarən qərar verdilər. Fəqət gecə saat 1-də çap olunan bu elan, bittəbii [təbii ki], rayonlara saat 12-dən sonra çatacaq, əmələlərin əksəri tərəfindən bir dürlü anlaşılmayacaqdı. Çünki bir gün əvvəl nəşr olunan müfəssəl vərəqələrində tətildən bir kəlmə olsa da bəhs olunmamış, biləks [əksinə] məsələdən tamamilə başqa bir ruhla danışılmışdı.

Matəm günü gəldi. Səhər saat 6-dan bütün əmələ rayonları "xəbərdar" borusunu çalaraq mədənlər dayandı. Şəhərdə bir dənə olsa da açıq dükan yox, fayton, araba, hambal tapılmaz. Gəmilər matəm əlaməti olaraq bayraqlarını yarıya endirmiş, şəhərdə və mədənlərdə böyük bir sükut...

Məscidlərdə pəsməzar [yas] məclisləri...

Saat iki radələrində Təzəpir məscidinin həyəti cəmi-qəfir [qələbəlik] ilə dolmuş, Yasin, Fatihə, nitqlər, Matəm Tətil Komitəsinin bəyani-təziyəti [başsağlığı verməsi]!..

Xəşyətavər [lərzəyə salan] bir hal!..

Bilafərqi-millət və məzhəb [millət və məzhəb fərqi olmadan] şəhərlə mədənlərin bütün səkənəsi [sakinləri] matəm halında.

Zabastovka tarixi ilə aşna olanlar söyləyirlər ki, Bakı bu vaxta qədər böylə bir tətil görməmiş!.. Aşura günü belə bu dərəcədə keçməmişdir.

Hər zabastovkada az olsun, çox olsun işə şətəl [kələk, cığallıq] qatanlar daima görülmüşdür. Fəqət bu dəfə bilaixtilaf [mübahisəsiz] hər kəs vaqe olan dəvətə ləbbeyk [baş üstə] demiş, işindən əl çəkmişdi!

Aşura yalnız müsəlmanlara məxsus ikən, bu gün Azərbaycanın vətəni bir matəmi olduğundan bütün azərbaycanlılar matəm saxlamışlardı.

Bu günə mən matəm deyil, birlik günü deyəcəyəm.

Türk demokratiyası bu gün kəndi idarəsinin nə dərəcədə nafiz [nüfuzlu] və kəndi təşkilatının nə qədər müəssir [təsirli] olduğunu təcrübə edirdi. Təcrübə əliyyülələ [ən yüksək, ən ali] dərəcədə müvəffəqiyyətli çıxdı.

Görüldü ki, türk demokratiyası istər və ittihadla [birləşərək] bir məqsədə əzm edərsə, digər kəndisi ilə həmkar olan demokratiya dəxi onunla bərabər olar. Ayağının altını boş görən "Raboçi Konfrans" son saatda ağıla gəldisə, rus əmələlərindən bir çoxu rayonlarında daha iki gün əvvəl müsəlman yoldaşlarına gələrək onlarla bərabər tətil edəcəklərini bildirmişlərdi.

Tətil yalnız əzəməti, istisnasızlığı ilə deyil, intizam və asayişpərvərliyi ilə də təmayüz edirdi [seçilirdi]. Zabastovka texnikasını bilənlər böylə bir tətil keçirmək nüdrətən [nadir halda] mümkün olar, deyirlərdi. Bütün gün kimsəyə təərrüz [hücum, təcavüz] edilməmiş, cüzi də olsa bir hadisə çıxmamışdır!..

Tətil ideal bir şəkildə icra edilmişdi. Tətilin idrak və disiplin üzərinə icra edildiyi körpü hamballarının əsəri-həmiyyətləri kimi parlaq vəq'ələrlə isbat edilmişdir. Müstəcəl [təcili] bir yükün paroxoddan çıxarılması üçün körpülərdən birinin hamballarına 6000 rublə təklif olunduğu halda, onlar təklifi rədd eyləmiş, matəm tətil heyətinə müraciət eyləmələrini cavabən bildirmişlərdir.

Bugünkü tətil türk demokratiyasının, müsəlman camaatının nə dərəcədə təşkilat və intizam qabiliyyətinə malik olduğunu aşkar etmişdir. Bu qabiliyyəti tərbiyə edən, onu doğru və salim bir yola salan, həqiqi millət mənfəəti ilə çalışan siyasi firqələrimiz fəaliyyət və təşəbbüslərini artırar və hərəkətlərində ciddi olarlarsa, o zaman Azərbaycan paytaxtında, füqərayi-kasibə naminə işləyib də hərəkətlərində Azərbaycan ruh və məqsədi ilə uyuşa bilməyən təşkilat əhəmiyyət və mənasını qaib edər.

1919 sənəsi Mart matəmində xalqımızda görülən təşkilat istedadını hüsni-istifadə etmək, heç şübhəsiz ki, 1918 sənəsi Mart şühədasının [şəhidlərinin] ruhi-məzlumunu razı salacaq ən böyük mükafat, ən gözəl ehsandır!

Buna çalışalım!

1919-cu il Martın 31-i bizə birlik və ittihad üçün bir nümuneyi-imtisal [nümunə götürülməli misal] təşkil eyləsin!

*M. Ə. Rəsulzadə*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**Ukraynada**

Ukraynanın üçdən iki hissəsi bolşeviklər əlindədir.

Ukrayna komandanı Petlyura Odessada olan Fransa komandanlığı ilə müxabirədə bulunub [xəbərləşib], bolşeviklər əleyhinə mübarizədən ötrü kömək istəyir.

Beynəlmüttəfiqin Komisyon [Müttəfiqlərarası Komissiya] Petlyuraya verdiyi mütarikə şəraiti mövcibincə [atəşkəs şərtlərinə əsasən] Lemberq və neft rayonu polyaklar əlində qalır.

**Petroqradda**

Petroqradda hər növ yatalaq xəstəliyindən əlavə, çiçək xəstəlikləri hökmfərmadır [hökm sürməkdədir].

Xəstəxanalar dolub, ölüm gün-gündən artmaqdadır.

**Bolşevizm əleyhinə**

"Exo de Pari" qəzetəsi xəbər verir ki, Fransa ikinci firqəsi [diviziyası], bir neçə də Serbiya firqəsi və Romaniya ordusu lazım olduğu təqdirdə Macarıstana daxil olmağa hazırdırlar.

**Bolşeviklərin hərəkəti**

Zürixdən verilən teleqraflarda deyilir ki, polkovnik Georginin komandası altında, çox hissəsi Rusiyada hərbi əsir olan macar [və] bolqarlardan ibarət 70 min nəfərlik bolşevik ordusu Lemberqdən cənuba tərəf Dnestr nəhrini keçmişlərdir.

**MÜXTƏLİF XƏBƏRLƏR**

* Almaniya ticarət donanmasının gələcək müqəddəratı göstərilmədən Müttəfiq dövlətlərə veriləcəkdir.

* Almaniya matrosları qət etmişlər ki, gəmiləri Müttəfiqlərə verməsinlər.

* Berlin mətbuatı İtaliya kralının qətl edilməsini xəbər verir. İtaliyadan məlumat verilməməsi orada inqilab başlandığını təsdiq edir.

* Serbiya - Qaragerogiyeviç xanədanı xəl edilmişdir [hakimiyyətdən salınmışdır]. Cənubi Slav Cümhuriyyəti elan edilmişdir.

* Macarıstanda Şura Cümhuriyyəti təşkil edilmişdir.

* Qaliçədə üsyan qalxıb vəkillər şuraları [deputatlar sovetləri] təşkil edilmişdir.

* Macarıstan Xalq Komissarları Şurası Rusiya Şura Hökumətindən müavinət xahiş edir.

* İspaniyada həyəcan vardır. Saldatlar Barselonda olan sindikalistlərə qoşulmuşlar.

* Üç min fransız saldatı Odessada bolşeviklər tərəfə keçmişlər.

* Müttəfiqlər Odessadan çıxırlar. Şəhərdə iğtişaş gözlənir.

* Türkiyədə olan yunanilər Venizelosa bir qətnamə verib Troyan Hökumətinin tarixi sərhədləri ilə bərabər bərpa edilməsini tələb edirlər.

* İngiltərə qəzetələri Rusiya Şura Hökumətinin təsdiq edilməsindən narazıdırlar.

* Parisdə olan Rus Komitəsi, Şura Hökumətinin Ümumrusiya hökuməti kimi etiraf edilməsi [tanınması] əleyhinə protesto notası elan etmişdir. Həmin notanı [Georgi Yevgenyeviç] Lvov, [Sergey Dmitriyeviç] Sazonov, [Boris Viktoroviç] Savinkov imza etmişlərdir.

* İngiltərə Kabinəsində təbəddülat [dəyişiklik] olacaqdır. Kabinəyə zəhmətkeşlər daxil olacaqdır.

* İngiltərə qəzetələri İngiltərədə ərzaq az olduğunu göstərirlər.

* Sülh Konfransı Almaniyaya verilməkdən ötrü ciddi surətdə təzə tələbat aramaqdadır. İş müvəffəqiyyətli surətdə getməkdədir.

* Fransızlar Spartakizm sirayətindən qorxub Reyn dairəsini boşaldırlar.

* Puankarenin dediyinə görə, 1918-ci il oktyabr ayında fransızların 1.831.000 nəfər tələfatı olmuşdur.

* Amerika Hökuməti demokratik əsaslardan boyun qaçıran Kolçakın siyasətinə narazılığını izhar etmişdir.

* Don kazakları arasında pozğunluqdur. Kommunistlərin işi müvəffəqiyyətli bir surətdədir.





* Don ordusu komandanı general Sidorin “R. Q.” qəzetəsinin mühərriri ilə etdiyi müsahibə əsnasında demişdir ki, Don kazakları hər şeydən məhrum olub tif xəstəliyindən əziyyət çəkməkdədirlər. Bütün ümid könüllülərə və kubanlılaradır.

* Biçeraxov dəstəsi Batumda qalıb Kubana gedə bilmir.

* OSVAQ qəzetəsinin verdiyi məlumata görə, Gürcüstan Hökuməti bərşikəst [müflis] olmaq üzrədir. 600 milyona qədər bon buraxılmışdır.

* Gürcüstan Hökuməti Londanda əfkari-ümumiyyəni [ictimaiyyəti] hazırlatmaqdan ötrü büro təşkil etmişdir.

* İngiltərəlilər İranda Culfa-Təbriz-İskəndəriyyə (Ağ dəniz [Aralıq dənizi] sahili) dəmiryolu salmaq niyyətindədirlər.

* General Otoker izhar etmişdir ki, Qarsın müqəddəratı Sülh Konfransında həll ediləcəkdir.

* Trotski Qırmızı orduya verdiyi əmrində qanunsuz müsadirə, həbs, təcavüz və qarət edənlərin güllələnəcəyini bildirmişdir.

* Moskvada füqərayi-kasibə darülfünunu [proletar universiteti] açılır.

* Varşavada 50 min nəfər tif xəstəliyinə düçar olmuşdur.

* Direktoriya Vinnitsadan Ternopola qaçmışdır.

* Rostovda müəllimlərlə tələbələr əsgərliyə dəvət edilmişlərdir.

**AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT**

*(142-ci nömrədən mabəd)*

Həmən bu saydığımız xanlıqlar, hər birisi azadə, nəsilbənəsil hökumətlik edirdilər. Bilümum [ümumiyyətlə] bütün qanun qoyan, ədliyyə, məhkəmə və məmuriyyət, həm də parə çıxartmaq və xarici dövlətlər ilə olacaq əlaqə və münasibət büsbütün məzkur [deyilən] müstəqil xanların əllərində imiş. Hərgah bu xanlıqlar tarixin təbii qanunu üzrə getsəydilər və eyni zamanda təqazayi-zəmanəyə [zamanənin ehtiyaclarına] münasib öz şəkli-idarələrinə təğyir versəydilər [idarə şəkillərini dəyişdirsəydilər], şübhəsiz bu vaxtadək istiqlaliyyətlərini saxlardılar. Fəqət rus dövlətinin istibdad qılıncının zərbi istiqlaliyyətlərini pozmaqla onlara imkan vermədi.

Məruzəmdə bu xanlıqların hər birisinin ayrı-ayrıca istibdad və zülüm qılıncının zərbəsilə nə cürə payimal olduqları [ayaq altına düşdükləri, tapdalandıqları] əsla [qətiyyən] daxil olmayır, fəqət bununla bərabər Azərbaycan tarixinin qanlı səhifələrində yazılmış bir neçə qəmgin hadisələri bir ötəri də olsa, möhtərəm oxucuların nəzərində saxlamaq qəsdilə ana yurdum olan Gəncədə Azərbaycanın rəşid [rəşadətli], qəhrəman övladı, istiqlaliyyəti və azadəliyi yolunda necə bir hə-

vəs və şövq ilə canlarından keçmişlər, bəyan olunur.

Rus ordusunun baş komandanı olan knyaz Sisianov – ki ən birinci istibdadın və cahangirlik əməllərinin rəhnüması [yolgöstərəni, qabaqda gedəni] idi – böyük bir ordu ilə Qafqaziyada mövcud və müstəqil xanlıqların üzərlərinə kəskin qılıncı ilə hücuma keçmiş, istibdadın rövnəqi qəsdində olan bu baş komandan Tiflisdən çıxaraq Azərbaycan tərəfinə hərəkət eyləmiş və əvvəl dəfə yolu üstündə rast gəlmiş xanlıq Gəncə xanlığı imiş ki, bu xanlığın əsil yerli əhli qədim əyyamdan sırf Azərbaycan türkləri olub, sonradan bura Qacar tayfaları da gəlmişlərdir. Burada mən bu xanlığa dair əsasi və tarixi bir neçə məlumat zahir etmək niyyətindəyəm.

Qacar tayfası həman Cəlair türklərindəndir ki, Çingiz xanın nəvəsi Hülakü xan tərəfindən 200 min evə qədər İran məmləkətinə köçürülmüş, Teymurləng isə Qacar türklərindən 50 min evədək köçürdüb Qafqaziyanın İrəvan, Gəncə və Qarabağ mahalında sakin etdirmişdi. Bunların çoxusu hökumət məmurlarından olduqları üçün yenə bu torpaqlarda da məmuriyyətlərdə və idarələrdə olub məmləkəti idarə edirlərmiş. İrəvan və Gəncə xanları da həman nəsildən olmuşlar. Baxüsus Gəncə xanlarının cümləsindən olan Ziyadxanlar bütün Araz çayının Xudafərin körpüsündən tutmuş Şüləver kəndinədək, yəni Gürcüstanda mövcud Qırmızı Körpü adlı yerə qədər olan yerlərə hökmdar idilər. (Borçalı haqqında bunca tarixi, ədəbi və irqi və etnoqrafi rabitələr və sənədlər olduğu cəhətdən Azərbaycan Hökumətinin Borçalı xüsusundakı haqqını inkar etməyəcəyini zənn edirik və bu halda Borçalı qəzasında yaşayan bizimlə dincə, adətcə və lisanca bir olan türk qardaşlarımız da bu hala yad nəzərlə baxa bilməzlər.)

Nadir şah Muğanda İran səltənətinin taxtına sahib olmaq fikrində olduğu zamanda Gəncə xanları onun bu fikrinə zidd və əks getdilər. Bu üzdən Nadir şah Gəncə xanlarının yerlərini əksiltməklə hökumət ixtiyaratlarından zəifləşdirdi. Hal-hazırda İranda padşahlıq edən zatlar həman o Qacar nəslindəndirlər ki, Şah Abbasi-kəbir [Böyük Şah Abbas] tərəfindən onlar İranı nadinc Yəmut tayfasından mühafizə etməyə Astrabad ətrafında yerləşdirilmişdi.

İndi keçəlim 1804-cü sənədə yanvar ayının 3-də vaqe olmuş hadisəyə ki, Gəncə xanlığının paytaxtı olan Gəncənin ruslar tərəfindən hücumla götürülüb də dərhal cəbrən adını Yelizaveta imperatriçanın şərəfinə olaraq Yelizavetpol edilməsinə və bu hücumda vətəninin və namusi-milliyyəsinin müdafiə və mühafizəsinə qəhrəman Azərbaycan övladının rəşidanə bir surətdə canını fəda etməklə axıdılan qanlarla yazılmış tarixin səhifələrinə...

Gəncənin axırıncı müstəqil xanı olmuş Cavad xan Şahverdi xan oğlu Ziyadxanlı knyaz Sisianovun etdiyi nemət və mal təkliflərini nəzərə almayıb, ümum vətəndaşları ilə bərabər qəhrəmananə və rəşidanə bir surətdə xanlığın istiqlaliyyəti və hürriyyəti yolunda böyük ruh yüksəkliyi ilə müharibəyə girişmələri, doğrudan onların nə qədər əzmkar və nə qədər cəsur, həm də özlərinə istiqlaliyyətin müdafiəsi üçün verdikləri vətən-





daşlıq vəzifəsinin əhdlərinə vəfa etmələri və istiqlaliyyətlərini mümkün qədəri düşmənə baha qiymətlə təslim etməkləri, sadiq və sabitqədəm [möhkəm, sözündə duran] olduqları şayani-təhsindir [tərifə layiqdir]. Cavad xan və onun vətəndaşları birdəfəlik şərafətlə ölümü şərəfsiz dünyada zindəganlıq etməkdən [yaşamaqdan] – ki bu zindəganlıqda həmişəliklə namərdlik, vətəninə xainlik, qorxaqlıq kimi rəzil və alçaq sifətlərin və heç bir şeylə silinməz bu qədər ləkənin üstlərində baqi [əbədi] qalmasını düşünüb – canlarını vətənin yolunda fəda etməyi özlərinə bir gözəl vəzifə bildilər.

Cavad xanın və camaatın şərəfli bu iqdamı [addımı] gərək öylə bir parlaq və işıqlı ulduz kimi o yollara şəfəq və nur salsın ki, hansılar ilə onlardan sonra gələcək vətəninin və millətin səadətini dərincə düşünən qəhrəmanlar namussuz zindəganlığın və şərəfli ölümün bir-birilə qarşı-qarşıya gəldikdə əlbəttə özlərinə o qəhrəmanlar şərəfli ölümü seçəcəklər.

Gəncə qalasının mühasirəsi tamam bir ay müddəti çəkmiş, bilaxirə [axırda] bağlara yeriş edəndən sonra şəhər topa tutulmuş, Cavad xan isə qəhrəmananə bir surətdə müdafiədə davam etmiş, beş dəfə knyaz Sisianov qalanın təslimini təklif etmişsə, beş dəfəsində də faydasız çıxmış, axirüləmr [nəhayət] yanvar ayının 3-də 1804-cü sənədə hərbi şuranın qətnaməsinə görə hücum qət edilmiş, rus ordusu bir qaranlıq və boranlı gecədə fürsət tapıb qalanın divarlarına yaxınlaşıb sübh zamanı, yanvar ayının 3-də, Orucluq bayramının günü hücuma başlayıb şiddətli vuruşmadan sonra qalanın üç bürcü dalbadal alındı. İndiyə kimi Hacıqala adlı bürcün baqi [ayaqda] qalmış hissəsində, topun üstündə Cavad xan öz oğlu Hüseynqulu ağa ilə bərabər şəhadətə yetirilmişlər. Düşmən ordusunun hücumunu saxlamaq mümkün olmadığından Cavad xan əvvəlcə düşmən dəstəsinin qabaqdakı səfinin qarşısında qəhrəmananə bir surətdə cürət göstərib axırda şəhadətə yetirilmişdir. Bu halda şəhərin meydanlarında və küçələrində şiddətli vuruşma davası gedib və vuruşma günortadan sonraya kimi uzanıb axırda saldatlar Xan məscidini əhatə edib, orada və ətrafında olan beş yüz nəfər Gəncə qəhrəmanlarını qılıncdan və nizədən keçirdib şəhadətə yetirmişlərdir. Gəncə xanlığının baydaqları indiyə kimi Tiflisdəki hərbi əntiqxanəsində [muzeyində] durur. Əlbəttə, bu baydaqları əgər Gürcüstan hökumətindən xahiş etsək, zənn edirəm ki, gürcü qonşumuz da bizim keçmiş istiqlaliyyətimizin müqəddəs baydaqlarını Azərbaycana qaytarmaqla öz qonşuluq vəzifəsini yerinə yetirməkdə qüsur etməyəcəkdir. Sonra Cavad xanın dövləti qarət olundu. Tamam mülk-əmlakını istibdad hökuməti zəbt eylədi.

Vətəninin, millətinin, istiqlaliyyətinin yolunda canını fəda etmişlərin burada hesabını və sayını tutmaq bizə lazım deyil. Müsəlmanlar bir tək Araz və Kür çaylarının səmtlərində hürriyyət və azadlıqlar üçün əlləşməyiblər, lakin Qafqaziyanın qarlı, uca dağlarında da üz ağartmış və bu yolda unudulmaz böyük bir şöhrət qazanmışlardır. Əlbəttə, cümlə aləmin zehnindən və fikrindən çıxmayıb ki, Dağıstan dağlarının rəşid və vəqur [rəşadətli və vüqarlı] qızılquşu Şeyx Şamil

öz istiqlaliyyəti və sevgili yuvası üçün uzun bir müddətdə müdafiədə, müharibədə olmuş və axırda çarəsiz genə istibdad ayağı ilə tapdalanmışdır.

Knyaz Sisianov Gəncənin alınmasına böyük əhəmiyyət verirdi. Hətta öz rəsmi kağızlarında qeyd edir ki, Azərbaycanın kilidi və arxası mənziləsindən [yerində, mövqeyində] olan Gəncənin alınmasından sonra Hindistana asudə və azad hərəkət yolu açılır. Şübhəsiz cahangirlik və Rusiya istibdadlı padşahlığının yerləşdirilməsi və böyüməsi fikri və xəyalında qərq olmuş bir parə səfahətçilər, əlbəttə onların o şirin xəyalat aləmləri, Turandan ötüb ingilislərin əlindən Hindistanı çıxarmaq və onsuz da siyasət sıxıntısı altında əzilən hindulara rus jandarmalığının ləzzətini daddırmaq fikrindədirlər. Fəqət bu bədbəxt xəyalatçılar düşünüb bilməlidirlər ki, iyirminci əsrin inqilabi-kəbiri [böyük inqilabı] o ikibaşlı qara quşun heybətli qanadlarını qırıb qüvvədən salmışdır. Lakin qoy bu həqir xəyalpərəstlər bilsinlər ki, aya mümkün olacaqmı, o qırılmış qanadlar bir də özünü düzəldib təzədən Dunay çayından tutmuş Himalay dağlarına kimi uça bilməz.

Cahangirlər, əvvəla, öz ali məramlarının hüsulu üçün Hindistan kimi zəngin və böyük bir məmləkətin zəbti qəsdi ilə yolları üzərində rast gəlmiş müstəqil müsəlman səltənətlərini, xanlıqlarını tapdalamaq fikrinə daima düşmüşdülər.

Saniyən [ikincisi] də əsatir və mənqəbənin yaratmış olduğu bir xəyal üzərinə ki, guya bir vaxt knyaz Oleqin bayraq nəsb etmiş olduğu [bayraq asdığı, bayraq sancdığı] İstanbulu zəbt etmək fikrindədirlər. Müqərrər etdikləri [qərarlaşdırdıqları] məramnamə yüz illərlə icra edilməkdədir və bu hücumanə və qəsbkarlıq hərəkəti Azərbaycan və Xəzər dəryasından ötüb İrana, Turana, Türkiyəyə və Hindistanın qapısına da dayanmışdır.

İstibdadın qılıncı altında Gəncə dağıldı, həman Gəncə ki, böyük filosof və şairimiz olan Şeyx Nizaminin vətənidir. Hansı ki, yaşayırdı on ikinci əsrdə və əsərləri də "Xəmseyi-Nizami" adlanır. "Xəmsə" ərəbcə beşdən ibarətdir. Professor Veselovskinin yazdığına görə, böyük Yevropa şairi Şillerin "Turandot" adlı əsəri Şeyx Nizaminin "Həft peykər" adlı əsərindən götürülüb və onun üstündən yazılmışdır.

Şeyx Nizaminin "Leyli-Məcnun" adlı əsəri hələ bu çağacan nə Yevropada, nə də Şərqdə qiymətdən düşməyibdir.

Bir neçə vaxt bundan əqdəm [qabaq] İngiltərədə "Leyli-Məcnun"un tərcüməsi gözəl surətdə təb [çap] və nəşr olunub və el tərəfindən artıq dərəcədə bəyənilmişdir. "Leyli-Məcnun"un məzmunu məşhur cahan şairi Şekspirin "Romeo-Cülyetta" adlı əsəri ilə bir dərəcədə tutulur, hər iki əsərdə də iki məşhur aşiq olduğu görsənir. Hansılar ki, öz eşqlərinin nurlarını dörd bir tərəfə yayıb dağıdırlar.

Gəncə şəhəri yalnız Şeyx Nizamini ədəbiyyat aləminə çıxartmayıb, Nizamidən əlavə dəxi böyük bir üdəba və şüəra [ədiblər və şairlər] dəstəsi də meydana çıxartmışdır. Mətləbdən uzaqlaşmamaqdan ötrü onların bir neçəsinin adını çəkməklə kifayət edəcəyəm. Mən Gəncəli Məhsəti xanımın barəsində dayanıb bunu deyə bilərəm ki, bu xanımın şeirlərinin gözəlliyi və şirinliyi bütün ədiblərə məlum və özü də nəcib bir xanvadədəndir [ailədəndir]. Onun gözəl və dadlı kəlamları "Atəşkədə" adlı kitabda hazırdır.





[Məhsəti] xanımdan sonra mən Kəlbəli Ziyadxanlını qeyd edə bilərəm ki, "Müsahib" təxəllüsü ilə məşhurdur. Hansı ki, hökumət işlərini bitirməkdən savayı şeirə, ədəbiyyata da artıq dərəcədə şövqlü və həvəsli idi. Müsahibdən bir çox gözəl şeirlər və abdar [parlaq, mənalı] kəlamlar qalmışdır.

Bundan sonra Əbülüla Gəncəvini yaza bilərəm ki, "Üstadüşşüəra" [şairlər üstadı] ləqəbi ilə ləqəblənib və vaxtının ən böyük şairi idi. Xaqani Şirvani ilə Fələki Şirvani hər ikisi Əbülülanın şagirdi olub, dərsi ondan oxuyubdurlar.

Əbülüladan sonra növbət məşhur Mirzə Şəfi Gəncəviyə yetişir. Mirzə Şəfinin əsəri Yevropada dəfələrlə basılıb çapdan çıxmışdır. Mirzə Mehdi Naci ilə Mirzə İsmayıl Zəbih hər ikisi Gəncənin məşhur şairlərindəndir.

Şairləri yalnız Azərbaycanın kiçik bir nöqtəsi olan Gəncə yetirməyib, bizim ədəbiyyat və musiqi xəzinəmiz Qarabağ, Şirvan, Şəki və Bakı mahallarıdır. Bakılılar fəxr edə bilərlər ki, Azərbaycanın paytaxtı olan Bakının Əmirhacıyan adlı kəndində 1794-cü ildə böyük, əsil və nəcib bir xanvadədən [ailədən] Mirzə Məhəmməd xan oğlu Abbasqulu Ağa dünyaya gəlmişdir. Hansı ki, Azərbaycanımızın ən dərin bir fikir sahibləri ilə çiyin-çiyinə dura bilər.

Abbasqulu Ağa ərəbcə, farsca, türkcə söylədiyi şeirlərindən və tarixi əsərlərindən əlavə, bir çox elmi və fəlsəfəyə dair əsərlər yazıb qoymuşdur. Təəssüf olsun ki, mərhumun əsərləri bu çağacan təb [çap] olub çıxmayıbdır. Abbasqulu ağanın qohumlarından mərhum təbib Mustafa xan keçmişdə artıq bir şövq və həvəslə Abbasqulu Ağanın əsərlərini yığıb təb etdirmək istəyibdir. Heyif olsun ki, o biçarəyə də əcəldən macal olmadı ki, o əsərlərini meydana çıxardıb xalqı feyzləndirsin. İndi Abbasqulu Ağanın nəvəsi və Bakıxanov general Həsən ağanın qızı Reyhanət xanım həman əsərləri yığıb cəm etməyə şüru etmişdir [başlamışdır]. Tez bir zamanda biçiz [kasıb] müsəlman şagirdlərinin nəfinə [xeyrinə] təb və nəşr etdirəcəkdir.

Qəribədir ki, bizim paytaxtımızın ətrafında Seyid Abdal adlı dərviş var imiş, hansı ki, xeyli səxavətli və mehmannəvaz [qonaqpərvər] imiş. Həmin bu Seyid Abdal təqribən min il bundan qabaq Şubanıda bir nöyüt quyusu vurub onun mənfəətini tamamilə xeyir işlərə sərf edirmiş. Öz dolanacağına az bir cüzi hissə saxlayırmış. Amma biz zamanənin dəyişildiyindən, işləri də dəyişik görürük. Xeyir işlərə məhəl qoyan, bu barədə fikir eyləyən yoxdur. Kim bilir, bəlkə, bu müqəddəs dərviş Seyid Abdalın özü də indi sağ olsaydı, cəmlənib ürəyindəki gözəl, səxavətli hisslərini xəfələyib [ört-basdır edib] özünü də zamanənin burulğanına atacaqdı. Əlbəttə, Seyid Abdalın heç bir vədə yuxusuna da gəlməzdi ki, ondan doqquz əsr sonra onun dərviş qaydası ilə qazılmış quyusuna amerikan maşınları yeriyəcəkdir və onun quyusunun ətrafına dolanıb hərlənən uzunqulağın əvəzinə qüvvətli elektrik motorları qoyulacaqdır. Bizim paytaxtımızın ətrafında əski zamanda yenə məşhur ərzşünas [coğrafiyaşünas] imiş bakılı Əbdürrəşid, hansı ki, əsərlərindən nəfbərdar olurmuş Yevropa alimi Fren.

Mən burada Azərbaycanın bir parçası olan Şirvan mahalından zikr etmədən ötə bilməyəcəyəm. İnsafın, ədalətin hökmünə görə boynumuza almalıyıq ki, Şirvan mahalı şeir və ədəbiyyatda Azərbaycanın hər bir nöqtəsindən şöhrətli və rövnəqli imiş. Məgər Şirvan deyimliydi ki, doqquz əsr bundan qabaq bizə Xaqani, Fələki, Mövlana İzzəddin, Seyid Zülfüqar, Bədr və qeyrilərini yetişdirmiş. Şirvan hər bir elmin artmağına səy edib, hətta münəccimlər də yetiribdir. Yuxarıda adını zikr eylədiyimiz Fələki Şirvani öz vaxtının məşhur münəccimi imiş. Gərək Şirvan bizə fələklər ilə əlləşən Fələkilərdən başqa yerin, torpağın təbiətini bilən, zəlzələnin səbəbini düşünən ərzşünaslar [geoloqlar] da verəydi. Yəqindir ki, vaxtikən, cavan Azərbaycan Cümhuriyyətimiz zəlzələni qabaqca bilmək üçün lazım olan tədbirləri görüb Fələkilərin adlarına elmi-heyətə [astronomiyaya] dair binalar qurduracaqdır. Vaxtikən Şirvanda Hacı Zeynəlabdin Mirzə Nəsrullah Bahar – hansı ki, beş dildə şeir söylərmiş – məşhur idi. Mirzə Nəsrullahın şeirləri ərəbcə, farsca, türkcə, urduca, fransızcadır. Axır vaxtlarda da Mirzə Ələkbər Sabir dəxi məşhur idi.

Qarabağda ədəbiyyat aləminə xidmət edənlərdən Molla Pənah Vaqif, Qasım bəy Zakir, Abdulla bəy Asi, Mehdiqulu xan Vəfa, şairələrdən Fatı xanım Kəminə, Xurşidbanu bəyim Natəvan idi.

İrəvanda da Hacı Mirzə Ağası Fəxri şeirdə olduğu kimi, siyasət aləmində də məşhur idi ki, sədrəzəmliyi [baş vəzirliyi] dəxi dünyaya bəllidir. İrəvanda bir də Mirzə Əli Ləli öz kəlamları, məzhəkə şerləri ilə məşhur idi.

Naxçıvanda Hacı Əbdürrəhim Qüdsi, Mirzə Məhəmməd Tağı Sidqi məşhur idilər.

Şəki mahalında məşhur şairlər dəxi bunlardır: Məhəmmədhüseyn xan Müştaq, Ağa Ələsgər Qərra, Molla Qasım Zakir, Kərim Ağa Fateh, İsmayıl bəy Nakam, şairələrdən Mah xanım və Mahtaban xanım idi. Bir də bütün dünyada məşhur olan Azərbaycanın yeganə namdar oğlu, birinci təmsilatnəvis [komediya yazan] Mirzə Fətəli Axundzadə həzrətləri idi.

Əlyövm [indi] Azərbaycan Cümhuriyyətində və hali-həyatda olan [yaşayan] ədib və şairlərimiz bunlardır: Bakıda Məhəmməd Əmin Rəsulzadə, Mirzə Əbdülxaliq Cənnəti, Mirzə Əbdülxaliq Yusif, Gəncədə Mirzə Əli Məhəmmədzadə Nəzmi, Cavad Axundzadə, Şirvanda Məhəmməd Hadi Əbdülsəlimzadə, Qarabağda Əhməd bəy Ağayev, Firidun bəy Köçərli, İbrahim Tahir, Salyanda Əli bəy Hüseynzadə – bu pak vücud məşhurdur şairliyi ilə həm də filosof, müvərrix [tarixçi], rəssam, mühərrirdir [yazıçıdır]. Qazaxda məşhurdur Abbas ağa Nazir, Şəkidə məşhurdur dərin biliyi, ciddi və məzhəkə şeirləri ilə Salman Məhəmmədəmin oğlu Mümtaz, Naxçıvanda Hüseyn Cavid Rasizadə, Borçalıda Mirzə Abdulla Talıbzadə Şaiq.

*Adil xan Ziyadxan*

*(yenə var)*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Daxiliyyə nazirinin ordu ehtiyacatı üçün at almaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Məruzəni təsviblə [bəyənməklə] tapşırılsın ki, Daxiliyyə Nəzarətinə bu işdə lazım gələ biləcək müavinətdə bulunulsun.

* Daxiliyyə nazirinin Rəfiyev qardaşlarının Daxiliyyə Nəzarətinə verdikləri püxtə [pambıq] əvəzində, Tağıyev fabrikası mallarından verilmək barəsindəki təşəbbüsatına dair məruzəsindən sonra qət edilmişdir:

Rəfiyev qardaşlarının təşəbbüsatları rədd edilsin!

* Posta ve Teleqraf nazirinin bir yerdən başqa yerə təyin ediləcək xidmətçilərə gündəlik pul vermək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

İşbu məsələ Beynəddəvair Komisyonunda [İdarələrarası Komissiyada] həll edilənədək hökumət təhti-ixtiyarında olan 20 milyon fonddan hər Nəzarətə [Nazirliyə] verilmiş məbləğdən külfətlilərə yarım ayın məvacibi, bekarlara (subaylara) isə bir həftəlik məvacib verilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

### Məsai Nəzarətində [Əmək Nazirliyində]

* Bələdiyyə İdarəsi Məsai Nəzarətinə xəbər vermişdir ki, bələdiyyə xidmətçiləri ilə Bələdiyyə İdarəsi miyanındakı [arasındakı] ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün təşkil ediləcək komisyona Bələdiyyə İdarəsi tərəfindən Əhmədov, Şor və Kara-Murza təyin edilmişlər.

* Bələdiyyə Xidmətçiləri İttifaqı Məsai Nəzarətinə müraciətən xəbər vermişlər ki, Nəzarətin 29-undakı məktubu həman günkü iclasda müzakirə edilmişdir.

Tətil ayın 30-da saat 12 tamamdan başlanıb, Məsai Nəzarətinin müştərək müqavilənamə təcdidinə [kollektiv sazişin yenilənməsinə] dair verəcəyi dekretinədək davam edəcəkdir.

* Məsai Nəzarəti böylə bir qərardad elam [elan] etmişdir: Bununla bütün əhali və təşkilatlara və dövləti müəssisələrə elam edilir ki, 1917-ci sənənin 2 dekabrında Fəhlə Şurası tərəfindən qəbul edilmiş müqavilənameyi-müştərəkə təcdid edilmişdir [kollektiv saziş yenilənmişdir].

## DAĞISTAN ƏHVALI

### Çeçenistan Könüllülərdən təmizlənmişdir

Teymurxanşuradan teleqrafla xəbər verirlər ki, Çeçenistan Könüllü ordudan təmizlənib, Qroznı mühasirə edilmişdir.

### Denikin əleyhinə protesto

Teymurxanşuradan teleqrafla xəbər verirlər ki, böyük bir mitinqdə Azərbaycan, Gürcüstan Parlamanlarına və Müttəfiq komandanlığına müraciətlə dağıstanlıların nahaq yerə qanını tökən Denikinin hücumu əleyhinə protesto edilməsi təhti-qərara alınmışdır. Bundan əlavə, hürriyyət və azadlığı müdafiə ilə bir nəfər qalana qədər mübarizə etmək qət edilmişdir. Müharibə martın 26-dan baş-

lamış, Sunjen və Arqun – Urus-Martan xəttində davam edir.

**Rəsmi məlumat**

Dağıstan siyasi nümayəndəsi Kantemir elan etməkdən ötrü öz hökumətindən böylə bir məlumat almışdır:

Bu axır vaxt bir para qəzetələrdə Dağıstan Hökuməti və üzvləri haqqında müxtəlif xəbərlər dərc edilməkdədir. Bu xəbərlərin hamısı bilkülliyyə [tamamən] əsilsiz olmaqla bərabər, Dağıstan Hökumətini və xadimlərini nəzərdən salmaq üçün müəyyən qəsdlə yazılır. İrtica təzyiqi Dağıstan demokratiyasını [xalqını] dəxi də qüvvətli bir surətdə birləşdirməkdədir. Hökumət rəisi Kotsevin səfəri əsnasında hamı Dağıstan tayfaları böyük ictimalar [yığıncaqlar] tərtib verib, müttəhidülqövl [yekdilliklə] Dağıstanlılar İttifaqının istiqlaliyyətini etiraf etməyi [tanımağı] təsdiqlə bərabər, Dağıstan Hökumətini müdafiə edəcəklərinə and içib əməl də etməkdədirlər. Dağıstan Məclisi-Məbusanında nümayəndələri olmayan tayfalar öz nümayəndələrini intixab edib [seçib] Teymurxanşuraya göndərmişlərdir. Könüllü ordunun Kotyiyə etdiyi hücumu haqqında verilən məlumat ki, guya hökumətin təhrir və təsvibi [yazışması və təsdiqi] ilə olmuşdur, bilkülliyyə yalandır və müəyyən məqsədlə yazılmışdır. Həmçinin Qroznıda nəşr olan "Terski exo" qəzetəsində yazılan məlumat ki, guya general Mehmandarov 10 min nəfərlik bir müsəlman ordusu təşkil etmişdir və bu ordu hər bir zaman Könüllü orduya kömək etməyə hazırdır. Dağıstan millətləri və onun demokratiyası öz hökumətləri haqqında olan həqiqəti bilirlər. Bu uydurma xəbərlər hürriyyət düşmənlərinə kömək etməz.

**Dağıstan Hökumətinin Prjevalskiyə təklifi**

Bu günlərdə Teymurxanşuradan varid olan [gələn] bir şəxs xəbər verir ki, Dağıstan Hökuməti Prjevalskinin dəstəsinə təklif etmişdir ki, tezliklə Şamilqala (Petrovsk) şəhərini və ələlümum Dağıstan Cümhuriyyətini tərk etsin. Həman şəxsin dediyinə görə, Dağıstanda əməliyyatda bulunan Könüllü ordu dəstələri arasında intizamsızlıq və nifaq davam edir. Tersk oblast kazakları Lyaxovun tərzi-hərəkətindən və siyasətindən xeyli narazıdırlar. Rəvayətə görə, Lyaxov istefa verir. Saldatlar yüzlərlə ordunu tərk edirlər. Bu yaxınlarda 400 nəfərə qədər saldat xəbərsiz saldatlıqdan qaçmışdır. Qroznıda aclıqdır. Birinci zəruri şeylər artıq dərəcədə bahalaşmışdır. Dağıstan əhalisi əsgərlərinin ruhu xeyli yüksəkdir. Dağıstan təcavüzkar Könüllülərin tezliklə rədd edilməsini tələb edir. Tersk və Dağıstan oblastları əhalisi arasında məşhur olan inquş general Malsaqov Hərbiyyə naziri təyin edilmişdir. Çox güman var ki, Könüllü ordu əleyhinə hərəkət edən Dağıstan əsgərlərinin komandanlığı da məzkur [adı çəkilən] general Malsaqova həvalə olunsun.

**Könüllü ordunun hücumu**

Aldığımız məlumata görə, general Lyaxov təhti-komandasında [komandanlığı altında] olan Könüllü ordu Çeçenistanda Alxan-Yurt və Ustar-Qordoya rayonunda Dağıstan Hökuməti əleyhinə təzə hücuma başlamışdır.





**HÖKUMƏT İÇİNDƏ HÖKUMƏT**

Dünyanın ən böyük parazitləri, yəni müftəxorları bəzi məmləkətlərin, əzancümlə [o cümlədən] Rusiyanın istibdadla yaşamış hökmdarları idi. Ağıla müğayir [zidd], məntiqdən kənar bunların hər nə xahiş və arzuları olardısa, hamısı gərək filfövr [dərhal] əmələ gələydi. Hətta çocuqlarının da qeyri-təbii tələbatı rədd olunmazdı. Məmləkətin cəvahiratı, daşı, qaşı, malı, dövləti bunların ayaqları altında sel-su kimi axıb gedərdi. Bunların təcavüzatı müqabilində fironların, şəddadların hərəkatı heç bir şey deyildi. Kazak və jandarm ayaqları altında payimal olmuş [tapdalanmış] millət hüququna aid heç kəsin cürəti yox idi ki, bu ağalardan bir haqq və hesab istəsin. Böyləcə, başlıbaşına və keyfəmayəşa [özbaşınalıq] ilə ömür sürmək üçün rus hökmdarları sarsınmaz qalalar kimi özlərinə bəzi əşxasdan [şəxslərdən] istinadgahlar qərar vermişdilər. Bunlar əhalinin qanına yerikləyən generallar və minlərcə rüşvətxor məmurlar idi ki, adlarına "bürokratlar" deyirlər. İştə, istibdad taxt və tacının ən mütəəssib [təəssübkeş] mühafizəçiləri həmin bürokrat sinfi olduğundan naşi [olduğuna görə], rus hökuməti-müstəbidəsi əsrlərcə yaşaya bilmişdi. İstibdadla bürokratların müvazinəsi "saxla məni, saxlayım səni" idi. Çünki Rusiyanın hökuməti-müstəbidəsi meydandan qaldırılan günü bürokratiyanın da həman günü qiyaməti qopacaq idi. Bunu beş barmağını bilən kimi bürokratlar düşünürdülər. Odur ki, rus tacına bir balaca sədəmə [zərbə] dəyə biləcək ehtimalı ilə dəfətən [əlüstü] buna qarşı bir tədbir, bir çarə aranırdı. Odur ki, neçə il bundan irəli yəhudi və müsəlman kimi qeyri-rusların düşməni kəsilən purişkeviçlərin əli ilə "Rus Millətinin İttifaqı" adı ilə bir cəmiyyət düzəlmişdi. Cəmiyyətin əzası [üzvləri] üç şeyin bəqa [daimi olmasına] və davamına çalışmalı idilər. Bunlar: 1) Romanov nəslinin mütləqiyyəti; 2) Rus milliyyəti və 3) Ortodoks diyanəti [dindarlığı] idi.

Rusiyanın tamam [bütün] şəhər və qəsəbələrində birər şöbələr açaraq qeyri-rusların ə'mal [əməllərini] və hərəkatını nəzarət altına almışdılar. Cəmiyyətin böylə dargözlü bir məsləyinə müxalifət göstərən partiyaların ən böyüyü məşhur professor [Pavel Nikolayeviç] Milyukovun "Kadet" partiyası idi. Bu iki partiyanın arasındakı ədavət o qədər kəsbi-şiddət etmişdi [şiddətlənmişdi] ki, Purişkeviç Milyukova rast gəldiyi halda ənvai föhşiyyat [cürbəcür söyüşlər] ilə onu qarşılayırdı.

Rus inqilabi-kəbirinin seylabı [Böyük Rus inqilabının seli] hökuməti-müstəbidəni yuyub apardı. Purişkeviçlər qaçıb dağıldılar. Kadetlər – ki həmişə Rus İttifaqına ziddiyyət göstərirdilər – meydanı əğyardan xali [rəqibsiz] görüb ortalığa atıldılar. Təəccüb deyilmi ki, proqramları bir-birindən çox fərqli hər iki partiyanın məqsədi bir imiş?! Purişkeviç də rus millətinin milləti-hakimə olduğunu tələb edirdi. Milyukov da bunu indi də tələb edir. Hətta Milyukov sabiq Rusiya ilə kifayətlənməyib, rus hakimiyyətini İstanbuldan da bir az o yana aparmaq istəyir! Bəzi kütahbin [dargörüşlü] şəxslərin gözlərini pərdələmək üçün kadetlər ancaq adlarını dəyişmişlər. Farslar demişkən, "xər həmanəst çuləş digər". Çünki Purişkeviçin

müəssisəsinə "Rus Millətinin İttifaqı" denildiyi halda, Milyukovun da müəssisəsinə "Rus Milli Şurası" demişlər. Yəni "keçəl Həsən", "Həsən keçəl" olmuşdu. Proqramlarına diqqət olunsa, bu da həman köhnə proqramdır. Ancaq açıq-açığına mütləqiyyətə tərəfdar durmayırlarsa bu da "yoldaşları" ürkütməmək üçündür. Bunların ən böyük şüarı "Bölünməz və vahid Rusiyadır" ki, bir şöbəsi də Bakıda açılmışdır. Şöbənin ətrafina bir çox sabiq məmuriyyətlərini itirmiş köhnə bürokratlar cəm olmuşlar ki, yenə üstümüzdə ağalıq etmək üçün köhnə istibdadın dirilməyinə çalışırlar. Bunların bir çoxu bolşeviklər dövründə məmuriyyətlərindən qovulmuş, Bakı küçələrində avara və sərgərdan gəzənlər idi. Hətta rus zabitləri qorxudan zabitlik libasını çıxarıb, çin və medal kimi əlamətlərini də gizləmişdilər. Türklər Bakıya daxil olduqları günlərdən indiyə qədər bu rus avaralarından minlərcə Azərbaycan məmurluğuna qəbul olunmuşdur. Rus zabitlərinə hörmət və maddi müavinət də göstərildi. İngilis komandası şəhərə daxil olar-olmaz, dərhal Bakı kadetləri bir komitə tərtib verib tamam rus məmurlarını ətrafında topladı. Komitə üzvləri ölkəmizdə yaşamaqla bərabər Azərbaycan məmurluğunun qismi-əzəmini [çox hissəsini] əllərinə alaraq hökumətimizi də tanımaq istəmədilər. Hökumət içində bir xüsusi hökumət yaratdılar. Əvvəlcə polis işlərini öhdələrinə götürüb şəhərin ruslarına öz idarələrindən başburtlar [pasportlar] verdilər. İkincisi qoşun tədarükü üçün Biçeraxov və zərgər Amazasp kimi şəxsləri şəhərə dəvət edib dabravol [Könüllü ordu] işlərini bunlara həvalə etdilər. Saldatlar, matroslar və zabitlər şəhərin küçələrini doldurdular. Üçüncüsü, mühacir xaxolların müdafiəsini öhdələrinə götürdülər. Dördüncüsü, istədilər ki, xarici ticarəti əllərinə alsınlar. Odur ki, guya Rusiya nümayəndələri sifətilə mübadileyi-əmtəə [mal mübadiləsi] təklifində bulundular. Beşincisi, poçta-teleqraf vəzifələrini öz öhdələrinə götürüb bugünlərdəki qəzetələrdə əhaliyə elan etmişlər ki, Kuban və Don cəhətlərinə biri beş rublə ücrətlə məktublar qəbul edirlər. Müəssisə və bankların məktublarını ayda 200 rubləyə aparırlar.

İştə, Azərbaycan postasına daha ehtiyac qalmamışdır. İş bu minval ilə gedərsə, yəqin ki, sair hökumət vəzifələrinə də cürət edəcəklər. Bunların təhriki ilə rus məmurları zahirən Azərbaycana, batinən də denikinlərə xidmət edirlər. Məsələn, Azərbaycanın məvacibinə tutulmuş poçta-teleqraf məmurları bir vaxt özlərini dabravol siyahılarına yazdırmışlar! Bu nə nankorluqdur? Sabiq rus hökuməti dövründə müsəlman ziyalılarını ittihadi-islam [müsəlmanların birliyi] kimi təbii bir halət üstündə müttəhim etmiş [ittiham etmiş, günahlandırmış] hökumət poçta-teleqraf məmurlarının bu hərəkəti biz müsəlmanda aşkar olsaydı bizə nə gözlə baxardı?

Bu qədər xəyanətlərin önü tutulsun! Bu rolları kadetlər Tiflisdə də oynamaq istədilər, lakin gürcülər ciddi tədbirlərlə məsələnin üstünü açdılar. Qoy, bizim hökumət də gəmidə oturub gəmini deşənlərə macal verməsin. Bir qazanda iki şorba qaynamaz; ya məmləkət qanunlarına itaət, ya da məmləkətdən fərağət [əl çəkmək, uzaqlaşmaq]!





Bəzi sadəlövh rus məmurları kadetlərin hiylələrinə aldanırlar. Lakin hiyləçilər birdəfəlik bunu bilsinlər ki, daha müftəxorluğa ehtiyac qalmamışdır. Əhali ilə hökumət arasında qəyyum və vəkil kimi vəzifələrə ehtiyac yoxdur. Hər kəs öz dərdini öz dilində söylər, məhkəməsinə özü gedər və arzusunu bular.

*F. A.*

## MATƏM TƏTİLİ

Srağagün, martın 31-də Mart hadiseyi-əliməsinin səneyi-dövriyyəsi [faciəli Mart hadisəsinin ildönümü] münasibətilə Bakı şəhəri və ətrafı mədən dairəsi və həmçinin kəndi böyük matəm və əzaya qərq olaraq bir günlük tətil elan etmiş və həyatı tamamilə saxlamışdı. Tətil son dərəcə nizam və qayda ilə davam edirdi. Ramana, Suraxanı, Balaxanı və Çornı-qorodda [Qara şəhərdə] bəzi mədənlərin qeyri-müsəlman əmələləri dəxi tətilə iştirak etmişlərdi.

**Mədən dairələrində və kəndlərdə**

Çornı-qorod, Belı-qorodda [Ağ şəhərdə] tətil ümumən olub, məscidlərdə Quran xətm olunmuş və Piri əfəndi Mürsəlzadə Mart hadisatına dair məlumat vermişdir.

Tağıyevin fabrikasında ümum əmələlər tətil edib mitinq tərtib etmişlərdir. Mitinqdə Rza Zaki və Əbdülvahab [Məhəmmədzadə] məlumat vermişlərdir. Qafqaz və Merkuri körpüsündə və Çornı-qoroda qədər bütün körpülərdə ümum müsəlman əmələləri və hammalları tətil etmişlərdir. Krasnovodskdan gələn posta paroxodu yükünü boşaltmamış qayıtmağa məcbur olmuşdur. Hammallara hərçi [hər nə qədər] təklif etmişlərdir, onlar qəbul etməmişlər və demişlər ki, Tətil Komitəsi razı olmaz. Ticarət flotunun müsəlman əmələsi olan gəmilər əza nişanı olaraq yarım bayraq buraxıb hərəkətdən qalmışlardır.

Balaxanı kəndi və ətrafındakı mədənlərin əmələləri və kəndçiləri ümumən tətil edərək məscidə cəm olub şühədanın [şəhidlərin] ruhuna dua və Quran oxumuşlardır, camaata çay verilmişdir.

Ramana kəndində və ətraf mədənlərində əmələlər və kəndçilər ümumən tətil elan edib məscidə yığılmışlar. Quran oxunub, haziruna [gələnlərə, orada olanlara] çay və yemək verilmişdir.

Bibiheybətdə camaat, əmələ və kəndçilər məscidə və kazarmalara cəm olub Fatihə və Quran oxumuşlardır.

Zabrat kəndinin camaatı və ətraf mədənlərin müsəlman əmələləri ümumən tətil edib məscidə cəm olmuşlardır. Quran xətm olunduqdan sonra haziruna çay və xörək verilmişdir.

Lianozovda müsəlman əmələləri qudok vermək istəmişlərsə də bir erməni xidmətçisi razı olmamış, nəhayət müsəlmanlar qalib gəlib də qudok (fit) verib əmələləri işdən çıxarmışlardır.

Kaspiyskdə əmələlər kazarmaya cəm olub Quran oxumuş və ehsan vermişlərdir.

Əmirhacıyanda kəndçilər və əmələlər məscidə cəm olub Quran oxumuşlardır. Binəqədidə tətil ümumi olub Səlimov kazarmalarına və "Narodnı dom"a ["Xalq evi"nə] cəm olub Quran xətm olunduqdan sonra ehsan verilmişdir. Şəhərdən getmiş olan natiqlər Mart hadisatına

dair məlumat vermişlərdir.

Suraxanıda tətil ümumi olub əmələ və kəndçilər "Narodnı dom" və məsciddə Quran xətm etdikdən sonra qəbiristana gedib şühədanın qəbirlərinə Fatihə oxumuşlardır. "Narodnı dom"da vaqe olmuş [baş tutan] mitinqdə qərardad edilmişdir ki, hökumətdən və Sovet Syezddən emalatxanalara müsəlman şagirdlərinin qəbul olması tələb edilsin.

Ələlümum mədənlərdə tətil ümumi olub, bəzi yerlərdə ancaq qeyri-müsəlman əmələləri işləmişlərdir.

**Şəhərdə**

Şəhərdə bütün məscidlərdə cüz qoyulub Quran oxunmuş və çox məscidlərdə ehsan olaraq çay və yemək verilmişdir.

Məscidlərdə saat 2-yə qədər cüz oxunub, ondan sonra hər məhəllədən nümayəndə gəlib Təzəpir məscidində ümumi dua oxunmuş və həyətdə mitinq tərtib edilmişdir.

İttifaqi-Mütəallimin [Tələbələr İttifaqı] tərəfindən Birinci Realnı məktəbində məclis tərtib edilmiş, Fatihə oxunaraq nitqlər irad olunmuşdur [söylənmişdir]. Həmin məclisə müftü və şeyxülislam həzrətləri dəxi təşrif gətirmişlərdir.

Məhəmməd Əmin [Rəsulzadə] əfəndi məhəllə şöbə nümayəndələrindən bəziləri ilə avtomobildə bütün məscid və təkyələri gəzərək "Müsavat" komitəsi tərəfindən bəyani-təziyət edirdi [başsağlığı verirdi].

İngiltərə komandanlığı tərəfindən bu günə təyin edilmiş olan donanma manevrası Daxiliyyə nazirinin təklifinə görə, təntənəli surətdə olmayıb, ancaq səthi bir surətdə dənizin uzaq içərisində icra edilmişdir.

Matəm tətilinə görə dünən "Azərbaycan" rus və türk və "Zarya" qəzetəsi çıxmamışdır.

**Sair şəhərlərdə**

Mərkəzi Tətil Komitəsi və "Müsavat" firqəsi naminə Gəncə, Şişə [Şuşa], Qazax və Bərdədən bir çox teleqraflar gəlib məzkur [adı çəkilən] şəhərlərdə dəxi ümumi tətil davam etdiyi və camaatın məscidlərə cəm olub dua və Quran xətm edildiyi bildirilmişdir.

**Təzəpirdə**

Saat 11-dən başlamış Təzəpir həyəti dolmaqda idi. Komitənin elan etmiş olduğu vəqti-müəyyənədə [müəyyən edilmiş vaxtda] minlərcə arvad-kişi cəm olduğu halda hər məscid və təkyənin adamları öz axundları başda olmaq üzrə dəstə-dəstə gəlməyə başladılar. O böyük həyət tam mənası ilə dolmuşdu. Məscidin qabağında məşixətpənah [Şeyxülislamlıq İdarəsinin dayağı] müftü və şeyxülislam həzrətləri, Parlaman sədri doktor [Həsən bəy] Ağayev, yeni Rəisi-vükəla [Baş nazir] Yusifbəyli Nəsib bəy, "Müsavat" rəisi Rəsulzadə Məhəmməd Əmin bəy, "İttihad" rəisi Qarabəyov Qara bəy, sosialist nümayəndələrindən Əhməd Cövdət bəy [Pepinov] və sair yoldaşları və bir çox Parlaman əzası [üzvü], rus fraksiyasından [Mixail] Vinoqradov, lehlərdən [polyaklardan] mühəndis Pekarski və sair nümayəndələr oturmuşlardı.

Vəqti-müəyyənədə Tətil Komitəsi namından [adından] Abbasqulu Kazımzadə iclası açır.





Birinci olaraq şeyxülislam həzrətləri nitqə başlayaraq bütün insanlar qardaş, hamının atası Adəm, anası Həvva olduğunu və bu surətlə hamının qardaşcasına yaşaması lazım gəldiyini bəyanla, mütəəssifanə [təəssüflə] övladi-bəşərin hələ bunu anlamamış olduğunu və bu üzdən qardaşlıq əvəzinə ədavət törətdiyini qeydlə camaatı sülh, müsalimət [əmin-amanlıq] və qardaşlığa dəvət edir və nəhayət Mart facieyi-əliməsi [kədərli Mart faciəsi] qurbanlarının ruhuna Fatihə oxuyaraq sağ qalanları hümmət və qeyrətlə hürriyyət və istiqlalımızı müdafiə və mühafizəyə dəvət etdilər.

Bədəhu [sonra], Rəsulzadə Məhəmməd Əmin əfəndi, Mart hadisəsinin siyasi cəhətindən bəhslə, bu davada düşmənlərin bütün Azərbaycan fikrini, Azərbaycan istiqlalı fikrinə xidmət edənləri tələf etməyə çalışdıqlarını qeydlə, sübut olaraq Azərbaycanın siyasi və ictimai camesi olan "İsmailiyyə" xarabasını və dini camesi və düşman toplarından "yaralanmış" olan Təzəpir məscidini şahid gətirərək deyir ki, madam ki, bu faciələrin həpsi Azərbaycan fikri, Azərbaycan istiqlalı və azərilər hürriyyəti ətrafında oynanmışdır, şimdi biz o faciənin qurbanı olan şühədamızla bərabər dağıdılmış vətənimizə həyat, qovulmuş millətimizə istiqlal bayrağı vermiş Osmanlı türk qəhrəmanlarını yad etməli, onların ruhu müqabilində [qarşısında] təzim və səcdə edərək onları salamlamalı, rəhmət oxumalı və bunca qanlar bahasına mal olmuş [başa gəlmiş] hürriyyət və istiqlalımızı müdafiə edəcəyimizə söz verməliyiz.

Bundan sonra Qara bəy [Qarabəyov] nitqə başlayaraq Mart məğlubiyyətimizin siyasi cəhətini tənvirlə [siyasi tərəfini işıqlandıraraq] camaatı ittihad və ittifaqa dəvət edir və hazirunu bundan böylə hamımız birləşib hürriyyət və istiqlalımızı bir təni-vahid [vahid bir bədən] kimi mühafizə və müdafiəyə çağırır.

Dördüncü olaraq Əhməd Cövdət [Pepinov] əfəndi bu faciənin də, bütün Cahan müharibəsinin səbəbini ancaq iş başında duran sərvətlilər mübarizəsi olduğunu bəyanla, millətlər arasında heç bir ədavət olmadığını və bundan dolayı bu vaxtadək axıdılan qanların hədər və nahaqlığını isbata çalışaraq deyir ki, bu gün biz söz verməliyiz ki, hürriyyət və istiqlal yolunda nə qədər fədakarlıq və qurban vermək lazım gəlsə, bir an geri durmayacağız, fəqət indiyədək axıdılan hədər qanların axmasına daha razı olmayacaq və böylə nahaq qurban verməyəcəyiz.

Bədəhu [sonra], Hacı Məhəmməd əfəndi çıxaraq bu matəm günündə bütün Qusar mahalındakı dağlarda yaşayan ayağı çarıqlı qardaşlarımızın qəm və qüssəmizə şərik olduqlarını bəyanla, onlar tərəfindən vəkalətən bəyani-təziyət edir və şəhidlərə rəhmət oxuyur.

Bunlardan sonra, mühərrirlərimizdən Xəlil İbrahim əfəndi qızğın bir nitqində Mart faciəsinin bir tərəf müsəlləh [silahlı], digəri qeyri-müsəlləh olaraq, bir tərəfin o birinin arvad-uşaq və ixtiyarlarını [qocalarını] qırması üzrə bir mübarizə deyil, bir qital [qırğın] olduğunu göstərərək deyir ki, bu gün o məzlum şəhidlərin ruhu qarşısında və yaralı müqəddəs Təzəpir hüzurunda biz ağlamamalı və protesto etməməlidir. Zira, ağlamaqdan bir şey hasil olsaydı həmişə ağlamaqda olan millətimiz cahana hakim olardı. Protesto

da millətimizə yaraşmaz, çünki burası zəif və acizlərə məxsus bir sifətdir. Biz bu gün ağlamamalı, protesto etməməli və ancaq əhd və peyman etməliyiz ki, şəhidlərimizin fəda olduqları hürriyyət və istiqlal fikrinə xidmətlə gözəl Azərbaycanımızın bayrağını uca saxlayacaq və bundan sonra bu bayrağa əl atılmasına imkan verməyərək son nəfəsimizədək onu müdafiə və mühafizə edəcəyiz.

Nəhayət, proqram xaricində lehlər [polyaklar] nümayəndəsinə söz verilir. Bu əfəndi 31 Mart hadisəsini 1830 tarixində polyakların başına gəlmiş faciə ilə müqayisə edərək polyakların bu faciəni hamıdan ziyadə anladıqlarını bəyanla, polyak zəhmətkeşləri namından izhari-təziyət edir.

Nəhayət, Abbasqulu Kazımzadə hərarətli və uzun bir nitq söyləyərək, kişilərdən ziyadə arvadlara üzünü tutaraq milli ruhda uşaqlar böyütməyə və beşikdə ikən uşaqlarına "qızıl gülə batasan" əvəzinə "qəhrəman əsgər olasan", "vətənə qurban olasan", "milləti mühafizə edəsən" deyə laylay çalmağa dəvət edir.

Nəhayət fitvapənah [fitva vermək səlahiyyətinə sahib olan] müftü həzrətləri çıxaraq, hürriyyətin nədən ibarət olduğunu və bu hürriyyəti necə saxlamaq lazım gəldiyini Qurani-şərifin ayəsi və Peyğəmbəri-zişanımızın [şanı uca Peyğəmbərimizin] həyatı təcrübəsilə sübut edərək, şəhidlərin ruhuna Fatihə oxumaqla nitqinə xitam verir.

Saat 3-ün yarısında Kazımzadə Tətil Komitəsi namından iclası qurtarmış elan edir.

B. T.: İclas açılarkən axund Yasini-şərif oxuyur.

**Gəncədə**

Gəncədən idarəmizə böylə teleqraflar gəlmişdir:

"Müsavat" firqəsinin təşəbbüsü ilə Gəncədə 31 Mart faciəsi münasibətilə təziyə mərasimi bərpa edildi. O gün məktəblər, hökumət idarələri, dükanlar və bütün kəsbkarlar ittifaqları [həmkarlar ittifaqları] tətil etdilər. Məscidi-camedə bütün cəmiyyət, firqə və ittifaqlar nümayəndələrinin iştirakı ilə bu hadiseyi-əlimə qurbanlarının ruhuna Fatihə verildi. 31 Mart faciəsi xüsusunda əhaliyə məlumat verildi.

*Şöbə sədri: Məşhədi Əli Rəfiyev*

———

31 Mart faciəsi münasibətilə Gəncədə Sənətkarlar İttifaqı təziyə mərasimi bərpa etdi. Bütün Gəncə sənətkarları dükanları bağlayıb tətil etdilər. Şah Abbas məscidində qurbanların ruhuna Fatihə oxundu.

*Sənətkarlar İttifaqının sədri:*
*Məşhədi Yusif Qazıxanov*

**MƏTBUAT**

18-31 Mart facieyi-əliməsi münasibətilə "Nabat" qəzetəsi baş məqaləsində bu davanın nədən ibarət olduğunu təhlilə qalxışaraq yazır ki:

*"Eser və bolşevik qəzetələrində oxuyuruq ki, bu müdhiş qital [qırğın] inqilab ilə bəy-xan əks-inqilabının mübarizəsi idi.*

*Sosial-demokratlar mətbuatı Mart günlərini ermənilərlə müsəlmanların milli ədavətinin şiddətli bir nümayişi idi.*

*Fəqət biz Mart hadisatını inqilabçıların əks-inqilaba qarşı müharibəsi kimi görənlərin də rəyinə bilaqeydü-şərt [qeydsiz-şərtsiz] şərik ola bilməyiriz, bu müharibəni iki millətin bir-birini qırdırması kimi görənlərin də...*

*Doğrudan da əgər burası əks-inqilab ilə mübarizə idisə, nə üçün uşaqları süngü ilə deşikləyib qapıya mıxlayırdılar? Nə üçün silahsız hammalları, arvadları və uşaqları müsəlləh [silahlı] saldatlar ilə evə doldurub evi odlayırdılar? Əgər bu dava iki millət arasında vaqe olmuş bir milli dava idisə, nə üçün bu müdhiş qırğında müsəlləh və müntəzəm qoşun iştirak edirdi? Həm də qırğını sakit etmək üçün deyil, bir tərəfə kömək edirdi.*

*Aşkardır ki, burada iki amil var idi. Hadisatın əsası, müntəzəm inqilabçı qoşunun baş qaldırmış əks-inqilab qarşısına mütəşəkkil xürucu idi. Fəqət ələlədə bunlara inqilabla heç əlaqəsi olmayan ünsürlər dəxi qoşuldular. Bu ünsürlər mütəəssib [təəssübkeş] millətçilərdir ki, o biri millətə qarşı kor-koranə ədavət hissinə alışmışlardır. Həman bu ünsürlər Mart hadisəsinə milli ədavət rəngi verərək, tərəfi-müqabilin [qarşı tərəfin] müntəzəm, müsəlləh qüvvəsini deyil, o biri millətin silahsız, pənahsız camaatını qırırlardı."*

Təəccübdür ki, bunca böyük tarixi bir günü Bakının sair qəzetələri sükutla keçdilər. Xüsusən, müsəlman sosialistlərinin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] "Zarya" üçün sanki bu gün heç yox imiş!

**BAKI XƏBƏRLƏRİ**

**Bələdiyyə İdarəsində məktəblər üçün məsai bürosu təşkili**

Martın 31-də Bələdiyyə İdarəsi mülkündə Valideyn Şurası iniqad etmişdi [yığışmışdı]. İclasda edadi məkatibin [edadi məktəblərin] axırıncı sinifləri şagirdanı [şagirdləri] üçün məsai [əmək] bürosu təşkili haqqında müzakirat olmuşdu. Mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra qət edilmişdir ki, xüsusi bir heyəti-rüəsa [rəyasət heyəti] təşkil edilsin, həman məsai bürosu işlərini aparsın. Büro həftədə üç dəfə - seşənbə [çərşənbə axşamı], pəncşənbə [cümə axşamı] və şənbə günləri saat 5-dən 12-nin yarısına qədər Bələdiyyə İdarəsi mülkündə olub, iş axtaran şagirdanı qəbul edəcəkdir. Həman büro aprelin 5-dən etibarən fəaliyyətə başlayacaqdır.

**Məkatib doktorları şöbəsi**

Martın 31-də Bələdiyyə İdarəsi mülkündə məkatib doktorları [məktəb doktorları] şöbəsi təşkili müzakirəsi üçün doktorların iclası dəvət edilmişdi. Fəqət beş nəfər həkim isbati-vücud [iştirak] etdiyindən, iclas aprelin 2-sinə təyin edilmişdir.

**Məkatib üçün qənd**

Mərkəzi Valideyn Şurası Ərzaq Nəzarətinə müraciətən [müraciət edərək] məlum etmişlər ki, axır vaxtlarda məkatibdən [məktəblərdən] alınan məlumata görə, Ərzaq Nəzarəti qənd buraxmadığından, məkatib bufetləri qapanmağa məcbur olmuşdur. Mərkəzi Valideyn Şurası Nəzarətdən [Nazirlikdən] rica etmişdir ki, bir çox füqəra sinfinə mənsub çocuqlar evlərində belə layiqincə yemədiklərindən naşi [yemədiklərinə görə] səhhətləri xələldar olmaqdadır [pozulmaqdadır]. Binaənileyh [buna görə], onlara heç olmazsa mək-

təbdə bir qədər yemək vermək üçün qənd buraxılsın.

**Tətilin qət edilməsi**

Məsai Nəzarətinin bələdiyyə xidmətçilərinə göndərdiyi əlaqəsinə görə, martın 30-da qərara alınmış tətil xidmətçilər tərəfindən qət edilmişdir [kəsilmişdir].

## VALİDEYN ŞURASI MƏRKƏZİ KOMİTƏSİ NÜMAYƏNDƏLƏRİ MAARİF NAZİRİ HÜZURUNDA

Edadi məktəblərin Mərkəzi Valideyn Şurası sədri A. İ. Şpitalski və müavini-sədr Kulikov Maarif naziri Nəsib bəy Yusifbəyli həzrətlərinə müraciətlə Novruz bayramı tətilinin ixtisarını və cümə günü bayramının ancaq milliləşmiş siniflərdə saxlanmasını xahiş etmişlərdir. Nazir həzrətləri cavabında göstərmişdir ki, Novruz bayramını ancaq üç gün tətil etdirmək istəmişdir. Fəqət il ortasında miladi-Məsih [İsanın doğulması] və pasxa bayramlarında 28 gün şagirdlərin istirahətə adət etdikləri, bu il isə ancaq 6-7 gün (Məsih bayramı 3, pasxa 4 gün), bundan əlavə mütəəllimlərin [şagirdlərin] şəraiti-həyatiyyələri [həyat şəraiti, yaşayışı] ağır olduğu nəzərə alınaraq mütəəllimlərə istirahət üçün uzun vaxt verilmişdir ki, dərs ili axırına qədər qüvvə cəm etməyə müqtədir olsunlar. Valideynlər Şurası sədri Şpitalski demişdir ki, bu il dərslər onsuz da gec başlanmışdır və dərs ili axırına az vaxt qalmışdır. Buna cavab olaraq nazir həzrətləri buyurmuşlar ki: Novruz bayramı münasibətilə 11 gün tətil edilməsi haqqında verdiyi binagüzarlığı [sərəncamı] ləğv etməz, lakin, hərgah, dərs ilinin axırına qədər dərs məramnaməsinin [proqramının] qurtarması aşkar olsa və Müəllimlər Şurası ilə Valideynlər Şurası dərs ilinin iki həftə, hətta mayın 15-dən sonra bir ay uzadılmasını lazım görsə, şiddətli isti olmaz isə nazir tərəfindən buna mümaniət [maneçilik] yoxdur.

Bazar günü tətili münasibətinə gəldikdə, nazir həzrətləri cavab vermişdir ki, Bakı şəhərinin hamı edadi məktəbləri iki qruppaya təqsim edilmişdir [bölünmüşdür]: biri milliləşmiş, digəri isə xristian və qeyri millətlər üçün. Cümə gününün hökumət tətili olmasından sərf-nəzər, nazir həzrətləri milliləşməsi lazım gəlməyən məktəblərdə, həmçinin xüsusi və şəhər məktəblərində cümə günü əvəzinə bazar gününün tətil edilməsinə icazə vermişdir. Milliləşmiş məktəblərdə isə, əlbəttə ki, cümə günü tətil edilməlidir.

Mərkəzi Şura sədri Şpitalski demişdir ki, milliləşəcək məktəblər hələ milliləşməmişlərdir. Çünki bu tövr məktəblərin ancaq hələ ki, əlifba şöbələri milliləşmişdir. Bəzilərində isə heç milli siniflər yoxdur. Bu tövr milliləşməmiş məktəblərdə və 2, 3, 10 faizdən artıq müsəlman şagirdi olan məktəblərdə rus adatını [adət-ənənələrini] saxlamaq lazımdır.

Nazir həzrətləri cavab vermişdir ki, buna yol verməz. Bundan əlavə, milliləşməsini qərara aldığı məktəbləri ki, hal-hazırda milliləşmişlərdir, qapaya da bilərdi. Bu ilki dərs ilində də rus adətləri məsələsi qalxmazdı. Lakin mütəəllimlərin həman məktəblərdə ikmali-təhsil etmələri [təhsilini başa vurmaları] mənafeyini nəzərə alaraq bunu icra etməmişdir.

## ƏRZAQ İŞLƏRİ

* Ərzaq Nəzarəti vəkili Balaxanı, Sabunçu polismeysterinə müraciətlə xahiş edir, bütün Bakı qradonaçalstvo kəndlərinə xəbər versin ki, məzkur [adı çəkilən] kəndlər əhalisi arasında paylanmaqdan ötrü Ərzaq Nəzarəti tərəfindən Kəndçilər İttifaqına birinci zəruri şeylər buraxılmışdır. Hər bir kənd göstərilən şeyləri almaqdan ötrü bilavasitə Ərzaq Nəzarətində Kəndçilər İttifaqına müraciət edə bilər ("Natsional" mehmanxanasında 33 nömrəli otaq).

* Ərzaq Nəzarəti vəkili Gəncə vəkilinə teleqraf edir ki, un, düyü, səbzə, çay və arpa hazırdır. Bunları təhvil almağa kimi təyin edəcəyinizi və nə miqdarda istəyəcəyinizi xəbər veriniz.

* Ərzaq Nəzarəti Gəncə quberniyasındakı vəkilə xəbər verir ki, Musayev ərzaq nazirinin əmrinə görə Göyçay uyezdinə vəkil təyin edilmişdir.

* Ərzaq Nəzarəti Şuşa, Zəngəzur, Cavad və Cəbrayıl uyezdləri general-qubernatoruna xəbər verir ki, Cəbrayıl qəza qaimməqamının [qəza rəisinin] yazdığına görə, Ərzaq Nəzarəti tərəfindən Cəbrayıl uyezdi əhalisi arasında paylanmaqdan ötrü Miralayev ixtiyarına buraxılan bezin yarısı – 15 min arşın Cəbrayıl uyezdi əhalisi arasında arşını 5 manat 25 qəpikdən paylanmışdır. Bu barədə təhqiqatda bulunmağınızın nəticəsini xəbər verməyiniz rica olunur.

* Ərzaq Nəzarəti Zaqatala quberniyasında olan vəkilinə xəbər verir ki, Zaqatala qubernatorunun məktubuna və teleqrafına görə, Ərzaq naziri Zaqatala və Qax ərzaq anbarlarından borc olaraq İlisu və Sarıbaş kəndləri əhalisi arasında paylanmaqdan ötrü 3225 put taxıl verilməsinə icazə vermişdir (1622 put buğda, 1213 put arpa). Bu şərtlə ki, gələn ilki məhsuldan bu taxıl qaytarılsın.

* Ərzaq Nəzarəti Bakıda olan İran konsuluna xəbər verir ki, Ərzaq Nəzarətinin martın 27-də konsulxanaya yazdığı 815 nömrəli məktub bisərəncam buraxılsın. Çünki, İran taciri Hacı Məhəmmədtağı Rzayev Ərzaq Nəzarətinə gəlmiş və onun həcz [müsadirə] edilən çayının hər bir sənədi vardır.

* Ərzaq Nəzarəti Ziraət nazirinə müraciətlə xəbər verir ki, Ərzaq Nəzarəti, ehtiyacı olan kənd əhalisinə bostan toxumları və taxıl vermək niyyətindədir. Buna görə nə miqdarda toxum lazım olduğunu xəbər verməyi xahiş edir. Bundan əlavə, bu toxumları əhali arasında təqsim etməkdən [paylamaqdan] ötrü Ziraət Nəzarətinin aqronom təşkilatı bu işi öz öhdəsinə götürə biləcəyi haqqında məlumat verilməsi rica olunur.

* Ərzaq Nəzarəti Ümuri-Nafiə və Xeyriyyə [Sosial Təminat] nazirinə xəbər verir ki, iaşə məntəqələrinə və darüleytamlara [yetimxanalara] birinci zəruri şeylər

verilməsi üçün böylə bir qayda qoyulması arzu olunur:

Mərkəzi Ev Komitəsi məzkur [adı çəkilən] müəssisələrə buraxılması lazım gələn şeylərin istidasını [xahişini, tələbini] lazımi məlumatla Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə göndərsin. Ərzaq Nəzarəti də bu tələbat üzrə lazım gələn şeyləri buraxsın. Bu barədə Mərkəzi Ev Komitəsini xəbərdar etməyiniz xahiş olunur.

## TEATRO VƏ MUSİQİ

Bu gün, aprel ayının 2-si axşam Hökumət Teatrosunda Hacıbəyli Qardaşları müdiriyyətinin mahir artisti komik Əbülhəsən Anaplı ilə Qafqaziya rəqsləri oynamaqla şöhrət qazanmış Səlim xanın şərəfinə olaraq məşhur "O olmasın bu olsun" operettası mövqeyi-tamaşaya qoyulacaqdır. Bu dəfə də Əbülhəsən Anaplı indiyə qədər hər dəfə gözəlcəsinə ifa etdiyi hammal rolunu oynayacaqdır. Bundan əlavə, Əbülhəsən, Məşədi İbadın toy məclisində "U kamina" nəğməsini oxumaqla bərabər gürcü kintosu libasında "Azərbaycan" kupletləri söyləyəcəkdir. Səlim xan "Mozdok" rəqsi oynayacaqdır. Teatro tamaşaçıları öz sevgili artistləri Əbülhəsənə olan məhəbbətlərini teatroya gəlməklə isbat edəcəklərdir. Tamaşa axşam saat 8-in yarısında başlanacaqdır. Biletlər teatrın kassasında satılmaqdadır.

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Doktor Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*7515*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Elan**

Təxminən fevral ayının əvaxirində [axırlarında] mən evdə olmadığım halda Həsən bəy namına [adına], kəndimə məxsus tarımı bir gecəlik adıyla aparıblar və şimdiyədək qaytarılmayıb. Həman tara ehtiyacım olduğu üçün aparan və apartdıran şəxsdən xahiş edirəm ki, məzkur [deyilən] tara daha artıq ehtiyacı yoxdursa, iadə etsin [qaytarsın].

*Zülfüqar bəy Hacıbəyli*
*T-82*

**İran Maarif Cəmiyyətinə**

Üzv olmaq arzusunda bulunan zəvat [şəxslər] hər gün "İttihad" məktəbində Hacı müəllim cənablarına müraciət edə bilərlər.

*Heyəti-mütəşəbbisə [Təşəbbüs heyəti]*
*5777*

**Bakıda Xırda Mədənçilər və Neftçilər Cəmiyyəti İdarəsi**

Bununla xırda mədənçilərə elan edir ki, qulluqçulara və fəhlələrə mart məvacibini almaqdan ötrü tabellər yazıb versinlər ki, onlar Hökumət Bankından məvaciblərini alsınlar. Tabellərin verilmək vaxtı aprelin 1-dən 5-inə qədərdir.

*Ünvan: Olginski küçə, nömrə 5, 3-cü mərtəbə.*
*5772*

**Elan**

Gəncə quberniyası Ərzaq Nəzarəti məsulu tərəfindən:

Qoşun və camaatdan ötrü buğda, arpa, düyü, krupa [yarma], lobu, noxud, saman, ot, xırda-böyük 4 ayaqlı heyvanlar, inək yağı və quyruq yağı lazımdır. Bu yuxarıda zikr olunan şeyləri satmaq istəyənlərdən xahiş edirəm kağız vasitəsi ilə bu ünvana müraciət etsinlər: Gəncə, Gəncə quberniyası Ərzaq Nəzarəti məsulu. Şeylərin qədərini və qiymətini dəxi əlavə etməlidir.

*Gəncə Quberniyası Ərzaq Nəzarəti məsulu: A. Brilinski*
*T-76*

**Maliyyə naziri dəftərxanası tərəfindən**

Maliyyə Nəzarəti bununla elan edir ki, bu yaxınlarda təzə yüz (100) manatlıqlar çıxacaq. Pulların surəti nə tövr olacağı bu günlərdə ayrıca elan ediləcəkdir.

**Operetta və Şərqi müsamirə**

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar və Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti
Çaharşənbə günü aprelin 2-sində
Müdiriyyətin artisti Anaplı
və rəqqas Səlim xanın
şərəfinə (benefisinə)
mövqeyi-tamaşaya qoyulacaq
Üzeyir bəyin operettası
**O olmasın bu olsun**
Gecə saat 3-də Şərqi müsamirə
Tamaşa başlanacaq
axşam saat 8-in yarısında
Biletlər teatrın kasasında satılmaqdadır

*T-81*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

səh. 1. "İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 1 rəcəbül-mürəccəb sənə 1337. 2 aprel 1919 sənə.": 1919-cu ilin aprel nömrələrində, qəzetin tarixinin miladi təqvimlə göstərildiyi yerdə, sadəcə bu nömrədə "aprel", qalan nömrələrdə "nisan" yazılmışdır.

**Balıq**

səh. 1. "Bank balığı": indiki Neftçala rayonunun Bankə qəsəbəsi nəzərdə tutulur.

"N. Hacıyev": qəzetdə səhvən "N. Qazıyev" kimi getmişdir.

"Aleksandro-Nevski pasaj": Bakıda, Səbail rayonu ərazisində mövcud olmuş Pasaj bazarının könhə adı. 2013-cü ildə sökülmüşdür.

"M. Hacıyev": qəzetdə səhvən "M. Qazıyev" kimi getmişdir.

**Müraciətnamə**

səh. 2. "…türklərin istilasından sonra öz yerlərinə qayıdan…": burada "istila" sözü dövrün şərtləri daxilində düzgün qiymətləndirilməlidir.

**Teleqraf xəbərləri**

səh. 5. "Lemberq": Lvov şəhərinin köhnə adı.

"Exo de Pari" [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet.

**Müxtəlif xəbərlər**

səh. 6. "Qarageorgiyeviç xanədanı": 1903-1941-ci illərdə Serbiyada və Yuqoslaviya Krallığında hakimiyyətdə olmuş kral sülaləsi.

"sindikalistlər": XIX əsrin sonu – XX əsrin əvvəllərində fəhlə hərəkatında ortaya çıxan sindikalizm cərəyanına görə fəhlələr, sənaye müəssisələri və sahələri konfederasiyalarda yaxud sindikatlarda birləşməli idilər.

səh. 7. "OSVAQ" (Osvedomitelnoye Aqentstvo: Məlumat Agentliyi): Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun və Cənubi Rusiya Silahlı Qüvvələrinin məlumat və propaqanda orqanı olmuşdur.

**Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat**

səh. 8. "Astrabad": İranın şimalında bugünkü Gürgan (yaxud Qorqan) şəhərinin keçmiş adı.

"Yelizaveta imperatriça": Rusiya imperatoru I Aleksandrın arvadı Yelizaveta Alekseyevna nəzərdə tutulur.

səh. 10. "mənqəbə": məşhur adamların həyatından bəhs edən hekayələr.

"…knyaz Oleqin bayraq nəsb etmiş olduğu…": söhbət Kiyev knyazı Oleqdən (Oleq Veşiy) gedir.

"Turandot": Fridrix Şillerin italyan dramaturqu Karlo Qozzinin eyniadlı pyesi əsasında yazdığı pyes. "Turandot" fars dilində "Turanduxt" (Turan qızı) sözündən təhrif edilmişdir.

səh. 11. "Atəşkədə": Lütfəli bəy Azərin (1722-1781) "Atəşkədə" ("Atəşkədeyi-Azər") adlı təzkirəsi (bioqrafik antologiya) nəzərdə tutulur.

"Mirzə Şəfi Gəncəvi": XIX əsrdə yaşamış Azərbaycan şairi Mirzə Şəfi Vazeh nəzərdə tutulur.

"Abbasqulu Ağa": söhbət Abbasqulu Ağa Bakıxanovdan gedir.

"Seyid Abdal": Azərbaycanın ilk sufilərindən biri olaraq qəbul edilən Seyid Əbu Səid Abdal Bakuvi (təxm. X əsr) nəzərdə tutulur.

"bakılı Əbdürrəşid": XV əsrdə yaşamış Azərbaycan alimi Əbdürrəşid Bakuvi nəzərdə tutulur.

səh. 12. "Hacı Əbdürrəhim Qüdsi": XIX əsr Azərbaycan şairi Qüdsi Vənəndi nəzərdə tutulur.





"Cavad Axundzadə": şair Əhməd Cavad nəzərdə tutulur.

"İbrahim Tahir": Qarabağlı şair İbrahim Tahir Musayev nəzərdə tutulur.

**Hökumət içində hökumət**

səh. 15. "Şəddad": əfsanəyə görə, zalımlığıyla məşhur olan hökmdarlardan birinin adı.

"purişkeviçlərin": Rus Xalqının İttifaqı adlı qaragüruhçu monarxist təşkilatın liderlərindən biri olan Vladimir Purişkeviç nəzərdə tutulur.

səh. 16. "Rus Millətinin İttifaqı": Rusiyada 1905-1917-ci illərdə fəaliyyət göstərən qaragüruhçu monarxist təşkilat Rus Xalqının İttifaqı (Soyuz russkoqo naroda) nəzərdə tutulur.

"Kadet partiyası": Konstitusion-Demokratik Partiya; XX əsrin əvvəllərində Rusiyada fəaliyyət göstərmiş siyasi partiya. 1905-ci ildə qurulan partiya, 1917-ci ilin axırlarında bolşeviklər tərəfindən qadağan edildikdən sonra da bir müddət gizli olaraq öz fəaliyyətini davam etdirmiş, Ağqvardiyaçılar hərəkatını müdafiə etmişdir.

"xər həmanəst çuləs digər": eşşək həmənkidir, çulu başqadır.

"zərgər Amazasp": Daşnaksutyun partiyasının liderlərindən, erməni qatil və terrorist Hamazasp Srvandzyan nəzərdə tutulur.

səh. 17. "F. A.": bu imza Fərhad Ağazadəyə məxsusdur.

**Matəm tətili**

səh. 17. "Mart hadiseyi-əliməsinin səneyi-dövriyyəsi": qəzetdə "səneyi-dövriyyəsi" yerinə "səneyi-davamiyyəsi" getmişdir.

"Lianozovda…": erməni əsilli neft sənayeçisi Stepan Lianozovun mədənləri nəzərdə tutulur.

"Kaspiyskdə…": erməni əsilli Qukasovlar tərəfindən əsası qoyulan "Kaspiyskoye tovarişestvo" adlı neft şirkətinin mədənləri və zavodları nəzərdə tutulur.

səh. 18. "Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası. Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı. Bakı neft sənayeçilərinin Birinci Qurultayı neft sənayesinin ehtiyac və problemlərini müzakirə etmək məqsədi ilə 26 oktyabr – 7 noyabr 1884-cü ildə Bakıda keçirilmiş, neft sənayesini maraqlandıran müxtəlif məsələlər Qurultayın gündəminə salınmışdır. İkinci Qurultayda (15 mart – 9 aprel 1885) Qurultayın rəhbər orqanı olan Şura seçilmiş və Konstantin İretski Şuranın sədri olmuşdur. Ən iri neft şirkətlərinin nümayəndələrindən təşkil olunan Şura, hökumət qarşısında neft sənayeçilərinin maraqlarını müdafiə edir, qurultaylarda qəbul edilən qərarları həyata keçirir, eləcə də Qurultaya hesabat verirdi.

"cüz": "Quran"ın bölündüyü 30 hissədən hər birinə cüz deyilir.

səh. 20. "1830 tarixində polyakların başına gəlmiş faciə": 1830-cu ilin noyabr ayında rus hakimiyyətinə qarşı başlayan üsyan nəzərdə tutulur.

"B. T.": "bə'dəttəhrir", yazdıqdan sonra; P. S.

**Bakı xəbərləri**

səh. 21. "edadi": edadi məktəbləri təhsildə universitetdən əvvəlki mərhələyə məxsus məktəblər idi.

**Ərzaq işləri**

səh. 23. "…Zaqatala və Qax ərzaq anbarlarından…": qəzetdə "Qax" yerinə "Qazax" getmişdir.

**Teatro və musiqi**

səh. 24. "U kamina": "Kaminin yanında"; burada söhbət, 1910-cu illərdə çox populyar olan rus romansından gedir. "U kamina" romansının musiqisi bəstəkar və pianoçu Yakov Priqojiyə, sözləri isə yazıçı və şair Sergey Qarinə məxsusdur.

"kinto": Gürcüstanda xırda alverlə (əsasən meyvə-tərəvəz satırdılar) məşğul olan

adam. Kinto obrazı bir çox gürcü nağılında, xalq mahnsında, eləcə də kinofilmlərdə şən, hərəkətli, iti ağıllı, asan ünsiyyət quran adamlar kimi canlandırılır.





**Cümə axşamı, 3 aprel 1919-cu il, nömrə 149**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 2 rəcəbül-mürəccəb sənə 1337. 3 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## ELAN

1919 sənəsi aprel ayının 3-ündə pəncşənbə [cümə axşamı] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

## BALIQ

Balıq Ticarət Cəmiyyəti “Bank” bununla Bakı və dairəsi əhalisinə elan edir ki, cəmiyyət tərəfindən balıq satan dükanlara tazə Bank balığı satılmaqdan ötrü girvənkəsi aşağıdaki qiymət üzrə təqsim olunub [paylanıb]:

Sevryuqa [uzunburun] – 5 rublə, osyotr [nərə balığı] təzə – 5 rublə 25 qəpik, sazan [çəki balığı] – 2 rublə, boçka ikrası [çəlləkdə kürü] – 50 rublə, meşok ikrası [torbada kürü] – 55 rublə, bankada 1 girvənkəlik – 45 rublə, ikra zernisti [dənəvər kürü] – 40 rublə.

**Aşağıdaki dükanlarda:**

1) A. N. Saruxanov – Sisyanovski küçə, Lalayevin evində;

2) L. M. Qriqoryans – Telefonnı küçə, Səfərəliyevin pasajında;

3) Arsen Babayev – Sisyanovski küçə, Krasilnikovun evində;

4) S. Avakimov – Stanislavski və Balaxanski küçələrin küncündə, nömrə 63;

5) Artyom Babayev – Sisyanovki küçə, Krasilnikovun evində;

6) S. K. Mnasakanov – Telefonnı küçədə, Səfərəliyevin pasajında;

7) D. İ. Arutyunov – Sisyanovski küçə, Lalayevin evində;

8) N. Hacıyev – Çelyayevski küçə, Aleksandro-Nevski pasaj;

9) Y. Y. Yeqiazarov – Kolyubakinski və Sisyanovski küçələrin küncündə;

10) Y. Kasparov – Telefonnı küçə, Voskanovun evində, nömrə 3.

11) A. Kasparov – Naberejni balıqçı dükanları, sklad [anbar] nömrə 2;

12) M. Hacıyev – Çelyayevski küçə, Aleksandro-Nevski pasaj.

Bundan əlavə, “Bank” cəmiyyəti skladında, Naberejni balıq satan dükanlar cərgəsində (sklad nömrə 5) dəxi satılacaqdır.

Sevryuqa və osyotr bir dənədən az, 2 dənədən artıq satılmayacaq.

*5778*

## ZAQATALA MƏSƏLƏSİ

Zaqatala məsələsi getdikcə ciddiyyət kəsb etdiyindən [ciddiləşdiyindən], hökumətimiz tərəfindən böyük və xüsusi bir diqqət cəlbinə lüzum hiss edilir.

Azərbaycanın ayrılmaz bir cüzü hesab olunan bu ölkəyə qonşumuz Gürcüstan çoxdan bəridir ki, tamah gözünü dikib, bu yerlərdən istifadə etmək arzusu ilə bir taqım məxfi və ələni [gizli və açıq] hərəkətlər icrasından heç də çəkinməyir. Bir neçə vaxt bundan irəli "Qruziya" qəzetəsinin bu ölkəni mənimsəmək qəsdi ilə yazmış olduğu məqalələri oxucularımızın xatirində olsa gərəkdir ki, həman qəzetənin bu rəftarı "Azərbaycan" qəzetələrini mübahisəyə girişməyə məcbur etdi. İndi də Zaqatala məbusu Kiçikxanov cənablarının teleqraflarından anlaşıldığı üzrə, gürcü əsgəri məmurları Zaqatala daxilinə girib də Gürcüstan mənfəətinə olmaq üzrə bəzi-bəzi təbliğat və təşviqatda bulunub, Zaqatala əhalisini iğfal etməktədirlər [yoldan çıxarmaqdadırlar].

Bu vəqə [hadisə] iki həqiqəti isbat edən bir keyfiyyətdir. Bu həqiqətlərin ikisi də mövcibi-təəssüf [təəssüfə layiq] olub, ikisinə acınmamaq olmaz. Bu əsəfamiz [təəssüflü] həqiqətlərin biri budur ki, gürcü qonşularımız Zaqatalaya qarşı təərrüzkaranə [təcavüzkar] hərəkətlərinə davam etməktədirlər. İkinci həqiqət dəxi budur ki, Azərbaycan Hökumətinin Zaqatala ölkəsindəki idarəsi olduqca zəif və boş bir haldadır. Böylə hal ki, gürcü məmurlarının oralarda təbliğat və təşviqat hiyləsi ilə yapılan hərəkətlərinə mane olacaq qədər qüvvət və müqaviməti yoxdur. Ona görə, əgər Zaqatala idarəmiz böylə zəif bir halda qalarsa, gürcü qonşularımız təbii bundan istifadə edib də bilaxirə [axırda] qolaylıqla öz arzularına müvəffəq olarlar.

Gürcüləri Zaqatalaya tərəf həvəsləndirən və tamahlarını artıran nədir?

Gürcülər Gürcüstanın Zaqatala ilə mərbutiyyətini [bağlılığını] tarixi dəlillərlə isbata çalışırlar. Bizcə iş tarix üstündə deyildir. Təbii sərvətlərə malik olan Zaqatala ölkəsi, Gürcüstan üçün bir növ zəxirə [taxıl] və ərzaq anbarıdır. Yavanlıq taxıl, ipək, tütün və meyvəcatı ilə məşhur olan Zaqatala, Gürcüstana böyük əndazədə ərzaq buraxmaqla, gürcü qonşularımızı bu yerlərə cəlb edir.

Böylə olan surətdə madam ki, bu ölkə ərzaq və zəxirə mənbəyidir və bir surətdə ki, buranın əhalisi biz azəri türkləri ilə din və milliyyətcə qardaş və həmcinsdirlər və bir halda ki, biz də və Zaqatala əhalisi də buraları Azərbaycan torpağının cüz'i-layənfəki [ayrılmaz parçası] ədd [hesab] etməktədirlər, onda bizim borcumuz budur ki, Zaqatala ölkəsini bir tərəfdən gürcü təərrüzlərindən [hücumlarından] qorumaq və digər tərəfdən, Azərbaycan mərkəzinə o qədər mərbut etmək [bağlamaq] ki, bu ölkə məmləkətimizin hər bir surətdə təbii olaraq layənfək [ayrılmaz] bir cüzü mahiyyətini haiz olsun [daşısın].

Bunun üzrə, əvvəla gürcü qonşularımızın Zaqatalaya aid "aqressif" denilən təərrüzkaranə hərəkatına bir xitam vermək üçün ciddi tədabir ittixazına [tədbirlər görməyə] girişməli. İkinci olaraq, Zaqatala idarəsi işini lüzumu dərəcəsində möhkəmlətməlidir.

Hökumətimizin Zaqatalaya yeni qubernator göndərdiyi məlumumuzdur. Lakin bu iş, zənnimizcə, bu növ ilə möhkəm ola bilər ki, Zaqatala ölkəsi dəxi Qarabağ kimi xüsusi bir general-qubernator təhti-idarəsinə [idarəsi altına] verilib, məhəlli [yerli] islahata dair, hər bir məsələnin həlli general-qubernatorun yədi-ixtiyarında [əlində] olsun. General-qubernator və onun əli altında olan ümum polis məmurları, bəzi-bəzi məhəlli şəraitə görə hələlik müvəqqəti olaraq yerli əhalidən deyil, başqa yerin adamlarından təyin edilsin. General-qubernatorun birinci vəzifəsi ölkənin hər bir cəhətdən əmnüasayişinə [əmin-amanlıq və asayişinə] var qüvvətilə çalışmaq olmalıdır. Öylə olarsa, Zaqatala əhalisi quldur, qaçaq, əyri, oğrulardan və sərbəst gəzən qatillərdən bugünkü kimi şikayət etməyə daha səbəb görməz. Can və mallarının hökumət tərəfindən kamali-diqqət və ciddiyyətlə qorunduğunu müşahidə edənlərin, təbiidir ki, qəlblərində hökumətə qarşı etibar və etimad əmələ gələr ki, bu da əhalini mərkəzə mərbut edər və sağa-sola göz dikmək və "o yaxşıdır, bu yaxşıdır" demək məcburiyyəti aradan götürülər. Bədəhu [sonra] əmin-amanlıq və asayişi təmin edilməkdə olan əhalinin məişət və güzəranına göz yetirməlidir ki, mümkün olduqca mürəffəhülhal [rifah halında] dolanmağa imkanları olsun. Zaqatala təbii sərvətlərə malik olduğuna görə, bu xüsusda hökumət çox iş görə bilər. Böylə iş ki, ondan həmi yerli əhali, həmi Azərbaycanın sair yerləri və həm də hökumət xəzinəsi bir çox mənfəət görər.

Zaqatalada əmələ gələn şeylərin başlıcaları bunlardır: taxıl, arpa, buğda və peyğəmbəri-qardalı, düyü, ot, meyvəcat – hər növ və ən əlası (firəng cinsindən); ipək, yun və bunlardan toxunan şeylər; tütün və tənbəki; heyvanat: mal-qara, at, quş, yumurta; yavanlıq: yağ, penir və sairə. Zaqatala əhalisi, bu məhsulatın ehtiyacati-beytiyyə [ev ehtiyacı] sərfinə lazım olan qədərindən yerdə qalan fəzləsini Gürcüstan ilə Dağıstana satmağa adət etdiklərindən, aralarında bu iki ölkə ilə iqtisadi əlaqə və mərbutiyyət [bağlılıq] hasil edilmişdir. Deməli, bu fəzlə məhsulatın alıcısı hökumət özü olarsa, o halda maddi mənfəətdən başqa, siyasi mənfəət dəxi əmələ gəlib, iqtisad cəhətincə biganələrlə [yadlarla] əlaqəyə ehtiyac qalmaz.

Zaqatala əhalisinin iqtisad və ticarət işlərinə, baxüsus [xüsusilə] bu halda tezliklə xüsusi diqqət yetirmək lazımdır ki, bu ölkədən hasil olan satılıq mal öz əlimizə keçməklə, əvvəla yerli əhalinin ticarəti və iqtisadi əmrləri [işləri] müşkülata düçar olmasın və saniyən [ikinci olaraq] biganələr istifadəsinə məhəl [yer; imkan] qalmayıb, hər bir əlaqə hökumət mərkəzinə tərəf dönsün. Və bir də Zaqataladan hasil edilən şeylərin hamısına Azərbaycan əhalisinin ehtiyacı vardır. Öylə olduğu surətdə, məsələn, nədən ötrü Zaqatala tütün və tənbəki[si]nin müştərisi gürcü olsun ki, sonra biz də həman tütünü ikinci əldən olmaq üzrə gürcülərdən alaq? Həmçinin ipək, meyvəcat və sairə.

Əlqərəz, Zaqatala ölkəsinə xüsusi bir diqqət yetirib həmcins və həmdinlərimizlə məskun olan bu zəngin ölkəni özümüzə mümkün dərəcədə sıxı olaraq mərbut etmək lazımdır. Vəilla [yoxsa], buranın nə idarə işinə və nə iqtisadi məsələlərinə qulaq asmayıb da, işi zaqatalalıların yalnız bir hissiyyat və təəssübü iqtizaatına

[zərurətlərinə] həvalə edərsək, məişət və güzəran tələbatı həman iqtizaata qalib gəlib, nəticədə qeyri-məmul [arzu edilməyən] hadisələr zühuru qarşısında qalarıq ki, töhməti də bizə aid olar.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrələrdən mabəd)*

**Şəfi bəy [Rüstəmbəyli]** - Rusiya qanunu ilə vergilər qoyularkən bir ümumi idarə yox idi ki, şikayətlər o idarəyə edilsinlər. Bir növ şikayətlər var idi, onlara sud [məhkəmə] baxırdı. Bir növü də var idi, polis administrasiya baxırdı. Padşahlığa aid böyük şikayətlər yenə layihə tərzində əvvəlincidən mümtaz [seçilmiş; imtiyazlı] və mütəşəkkil heyətə həvalə olunardı. Bu üç idarə təşkilatlarının başında müdir olardı. Üçüncü heyət, vilayət naçalniki və qeyri qubernski idarələr əzaları [digər quberniya idarələri üzvləri] işlərinə baxardı. Harada ki, axırıncı şikayətlərə baxılırdı, iştə bu idarə olmadığına görə Maliyyə naziri təklif edir ki, öz nəzdində öylə bir idarə təşkil etsin ki, onun şurası olsun, bu şurada dövləti şikayətlərə baxılsın. Bu işi özü yalnız ixtiyarına götürməyir, gərək vergiçilər də bu məclisə iştirak etsinlər, məhkəmə üzvləri də. Adi məsələlər müzakirəyə qoyulduqda dəftərxana müdiri və maliyyə şurasının üzvləri də dəvət olunsun. Bu ali məhəlli idarəyə vergiçilərdən beş adam gəlməlidir. Bunlardan ikisi Gəncə və Bakı şəhər idarələrindən, bir nəfər Sovet Syezddən və biri də Ticarət və Sənaye İttifaqı idarəsindən, bir də Birja Komitəsindən. Deməli beş üzv də bu surətlə daxil olacaqdır. Yeni təşkil ediləcək idarə haqqında Maliyyə naziri Parlamana böylə bir layiheyi-qanuniyyə [qanun layihəsi] təklif edir. *(Oxuyur)* Bu layihə Ləvayehi-qanuniyyə [Qanun layihələri] komitəsində baxılıb bu surətlə təshih edildi: indiyə qədər böylə idarə yox idi, şimdi isə açılıb sözü gərək əlavə edilsin və bir də bu idarə rəisi əvəzinə üzvü yazılsın. İştə bu iki təshihi Ləvayehi-qanuniyyə [Qanun layihələri] komitəsi təklif və layihənin qəbulunu xahiş edir.

**Heybətqulu [Məhəmmədbəyov]** (İttihad) - Qanun layihəsində denilir ki, məclisə iştirak edəcək tacirlər ittifaqından, fəqət yalnız Bakı Tacirlər İttifaqından yazılıbdır. Azərbaycanın qeyri şəhərlərində bu ittifaq yoxmudur? Əlbət var. Onun üçün bu düz gəlməyir. Yalnız Bakı Tacirlər İttifaqından gələcək nümayəndə öz mühiti ticarətindən xəbərdardır. O, öz mühitini müdafiə edə bilər. Özgə yerlərin ticarətindən xəbərdar olmadığı üçün onların haqqını müdafiə edə bilməz. Məsələn, Şəkidə alış-veriş başqadır. İpək və sairə alış-verişi vardır. Bakıda olan şeylər orada yoxdur. İştə, böyləliklə qanun layihəsi düz gəlmir. Ola bilər Gəncədə, Salyanda komitet olsun.

**Aslan bəy Qardaşov** - Qanun layihəsindən görünür o beş adam ki, şuraya daxil olacaqdır, gərək intixab təriqi [seçki yolu] ilə olsun. Bakıdan və Gəncədən bu üzvlər ümumiyyətlə seçilir vergi vericilər tərəfindən, fəqət bunlar yalnız Bakıda və Gəncədə olmayıb, Azərbaycanın hər tərəfində, Qarabağ və sair yerlərində çox olduğuna görə, onların mənafeyini bu layihə ilə itiririk. İzahnamədən görünür ki, hər zemstvoya [yerli özünüidarə qurumuna] oxşayan bir təşkilatdan nümayəndə olacaqmış, amma hal-hazırda böylə idarə yalnız Bakıda və Gəncədə mövcud olmayıb, Zaqatala, Nuxa və qeyri şəhərlərdə zemstvo idarələrinə oxşar şəhər idarələri mövcuddur. Bu adamlar, o idarələr vasitəsilə seçilərək daxil ola bilərlər. Əks halda digər mühitlərdən vergi verənlər tərəfindən adam olmamazlıq – haqlarına təcavüz deməkdir.

**[Heybətqulu] Məhəmmədbəyov** (İttihad) - Keçən natiq buyurdu ki, guya göstərilən təshih keçən layihələrdən ötrü idi...

**Sədr** *(dayandırır)* - Xeyr, xeyr elə demədi. Ali dairələrdən əlavə alçaq dairələr də var.

**[Heybətqulu] Məhəmmədbəyov** *(davam edir)* - Bu idarə hər bir yerin özündə olacaq. Hərgah Maliyyə naziri bu idarəyə filan təşkilatdan, filan yerdən nümayəndə seçiləcək desəydi, mən təxsisat [pul ayrılmasını] təklif etməzdim. Vəhalonki [halbuki] burada deyilir: Bu idarə seçiləcək Bakı Tacirləri İttifaqından və Bakı Birja Komitəsindən. Onda yazılmalı idi ki, Maliyyə naziri qəbul ya təyin edir Bakı Tacirlər İttifaqından və Bakı Birjasından. Seçki sözü olan yerdə cəmi əhalini nəzərə almaq lazım gəlir. Mən bunu deyirdim.

**Qardaşov** (Əhrar) - Mən tamamilə qabaqkı sözümü geri götürüb Malxazyanın dediyinə şərik oluram. Lakin bununla belə bunu deyirəm ki, bu vaxta kimi Qafqaziyada Sudebni Palata [Məhkəmə Palatası] Tiflisdə olduğu üçün işlər Tiflisdə aparılırdı. Bizim Azərbaycanda Sudebni Palata yox idi. İndi açıldığına görə bu işlər ona vagüzar olunmalıdır [tapşırılmalıdır].

**Rüstəmbəyli** - Əlbəttə, əgər zemstvo olsaydı, iştirak edərdi. Yainki ayrı təşkilat olsaydı, o da iştirak edə bilərdi. Lakin bunlar yoxdur. Burada məsələlər qanun üzrə baxılacaq və nümayəndələrin bir o qədər də köməyi olmayacaqdır. Ona görə yalnız Bakıdan və Gəncədən 5 üzv götürülmüşdür. Bir də, özgə yerlərdən gəlmək çətindir. Komisyon Zaqataladan və qeyri yerlərdən də üzv gəlməsinə əsasən etiraz etmir.

**Sədr** - Səsə qoyuram. Hər kəs layiheyi-qanuniyyəni komisyonun təshihi ilə bərabər qəbul edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Sayın! Rica edirəm əlinizi salmayasınız. Neçə oldu? Lehinə - 33, əleyhinə kimdir? Əleyhinə səs verilmədi. Kim səs verməyib? Səs verməyən - 10. Deməli, layiheyi-qanuniyyə qəbul olunur. Növbədəki, posta və teleqraf qanunnaməsinin 131 və digər maddələrinin ləğvi xüsusunda layiheyi-qanuniyyədir. Məruzəçi Camalbəyov və Malxazyan.

**Camalbəyov** - Möhtərəm üzvlər! Necə ki məlumunuzdur, posta-teleqraf və bunun stasyonlarının [stansiyalarının] idarə olunması və bunların nəzarəti hamısı Vəziri-daxiliyyəyə [Daxili işlər nazirinə] mühəvvəl [tapşırılmış] idi. Bu qanun Rusiyada böylə idi. Ondan da bizə qalıb, biz də bu qanunla gedirik. Zamanı ki, Azərbaycanda Posta vəziri var, əlbəttə ki, posta-teleqrafa məxsus olan işlər onu idarə etmək nöqteyi-nəzərilə Posta-Teleqraf vəzirinə tapşırılmalıdır. Bunun üçün də Posta-Teleqraf vəziri bu işləri Vəziri-daxi-

liyyəyə mühəvvəl edən bir neçə köhnə qanunların dəyişilməsini və yerinə əlahiddə [başqa] qanunlar gəlməsini rica edir.

Qanunverici komisyon bu işi Malxazyana həvalə etmişdi. Və keçən günlərdə komisyon öz iclasında Malxazyanın izahatına baxıb bir səslə Posta-Teleqraf vəziri tərəfindən olunan xahişi qəbul etdi ki, bütün posta-teleqraf işi, stasyonların nəzarəti və maliyyə cəhəti Posta-Teleqraf vəzirinin ixtiyarına keçsin. Necə ki, qubernator Daxiliyyə nazirinin agenti hesab olunur və bütün quberniyaya nəzarət edir, stasyonların da maddi cəhətdən salamat qalıb gözəl surətdə yaşaması[na] nəzarət nöqteyi-nəzərində[n] qubernator kimi stasyonlara gərək nəzarət etsin. Lakin işlərinə qarışmasın. Bu nöqteyi-nəzərlə 131, 134, 137, 138, 153 və 155-ci fəsillərin büsbütün dəyişilməsi qəti surətdə təklif olunur. 131 və 138-ci maddələr ki qubernatora ixtiyar vermişdi stasyonları icarəyə versin, bu gərək bu surətlə dəyişilsin ki, Vəziri-daxiliyyə ixtiyarından çıxıb Posta-Teleqraf vəzirinin ixtiyarına keçsin. Çünki Daxiliyyə nazirinin Posta-Teleqraf naziri işlərinə qarışmasına lüzum yoxdur. Böylə olmasa, heç Posta-Teleqraf Nəzarəti təşkili lazım gəlməzdi. Bu nöqteyi-nəzərdən komisyon əsas üzərinə Posta-Teleqraf nazirinin rəyinə şərik olub, 131-ci maddənin dəyişilməsini təhti-qərara aldı. Bu işlər Posta-Teleqraf vəzirinə aid olduğuna görə, Posta-Teleqraf vəzirinin ixtiyarı olsun ki, Vəziri-daxiliyyə əli ilə təşkil olunmuş stasyon idarələrinə özünə tabe olan idarələrdən adamlar keçirsin. Qubernatorun ixtiyarında bir şey qalır ki, o da teleqrafın gözəl surətdə yaşamasını və işin qanun üzrə olub-olmamasını Daxiliyyə naziri vasitəsilə Posta-Teleqraf nazirinə yazar. Çünki quberniyada hər bir cəhətdən nəzarət onun öhdəsindədir. Bu cəhətə Qanunverici komisyon bu barədə öz fikir və əqidəsini göstərib təklif edir ki, Posta-Teleqraf nazirinin layihəsini qəbul edəsiniz.

**Qardaşov Aslan bəy** - Bu qanun layihəsinin qəbulu lazımdır. Azərbaycan Cümhuriyyəti daxilində teleqraf işləri bu tərzdə olmalıdır. Biz Posta və Teleqraf nazirindən xahiş edirik ki, türk dilində teleqraf yazıldığı kimi, türk hərfləri ilə də göndərilməsinə təşəbbüs eyləsin.

**Səfikürdlü** (Post-Teleqraf naziri) - Möhtərəm məbusların buyurduqları mətləb əlbəttə həll olunur. Mən əmr vermişəm türk dilində teleqraflar postaxanaya verilsin və postaxanada məmurlar qəbul etsinlər. Həman türkcə olan teleqraflar türkcə hürufu [hərfləri] ilə olmasa da, rus hürufatı [hərfləri] ilə yazıb versinlər. Mən təvəqqe edərdim ki, bundan sonra ancaq türkcə yazıb verəsiniz. Hərgah qəbul etməsələr, rica edirəm telefonla xəbər verəsiniz. Milliləşdirmək məsələsinə mən daha yaxın oluram. Ələlxüsus, məmləkətimizin əksər camaatı fəhlə, kəndli və zəhmətkeşlər olduğuna görə, bunların lisanları da türkcədir. Mən nəzarətə [nazirliyə] gəldiyim andan bu xüsusları islaha çalışıram.

**Məhəmməd Əmin [Rəsulzadə]** - Mən istərdim söyləyim ki, hər nə qədər [türkcə] teleqraf verilməsi haqqında əmr verilmişsə də burada məsələnin iki cəhəti vardır: birisi rus hərfləri ilə yazılmış türkcə sözlər. Əgər bu surətlə əmr verilmişsə, bu da məqsədi tamamilə həll etməz. Rusca bilməyən adam yenə müşkülat çəkər. Çünki türkcə bu sözlər rusca yazılmışdır. Öylə etməli ki, bu məsələnin həlli üçün postaxanada xüsusi məmurlar olsun, rus hürufatı ilə yazılan türkcə teleqrafları həman orada türkcə yazıb sahibinə versinlər və türkcə yazılmış teleqrafı da qəbul edərək müamiləyə qoysunlar. Bu xüsusda tədbir yoxsa və mümkün isə Posta və Teleqraf naziri əmr versin. Zira, rus hərfləri ilə türkcə teleqraf vermək camaatın ehtiyacını zail etməz [aradan qaldırmaz].

**Aslan bəy Səfikürdlü** - Camaatın əksəri rusca bilməyir. Bunun üçün əmr eylədim türkcə teleqraflar qəbul olunsun. Məhəmməd Əmin əfəndi buyurdular ki, türkcə teleqraflar qəbul edilsin, teleqrafistlər türkcə bilsinlər və məmur da, qulluqçu da türkcə oxuyan olsun. Mən yenə deyirəm, teleqraf türk dilində yazılacaq və tel ilə veriləndə türkcə oxunacaq. Böylə olanda məsələ aydın olur.

**Sədr** - Daha söz istəyən yoxmu? Yoxsa, mən səsə qoyuram. Hər kim komisyonun qərarı üzərinə layihəni qəbul etmək tərəfdarısa, əlini qaldırsın. *(Əllər qalxır)* Layihə əksəriyyətlə qəbul edilir.

Sosialistlər fraksiyonu rəisi Ağamalov cənablarının bir sorğusu vardır. *(Əhməd bəy [Pepinov] oxuyur.)*

*"Bakı əmələlərinə fevralın ikinci nisfinin [yarısının] məvacibi verilmədiyindən, bir çox dairələrdə əmələlər tətil etmişlərdir. Əmələ konfransında ingilis komandanlığının nümayəndəsi mister Valton bu xüsusda edilən suala cavab vermişdir ki, əmələlərə məvacib verilməməsinə səbəb Azərbaycan Hökumətinin vaxtilə banka para yetirmədiyidir. Biz hökumətdən sual ediriz ki, bu pullar nərədədir?"*

**Səslər** - Tərcümə ediniz.

**Sədr** - Qəbul eylədiyiniz nakaza [təlimatnaməyə] görə sual axırda irad olunur. Bu sual münasibətilə izahat verməkdə sualı imza eyləyən olmalıdır. Şimdi imza edən şəxs burada yoxdur. Hər nə qədər axtardım və hətta telefon etdirdim, yenə bulammadım. Əgər müsaidə versəniz, Sosialistlər fraksiyasından digər bir əza [üzv] bu xüsusda izahat versin.

**Şəfi bəy [Rüstəmbəyli]** *(yerindən)* - Sorğu sahibi özü gərək vəkil eyləsin.

**Əhməd bəy [Pepinov]** - Doğrudur, nakaza görə Ağamalov özü izahat verməlidir. Nakaz bu gün qəbul olunmuşdur. Fəqət, burası var ki, bu məsələ də təxirə salınsa əhəmiyyəti itər. Mən təklif edirəm ki, sual barəsində izahat vermək bizim fraksiya üzvlərindən birisinə vagüzar edilsin [tapşırılsın].

**Sədr** - Bu təklif əleyhinə kim danışmaq istəyir? Səsə qoyuram. Hər kəs sorğunu yazandan başqasının danışması tərəfdarı isə əlini qaldırsın. Sayın, neçədir? Lehinə 11, əleyhinə 2, səs verməyən 10.

**Səslər** - Kvorum yoxdur, yox.

**Sədr** - Ola bilməz. Kvorum vardır, 42 üzv var. Deməli, müsaidə verilir.

**Əhməd Cövdət [Pepinov]** - Əfəndilər! Məlumdur ki, hər bir hökumətin can damarı maliyyə işləridir və puldur. Buna görə öz hökumətimizin maliyyə işlərinin, mədaxil və məxaricimizin nə halda olmasını bilmək bizim üçün maraqlıdır. Əgər bunu bilməzsək, maliyyə işlərimiz başqası əlinə düşərsə, canla-başla müdafiə edəcəyimizi iddia etdiyimiz istiqlaliyyət də puç olar. Bütün zəhmətlərimizdən də bir şey olmaz. Məlumunuzdur ki, neft sa-

tılmayıb qaldığından, hökumət nefti girov götürüb fəhlələrə məvacib verməkdən ötrü neft mədənçilərinə para buraxılmasını təhti-qərara almışdı. Lakin bu pullar fəhlələrə ingilis komandanlığı əli ilə verildiyindən öylə bilirdilər ki, bu pulları ingilislər özləri verir, Azərbaycan Hökumətinin xəbəri yoxdur. Deməli, həqiqətdə pulu Azərbaycan Hökuməti verdiyi halda, rəsmən ingilis komandanlığı vasitəsilə verilirdi. On gün bundan əqdəm [qabaq] ingilis komandanlığı elan eylədi ki, pul ayın 12-də veriləcəkdir. 12-sində isə dedilər ki, pul yoxdur. Çünki Azərbaycan Hökuməti bon çap eyləməyir. Və Azərbaycan Hökuməti ilə ingilis komandanlığı arasında bank məsələsi kimi ixtilaflı məsələlər vardır. Bu məsələ iki-üç gün böylə keçdi. Fəhlələr isə bunu başqa cürə başa düşdülər. Araya bir tətil məsələsi də çıxdı. Fəhlələr ingilis komandanlığına protesto olmaq üzrə tətil etmək istəyirdilər. İngilislər də ayın 12-sində gözlənilən tətili pozmaq üçün pulu təxirə salırdılar. Lakin ayın 12-si gəldi, əmələlər tətil elan etmədilər. İş də aşkara çıxdı. Fəhlə konfransında ingilis nümayəndəsi mister Valton dedi ki, tabel hazırdır. Ancaq bon hazır olmadığından Azərbaycan Hökuməti pul verilməsini təxirə salmışdır. Fəhlələr Azərbaycan Hökumətindən şübhələnib, fikirlərinə belə gəlir ki, bunu hökumət edir. Zənnimizcə bu böylə deyildir. Məsai [Əmək] naziri öz elannaməsində göstərdiyi kimi bu işlər Azərbaycan Hökumətinə məlum deyilmiş və bu vaxta kimi Məsai Nəzarətinə, "tabel hazırdır, pul verin" deyə heç kəs müraciət etməmişdir. Hamısı ingilis komandanlığına müraciət edirdi. Çünki pulu Məsai naziri deyil, ingilis komandanlığı verirdi. Məlum olduğu üzrə, bu məsələ hökumət dairəsində də müzakirə olunurdu. Bu barədə hətta qəzetələr də yazırdılar ki, guya bazar günü Azərbaycan Parlamanının fövqəladə iclası olacaqdır və bu iclasda hökumət maliyyə işləri haqqında məruzədə bulunacaqdır. Lakin bu düz çıxmadı, hökumət bəyanat vermədi. Biz camaat nümayəndələri olduğumuz üçün bu məsələdən göz örtüb keçə bilməriz. O adamlar ki, deyirlər hökuməti tənqid etmək bu halda zərərdir, onlar səhv edirlər. Məlumunuz olduğuna görə, hökumətin 150-160 milyon hazır pulu vardır. Ancaq fəhlələrə muzd verilmək üçün 16 milyon tapılmır. İngilislər buraya gələndə rus bankını açdılar. Tomson dedi ki, banka qoyulan pulları təmin edirəm və ingilis hökuməti buna cavabdehdir. İndi bilmək istəriz ki, Azərbaycan Hökumətinin bu 160 milyonu haradadır? Bu pullar banka verilmişmidir? Bu pul millətindir. Nəğd məbləğ nasıl təqsim olundu [necə bölündü]? Əgər ingilis komandanlığı daxili işlərimizə qarışmırsa, əgər bizi soymaq istəmirsə, niyə bu məsələ belə olsun? Fəhlələr qarşısında ingilis komandanlığı boyun əyərkən, nə üçün həman fəhlələr Azərbaycan hökuməti əleyhinə qalxsınlar? Tətil komitəsində mən söylədim ki, Məsai nazirinin bundan xəbəri yoxdur. Fəhlələr dedilər ki, yalan deyirlər. Hökumətdirlər, necə ola bilər ki, onların xəbəri olmasın? Məsai naziri dedi ki, ancaq neçə gün bundan qabaq ona deyiblər ki, fəhlələr acdırlar, pulları verilmir. Fəhlələrin içərisində olan fikir budur ki, Azərbaycan Hökuməti pulu qəsdən vermir. Valtonun sözündən də bu çıxır. Hökumətin əsasını təşkil edən fəhlələr ac qalırlar: qalxıb ikrah [nifrət] edirlər. Buna qarşı əlbəttə, biz göz qapaya bilməriz. Ona görə hökumət gəlsin bizə cavab versin görək maliyyə işlərimiz nə haldadır və pulumuz nərəyə sərf olunur? *(Soldan alqış)*

**Sədr** - Söz hökumət əzasından Aslan bəy Səfikürdlünündür.

**Səfikürdlü** - Məlumunuzdur ki, müddəilərimiz [iddiaçılarımız, ittihamçılarımız; prokurorlarımız] gəldikcə artır və o nöqsanlar ki, bizim yoxumuzdur, onları da bizim boynumuza yıxırlar. O cümlədən də bu məsələni. Doğrudan da fəhlələrə fevral və mart məvacibləri verilməyibdir. Bu məvaciblər gərək martın 10-da veriləydi. Bilirsiniz ki, məvacib alanların məvacibləri bir neçə gün də olsa təxirə düşəndə nə qədər əziyyət çəkirlər və narazı olurlar. Fəhlələr deyirlər ki, əziyyət çəkirik, məvacibimiz vaxtında çatmır. Böylə olan surətdə fəhlələrin haqları var ki, tətil etsinlər. İş buradadır ki, məvaciblərin təxirə salınmasını fəhlələr bizdən görüb narazı olurlar. Mitinqdə və başqa yerdə də deyirlər. Nəinki fəhlələr, hətta "İskra" qəzetəsində də oxudunuz ki, ingilis nümayəndəsi mister Valton fəhlə konfransında "Fəhlələrə nə üçün pul verilmir?" - deyə soru[şu]larkən demişdir ki, Rusiyanın əski bankı var, Azərbaycan Hökuməti ilə ingilis komandanlığı arasında həmin bank məsələsi ixtilaflı olduğundan və bankın kimə çatacağı məlum olmadığından pul verilməsi təxirə salınmışdır.

Mən burada hökumət tərəfindən və öz tərəfimdən qəti surətdə elam edirəm [bildirirəm] ki, bu məsələ düz deyil. İki ay bundan qabaq ki, zabastovka olmuşdu, o vaxt zavodçular dedilər ki, fəhlələrə verilmək üçün 45-50 milyon para lazımdır. Neftimiz var. Bu vaxta qədər bizim neftimiz Rusiyaya gedirdi. İndi pul olmadığından getmir. Ona görə də biz fəhlələrə pul verə bilməyəcəyik. Hökumət qət etdi ki, neft rəhni ilə zavodçulara pul buraxsın. Fevral ayında xaricdən bizim para məsələsinə müdaxilə olduğuna görə fəhlələrə pul verilmədi. Nə fəhlələrdən, nə də ingilis komandanlığından bizə məlumat verilməmişdir ki, fəhlələrə pul vermək lazımdır. Ancaq Valtonun sözü qəzetədə yazılandan sonra mən bildim ki, fəhlələrə pul verilmir və təqsiri bizim üzərimizə yıxırlar. Hökumət bu əhvalatdan xəbərdar olduqdan sonra dedi ki, başqa xəzinədən də olsa, üç günün ərzində pul tapıb fəhlələrə verməlidir. Başqa yerdən tapılmasının səbəbi nədirsə, orasını söyləməyin yeri deyil. İndi pul hazırdır, sabah, ayın 18-də verəcəklər. Lakin bir neçə yerlərdə tətil olubdur. Bu barədə fəhlələrin tətilə də haqları var idi. Çünki deyirlər vaxtında pul verilməyib, acıq. Ümid var ki, pul veriləndən sonra tətil qurtarar. Bizdə və hökumətdə təqsir yoxdur. Əsil təqsirin kimdə olduğunu özünüz təyin ediniz. Ümid var ki, belə məsələləri Parlaman əzaları aydınlaşdırsınlar. Bu barədə hökumət də qəti tədbirlər görməyə başlamışdır. Çünki görürüz ki, hüququmuzu tapdalayırlar. Bu üç-dörd ayın ərzində çox güzəştə gedirdik. Biz kimsənin başına çaxmaq istəməyirdik. İndi aydın oldu ki, iş razılıqla yerimir. Ona görə, hökumət ciddi hərəkata başlamışdır. Bundan sonra saf, qırmızı və haqq sözümüzü müdafiə edəcəyik. *(Alqış)* İndi necə ki, bilirəm maliyyə işimiz yaxşılaşıb, hərgah Maliyyə naziri burada olsaydı si-

zə məlumat verərdi. Hökumətdə müzakirə olunarkən mən eşitdim ki, maliyyə işlərimiz düzəlməkdədir. Bu qərarla tətil də rəf olar [aradan qaldırılar].

**Sədr** - Hərgah sual müəllifi hökumətin bəyannaməsinə qane olursa, sual növbədən götürülə bilər.

**Əhməd bəy Pepinov** - Biz zənn ediriz ki, Maliyyə naziri özü bu sorğuya cavab verməlidir.

**Sədr** - Müəlliflər qane olmayırlar, o halda digər məclisə qalar və istizah [izahat] şəklində hökumət cavab verər.

Və bir də mən o gün səhv eyləyib Şəriyyə komitəsi [Qanunverici komitə] söylədim, halbuki Təshihiyyə [Redaksiya] komitəsidir və bu komisyona Qriqori Tsaxakaya, bitərəflərdən Abuzər bəy Rzayev, "Müsavat"dan Rəsulzadə Məhəmməd Əmin və Mustafa Vəkilov, "Əhrar"dan Mirzə Muxtar Əfəndizadə, sosialistlər ittifaqından Rza bəy Qaraşarov namizəd göstərilir.

Bugünkü məsələlər qurtardığına görə məclisi qapayıram.

Saat 4 tamamda məclis qapanır.

## TELEQRAF XƏBƏRLƏRİ

### Royter ajansından

- Paris – Avropanın [vəziyyəti] xətrəli [təhlükəli] olduğundan, var-qüvvətlə çalışırlar ki, bir həftə müddətində qəti surətdə sülh əhdnaməsi tərtibi qurtarsın. Lloyd Corc, Vilson və Orlando bu xüsusda ciddi surətdə çalışırlar.

- Berlindən xəbər verilir ki, cümə və şənbə günləri Peştədə ciddi atışma olmuşdur. Bir çox ölən və yaralanan vardır. Ərzaq və cəvahirat mağazaları dağıdılmışdır.

- Vyanadan “Tayms” qəzetəsinə xəbər verilir ki, rəsmi məlumata görə, Müttəfiqlər heyəti Peştə şəhərini tərk etmişdir. İnqilabın birinci günü əcnəbi təbəəsindən olan zabitlərin həpsi tərk-silah edilib, nişanları da qoparılmışdır. Şənbə günü 24 nəfərdən ibarət ingilis və fransız dəstəsi tərk-silah edilmişdir. Hal-hazırda sərhəd qapanmışdır. Ona görə də müxabirat əskilmişdir.

- Paris – Vilson, Lloyd Corc, Klemanso və Orlando arasında olan müşavirə axşamadək davam etmişdir. Müşavirəyə nə katiblər buraxılmışlardır, nə zəbt mühərrirləri [protokol katibləri]. Rəvayətə görə, sülh müahidənaməsi [sazişi] haqqında bir çox işlər görülmüşdür.

- Madrid – Barselonada ümumi tətil başlanmışdır. O birisi gün şəhər idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan edilmişdir.

- Madrid – Bütün İspaniyada idareyi-örfiyyeyi-əsgəriyyə elan edilmişdir.

- Paris – Almaniya ticarət flotu müqəddəratı barəsində Müttəfiqlər arasında ixtilaf vardır.

- Çin sülh nümayəndəsi bəyan eyləmişdir ki, Çin öz sərhədi dairəsində azadlıq almağı arzu edir. Çin paytaxtı Pekində əcnəbi qoşunlarının olmasından çinlilərin hissiyyatı təhqir olunur.

- Honkonq – Quylində üsyanı yatırtmaq istəyən ingilis konsulunu üsyançılar tutub əl-ayağını bağlamışlar və sonra Çin saldatları gəlib konsulu azad etmişlərdir.

### Bolşeviklərin halı

Rusiya bolşeviklərinin əhvalından





məlumat verən son teleqraflardan anlaşılır ki, hərçənd Rusiyanın bəzi yerlərində bolşevik hərəkatı artır, amma eyni zamanda bolşeviklər çox yerlərdə məğlub olub, gündən-günə yeni müşkülata məruz qalırlar. Stokholmdan verilən teleqrafda denilir ki, Don ordusu Krasnovun komandası altında Saratov ilə Volsk şəhərlərini işğal etmişlərdir. Kovnodan [Kaunasdan] yazılır ki, litvalılar bolşevikləri təqib edirlər. Bolşeviklər hərəkati-hərbiyyənin [hərbi əməliyyatların] dayandırılmasını xahiş etsələr də, rədd cavabını almışlardır. Litvalılar Vilnoya [Vilnüsə] yaxınlaşırlar. Petroqraddan verilən bolşevik dərmiyolu nazirinin ifadəsindən anlaşılır ki, Rusiyanın dəmiryol işləri ağlar haldadır. Hökumətin ancaq 4500 işə yarar paravozu vardır.

Bolşevik hərəkatı Cənubi Polşaya və Qərbi Qaliçyaya da keçmək üzrədir. Krakovda şura təşkil edilmişdir. Şura qoşunları Lublinə yaxınlaşırlar.

### Gələcək ordunun miqdarı

İngiltərədə nəşr olunan “Ağ kitab”da Hindistan əsgərlərindən başqa gələcəkdə İngiltərədə və qeyri məmləkətlərdə saxlanan əsgərlərin miqdarı 2 milyon yarımdan artıq olmamalıdır. Reyn ordusu bura daxil olmaqla bərabər, bu miqdar 952 minə qədər azalacaqdır. Tərxisi-əsgərdən sonra Fransa, Belçika ordusu 23.600 zabit və 380 min saldatdan ibarət olmalıdır. İtaliyanın ordusu 600 zabit, 10 min saldat olmalıdır. Bolqariyada, Türkiyədə, Qafqaziyada və başqa məmləkətlərdə 4.350 zabit, 75 min əsgər, İngiltərə ordusunda 9.050 zabit və 19.500 saldat olmalıdır. Misirdə və Fələstində ingilis ordusundan 3.750 zabit ilə, 57.500 əsgər, Hindistanda isə 2.750 zabit, 40 min nəfər saldat olacaqdır. Bundan əlavə, Beynənnəhreyndə və Şimali İranda İngiltərə ordusundan 1.750 zabit, hind ordusundan isə 4.600 zabit ilə 59 min saldat olacaqdır.

## QƏZETƏLƏRDƏN

### Amerikada inqilab

Nyu-Yorkda bahalığa görə intizamsızlıq olmuşdur. Amerika fəhlələri Rusiyada vaqe olan hadisələrə xeyli maraq edirlər. Amerikanın Rusiya misalı şura cümhuriyyətinə təbdil edilməsi [çevrilməsi] amalının fəhlələr arasında böyük nüfuzu vardır.

### Amerikada bolşevizm

Amerika qəzetələri Amerikada bolşevizm artmasından həyəcana gəlmişlərdir. Amerika Məclisi-Əyanında bu münasibətlə oxunan məruzə böyük təsir bağışlamışdır. Bolşevizmlə mübarizə edən komissiya bolşevik müşəvviqləri [təşviqatçıları] əleyhinə şiddətli cəzalar edilməsi layihəsi hazırlamışdır. Bir para məlumata görə, bu layihə Amerika fəhlələri arasında narazılığa bais olmuşdur. Əhval gərginləşmişdir. Xüsusən Buffaloda ki, oraya qoşun göndərilmişdir.

### Yevropada inqilab hərəkəti

Alınan məlumata görə, Yevropa məmləkətlərində gün-gündən inqilab hərəkatı [hərəkətləri] şiddət etməkdədir. Romaniya, İtaliya, Fransa və qeyri məmləkətlər inqilab ərəfəsindədirlər.

**Narazıdırlar**

Sülh Konfransının axırıncı iclasında Fransa generalı Foş alman vəkillərinə xəbər vermişdir ki, Polşa və Baltik vilayətləri təxliyə edildiyi zaman almanlar bolşeviklər üçün bir çox əslihə [silah] buraxmışlar ki, bu da sülh şəraiti əsaslarına bər-əksdir [ziddir]. Bu qərar üzrə həmən vilayətlərdə olan zərərlərin ağır məsuliyyəti almanların ...

**Həqiqətdə doğrudur**

Bolşeviklər deyirlər ki, hərgah Müttəfiqlər Almaniya misalı öz əsgərləri ilə Baltik vilayətlərini və Ukraynanı işğal etsələr, qorxmaq lazım deyil. Çünki bu hal ilə onlar bir neçə ayda fransız və ingilis əsgərlərini üsyana gətirərdilər. Necə ki, almanlar onlara bu müamiləni yapdılar.

**Sazonovun ağlaması**

Rusiya bolşeviklərinin Müttəfiqlər tərəfindən etiraf edilmələri [tanınmaları] Sazonova artıq təsir etmişdir. Qəzetələrin yazdığına görə Sazonov demişdir ki, böylə bir təklifin Sülh Konfransından çıxması məni xeyli düşündürür. Mən ona təəssüf edib qəmgin oluram ki, Fransa Hökuməti də bu təklifə şərik olmuşdular. Mən Vilsonun təklifi haqqında olan rəsmi sənədi artıq diqqətlə oxuyub gözəlcəsinə başa düşdüm ki, bu sənəd təhdid və ya ehtiyatdan ibarətdir. Mən bunu bu cümlədən görürəm: *"Müttəfiq dövlətlər hali-hazırda bütün Rusiya hökumətini yıxmaqdan ötrü mübarizə edən dövlətlərin heç birinə hökmfərmalıq [hökmranlıq] etmək niyyətində deyildirlər."* Bununla aşkar deyilir ki, bizi uğurlayan nəinki bir tək köməksiz rus vətəndaşlarını, həmçinin fransızları, ingilisləri və amerikalıları qarət edən adamlar əleyhinə xahiş etdiyimiz köməyi bizə verməyəcəklərdir. Qoy bizə kömək verməkdən imtina etsinlər. Boş söz olmayan tarixi məsuliyyət bu qətnaməni qəbul edənlər öhdəsinə düşəcəkdir.

## MÜXTƏLİF XƏBƏRLƏR

**Doktor Nərimanov fövqəladə Qafqaziya komissarı**

"Zemlya i volya" qəzetəsinin məlumatına görə, doktor Nəriman Nərimanov bolşeviklər tərəfindən Qafqaziyanın komissarlığına təyin edilmişdir. Mumalieyh [adı çəkilən şəxs] Qafqazya kəndçilərinə xitabən nəşr etdiyi müraciətnaməsində deyir ki, kəndlilər ancaq Şura Hökumətinə ümid edə bilərlər. Bu hökumətdir ki, ancaq müsəlman kəndçilərini cahangirlərdən [imperialistlərdən], qasiblərdən azad edəcəkdir. (?)

**Kolçak əleyinə üsyan**

Bolşevik simsiz teleqrafı martın 27-sində Samaradan xəbər verir ki, ordu ərkanının [qərargahının] aldığı məlumata görə 45 yaşında kişilərin əsgərliyə dəvət edilmələri Kolçak əleyhinə üsyana bais olmuşdur. Kolçak Yekaterinburqa qaçmışdır. Çelyabinskdə də saldatlar arasında üsyan qalxmışdır. Əsgəri dəstələr cəbhəyə getməkdən imtina edirlər. Bu üsyan şiddətli bir surətdə yatırılmışdır. Saldatlar aşkara surətdə bolşeviklər tərəfinə keçmək arzusunda olduqlarını izhar edirlər.





## DAĞISTAN ƏHVALI

* Çeçen oblastında olan Dağıstan qoşunlarının baş komandanlığının məlumati-rəsmiyyəsi [rəsmi məlumatı]:

27 mart 1919-cu sənə, 60 nömrəli teleqraf

Dağıstan Hərbiyyə nazirinə

85 nömrəli rəsmi məlumatıma əlavə olaraq bəyan edirəm ki, axşam vaxtı düşmənlər bütün cəbhə boyu püskürdülmüşlərdir. Alxan-Yurt altında düşmənlər dünən və bu gün böyük-böyük tələfat vermişlərdir. Bu dairədə 3 pulemyot, 2 top, 10 furqon güllə və bir çox silah qənimət almışıq.

Açxoy-Martan kəndi dairəsində düşmənlərin təzyiqinə baxmayaraq, biz onlara bu kənd ilə Assinovskaya mövqifi [stansiyası] sərhədini keçməyə imkan vermədik.

Berdıkel və Ustar-Qordoy dairəsində düşmənlər bizim təzyiqimizlə Qroznı şəhəri bağları tərəfinə püskürdülmüşlər.

Bizim tələfatımız 50 nəfərdir. Düşmən tələfatı isə 600-dən 700-ədəkdir. Alxan-Yurt kəndi dairəsində düşmənlər 500, sair dairələrdə 600 meyit buraxmışlardır. Bizim vəziyyətimiz çox möhkəmdir. Dağlardan kömək gəlmişdir. Müntəzəm qitəatımız [nizamlı birliklərimiz] çox gözəl işləyirlər.

* Dağıstan Hökuməti ilə Könüllü qoşun arasında olan danışıqdan heç bir nəticə hasil olmadı. Üç həftədir ki, Könüllü ordu Dağıstan Cümhuriyyətinə qarşı müharibə açmışdır. Könüllü ordunun bu hərəkətinə qarşı Müttəfiqlər komandanlığına edilən protestolar binəticə [nəticəsiz] qalmışdır. Könüllü ordu mart ayının 26-da çeçenlərin Ustar-Qordoy, Alxan-Yurt, Kulorıya və altmış verst boyunda olan sair kəndlərinə hücum eyləmişdir. Könüllülərin bu iqdamatı [təşəbbüsü] dağıstanlıların səbir kasasını daşdırıb, ona görə də hökumət tədaföyi müharibə [müdafiə müharibəsi] elan eyləməyə məcbur olmuşdur. Azərbaycan Hökuməti nəzdində olan Əlixan Kantemirov rəsmi surətdə xəbər almışdır ki, Dağıstan Hökuməti Könüllülərə qarşı müharibə açmışdır. Bu xüsus Müttəfiq komandanlığa məlum edilmişdir.

* Teymurxanşuradan teleqraf edirlər ki, Dağıstan Parlamanının 31 martda vaqe olan iclasında təzədən Divani-Rəyasət intixabı vaqe olmuşdur [seçkisi baş tutmuşdur]. Sədr müavinliyindən imtina edən Xanməhəmmədov əvəzinə sabiq Maliyyə naziri Cabaqiyev, Aşxatsev əvəzinə katibliyə Dalayev intixab edilmişdir [seçilmişdir]. Azərbaycan siyasi nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyev birinci dəfə olaraq Parlamanda isbati-vücud [iştirak] etmişdir. Parlaman Azərbaycan siyasi nümayəndəsini sürəkli alqışlarla təbrik etmişdir.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Ərzaq Nəzarətində**

Ərzaq naziri həzrətlərinə!

Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanı fəaliyyətə başladığı gündən ləvazim heyəti möhtərəm məbusların və idarə məmurlarının ehtiyacından ötrü

bəzzaz malı [parça, arşınmalı] dərdəst etmək [əldə etmək] məcburiyyətində qaldı. Bu xüsusda Ticarət və Sənaye Nəzarətindən izinnamə alınıb, fabrikaya müraciət olundu. Fəqət fabrikada uzun bir müddət təxirə uğrayıb ancaq dekabrda 93 parça kətan ala bildik. Xidmətçilər tərəfindən heyətə külli şikayətlər daxil olmaqdadır. Bu haqlı şikayətlərə əlac aramaqdan ötrü Ticarət və Sənaye Nəzarəti ilə dəfəat və kərrat ilə [dəfələrlə, bir çox kərə] irsal-mərsulda bulunmuşsa [məktublaşmışsa, yazışmışsa], ta bəhal [indiyə qədər] bir tədbir olunmamışdır. Məmurların istida və istimdadı [xahiş və yalvarışı] təfrit [ifrat] dərəcəsinə yetmişdir. Buna görə, Ləvazım rəisi təmənni edir ki, bu barədə ciddi və təcili surətdə lazimeyi-təşəbbüsatda bulunub tezliklə heyətə ittila [xəbər] verəsiniz, əfəndim.

*Ləvazım heyəti rəisi: Camo Hacınski*

**Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanı Ləvazim rəisi həzrətlərinə!**

27 mart tarixli və 780 nömrəli məktubunuzu aldıq. Möhtərəm məbusların və idarə məmurlarının ehtiyacından ötürü Tağıyev fabrikasından Ticarət və Sənaye Nəzarətinin verdiyi icazənamə ilə bu vaxta qədər malların alınmaması haqqında edilən şikayətlərin haqlı olduğunu etiraf etməklə belə, Ərzaq Nəzarəti məəttəəssüf [təəssüf ki], bu barədə heç bir şey yapammayacaqdır. Fabrika Ticarət və Sənaye Nəzarəti-cəliləsinin ixtiyarında bulunduğundan, Ərzaq Nəzarəti tərəfinizdən göndərilən məktubu 30 mart və 861/3872 nömrəli rəsmi kağızla bərabər Ticarət və Sənaye naziri həzrətlərinin hüzuri-alilərinə təqdim edərək və fabrikadan mümkün olduğu qədər tezlikdə məzkur [deyilən] əşyanın buraxılmasını xahiş etmişdir.

*Ərzaq naziri vəkili: Yusifəli [Əliyev]*

* Ərzaq Nəzarəti Azərbaycan nəzarətlərində olan dəftərxana qulluqçularının kooperativ cəmiyyəti idarəsinə xəbər verir ki, Azərbaycan nəzarətlərinin kooperativinə bez buraxılması haqqında "Azərbaycan" qəzetəsində yazılan fəqərə [hadisə] yanlışdır. Çünki, bu bez Ziraət Nəzarətinin Gəncədə olan xidmətçiləri kooperativinə buraxılmışdır.

* Ərzaq Nəzarəti "Qafqaz-Merkuri" və "Vostoçnoye Obşestvo" paroxod şirkətlərinə və Su nəqliyyatı müdirinə xəbər verir ki, mal almaq üçün verilən dublikatlarda və nakladnoylarda ancaq böylə bir imza olacaqdır: Mal təqsim edici [paylayıcı] şöbə müdiri əvəzinə Belyayev.

## MƏFKUREYİ-ALİYYƏMİZ

**- I -**

*Azərbaycan dövləti-növzadına*

Qaldır səmayi-şövkətə nəcmü-hilalını,
Göstər bu ərzin əhlinə cahü-cəlalını!
İsbat qıl həyatını əqvami-aləmə,
Bəxş eylə bir həyati-növin Şərqi-ə'zəmə!
Əzmü-səbatın ilə görün, düşmən ağlasın,
Millət üzündə xəndeyi-ümmid parlasın!
İqbala doğru xütvələr at intizam ilə,
Ənzari-əhli-xakə görün ehtişam ilə!
Yıx, əz, nə əngəl olsa, əvət, rəhgüzarına!
Qəlbən inan da qüvvətinə, iqtidarına!
........................................................
........................................................
Simayi-iqtidarını görsün bütün cahan,
Ey türk dövləti və əya bəxti növcavan!
Olsun da qibtəbəxşi-miləl hər siyasətin,
Şayani-afərin ola bilsin fərasətin!
Ə'dayi-namurada sübut et ləyaqətin,
Bilsin nədir ləyaqəti bu canlı millətin!
Ey dövləti-növin, yaşa nəzmü-nizam ilə!
Parlaq əməllərinlə, müzəhhər məram ilə!
Qoş nura, qoş ziyaya, qoş ürfana, hikmətə,
Bir şahrahi-bariqədar aç bu millətə.
Millət o yolda xütvələr atsın da qayəyə,
Çıxsın təkamül eyləyərək ülvi payəyə.
Bir xütveyi-mətin ilə rahi-kamala qoş,
Qoş feyzə, qoş həyata, mütəntən cəlala qoş!
Aç kainati-rüf'ətə şəhbali-irtiqa,
Saç kainati-millətə ənvari-e'tila.
Türk aləmində parlasın ənvari-intibah,
Gülsün həyatımızda da əzhari-intibah.
Olsun bu yurdumuz çəmən-arayi-mə'rifət,
Əhli-vətən də bulmalı iqbalü-məs'ədət...

*Bakı, 2 aprel 1919,*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## MİLLİLƏŞMƏK FƏQƏRƏSİ

Axirüləmir [nəhayət ki], Məclisi-Məbusan İdarəsi ümum müsəlmanlara məlum etmişdir ki, türkcə yazılmayan ərizələr qəbul olunmayacaqdır. Bu bir təbii təklifdir ki, bunu müsəlmanlarla bərabər sair Azərbaycanlılar da alqışlarla qarşılamalı idilər. Halbuki, bəziləri narazı qalmışlar. Qorxmuşlar ki, Gürcüstan Hökumətinin idarələrə təklifi bir gün burada da icra olunsun, müamilati-rəsmiyyə [rəsmi əməliyyatlar] türkcə aparılsın, türkcə bilməyən cənablar da iş başından kənar olunsun.

Bunların vahimələri bicadır [yersizdir]. Zira milliləşdirmək məsələlərində Gürcüstanla Azərbaycan arasında yer-göycə təfavüt vardır. Gürcülər baltanı dibindən vururlar. Bunların hər bir təşəbbüsatı, hər bir amal və əfkarı [məqsəd və fikirləri] gürcülükdən ibarət olduğu üçün milliləşdirmək fəqərəsini [məsələsini] ümumiləşdirmişlər. Gürcülərlə bərabər Gürcüstanın erməniləri, yəhudiləri, türkləri, rusları, ləzgiləri də hökumət lisanını, yəni gürcü dilini bilməlidirlər, idarələrə verilən ərizələr hangi millətdən olursa-olsun, gürcücə yazılmalıdır.

Azərbaycana gəldikdə, daha doğrusu Məclisi-Məbusanın təklifinə gəldikdə, bu ümuma aid olmayaraq, Azərbaycanın məhz müsəlmanlarına məxsus bir təklifdir ki, bu da sairlərini gərək qorxuzmasın. Türklərdən tələb olunur ki, ərizələrini türkcə yazsınlar. Bu təbii bir hal deyilmi? Hangi bir ədalət və vicdan sahibi buna razı olar ki, bir türk oğlu türk öz hökumətinə müraciət etdiyi halda, müraciətnaməsini ana dilini buraxıb əcnəbi bir dildə yazsın?

Burada mənə iki irad edəcəklər:

1) Azərbaycan türklərinin çoxu türkcə bisavaddırlar;

2) Hökumət məhafil [dairələri] və idarələrində bir çox türkcə bilməyən məmurlar vardır ki, türkcə yazılmış ərizələrdən baş çıxarmazlar.

Birinci irada qarşı cavabım budur ki, öz ana dilində yaza bilməyən türklər əcnəbi dilinin, məsələn ruscanın təhriri [yazılışı] ilə bərabər, şifahisini də bilməyirlər. Böylə bir şəxs ərizə yazdırmaq məqsədi ilə bir türk mirzəsini bular, dərdini bilavasitə türkcə söylər və ərizəsini yazdırar.

İkinci irada cavabım budur ki, idarədəki məmurlar hərgah türkcə bilməyirsə, bu, əhalinin günahı deyil. Çoban sürünün xidmətçisidir, sürü çobana xidmətçi deyil. İki milyon camaat beş nəfər məmurun xatirəsi üçün əcnəbi bir lisanı öyrənməyə borclu deyil. Məmurlar əhalinin dilini öyrənsinlər. Bu onların vəzifəsidir. Öyrənməyəcəklərsə, vəzifələrindən əl çəksinlər.

Zənnimcə, ərizələrin türkcəliyini Məclisi-Məbusandan əlavə, Nəzarətlərdən [Nazirliklərdən] tələb etməlidirlər. Bir vaxt Ərzaq naziri Lizqar cənabları xüsusi məmurlar dəvət etmişdir ki, Ərzaq İdarəsinə əhali tərəfindən verilən ərizələri məccanən [pulsuz] yazsınlar. Bu bir gözəl təşəbbsüdür ki, sair Nəzarətlər də böyləcə yapmalıdırlar. Lakin hangi məqsədlə? Hərgah bu təşəbbüsün məramı bisavad türklərə müavinət [köməklik] etməkdirsə və ərizələr də türkcə yazılacaqdırsa, çox gözəl. Xayır, əhaliyə müavinət bəhanəsi ilə türkcə bilməyən cənablar ərizələri rusca yazdıracaqlarsa, bunların məqsədi öz işlərini asanlaşdırmaqdır. Böylə olarsa, zəhmət çəkməsinlər, yeni ştatlar, yeni məsariflər [xərclər] icad etməsinlər; əhali öz məsarifi ilə kənarda ərizə yazdırar, lakin türkcə yazdırar.

Türüq və Məabir [Rabitə və Nəqliyyat] nazirinin də bir hökmünü oxuduq. O da bundan ibarətdir ki, lövhələrdə stasyonların adları ruscaları ilə bərabər türkcələri də yazılsın. Lakin bunlara iktifa [kifayət] etməyib də hər bir yazılarımızı ancaq türkcə yazmaq lazımdır ki, bu işə mübaşir olmaq [başlamaq] zamanıdır.

*Fərhad Ağazadə*

## TİCARƏT HAQQINDA

Türk dəftərdarlarının (buxqalterlərinin) bir yerə cəm olaraq mühasibəçiliyin elmini əbnayi-vətənin [vətən övladlarının] və hakəza [eləcə də] tacirlərimizin içində intişar etməkdən [yaymaqdan] ötrü bir cəmiyyət təşkil etmək lüzumuna işarə edərək müfəssəl bəyanat yazmalıdır, ərzində olmuşdum.

Siyasət aləmində qeysərləri, çarları və bütün hakimi-mütləqləri devrildib cümhuriyyətlər vücuda gətirməklə xitampəzir olan [sona çatan] Cahan müharibəsi, ticarət aləmində də ayrı-ayrı fərdlər əvəzinə müştərək ticarət və yaxud şirkətlər, kompaniyalar və səhmdaran [səhmdarlar] cəmiyyətləri vücuda gələcəyini və bunların qarşısında ayrı-ayrı fərdlərin müqavimət gətirməyərək kəndi mövqelərini tərk etməyə məcbur olacaqlarını keçirdiyimiz dörd sənə zərfindəki hərəkat göstərmişdir. Hələ müharibənin birinci sənələrində möhtəkirlər əlindən təngə gəlmiş camaat nə həvəslə istehlak cəmiyyətləri təşkilinə şüru etməsi [başlaması] hamımızın xatirində olsun gərək. Əlbəttə, camaatımızın hazırsızlığı və mövcud əmtəə və məkulatın [ərzağın] möhtəkirlər əlində bulunması, istehlak cəmiyyətlərini məhdud bir dairə daxilində işləməyə məcbur edirdi. Və sonra isə malların büsbütün bazarlardan yox olması istehlak cəmiyyətlərini kəndi vəzifələrini layiqincə ifadan məhrum etdi. Lakin sülhi-ümumidən az bir zaman sonra el dükanları yenə işə başlayaraq xırda möhtəkirlərlə mübarizə edəcəklər və həm qalib gələcəklər.

Məqsəd, istehlak cəmiyyətlərindən bəhs etmək olmadığından, yeri gəlmişkən, arşınfüruşluq [parça, arşın malı satmaq], baqqallıq, əttarlıq [ədviyyatçılıq] və bu qəbil birinci zəruriədd [hesab] olunan şeylərin ticarəti az bir zamanda xüsusi alış-verişçilərdən istehlak cəmiyyətlərinə keçəcəyinə və bu qəbil əşyaların ticarəti ilə iştiğal edənlərin [məşğul olanların] başqa məşğələ axtarmaq məcburiyyətində bulunacaqlarına işarə edərək mövzuyi-bəhs [bəhs olunan, haqqında danışılan] məsələyə keçəlim.

Şimdi ticarətimiz məhdud bir dairə daxilində olsa da, yenə çox para ilə az mənfəət edərək imrari-həyat etmək [ömür sürmək] və bəlkə sərmayəni həm artırmaq mümkündür. Lakin yaxın atiyyədə [gələcəkdə] Yevropa, Amerika və həm qonşularımızın sərvətdarları bizdən ötrü kəndi vətənimizin bazarlarını kasad etməyə təşəbbüslər edəcəklər. Vətənimizə gələnlər kompaniyalar tərtib edərək böyük sərmayə, geniş məmulat [məhsullar] və həm müştərilər üçün əsbabi-təshilat [asanlaşdırıcı səbəblər] ilə meydana girəcək olduqlarından, təbiidir bizim ticarətimiz şimdiki halında qalarsa, kəndi mövqeyini büsbütün tərk etmək məcburiyyətində bulunacaqdır. Binaənileyh [ona görə], vətən ticarətini kəndi əlimizdə saxlamaq istərsək, qabağımıza gələcəyi məlhuz olan [təsəvvür edilən] fövqəlzikr [yuxarıda deyilən] qorxunun qarşısına çıxmağa hazırlaşmalıyız və kəndimizi başqaları ilə ticarət mübarizəsi yapmaq istedadına malik etməliyiz və çünki yaxın gələcəkdə ticarət əksərən şirkətlər və kompaniyalar vasitəsi ilə olacağına artıq şübhə yoxdur zənnindəyəm. Binaənileyh, başqaları ilə mübarizə etmək istərsək (istəyəcəyimizə əminiz) biz də şirkətlər, kompaniyalar təsisinə şüru etməliyiz.

Lakin türk irqinin və baxüsus [xüsusilə] Azərbaycan türklərinin əhvali-ruhiyyə, ictimaiyyə və ənənəvi xüsusiyyətləri tədqiq olunarsa, onların təbiətən ictimai həyatdan artıq xüsusi həyatla yaşamağı adət etmiş bir xalq olduqları müşahidə olunar. Həmin bu xüsusiyyətləri nəticəsidir ki, türklər ticarətdə həm xüsusilik sevirlər. Kompaniyalarda, səhmdaran cəmiyyətlərində iştirak etmək istəməzlər və yalnız kəndi sərmayələri kifayət edən bir miqyasda ticarət yaparlar. Binaənileyh, gələcək üsuli-ticarət üçün azərbaycanlıların mədəniyyətcə hazır ol[ma]dıqlarından əlavə, bir də ənənəcə laqeyd qalacaqlarını, məəttəəssüf [təəssüf ki], etiraf etmək məcburiyyətindəyiz.

Azərbaycan türklərini fənni-ticarətcə müasirləşdirmək və həm şirkətlərə və kompaniyalara onlarda olan ədəmi-etimadı izalə etməyə [etimadsızlığı aradan qaldırmağa] təşəbbüslər etmək növbədəki vəzifələrimizdəndir. Hökumət, milli müəssisələr, camaat xadimləri, milli mətbuat məzkur [deyilən] nöqtələrə nəzər etməli və onların islahı üçün var qüvvələri ilə çalışmalıdırlar. Hökumət ticarət məktəbləri, buxqalteriya kursları açaraq və bunlarda təlim üçün qabiliyyətli mütəxəssislər dəvət etməlidir. Milli müəssisələr, camaat xadimləri ticarət, sənaət [sənaye] haqqında mühazirələr oxumalı və risalələr nəşr etməlidirlər. Milli mətbuat, kəndi sütunlarında ticarət, sənaət haqqında uzun-uzadı bəhslər edərək camaatımızda şirkətlərə, kompaniyalara hüsn-təvəccöh oyatmağa səy etməlidirlər və ilaxır və ilaxır.

Artıq bədbin olmadığımızdan, millətimizin istedadına və vətənimizin parlaq istiqbalına [gələcəyinə] inandığımızdan yaxında Azərbaycanda ticarətxanalar, şirkətlər, kompaniyalar təsis ediləcəyinə inanırız. Münəzzəm [nizamlı] bir ordunun təlim görmüş əsgərlərə ehtiyacı olan kimi, münəzzəm bir ticarətxananın həm təlim görmüş qulluqçulara ethiyacı var. Böylə qulluqçuları az bir zamanda yalnız buxqalteriya kursları vasitəsilə hazır etmək mümkündür. Təşkili arzu olunan türk buxqalterlərinin cəmiyyəti yalnız bu nöqtəni düşünməli və türk dilində buxqalteriya kursları açmalıdır. Əcdadlarımızın səhv və xətalarını təshih və vətənimizin istiqbalını [gələcəyini] təmin vəzifələrini tariximizə mühəvvəl etmiş [tapşırmış] və vəzifəmizin ifasında qüsur göstərmiş olarsaq, həm tarix, həm vətən və həm gələcək nəsil qarşısında məsul olacağız.

Müstəqil yaşamaqdan ötrü "iqtisadən" qüvvətli olmaq lazımdır. "İqtisadən" qüvvətli olmaq isə, yalnız vətən ticarətini, sərvətini vətən övladının əlində saxlamaqla olar ki, bundan ötrü ticarətdə, sənaətdə müasirləşmək lazımdır.

*Tağı Nağdəlizadə*

## MART MATƏMİ ƏTRAFINDA

**Məşqətədə [Maştağada]**

18-31 mart 1919

Sübh saat 9 radələrində bütün bazar və başqa müəssisələr qapadıldıqdan sonra camaat qəryə [kənd] mərkəzində vaqe məscidi-cameyə toplanırdı.

Bu gün hamının matəm və qəm içində mükəddər [kədərli] bir halda olduğu müşahidə olunur. Hətta küçələrdə qoca kişilərin və qadınların ah-naləsi eşidilirdi. Kənd üləma və mötəbəranı [ruhaniləri və mötəbər şəxsləri] tərəfindən məzkur [deyilən] məsciddə bu günə məxsus bir əza məclisi tərtib verilmişdi.

Ayini-təziyət [əza mərasimi] icrasından sonra kəndin ziyalı üləmalarından axund Seyid Hüseyn Seyid Həsənzadə cənabları bu günün biz türk milləti üçün böyük tarixi bir matəm günü olduğu barəsində müfəssəl məlumat verdikdən sonra keçən il və bugünkü faciədən sonra müvəffəq olduğumuz istiqlaliyyətimizin əldə qalması ancaq yenə də bizim ittifaq və ittihadımızla [birliyimizlə] olub, axır bir qaşıq qanımız qalıncaya qədər başımız üstündə təməvvüc edən [dalğalanan] bayrağımızı düşməndən müdafiəyə yəmin etməyə çağırdı.

Kəndi istiqbalımızın [gələcəyimizin] səadəti yenə də həman bayrağın uca tutulmasından asılıdır, dedi.

Yaşasın türk-islam millətinin bugünkü ittifaqı!

Məhv olsun əleyhimizə çalışanlar!

Yaşasın istiqlalımız!

Sonra "Müsavat" üzvlərindən Cəfərzadə tərəfindən Mart hadisəsi haqqında məlumat verilib, saat üç radələrində məclisə xitam verildi.

**Şəkidə**

Şəkidən idarəmizə böylə bir teleqraf gəlmişdir:

1918 sənəsi martın 31-ində istiqlalimillimizi sarsıtmaq məqsədi ilə bir taqım müləvvəs [kirli] və xain əllər tərəfindən yapılmış Bakı cinayətinin səneyi-dövriyyəsi [ildönümü] münasibəti ilə bu gün rəyasətim altında ümum ticarətxanalar qapanaraq bir mitinq tərtibi ilə bugünkü günü biz müsibətədd [hesab] edərək şühədayi-kiramımızın [əziz şəhidlərimizin] bu məsum ruhlarına fatihəxan olduqdan [Fatihə oxuduqdan] sonra müqəddəs və möhtərəm olan müstəqil Azərbaycan Parlamanına bəyani-təziyət etməyə məmur edildim [başsağlığı vermək işi mənə tapşırıldı].

*Şəki Bələdiyyə rəisi:*
*Azad Mustafazadə*
*Mitinq katibi:*
*Məbud Əfəndizadə Kazımov*

## BAKI XƏBƏRLƏRİ

**Qubernatorun əmri**

30 mart 1919

Axır vaxtlar şəhərdə qarət qəsdi ilə olaraq dinc əhalinin evlərinə və mağazalarına hücum edilir və bu iş get-gedə şiddət etməkdədir. Alınan məlumata görə, böylə hücumları yapan canilər Biçeraxov dəstəsi nəfəratı [əsgərləri] və həmçinin qeyri şəhər və uyezdlərdən [qəzalardan] gəlmiş olan, heç bir sənət sahibi olmayanlardır.

Bununla elam edirəm [bildirirəm] ki, böylə qarətgərlər [qarətçilər] və canilərin əleyhinə mənim tərəfimdən ən qatı tədbirlər ittixaz edilmiş [tədbirlər görülmüş] və müqəssirlər Bakı quberniyasından sürgün ediləcəklərdir. Bundan əlavə, caniləri və qatilləri hərbi məhkəməyə verilməkdən ötrü ali hökumət dairələrində səy və istidada [xahişdə] bulunacağam ki, müqəssirlər hərbi vaxt qanunu ilə mühakimə edilsinlər.

Heç bir müəyyən qulluğu, vəzifəsi olmayıb və boş yerə şəhərin küçələrində veyl [avara] gəzənlər isə tövqif edilib [tutulub] özlərinin daimi sükunət etdikləri [yaşadıqları] yerlərə göndəriləcəklərdir.

Bütün polis məmurlarına əmr edirəm ki, böylə şübhəli şəxsləri ciddi surətdə olaraq təqib edib və onlara verilən ixtiyar ilə tənbeh etsinlər [cəzalandırsınlar].

*Bakı qubernatoru:*
*Rəşid bəy Axundzadə*

**Müəllimlərin ümumi iclası**

Cümə günü, aprelin 4-də, Birinci Aliibtidai ünas [qızlar] məktəbində ibtidai məktəblər müəllimlərinin ümumi iclası dəvət edilmişdir. İclasda bəzi mühüm məsələlər müzakirə və həll ediləcəkdir.

**İdilboyu müsəlmanlarına**

İdilboyu [Volqaboyu] türk-tatarları camaatının mütəşəbbislər heyəti öz vətəndaşlarından rica edir ki, 4-üncü apreldə, cümə günü, saat 3-də 4-cü ünas məktəbi binasına (2-ci mərtəbə) çağırılmış olan şuraya təşrif gətirsinlər (Kubinski küçədə 12-ci ev).

Baxılacaq məsələlər: Məscid bina qılmaq üçün komitə düzəltmək, sair məsaili-cariyyə [cari məsələlər].

**Füqəra arvadların şikayəti**

İdarəmizə Çənbərəkəndində sükunət edən [yaşayan] bir çox fəqirə və əlsiz-ayaqsız arvadlar gəlib şikayət edirlər ki, onlara bu vaxta qədər ikinci uçastok ev komitəsi tərəfindən səkkizinci məntəqə-

dən azuqə və yemək buraxılırdı, şimdi isə daha verilməyir. Həman azuqə paylanılan yerlərdə, dükanlarda isə füqəranın halı bilmərrə nəzərə alınmayıb, azuqəni hər kəs öz qövm-əqrəbasına verir. Fəqirlər isə yenə ac qalırlar. Arvadlar bir tərəfdən çılpaq və evsiz qaldıqlarını göstərərək tezliklə bu barədə dəxi sərəncam edilməsini rica edirlər. Ev sahibləri onları evdən çıxarırlar. Libasları və çadirşəbləri [çadraları] olmadığından açıq-açığına və üryan gəzməyə məcbur olurlar. İdarəyə gəlmiş olan arvadlar həman cırıq-cındır paltarda, ayaqyalın olaraq gəlmişlərdi. Ümid olunur ki, bu biçarələrin halı nəzərə alınar da beqədri-qüvvə [imkan daxilində] yardım olunar.

**"Səfa" maarif cəmiyyəti binası**

Neçə illərdən bəri maarif və mədəniyyətə xidmət edib və biçiz [yoxsul] uşaqlara təlim və tərbiyə verməkdə böyük bir məharət göstərmiş olan "Səfa" maarif cəmiyyəti, başqa mədəni və maarif cəmiyyətlərimiz kimi bir ildən ziyadədir hərəkətsiz qalmış və onun varlığından əsər belə müşahidə olunmayır. Məzkur [adı çəkilən] cəmiyyət rəsmən qapanmamışsa da, heyəti-idarəsi tərəfindən bu barədə heç bir məlumat verilməmişdir. Artıq zəhmətlərlə başa gəlmiş olan cəmiyyətin böyük binası şimdi toyxanaya təbdil edilmiş [çevrilmiş], orada toy məclisləri tərtib edilir. Çünki "açıq qapı" və sahibsiz olduğundan hər kəs ondan "istifadə" etmək istəyir. İştə məzkur cəmiyyət əzalarının [üzvlərinin] və heyəti-idarənin, hərgah varsa, diqqətini bu fəqərəyə [məsələyə] cəlb etmək istərdik.

**Balaxanı edadi məktəbində müsəlman balaları üçün əlifba şöbəsi açılması**

Maarif naziri-vala-səmiri [şanı uca Maarif naziri] Yusifbəyli həzrətlərinin əmrlərinə görə, Sabunçu kəndxudası İsabala Eldarzadənin, Balaxanı-Sabunçu polis müdiri cənab Lütfəli bəy Əmircanovun köməkliyi ilə Balaxanı edadi məktəbində müsəlman balaları üçün əlifba şöbəsi açılmaqla, yaxın kəndlərin camaatına elan olunur ki, bu mühüm nemətdən istifadə edib, öz balalarını məzkur [deyilən] şöbəyə qeyd etdirməyə tələssinlər.

Məzkur şöbədə oxuyan uşaqlardan biçiz [yoxsul] olanlarının içindən qür'ə [püşk] ilə seçilmiş altı nəfərin həqqi-tədrisi [tədris haqqı] olan 1200 manatı Sabunçu camaatı bu ilin 7 mart tarixiylə və 4 nömrəli məsləhətnamə mövcibi [əsasında] ilbəil verməyi öz öhdələrinə götürübdür. Və genə həman biçiz şagirdlərin ləvazimati-tədrisiyyəsinə və gələcəkdə ikmali-təhsilləri [təhsillərini davam etdirmələri] yolunda sərf olunmaqdan ötrü bir tanxa (fond) əmələ gəlmək üçün Sabunçu Müsəlman həvəskarlar drama cəmiyyəti əvvəl iclasında birinci nömrəli bəratülqövl [protokol] ilə mütəəhhid olublar [öhdələrinə götürüblər] ki, məxsusən mütəşəkkil heyəti-təftişin [xüsusi qaydada təşkil edilmiş təftiş heyətinin] nəzarəti altında bundan sonra səhnələrdən hasil olacaq safi mədaxilin yarısını məzkur tanxanın mənfəətinə versinlər və tanxaya sərmayə olmaq üçün Naib Quluzadə və Mirzə Cabbar Ələkbərzadənin təşəbbüsü ilə beqərari-zeyl [aşağıdakı qaydada] ianə cəm olub, kəndxudaya təslim olunmuşdur:





Keçən sənə Mart hadisəsində bolşevik və daşnakların iclasının qərardadı ilə olunan hücumlara qarşı köks gərib özünü, irz-namusunu müdafiə etməyinə görə özü, iki qardaşı və iki növrəs [yeniyetmə] oğlanları ilə beşi birdən güllələnib qətl olunan Güləhməd Ağayevin bayram axşamı münasibəti ilə qəbrinin ziyarətinə gedildikdə onun ehsanı üçün Kərbəlayi Əşrəf Əmiraslanov 100 m, Kazım Qasımov 25 m, Mehdiqulu Mehdiyev 25 m, Səfdər Rəhimov 20 m, Əlixas Mehdiyev 10 m və Mirzə Cabbar Ələkbərzadə 50 m, cəm'ən [cəmisi] 230 manat verilib və 672 manat da ləffən [əlavə olaraq] təqdim olunan siyahı mövcibi [əsasında] camaat və alış-verişçilərdən cəm olub ki, əlan [indi] tanxanın [fondun] sərmayəsi 902 manat olub, minbəd [bundan sonra] veri-ləcək ianələr və ya səhnələrdən hasil olacaq nisfi-mədaxilin [qazancın yarısının] miqdarı qəzetə vasitəsi ilə elan oluna-caqdır.

.........

**AZƏRBAYCANDA**

**Göyçaydan**

23 mart 1919-cu ildə Göyçayda Azərbaycan Parlamanına məbus seçmək münasibəti ilə şəhər deputatlarının, təşkilat vəkillərinin və camaat rəislərinin səvabdidi [təsdiqləməsi] ilə bir həftə əvvəl alınmış qərara görə, hər on evdən bir nəfər vəkil olmaq üzrə 53 nəfər şəhər vəkillərindən 43 nəfəri hazır olaraq intixaba şüru olundu [seçkiyə başlandı]. Seçki rəisi Rza bəy Ağabəyov seçki qanununu bəyan edib, bir nəfər müavin və bir nəfər katib seçilməsini xahiş eylədi. Camaat bir səslə Hüseyn bəy Paşabəyovu müavinisədr və Əliməhəmməd Əliyevi katibliyə intixab edib seçkiyə şüru olundu və örtülü şar salmaq təriqi [üsulu] ilə hər səs öz mətlubunu [tələbini] kağız ilə pişnihad [təqdim] edərək ümumən Rza bəy Ağabəyovu göstərdikləri məlum oldu. İntixab qurtarandan sonra seçkiyə gəlmiş müntəxiblərdən [seçicilərdən] əksərinin xahişi ilə Mirsahib Rüstəmzadə təzə vəkil Rza bəy Ağabəyova xitabən böylə bir nitq söylədi:

"Hər kəs öz ağıl və vicdanının göstərməyi ilə bir məslək əxz etməyə məcburdur. İntixab olunmuş vəkilimizin məsləki az-çox əhaliyə məlum olduğundan, o barədə camaata izahat verməli lüzumu yoxdur. Ancaq camaatın birinci arzusu odur ki, onların vəkili Rza bəy Ağabəyov Məclisi-Məbusanda Azərbaycan istiqlaliyyətinin möhkəmləşməsinə var qüvvəsi ilə çalışsın və həmçinin xarici düşmənlərdən mühafizət etməyə lüzum vaxtında müdafiə və mühacimədən [hücum etməkdən, həmlə etməkdən] çəkinməyib hər bir fədakarlığa iqdam etməyə [girişməyə] səs versin və bu barədə sizi vəkil edən şəxslər heç bir maddi və mənəvi köməkdən geri durmayacaqlarını söz verirlər. Burada acınacaq bir iş varsa, o da Rza bəy Ağabəyovun Göyçaydan getməyidir. Müşarünileyh [adı çəkilən şəxs] çalışqan və millətpərəst olmaqla bərabər, elm sahibi olmaqda Göyçayda tək bir nəfərdir. Mumaileyh [haqqında danışılan şəxs], Moskva Darülfünununda [Universitetində] elmi-hüquq şöbəsini təkmil edib [bitirib], bu axırlarda Ədliyyə vəziri [naziri] tərəfindən Göyçayda bidayət məhkəməsi

[ilk instansiya məhkəməsi] rəisi mənsəbinə təyin olunmuşdu. Məclisi-Məbusana seçilməklə öz vəzifəsindən istefa verməyə məcbur olur. Hərçənd camaat Rza bəy cənablarının getməsinə təəssüflənir, vəli [ancaq] Azərbaycan Cümhuriyyətinin təşkili və onun istiqlaliyyətini Göyçay camaatı özündən ötrü öylə vacibədd [hesab] edir ki, Rza bəy kimi dəyərli və lazımlı bir vücuddan əl çəkirlər. Göyçay kimi məhdud bir dairə daxilində işləmək vaqeən göyçaylılıq nöqteyi-nəzərindən daha yaxşı isə də, Rza bəy kimi gənc bir fəalın Azərbaycan mühiti kimi geniş bir cövlangaha çıxması ümum azərbaycanlılıq mənafei-aliyyəsi naminə daha şanlı, daha şərəflidir."

*Göyçaylı*

**Şamaxıdan**

Vətənlərinə qayıdan Şamaxı qaçqınlarının sanı gündən-günə artmaqdadır. Böylə ki, martın 10-dan bu ana qədər xeyli əhali gəlmişdir. Payızdan gələnlər havanın günəşli günlərində özlərinə ev, dükan tikmək ehtiyatına düşürlər. Təzə varid olan [gələn] qaçqınlara Ümuri-Xeyriyyə Nəzarətinin Şamaxı nahiyə müfəttişliyi havanın yağmurlu keçməsinə görə tikinti barəsində bir o qədər köməklikdə bulunmayıb, müfəttişliyə məxsus dəmirçi, dülgərxanalarında gələcək tikintilərə məxsus xeyli qapı, pəncərə və qeyri əşya hazırlatmaqdadır. Narahat damlarda yaşayan əhali öz rahatsızlığını idarəyə məlum etcək dərhal dülgər, qırçı, fəhlə və bunlara lazım olan ləvazimat müfəttişlik tərəfindən məccani [pulsuz] buraxılaraq arzularına əməl olunur.

Bir para qaçqınların damsız və rahatsızlıqlarını nəzərə alaraq bu yaxın vaxtda "gecə yurdu" və "darülfüqəra" [yoxsullar evi] təsisinə şüru ediləcəkdir [başlanacaqdır]. Hal-hazırda olan "çocuqlar yurdunda" altı yaşından üç yaşına yavuq hər millətlərdən olaraq 80 qədər qız və oğlan uşaqları yaşamaqdadır.

Şəhərdə dükanlar az isə də alver böyük tərəqqidədir və bahalıqdır. Böylə ki, ətin girvənkəsi 16 manata, yağın 35 manata, çörəyin 3 manata, qeyri əşyalar da bu ayaqdan satılmaqdadır.

Ətraf kəndçilərin əkinləri və qaramalları olmadıqlarından gələcəkdə böyük yoxsulluğa düşmələri gözlənilir.

İrəvan mahalından gələn 1700 qaçqın Mədrəsə kəndində yerləşib, həman kəndin həmişəlik onlara qalmağına irəvanlılar səy edibsələr də, hələ hökumət tərəfindən rəsmi bir kağız almayıblar.

*Ağaisa*

## ERMƏNİSTANDA

**Parlamanda dava**

Ermənistan Parlamanında siyasi xasiyyəti havi [siyasi xarakter daşıyan] bir gurultu əmələ gəlmişdir. Belə ki, bu hadisə bütün erməni dairələrinin diqqətini kəndisinə cəlb eyləmişdir.

Həman gurultulu iclasın bəratülqövlü [protokolu] bu qərar üzrədir:

"1918-ci sənə fevralın 28-də Ermənistan Şurasının növbəti iclası vaqe olmuşdu. Məclisin sədri Ter-Xaçaturyan iclası açaraq kvestora təklif edir ki, iclasda iştirak edənləri saysın. Sayıldıqdan sonra anlaşılır ki, Daşnak fraksiyonundan başqa hamı fraksiyalar isbati-vücud [iştirak] edirlər. Fəqət daşnaklar gəlmədiyindən Məclisdə kvorum olmaz.

Sədr iclası qeyri-münəqid [baş tutmamış] elan etdikdə, Şura üzvü Ter-Akopyan (eser) söz istəyərək sosialist-revolyusyonerlər namından [adından] təklif edir ki, bu iclas xüsusi şura olsun. Bu təklif əsasından bəhs etdiyi zaman səslər eşidilir: "Sosialistlərə Parlamanda qalmağa müsaidə verməlik." Sədr təklif edir ki, qaydanı xələldar etməsinlər. Səslər daha artır.

İş bu yerə müncər olduqda [çatdıqda], sədr bəyan edir ki, xüsusi şuraya sədarət etməyəcəkdir. Sonra sədrə məxsus yerdən qalxıb iclasdan gedir.

İclasda olan fraksiyalar öz yerlərində baqi qalırlar və öz ünvanlarına hədələr və söyüşlər eşidirlər. Bu əhvala xitam vermək üçün Sosialistlər fraksiyonları sədr müavini Zoryana təklif edirlər ki, xüsusi şuranı da qeyri-münəqid elan eyləsin və üzvlərə iclas salonundan çıxmağı təklif eyləsin və onlar xüsusi şuranı Parlamanda deyil, başqa bir yerdə etsinlər. Sədr müavini Zoryan sədarətə keçib də, zəngi çalıb da ağzını açmamış tamaşaçıların içindən bir neçə nəfər müsəlləh [silahlı] şəxslər gəlib, camaatı şura üzvlərindən ayırıb, söyüşlə, hədə ilə hətta tapança ilə sədr müavini yanına gəlib ondan tələb edirlər ki, mövqeyi-sədarətdən çəkilsin. Zoryan bu tələbi rədd etdikdən sonra bu dəstə Zoryanı əhatə edib, sürüyə-sürüyə dışarı çıxarmaq istərlərsə də fəqət kürsiyi-xitabət yanında sair üzvlər bu dəstəyə mane olurlar və dəstəni sakit edib onları vadar edirlər ki, sədr müavini Zoryanı təhqir etməsinlər.

Bu zaman Ermənistan şurası üzvü doktor Artaşes Babalyan (daşnak) iclas salonuna daxil olur. Şura üzvlərini göstərərək və camaata müraciətlə "Bu namərbutları çıxarın buradan" deyə hayqırır.

Xülasə, təcavüzçü dəstənin adları məlum deyilsə də, fəqət onların içərisində Ter-Qriqoryan və Atayanın olduğu bəllidir.

Bu mənzərələrə Məclisdə hazır olan Baş nazir Xatisyan, Səhiyyə naziri Torosyan, Maarif naziri Məlik-Qaragözyan, İrəvan Bələdiyyə rəisi Toşyan şahiddirlər.

Divani-rəyasət qərar qoymuşdur ki, bu bəratülqövl [protokol] Ədliyyə nazirinə göndərilib, müqəssirlər təhti-məsuliyyətə [məsuliyyət altına] alınsınlar.

*Ermənistan Şurası sədri müavini:*
*F. Ter-Xaçaturyan*

## İANƏ

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müsəlman darüleytamı [yetimxanası] nəfinə [xeyrinə] olaraq Novruz bayramı münasibətilə işbu ianələr daxil olmuşdur:

1) Bakı neftçilərindən Məşhədi Hüseyn Məlikovdan 3 min rublə para, ayda 50 put neft.

2) Hacıbaba Ağasıyevdən 1 put küncüt yağı, bir kisə un.

3) Abdullayevdən darüleytama lazım olan qədər davacat və qeyrə.

Nəzarət darüleytam müdirəsi [Liza] Muxtarov[a] xanıma xəbər vermişdir ki, məzkur [deyilən] əşyanı Nəzarətdən almaq olar.

## ELANLAR

### Elan

Təxminən fevral ayının əvaxirində [axırlarında] mən evdə olmadığım halda Həsən bəy namına [adına], kəndimə məxsus tarımı bir gecəlik adıyla aparıblar və şimdiyədək qaytarılmayıb. Həman tara ehtiyacım olduğu üçün aparan və apartdıran şəxsdən xahiş edirəm ki, məzkur [deyilən] tara daha artıq ehtiyacı yoxdursa, iadə etsin [qaytarsın].

*Zülfüqar bəy Hacıbəyli*
*T-82*

### Diş həkimi Altmanın müalicəxanası

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

### Doktor Ağahüseyn Kazımov

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

### Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

### Diş həkimi

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*7515*

### Bakıda Xırda Mədənçilər və Neftçilər Cəmiyyəti İdarəsi

Bununla xırda mədənçilərə elan edir ki, qulluqçulara və fəhlələrə mart məvacibini almaqdan ötrü tabellər yazıb versinlər ki, onlar Hökumət Bankından məvaciblərini alsınlar. Tabellərin verilmək vaxtı aprelin 1-dən 5-inə qədərdir.

*Ünvan: Olginski küçə, nömrə 5, 3-cü mərtəbə.*
*5772*

### “Azərbaycan” qəzetəsi kantoru tərəfindən

Bu gündən etibarən qəzetəmiz əvvəlkindən böyük çıxacağından və kağız baha olduğundan…

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

### Zaqatala məsələsi

səh. 30. “Qruziya”: 1918-1921-ci illərdə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet. Heç bir partiyanın orqanı olmadığını elan etsə də, bu qəzet əslində gürcü millətçilərinin görüşlərini əks etdirirdi.

### Azərbaycan Məclisi-Məbusanında

səh. 32. “Sovet Syezd”: Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

“Bu layihə Ləvayehi-qanuniyyə komitəsində baxılıb…”: qəzetdə “Ləvayehi-qanuniyyə” yerinə “Ləvazimi-Qanuniyyə” yazılmışdır.

“indiyə qədər böylə idarə yox idi”: “böylə idarə” sözləri ilə Məhkəmə Palatası nəzərdə tutulur.

səh. 35. “Əhməd bəy oxuyur”: Sosialistlər fraksiyasının sədri kimi sorğunu imzalayan Səməd vəy Ağamalıoğlu iclasda iştirak etmədiyindən, sorğunu eyni fraksiyadan Əhməd bəy Pepinov oxumuşdur.

### Teleqraf xəbərləri

səh. 39. “Ağ kitab”: Bir sıra ingilisdilli ölkələrdə hökumətin gələcək siyasi kursunu izah yaxud müxtəlif mövzularda sənədləri ehtiva edən rəsmi nəşr.

### Qəzetələrdən

səh. 39. “Amerika Məclisi-Əyanında”: İkipalatalı qanunverici hakimiyyət orqanı olan ABŞ Konqresinin yuxarı palatası (Senat) nəzərdə tutulur.

“Buffaloda”: bu söz qəzetdə təhrif edilmiş formada verilmişdir. Buffalo şəhəri ABŞ-ın şimal-şərqində, Nyu-York ştatının şimal-qərb hissəsində yerləşir.

səh. 40. “zərərlərin ağır məsuliyyəti almanların…”: xəbərin ardı kəsilmiş, oxunmur.

### Müxtəlif xəbərlər

səh. 40. “Zemlya i volya”: Azərbaycan sosialist-inqilabçılarının orqanı idi.

“qasiblərdən azad edəcəkdir. (?)”: sual işarəsi qəzetdə qoyulmuşdur.

### Dağıstan əhvalı

səh. 41. “Assinovskaya mövqifi”: Assinovskaya – Rusiya Federasiyası tərkibində Çeçen Respublikasının Sunja rayonunda yerləşən stanitsanın (kəndin) adıdır. Qəzetdə bu ad təhrif edilmiş formada “Asinovka” kimi verilmişdir.

### Nəzarətlərdə

səh. 42. “Ticarət və Sənaye Nəzarəticəliləsi”: “böyük, cəlallı, uca” mənalarına gələn “cəlilə” sözü rəsmi yazışmalarda nazirliklərin adına əlavə edilirdi.

“Qafqaz-Merkuri” gəmiçilik cəmiyyəti [Пароходное общество "Кавказ и Меркурий"]: “Merkuri” gəmiçilik şirkəti 1849-cu ildə, “Qafqaz” gəmiçilik şirkəti isə 1858-ci ildə qurulmuş, elə 1858-ci ildə bu iki şirkət birləşərək “Qafqaz-Merkuri” gəmiçilik cəmiyyətini əmələ gətirmişdir. 1913-cü ildə isə “Qafqaz-Merkuri” ilə “Şərq Ticarət Anbarları Şirkəti”nin [Восточное общество товарных складов] birləşməsi nəticəsində KAMVO (birləşən şirkətlərin adlarının baş hərflərindən) adlı gəmiçilik şirkəti əmələ gəlmişdir.

“Vostoçnoye Obşestvo”: “Şərq Cəmiyyəti” (Şərq Ticarət Anbarları Cəmiyyəti; Восточное общество товарных складов) Rusiyada böyük səhmdar cəmiyyətlərindən biri idi. 1893-cü ildə qurulmuşdu. Mərkəzi Sankt-Peterburq şəhəri idi. Yüklərin saxlanması, daşınması və sığortalanması ilə məşğul olmuşdur. 1917-ci ildə “Qafqaz-Merkuri Cəmiyyəti” ilə birləşmişdir.

### “Məfkureyi-aliyyəmiz” şeiri (səh. 42) üçün lüğət:

dövləti-növzad: yeni yaranan dövlət

nəcmü-hilal: ulduz və aypara
əqvami-aləm: dünya millətləri
həyati-növin: yeni həyat
Şərqi-ə'zəm: böyük Şərq, ulu Şərq
xəndeyi-ümmid: ümid təbəssümü
xütvə: addım
ənzari-əhli-xak: yerüzü əhlinin nəzərləri
rəhgüzar: gedilən yol
qibtəbəxşi-miləl: millətlərin qibtə etdiyi
şayani-afərin: bəyənilməyə, afərin deməyə layiq
ə'dayi-namurad: muradına çatmayan düşmən
nəzmü-nizam: nizam-intizam, qayda-qanun
parlaq əməllər: parlaq arzular
müzəhhər: çiçəklənən; çiçəklərlə bəzənmiş
şahrahi-bariqədar: bərq vuran geniş yol
ülvi payə: uca mənsəb; uca məqam
xütveyi-mətin: mətin addım, sarsılmaz addım
rahi-kamal: kamillik yolu
mütəntən cəlal: təntənəli böyüklük, əzəmət, cah-cəlal
kainati-rüf'ət: ucalıq aləmi
şəhbali-irtiqa: ucalmaq qanadı
ənvari-e'tila: yüksəliş nurları; tərəqqi nurları
ənvari-intibah: intibah nurları
əzhari-intibah: intibah çiçəkləri
çəmən-arayi-mərifət: mərifət (elm və maarif, mədəniyyət) bağını bəzəyən
iqbalü-məs'ədət: uğurlu tale və xoşbəxtlik
səh. 43. ………… (iki sıra nöqtələr) qəzetdə var.

**Ticarət haqqında**

səh. 45. "…geniş məmulat…": qəzetdə "məmulat" yerinə "məlumat" getmişdir.

"…məəttəəssüf etiraf etmək məcburiyyətindəyiz": qəzetdə "etiraf" yerinə səhvən "etiraz" getmişdir.

**Bakı xəbərləri**

səh. 47. "Kubinski küçə": Bakıda, indiki Zivərbəy Əhmədbəyov küçəsi.

səh. 49. "qəzetə vasitəsi ilə elan olunacaqdır. ………": yazının altındakı imza yırtılıb, oxunmur.

**Ermənistanda**

səh. 50. "kvestor": Parlamentlərdə daxili idarə işlərinə baxan şəxs.

səh. 51. "eser": Sosialist-inqilabçılar partiyasına mənsub şəxs.

"Zoryan": Ermənistan Parlamentinin üzvü David Zoryan nəzərdə tutulur; qəzetdə "Zobyan" getmişdir.

"Səhiyyə naziri Torosyan": çox güman ki, Ermənistanın Sosial Təminat və Əmək naziri olmuş Saak Torosyan nəzərdə tutulur.

**"Azərbaycan" qəzetəsi kantoru tərəfindən**

səh. 52. "və kağız baha olduğundan…": Elanın son sətri yırtılmış, oxunmur. Bu nömrədən etibarən qəzetin qiyməti 80 qəpikdən 1 manata qalxmışdır; elanda böyük ehtimalla bundan danışılır.





**Cümə, 4 aprel 1919-cu il, nömrə 150**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 3 rəcəbül-mürəccəb sənə 1337. 4 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Gəncə Türk Müəllimləri İttifaqı məşhur ədib **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] məlum edir.

*T-89*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Məşhədi Zeynal bəy, Əli bəy, Abdulla bəy və Məşhədi Əzim bəy Rəfibəyovlar öz sevgili əmisi oğlu Ələkbər bəy Rəfibəyovun həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Mədrəseyi-Diniyyə bununla məşhur ədib **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə məlum edir.

*T-90*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Doktor Xudadad bəy Rəfibəyov öz sevgili atası **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Gəncə Həmkarlar Cəmiyyəti Şurası bununla məşhur ədib Ələkbər bəy Rəfibəyovun həmin aprel ayının 3-ündə Gəncədə vəfat etdiyini kamali-hüzn və təhəssürlə elan edir.

*T-91*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Cavad bəy, Əyyub bəy, Qənbər bəy Rəfibəyovlar öz sevgili əmiləri **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

İsmayıl, Hilal və Abbas Məhəmmədovlar öz sevgili əmiləri **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə

öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

*T-92*

**İNNA LİLLAHİ**
**VƏ İNNA İLEYHİ RACİUN**

Məşhədi bəy, Məşhədi Əsgər bəy Rəfibəyovlar özlərinin sevgili əmisi oğlu **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

**İNNA LİLLAHİ**
**VƏ İNNA İLEYHİ RACİUN**

Gəncə Ticarət və Sənaət İttifaqı bununla məşhur ədib **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə məlum edir.

*T-93*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Elan**

Təxminən fevral ayının əvaxirində [axırlarında] mən evdə olmadığım halda Həsən bəy namına [adına], kəndimə məxsus tarımı bir gecəlik adıyla aparıblar və şimdiyədək qaytarılmayıb. Həman tara ehtiyacım olduğu üçün aparan və apartdıran şəxsdən xahiş edirəm ki, məzkur [deyilən] tara daha artıq ehtiyacı yoxdursa, iadə etsin [qaytarsın].

*Zülfüqar bəy Hacıbəyli*
*T-82*

**Operetta**
Hökumət Teatrosunda
Axşam tamaşası
Müdiriyyətin əzasından [üzvlərindən]
məşhur musiqişünas
və məruf [tanınmış] bəstəkar
Üzeyir Hacıbəylinin şərəfinə
cümə günü rəcəbül-mürəccəb
ayının 3-ndə 1337 sənəsi
(aprelin 4-ndə 1919-cu ildə)
şükuhlu [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin yazmış olduğu məşhur
**"Arşın mal alan"**
Tamaşa başlanmadan qabaq
Üzeyir bəyin təzə düzəltmiş olduğu
"Azərbaycan" milli marşı çalınacaqdır
və bə'də [sonra] dördüncü məclisdə
genə Üzeyir bəy tərəfindən yazılmış
olan 1) Azərbaycan; 2) Dağıstan rəqsləri
(oyunu) gözəl bir mənzərədə artistlər
tərəfindən oynanılacaqdır.
Biletlər indidən teatrın kassasında
satılmaqdadır.
Tamaşa başlanacaq axşam saat 8-in
yarısında.
"Arşın mal alan"ın bu dəfə Üzeyir bəy
özü dirijorluğunu edəcəkdir.

**BALIQ**

Balıq Ticarət Cəmiyyəti "Bank" bununla Bakı və dairəsi əhalisinə elan edir ki, cəmiyyət tərəfindən balıq satan dükanlara təzə Bank balığı satılmaqdan ötrü girvənkəsi aşağıdaki qiymət üzrə təqsim olunub [paylanıb]:

Sevryuqa [uzunburun] – 5 rublə, osyotr [nərə balığı] təzə – 5 rublə 25 qəpik, sazan





[çəki balığı] – 2 rublə, boçka ikrası [çəlləkdə kürü] – 50 rublə, meşok ikrası [torbada kürü] – 55 rublə, bankada 1 girvənkəlik – 45 rublə, ikra zernisti [dənəvər kürü] – 40 rublə.

**Aşağıdaki dükanlarda:**

1) A. N. Saruxanov – Sisyanovski küçə, Lalayevin evində;

2) L. M. Qriqoryans – Telefonnı küçə, Səfərəliyevin pasajında;

3) Arsen Babayev – Sisyanovski küçə, Krasilnikovun evində;

4) S. Avakimov – Stanislavski və Balaxanski küçələrin küncündə, nömrə 63;

5) Artyom Babayev – Sisyanovki küçə, Krasilnikovun evində;

6) S. K. Mnasakanov – Telefonnı küçədə, Səfərəliyevin pasajında;

7) D. İ. Arutyunov – Sisyanovski küçə, Lalayevin evində;

8) N. Hacıyev – Çelyayevski küçə, Aleksandro-Nevski pasaj;

9) Y. Y. Yeqiazarov – Kolyubakinski və Sisyanovski küçələrin küncündə;

10) Y. Kasparov – Telefonnı küçə, Voskanovun evində, nömrə 3.

11) A. Kasparov – Naberejni balıqçı dükanları, sklad [anbar] nömrə 2;

12) M. Hacıyev – Çelyayevski küçə, Aleksandro-Nevski pasaj.

Bundan əlavə, "Bank" cəmiyyəti skladında, Naberejni balıq satan dükanlar cərgəsində (sklad nömrə 5) dəxi satılacaqdır.

Sevryuqa və osyotr bir dənədən az, 2 dənədən artıq satılmayacaq.

*5778*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Azərbaycan Hökümətinin Qərarı**
30 mart 1919
Azərbaycan 100-lükləri

1) İndiyə qədər işlənməkdə olan pullardan başqa hökumət tərəfindən təsdiq edilmiş şəkildə yüz manatlıq Azərbaycan Hökuməti pulları buraxılsın.

2) Göstərilən pullar hökumət əmvalı [malları] ilə təmin edilir.

3) Maliyyə nazirinə həvalə olunsun ki, həm[in] pulların işlənməsi qanununu və buraxılması qaydalarını nəşr edib "Azərbaycan" qəzetəsinin qismi-rəsmi şöbəsində həmin pulun 1919-cu il şəklini təsvirlə elan etsin.

*Rəisi-vükəla Fətəli xan Xoyski*
*Maliyyə naziri vəzifəsini ifa edən:*
*Əliağa Həsənzadə*

**Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinin əmrnamələri**

Əmrnamə nömrə 91

Azərbaycan Məclisi-Məbusan İdarəsinin türk məzbətə mühərriri [protokol katibi] Süleyman Nuri İslam oğlu öz ərizəsinə mütabiq [uyğun olaraq], həmin mart ayının 31-dən etibarən məmuriyyətdən azad olunur.

Əmrnamə nömrə 92

Azərbaycan Məclisi-Məbusan İdarəsinin təhrirat [məktub] xidmətçisi Teymurxan Abbas kəndi ərzihalı üzrə məmuriyyətdən kənar edilir mart ayının 31-dən etibarən.

Əmrnamə nömrə 93

Azərbaycan Məclisi-Məbusan İdarəsinin müdir müavini Rza bəy Ağasıbəyov

kəndi ərzihalı üzrə 1919 sənəsi aprel ayının 1-dən etibarən məmuriyyətdən azad olunur.

Əmrnamə nömrə 94

Süleyman Nəzif 1919 sənəsi aprel ayının 1-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsinin türk məzbətə mühərriliyinə müvəqqətən təyin edilir.

Əmrnamə nömrə 95

Cəmaləddin Məhəmmədzadə 1919 sənəsi aprel ayının 1-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində kargüzar təyin edilir.

*İmza: Məclisi-Məbusan rəisi naminə Həsən bəy Ağayev*
*Mətninə mütabiqdir, kargüzar: C. Paşazadə*

Əmrnamə nömrə 83

Hökumət draqomanı (tərcümanı) Məhəmməd ağa Vəkilov 1919 sənəsi mart ayının 5-dən etibarən Azərbaycan Məclisi-Məbusanı İdarəsi müdirliyinə təyin edilir.

Əmrnamə nömrə 84

Hüseyn Mirzəcamalov 1919 sənəsi mart ayının 9-dan etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsindəLəvayehi-qanuniyyə [Qanun layihələri] şöbəsinin müdiri vəzifəliyinə təyin edilir.

*İmza: Məclisi-Məbusan rəisi naminə rəis müavini: doktor Həsən bəy Ağayev*
*Əslinə mütabiqdir, kargüzar C. Paşazadə*

**BAKI MÜSƏLMAN CAMAATINA**

İşbu 1337 sənəsinin rəcəb 3-dən (həmin 1919 sənəsinin aprel 4-nə müsadifdir [təsadüf edir]) ibtida edilərək [başlanaraq], gələcək bütün cümə günlərində Təzəpir məscidi-şərifində cümə namazı qılınmağa Məşixəti-İslamiyyə [Şeyxülislamlıq İdarəsi] qərar vermişdir və hər cümə günündə Məşixət İdarəsində mövcud üləma [ruhani alimlər] isbati-vücud [iştirak] edəcəklərdir. Həman gün şər'i-şərif mövcibincə [şərəfli şəriətə uyğun olaraq] müsəlman camaatının cümə namazına məxsus vəqti-müəyyəndə (saat 12) məscidi-məzkura [adı çəkilən məscidə] toplanmasını tövsiyə edərək, İdarəyi-müşarünileyha [haqqında danışılan İdarə] tərəfindən qərari-məzkur [deyilən qərar] elan edilir.

*Məşixət sədrləri: Mustafa Əfəndizadə, Ağaəlizadə*

**CİDDİ HƏRƏKƏT LAZIMDIR**

Paytaxtımızda qəzetələrin "Hadisat" sərlövhəli qisminə baxılarsa oğurluq, quldurluq, adam öldürmək və sair bu kimi cinayətlərin gündən-günə artdığını kamali-təəssüflə müşahidə etməkdəyik. Bu halı, şəhərin asayiş və əmanəti yədi-ixtiyarına həvalə edilmiş olan [ixtiyarına verilmiş; əlində olan] qubernator həzrətləri dəxi müşahidə etməkdədir ki, bu xüsusdakı əmrlərini qəzetəmizin dünənki nömrəsində oxuduq.

Qubernator həzrətlərinin bu cinayətləri qət [kəsmək] və tərk etdirmək xüsusunda vəd etmiş olduğu ciddi tədbirləri kamali-məmnuniyyətlə alqışlayırıq və bugündən sonra həman ciddi tədbirlərin ittixazı [tədbirlərin görülməsi] intizarında olacayıq. Özümüz də əminik ki, böylə ciddi tədbirlər sayəsində paytaxtımız "cinayətlər yuvası" olmaq şərəfsizliyindən xilas edilib, əhalinin can və malı canilər təərrüzündən [hücumundan] məhfuz və məsun [qorunmuş və toxunulmaz] qalar. Buna da əminik ki, əgər bu ciddi tədbirlər pişəzvəqt [qabaqcadan] icra edilmiş və oğurluq, quldurluq və caniliyi özlərinə sənət ixtiyar etmiş olanların hərəkat və rəftarına vaxtlı-vaxtında lazımi diqqət yetirilmiş olsaydı, cinayətlər bu dərəcəyə qədər artmaz, bir çox canlar tələf və bir çox mallar zaye olmazdı.

Əhalinin əmnü-asayişi [əmin-amanlıq və asayişi], can və mallarının canilərdən mühafizə və müdafiəsi haqqında qubernator tərəfindən hər nə tövr ciddi və şiddətli tədbirlər görülərsə, hər bir kəsin ki, asayiş tərəfdarıdır, məmnuniyyət və məsərrətini mövcib olar [məmnuniyyət və sevincinə səbəb olar], bunun nəticəsində xalqın hökumətə qarşı etibar və etimadı artıb şikayətə yer qalmaz.

Paytaxtımızda bu qədər müşahidə edilməkdə olan cinayətlər əhalinin asayişini pozmaqdan əlavə, Azərbaycan paytaxtının şərəfinə dəxi toxunur.

Doğrudur, Bakı şəhəri hələ Nikolay zamanından bəri cinayət hadisatı [hadisələri] ilə məşhurdur. Lakin əvvəla burası var ki, o zaman əksərən müsəlmanlardan baş verən bu gunə [bu cür] cinayətlərin, adam öldürmələrin önünü almaq üçün rus hökumət adamları ciddi tədbirlər görməyib, "qoy müsəlman müsəlmanı öldürsün" - deyə məhəlgüzar olmayırdılar [məhəl qoymayırdılar]. Olurdularsa da rüşvətxorluq məqsədilə işlər görüb, ölən tərəfdən də, öldürən tərəfdən də pul almaqla işi yatırdırdılar; və saniyən [ikincisi], siyasi mücrimlər [cinayətkarlar] "şikarı" ilə daha artıq məşğul olan Nikolay məmurları, caniləri təqib və tənkil etməyə [cəzalandırmağa] vaxt bulammayırdılar.

Halbuki indi zaman o zaman deyildir, Bakı Azərbaycan Cümhuriyyətinin paytaxtıdır. Paytaxtımızın "canilər yuvası" olmasına heç vaxt müsaidə verilməməlidir ki, bununla bir tərəfdən əhalinin dincliyi və asayişi təmin edilsin, digər tərəfdən bu dinclik və asayiş bərpası ilə öz hökumətlik iqtidarımızı dost da görsün ki, sevinsin, düşmən də görsün ki, töhmət dilini kəsməyə məcbur olsun. Ondan əlavə, "hər kəs hökumət olur-olsun, təki asayiş olsun" - deyən və rusca "abıvatel" [meşşan; ancaq öz mənafeyini güdən adam] təsmiyə edilən [adlandırılan] əhali qismi dəxi Bakının Azərbaycan Hökuməti idarəsi altında keçmiş hökumətlərə nisbətən əmnü-asayişlə keçindiyini qiyas [müqayisə] edib "abıvatel"lik hissiyyatını döndərib də Azərbaycan Hökumətinin iqtidarını təqdir edən və bu hökumətə tərəfdar olan bir "qrajdanin" [vətəndaş] hissiyyatına təhvil etsin [çevirsin, döndərsin].

Ümidvar olmalıyıq ki, paytaxtımızın qubernatoru Rəşid bəy Axundzadə həzrətləri vəd etmiş olduğu ciddi tədbirləri kamali-gərmi ilə [böyük bir səylə] mövqeyi-icraya qoyub da qanun dairəsində bir növ ilə olur-olsun şəhərimizi böylə müəssif [təəssüf ediləcək] cinayətlərdən təmizləməklə öz iqtidarını bizə göstərməklə, bizim də iqtidarımızı özgələrə bildirər. Müvəffəqiyyətlərini arzu edirik.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 18-ci iclas

İclas saat 12.15 dəqiqədə açılır.

Sədr: Həsən bəy Ağayev.

Katib: Bayram Niyazi Kiçikxanov.

**Sədr** - Parlamanın iclası açılır. Yövmi müzakirata [gündəlik müzakirələrə] keçməmişdən qabaq sizlərə ərz edirəm ki, erməni fraksiyası tamamən aşağıdadır, bir-iki dəqiqədən sonra gələcəklərini bildirmişlərdir. Böyləliklə, kvorum olduğunu nəzərə alıb cəsarət edərək məclisi açıram. 40 nəfər üzv mövcuddur. Növbeyi-müzakirat [müzakirə gündəliyi] bu surətlədir:

1) Daxil olan kağızlar, o cümlədən Gürcüstanın cavab teleqrafı, bir də Torpaq komisyonunun məktubu.

2) Abuzər Orucovun Hökumət mətbəəsi təsərrüfinə [istifadəsinə] keçmiş mətbəə əşyası xüsusunda layiheyi-qanuniyyə.

3) Daxiliyyə Nəzarətinin məmurları maaşını artırmaq və yeni məmurlar vəzifələri təşkil etmək xüsusunda layiheyi-qanuniyyə.

Bu cür tərtibə etiraz yoxsa, qəbul olunur. Varid [daxil] olmuş kağızlar cümləsindən birincisi Gürcüstan Məclisi-Müəssisanından [Təsisçilər Məclisindən] təbrik teleqrafımıza cavabən alınmış bir teleqrafdır. Məzmunu da böylədir:

*"Gürcü Məclisi-Müəssisanı səmimi-qəlbdən Azərbaycan Parlamanına təşəkkür etməklə bərabər, kəndi tərəfindən onu təbrik edir. Bayrağında ümum millətlərin qardaşlığını çızmış Gürcüstan demokratiyasının [xalqının] qəti qələbəsini təmsil edən Məclisi-Müəssisan Qafqaziya millətlərinin sülh və səadətlə yaşamasına nigəhban olacaq [keşiyində dayanacaq] de-mokratik bir cümhuriyyətin bünövrəsini möhkəm etməklə bərabər, əsrlərdən bəri yan-yan[a] yaşaya gəlmiş Azərbaycan türkləri ilə də sıxı bir rabitədə bulunacağını ümidlə, Qafqaziya demokratiyası və cümhuriyyətlərinin öz daxili işlərində sərbəst olaraq xarici qüvvələrə qarşı dayanacaqlarına iman ilə çalışacaqdır.*

*Məclisi-Müəssisan sədri naminə baş müavini:*

*Aleksandr Lomtatidze.*

*Katib: Konstantin Caparidze."*

*(Soldan və mərkəzdən alqış)*

Sonra hökumət tərəfindən Salyan kazarmasını təmir etmək üçün 573.690 manat istənilməsi xüsusunda layihədir ki, məzkur [deyilən] layihəni Divani-Rəyasət Büdcə və maliyyə komissiyasına verir. Bir də Parlaman əzalarından [üzvlərindən] Qardaşov Aslan bəy ay yarımlıq məzuniyyət istəyir. Etiraz yoxsa, qəbul olunur. Sonra Torpaq komisyonundan böylə bir məktub gəlmişdir. O komissiyaya bitərəflərdən üzv seçilməyibdir. Məktub böylədir:

*"Parlaman rəisi həzrətlərinə!*

*Bununla, Torpaq heyəti zati-alilərinizə müraciətən məlum edir ki, bitərəflər fraksiyonundan torpaq komisyonuna hənuz üzv seçilməmiş. Lihaza [buna görə], həman fraksiyondan fövqəlzikr [yuxarıda adı çəkilən] komisyona üzv seçilməyi* rica və təmənna edəriz, əfəndim.

*Rəis: Ağamalov."*

İş buradadır ki, şimdiyə qədər hər fraksiya namizədlərini komissiyaya verəndə Parlamana ancaq filankəsi filan komissiyaya deyə məlum edərdi. Lakin qəbul etdiyimiz nakaza [nizamnaməyə] görə bu namizədlər gərək qapalı surətdə Parlaman tərəfindən seçilsin. Binaənileyh [ona görə], xahiş edərdim bitərəflər bir neçə namizəd göstərsinlər ki, Parlaman onlardan hangisini lazım bilsə, intixab etsin [seçsin].

Keçən dəfə rica etmişdim Cəlil bəy Sultanov hangi fraksiyaya mənsub olduğunu bildirsin. İndiki məlumata görə o, bitərəflərə mənsubdur. Növbədəki məsələ Orucov mətbəəsinin haqqı olaraq 468.380 rublənin verilməsi barəsində qanun layihəsidir. Dakladçı [məruzəçi] Musa bəy Rəfiyevdir.

**Məhəmməd Əmin [Rəsulzadə]** *(yerindən)* - Dakladçı odur, ya mənəm?

**Sədr** - Dakladçı Məhəmməd Əmin Rəsulzadədir.

**Məhəmməd Əmin [Rəsulzadə]** - Əfəndilər! Bilirsiniz ki, Orucov mətbəəsi Qafqazda bir çox zəhmətlərdən sonra əmələ gəlmiş yeganə bir mətbəədir. Sahibləri məzkur [adı çəkilən] mətbəəni sənələrlə zəhmət çəkərək başa gətirmişlərdir. Qafqaziyada türk mətbuatına azçox xidmət edən bir mətbəə varsa, o da bu mətbəə idi. Keçən Mart hadisəsindən sonra bolşeviklər hər şeyə hakim olduğunda şəhərin bir neçə mətbəələri ilə bərabər bu mətbəəni də talamışlar. Bir çox mətbəənin hürufatını [şriftlərini] o zaman qradonaçalstva, sonra bolşeviklər əlinə keçən və hal-hazırda Azərbaycan Hökumətinin əlində olan və Maarif Nəzarətinin təhti-idarəsindəki [tabeçiliyindəki] Hökumət mətbəəsinə tapşırmışlardır. Hal-hazırda Maarif Nəzarətinin verdiyi məlumata görə, Orucovun makinası, hürufatı və qeyri mətbəə ləvazimi bu Hökumət mətbəəsindədir. Makinaların adları birər-birər və başqa şeylər həmçinin göstərilmişdir. Mətbəə işində mütəxəssis olanlar da mətbəəçi (Berladir) – birinci şirkət mətbəəsi müdiri və bir hesabdar bu əmlakı qiymət etmişdir. Bu əmlakın qiyməti 468.380 manat olduğunu təqdir etmişlərdir [qiymətləndirmişlər]. Maarif Nəzarətinin təqdim etdiyi vəsiqəsində deyilir ki, Mart hadisəsindən qabaq bu mətbəəni Orucovlar iranilərə [iranlılara] satmaq istəmiş və o vaxt iranilər bu mətbəəyə yarım milyon rublə verirlərmiş. Şəxsən mən özüm də mətbəəçi və mətbəə işinə bələd olduğum üçün bu qiyməti münasib görürəm. Komisyon da bu qiymətə razı olub, bu paraların verilməsini təklif edir. Əgər bu barədə fəzlə [artıq] izahat lazım olsa, sualları bəkləyirəm.

**[Sultanməcid] Qənizadə** - Bilmək istərdim, görən mətbəə sahibləri bu xüsusda razı olubdurlarmı, ya yox?

**[Məhəmməd Əmin] Rəsulzadə** - Bu xüsusda mətbəə sahiblərinin rizası olub-olmadığını qəti surətdə söyləyəmməm. Fəqət, aldığım məlumata görə, Maarif naziri ilə mətbəə sahibləri arasında razılıq olsa gərək. Hər halda qəti surətdə söyləyəmməm.

**Sədr** - Daha kim söz istəyir? Məruzə barəsində danışan olmadığı üçün məruzəni səsə qoyuram. Məruzə Maliyyə və büdcə komisyonunda müzakirə olunub, eyni surətdə, təğyir-təbdilsiz [dəyişiklik və düzəliş olmadan] qəbul olunmuşdur. Komisyonun bəratülqövlü [protokolu] budur: *(Oxuyur)*

"Bəratülqövl

18 mart 1919 sənəsində Məclisi-Məbusan Maliyyə və büdcə komisyonunun iclasında Abuzər Orucov mətbəəsinin hökumət ixtiyarına keçdiyi üçün 468.380 rublə verilməsi xüsusunda Maarif Nəzarətinin təqdim etdiyi qanun layihəsi müzakirə olunaraq qət olundu:

Maarif Nəzarətinin təqdim etdiyi qanun layihəsi qəbul olunaraq, mətbəəsi hökumət ixtiyarına keçdiyi üçün Abuzər Orucova 468.380 rublə buraxılsın."

*(Ruscaya tərcümə edir)*

Hər kəs komisyonun qərarını qəbul edirsə, əlini qaldırsın.

Lehinə 24, əleyhinə 1, səs verməyən 4. Sayın, neçə üzv mövcuddur? Lehinə 24, əleyhinə 1, səs verməyən [4]. Bu eylər 29. Sayın, 39. Görünür ki, səsə iştirak etməyən var.

**Səslər** - Bir də səsə qoyun!

**Sədr** - Hər kəs komisyonun qərarını qəbul edirsə, əlini qaldırsın. Rica edirəm əlinizi sayıb qurtarana qədər saxlayasınız. Lehinə 24, əleyhinə 1, səs verməyən 4. Deməli, layihə əksəriyyətlə qəbul olunur.

Bitərəflərdən rica edirəm, namizəd göstərsinlər. İşlər təxirə düşür.

**Mərkəzdən** - Göstərdilər, [Cəlil bəy] Sultanov.

**Sədr** - Xeyr, göstərməyiblər. Əqəliyyət [azlıq] təşkil edənlər göstərmişlər. Yazılı vərəqə ilə göstərsinlər. Növbədəki məsələyə keçmədən burasını elan edim: təklif var ki, Novruz bayramı münasibətilə bir həftə tətil edilsin. Gələn iclas pəncşənbə [cümə axşamı] günü olsun. Etiraz yoxsa, qəbul olunur.

**[Musa bəy] Rəfiyev** - Tətil barəsində deyərdim ki, bu həftə tətil münasibətilə Parlamanda və komisyonlarda iş olmayacaqdır. Əldə olan hazır layihələr Divani-Rəyasətə verilib, müzakirə olunur. Gələn iclas pəncşənbə gününə təyin edilsə, komisyonlar işləmədiyi üçün əldə hazır bir layihə olmayacaqdır. Buna görə təklif edərdim ki, tətil cümə gününə qədər olsun ki, komisyonlar gələn növbəti iclasa qədər işləyib material hazırlasınlar.

**Sədr** - Təklif var ki, tətil gələn cümə gününə qədər olsun. Etiraz yoxsa, bu təklifi səsə qoyuram. Hər kəs bu təklifin tərəfdarıdırsa, əlini qaldırsın. *(Əllər qalxır)* Deməli, bu cümədən gələn cüməyə qədər tətil edilməsi əksəriyyətlə qəbul olunur. Növbədəki məsələ, Daxiliyyə Nəzarəti xidmətçilərinin məvacibləri təzayüdü [artırılması] və yeni vəzifələr təşkili. Məruzəçi Musa bəy Rəfiyevdir. Məruzəyə keçmədən rica edirəm namizədlərə səs verəsiniz. Bitərəflərdən Torpaq komisyonuna Cəlil bəy Sultanov, əqəliyyət təşkil edən millətlərdən [Lorents] Kun namizəd göstərilir. Nizamnaməyə görə seçkilər örtülü olmalıdır.

**Musa bəy Rəfiyev** - Daxiliyyə Nəzarətindən bu gün təqdim olunan qanun layihəsini iki yerə bölmək olar. Birisi, ştatın dəyişməyinə görə – idarə dəyişilir, onların ştatı dəyişilmiş olur. Bir də qulluqçuların məvacibləri az olduğuna görə, artırılması lazımdır.

**Sədr** - Natiq əfəndi, bir qədər sükut ediniz. Parlaman üzvü Malxazyan, müzakirə olunan məsələ barəsində danışmaq istəyir.

**Malxazyan** *(erməni fraksiyonundan)* - İş burasındadır ki, müzakirə edilən məsələ çox mühüm görülür. Fəqət üzvlərə





göndərilən cəlbnamədə *[çağırış vərəqəsində]* bu məsələ qeyd edilməmişdir. Bu məsələ barəsində ola bilər ki, ümumi surətdə bəhs edilsin və ona görə də bəhsə əvvəlcədən hazırlaşmaq lazımdır. Binaənileyh, təklif edirəm ki, məsələ təxirə salınsın.

**Musa bəy** - Bu smeta deyil, əvvəlcə söylədiyim kimi ştat təqdim olunur ki, smetaya düşsün. İkincisi də maaş artırmaqdır ki, bu da müvəqqətidir və lazımdır. Çünki xidmətçilər o məvaciblə qulluq edə bilmirlər və ona görə də onlara gərək öylə məvacib vermək ki, qulluq edə bilsinlər. Mən təvəqqe edirəm məsələ mühüm olduğu üçün bu gün müzakirə edilsin.

**Sədr** - Hər kəs məsələnin bu gün müzakirə edilməsinə tərəfdar isə əllərini qalxızsın. *(Əllər qalxır)* Lehinə 29. Kim əleyhinədir? – 7. Kim səs verməmiş? - 4.

**Ağamalov** *(yerindən)* - Mən söz demək istəyirəm.

**Sədr** - Rica edirəm oturunuz.

**Ağamalov** - Kvorum yoxdur.

**Sədr** - Rica edirəm oturunuz. Çünki, məclisdə 41 nəfər üzv hazırdır.

**Rəfiyev** *(davam edir)* - Bu Rusiya inqilabından bəri bir neçə para hökumət və idarə ki, mərkəzdə və kənarda təşkil olub, onların fikirləri əvvəlcə Daxiliyyə Nəzarətini dəyişmək olub. Bunu öncə Lvov hökuməti, sonra Zaqafqaziya hökuməti və axırda bolşeviklər dəyişiblər. Bu dəyişiklik ən çox Bakıda olub. Bakıda Daxiliyyə Nəzarəti üç təşkilatdan ibarət olub: birisi qubernator, ikincisi quberniya idarəsi, biri də qradonaçalstvo. Keçən il bolşeviklər bu üç idarəni ləğv edib əvəzində bir qubernski idarə təşkil etmişlər. Bu təşkilat əmələ gələndən sonra nə qədər artıq qulluqçular olubsa, hamısını buraxmışlar. İndi, necə ki, əvvəl söylədim, bu təşkilatlar qanuni olmadığına görə əsas quberniyada nə təşkilat olmalı və nə qədər qulluqçu lazımdır – Daxiliyyə Nəzarətindən bu təşkilatın siyahısı təqdim olub Parlamana təsdiqini təklif edir. *(Oxuyur)*

Əvvəlcə qubernatorun və qradonaçalnikin bir müavini olardı. İndi qradonaçalnikin müavini əvəzinə, qubernatora kiçik müavin təyin edilir. Bu kiçik müavinə ümum polis işlərinin idarəsi mühəvvəl ediləcəkdir [tapşırılacaqdır]. Dəftərxanada qubernski idarənin üç müstəşarı [məsləhətçisi] olacaqdır, inşaiyyə – arxitekturnı şöbənin rəisi, idarə katibi, iki müavin, iki xüsusi işlər məmuru, bir straja inspektoru [mühafizə müfəttişi], dörd kargüzar, üç müavin, bir arxivçi, bir reqistrator [qeydiyyatçı], bir ekzekutor [təsərrüfat müdiri], bir çertyojçu, 7 makina ilə yazan, 20 kançelyariya [dəftərxana] məmurları, 11 storoj [gözətçi] ilə qasidlər.

Böyləliklə, qradonaçalnik və qubernator yanında olan dörd xüsusi işlər məmuru əvəzinə iki, səkkiz kargüzar yerinə dörd, altı kargüzar müavini yerinə üç, otuz dəftərxana xidmətçiləri əvəzinə iyirmi, on iki makina yazan yerinə yeddi, qubernator və qradonaçalstvoda olan ikişər ekzekutor-reqistrator yerinə birər olacaqdır.

Baş polis idarəsində işlər getdikcə artdığı üçün ikinci qalabəyi [komendant] müavini mənsəbi təşkil edilir. Əvvəlcə bu vəzifəni pristavlardan birisi ifa edirdi. Əlbəttə, bu da pristavın öz vəzifəsinə bir zərbə idi. Qaradovoyların da qədəri 225, süvari qaradovoyların qədəri 95-dək artı-

rılır. Bakı mahal naçalniki vəzifəsi ləğv edilir. Bu mahalın bütün torpağı Balaxanı, Sabunçu qalabəyliyinə mülhəq edilir [birləşdirilir]. Balaxanı-Sabunçu qalabəyisinin bir müavini də olacaqdır. Balaxanıda qaradovoyların miqdarı 150-dən 200-dək olacaqdır. Bəzi qəzalarda mahal naçalnikinə ikinci müavin təyin ediləcəkdir. Məsələn, Quba və Göyçay mahallarında əvvəlcə bu mənsəbə ehtiyac yox idi. Ona görə ki, mahal naçalniklərinin kiçik müavinliyi vəzifəsini straj ofiserləri [mühafizə zabitləri] ifa edirlərdi. Amma bu vəzifə də şimdi ləğv edilmişdir. Cavad və Göyçay uyezdlərində iki uçastok təşkil edilir. Pristav uçastoklarında [sahələrində] pristav müavinləri təyin ediləcəkdir. Bir neçə şəhərlərdə, o cümlədən, Quba, Salyan, Lənkəranda bu vaxtadək [bir] pristav olurdu, indi layihəyə görə iki pristav olacaqdır. Bakı təhərri [axtarış] polisində nazirlərin [nəzarətçilərin] miqdarı 10-dan 15-dək artırılır. Agentlərin miqdarı isə 50-dən 30-dək əskilir. Şuşa qəzası Ağdam kəndində pristavlıq təşkil edilir.

Quberniya idarələrində olan inşaiyyə şöbələri qalır, hərçəndi qəbul edilən layihəyə görə, qara yolları Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] keçirsə də, amma bununla bərabər Daxiliyyə Nəzarəti öhdəsində məktəblər və başqa tikililər vardır ki, bu inşaiyyə şöbələri onlara baxmalıdır.

Şöbənin heyəti böylədir: 1 işləyən [iş istehsalçısı], 1 texnik, 1 çertyojnik, 1 makinaçı, 1 də qasid.

Bu vaxta qədər olan Zaqatala okruqunda quberniya təşkil edilmişdir. Orada 1 qubernator, 1 müavin, 1 məsləhətçi, 1 xüsusi işlər məmuru, 1 mühəndis, 2 kargüzar, 6 dəftərxana qulluqçusu, 6 uçastok pristavı, 6 müavinləri, 6 dəftərxana qulluqçuları, [6] storoj vardır. Qax uçastokunda bu vaxta qədər olan xristian starşinası yenə baqi qalır. Şəhərdə pristav, 2 okolodoçni [polis sahə rəisi], 15 qaradovoy, 2 qasid vardır. Şəriət məhkəməsi də bu heyətlə mövcuddur: məhkəmə sədri, 6 üzv, 1 kargüzar, 3 dəftərxana məmuru, 1 qasid.

Quberniyada 1 inspektor straj [mühafizə müfəttişi], 20 böyük strajnik [mühafizəçi], 150 xırda strajnik.

Maliyyə-büdcə komisyonu bu layihəyə baxmışdır. Bu layihə müzakirə edilərkən böylə bir rəy söylənmişdi ki, böylə bir balaca Azərbaycan məmləkətində qubernatorlar vəzifəsi artıqdır və üç quberniya təşkilatına da lüzum yoxdur. Yaxşı olardı ki, Daxiliyyə naziri bilavasitə qəzalarla münasibatda olsun və bu qərar ilə xalqa yaxın olsun. Lakin bu məsələ xeyli mühümdür. Buna görə, komisyon bu məsələni bu halda müzakirə etməyib, fəqət bu məsələni hökumətə xəbər verdi.

Polis məmurlarının məvacibinin artması lazımdır. Bu saat məmurlara verilən məvacib xeyli azdır. Hərgah Maliyyə, Ədliyyə və Daxiliyyə Nəzarətində vəzifələri bir-birinə mütabiq [uyğun] xidmətçiləri götürərsək görəriz ki, Daxiliyyə Nəzarətində olan xidmətçilər iki əvvəlimci nəzarətdə olanlardan az məvacib alırlar. Bununla belə, polis məmurları hal-hazırda böyük iş görürlər. Gəncədə olan Xidmətçilər İttifaqi bir adamın ən az xərcini 1253 manat hesab etmişdir. Hərgah, indiki alınan məvaciblərə diqqət edərsək,





görərik ki, indiki qiymətlər bərabərində xeyli azdır. Buna görə Daxiliyyə Nəzarəti öz xidmətçilərini 16 dərəcəyə təqsim etmişdir [bölmüşdür]. Bu xidmətçilərə bu qərar üzrə məvaciblər təklif edilir:

1) Qubernatorlara - (Başqa yerlərə nisbət[ən] Bakı bahalıq olduğundan, Bakı məvacibləri yuxarı hesab edilir) Bakı qubernatoruna ayda 3600 rublə, başqa yerdəkilərə ayda 3000 rublə.

2) Vitse-qubernatora Bakıda 2700 rublə, qeyri yerlərdə 2500 rublə.

3) Bakı qubernatorunun kiçik müavininə ayda 2500 rublə.

4) Bakı polismeystrinə Nəzarət 1800 rublə təklif etmişdi, lakin komissiya 2300 rublə təyin etmişdir.

5) Balaxanı polismeystrinə, Bakı polismeystrinin böyük müavininə və təhərri [axtarış] şöbəsi naçalnikinə Nəzarət 1600 rublə təklif etmişdir, komissiya isə 1800 rublə təyin etmişdir.

6) Bakıdakı xidmətçilər ayda 1690 rublə, başqa yerlərdə 1500 rublə.

7) Bakıdakı xidmətçilərə ayda 1500 rublə, başqa yerdəkilərə 1400 rublə.

8) Bakıdakı xidmətçilərə ayda 1400 rublə, başqa yerdəkilərə 1300 rublə.

9) Bakıdakı xidmətçilərə ayda 1300 rublə, başqa yerdəkilərə 1200 rublə.

10) Bakıdakı xidmətçilərə ayda 1200 rublə, başqa yerdəkilərə 1100 rublə.

11) Bakıdakı xidmətçilərə ayda 1100 rublə, başqa yerdəkilərə 1000 rublə.

12) Bakıdakı xidmətçilərə ayda 1000 rublə, başqa yerdəkilərə 900 rublə.

13) Bakıdakı xidmətçilərə ayda 900 rublə, başqa yerdəkilərə 800 rublə.

14) Bakıdakı xidmətçilərə ayda 800 rublə, başqa yerdəkilərə 700 rublə.

15) Bakıdakı xidmətçilərə ayda 700 rublə, başqa yerdəkilərə 600 rublə.

16) Bakıdakı xidmətçilərə ayda 550 rublə, başqa yerdəkilərə 500 rublə.

Nəzarətə buraxılan məbləğin on dörddən biri məvaciblərə sərf olunub, qalanı isə lazımi materiallara və qeyrilərə xərc olunur.

Gəncə quberniya idarəsi nəzdində kənd işlərinə baxan idarə ləğv edilir. Lakin orada mühüm sənədat [sənədlər] olduğundan işləri bitirməkdən ötrü bir Təsviyə [Ləğvetmə] komisyonu təşkil edilməlidir.

## MƏFKUREYİ-ALİYYƏMİZ

*Azərbaycan dövləti-növzadına*

**II**

Dönsün behiştzarə bu qiymətli lanəmiz,
Şahbazpərvər olmalıdır aşiyanəmiz.
Yüksəlmək istəriz o səmayi-məaliyə,
Son arizumuz iştə: kəmalati-aliyə.
Məfkurəmiz yolunda nə lazımsa etməli,
Məqsudə doğru əzmi-xüruşanla getməli.
Çıxsın dilərsə qarşımıza həp məzarımız,
Qorxmaz məzardan bu dili-əzmkarımız.
Guş eyləsin bu fikrimi əqvami-kainat,
Amali-zülcəlalımız iştə gözəl həyat.
Vicdani-millətə yazılıbdır bu ayəmiz,
Ən şanlı, ən şərəfli həyat iştə qayəmiz.
Məqsudə doğru qoşmalı bixovf, bilməli,
Yıxmaq gərək təriqi tutan hər bir əngəli.
Zail olarsa hail olanlar təriqdən,
Eylər şitab məqsədə hər zadəyi-vətən!

*3 fevral 1919, Bakı*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## TELEQRAF XƏBƏRLƏRİ

Paris – Vilsonun iştirakı ilə mart ayının 22-dək sülh əhdnaməsi [müqaviləsi] müzakirə ediləcəkdir. Böylə zənn edilir ki, aprelin 1-10-u arasında Sülh Konfransı qətiyyən təşkil edilib də, orada almanlar da iştirak edəcəklərdir. Konfransa idxal ediləcək müahidənamə [saziş] hərbi, bəhri [dənizlərə məxsus], mali və iqtisadi sülh şəraitindən [şərtlərindən] ibarət olacaqdır. Bu yaxın günlərdə Ali Şura, Hərbiyyə Komitəsinin hesabına baxacaqdır. Komitə təklif edir ki, düşmənlərdən 24 milyon ingilis lirəsi pul tələb edilsin. Bu məbləğin bir hissəsi bilatəxir [dərhal] verilməlidir. Qalan hissəsi isə 25-dən 35 il müddətinədək verilməlidir. Fransız vəkilləri bu əqidədədirlər ki, düşmənlər bilatəxir min milyon lirə verməlidirlər. Bunun bir hissəsi gəmi, bir hissəsi əcnəbilərin nəqdiyyəsi, bir hissəsi də qızıl verilməlidir. Bundan əlavə, Almaniya Müttəfiqlərə 80 milyon lirəlik meşə verməlidir.

Paris – Havas ajansı xəbər verir ki, Amerikada vaqe olan hadisələri bütün konfrans böyük diqqətlə təqib edir. Cəmiyyəti-Əqvam[ın] [Millətlər Cəmiyyətinin] müvəffəqiyyət və qeyri-müvəffəqiyyət[i] məsələsi Avropanın Amerika kimi onu qəbul etməyə hazır olmasından asılıdır.

**Macarıstan əhvalı**

Macarıstanın hər yerindən alınan xəbərlərdə asayiş və qanun hökmfərma olduğu [hökm sürdüyünü] göstərilir. İctimai Sənaət komissarı verdiyi binagüzarlığında [sərəncamında] fabrika və zavod sahiblərinə işlərin davam etməsini əmr edir. İşlərin təxirə düşməsi cinayət hesab olunacaq, müqəssirlər inqilab məhkəməsinə veriləcəkdir. Təzə Qırmızı ordu təşkil edilməsi qərara alınmışdır. Rusiyada olan Macarıstan hərbi əsirləri hər gün yüzlərcə Karpat dağlarını aşıb, bolşevizm amalını nəşr edirlər [yayırlar].

**Berlin-Moskva**

Berlindən verilən teleqraflarda Almaniya Hökumətinin Moskva ilə ittifaqa girişməsi haqqında məlumatlar verilir. Almaniyanın sülh müahidənaməsini imza edəcəyi ümidi gün-gündən azalmaqdadır.

## DAĞISTAN ƏHVALI

Könüllü ordunun Dağıstan Hökumətinə müharibə elan etməsi münasibəti ilə Dağıstan siyasi nümayəndəsi Kantemir Dağıstan Hökumətinin bu aşağıdaki notasını Müttəfiq komandanlığa və hamı hökumətlərə vermişdir:

*"Vükəla Şurası rəisi Kotsev cənablarının sifarişinə görə, bu aşağıdakı əhvalatı sizə xəbər verib, öz hökumətinizə bildirməyinizi xahiş edirəm.*

*Könüllü ordunun qanunsuz bir* surətdə *Dağıstan Millətləri Hökumətinin bir hissəsini dinc əhali əleyhinə təcavüzkaranə hərəkətlərlə bərabər zəbt etməsi, dağıstanlıların mallarının həcz [müsadirə] edilib və onlardan para alınması və onlardan öz hökumətləri əleyhinə hərəkətdə bulunmaları tələbi Könüllü ordu ilə bu işləri sülh və müsalimətlə [asayişlə] bərtəraf etmək [aradan qaldırmaq] tədbirlərindən sonra Dağıstan Hökumətini hamı hökumətlər və Müttəfiq komandanlıq qarşısında öz protestosunu izhar [bildirməyə] və Denikin ordusu tərəfindən Dağıstan hökumətinin zəbt edilən nahiyələrinin tezliklə boşa[l]dılmalarını tələb etməyə məcbur etmişdir. Lakin, Könüllü ordu indiyə qədər bu tələbata əməl etməyib, Dağıstan millətləri ilə məskun zəbt etdiyi yerlərdə olan müəssisələri təcavüzkaranə bir surətdə əlinə almağa iktifa [kifayət] etməyib, Dağıstan Hökumətinin aldığı məlumata görə, səbəbsiz olaraq martın 27-də səhər saat 7-də Qroznı nahiyəsində müdafiəsiz çeçen kəndləri Alxan-Yurt, Kuları və Ustar-Qardoy kəndləri üzərinə hücuma keçmişdir. Bununla sizə xəbər verirəm ki, Dağıstan millətləri həyatı və hüququnun müdafiəsini öz müqəddəs vəsifəsi hesab edən Dağıstan Cümhuriyyəti buna inanmışdır ki, Könüllü ordu Şimali Qafqazyada Dağıstan millətləri və onların hökumətləri münasibətində müharib [savaşan] tərəf halını əxz etmişdir. Bu da Dağıstan Hökumətini öz növbəsində hücum edən Könüllü ordu əleyhinə müsəlləh [silahlı] müdafiə vəsailinə [vasitələrinə] istinad etməyə məcbur edir.*

*Millətlər istiqlaliyyəti əsası ilə və Müttəfiqlər namından [adından] Rəisi-cümhur Vilsonun elanı ilə vücuda gələn və 1918 sənəsi noyabrın 27-də Müttəfiqlər komandanı general Tomsondan etiraf edilməsi [tanınması] haqqında məktub alan Dağıstan hökuməti müharibə məsuliyyətini və bədbəxtliyini Şimali Qafqaziya və Dağıstan millətlərinin həyatına və hüququna təcavüz edənlər öhdəsinə buraxıb, axırıncı imkanına qədər Dağıstan Cümhuriyyətinin azadlığını və istiqlaliyyətini müdafiə və mühafizə edəcəkdir.*

*Azərbaycan Hökuməti nəzdində olan Dağıstan siyasi nümayəndəsi. Ə. Kantemir"*

**Dağıstanlılar ilə Könüllü ordu müharibəsi**

Könüllü ordu hücumunun təfsilatı böylədir: Qroznı rayonundan gələn bir şəxsin rəvayətinə görə, şənbə günü martın 29-da Şali kəndində həyəcan başlanıb xəbər verilmişdir ki, Könüllü ordu dəstələri Çeçen-aulu mühasirə edib, Arqun çayında Çeçen-auldan iki verst məsafədə körpü yanında top düzməkdədirlər. Zahirən bu iki[nci] hücum imiş. Çünki, birinci hücum martın 26-da Dağıstan əsgərləri tərəfindən dəf edilmişdi.

Berdık kəndində yeddinci gündür ki, top müharibəsi davam edir. Düşmən Berdıkdan birbaşa Qroznıya qədər geri atılmışdır. Alxan-Yurtta şiddətli top müharibəsi olmuşdur. Süngü müharibəsinə müncər olan [çevrilən] vuruşmada dördüncüdə çeçenlər qalib gəlmişlərdir. Könüllülər bir neçə pulemyot və 500 nəfər ölü buraxmışlardır. Düşmən hər yerdə Dağıstan əsgərləri tərəfindən Qroznı şəhərinə və Sunjen xəttinə qədər geri püskürdülmüşdür. Qroznı şəhəri ətrafında dəhşətli müharibələr davam edir. Qroznı şəhəri tikanlı məftillərlə mühasirə edilmişdir. Denikin əsgərləri bu məftillərə elektrik qüvvəsi buraxmışdır. Min nəfərdən ziyadə Denikin ordusu səflərində [sıralarında] Kuban oblastından gələn çərkəzlər və kabardinlər Dağıstan Hökuməti tərəfinə keçmişlərdir.

Teymurxanşurada vətənpərəstlik ruhunda nümayişlər və mitinqlər vaqe ol-

maqdadır. Bu mitinqlər və nümayişlərdə natiqlərin hamısı müttəhiqilqövl [yekdilliklə] əksinqilabçıların Dağıstandan çıxarılmalarını söyləyirlər.

## İRAN İŞLƏRİ

**Cəngəllilər və ingilislər**

Bugünlərdə Rəştdən Bakıya varid olan [gələn] müsafirlərin dediyinə görə, guya İran Hökuməti tərəfindən edilən təklifə görə, İngiltərə Hökuməti cəngəldəki Kiçik xan dəstəsini tərki-silah etmək istəmiş və bundan ötrü ona ultimatum vermişsə də, Kiçik xan qəbul etməmişdir. Buna görə də hər iki tərəfin qoşunları arasında müharibə başlanmışdır. Bu xəbərlər şayiə qəbilindən olaraq, hələ təsdiq edilməmişdir.

**Xəsarət**

Xariciyyə Nəzarətində alınan siyahıya görə, Həştrud şəhəri əhalisi müharibə əsnasında rus və Osmanlı qoşunlarından bu miqdarda xəsarətə uğramışlardır:

Ruslardan 100.021 tümən, insan tələfatı 21 nəfər, müsri [yoluxucu] xəstəlikdən 3.392 nəfər.

Osmanlılardan 583.500 tümən, insan tələfatı 27 nəfər, müsri xəstəlikdən 2.430 nəfər.

**Yenə Cəfərqulu**

Kaşandan teleqrafla Tehrana xəbər verirlər ki, məşhur quldur Cəfərqulu yenidən ətrafda zühur edərək böyük hərəkatda bulunmaqdadır. Neçə vaxt bundan əqdəm [qabaq] Əmir Əkrəmin qoşunları ilə onun atlılarının arasında toqquşma vaqe olmuş və bir qədər atışmadan sonra Maşallah xanın atlıları yetişib Cəfərqulunu mühasirəyə almışlarsa da, dəstgir etmək [əsir tutmaq] mümkün olmamışdır. Cəfərqulu yenə gizlənmişdir.

**Əslihə cəm edilməsi**

Hərbiyyə nazirinin binagüzarlığına [sərəncamına] görə, yeni hərbi təşkilat əmələ gəldiyindən, bəzi şəxslərdə olan hökumət əslihələri [silahları] yenidən cəm edilməyə başla[n]mışdır. Hərbiyyə Nəzarətinin siyahısına nəzərən, axır illərin ərzində müxtəlif şəxslərdə 380.000 dənəyə qədər yeni sistem tüfənglər saxlanmaqda imiş.

**Hacı Mirzə Həsən ağa Höccətülislam**

Təbrizdən alınan məlumata görə, məşhur irticapərəst mollalardan olub, axır illər İran tarixi-məşrutiyyətində ən mühüm rollar oynamış olan Hacı Mirzə Həsən ağa Höccətülislam bugünlərdə Təbrizdə vəfat etmişdir.

**Hərbiyyə Nəzarəti büdcəsi**

Hərbiyyə nazirinin binagüzarlığına [sərəncamına] görə, bugünlərdə məzkur [deyilən] Nəzarətinin büdcəsini hazırlamağa şüru olunmuşdur [başlanmışdır]. Büdcə tezliklə hazırlanıb Heyəti-Vükəlaya [Nazirlər Kabinetinə] təqdim edilməlidir.

**Qurdlar**

Qürvə şəhəri ətrafında külli miqdarda qurdlar peyda olub, əhaliyə artıq dərəcədə əziyyət və azar verirlər. Qurdlar gündüz şəhərə və kəndlərə hücum edərək hər gün bir neçə nəfər adamı boğub





öldürürlər və aparırlar. Onlar bugünlərdə bir nəfər arvad ilə bir uşağı aparıb çöldə yemişlərdir.

## KRIMIN SON GÜNLƏRİ

**Oradan gələnlərlə mülaqatımız [müsahibəmiz]**

Torpağının, bağ və bağçasının bərəkəti, iqliminin, abu-havasının lətafəti ilə hər kəsi imrəndirən o gözəl Krımımız son zamanlar ağır, pək ağır günlər keçirməkdədir. Almanların Krımdan çəkiləcəkləri eyicə anlaşıldıqdan sonra, daxildə ötədən bəri müxtəlif partiyalar tərəfindən hücum edilə gələn Süleyman Paşa Sulkeviç Kabinəsi mövqeyi-iqtidarda qalammayacaq bir hala gəlmişdi. Bunun üçün məzkur [deyilən] Kabinə istefasını Krımdakı alman generalı Koşa təqdimlə işdən çəkilmişdi. Bu əsnada zemstvo [yerli özünüidarə qurumu] və şəhər idarələri nümayəndələrinin bilictima [yığışaraq] çıxardıqları rezolyutisyalarla [qərardadlarla] yeni Kabinə təşkili kadetlərə həvalə edilmişdi. Sosial-revolusionerlə sosial-demokratların kadetlərə qarşı güzəşt etmələrinə səbəb, o zamana qədər keçən vüquatın [hadisələrin] partiyalar üzərində buraxdığı əks-təsirlə Kabinə başında bir müsəlman kişinin bulunması idi. İştə o vaxtki inqilab həp bu əhvali-ruhiyyə təsiri ilə icra edilmişdi.

Kadet firqəsi müntəsiblərindən [Kadet partiyasına mənsub olanlardan] olan Solomon Krım* nam [adlı] kimsə yeni bir Kabinə təşkilinə təşəbbüs etdiyi zaman müxtəlif partiyalarla bərabər, müsəlmanları da dəvət etmişdi. Lakin, müsəlmanlar öz diləklərini yerinə gətirmədiyi üçün Kabinəyə iştirak etmədi və bitərəf bir vəziyyətdə qaldı. Fəqət Kabinənin milli əsasa toxunduğunu, milli əməl [məqsəd] önünə sədd çəkdiyini sezən, görən müsəlman Parlamento bürosu sükut etmədi. Gərək mətbuatla və gərəksə Müttəfiqlər nəzdinə ezam etdiyi deleqatlarla haqlı prostestolarını izhar etdi [bildirdi]. Əzcümlə [o cümlədən], yeni Kabinənin Xariciyyə naziri Vinaver* Müttəfiqlər nümayəndələrinə qarşı "Yedinaya Rossiya" lehində nitq etdiyi əsnada, bütün Krım millətləri[nin] o arzuda olduğunu zikr etməsi protesto edilməyəcək bir hal deyildi. Netəkim də edildi. Daha buna bənzər bir çox hadisələr oldu keçdi.

Bu Kabinə təşəkkül etmək üzrə ikən Dondan Denikinin Könüllü ordusu əfradı [əsgərləri] Krımda görünməyə başlamışdı. Anlaşılırdı ki, almanların tərk edəcəkləri bu mövqeyi onlar işğal etmək istəyirlərdi. Kadetlər mövqeyi-iqtidara gəldikləri zaman Könüllü ordunun bu arzusunu is'af edəcəklərinə [yerinə gətirəcəklərinə] heç şübhə edilməzdi. Çünki, ikisinin yolu da bir idi. Çox keçmədi, bu həqiqət bütün mənası ilə təzahür etdi. Könüllü ordu Dondan, Novorossiyskdən azar-azar Krıma keçib yerləşdikdən, qüvvət bulduqdan sonra Krımda "hakimi-mütləq" kəsildi. Nə Kabinənin səsi eşidilir, nə də xalqın rəyi soru[şu]lurdu. Daxildə, xaricdə müxtəlif qüvvətlərlə mübarizə etmək üçün qüvvət toplamağı gözünə aldıran Könüllü ordu əvvəlcə çızdığı planını şu yolda

* Qaraim, musəvi.

* Yəhudi, musəvi.

mövqeyi-tətbiqə qoymağa yeltəndi [təşəbbüs etdi]:

Əvvəla, müsəlman əhaliyə müraciət etdi. Kəndlərdən, şəhərlərdən nümayəndə dəvət etdi. Nümayəndələr pək az gəldisə də, nəticə bəklənildiyi kimi çıxmadı. Nümayəndələr: "Bizim burada bu mühüm məsələ haqqında söz söyləməyə heç bir haqq və səlahiyyətimiz yoxdur; bu haqq və səlahiyyət tam demokratik bir üsul ilə intixab edilən [seçilən] Parlamentomuzundur; binaənileyh [ona görə], bu məsələni onunla birlikdə həll edə bilərsiniz" dedilər, kəsdilər.

Könüllü ordu Parlamentodan mətluba müvafiq [arzuedilən] bir şey çıxmayacağını yəqinən bildiyi üçün məcburi mobilizasiyaya [səfərbərliyə] qərar verdi. Rəsmən elanını da nəşr etdi. İlk gün mərkəzə yalnız on kişi gəlmişdi ki, bu da xalqın bu babdakı [xüsusdakı] psixologiyasını pək açıq bir surətdə meydana qoymuşdu. Lakin Könüllü ordu bu müvəffəqiyyətsizliyə baxmayaraq, planını icradan geri durmayırdı. Ən birinci məqsədi də bolşevizm fikri yerləşməmiş və biləks [əksinə] bolşeviklərə qarşı fədayi-can etmiş, öc [intiqam] almış müsəlmanlarla əl-ələ verib əməl [ideal] yolunda müvəffəqiyyətli addımlar ata biləcəklərini düşünürlərdi. Bu fikirlərində isabət etdiklərinə də qənaət gətirirlərdi. Fəqət, heyhat! Şimdiyə qədər duyğularla köçən-gedən millətlərə də zaman artıq öz milli mənfəətini tanıtdığını, öz milli əməlini doğurduğunu bir əmri-vaqe [fakt] halında görən Könüllü ordu, nədəndir bilməyiz, yenə inanmayır və bu xüsusdakı müvəffəqiyyətsizliyinin səbəbini Parlamento əzalarında [üzvlərində] arayırdı.

Biz Krımdan ayrıldığımız zaman Könüllü ordu ilə Parlamento bürosunun arası gərginləşdiyi duyulurdu. Krımdan bizdən iki həftə sonra çıxan və buraya iki-üç gün əvvəl gələn möhtərəm vətəndaşlarımızla mülaqatımızda onlardan şu xəbərləri aldıq:

Solomon Krım kabinəsi [ilə] birlikdə hərəkət edən Könüllü ordu müsəlman Parlamentosu əzasından Seyidcəlil əfəndi Xəttatovla doktor Xəlil əfəndi Çapçakçı, Bəkir Sidqi əfəndinin iqamətgahlarına və milli müəssisələrə apansızın gedərək təhərri [axtarış] etmişlər. Təhərriyə o qədər əhəmiyyət vermişlər ki, Seyidcəlil əfəndinin Baxçasarayda beş sənə əvvəl oturduğu evinə belə getmişlər, axtarmışlar. Bu təhərridən, bu axtarışdan təbii bir şey çıxmamış, çıxmaz da. Ancaq məzkur [deyilən] kimsələr haqqında təqibati-qanuniyyəyə təvəssül edilmiş [qanuni təqibə müraciət edilmiş], guya mobilizasiya [səfərbərlik] elan edildiyi zaman bu əfəndilər mobilizasiyanın əleyhində propaqanda yapmışlarmış. Bunun üçün də dövlət xainləri sayılırlar imiş.

Şurası daha ziyadə şayani-təəccüb [təəccüblü] ki, təhərridən Simferopol okrujnoy sudunun [dairə məhkəməsinin] prokuroru Kriçinski xəbərdar edilmədiyi kimi, işdən əl çəkdirilməyə qədər də varılmış. Çünki, Kriçinski cənabları Litva müsəlmanlarından və müqtədir millətpərvər gənclərindən biridir. Onun böylə mühüm bir mövqeyi işğal edişi gözə tikan kimi batır və təqib edilən planlar qolaylıqla meydana çıxmayırmış. Bu təhərrilər bir başqa xarakteri də ehtiva edirmiş. Şəhər və zemstvo idarələri intixablarında [seçkilərində] əhəmiyyətli təşkilatla hərəkət edən və ümidin xaricində müvəffəqiyyətlər görən islam gəncləri[nin] ümumi Məclisi-Məbusan intixablarında da eyni müvəffəqiyyəti görəcəklərinə şübhələri olmayan Kabinə və Könüllü ordunun tutduğu politika, iləri gələn gəncləri bu kimi uydurma şeylərlə ittiham edərək onların önlərinə bununla sədd çəkmək imiş.

Bu xəbərin və bu siyasətin böylə olmadığına inanırız. Çünki məşru [qanuni] bir surətdə haqq qazananmayanların yolu naməşru [qeyri-qanuni] yoldur. Fəqət bu yolda əldə edilən haqqların, hakimiyyətlərin ömrü pək qısadır. Çox keçmədən zaman bunu bizə göstərər.

*Ə[dhəm] Feyzi*





## ƏLƏKBƏR BƏY RƏFİBƏYOV

Aprelin 3-də Gəncədə ağır bir xəstəlikdən sonra Azərbaycan fəallarından olan məşhur Ələkbər bəy Rəfibəyov vəfat etmişdir. Mərhum hənuz cavan sinnində [yaşında] olarkən həyata açıq bir ağıl və idrak ilə baxmış və bundan naşi [ötrü] bütün əqrəbası və dostlarının xüsusi diqqət və etinasını kəndisinə cəlb etmişdir.

Gəncə ibtidai şəhər məktəbini bitirdikdən sonra Ələkbər bəy rusca və türkcə lazımi dərəcədə savadlı olaraq böyük həvəs və şövqlə məlumatını daha da artırmağa qəsd etmiş və ciddi surətdə olaraq ictimai elmlərə maraq hiss etmişdir. Buna görə də hər bir yığıncağa getmiş və bu isə onun məlumatını və fəaliyyətini bir daha artırmışdır. Böylə bir fəaliyyət və məlumatı sayəsində Gəncə həyati-ictimaiyyəsi cərəyanına [ictimai həyatının axışına] doğru bir yol salmağa müvəffəq olmuşdur.

Bir neçə vaxt hökumət işlərində məsuliyyətli vəzifələr ifa edərək Gəncə vilayətini lazimi surətdə öyrənmiş və bununla sonrakı fəaliyyətini böyük bir müvəffəqiyyətlə icra etmişdir. Buna görə də vilayətin hər tərəfindən gələnlər Ələkbər bəyə müraciət edir və onun məharətindən istifadə edirlərdi. O heç kəsi özündən kənar və heç kəsin müraciət və ilti-masını rədd etməmişdir.

Belə bir zamanda Ələkbər bəy hökumət xidmətini buraxıb və tamamilə camaat işlərinə məşğul olmuşdur. O, kəndi məlumatı və fəaliyyəti sayəsində şəhər işlərində böyük məharət göstərmiş və bununla həman dairənin etinasını kəndisinə cəlb etmişdir.

Ələkbər bəy dəyanətli bir millətpərəst və həqiqi bi millət xadimi və təəssübkeş olduğu üçün bütün həyatını ictimai və milli işlərə münhəsir [həsr] etmiş və axır ömrünə qədər bu yolda çalışmışdır. Bundan başqa onun şəxsi məşğuliyyəti yox idi. O fəqət camaat və millət işləri ilə yaşar, kəndi həyatını və onun maddi cəhətdən təminini bilmərrə [tamamilə] xatirdən çıxarardı. Millətin bütün şad və qəmli günlərində, Gəncə şəhəri və Gəncə quberniyasının bütün milli, ictimai işlərində Ələkbər bəyi görmək olardı. O, özünün səmimi və doğruluğu ilə camaatın böyük bir kütləsinin və ələlxüsus ziyalı dairələrin hüsn-rəğbətini qazanmışdı.

1905-1906-cı illərdə vüqu bulmuş [baş vermiş] qəmli hadisələrdə Ələkbər bəy Rəfibəyov erməni-müsəlman toqquşmasının önünü almaq işlərində son

dərəcə müvəffəqiyyət və məharətli bir surətdə çalışmış və millətinin bütün şəraf və heysiyyətini təmin etməklə bərabər, kəndi arxasında aparmış və hadisə vüqusuna imkan verməmişdir.

İnqilabın əvvəl günlərində şəhərdə hökumət olmadığı halda, Ələkbər bəy dəfəatla [dəfələrlə] şəhəri yəğma və talandan xilas etmişdir.

Demək olar ki, Ələkbər bəy kəndi öhdəsinə düşmüş olan milli vəzifəsini bəhəqq [layiqli surətdə] ifa etmiş və buna görə mərhum, Azərbaycan fəallarından birinci xoşbəxt olmuşdur. O, vətənini yeni və işıqlı həyat ibtidasında [başlanğıcında] buraxıb getmişdir.

Vətən, millət və ələlxüsus Gəncə camaatı ondan son dərəcə razı olub və daima kəndisini rəhmətlə yad edəcəkdir.

## BAKI XƏBƏRLƏRİ

**Hərbiyyə nazirinin Bakıya vürudu [gəlişi]**

Hərbiyyə naziri Səməd bəy Mehmandarov həzrətləri Gəncədən Bakıya varid olmuşdur [gəlmişdir].

**Azərbaycan qoşunlarının Bakıya gəlməsi**

Aldığımız məlumata görə, ən yaxın zamanda təntənəli surətdə Azərbaycan ordusu qitəatı [hissələri] Bakıya varid olacaqdır.

**Qışlaların təmiri**

Bakıya Azərbaycan qoşunu gələcəyi ehtimalı ilə İçərişəhərdəki qışlalar [kazarmalar] təcili surətdə təmir edilməkdədir.

**Mühazirələr**

- Yarın, cümə günü, aprelin 4-də, saat 4 tamamda Bakı Şəhər Dumasının salonunda Krım Parlamanı nümayəndəsi Ədhəm Feyzi: 1) Əski istibdad idarəsinin inqilaba qədər müsəlmanlar haqqında tutduğu siyasət; 2) İnqilabdan bu ana qədər keçən dövr məsələləri barəsində mühazirə oxuyacaqdır.

- "Müsavat"ın Təbliğat-Təşkilat şöbəsi, Balaxanı mədənlər mərkəzi "Müsavat" idarəsi mədən dairələrində çalışan müsəlman işçi qardaşlara elan edir ki, şənbə günü aprel ayının 5-də saat 1-də işçilər növbəti iclası əvəzində idarə tərəfindən Balaxanı krujokunda mühazirə məclisi tərtib ediləcəkdir. Məclisdə Krım Parlamanı nümayəndəsi Ədhəm Feyzi və Abbasqulu Kazımzadə mühazirə oxuyacaqdır. Fəhlə həyatına dair mühüm məsələlər də şu məclisdə müzakirə ediləcəkdir. Göstərilən vaxtda işçi yoldaşların hazır olmaları rica olunur.

**"Müsavat"ın Təbliğat və Təşkilat şöbəsi**

Cümə günü aprelin 4-ü Binəqədidə "Narodnı dom" [Xalq evi] binasında "Müsavat" firqəsinin Binəqədi şöbəsi tərəfindən mühazirə oxunacaqdır. Mühazirəçi Piri əfəndi Mürsəlzadə əhvali-hazirəyə dair bəyanatda bulunacaqdır.

**Xuluq kəndi camaatının ricası**

Quba uyezdi Qusar mahalının Xuluq kəndi camaatı vəkili Hacı Cavad Vəlibəyzadə Maarif nazirinə müraciətən rica etmişdir ki, məzkur [adı çəkilən] kənddəki məktəbin təmiri üçün müavinəti-nəqdiyyədə [nağd pul yardımında] bulunsun.





Məzkur kənddə olan məktəbin bəzi məxaricini və o cümlədən 30 min manatı camaat öz öhdəsinə götürür. Qalan məbləğin isə Maarif Nəzarəti tərəfindən təxsis edilməsini [ayrılmasını] camaat rica edir.

## AZƏRBAYCANDA

**Şəkidən**

Həmin mart ayının 28-də Şəki ünas edadisi mütəəllimələri [qız şagirdləri] qadın və qızlara məxsus olmaq üzrə Abdulla Şaiq əfəndinin "Gözəl Bahar" adlı əsərini oynadılar. Qadınlar kiçik qızlarını yanlarına salaraq fövqəladə bir sürur və nəşat [sevinc və şadlıq] ilə axışıb gəlməyə başladılar.

Vəqti-müəyyəndə [təyin olunmuş vaxtda] oyun başlandı. Qızlarımızın hər birisi öz vəzifələrini öylə bir məharətlə icra və ifa etdilər ki, insan bu məharətə heyran olurdu.

Bunların böylə məharətli oyunlarını gördükdə, "Təəssüf ki, bu vaxta qədər cəhalət və qəflət üzündən nə qədər mücəssəm zəkalarımız puç olub getmişdir ki, bunlar əgər əvvəldən təlim və tərbiyəyə qoyulsaydılar, millətimiz üçün nə qədər milli, ictimai faydalar təmin olunardı", sözləri varidi-xatir olurdu [xatirimizə gəlirdi].

Mürşidi-həqiqimiz [həqiqi yol göstərənimiz] Həzrəti-Peyğəmbərin əmrinə istinadən qızlarımızı əvvəldən təlim və tərbiyəyə qoysaydıq, mühəqqəqdir [şübhəsizdir] ki, bu gün saheyi-siyasətdə millətimizin hər fərdi bir aslan kəsilərək vətənimizi əcnəbi boyunduruğundan xilas edərdilər və o sayədə də ürfanca, qüdrət və sərvətcə yüksələr, sözlərimizi dinlətdirməyə qüvvət kəsb edərdik [qazanardıq].

Nəysə, keçən keçmişdir, istiqbalı [gələcəyi] düşünməlidir. Ataların bir sözü var ki, deyərlər keçmişə peşman olmaqdansa, gələcəyin qeydinə qalmaq lazımdır.

"Gözəl Bahar"dan sonra "Əsli və Kərəm" operasından bəzi xorlar oxundu. Sonra biri əcnəbilərin, biri milli və dini olmaq üzrə millətimizin ailə həyatındaki tərzi-məişətlərini müşir [bildirən] iki mənzərə göstərildi ki, bu mənzərələr doğrusu calibi-heyrət [heyrətamiz] idi.

Birinci mənzərədə, yəni əcnəbi ailəsində pədər [ata] oturmuş fövqəladə bir düşüncə ilə qəzetə oxumaqla məşğul, validə [ana] tikiş tikir, çocuq isə dərslərini hazırlamaqla məşğuldur.

İkinci mənzərədə, yəni müsəlman həyatında pədər xor-xor qəlyanını xoruldayır, külfətin sair əfradı da infialsız [hissiz, duyğusuz] bir nəzəri-laqeydi ilə baxırdı.

Ələlümum [ümumiyyətlə], oyun qayətlə gözəl keçərək tamaşaçıları məmnun etdi. Şəki müəllimlərinin bu babdakı himəmati-aliyyələrini [böyük səylərini] təbrik edərək fövqəladə bir təşəkkürlə alqışlar və sıx-sıx böylə teatrolar verməklə bu vaxta qədər dünyadan bixəbər bulunan qadınlarımızı ictimaiyyat aləminə öyrətməyə səy etmələrini təmənni edəriz. Cənabi-Haqq müvəffiqiyyətlər ehsan buyursun.

*Ağakişizadə Əbdürrəhim*

**Lənkəranda**

Lənkarandan bugünlərdə varid olmuş [gəlmiş] bir nəfər itminanlı zatın [mötəbər şəxsin] dediyinə görə, Lənkaran hökumə-

ti (?) istefa vermişdir. Hökumət əzasından [üzvlərindən], daha doğrusu Lənkəran hakimi-mütləqi Arustamov nam [adlı] bir nəfər gizli Bakıya gəlmiş imiş ki, qaçsın. Fəqət polis tərəfindən tövqif [həbs] edilib həbsxanaya salınmışdır. Onun məlumatına görə, Lənkəran əhvalı olduqca fənadır. Adi bir anarşi davam etməkdədir. Anarşidən ən ziyadə mütəzərrir olan [zərər çəkən] yerli islam əhalisidir. Lənkəranlılar Azərbaycandan dəqiqədən-dəqiqəyə nicat gözləməkdədirlər.

**Qaçaq Yunisin qətli**

Zuvand komissarı təyin olunmuş məşhur Qaçaq Yunis Muğan hökuməti tərəfindən Zuvand mahalına tövcü [töycü, vergi] yığmaqdan ötrü məmur olub, 12 mart[da] Şevkunovun əsgərləri ilə məa [bərabər] Zuvanda azim oldu [yola düşdü]. 14 mart[da] Əvləzubujan kəndinə varid olurlar [çatırlar].

Yunis əsgərləri rahat edəndən sonra özü əlahiddə bir evdə istirahətə məşğul olur. Yatandan sonra Tuluxanlı kəndindən Baxşı adlı mühafiz əsgərini qaravol çəkməyə əmr edir. Gecə vaxtında həman Baxşı Qaçaq Yunisi yorğan-döşəkdə üç güllə ilə qətlə yetirir. Yunisin qətli xüsusunda işbu səbəb deyilir:

Keçən il Qaçaq Yunis Muğan hökuməti tərəfindən Astara mahalını yandırmağa məmur olub, orada Tuluxanlı kəndini yandırarkən, Baxşının qardaşı da bir neçə nəfərlər ilə qətlə yetirilir. Baxşı qardaşının qisasını və qanının almağının barəsində tədabir edir [tədbirlər görür]. Müddəti keçir. Baxşı gəlib Yunisə xidmətkar olub, bir müddətdən sonra Yunisə canudil ilə xidmət edib mühafiz əsgəri təyin olunur. Baxşı Yunisin inanmış şəxslərindən biri olur ki, sonra fürsət tapıb Yunisi qətlə yetirir.

Qaçaq Yunis öləndən sonra onun dəstəsi başından dağılıb gediblər. Şevkunov əsgərləri də orada davam etməyib şəhərə varid oldular.

*Teymur bəy Bayraməlibəyzadə*

**Ağdaşdan**

Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin üçüncü iclası martın 28-də saat 2-də açılaraq teatrodan hasil olmuş pulu qaçqınlara nə surətlə sərf olunması xüsusunda rəis tərəfindən məclisə sorğu verildi. Yekrəy olaraq [yekdilliklə] aşağıda göstərilən qərarlar qəbul olundu:

1) Müqəddəmən [əvvəlcədən] hökumət tərəfindən qaçqınların hallarını göstərmək üçün tərtib verilən komissiyanın işləməsi xüsusunda və Ağdaş qaçqınlarının keçirdikləri fəlakətli halları və hökumət tərəfindən lazım olan köməyi höku-mətə ərz və təqdim etmək.

2) Küçələrdə dilənçiliyə məhkum qaçqın qadınların məişəti təmin edilib də küçələrdən çəkdirilməsi.

3) Qaçqınların ən düşgünlərinə teatrodan hasil olmuş pulun iki min manat cəmiyyətin ehtiyat sərmayəsi olaraq çıxdıqdan sonra 5474 manat 50 qəpik para olaraq paylanması və bu xüsusda komissiya olaraq qaçqınlardan Məhəmmədşafi Hacıməhəmmədzadə və Nəcəfqulu Nəcəfzadə, cəmiyyət tərəfindən Əbdülbaqi Əfəndizadə intixab olundular [seçildilər].

4) Aprel[in] 20-sindən gec olmamaq şərti ilə təkrar teatro vermək və bu xüsusda Ərzaq nazir[i] vəkili Musayev, Cəmiyyət rəisi Qasım Qasımzadə, tüccarlardan Həmid Hacıabbasquluzadə və gənclərdən Yusif ağa Aslanov teatro heyəti olaraq intixab olundular.

*Məhəmmədrza Əbdizadə*





## TEATRO VƏ MUSİQİ

**Üzeyir bəyin şərəfinə**

Bu gün cümə günü axşam Hökumət Teatrosunda müsiqişünas və bəstəkar Üzeyir bəy Hacıbəyli cənablarının şərəfinə olmaq üzrə Hacıbəyli Müdiriyyəti tərəfindən Üzeyir bəyin məşhur əsəri olan "Arşın mal alan" operası mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır. Teatro başlamadan qabaq Üzeyir bəy tərəfindən yeni yazılmış olan "Azərbaycan marşı" səhnədə çalınıb, bir milli marş olmaq üzrə hazirunun hüsnnəzərinə təqdim ediləcəkdir. Əlavə, oyunun dördüncü pərdəsində rəqslər icra edilib, Üzeyir bəyin genə təzə yazmış olduğu 1) "Azərbaycan" və 2) "Dağıstan" balet rəqslər xüsusi olaraq artist və artistkalar tərəfindən ifa ediləcəkdir.

**Diş həkimi M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Doktor Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*7515*

**Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyəti İdarəsi**

Bununla elan edir ki, martın 23-nə təyin edilmiş növbəti iclas üzvlərin gəlmədiyindən vaqe olmamışdır [baş tutmamışdır]. Ona görə, Cəmiyyətin ikinci növbəti iclası aprelin 6-da saat 10-da Bakı Şəhər İdarəsi zalında vaqe olacaq. Bu iclasa Cəmiyyətin nizamnaməsinin 34-cü maddəsinə görə hər nə qədər üzv gəlmiş olsa, qanuni hesab olunacaqdır. Müzakirə ediləcək məsələlər:

1) İdarə və şura məruzəsi;

2) Təftiş komissiyası məruzəsi;

3) 1918-ci ilin atçotunun [hesabatının] baxılmağı və təsdiqi;

4) 1919-cu ilin smetasının baxılmağı və təsdiqi;

5) İdarə sədri S. Q. Eyvazovun yerinə təzə sədr intixabı [seçilməsi];

6) 1918-ci ildə çıxmış olan idarə müdiri İsmayıl bəy Səfərəliyevin və növbətlə çıxmış Q. B. Ter-Stepanovun yerinə təzə müdirlər intixabı;

7) Növbətlə çıxmış şura üzvü A. Əhmədovun yerinə təzə üzv intixabı;

8) Təftiş komissiyasına üç üzv və üç namizəd intixabı;

9) İclasda qaldırıla biləcək məsələlər.

*T-83*

**Bakı "Obşestnevnni Sobraniya"sı**
**[Bakı İctimai Yığıncağı]**

"Starşina"ları şurası bununla üzvlərə elan edir ki, aprelin 10-da saat 7-də üzvlərin ikinci ümumi iclası olacaqdır. İclas 1918, 1919 və 1920-ci illərə məxsus "Starşina" və Təftiş Komissiyasına, 1918-1919-cu illərə məxsus üzvlər intixabı üçün dəvət olunubdur.

**Qeyd:** "Sobraniya"nın nizamnaməsinin 66-cı maddəsinə görə, iclasa hər nə qədər üzv gəlmiş olsa qanuni hesab olunacaqdır.

*T-84*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 55. "Mədrəseyi-diniyyə": Gəncə Ruhani Mədrəsəsi nəzərdə tutulur.

**Qismi-rəsmi**

səh. 57. "Teymurxan Abbas": Azərbaycan Cümhuriyyəti Parlamenti sədrinin "Azərbaycan" qəzetinin 10 yanvar 1919-cu il tarixli 84-cü nömrəsində dərc olunan 40 nömrəli əmrnaməsində bu şəxsin adı "Teymurxan Abbasi" kimi göstərilmişdi. (Bax: "Azərbaycan" qəzeti külliyyatı, IV cild, s. 159)

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 61. "Cəlil bəy Sultanov": qəzetdə səhvən "Xəlil bəy Sultanov" getmişdir.

səh. 63. "Lvov hökuməti": Rusiyada Müvəqqəti hökumət dövründə Georgi Yevgenyeviç Lvovun sədrliyində qurulan hökumət (mart-iyul 1917) nəzərdə tutulur.

səh. 65. "1) Qubernatorlara...": bundan sonrakı maddələr qəzetdə 2-dən başlamaqla nömrələndiyi halda, bu maddə nömrəsiz verilmişdir.

"Balaxanı polismeysterinə...": qəzetdə "Bakı polismeysterinə" getmişdir.

**"Məfkureyi-aliyyəmiz" şeiri (səh. 65)**
**üçün lüğət:**

dövləti-növzad: yeni yaranmış dövlət
behiştzar: cənnət bağı
lanə: yuva
Şahbazpərvər olmalıdır aşiyanəmiz: Yuvamızda (vətənimizdə) tərlanlar, şahinlər (igidlər) yetişməlidir.
məali: uca; yüksək
məfkurə: qayə; ideya
əzmi-xüruşan: coşğun əzim; inadlı əzim
dili-əzmkar: əzimli ürək
guş eyləmək: qulaq asmaq
əqvami-kainat: dünya xalqları





amali-zülcəlal: cəlallı, əzəmətli amal
bixovf: qorxusuz
təriq: yol
zail olmaq: yox olmaq, məhv olmaq
hail: maneə, əngəl
şitab etmək: tələsmək; qoşmaq
zadeyi-vətən: vətən övladı

"Çıxsın dilərsə qarşımıza həp məzarımız / Qorxmaz məzardan bu dili-əzmkarımız": Bu beyt Məhəmməd Hadinin çox sevdiyi və hörmət bəslədiyi türk şairi Əbdülhaq Hamidin "Öylə bir əzm ilə çıxdım ki yola / Qarşıma çıxsa məzarım dönməm" beytini yada salır.

**İran işləri**

səh. 68. "Cəngəllilər" (yaxud Cəngəlilər) İranda 1915-1920-ci illərdə Qacarlara qarşı partizan hərəkatının (Cəngəlilər hərəkatının) iştirakçıları idilər.

"İngiltərə Hökuməti cəngəldəki Kiçik xan dəstəsini tərki-silah etmək istəmiş...": Cəngəlilər Gilanın meşələrində (cəngəlliklərində) fəaliyyət göstərirdilər və adlarını da buradan götürmüşdülər.

"İran tarixi-məşrutiyyətində...": "məşrutiyyət" konstitusiyalı monarxiya rejimidir; burada İranda Məşrutə inqilabı dövrü (1905-1911) nəzərdə tutulur.

**Krımın son günləri**

səh. 69. "kadetlər": Konstitusion-Demokratik Partiya (Kadet Partiyası) üzvləri.

"yeni Kabinənin Xariciyyə naziri Vinaver": Vinaver yerinə qəzetdə səhvən Dinader getmişdir.

**Azərbaycanda**

səh. 73. "...Lənkəran hökuməti (?) istefa vermişdir.": sual işarəsi qəzetdə getmişdir.



*“Azərbaycan” qəzetinin 151-ci nömrəsinin 1-ci səhifəsi*





**Bazar ertəsi, 7 aprel 1919-cu il, nömrə 151**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 6 rəcəbül-mürəccəb sənə 1337. 7 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Gəncə Türk Müəllimlər İttifaqı məşhur millət xadimi **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] məlum edir.

*T-89*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Bağır bəy və Qəhrəman bəy Rəfibəyovlar öz sevgili qardaşları **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Mədrəseyi-Diniyyə bununla məşhur millət xadimi **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə məlum edir.

*T-90*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Məşhədi Zeynal bəy, Əli bəy, Abdulla bəy və Məşədi Əzim bəy Rəfibəyovlar öz sevgili əmisi oğlu **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Gəncə Həmkarlar Cəmiyyəti Şurası bununla məşhur millət xadimi **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə Gəncədə vəfat etdiyini kamali-hüzn və təhəssürlə elan edir.

*T-91*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Doktor Xudadad bəy Rəfibəyov öz sevgili atası **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

İsmayıl, Hilal və Abbas Məhəmmədovlar öz sevgili əmiləri **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə

vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

*T-92*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Cavad bəy, Əyyub bəy, Qənbər bəy Rəfibəyovlar öz sevgili əmiləri **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Gəncə Ticarət və Sənaət İttifaqı bununla məşhur millət xadimi **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə məlum edir.

*T-93*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Məşhədi bəy, Məşhədi Əsgər bəy Rəfibəyovlar özlərinin sevgili əmisi oğlu **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına məlum edirlər.

**ELAN**

1919 sənəsi aprel ayının 7-də, düşənbə [bazar ertəsi] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

**Satılır**

Azərbaycan qoşunlarının təntənəli bir surətdə şəhərə daxil olmaları münasibətilə çəkilmiş şəkillər. Ünvan: Nikolayevski küçə Xitrin aptek mağazası, "İsmailiyyə" ilə rubəru.

*5758*

**Təcili surətdə lazımdır**

8, 10, 12 otaq, şəhərin mərkəzində müəssisədən ötrü. Naberejnı küçədə olması təmənna olunur. Mebel ilə, olmasa mebelsiz, qiyməti qədərsizdir. Pasredniklərdən [vasitəçilərdən] məlumat dəxi qəbul edirəm. Xahiş olunur bu ünvana müraciət olunsun: Tarqovı küçə, "Kommerçeski nömrələr", nömrə 9, səhər saat 9-11, axşam 6-7-ədək.

*5788*

**QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]**

**Azərbaycan Hökumətinin qərarı**
30 mart 1919
Azərbaycan 100-lükləri

1) İndiyə qədər işlənməkdə olan pullardan başqa, hökumət tərəfindən təsdiq edilmiş şəkildə 100 manatlıq Azərbaycan Hökuməti pulları buraxılsın.

2) Göstərilən pullar hökumət əmvalı [malları] ilə təmin edilir.

3) Maliyyə nazirinə həvalə olunsun ki, həm[in] pulların işlənməsi qanununu və buraxılması qaydalarını nəşr edib "Azərbaycan" qəzetəsinin qismi-rəsmi şöbəsində həmin pulun 1919-cu il şəklini təsvir ilə elan etsin.

*Rəisi-vükəla:*
*Fətəli xan Xoyski*
*Maliyyə naziri*
*vəzifəsini ifa edən:*
*Əliağa Həsənzadə*





**MİLLİ BİR GÜN**

Aprelin 5-i heç şübhəsiz ki, Azərbaycan tarixi-təşəkkülünə [təşəkkül tarixinə] milli günlərdən biri olmaq üzrə qeyd olunacaq.

Bir gün əvvəlcə çıxan qəzetələr:

– Ordumuz gəlir! – xəbərini vermişlərdi.

Sabah açılarkən xalqımızın ordusunu nə kimi bir sevinclə istiqbala [qarşılamağa] hazırlandığı görülürdü. Bazar, dükan, ev, küçə – həpsi xalılarla bəzənmiş, aylı-yıldızlı bayraqlar şəhərə adəta bayram rəngi vermişdi.

Böyük-kiçik, oğul-uşaq, kişi-arvad hər kəs küçələrdə idi. Damların üstü belə qadınlarla dolu idi.

Ordumuz müntəzəm səflər, qüvvətli süvarilərlə, qismi-məxsusumuzda [xüsusi hissəmizdə] bərtəfsil [təfsilatı ilə] yazıldığı vəchlə şəhərin mərkəzi küçələrini dolaşaraq Hökumətin, Parlamanın və möhtərəm müsafirlərimiz ingilislərin nümayəndələri tərəfindən təbrik edildikdən sonra Salyan qışlalarına [kazarmalarına] getmiş, qışlaya gedərkən Şamaxı yolunda əhali tərəfindən istiqbal olunaraq ayaqları altında qurbanlar kəsilmiş, keçdikləri küçələrdə, damlarda və balkonlarda oturub aylarla yollarını gözləyən qadınlar tərəfindən güllər saçılmışdır.

Ordumuzu ilk dəfə olaraq paytaxtımızda görmək, xalqımızın kəndi ordusunu böylə təsviri qeyri-qabil böyük bir ruh və sevinclə istiqbal eylədiyini seyr eyləmək, millətin hürriyyətini, istiqlalını sənələrdən bəri gözləyən və bunu bir fikir və bir ideal olaraq pərvərdə edənlər [bəsləyənlər] üçün nə dərəcədə böyük bir bayram, nə şanlı və şərəfli bir gün idi!.. Parlamanın sosialist əzasından [üzvlərindən] birisi bugünkü hissiyyatını anlatarkən deyirdi ki:

– Mən bu gün doğrudan da milləti görürəm. Bu saatda hər kəs kəndiliyini unutmuş, təbii olaraq hər kəs vahid bir vücudun cüz'ü [hissəsi] olduğunu dərk eyləmişdir.

Əvət, doğrudur, öylə anlar, öylə dəqiqələr, öylə hisslər, öylə zamanlar vardır ki, onda sinif mənfəəti, firqə hissi, şəxs qərəzi unudulur, millət əfradı [fərdləri] yalnız bir vücud olduqlarını düşünürlər.

Bu gün, ordumuzun paytaxtımıza gəldiyi gün, böylə günlərdən, böylə dəqiqələrdən biri idi.

Ordumuzun gəldiyi münasibətilə köksü qabaran bir vətəndaş bugünkü sevinclə keçən ilki günləri müqayisə edirdi.

– Əlhəmdülillah, bugünləri də görəcəkmişiz! – deyirdi.

Aprelin Azərbaycan tarixi səhifələrinə yazılacaq 5-ci günü yalnız xalqımızda tövlid eylədiyi [meydana gətirdiyi] təsliyət [ürək-dirək vermək, təsəlli vermək] hissləri ilə deyil, oyandırdığı vəhdəti-milli idrakı ilə də böyükdür.

Bu gün mən görürdum ki, bir millətin milət olduğunu kəndisinə bildirmək və onda etimadi-nəfs xassəsi [özünəinam hissi] oyatmaq üçün milli bir hökumət təşkilinin əlaməti-zahirisi [zahiri əlaməti] olan ordunun nə qədər böyük bir əhəmiyyəti, nə dərəcə əsərli [təsirli] bir nüfuzu, mənəvi və tərbiyəvi bir nüfuzu vardır.

* * *

Kəndi doğma ordusunu böylə doğma hisslərlə qarşılayan paytaxtın, əsgərlərin-

dən gözlədiyi məqsədləri xülasə etmək lazım gələrsə, bunu iki-üç sözlə xülasə etmək olar.

– Hürriyyətimizin müdafiəsi, namus və istiqlalımızın mühafizəsi!

Gözlədikləri bu məqsədlərin ifası üçün təşkil olunan yeni ordumuzun cansiparanə bir surətdə çalışacağına, bu gün məhdud bir qitəsini [hissəsini] istiqbal eylədiyi ordunun, inşallah, getdikcə böyüyüb möhkəmləşəcəyinə inandığı bir səmimiyyətlə xalq ordumuzun əzmkar generalı Hərbiyyə naziri Səməd bəy Mehmandarov cənablarını pək haqlı olaraq alqışlara tuturdu.

* * *

Ordumuzu istiqbal edərkən Mart facieyi-əliməsini [kədərli Mart faciəsini] gözləri ilə görənlər bittəbii bu martı o mart ilə müqayisə edirlərdi.

Fəqət mən martı martla deyil, apreli noyabr ilə müqayisə edirdim.

O gün ki, türklərlə bərabər yeni vücuda gələn Azərbaycan qitələri də çəkilir, buraya ingilis komandanlığı ilə bərabər Biçeraxovun əsgərləri gəlirlərdi.

Şəhərin üstündə uçan qara qarğa, Biçeraxovun aeroplanı, yuxarıdan başımıza vərəqələr nəşr edir [yayır], Rusiya şəhərinə gəldiyini, hər kəsin Rusiyaya tabe olması lüzumunu bildirirdi. Ah, o nə əndişəli, nə qorxulu, nə ağır günlər idi.

İngilislər burada hürriyyət və istiqlalı ilə yaşamağa əzm etmiş bir millət olduğunu bilməyir, bizim haqqımızda başqa düşmən mənbələrdən almış olduqları məlumat üzərinə hərəkət edir kimiydilər.

Günlər keçdi. Üfüqi-siyasət açıldı. Azərbaycan Cümhuriyyətinin binası möhkəmləşdi.

Bizə qara xəbər gətirən düşmən qüvvət – Biçeraxov-Prjevalski əsgərləri şəhərimizdən çıxarıldı. Flotun [donanmanın] silahı alındı.

Nəhayət, ordumuz gəldi.

Şəhərimizin bəlakeş [bəlalar çəkmiş] sinəsi üzərində əzmkar qədəmləri ilə yürüyən əsgərlərimiz müztərib [iztirab çəkən] ürəklərdə yürüyüş ahəngi ilə mütənasib sevinc zərbələri hasil edir, hər kəs bilaixtiyar:

Yaşasın ordumuz! – deyirdi.

Ordumuzun gəlməsi ilə qabaran hissiyyatımızı ifadə üçün xalqın bir ağızdan söylədigi sözə biz də iştirak edəlim:

Yaşasın ordumuz!

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(Keçən nömrələrin axırı)*

**Malxazyan** - Qanun layihəsi qiraət edilmədən əvvəl, mən bəyan etdim ki, bu məsələ müzakirə edilə bilməz. Zira, məsələ cəlbnamədə [çağırış vərəqəsində] qeyd edilməmişdir. Fəqət Parlaman layihənin müzakirə edilməsinə səs vermişdir. Böyləliklə Nakazın [Nizamnamənin] 86, 87 və 103-cü maddəsi xələldar edilmişdir. Bu maddələrdə denilir ki, Parlamanda mövqeyi-müzakirəyə qoyulan məsələlər cəlbnamədə qeyd edilməlidir. Qeyd edilməyən məsələlər müzakirə edilənməz. 8-ci babda [fəsildə] Nakazın baxılması qanununda denilir ki, Nakaza Parlaman üzvlərindən beşinin təhriri [yazılı] təklifinə görə yenidən baxmaq olar. Bunun üçün də komisyon təyin edilməlidir. Amma bugünkü qərardad Nakaz[ı] dəyişmişdir ki, buna da yol vermək olmaz. Ona görə, təklif edirəm ki, məsələ təxirə düşsün və zənn edirəm ki, bu təklifi səsə qoymaq belə lazım deyildir.

**Sədr** – Mən borc bilirəm məlum edim ki, bu barədə Nakaz pozulmamışdır. Burada 86-cı maddəyə istinad edilir. Bu maddə qeydində isə fövqəladə iclas barəsindədir. 87-ci maddə isə fövqəladə iclasa əlavə məsələlər olsa da dəvətnamələr göndərilir ki, bu da deməli dürüst istinad deyildir. 103-cü maddəyə istinad etmək də dürüst deyildir. Mən möhtərəm Malxazyanın nəzərini 88-ci maddəyə cəlb edirəm. O maddədə denilir ki, iclas açılanda yövmiyyeyi-müzakiratı [müzakirə gündəliyini] məlum etməli. Mən bunu təhrirən [yazılı] göndərməyib şifahən demişəm. Mən ancaq 99 və 102-ci maddəni pozmuşam. Bu da ondan ibarətdir ki, beş əza istəsə gərək dəvətnamələr yazılsın.

**[Xəlil bəy] Xasməmmədov** – Layihə müzakirəsindən əvvəl, mən bir-iki söz söyləmək istəyirəm. Bu qanun layihəsini Parlamana təqdim etməkdə Daxiliyyə Nəzarətinin üç məqsədi var idi. Biri maaş artırmaq, ikinci bir neçə yerdə məmurları artırmaq, üçüncüsü inqilabdan sonra bir neçə yerdə məmurlar təyin olunub, bu da qanunsuz olduğundan gərəkdir ki, qanuna salınsın. Büdcə təsdiq olunanda hər bir adamın, hər bir məmurun mövqeyin[in] də qanunən olması lazım gəlir. Məmurların maaşını artırmaq üçün bir şey söyləyəcəyəm. Çünki Maliyyə-büdcə komissiyası rəisi bu barədə lazım olan izahatı verdi. Bu bahalıqda qaradovoylar[a] 450 rublə məvacib verilməsi barəsində dedi ki, bu məvaciblər gərək əlbəttə artırılsın. Bir də odur ki, bir neçə yerdə məmur artırmaq. Bu da məlumdur ki, məmləkətdə nizam saxlamaq polis deyil, əsgərlərin vəzifəsidir. Bu da ki, sizə məlum olan bir taqım səbəblərə görə bizdə yoxdur. Bu vəzifəni polis icra edir. Bir məmləkətin hüdudunu da, dövlətini də ancaq əsgərlər müdafiə və mühafizə etməlidirlər. Lakin həman məlumunuz olan səbəbə görə bunu da polis nəfəratı [nəfərləri] icra edir. İştə bu təklif etdiyimiz layihə bu işlər barəsindədir ki, təxiri yaxşı olmaz. Layiheyi-qanuniyyəyə bu nöqteyi-nəzərdən baxılsa görülər ki, bu məsələlər böyük və mühüm məsələlərdir. Bunu demək istərdim ki, bu qanuna öylə bir nəzərlə baxmayasınız ki, guya, biz nə qayda ilə işi aparacağız. Bu qaydanı büdcə təqdim edəndə məlum edəcəyiz. O vaxt təqdim edəcəyimiz layihə barəsində Parlaman öz təsəvvüratını bəyan edə bilər. O məsələ buna qatılmasın. Əlbəttə bizə də başqa müəssisələr, zemstvo [yerli özünüidarə orqanı] və qeyrə kimi lazımdır. Bu barədə hökumətimiz işləyir. Qanun layihəsi tərtib verilir. Layihə sizə təqdim olanda rəyinizi deyərsiniz. Daxiliyyə Nəzarəti qulluqçuları sizin bugünkü qətnamənizi gözləyir. Çünkü onların aldıqları məvacib kifayət etməyir və məvaciblərin artırılması bugünkü qətnamənizə bağlıdır. Bir də kənd işlərinə baxan idarə barəsində demək istərəm ki, bu idarə lazım deyildir. Bakıda bu idarə ləğv olub, Gəncədə isə qalıb. Mən istəyirəm ki, Gəncədəki idarə Bakıdakı kimi olmayıb, kağızları tərtiblə top-

layıb Torpaq Nəzarətinə verilsin. Buna görə, mən də Büdcə komitəsi ilə bu idarənin pozulmasına şərikəm. Lakin əlavə edirəm ki, bu məsələ barəsində bir Təsviyə [Ləğvetmə] komissiyası təyin olunsun.

*(5 dəqiqə tənəffüs elan olunur)*

*(Tənəffüsdən sonra)*

**[Aslan bəy] Qardaşov** – Bayaq Parlaman bir həftə olaraq iclası təxirə salmağı qəbul eyləməyinə görə üzvlərdən bir çoxları bu gün gedəcəklərindən, təklif edərdim ki, bu növbədəki məsələnin müzakiratı təxirə salınsın.

**[Ağa] Aşurov** – Mən də öylə bir şey təklif edəcəkdim, ancaq indi bir şey əlavə edirəm. O qulluqçular ki, 480 manat alırlar, onlar baxacaqlar ki, bununla dolanmaq olmaz. Parlaman komisyonu da təyin edibdir ki, 450 manata dolanmaq olmaz. Ona görə bu məsələni təxirə salaq. Hökumət onların məvacibini nə cür istəyirsə artırsın və 20 milyondan versin. Hərgah, 20 milyon qurtarıbsa genə verək. Məsələ böyük və mühümdür. Cənab nazir dedi ki, leqalizatsiya edəcəyik [qanuniləşdirəcəyik]. Ancaq mən bilmirəm ki, leqalizatsiya haçan olacaq. Mən deyərdim ki, müzakirə gələn dəfəyə qalsın. Bu məsələyə külliyyən baxaq. Ortalıqda bayram vardır. Asudə vaxtda baxa biləriz. Ona görə, indi bu məsələni təxirə salaq.

**[Musa bəy] Rəfiyev** – Bu təkliflər ki, olunub, bayram gəlir, üzvlər gedəcəklər, məsələ qalsın, məsələyə külliyyən baxılsın – bu təkliflər nəzərə alınmazlar. Daxiliyyə nazirinin smetası müzakirə olunanda külli söhbətlər olacaqdır. Bu isə Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin layihəsi kimi təcilidir. Bu məsələyə təcili baxmaq lazımdır. Bu cüzi işə geniş dairədə baxmaq lazım deyil. Hər nəzarətin işinə geniş dairədə baxmaq lazım[sa], smeta müzakirəsi əsnasında baxılar. Layihəyə baxılmalıdır ki, qulluqçular qanuni surətdə olsun. Bir də xidmətçilərin məvacibləri azdır, artırmaq gərəkdir. Bayrama gedən sabah da gedə bilər. Ona görə təklif edirəm ki, bu məsələyə indi baxılıb qəbul olunsun.

**Sədr** – Təklif var ki, Məclis münqəte olub [kəsilib], məsələ gələn iclasa təxirə salınsın. Hər kəs iclasın münqəte olmasına və məsələnin təxirə salınmasına tərəfdarsa əlini qaldırsın. *(Əllər qalxır)*

Sayın! Lehinə 26. Kim əleyhinədir? Əleyhinə 1. Rica edirəm, səsə qoyulan vaxt danışmayasınız! Sayılıb qurtarana qədər əlinizi saxlayasınız.

**Qarabəyov** – Bir də səsə qoyun!

**Sədr** – Təklif olundu ki, Məclis münqəte olsun və layihənin müzakirəsi gələn iclasa qalsın. Yenidən səsə qoyuram. Hər kəs bu təklifə tərəfdarsa, rica edirəm, əlini qaldırsın. *(Əllər qalxır)* Sayın! Lehinə 30. Kim əleyhinədir? Əleyhinə 12. Kim səs verməyib? Səs verməyən 2.

Beləliklə, iclas münqəte olub, məsələ gələn iclasa qalır. İclas qapanır.

*(İclas saat 2.40 dəqiqədə qapanır)*

## TELEQRAF XƏBƏRLƏRİ

* Havas ajansı xəbər verir ki, Reyndə olan fransız istila qoşunlarının komandanı Parisə dəvət edilmişdir. Buna Avropanın cənub-şərq cəhətində xətrəli [təhlükəli] olduğu və bolşeviklərə qarşı göndərilən Müttəfiq qoşunların mütəfərriq





[dağınıq] olduqları səbəbdir.

* Stokholm – Vyanada nəşr edilən "İ. M." qəzetəsi Şərqi Qaliçədə və Ukraynada əhvalın son dərəcə xətrəli olduğunu bildirir. Proskurovda 400 ailə qətl edilmidişir.

* Macarıstanda Müttəfiqlərin istila qoşunları Çeqedinə çəkilmişlərdir. Hərbi komissiya və Amerikanın hamı ofiserləri [zabitləri] Peştədən çıxmışlardır.

* Daşkənd – Əfqan əmiri qətl edildikdən sonra, Əfqanıstanda millətçilərlə ingilislər tərəfdarları arasında hökumətdən ötrü qızğın mübarizə davam edir.

### Çin ölkəsində inqilab hərəkətləri

Daşkənd – Alınan məlumata görə, Çinin İninq qitəsində [rayonunda] şimdiki hökumətdən narazılığa görə inqilab hərəkatı başlanmışdır. Həman qitə və Külcə şəhəri idareyi-əsgəriyyə [hərbi rejim] altına alınmışdır.

## SÜLH ƏTRAFINDA

Vaşinqton – Amerika sülh nümayəndələri "Belı dom"a [Ağ evə] teleqrafla xəbər verirlər ki, sülh əqdi [bağlanması] xüsusunda camaata məlum olandan artıq işlər görülmüşdür.

Paris – Lloyd Corcun Londondan övdətindən [qayıtmasından] sonra, gözlənir ki, Ali Şurayi-Hərbiyyə [Ali Hərbi Şura] mütarikə [atəşkəs] işlərində olan mübahisəli məsələləri həll edəcəkdir. Bu məsələnin bu vaxta qədər təxirinə sülh şəraitini [şərtlərini] tərtibə müvəzzəf ed[il]ən [vəzifələndirilən] mütəxəssislər arasında olan ixtilaf səbəb olmuşdur. Bunların bəzisi müvəqqəti şərtlər tərtib vermişlərdir. Halbuki, digərləri daimi şərtlər hazırlayırmışlar. Buna görə də dünən qət olunmuşdur ki, layihə Foşa qaytarılsın və ümid edilir ki, sabahkı Şuraya idxal ediləcəkdir. "Tan" qəzetəsi zənn edir ki, Almaniya əhvalı xətrəli [təhlükəli] olduğu üçün sülh işlərini təcilən itmama yetirəcəkdirlər [tamamlayacaqlar]. Bundan əlavə, "Tan" xəbər verir ki, Lloyd Corc lazım bilir ki, bilatəxir [gecikdirilmədən] yeni mütarikə şərtnaməsi imza edilsin. Bu şərtnamə ilə abluka [mühasirə] təbdil [dəyişdirilsin] və Müttəfiqlərin şərəfi mühafizə edilsin.

### Almaniya və Rusiya

Nauen – Almaniyada Rusiya ilə əlaqəyə başlamaq məsələsi qalxmışdır. Əfkari-ümumiyyə [ictimai rəy] bilməyir nədən ötrü Almaniya Rusiya ilə əlaqə bağlamaq kimi Müttəfiqlərin tələbatına razı olmuşdur.

## VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

* Maliyyə nazirinin Dağıstan Hökumətinə 30 milyon qərz [borc] vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinin layihəsini təsviblə [bəyənməklə], ona tapşırılsın ki, təsdiqdən ötrü Məclisi-Məbusana idxal etsin.

* Daxiliyyə nazirinin Şimali Qafqaziyadan gələnlər haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Dağıstan Cümhuriyyəti təriqi [yolu] ilə Şimali Qafqaziyadan gələnləri fəqət [an-

caq] Dağıstan Cümhuriyyəti Hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəsi tərəfindən verilmiş vəsiqə üzrə Azərbaycan daxilinə buraxmaq olar. Dağıstan Hökuməti tərəfindən şəhadətnaməsi olanlar istisna edilir. İşbu qərardad aprelin 15-dən etibarən qüvvəni havidir [qüvvədədir]. İşbu təşkilat Daxiliyyə Nəzarəti ilə Türüq və Məabir Nəzarətinə mühəvvəl [həvalə] edilir.

**Fransa mürəxxəsinin [nümayəndəsinin] Rəisi-vükəlanı [Baş naziri] ziyarəti**

Həmin aprelin 2-də Fransa dövlətinin Tehran səfiri Rəisi-vükəla həzrətlərini ziyarət edərək Azərbaycan ilə İran dövləti miyanındakı [arasındakı] əlaqəyə dair müsahibədə bulunmuşdur.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

- İngiltərə ərkani-hərbi [qərargahı] Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir: Ərkani-hərb bir dəfə Nəzarətə fəhlələrin tabelini göndərərək avqust ayı avans üçün 4 ½ milyon paranın təxsisi[ni] [ayrılmasını] rica etmiş imiş. Binaənileyh [ona görə], ərkani-hərb ikinci dəfə rica etmişdir ki, bu barədə hökumət nəzdində təşəbbüsatda bulunsun. Məsai Nəzarəti ərkani-hərbə xəbər vermişdir ki, birinci dəfə Nəzarət heç bir kağız almamışdır. Nəzarət rica etmişdir ki, fəhlələrin tabelləri təqdim edilsin.

- "Müsavat" firqəsinin Təbliğat və Təşkilat şöbəsi Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Binəqədi mədən dairəsi və köyündə neçə vaxtdır ki, Şollar su yolu işləməyir. Bundan naşi [buna görə] fəhlə və kəndçilər miyanında [arasında] bir çox xəstəliklər davam etməkdədir. Şöbə rica etmişdir ki, Nəzarət lazımi tədabiri ittixaz etsin [tədbirləri görsün].

- Məsai Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, tezliklə Binəqədiyə su buraxılsın və bu vaxtadək suyun kəsilməsi səbəblərini məlum etsin.

## KÖÇƏRİ MƏSƏLƏSİ VƏ BARAMA TUMU

Hökumət Kabinəsi tərtib verilib düzəlincə qarşımızda öylə məsələlər dayanmışdır ki, bunların həlli daha bir gün sonraya atılarsa, əhalinin bir çoxu və bəlkə hamısı böyük bir fəlakətə düçar olar. Zatən öylə məsələlərin həllinə bu gün deyil, yarım il bundan qabaq çalışmalı idi. Hərgah, buna indiyə qədər heç bir tədarük görülməmişsə, fövqəladə bir məharət və səriyyülhərəkə [sürətli] bir fəaliyyət lazımdır ki, bəlkə bəlanın yarısı bir tövr rəf [aradan qaldırıla] və dəf oluna.

Fövrən [tezliklə] həllinə möhtac qalmış məsələmiz hədsiz və hesabsızdır. Lakin mövqeyi lap yaxınlaşmış və burnumuzun qabağında dayanıb da bizdən bu saat çarə tələb edən məsələlərin biri köçərilərin halı, ikincisi əkinçilərə müavinət [köməklik] və üçüncüsü də baramaçılara tum tədarüküdür. Bunların üçü də biri-birindən əcələli [təcili] olduğu üçün hamısının da çarəsi bir vaxtda gərək yapılsın.

Əvvəla, hamıya məlum olduğu üzrə, Qarabağın və Cavadın aran adlanan cəhətlərində köçəri halı ilə bir çox tərəkəmə tayfaları olurlar ki, qışda qışlaqlarında (aran cəhətində) və yayda da yaylaqlarında (Qarabağın dağ ətrafında) yaşayırlar. Bunların ən böyük məşğuliyyəti maldarlıq və qoyunçuluqdur. Tərəkəmə əhlindən öylə sərvətdarları vardır ki, minlərlə qoyunları mövcuddur. Sürülərinin ucu-bucağı görünməz.

Qoyunçuluğun ən böyük faydaları vardır. Məlum olduğu üzrə, tamam Azərbaycan əhlinin yediyi xörəklər ümumiyyətcə qoyun ətindən hasil olur. Ətindən əlavə, qoyunun yunu, südü, yağı və ələlxüsus peniri hasil olur ki, motal, yaxud "axtarma" adı ilə məşhurdur. Zənn edirəm ki, axtarmanın ləzzəti yevropalıların bir bu qədər tərifini qazanmış "şveysar" penirində olmasın. Bu axtarma penir ancaq göy otlu, soyuq bulaqlı yaylaqlarda hasil olur. Camaat bu il axtarmanın üzünə həsrət qaldı. Səbəbi isə yollar bağlı olduğu üçün köçərilər dağlara getməyib sürüləri ilə bərabər aranda qalmışdılar.

Bundan əlavə, aranda qalmış əhalinin qismi-əzəmi [əksər hissəsi] bu il qızdırma naxoşluğuna mübtəla olub, bir çoxu da vəfat etmişdir.

Zatən aranın bəzi vaxt 40-50 dərəcəyə qədər qalxmış hərarətinə insan deyil, qaramal və qoyun kimi heyvanlar da tab gətirməyib yüzlərcə tələf olurlar. Odur ki, yayda dağlara getmək adətindən məhrum qalmış qoyun sürüləri keçən il aranda qalıb minlərcə qızdırmadan tələf olmuşlar. Əhalinin qaramalını əlindən alıb rus cəbhələrinə göndərmişlərsə də, amma qoyun sürülərinə əsla əl vurulmamışdır.

Binaənileyh [ona görə], təbiətən qoyun əti çox ucuz qiymətlərə satılaydı, halbuki, indi qoyun ətinin girvənkəsi 15 manata satılır. İştə, bunun ən böyük səbəbi qoyunun aranda qalıb qızdırmadan tələf olmasıdır. Hərgah bu il də xudanəkərdə [Allah göstərməsin] qoyunlar aranda qalarsa, gələn il ətin girvənkəsi 50 rubləyə də tapılmayacaqdır. Əhali də aranda batıb gedər.

Köçərilərin dağa doğru hərəkatı Novruz bayramından sonra başlar. Binaənileyh, hökumətin birinci təşəbbüsatı bunların mürəffəhülhal ilə [rifah içində, rahat] köçmələrinə müavinət göstərməyidir. Dağ yolları tamamən indidən gərək açılsın və buna dair hər bir binagüzarlıq [tədbir] görülsün. Köçərilərin ümidi yeni təyin olunmuş Qarabağ general-qubernatorunadır. Yəqin ki, o cənabın bu barədə xüsusi tədbir və binagüzarlığı olmuşdur.

İkinci məsələ: keçən il bolşeviklərin təcavüzatı əsnasında Şirvan və Muğan cəhətlərində bir çox kəndlilər qaçıb, əkin və biçinlərindən məhrum qalmışlar. Bu il əllərində tum olmadığı üçün bir çox yerləri başlı-başına qalmışdır. Bir çox müftəxor qaçqınlara ərzaq paylamaq əvəzinə böylə zəhmətkeş əkinçilərə tum paylanarsa, daha mənfəətli olar. Bahalığa bir çarə varsa, o da əkin dairəsini böyütməkdir. Bu barədə hökumətin səyi əhalini əkin işlərinə tərğib edəcəkdir [rəğbətləndirəcəkdir], ta ki əkilməmiş bir

qarış da yer qalmasın. Xülasə, tuma möhtac qalmış əkinçilərə hər növ ilə olursa-olsun tum buraxmalıdır ki, yeni məhsulatımız artsın.

Üçüncü məsələ: Azərbaycanın aran cəhətlərində əhalinin bir çoxu qədimdən baramaçılıqla məşğul olur. Barama tumu qismən İstanbuldan və qismən də Türküstan və şərq cəhətlərindən gəlirdi. Gətirənləri də əksərən yunan və erməni tacirləri olurdu. Əcnəbi tacirlərinin əlindən qəbul olunmuş barama tumu bəzi vaxt qəlp və saxta olduğundan, biçarə əhalinin əməyi və səyi hədərə gedirdi. Bu halı müşahidə etmiş sabiq rus hökuməti Tiflisdə barama tumu idarəsi (Шелководственная станція) tərtib verib tumları müayinə və nəzarətsiz buraxmayırdı. Əhali üçün bir qədər arxayınlıq hasil olmuşdu. İndi hələ cavan hökumətimiz böylə bir idarəyə malik olmadığından, avam əhali arasında yenə əcnəbi tacirləri cövlan edəcəklər, tumların xalis və ya qeyri-xalis olduqlarını dərk edəmməyəcəklər.

Binaənileyh, əhalinin hüququnu mühafizə etmək üçün buna dair torpaq idarəsinin ciddi bir təşəbbüsatı olmalıdır. Baramaçılara satılacaq tumları müayinə və tədqiq edib də xalislərinə bandrol vurmalıdır, ta ki əhali bunun salamat bir tum olmağına inansın. Bu üsul qəbul olunarsa, məchul və naxoş tumlardan sadədil [sadəlövh] camaat azad olar.

Yenə təkrar edirəm ki, vaxt çox təngdir [dardır, azdır]. Məsələlərin üçünə də hökumətin diqqətini sürətlə cəlb etməlidir ki, sonra iş-işdən keçər.

*Fərhad Ağazadə*

## ƏLƏKBƏR BƏY RƏFİBƏYOV

Möhtərəm "Azərbaycan"ın 4 nisan [aprel] tarixli nəşr edilən nömrəsi Azərbaycanın ən birinci millətpərəsti, vətənpərvəri, həqiqətən millət atası denilməyə şayəstə və səzavar olan [yaraşan və layiq olan] məşhur Ələkbər bəy Rəfibəyovun mərhum olmasını xəbər verdi.

Əvət, Ələkbər bəy həzrətləri vəfat etdi. İnna lillahi və inna ileyhi raciun! Rəhmətullahi əleyhə rəhmətən vasia!

Fəqət Ələkbər bəy həzrətləri vəfat etdi, yəni öldü demək həqiqətən doğru deyildir. Ələkbər bəy həzrətləri ölməmiş, diridir. Qiyamətədək dəxi diri qalacaqdır. O ancaq bir aləmdən başqa bir aləmə, aləmi-fanidən aləmi-bəqaya [fani aləmdən əbədi aləmə] rihlət [köç] etmişdir.

Bu məsələ üçün isbatmı istənilir? İştə ən şafi [qənaətbəxş] isbat olaraq "O kimsələr ki, Allah yolunda tərki-həyat etmişlər, məgər onları ölmüş hesab edirsiniz? Onlar ölməmişlər. Onlar ta qiyamətədək diridirlər!" məalında [mənasında] olan ayeyi-Qurani-əzimüşşanı [şanı böyük Quranın ayəsini] göstərə biləriz. Allah yolunda tərki-həyat etmək nə deməkdir? Din, millət və vətən uğrunda çalışaraq tərki-həyat etmək demək deyilmi?

Ələkbər bəy həzrətləri kim idi? Millət və vətən uğrunda nə gunə [nə cür] xidmətlər etmiş? "Azərbaycan"da dərc edilən elanlarda "ədib" deyə göstərilmişdir. Təbii, biz buna iştirak edəmməyəcəyiz. Zira bir şəxsi zəmm etmək [pisləmək, eyibini söyləmək] nə qədər qəbih bir əməl isə, o şəxsin dara [malik] olmadığı sifətlərlə onu mədh etmək dəxi o qədər qəbihdir.





Ələkbər bəy həzrətləri ədib deyildi. Zira, nə rusca və nə də türkcə nəşr edilmiş və yaxud nəşr edilməmiş heç bir əsəri-qələmiyyəsi [yazılı əsəri] yoxdur. Fəqət Ələkbər bəy həzrətləri həqiqi bir vətənpərvər, sadiq bir millətpərəst, kimsədən qorxmaz və çəkinməz, gecə və gündüz istirahət bilməz, heç bir təhlükə və fəlakəti göz önünə almaz, atəşzəban [alov dilli, doğruları deməkdən çəkinməyən] bir müdafeyi-millət [millət müdafiəçisi] idi.

Ələkbər bəy həzrətləri 1898-ci sənədən başlayaraq millət və vətən uğrunda çalışmağa, həm də həqiqətən sadiq olaraq cansipəranə bir surətdə çalışmağa başladı. Başqaları kimi əmniyyətli, asayişli bir vaxtda, bir intixab [seçki] vaxtında ictimalarda (mitinq) kürsiyi-xitabətə atılaraq təhsili-məqsuddan [məqsədinə nail olduqdan] sonra istirahət və kamranlığına [həyatdan kam almağa] çəkilənlər kimi yox, hər bir dəqiqə, hər bir an çalışmağa başladı.

Ələkbər bəy Rəfibəyov həzrətləri ən əvvəlinci fəaliyyətini Gəncə Şəhər İdarəsini islah etməkdən başladı. Böylə ki, Nikolay hökumətinin mənhus siyasəti tənzim etdiyi xəbis qanun mövcibincə [qanuna əsasən], Bələdiyyə İdarəsi əzasının nisfindən əqəlli [üzvlərinin yarısından azı] türk olması lazım gəldiyi məlum olsa gərəkdir. Buna məbni dəxi [buna əsasən də], Gəncə idareyi-bələdiyyəsi əzası miyanında [arasında] barmaq ilə sayılması mülahizə edilən və o da rusca, bəlkə türkcə də bisavad, iclaslarda heç bir şeyi anlamayaraq yalnız gurultuya barmaq qaldıran və bütün iclas vaxtı isbati-vücud [iştirak] etməyən və yaxud etsə də uyuyanlardan ibarət bir neçə nəfər türk bulmaq olardı. Ələkbər bəy həzrətləri buna səbr və təhəmmül edəmmədi [dözə bilmədi]. İslaha, həm də həqiqətən müharibə deniləcək bir tərzdə çalışmağa başladı. Müvəffəq də oldu.

Bələdiyyə İdarəsi müsavat [bərabərlik] üzrə, nüfus [əhalinin sayı] etibarilə təşkil edildi. Bələdiyyə İdarəsinə saylanan türk əzası dəxi uyuyanlardan, bisavadlardan, əcnəbilərin müstəhziyanə [istehzalı] gülüşlərinə hədəf olanlardan deyil, fəal, basavad [savadlı], siyasətşünas gənclərdən oldu.

Sonra Ələkbər bəy həzrətlərinin nəzər-diqqətlərini türklərdə tərbiyeyi-milliyyə olmaması cəlb etdi. Yəqin etdi ki, nə qədər ki, türklərin milli məktəbi yoxdur, o qədər də onlar milli tərbiyə alammayacaqlar. Buna məbni də bir milli məktəb güşadına [açılmasına] təşəbbüs etməyə başladı.

Heyhat!!!

Nikolay hökumətinin siyasəti, o siyasəti iqamə və tərvic [yerinə yetirmək və ona rəvac vermək] üçün Rusiyadan göndərilən missioner məmurlar buna müsaidə edəcəklərmiydi? Hər halda Ələkbər bəy həzrətləri çalışmağa başladı. Heç bir fədakarlıqdan çəkinmədi, heç bir təhlükədən qorxmadı.

Edadi məktəbi məramnaməsində [proqramında] milli bir məktəb güşadına müsaidə istədi. Lazım olan məkanlara və mövqelərə müraciət etdi. Nəhayət, 1906-cı sənədə bu məsələni həll etmək üçün Gəncə vilayəti valisinin tədabiri [tədbirləri] ilə onun təhti-rəyasətində [başçılığı altında] Gəncə vilayəti qəzalarının nümayəndələri, qazıları və xalq məkatibi [məktəbləri] naziri [müfəttişi] və müdirlərindən ibarət bir ictima [yığıncaq] şurası quruldu.

Müzakirə başlandı. Vali, Ələkbər bəy həzrətlərinə xitabən nə istəyirsiniz, deyə sordu? Ələkbər bəy həzrətləri:

"Ümurati-diniyyə və adati-milliyyəni [din işlərini və milli adətləri] icra üçün bizlərə alimlər vücudu vacibdir. Qanunən əcnəbi məmləkətlərdə təhsili-ülum edən islamlar Rusiya daxilində icrayi-vəzifə etmək haqq və səlahiyyətindən məhrumdurlar. Rusiya məmləkəti daxilində isə dini və milli məktəbimiz yoxdur. Buna məbni [buna əsasən] də öz ümuratımızı [işlərimizi] icra və hökumət tədabirini ifa etmək üçün dini və milli alimlər hazırlamağa, bir milli məktəb güşadına müsaidə edilməsini rica ediriz!" dedi.

Buna kim cavab verdi, nə cavab verdi? Xalq məktəbləri naziri məşhur missioner, o ruslaşdırmaq siyasəti mürəvvici [rəvac verəni] Levitski: "Ola bilməzmi ki, sizin çocuqlar rus darülmüəllimin [seminariya] məktəblərində "Quran"ın rusca tərcüməsini oxuyaraq, sonra sizə axundluq, mollalıq və yaxud əfəndilik etsinlər?" deyə cavab verdi.

Ələkbər bəy həzrətləri hiddətlənərək, qızaraq: "Ola bilməzmi ki, siz ruslar üçün sizin rus çocuqları yəhudi lisanında təlim və tərbiyə alaraq sonra yəhudi lisanına tərcümə edilmiş "İncil" əhkamını [hökmlərini, qanunlarını] sizlərə təbliğ üçün kilsələrdə ifayi-vəzifə edələr?" – deyə müqabilə etdi [cavab verdi]. Bu mücadilə nəticəsində o vaxt Mədrəseyi-Ruhaniyyə və indi Mədrəseyi-Diniyyə təsmiyə edilən [adlandırılan] Gəncə məktəbi-millisi güşadına müsaidə edildi [icazə verildi].

Ələkbər bəy Rəfibəyov həzrətlərinin ən axırıncı mühüm fəaliyyəti 1915-ci sənə Qars faciatı [faciələri] xüsusunda oldu. Məşhur Qafqaz canişini Vorontsov-Daşkovun hüzuruna gedən nümayəndələrin biri də Ələkbər bəy həzrətləri idi və orada ən cəsuranə və ən atəşin bir lisanla idareyi-kəlam edən [danışan] o idi. Orada, yəni Tiflisdə Qars hərbzədələrinə, o məsum məzlumlara müavinəti-maddiyyə etməyə müsaidə alaraq Gəncəyə döndü. Bu mətləb üçün öz təhti-rəyasətində [başçılığı altında] bir komisyon təşkil etdi. Minlərcə, on minlərcə para topladı, səkkiz nəfərədək müəllimlərdən və qeyrilərdən adamlar göndərdi, ta nəhayətədək çalışdı.

Zənn edilməsin ki, mərhum Ələkbər bəy həzrətlərinin gördükləri işlər ancaq bunlardan ibarət olmuş, yox. Əgər o gördüyü, o əmələ gətirdiyi işləri qələmə almaq lazım gələrsə, cildlərlə kitablar yazmaq lazım gələcəyi şübhəsizdir.

"Ələkbər bəy həzrətləri ədib deyildir, zira heç bir əsəri-qələmiyyəsi yoxdur" demişdik. Fəqət Ələkbər bəy həzrətləri, haqqında bir çox əsəri-qələmiyyə əmələ gətirilməyə səzavar bir vücud idi deməyə dəxi cəsarət edə biləriz. Ələkbər bəy həzrətləri millət və vətənə o qədər xidmətlər etmiş ki, onları bilməyən, onları təqdir etməyən millət və vətən nankorudur, şübhəsiz.

Ələkbər bəy həzrətlərinin böylə mühüm zamanda rihlət etməsi [köçməsi] bütün azərbaycanlılar üçün ən mühüm bir zıyai-əbədidir [əbədi bir itkidir]. Böylə müdhiş bir müsibət müqabilində xudavəndi-aləm bütün azərbaycanlılarla bərabər mərhumun ailə və mütəəlliqatı [yaxınları, qohumları], xüsusən məxdumu [oğlu] doktor Xudadad bəyə səbr əta etsin.

Rəhmətullahi-əleyh və rəhmətən vasia!

*Məhəmməd Səid*





**ORDUMUZUN PAYTAXTA VÜRUDU [GƏLİŞİ]**

**Bir gün əvvəl**

Nisanın 4-də "Yarın ordumuz gəlir" deyə şayiat ildırım kimi paytaxtın hər tərəfinə yayıldı. Hər kəsdə bir sürur [şadlıq] həyəcanı, hər kəsdə bir sevinc olduğunu dodaqlardakı təbəssümlərdən, simalardakı şadlıq və məsərrətdən [sevincdən] görmək mümkün idi.

**Paytaxt ordunu salamlayır**

Nisanın 5-i səhər saat 7-dən etibarən paytaxt bəzənməyə başlanmışdı. Soqaqlar, balkonlar, dükanlar al və milli bayraqlar əmvacı [dalğaları] altında xüsusi gözəl bir mənzərə təşkil etməkdə idi. Nikolayevski caddəsi ilə dəniz kənarı və evlərin balkonlarından ziqiymət [qiymətli] xalılar sallanıb istiqbala [qarşılamağa] çıxmış qadın-çocuqlarla xınca-xınc [qələbəlik, adamlarla dolu] idi. Ən calibi-diqqət [diqqəti cəlb edən], ən müzəyyən [bəzəkli] qala qapılarından başlayaraq Bazarnı küçə və Şamaxı yolu idi ki, divarlarda boş yer görmək belə qabil deyildi. Millətin nəyi varsa, igid qəhrəmanların ayaqları altına salmağa, onları can-dil ilə pişvaz etməyə [qarşılamağa] hazırlandığı müşahidə edilirdi. "Yaşasın Azərbaycan", "Yaşasın Millət" sözləri yazılmış al parçalardan alaqapılar qayırılmışdı.

Saat 9 radələri üçün məkatib [məktəb] çocuqları ura sədaları ilə soqaqlarda dolaşıb vaxtın yaxınlaşmağını sabah xoruzları kimi, bəkləyən millətə xəbər verirdilər. Bakı istasyonu qarşısından başlayaraq qoşun keçəcək soqaqlarda polis nəfəratı [nəfərləri] dururdu. Səkilər üstündə xalq izdihamla durub bəkləyirdilər. Dün gecədən etibarən qoşun əşyası məxsusi arabalarla Salyan qışlalarına daşınırdı.

**Qəhrəmanlarımız**

"Gəlirlər, gəlirlər" səsi eşidilməyə başladı. Bolşaya Morskaya soqağından əsgəri musiqi tərənnümü, xalqın "Yaşa" alqışları altında qəhrəmanlarımızın birinci sıraları göründü. Süngü meşələri gəlir. İrəli gəldikcə qan coşur. Millət övladlarının "Türk Ordusu" nəğmələri xalq ürəklərinə soxulub "Yaşasın Ordumuz" dedirtdirir. Əvvəl piyada, piyadalardan sonra mitralyoz, topçu və süvarilər. Süvari dəstəsi olduqca calibi-diqqət idi. Zira əllərində uca nizələr, ucunda Milli Bayraq, əski Qafqaziya qaydası üzrə zurna çala-çala yürüyürdülər.

**Bulvar qarşısında**

Qoşun Telefonnı, Bolşaya Morskaya, Malakanskaya, Parapet və Mixaylovski soqaqları ilə bulvar qarşısına gələrək durdu. Burası bir başqa şayani-tamaşa [tamaşaya layiq yer], böyük bir mənzərə idi. Kəsrəti-izdihamdan [izdihamın çoxluğundan] səkilərdə yürümək mümkün olası bir şey deyildi. Bulvarın hasarı, mərdivən, dükanların içləri və balkonlar xıncaxınc məmlu [dolu] idi. Polis nəfəratı qayda və nəzarəti saxlamağa çalışırdı. Qoşun burada durdu. General Həbib bəy Səlimzadə ahənin [dəmir kimi, cingiltili] səda ilə komanda verərkən taqım zabitanı [zabitləri] təkrar edərək də qoşun qitəatı [hissələri] bir təni-vahid kimi [hamı bir nəfər kimi] hərəkətə gəlib komanda əmrlərinə itaət edirdilər.

Sabiq gömrükxana qarşısında ordu vürudunu [gəlişini] təbrik üçün təşrif gətirmiş xüsusi nümayəndələr heyəti hazır idi. Burada bütün Parlaman əzası, başda Məşixət üzvləri müftü Mustafa əfəndi [Əfəndizadə], Şeyxülislam Molla Ağa [Ağaəlizadə] həzrətləri olmaq üzrə, üləma [ruhani alimlər] heyəti, Bakı Ünas [Qadın] Cəmiyyəti-Xeyriyyəsi heyəti, Bələdiyyə Məclisi tərəfindən başda Bələdiyyə Məclisi rəisi İlyuşkin olmaq üzrə bir heyəti-mürəxxəsə [nümayəndə heyəti], Dağıstan, Gürcüstan, Lehistan [Polşa] nümayəndələri heyəti dəxi isbati-vücud [iştirak] edirdilər.

Bir az keçmədən əyan, başda Hacı Zeynəlabdin Tağıyev olmaq üzrə təşrif gətirdilər. Hökumət dairəsində milli bayraqlar təməvvüc edirdi [dalğalanırdı]. İzdiham bir ağızdan "Yaşasın Azərbaycan" deyə əl çalmağa başladı. "Hökumət gəlir" səsi eşidildi. Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski və başqa nazirlər həzəratı alqış altında təşrif gətirdilər.

Bu vaxtda İngiltərə orduları Baş komandanı Şattlvort və polkovnik Klatterbak öz məiyyətləri [müşayiətçiləri] ilə bərabər süvari olaraq ordu qarşısından Azərbaycan bayrağı altından keçərək qoşunlara "xoş səfa" edib hökumət duran yerə qayıtdılar. Parad Hərbiyyə nazirini bəkləyirdi.

**Hərbiyyə naziri**

Avtomobil şeypurunun səsi eşidildi. Hərbiyyə naziri Səməd bəy Mehmandarov həzrətləri Məsai [Əmək] naziri Aslan bəy Səfikürdlü ilə bərabər gurultulu xalq alqışı və əsgəri musiqi tərənnümü içərisində təşrif gətirdilər. Heyətlərlə salamlaşmadan əvvəl öz məiyyəti və Rəisi-vükəla ilə bərabər qəhrəman əsgərimiz tərəfinə gedib, "Mərhəba!" derkən qoşun tərəfindən "Çox sağ ol!" deyə cavab verilən səslərlə taqımları titrəyirdi. Rəisi-vükəlanın "Salam əleyküm" deməsinə, əsgərlərimiz "Əleykə salam" deyə cavab verirlər.

Bundan sonra Hərbiyyə naziri heyətlərə tərəf alqışlar içində yürüyərək tam bir türk salamı ilə əlini öpüb gözləri üstə qoyaraq pişvaz edənləri salamladı.

Birinci olaraq Rəisi-vükəla həzrətləri Hərbiyyə nazirinə və Orduya müraciətən bu məzmunda bir nitq irad etdilər [nitq söylədi]:

*"Qəhrəman əsgərlər! Bu gün Azərbaycanın böyük, şanlı bir bayramıdır. Azərbaycanın paytaxtına Azərbaycanın şanlı, igid qoşunları gəldilər. O qoşunlar ki, daima öz şücaətləri və qəhrəmanlıqları ilə məşhur olmuşlardır. O qoşunlar ki, sinələrini daima sipər etməklə vətən və milləti mühafizə və müdafiə etmişlərdir. Xudanəkərdə [Allah göstərməsin] yenə müharibə üz verərsə, mən əminəm ki, yenə öz qanınızla namusunuzu, şərəfi-millinizi müdafiə və mühafizə edəcəksiniz. Sülh zamanı isə hamı millətlərin ədalət və müsavat üzrə yaşamaqlarını təmin edəcəksiniz. Ümidvarıq ki, öz vəzifənizi layiqincə ifa etməklə bütün millət və vətəni şad edəcəksiniz. Allah sizi xoşbəxt etsin! Allah sizin qılıncınızı kəskin etsin! Siz Azərbaycanın, müstəqil vətəninizin paytaxtına xoş gəldiniz! Yaşasın müstəqil Azərbaycan! Yaşasın əsgər və zabitan! Yaşasın ordumuz böyüyü Mehmandarov cənabları!"*

Yaşasın və var olsun səsləri asumana bülənd oldu.





Sonra müftü həzrətləri bu məzmunda bir nitq irad edir:

*"Millətimiz və vətənimizin ruhi-həqiqisi qəhrəman əsgərlər! Xoş gəldiniz!*

*Möhtərəm bir qonaq gəldikdə xalq onu pişvaz edər, o qonağın gəldiyi yollara gül tökərlər, xoş səfa edərlər. Fəqət bir şey də vardır ki, o da möhtərəm qonağı kütübi-səmaviyyə [səmavi kitablar] ilə qarşılarlar, Allah amanında olmağını dilərlər. Binaənileyh [ona görə], mən kitabi-müqəddəsimiz olan "Qurani-şərif" ilə sizi, siz möhtərəm qonaqları pişvaz edirəm və bu ayeyi-şərifə ilə sizi qarşılamaq istəyirəm:"*

"Və ləqəd kətəbna fit-Tövrati və yerisuha ibadiyəs-salihunə" ayeyi-şərifəsini tilavət edir [oxuyur].

*"Allah-taalanın müjdəsi sizə olsun! Yaşasın ordumuz! Yaşasın müstəqil Azərbaycan!"* – deyə nitqinə xitam verir.

Bədəhu [sonra], Şeyxülislam həzrətləri xütbə tilavət etdikdən [oxuduqdan] sonra deyir:

*"Qəhrəman qoşunlar! Behiştin qapıları sizlərdən ötrü açılmışdır. Siz əllərinizə silahlarınızı aldınız ki, "Quran" və irz-namusunuzu mühafizə edəsiniz. Deyirlər ki, hazır ol cəngə, əgər istər isən sülhü-səlah. Siz zamin olmusunuz Allah hüzurunda ki, millət və dini mühafizə edəcəksiniz. Ümidvaram ki, öz vəzifənizi layiqincə ifa edərsiniz. Yaşasın Azərbaycan əsgərləri!"*

.... rusca nitqində Bələdiyyə İdarəsi tərəfindən Azərbaycanın paytaxtına qəhrəman ordunun vürudunu [gəlişini] təbrik edir.

Bakı müsəlman ünas cəmiyyəti [qadınları] tərəfindən dəxi [bir] xanım əfəndi ordunu təbrik edir.

Lehlər [polyaklar] tərəfindən gəlmiş nümayəndə uca səslə təbrikə başlayaraq deyir:

*"Mən, lehlər tərəfindən sizi, qəhrəman əsgərləri təbrikə gəldim. Biz lehlər səmimi-qəlb ilə sizi təbrik ediriz. Zira, 18-ci əsrdə Lehistanın azadlığı yolunda qəhrəman türklər sinələrini sipər etmişdilər. Biz də öz ordumuzu təbrik etdik. Şimdi sizin də müstəqil ordunuzu təbrik edəriz. Yaşasın Azərbaycan ordusu!"*

Sonra gürcü ataşemilitəri [hərbi attaşesi] əsgəri salam vəziyyətində duraraq təbrik edir və nitqinin axırında:

*"Yaşayınız siz və sizin komandanınız general Mehmandarov və zabitan!"*

Bundan sonra general Həbib bəy Səlimzadə həzrətləri – "Bayraqçılar, irəli!" komandası verərək "Salam marşı" komandasından sonra, taqımlar cümbüşə [hərəkətə] gələrək əsgəri musiqi tərənnüməti ilə Hökumət dairəsi qarşısından Sadovı küçə ilə qalxır. Buradakı görünüş başqa bir görünüş idi. Aşağıdan yuxarı çıxan, mahnı oxuyan ordunu tamaşa edənin qəlbində nələr oyanmayırdı? Süngülər meşə kimi görünür, qəhrəmanları müşayiət edən xalq şitab ilə [tələsə-tələsə] ardlarınca qoşurdu.

**Qadınların göz yaşları**

Bələdiyyə İdarəsi milli bayraqlarla bəzənmiş, Müqəddəs Nina ünas [qız] məktəbi qarşısında cəm olmuş yüzlərcə islam qadın və kişiləri ordunu göz yaşları ilə salamlayır. Onların qarşısından ötdükdə işbu sözləri eşidirəm:

*"Allah köməyiniz olsun, oğullarımız, balalarımız! Bir vaxt bizləri əsir etdilər.*

*Xırda çocuqlarımız ilə çöllərə dağıldıq. Yanan evlərimiz, talan olan mallarımız sizə qurban olsun. Pərvərdigara, şükür olsun qəhrəmanlarımız, sütunlarımız gəldi. Şimdi rahat yatarız."*

İslam qadınları şadlıqlarından ağlayırdılar. Buradan keçənlər dəxi bilaixtiyar şadlıqlarından ağlamağa məcbur olurdu.

**Parlaman qarşısında**

Gurultulu alqışlar, "Yaşasın Ordu!" sədaları altında qoşun Parlaman qarşısına gəlir. Ətraf balkonlardan qoşunların üzərinə güllər saçılır. Parlamanın üzərində al və milli bayraqlar təməvvüc etməkdədir [dalğalanmaqdadır].

Parlaman dairəsi böyümüş kimi nəzərə çarpır, insanın gözlərinə yerləşməyir. Buradan asılmış hər bayraq, hər xalı belə qəhrəman igidləri – namus və şərəfi-milli mühafizlərini salamlayır, yellənir. Kəmahüvə [sanki onu] bağrına basıb öpmək, qucmaq istəyir. Yanmış, qara geyinmiş "İsmailiyyə" belə sanki bütün qəmlərini, yaralarını yaddan çıxartmışdı. İçərisinə asılmış dəmir parçalarını təprədərək ordunu salamlayırdı.

Burada artıq hər kəs ağlayırdı. Parlaman əzası, başda Parlaman sədri Həsən bəy Ağazadə həzrətləri olaraq, ordunu pişvaz edərək nitq irad eyləyir. Nitqinin axırında:

*"Əminəm ki, siz türk qəhrəmanları sayəsində istiqlaliyyətimiz binası möhkəmləşəcək, milliyyətimiz əsasları mətanət kəsb edəcəkdir [əldə edəcək]. Yaşasın ordu! Yaşa, çox yaşa, türk qəhrəmanları! Yaşa, Hərbiyyə qəhrəmanı Səməd bəy! Yaşasın müstəqil Azərbaycan!"*

Qoşunlar bir ağızdan "Yaşa!" deyir. Bundan sonra musiqi tərənnümü ilə Parlaman qarşısından qoşun Bazarnı küçə ilə Salyan qışlalarına tərəf gedirlər.

**Yaşa Ordu**

Bazarnı küçəyə yavuq olan küçələr belə əhali ilə dolmuşdu. Burada xalq ağlayır, bir-birini öpür, "Bayramın mübarək!", "Gözlərin aydın!" deyirdi. Xalq ordunu mümkün olsaydı bağrına basacaqdı, duz kimi yalayacaqdı. Aldıqları yaralarına məlhəm kimi sürtəcəkdilər. Artıq, Bazarnı küçədə milli hissin aşıb, coşub-daşmasını gördük. Alqış, "Yaşa Ordu!" səsləri asumana bülənd olub havada gurlayırdı.

Qəhrəmanlar da xalqı təbəssümlə salamlayır, qadınlar xeyir və dua edir, gənclər orduya gedəcəklərini deyirlər. Nerəyə qulaq verərsək, çocuğundan qocasınadək "Daha artıq vaxt o vaxt deyil. Körpələrimiz də, ağsaqqalılarımız da, lazım olarsa qadınlarımız da orduya gedəcək, Azərbaycanın istiqlaliyyətini saxlayacaq!" sədalarını eşidirdik.

Ordunu gurultulu alqışlar altında xalq qışlalara kimi müşayiət etdi. Fəqət xalq qayıtmaq istəməyirdi. Bir çoxu orada yatacağını söyləyirdi.

"Yaşa, Ordu! Şimdi ölsək də eybi yoxdur" – deyə xalq Allaha şükürlər edirdi. Şəhərin bir çox yerlərində qurbanlar kəsilmişdi.

**BAKI XƏBƏRLƏRİ**

**Mütəallimlər arasında**

- Qafqaziya Müsəlman Mütəallimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsi cümə və bayram günlərindən başqa hər gün saat 4-dən axşam saat 6-ya qədər açıqdır. Yekşənbə [bazar] günləri səhər saat 11-dən 1-ə qədər və 5-dən 6-ya qədər. Komitə ilə işi olanlardan göstərilən vaxtlarda Komitəyə müraciət etmələri xahiş olunur. Adres: Verxni-Təzəpir və Gimnaziçeski küçələrin küncündə, Mərkəzi Ev Komitəsinin dükanı cərgəsində. Poçta qutusu N 273.

- Düşənbə [bazar ertəsi] günü, aprelin 7-də, saat 4-də Qafqaziya Müsəlman Mütəallimləri Mərkəzi Komitəsinin iclası vaqe olacaqdır. İclas ikinci dəfə dəvət edildiyinə görə, hər nə qədər üzv gəlmiş olsa, qanuni hesab ediləcəkdir. Yoldaşlardan xahiş olunur yubanmayıb müəyyən vaxtda təşrif gətirsinlər.

* Son günlər Bakıda Könüllü ordu zabitlərindən bir çoxlarının həbs edildiyi və əzcümlə [o cümlədən] 39 zabitin həbslə Gəncəyə göndərildiyi söylənir.

* Sosialist "Nabat" qəzetəsi yazır ki, ingilis gəmilərində iğtişaş olub, gəmi nəfəratından 200-ü həbslə İrana göndərilmişdir.

* Məsai [Əmək] naziri Ticarət nazirindən təvvəqe etmişdir ki, şərabxana açmaq istəyənlərə şəhadətnamə verməsin və verilmiş olanları geri alsın.

**AZƏRBAYCANDA**

**Salyanda şühədayi-vətən ziyarəti**

Məlum olduğu vəch üzrə Salyan müharibəsində şəhid qalan Osmanlı-Salyan şəhidlərinin türbələri, həpsi bir məqamda vaqe olaraq qəbristanımızda mədfundurlar [dəfn edilmişlər].

İşbu Novruz bayramı münasibətilə məzkur şühədanın [adı çəkilən şəhidlərin] türbələri ziyarətinə getmək, "heyəti-mütəşəbbisə" [təşəbbüs heyəti] adlanan bir qaç zəvati-möhtərəmə [möhtərəm şəxslər] tərəfindən təşəbbüs və təsvib edilmişdi [bəyənilmişdi].

Həmin mart ayının 21-də (bayram axşamı) heyətimizi[n] dəvəti üzərinə üləmamızdan [ruhani alimlərimizdən] Ağa Seyid Bağır ağa və bəzi axund və mollalar, qəza qaimməqamı [qəza rəisi] və müavini, polislər komissarları və nəfəratı [nəfərləri], rüşdiyyə məktəbi müəllimləri, sərvətdarlardan bir çox zəvat və başqa sinif xalqımızdan bir cəmi-qəfir [böyük bir qələbəlik] məhzən [məhz, sırf] şu məqsəd üçün cameyi-şərifimiz həyətinə toplanmışlardı.

Bu anda Salyan rüşdiyyə məktəbi mütəallimləri [şagirdləri] əllərində al bayraq olduğu halda şühəda namına tərtib edilən müəssir [təsirli] bir marşı oxuya-oxuya kamali-intizamla came həyətinə gəldilər.

Həyətə toplanan bu cəmi-qəfir üzərinə bazar əhalisindən də bir çox izdihamlı xalq gələrək, mütəallimlər marşlarını oxuduqları halda əllərində uca bayraqlar olaraq axın-axın qəbiristana tərəf yürüməyə başladılar.

Şühəda qəbirlərinə tərəf yürüməkdə olan xalqımızda başqa bir ruh, başqa bir hissiyyat, istiqlaliyyətə susamış millətlərin istiqlaliyyəti-tamməyə nail olduqları sırada göstərə biləcəkləri qədər sevinc duyulur, çöhrələrdə, üzlərdə məsərrət və bəşaşət [sevinc və xoşbəxtlik] əlaməti müşahidə edilirdi. Bu gün bütün

qəlblər, ürəklər giryan olduğu [ağladığı] halda, çöhrələr, gözlər parlaq və əmin bir istiqlala qarşı xəndan idi [gülürdü].

Şühədanın qəbirləri üzərində iyirmiyə qədər "Qurani-kərim" qareləri [oxuyanlar] bir sırada oturaraq "Quran" tilavət edirlərdi [oxuyurdular]. Məclisin ortasına xitabət üçün bir kürsü qonulmaqdan maəda [əlavə], məclis də xalılarla təfriş və təzyin edilmişdi [döşənmiş və bəzənmişdi] və bayram münasibətilə etiyadımız [adətimiz] üzrə bəzənmiş xonçalar da böyük bir masanın üzərində dururdu.

Əvvəlcə "Qurani-kərim" tilavət edilmiş olduğundan, xətm olunmağa şüru edildi [başlandı; girişildi]. Xətm əsnasında bütün hazirun bir ağızdan qərra [təntənəli] səslərlə təkbirxan olurdu.

Tilavət bə'dində [sonrasında] axund Molla Hüseyn (rövzəxan) əfəndi üləma namından [adından] kürsiyi-xitabətə gələrək din, namus uğrundakı şəhadətin füyuzi-üzmasından [böyük feyzlərindən], həyati-müvəqqətlə həyati-əbədiyyənin nədən ibarət olduğundan bəhslə bu şühədanın fədayi-can etmələrini də həqqaniyyət və ədalətin ən böyük qəhrəmanı həzrəti-Hüseyn əleyhissalam şəhadətinə tətbiq edərək, müəssir bir nitq irad etdi və türbələrə xitabən "mürdəhara zindəkərdi afərin bər-mordənət" dedi.

Mumaileyhi mütəaqib [adı çəkilən şəxsin ardınca], Rüstəm İskəndərzadə mühərrirlər [yazıçılar; qəzetçilər] namından [kürsiyi-]xitabətə çıxaraq "Qurani-əzimüşşanımızın" [şanı uca Quranımızın] "Və lə təhsəbənnəlləzinə qutilu fi səbilillahi əmvatən bəl ehyaun ində rəbbihim yurzəqunə" ayəti-kəriməsi müfadına [mənasına] tətbiq edilən doktor Abdullah Cövdət bəyin:

*"Əz mərge ma məbad fərəhyab əhle zolm*
*Səd Tuba qiyam bər arəd türabe ma!"*

şeiri fəhvasınca [mənasına uyğun olaraq] şühədayi-din və vətənin [din və vətən şəhidlərinin] ilələbəd [əbədi] yaşayacaqlarını və bu məclisin "tubayi-qiyam"dan bir kiçik nümunə olduğunu bütün təfsilatı ilə zikr etdikdən sonra, Salyan və ətraf islamlarını qəddar erməni-bolşevik süngüləri altından xilas edən şanlı türk qəhrəmanlarının türbələrinə xitabən atəşin bir nitq irad etdi [nitq söylədi].

Bunu mütəaqib [bunun ardınca] qəza qaimməqamı Yusifzadə Əliheydər bəy əfəndi polis və hökuməti-məhəlliyyə [yerli hökumət] namından xitabət kürsüsünə gələrək: "Kəndi yurdlarından iraq düşərək bizim üçün şəhid olan bu türk qəhrəmanlarının ölümdən əbədən qor[x]mamağı, namus uğrunda fəda olmağı bizlərə bir sərməşq [nümunə, timsal] verdiklərini, bu qurbanların pək çox dəyərli, qiymətli olduqlarını və hər il başında daha mütəntən [təntənəli] bir surətdə dərxatir ediləcəklərini [yada salınacaqlarını] və binaənileyh [ona görə], türbələrinin də layiqi vəch üzrə təmir edilərək "abidələr" yapılmaq üçün xüsusi bir dəftər açacağını" nitqvari zikr ilə bu məqsədə kəndisinin iki min manat ianə etdiyini qeyd və bəyan etdi.

Qaimməqamı mütəaqib məktəb və maarif namından müəllim Əli bəy Qasımov cənabları mövqeyi-xitabətə keçərək türklüyün, türk millətinin nəcibəsinin [nəcib türk millətinin] tarixi, türk cəsarət, mətanət və qəhrəmanlıqları və türkün igid "Uluqbəyləri" xüsuslarında müfəssəl və qərra [parlaq] tarixi bir nitq irad edərək, bu dəxi sair natiqlər kimi türbələrə qarşı bir çox müəssir kəlimat [təsirli sözlər] söylədi.

Lakin bunu da zikr etmədən keçməyiz ki, mumaileyh [adı çəkilən] əfəndidə təəssüf ediləcək bir hal vardısa, o da bütün məvane məfqud ikən [maneələr aradan qaldırılmışkən], başda əcnəbi papağının (şapkasının) bulunması idi. Ehtimal ki, bunun da xüsusi bir səbəbi olsun. Fəqət bizimlə məclisdə isbati-vücud [iştirak] edən bir xristian vətəndaşımızın başında biləks [əksinə] islam papağı görülürdü...

Nitqlərdən sonra fəqir çocuqlara bayramlıq olaraq bəzi ehsanlar olunaraq, fatiheyi-xeyir oxunub məclis xitam oldu.

Ələlümum [ümumiyyətlə], məclis könül arzu edəcək dərəcə gözəl keçmişdir. İştə istiqlaliyyətimiz uğrunda birinci fədayi-can edən şühədayi-vətənin türbələri ziyarətini bu surətlə icra eyləyən əhalimizin şu hərəkətləri qəviyyən şayani-şükran olmaqla [təşəkkürə, minnətdarlığa çox layiq olmaqla] bərabər, yenə istiqlaliyyətin qədr və əhəmiyyətini dərk etməyimizi andırır.

Bu hərəkəti-vətənpəsəndanənin [vətənpərvərlik əməlinin] heyəti-mütəşəbbisi [təşəbbüs heyəti] ədd [hesab] edilən müəllim Molla Əziz Babazadə, Molla Hüseyn Qasımov və Əsədulla Yaqub[ov] əfəndilərə ayrıca ərzi-şükran edir [minnətdarlıq bildirir] və bu məqsəd üçün toplanan paralardan əlavə olaraq kəndi kisəsindən bir çox paralar sərf edən mumaileyh [adı çəkilən] Əsədulla Yaqubov əfəndiyə təkrar ərzi-təşəkkür eyləriz.

*İskəndərzadə*

**BİZƏ YAZIRLAR**

Keçən gün mart ayının 12-də Yevlax stasyonunda durduğumuz halda Bakıdan gələn 21 nömrəli trendə bir nəfər iranlı boğulub deyə meyiti yolun kənarına tullayıbdırlar, dedilər. Oradakı islamlardan isə bu meyit nə millət meyitidir deyə də olsun sual edən yox idi. Stasyon mühafizlərinə o meyitin qoxuyacağından nifrət edərək, o meyiti oradan götürdün deyə şikayətlər edirlərdi. Axırda mühafizlərin bir neçəsi orada olan iranlı fəhlələrindən beş nəfərini cəbrən döyərək, o meyit iranlı meyitidir, götürün bir tərəfdə basdırın, deyə apardılar. Onlar da şallaq zərbəsinə davam edə bilməyib naəlac gedib o meyiti götürüb yoldan kənarda bir yer qazıyıb, oraya salıb, üstünü torpaqladıqları əsnada İngiltərə qoşununun islam əfradlarından [fərdlərindən] biri bu halı görərək gəlib iranlı- lardan "Cənazə islam, ya kafir" deyə sual edir. Onlar, bəli, islam, müsəlmandır, deyə cavab verirlər. O saat onlara basdırmayıb, bir qədər dayanmalarını əli ilə qandırıb təcili qayıdır. Arxada olan islam əfradlarına xəbər verərək tamam yüz nəfərə qədər gəlirlər. Sonra o meyiti oradan götürüb kənara qoyaraq, libasını soyundurub su hazır edirlər və qüsül verib və özləri üçün götürdükləri kəfəndən birinə büküb və bir məzar hazır edərək səf çəkib namaz qılırlar və ehsan olmaq üzrə kişmiş alıb hazirunlara dəfndən sonra payladılar. Mən də özüm də orada hazır idim. Bu təzimi mən heç bir müsəlmanın dəfnində görməmişdim. O meyit yumaq zamanına gəldikdə hər biri bildikləri "Quran" ayələrindən oxumağa başlayaraq ta meyitin üstünü örtüb qurtarana qədər oxumaqda idilər. Onların o

tanımadıqları bir cənazəyə nə qədər təzim və təkrim [hörmət] etmələri təəccüb idi. Bu əhvalı görüb öz-özümə dedim ki: yaşasın ümum islamlar üxüvvəti [bütün müsəlmanların qardaşlığı]!

*Səfərzadə Bəşir*

## BƏYANİ-TƏŞƏKKÜR

Müdiri-möhtərəm, cənabınızdan rica edirəm, mənim bu bir neçə kəlmə təşəkküratımı qəzetənizin bir sütununda dərc edəsiniz.

Mən zeyldə ismi mühərrər [aşağıda adı yazılan] Məhəmmədhüseyn Axundzadə artıq dərəcədə biçiz [yoxsul] və fəqir bir ailəyə mənsub olduğum halda, 5-6 sənə bundan əqdəm İsa bəy Aşurbəyli cənabları mənim xərcimə kəfil olub məni oxutdurdu. Bu gün müşarünileyhin [adı çəkilən şəxsin] hümməti sayəsindədir ki, oxuyub kəndi-kəndimi gözəlcə idarə edirəm. İsa bəy cənablarının bu hümməti ancaq mənə şamil deyildir, məndən başqa çox adamları məsud etmişdir. Kamalirizaməndliyimi müşarünileyhə izharla əmsalının artmasını istirham edirəm.

*Məhəmmədhüseyn Axundzadə*

## İDARƏDƏN CAVABLAR

Göyçayda Molla Gülməhəmməd Hacı Əhməd oğlu əfəndiyə: "Müfəttinlik" [fitnəkarlıq] sərlövhəli məqalənizdə bəzi müsəlmanlarımızın keçən müəssif [təəssüf doğuran] günlər əsnasında öylə rəzalətli hərəkətlərindən bəhs olunur ki, çapını mümkün bilmədik. Səy etməlidir ki, türklük və islamlıq şərəfi həmişə və hər bir mövqedə uca dursun.

Ağdaşda Miskinzadə əfəndiyə: Məqalənizi bir qədər təfsilatı ilə yazıb Ağdaş məbusu Muxtar Əfəndizadə cənablarına göndəriniz ki, şikayətlərinizi lazım olan yerlərinə bildirsinlər.

Mərdəkanda Feyzulla Qasımzadə əfəndiyə: Müəllim yetişdirmək üçün hökumətimiz tərəfindən darülmüəlliminlər [seminariyalar] açılmaqdadır. Bu darülmüəlliminlərdən biri Qazaxda mövcud olub, biri də Bakı şəhərində açılmaq üzrədir.

**Opera**

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar və Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti
Müdiriyyətin rejissoru artist
Hacıbaba Şərifovun və artistkası
Xanım Y. N. Olenskayanın
şərəfinə (benefisinə)
Düşənbə günü rəcəbül-mürəccəb
ayının 6-da 1337 sənəsi
(aprelin 7-də 1919-cu ildə)
təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
2-ci dəfə
**"Şah İsmayıl"** operası
Müsənnif və bəstəkarı Müslüm bəy
Həmin operada qızlar
və oğlanlar xoru olacaqdır.
Şah İsmayıl – Sarabski
Aslan şah – Hacıbaba Şərifov
Gülzar xanım – Y. N. Olenskaya
Biletlər benefis qiymətinə indidən teatrın
kasasında satılmaqdadır.
Tamaşa başlanacaq
axşam saat 8-in yarısında.





**İtibdir**

Yusifəli Cəlil oğlu, 10 yaşında, əynində boz pencək, qara papaq, orta boylu. 10 gündür itibdir. Onun barəsində məlumatları olan şəxslərdən acizanə təvəqqe edirəm ki, gəlib mənə xəbər versinlər. Ünvan: Kamenski küçə, nömrə 40. Hacı Ağababa Cavad oğlu.

*5786*

**Elan**

Mən, Mirzə Vəli Əliyev Mirtağı Mirmehdiyevə verdiyim vəkalətnaməni puç edirəm.

*5781*

**İtibdir**

Ərəş uyezd naçalniki tərəfindən Allahverən İsmayıl oğluna (Ağdaşlı) verilən əbədilik pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*5784*

**Satılır**

Bir cüt ingilis kravatı, güzgülü şkaf, umıvalnik [əlüzyuyan], qarderob və venski stullar [Vyana stulları]. Ünvan: Suraxanski küçədə nömrə 253, döngədə (tupikdə) 2-ci mərtəbə, səhər saat 10-dan axşam saat 6-ya qədər.

*5787*

**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski**. Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*7515*

**Skripka dərsi**

Petroqrad Konservatoriyasının rəssamı M. Malkarov skripkada dərs verir. Ünvan: Birjavaya küçə nömrə 14, Desyatnikovun mənzilində. Telefon nömrə 46-83.

*5782*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubaru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 83. "87-ci maddə isə...": qəzetdə "87" yerinə "78" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 85. "İ. M.": "İdişe morqenpost" [Yidishe Morgenpost] qəzeti nəzərdə tutulur.

"Proskurov": Ukraynanın qərbində şəhər; indiki Xmelnitski şəhəri.

"Çeqedin": Macarıstanın cənubunda yerləşən Seqed şəhəri nəzərdə tutulur.

"Əfqan əmiri qətl edildikdən sonra...": 1901-1919-cu illərdə Əfqanıstan əmiri olan Həbibulla xan (1872-1919) nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 85. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

**Ələkbər bəy Rəfibəyov**

səh. 88. "İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq". Bu ifadə, "Quran"ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər."

"Rəhmətullahi əleyhə rəhmətən vasia!": Allah ona çoxlu-çoxlu rəhmət eləsin!

"O kimsələr ki, Allah yolunda tərki-həyat etmişlər, məgər onları ölmüş hesab edirsiniz? Onlar ölməmişlər. Onlar ta qiyamətədək diridirlər!": "Quran"ın "Ali-İmran" surəsinin 169-cu ayəsi nəzərdə tutulur.

**Ordumuzun paytaxta vürudu**

səh. 91. "Nikolayevski caddəsi ilə dəniz kənarı": Bakıda, indiki İstiqlaliyyət küçəsi ilə Neftçilər prospekti nəzərdə tutulur.





"Bazarnı": Bakıda, indiki Azərbaycan prospekti.

"Bolşaya Morskaya": Bakıda, indiki Bülbül küçəsi.

"Telefonnı, Bolşaya Morskaya, Malakanskaya, Parapet və Mixaylovski": Bakıda, indiki 28 May, Bülbül, Xaqani küçələri, Fəvvarələr meydanı və Əziz Əliyev küçəsi nəzərdə tutulur.

səh. 93. "Və ləqəd kətəbna fit-Tövrati və yerisuha ibadiyəs-salihunə": Ərəbcə; mənası: "And olsun ki, Biz, Tövratda yazdıq: və təmiz qullarıma miras qalacaq." Bu cümlə, "Quran"ın "Ənbiya" surəsinin 105-ci ayəsinin təhrif edilmiş şəklidir. Ayə və tərcüməsi belədir: "Və ləqəd kətəbna fiz-Zəburi min bə'diz-zikri ənnəl-ərzə yerisuha ibadiyəs-salihunə": "And olsun ki, Biz, zikirdən (Tövratdan) sonra Zəburda da yazdıq: yer üzü təmiz qullarıma miras qalacaq."

"... rusca nitqində Bələdiyyə İdarəsi tərəfindən": əvvəli silinmişdir; burada çox güman ki, Bələdiyyə İdarəsi sədri İlyuşkindən danışılır.

"Sadovı küçə": Bakıda, indiki Şövkət Ələkbərova küçəsi.

"...yüzlərcə islam qadın və kişiləri...": qəzetdə belə getmişdir: "yüzlərcə islam qadın vəkilləri".

**Azərbaycanda**

səh. 96. "xətm", "xətm olunmaq": "Quran"ı başdan-sona qədər oxuyub qurtarmaq; həm bir nəfər tərəfindən, həm də bir neçə nəfər tərəfindən birgə icra edilə bilər.

"təkbirxan olmaq": təkbir oxumaq; "Allahu əkbər" demək.

"mürdəhara zindəkərdi afərin bərmordənət": "ölüləri diriltdin, ölümünə afərin!" (farsca)

"Və lə təhsəbənnəlləzinə qutilu fi səbilillahi əmvatən bəl ehyaun ində rəbbihim yurzəqunə": "Quran"ın "Ali-İmran" surəsinin 169-cu ayəsi. Mənası: "Allah yolunda öldürülənləri heç də ölü zənnetmə; əsl həqiqətdə onlar diridirlə; onlara Rəbbi yanında ruzi verilir."

"Əz mərge ma məbad fərəhyab əhle zolm / Səd Tuba qiyam bər arəd türabe ma!": "Zülm əhli bizim ölümümüzdən fərəhlənməsin / Torpağımızdan yüz Tuba [ağacı] bitər." (farsca)

**İdarədən cavablar**

səh. 98. "Müfəttinlik": qəzetdə "Müfəttinliyi" kimi getmişdir.

**İtibdir**

səh. 99. "Kamenski küçə": güman ki, "Kamenisti küçə" (indiki Bəşir Səfəroğlu küçəsi) olmalı idi.



*"Azərbaycan" qəzetinin 152-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 8 aprel 1919-cu il, nömrə 152**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 7 rəcəbül-mürəccəb sənə 1337. 8 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bağır bəy və Qəhrəman bəy Rəfibəyovlar öz sevgili qardaşları **Ələkbər bəy Rəfibəyovun** həmin aprel ayının 3-ündə vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövməqrəba və dost-aşnalarına elan edirlər.

## QİSMİ-RƏSMİ

**Azərbaycan Hökumətinin qərarı**

30 Mart 1919

Azərbaycan 100-lükləri

1) İndiyə qədər işlənməkdə olan pullardan başqa hökumət tərəfindən təsdiq edilmiş şəkildə 100 manatlıq Azərbaycan Hökuməti pulları buraxılsın.

2) Göstərilən pullar hökumət əmvalı [malları] ilə təmin edilir.

3) Maliyyə nazirinə həvalə olunsun ki, həm[in] pulların işlənməsi qanununu və buraxılması qaydalarını nəşr edib "Azərbaycan" qəzetəsinin qismi-rəsmi şöbəsində həmin pulun 1919-cu il şəklini təsvir ilə elan etsin.

*Rəisi-vükəla: Fətəli xan Xoyski*

*Maliyyə naziri vəzifəsini ifa edən: Əliağa Həsənzadə*

## İRAN VƏ BİZ

Hökumətimiz tərəfindən bugünlərdə İran paytaxtı Tehrana bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] göndərilmişdir. Heyəti-mürəxxəsənin məqsədi yeni təşəkkül etmiş Azərbaycan Cümhuriyyətini İran Hökumətinə müərriflik edib də [tanıdıb da], bu iki müsəlman dövləti arasında hüsn-münasibat [yaxşı münasibətlər] təsis və təmin eyləməkdir.

İran ilə dini, mədəni və tarixi münasibatımızdan əlavə, sıxı bir müqəddərati-siyasiyyəmiz vardır.

İranın səlaməti bizim üçün, bizim səlamətimiz İran üçün son dərəcədə mühümdür.

Daima zərbələrini yediyi cahangir [imperialist] Rusiya yerində, irəlidə yenə inkişaf etmək həvəsinə düşəcəyi mühəqqəq olan Rusiya ilə öz arasında müstəqil bir Qafqaziya görmək İranın əxəss [başlıca] amalını təşkil eyləməlidir. Müstəqil Qafqaziya içərisində müstəqil və nüfuzlu bir müsəlman hökumətinin vücudu isə bilxassə İran vətənpərvərlərini sevindirməlidir.

Biz əminiz ki, dərin düşünür İran mütəfəkkirləri bu sevincə yabançı deyildirlər. Burada İranı təmsil edən siyasi

nümayəndələrin hər münasibət gəldikcə ibraz etməkdə [göstərməkdə] olduqları dostluq və qardaşlıq hissiyyatları bizə bu əmniyyəti verir.

Araz nəhrinin yuxarısında təşəkkül edən mədəni bir islam cümhuriyyətinin hər halda İran üçün faydalı olacağı İran siyasiyyunundan [siyasətçilərindən] ötrü şübhəli bir məsələ halında olmasa gərək.

Dini və mədəni münasibatdan əlavə, İran ilə Cümhuriyyətimiz miyanında [arasında] hər bir münasibatdan daha qüvvətli bir rabitə vardır: iqtisadi rabitə. İran bizimlə külliyyətli surətdə ticarət etməkdədir. Bakı bəndəri [limanı] ta əski zamandan bəri İran ticarətinin ən mühüm bir qapısını təşkil edir.

Bakı mədənləri Şimali İrandan gələn əmələlərlə [fəhlələrlə] işlər, Bakı və Gəncə vilayətlərinin pambığı, buğdası və sair hübubatı [dənli bitkiləri] İran Azərbaycanının əmələsi olmazsa, toplanmamış qalar.

Bundan əlavə, Cümhuriyyətimiz ilə şahlıq arasında ədəbi və tərbiyəvi böyük bir qərabət [yaxınlıq] və münasibət vardır.

Ədəbiyyatımız, ədiblərimiz, şairlərimiz, mühərrirlərimiz – bilxassə əski məktəbdən yetişənləri – İran feyzi ilə pərvəriş bulmuşlardır [qidalanmışlar]. Firdovsi, Sədi, Hafiz, Ömər Xəyyam, Molla Rumi və sair İran səramədani-süxəni [söz ustaları] bizimkilər tərəfindən adətən mənimsənmişlərdir. İçərimizdə İran üsulu tərbiyə almışlarımız, fars ədəbiyyatı ilə aşina maraqlılarımız az deyildir. Hələ Nizami, Xaqani, Məhsəti kimi İran ədəbiyyati-qədiməsinin axırki dövrəsinə adlı şairlər yetişdirməklə də iftixar edəriz. Azərbaycan ədəbiyyatının üstadi-əvvəli, şeyxüşşüəra [şairlərin şeyxi] Füzuli, bu türk Hafizi bu gün Arazın şimalından ziyadə cənubunda mərufdur [tanınır]. Nəbati, Raci, Məhəmməd Bağır, Dilsuz, Ləli və sairə kimi Azərbaycan gülşəni-ədəbiyyatına [ədəbiyyat bağçasına] başqa bir rəng və ruğən [parlaqlıq] verən ədiblər İranın yetişdirmiş olduğu güllər, çiçəklərdir.

Qafqaziya Azərbaycanı İrandan aldığı borcu mümkün olduğu qədər iadə etməyə dəxi çalışmışdır.

Yeni Azərbaycan ədəbiyyatının bərəkətli səhnəsini təşkil edən Bakı mətbuatı heç bir zaman İrana yabançı qalmamışdır. Burada nəşr olunan mətbuatimövqutə [dövri mətbuat] hər zaman İran qüssələri ilə qüssələnmiş, onun sevincləri ilə sevinmişdir. Bunun üçün də o, İranda rəğbət qazanmış, bilxassə Təbriz Bakı mətbuatının ikinci mərkəzi-tövzisi [paylanma mərkəzi] olmuşdur. "Molla Nəsrəddin" məcmuəsinin müvəffəqiyyəti isə İranın yalnız türkcə danışan şəhərlərinə deyil, bütün mühüm mərkəzlərinə qədər şamil olmuşdur.

Nəbati bizdə olduğu qədər, Seyid Əzim də İranda mərufdur. Biz Ləlini bildiyimizdən ziyadə, İran mərhum Sabiri tanır, "Hop-hop"un "Mən deyən oldu, sən deyən"ini hamı çocuqlar əzbərdən oxur.

Musiqimiz kəndinə məxsus bir xüsusiyyəti mühafizə eyləməklə bərabər, əsas etibarilə İran musiqisidir. Böylə ikən opera və operettalarımız vasitəsilə biz bu xüsusda dəxi müqabil bir təsir yapmaqla borcumuzu verməkdəyiz.

Dramaturqlarımızın yazdığı faciə və





komedilər isə yalnız Təbrizdə deyil, Rəştdə, Qəzvində, hətta Tehranın özündə belə müvəffəqiyyətlə tamaşa edilir. Aktyorlarımız, kamali-məmnuniyyətlə qeyd eyləyiriz, Tehranın bütün ədəbi məhfillərində [dairələrində] məzhəri-qəbul olaraq [qəbula nail olaraq] hətta Şah həzrətlərinin sarayına belə hülul eyləmişlərdir [daxil olmuşlardır].

Möhtəşəm bir tarixə, parlaq bir mədəniyyətə malik olan şirü-xurşid məmləkəti kəndinə müstövli olan [onu istila edən] istibdad sayəsində uzun bir inhitat [düşüş, geriləmə] dövrəsi keçirdi. Bu dövrəyə bir intəha vermək qəsdilə İran millləti məşrutiyyət [məşrutəçilik, konstitusiya tərəfdarlığı] bayrağını qaldırdı, cihada başladı.

Bakı mətbuatının bu yoldakı xidməti inkar edilməz. Qafqaziya türklərinin fikrihürriyyətlə məşbu [dolu] olanları bir an əvvəl İrana atıldılar, dindaşlarına kömək etməyi bir vəzifeyi-vicdaniyyə bildilər.

Kəndi səadətini təmin üçün icra eylədiyi böyük mübarizədə, bir az da olsa, İran millətinə – bildiyim və bacardığım qədər – yardım edənlərdən olmaqla iftixar eylərəm. Bu sənələrin, iranlı vətənpərvərlərlə bərabər çalışdığımız illərin məhsulu olaraq iranlıların Qafqaziya müsəlmanları xüsusunda pərvərdə etdikləri [bəslədikləri] hissiyyat və təməniyyat haqqında eyi xatiratım vardır.

Bu xatirat mənə haqq verir düşünəyim ki, Cümhuriyyətimiz tərəfindən İrana göndərilən heyəti-mürəxxəsə ümid etdiyimiz hüsn-qəbula məzhər olacaq, iranlı mütəfəkkir arxadaşlarımız Bakıdan gələn bu heyətin dost və əqrəba bir milləti təmsil eylədiyinə qane olacaqlar və kəndisinə o surətlə müamilə [rəftar] edəcəklərdir.

Mütəfəkkir arxadaşlarımız deyirəm, çünki hər məmləkətdə olduğu kimi, bittəbii, İranda da səthi düşünər, fəqət mütəfəkkir keçinər adamlar yox deyildir. Meydanda bir az da qəsdən sui-təfahümlər və sui-təvillər yapan [yanlış anlayan və yanlış qiymətləndirən] və məxsusi məqsədlərlə düşmənanə fikirlər nəşr edən [yayan] adamlar bulunursa – ki, böylələri məəttəəssüf [təəssüf ki] az deyildir – o zaman bu qəbildən olan mütəfəkkirlər həman mütaliələr yürütməyə başlar, nəticədə səmimiyyət və istilik əvəzinə quru bir rəsmiyyət və soyuqluq çıxar.

İştə, quru rəsmiyyətlə iktifa [kifayət] etmədiyimiz üçün biz burada kəndilərindən şikayət etdiyimiz "mütəfəkkir"lərin Cümhuriyyətimizin ismi haqqındakı tənqidlərinə bir az nəqli-kəlam etmək [sözü gətirmək] istəriz.

Bəzi İran mühərrirləri Azərbaycan Cümhuriyyətinin vücudunda İranın tamamiyyəti-mülkiyyəsindən [ərazi bütövlüyündən] ötrü "ələni" [açıq] bir təhdid görürlərmiş. Və Azərbaycan İranın bir vilayəti ikən bunu Cümhuriyyətimizə "ələm" [bayraq] etdiyimizə etirazları varmış.

Biz bu xüsusda vaxtilə – bir münasibətlə – izahat vermişdik. "Azərbaycan" deyərkən qəsdimiz Şimali Azərbaycan və yaxud Qafqaziya Azərbaycanıdır ki, əski Aran ilə Şirvan və Muğanı ehtiva edir. "Azərbaycan" ismi isə coğrafi bir istilah [termin] olmaqdan ziyadə, qövmi bir məna ilə işlənmişdir. Biz kəndimizi Azərbaycan dili ilə (ki türkcənin bir növüdür)

mütəkəllim [danışan] məxsus [xüsusi] bir qövm əɗd [hesab] ediriz. Bu qövmün ismi nə Aran, nə Şirvan, nə də Muğandır. Yalnız Azərbaycandır.

Bu təbir, bu məna ilə, Rusiya inqilabının Rusiyadakı millətlərə istiqlal meyli verdiyindən sonra deyil, daha əvvəlcə mövcud idi. Bundan otuz il əvvəl Petroqrad darülfünunlarında [universitetlərində] təhsil edən Bakı, Gəncə və İrəvan vilayətlərindən gedən müsəlman tələbələr milliyyət əsası üzrə təşkil eylədikləri cəmiyyətlərinə "Azərbaycan Cəmiyyəti" demişlərdir. Bir ənənə olaraq rus paytaxtında təhsil edən tələbələrimiz "Azərbaycan gecəsi" namı ilə hər il bir müsamirə [konsert; tamaşa] tərtib edə gəlmişlərdir.

Qafqaziya türkcəsindən ruscaya bir lüğət tərtib edən əski müəllimlərimizdən Qənizadə cənabları kəza [həmçinin] lüğətlərinə "Azərbaycan istilahı" namını vermişlərdir.

Mətləbi kəlmə ilə münaqişə etdirmək doğru olammaz. Çünki, məsələ yalnız bir isim üzərinə müncər olarsa [iş o yerə gələrsə], o zaman o qədər bir məsələliyi də qalmaz. Fəqət qorxulur ki, bu ismin müsəmmasına [bu adla adlandırılana] da hüsn-təvəccöh bəslənilməsin. Ola bilər düşünülsün ki, başqa bir isimlə olsa da məxsus bir qövm olmaq əsası və xüsusiyyəti üzərinə təəssüs edəcək [qurulacaq] Cümhuriyyət, İranın şimalında o əsas və xüsusiyyətə uya bilər bir kütlə olduğu üçün mətlub [arzuedilən] deyildir. Böylə bir düşüncənin əlbəttə ki, ciddi mütəfəkkirlərcə beş para qiyməti olammaz. Çünki o zaman Cümhuriyyətimizi təşkil edən qövmün qövmiyyətini inkar etmək, ona kəndi müqəddəratını təyin haqqını verməmək icab edər. Böylə bir vəziyyətə ruslar, ingilislər, firəng və sair xristian millətlər durmadığı halda dindaş bir dövlətin duracağını qətiyyən təsəvvür etməyiz.

Böylə olunca Azərbaycanın nə ismi, nə də cismi iranlı qardaşlarımızda şəkk və şübhə hissi oyatmamalı, yanı başlarında bir Ermənistan, bir Gürcüstan hökuməti təşəkkül etdiyi bir zamanda, bir də həmkiş [dindaş, məzhəbdaş] və əqrəba bir Azərbaycan Cümhuriyyətinin təşəkkül edib kəsbi-qüvvət etməsini [güclənməsini] səmimanə bir surətdə arzu etməlidirlər.

Heyəti-mürəxxəsəmizin ən böyük müvəffəqiyyəti iştə bu arzunun İran əfkari-ümumiyyəsində [ictimai fikrində] mövcud olduğunu bilmək və bunu bizə bir an əvvəl təbşir etmək [müjdələmək] olacaqdır.

İntizardayız!

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

19

3 aprel 1919. İclas saat 12.10 dəqiqədə açılır.

*Sədr: Həsən bəy Ağayev*

*Katib: Əhməd Cövdət [Pepinov]*

**Sədr** – Keçən iclasın mabədi davam edir. *(Kvestora)* Yusif bəy, sayın görək neçə adam var? 41. Keçmiş yövmiyyeyi-müzakiratda [müzakirə gündəliyində] olan məsələlərdən başqa bugünkü yövmiyyeyi-müzakirata Divani-Rəyasət tərəfindən başqa bir neçə məsələlər daxil edilmişdir. O cümlədən, daxil olmuş məktub və kağızlar və bir neçə layiheyi-qanuniyyə, o cümlədən, Culfa-Bakı dəmiryol inşasının davam etdirilməsi üçün para buraxılması haqqında layiheyi-qanuniyyə. Divani-Rəyasət təklif edir ki, bu layihə Maliyyə-büdcə komisyonuna verilsin.

İkinci, hökumət tərəfindən əsgəri nizamnamənin tamamlaşması layihəsi. Bu layihə də Hərbiyyə və Ləvayehi-qanuniyyə [Qanun layihələri] komisyonlarına verilir.

Üçüncü, Şimali Qafqaziya Cibaliyyun [Dağlılar] Cümhuriyyətinə faizsiz 30 milyon qərz [borc] buraxılması layihəsi. Divani-Rəyasət təklif edir ki, bu layihə də Maliyyə-büdcə komisyonuna verilsin.

Bunlardan savayı, bayram münasibətilə bir neçə məktub və teleqraflar gəlibdir ki, onları da elan etməyi lazım bilirəm. O cümlədən biri Gəncədən Hərbiyyə naziri general Mehmandarovdan təbrik teleqrafı gəlmişdir.

Bundan əlavə, Məclisi-Məbusana Qubadan iki teleqraf gəlmişdir. Biri Bakı alayının komandanı Məhəmmədovdan, digəri alayın özündən.

Gəncədə olduğum zaman bayram münasibətilə tərtib olunan rautda [ziyafətdə] Gəncə Bələdiyyə rəisinin tapşırdığına görə Gəncə İdareyi-Bələdiyyəsinin [Bələdiyyə İdarəsinin] salam və təbrikini Parlamana yetirməyə borcluyam.

Bir təbrik teleqrafı da Parlamana Salyan əhalisi tərəfindən gəlmişdir.

Rus-Slavyan fraksiyası üzvü Klenevski hökumət qulluğunda olduğundan, Parlamandan xaricdir. Həman fraksiya onun yerinə cəmiyyət üzvü, professor Dubrovskini seçib göndərmişdir. Parlaman üzvü Cavad bəy Məlik-Yeqanovdan bir məktub varid [daxil] olmuşdur. Məlik-Yeqanov dəmiryol qulluğunda olduğunu bildirir.

"Əhrar" fraksiyasından bir məktub gəlmişdir ki, müzakirə edilən layihələr fraksiyalara türkcə göndərilmədiyindən "Əhrar" fraksiyası layihələr müzakiratında və bugünkü layihə müzakirəsində iştirak etməyəcəyini bildirir. (Rusca tərcümə edir.) Hərgah bunlara və layihələrin komisyonlara verilmələrinə etiraz yoxsa, qəbul olunur.

Növbədəki məsələ keçən iclasdan qalmış Daxiliyyə Nəzarəti məmurlarının maaş təzayüdü [artımı] və bəzi məmuriyyətlər təşkili haqqında qanun layihəsidir. Məruzəçi doktor Musa bəy Rəfibəyov. Çünki keçən dəfə məruzə oxunmuşdur və sıra ilə yazılan natiqlərin siyahısı məndədir, onda söz Ağa Əminovundur.

**Əminov** (Müsavat) - Məlumdur ki, hər bir məmləkətin, dövlətin ən işçi və ən əhəmiyyətli müəssisələrindən biri Daxiliyyə Nəzarətidir. Əlbəttə, çox işləyənin nöqsanı ola bilər. Fraksiyamız tərəfindən məlum edirəm ki, biz də nöqsan görürük. Ancaq parlamentarizm qaydası ilə bu məsələ büdcə baxılanadək qalsın. İndi xüsusi bir qanundur ki, maaş artırılması və bəzi məmuriyyətlər təşkili haqqındadır. Ona görə biz, çünki ağır bir zamandır, tələb olunur ki, iş göstərsinlər, həyat bahalaşıb, maaşlar da azdır, onlardan yaxşı iş tələb edəndə maaşlarını artırmalıyız. Biz maaşların artması əleyhinə deyiliz. Tənqidi isə büdcə müzakirə olunana qoyuruq. Lakin arzu edirik ki,

Daxiliyyə Nəzarəti bələdiyyə, zemstvo və administrativa terminlərini milliləşdirsin. Qubernatorlara məsələn vali deyilsin. Tənqid isə büdcə müzakirə olunanda olacaqdır.

**Sədr** - Söz Səməd ağa Ağamalıoğlunundur.

**Ağamalıoğlu** - İndi məndən əvvəl danışan natiq belə başladı ki, gerçəkli zakon dalıdan gələcəkdir; o vaxtda onu tənqid edərik, görək Daxiliyyə Nəzarətində nə var, nə yox. Yəni bu bikara bir şeydir, bunu bir tövr adlayaq. Özünüz bilirsiniz ki, indiyə qədər belə bikar[a] şeylər çox gəlib-gedibdir. Məsələn, dəmiryol tarifələri balaca zakondur, qəbul eyləyək, aksiz balaca zakondur, onu da qəbul eyləyək. Bunların hamısını söz altında buraxdılar, balaca şeylər idi. Amma bunları bir-birinin üstünə qoyanda böyük bir şey olur. Biz də buna razı ola bilməyəcəyik, vəssalam. Qabağımızda olan qanun ki, adını balaca qoyublar, biz bu qanuna iki tərəfdən baxırıq. Biri budur ki, Daxiliyyə Nəzarəti qulluqçularının məvacibi artsın, çünki az məvacib alırlar, dolanmaq olmaz. Bu, ağıl kəsən bir işdir. Əlbəttə, gərək məvaciblər artırılsın. Amma biz elə bilirik ki, Daxiliyyə naziri bu məsələni keçirmək üçün başqa bir yol tapardı, nəinki öylə bir qanuna bağlayaydı ki, hürriyyət və cümhuriyyət olan yerdə heç qəbul etmək və yaxına qoymaq olmaz. Bu qanunu belə niyə gətirdiyini Daxiliyyə naziri özü yaxşı bilir. Bunu aydın danışmaq olardı. O özü bilir ki, bu qanunla nə yeritmək istəyir. Burada ayrı səbəblər var ki, orasını danışacağız. Dediyim budur ki, biz məvaciblərin artması əleyhinə deyiliz, lakin biz bu qanunun vücudunun, vəzifəsinin bərəksinəyik [ziddinəyik].

**Məhəmməd Əmin [Rəsulzadə]** *(yerindən)* - Vəzifə, vücud nə deməkdir?

**Ağamalıoğlu** *(davam edir)* - Bilirsiniz ki, Nikolayın böyük bir idarəsi var idi ki, o da samoderjaviya idi. Bu idarənin vəzifəsi bu idi ki, fəhlələri, çalışanları, əkinçiləri, füqərayi-kəsibəni zindan altında saxlasın. Bu idarə yüz illərlə tikilmişdi. Bu yüz illərlə təşkil edilən idarəni yıxmaq çətin idi. Bunu yıxmaq üçün böyük bir qüvvə lazım idi. Əlahiddə bir inqilab gərək olaydı. Bu idarəni yıxmaq çoxdan başlanmış idi. Hətta 1825-ci ildə dekabristlər, sonradan 1905-ci ildə qabaqkı inqilablar oldu. Bunların gücü çatmadı. Bu böyük binanı yıxmaq üçün milyonlarla can verən, çaylar qədər qan axıdan indiki böyük inqilab lazım idi ki, o da oldu. Qanlar axdı, milyonlarca canlar getdi. Bu imarət yıxıldıqdan sonra qabağımız açıq oldu. Gərək özümüzə təzə həyat tikək, təzə yola düşək. Amma bizim ministrlər Nikolayın dağılmış imarətinin daşlarını yığıb gətirib, yavaş-yavaş öylə yuva tikməyə başlayırlar ki, biz də onun altında olacağız. Bu qərar üzrə də sultan qoyula və istibdad hazır ola. *(Soldan alqış)* Amma mən sizə onu deyirəm, bizim vəzir Nikolaydan da o yana keçdi.

**Sədr** - Rica edirəm mətləbdən uzaqlaşma.

**Ağamalıoğlu** - Mətləbə gəlirəm, mətləb üstündəyəm. Mən deyirəm ki, vəzir, Nikolaydan da o yana keçdi. O qanun ki, vəzirlər qoyub – Nikolayın qanunudur. Bu boyunduruq qanunudur. Bu qanun balaca Azərbaycana layiq deyildir. Ondan sonra *(sükut)*... Onu da deyəcəyəm bizə əlahiddə qanun lazımdır. Mən indi dedim ki, bizim vəzirlər Nikolaydan da o yana gedib. Belə ki, Nikolay zamanında var idi qubernator, vis-qubernator, pristavlar, amma indiki qanunda pristav pomoşnik[i], qubernator müavini artıb. İki quberniya yarımdan ibarət olan balaca Azərbaycanda bu qədər qara qulluqlar və bunlar üçün 60 milyon xərc yarayan deyil. Biz deyirik ki, belə hökumət ola ki, camaata yaxın ola. Birliklə işlərə əlac edə. Əvvəla, qabaqkı hökumət camaatdan uzaq olardı. "Zavtra-zavtra" [sabah-sabah] sözü də ondan məsəl qalıbdır. İndiki qanunda belə qoyulub ki, camaat hökumətdən dəxi də uzaqlaşır. Biz deyirik ki, cümhuriyyətdə camaat ilə hökumətin arası bir-iki pilləkan olmalıdır. Biz bilirik ki, administrasiya, polis, padşahlıq da araba çarxı mənziləsindədir [yerindədir, mövqeyindədir]. Bir vaxt Qolitsın dövründə straja [mühafizə, qarovul] düzəltdilər, çünki o zaman camaatın fikri açılırdı. O vaxt bu fikri boğmaq üçün straja düzəltdi, həman straja düzəldikdən sonra Qafqazda oğurluq, dələduzluq artdı. Məsələn, Dəli Əlinağı kimi quldurlar sonradan artdı. Deməli, polis artdıqca quldurlar qüvvət tapır, nicat tapır. İndi bu artıq pul ki, bizdən istənilir, polisin quldurluğa dəxi də əlaqəsinin yaxşılaşması üçündür, dəxi də qamçının uzanması üçündür. Biz bu pulun buraxılmasına razı ola bilmərik. Hökumətlə camaatın arasında rabitə o zaman ola bilər ki, hökumət məmurları, istarşinalar və digərləri camaat tərəfindən seçilsinlər. Bizim vəzirlər isə istarşinaların, kəndxudaların da intixab olunması [seçilməsi] üsulunu ləğv eyləmişdir. Halbuki köhnə rejimdə bu üsul var idi, istarşinaları camaat seçirdi. Bizim fraksiya hələ zənn edir ki, bu qanun layihəsinə heç bir fraksiya tərəfdar olmaz. Lakin keçən natiqlərin sözündən anlaşıldı ki, onlar qanuna tərəfdardırlar və qanun da keçəcəkdir. Biz təklif edirik ki, bu qanun layihəsi Daxiliyyə nazirinə qaytarılsın və ona deyilsin ki, Nikolay dövründə olan qanunlara biz yol verməzik. Yeni demokratizm üsulu ilə qanunlar tərtib edilsin. *(Soldan alqış)*

**TELEQRAF XƏBƏRLƏRİ**

* London – "Tayms" qəzetəsinə Helsinqforsdan [Helsinkidən] xəbər verilir ki, bolşeviklər Petroqradı müdafiə etmək üçün ciddi surətdə çalışırlar. Təcilən xəndəklər hazır edilir, oraya iki diviziya qoşun, yüz ədəd top qoyulmuşdur.

* Berlin – Berlin ilə Veymar arasında dəmiryol hərəkatı başlanmışdır. Leypsiq-Halle hökumət qoşunları tərəfindən işğal edilmişdir. Kazarmanı partlatmaqda ittiham edilən beş nəfər spartak divanihərbin qərarı ilə atılmaqla edam edilmişlərdir.

* Stokholm – İsveçdə teleqraf və bir neçə digər ticarətxanalar tətil etmişlərdir. 15 min adam tətil edir. Hanenberq iskələsində [limanında] bəhriyyun [matroslar] da tətil elan etmişlərdir.

*Ukraynalılarla polyaklar arasında qızğın müharibə gedir. Heç bir tərəf əllərinə düşən əsirlərə aman verməyib qətl edirlər. Ternopola yeni qoşunlar cəm olmaqdadır.

* "Kubanets" qəzetəsinin yazdığına görə ingilis donanması Kronştadtı işğal edərək dənizdən Petroqradı mühasirə altına alır.

Finlanda qoşunları şimaldan və şərqdən Petroqrada yanaşırlar. Müttəfiqlərin desantı isə cənub tərəfindən Petroqrada gəlir. Petroqrad bu günlərdə təslim olacaqdır. Böylə şayiat var ki, Petroqrad təslim və fransız qoşunları oraya daxil olmuşlardır.

*Ukrayna Şura Hökuməti bolşeviklərin Odessaya yürüşünü dayandırıb, Müttəfiqlərlə olan danışığın nəticəsini gözləyir.

*Kiyevdə alınan məlumata görə, Odessa bolşeviklər tərəfindən işğal edilmişdir. Evlər milliləşdirilmişdir. Skladlar [anbarlar] və mağazalar əmələlərə və müstəhlikin [istehlak] cəmiyyətlərinə verilmişdir. İki mindən ziyadə burjuaz evləri siyahı edilmişdir. Ümumi surətdə camaat işləməyə cəlb edilmişdir. Gündən-günə Leninin təntənəli surətdə şəhərə vürudu [gəlişi] gözlənir.

* Odessanın bəhri [dənizçilik] dairələrinə verilən xəbərlərə nəzərən, bu yaxınlarda Qara dənizə Amerika donanması varid olacaqdır [gələcəkdir]. Bu donanmaya bir kruvazer [kreyser], bir çox minonos [torpedo gəmisi] və sualtı qayığı daxildir. Hal-hazırda Amerika donanması Malta cəzirəsindədir [adasındadır]. Oradan İstanbula gələcək, nəhayət, Sevastopol təriqi [yolu] ilə Odessaya qayıdacaqdır.

**Moskvanın müdafiəsi**

Moskvanı müdafiə etmək üçün Şura Hökuməti Moskva əhalisini 18 yaşdan 60 yaşınadək kişi, arvad, həpsini işləməyə cəlb eyləmişdir.

*Dombrovskda şəhər milissiyası bolşevik tərəfinə keçib, hökumət qoşunları ilə müsadimədə [toqquşmada] bulunmuşlardır. Hər iki tərəfdən külli tələfat vardır.

* Yekaterinodar – Burada ümumi tətil elan edildi. Tramvay işləmədiyi kimi, qəzetələr də çıxmayırlar. Dəmiryol hərəkatı dayandırılmışdır. General Denikin halhazırda Rostov şəhərində iqamət edir [qərarlaşmışdır].

* Neçə gün bundan əvvəl Novorossiyskə bir paroxodda Könüllü ordudan ötrü altı ədəd böyük tank göndərilmişdir.

## SÜLH ƏTRAFINDA

* Şərq cəhətində olan alban qoşunlarının sabiq baş komandanı general Əsad paşa Albaniya sülh nümayəndəsi sifəti ilə Parisə varid olmuşdur [getmişdir].

* Bu günlərdə qəzetələrdə böylə məlumat var idi ki, guya İngiltərə Rəisivükəlası Lloyd Corc Palatada nitq deyərkən bolşeviklərlə etilafa [uzlaşmaya] girişməyə tərəfdar olmuşdur. İngiltərə heyəti bu xəbəri qətiyyən təkzib edir.

* Müttəfiq dövlətlərin Dövlətlər Şurası Lloyd Corc layihəsini müzakirəyə başlamışdır. Şura sülh məsələsində Fransa, Amerika və İtaliyanın həmrəy olmasına çalışacaqdır.

## QƏZETƏLƏRDƏN

**Almaniya donanması**

Parisdən verilən məlumata görə, [Jorj] Leyq təkrar etmişdir ki, Almaniya gəmiləri qərq və məhv edilməməlidirlər. Almaniya donanması Müttəfiqlərin qəniməti olduğundan, Müttəfiqlər arasında təqsim edilməlidir [bölünməlidir]. Bu qərar üzrə ki, Fransa öz tələfatının əvəzini ala bilsin.

**Fəhlə tətili**

Martın 29-da Yekaterinoslavdan xəbər verirlər ki, Taqanroqdan alınan xəbərlərə görə, Baltik zavodu əmələləri [fəhlələri] tətil elan etmişlərdir. Tətil edənlərdən bir çoxları güllələnmişdir.

**Polyaklar və ukraynalılar**

Parisdən martın 30-da xəbər verirlər ki, polyaklarla ukraynalılar arasında mütarikə müzakiratı [atəşkəs müzakirələri] başlanmışdır.

**İsveçdə**

Helsinqforsdan martın 30-da teleqrafla xəbər verirlər ki, İsveçdə hökumət ixtilafı başlanmışdır.

**Petroqrad Şura Hökumətinə sui-qəsd**

Moskva - (Ümumrusiya Fövqəladə Komissiyasının məlumatı)

Petroqraddan alınan məlumata nəzərən, Kolçak, Denikin və Müttəfiqlərin acentələri Petroqrad su mövqifini [stansiyasını] (vodopravodu) partlatmaq istəmişlərdir. Podvalda [zirzəmidə] patlanğıc şeylər və cəhənnəm makinası tapılmışdır. Bunlar pişəzvəqt [vaxtından əvvəl] partlayıb, on bir nəfəri qətl eyləmişdir. Əlahiddə nöqtələrdə dəmiryol hərəkatını dayandırmaq üçün körpünü partlatmaq istəmişlərdir. Hakəza [həmçinin], dəmiryolunu söküb dağıtmağa çalışırlar ki, Qırmızı Moskva ilə Petroqradı ərzaqsız qoysunlar. İnqilabiyyuni-amiyyun [demokratik-inqilabçılar] və inqilabiyyuni-ictimaiyyunlar [sosialist-inqilabçılar] əmələləri tətilə dəvət və Şura Hökumətini yıxmaq üçün əlləşirlər. Böylə məlumat alındığı üçün Şura Hökuməti bu cür işlərin qabağını almağa ən ciddi tədbirlər ittixaz edir [tədbirlər görür].

**İrlandiyanın təsdiqi**

Kopenhaqdan xəbər verirlər ki, on nəfərlik şura (Sülh Konferansında Amerika, İngiltərə, Fransa, İtaliya və Yaponiya hökumətlərindən ikişər nümayəndə) qərar qoymuşdur ki, İngiltərə ilə federasiya əlaqəsi şərti ilə İrlandiyanın istiqlalını təsdiq etsin.

**Amerikada bolşevizm**

Xariciyyə İşlər Baş Katibi Lansinq mətbuat banketində söylədiyi nitqində bolşevizm təşviqatı ilə ciddi mübarizə edilməsinin lazım olduğunu göstərmişdir. Lansinq izhar etmişdir [bildirmişdir] ki, bolşeviklər Amerikada geniş təşviqat aparmaqdadırlar. Bir çox komitələr kəşf edilmişdir ki, bunlarda 13 minə qədər əmələ bolşeviklər və anarxistlər işləməkdədirlər. Bolşevizm təşviqatının yuvası ələlümdə [əsasən] rus mühacirləri mərkəzindədir. Bu mərkəzlər Nyu-Yorkda, İllinoysda və Miçiqanda kəşf edilmişlər. Filadelfiyada tətil etmək istəmişlərdir.

**Avstriyada**

Peştədən teleqrafla xəbər verirlər ki, Macarıstan vilayəti əhalisi hər yerdə qəti surətdə inqilab tərəfindədir. Tirolda mə-

həlli [yerli] əhali İtaliya istila ordusunun əleyhinədir. İnsbrukda küçədə nümayiş olduğu zaman İtaliya əsgərləri əhalini qamçılamışlardır.

* Polşada kommunist hərəkatı artmaqdadır. Bir tək Varşavada 70 min işsiz vardır. Bunların çoxu bolşevikdirlər.

**Kuban Radasının qətnaməsi**

Kuban nahiyə Radası əhvali-siyasiyyə münasibəti ilə böylə bir qətnamə çıxarmışdır:

Bolşevizm və hərc-mərcliklə müvəffəqiyyətli bir surətdə mübarizə etməkdən ötrü lazımdır ki:

1) Cənubi hökumət təşkilatlarını federasiya əsasında birləşdirmək məsələsi haqqında Radanın qətnamələrini həyata tətbiq etməkdən ötrü hər cür tədbirlər görülsün. Bundan ötrü də Kuban Radası hökumətə həvalə edir ki, tezliklə, hər halda mart ayından gec olmamaq şərti ilə Müttəfiq Məşrutə Müahidənaməsi [Birgə Konstitusiya Sazişi] hazırlayıb qəbul etmək üçün Don, Kuban, Terek, Dağıstan, Krım, Gürcüstan, Azərbaycan, Ermənistan nümayəndələrindən ibarət konfrans dəvət etsin.

2) Rusiya məmləkətinin hər yerində bolşevikləri rədd etdikcə, xalq ixtiyarı əsasları həyata tətbiq edilsin.

3) Hazırki vətəndaş müharibəsi şəraiti ilə şifahi və təhriri [yazılı] istər bolşevizm, həmçinin monarxizm təşviqatını Rada cinayət hesab edib, şiddətli tədbirlər və müvafiq qanunlar verməklə bolşevizm və monarxizm təşviqat və tərğibatına [təbliğatına] məşğul olanlar cəzalansınlar.

4) Kuban həyatını doğru bir yola salmaq, həmçinin Kuban hökumətinin əhali arasında nüfuzunu saxlamaq qəsdi ilə, Kuban nahiyə hökuməti mülki və zəbtiyyə [daxili asayiş] idarə cəhətincə bilavasitə müstəqil hərəkət edib, ancaq əsgəri işlərdə Cənubi Rusiya müsəlləh [silahlı] komandanlığı ilə müvafiq hərəkət edir.

5) Əsgərlikdən qaçmaq, həmçinin ordu əleyhinə təşviqat ciddi bir surətdə təqib edilir.

## DAĞISTAN ƏHVALI

**Könüllü ordunun tələfatı**

General Lyaxovun Tersk Kazak Hökumətində söylədiyinə görə, İnquşistana hücum edən zaman Könüllü ordudan 2041 nəfər öldürülmüşdür. General demişdir ki, biz Qafqaziyanın dəmir qapısını sındırmışıqsa da, tələfatımız da artıqdır.

**Kazakların Könüllü ordudan getmələri**

Mövsuq [etibarlı] mənbədən xəbər verirlər ki, Könüllü ordu arasında olan Don və Kuban kazakları, dəstələrlə cəbhəni tərk edib, Tersk oblastından öz evlərinə qayıdırlar. Tersk kazakları da dağıstanlılar əleyhinə müharibə etməkdən imtina edirlər. Buna görə də həmin kazaklar general Lyaxovun əmrinə görə güllələnirlər.

**Çərkəz Əsgəri Firqəsinin halı**

Məlum olduğu üzrə, Kuban oblastı çərkəzləri və bir hissə də kabardinlərdən





könüllü ordu təşkil edildiyi günlərdən başlamış, Kuban oblastında hərc-mərcliklə mübarizə etməkdən ötrü Könüllü orduya kömək edirdilər. Çərkəzlərdən və kabardinlərdən ibarət alaylar təşkil edilmişdi ki, axırda Çərkəz Əsgəri Firqəsi [Çərkəz Hərbi Diviziyası] adlanmışdı. Həmin firqə komandanı Sultan Krım Girey idi. Könüllü ordu Kabardaya, Osetiyaya və İnquşistana hücum etdiyi zaman, Denikin ordusunun komanda heyəti ilə çərkəzlər arasında ixtilaf çıxmışdır. Dağıstanlılar əleyhinə hərəkət etmək əmri alan çərkəzlər, qəti surətdə izhar etmişlər ki, onlar dağıstanlı qardaşları ilə müharibə edə bilməzlər. Biləks [əksinə], onlar bu fikirdə imişlər ki, Denikin ordusu onlara imkan verir ki, bütün Dağıstan ittifaqının başında duran Dağıstan hökuməti ilə birləşsinlər. Lakin Könüllü ordu generalları inadlı bir surətdə öz əmrlərini təkrar etmişlər. Bununla da firqə arasında nizamsızlıq başlanıb, çərkəzlərin bir çoxu dağıstanlılar tərəfinə keçmişlərdir. Ələləmum, hal-hazırda çərkəz firqəsi yoxdur. Ancaq, Krasnı Krestdə məzkur [adı çəkilən] firqədən 150 nəfər qalmışdır ki, bunlar da firqənin nişanını daşıyırlar.

**Dağıstanlılar ilə Könüllü ordu müharibəsi**

Alınan mövsuq [etibarlı] xəbərlərə görə, Qroznı altındakı müharibələr davam edir. Martın 26-da gündüz saat 3-də Berdıkel kəndi altındakı müharibədə Könüllü ordu müharibə meydanında bir top, bir neçə pulemyot və külli miqdarda mühimmati-hərbiyyə [hərbi sursat] buraxıb, geri çəkilməyə məcbur olmuşdur. Dağıstanlıların əhvalı möhkəmdir. Nəql edildiyinə görə, Ustar-Qardoy, Berdıkel, Çeçen-aul, Qoytı, Alxan-Yurt, Kuları, Şaami-Yurt və Açxoy-Martan kəndlərində müharibələr olmuşdur. Hal-hazırda bu kəndlərin hamısı Könüllü ordudan təmizlənmişdir.

**Dağıstanlılar ilə Könüllü ordu müharibəsi və Müttəfiqlər**

Dağıstan Hökumətinin siyasi nümayəndəsi Əli xan Kantemir Dağıstan hökuməti ilə Könüllü ordu arasında başlanan rəsmi müharibə münasibəti ilə Rəisi-vükəla [Baş nazir] Kotsevə verməkdən ötrü, İngiltərə ərkani-hərbindən [qərargahından] məlumat almışdır. Bu məlumatda müdafiə tərzi-hərəkətini gözləmək [müdafiə mövqeyində gözləmək] xahiş olunur.

**İnquşistan və könüllülər**

İnquşların 3 süvari alay və 6 eskadron verilməsi haqqındakı Könüllü ordu ultimatumunun vaxtı martın 28-də tamam olmuşdur. Alınan məlumata görə, inquşlar bu tələbata əməl etməkdən qəti surətdə imtina edib 15 yaşından ta qocalara qədər öz vətənlərini qara generalın irticai dəstələri hücumundan mühafizə və müdafiə edəcəklərinə yəmin etmişlərdir. Bu münasibətlə, təzə hadisələr gözlənir.

**12 martda Dağıstan Şura İttifaqı tərəfindən qəbul edilən qərar**

Çeçenistana soxulmuş olan general Denikinin Könüllü ordusu ilə danışığa

girişən Dağıstan Parlaman heyəti və İttifaq Şurası sədrinin dakladını [məruzəsini] istima edərək [dinləyərək], Dağıstan İttifaq Şurası zeyldəki [aşağıdaki] qərarı qəbul eyləmişdir:

1) Qafqaziyanın Dağıstan əhalisi, Dağıstan İttifaqı istiqlaliyyət elan edərək bütün dövləti işləri kəndi əlinə almışdır. Belə ki, Dağıstanlılar Qurultayı və İttifaqı tərəfindən qəbul edilən qayda üzərinə Dağıstanı idarə edir. Həman qaydaya görə, Dağıstan hökumətinin sahibi və külli-ixtiyarı Şura İttifaqı və bu Şuranın müntəxəbi olan [bu Şura tərəfindən seçilən] Dağıstan Hökumətidir ki, öz fəaliyyəti və xətti-hərəkəti qarşısında yalnız Şura qarşısında məsul və cavabdehəndədir.

2) Dağıstan əhalisinin hüququnu müdafiə və dövləti amalından İttifaq Şurası heç bir vəch ilə dönməyəcək, yeni mütəşəkkil dövlətlərin müqəddəratı Parisdə Ümumi Sülh Konfransında həll edilənədək, İttifaq əlində olan bütün qüvvəsi ilə dağıstanlıların istiqlaliyyət və hüququnu müdafiə edəcəkdir.

3) Könüllü ordu tərəfindən Terek və Dağıstan qitəsinə general Lyaxovun təəyyününü [təyin edilməsini] və onun müxtəlif tələbatını – əhalinin tərksilah etdirilməsi, bolşeviklərlə mübarizə üçün səfərbərlik kimi tələbini Şura İttifaqı Dağıstan Cümhuriyyətinə sui-qəsd hesab edir. Ona görə də, Şura İttifaqı düvəli-müəzzəməyə [böyük dövlətlərə], sabiq Rusiya qitəsindəki yeni təşkil edilən dövlətlərə Könüllü ordunun böylə həqşikənanə [hüquqazidd] tələbinə qarşı ciddiyyən protesto edir.

4) Dağıstan hökuməti rəisi ilə Könüllü ordu nümayəndələri arasında olan danışıq dağıstanlılar üçün arzu edilən nəticəni verməd iyi təqdirdə, Dağıstan Cümhuriyyəti hökumətinə ixtiyar verməl ki, Dağıstan istiqlaliyyətini Dağıstanı xətrə [təhlükə] altına salan könüllülərdən mühafizə etmək üçün ən ciddi tədbirlər ittixaz eyləsin [tədbirlər görsün] və cümhuriyyətin hər bir qüvvəsini səfərbərlik halına dəvət eyləsin.

5) İttifaq Şurası heyətindən cümhuriyyəti müdafiə üçün üç nəfərdən ibarət bir komissiya seçilsin. Bunlar İttifaq Şurası namindən cümhuriyyətdə olan bütün vətəndaşlara müraciətlə Könüllü ordu xətrəsini bildirib, fəxri Dağıstan milisiyası cərgəsinə daxil olmalarını təklif etməlidir.

Bu qərardaddan maəda [başqa], İttifaq Şurası Tersk oblast[ın]da olan hallar barəsindəki dakladı istema edərək zeyldəki [aşağıdakı] qərarı qəbul eyləmişdir:

1) Cümhuriyyət hökumətinə mühəvvəl edilir [tapşırılır] ki, Dağıstan Cümhuriyyətinin dövləti qulluğunda olanların hamısına təklif edilir ki, yeddi gündən gec olmamaq şərti ilə hökumətə sadiq qalacaqları və sədaqətlə cümhuriyyətə xidmət edəcəkləri xüsusunda imza versinlər.

2) Bilatəxir [dərhal] Dağıstan Cümhuriyyətinin İttifaq Şurasına yeni intixabat [seçkilər] üçün qanun layihəsi tərtib versin və bu layihə ilə Şuraya Dağıstan Cümhuriyyətinin bütün okruqlarından nümayəndələr intixab edilməlidir.

3) Dağıstan Cümhuriyyəti qulluğunda olanların həpsinə qəsəm [and] verilsin. Qəsəmnamə tərtibi hökumətə mühəvvəl edilmişdir [tapşırılmışdır].





## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

*(keçən nömrələrdən mabə'd)*

İnsanlar dünyada baqi [əbədi] həyat tapır və yaxşı ad qoyur və bu zikr olunan mətaliblərdə [mətləblərdə, işlərdə]: əvvəla, canını qəhrəmananə bir surətdə vətən yolunda fəda edə. Məsələn, Gəncəli Cavad xan. Həmin xanın mənsub olduğu Ziyad xan nəsli neçə əsrlərdən bəri Gəncədə hökumətdə olublar. Bu nəslin nümayəndələri içində bir tək Cavad xanın adıdır ki, ehtiramla yad olunur. Ondan irəlidəkilər və ondan sonra gələnlər adları tarixdən silinmiş kimi yaddan çıxmışlar, guya ki, heç bunlar dünyaya gəlib-getməyiblər.

Həmişəlik bu dünyada diridir əsil qələm və fikir sahibləri. Məsələn, Şeyx Nizami, Kəlbəli xan Ziyadxan və qeyriləri.

Üçümüncü, həmişə diridir ehsan sahibləri. Gəncə əhli əbədi unutmaz Hacı Mirqasım Həmzəzadənin ehsanı[nı] və onun ruhuna duaçı olar ki, həman şəxs vücudunun ali hümməti və zəkavəti səbəbilə həmişəlik dünyada yaxşılıqda bir ad qoydu. Məzkur [adı çəkilən] Hacı vəfat edib 1916-cı ilin yanvar ayında. İki il vəfatından irəli öz qardaşları ilə bahəm Gəncə şəhərində bir böyük əsaslı çeşmə binasını qoyubdur ki, camaat onun suyundan muzdsuz nəfbərdar olur [istifadə edir]. Bu şəxs əlsiz-ayaqsızların və biçarələrin dostu idi və həməvəqt [həmişə] onların dadına çatırdı. Yəqin demək olar ki, bu çeşmə əsasını qurmaq ilə Hacı Mirqasım özüyçün bir yadigar tikdi ki, onun üstündə Hacının şəkli həmişə ətrafa şəfəq salacaqdır. Məzkurun qardaşları Hacı Mirnağı və Hacı Mirxəlil bu işin tamamına səy etməkdədir. Bu suyun hər bir qətrəsi Gəncənin yay fəslinin nəhayətsiz isti günlərində Həmzəzadələrin ehsanını nəfbərdar olanların yadına salacaqdır. Müharibə hadisələri, zavodların truba və sair dəmir listlərinin sifarişini qəbul etməməyi hərçənd bu xeyir işi bir az təxirə salır isə də amma Həmzəzadələr bu işin tamam olmağına cidd-cəhd etməkdədirlər. Allah tövfiq versin [Allah kömək olsun].

Tarixi-ədəbiyyat [ədəbiyyat tarixi] həman yuxarıda zikr olunmuş qələm və fikir sahiblərinin adlarını həmişə göz qabağına çəkib gətirəcəkdir. Bu halda onların ruhu Azərbaycanın başının üstə fərəhnak [fərəhli, şad] duruban öz salamını göndərirlər o şəxslərə ki, özlərinin möhkəm, pak əllərində fəlakətdən qurtarmış vətənimizin bayrağı əsməkdədir.

Burada qeyd etməliyəm ki, Azərbaycan türk müəlliflərinin türk lisanında yazdıqları müxtəlif əsərlərindən savayı, bir çoxları da fars və ərəb lisanında yazılmışdır. Bunun da səbəbi türk ədəbiyyatının fars və ərəb mədəniyyətinin təsiri altında qalması olmuşdur. Kamalıyca münasibətə ümid tutmayıb mən istərəm bu barədə də türklər ilə Avropa millətləri arasında bir müqabilə [müqayisə] çəkəm. Kimsə inkar etməz ki, indiki firənglərin, almanların, ingilislərin Asiyadan Avropaya köçmüş əcdadları, yəni, qallar, tevtonlar, anqlosakslar Azərbaycan türk əcdadlarından daha vəhşi olmuşlardır. Bunların, yəni Avropa əcdadlarının atdan, nizədən, davadan, bir-birilə süpürüşməkdən savayı qeyri bir sə-

nətləri olmamaqla, yurdları da qəliz və qalın meşələr olmuş. Təbii onlar müqtədir və möhtəşəm Rum [Roma] padşahının hücumu qarşısında davam edəmmədilər. Hətta Qalliyanın Versingetoriks nam [adlı] məşhur qəhrəman və pəhləvanı bilaxirə [axırda] Rum ordusunun sərkərdəsi olan Yuli Sezarın xaki-payına [ayağına, ayağının torpağına] gəlməyə məcbur oldu. Rumların ordusu arxasınca onların Avropaya qanunları da hərəkət etmiş. Rumların qədimən hüquqşünaslıqları indiyədək zəmanəmizin ən müqtədir hüquqşünaslarını heyran etməkdədir. Rumların və o biri tərəfdən Avropaya yunanların nəqqaşkarlığı və ədəbiyyatı hərəkət eylədi. Və hərəkətilə Avropanın şimalında yaşayan əhalinin kobud təbiətlərini yumşaltdı. Türklər də Asiyada iki dənə mədəniyyət axıntısına düçar oldular. Bunların birincisi rumları əvəz edən ərəblərin mükəmməl hüquqşünaslığı, yəni şəriət qanunları, digəri isə yunanları əvəz edən İranın şeiri, qəzəli və gözəl ədəbiyyatı olmuşdur. Heç bir şair, hətta yunanın məşhur Homeri də "Şahnamə" müəllifi və İranın mədari-iftixarı [fəxri, qürur mənbəyi] olan şairi-şəhiri [məşhur şairi] Firdovsiyə bərabər ola bilməz ki, bu müqtədir dahinin qələmi-iqtidarı sayəsində Rüstəm pəhləvanın adı bütün aləmi-Şərqdə ölməz bir sima kimi yaşamaqdadır.

Firdovsi haqlı olaraq kitabının bir yerində yazır:

*Ke Rostəm yəli bud dər Sistan,*
*Mənəş kərdeəm Rostəme dastan.*

Əgər bir tərəfdən Firdovsi, qələminin qüvvəsilə öz istəkli pəhləvanı Rüstəmi ərşi-fələyə [göyə, göyün ən uca nöqtəsinə] qaldırıbsa da, o biri tərəfdən Mahmud şahı həman qələmin həcvi vasitəsilə sərnigun [baş aşağı, alt-üst] edib.

"Şahnamə"ni yazmaq barədə əhd olunmuş ücrəti verməmək səbəbilə qeyz məqamında Firdovsi buyurur:

*Əgər madəre şah banu bodi,*
*Məra sim o zər ta be zanu bodi.*

Əlbəttə türk milləti bu iki mədəniyyət axıntısına giriftar olduqları səbəbdən dillərində və ədəbiyyatlarında bir çox ərəbi və farsi sözlər vücuda gəlmişdir. Təfavüt ancaq burada oldu ki, Avropa milləti rum millətinin qabağında məğlub olmaqla latın və yunan mədəniyyətinin təsiri altında baqi qaldılar. Bizə gəldikdə, ərəb və farslara qalib olduğumuz halda, genə onların mədəniyyəti təsiri altında qaldıq.

Ədəbiyyat və şeirdən savayı, bu vaxtadək türk millətinin arasında nəsilbənəsil keçmiş çoxlu xalq nəğmələri, nağılları, tapmacaları, məsəlləri və bunlar kimi ağızdan-ağıza söylənən şeylər vardır. Bunların da ustadları və mühafizəçiləri xalqın sadə şairləridir ki, öz üçtelli sazları ilə indiyədək keçmiş zəmanənin qəhrəman pəhləvanlarının qəzavü-qədərlərini nəql edib, milli ruhumuza ayrıca ləzzət verirlər.

Mən burada xalq tərəfindən yaradılmış milli nəğmələrin üstündə dayanmaq fikrindəyəm ki, o da "Əsli-Kərəm"in aşiqanə hekayəsindən ibarətdir. Bizim türk xalqının təbii xəyalatı bu aşiqanə hekayətin qəhrəmanını Azərbaycanda Gəncə şəhərinin bir aileyi-xanvadəsinə [tanınmış bir soyuna] isnad edir. Bu aşiqanə hekayətdə təmiz türk sözlərindən savayı, coğrafi nöqteyi-nəzərlə də Azərbaycanın bir çox yerlərinin, məsələn Gəncə, Qarakeşiş və Murov dağı kimi adların olması və baxüsus hekayənin bir





yerində Kərəm öz adını Əli xan adlandırması aşkarən bu hekayənin sırf Azərbaycan türklərin[in] hekayəsi olmağı şəksizdir. Bu hekayədə nə cürə ki, nəql edilir Kərəm bir günləri hal-hazırda da Gəncənin yavuqluğunda, qiblə tərəfində olan Qarakeşiş kəndinə qızılquşnan ova çıxmış. İttifaqən həman kəndin yaxınlığında Əsli adlı bir gözəl və cavanə erməni qızına eşq yetirir. Qız da onu görcək ona məhəbbət göstərir. Əslinin atası Qara Məlik qızının Kərəmə aşiq olmağına acığı tutub dərhal qızını götürüb Anadoluya doğru qaçır. Kərəm də ata-anasını və vətənini tərk edib məhbubəsinin dalınca yollanır. Fəqət, axırda Qara Məlik onların nikahına bircə şərtlə razı olur. Əlbəttə, o şərt də Kərəmin öz məzhəbindən və millətindən əl çəkməsi şərti imiş. Bu şərt ortalığa gəldikdə, Kərəmin qəlbində iki eşqin bir-birilə mübarizə etməsi, yəni bir tərəfdən Kərəmin öz sevgilisi Əsliyə olan nəhayətsiz məhəbbəti, o biri tərəfdən də millətinə və məzhəbinə olan sədaqəti, eşqi onu başlayır yandırmağa. Bilaxirə [axırda] Kərəmdəki millət və məzhəb məhəbbəti digər eşqinə qalib gəlir və Qara Məliyin təklifini mərdanə qəbul etməyib rədd edir. Bu xüsusda aşiqlərin Kərəmə nisbət söylədikləri bir para aşiqanə şeirlərindən nümunədən ötrü yazılır:

*Bir gül idim Ziyad xanın bağında,*
*Bülbüllər oxurdu sağımda, solumda.*
*Qara Məlik, gəl eyləmə yamanlıq,*
*Bu əhdi-iqrardan dönmək olarmı?*
*Həya eylə, utangilən sözündən,*
*Kəbə-beytullahdan dönmək olarmı?*

(yenə var)

*Adil xan Ziyadxan*

*Ədəbi sütunlar*

## BAHARIN İLHAMLARI VƏ İCTİMAİ RƏMZLƏR

**- 1 -**

*Təsiri əyan olmadadır fəsli-baharın,*
*Şad eyləyəcək dilləri əlhanı həzarın.**
*Cəh-cəh edəcək şairi-mürğani-xoşəlhan,*
*Bu nəğməyə qarşı rüxi-gül olmada xəndan.*
*Çünki gəliyor ərzimizə eydi-təbii,*
*Dünya geyəcək kisveyi-səbzini-rəbii.*
*Canlandıracaq toprağı ərvahi-bahari,*
*Ciddən nigəh-əfruzdur əlvahi-bahari.*
*Aləmdə zühur etmədədir nəş'əti-üxra,*
*Bir nəş'əti-üxra ki, səzavari-tamaşa.*
*Bir nəş'əti-üxra ki, təbiətdə əyandır,*
*Gülzarda, əzharda, fitrətdə əyandır.*
*Simayi-dirəxşandeyi-xurşidi-səmadən*
*Nur əmdiyi üçün doğacaq dilbəri-gülşən,*
*Əş'ar oxuyor pişgəhi-qönçədə bülbül,*
*Guya ki, deyir qönçəyə: ey qönçə, açıl, gül!*
*Gül, gül: mənə ilham qıl əş'areyi-rəngin,*
*Dərpərdə neçin qalmalı rüxsareyi-rəngin?!*
*Güllər açılır səhneyi-səbzini-çəməndə,*
*Parlar o çiçəklərdə birər xəndeyi-zində.*
*Rüxsari-gülü bus ediyor xəndeyi-əhmər,*
*Ey gül-dəhənim sən nə üçün böylə mükəddər?*
*Halən də tülu etmədimi fəsli-baharın?*
*Ey canlı çiçək, örtülü qalsınmı üzarın?*
*Aç çöhrəni, ey çöhreyi-məsturü-füsunkar,*
*Ey qönçə-dəhən, açmağa layiqdir o rüxsar!*
*Hər şeydə əyan nəş'əti-üxrayi-təbii,*
*Bürhanı bunun: fəsli-dilarayi-təbii.*
*Ya səndə neçin yox belə bir nəş'əti-üxra?*
*Ey "Gülrüx"üm, ey "Cənnət"im, ey ruyi-"Gülara"!*
*Şair də sənin bülbülün, amma ki, sükundar,*
*Göstər üzünü, xəlq edəyim mən dəxi əş'ar.*

* "həzar", "həzaran", "həzar-dastan" – əndəlibi-xoşəlhanın əsamisidir [gözəl səsli bülbülün adlarıdır].

*"Güllər" açacaq olmaz isə bülbül önündə,*
*Bülbül yaradar zənn edəməm nağmeyi-zində.*
*Ey şe'r pərisi, yetər artıq o niqabın,*
*İştə şu hicabın, şu niqabın, şu səhabın!*

*Əbdülsəlimzadə Məhəmməd Hadi*
*Bakı, 6 aprel 1919*

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Daxiliyyə nazirinin Bələdiyyə İdarəsinə borc təriqi [yolu] ilə yüz min rublə buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət təhti-ixtiyarındakı 20 milyon fonddan Bələdiyyə İdarəsinə verilmək üçün yüz min rublə buraxılsın.

- Maliyyə nazirinin dövləti pulların xəzinədə saxlanılması və xüsusi olaraq hesabı saxlanılması barəsindəki məruzəsindən sonra qət edilmişdir:

1) Maliyyə nazirinin təklifi təsdiq edilsin.

2) Maliyyə nazirinin xüsusi hesab barəsindəki təklifi təsdiq edilsin.

3) Maliyyə nazirinə tapşırılsın ki, birinci və ikinci maddə üçün xüsusi nizamnamə tərtib verilmək üçün lazımi binagüzarlıqda bulunsun [lazımi addımları atsın].

- Ərazi nazirinin Kür çayı kənarlarındakı suyun önünü alan hasarların təmiratı üçün para təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən altı yüz qırx bir min paradan təcili surətdə lazım olduğu üçün hökumət təhti-ixtiyarındakı iyirmi milyon fonddan Ərazi nazirinə iki yüz min rublə buraxılsın. Fəqət, Məclisi-Məbusan tərəfindən qanun layihəsi təsdiq edildikdən sonra işbu məbləğ qaytarılmalıdır.

- Ərazi nazirinin Şəki şəhərini dağ sellərindən mühafizə etmək üçün məbləğ təxsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Həman qanun layihəsini təsviblə [bəyənməklə] tapşırılsın ki, təsdiq üçün Məclisi-Məbusana idxal edilsin. Bundan ötrü lazım olacaq 211.000 rublə hökumət təhti-ixtiyarındakı 20 milyon fonddan halhazırda buraxılsın. Fəqət, qanun layihəsi təsdiqindən sonra məbləğ qaytarılmalıdır.

- Maliyyə nazirinin Bakı xəzinəsindən maaş alanlara 1918-ci sənənin 1 sentyabrınadək keçmiş maaşı vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Təklif rədd edilsin.

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Ermənistan yolları üçün neft buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hər ay ümum əsas üzrə Ermənistan yolları üçün beş min put neft buraxılsın. Fəqət, bu şərtlə, Ermənistan təriqi [yolu] ilə Azərbaycana aparılan və yaxud Azərbaycana gətirilən mallar azad buraxılsınlar.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

### Məsai Nəzarətində

Fəhlə məsələlərinə baxan xüsusi müşavirənin 8 nisan saat 5-də Məsai Nəzarətində [Əmək Nazirliyində] iclası təyin edilmişdir. Müzakirə ediləcək məsail [məsələlər]:

1) Kəsbkarlar İttifaqı layihəsi;

2) Fabrika və zavod komitələri layihəsi.

- Hürriyyət bayramı 12 mart münasibətilə edilmiş tətil üçün bir çox müəssisə və firmalarda fəhlələrin məvaciblərindən o günün hesabını çıxırlarmış. Bütün dövləti müəssisə və firmalara elam edilir [bildirilir] ki, 12 mart dövləti bayram olduğu üçün heç kəsin məvacibindən çıxıla bilməz. Çıxılmış pullar fəhlələrə qaytarılmalıdır.

## BAKI XƏBƏRLƏRİ

* Nisanın 3 və 4-də Bakıya gətirilmiş ərzaq:

Buğda 4876 put;
Un 2420 put;
Arpa 3584 put;
Saman 2613 put;
Odun 240000 put.

### 1 May bayramı

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsi tərəfindən 1 May bayramının ümumi və beynəlminəl bir füqərayi-kasibə [proletar] bayramı olduğu nəzərə alınaraq, həman günü tətil etməklə bərabər, bayram saxlamaq təhti-qərara alınmışdır.

### Həmkarlar ictiması haqqında

5 aprelə təyin edilmiş olan Həmkarlar İttifaqı ictimasının [yığıncağının] ümum Zaqafqaziya deyil, fəqət Bakı qeyri-müsəlman təşkilatları tərəfindən çağırıldığını və buna Dağıstan, Zakaspi, Zaqafqaziya rəngi verilib də, Azərbaycan adının çəkilməməsi və bu ictimaya Gürcüstan demokratiyasının iştirak etməməsi nəzərə alınaraq, Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Bakı Komitəsi tərəfindən həman ictimaya iştirak edilməməsi təhti-qərara alınmışdır.

### Keşlədə

"Müsavat" firqəsi Keşlə şöbəsinin bugünlərdə vaqe olmuş [baş tutmuş] ümumi iclasında şöbəyə heyəti-idarə və rəyasət intixab edilmişdir [seçilmişdir]. Sədrliyə Möhsün Kazımov, müavinliyə Baladadaş Vəlizadə, katibliyə isə Mirzə Süleyman Axundzadə, xəzinədarlığa Məşhədi Hüseynqulu Quluzadə seçilmişdir.

### İran Maarif Cəmiyyəti

Bugünlərdə bir neçə həvəskar ziyalılar yeni bir maarif cəmiyyətinin təşkilinə hazır olmuşlar. Bu cəmiyyət maarifdən məhrum qalmış iranlı həmvətənlərimizin tərəqqi və təalilərinə [inkişaflarına] yardım edəcəkdir. Vətənimizin pərişanlığı maarifə iştiyaq [həvəs] edən cavanlarımızın fikrini büsbütün pozmuşsa da, yenə təbii vətənpərəstlik qəhri, millətpərvərlik zənnimizcə məhv olub getməyəcəkdir.

Binaənileyh [ona görə], ümum həmvətənlilərimizə bu müqəddəs təşkilatın cüz'ündə üzv olmağı tövsiyə edəriz.

Maarifə xidmət etmək arzusunda olan çalışqan gənclərimiz Qubernski küçədə (37 nömrədə) "İttihadi-İraniyan" məktə-

bində saat 9-dan 2-ə qədər yoldaşımız Hacı müəllim Cəfərzadə cənablarına müraciət edə bilərlər.

*Heyəti-mütəşəbbisə [Təşəbbüs heyəti]*

**Pulemyot tutulması**

Bakı qalabəyisi [komendantı] qubernatora məlum edir ki, Göyçay uyezdi İvanovka kəndi əhli Vasili Vasilyeviç Kazakov, Semyon İvanoviç Dubrovin və Nikolay Savileviç Vlasov iki dənə pulemyot saxlamaqda müqəssir hesab edilərək bir ay müddətə həbsə alınmışlardır. Qubernatorun əmrinə görə məzkur [adı çəkilən] şəxslərin cəzası üç aya qədər uzadılmışdır.

## ƏRZAQ İŞLƏRİ

- Ərzaq Nəzarəti Kəndlilər İttifaqı Cəmiyyətinə kəndlərdə əhaliyə paylamaq üçün ikinci dəfə olaraq min put düyü, beş yüz put kişmiş və iki yüz put lobya buraxmışdır. Təmizlənmiş düyünün girvənkəsi dörd rublə əlli qəpikdən, kişmiş üç rublə əlli qəpikdən, lobya iki rublə əlli qəpikdən təqsim olunacaqdır [paylanacaqdır]. Binaənileyh [ona görə], ətraf kənd əhalisi Kəndlilər İttifaqına müraciət edib, məzkur [deyilən] şeylərdən öz hissələrini istəsinlər.

- Sabunçu El dükanı Ərzaq Nəzarətinə müraciət edib, əhaliyə paylamaq üçün 20 put küncüt yağı, 50 put kişmiş, 52 put təmizlənmiş düyü və 50 put da lobya istəmişdir. Ərzaq Nəzarəti məzkur şeyləri cəmiyyətə buraxıb, küncüt yağının girvənkəsini 18 rubldən, qalan ərzaq şeylərinin də əvvəlki qayda ilə buraxılmasını xəbər vermişdir.

## FƏHLƏ HƏYATINDAN

Cümə günü aprelin 4-də Binəqədi "Narodnı dom"unda [Xalq evində] Binəqədi mədən dairəsi əmələləri və kəndçilərin iclası vaqe olmuşdur [baş tutmuşdur]. İclas açıldıqda Piri Mürsəlzadə əhvali-hazirə haqqında bəyanat vermişdir. Bədəhu [sonra], iclasda bir çox məsələlər müzakirə edilmişdir. O cümlədən, su məsələsi müzakirə edilib böylə qərardad edilmişdir ki, hərgah üç gün müddətinə qədər Binəqədiyə su gətirilməzsə, ümum əmələlər tətil edəcəklərdir. Bugünlərdə Şişə [Şuşa] şəhərində Azərbaycan ordusunun rus və müsəlman afiserləri [zabitləri] əski üsuli-idarə tərəfdarı olaraq irticai nəğmələri oxumaları kimi qəmli hadisəni müzakirə edərək, qərardad edilmişdir ki, afiserlərin böylə xainanə hərakatına qarşı ciddi surətdə protesto edilib, tezliklə gənc ordunun böylə müzirr [zərərli] şəxslərdən təmizlənməsi hökumətdən tələb edilsin. Bundan sonra "Narodnı dom"un yenidən düzəlməsi müzakirə edilmiş və bu barədə dəxi qətnamə çıxarılmışdır.

## AZƏRBAYCANDA

**Qusar nahiyəsindən**

Məşhur millətpərəstlərimizdən Quba qəzası daxilində Xuluq qəryəli [Xuluq kəndindən] maarifpərvər Hacı Cavad Vəlibəyzadə 11 mart 335 tarixində məktəbi təşrif edərək camaat hazır olduğu halda şagirdana [şagirdlərə] qarşı bərvəchi-ati iradi-nitq etmişlərdir [aşağıdakı kimi nitq söyləmişlər]:





"Övladlarım, həmd olsun sizin bu gün sinninizlə [yaşınızla] bərabər elminiz dəxi böyümüş olduğundan, sizə çocuq nəzəri ilə baxmaq olmaz. Zira siz dördüncü və üçüncü siniflərdə bulunursunuz. Binabərin [buna görə], söyləyəcəyim sözlərə eyicə diqqət etməniz və ona görə hərəkət etməniz lazımdır. Şimdiyə qədər çocuq olmuşsunuz, məlumunuz olmamış. Fəqət, şimdi təhsil sayəsində bilir və bilmişsiniz ki, bu biçarə Xuluq camaatı, daha doğrusu sizin babalarınız 15 sənədən bəri zalım Nikolayın zülmü altında gizli bir məktəb vücuda gətirmişlərdir. Sinniniz müsaid olmadığı üçün məktəbimizin neyçün gizli olduğunu dərk edəməyəcəksiniz. Ancaq mən sizə səbəbini bəyan edəyim. Biz müsəlmanların intişarı [yayılması] tarixin əvaxirinə [axırlarına] təsadüf edir. Son zamanlarda gələrək az müddətdə intişar edən və 400 milyonluq bir kütlə hasil edən müsəlmanlardan digər millətlər istiqbalda [gələcəkdə] xof etdikləri üçün daima onları, yəni biz müsəlmanları təhsili-elmdən mən etmişlərdir [uzaq saxlamışlardır]. Zira, tərəqqi və təali [inkişaf, ucalma] elmlə olduğundan şübhə olmadığı üçün bizi də sərbəstcə təhsili-elmə buraxsaydılar, az zamanda şübhəsiz ki, biz müsəlman milləti dünyaya hakim olardıq. Binaənileyh [ona görə], yalnız biz Rusiya müsəlmanları deyil, bütün dünyadakı müsəlmanlar bu bəlaya giriftar olmuşlardır. Fəqət müharibeyi-hazireyi-ümumiyyə [hazırkı ümumi müharibə] zalım, qəddar hökmdarların bəzisini münqəriz [məhv], bəzisini dəxi aciz bir hala gətirdiyi üçün onların pənceyi-qəhri altında yaşayan bizim kimi millətlər dəxi mövcudiyyətlərini isbata qalxışaraq, istiqlaliyyətlərini elan etməyə başladılar. İştə miləli-məzkurədən [deyilən millətlərdən] biri dəxi biz Azərbaycan millətiyiz ki, kəndi istiqlaliyyətimizi elan, kəndi hökumətimizi təşkil etdik.

İstiqlaliyyət nədir? İstiqlaliyyət kəndi-kəndini idarə etmək, başqa millətin idarəsinə tabe olmamaq və hökumət kəndi millətindən olmaq deməkdir ki, bizim də hökumətimiz şimdi Azərbaycan millətindən seçilmiş məbuslar və o məbuslar tərəfindən intixab edilmiş [seçilmiş] nazirlər vasitəsilə icra edilir. Həmd olsun, hökumətimizin əsası hürriyyət, ədalət, müsavat qaydasına tövfiqən [uyğun] vəz edilmişdir [qoyulmuşdur]. Fəqət, balada zikr etdiyimiz vəchlə [yuxarıda dediyimiz kimi], millətimiz avam olduğu üçün millət arasında təxrib mikrobları milləti zəhərləyərək istiqlaliyyətimizə mane olmaq, gözəl hürriyyətimizi, parlaq günlərimizi qərəzi-şəxsilərinə qurban etmək istəyərək, başqa dürlü təfsir edirlər [yozurlar]. Halbuki, siz biliniz və nasıl ki, coğrafiyada oxumuşsunuz, şimalən Samur nəhrindən büd edərək [başlayaraq], cənubən Şimali İran dəxi daxil olmaq üzrə Azərbaycan təsmiyə edilir [adlanır] və məzkur yerin üzərində yaşayan millətlərə dəxi Azərbaycan milləti namı [adı] verilir.

Millətimiz silki-cəlili-əsgəridən [şanlı hərbçilər təbəqəsindən] daima xof edirlər, halbuki əsgər olmasa, bir millət irz və namusunu nə ilə mühafizə edə bilər? Nasıl bir sənə bundan müqəddəm [qabaq] gözümüzlə gördük, başımıza gəldi, həman işlər yenə ola bilər. Binaənileyh, siz bu kimi işlərə meydan verməyərək, daima hökümətimizin əvamirinə müti olmağa [əmrlərinə itaət etməyə] diqqət edin və o

mikrobların məhvinə çalışın. Yaşasın Azərbaycan!"

Şagirdan və camaatdan bəzilər "Biz istiqlaliyyətimizə mane olan mikrobları daima məhvə çalışaraq, onlarla daima düşməniz və onları heç bir zaman istəməyiz. Ümid edəriz ki, onlar da dərk edərək, onlar da çalışarlar. Yaşasın Azərbaycan hökumətimiz! Yaşasın istiqlalımız!" deyə, cavab verdilər.

*Xuluq məktəbi-rüşdiyyəsi müdiri:*
*Məhəmməd Şərif*

**Qarabağ haqqında İngiltərə əsgəri heyətindən**

*(Rəsmi məlumat)*

İngiltərə komandanlığı bütün Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdləri [qəzaları] əhalisinə icbari surətdə əməl etməkdən ötrü elan edir ki:

1) 1919-cu il martın 10-dan Azərbaycan Hökumətinin qətnaməsinə görə doktor [Xosrov bəy] Sultanov Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdlərinə general-qubernator təyin edilib, İngiltərə komandanlığının müavinətindən [dəstəyindən] istifadə edir.

2) Davam edən qanunlar mövcibincə [qanunlara əsasən] bütün əhalinin ehtiyacını bilkülliyyə rəf etməkdən [tamamilə aradan qaldırmaqdan] ötrü general-qubernator nəzdində altı nəfər müsəlman və ermənidən ibarət bir şura təşkil edilir.

3) İngiltərə komandanlığı nümayəndəsi sifəti ilə həmin şuraya İngiltərə heyətindən bir zabit daxil ola bilər.

4) General-qubernatorluq dairəsində olan xidmətçilərin məvacibi və başqa xərclər Azərbaycan Hökuməti xəzinəsindən verilir.

5) Hamı mübahisəli məsələlər Sülh Konfransında həll ediləcəklərdir.

6) General-qubernatorluq dairəsində olacaq əsgəri qitəat hərəkatı [hərbi hissələrin hərəkatı] əvvəlcədən İngiltərə heyətinə xəbər verilməlidir.

7) Bu məlumatla İngiltərə Hökuməti göstərir ki, general-qubernatorluq dairəsində qanun və asayişi qorumaqdan ötrü general-qubernatora həvalə edilən vəzifələrə əməl edilən zaman general-qubernator tərəfindən və onun təşkilatlarından verilən hər bir əmrlərə, tədbirlərə bilatərəddüd [tərəddüdsüz] əməl etməlidir. İngiltərə komandanlığı hər bir qanuni tədbirlərə müavinət edəcəkdir.

*Bakıda olan İngiltərə qüvvəsi*
*komandanı polkovnik D. Şattlvort*
*3 aprel 1919 sənəsi, Bakı*

**Şuşa Müdafieyi-Milliyyə Heyəti tərəfindən**

Müdafieyi-Milliyyə Heyəti-İctimaiyyəsi [Milli Müdafiə İctimai Heyəti] bununla ümum şəhər və qəza camaatına elan edir ki, Türk hökuməti şəhərimizdə hökumət etdiyi vaxt özü üçün neçə nəfərdən mürəkkəb [ibarət] köməkçi və yaxud xəzinədar götürdüyü sırada əvvəl dəfə olaraq özünə xəzinədar qərar verdiyi Saleh Hüseynov, ikinci olaraq İsgəndər Nəsirov isə, üçüncü Seyid Məşhədi Zülfüqar Axundov olub da, Türk ordusu Qafqazdan çəkilənə kimi yox, bugünə kimi öz xəzinədarlığında davam etdiyindən, Müdafieyi-Milliyyə Heyəti-İctimaiyyəsi Hilali-Əhmər [Qırmızı Aypara] cəmiyyəti ilə bərabər lazım və vacib bildi ki, bir dəstə müfəttiş komissiyası təşkil etsin. Həmin niyyəti qövldən feilə [sözdən işə] gətirib, zeyldə mühərrər [aşağıda yazılmış] 9 nəfərdən ibarət bir müfəttiş komissiyası təşkil etdi.

İştə müfəttiş komissiyası: doktor Fərhad bəy Ağayev, doktor Tağı Kərimov, Kərbəlayi Ələkbər bəy Səidbəyov, Məşhədi Məcid Süleymanov, İsa Səfərov, Məşhədi Məhəmmədəli Hüseynov, İsmayıl Hacıyev, Məşhədi Şirin Ələsgərov və Murtuza Əsədov.

Balada mühərrər [yuxarıda yazılan] komissiya iki gecə – ki, ibarət olsun rəbiülaxir ayının 4-5-ci gecəsindən, artıq diqqət və etina ilə məzkur Məşhədi Zülfüqarda olan istər hökumət binagüzarlığı [sərəncamı] ilə olan mədaxil-məxarici, istər müdafieyi-milliyyə [milli müdafiə] üçün toplanan pulun və sərfinin haqq-hesabını layiqincə verdikdən əlavə, neçə rəqəm və neçə rəqəm də 20 min manatdan ziyadə balada mühərrər Məşhədi Zülfüqarın əlindəki, camaatdan bir kimsədə belə xəbərdar olmadığı hesabı göstərib, təyin etdiyimiz müfəttiş komissiyası haqq-hesabın artıq dərəcə müntəzəm olduğundan dolayı şəhərimizdə əvvəl dəfə olaraq bu cür müsəlman içində hesabi-layiqli apardığını gördükdən, izhari-təşəkkür etməklə bərabər, Məşhədi Zülfüqardan məmnun qaldıqlarını məclisə təqdim etdilər.

Məclis 62 nömrəli Müdafieyi-Milliyyə Heyəti-İctimaiyyəsi məzbətəsində [protokolunda] qeyd etdiyindən əlavə olaraq, Məşhədi Züldüqardan ihzari-təşəkkür edib də və camaata elan etməyi lazım və vacib bildi.

*Müdafieyi-Milliyyə Cəmiyyətinin*
*sədri: Kərim Mehmandarov*
*Katib: Zeynalabdin*

**Salyandan**

Salyan əxzi-əsgər [hərbi çağırış] şöbəsi Salyan və ətrafından hənuz [hələ, hal-hazırda] əsgər toplamaqla məşğul bulunur və toplanan əsgərimiz peydərpey [bir-birinin ardınca] Salyana təhşid olunur [yığılır].

Bugünlərdə Salyana tabe Xıllı qəsəbçəsi camaatından martın 20-də bir qədər əsgər toplanmışdır. Bura mötəbəranından [mötəbər şəxslərindən] Mehmanov cənabları kəndi bağçasında bir müşayiət məclisi tərtib edərək həm əsgərləri və həm də qəsəbçə rüəsasını [başçılarını] məclisə dəvət etmişdir. Məclisdə əklü-şürb bə'dində [yemək-içməkdən sonra] axund Molla Ağababa Axundzadə cənabları əsgərliyə və onun vəzaifi-müqəddəsəsinə [müqəddəs vəzifələrinə] dair müfəssəl bir nitq irad edərək [nitq söyləyərək] əsgərlərə dua etmişdir.

Bundan sonra əsgərlərin miyanında [arasında] ələttəsavi təqsim olunmaq [bərabər surətdə bölünmək] üzrə atidəki zəvat bərvəchi-zir [aşağıdakı şəxslər bu qaydada] ianə etmişlərdir:

Mehman Mehmanov 1000 manat, Əbdürrəhman Mehmanov 500, axund Molla Ağababa 225, Adil 200, Məşhədi İsrafil 200, Mirmustafa 200, Kərbəlayi Fətulla 200, Xəlil 200, Eyvaz 200, Məşhədi Əlibala 200. Sairləri də 100-dən 50 manata qədər ianə etmişlərdir ki, məcmusu [cəmi] 6400 manat bir yekun təşkil etmişdir.

Bundan əlavə, Xançobanlı (Astanlı) camaatından əsgər toplana bilmişdir. Məzkur [deyilən] camaat dəxi Xıllıya mütabəətən [onlara uyaraq] 12000 manat toplamışdır və əsgərlər miyanında müsavi

olaraq təqsim etmişlərdir [əsgərlər arasında bərabər bölmüşlər]. Fövqəlzikr [yuxarıda deyilən] ianənin 4000 manatını yalnız Hacı Əziz cənabları vermişdir.

İştə inqilabdan şimdiyə qədər Salyan və ətraf islamları hər bir işdə olduğu kimi əsgər verməkdə və əsgərlərimizə maddi və mənəvi ehtiram etməkdə də sair islam qardaşlarımıza nümuneyi-imtisal [timsal] olurlar. Salyana toplanmış əsgərlər martın 27-də məvaqeyi-aidəsinə sövq və təhşid ediləcəkdirlər [aidiyyətli yerlərə göndəriləcək və yığışacaqlar] ki, bu xüsusdakı məlumat sonra olacaqdır.

*[Rüstəm] İskəndərzadə*

**Lənkərandan**

15 mart. Muğan əsgərləri şəhərə varid oldular [gəldilər]. Şəhərdə olan əsakir [əsgərlər] onlara təslim olub bəzisi xəl'i-əsləhə olundular [tərksilah edildilər]. Dün Makarov Bakıya gedib, onun qoşunu da dağıldı.

Şəhərin əhalisi, hərçənd, onun qoşununun etdiyi təəddi [qanunsuzluq; insafsızlıq] və zülmündən xilas oldularsa, lakin biçarə müsəlmanlar yağışdan çıxıb yağmura düşdülər. Xaxolların gələn vaxtından gün-gündən zülmləri və qarətləri artır. Hər gün dükanlardan arpa, düyü və qeyrə cəbrən götürüb aparılır. Keçən gecə Yetirmalay mehmanxanasına gedib oradan 25 min manata qədər şərab oğurlayıblar.

16 mart. Üç nəfər xaxollardan gündüz saat 12 radələrində Böyük Bazara gedib, təqsirsiz Yəhya Axundovun dükanına girib, onu hədələyib 3200 manat pulunu alıb, üzündən və əlindən xəncərlə yaralayıblar.

18 mart. Gecə zaat 2-də Kiçik Bazarda saldatlar tərəfindən Məşhədi Ruhulla Qasımovun dükanın sındırıb, onun arpa və ununu apardılar. Zərər 5 min manata baliğdir [çatır].

Qaçaq Yunisin yerinə Zuvand mahalına komissar təyin olunan məşhur Qaçaq Məhəmməd 24 mart[da] Lənkəran şəhərində (meydanda) camaat içində güllə atmağa başlarkən 3 nəfər müsəlmana güllə dəyib, ikisi ağır yaralanıb, bunlardan Mirzəağa Ağarza oğlu filfövr [dərhal] qətlə yetişdi.

*T. Bayraməlibəyov*

## AZƏRBAYCAN-ERMƏNİSTAN MÜNASİBATI

Ermənistan siyasi heyəti Qarabağ məsələsi haqqında Ermənistan Xariciyyə nazirinin çəkmiş olduğu teleqrafının surətini Azərbaycan Hökumətinə və İngiltərə komandanlığına general Tomsona göndərmişdir.

**Tomsonun Ermənistana təklifi**

Ermənistan siyasi heyəti general Tomsonun martın 14-də Ermənistan Hökumətinə göndərdiyi müraciətnaməsinin surətini almışdır. Bu müraciətnamədə general Tomsonun sədarəti altında üç cümhuriyyət nümayəndələrindən (hər cümhuriyyətdən iki nəfər) ibarət cümhuriyyətlər arasında olan ixtilaflı sərhəd məsələlərini həll etməkdən ötrü konfrans çağırılması təklif olunur. General Tomson böylə bir təkliflə Azərbaycan və Gürcüstan hökumətlərinə də müraciət etmişdir.





**Cümhuriyyətlər arasında yük nəqliyyatı**

Siyasi heyət iki cümhuriyyət arasında yük nəqliyyatı haqqında hazırlanan ticarət müqavilənaməsini Xariciyyə nazirlərinə və Ticarət-Sənaət nazirinə göndərmişdir.

**Poçta-teleqraf münasibatı**

Azərbaycan ilə Ermənistan arasında olan poçta-teleqraf müahidənaməsi [sazişi] bu günlərdə imza ediləcəkdir.

**Daşnaklar arasında nifaq**

"J. D." qəzetəsi xəbər verir ki, sol daşnaklar sağ daşnakların macəraculuqları [avantüristlikləri] əleyhinə qalxmışlardır. Qalibiyyət sağlar tərəfindədir. Çünki “mauzer”lilər onların dalınca getməkdədirlər.

**Erməni nümayəndəsi Şuşada**

Erməni Teleqraf Acentəliyi aprelin 4-də xəbər verir ki, Ermənistan Şurayi-Vükəlasının [Nazirlər Kabinetinin] qətnaməsi və Baş komandan general Tomsonun razılığına görə Mixail Arzumanov Şuşada İngiltərə komandanlığı nəzdində erməni siyasi nümayəndəsi təyin edilmişdir.

## GÜRCÜSTANDA

**Ömər Faiq Əfəndinin yenidən həbsi**

Tiflisdən Azərbaycan Məclisi-Məbusanı üzvü Səməd ağa Ağamalıoğluna və idarəmizə böylə bir teleqraf gəlmişdir: *"Aprelin 2-də Ömər Faiq əfəndi Gürcüstan Hökumətinin əmrinə görə yenidən həbs edilib, Metex qalasına salınmışdır."*

**Qafqaziya konfransı**

Gürcüstan Xariciyyə Nəzarəti xəbər verir ki, Tiflisdə Qafqaziya konfransı dəvət edilməsi haqqında hamı cümhuriyyətlər arasında saziş hüsula gəlmişdir. Aprelin 23-də konfransın açılması təsəvvür olunur. Konfrans iclasları Xariciyyə Nəzarətində vaqe olacaqdır.

**Təbrizə qədər qatar**

Tiflisdən Təbrizə qədər dəmiryol hərəkatı başlanması məsələsi bu günlərdə həll ediləcəkdir. Hələliyə həftədə iki qatar buraxılması təsəvvür olunur. Tiflisdən Təbrizə qədər bilet qiyməti 250 rublə olacaqdır.

**Türkiyə konsulunun həbsi**

Tiflisdə "Orient" mehmanxanasında yaşamaqda olan Türkiyə sabiq konsulu Həsən bəy İngiltərə əsgəri komandanlığı tərəfindən həbs edilmişdir.

**Artvin və Ardanuçda**

Türklər getdikdən sonra Artvin və Ardanuç rayonlarında məhəlli [yerli] müsəlman nümayəndələrindən ibarət şuralar əmələ gəlmişdir. İngiltərə komandanlığı oraya biri rus, digəri erməni, iki uyezdni naçalnik [qəza rəisi] təyin etmişdir. Məzkur [deyilən] şuralar onlara tabe olmaqdan imtina etmişlərdir. Bu günlərdə general-qubernator Kukuelis oraya varid olub şuraların təzə uyezdni naçalniklərə tabe olmasını qəti surətdə tələb etmişdir. Şuralar cavab vermişlər ki, onlar İngiltərə nümayəndələrinə tabe olmağa hazırdırlar, fəqət heç bir halda ruslara və ermənilərə tabe olmazlar. Orada ingilis saldatı yoxdur, ancaq Artvində 50 nəfər vardır.

**Qaçqınlara yardım**

Bilafərqi-millət [millət fərqi qoymadan] qaçqınlara müavinət etməkdən ötrü aprelin 2-də Amerikadan Tiflisə 40 nəfər şəfqət bacısı və qeyri mütəxəssislər varid olmuşlardır [gəlmişlər]. Bu dəstə ilə bərabər "Tayms" qəzetəsi müxbiri kapitan Benet də gəlmişdir.

**"Şimali Qafqaziya" qəzetəsinin qapanması**

Rus dilində Tiflisdə nəşr olunan "Şimali Qafqaziya" (Severnı Kavkaz) qəzetəsi Dağıstan Hökumətinin binagüzarlığı [təşəbbüsü] ilə dayandırılmışdır.

**Gürcüstan sülh heyətinin vürudu [gəlişi]**

Gürcü sülh heyəti üzvlərindən bir paraları aprelin 2-də İstanbuldan Tiflisə övdət etmişlərdir [qayıtmışlar]. O cümlədən, Nikoladze, Robakidze, professor Cavaxişvili, Qambaşidze, Zurabişvili, general Odişelidze və qeyriləri.

**ŞİKAYƏT**

Müdiri-möhtərəm!

Kamali-ehtiramla xahiş edirəm ki, zeyldəki [aşağıdakı] mətləbi qəzetənizin bir guşəsinə dərclə qareinə ixbar edəsiniz [oxuculara xəbər verəsiniz].

Hürriyət günəşi tülu edərkən [doğarkən], cəmi miləl və təvaif [millətlər və tayfalar] öz mətalibi-aliyyə və məqasidi-mühümmələrinə [ali mətləblərinə və vacib məqsədlərinə] nail olmaq ümidi ilə yaşayırlar. Xüsusən, Rusiya torpağında mərkəzi-islam olan Qafqaz əhaliyi-islamiyyəsi öz arzularına nail olmuşuq, deyə uçurlar. İslam bayrağının ucalmasına və Azərbaycan Hökumətinin təşkil edilməsinə təşəkkür edib, öz ürəklərində olan üqdənin [düyünün, çətinliyin] həll olmasını rica edirlər. Yüz illərlə Nikolay zülmündən məhv olmuş şəriəti-müqəddəsənin islam qüvveyi-cəbriyyəsi [məcburedici gücü] ilə icra edilməsini rüəsayi-hökumətdən [hökumət başçılarından] kamali-əcz ilə [acizanə] iltimas edirlər.

Məlumdur ki, qüruni-maziyyədə və əyyami-haliyyədə [keçmiş əsrlərdə və indiki zamanda], hər dövrdə hökumət və şəriət tövəm [əkiz] yaşayıblar və şəriətin əhkamı [qanunları] o zamanənin hökumətinin tərvic [rəvac verməsi] və himayəsi ilə icra edilib də, o hökumətin və şəriətin əhli dünya və axirət səadətinə nail olublar. Bəs bir belə zamanda ki, bihəmdülillah hökumət – islam və iş başında bərqərar olanlar – müslimin və əhkami-şəriətə dara [şəriət qanunlarının bilicisi], köhnə hökumət vəz edən qanun ki, xilafi-şər'i-dini-islamdır [islam dininin qaydalarına ziddir] və avamünnas [xalqın cahil qismi] eyni zamanda onu cari [icra] edirlər. Məsələn, arvad götürüb qaçmaq və iddə içində olan övrəti xətibə etmək [nişanlamaq] və ya ki qız götürüb qaçmaq ki, baisi-ədavət və fəsad və xunrizlikdir [düşmənçiliyə, fitnəyə və qan tökülməsinə bais olur]. Bəlkə demək olar ki, əgər bu iki şeydən bu səfəhatda [bu tərəflərdə] olmasa, heç bir fitnəvü-aşub [fitnə-fəsad] bu yerlərdə əmələ gəlməz. Lihaza [ona görə], kamali-əcz və təhəqqürlə [acizanə təzim edərək], uca olan hökumət ağalarından və şeyxülislam və müftü həzrətlərindən rica olunur ki, bu işə cilvəgir olmağı [xüsusi nəzər yetirməyi] uyezd və





uçastka və kəndistan hakimlərinə elan etsin.

O vaxtdan ki, hökuməti-islam olmağı əhali biliblər, belə işləri tərk etmişdilər. Amma bu yaxın zaman yavaş-yavaş genə bu işi başlayıblar. Necə ki, Dəvəçi uçastokuna mülhəq [bitişik] Əlixanlı icmasından Eynibulaq kəndində bu hadisə vaqe olub. Axşamdan bir saat keçmiş dörd adam Ağacan və Vəli Hacı Dadaşbala oğlanları və Hidayət Qərib oğlu və Əliağa Ağabala oğlu tüfəng atışı ilə Hacı Əli Həsən oğlunun evin basıb iddə içində olan qızı Sürahi namı ki, Ağaverdi Nəcəfquluoğlunun mütəəlliqəsidir [ailəsidir], aparıblar. Bunu isə sübh camaat xəbərdar olub, bu bizim şəriətə xilafdır deyə, icma kəndxudasına və kənddə sükna edən [yaşayan] axundlara məlum ediblər. Bu qız iddə tamam olunca atasının evinə qayıtmağı camaat və axundlar və yüzbaşı istəyiblərsə, bacarmayıblar. Hökumət bu barədə buyuracağı məlum olmadığına görə, nə camaat və nə yüzbaşı zor etməyiblər. Fövqdə zikr olunan [yuxarıda adı çəkilən] ağalardan rica olunur ki, bu barədə rəyləri və tədbirləri nə isə əhaliyə məlum etsinlər və hökmi-ilahi bu barədə nə isə əhali xəbərdar olsun.

*Əlixanlı icmasının prixod mollası:*
*Əlihəsən Molla Məhəmmədtağı oğlu*

**Doktor Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Elan**

Mən Mirzə Vəli Əliyev Mirtağı Mirmehdiyevə verdiyim vəkalətnaməni puç edirəm.

*5781*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**İran və biz**

səh. 104. "Nəbati, Raci, Məhəmməd Bağır, Dilsuz, Ləli...": Azərbaycan şairləri Əbülqasim Nəbati, Əbülhəsən Raci, Məhəmməd Bağır Xalxali, Məhəmməd Əmin Dilsuz və Mirzə Əli Ləli nəzərdə tutulur.

səh. 105. "şirü-xurşid məmləkəti": (aslan və günəş ölkəsi) gerbində aslan və günəş təsvirləri olan İran nəzərdə tutulur.

səh. 106. "Qafqaziya türkcəsindən ruscaya bir lüğət tərtib edən... Qənizadə...": "Lüğəti-rusi və türki", "İstilahi-Azərbaycan" kimi kitabların da müəllifi olan yazıçı, pedaqoq və publisist Sultanməcid Qənizadə nəzərdə tutulur.

"Azərbaycan istilahı": Sultanməcid Qənizadənin, Azərbaycan dilinin qrammatikasını öyrədən kitabı "İstilahi-Azərbaycan" nəzərdə tutulur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 106. "Yusif bəy, sayın görək neçə adam var?": Azərbaycan Cümhuriyyəti Parlament İdarəsinin kvestoru olmuş Yusif Ağabəyov nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 111. "cəhənnəm makinası" [machine infernale]: müxtəlif çaplı partlayışlar meydana gətirmək məqsədi ilə istifadə olunan, bəziləri saatlı mexanizmlə təchiz edilmiş mərmi yaxud çoxlüləli top.

səh. 112. "Rada": ali qanunvericilik orqanı.

**Dağıstan əhvalı**

səh. 112. "Çərkəz Əsgəri Firqəsi" [Çərkəz Hərbi Diviziyası]: Çərkəz Süvari Alayı nəzərdə tutulur. 1914-cü ilin avqust ayında təşkil edilən bu alayın komandiri 1917-ci ildən etibarən Sultan Krım Girey idi.

**Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat**

səh. 115. "Kəlbəli xan Ziyadxan": XVII əsrdə yaşamış şair və Qarabağ bəylərbəyi Ziyadxanlı Kəlbəli xan Müsahib nəzərdə tutulur.

səh. 116. "Ke Rostəm yəli bud dər Sistan, / Mənəş kərdeəm Rostəme dastan": Rüstəm Sistanda bir pəhləvan idi, / Mən onu dastan qəhrəmanı Rüstəm etdim." (farsca)

"Mahmud şah": Qəznəlilər dövlətinin hökmdarı Sultan Mahmud Qəznəvi nəzərdə tutulur.

"Əgər madəre şah banu bodi, / Məra sim o zər ta be zanu bodi": Əgər şahın anası banu olsaydı, / [Onun verəcəyi] gümüş və qızıl dizimə çatardı." (farsca)

**"Baharın ilhamları və ictimai rəmzlər" şeiri (səh. 117) üçün lüğət**

əlhan: nəğmələr; gözəl səslər
həzar: bülbül
şairi-mürğani-xoşəlhan: gözəl səsli quşların şairi
rüxi-gül: gülün yanağı
xəndan: gülən
eydi-təbii: təbiətin bayramı
kisveyi-səbzini-rəbii: baharın yaşıl libası
ərvahi-bahari: baharın ruhu, nəfəsi
nigəh-əfruz: göz oxşayan
əlvahi-bahari: bahar lövhələri
nəş'əti-üxra: bir başqa nəşə
səzavari-tamaşa: tamaşaya layiq
gülzar:gül bağçası
əzhar: çiçəklər
simayi-dirəxşəndeyi-xurşidi-səma: səmanın günəşinin parlaq siması
əş'ar: şeirlər
pişgəhi-qönçədə: qönçənin qarşısında
əş'areyi-rəngin: rəngarəng şeirlər
dərpərdə: pərdə içində, örtülü
rüxsareyi-rəngin: gözəl üz
səhneyi-səbzini-çəmən: çəmənin yaşıl səhnəsi
xəndeyi-zində: canlı gülüş
rüxsari-gül: gülün yanağı
bus etmək: öpmək
xəndeyi-əhmər: qırmızı rəngli gülüş
gül-dəhən: gül ağızlı
mükəddər: kədərli
tülu etmək: (günəş və s.) doğmaq
üzar: üz
çöhreyi-məsturü-füsunkar: örtülü və füsunkar çöhrə
rüxsar: yanaq
nəş'əti-üxrayi-təbii: təbiətin bir başqa nəşəsi
bürhan: dəlil; sübut
fəsli-dilarayi-təbii: təbiətin könül açan fəsli
gülrüx: gül üzlü
ruyi-gülara: gül bəzəyən üz
nəğmeyi-zində: canlı nəğmə
səhab: bulud

səh. 117. "Ey Gülrüxum, ey Cənnətim, ey ruyi-Gülara!": buradaki Gülrüx, Cənnət, Gülara eyni zamanda qadın adları olduğundan, şeirdə dırnaq içində verilmişdir.

səh. 118. "Güllər açacaq olmaz isə bülbül önündə": buradaki Güllər eyni zamanda qadın adı olduğundan, şeirdə dırnaq içində verilmişdir.

**Azərbaycanda: Qusar nahiyəsindən**

səh. 120. "11 mart 335 tarixində": burada il rumi təqvimlə (1335-ci il) göstərilmişdir; miladi təqvimlə 11 mart 1919-cu ilə uyğundur.

**Azərbaycanda: Qarabağ haqqında İngiltərə əsgəri heyətindən**

səh. 122. "...qanun və asayişi qorumaqdan ötrü...": qəzetdə "qorumaqdan" yerinə "qoymaqdan" getmişdir.

**Azərbaycanda: Şuşa Müdafieyi-Milliyyə Heyəti tərəfindən**

səh. 123. "rəbiülaxir ayının 4-5-ci gecəsindən": burada tarix hicri təqvimlə verilmişdir; miladi tarixlə 1919-cu il yanvarın 7-8-inə uyğundur.

**Azərbaycanda: Salyandan**

səh. 123. "Xançobanlı (Astanlı) camaatından...": qəzetdə "Xançobanlı" yerinə "Xocabanulu" getmişdir.

**Azərbaycanda: Lənkərandan**

səh. 124. "Böyük Bazar": Lənkəran şəhərinin məhəlləsi.

"Kiçik Bazar": Lənkəran şəhərinin məhəlləsi.

**Azərbaycan-Ermənistan münasibatı**

səh. 125. "J. D.": erməni qəzeti "Joxovrdi dzayn" (Xalqın səsi) nəzərdə tutulur.

**Gürcüstanda**

səh. 125. "Metex qalası": Tiflisdə tarixi qala. XIX əsrin əvvəllərindən etibarən həbsxanaya çevrilmişdir.

**Şikayət**

səh. 126. "iddə": İslam şəriətinə görə, ərindən boşanan (yaxud əri vəfat edən) qadının təkrar ərə gedə bilməsi üçün gözləməli olduğu müddət.

səh. 127. "prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.



***“Azərbaycan” qəzetinin 153-cü nömrəsinin 1-ci səhifəsi***





**Çərşənbə , 9 aprel 1919-cu il, nömrə 153**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 8 rəcəbül-mürəccəb sənə 1337. 9 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

İsmayıl bəy Səfərəliyev öz qardaşları və əmisi oğlanları ilə bərabər bununla bərabər öz sevgili qardaşı oğlu **Həsən bəy Səfərəliyevin** aprelin 8-də ağır və şiddətli mərəzdən sonra Tiflisdə vəfat etdiyini öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər. Pəsməzar [yas mərasimi] Şaxski küçədə öz 25 nömrəli evlərində. Mərasimi-dəfni barəsində ayrıca elan ediləcəkdir.

*5790*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Sabunçulu Hacı Bəyəli, Məşhədi Cəfər və Balaəmi Cəfərovlar əvvəlincinin oğlu, axırıncıların qardaşı, Gəncə Hərbi Məktəbinin şagirdi **Sahibqulu Cəfərovun** ağır xəstəlikdən sonra bu ayın 5-də Gəncədə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər. Mərhumun cənazəsi Gəncədən buraya varid olmaqla [gəlməklə] aprelin 9-da səhər saat 10-da Sabunçuda Heybətli küçəsində vaqe 189 nömrəli evlərindən Sabunçu qəbiristanlığına aparılacaqdır.

*5791*

## ELAN

Bakı Şəhər İdarəsi bununla elan edir ki, aprelin 11-də saat 12-də Təsərrüfat şöbəsinin dəftərxanasında Bulvarda Kazyonnı pristan [Dövlət körpüsü] ilə rubəru [üzbəüz] olan şəhər budkasının icarəyə verilməyi üçün torq [hərrac] olacaqdır. Müzayidə şəraitini [hərracın şərtlərini] şöbənin dəftərxanasında saat 9-dan 3-ə qədər oxumaq olar.

*T-95*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

### Albaniyada

Albaniya heyəti Şuraya xəbər vermişdir ki, hərgah onların istidası [xahişi] müdafiə edilməsə, onlar bir ilin müddətində istədikləri yerlərin Amerika tərəfindən idarə olunmasına razı olacaqlardır. Bundan əlavə, Albaniya heyəti xəbər vermişdir ki, Yunanıstanın göz dikmiş olduğu Şimali Epir Amerika əsgərləri tərəfindən zəbt edilmişdir. Bu qərar üzrə, əhaliyə azad bir surətdə istiqlaliyyətə nail olmağa imkan verməyirlər.

**Kral Albertə suiqəsd**

Brüsseldən xəbər verirlər ki, kral Albert Lövenə gəldiyi zaman qoşun arasından keçmək istəyən və saldat ilə polisə nəfəri tərəfindən dayandırılmış olan bir naməlum şəxs tapançanı çəkib saldat ilə polisə nəfərini yüngül yaralamışdır. Naməlum şəxs həbs edilib Brüssel həbsxanasına göndərilmişdir. Bu hadisə kral Albert həyatına suiqəsd hazırlanması haqqında xəbərlər çıxmasına bais olur.

**Riqa altında**

Berlindən Bazelə nim-rəsmi [yarı-rəsmi] surətdə xəbər verilir ki, bolşeviklərlə alman əsgərləri arasında olan şiddətli müharibədən sonra almanlar böyük tələfata baxmayaraq Kurlandda Şrunden ilə Laybaxı qaytarmağa müvəffəq olmuşlardır. Riqanın almanlar tərəfindən alınması xəbəri doğru deyildir.

**Lemberq bombardman edilir**

Poznandan xəbər verirlər ki, keçən gün ukraynalılar Lemberq [Lvov] şəhərini bombardman etmişlərdir. Şəhərə yüzdən artıq top gülləsi düşmüşdür. Bir çox ölən və yaralanan olmuşdur.

**Bolşeviklərin arzusu**

Paris – Petroqradda olan İsveçrə səfiri bugünlərdə Stokholmdan övdət eyləmişdir [qayıtmışdır]. Mümaileyh [adı çəkilən şəxs] ilə "Exo de Pari" qəzetəsinin müxbiri müsahibədə bulunmuşdur. Səfir demişdir ki, bolşevik hökuməti Müttəfiqlərlə sazişə gəlməyə hazırdır və böyləliklə onlar istəyirlər ki, iqtisadi abluka [blokada] ləğv edilib Müttəfiqlərlə Rusiya arasında diplomasi əlaqə başlansın.

* * *

London – Vaşinqtondan buraya verilən xəbərlərə nəzərən, Rusiyadan bu yaxınlarda övdət etmiş [qayıtmış] diplomatik səfir Frensis Senat nəzdində olan Təbliğat komitəsinə məlumat verirkən demişdir ki, Rusiyada olan Səlibi-Əhmərin [Qırmızı Xaçın] sabiq nümayəndəsi Robins Amerikaya qayıtmışdır və demişdir ki, Brest-Litovsk müahidəsi [sazişi] üzərinə Almaniyaya verilən imtiyazatı [imtiyazları] şimdi bolşevik hökuməti Amerikaya verməyi təklif edir. Robins zənn edir ki, Trotski ilə Lenin Almaniyanın nüfuzu təhtindədirlər [altındadırlar]. Robins əlavə edir ki, bolşevizm bizim əsrimizin xətrəsidir [təhlükəsidir], amma Amerikanın Rusiya işlərinə müdaxilə etməsi bizə mənfəət verməz. Zira, Rusiya əhalisi bolşevizmi arzu edir.

**SÜLH ƏTRAFINDA**

- Məlum olduğu üzrə, Fransa Hökuməti Elzas-Lorendən başqa, Almaniya torpağından başqa yerlər də idda edirdi. Bu da Müttəfiqlərlə Fransa arasının soyuqluğuna səbəb olurdu. Şimdi Fransa Elzas-Lorenə qənaət edib, başqa yer istəməyir. Buna görə, Lloyd Corc və Vilson mütənasib mükafat almalıdır. Zira Fransanın kömür dairələri tamamilə təxrib edilmişdir.

- Mövsuq [etibarlı] mənbədən "Yujnaya rus" qəzetəsinə verilən xəbərlərə nəzərən, Parisdə yeni Ümumrusiya Hökuməti  təşkil edilmişdir. Bu hökumətin başçısı knyaz [Georgi Yevgenyeviç] Lvovdur. Hökumət heyətinə sabiq Rusiya Xariciyyə naziri Sazonov da daxildir. Admiral Kolçak bu hökuməti təsdiq edərək ona itaət edir. Müttəfiqlər də yeni hökuməti təsdiq etmişlərdir.

**Xırda hökumətlərin müxtirəsi**

Hal-hazırda Parisdə bulunan bolşevik əleyhinə olan hökumətlərin nümayəndələri Sülh Konfransına bir müxtirə [yazılı tələb, nota] təqdim etmişlərdir. Bunlar bəyan edirlər ki, Rusiya məsələsini həll etməyə yeganə çarə Rusiyada yeni təşəkkül etmiş olan dövlətlərdə statükonu [status-kvonu] təsdiq etməkdir. Rusiyanı yenidən təşkil etmək üçün Məclisi-Müəssisan [Təsisçilər Məclisi] dəvət edilməli və o məclis Rusiyada federasyon üsulu təşkil etməlidir. "Jurnal de Deba" bu müxtirəni təbrik edərək deyir ki, Rusiya məsələsinin həlli üçün yeganə çarə varsa, o da budur.

Nota müəllifləri Sülh Konfransına təklif edirlər ki, Polşadan başqa, Rusiyanın başqa hissələri məsələləri həll etməməlidir.

Martın 30-da sülh müzakirələrinə baxan Xariciyyə İşləri Departmanının Xüsusi şöbəsinin iclası vaqe olmuşdur. Bu iclasda yəhudi məsələsi müzakirə edilmişdir. Yəhudi işlərinə baxan komissiya bu aşağıdakı qanunları qəbul etməyi təklif etmişdir:

Müsavi [bərabər] hüquq; yəhudilərə, ələlümum [ümumiyyətlə] bütün dünyanın hər tərəfində olan yəhudiliyə bir nəzərlə baxmaq. Bununla bərabər, yəhudilər haqqında olan hər bir məhdudat qanun və qaydalarının məhv edilməsi; təzə təşkil olunan hökumətlərdə yaşayan yəhudilərin əksəriyyətinin lazım gördüyü qədər yəhudilərə milli-mədəni muxtariyyət verilməsi; Fələstinin müstəqil bir hökumət nəşvü-nüma [inkişaf] etməsindən ötrü onun içində siyasi və iqtisadi şərait vücuda gətirilməsini komissiya tələb edir ki, yəhudi talanı olan məmləkətlərdə talan məsuliyyəti həman hökumət öhdəsinə qoyulsun. Bundan əlavə, Sülh Konfransı əsaslarını həyata tətbiq etməkdən ötrü, beynəlmiləl bir komitə təşkil edilməsini dəxi təkid edir.

**QƏZETƏLƏRDƏN**

**Petroqradda aclıq üsyanı**

Petroqraddan gələnlərin rəvayətinə görə, Petroqradda aclıq üsyanı zühur etmişdir. Camaat dəstə ilə Vəkillər Şurasına getdikdə, Qırmızı ordu əsgərləri tərəfindən atəşə tutulmuşlardır. Müsadimədə [toqquşmada] 200-dən artıq adam tələf olmuşdur. Bolşevik qəzetələri bu barədə bir söz belə yazmayırlar. Sibirya əsgərləri ilə Müttəfiqlərin hücumu münasibətilə Petroqrad əhalisinin ruhu yüksəkdir.

**Zabitlərin güllələnməsi**

Kopenhaqda nəşr olan "N." qəzetəsi xəbər verir ki, bolşeviklər Almaniyadan əsarətdən qayıdan rus zabitlərindən 800 nəfərini rus sərhədində güllələmişlər.

**Parisdə Rus Hökuməti**

Parisdən Odessaya verilən simsiz teleqrafda Parisdə təzə bir rus hökumət təşkil edildiyi xəbər verilir. Bu hökumət heyətinə knyaz [Georgi Yevgenyeviç] Lvov, Sazonov, Girs, Kerenski, admiral Kolçak, general Denikin, Mixail Staxoviç və [Niko-

lay Vasilyeviç] Çaykovski daxildirlər. Siyasi dairələrin buna nə nəzərlə baxdıqları haqqında “O. L.” qəzetəsi bir para siyasi xadimlərə müraciət edib, bəzilərinin rəyini almışdır. O cümlədən, Odessada olan “N. S.” firqəsi nümayəndəsi P. Tolstoy bu münasibətlə demişdir ki, mən Parisdə Rusiya Hökuməti təşkilini doğru hesab etmirəm. Bundan əlavə, təşkil edilən hökumətin hamı üzvləri Parisdə deyildirlər. Kolçak cəbhəni buraxıb Parisə gələ bilməz. Mən bu xəbərə artıq ehtiyatla baxmağı məsləhət görürəm.

**General Foşun almanlarla müxabirəsi [müzakirəsi]**

General Foş Fransadan ötrü gözəl nəticələrə nail olmaqdan ötrü, iki gün müddətində almanlarla müzakiratda bulunub öz tələbatlarından ən ümdəsinin etiraf [qəbul] edilməsinə müvəffəq olmuşdur. O tələbat da budur ki, Reyn nəhrinin şərq sahilində bitərəf məntəqə 50 kilometr olmalıdır. Hal-hazırda bu da həll edilmişdir ki, Fransa Hökuməti Starskda olan daş kömür və mədəni şeylər çıxarmağa ixtiyarı olacaqdır.

**Fransa və bolşeviklər**

Fransa Hərbiyyə Nəzarətinin kiçik katibi M. Abrami fransız Palatasında bəyan etmiş ki, Fransa öz qoşunlarını Rusiyaya göndərmək istəməyir. Fəqət bolşevizmlə [mübarizəyə] Müttəfiqlərlə bərabər maddi surətdə kömək etməyə hazırdır. Müttəfiqlərə pul və ləvazimi-hərbiyyə [hərbi ləvazimat] verməyi özünə borc bilir.

**Vilson**

Vilsonun Amerikaya əzimət etmək [getmək] istəməsi haqqında verilən xəbərlər rəsmi surətdə təkzib edilirlər.

**Hindistanın Şərqi Afrika ilə gələcək münasibatı**

London qəzetələrinin məlumatına görə, Afrika cənub-şərqindəki Almaniya müstəmləkələrinin kontrolu ola bilər ki, gələcəkdə Hindistan Hökumətinə vagüzar edilsin [tapşırılsın]. Bundan əlavə, hətta ola bilər ki, Afrika cənub-şərqindəki İngiltərə mülkləri Hindistan mühacirlərinin müstəmləkəsi kimi baxılsın.

**Fransa mətbuatı Rusiya haqqında**

Fransa royalistləri qəzetəsi yazır ki, Lloyd Corcun Rusiya məsələsi haqqındakı mövqeyinin nə ilə təfsir [izah] edildiyini anlamaq çətin deyildir. Siyasətcə İngiltərə hökuməti müəzzəm Rusiyanın bərpa edilməsinə bilkülliyyə maraqlı deyildir. Bundan əlavə, İngiltərə əfkari-ümumiyyəsi [ictimaiyyəti] müharibədən yorulub, uzaq səfərlər əleyhinədir. İngiltərə Hökuməti ancaq Rusiya ilə ticarət münasibatını [əlaqələrini] bərpa etmək istəyir. Rusiya İngiltərədən ötrü gözəl bir bazardır. Rusiya istər bolşevik və ya qeyri-bolşevik olsa da, nə üçün ticarət münasibatı bərpa edilməsin?

**Böyükada müşavirələri ətrafında**

Aşkar olur ki, Lenin və Trotski Hərbi Şurada öz yoldaşlarını Böyükada müşavirələri dəvətini qəbul etməyə inandırdıqları zaman, Müttəfiqləri aldatmaq niyyətində imişlər. Onlar aldadıcı sülh şəraiti təklif edib, qəti hücuma başlamaqdan ötrü mütarikədən [atəşkəsdən] istifadə etmək istəyirmişlər.





**General Sanders**

General von Sanders Almaniyaya getdikdə, yolda həbs edilib, İstanbula gətirilmişdir. Von Sanders məhkəməyə veriləcəkdir.

**Odessada**

Müttəfiqlərin təkidi ilə Könüllü ordu Odessadan Novorossiyskə köçmüşdür. Hal-hazırda Odessada ancaq fransız və yunan əsgərləri qalmışdır. Könüllü ordunun Odessadan köçməsinə əhali ilə ordu arasında olan ixtilaf səbəb olmuşdur. Bunun digər səbəbi isə Könüllü ordunun irticapərəstliyidir. Aşkardır ki, Müttəfiqlər buna inanmışlardır.

**Rus məsələsi**

Nyu-Yorkdan xəbər verirlər ki, bolşeviklərlə mübarizə etmək haqqında Foşun hazırladığı plan qəti surətdə rədd edilmişdir. Dörd hökumətin əsgəri şurası təzə layihəni müzakirə etməkdədir. Bu layihə ola bilər ki, qəbul edilsin. Çünki Amerika, İngiltərə heyətləri bu layihəyə tərəfdar olmuşlar. İtaliya və Fransa heyətləri də rəsmi razılıq vermişlərdir. Rusiyaya da Belçika kimi baxılması təsəvvür olunur. Şimali bitərəf hökumətlərdən, məsələn Danimark hökuməti kimi bir hökumətin iştirakı ilə müavinət təşkilatından ötrü komissiya vücuda gətirilməlidir. Bu komissiya yeməli şeylər və xammallar gətirib təqsim etmək [paylamaq] məsuliyyətini öz öhdəsinə götürməlidir. Bununla bərabər, həmin komissiya hal-hazırda Rusiyada ac və işsiz qalan milyonlarca fəhlələrə iş verib doyurmalıdır. Bunlar ianə surəti ilə deyil, bəlkə ruslar özləri ümid edildiyi kimi, öz keçmişlərini düzəltdikdə bunların mükafatını verməlidirlər. Bu layihənin bolşevik hökuməti tərəfindən etiraf [qəbul] edilməsi tələb edilməyir. Ancaq bu o vaxt olar ki, hərgah onun qüvvəsi artıb, sabiq məmləkət daxilində birincilik qazanmaq üçün mübarizə edən digər hökumətlər bərabərində durmağa müstəid [layiq] ola. Lenin deyir ki, özünün və onun firqəsinin niyyətində heç bir düşmənanə hərəkat yoxdur. Lenin Parisə göndərdiyi bəyanatında izhar edir ki, hal-hazırda onun əleyhinə hərəkət edən qüvvələr geri dəvət edilməsi şərti ilə o, mübarizəni qət edib [dayandırıb], buna əməl edər. Bu şəraiti o vaxt gözləmək mümkündür ki, ehtiyacı olanlara mühimmat [vacib ləvazimat] və qeyri əmval [digər mallar] gətirilməsini bu plan əsas etibarı ilə qəbul edilib qəti surətdə təsdiq edilməkdən ötrü hal-hazırda məzmunu hazırlanmaqdadır.

## DAĞISTAN ƏHVALI

**Dağıstan Cümhuriyyəti və Ermənistan**

Dağıstan Cümhuriyyətində Könüllü ordu hərəkatı münasibətilə Ermənistan Xariciyyə naziri 1919 sənəsi martın 27-də Hökumət nümayəndələrinə böylə bir nota təqdim etmişdir:

*“Azərbaycan Cümhuriyyəti nəzdində olan Dağıstan Hökuməti siyasi nümayəndəsi iki nota ilə Ermənistan Hökumətinə xəbər vermişdir ki, Könüllü ordu nümayəndələri Şimali Qafqaziya millətlərinin və Dağıstan Hökumətinin hüququnu nəzərə almayaraq Dağıstan Hökuməti daxilinə soxulub, hərəkati-hərbiyyəyə başlamaqla bərabər, Dağıstan Hökumətinə*

*təklif etmişlər ki, iş başından çəkilib öz ordusunu buraxsın. Könüllü ordu heyətinə daxil etməkdən ötrü icbari bir surətdə təzə əsgəri dəstələr təşkilini tələb edirlər. Təcavüzkaranə bir surətdə əhalinin qaramalını və ərzaq şeylərini həcz [müsadirə] etməkdədirlər. Dağıstan siyasi nümayəndəsi öz hökuməti sifarişi ilə bu münasibətlə öz protestosunu izhar edib, Zaqafqaziya cümhuriyyətlərindən, o cümlədən Ermənistan Cümhuriyyətindən müavinət [yardım] istəyir. Ermənistan Hökumətinin tapşırdığına görə, cənabi-alilərinizdən xahiş edirəm, bu aşağıda yazılanı öz hökumətinizə yetirəsiniz:*

*Millətlərin istiqlaliyyət və hürriyyət kimi müqəddəs əsaslarına sadiq və bunu istər qüvvətli, istər zəiflər üçün məcburi hesab edən Ermənistan Hökuməti ona dəxli olan işlərə etidali-dəmlə [soyuqqanlılıqla] baxa bilməz. Dağıstan millətlərinin istiqlaliyyət arzusunda olduqlarına şərik olub və əsas etibarı ilə beynəlmiləl ixtilafların hər cür təcavüzkaranə həllini zəmm etməklə [pisləməklə] bərabər, Ermənistan Hökuməti öz möhkəm ümidini izhar edir ki, Dağıstan millətlərindən ötrü ağır təcrübə günləri keçər və onların əsrlərdən bəri arzularının vücuda gəlməsi üçün qabağa çıxan mümaniətlərin [manеələrin] hamısı Müttəfiq dövlətlərin alicənabanə təşəbbüsatları ilə tezliklə rəf olar [aradan qalxar]. Ermənistan Hökuməti inanır ki, Sülh Konfransı hamı xırda millətlərin hüququnu azad nəşvü-nüma [inkişaf] etmədən ötrü özlərinə verər.*

*Bu ümid ilə sülh naminə və Rusiyanın, həmçinin onun daxilində olan millətlərin işıqlı gələcəkləri üçün Ermənistan Hökuməti böyük və kiçik millətlərin mədəni və siyasi təkamülünü əziz hesab edənlərin hamısını dəvət edir. Qoy, millətlərin öz hürriyyətlərini özləri istədikləri kimi azad bir surətdə qurmaq hüququnu hamı feilən dərk və qəbul etsin. Qoy, məmləkətləri mənən, maddətən və iqtisadən zəif salan qanlı mübarizə xitam bulsun. Qoy, millətlər və dövlətlər üçün azad məişət binasının köşə daşlarını [ən vacib elementlərini, əsas prinsiplərini] hazırlayan Sülh Konfransının qərarını gözləyərək saziş, etilaf [uzlaşma] və müsalimət [asayiş] bərpa olsun.*

*Xariciyyə naziri: S. Tiqranyan"*

## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

*(keçən nömrələrdən mabəd)*

Bu barədə məşhur Şərq ədəbiyyat aləminə xəbərdar macar tarix yazanı Herman Vamberinin alman dilinə də tərcümə etdiyi bir neçə nümunələrini genə qeyd edirəm:

*Heute hat bei mir sich Seele und Liebe vereint*
*Sich befreundend haben Sehmerz und Heilmittel sich vereint*
*Ich ward eine Fackel im Thale der Liebe*
*Sie entzündete mich, Klag und Seufzer haben sich vereint*

* * *

*Canımda bu gün can ilə canan birikibdir,*
*Həmdəm oluban dərd ilə dər-man birikibdir.*
*Bən rütbeyi-fanus olubən vadi-yi-eşqdə,*
*Yandırdı bəni naleyi-əfqan, birikibdir.*

* * *

*Das Muttermal auf deinem Gesicht*
*Gleicht der auf der Steppe weidenden Gazelle,*
*Ja ich kenne meine Holde genau,*
*Denn ein Doppelmal hat sie im Gesicht.*

* * *

*Bu dağın o üzündə,*
*Ceyran otlar düzündə.*
*Mən yarımı tanıram,*
*Qoşa xal var üzündə.*

Bizim geniş və zəngin ədəbiyyatımızdan savayı – ki gözəlliyinə qeyri bir ədəbiyyat bərabər ola bilməz – bizim milli musiqimiz də vardır. Zatən farsın musiqi dəstgahı aramızda böyük hörmətə nail olmuş, fəqət növbənöv bayatı və şikəstələr – ki vüsətli [geniş] Asiya səhrasının şəkli daxilindədir – türk xalqının ürəyində türk duyğusuna dair simlərin səsləndirilməsinə ancaq xidmət edirlər. Şərq nəğmələrinin havası indilikdə də Avropanın musiqipərəstlərinin zehnini məşğul etməkdədir. Axır zamanlarda biz Azərbaycan türklərinin arasından qabil musiqipərəstlər çıxmaqdadır. Ümid ediriz ki, onlar bizim musiqi sənət və dəstgahımıza əhəmiyyət və lazımi rövnəq verəcəkdir.

Yuxarıda zikr olunan "Əsli və Kərəm" aşiqanə hekayəsinin qarabağlı Üzeyir bəy Hacıbəyli tərəfindən opera şəklində düzəld[il]ib, qeyri operaları kimi Qafqazda şöhrət tapması şayani-təqdirdir [təqdirəlayiqdir]. Azərbaycanın musiqi və ədəbiyyat aləminə bu qədər xidmət edən və Azərbaycan türklərinin ədəbiyyat və musiqi çeşməsi misalında olan Qarabağın bu gün qonşumuz ermənilərin əsassız və heç də haqqi-hakimiyyətinə zəmin görülməyən surətdə iddiasında bulunmaqları təbii yersiz bir iddiadır. Bu torpağın təbii gözəlliyi, deyəsən, orada vücuda gələn musiqi, ədəbi və şairi zatları ruhlandırır. Qarabağda, nərədə ki, təbiətən onlara səda və musiqi neməti bəxş olunmuşdur, Azərbaycan Hökumətinə orada bir musiqi darülfünunu açmağı icab edir.

Bilaxirə [sonra] deməliyəm ki, bu gün təbiətin ən rəngarəng bəxşişi Azərbaycan məmləkətində cəm olmuşdur. Öylə ki, Azərbaycanda hər bir mədən, meşə, səhra, axar nəhrlər suları və sair bu kimi şeylər vardır. Bunlardan istifadə etmək xalqın üzərinə qalır. Doğrudur, bizim məmləkətimiz daim şimal və cənub fatehlərin meydani-müharibəsi [müharibə meydanı] olmuşdur. Yenə bununla bərabər dünyaya və bəşəriyyətə çoxlu ağıl və fikir sahibi alimlər vermişdir. Məəttəəssüf [təəssüf ki], torpaqlarımız altında basdırılmış ağıl və fikir sahiblərindən heç də məlumatımız yoxdur, olsa da məhz şərqpərəst [oriyentalist] avropalıların verdiyi yarımçıq məlumatdır. Ar olsun bizə ki, biz azərbaycanlılar bir nəfər sahibi-qələm və müqtədir alimlərimiz üçün bir yadigarlıq nişanı yapdırmamışıq. Hətta Şeyx Nizami kimi alimimizin qəbri – ki onun əsəri ilə Şiller və sair avropalılar fəxr edirlər – bizim ehti-

ramsızlığımızdandır ki, Gəncənin ətrafında onun məqbərəsi ilan və əqrəblərin məskənləri olmuşdur. Bizim ruhani borcumuz bu kimi alimlərin qəbri üzərində mücəssəmələr [heykəllər] qoymalı, bu cürə mücəssəmələri Avropada və Amerikada öz alimlərinə izhar etdikləri təşəkkürat əvəzində bərpa etdirirlər.

Bizim indiki Azərbaycan ziyalı cavanlarının üzərinə böylə mühüm bir təklif gəlir: onlar gərək əsrlərdən bəri çoxlu Azərbaycan şairlərinin və ədiblərinin adlarını toz tutmuş cünglərdən təmizləyib, müqəddəs və pak adlarını zahirə çıxartsınlar. Doğrusu, bu işdə mən əhli-xibrə [mütəxəssis] olmayuban, yenə vətənimə və millətimə cüzi də olsa, bu məlumatı cəm edib təqdim etməsinə çalışdım.

Keçmişdə bir türk tayfası deyildi, bəlkə bütün islam aləmi mədəniyyət aləmində idi. Hərgah Azərbaycan türklərinin başlarının üstündən bir köhnə islam aləmlərinə nəzər atılarsa, o zaman bu müsəlman tayfasının nə payədə [nə dərəcədə, nə səviyyədə] mədəniyyət yolunda çalışmışlardır, insan fəxr edər. Fəqət sonradan siyasi nöqteyi-nəzərlə bir-birindən ayrılışıb mübarizədə bulunmalarını gördükdə və bu mübarizənin nəticəsi olaraq mədəniyyətcə zəifləşmələri genə insanı məyus edir.

Ərəbistanın hərarətli səhrasında 7-ci əsrin ibtidasında [əvvəlində] Şərq aləmini uca sədası ilə oyadan Məhəmməd peyğəmbər əleyhissalam az bir zamanda bir çox tayfaları islam aləminə cəm etdi. Və hal-hazırda cahanda onun itaətində 400 milyona qədər islam aləmi durmaqdadır. İslam dinini qəbul etmiş tayfalar bu dinin gözəl təliminin təsiri olaraq az bir zamanda dünyaya mədəniyyətdən böyük möcüzələr göstərmişlərdir.

Madam ki, türk millətlərində birlik və ittifaq var idi, onlar artıq dərəcədə qüvvətli və bacarıqlı idilər. Axırlarda öz mabeynlərinə [öz aralarına] nifaq düşüb bir-birlərindən soyuduqlarından, get-gedə zəifləşdilər. Bir millətin ki, əmrinə bütün Avropa qulaq asıb oraya itaət edirdi, axırda bir hala gəldi ki, siyasi nəbzi nəhayət vurmayıb durmağa məcbur oldu. Halbuki böyük Çingiz xan vəfat etdiyi vaxtda öz oğlanlarına vəsiyyət etdi ki, sizinçün böyük bir məmləkət qoyub gedirəm ki, o məmləkətin vəsətindən [ortasından] kənarına çıxmaq üçün azı bir il gərək at sürülsün. Böyük Çingiz xanın o böyüklükdə məmləkəti nəhayət parçalanıb darmadağın oldu. Hər ayna zəmanənin mədəniyyət nuru ilə o parçalar işıqlanıb nurlanmazsa, şəksiz o parçalar məhv və nabud [yox] olacaqlardır.

Millətin xoşbəxtliyi səltənətin əzəmətindən, böyüklüyündən asılı deyil. Millətin səadəti asılıdır ancaq maarif nihalının [fidanının] o millət içərisində bitib və nə əndazədə kök salıb qol-budaq atmağından. Avropalılar tərəfindən asiyalılara vurulan cəhalət damğasını bir neçə dəfə yaponiyalılar silib Şərq əhlinin üzünü ağartdılar. Torpaqca az bir yerə malik olan həmin bu rəşid [qoçaq] kiçik millət[in] türk, tatar və moğol beşiklərindən çıxdığı şübhəsizdir. Yaponiyanın məmləkətinin ortasından kənarına çıxmağa lap uzağı bir gün vaxt lazımdır.

Böyük Çingiz xanın özünə və məmləkətinə nisbətən kiçik Yaponiya öz balaca doğma yurdunu hümmətlə və qeyrətlə çalışmağı sayəsində bir əndazəyə yetirdi





ki, qılıncının parıltısını bütün dünyaya göstərdiyi kimi, maarif və mədəniyyətlərini dəxi cəmi insanlar bəyənib heyran oldular. Bu yarım əsrlik (əlli illik) Yaponiyanın ucalmağı, gündən-günə qabağa getməyi təzə yuxudan ayılmış Şərq millətləri üçün böyük bir ibrət dərsidir.

Bəhri-mühiti-kəbirdən [Böyük Dünya okeanından, Sakit okeandan] başlayaraq Atlas mühitinə [Atlantik okeanına] qədər bütün bu fasilə meydanında birinci dəfədə cahanın mədəniyyət xəzinəsinə mədənilik bəxş edən islam aləmi olmuşdur. Sonra isə həmin mədəniyyət onlardan irsən avropalılara yerimişdir. Ülumun [elmlərin] parlaq dövrü həman Kurtubada, Misirdə, Şamda, Bağdadda, Səmərqənddə və sair o zamanın mərkəzi dairələrində davam etmişdi.

Misal üçün tək bir Kurtuba kitabxanasında yarım milyon cilddən ziyadə cürbəcür üluma [müxtəlif elmlərə] dair kitab var idi. Bu qədər kitab da Şamın, Misirin kitabxanalarında mövcud idi.

Bir millətin mədəniyyət dərəcəsinin mizanı ondakı kitabxana ilə hesab olar. Əlcəbr, həndəsə, cəbrül-müsəlləsə [triqonometriya], hikməti-təbii [fizika], kimya, elmi-nücum [astrologiya], hikmət [fəlsəfə] və təbabət kimi ülumun tərəqqisinə və bəzisinin icadına islam alimləri səbəb olubdur. Sonra islam arasında başladılan ədavət və təfriqə [ayrılıq, ittifaqsızlıq] səbəbilə islam aləmində yavaş-yavaş ülum şamının sönməyi başladı.

Müsəlmanlar siyasətcə də yavaş-yavaş zəifləşib və bütün mədəniyyətlərini avropalılara verib, özləri tamamən on iki[nci] əsr zamanı qəflət yuxusuna düşdülər və bu yuxudan ən nifrətli xırıltı vücuda gətirdilər. Hərgah, doğrudan da müsəlmanlar, gərək onlar bütün qüvvələri ilə qiyam edib üzərlərindəki əsarət zəncirini qırıb öz məmləkətlərinin ağası olsunlar. Bu murada yetişmək üçün islama lazımdır ki, mədəniyyət aləminə daxil olub gecə-gündüz cəmi elmlərin təhsilinə səy edilə ki, bir böylə irzə və namusa toxunan geri qalmağı ortalıqdan götürə.

İslam aləminə daxil olmuş bütün tayfalar hər birisi öz xüsusi və milli qüvvələrini büruz etməyə [meydana çıxarmağa] səy etsələr, əlbəttə, özünün vücudundakı qabiliyyəti kamalınca izhar edər. Bir o qədər ki, bir dəstə güldəki rəngarəng şükufələr [çiçəklər] və güllər ayrıca şəfəq göstərirlər, əlbəttə, o nisbətdə müsəlman aləmində də rəngarəng tayfalardan bir gözəl heyət əmələ gələcəkdir. İslam da bənzəyəcəkdir o daimi günə ki, öz mərhəmət şəfəqini göndərəcək o bənövşələrə, qızılgüllərə, zanbağa, yasəmənə və sair ona tərəf üz döndərən çiçəklərə. Böylə rəngarəng bir dəstə gülün yaratması ilə biz şad edəcəyiz Mədinədə o müqəddəs vücudu ki, onun pak ruhu bizim mədəniyyət yolunda tərəqqi etməyimizə həmişə duaçı olacaqdır.

Həzrəti-Rəsul millətləri birləşdirmək yolunda çox zəhmətlər çəkibdir. Onun vüsətli [geniş] və mərhəmətli qəlbi özünə sərhəd bilməzdi. Məzhəbə və Allah yoluna dəvət etməklə daim insanın bir-birilə mehribanlıqla yaşamalarını nəsihət edərdi. O, həzrəti-İsanı müqəddəs hesab edirdi və onu "Ruhullah" adlandırır. Musanı, İbrahimi və həmçinin müqəddəs "Quran" la "İncil"i, "Tövrat"ı, "Zəbur"u və "Müshəflər"i Allahın kitabı elan etdi. Hər bir müsəlmana vacibdir kəlisanın [kilsənin]

və məzkur [adı çəkilən] kitabların ehtiramını saxlasın. Türk ziyalıları ki, öz babalarından irsən onlara keçmiş milli adat [adətlər] və cins üzrə, həm də insaniyyət yolu üzrə tərbiyələnmiş və islamın binasını qoyan qanun üzrə olarsa, daim ali mərtəbəsində yer tutacaqdır.

Bununla bərabər, millətə və vətənə göstəriləcək xidmət və onun ruhlandırmağı ancaq ziyalıların öhdəsinə qalır və ziyalıların səfləri təbii oxuyan cavanlarla doldurulur. Unutmamalıyız ki, inqilabi-kəbir [Böyük Rusiya inqilabı] bizə ancaq siyasi azadəlik bəxş etdi və biz bu halda fövqəladə bir inqilab qarşısındayız ki, onun vasitəsilə nurun və işığın qalibiyyəti zülmatın üstündə olacaq. Əlbəttə, bu fəthə və bu işığa doğru bizi aparacaq qüvvə yenidən meydana gələn cavanlarımız olacaq. Təlim və təhsil görmüş cavanlarımızın işıqlı şam əllərində müqəddəs və elm məkanlarının qapılarından çıxıb bütün səhralarımızı dolanıb qəflətdə aludə olmuş vətən övladımızı uca səda ilə oyadacaqlar.

Biz xoşbəxt cavanlarımızdan yorulmaz və səbatlı fədakarlıq, zəhmətli xidmətlər gözləyiriz. Təkrar edirəm onların xoşbəxtliklərini, çünki ağıllarının çiçəklənməsi Azərbaycan səltənətinin gül açan zamanına rast gəldi. Bunları tərənnümə gətirəcək qüvvələr şübhəsiz xalqın müəllim və müəllimələridir. Bunlar, yəni bu mürəbbi [tərbiyəçi] sinfi ki, cavanlarımızın tərbiyələnməsi onların sayəsindədir və onların yolları daima məşəqqətli, özləri də ağırlıqdan heç bir vaxt azad deyillər. Onlar vətənlərinə və hökumətlərinə öylə bir töhfə gətirərlər ki, onun müqabilində cahanın ən qiymətli şeyi fəna dərəcəsində görünər. Onlar səbrlə sənədən-sənəyə, gündən-günə, sübhdən ta gecəyə tək bizim qardaşlarımızın və övladlarımızın tərbiyət və təhsilinə məşğul olub, onlardan cavan Cümhuriyyətimizə layiq əzmkar, sadiq, imanlı vətəndaş hazırlayacaqlar. Yeganə bir təşəkkür və mükafat müəlliminə [müəllimlərə] o olacaq ki, onların artıq zəhməti və məşəqqəti ilə vücuda gəlmiş cavanlar Cümhuriyyətimizin, vətənimizin çəmənlərində gül və bahar açdıqda fəxr edəcəklərdir.

(yenə var)

*Adil xan Ziyadxan*

## AZƏRBAYCAN QOŞUNUNDA MƏSLƏK

Axirüləmr [nəhayət], qoşunumuzun piyada, süvari və topçu qisimlərindən bir hissəsi paytaxtımıza daxil olub, qışlalarında [kazarmalarında] yerləşdilər. Bunu əhaliyə xəbər vermiş qəzetələr nədənsə süvarilərin miqdarını da müəyyən surətdə göstərib oxuculara bildirmişlər. Halbuki, heç bir məmləkətin mətbuatının qoşunun ədədi barəsində məlumat yazmaq haqqı yoxdur. Bu bir ümumi qanundur ki, buna Çindən başlamış, Amerikaya qədər tamam dünyanın mətbuatı tabe olur. Uzağa getmək nə lazımdır? Qafqazda, ümumən Bakıda, xüsusən ingilislərin nə kimi və nə miqdarda malik olduqları qüvvələrdən istər gürcü, istər erməni qəzetələrdən heç biri cüzi də olsa bir məlumat yaza bilməmişdir. Həmçinin Azərbaycan mətbuatı da buna dair heç bir şey yazmamışdır. Zatən qoşunun miqdarına dair mətbuat idarələrinə heç bir məlumat verilməz. Təsadüfən verildiyi halda da, ərkani-hərbdən [hərbi qərargahdan] izin hasil olmayınca, mətbuat səhifələrinə də yazılammaz. Bu qətiyyən məmnudur [qadağandır]. Bəzi kərə düşmənin casusları təğyiri-libas edib [başqa dona girib], qışlalara bir növ yol taparaq əsgərlərlə aşinalıq peyda edirlər. Casusluq fənn və məharətilə [bilik və bacarığıyla] xəritələri, planları, qoşunun miqdarını, məkanlarını öyrənib hökumətlərinə aparırlar. Böylə casuslar tutulur, vətənin ən böyük xainlərindən məhsub [hesab] olaraq hərb təhti-məhkəmələrinə [hərbi məhkəmələrin mühakiməsi altına] verilirlər. Sabiq rus qoşunları arasına təfriqəni [ayrılığı] həmin bu casuslar əli ilə salmışlardır.

Xaricdən gəlmə casuslarla bərabər, daxili casuslar da vardır ki, bunların törədəbiləcək xata və bəlaları daha əşəddir [şiddətlidir, böyükdür]. Məşhur Myasoyedovun casusluğu vasitəsilə Rusiyanın başına nə bəlalar gəldi, bu hamıya məlumdur.

İştə, yeni hökumətimizin yeni qoşunlarını böylə tarixi səhv və xətalardan saxlamaq hər bir vicdan sahibi azərbaycanlının vəzifeyi-müqəddəsəsidir. Əhalinin hər təbəqə, hər sinifi çalışmalıdır ki, cavan əsgərlərimizin pozulmamış əxlaqı əvvəlki kimi salamatca qalsın. Hər fəsadçıya, hər xainə yol verilməsin ki, qışlalarda əsgərlərlə əlaqədar olsunlar. Azərbaycana müğayir [zidd] məsləklərlə cavan başları doldursunlar. Vətən düşməni olan fəsad fikirli qəzetələrə, partiyaçılara, təfriqəçilərə yol verilməsin. Xülasə, əsgərlərimizə əsgərlik, qeyrət, rəşadət və vətən müdafiəsindən başqa sair müzir [zərərli] təlimata ehtiyac yoxdur.

Bəzi tamahkar hökumətlər kimi qoşunumuzu sairlərin hüququna, torpağına təcavüz etmək üçün yaratmadıq. Bərəks [əksinə], öz istiqlalımızı, milliyyətimizi müdafiə etmək üçün yaratdıq. Əsgərimizin amalı və iqbalı budur. Qeyrət və rəşadət kimi ali sifətləri bizim türklər ana südü ilə bərabər qəbul etmişlər. Çingizlər, teymurlar, ildırımlar, fatehlər təlimati-hərbiyyə [hərbi təlim] görməksizin iqlimləri [ölkələri, məmləkətləri] təsxir [zəbt] etmişlərdir. Napoleonlar, suvorovlar kimi məktəbi-hərbiyyələrdə oxumamışlardır. Odur ki, bizim əsgərlərə təlimati-hərbiyyə ilə bərabər övsafi-həmidə [yaxşı, bəyənilmiş xüsusiyyətlər], gözəl əxlaq təlimi vacibdir ki, bu da birinci dərəcədə zabitlərimizin vəzifəsidir. Lakin məəttəəssüf [təəssüf ki], hal-hazırda Azərbaycanın kafi qədər zabitləri olmadığı üçün bir çox əcnəbi və xüsusən də rus zabitlərinə artıq ehtiyacı vardır.

Hərbiyyə naziri Mehmandarov həzrətləri buyurdular ki, rus zabitləri ancaq ən böyük məvaciblərə görə Azərbaycan xidmətlərini qəbul edirlər. Bundan görünür ki, Azərbaycan xidmətində bulunan rus zabitləri mənəviyyata deyil, maddiyyata səcdə edərək mənfəəti-şəxsiyyələrini artıq mülahizə etmişlərdir. Bu kimi zabitlərin məsləyi Azərbaycan mənfəətinə olmayaraq, türklüyə deyil, rusluğa artıq mail olur [meyl edir].

Sübuta ehtiyacımız yoxdur. Qarabağın mərkəzində ingilis zabitlərin yapdığı bir ziyafətə bir neçə Azərbaycanın zabitləri də dəvət olunmuşlardır. Adı bizə məlum olmayan bir şəxs tərəfindən təklif olunur ki, ziyafət əhli gələcək rus imperatoru (?) sağlığına sənaxan və badənuş olsun [sağlıq desin və badə içsin]. Təklif qəbul olunur. Musiqi dəstəsi "Xudaya, imperato-

ru saxla" ünvanlı rus marşı çaldığı halda Azərbaycan zabitləri də (zənnimcə Azərbaycan xidmətində bulunan rus zabitləri gərək olsun) dərhal ayağa qalxaraq ehtiramati-hərbiyyəni yerinə yetirirlər.

Təəccüb deyilmi ki, Azərbaycan ölkəsində öylə bir hökmdara dua və səna [mədh, tərif] oxunur ki, onun yer üzündə adı var, özü yoxdur? Məgər ziyafətdəki zabitlər o qədər də şüurlarını itirmişlər ki, bu böyüklükdə bir aydın həqiqəti düşünməmişlərdir?

Bu macəra bizə sübut edir ki, bəzi əksinqilab fikirli zabitlər köhnə xəyallarından daşınmayıb, Rusiyanın sabiq mütləqiyyətini bəkləyirlər. Ziyafətdəki hərəkətləri ilə sübut etdilər, mövqeyi düşərsə bu məsləyin tərəfdarları cərgəsində bulunacaqlar.

Bu nədir? Sabah bizi çalmaq üçün qoynumuzda ilanmı bəsləyiriz?

Bu macəranı Hərbiyyə Nəzarəti başlıbaşına buraxmayaraq təftiş etməli və Azərbaycan əleyhinə çalışanları da rədd etməlidir. Zira, bunların bugünkü mənfəətindən sabahkı ziyanları daha ağır olar. Əlavə, Azərbaycan zabitləri arasında məgər "zabitlər məhkəməsi" yoxdurmu ki, böylə müttəhim yoldaşları həman məhkəmə əli ilə cəzalandırsınlar!

Əlhasil, zabitlərimiz erməni və gürcü zabitləri kimi mütəəssib [təəssübkeş] olmalıdırlar ki, əlləri altındakı əsgərlərimiz də öyləcə minval ilə [vaxt ötdükcə] mütəəssiblənsinlər, tərbiyələnsinlər.

Azərbaycan qoşunu generalından başlamış, saldatına qədər hamısı Azərbaycan vətənpərvərlik məsləki və hissiyatı ilə tərbiyələnməlidirlər.

*Fərhad Ağazadə*

## İRANLILARA DAİR

Neçə sənələrdən bəri başlanmış Cahan müharibəsinin bərəkətindən bədbəxt İranın fəqir camaatı və əkinəcək yerləri, bağçaları əcnəbi qoşunlarının ayaqları altında paymal olub [tapdalanıb] getməsi cəmi dünyaya məlum olsun gərək, zənnindəyəm. İranın məzlum camaatı xaricilərin bu zalım cəfalarına tab gətirə bilmədiklərindən qeyri, bir yandan da İranın zalım mülkədarlarının və müftəxor xanlarının zülüm-cəfalarına uğrayıb, ana-bacılarının və əhli-əyallarının əllərindən yapışıb özgə dövlət şəhərlərinə fərar etməyə məcbur olmuşlar. Fərar edib də, şəhərin küçələrin[d]ə ismətli İran xanımları və məsum iranlı balaları ayaqyalın, başıaçıq yolçuluqla məhv-nabud [məhv, yox] olub getməkdədirlər. Əcəba, bu fəqirlərə bir çarə arayan varmı? İndilikdə iranlılardan bir nəfər də olsun bu fəqirlərin nəfinə [xeyrinə] ərseyi-meydana [meydana, səhnəyə] qədəm qoyan bir kimsə yoxdur. Əcəba, bəs necə oldu Mart hadisəsindən qabaq ədalət, istiqlal və demokrat iraniyan [iranlılar] adı ilə bar-bar bağıran iranlılar? Məramlarına nail oldularmı və ya vətən və millətlərinə xidmət etməkdən yoruldularmı? Əfsuslar olsun, ey İranın qəyur [qeyrətli, çalışqan] övladları, nə tez yoruldunuz? Fəqir və məzlum vətəndaşlarınıza çox xidmətlər etdinizmi? Məgər bu küçələrdə acından, soyuqdan tökülüb, məhv-nabud olan sizin qardaşlarınız və ana-bacılarınız deyilmi? Məgər Bakı və ətrafında 70 min yaşayan iranlılar arasında neçə nəfər sahibi-hümmət yoxmu? Məgər İrandan gələn sədaları eşitməyirsinizmi ki, İrandan məzlum vətəndaşlarınız dad-fəryad ilə həzin-həzin sədalarını sizə yetirib deyirlər ki, ey Qafqazda yaşayan həmvətənan [həmvətənlər], İrana çarə İranda yaşayan iranlılardan gözləməməli. Fəqət İrana çarə siz Qafqazda yaşayan iranlılardandır. Haydi, qardaşlar, qəflət uyqusuna yatmaq zamanı deyil. Daha o zamanlar keçdi. Sizə nə oldu ki, şükufələnmiş [çiçəklənmiş, açılmış] gülləriniz bu tezliklə soldu? Hanı cəmiyyətləriniz, hanı xeyriyyələriniz, hanı möhtaclara köməkçi idarələriniz? Hanı, bəs Mart hadisəsindən qabaq bolşeviklər zülmünün altında əzilə-əzilə, qorxa-qorxa işlədiyiniz işlər, qurduğunuz cəmiyyətlər? İmdi ki, əlhəmdülillah, o gördüyünüz zülümlər yox. O çəkdiyiniz zülümlər qəhrəman Azərbaycan ordularının hümmət və qeyrətləri sayəsində məhv-nabud olub getdi. Dəxi qorxmaq zamanı deyil, bəlkə işləmək zamanıdır. Haydi, gözlərimizdən qəflət yuxusunu silib, cavan Azərbaycan Hökumətindən köməklər diləyib, fəqir və məzlum vətəndaşlarımıza yardım edək ki, bəlkə bu köməklər sayəsində fəqir millətimizi sahili-nicata çıxaraq.

*Y. Ç. zadə*

## MƏTBUAT

Hökumət böhranı uzanmaqda, məmləkət hökumətsiz, başsız qalmaqdadır. Bu fənalıq nə qədər davam edəcəkdir və bunun səbəbi nədir? Müsəlman sosialistlərinin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olan "Zarya" qəzetəsi deyir ki:

*"Böhranın ibtidasında [başlanğıcında] Məclisi-Məbusan fraksiyalarından bəziləri bu qərara gəldilər ki, mərkəz ilə sol cinah ittifaq yaparaq demokratik bir hökumət təşkil etməlidirlər. Sosialist, "Müsavat", "Əhrar" və Azlıqda qalan millətlər fraksiyaları arasında etilaf [uzlaşma] əmələ gəlib, Rəisi-vükəlalığa [Baş nazirliyə] Nəsib bəy Yusifbəyov intixab edildi [seçildi]. Bitərəflərlə "İttihad" fraksiyaları isə etilaf xaricində qaldılar. Rəisi-vükəla isə qabaqca müzakiratı bitərəflərlə başladı. Üç həftə bitərəflərlə bisəmər [səmərəsiz] müzakiratda bulunaraq təkliflər etdi, tələblərini dinlədi. Fəqət ümumi bir lisan tapammadı. Etilafa girən fraksiyalar arasında isə öylə mühüm bir ixtilaf yoxdu. Fəqət "Müsavat"ın ikitərəfli siyasəti qoymayır müəyyən bir qərara gəlmək mümkün olsun. Bu gün müəyyən bir etilaf hasil olur, fəqət ertəsi gün pozulur. Biz mümkün olan qədər güzəştə getdik və "Müsavat" ilə etilaf əmələ gəldi. Fəqət etilaf xaricində qalmış olan sağ cinah ("İttihad" ilə bitərəflər) "Müsavat"ın üstünə düşərək hərc-mərc çıxarmaq, üsyan qaldırmaq və sairə kimi əngəl və manealərlə təhdidə başladılar. Bunu da deməlidir ki, "Müsavat"ın mütəəssib [təəssübkeş] mürtəce qismi də qaragüruhun bu hərəkətlərinə hüsn-rəğbət göstərərək sosialistlərlə aranı qırıb, bitərəflərlə getməyi tələb edir."*

Bunlar sosialistlərin hökumətdə məsuliyyətli yerlər tutmasından, nüfuzlarının artmasından qorxurlar. Çünki sosialistlər qüvvələndikdə işlərin üstü açılacaqdır.

*"Ona görə də bu qara iş ustadları var qüvvələrini toplayaraq ümum nüfuzlular vasitəsilə hökumət böhranını uzatmağa çalışır və sosialistləri hökumətə buraxmamaq qəsdi ilə təhdidatda bulunur, fitnələr buraxırlar."*

Sosialistlər lap əvvəldən demişlər və yenə deyirlər ki:

*"Hamı qruplarla etilafa girmək olmaz. Ona görə də "Müsavat"ın demokratik qismi iki şeydən birisini qəti surətdə intixab etməlidir: ya sollar, yəni sosialistlərlə, yaxud sağlarla etilafa girməlidirlər. Biz sosialistlər isə bəyan ediriz ki, iş yenə də uzansa, biz sosialistlər müzakiratı davam etdirməkdən imtina ediriz."*

"Müsavat" isə hökumət böhranının uzanması səbəbini və məqsədləri başqa yerdə arayır və təqsiri "Müsavat"ın "mürtəce-mütəəssib" qismində deyil, müsəlman sosialistlərinin "milliyyətsizçi-nəzəriyyəçiləri" qismindən görür və sözünü isbat üçün Kabinə təşkili haqqındakı təşəbbüs və müzakiratı böylə təsvir edir:

*"Xan Xoyski Kabinəsi istefasını qəbul edən gündən "Müsavat" firqəsi bilməcburiyyə Məclisi-Məbusanda möhkəm mərkəz yoxluğunu nəzərə alaraq yeni Kabinə təşkilini Məclisi-Məbusanda "İttihad"dan soldakı firqələrdən mürəkkəb [təşkil olunmuş] möhkəm bir mərkəzlə əsaslandırmaq istədi. Bitərəflər fraksiyası ilə etilafa girişməyi sosialistlərlə istədiyi qədər əsaslı və məcburi ədd [hesab] etməməklə bərabər, firqəmiz o fraksiyaya dəxi bir qədər əhəmiyyət verirdi. Fraksiyalar arasında etilaf bu proqram üzərinə qurulmalı idi: Azərbaycan istiqlalının müdafiəsi, bilatəxir [dərhal] Məclis-Müəssisan dəvəti, idareyi-zəbtiyyənin [asayiş idarəsinin] sağlamlaşdırılması, bələdiyyə idarələrinin demokratlaşdırılması və zemstvo [yerli özünüidarə qurumları] təsisi və məmləkətin qüvayi-əsgəriyyəsinin təqviyəsi [hərbi gücünün artırılması] və sairə. Burada biz müsavatçılar iki ultimatumla təsadüf etdik: birisi sosialistlərdən, digəri bitərəflərdən. Sosialistlər ultimatum təriqi [yolu] ilə tələb etdilər ki:*

*1) Nazirlərin yarısı sosialist olsun;*

*2) Rəisi-vükəla sosialist olsun;*

*3) Daxiliyyə Nəzarəti dəxi sosialistlərin əlində olsun.*

*Sosialistlərin bu təklifinə "Müsavat" böylə cavab verdi:*

*1) Rəisi-vükəlanı koalisiyaya girən ümum qruplar ümumi və əsasi etilaf ilə seçməlidirlər.*

*2) Nazir yerləri fraksiyalar arasında mütənasib qüva [qüvvələr] əsası ilə təqsim edilir [bölünür], fəqət Parlaman siyasi qrupları xaricində olub da, hökumətdə bulunması lazım və məmul görülən zəvat [arzu edilən şəxslər] dəxi Kabinəyə dəvət edilə bilər. Böylə olan surətdə 24 məbusu olan "Müsavat" 3, amma 12 yeri olan sosialistlər 2 namizəd verirlərdi.*

*3) Nazirlər dəvəti Rəisi-vükəlanın ixtiyarıdır və bu məsələdə qruplar onunla etilafa gəlməlidirlər."*

"Müsavat"ın bu təklifi üzərinə uzun müzakiratdan sonra Sosialistlər, "Əhrar" və "Müsavat" fraksiyaları arasında etilaf hasil oldu. Senyoren Konvent iclasında "İttihad" firqəsindən başqa ümum fraksiyaların rizası ilə Yusifbəyli Nəsib bəy Baş vəzirliyə qeyd edildi, sonra müzakirə başlandı:

*"Bitərəflər fraksiyası bir əvəzinə iki nazir yeri tələb etdilər. Həm də etilaf əsasına zidd olduğu halda, Daxiliyyə Nəzarətini də tələb etdilər. Sosialistlər dəxi Məsai [Əmək] və Daxiliyyə naziri yerlərini istəyir, həm də tələblərini ultimatum kimi verirlərdi."*

Çox mübahisədən sonra, bitərəflər





əvvəlinci tələblərini geri götürərək indi də qəti surətdə tələb etdilər ki, Daxiliyyə naziri sosialist olmasın. Taktik və dövləti nöqteyi-nəzərdən Daxiliyyə naziri vəzifəsini Rəisi-vükəla öz öhdəsinə alır.

*"Adab [ədəb, ədəbli olmaq] tələb edərdi ki, buna etiraz olmasın. Fəqət əks çıxdı. Sosialistlər heç bir şeyə baxmayaraq, son qərarlarında israr etdilər.*

*Həmin son qərar isə Baş vəzir sosialist və Kabinədə əksəriyyət sosialist olsun deyə tələb edən qərarın məntiqi nəticəsi idi.*

*O zaman "Müsavat"ın əks tələbi nəticəsində sosialistlər qərarlarını dəyişərək Sosialistlər İttifaqının həqiqi azərbaycançı yarısının əqli-səlim [məntiq] sahibi olub dövləti nöqteyi-nəzər müdafiə etməsi sayəsində, Çurayev-Mikoyan Tətil Komissiyasına Məclisi-Məbusandan daha artıq meyli olan qismin inadına rəğmən güzəştə getməyi və qeyri-məqbul tələblərdən vaz keçməyi təhti-qərara aldılar.*

*Görünür ki, axır zaman ittifaqın məsuliyyətsiz müxalifət həvəsliləri öz xətti-hərəkətlərini əyməyə və bununla da Sosialistlər İttifaqını ahəng və məntiqdən məhrum etməyə imkan tapmışlardır.*

*Bu surətlə işi təxirə salan zaryaçıların dedikləri kimi, "Müsavat"ın "mürtəce-mütəəssib" qisminin nüfuz və təsiri deyil, məmləkətdən ziyadə firqə məqsədlərini düşünən zəif etiqadlı Azərbaycan sosialistlərinin təzyiqidir ki, onun təsiri altında qeyri-mühüm məsələlərdə etilafı əsas qəbul edib də, anlaşılmayan ultimatum çıxaran sosialistlərlə koalisiyaya girməyi ümum firqəmizin arzusuna rəğmən qeyri-mümkün edir.*

*Binaənileyh [ona görə], hökumət böhranı davam edərsə təqsir "Zarya"nın dediyi kimi "Müsavat"ın "mütəəssib-mürtəce" qismində deyil, bəlkə müsəlman sosialistlərinin "milliyyətsizçi-nəzəriyyəçilik" edən qismindədir."*

Biz bu məsələyə tam mənası ilə bitərəfanə baxmaqla bərabər, göstərərək ümum firqə və fraksiyalarımızın nəzərini daxildən, xaricdən, sağdan və soldan uzadılan tamah əllərinə cəlb edərək deyiriz ki, həpiniz istinad etmək istədiyiniz və kəndinizi qəyyum və hami nişan verdiyiniz demokratiya sizdən söz güləşdirmək və nəzəriyyəçilik gözləməyir, iş və yenə iş gözləyir.

Camaatın bir qismini müdafiə namı ilə bütün kütləni başsız qoymaq heç vaxt, xüsusən indiki vəziyyət altında nə məqsədlə olsa da əfv ediləcək bir hərəkət deyildir.

## BAKI XƏBƏRLƏRİ

### Qalabəyi dəftərxanasının təftişi

Bakı qubernatorunun binagüzarlığına [sərəncamına] görə, bugünlərdə Bakı qalabəyisi [komendantı] dəftərxanasının təftişinə şüru olunacaqdır [başlanacaqdır]. Həmin təftişə məzkur [deyilən] dəftərxanada axır vaxtlar vüqua gəlmiş olan bir çox sui-istemallar [sui-istifadələr] səbəb olmuşdur. Müfəttişliyə qubernator dəftərxanasının məhkəmə işləri şöbəsi müdiri F. A. Krıjanovski təyin edilmişdir.

### Cərimələr

- Balaxanı-Sabunçu qalabəyisinin binagüzarlığına görə, Bülbülə kəndi əhilləri Haşım Məhəmməd oğlu, Şəfi Məhəm-

məd oğlu, Gülməhəmməd Soltan oğlu, Səfər Şirməhəmməd oğlu, Sumbat Fərzəli oğlu, Haman Feyzulla oğlu və Əlihüseyn Əbdüləli oğlu müzir [zərərli] şəxslər olduqlarından, hər birisi bir ay müddətinə həbs edilmişlərdir.

- "Kaspi" şirkətinin prikazçiki Sadıq Yusifov icazəsiz olaraq üçaçılan tüfəng saxlamaqda müqəssir hesab edilərək, 200 manat cərimə edilmişdir. Cəriməni verə bilmədiyi halda iki həftə müddətinə həbsə alınacaqdır.

**Öldürmək**

Martın 31-də səhər saat 10 radələrində Şüvəlan kəndində Bakı əhli Hacı Məhəmmədhəsən Cavadovun arvadı Xeyrənsə Qasım qızı tüfəng gülləlləri ilə öldürülmüşdür. Qatil məzkurənin [adı çəkilən qadının] ögey oğlu Hacı Rüstəm Hacı Məhəmməd oğlu tövqif [həbs] edilərək istintaqa göndərilmişdir.

**Qarət**

Balaxanski küçədə sükunət edən Əbdülislam bəy Hacınski təhərri [axtarış] polisəsi müdirinə məlum etmişdir ki, onun qulluqçusu Yevdokiya Pavlovna Alimaskina özü evdə olmadığı halda 60 min manatlıq ev müxəlləfatı [əşyası] oğurlamışdır. Təhərri polisəsi tərəfindən ittixaz edilmiş [həyata keçirilmiş] olan tədbirlər nəticəsində qulluqçu tövqif edilmiş və malın bir hissəsi onda tapılmışdır. Qalan şeylər isə onun əri Yakovda tapılmışdır. Onlar hər ikisi həbsə alınmışlardır.

**Oğurluğa qəsd**

Aprelin 3-də, gecə saat 12-də Binəqədidə "Kaspi" şirkətinin mədəninə dörd müsəlləh [silahlı] şəxs gəlib qayış və qeyri şeylər oğurlamaq istəmişlərsə də, qarovulçu onlara mane olmuş və 6-cı uçastokdan da qaradovoylar gəldikdə onlarla atışmışlardır. Bir qədər atışmadan sonra oğrular Biləcəri kəndinə qaçıb gizlənmişlərdir.

**Mühazirə**

Çaharşənbə günü aprelin 9-da saat 4-də Suraxanıda, "Narodnı dom"da [Xalq evində] "Müsavat" tərəfindən Əbdülvahab Məhəmmədzadə "Milliyyət və sosializm" barəsində leksiya oxuyacaqdır.

"Müsavat"ın proqramına hüsn-rəğbət göstərən mütəəllim [şagird] və tələbələrdən rica olunur ki, cümə günü aprel ayının 11-də "Müsavat" idarəsində, Parlaman binasında saat 4-də vüqu bulacaq iclasa təşrif gətirsinlər.

*Bir qaç mütəəllim [Bir neçə şagird]*

**DÖVLƏT QULLUQÇULARI İTTİFAQINDA**

Aprelin 4-də Bakı Kazyonnaya Palatasının [Xəzinə Palatasının] binasında Hökumət Müəssisələri Xidmətçilərinin İttifaqı tərəfindən dəvət edilmiş olan nümayəndələr iclası vaqe olmuşdur [baş tutmuşdur]. İclasda məzkur [adı çəkilən] İttifaqın Həmkarlar İttifaqına daxil olması məsələsi müzakirə edilmişdir. Bir çox müzakirə və mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra iclas zeyldəki [aşağıdakı] qətnaməni qəbul etmişdir:

*"Hökumət müəssisələri xidmətçilərinin nümayəndələr iclası kəndi İttifaqının Həmkarlar ittifaqına mülhəq olmaması [birləşməməsi] məsələsini müzakirə edərək böylə qərara gəldi ki, əvvəla Həmkarlar İttifaqı Şurası kəndisinin fəqət [ancaq, sadəcə] həmkarlar təşkilatını birləşdirib vəzifəsi bu yolda işləmək olduğunu nəzərə almayaraq, bütün iqtisadi işləri siyasi cəhətdən və fəqət bu nöqteyi-nəzərdən olaraq həll etmək məqsədində bulunur və hətta siyasi işlərə qarışmağı və bu xüsusda olan bir çox məsələlərin kəndi tərəfindən müzakirə edilməsini doğru və qanuni zənn edir. Halbuki, bəzi həmkarlar ittifaqının böylə məsələlərlə qətiyyən əlaqədar olmayıb bu yolda çalışmaları doğru olmasa gərək. Hökumət Müəssisələri Xidmətçilərinin İttifaqı isə kəndi mövcudiyyət və fəaliyyəti əsasını heç bir siyasi işə qarışmamaqdan ibarət bilib və bu məsələyə mənfi nəzərlə baxır.*

*İkincisi, Hökumət Müəssisələri Xidmətçilərinin İttifaqı bütün öz hərəkat və fəaliyyətində və üzvlərinin xidmət işlərində kəndi xidmətçilərini təzyiq etməklə onlardan bəhrədar olmaq [faydalanmaq] istəyən iş sahibləri ilə deyil, bəlkə bir hökumətlə əlaqədardır ki, o da öz xidmətçilərini incitmək, onların zəhmətlərindən istifadə eyləmək məqsədində bulunammaz.*

*Binaənileyh [ona görə], müzakiratda bulunmaq tələbatın[ın] əsasını müəyyən etmək və bilaxirə [sonra] İttifaqın qərardadlarını qövldən feilə [sözdən işə] gətirmək, vəsilələr [vasitələr] axtarmaqdan ötrü ümumi bir lisan aramaq Hökumət Müəssisələri Xidmətçilərinin İttifaqına mühəvvəl olunur [tapşırılır] və bu barədə ona lazımi ixtiyarat dəxi verilir. Bunu nəzərə alaraq nümayəndələr iclası Hökumət Müəssisələri Xidmətçiləri İttifaqının Həmkarlar İttifaqı Şurasına daxil və mülhəq olmasını imkan xaricində bulur."*

**AZƏRBAYCAN ZABİTANI ŞƏRƏFİNƏ TƏNTƏNƏLİ ZİYAFƏT**

Bakıya varid olmuş [gəlmiş] Azərbaycan ordusu zabitanı [zabitləri] şərəfinə Şəhər tərəfindən aprelin 7-də Yay Klubunda qayət mütəntən [təntənəli] bir ziyafət verildi. Klubun mənzili başdan-başa xalılarla təzyin edilib [bəzənib], Azərbaycan bayraqları məclisə başqa bir zinət verirdi. Salonda 400 nəfər qonaq üçün süfrə hazırladılmışdı. Məclisdə Azərbaycan Hökuməti – başda Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətləri, Parlaman üzvləri – başda Parlaman sədri Həsən bəy Ağayev həzrətləri, Azərbaycan zabitləri – başda Hərbiyyə naziri general Səməd bəy Mehmandarov həzrətləri, Azərbaycanda Dağıstan siyasi nümayəndəsi, Gürcüstan nümayəndəsi Kartsivadze, Ermənistan nümayəndəsi [Tiqran] Bekzadyan cənabları, Bakı əyanları – başda Hacı Zeynalabdin Tağıyev cənabları, uprava [Şəhər İdarəsi] üzvləri – başda Şəhər qlavası İlyuşkin, Duma qlasnıları – başda Qasım Qasımov cənabları, Bakı ziyalıları, Erməni Milli Komitəsi nümayəndələri, Parlaman fraksiyalarının liderləri, mətbuat nümayəndələri isbati-vücud [iştirak] edirdilər.

Saat 9 radələrində qonaqlar öz yerlərini tuturlar. Sədri-məclisdə [məclisin başında] Parlaman sədri Ağayev həzrətləri yanında Hərbiyyə naziri, bütün vəzirlər, Hacı Zeynalabdin Tağıyev və sair möhtə-

rəm zatlar əyləşmişlərdir.

Şəhər qlavası İlyuşkin müxtəsər bir nitqlə ziyafəti açaraq şərəflərinə ziyafət verilən Azərbaycan zabitanını və onun sərdarı [başçısı] Səməd bəy Mehmandarov cənablarını şəhər namından təbrik edərək böylə bir şərəfli bir ziyafəti açdığı ilə özünü bəxtiyarədd [hesab] edərək, Duma sədri Qasım Qasımov cənablarını tamada təklif edir.

"Xahiş ediriz" sədaları altında Qasımov cənabları ziyafəti feilən açaraq bir nitq iradıyla [nitq söyləməklə] əsgərimizi, zabitanımızı və onun möhtərəm qoca və təcrübəli sərdarı Səməd bəy Mehmandarov həzrətlərini alqışlarla istiqbal etməyi [qarşılamağı] təklif edir. Bütün məclis ayağa qalxaraq və ciddi surətdə zabitanı alqışlarlar.

Nəhayət yemək verilməyə başlayır və natiqlər sırası açılır. Tamada hər bir natiqin müərrəfliyini edir [hər bir natiqi təqdim edir].

İlk natiq Parlaman sədri Həsən bəy Ağayev cənabları uzun bir nitq irad edərək millətin ordusuz yaşaya bilməyəcəyini, ordu millətin ruhu olduğunu bəyanla zabitanı və Hərbiyyə naziri həzrətlərini Parlaman namından təbrik edir. Yenə məclis ayağa qalxır.

Sonra Hərbiyyə naziri bir nitq ilə təşəkkür edir, alqışlanır.

Bədəhu [ondan sonra], sıra ilə Gürcüstan nümayəndəsi, Ermənistan nümayəndəsi, Dağıstan nümayəndəsi, polyak nümayəndəsi, Erməni Milli Şurası nümayəndəsi və Parlaman üzvü Malxazyan nitqlər irad edərək, həpsi Qafqazya millətlərinin səadəti birləşməkdə və ittifaqda olduğunu zikr ilə Azərbaycan ordusunun zabitanını və bu ordunu təşkil edən Hərbiyyə nazirini təbrik və sağlıqlarına qədəh qalxızırlar.

Hər bir natiqdən sonra hərbi musiqi dəstəsi tərənnümsaz olurdu.

Sonra Parlaman üzvlərindən Məhəmməd Əmin bəy Rəsulzadə, Qarabəyov, Ağamalıoğlu, Tsaxakaya, Molla Səlim [Axundzadə] cənabları nitqlər irad edirlər. Vəzirlər tərəfindən Məsai [Əmək] naziri Səfikürdlü cənabları, gürcülər tərəfindən Gürcüstanın hərbi nümayəndəsi təbrik edirlər. Nəhayət, məclisin tamadası Qasımov cənabları Rusiyanın həqiqi demokratiyası, Ermənistan, Gürcüstan, Dağıstan millətlərinin səadətlərinə, məclisdə isbati-vücud etməyən Parlaman sədri Əlimərdan bəy Topçubaşov mümməssili [nümayəndəsi] Həsən bəy Ağayev həzrətləri və Bakı əyanı qoca və möhtərəm Hacı Zeynalabdin Tağıyev cənablarının sağlığına qədəh qalxızır.

Cavab olaraq Hərbiyyə naziri Mehmandarov həzrətləri Şəhər Dumasına izhari-təşəkkürlə Şəhər qlavasının və ziyafəti idarə edən Qasımov cənablarının sağlığına qədəh qalxızır.

Saat 12 radələrində məclis qapanır, şiddətli alqışlar içində Hərbiyyə nazirini müşayiət edirlər. Sonra qonaqlar da dağılmağa başlayırlar.

Burasını qeyd etməliyiz ki, bu ziyafətdə bizə ən artıq xoş gedən iki şey vardı:

Əvvəla, bu məclisdə şərab yox idi. Qədəh qaldırıldıqda müsafirlər şərbət içirlərdi. Saniyən [ikincisi] də, ziyafət başdan-ayağa Azərbaycan və xüsusən gənc ordumuza qarşı bir məhəbbət ilə dolu idi. Sözlərdə, hərəkətlərdə müşahidə etdiyimiz səmimiyyət bunu isbat edirdi.





**BAKI QUBERNİYASINDA**

**Posta mövqiflərinin xarabalığı**

Qaraməryəm, Kürdəmir, Nəmirli, Ərəbəbdülkərim, Petropavlovka mövqiflərinin posta vəzifədarı Timofey Konstantinoviç Pozanov Bakı qubernatoruna məlum edir ki, axır vaxtlar məzkur mövqiflər [deyilən stansiyalar] dairəsində hərcmərclik və sonra türklərin hücumundan naşi [ötrü] həman yerlərdə, yəni Cavad və Göyçay uyezdlərində [qəzalarında] olan posta mövqifləri dağılıb qarət olunmuş və təmirat əşyası əhali tərəfindən aparılmışdır. O cümlədən, Nəmirli posta mövqifi dəxi qarət edilmiş, fəqət bir evi qalmışdı. İndi məlumat alınmışdır ki, evi dəxi söküb, taxtalarını qarət edirlər.

Məzkur mövqiflərin hökumətə mənfəəti olduğunu nəzərə alaraq, Pozanov qubernatordan rica edir ki, yuxarıda göstərilən kəndlərin yüzbaşılarına mövqiflərin mühafizəsi xüsusunda əmr sadir olunsun [əmr göndərilsin].

**Yüzbaşıdan şikayət**

Şamaxı uyezdi [qəzası] Abdulyan uçastoku [sahəsi] Qulular kəndi əhilləri Əliməhəmməd Hacı Məhəmməd oğlu və Məşhədi Məhərrəm Kərbəlayi Zərbəli oğlu Bakı qubernatoruna bir ərizə ilə məlum edirlər ki, məzkur [deyilən] kəndin yüzbaşısı Hüseyn Kərbəlayi Mustafa oğlu təyin edildiyi gündən bu vaxta qədər kənd camaatına artıq dərəcə zülüm və əziyyət etməkdədir. Böylə ki, hər kəsdə artıq qaramal olduğunu bildikdə, tez onları özü üçün alıb pul verməyir. Şikayət edənləri neçə günlərlə həbsə alır. Bu günlərdə məzkur yüzbaşı 24 nəfər adamdan 6-7 yüz manatdan ziyadə pul almışdır. (Bunların siyahısı dəxi qubernatora təqdim edilmişdir.) Yüzbaşının bir çox fəna hərəkətlərini və camaatla pis rəftarının göstərərək tezliklə onun əzl edilməsini [işdən qovulmasını] rica edirlər.

—

Sayad Xızı kəndi ["Müsavat"] şöbəsi tərəfindən Mərkəzi Komitəyə zeyldəki bəratülqövl [aşağıdakı protokol] göndərilmişdir:

Düşənbə [bazar ertəsi] günü, mart ayının 31-də Sayad Xızı (Təzəkənd) qəryəsində [kəndində] keçmiş Mart faciəsində demokratik Azərbaycan fikri qurbanlarının istirahəti-ruhu üçün icra olunan ayini-tərhimdən [matəm mərasimindən] sonra Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Sayad Xızı şöbəsinin idarəsində hazirun [hazır olan] kəndli əkinçilər o münasibətlə oxunan mühazirədən mütəəssir olaraq [təsirlənərək], zeyldəki qərara gəlirlər:

[1)] 19-dan 24 yaşına qədər qanunən əsgərliyə mükəlləf [borclu] olan cavanların əsgəriyyət şərəfinə nail olacaqlarına bilqibtə [qibtə edərək], sairlərin də bu feyzdən məhrum qalmamaq üçün məhmayiimkan [imkan daxilində] ümumi zabitan dəstəsi düzəltməklə demokratlarla bərabər, öz demokratik namusunu mühafizə üçün ümumiyyətlə məmləkət əhalisi təlimi-əsgəriyyət feyzi almasına müsaidə [icazə] verilməsi şöbə fraksiyonu vasitəsilə cavan hökumətimizdən istirham [xahiş] olsun.

2) Bakı qəzasına lahiq olmağımız [birləşməyimiz] üçün və miriyyəyə [hökumətə,

xəzinəyə məxsus ərazilərə] daxil olub da sabiqən [keçmişdə] öz xüsusi yerlərimiz olan alıncaq və seyfiyyələrimizin [yaylaqlarımızın] yenə bizə hürriyyət əliylə rədd olunmağıyçün [verilməsi üçün] Ərazi Vəzarəti-cəliləsinə [cəlallı Topraq Nazirliyinə] verdiyimiz ərizənin az bir zamanda Vəzarətdən izahat üçün Quba Ərazi Nəzarətinə göndərilib də şimdiyə kimi orada yatıb qalmağına etirazən sualnamə surətində mərkəzi idarəyə xəbər verib, qəzetələrə dərcini rica etmişdik. Orada bu vaxtadək yatıb qalmağı cayi-təəssüf [təəssüfə layiq] deyilmi?

1919 sənəsi 28 martda Sayad Xızı qəryəsinin şöbə üzvlərinin iclası vaqe olaraq zeyldəki [aşağıdakı] məsələlər müzakirə və həll edilmişdir:

1) Heyəti-idarə intixabı [idarə heyəti seçilməsi] və məhəllinin [yerinin] təyini. 1918 sentyabrında seçilmiş heyət eyni şəkildə qalır.

2) 18 kənddən ibarət 5 min nüfus [əhali] təxmin olunmuş işbu ictimaxanəmiz [icmamız] əhalisi üçün əqəllən [ən azından] bir bab məktəb güşadı [bir ədəd məktəb açılması] üçün Maarif Nəzarətinə; xüsusiyyətlə bu sənələrdə əhəmiyyətli olan bir müalicəxana, məhmayi-imkan [imkan daxilində] hətta bir doktor müavin[i] nə qədər bu kəndlərin mərkəzində qoymaq üçün Səhhəti-Ümumiyyə Nəzarətinə; bəzən sənət ləvazimatı [iş alətləri] yoxluğundan bikarçılığa məcbur qalan əkinçilik bacarıqlı yoxsul əhalimiz üçün borc təriqi [yolu] ilə ləvazimat sərəncamı üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] Mərkəzi Komitə vasitəsilə təşəbbüsatda bulunmaq ricasını, lüzum görüldüyü təqdirdə ayrı-ayrı müraciətnamə təriqi ilə yazıb da Mərkəzi Komitə ya başqa məqami-aidinə [aidiyyətli quruma] vermək idarəyə həvalə olundu.

## AZƏRBAYCANDA

**Füqəraya**

Şuşadan bizə yazırlar:

Novruz bayramı münasibətilə Şuşa Müsəlman Cəmiyyəti-Xeyriyyəsi əhalinin yoxsul təbəqəsinə 4050 arşın bəzzaziyyə malı [parça], 25 put səbzə, 8 put yarım çay, 35 girvənkə sabun, 65 put 30 girvənkə buğda (qovurğa üçün) və hər nəfərə 20 manat pul paylamışdır. Bütün müstəhəqlər [haqqı çatanlar] 2700 nəfər imişlər.

Bu əşyanı [şeyləri] əhali arasında təqsimə [paylamağa] Həmidə xanım Cavanşir və doktor Kərim bəy Mehmandarov cənabları çox səy etmişlərdir. Cəmiyyətin müvəffəqiyyətinə Qarabağ əsgəri valisi Xosrov Paşa bəy Sultanov cənabları dəxi artıq hümmət göstərmişlər.

**Ərzi-hal**

Quba uyezdi Ərşəli, Bəbəli və Sumaqova kəndləri camaatından Türk Ədəmi-mərkəziyyət "Müsavat" firqəsinin məlumat şöbəsinə zeyldəki ərzi-hal [aşağıdakı ərizə] təqdim edilmişdir:

"Biz sitəmdidələr [məzlumlar, haqsızlığa məruz qalanlar] Nikolayın məhv olmasına şad olduq. Haqqımız da var idi. Fəqət bu şadlığımız çox çəkmədi, qəmə mübəddəl oldu [çevrildi]. O zülümlər ki, biz avam camaatın başına gətirirlər, onlardan yüzdə birini yazsaq, yenə qurtarmaz. Hər halda dünya boş olmaz deyə sizi milli bir firqə və kəndçi tərəfdarı bildiyimizə binaən [bildiyimizdən ötrü] acizanə rica ediriz ki, türklük və islamlıq adına bizə bir çarə edəsiniz.

Əvvəla, Dəvəçi mahalı Ərşəli kəndi əhli Zeynalabdin Nəcəf oğlu, Balabəy Ağabəy oğlunun yerini Mövlud əfəndi Əfəndizadə güclə tutub satıb özgəsinə. İndi həman yer sahibləri gedib onun yanına nə qədər yalvarıblar, heç bir əsər olmayıb. İndi naəlac qalıb hərəsi öz atını satıb bir danə beşaçılan tüfəng almış və yerin üstündə oturmuşlar. Deyirlər ki, hərkəs yerin qırağına gəlsə atışacaqlar. Əgər bu günlərdə bunlara çarə olmasa, axırı məlumdur, nə olar.

İkinci, yüzbaşı Yarəli Məhəmmədbağır oğlu Ərşəli kəndinə gəlib hökm eyləyib ki, gərək 15 put arpa və 100 manat pul verəsiniz və filfövr [dərhal] bu şeyləri alıb aparmışdır.

Dəvəçi pristavının kazakı Heybət bəy Ərşəli kəndinə gəlib kəndin vəkili Gülhüseyn Allahyar oğlunu döyə-döyə atı üçün bir araba saman aparmağa məcbur etmişdir. Sonra, Gülhüseyn Dəvəçidə pristava şikayətə gedibsə, orada dəxi bir qədər kötək yeyəndən sonra kor-peşman qayıdıb kəndə.

Əsgərlik barəsində əgər istəyəsən yazasan, onda gərək bir kitab yazasan. Kim ki, varlıdır, pul verib öz oğlunu əsgərlikdən xilas eyləyir. Yazıq kasıb heç əsgərə düşməyə-düşməyə əsgər gedir. Belə ki, Sumaqova kəndinin əhli Nizam Qədəş oğlu, Musa Cabbar oğlu, Ağahüseyn Həsən oğlu hərəsi 3 min manat verib oğlanlarını əsgərlikdən qurtarıblar və Nəsir Əcəm oğlundan 700 manat, Babayar Tağı oğlundan 500 manat pul və bir xalça – bunları alan Sumaqova kəndi yüzbaşısı Muxtar Əfəndizadədir və yenə Xubyar Xudayar oğlundan qardaşını əsgərlikdən pozdurmaq üçün iki min manat Nikolay pulu və bir min manat bon pulu və bir dənə yaxşı qoç Parlaman üzvü [Əfəndizadə] Həmdulla əfəndinin qardaşı Şəmsəddin Əfəndizadəyə vermişdir və yenə Sumaqova əhli Babacan Ağayar oğlunun bir dənə öküzü olub, hansı ki, Sədrəddin əfəndi istəmişdi, fəqət özgə bir adam 4 min manat[a] istəyib və alıb aparmışdır. Ona görə də Sədrəddin əfəndi yüzbaşı Muxtar Əfəndiyev və Həmdulla əfəndinin oğlu Zəbihşah öküz sahibini gətirdib döydürmüşdür, sonra min doqquz manat alıb buraxmışlardır. Özünün başına at noxtası vurub 15 verst yolu gəzdiriblər.

Əgər bu qaydanı yazaq, qorxuruq iştibaha [şübhəyə] düşəsiniz. Hər halda müavinətinizi diləriк. Əgər istəsəniz özünüz biləsiniz, o vaxt Sumaqovadan Rüstəm Qədəş oğlu, Molla Nəqdi Şeyxəli oğlu, Sidqi Məhəmməd oğlu, Babacan Ağayar oğlu və Ərşəli kəndindən Gülhüseyn Allahyar oğlu, Zeynalabdin Nəcəf oğlu və Bəbəli kəndindən Əhməd Məhəmməd oğlunu çağırıb soruşasınız.

*İmzalar*

## GÜRCÜSTANDA

**Gürcüstana ərzaq**

Tiflisdən xəbər verirlər ki, Müttəfiqlərlə əqd edilən müahidənaməyə [imzalanan sazişə] görə, bu gün – martın 29-da Gürcüstan Hökuməti taxıl almağa başlayıb, 20 min put taxıl təhvil almışdır. Seşənbə [çərşənbə axşamı] günü taxılın başqa hissəsi alınıb, bu qərar üzrə Müttəfiqlər vəd

[olunan] taxılın qalanını da təyin edilən vaxtlarda verəcəklərdir.

**Tomsonun övdəti [qayıtması]**

Öz ərkani-hərbi [hərbi qərargahı] ilə Qarsa getmiş olan general Tomson Tiflisə qayıtmışdır.

**Gürcüstan siyasi nümayəndəsi**

Gürcüstan Xariciyyə naziri Kuban Hökumətindən məlumat almışdır ki, Gürcüstan Hökumətinin Kuban Hökuməti nəzdində siyasi nümayəndəsi olmasına mümaniət [maneçilik] yoxdur.

**Soçi nahiyəsində**

Tiflisdə alınan mövsuq [etibarlı] məlumata görə, Soçi nahiyəsi Könüllü ordudan təmizlənməkdədir.

**Kaçaznuninin İrana əziməti**

Ermənistan Hökuməti rəisi Kaçaznuni martın 29-da Tiflisdən İrana əzimət etmişdir [getmişdir].

**Şəhər xidmətçiləri tətili**

Tiflis Bələdiyyə İdarəsinin Sosial-demokrat fraksiyası tətil edən Bələdiyyə İdarəsi xidmətçilərinin qulluqdan kənar edilmələri qərarının öz əvvəlki qüvvəsində qalmasını və təzə xidmətçilər cəm etməyə başlamağı qəbul etmişdir.

**Gürcüstan maliyyə işləri**

Gürcüstandakı maliyyə böhranı o qədər şiddət etmişdir ki, uzun müddət ərzində məvacib almayan poçta-teleqraf xidmətçiləri məvacib hesabına olaraq poçta ilə göndərilən pulları özləri üçün götürürlər.

## ERMƏNİSTANDA

**Ermənistan Parlamanı**

May ayında Ermənisanın təzə Parlamanına və zemstvo idarələrinə [yerli özünüidarə qurumlarına] intixablar [seçkilər] başlanacaqdır.

**Nubar paşanın ianəsi**

Poqos Nubar paşa öz sərmayəsindən Ermənistan acları nəfinə [xeyrinə] bir milyon yarım ianə etmişdir.

## ELANLAR

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*





**Diş həkimi**
**M. B. Şternin**

Naxoşları hər gün saat 9-dan 2-yədək, 4-dən 7-yədək qəbul edir. Dişləri ağrısız çəkir. Ünvan: Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə.

*5735*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 132. "Kral Albert": 1909-1934-cü illərdə Belçika kralı olan I Albert nəzərdə tutulur.

"Exo de Pari" [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet.

**Sülh ətrafında**

səh. 132. "Parisdə yeni Ümumrusiya Hökuməti təşkil edilmişdir.": 1918-ci ilin axırlarında Parisdə yaradılan və 1919-cu ilin ortalarında öz fəaliyyətinə son verən Rus Siyasi Müşavirəsi [Русское политическое совещание] nəzərdə tutulur.

səh. 133. "Jurnal de Deba" (yaxud "Jurnal de Deba Politik e Literer") [Journal des Débats Politiques et Littéraires]: 1789-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

**Qəzetələrdən**

səh. 134. "O. L.": 1880-1920-ci illərdə Odessada nəşr edilən "Odesskiy listok" qəzeti nəzərdə tutulur.

**Azərbaycan haqqında**
**tarixi, ədəbi və siyasi məlumat**

səh. 136. "Heute hat bei mir sich Seele und Liebe vereint...": (Almanca) "Canımda bu gün can ilə canan birikibdir" misrası ilə başlayan bəndin tərciməsi.

"birikibdir": bir olubdur, bir yerə cəm olubdur.

səh. 137. "Das Muttermal auf deinem Gesicht...": (Almanca) "Bu dağın o üzündə" misrası ilə başlayan bəndin tərcüməsi.

"Bu torpağın təbii gözəlliyi, deyəsən, orada vücuda gələn musiqi, ədəbi və şairi

zatları ruhlandırır.": Belə başa düşülməlidir: "Bu torpağın təbii gözəlliyi sanki orada meydana çıxan musiqiçi, ədib və şairlərə ilham verir."

səh. 138. "toz tutmuş": qəzetdə "toz" yerinə "yüz" getmişdir.

"cüng": əlyazması halında şeir dəftəri; cünglərdə adətən müxtəlif şairlərin şeirlərindən nümunələr toplanırdı.

səh. 139. "Hərgah, doğrudan da müsəlmanlar...": belə başa düşülməlidir: "Əgər doğrudan da müsəlmandırlarsa..."

**Azərbaycan qoşununda məslək**

səh. 141. "Çingizlər, teymurlar, ildırımlar, fatehlər...": Tarixin ən görkəmli sərkərdələri hesab olunan Monqol imperiyasının banisi Çingiz xan və Teymurilər dövlətinin banisi Əmir Teymur, Osmanlı padşahı İldırım Bayəzid və İstanbulun fatehi olan Osmanlı sultanı II Məhməd nəzərdə tutulur.

"Napoleonlar, suvorovlar...": Fransa imperatoru I Napoleon və rus sərkərdəsi Aleksandr Suvorov nəzərdə tutulur.

"Xudaya, imperatoru saxla": 1833-1917-ci illərdə Rusiya imperiyasının dövlət himni olan "Boje, tsarya xrani" marşı nəzərdə tutulur.

**Mətbuat**

səh. 144. "Senyoren Konvent": Qanunverici orqanda, siyasi partilərin liderlərindən ibarət Şura.

**Azərbaycan zabitanı şərəfinə təntənəli ziyafət**

səh. 147. "Gürcüstan nümayəndəsi Kartsivadze": qəzetdə "Kartsivadze" yerinə səhvən "Kortviladze" getmişdir.

**Bakı quberniyasında**

səh. 149. "Nəmirli": qəzetdə bu ad təhrif edilmişdir.

**Azərbaycanda**

səh. 150. "Quba uyezdi Ərşəli, Bəbəli və Sumaqova kəndləri...": qəzetdə kəndlərin adı təhrif edilmişdir.





**Cümə axşamı , 10 aprel 1919-cu il, nömrə 154**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 9 rəcəbül-müraccəb sənə 1337. 10 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

İsmayıl bəy və Tağı bəy Səfərəliyevlər öz sevgili qardaşı oğlu **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ağa bəy, Əliisgəndər bəy Səfərəliyevlər öz sevgili əmisi oğlanları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Paşa və Həsən Dadaşovlar öz sevgili əmisi nəvəsi **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Əhmədəli, Həsən, Əsəd Hacıyevlər öz sevgili arxadaşları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Məhəmməd bəy, Əli bəy, Hüseyn bəy Səfərəliyevlər öz sevgili qardaşları Həsən bəy Səfərəliyevin aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Hacızadə İsmayıl Haqqı bəy öz sevgili arxadaşının **Səfərəliyev Həsən bəyin** nisan səkkizində vəfat etdiyini kamali-hüzn və təəssüf ilə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

**Ey qara torpaq**

Yetişir, vah, yetişir, çəkdirdiyin ahlar
Ey alçaq, aləmə cəlladmı gəldin
Mərhəmətsiz, bir metro münbit top-
rağında yatıyor yüz minlərlə aslanlar
Bax, səni şəkva [şikayət] edərəm Xudayi-
ləmyəzələ [əbədi olan Allaha]
Mən qıymaz idim Həsənin
birçəyinin bir telinə
Ah, sən necə qıydın bu gənc vətənin
cavan övladının canına
Lazım olmazmıydı bu vətənə
Həsən bəy kimi gənclər
Ah, xain topraq, mən der idim
Həsən bəşəriyyət suyunda
dal-budaq [qol-budaq] atacaq
Ah, nə çarə, qədərdə böylə imiş,
o cavan canını sənin kimi
alçaq qara topraq yutacaq
Axırı Həsənə tabut ilə
kəfəni yoldaş olacaq
Aç, vətən, sinəni ilahına aç
De ki, ey alçaq qara topraq,
aləmə cəlladmı gəldin
Ey kafir, tez çıxar,
çıxar bu kimi gəncləri ortaya saç
Mənim qardaşım,
Allah sənə çox rəhmət eyləsin
Cənnət cəmalıyla sevindirsin
Mən səndən razıyam,
Allah da səndən razı olsun
Allah rəhmət eyləsin
Amin

*İsmayıl Haqqı*

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Əliəsgər Hüseynov öz sevgili bacısı oğlu **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Kamil bəy, Xosrov bəy və Sadiq bəy Səfərəliyevlər öz sevgili əmisi oğlanları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

**İNNA LİLLAHİ
VƏ İNNA İLEYHİ RACİUN**

Məhəmməd Məhəmmədov, İbrahim Əsədullayev, Əlisəttar Babayev və Bəhman Əliyev öz sevgili arxadaşları **Həsən bəy Səfərəliyevin** aprelin 8-də Tiflisdə bivaxt vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər.

Mərhumun cənazəsi bu gün aprelin 10-da Şaxski küçədə öz 25 nömrəli evlərindən Təzəpir məscidinə aparılacaqdır.

**ELAN**

1919 sənəsi aprel ayının 10-da pəncşənbə [cümə axşamı] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

*T-96*

**OPERA**

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti
Cümə günü rəcəbül-mürəccəb [mübarək rəcəb] ayının 10-da 1337 sənəsi (aprelin 11-də 1919-cu ildə) təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaq Üzeyir Hacıbəylinin yazmış olduğu məşhur
**"Şah Abbas və Xurşidbanu"** operası.
Böyük musiqi dəstəsi, qızlar və oğlanlar xoru və balet.
Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

**ELAN**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, aprelin 11-də saat 12-də Təsərrüfat şöbəsinin dəftərxanasında Bulvarda Kazyonnı pristan ilə rubəru [üzbəüz] olan şəhər budkasının icarəyə verilməyi üçün torq [hərrac] olacaqdır. Müzayidə şəraitini [hərrac şərtlərini] şöbənin dəftərxanasında saat 9-dan 3-ə qədər oxumaq olar.

*T-95*

Aprel (nisan) ayının onunda Bakıda "İttihad" firqəsinin ümumi deleqat iclası vaqe olacaqdır. Azərbaycanda mövcud olan firqənin ümum şöbələri tərəfindən şu iclasa nümayəndələr intixab edib [seçib] göndərməlidirlər. Hər şöbə əzasının [üzvlərinin] miqdarına nisbətən hər iyirmi kişiyə [nəfərə] bir nümayəndə göndərməlidir. İclasda müzakirə ediləcək məsələlər: 1) Mərkəzi-ümumi intixabı; 2) Proqram məsələsi; 3) Başqa məsələlər.

*5792*

**QİSMİ-RƏSMİ**

**Ərzaq Nəzarətindən**

Əmrnamə nömrə 124

6 aprel 1919

Ərzaq naziri müvəkkili Yusifəli Əliyev Azərbaycan Məclisi-Məbusanına xalq nümayəndəsi seçildiyindən 1919 sənəsi fevralının 21-də istefası haqqında ərizə verмişdir.

Təhti-idarəmdə bulunan Nəzarətin [idarəm altındakı Nazirliyin] bu sədaqətli, yorulmaz və hər cəhətdən eyibsiz xidmətçisi ilə kədərlə ayrılaraq, xidmət namından ona bəyani-təşəkkür etməyi bir vəzifeyi-məhzuzədd edərək [məmnuniyyət verən bir iş hesab edərək] yeni, ali və məsuliyyətli xalq nümayəndəliyi vəzifəsində də ona səmimi-qəlb ilə müvəffəqiyyət dilərəm.

Yusifəli Əliyevin istidasını [xahişini] qəbulla, bu il fevral ayının 21-dən etibarən onu xidmətindən azad edir.

*Ərzaq naziri Lizqar*

**ƏYRİ YOL**

Gəncə Türk Müəllimləri İttifaqı tərəfindən Maarif Nəzarətinə qarşı şikayət və tətili təmdid [uzatmaq] məzmunlu bir teleqram alındığını qəzetələrdə oxuduq.

Müəllimlər İttifaqı Maarif Nəzarətindən şikayət edirlər ki, "sair Nəzarətlər öz məmurlarının maaşını art[ır]dığı halda, Maarif Nəzarəti bu xüsusda heç bir iş görməyib", müəllimlərin halına yanmır. Buna görə Gəncə Türk Müəllimlər İttifaqı Nəzarətin bu tövr "müamiləsinə" [rəftarına] qarşı protesto olmaq üzrə üç günlük tətil elan edibdirlər.

Müəllimlərin, baxüsus [xüsusilə] xalq müəllimlərinin məvacib azlığı xüsusunda iki rəy ola bilməz. Müəllimlər məvacibi indiki məişət şəraitinə görə o qədər azdır ki, o az pul ilə güzəran etmək dedikcə çətin bir əmrdir [işdir]. Məsələn, xalq müəllimlərinin məvacibi olan dörd yüz otuz beş manata nəinki külfətdar [külfət sahibi] və ailə sahibi olan bir müəllim, hətta subay adamlar da dolana bilməzlər. Halbuki təlim və tərbiyə kimi olduqca ağır və məsuliyyətli bir vəzifə ilə mükəlləf olan [vəzifə daşıyan] müəllim bu vəzifəsini layiqincə ifa edə bilmək üçün məişət qayğısı kimi əngəl və mümaniətlərdən [maneçiliklərdən] bilkülliyyə [tamamilə] asudə olmalıdır. Asudə olmazsa, şübhəsiz, ifayi-vəzifə yolunda yoxsulluq qayğılarına düçar olub da hər dəfə dayanmaq və bu qayğıları rəf etmək [aradan qaldırmaq] üçün vəzifə xaricində işlər görmək məcburiyyətində olar. Bu isə bir gündə gedilə bilən yolu on gün təxirə salar.

Çox az müəllim tapılar ki, özünün və ailəsinin ac və ənvai [müxtəlif] ehtiyac içində olduğu əmrə göz yumub da bütün diqqətini məhz ifayi-vəzifə üçün münhəsir [həsr] edə. Zatən öylə bir müəllim olsa da, onun bu hərəkəti ailə sahibliyi nöqteyi-nəzərindən şayani-təhsinədd edilə bilməz [təqdirəlayiq sayıla bilməz]. Çünki hər kəs özünün və baxüsus ailəsinin mürəffəhülhal [rifah içində] dolanması xüsusunda çalışıb qeydkeş olmalıdır.

Müəllim məvacibinin azlığı bir çox müəllimləri və hətta müqtədirlərini [güclülərini, təcrübəlilərini] öz vəzifəsindən əl çəkib də başqa "kəsb" [qazanc] dalınca getməyə vadar etdiyindən, müəllimə möhtac olduğumuz bu zamanda müəllim azlığı çəkirik. Vaqiən [doğrudan da] əgər işlər böylə gedərsə, bir az çəkməz ki, böyük müharibənin cürbəcür tühəf [qəribə] nəticələri qəbilindən ədd edilən [sayılan] və hər yerə yayıldığı kimi bizim aramızda dəxi "hakimiyyət" edən "alver", daha doğrusu, "ispekulyas" həvəsi ümum müəllimlərə də sirayət etmək üçün müsaid bir şərt bulunub müəllimlərimizi bilkülliyyə əlimizdən alar.

Lakin müəllimlərimizin məvacib azlığını iqrar [təsdiq] və maaşlarının artırılmaq lüzumunu etiraf etməklə bərabər, Gəncə Müəllimlər İttifaqının maaş artırmaq haqqında ibraz etdikləri [nümayiş etdirdikləri] hərəkəti, yəni protest və tətil təmdidi əməllərini heç də xoşlaya bilmərik.

Zənnimizcə, zabastovka işi müəllimlər sinfinə yaraşan hərəkətlərdən deyildir.

Müəllim ilə Maarif Nəzarətinin münasibatı, fəhlə ilə sahibkar münasibatı kimi ola bilməz və müəllimlik işi dəxi çarx işlətmək deyildir. Müəllimlər dövlətimizin maarifi yolunda çalışmaq vəzifəsini mükəlləf olan Maarif Nəzarətinin əzalarıdırlar [orqanlarıdır]. Burada "zəhmət və kapital" mübarizəsi yoxdur. Ola bilsin ki, bu gün Maarif Nəzarətində nəinki yalnız bir müəllimlərin, bəlkə nazirin özündən tutmuş başqa məmurların dəxi məvacibi azlıq edir. Bu nöqteyi-nəzərdən müəllimlər tətili, fəhlə tətilinin sahibkarın cibinə verdiyi zərər və hissiyyatına vurduğu əsər qüvvətində olmayıb, ancaq bir siyasi və bir də pedaqoji cəhətcə istiqlalımıza qarşı sui [mənfi] təsirlər buraxa bilər ki, bunu da müəllimlərimiz başa düşmək istəmədiyi halda, kim istər?

Siyasi cəhətinə gəlincə, bunu deməliyik ki, fəhlə sinfi iqtisadi tətil və zabastovka elan edərkən, bu tətil həman iqtisadi rəngdə baqi qalır. Halbuki Türk Müəllimlərimiz İttifaqı bu gunə [bu növ] iqtisadi tətilə mübaşir olarlarsa [başlasalar], bunun nəticəsi başqa olar. Tətil işi iqtisadi rəngdən dönüb, siyasi rəngdə nəticələr törədə bilər. Bu gün Türk Müəllimlər İttifaqı, yarın Türk Məmurlar İttifaqı və o biri gün başqa bir türk təşkilatı iqtisadi də olsa tətillər yapmağa başlarsa, axırda məmləkətimizdə intizamsızlıq və "demoralizatsiya" əmələ gəlib anarşi halına qədər sürünərik. Və bir də Azərbaycana qarşı bədxah olanların cürbəcür iqtisadi və siyasi tətil və zabastovkaları bizi o qədər təciz edibdir [incidibdir] ki, ruhumuz belə inciyibdir. Odur ki, türk müəllimlərinin tətil etməyi, əminik ki, yalnız bədxahlarımız tərəfindən məmnuniyyətlə və razılıqla qarşılana bilər.

Pedaqoji cəhətincə dəxi bu tətilin heç bir müəllimin istəməməyi lazım gələn sui təsirlər bəxş edəcəyi aşkardır. Müəllimlərin tətili mütəallimlərə [şagirdlərə] fəna surətdə əsər [təsir] edər, şagirdanın [şagirdlərin] əxlaqını pozar. Mütəallim öz müəllimini adi şəxslər cümləsindən hesab etməyir, ona ruhani [mənəvi] və müqəddəs bir ata nəzərilə baxır. Əgər bu ata məvacib azlığına görə "küsüb" məktəbi boşlarsa, o halda onun ruhanilik nüfuz və heysiyyəti mütəallimin nəzərindən düşər, müqəddəs ehtiram aradan götürülər. Əlavə, müəllim məvacibi azlığında hər kəsin günahı varsa, hər halda hamıdan günahsız şagirdlərdirlər. Öylə olan surətdə tətil əməlinin sui təsiri nədən ötrü bilavasitə bu günahsızlar üzərində olsun! Təlim işi onsuz da bu il intizamsız bir surətdə icra edilir. Əgər bu intizamsızlıq bir də müəllimlər tətili ilə bərkiyərsə, o halda deməli, bu ilin təlim işi heç!

Bunlar hamısı keçəndən sonra Gəncə Türk Müəllimlər İttifaqının Maarif Nəzarətimizi ətalət və qeydsizlikdə ittiham etməsi haqsızdır. Orası doğru deyildir ki, "sair nəzarətlər öz məmurlarının maaş artırılması əmri haqqında çalışarkən Maarif Məzarəti çalışmır". Bizə məlum olduğu üzrə Maarif Nəzarəti, maarif müfəttişləri yığıncağı günündən bəridir ki, müəllimlər maaşı artırılması xüsusunda böyük bir qanun layihəsi hazırlamaqdadır ki, o qanun layihəsi əgər Nazirlər Şurasından və Parlamandan keçərsə, müəllimlər halının yaxşı olmasına çox təfavüt edib, məişətlərini yüngülləşdirər. Zənn edirəm Maarif Nəzarətində bu xüsusda qanun layihəsi hazırlandığı fəqərəsi [məsələsi, hadisəsi] Gəncə müəllimlərinə dəxi məlumdur. Çünki bu xüsusda onlara deyilibdir. Böylə olan surətdə, birdən-birə tətil elanının və Maarif Nəzarətinə qarşı şiddətli bir lisanla protesto yapmağın başqa mənasını anlaya bilmirik. Hər halda Müəllimlər İttifaqı maaş artırmaq tələblərini zabastovkalarla keçirmək istəyəcəksə, istiqlaliyyətimiz nöqteyi-nəzərindən əyri yollarla getmək qəsdində olduğunu bildirəcəkdir. Bu isə arzu edilməyən hallardandır.

Maarif Nəzarətinin yalnız bir işinə heyfislənmək gəlir ki, bu layihəni tezliklə düzəldə bilməyibdir ki, müəllimlər vaxtında maaşları artırılmaqla şikayət etməyə məcbur olmasınlar. Lakin Maarif Nəzarəti işlərindən dürüst xəbərimiz olduğuna görə, biz ona heyfislənməyirik ki, Nəzarətin işləri ətalətlə keçir. Bəlkə heyfislənməyimiz işin çoxluğuna və vaxtın azlığınadır.

*Hacıbəyli Üzeyir*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**19-cu iclas**

*(keçən nömrədən mabəd)*

**Sədr** - Söz Parlaman üzvü Malxazyanındır.

**Malxazyan** - Azərbaycan Parlamanının möhtərəm üzvləri! Mövqeyi-müzakirəyə qoyulmuş olan Daxiliyyə Nəzarəti layihəsinin iki cəhəti vardır. Birisi rəsmi cəhətdir ki, layihənin dürüst və qanuni olduğunu təhqiq etmək, digəri isə daxili qismidir.

Rəsmi cəhətdən bəlkə etiraz olmaya da bilər, fəqət daxili cəhətinə, daha doğrusu layihənin təqib etdiyi məqsədlərə erişmək üçün yürüdülən xətti-hərəkətə etiraz edilər. Hər məmləkətdə Daxiliyyə Nəzarəti bir köşə daşıdır ki, dövlət ideyasının təhkim və təsisi işləri, nizam və asayiş bərpası, qanun, səlaməti-şəxsiyyə və mülkiyyə [şəxsiyyət və mülkiyyət toxunulmazlığı] əsasları həp onun üzərində icra olunur. Daxiliyyə Nəzarəti bir hökumət qəbul və təsdiqi ideyasını yaradıb möhkəmləşdirə də bilər, onu dağıda da bilər. Parlamana təqdim edilmiş olan layihənin müəllifləri bunu yaxşı bilirlər və məmurların miqdarı və məvaciblərin artırılmasının qəbul və təsdiqinə səbəb olmaq üzrə bunu göstərirlər ki, Daxiliyyə Nəzarəti xidmətçiləri, ümumiyyətlə çox çətin və ağır vəzifə ilə müvəzzəfdirlər [vəzifə daşıyırlar] və hərc-mərc vaxtı bütün Nəzarətlərin məmurları işsiz olduqları halda, Daxiliyyə Nəzarəti xidmətçiləri bilaaram [fasiləsiz] daha da artıq zəhmətlə işləmişlərdir. Mən buna əlavə edirəm ki, nəinki "işləmişlərdir", hətta işləyəcəklər də. Cümhuriyyətin təşkilat işləri sair Nəzarətlərin həpsindən ziyadə Daxiliyyə Nəzarətinin öhdəsindədir. Fəqət, madam ki, qanunun qəbulu üçün "ciddi və ağır iş"dən bəhs olunur, bu işlərə bir qədər dərindən baxmağa cəsarət edirəm. Tənqid iki cür olar: birisi dağıtmaq, yıxmaq üçün; digəri tikmək və dövlət həyatını qeyri-mümkün edən şəraitin izaləsinə [aradan qaldırılmasına] çalışmaq. Şimdi mən Nəzarətin fəaliyyətini tənqidə keçərkən rica edirəm inanasınız ki, məqsədim cavan cümhuriyyətin təşkilat işlərinə, təsdiqinə və müxtəlif millətlərin münasibatının yaxşılaşmasına mane olan şərait və əngəlləri zail olmuş [yox olmuş, aradan qalxmış] görməkdir.

Mənə etiraz edə bilərlər ki, əski istibdad və anarşidən öylə irs qalmışdır ki, onu düzəltmək, nizam və asayiş bərpa etmək az bir zamanda mümkün olan şeylərdən deyildir. Fəqət, bir dövlətin gücü[nün], nizam və asayiş[in] bərpasının çarəsi üçün bir şərt var: Cümhuriyyətin ümum vətəndaşlarının şəxsini və əmlakını təmin etmək.

Vətəndaşlar hüququ, şəxsin məsuniyyəti [toxunulmazlığı] və millətlərin təyini-müqəddərat ixtiyarını birinci sıraya çıxarmış olan Rusiya inqilabının yaradıcı fəaliyyəti Rusiyada siniflərin, Zaqafqaziyada isə millətlərin yek-digərini [bir-birini] dağıtmalarına mübəddəl oldu [çevrildi]. Nəticədə üç cümhuriyyət əmələ gəldi: Azərbaycan, Gürcüstan və Ermənistan. O mübarizə yanğınından bir fəna nəticə qaldı: milli təhəmmülsüzlük [dözümsüzlük] hissi, Azərbaycan əhalisinin böyük bir qismi-





nin həyat və məişət haqqının qəbul edilməməsi. Mən inanıram ki, hökumət başında duraraq məmləkət gəmisini idarə edənlər bu fikirdə deyildirlər. Camaat içində böylə fikirin olmasına da yol verməməlidir, çünki hər bir özbaşına hərəkət məhəllində [yerində] möhkəm hökumətin yoxluğunu göstərir ki, bununla da məmləkət yaşaya bilməz. Əgər böylə özbaşına hərəkətlər hökumətin aşağı dərəcə qulluqçularından sadir olsa [meydana gəlsə], burası bir anarşi əlamətidir ki, böylə şərait altında dövlət məsələsindən heç danışmaq olmaz. Əgər camaat, xüsusən hökumət qulluqçuları, hökumətin əmrlərinə əməl etməyirsələr yəqin ki, onlar hökuməti hiss etməyirlər. Və ona görə hiss etməyirlər ki, fəna əməlləri tənbeh və cəzasız qalır.

Böylə şeylər əhali arasında hökumətə etimadsızlıq və bu hökumətə qarşı deyil, əqəliyyət [azlıq] təşkil edən millətlərin hüququnu tanımamaq əsası ilə qurulmuş bütün məmləkəti [dövləti] qəbul etməmək uğrunda mübarizə törədir.

Boş söz olmasın deyə, cənab məbuslar, administrasiya acentlərinin cinayət işlərində iştirak və xudsəranə [özbaşına] hərəkət etmələri haqqında mənim söylədiyim fikrimi təsdiqedici bir neçə həqiqətlər söyləyəcəyəm.

Yanvarın 18-də Ələt stasyonunda 5 nəfər erməni, iki kişi, iki arvad və bir qız uşağı vəhşiyanə bir surətdə hamının gözü qabağında və qaroqolların yanında qətl edilmişdir. Bu qətl edilənlər 21 nömrəli qatarın sərnişinlərindəndir. Bu münasibətlə, hərçənd müqəssirlərin hərbi məhkəməyə verilməsi haqqında əmr sadir olmuşsa da [əmr verilmişsə də], lakin bu vaxta qədər nə məhkəmə və nə də cəza barəsində heç bir şey məlum deyildir.

Yanvarın 29-da Yevlax stasyonu yaxınlığında, stasyona gedən sərnişinlər müsəlləh [silahlı] adamlar tərəfindən qarət edilmişlərdir. Müqəssirlər tapılmamışlar. Fevralın ikinci gecəsi Ağstafada polis üzvləri Tiflisə gedən 23 nəfər ermənini döyüb incitmişlər. Bir nəfər Əsəd ağanın işə müdaxilə etməsinə görə ermənilər salamat qalmışlardır.

Fevralın 1-də Kürdəmir stasyonunda Şamaxı rayonundakı kəndlərə gedən 30 nəfər erməni 4 nəfər milisiya tərəfindən tuman-köynəklərinə qədər soyulmuşlar. Sonra stasyondan bir verst məsafədə onlar təzədən əsgərlər və milisionerlər tərəfindən mühasirə edilmişlər. Ermənilərdən 20 nəfəri qətl edilib, 10 nəfər salamat xilas olmuşdur.

Fevralın 4-də Ağstafada polisə məmurları uryadnik başda olmaq üzrə 40 nəfər ermənini poçta stasyonuna salıb, döyüb söymüşlər. Erməniləri üç gün həbsdə saxlayıb, onları ən alçaq və ədna [rəzil] işlər görməyə məcbur etmişlərdir.

Fevralın 21, 23 və 24-də Hacıqabuldan Bakıya gələn erməni sərnişinləri milisionerlər tərəfindən qarət edilmişlərdir. Ermənilər vaqondan çıxarılıb güllələnmək qorxusundan var-yoxlarını milisələrə vermişlərdir.

Gəncə rayonunda fevral ayında erməniləri tələf etmək təşviqatı ilə intibahnamələr nəşr edən [vərəqələr yayan] naməlum adamların fəaliyyəti ilə qarətgərlik şiddət etmişdir.

Gəncə şəhərində şəhərin müsəlman hissəsində bir neçə nəfər yox olmuşdur. Ən mötəbər bir müsəlmanın dediyinə

görə, Kür boyu kəndlərində hal-hazıra qədər erməni kişi və arvadları əsir saxlanırlar. Orada həbsxanalarda və uçastoklarda bilafərqi-millət [millət fərqi olmadan] məhbusları incidirlər. Nuxa rayonunda indiyə qədər hələ yüzlərcə erməni kişi və arvadları əhalinin yanında əsirdir. Ermənilərdən ötrü azad hərəkət yoxdur. Yollar ermənilərin üzərinə bağlıdır. Gəncə quberniyasının 3-cü uçastokunda quldur dəstələri hökmfərmadırlar [hökm sürməkdədirlər]. Mülkədar Məhəmmədbəyov aşkara bir surətdə öz evində öldürülmüşdür. Bundan əlavə, müsəlman rayonunda olan bir çox ermənilər qətl edilmişlərdir. Bunun nəticəsi olaraq erməni əhalisi Gorana, pristavın yanına getməkdən qorxurlar.

Fevralın 28-də və martın 8-də Kürdəmir və Poylu stasyonlarında yenə təzədən qarətgərlik olmuşdur. Hər gün yollarda qarətgərlik olub, arvadlar əsir edilirlər. Belə ki, martın 10-da Yevlax-Nuxa yolunda 16 yaşında bir qız uşağını təhqir etdikdən sonra əsir etmişlər ki, bu da müsəlman sərnişinlərinin narazılığına bais olmuşdur. Ən axır burda, Bakıda bir nəfər şamaxılının göstərdiyinə görə, martın 22-də iki nəfər erməni, təhərri [axtarış] polisəsi tərəfindən həbs edilmişdir. Bunlardan biri 55 yaşında bir qocadır. Bu tutulanlar niyə isə Şamaxıya göndərilmişlər. Bu barədə Daxiliyyə naziri cənablarına xəbər verilmişsə də, indiyə qədər o tutulanların müqəddəratı məlum deyildir.

Bunlar o həqiqətlərdir ki, məlumdur. Bunlardan əlavə Ərəş və Nuxa uyezdlərində onlarca kəndlər vardır ki, əhali qayıda bilməyir. Orada onların əmvalı [malları] və yerləri qonşuları tərəfindən zəbt edilmişlər. Belə görünür ki, onlar bu qaydanı adi bir şey hesab edirlər.

Gəncə uyezdində Qaradağlı, Sarov və qeyri bir çox kəndlər var ki, indiyə qədər onlar beynəlmiləl məsələlərində həmişə bitərəf qalmışdılar. Onlar da ümumi bəladan xilas ola bilmədilər. Onların yerləri zəbt edilib, bağları xarab edilmişdir. Onlar öz yerlərinə qayıda bilməyirlər.

Daxiliyyə Nəzarətinin vəzifəsi layihədə denildiyi kimi "xeyli ciddi və böyük işdir". Buna görə, bu hadisələri ciddi surətdə rəf etməlidir [aradan qaldırmalıdır] ki, müqəssirlər hökumət tərəfindən bir cəza olduğunu düşünsünlər. Hər bir yapılan cinayət cəzasız qala bilməz.

Möhtərəm məbusar! Hər kəs öz fəaliyyətinə qarşı məsul olmaq prinsipini mövqeyi-icraya qoymalıdır. Ancaq bu yol ilə Azərbaycan Cümhuriyyəti yolunda duran Ssilla və Xaribdanı götürmək olar. Axirüləmr [nəhayət], camaat bilməlidir ki, hökumət vardır, hökumət müdafiə edicidir. Hərgah, camaat bunu düşünərsə, o zaman dövlət təşkilatı adi halına düşə bilər. Bu münasibətlə iki nöqteyi-nəzəri bir-birinə qarşı qoymaq lazım gəlir – Hərbiyyə və Daxiliyyə Nəzarətlərinin nöqteyi-nəzərini. Hacıqabul mövqifində [stansiyasında] vaqe olan hadisədən dolayı Parlaman fraksiyası həm Daxiliyyə, həmi də Hərbiyyə Nəzarətinə məlumat vermişdi. Hərbiyyə Nəzarətinə onun üçün bildirilmişdi ki, bu qarətdə əsgərlər də iştirak etmişdi. Bundan əlavə, Daxiliyyə nazirinə bildirilmişdi ki, Gəncə dairəsində ermənilərə qarşı fitnəkarlıq gedir. Bu barədə qəzetələrdə məlumat verildiyi kimi, ümuma da əhval məlum idi. Hərbiyyə naziri





artıq diqqətlə bu məsələyə yanaşdı. Onun cavabından anlaşılır ki, Hərbiyyə naziri cavab gözləmədən, qəzetələrdən bu hadisəni bilib, müqəssirləri tutmaq üçün ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

Daxiliyyə naziri nə cavab verdi? Qarət barəsində olan suala cavab verir ki, bu əhval onun təhti-idarəsində [idarəsi altında] olmayan yerdə vaqe olduğundan, məsələnin ona dəxli yoxdur. İkinci məsələ barəsində cavab verir ki, Gəncə barəsində heç bir məlumatı olmadığı üçün bu xüsusda Gəncə qubernatorundan cavab istəmişdir. Bundan görünür ki, Hərbiyyə naziri işə əhəmiyyət verir, dövləti nöqteyi-nəzərlə hərəkətdə bulunur, amma Daxiliyyə Nəzarəti bu mühüm məsələdə irsal-mərsula başlayıb [işi get-gələ salıb], bu ana qədər kafi cavab verməmişdir.

Köhnə rejim üçün belə mühlik [məhvedici] olan irsal-mərsul sistemi ləğv edilməlidir. Dövlət kişisi böylə əhəmiyyətli və iş tələb edilən bir zamanda irsal-mərsul ilə uğraşmamalıdır. Təəssüf olsun ki, biz bunun əksini görürüz. Buna görə, əfəndilər, Daxiliyyə Nəzarətinin bu qanun layihəsinə biz səs verməkdən çəkiniriz. Nə zaman ki, Daxiliyyə Nəzarətinin fəaliyyətində xeyirli bir nəticələr gördük, o zaman ancaq qanun layihəsinə səs verə biləriz. Mən inanmaq istərdim ki, o vaxt da gələcəkdir.

**Sədr** - Natiqlərin sırası bitib. Danışan varsa, yazıb versin. Danışan yoxsa, söz hökumət üzvü Xəlil bəy Xasməmmədovundur.

**Xasməmmədov** - Möhtərəm məbuslar! Burada bir neçə söz söyləndi. O sözlər barəsində mən fikrimi demək istəyirəm. Əlbəttə ki, hər bir dövlətdə, cümhuriyyətdə hökumət işləri gərək elə olsun ki, hamıya bir nəzərlə baxılsın. Az millətlərin də hüquqları müdafiə edilsin. Bu barədə söz ola bilməz. Siz özünüz görürsünüz ki, bizim məmləkətdə olan başqa millətlərin hər vaxtda hüququ müdafiə olunub və haqları verilibdir. Doğrudur, yeni təşəkkül edilmiş dövlətlərdə çox şeylər olur. Natiqlərin biri, Ələtdə, Hacıqabulda olan hadisələri söylədi. Doğrudur, böylə şeylər olub, Parlaman da bilir. Bilirsiniz ki, hər dəfə məmurlar göndərilmişdir və müqəssirlər məhkəməyə verilib və məhkəmənin qərarını gözləyirik. Bilirsiniz ki, bu iş məhkəmə ixtiyarındadır. Əlbəttə ki, hər məmləkətdə, hətta Fransada, İngiltərədə cinayət olur. Şübhəsiz ki, 6-7 aylıq tarixi olan təzə bir məmləkətdə də böylə şeylərin olması mümkünatdandır. Bəni-insan arasında həmişə cinayət olacaqdır. Bizim də borcumuzdur ki, bu cinayət yapanları tutaq verək məhkəməyə, o da axırıncı sözünü desin. Cinayət hər yerdə olur, fəqət çalışmaq, əhalini canilərdən müdafiə etmək lazımdır. Hökumət və Daxiliyyə Nəzarəti bu yol ilə gedib, gedir də. Ancaq hamı işləri birdən düzəltmək mümkün deyildir. Cinayət bir yerdə deyil, cürbəcür yerlərdə olur. Bunların hamısını birdən-birə tapmaq çətindir. Böylə işlər yalnız bizdə deyil, özgə yerlərdə də olur. Biz cəmi fikrimizi ona veririk ki, canilər tutulub cəzaya giriftar olsunlar. Bu bir fikirdir ki, Daxiliyyə Nəzarəti və hökumət bunu gərək aparsın və bu fikirdən kənar durmasın. Yoxsa ola bilməz ki, Nəzarət öz vəzifəsini yerinə yetirməsin. Mən yenə sizə ərz edirəm ki, bu qanun layihəsinə gərək bu nöqteyi-nəzərlə baxılmasın.

Əvvəl sözümdə söylədiyim kimi baxmalıdır. Daxiliyyə Nəzarəti xidmətçilərinin məvacibləri az olduğundan, bu layihə yanvarın əvvəllərində Daxiliyyə Nəzarətində düzəlmişdir. Əski hökumət təzə hökumət ixtiyarına keçdikdən sonra hökumət gördü ki, məvaciblər o qədər azdır ki, məmurlar dolana bilmirlər. Məmurlar yaxşı dolanıb və yaxşı qulluq etsinlər deyə hökumət onların maaşlarının artmasını təhti-qərara aldı. Çünki ac qulluq olmaz. İkincisi, qanunda anlatdıq, ərz etdik ki, bir neçə məmuriyyət də var ki, bizə lazımdır. Biz bunu layihədə yazdıq. Bu barədə bəhs ola bilər ki, bu məmuriyyətlər bizə lazımdır və ya lazım deyil. Siz qəbul edərsiniz – edərsiniz, etməzsiniz dəxi bəhs olmaz. Burada deyildi ki, indiki hökumət Nikolaydan da o yana getmişdir. Mən deyərdim bu söz gözəl sözdür. Bu barədə qanunlar vardır. Məlumdur ki, hökumətdə iki şey olanda – biri zemstvo [yerli özünüidarə qurumu], digəri bələdiyyə işləri düzələndə Daxiliyyə Nəzarətinin işləri yaxşı gedir. Nəzarət [nazirlik] məmurlarının bir çoxu onların ixtiyarına keçir. Və bu da açıq bir məsələdir ki, camaat öz işini özü aparıb, özü idarə edərsə yaxşı olar. Bu o qədər açıq məsələdir ki, bu barədə söz ola bilməz. Zemstvo və bələdiyyələr gərək düzəlsin, camaat özünü idarə etsin. Lakin indilik zemstvo yox, bələdiyyə idarələri nizamsız. Bunlar da nə vaxt olsun? Beş gündə, on gündə, iki ayda qurulası deyildir. Burada işləmək, düzəltmək lazımdır. Mən əvvəl sözümdə dedim ki, bu işdən ötrü bizə ən əvvəl administrativni idarə [inzibati idarə] lazımdır. Biz gərək məmləkətimizi vilayətlərə bölək, ondan sonra zemstvo və qeyri idarələr düzəldək. Şimdiki vaxtda pul məsələsi çətin və birinci şərtdir. Siz bilirsiniz ki, bundan əvvəl müntəzəm və mütəşəkkil bələdiyyə idarələri var idi. Məsələn, Bakı Bələdiyyə İdarəsi Qafqaziyada ən gözəl idarələrdən biri idi. Gözəl xəstəxanaları, məktəbləri və qeyri müəssisələri var idi ki, böyük zəhmətlərlə düzəlmişdi. İndi Bələdiyyə İdarəsi o haldadır ki, özünün də parası yoxdur. Niyə yoxdur? Orası uzun mətləbdir. Zemstvo da belə. Bunlar elə bir şey deyil ki, bir dəqiqədə iki qanun yazmaqla düzəlsin. Mən heç fikir etmirdim ki, bu balaca qanundan ötrü bu qədər bəhs olunub və çox söz danışılsın. Əlbət ki, 5 mindən artıq məmur arasında ola bilər ki, bir neçə məmur xain olsun. Lakin aralarında canını qurban edənlər də az deyildir. *(Soldan: Doğrudur!)* Məsələn, bugünlərdə canilər pristavımızı və qaradavoyu yaralayıblar. 5 mindən ziyadə məmurlar arasında məvacib deyil, millətpərəstlik, vətənpərəstlik üçün, 400 manat məvacib ala-ala vətəni üçün canlarını fəda edənlər vardır. Çox məmurlar üstünə sözlər atırlar. Bu sözlər onların hissini, qüvvəsini azaldır. Ona görə hər dəfə Daxiliyyə Nəzarəti məmurlarına ümumən oğrudur, demək olmaz. Kim ki, oğrudur, fənadır, cinayət yapır, Parlaman üzvlərinə lazımdır ki, həman məmurun adını desin, cinayəti haqqında sənədlər, sübutlar gətirsin. Hökumət də, Daxiliyyə Nəzarəti də onları məhkəməyə verər. Böylə işlər də məmləkətə, millətə xidmət və kömək olar. Yoxsa, ümumi administrasiya böylə oldu, öylə oldu deyə tənqid etmək eyi nəticə verməz.

Mən sizdən rica edirəm ki, həmin qanun layihəsini təsdiq edəsiniz, maaşlar





azdır. Bir də burada çox deyirlər ki, Nikolayın vaxtından çox məmurlar artırırsınız, buna lüzum yoxdur. Fəqət onu bilməlisiniz ki, halımız öylədir ki, bu saat hər bir iş Daxiliyyə Nəzarəti öhdəsinə salınmışdır. Məsələn, xətti-hüdudu [sərhəd xəttini] polis məmurları saxlayırlar. Kontrabanda [qaçaqmalçılıq] işinə baxmaq administrasiya üstünə düşübdür. İşləri o qədər çoxdur ki, onları saxlamaq lazımdır. Qanunda gördünüz ki, bu işlərin çoxu əsgər işi idi. Bu işlər əsgəri qüvvə ilə düzəlirdi.

Məsələn, dustaqxana, xəzinə və qeyri hökumət müəssisələri əsgəri qüvvə ilə mühafizə olunmalıdır. İndi bunların hamısı polis əlindədir. Layihədə deyirik ki, bunun üçün də qaradavoy artsın. Məlumdur ki, qaradavoy artanda okolodoçni [polis sahə rəisi] və pristav da artır. Ona görə xahiş edirəm ki, layihəyə bu nöqteyi-nəzərdən baxılsın. Dəxi o nöqteyi-nəzərdən baxılmasın ki, administrasiya artırırsınız ki, cinayət yapılsın. Xayır, bunu böylə başa düşməməlidir.

Bir-iki söz də Malxazovun dediyi hürriyyəti-şəxsiyyə, tamamiyyəti-mülkiyyə məsələləri haqqında demək istərdim. Onlar böyük məsələlərdir. Bunun da vaxtı var. O vaxt yetişəndə o məsələ ortaya qoyulanda danışılar. *(Soldan: Nə vaxt?)* Mən sizə dedim ki, böylə işlər başqa yerlərdə, hətta böyük məmləkətlərdə də vardır. Bunlar üçün əlbəttə qanun lazımdır. Hökumət də bilsin, əhali özü də bilsin ki, nə cür rəftar lazımdır, bəlkə də öylə bir zaman gəlsin ki, həman hürriyyəti-şəxsiyyəni, hürriyəti-mətbuatı müdafiə etmək lazım olsun. İndiki halda demək olar ki, çox qanunsuzluqlar olur və qabağı alınmayır. Çünki hürriyyət özgə cür başa düşülmüşdür. Buna görə lazımdır hər bir şeyin hüdudu, qanunu olsun ki, əhali də, [hökumət] məmurları [da] bilsinlər. Mən təklif edərdim ki, layihəni qəbul edəsiniz, çünki gözlənir.

**Sədr** - Söz Qasım bəy Camalbəyovundur.

**Camalbəyov** (Hümmət) - Möhtərəm məbuslar! Qanun layihəsi əleyhində yoldaşımdan sonra özgə bir şey söyləmək istəmirəm. Ancaq demək istəyirəm ki, nazirin verdiyi izahat, hərəkətləri ilə düz deyildir. Bir neçə gün bundan irəli fraksiya tərəfindən Kəbirli kəndliləri məsələsi xüsusunda cənab ministrin hüzuruna getmişdim. Həmin məvaciblərini artırmaq istədiyiniz məmurlar Kəbirli kəndində ispanka [ispan qripi] xəstəliyi tutan kəndliləri Ağa bəy Kəbirlinskinin əmri ilə, [məhkəmədə] uduzmuş mülkündən çıxarıb çölə tökmüşlər. Kəndlilər rica edirlər ki, o mülkü onların ixtiyarında qoysun. Mən neçə gün ayaq döydüm. Fəqət, ispolnitelni list əldə, hökm var. Bu da ki, olanda ayrı söz ola bilməz. Dəxi mirovoy sudan [sülh məhkəməsindən] soruşmaq olmaz ki, doğrudanmı [belə bir hökm] kəsib, ya yox? İki həftə cənab ministrin dəftərxanasında o kansilyariyadan bu kansilyariyaya gedib-gəldim. Orada nələr gördüm, demərəm. Özləri buradadırlar, bilirlər. Dedilər ki, işi göndəririk təhqiqata. Qorxdum ki, sənəd oğurlansın. Min məşəqqətlə axırda işi portfeldən çıxardım. Bundan əlavə Qazax uyezdində Ağtəklə və Qaratəklə camaatının yarım milyonluq qaramalını komissar tutub, bağışlayın komissar dedim, uyezdni naçalnik camaatdan tutub külli

pul alıbdır, hələ də vermir və bir cavab da yoxdur. Qazax uyezdində nələr olur? Bu cümhuriyyətdir? Ya Nikolay hökumətidir? Tiflis sərhədini keçəndən sonra fənərlar sönüb, camaat qaranlıq içində gəlir. Oğrular gəlib qonşu vaqondan dəstmal ilə qızıl aparıblar.

**Mərkəzdən** – Neft tuluqda. Qatarı qarət, oğurluq. Milyon... Sizi soymadılar ki?

**Sədr** - Rica edirəm, natiqə mane olmayasınız.

**Camalbəyov** *(davam edir)* - Bunu mən doğru deyirəm. Mənim qəlbim qan ilə doludur. Allah haqqı, and olsun allaha. *(Ümumi gülüş)* Belə idarə ola bilməz. Mənim bir qəpik verməyə əlim gəlməz. Bu idarə deyil. Bu idarədir ki, otursunlar idarədə, səpmə yatalaq ilə xəstəxanada yatan Parlaman üzvünün dalınca desinlər ki, guya Nərimanov gəlib onunla görüşüb, danışıbdır? Bu idarəmi? Bu cümhuriyyətmi? Yaraşırmı cümhuriyyətə? İnsanların vicdanına toxunan şeylərlə camaatı soyurlar, anasını yandırırlar, atasına da od vururlar. Bu idarədirmi ki, bir nəfər iki günlük ət alıb aparanda qaradovoy tutub deyir ki, bir belə əti nə eyləyirsən? Tutub rüşvət alıb buraxır. Hamısı rüşvət alırlar. Durublar körpülərin ağzında, gəmidən çıxanları rüşvət almamış buraxmırlar. Vağzalda jandarmaya yüz manat rüşvət verməmiş heç bir kəs kassaya gedə bilməz. Bunları mən özüm görmüşəm, ürəyim doludur. Fürsətdir deyirəm, bütün bu təqsirlər sizdədir, hamınız bilirsiniz. Hamınız onlarla əlbirsiniz. Məmləkətdə nə olur, hamısını bilirsiniz.

**Sədr** - Söz Rəhim Vəkilovundur.

**Rəhim Vəkilov** (Müsavat) - Bu cürə gurultulu tənqidləri biz bu məqamda heç münasib görməyirik.

**Soldan** - Bəs nə vaxt münasib görürsünüz?!

**Sədr** - Rica edirəm natiqə mane olmayasınız.

**Rəhim Vəkilov** *(davam edir)* - Ona görə firqəmiz tənqidi artıq gördü. Hökumət gedir, yerinə təzəsi gəlir. Ortada layihə var. Onun qəbulu məsələsi müzakirə olunur və sosialistlər onu qeyri-məqbul görürlər. Şimdi mən sual edirəm: sabah Daxiliyyə naziri sosialistlərdən olsa, görək bu layihə münasibdir ya yox?

**Soldan** - Xayır, münasib deyil!

**Rəhim Vəkilov** - Mən burada tənqid görmürəm. Bu narazılığın səbəbi Daxiliyə nazirinin şəxsinə olan xüsusi qərəzdir.

**Soldan** - *(Qarışıq, gurultulu səslər)*

**Sədr** - Rica edirəm, natiqə mane olmayasınız. Yerinizdən danışmayın. Səməd ağa, mən sizi qanuna dəvət edirəm. Əks halda nakaza [nizamnaməyə] görə rəftar etməyə məcbur olacağam.

**Rəhim Vəkilov** *(davam edir)* - Doğrudur, bu narazılığı rədd edə bilmərik. Bəlkə bu tənqidlər hökumət gedəndə gələn nazirlər üçün nəsihət olsun. Yainki heç bir şeyə dəyməz. Məsəl var ki, deyirlər öləne ya rəhmət oxuyarlar, ya da heç zad deməzlər. *(Ümumi gülüş və soldan alqış)* Ona görə mən deyərdim ki, Daxiliyə Nəzarətinə olan ziddiyyəti bu layihəyə bağlamayaq və bu layihəni rədd etməyək. Qanun layihəsini qəbul etmək lazım gələcəkdir. Çünki məmurlar dolana bilmirlər, maaş artırılmasını gözləyirlər. Maaşın artırılması yaxşı olar. Təklif edərdim ki, bu layihə qəbul olunsun.





## GÜC QIĞILCIMI

*Əmir Teymur nişanlı*
*Məhəmməd Tofiq bəyə xatirə*

Altun yurdum qalmış idi bir zaman
Qan içici düşmənlərin əlində,
Yavruları boyun sunub baxardı
Qoca kimi gücsüz, əli belində.
Azərilər hər bir yanda ağlardı,
Lalə kimi ürəkləri dağlardı.
Çirkin dilək, alçaq məqsədli düşmən
İstərdi ki, Quran-islam yox olsun.
Həm Türklüyün bir şöbəsi Turanda
Solsun da, həm qanlı əllərlə solsun.
Şu zavalın amilləri kamilmi?
Şu məqsədi icra etmək qabilmi?
Haqq ağlayır, batil gülür, sevinir,
Zülm atəşi alovlanır hər yanda.
Böylə solğun, böylə pozğun bir dəmdə,
Böylə düşkün, böylə ölgün bir anda
Ulu Tanrı “Tofiq”ini göndərdi
Gavurluğu İslamlığa döndərdi.

*6 nisan 1919*
*Ə. Müznib*

## TELEQRAF XƏBƏRLƏRİ

Paris - Havas ajansı bildirir ki, Sülh Konfransının işi o qədər irəliləmişdir ki, bütün texniki işlərin yaxın bir zamanda qurtaracağını zənn etmək olar. Amerika heyəti şərəfinə verilən ziyafətdə marşal Foş bir nitq irad edərək [nitq söyləyərək] demişdir ki, Amerikanın müavinəti və müharibəyə iştirakı Müttəfiqlər üçün müharibəni müvəffəqiyyətli etmişdir. Foş ciddi surətdə alqışlanmışdır.

- Avam Kamerasında vikont Kerzona Maknamara cavab verərək demişdir ki, bu vaxta qədər Almaniyanın 51 ədəd sualtı qayığı sayılmışdır. Bunlar isə Müttəfiqlər arasında bölünmüşdür. Ali Şurayi-Hərbiyyə Almaniyanın başqa gəmilərinin müqəddəratını həll etməmişdir.

- Münxendən yazılır ki, hökumət qoşunları spartaklardan Leypsiq şəhərini geri almışlardır.

Paris – Çex-slovak nümayəndələri bəyan etmişlər ki, avstriyalılar ilə almaniyalılar yeni Çex-slovak hökumətini yıxmağa sui-qəsd hazırlamışlar imiş.

## QƏZETƏLƏRDƏN

### General Tomson və “Müsavat”

"Naşe vremya" qəzetəsinin verdiyi xəbərə görə, Qafqaziyada Müttəfiqlər ordusunun Baş komandanı general-mayor Tomson bu günlərdə Londona rəsmi bir məktub göndərib, onda yerli ictimai, siyasi firqələrlə milli təşkilatlar haqqında məlumat təqdim etmişdir.

General Rus Milli Komitəsi haqqında bəyan edərək onu təkdir etmiş [pisləmiş] və göstərmişdir ki, həmin komitələr Rusiyada əski üsuli-idarəni iadə etmək [qaytarmaq] və istiqlaliyyət elan etmiş olan millətləri yenidən Rusiyaya mülhəq etmək [birləşdirmək] istəyirlər.

Öz məktubunda general Tomson “Müsavat” firqəsi haqqında ətraflı surətdə məlumat təqdim edərək onu xeyli tərif və fəaliyyətini təqdir etmiş və Zaqafqaziya türk islamlarının böyük bir kütləsinin bu firqə arxasında durduğunu bəyan etmişdir.

**Odessanın müdafiəsi**

Odessa cəbhəsində əhval qorxuludur. Generallardan Franşe D'Esperi, D'Anselm və Şvarts miyanında [arasında] müşavirə olmuşdur. Müşavirə nəticəsində "Odessa Müdafiə Şurası" vücuda gətirilmişdir. Yunan əsgərlərinin Odessaya gələcəkləri gün-gündən gözlənir. Yunan əsgərləri gəldikdən sonra Nikolayev ilə Xersonu təzədən geri qaytarmaqdan ötrü hücum başlanacaqdır. General Franşe D'Esperinin bəyanatına görə, İstanbulda olan fransız əsgərləri müttəfiq məntəqəni müdafiə etməkdən ötrü Odessaya gətiriləcəklərdir.

## DAĞISTAN ƏHVALI

**Könüllülərlə dağıstanlıların müharibəsi**

Çeçen qoşunları komandanının məlumati-rəsmiyyəsi:

Mart ayının 28-də sübhdən Könüllü ordu Aldı qəbiristanı yanında hücuma başlayırlar. Çeçen qoşunları süni manevra ilə könüllüləri sıxışdırıb günorta zamanı böyük tələfatla düşmənləri şəhər tərəfinə püskürdürlər.

29 martda könüllülər bütün cəbhədən rədd edilmişlərdir.

Mart ayının 30-da hava işıqlandığı zaman Alxan-Yurt kəndi yanında Könüllülər ordusu Sunca kəndini keçərək aula yaxınlaşırlar. 4 saat müddətində qayət qızğın müharibə davam edir. Aulda düşmənin top gülləsindən bir neçə evlər yanmışdır. Saat 4-də çeçenlərin intizami qoşunları əks həmlə ilə kazak hissələrini pərişan edib, onları Suncadan o tərəfə püskürdüb, kazakların arxasından çayı keçib, Yermolovsk kəndə girib, düşmənlərin ştab arabalarını, hərbi ləvazimat qənimət alaraq qayıtmışlar və qayıtdıqda nəhir üzərində olan körpünü dağıtmışlardır.

Mart ayının 31 və aprelin 1-də ancaq əhəmiyyətsiz atışmalar vaqe olmaqda idi.

## RÜŞVƏT VƏ MÖHTƏKİRLİYƏ ÇARƏ

Qarabağ general-qubernatoru Xosrov Paşa bəy Sultanov həzrətləri qəzetə mühərririnə Qarabağa dair verdiyi müfəssəl [ətraflı] məlumatında rüşvətxor məmurlar və möhtəkir tacirlər barəsində nə kimi tədbirlər ittixaz etdiyini [tədbirlər gördüyünü] də söyləmişdir. Rüşvətxorluqda müttəhim olmuş beş nəfər pristav o cənabın hökmü ilə xidmətlərindən məzul olunaraq [qovularaq] təhti-mühakiməyə [mühakimə altına] alınmışlardır. O cənabın təsəvvürüncə, kimdən nə miqdarda alınmış rüşvətlər sübut olunarsa, məhkəmənin qətnaməsi ilə həman rüşvətlər məhkum pristavlardan alınaraq sahiblərinə qaytarılasıdır. Verə bilmədikləri halda məhkumların əmvali-mütəhərrikə və qeyri-mütəhərrikələri [daşınan və daşınmaz malları] zəbt olunub satılacaq və bundan hasil məbləğ də sahiblərinə qaytarılacaqdır.

İştə, rüşvətxorluğu əsasından baltalamaq üçün qubernatorun bu tədbiri ən gözəl bir çarədir.

Sabiq rus qubernatorları dövründə rüşvətxorluq adi işlərdən sayıldığı üçün, hər polis məmuru vəzifə başında müəyyən bir rüşvət zoru ilə dayana bilirdi. Pristavlar qəza qaimməqamlarına [qəza rəislərinə], bu[n]lar da qubernatora ildə filan qədər "peşkəş" verərək yerlərini möhkəmləşdirirdilər. Söz yoxdur ki, bu peşkəşlərin müqabilində əvəzi biçarə əhalidən yüz minlərlə alınırdı. Təsadüfən rüşvətçi pristavdan qubernatora bir şikayət verilsəydi öylə "Təhmasib oyunu" təftişlər yapılırdı ki, axırda cəza rüşvət alana deyil, rüşvət verənə olurdu. Odur ki, Rusiyada[n] ac qaçmış pristavlar bir neçə il Qafqazda xidmət edib, evlərinə qayıdarkən ciblərində yüz minlərlə pullar aparmışdır, arabalar dolusu fərşlər [xalça-palaz] daşımışlardır.

Rus rüşvətxorluğu bir dərəcədə kəsbi-şöhrət etmişdir [şöhrət qazanmışdır] ki, bir vaxt almanların məşhur Bismarkı Rusiyadan qayıdarkən demişdir: "Rüşvətxorluq ən mühlik [öldürücü] bir azar kimi Rusiyanı tar-mar edəcəkdir." Filhəqiqə [doğrudan] öylə də oldu. Bəs rüşvətxorluğun əsasına öylə bir zərbə vurmalıdır ki, cavan vətənin ədalətinə və asayişinə heç bir xələl toxunmasın. Qarabağ qubernatorunun zikr etdiyimiz binagüzarlığı [tədbiri] sair hakimlər tərəfindən də qəbul olunarsa, rüşvət məsələsi daha sürətlə tərk olub gedərdi.

Öz tərəfimizdən bunu da əlavə etməliyiz ki, rüşvət alanlardan başqa, rüşvət verənlərin də ə'malına [əməllərinə, işlərinə] diqqət olunsun ki, hangi məqsədin yolunda bu rüşvətlər verilir. Qətl və qarət kimi cinayətləri pərdələmək üçün rüşvət verən ağaları da təhti-mühakiməyə [mühakimə altına] almalıdır və bu surətdə geri alınmış rüşvətlər sahiblərinə qaytarılmayıb, beytülmala [dövlətin xəzinəsinə] təhvil verməlidir zənnindəyəm.

Sultanov həzrətlərinin dəyərli təşəbbüslərindən biri də möhtəkirlərlə başladığı mübarizə təriqidir [yoludur] ki, şayani-diqqətdir [diqqətəlayiqdir]. Şuşa şəhərinin möhtəkir tacirlərindən biri qubernator tərəfindən həbs olunur. Bu şəxs bir qədər həbsdə qaldıqdan sonra camaat namına [adına] alıb-satdığı manufakturdan qazandığı 150 min manat pulu öz riza və xahişi ilə füqəraya paylamaq üçün qubernatora təslim edir. Həman pul Novruz bayramı münasibəti ilə şəhərin 3 min füqərası arasında təqsim edilmişdir [paylanmışdır]. Bugünlərdə Qarabağdan gəlmiş bir nəfərin rəvayətinə görə Şuşa şəhərinin füqərası bu ilki kimi bayramı xoş keçirməmişdir. Hamı müşahidə edirmiş ki, zənginlərlə bərabər miskinlər də bayram şadyanalığına iştirak edirlər. Qubernatorun bu tədbiri günahkarlara cəza və füqəraya şəfa olduğundan, sair yerlərdə də icrası mətlubdur [arzu ediləndir]. Bu vaxta qədər əhali namına bir çox mallar alınıb kənar yerlərdə də satılmışdır. Bunların ə'mal və hərəkatını [işlərini və hərəkətlərini] təftiş və nəzarətsiz buraxmamalıdır. Ələlxüsus camaat vəkillərinin məsuliyyəti daha şədid [şiddətli, böyük] və daha ciddi olmalıdır ki, mənfəəti-milliyyə mənfəəti-şəxsiyyəyə qurban kəsilməsin.

Bu iki məsələdən başqa, qubernatorun bir çox sair binagüzarlıqları olmuşdur ki, şayani-təhsindir [alqışlanmağa layiqdir]. Lakin o cənabın qarşısında ən ağır bir məsuliyyət varsa, o da indilik köçəri məsələsidir ki, onun da mahiranə bir surətdə və asan vəchlə [surətlə, yolla] həllini dörd gözlə ümumən azərbaycanlılar və xüsusən Qarabağ əhalisi gözləyir, müvəffəqiyyətinə də inanır!

*Fərhad Ağazadə*

## İRAN FÜQƏRASININ HALINA DAİR

Vətənindən avara düşüb və xaricilərə pənah gətirib ac, çıplaq Bakı küçələrində dilənçilik edən İran balalarının müşkül hallarına dair dəfələrlə qəzetələr səhifəsində yazılmaqdadır. Çox təəssüflər olsun ki, həman yazılanlar səmərəsiz qalmaqdadır. Əlbəttə, konsul cənablarının çalışmağı da möhtərəm tacirlərin müavinətinə [yardımına] bağlıdır. Tacirlərimizdən müavinət olmazsa, konsul cənablarının da çalışmağı faydasız qalar. Əlbəttə, bunu kimsə inkar etməz zənindəyəm. Bəs tacir əfəndilər nə vaxtadək müavinət əlinizi bu zavallı dilənçilərdən uzaq tutacaqsınız? Nə vaxta kimi bu bisahiblər ac, çıplaq küçələr dibində xaricilərə əl açıb "Ağa, sən Allah bizə bir şahı çörək pulu ver" deyəcəklər? Olmazmı ki, milyonlarla qazandığınız paralardan həmin zavallılara sərf edib həmi Allahtaalanı və həmi onları özünüzdən razı eyləyəsiniz və yaxud bir darüleytam [yetimxana] təsis edib zavallıları küçələrdən təmizləyəsiniz. Budurmu sizlərdə millət və vətən hissi, ey milyonlarla para qazanan İran əhli?

Çox təəssüf etməli ki, bu zavallı dilənçilərin sayəsində iranlılar təhqir olunur. Əlbət ki, təhqir olunmağının da səbəbi laqeydsizliyinizdir. Ondan ötrü ki, əgər bir darüleytam təsis eyləsəydiniz, nə bu qədər dilənçi olardı və nə də biz iranlılar təhqir olunardıq. Yaxşı olar ki, keçən ilki kimi konsul cənabları bir iclas təyin edib və ümum iranlıları dəvət edib bir komissiya intixab olunaydı [seçiləydi] və dilənçiləri küçələrdən təmizləmək həman komissiyaya həvalə olunaydı. Vəilla [yoxsa], iş belə gedərsə, həmi bu yazıqlar aclarından məhv olar və həmi də biz İran camaatı təhqir olunarıq.

*Məhəmmədəli Əsədullazadə*
*Tabaqçı*

## MƏTBUAT

Piliqrim rusca "Azərbaycan" qəzetəsində əsrlərdən bəri Rusiya və Avropa cahangirləri [imperialistləri] tərəfindən meydana atılmış olan Şərq məsələsinin şimdi Paris Sülh Konfransı tərəfindən həll ediləcək və bu məsələnin yüzlərcə milyon müsəlman aləmi və ümum Asiya üçün nə qədər əhəmiyyətli olduğu haqqında bir məqalə yazaraq bu məsələnin nə yerdən əmələ gəlib, nə kimi dövrlər keçirdiyini zikr etdikdən sonra deyir ki:

*"Köhnə Şərq məsələsini Avropa ricali-düvəliyyəsi [dövlət adamları] bu günə bu surətlə gətirib çıxarmışlardır.*

*Bizim əsrimizdə hilalın xaç ilə mübarizəsi, həmçinin bu mübarizənin irqi və milli xüsusiyyət üçün edildiyini iddia etmək gülüncdür. Xüsusən müsəlman millətləri haqqında bunu iddia etmək gülüncdür. Çünki tarixin ağır yükü onları o qədər zəif salmışdır ki, bütün bəşəriyyətin müqəddəratını kəndi əllərinə almış olan Avropa millətlərinin rahat və səadətini xələldar edə [poza] bilməzlər.*

*Əsrimizdə bəşəriyyət maddətən və mənən o qədər dərəceyi-kamala yetişmişdir ki, hər millətin ədalət üzərinə yaşadılması ümumun tələbi və mədəni bəşəriyyət məhkəmeyi-aliyyəsi [ali məhkəməsi] olan Sülh Konfransının ən ümdə vəzifəsi olmuşdur. Müsəlman millətləri üçün öylə şəraiti-həyat təmin edilməlidir ki, mədəniyyət və tərəqqi yolunda irəli gedə bilsinlər. Əgər Sülh Konfransı gələcək ittifaqi-əqvamı [millətlər birliyini] Birinci Aleksandr kimi xristianlıq əsası ilə qurmaq fikrinə düşsə, bəşəriyyət həmişə birayaqlı kimi axsayacaqdır.*

*Ən məzlum və məhkum millətlərdən ibarət olan Şərq millətləri Sülh Konfransından kəndi siyasi, milli və dövləti mənafelərinin müdafiəsini gözləyirlər və şübhəsizdir ki, Parisdən gələn xəbərlər Şərq millətləri ilə Qərb millətlərini mütəqabil [qarşılıqlı] etimad və mədəni fəaliyyət rabitələri ilə mərbut etməsələr [bağlamasalar], Şərq millətlərinin bir əlacı qalacaqdır ki, kəndi nicatları naminə üzlərini "Asiya asiyalılar üçündür" şuarı çıxarmış olan qəvi [güclü] Yaponiya məmləkətinə, yaxud "İlhaq və təzminati-hərbiyyəsiz və millətlərin təyini-müqəddərat hüququnun qəbulu əsası ilə əsaslanmış sülh" şüarı olan bolşeviklərə çevirməli olacaqlardır."*

## BAKI XƏBƏRLƏRİ

### Dəvətnamə

Bu cümə günü aprel ayının 11-də saat 1-də Sabunçuda ali-ibtidai el [xalq] məktəbində İran füqərayi-kasibəsinin iclası olacaq. Mədəndə olan fəhlələr hər altı adama bir adam seçilmiş adamlardan xahiş olunur ki, yövmi-məzkurda [deyilən gündə] el məktəbinə təşrif gətirsinlər.

Həll olunacaq məsələlər:

1) "Təməddün" məktəbinin barəsində; 2) Məktəbi idarə etməyə heyət seçkisi; 3) və həman gündə məclisdə qalxan məsələlər.

*Müvəqqəti Heyəti-idarə tərəfindən*

### Yeni əsərlər

Əliabbas Müznib əfəndinin 1) "Tofiq bəyin zopası"; 2) "Xorasanın topa tutulması"; 3) "Rusiya qəhrəmanı Rasputin"; 4) "Qazi Ənvər paşa" adlarında 4 mənzum kitabçası təbdən [çapdan] çıxıb satışa qoyulmuşdur. Qayət maraqlı mənzumələrdir.

### Müqəssirləri axtarmaq haqqında

Bakı Okrujnoy Sud Məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] bütün okrujnoy sud [qəza məhkəmələri] və Bakı Palata (İstinaf) Məhkəməsinə müraciətən məlum etmişdir ki, müqəssir hesab edilib və gizlənmiş olan şəxsləri axtarmaq üçün elan vermək okrujnoy sud məhkəmələrinin deyil, qubernator dəftərxanasının vəzifəsidir. Bundan sonra yuxarıda göstərilən şəxsləri axtarmaq üçün hər binagüzarlıq [sərəncam] fəqət qubernator tərəfindən sadir olmalıdır [verilməlidir].

### Cərimələr

- Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [əmrinə] görə, Dağıstan mahalı əhli Nurulla Şahnamazov icazəsiz olaraq tapança gəzdirməkdə müqəssir edilərək on gün müddətinə həbsə alınmışdır.

- İran rəiyyəti Məhəmməd Nuri oğlu, Zəngəzur əhli Sarkis Xaçaturoviç Mənuçöhrov icazəsiz olaraq tapança gəzdir-

məkdə müqəssir edilərək, hər birisi bir həftə müddətinə həbsə alınmışlardır.

- Dağıstan əhli Hüseyn Qulu oğlu icazəsiz olaraq xəncər gəzdirməkdə müqəssir edilərək 25 manat cəriməyə məhkum edilmişdir. Cəriməni verə bilmədiyi halda bir gün həbsə alınacaqdır.

**Xaricə getmək üçün şəhadətnamə**

Daxiliyyə naziri Bakı qubernatoruna məlum edir ki, Azəbaycan Cümhuriyyəti torpağından xaricə getmək istəyənlərə zeyldəki [aşağıdaki] qayda ilə icazə və şəhadətnamə verilməlidir: Xaricə getmək istəyənlər bu barədə Polis Baş İdarəsinə (qalabəyi dəftərxanasına), uyezd və uçastok idarələrinə ərizələr verirlər. Həmin ərizələr lazımi qeyd və işarələrlə qubernator dəftərxanasına göndərilirlər. Dəftərxana tərəfindən ərizə sahiblərindən 10 manat miqdarında şəhadətnamə (zaqraniçni pasport) xərci olaraq pul alınıb və pasport verilir.

**Həbsxana müdiri**

Qubernatorun binagüzarlığına görə, Mərkəzi Həbsxana müdirliyinə İbrahim bəy Abdinov təyin edilmişdir. Müşarünileyh [adı çəkilən şəxs] bu gündən etibarən öz vəzifəsini ifaya şüru etmişdir [başlamışdır].

**Məhkəməyə cəlb**

Azərbaycan Palata (İstinaf) Məhkəməsinin müddəiyi-ümumisi (prokuroru) Bakı qubernatoruna məlum edir ki, sabiq Kürdəmir pristavı Mirzəyev öz vəzifəsində bir çox sui-istemalda [sui-istifadədə] bulunduğundan təhti-məsuliyyətə [məsuliyyət altına] alınır.

## AZƏRBAYCANDA

**Salyandan**

- Bakı, Azərbaycan Hökuməti tərəfindən Salyana göndərilən Mübayiə Komisyonu [Satınalma Komissiyası], kəndisi ilə bərabər gətirmiş olduğu qənd, çay və mənsucatı (manufakturanı) bugünlərdə hökumət idarələrində xidmət edənlər arasında təqsim etmişdir [paylamışdır]. Böylə ki, məmurlardan tutmuş jandarmalara qədər hər bir nəfərə 50 arşın parça, 3 girvənkə qənd, 1/4 girvənkə çay paylamışdır. Bu əhval Salyan əhalisinin və baxüsus [xüsusilə] füqərayi-kasibənin etirazını mövcib olmuşdur [etirazına səbəb olmuşdur].

- Salyan mötəbəranından Muxtar Axundov cənabları Salyan acları miyanında [arasında] bugünlərdə 250 put un təqsim etmişdir [paylamışdır]. Sənənin şimdiki ağır bir halında füqəranın əhvali-ələm-iştimalını [acınacaqlı halını] nəzəri-etibara alaraq hümmət əlini açan bu kimi zəvatın [şəxslərin] təzayüdünü [artmasını] arzu etməklə bərabər, sair sərvətdarımızın da nəzəri-diqqətlərini bu nöqtəyə cəlb eyləriz.

- Mart ayının 31-də (18-də) zöhr [günorta] vaxtı məhəlli [yerli] hökumət tərəfindən tətil elan edilərək bütün bazar və dükan qapandı. Bu tətil Salyanda yalnız dükanların qapanması ilə nəticələnərək, bu günə dair heç bir mitinq və nümayiş olmamışdır və əksər əhali şu tətilin nədən ibarət olduğunu dəxi anlamamışlardır.

- Kazan şəhəri əhaliyi-islamiyyəsindən Surxay oğlu İmran və Salyan əhalisindən Xəlil oğlu Əlihüseyn bugünlərdə əxzi-əsgər [hərbi çağırış] şöbəsinə gələrək kəndilərini könüllü əsgər yazdırmışlardır. Bu qəyur [qeyrətli] gəncləri hüsn-təvəccöhlə qəbul edərək maddi və mənəvi təltif etmişlərdir.

- Salyan şəhərində bugünlərdə məhəlli lisanla "əsmə qaramoqqa" xəstəliyi şiddətli surətdə hökmfərmadır [hökm sürməkdədir]. Bundan naşi [bundan ötrü] bir çox ölənlər var.

**Teatro**

Həmin mart ayının 22-də Salyan klubunun salonunda yerli həvəskarların iştirakı ilə rüşdiyyə məktəbi valideyn şurasının nəfinə [xeyrinə] olmaq üzrə [Mirmahmud] Kazımovskinin bir pərdədən ibarət "Daşım-daşım" nam [adlı] komediyası ilə [Sultan Məcid] Qənizadənin iki pərdədə "Axşam səbri xeyir olar" məzhəkəsi mövqeyi-tamaşaya qoyuldu.

O gecə salon tamaşaçılarla məmlu [dolu] idi. Pərdə qalxarkən iştirak edənlər səhnədə bir sıra təşkil edərək Həsənağa Sabit əfəndinin: "Bu vətən əcdadımızın yatacaq bir yeridir" deyə məhza şimdiki əhvalımıza dair inşad etdiyi [söylədiyi] nəğməni həp bir ağızdan gözəl ahəng və üslubla oxudular və tamaşagəranın [tamaşaçıların] kərrat [dəfələrlə] alqışları ilə qarşılandılar.

Tamaşa ümumiyyətlə gözəl keçmişdir ki, bu da rejissor Həsənağa Sabit əfəndinin yorulmaz çalışmasından irəli gəlmişdir.

Hasilati-ümumiyyə: 9545 manat, məsarifat 2628 manat, xalis varidat 2918 manat olmuşdur ki, valideyn şurası xəzinədarına təslim olunmuşdur.

Bu tamaşanın müvəffəqiyyətlə keçməsi və varidatının Salyana nisbətən bu qədərə varması yolunda ibrazi-hümmət edən [səy göstərən] zatlara və baxüsus [xüsusilə] müdiri-məsul doktor Mirzə Əbdüləziz Mirzəyev, Mehdi Bədəlov, türmə naçalniki Arslan bəy Rüstəmbəyov, pristav müavini Məşhədiağa Nağıyev əfəndilərə ayrıca ərzi-təşəkkür eyləriz.

Salyan mərkəzi posta və teleqraf müdiriyyəti bugünlərdə bütün teleqraf müxabirələrinin [yazışmalarının] türkcə qəbul ediləcəyi xüsusunda bir elani-ümumi buraxmışdır.

*[Rüstəm] İskəndərzadə*

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm "Azərbaycan" qəzetəsinin müdirindən bu neçə kəlmə təşəkküratımızı ruznamələrinin [qəzetlərinin] sütunlarında dərc buyurmalarını islamiyyət naminə acizanə istirham [xahiş] edirik.

Biz Quba şəhərində və dəhatlarında [kəndlərində] yaşayan İran camaatı ki, neçə illərdən bəri öz dövləti-mətbumuz [tabe olduğumuz, vətəndaşı olduğumuz dövlət] tərəfindən sərpərəstimiz [xadimlərimiz; xidmət edənlərimiz] olmamaq səbəbincə ənvai [növbənöv] sitəm və cəfalara mübtəla olub və insaniyyətə gəncidə olmayan [insanlığa sığmayan] rəzalət və qəbahətlərə düçar olmaqdan bə-əlavə, öz həyatlarımızdan məyus olmuşduq. Bakı şəhərində vaqe möhtərəm İran konsulu Səidülvüzəra həzrətləri rifahiyyəti-halımızı mənzur [vəziyyətimizi yaxşılaşdırmağı arzu etdi] və Hacı Xan cənablarını biz füqəra və müztərr [əziyyət çəkən] camaatdan ötrü sərpərəst və kəfil etməklə [bizə xadim tə-

yin etməklə və bizim məsuliyyətimizi onun boynuna qoymaqla] bizlərə təzə bir həyat mərhəmət və inayət buyurdular [mərhəmət edərək bizə təzə bir həyat bağışladılar]. Necə ki, Hacı Xan cənabları dörd ay müddəti-məmuriyyətlərində bizim cərihədar [yaralı] ürəklərimizi öz maddi və mənəvi lütfləri ilə iltiyam edib [sağaldıb], fövt olan [ölən] İran fəqirlərini öz kiseyi-mərdanəsinin məxarici [şəxsi cibinin xərci] ilə dəfn və həyatda olanlarımızı ənvai təəddiyyatlardan [zülümlərdən, təcavüzlərdən] məhfuz ediblər [qoruyublar]. Binaənileyh [ona görə], öz təşəkkürati-səmimanələrimizi ağayi-Səidülvüzəra həzrətlərinə və Hacı Xan cənablarına təqdim etməyi özümüzə borc bilirik.

*(18 imza)*

**Bakı "Obşestnevnni Sobraniya"sı**
**[Bakı İctimai Yığıncağı]**

"Starşina"ları şurası bununla üzvlərə elan edir ki, aprelin 10-da saat 7-də üzvlərin ikinci ümumi iclası olacaqdır. İclas 1918, 1919 və 1920-ci illərə məxsus "Starşina" və Təftiş Komissiyasına, 1918-1919-cu illərə məxsus üzvlər intixabı üçün dəvət olunubdur.

**Qeyd:** "Sobraniya"nın nizamnaməsinin 66-cı maddəsinə görə, iclasa hər nə qədər üzv gəlmiş olsa qanuni hesab olunacaqdır.

*T-84*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 162. "Ssilla və Xaribda": qədim yunan mifologiyasında, İtaliyanın cənubunu Siciliya adasından ayıran Messin boğazının iki ucunda yaşayan təhlükəli dəniz canlıları.

**Güc qığılcımı**

səh. 167. "Məhəmməd Tofiq bəyə": Qafqaz İslam Ordusu zabitlərindən Məhəmməd Tofiq bəy nəzərdə tutulur; məlumat üçün "İndeks"də "Bıyıklıoğlu, Mehmed Tevfik" maddəsinə baxın.

"Yavruları boyun sunub baxardı": "sunmaq" burada "uzatmaq" mənasındadır; ehtimal ki, "sunub" yerinə "büküb" olmalı idi.

"Şu zavalın amilləri kamilmi?": "Bu yox oluşun, bu məhv oluşun amilləri (onu şərtləndirən amillər) tamamlandımı; bu yox oluş qaçılmazdırmı?"

"Ulu Tanrı 'Tofiq'ini göndərdi": "tofiq" sözü "kömək" (xüsusən Allahın köməyi) mənasına gəlməklə birgə, burada həm də "Məhəmməd Tofiq"ə işarədir.

**Teleqraf xəbərləri**

səh. 167. "...bütün texniki işlərin yaxın bir zamanda...": qəzetdə "yaxın" yerinə "yaxşı" getmişdir.

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

"Maknamara": Britaniya Parlamentinin İcmalar Palatasının üzvü olan Tomas Maknamara nəzərdə tutulur; qəzetdə bu familiya təhrif edilmişdir.

**Dağıstan əhvalı**

səh. 168. "...Sunca kəndini keçərək...": qəzetdə səhv getmişdir, "Sunca çayını keçərək" olmalıdır. Sunca, Şimali Qafqazda Terek çayının sağ qolu olan çayın adıdır.

**Mətbuat**

səh. 171. "Əgər Sülh Konfransı gələcək ittifaqi-əqvamı [millətlər birliyini] Birinci Aleksandr kimi xristianlıq əsası ilə qurmaq fikrinə düşsə...": Rusiya imperatoru I Aleksandrın təşəbbüsü ilə 1815-ci ildə qurulan və bütün xristian dövlətlərin hökmdarlarının qarşılıqlı olaraq bir-birlərinə kömək etmələri prinsipinə əsaslanan "Müqəddəs İttifaq"a işarə edilir.

**Azərbaycanda**

səh. 172. "Mart ayının 31-ində (18-ində)...": 31 Mart 1918-ci il hadisələrinin ildönümü nəzərdə tutulur. Burada tarix həm yeni, həm də köhnə təqvimlə göstərilmişdir; bu iki təqvim arasında 13 gün fərq var idi. Qəzetdə "31" yerinə səhvən "21" getmişdir.

"Kazan şəhəri əhli-islamiyyəsindən...": güman ki, "Kazan" yerinə "Qazax" olmalıdır.

səh. 173. "rüşdiyyə məktəbi": orta məktəb; ibtidai siniflərdən sonrakı mərhələ.



***“Azərbaycan” qəzetinin 155-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə, 11 aprel 1919-cu il, nömrə 155**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 10 rəcəbül-mürəccəb sənə 1337. 11 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## ELAN

1919 sənəsi şənbə günü aprelin 12-də gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının fövqəladə iclası olacağı elan edilir.

*T-99*

## ELAN

Çixotka [vərəm] ilə mübarizə edən “Qafqaz” cəmiyyətinin Bakı şöbəsi bununla elan edir ki, cəmiyyət tərəfindən icarəyə götürülmüş şəhər kupalniyasında [dəniz hamamında] müalicə üçün doktor Bəhram bəy Axundov nəzarəti altında isti vannalar açılmışdır. Doktorun telefon nömrəsi: 7-99, kupalninin telefonu: 22-87.

*8708*

## ELAN

Bununla bütün idarə və müəssisələrə elan edilir ki, Azərbaycan Hökumət mətbəəsi tərəfindən təqdim edilən surəti-hesabların (şotların) mətbəənin artelşiki [artelçisi] Əliağa Əlizadə tərəfindən mətbəə müdiri Kərbəlayi Vəli Mikayılov imzası ilə hər surəti-hesab üçün ayrıca təqdim ediləcək etibarnamələr üzərinə alınması etibar edilir.

*T-98*

## OPERA

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti
Cümə günü rəcəbül-mürəccəb [mübarək rəcəb] ayının 10-da 1337 sənəsi (aprelin 11-də 1919-cu ildə) təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaq Üzeyir Hacıbəylinin yazmış olduğu məşhur **“Şah Abbas və Xurşidbanu”** operası.
Böyük musiqi dəstəsi, qızlar və oğlanlar xoru və balet.
Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrənin axırı)*

**Əhməd Cövdət Pepinov** – Əfəndilər! Hər bir qanun ki Parlamandan keçir, onun barəsində bizim bir nöqteyi-nəzərimiz var. Görək bu qanunun camaata, füqərayi-kasibəyə nə qədər mənfəəti ola bilər. Onu mülahizə etdikdən sonra qa-

nunu ya qəbul ya rədd ediriz. Yoldaşımızın söylədiyi həp bu nöqteyi-nəzərdən idi və Səməd ağa [Ağamalıoğlu] bu nöqteyi-nəzərlə Daxiliyyə Nəzarətinin layihəsinə səs verməyəcəyimizi söylədi. Fəqət məndən əvvəl söyləyən Daxiliyyə naziri cənabları buyurdular ki, indi qanunu tənqid etmək yersizdir, çünki Nəzarətin işləri qayda üzrə gedir və Azərbaycanda lazımi əmniyyət [asayiş] vardır.

Əfəndilər! Üsuli-idarə xüsusunda indiyə qədər iki nöqteyi-nəzər vardı. Əvvəlinci nəzər padşahların, çarların, soltanların yer üzündə Allahtaala vəkili olduqlarını iddia edərək üsuli-idarədə onların əmri yeriməyi lazım olduğunu və camaatın bilaqeydü-şərt [qeydsiz-şərtsiz] onlara tabe olması lazım gəldiyini söyləyirdi. İkinci prinsip isə demokratizm əsası idi ki, bu fikrə görə bütün ixtiyar gərək camaat əlində bulunsun və üsuli-idarə camaatın istəyinə görə düzəlsin. Bizim yoldaşlar, sosialistlər indiyə qədər prinsip davası çəkirdilər. Birinci fikrin əsassız olub demokratizm fikrinin haqlı olduğunu isbat üçün dəlillər gətirirdilər. Fəqət Rusiya inqilabi-kəbirindən [böyük Rusiya inqilabından] sonra ki çarların, qeysərlərin, imperatorların taxtları sərnigun oldu [devrildi], birinci prinsip demokratizm selinin qüvvəti ilə süpürülüb ortalıqdan götürüldü. İndi bu saat dünya üzərində demokratizm əsasları artıq hökmran oldu və kimsə bunların əleyhinə çıxmağa cəsarət edəmməyir. Demokratiyanın, xalqın ziddində olanlar indi başqa bir yol götürmüşlər. Sözdə demokratizm əsaslarını etiraf və qəbul etməklə bərabər, işdə bunun əksinə gedirlər. Bu gün baxınız, dünya cahangirləri [imperialistləri] Lloyd Corc, Vilsonlar və arxadaşları dəxi demokratizmdən bəhs edirlər, xırda millətlərin müqəddəs haqlarından dəm vururlar. Fəqət işə gəldikdə Osmanlı məmləkətlərini, Rusiya və Avstriya torpaqlarını, Almaniya koloniyalarını kəndi aralarında təqsim edir [bölür] və oralarda ağalıq etmək istəyirlər. Bir çox adamlar, firqələr dəxi indi sözdə demokratizm əsaslarını qəbul edirlərsə də, işə gəldikdə bunun əksini işlətməyə çalışırlar. İştə, bu gün zikr etdiyimiz qanuna gəldikdə, biz də deyiriz ki, idarə məmurlarının aldıqları pul kifayət etməyir, məvacibləri gərək artırılsın. Fəqət qanunun mahiyyətinə bərəks [zidd] getməyiriz. Fəqət Daxiliyyə Nəzarətinin indiyə qədər işlətdiyi və camaat üçün fəlakətli olan siyasətinin əleyhinə gediriz. Biz də istəriz ki, administrasiya və polis idarələri qaydaya qoyulsun, düzgün olsun və məmurlar xalqın canını və malını təmin etsinlər. Fəqət, bu qanun layihəsini qəbul etməklə, bizim istədiyimiz təmin edilməyir. Çünki Nəzarətin siyasəti yenə əski qaydası üzrə qalır. Daxiliyyə naziri cənabları bizə isbat etməyə çalışdılar ki, polis nəfəratı arasında çox canfəda və vətənpərəstlər vardır. Hərgah doğrudan da çoxusu belə olsaydı, sözümüz yox idi. Fəqət, ayrı-ayrı canfəda fərdlər bulunmaqla bərabər, bir çox məmurlar da, pristavlar da var ki, öz qaradovoylarını yanına alıb gecələr çapqınçılığa gedir, xalqın evini soyur, başını kəsir. Bir çox polis nəfəratı şimdi böyük pullar sahibi olmuşlardır. Məsələn, Qazax uyezdinin başında olan polis naziri neçə ay bundan əvvəl heç bir şeyə malik olmadığı halda bu gün çapqınlığı və xəyanəti sayəsində milyonlar sahibi olmuş və Tiflisdə mülk üstünə mülk alır. *(Soldan alqış)* Bu kürsüdən dəfələrlə bu barədə danışıldı, Nəzarətə işarət edildi. İndi həman şəxs qazandığı pulları kafi görüb qulluqdan əl çəkmək istədikdə nazir cənabları istefasını qəbul etməyib "qal və çapqınlığında davam et" deyir. *(Soldan alqış)* Daxiliyyə naziri cənabları hökumətin istefasından sonra özünün liberal, hürriyyətpərvər bir şəxs olduğunu isbat üçün qubernatorların adına bir müraciətnamə sadir etmişdi [göndərmişdi] ki, orada idarə məmurlarının bir çoxunun yaramaz və əyri olduğunu göstərir və qubernatorlara əmr edir ki, polis idarələrini öylə adamlardan təmizləsin və düzgün məmurları qəbul eyləsin. Fəqət, əfəndilər, əvvəlcə dediyim kimi, bu bir gözəl nümayişdir və yazılanlarla nazirin tutduğu işlər bir-birinə təvafüq etməyir [uyğun gəlmir]. Nazir cənabları Nəzarət [Nazirlik] başına gəldikdə bu elannamə ilə başlamalı idi və onu həqiqətdə mövqeyi-icraya qoymalı idi, nəinki istefaya çıxdıqdan sonra. Baxınız, qubernatorlara polis idarələrini düzəltməyi əmr edərək və məsuliyyəti onların üzərinə qoyduğu halda, Zaqatalaya qubernator olmaq üzrə sizə və bütün Azərbaycana məlum olan Nikolayın köhnə məmurlarından öz rüşvətxorluğu ilə və qaçaqlarla əlbirliyi ilə məşhur olan bir zatı təyin edir. *(Soldan alqış)* Və bu zata, əfəndilər, tapşırır ki, idarələri düzəltsin, əyriləri çıxartsın və düzgün adamları qulluğa qoysun. Bu gülünc deyilmidir, əfəndilər? Nəzarət bizdən polis məmurları məvacibi üçün 60 milyon camaat pulunu tələb edir. Əlbəttə ki, veririk və bundan ziyadə verərik, fəqət bu şərtlə ki, camaatın əmin-amanda olacağı bizə məlum olsun. Nazir əfəndinin söylədiyinə görə, polis nəfərləri bu gün sərhədlərimizi düzəltmək kimi və kontrabanda [qaçaqmalçılıq] ilə mübarizə etmək kimi vəzifələrini görürlər. Kaş ki, böylə olsaydı. Fəqət, biz hamımız və bizimlə bərabər Nəzarət də bilməlidir ki, sərhəddə olan kontraband (qaçaq mal aparmağı) hamıdan ziyadə polis idarələri özləri edirlər və yaxud onların köməklikləri ilə olur. Bir vaxt var idi Gürcüstan sərhədində neft möhtəkirçiliyi kontrabandası meydan almışdı. İndi neft əvəzinə çörək kontrabandası və möhtəkirliyi həman polis nəfərlərinin köməkliyi ilə davam etməkdədir. Əlbəttə ki, hər bir idarə içində olduğu kimi Daxiliyyə Nəzarətinin içində də pis adamlar, canilər, əyrilər ola bilər. Amma əgər Daxiliyyə Nəzarətinin siyasəti, sistemi düz olsaydı, Nəzarət böylə ünsürlər və adamlarla mübarizə edər və islaha çalışardı. Amma biz Nəzarətin siyasətində əksini görürüz. Həman yaramaz adamlar iş başında oturur. Heç bir tövr ilə onlardan xilas ola bilməyiriz. Çünki Nəzarət bunları bəsləyir, kömək edir.

Nazir cənabları buyurdular ki, əlbəttə o da demokratizm tərəfdarıdır və istər ki, polis idarələri bu əsas mövcibincə [bu prinsipə uyğun olaraq] şəhər və zemstvo idarələrinin [yerli özünüidarə qurumlarının] əlinə keçsin. Fəqət əfəndilər, bu da ancaq sözdür. Çünki işə gəldikdə, Nəzarətin başqa bir siyasət yürütdüyünü görürüz. Bakı Bələdiyyə İdarəsinin fəaliyyətini görürsünüz, get-gedə yatır və ixtiyarlar yavaş-yavaş "Sentrodom" [Mərkəzi Ev İdarəsi] denilən müəssisəyə keçir. Bunu an-

layan indiki Duma öz fəaliyyətini artırmaq üçün sosialist firqələrinin Dumaya girməyini lazım bilib, bu barədə Dumanın qətnaməsinə görə bir layiheyi-qanuniyyə iki ay bundan əvvəl Daxiliyyə Nəzarətinə göndərmişdir. Fəqət Nəzarət təcili bir qaç günün içərisində buna baxıb Parlamana daxil etmək imkanında ikən bunu etməyib, indiyə qədər qanunu mahud altında saxlayır. Hökumətin qərarına görə, Daxiliyyə Nəzarəti yanında yeni bələdiyyə qanunu düzəltmək üçün bir komisyon təşkil olunmuşdur. Fəqət üç aydır ki, nazir əfəndi Nəzarət başında bulunduğu halda, indiyədək gözlənilən qəti bir tədbir görülməmiş, komisyonun işlərindən xəbər yox və bu qanunlar nə vaxt düzəlib gələcəyini söyləmək də pək müşküldür. Nazir əfəndi söyləyir ki, bu qanunlar yavaş-yavaş düzələr. Heç beş-altı aya bəlkə hazır ola bilməz. Mən zənn edirəm ki, heç altı ildən sonra Nəzarətə qalarsa, bu qanunları hazır edib çıxartmaz. Çünki Nəzarətin fikrincə, camaat hələ idarəyə hazır deyil, Nəzarətin idarəsi daha yaxşıdır. Köhnə Rusiyada da xalq idarəsi tələb edilərkən o zamanın Daxiliyyə naziri Protopopov inad etdi. Çünki o da zənn edirdi, camaat hələ hazır deyil. Axırda Rusiyada camaat qiyam edib, yeni idarə haqqını aldı. İndiki Nəzarətin yürütdüyü siyasət də böylə xalq mənfəətindən uzaq bir siyasətdir. Bu gün biz Azərbaycan istiqlalını müdafiə ediriz. Lakin lazımdır ki, bu müstəqil idarə içində xalq, füqərəyi-kasibə qurulan idarədən razı olsun, onu saxlamaqda mənfəəti, interesi [marağı] olsun, ta ki sabahları bir təhlükə üz verdikdə həman camaatı müdafiəyə çağırmağa mümkünümüz olsun, haqqımız olsun. Nəzarətin bu siyasətindən isə füqərayi-kasibəyə ancaq zərər gəlir. Deməli ki, bu siyasət həm camaatın, həm dövlətin, həm hürriyyətimizin fəlakətinə səbəb ola bilər. İştə bunun üçündür ki, əsasən bəlkə də qanunun əleyhində olmadığımız halda, ancaq Nəzarətin siyasəti ilə razı olmadığımız üçün bizdən istənilən pulların verilməsinə səs verməyəcəyiz. *(Soldan alqış)*

**Məhəmməd Əmin [Rəsulzadə]** (Müsavat) – Bizim nöqteyi-nəzərimiz əvvəl başdan müəyyəndir. Bu kimi tənqidlər büdcə müzakirəsi əsasında olmalıdır. Meydandakı qanunu istəməyiriz demək və ağzı köpüklü, hökuməti Nikolay hökumətinə bənzətmək, hamınız bu xəyanətlərdə müqəssirsiniz deyə nəzakətdən xaric bir vəziyyət almaq, vəziyyəti anlamamaqdır. Bir halda ki, hər bir şey təzədən qurulur, Məclisi-Məbusan öz arasında bir neçəsini seçib nazir etmiş, yerdə qalanları da oturub özlərinə məbus demişlərdir, böylə bir halda öylə vəziyyət almaq ki, hər nə gəlirsə-gəlsin, qəbul etməyəcəyiz, doğru olammaz. Bunu Nikolay hökuməti zamanındakı şəkli-hökumət ilə əsasından düşmən olan qeyri-məsul müxaliflər yaparlardı. Onların hərəkətində məntiq də var idi. Əhməd bəy Pepinov dedi ki, zamanımız Nikolay zamanına oxşayır. Sonra bizə hökumətlər haqqındakı nəzəriyyələrdən bəhs eylədi. Hökumətin bir nöqteyi-nəzərdən müəyyəd min-indillah [Allah tərəfindən dəstəklənən və yardım edilən], digər tərəfdən xalqdan doğma nəzəriyyəsi olduğunu anlatdı. İkinci nəzərin məziyyətini [üstünlüklərini], faydasını və ədalətə müvafiq olmasını da ayrıca anlatdılar. Burada Ağamalıoğluna bir nəzirə yaparaq bir anekdot xatırladım. Biz də bir hekayə söyləyəlim: Köylünün birisi kənddən şəhərə ərbaba pay gətirmişdi. O pay içərisində bir toyuq da var idi. Ərbab toyuğu almayıb dedi ki, apar sal qazana, tüklərini üt, təmizlə ver uşaqlar yesin. Kəndli təzimlə dedi ki, Allah xana ömür versin, yoxsa tüklü-tüklü yeyəcəkdik. İndi də Allah sosialistlərə ömür versin ki, hökumət haqqında müxtəlif nəzəriyyələr mövcud olduğunu bizə anlatdılar. Allah onlara həqiqətən ömür versin, yoxsa ki, biz bunu bilməyəcəkdik.

Daxiliyyə Nəzarətinin bir çox şayani-tənqid [tənqidəlayiq] cəhətləri vardır. Əsasən tənqid sırası olduğuna qane olsaydıq, biz də burada bir çox şeylər söylərdik. Fəqət, hər tənqid nəticə etibarı ilə mənfi və müsbət bir qərarı mövcib olmalıdır [bir qərarla nəticələnməlidir]. Müvəqqəti bir əlac olmaq üzrə Daxiliyyə Nəzarəti məmurlarının məvacibi artırılmasını lazım görürüz. Bu lüzumu kəsb etdirəcək [qazandıracaq] və bunu inkar etdirəcək tənqidatın yeri deyildir. Tənqid üçün tənqiddən bir şey çıxmaz. Mənfi cəhətləri tənqid edərkən, müsbət çarələr göstərməlidir. Biz tənqidatımızı büdcə müzakirəsinə buraxırız. Onlar tənqid etdilər, fəqət bir çarə demədilər. Çarələri yalnız pul verməyiz, məvacibləri artırmayız oldu. Ağa Əminov müxtəsər nitqində nə kimi əsaslı tədbirlər görülməsi lüzumunu göstərdi. Tənqid dövlət nöqteyi-nəzərindən olmalıdır. Yoxsa əlinə bir nizə alıb, bir arıq ata minib hər qaraltıya hücum etmək ciddi bir məbus işi deyildir. Burada erməni fraksiyası tərəfindən də danışdılar. Danışan natiq tənqidatında öylə yüngül və mitinqlərdə söylənən sözlərlə danışmadı. O, doğrudan da tənqid etdi. Onun tənqidi tənqidə oxşadı. Hökumət nöqteyi-nəzəri ilə bir çox şeylər söylədi.

Fəqət, sözünün əvvəlində bunu da dedilər ki, Rusiya inqilabı hürriyyəti-şəxsiyyə [şəxsiyyət azadlığı] əvəzinə Rusiyada sinif mübarizəsi, bizdə, Qafqaziyada dəxi sinif mübarizəsi ilə bərabər millətlər ixtilafı törətdi. Hürriyyəti-şəxsiyyə təmin olunacaqdı, əvəzinə şəxsin qiyməti endi. İnsan öhdədən düşdü. Buna misal olaraq Azərbaycan həyatından erməni vətəndaşlar haqqında vaqe olan hadisələrdən bir silsilə nümunə göstərdi. Onlardan bir çoxunun məsuliyyətini kəndi öhdələrinə buraxmaqla bərabər deyirəm ki, bunlardan bir qismi bəlkə də həqiqətdir, vaqe olmuşdur. Fəqət, bu hadisələr getdikcə azalmaqdadır. Bunu da qeyd etməliydi. Özləri dedilər ki, araya milli ixtilaf düşmüşdür. Bu ixtilafın nəticəsində ruhi bir xəstəlik hasil olmuşdur. Onun üçün bəzi "hadisə"lər zühuru qeyri-ixtiyari olaraq hasil olur. Söylədikləri milli mübarizənin qeyri-məmul [arzuolunmaz] hadisələri ara-sıra zühur edirsə, bu yalnız Azərbaycanda deyil, yeni təşkil olunmuş qonşu hökumətlərin hamısında vardır. *(Mərkəzdən alqış)* Mən bununla əlbəttə Azərbaycandakı hadisələri müdafiə etməyirəm. Yalnız deyirəm ki, görülən bu hallar, keçirmiş olduğumuz macərculuqlar [avantüristliklər] bir milləti digər millət əleyhinə salmaq kimi böyük anarxiya zamanının müəssif tərəkəsidir [təəssüf olunacaq mirasıdır]. Bütün aləm o anarxi-

yanın təsiri altında ikən birdən-birə qalxıb da Azərbaycanın bir anda cənnət olmasını istəmək, heç bir şey istəməmək deməkdir.

Bu hadisələrlə şiddətli mübarizə etməlidir. Hökumət öz vəzifəsini yaxşı görə bilmək üçün digər çarələrlə bərabər maaşların artırılmasını da lazım görür. Məmurların maaşlarının artırılmasına, qulluqçuların ruhiyyatını nəzərə alıb da müariz [zidd, qarşı] olmamalıdır. Maaş artırılmasına müxalifət etmək yalnız qeyri-məsul olan müxalifətin məntiqidir. Düşmənanə bir vəziyyət alıb da "bunu istəmirəm, bunu qəbul etmirəm" demək xeyirli olmaz.

Bunu da unutmamalıdır ki, böylə düşmənanə rəftar etdikləri hökumət Əhməd [Cövdət Pepinov] bəyin qorxduğu kimi zillullah tərəfindən deyil, tənqidçilər tərəfindən təşkil edilən hökumətdir ki, istədikləri zaman dəyişər. Nasıl ki, şimdi hali-istefadadır. Tənqid olmalı, fəqət gözü yumulu deyil, xeyirxahanə tənqid olmalıdır. *(Sağdan və mərkəzdən alqış)* Mən istərəm ki, məmurlar rüşvət almasın. Bir an əvvəl maaşların artırılmasını qəbul edirəm və deyirəm ki, biz bu paranı verdik, siz də istədiyimiz intizamı və asayişi bərpa ediniz. Bununla bərabər özüm də fəal olaram, işlərəm, komisyon iclaslarına gələrəm, layihələri hazırlaram. Və hökumətə tənqidlə bərabər o xüsusda kömək də edərəm. Yalnız mənfi tənqidlə hökumətə kömək eyləmək mümkün deyildir. Müsbət surətdə çalışmaqla da hökumətə kömək etməlidir. Yoxsa, yalnız Nikolay zamanını xatırlamaqla iş düzəlməz. Nikolay zamanında məhkum millətlər hökumətdən daima zülüm görmüş, ona görə də ruhlarında hökumətə qarşı daimi bir müxalifət xasiyyəti tərbiyə olunmuşdu. Bu ruhiyyətlə biz indi də xəstə kimi görünürüz. Hökumətə qarşı müxalifət bizim mühakimatımıza üskün [hakim] olur. Bu kürsüyə çıxıb məczubanə bir surətdə [dəli kimi] "Siz hamınız xainsiniz!" tərzində idareyi-kəlam edərək [danışaraq] müvazinədən çıxmaq və "Zəmanəmiz Nikolay zamanından da betərdir" demək, bu xəstə zehniyyətin məhsuludur. Halbuki Nikolay zamanındakı Rusiya ərazisi üzərində təşəkkül edən cümhuriyyətlər müqayisə edilərsə, Azərbaycan bəlkə intizamlısı və əmniyyətlisi çıxar. *(Alqışlar)*

**Sədr** – Məclisə davam ediriz. Rica edirəm yerlərinizi işğal edəsiniz. Məsailiyövmiyyə [gündəlikdəki məsələlər] elan edilərkən iki məsələ unudulmuşdur. Birincisi, Azərbaycan hökuməti ilə Ermənistan və Gürcüstan hökumətləri arasında post-teleqraf münasibatı [əlaqələri] haqqındakı müqavilənamə. İkincisi, Məhkəmeyi-Hərbiyyə təsisi haqqındakı layiheyi-qanuniyyə [qanun layihəsi]. Bir də tənəffüs vaxtı bəratülqövldən [protokoldan] aşina olmuşam ki, Camalbəyov öz nitqində hökumətə müraciətlə demişdir ki: "Rüşvətxorluqda və cinayətlərdə siz onlarla əlbirsiniz." Mən bu sözü eşitməmişəm. Parlaman adətində böylə şeylərə məhəl [yer] veriləmməz. Əgər mən eşitsəydim gərək onu dayandıraydım. Ancaq şimdi nizamnaməyə görə mənə verilən ixtiyarla Camalbəyovu nizam və qaydaya dəvət edirəm. Növbədən xaric söz Əliheydər Qarayevindir.

**Qarayev** – Yoldaşımız Camalbəyovun danışığından fraksiyamızın xəbəri yoxdur. Binaənileyh [ona görə], Camalbəyovun öz sözlərinin məsuliyyətini fraksiyamız öz öhdəsindən atır.

**Camalbəyov** – Möhtərəm əfəndilər! Mən deyirəm, təkrar edirəm, hökumət bu işləri bilir.

**Sədr** *(onu dayandırır)* – Hərgah izahat vermək istəyirsəniz buyurunuz, yoxsa, həman sözü indi də başqa dürlü demək istəsəniz mən sizə söz verməərəm.

**Camalbəyov** – Mən onu demək istəyirəm ki, mənim hökumət əzasından [üzvlərindən] heç kəslə şəxsi qərəzim yoxdur. Mən o idarə ki var, onu tənqidə çıxmışdım, buna haqqım da var, həmişə də edəcəyəm. Fəqət ola bilər ki, hirs vaxtı nalayiq bir söz demişəm. Şimdi onun üzrünü istəyirəm. *(Gülüş və alqış)* Hökumətdə çox şey olur. Mən heç vaxt haqqaniyyətdən dönmərəm və deyəcəyəm. Fraksiyamız mənim sözlərimin məsuliyyətini öz öhdəmə buraxır. Onun ixtiyarı var hər şey etməyə. Ancaq mən proqramla rəftar etmişəm, onun ziddinə getməmişəm. Mənim hökumət əzası ilə, Daxiliyyə ya Baş vəzirlə qərəzim yoxdur və əgər onlara toxunan bir söz olubsa, geri götürürəm. Amma ümumiyyətlə hökumətdə çox şey var, deməklə qurtarmaz. Mən bunu həmişə deyərəm və dediyimi geri götürmərəm.

**Sədr** – Məclisi-Məbusan üzvü Yusifəli Əliyev tərəfindən bir kağız gəlmişdir ki, Parlamana seçildikdən sonra dövlət qulluğundan imtina edir. *(Ruscaya tərcümə edir)* Şimdi layihənin maddəbəmaddə oxunmasına şüru ediriz [başlayırıq].

Layihə maddə-maddə oxunaraq səsə qonulur və ikinci qiraətdə əksəriyyətiara [səs çoxluğu] ilə qəbul edilir.

**TELEQRAF XƏBƏRLƏRİ**

- İstanbuldan gələnlərin rəvayətinə görə də İngiltərədə iki milyon əmələ tətil edirmiş.

- "O. N." qəzetəsinin yazdığına görə Belçikada inqilab hərəkatı vardır. Belçika camaatının tələbi üzərinə kral Albert taxtından əl çəkib Belçikada cümhuriyyət üsuli-idarəsinə razı olmuşdur.

- Parisdən xəbər verilir ki, bütün Almaniyanı gəzmiş olan Fransa agentləri Almaniyanın ərzaq işlərini təhqiq etmişlərdir. Bunlar deyirlər ki, ərzaq işlərinin fənalığından Almaniyada gündən-günə bolşevizm tərəqqi edir. Agentlər Almaniyanın qayət böhranlı bir hal keçirdiyini anlatırlar. Ruslar nemeslərə şimdi başçılıq edirlər. Çox mümkündür ki, Almaniya və Rusiya bolşevikləri tez bir zamanda şərqi cəbhədə birləşsinlər. Halhazırda Hindenburq ordusu 200 mindən ibarətdir. Bu qüvvət Almaniyada bolşevizmi yıxa bilərdi. Fəqət bu şərtlə ki, bu qoşunlara bolşevizm sirayət etməmiş olaydı. Lakin Almaniyada ümid bəxş edən bir alay belə yoxdur. Almaniyada bolşevizmin sirayətini böylə təfsir [izah] edirlər:

Bolşeviklər almanlara hər növ ərzaq vəd edirlər. Fransa agentləri təklif edirlər ki, bilatəxir [təxirə salınmadan] almanlara lazım olan ərzaq yetirilsin. Bunsuz Almaniyada bolşevizmi yıxmaq mümkün olmayacaqdır. Bolşevizmə ikinci mühlik [öldürücü] zərbə Müttəfiqlərin bütün banklara Rusiya pullarını qəbul etməmələri barəsində əmr verməkləri olardı. Spartaklar hal böylə ikən pulsuz qalıb işdən aciz olarlardı. Almaniyanın fəal

adamları hər bir şəraitə riza verirlər, tainki bolşeviklərin nüfuzu altına düşməsinlər. Almaniyada bolşevizmdən kənar olan ümum firqələr bəyan edirlər ki, Müttəfiqlərin bolşevizmi yıxmaq xüsusunda təcili yardımları fərzdir.

- Nyukasldа ərzaq işləri kontrolu [müfəttişi] Roberts məlumat verərkən demişdir ki, ona verilən ən mövsuq [inanılmış] və mötəbər xəbərlərə nəzərən Avropanın bir çox vüsətli oblastlarında [geniş vilayətlərində] ərzaq işləri qəmli bir haldadır. Romaniya, Serbiya, Avstriya, Almaniya əhalisi aclığa mübtəla olmuşlardır. Buna görə də bizim qarşımızda böylə bir məsələ vardır.

**Berlində**

Kopenhaq – Berlindən nim-rəsmi [yarı-rəsmi] surətdə xəbər verilir ki, üsyan etmiş olan matroslar və milislər admiral idarəsində möhkəmləşib yeni sistem top və pulemyotla oranı müdafiə edirlərmiş. Hökumət qoşunları böyük topla imarəti atəşə basıb, nəticədə orada olanların bir hissəsi qaçıb, qalanları ağ bayraq qaldıraraq imarətdən çıxmışlardır.

- Berlindən verilən bugünkü xəbərlərdən anlaşılır ki, hökumət qoşunları spartakların hücumunu dəf etmişlərdir. Düşmənin qoşunları müsəlləh [silahlı] əmələlərdən, qaçmış saldatlardan, azad edilmiş hərbi əsirlərdən ibarətdir. Bunların əlində top, pulemyot, sol cinahdan düşmənlərin müxtəsər dəstəsi bir qədər irəliləməyə müvəffəq olmuşlarsa da, yenə püskürdülmüşlər. Günortadan sonra hökumət qoşunları bütün xətt boyu yürüşə keçib Kral tövləsində durmaqda olan milislər hökumət qoşunlarına hücum etmişlərdir.

- Berlindəki qəzetə müxbirləri deyirlər ki, spartaklara qarşı açılan hava müharibələri London və Parisə olan hücumlarından dəxi də şiddətli idi. Hökumət aeroplanları bombanı spartakların bürosuna tökürdü. Bunların yuvası bəzi ziri-zəminlərdə [yer altında, zirzəmidə] idi ki, neçəsini bomba təxrib eyləmişdir. 60 put vəzni [ağırlığı] olan bombalar tökürmüşlər. Hər iki tərəf zəhərli və gözdən yaş çıxaran qaz buraxırmış. Hərbi aeroplanlar qoşunları əvəz edib də spartaklarla mübarizə edən polis nəfəratına havadan azuqə töküb, böyləliklə onlara mübarizədə imkan verir və yardım edirmişlər.

## QƏZETƏLƏRDƏN

**La-Manş, Bosfor və Cəbəllüttariq tunelləri**

Palata dəvairində [dairələrində] danışırlar ki, hökumət kanal altında tunel inşasını qət eyləmişdir [qərara almışdır]. Bu işdən mənfəətdar olan fransız və ingilis dəmiryolları proje hazırlayırlar. Parlaman üzvü Kitl bəyan edir ki, Sülh Konfransının kiçik komissiyası projeni təsvib eyləmişdir [bəyənmişdir]. Belə ki, bu proje ilə tunelləri 5 ilə qurtarmaq olar və buna da 20 milyon para sərf ediləcəkdir. Komissiya Parisdə projenin maddələrini müzakirə edir. Hakəza [eləcə də], Bosfor və Cəbəllüttariq altından çəkiləcək tunelin də projesi müzakirə edilir.

- Müharibənin cavabdehəndəliyini təhqiq və təftiş edən komissiya Şurada məlumat verərkən demişdir ki, şimdiki beynəlmiləl qanuna görə kayzer Vilhelmi mühakimə etmək mümkün deyildir. Hər nə qədər Vilhelmin təqsiri aşkar olsa belə, yenə məhkəməyə verilməsi imkan xaricindədir. Komissiya təklif edir ki, müharibəyə bais olanları mühakimə üçün bir tribunal təşkil edilsin.

**Foşun dakladı**

Almanyanin tərk-silah edilməsi barəsində Lloyd Corcun mülahizatı və təklifi haqqında marşal Foş Ali Şurayi-Hərbiyyəyə bir məruzə təqdim etmişdir. Təklif ondan ibarətdir ki, Almaniya yüz mindən ziyadə tüfəng altında qoşun saxlaya bilməsin. Foş bu əqidədədir ki, ərkani-hərb [hərbi qərargah] heyətini əksiltmək qışlalarda [kazarmalarda] yaşayan adamların ədədlərini əksiltməkdən daha məqul [ağlabatan], daha münasibdir.

**Amerikalılar və ingilislər**

Bakıda olan Erməni Məlumat Bürosu xəbər verir ki, Tiflisdəki İngiltərə nümayəndəsi mötəbər bir şəxslə müsahibə əsnasında demişdir ki, ingilislərin Qaf-qazı tərk edəcəkləri haqqındakı şayiələr əsilsizdir. Sərhəd məsələlərinə gəldikdə, bu məsələlər əvvəlcə Sülh Konfransında həll edilməlidirlər. Hal-hazırda hansı vilayətlərin türklərə, gürcülərə, ermənilərə və qeyrilərə çatacağını bilmirik. Buna görə bir oblastın [vilayətin] bir əldən digər bir ələ verilməsi üçün heç bir tədbir görmək və davam edən sərhədləri dəyişmək olmaz. Hər halda heç bir müsəlləh müsadiməyə [silahlı toqquşmaya] və ya türklərin ermənilər üzərinə hücum etməsinə yol verilməyəcəkdir. Türkiyə ordusu hələ tərxis edilməmişdir. Bunun üçün bir neçə ay vaxt lazımdır. Türkiyənin gələcək sərhədləri təyin edildikdən və Sülh Konfransı qərarları məlum olduqdan sonra türklərin nə miqdar əsgər saxlamağa haqları olduğunu biz təyin edəcəyiz. Bu qərar üzrə müəyyən oblastları türk əsgərlərindən təmizləmək üçün vaxt lazımdır.

Qafqaziya məsələlərindən məlumatlı bir şəxs sifəti ilə bir para işlər haqqında məruzədə bulunmaqdan ötrü bu yaxınlarda Makdonald Parisə gedəcəkdir. İngilislər hal-hazırda şəraiti-məhəlliyəyə [yerli şəraitə] aşina olmaqdadırlar. İngilislərin getməsi haqqında bu axır vaxt şaye olan [yayılan, söylənən] xəbərlər Şotlanda və ingilis əsgərlərinin Hindistan və Malay əsgərləri ilə əvəz edilmələrindən nəşət etmişdir [irəli gəlmişdir]. Buraya nə qədər əsgər varid olarsa [gələrsə], bir o qədər də İngiltərəyə gedir. Qafqaziyada olan əsgərlərin miqdarı artacaqdır. İngilislər Amerika ilə Fransanın qərarına görə bu yaxınlarda Türküstanı öz əsgərlərindən təmizləyəcəklərdir.

**Batum oblastı əhvalı**

Məlum olduğu üzrə, türklər getdikdən sonra Batum oblastı [vilayəti] hökuməti həqiqətdə İngiltərə komandanlığı əlinə keçdi. İngiltərə komandanlığı Batum oblastını idarə etməkdən ötrü məhəlli [yerli] türk, gürcü və rus əhalisi nümayəndələrindən ibarət bir Şura vücuda gətirmişdi və müsəlman əhali bu Şuranı qəbul etməyir və tabe olmayırdı. Bu Şurada Rusiya sabiq qulluqçularından general Maslov sədarət [sədrlik] edir. Şura sədri, Denikin ordusu ilə daimi münasibatda olub oradan binagüzarlıqlar [sə-

rəncamlar] almaqdadır. Əvvəlcə Şura geniş bir ixtiyara malik idi, sonra İngiltərə əsgərləri artdıqca, Şura yox dərəcəsinə varmışdır. Hal-hazırda Şuranın ixtiyarı xeyli məhdud bir hala salınıb, heç bir binagüzarlıq ingilislərsiz həyata tətbiq edilməyir. Məhəlli əhalinin, xüsusən gürcülərin Şuraya olan münasibatı mənfi bir surətdədir. Şəhər idarəsi davam edir.

**Əhməd bəy Ağayev cənablarının İstanbulda tövqifi**

İstanbuldan əxirən [son vaxtlarda] aldığımız cəmadiyəlaxir tarixli qəzetələrin yazdığından vətəndaşımız möhtərəm Əhməd bəy Ağayev cənablarının İstanbulda "İttihad və Tərəqqi" cəmiyyəti əzası [üzvü] sifəti ilə tövqif [saxlandığını] və həbs edildiyini təəssüflə bildik. Bu qəzetələrdən "Sabah" qəzetəsi kimi xaricilər pulu ilə nəşr edildiyi "sifətindən" görünən "İstanbul" qəzetəsi Əhməd bəyin tövqifini yazarkən mümaileyh [haqqında danışılan şəxs] əleyhində şiddətli bir lisan qullanaraq yazır ki:

*"İttihadçıların ağıl hocalarından "Tərcüman" qəzetəsi sərmühərriri-sabiqi [sabiq baş redaktoru] Əhməd bəy Ağayev dün tövqif və padaşları [yoldaşları, məsləkdaşları] yanına isal olunmuşdur [göndərilmişdir]. Bu adam Doktor Nazimin adamlarından olub, Qafqaziyanı fəth və müxəyyəl [xəyali, xəyala gətirilən] Turan xanlığını təsis etmək havasını Ənvərlərin, Tələtlərin, Camalların qabaq qafalarında əsdirən və zoraki bir tabeiyyət iqtisabı ilə [vətəndaşlıq əldə etməklə] məbus sifətilə Məclisi-Məbusan əzalığına, darülfünun müdərrisliyinə [universitet müəllimliyinə] intixab [seçilmiş] və elan edilmiş dövlətçulardandır. Şimdiyə qədər tövqif edilmiş olmaması heyrəti mövcib olurdu [heyrətə səbəb olurdu]. Elani-hərbə təqəddüm edən [müharibə elan edilmədən əvvəlki] həftələr zərfində "Tərcüman"a yazmış olduğu təhrikamiz [təhrikedici] məqalələr, Karahisar [Afyonkarahisar] məbusu rusiyalı Ağayevin hərbə düxulumuz [daxil olmağımız] xüsusunda nə mühüm amil olmuş olduğuna şəhadət [şahidlik] etməkdədir."*

Başqa qəzetələrin yazdığına görə İstanbulda olan Azərbaycan vəkili və müməssilləri [nümayəndələri] Əhməd bəyin təxlisi [xilası] və həbsdən azad edilməsi haqqında hökumət nəzdində bilvasitə [başqalarının vasitəçiliyi ilə] təşəbbüslərdə bulunmuşlarsa da, cavabi-rədd almışdırlar.

Hal-hazırda Türkiyədə yeni Kabinə Damad Fərid paşa Kabinəsidir ki, bunun ilk fəaliyyəti "İttihad və Tərəqqi" əzalarını tutub həbsə almaqdan ibarətmiş. Bu Kabinə "Hürriyyət və Etilaf" partiyasına mənsubdur.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Quyu qazan müəssisələrə istiqraz açmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Maliyyə Nəzarətinə icazə verilsin ki, məhəlli Dövləti Bank vasitəsi ilə neft quyusu qazan müəssisələrə fəhlələrin fevral ayı məvaciblərini vermək üçün istiqraz açdırsın. Məvaciblər, ittifaqlar və yaxud bu vaxtadək verilən qayda üzrə verilməlidir. İcarə ilə quyu qazan müəssisələrə fevral ayı ikinci nisfi [yarısı] üçün veriləcək məbləğ 300 min rubldən artıq olmamalıdır.

- Daxiliyyə naziri müavininin Balaxanı və Sabunçu süvari polis atlarından ötrü ələf almaq üçün məbləğ təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə Nəzarətinə tapşırılsın, fövqəltəhrir [yuxarıda qeyd edilən] polis üçün hökumət təhti-ixtiyarındakı 20 milyon fonddan onun ixtiyarına verilmiş məbləğdən 13 min rublə versin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

- Maliyyə Nəzarəti Məsai [Əmək] Nəzarətinə müraciətən rica etmişdir ki, 27 dekabr 1918-ci sənə və 28 fevral 1919-cu sənə qanunu mövcibincə [qanununa əsasən] veriləcək maaşlara aid ələqələr Maliyyə Nəzarətinin Xəzinə şöbəsinə göndərilsin.

- Sabiq Biçeraxov ordusu avtokoloniyası xidmətçiləri Məsai Nəzarətinə məvaciblərinin verilməsi barəsində lazımi binagüzarlığın [sərəncamın] bulunmasını rica etmişdilər.

- Məsai Nəzarəti Vükəla Şurasına [Nazirlər Kabinetinə] müraciətən rica etmişdir ki, avtomobillər təqsim edilən [paylanan] müəssisələrdən xidmətçilərə 497.820 rublə məvaciblərinin verilməsi barəsində lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] Şurası, Məsai Nəzarəti vasitəsi ilə Ərzaq Nəzarətinə müraciətən məlum etmişdir ki, Zaqafqaziya, Dağıstan və Zakaspi Kəsbkarları İttifaqlarının Qurultayı açıldığı üçün 150 nəfərədək gələn nümayəndələr üçün 1 put 20 girvənkə qənd və 2 girvənkə çay buraxılsın.

- Quliyev dəyirmanı müdiriyyəti Məsai Nəzarətinə məlum etmişdir ki, aprelin 8-də dəyirmanda tətil başlanmışdır. Müdiriyyət məlum etmişdir ki, tətilçilərə tətil günləri məvacibi verilməyəcəkdir. Əlavə, tətilçilər iki günə öz işlərinə başlamazlarsa, o vaxt xidmətdən kənar edilmiş hesab ediləcəklərdir. İxtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün Məsai Nəzarəti tərəfindən Rəhim Hüseynov cənabları oraya göndərilmişdir.

- Bu gün saat 5-də Məsai Nəzarətində xüsusi müşavirənin iclası təyin edilmişdir. Baxılacaq məsail [məsələlər] bunlardır:

1) Kəsbkarlar İttifaqı layihəsi;
2) Fabrika və zavod komitələri layihəsi.

- Kəsbkarlar İttifaqı Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, neft dairələri fəhlələri İttifaqa müraciətən rica etmişlər ki, pasxa bayramı münasibətilə onlara nisan ayı ikinci nisfinin [yarısının] məvacibi nisanın 20-dək verilsin. Mümkün olmazsa, o vaxt həman ayın maaşı – ki 360 rubladir – o vaxtadək verilsin.

- Kəsbkarlar İttifaqı Məsai Nəzarətinə məlum etmişdir ki, Nobel Qardaşları mədənləri fəhlələrinin məvacibləri bu vaxtadək verilmədiyindən naşi [ötrü] fəhlələr miyanında [arasında] ixtilaf əmələ gəlmişdir. İttifaq rica etmişdir ki, bu barədə lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Məsai Nəzarətinin yurist-konsulu

[hüquq məsləhətçisi] dava vəkili Lutski Könüllü ordu ilə əlaqədə bulunduğundan dolayı xidmətdən əzl edilmişdir [qovulmuşdur].

- Məsai Nəzarəti Vükəla Şurasına müraciətən məlum etmişdir ki, Zaqafqaziya dəmiryolları xidmətçiləri Moskva dekreti mövcibincə [əsasında] 8.039.512 rublə 97 qəpik təfavütü [fərqi] almışlardır. Vladiqafqaziya dəmiryolları xidmətçiləri isə 1.207.197 rublə 94 qəpik təfavütü bu vaxtadək almamışlardır. Məsai Nəzarəti rica etmişdir ki, Azərbaycan dəmiryollarındakı xidmətçilərin hamısına təfavüt verilsin.

## BAKIDA YAŞAYAN İRAN TACİRLƏRİNƏ XİTAB

Qarun həlak şod ke çehel xane gənc daşt
Nuşirəvan nə mord ke name neku qozaşt
*(Sədi)*

İnsan övladının qəribə hallarından biri də budur ki, böyük bir müsibətə mübtəla olarkən, yaxud özünü böyük bir fəlakətin qarşısında görərkən öz həmcinsindən, həmvilayətindən daha doğrusu yardım istər, istimdad [kömək] gözlər, mübtəla olduğu dərdlərinə qəm şəriki axtarar. Amma öylə ki, müsibətindən nicat tapıb asudəliyə çıxdı, müruri-zamanla [vaxt ötdükcə] başına gəldiyi fəlakəti fəramuş eylər [yaddan çıxarar]. Axırda da özgə fəlakətzədələrin halı buna təsir etməz, ürəyini də yandırmaz. Bu bir haldır ki, hamıdan artıq bizim müsəlman əhlində olur. Məəttəəssüf [təəssüf ki], bizim İran əhlində də və ələlxüsus tüccar qismində artıq dərəcədə müşahidə olunur.

Mart hadisatında bolşeviklərə qoşulmuş iranlı neçə nəfər, çar-naçar [zorla, istər-istəməz] konsulxananı təsərrüfünə alaraq [əlinə alaraq, öz iradəsinə tabe etdirərək] İran tacirlərinə də olmazın əziyyət və azarı yetirirdi. Tacirlər bilməyirdilər ki, nə çarə qılsınlar.

Bir gün Hacı Şeyxəli karvansarasına yığılaraq məni də oraya dəvət etdilər. Bir çox müşavirə və müzakirədən sonra məndən rica və təmənna etdilər ki, İran tacirlərini İran bolşeviklərindən müdafiə edim. Bunun müqabilində mənə müavinət və imdad vədələrini verdilər. Bu ağır vəzifəni mən də öhdəmə götürdüm. Tüccar əhlini yüz cürə təcavüzatdan qurtardım. Lakin türklərin nicatından sonra Bakı müsəlmanları ilə bahəm İran tacirləri də asayişə çıxdılar. Bir neçə nəfər bolşeviklərin pənceyi-qəhrindən [qəhredici pəncəsindən] xilas olaraq öz keyfəmayəşaları [öz kefləri] ilə, öz məşğuliyyətləri ilə yaşayıb geridə qalmış möhtacların da halını unutdular. Ağalarımız kamali-gərmagərm ilə [qızğın surətdə] ticarətə məşğul olub, biçarə İran füqərasının heç də halına qalmayırlar.

Bakıda yaşayan İran füqərasının halı öylə müşkül bir haldır ki, xaricilərin belə ürəklərini dağdar edir [dağlayır, yandırır]. Küçələrdə işsiz gəzən avaralara iş verən yoxdur. Acından meydanlarda yıxılanlarına çörək verən və ölənlərini də dəfn-kəfn edən [kəfənləyib basdıran] yoxdur.

Bakının Mərkəzi Ev Komitəsinin rəyasəti xaricilər əlində olarkən, həman xaricilər İran yetimlərini küçələrdən yığıb onların pərəstarlığı üçün [onların qeydinə qalmaq üçün] Cəmiyyəti-Xeyriyyədən adam istəyirlər. Bəs hanı bizim döşünə döyən millətpərəstlərimiz, qırx günlərlə imam ehsanı verən ağalarımız? Onların pulları böylə böhranlı günlərdə xərclənməyəcəkdirsə, bəs haçan xərclənəcəkdir? Allahın qəzəbindən qorxmayırlarmı ki, bir gün bolşevik bəlası kimi yenə bir bəlaya düçar olsunlar?

Ay yarımdır ki, cəmiyyət işlərindən kənar olmuşam, çünki mənə yardım edən olmadı. Bu vaxta qədər də füqəranın işləri ilə məşğul olmaq qəsdinə düşən heç kəs tapılmadı. İran füqərası yenə avara, yenə sərgərdan...

Bugünlərdə Ağa Seyid Həsən (içərişəhərli) cənabları gəlib yenə xəbər verdi ki, təşrihxana [ölülərin yarıldığı yer] ətrafında bir xeylaq iranlı meyitləri atılmışdır. Mən də oraya gedib gördüm ki, on iki nəfər İran füqərasının meyitləridir ki, sahibləri kəfən ağı tapmayaraq dallarında gətirib oraya tullamışlardır. Pərvərdigara! Məgər bunlar gəbərmiş, murdar olmuş heyvanlardır ki, meyitləri çöllərə, məzbələlərə [zibilxanalara] atılmışdır? Bu hal məni ağlatdı. Biçarə İranlı, gör nə günə qalmısan ki, qərib ölkədə acından ölürsən, sadə bir kəfən də sənə qismət olmayır, amma həmşəhrilərin Bakıda milyonlar qazanırlar, ali imarətlər alırlar.

Bizə məlumdur ki, İran tacirlərindən möhtərəm Hacı Müseyib Həsənov cənabları İran füqərasının nəfi [xeyri] üçün məccanən [pulsuz] bez (bəyaz) [ağ, parça] paylayır. Buna qarşı Həsənov əfəndiyə izhari-təşəkkürlə bərabər, bunu da qeyd etməliyəm ki, əvvəla Hacı cənabının bu fədakaranə təşəbbüsatı füqəranın qismi-əzəminə [çoxuna] məlum deyil. İkincisi, məlum olsa da, xeyrat sahibinin mənzilini, məkanını bir çoxu tapa bilməyir. Üçüncüsü də, füqəraya paylanacaq bezdən bir-iki top qalmışdır. Bu qurtarandan sonra biçarə füqəra kimə müraciət etsin? Məgər ehsan vermək üçün Bakıda yalnız bir Həsənovmu layiqdir? Həsənov kimi Bakıda yüzlərcə İran sərvətdarları vardır. Bunlar neyçün millət füqərasından üzlərini döndəriblər?

Neçə ay füqəra işlərinə məşğul olaraq ticarət aləmində qazandığım maddi və mənəvi nüfuzumu itirdim. Bakı tüccari-mötəbəranından [mötəbər tacirlərindən] Musa bəy Əmircanov həzrətləri buna şahiddir. Aramızda şərakət [ortaqlıq] olduğu cəhətə o cənab bilir ki, bəndə füqəra yolunda nə işlər görmüşəm. Daha imkanım yoxdur. Hərgah imkanım olsaydı, Allah şahiddir ki, yenə bu yoldan qaçmaram.

İndi milyon qazanmış ağalar bir qədər mülahizə etsinlər ki, bu küçədə acından ölənlər, kəfənsiz dəfn olunanlar onların süd qardaşlarıdır, qan qardaşlarıdır, din qardaşlarıdır. Hər tacir ayda bir kəfən versə, bir yetimin məxaricini öhdəsinə alsa, yəqin ki, bir bu qədər xaricilər nəzərində xəcalət çəkmərik. Dəryalardan bir qətrə götürməklə dəryalar qurtarmaz, möhtaclar da acından ölməz.

Bakıda yaşayan İran tacirlərinə axırkı təklifim budur: Qardaşlar! Yığılın bir təavün [yardımlaşma] cəmiyyəti düzəldin. Qəriblikdə acından ölən əhli-vəteninizə də bir çarə edin. Yoxsa öylə bir gün meydana çıxa bilər ki, şol vaxt sizin "çehel gəncləriniz" [qırx xəzinəniz] sizə kömək edə bilməz!

İndi özünüz bilin! Vəssalam.

*Ağa Məhəmmədcəfər İsfahani*

*Ədəbi sütunlar*

**BAHARIN İLHAMLARI
VƏ
İCTİMAİ RƏMZLƏR**

**- 2 -**

Ey pərdeyi-mənhusda qalmış güli-zində!
Ey dəfn edilən canlı ikən örtü içində!
Söylənsə səzadır sənə: "mədfuneyi-ziruh",
Daim sənə mail, sənə mail dili-məcruh.
Bir atəş olaydım da, yaxaydım o niqabı,
İştə şu niqabı, şu hicabı, şu səhabı!
Parlardı o gün gülşəni-rüxsareyi-alın,
Qərq eylər idi yurdumuzu nura camalın!
Sənsiz olamaz nəş'əti-üxra bu vətəndə,
Sənsiz yaşamaz tairi-xanəndə çəməndə!
Sənsiz bu vətən gülşəni-rövşən olamaz heç,
Tabanü-dirəxşan olamaz, şən olamaz heç.
Ey canlı çiçək, örtünü at, ruyini göstər!
Bir cənnəti-hürriyyətə dönsün də bu yerlər,
Biz də olalım əhli-behişt, ey üzü cənnət,
Artıq yetər, artıq yetər, artıq bu əziyyət!
Şərq aləmi sənsiz əbədiyyən görəməz nur,
Ey çöhreyi-fəyyaz olan, ey dilbəri-məstur!
Ey canlı işıq, canlı günəş, tərki-səhab et!
Artıq yetər, ey "Nuri-cahan", tərki-niqab et!
Sən çöhrəni aç, bən olayım bülbülün, ey gül,
Şe'rim də təbəssüm edəcək, ey gözəlim, gül!
Sənsiz açamaz millətimin, bil ki, baharı,
Gizlətmə, "Səmən-rüx", o behiştanə üzarı!
Güllər açılır – iştə bu qanuni-təbiət,
Ya sən nə üçün pərdədə, ey gönçeyi-cənnət?!
Ey gönçeyi-cənnət, açıl, ey huriyi-səhhar,
Olsun vətənim çöhrən ilə qərqeyi-ənvar.
Sənsiz bu vətən görməyəcək nəş'əti-üxra,
Ey pərdeyi-müzlimdə qalan "Zöhreyi-Zəhra!"

*Bakı*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

**HAQSIZ TƏCAVÜZLƏR**

"Naşe vremya" qəzetəsinin fevral 22, nömrə 44 sütununda haqsız olaraq Göyçay uyezdində "Ermənilər nə surətlə məhv edildi?" sərlövhəsi ilə qaralamış olduğu qara fikirli qəzetə, yazısıyla qərəzkar bir vəziyyət almışdı. Zatən bu kimi fikirlərin ətrafından bir dəqiqə ayrılmayan qəzetə bu dəfə meydani-ələniyyətə [aşkarlıq meydanına] yenə maskası ilə çıxdı. Qəzetə hər nədənsə vüquatı [hadisəni] layiqi ilə tədqiq etməmişlər. Öz yırtıcı sənətinin əksini [şəklini] İvanovka mahalı müsəlmanlarında görmüşlər. Cayi-təəssüfdür [təəssüfə layiqdir]!

Bu xüsusda vazeh [açıq] məlumat verirəm. Bədbəxt Şamaxı vüquati-əliməsindən [kədərli hadisələrindən] sonra sönən minlərcə ocaqlar, viran olan xanimanlar, hətk edilən [tapdalanan] irz və namuslardan sonra Göyçay ilə həmhüdud olan Şamaxı qəryəsi [kəndi] İvanovkada inqilabdan sonra rahat yaşayan sakin... erməni qonşularımız arasında bir "hüsn-nəticə" olmaq mülahizəsi yavaş-yavaş kəndlərdən gəlib keçən müsəlman qonşularını "ovlamaq" surətini aldı. Bir-iki həftə ərzində Şamaxıdan alınan əmrlər üzərinə olmalı ki, pulemyot atışları ilə İsmayıllı, Quşencə, Diyallı, Talıstan, Qalınçaq, Həftəsov, Aşıqbayramlı, Nüydü, Dahar, Kürd, Mollaishaqlı kəndlərinə birdən-birə hücum edib, çılpaq vəhşiyanə bir surətdə ancaq ailəsini qurtarıb min müşkülatla nisfi [yarısı] qonşu gülləsinə hədəf olub qırılan müsəlman əhalisi dağlarda, meşələrdə otlar yeyib dolandılar. Bu vüquatı [hadisələri] "Naşe vremya" mühərrirləri çox yaxşı bilirlər, zənn edirəm.





Əmirov və Hamazasp kimi "qəhrəmanlar" bu vaxtda Kürdəmir və İvanovka mahallarına hakim olub, özləri Neron timsalında bu yolda kəsilmiş, tullanmış müsəlman qonşularının cəsədləri arasında gəzinib çubuqlarını havaya sovururlardı.

Bu cəsədləri görüb də, etdikləri səfil hərəkatlarından çirkinməyib də, bərəks [əksinə] olaraq yenə müsəlmanların özlərinə qarşı yalandan nə üçün iftira edirlər? Göyçay uyezdinə son zamanlarda hökumət tərəfindən göndərilən heyəti-təhqiqənin [təhqiqat heyətinin] övraqını, vəsiqələrini [materiallarını, sənədlərini] əcəba görmədilərmi? Biz öylə həqiqətlər biliriz ki, yazıb da millətin ruhunda həyəcan oyandırmaq istəməyiriz.

Ən nəhayət, neçə müddətlər dağlarda soyuqdan, aclıqdan məhv olan İvanovka müsəlmanlarını türk qardaşları xilas etdilər. Buna həmişə ədayi-şükrandan [təşəkkürlərini bildirməkdən, layiqincə təşəkkür etməkdən] acizdirlər.

İvanovka müfrəzə [hərbi dəstə] komandanı Əhməd çavuş guya "meşələrə qaçıb gizlənən erməni vəhşi cəngavərlərinə 'türk hökuməti sizə donuz əti göndərmişdir, gəlin aparıb yeyiniz' elanını [eşidən] safdil [sadəlövh] donuz düşkünü erməni saldatları gəlib apardıqları zaman qırdırılmışdır." Şaşaram böylə məntiqsiz yazı yazan "dühaya"!

Bir də qəzetə yazır ki, nəüzübillah, ikinci bir hakimi-mütləq İvanovka erməni qırğını hazırlayan Süleyman əfəndi və Sirac əfəndilərdir. Əvvəla bilmirəm ki, qırılan ermənilər kimlərdir. Bakıya Şamaxı yolu ilə türklərin hücumu əsnasında qaçıb gələn ermənilərdirmi və yaxud da məzkur [adları çəkilən] əfəndilərin evlərində hər gün onlarca çörək yeyən erməni fəqirləri və arvadlarmıdır? Bu hal hələ davam etməkdədir. "Naşe vremya" gedib istəsə özü görə bilər.

Yuxarıda bildirdiyim kimi, erməni məzalimi [zülmləri] xüsusunda yazı yazmaq lazım gələrsə, cildli kitablar yazmaq mümkündür. Həm də haqlı və dəlil ilə. Halonki [halbuki], böylə çirkabla dolu tarixi-maziyə baxmaq istəmirik. İzzəti-nəfsimizi hər şeyin fövqündə tuturuz. Köhnə ədavəti təzədən körükləmək istəyən ağalar əmin olsunlar ki, hər iki tərəfli zərərli çıxarlar. Qara fikirli "Naşe vremya" maskasını birdəfəlik götürsün, fikrini söyləsin. Yoxsa illərcə bir yerdə yaşamış qonşu millətlər arasını zəhərləməkdən çəkinməzlərsə, axırda ona deyəcəyimiz söz bu olacaqdır: "Azərbaycan mühitində sadiq təbəələrə yerimiz vardır." Yalnız onlar yaşaya biləcəklərdir. Bu xüsusda artıq şey yazmayacağam.

*Hacı Hüseyn Əfəndizadə*

**ƏLƏKBƏR BƏYİN
MƏRASİMİ-DƏFNİ**

Gəncə bu günlərdə böyük bir müsibət gördü. [Rəfibəyli] Ələkbər bəyin Gəncəsi Ələkbər bəyini itirdi. Bu böyük cənabı dünyalar durduqca xatirində saxlamaq üçün mərhumun təşyeyi-cənazə [cənazənin yola salınması] günü olan 3 nisanda bütün mənası ilə şəhərimiz bir qara bayram saxladı. Gəncənin 31 Mart qurbanlarına və mərhum Ələkbər bəyə göstərdiyi hörmət təqdir ediləcək bir

hörmət oldu. O günü bütün məktəblər, hökumət idarələri tətil etdi, çarşı qapandı.

Mərhumun evi bulunan küçə saat 11-ə doğru insanla doldu. Saat 11-də möhtərəm cənazə Qurani-kərim avazı içərisində omuzlara çıxdı, ağır-ağır cameyə doğru yürüşə başlandı. Gəncənin gözü görməyən bir izdihamla cənazə namazı qılındı. Bu namazda iştirak edən hər möminin qəlbini üzündən oxumaq mümkün idi. İmam əfəndi: "Allahümmə innə lanə'ləmu minhə illa xeyrən" buyurduğu vaxt ərəbcə bilən möminlərin gözləri yaşardı.

Həqiqətən müsəlmanlar mərhumdan xeyirdən başqa bir şey görmədilər. Namazdan sonra Bələdiyyə rəisi Ələsgər bəy [Xasməmmədov], mərhumu Bələdiyyə Şurasının 22 illik fəal bir üzvü sifətilə haziruna təqdim edib dedi ki: Ələkbər bəy mərhum bu 22 ildə iki və ya üç dəfə ancaq iclasdan qalmışdır. Böylə fəal bir üzvünü qeyb edən Bələdiyyə Şurasının dərdi ölçülməz dərəcədə böyükdür, dedi.

Bələdiyyə rəisindən sonra Pişnamazzadə həzrətləri mərhumun son dəqiqələrini təsvir edib, son sözlərini millətə yetirdi və mərhumun yeganə oğlu Xudadad bəy [Rəfibəyli] və əqrəbaları tərəfindən maarif işlərinə və məktəblərə sərf olunmaq üçün 40 min manat ehsan etdiklərini xəbər verdi.

Bundan sonra cənazə alayının rəsmi çıxarıldı, məzarlığa doğru yola çıxıldı. Yol uzunu mərhumun cənazəsini matəm əlaməti olan qara bayraq deyil, bir sifətimilli [olan] Azərbaycan bayrağı təşyi [müşayiət] edirdi.

Bələdiyyə binası önündə alay durdu. Bir daha fotoqraf alındı. Bələdiyyə Şurasının erməni üzvləri və məmurları tərəfindən vəkil olaraq Şahnəzərov başsağlığı verdi. Son nitqlər məzarlıqda söylənmək üzrə yola çıxıldı.

Yenə eyni ehtiram və izdiham içərisində möhtərəm cənazə məzarlığa yetişdi və Rəfibəyli ocağına məxsus kümbədin önündə yerə qoyuldu. Burada bir çox natiqlər tərəfindən mərhumun tərcümeyi-halı və xidmətinə dair sözlər söyləndi. Natiqlərdə böyük bir səmimiyyət gözə çarpmaqdaydı.

Söz söyləyən natiqlər bunlar idi: Gəncə Türk Müəllimləri İttifaqı namına Abbaszadə Mirzə Abbas, Parlaman əzası [üzvü] Nuxu və Zaqatal nümayəndəsi Abdulla bəy Əfəndizadə, Ağdaş Milli Komitəsi nümayəndəsi, Erməni Milli [Şurası] nümayəndəsi, yəhudi nümayəndəsi xanım Derkovskaya, sənətkarlar və ruhanilər namına Baratzadə, Türk Mütəəllimlər [Tələbələr] İttifaqı tərəfindən Bəhram Məlikzadə və "Müsavat"ın Mərkəzi Komitəsi və Gəncə şöbəsi naminə Ə[hməd] Cavad.

Bu nitqlərdən sonra Pişnamazzadə həzrətləri mərhumun son sözlərini bir daha təkrar etdi.

Bu nitqlərə və başsağlıqlarına cavabən doktor Xudadad bəy [Rəfibəyli] natiqlərdən və əhalidən razılıq etdi və dedi ki: Babamın vəfatını, göstərdiyiniz hörmət unutduracaq bir dərəcəyə gəldi. Cənabi-Allah bütün millət, vətən yolunda ölənlərin ruhunu şad etsin. Vətənimizi və istiqlalımızı qurtaran Osmanlı ordusunun bizlərə əmanət buraxdığı şəhidlərin qəbrini Cənabi-haqq nurlarla doldursun.





Artıq son "Fatihə" mərasimi icra edildi. Torpağı üçün bu qədər zəhmətlər çəkən vücud torpağa tapşırıldı.

Cənazənin üzərində edilən vədlərə qalarsa, millət mərhuma bir "abidə" rəkz etmək [heykəl qoymaq] marağına düşmüşdür. Allah bütün xeyir işləyənlərə rəhmət eyləsin.

*[Əhməd] Cavad*

## KONFRANS

### Krım nümayəndəsi Ədhəm Feyzi əfəndinin mühazirəsi münasibətilə

**- 1 -**

"Müsavat" firqəsinin təşəbbüsü ilə fəhlələrin mənfəəti, inkişafı üçün tərtib edilən mühazirə keçən şənbə günü Krım Parlamanı nümayəndəsi Ədhəm Feyzi əfəndi tərəfindən Balaxanıda oxunacağı "Azərbaycan" qəzetəsi ilə elan edilmişdi. Elandan xəbər alan fəhlə qardaşlar o günün müəyyən vaxtını səbirsizlikə bəkləmişlərdi. Natiq daha Balaxanıya ərişmədən Balaxanı teatrosu qabağı fəhlələrlə dolmuşdu.

Natiq gəldikdə teatro zalı açıldı. Yavaş-yavaş içəri doğru hərəkət edildi. Natiqlə bərabər bir qaç möhtərəm kişi səhnədə yerləşmişlər və ardı-arası kəsilmədən gələn fəhlələri bir ləhzə [bir an, az müddət] daha bəkləməyə qərar vermişlərdi. İstifadələri üçün tərəf-tərəf mədənlərdən [bütün mədənlərdən, hər yerdəki mədənlərdən] gələn, yetişən fəhlə qardaşlarla o geniş zal ağzına qədər dolmuş, yer kifayət etmədiyindən bir xeylisi də ayaq üstündə qalmışdı.

Prezidium seçildikdən sonra rəis, "Krım Parlamanı nümayəndəsi sifəti ilə şəhərimizi təşrif edən və sonra fəhlə qardaşlarına istifadəli şeylər söyləməyi kəndisinə milli bir vəzifə bilən möhtərəm müsafirimiz Ədhəm Feyzi əfəndini sizə təqdim etməklə şərəflənirəm" deməsi ilə şiddətli alqışlar arasında möhtərəm natiq sözə başladı:

"Hörmətli qardaşlar!

Siz zəhmətkeş qardaşlarımın bugünkü şu canlı ictimasında [yığıncağında] "Müsavat" firqəsi tərəfindən haləti-vaxta münasib bir mühazirə oxunması mənə təklif olunduqda, bu təklifi mən pək böyük bir istəklə qəbul etmişdim. Bu istək pək yerində idi. Çünki onun mənə ruhani bir məhzuziyyət [mənəvi bir həzz] verəcəyini və bu məhzuziyyət məndə unudulmaz bir xatirə buraxacağını daha o vaxtdan kəsdirmişdim [bilmişdim]. Nətəkim də öylə oldu. Onun üçün mən bu dəqiqədə kəndimi bəxtlilərdən sayıram. *(Sürəkli alqışlar)*

Sevimli yoldaşlar!

Sizə mühazirə oxumağı acizanə üstümə aldığım zaman sizin yaşayışınız, keçinişiniz gözümün önündə canlanmışdı. Canlanmışdı da, məndə iş (трудъ) ilə sərmayə (капиталъ) haqqında söz söyləmək məcburiyyətini meydana atmışdı. Ondan ötrü bugünkü mühazirəmizi bu bəhslər təşkil edəcəkdir.

Bilirsiniz ki, yaşamaq istəyən hər varlığın mütləq bir işi olacaq, çalışacaq və onunla yaşaması sağlanılacaq. Bu, yaşayışın təbii bir qanunu, bu qanunun dışında qalacaq canlı bir varlıq ağlımıza sığdırammayız. Misal olaraq, nəbatatdan

ötrü çicəkləri, ağacları alalım. Bunların toxumunu yerə atdığınız, əkdiyiniz vaxt lazım olan sıcaqlığı (isti), yaşlığı bulan toxum çox keçməz bəslənməyə başlar. Sonra o qatı torpağı dələrək nəfəs almaq, həyat bulmaq üçün havaya, ziyaya can atmağa çalışar. Böylə keyiflə yaşayışını yoluna qoymağa savaşar.

Kiçik, böyük heyvanlar da böylədir. Bir hörümçək avını [torunu] hörər, ovlanar. Bir qarınca rizqini daşır, yuvarlar. Bir tülkü, bir qurd da yenə böylə ormanı, dağı axtarar, ovlanar. Bu uğraşmalar həp o yaşayışın sövqü ilə olur-bitər. İnsan da bu təbii qanundan dış [xaric] qalammaz. Ehtiyacını, gərəyi təsviyə etmək [aradan qaldırmaq] üçün daima çalışar, savaşar. Bunlar həp birər "iş" deməkdir. İşi işləyənə biz "işçi" deyiriz. Gördüyümüz ehtiyaclarımıza sərf etdiyimiz məhsullar, mətalar həp o işçilərin işləri, çalışmaları ilə meydana gəlmişdir. Yerinə görə işçilərin işləri, xidmətləri zəhmətli olduğu üçün onlara burada "zəhmətkeş" adı da verilmişdir. Bu pək doğrudur. Faydalanmaqdan ötrü işlənən hər işin az-çox bir zəhməti, çətinliyi vardır. Gündəliyi qazanmaq, rizqini əldə etmək üçün kürək çəkən bir qayıqçının halı ilə zövq almaq üçün kürək çəkən bir kimsənin halı əlbəttə bir olammaz. O hal birincisinə zəhmətli bir şey ikən, ikincisinə zövqlü, həzzli bir şey olmuş olar.

Sosialistlər işlərdəki bu zəhməti zövqə, həzzə çevirmək istəyirlər. Vaxtilə Furye nam [adlı] kimsə irəlidəki cəmiyyəti bəxtli etmək istəmiş və demiş: Bugünkü cəmiyyət haqsız, ədalətsiz təşəkkül etmiş. Onun üçün işlər zorluqla, çətinliklə görülür. Bununla bərabər bunu qolaylaşdırmaq, məhzuziyyətə qəlb etmək [həzzə çevirmək] güc bir şey deyildir. İşin törənməsi, az davam etməsi, rəqabət hissi oyandırılması və sairə bu iddanı təmin edə bilər. Əzcümlə [o cümlədən], XVI Luinin kilid (qıfıl) yapmaqla ləzzət alması bu qəbildəndir.

Anlaşılır ki, işi həyat, sərmayəni də iş doğurmuşdur. İbtida [əvvəla], insan ehtiyacı dəf etmək üçün ovçuluğa sövq olunmuş, havada quş, suda balıq tutmağa yeltənmiş [çalışmış, can atmış], bunun üçün də alət, qayıq, ağ [tor] edinmiş [əldə etmiş], bu edinilən şeylər ona birər sərmayə olmuş.

İlk cəmiyyətdə sərmayə və məhsul ayrı kimsələrin deyil, mənsub olduqları cəmiyyətlərin, qəbilələrin idi. Şəxslərin mülk sahibi olmaları sonraları təğəllüb [zorakılıq, zorla qəsb etmək] yolu ilə olmuş, yol almışdır. Sosialistlər iştə bu ibtidai halı arzu etmədədirlər.

Mülk sahibi olmaq əsası qurulduğu dəqiqədən etibarən şəxslər əllərində sərmayələr birikdirməyə çalışmış və o birikdirilən sərmayələr də bir mərkəzə toplanmağa başlamış. Sərmayənin, sənayenin bu halı ötədə-bəridə qalan işçiləri, kəndiləri üçün çalışan kiçik sənətkarları həp çəkmiş, toplamış. Bu surətlə sərmayədarlarla işçilər bir araya gəlmiş və yığılmış.

Mənfəətləri ayrı-ayrı olan bu iki ünsür təbiətilə [təbii olaraq] çarpışacaqlardı. Arxalarını imperialist ruhlu hökumətlərə verən sərmayədarlar, təşkilatlar zəif işçiləri öncə istədikləri kimi çalışdırırlardı. Fəqət sonraları mənfəətləri müştərək





olan işçilər birləşməyə, sendikalar, ittifaqlar vücuda gətirməyə və bu minval üzrə güləşə hazırlanmağa başlayınca, işçilərin halları səlaha [yaxşılaşmağa] üz tutmuşdu.

İşçilərin sərmayədarlara qarşı aldıqları güləş vəziyyətinin iki xarakteri vardı: biri siyasi, digəri iqtisadi. Siyasi güləşləri tətil və zabastovka ilə olurdu. Bu haqlı, tədbirli bir hərəkət idi. Əfəndilərinə qarşı "Bizim yapdığımız işlərə, gördüyümüz xidmətlərə müqabil şu diləyimizi qəbul etməzsəniz, biz işdən əl çəkəriz" deyirdilər. Bununla bir tərəfdən iş müddətini azaldırdılar, digər tərəfdən də gündəliklərini artırırdılar. Böyləliklə haqlarını alırdılar, hallarını islaha çalışırdılar. Az bir haqq ilə gündə 15-16 saat çalışan işçilərin get-gedə həm haqları ziyadələşmiş, həm də iş müddəti 8 saata qədər qısalmışdı.

Bu xüsusdakı müvəffəqiyyətin ən böyüyü ingilis əmələsində görülmüşdür. Üzvlərinin sayısı milyonları keçən "Trade Union" nam fəhlə ittifaqı bütün dünyaya nam vermiş, şan almışdır. Keçənlərdə İngiltərə hökumətinə etdikləri yeni təkliflər xatirlərdə olsa gərəkdir. Təkliflərinin məzmunu iş haqqını yüzdə otuz artırmaq, iş müddətini 6 saata endirmək, bir taqım xanələri milliləşdirmək. Səbəbini irəlidə söyləyəcəyim bu üçüncü təklifin xarakteri bambaşqadır.

İqtisadi güləşləri kooperativlər (Кооперативы) vasitəsi ilə olurdu. Fəqir işçilər alın təri ilə qazandıqları gündəlikləri ilə ehtiyaclarını istədikləri kimi mümkün deyil, dəf edəmməzlərdi. O gündəliklər kifayətsizliklə bərabər spekulatorların, tüccarların bahalı, çürük mallarına qurban edilirdi. Bu halı görən, sezən işçilər arasında kooperativ şirkəti fikri oyandı. Unutmayalım ki, bu fikir yenə ilk öncə mütəşəbbis ingilis milləti fəhləsindən doğdu, yayıldı. Hər işçi gündəliyinin pək az bir parçasını verdi. Toplanan bu vergilərlə yer tutuldu. Oraya yerindən doğrudan-doğruya məhsullar, mətalar gətirildi. Böyləliklə, həm ucuz, həm də təmiz, sağlam mallar əldə edildi. Daha sonra məhsullar, mətalar yetişdirilməyə də girişildi. Bu cəhətlə müstəhlik [istehlakçı] ikən, müstəhsil [istehsalçı] sifəti də taqınıldı [qazanıldı, əldə edildi]. Biri-birinə həyati, iqtisadi bağlarla bağlanan bu istehlak və istehsal şirkətləri üzvləri əmələ [arzuya], qayəyə doğru yürürlərkən mali, iqtisadi müəssisələrə də möhtac olduqlarını duydular və o andan etibarən kiçik etibar [kredit] şirkətləri açmağa da başladılar. Bu üçüncüləri birincilərə, ikincilərə yardımlar etdiyi kimi kiçik sənətkarlara, taqətsiz kəndlilərə də pək böyük yardımları toxundu. İştə bu üç qisim kooperativ şirkətləri fəhlənin iqtisadi halını islaha çox yaradı. Onları kapitalistlər mərtəbəsinə qədər yüksəltdi.

Vaxtımız olsaydı bu xüsusa dair uzun-uzadı bəhs edərdim. Fəqət söylənəcək sözlər daha pək çox olduğundan, şimdilik bu qədərlə iktifa [kifayət] edəcəyəm. Ancaq şurası var ki, diləyimi meydana qoymadan da keçməyəcəyəm. O dilək də kooperativ şirkətlərinin bizim fəhlə qardaşlarımız arasında da kök salmasıdır. Əgər buna müvəffəq olunarsa, fəhlə həyatında inkişafa doğru ən böyük bir addım atılmış olacaqdır."

## BAKI XƏBƏRLƏRİ

**Mavərayi-bəhri-Xəzərdə Azərbaycan konsulu**

Mavərayi-bəhri-Xəzər (Zakaspi oblastı) hökuməti nəzdində Azərbaycan Cümhuriyyəti konsulluğuna Əkbər Ağa Sadiq təyin edilmişdir.

- Bələdiyyə İdarəsi Elektrik Cəmiyyətinə xəbər vermişdir ki, Bələdiyyə İdarəsi ilə cəmiyyət miyanında [arasında] əqd edilmiş [bağlanmış] müqavilənaməni təsviyə [ləğv] edilmiş hesab etmək istəməyir. Cəmiyyət bəyan etdiyi kimi aprelin 15-i saat 12-dən şəhərə işıq vermək istəməzsə, o vaxt Bələdiyyə İdarəsi miyanlarında [aralarında] olan müqavilənamə üzrə cəmiyyətdən hər saatına 1000 rublə tələb edəcəkdir. Əlavə, şəhər əhalisi nümayəndəsi kimi hökumət nəzdində təşəbbüsatda bulunmaqla cəmiyyəti müttəhim edəcəkdir.

- Bələdiyyə xidmətçiləri ilə Bələdiyyə İdarəsi miyanında [arasında] ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün təşkil edilən Nəzarət komisyonu hamı məsələlərdə etilaf [uzlaşma] əmələ gətirmişdir. İxtilaflı məsələ fəqət xidmətdən çıxanlara pul vermək məsələsidir.

- Fəhlə Konqresi İngiltərə ərkani-hərbinə [hərbi qərargahına] müraciətən rica etmişdir ki, edam edilmiş 26 nəfər komissarın işlərinə tezliklə baxılsın. Bundan ötrü də Aşqabad məhkəmələrinə nüfuz yetirməlidir ki, onlar işə şüru etsinlər [başlasınlar].

- Bu gün saat 6 yarımda İkinci Ünas [Qızlar] gimnaziyasında Mərkəzi Valideyn Şurasının iclası təyin edilmişdir. İclasda Maarif Nəzarəti ilə edilən müzakirat barəsində məruzə oxunacaqdır.

**Dəniz hamamının açılması**

Bu gün aprelin 11-dən etibarən Bakı Bələdiyyə İdarəsinə məxsus dəniz hamamında isti vanna (müalicə üçün) açılır. Hamam Vərəm Xəstəliyi ilə Mübarizə Cəmiyyəti şöbəsinin icarəsində və doktor Bəhram bəy Axundov cənablarının təhti-idarəsindədir [idarəsi altındadır].

**Bir fincan çay**

Azərbaycan Müsəlman Tələbələrinin Bakı Komitəsi tərəfindən Tələbələr Fondu nəfinə [xeyrinə] işbu aprel ayının 12-də, "Obşestivennı sobiraniya"nın [Bakı İctimai Yığıncağının] yay binasında, axşam təntənəli surətdə "Bir fincan çay" tərtib ediləcək. Biletlər satılır Nikolayevski küçədə, 2-ci gimnaziya binasında, saat 10-dan 7-dək; məclis günü klubun binasında.

*Azərbaycan Müsəlman Tələbələrinin Bakı Komitəsi*

**"İttihad" firqəsinin nümayəndələr iclası**

Dünən aprelin 10-da "İttihad" firqəsinin nümayəndələr iclası dəvət edilmişdi. Lakin ətrafdan lazımi miqdarda nümayəndələr gəlmədiyindən, iclasın açılması bu günə təxir edildi. Varid olmuş [gəlmiş] nümayəndələr və firqənin heyəti-idarəsi [idarə heyəti] iştirakı ilə Duma zalında xüsusi iclas qurulub, nümayəndələr iclasında müzakirə ediləcək məsələlər haqqında Qarabəy Qarabəyov bəyanat vermişdir.





- Aprelin 5-dən 7-dək Bakıya gətirilən ərzaq:

Aprelin 5-də:
buğda 3382 put;
un 1904 put;
odun 15750 put;
arpa 249 put;
saman 1258 put;
ot 110 put.
6 və 7-də:
buğda 4353 put;
un 765 put;
arpa 1724 put;
ot 3000 put.

## AZƏRBAYCANDA

**Qazaxdan**

Martın əvvəlində Qazax Darülmüəllimin[i] [Seminariyası] mütəəlimlərinin [şagirdlərinin] biz Qazax Qadınlar Cəmiyyətinin haqqında çəkdiyi zəhmət cəmiyyət tərəfindən çox gözəl anlaşıldı. Həman axşam gördüyümüz şəkillər bizim heç vaxt yadımızadan çıxmaz və gərək də çıxmasın. Belə şəkilləri biz bir neçə il bundan müqəddəm [əvvəl] yuxumuzda da görsək inana bilməzdik ki, belə yuxu olar. Çünki yuxuda görünən şeylərin oxşayışı gərək bir az fikirdə də olaydı. Qazax bir az camaatlı yer, özü də nə şəhərdən şəhər, nə kənddən kənd olub, faydalı bir rus məktəbi də verməyirdilər. İndi Zaqafqaz Darülmüəllimini kimi böyük məktəb ona qismət olur.

Darülmüəllimin mütəəlimləri [şagirdlər] tərəfindən oyun qoyulan gün cənab Firidun bəyin imzası ilə bizim hər birimizin adına bir məxsusi kağız gəldi. Darülmüəllimin müdiri cənab Firidun bəy kim olduğunu və millət haqqında, millət yolunda nə gunə [nə kimi] zəhmətlər çəkdiyini bizim çoxumuz bilməyirdik. Ona görə ki, bizim çoxumuz bisavadıq. Bir az savadı olanlar həman şəxsi çox yaxşı tanıyırlar. Biz cəmimiz cənab Firidun bəyi bizim haqqımızda olan o günkü rəftarı ilə tanıdıq və çox yaxşı, çox gözəl tanıdıq. Ümidvarıq ki, Qazax indidən belə qabağa gedə bilər. Biz ümidvarıq ki, həman darülmüəllimində tərbiyə alan mütəəllimlər Firidun bəyin tərbiyəsini tamamınca alsınlar və gələcəkdə Firidun bəy kimi millət haqqında, vətən haqqında çalışan kimsələrdən olsunlar. Amin.

Cənab Firidun bəy bizə bir neçə mənalı sözlər söylədi və Nadirin vətənpərvərliyindən bizi müxbir [xəbərdar] etdi. İndi biz həman gündən başlayaq, cənab Firidun bəyin köməkliyi ilə çalışaq, vətənimizdə, vətən övladlarımızda həman hissiyyatı oyandıraq, hissiyyatı əmələ gətirək.

*İbtidai qız məktəbinin müdirəsi: Şirin xanım Qiyasbəyzadə*

**Ağdaşdan**

24 mart pəncşənbə [cümə axşamı] axşamı Qaçqınlara Yardım Cəmiyyəti nəfinə [xeyrinə] Ağdaş həvəskarları tərəfindən "Döymə qapımı, döyərlər qapını" komediyası mövqeyi-tamaşaya qoyuldu. Həvəskar yoldaşlarımız rollarını çox gözəl ifa edib camaatı razı saldılar. Bilet satışı komissiyasında iştirak edən Ərzaq naziri vəkili Musayev, Mühakimə rəisi Axundov, pristav Məlikov, cavanlardan Ağa Salahov, tüccarlardan Həmid əfəndi

öz fəaliyyətləri sayəsində bilet satışına lazımi qədər müvəffəq oldular.

Belə ki, bilet satışından 7725 manat və fəxri olaraq 14 biletin 13-ündən hasil olan 2290 manat aşağıda göstərilən əsami [adlar] üzrə hasil olmuşdur:

1) Qaimməqam [qəza rəisi] Məhəmməd bəy 300 manat;

2) Bəradərani-Səmədovlar [Səmədov qardaşları] [300 manat];

3) Əşrəf Tağıyev 300 manat;

4) Əbdürrəhman Əfəndiyev 300 manat;

5) Məcid Vahidov 300 manat;

6) Yusif bəy Məlikov 200 manat;

7) Rəsul Hacı Əhməd oğlu 150 manat;

8) Balaoğlan Muqumov 140 manat;

9) Muxtar əfəndi Əfəndizadə 100 manat;

10) Mustafa bəy Rüstəmbəyov 100 manat;

11) Hacı Ağaəli Abbasov 100 manat;

12) Əmiraslan Qədirov 100 manat;

13) Çərkəz bəy Nəbibəyov 100 manat;

14) Məhəmməd Hacı Əbdürrəhimov 100 manat.

Əlavə, ianə olaraq Abbasqulu bəy Lütfəlibəyovdan 50 manat yetişmişdir ki, cümlətan 10065 manat ümumi mədaxil olmuşdur. Cəm'ən olan məxaric [bütün xərclər] 2590 manat yarımı çıxdıqdan sonra qalan yeddi min dörd yüz yetmiş dörd manat yarım (7474 manat 50 qəpik) cəmiyyət xəzinədarına təhvil verilmişdir.

Cəmiyyət tərəfindən həvəskarlarımıza bilet satışına fəaliyyət göstərən möhtərəm əfəndilərə və öz həmiyyəti-vətəniyyələri [vətən təəssübkeşliyi] ilə məşhur olan Ağdaş camaatına təşəkkürlər edəriz.

*Ağdaş Qaçqınlara Yardım Komitə İdarəsi.*
*Rəis: Qasım Qasımov*

**ERMƏNİSTANDA**

- [Xosrov bəy] Sultanovun Qarabağa general-qubrenator təyin edilməsi ilə Azərbaycan əsgərləri dəstələrinin Xankəndinə və Şuşaya gəlmələrinə görə Ermənistan hökuməti ingilislərə ciddi protesto göndərmişdir.

- İtaliya hökuməti Ermənistanın tələbatına hüsn-təvəccöh göstərməkdədir. Fransa hökuməti isə Ermənistanın Kilikiyaya iddiası əleyhinədir. Fransa hökuməti Kilikiyanın Ermənistana daxil edilməsinə o vaxt razı olar ki, hərgah Ermənistan Fransa hökumətinin təhti-himayəndəsində [himayəsi altında] ola.

- Zod rayonunda müsəlmanların topxanası olduğu təsdiq edilir. Məlumat alınmışdır ki, Zəyəm dərəsi hadisələrindən əvvəl Novo-Bayəzid uyezdinə üç top aparılmışdır. Ağır topxana apara bilməyib ancaq səhra topları aparmışlar.

- General Axverdov istefa verib Hərbi Şuraya təyin edilmişdir. Polkovnik Araratyan general mənsəbinə təltif edilib Hərbiyyə naziri təyin edilmişdir. Hərbiyyə naziri müavinləri Silikov ilə Dro təyin edilmişlərdir. Ərkani-hərb naçalniki [hərbi qərargah rəisi] general Doluxanov istefa vermişdir. Onun yerinə hələ heç kəs təyin edilməmişdir. General Axverdovun təyin ediləcəyi arzu olunur.





**Ermənistan hökumətinin tələbatı**

Martın 28-də general Tomson İrəvana gəlib bir çox mühüm məsələlər barəsində, o cümlədən Qarabağ haqqında Ermənistan Şurayi-Vükəlası [Nazirlər Kabineti] ilə uzun müsahibədə bulunmuşdur. Ermənistan hökuməti tərəfindən aşağıdakı tələbat [tələblər] təqdim edilmişdir:

1) Qarabağ məsələsi haqqında erməni hökumətinin arzusu budur ki, Qarabağın ermənilərlə məskun olan dağlıq hissəsi əhalinin öz razılığına görə Erməni Milli Şurası əlində qalsın. Ermənistan hökuməti Qarabağın bu hissəsini general Tomsona verilən məktubda yazılan əsaslarla Ermənistanın ayrılmaz bir parçası hesab edir. İngiltərə komandanlığı tərəfindən təyin ediləcək kontrol ancaq İngiltərə millətindən olması ilə olar.

2) Qars məsələsinə gəldikdə, Ermənistan hökuməti aclıqdan, xəstəlikdən həlak olan erməni əhalisinin Qars və Kağızman uyezdlərinə [qəzalarına] qayıtması məsələsinin təxirə salınmamasını istəyir. Məzkur [deyilən] uyezd əhalisinin kəndlərdən kənar qalmaları onları öz yerlərini əkməkdən məhrum edir ki, bu da qaçqınların qalanlarının fəlakətinə bais olar.

3) Şərur və Naxçıvan məsələsinə gəldikdə, müsəlman əhalisi haqqında ciddi və icbari tədbirlər görülməsi lazımdır ki, qaçqınları öz kəndlərinə buraxsınlar.

4) Sürməli məsələsi haqqında, bu rayonun quldurlardan təmizlənməsi lazımdır. Bu yollarla ola bilər ki, Türkiyə erməniləri öz vətənləri olan Van, Ələşgird və qeyri yerlərə qayıtsınlar. Buna görə Qulpda və Aralıqda İngiltərə komandanlığı ixtiyarında ingilis və ya erməni qaraqol dəstələri qoyulması lazımdır.

5) Zod kəndi haqqında Ermənistan hökuməti xahiş edir, müsəlmanlardan tələb eyləsin ki, bu rayonda məmurlara mümaniət [maneçilik] göstərən və məzkur dairədə baş verən cinayətləri təftiş etməkdən ötrü göndərilən istintaq komissiyasını yaxın buraxmayan müsəlləh [silahlı] dəstələr rədd edilsinlər.

6) Türkiyə ermənilərinin öz vətənlərinə qayıtmalarını mütəşəkkil bir hala salmaq.

Xozyazstva və administrasiya məsələləri [Təsərrüfat məsələləri və inzibati məsələlər]

1) General Brafın sədarəti altında təşkil ediləcək komissiya təxirə düşdüyündən, müttəhid [birgə] dəmiryol idarəsi vücuda gətirilsin.

2) Ermənistan həyatını adi bir hala salmaq, ətrafla münasibatda bulunub ərzaq şeyləri gətirməkdən ötrü Batuma və Bakıya marşrut qatarları buraxılması.

3) Yüklərin vaqonlardan oğurlanmasına görə qatarların mühafizə edilməsi.

4) İqtisadi münasibat və asayiş bərpasından ötrü Naxçıvan və Qarsa qatar hərəkatı bərpa edilməsi.

5) Qarsda və Sarıqamışda olan mövcudatın Qars oblastından çıxarılması.

6) Mal dəyişmək vasitəsilə toxumluq taxıl ələ gətirilməsi, toxumluq taxılın tezliklə gətirilməsi üçün taxılı çox olan müsəlmanlara icrayi-təsir [təzyiq] edilməsi.

**Erməni Məlumat Bürosunun xəbərləri**

- Zodski dairədə, Basarkeçərdə əhval kəskinləşməkdə davam edir. Zod sərhə-

dinə yetişmiş olan istintaq komissiyası 4 erməni afseri ilə 11 saldatın təslimini və komissiyanın kəndə buraxılmasını tələb eyləmişdir. Mart ayının 14-dək bunların arasında razılıq əmələ gəlməmişdir və görünür ki, razılıq olmayacaqdır. Bu da nəhayət silah gücü ilə kəndin alınmasına bais olacaqdır.

- Mart ayının 20-də verilən məlumata görə Zod yaxınlığına 6 min nəfər müsəlləh müsəlmanlar top və pulemyotla gəlmişlərdir. Sürməli dairəsində Qulp kəndi kürdlər tərəfindən mühasirə edilmişdir.

- Qars oblastının şimal hissəsinə, Ağbabaya Axalkələk mahalından müsəlman bandaları yeriş edirlər. Bunların cəm olması Aleksandropolu qorxu altında saxlayır.

- Qars qubernatoru general Asser Qars Şurasına elan etmişdir ki, Qars erməni qaçqınları qəti surətdə öz yerlərinə qaytarılmalıdırlar. Generalın bu əmri böyük həyəcana bais olmuşdur. Erməni kəndlərində olan müsəlmanlar kəndləri tərk etməyə başlayıb, əvvəlcədən kəndləri yandırırlar. Arpa çayının şərq sahilindən tüstü və işıq görünür.

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi! Bu məktubumun qəzetənizdə dərc olunmasını sizdən rica edirəm.

Bu martın əvvəlində Qazax Darülmüəllimin[i] [Seminariyası] şagirdləri tərəfindən xanımlar üçün səhneyi-tamaşaya qoyulan "Nadir şah" faciəsi ilə "Xor-xor" məzhəkəsi onlara bir dərəcədə hüsntəsir etmiş ki, yalnız sözlə rizaməndlik izhar etməyə [razılıqlarını bildirməyə] iktifa [kifayət] eyləməyib, öz aralarında 4485 manat para toplayıb bəndəyə təslim etdilər ki, darülmüəllimin şagirdlərinin maddi və mənəvi ehtiyaclarına sərf edim. İanə edən xanımların adlarını aşağıda yazıb öz tərəfimdən, müəllimlər və şagirdlər tərəfindən cümləsinə rizaməndlik edirəm. Sağ olsunlar qeydkeş, qədirbilən və mərhəmətli bacılarımız!

*Qazax Darülmüəllimininin müdiri*
*F. Köçərli*

İanə edənlər:
Rüxsarə xanım Muradzadə 150 manat;
Xeyransa xanım Dilbazi 100 manat;
Nəzifə xanım Muradzadə 150 manat;
Xanım Mustafazadə 150 manat;
Müqəddəsətünnisa xanım Şıxlı 100 manat;
Nursidə xanım Vəkilzadə 150 manat;
Bənövşə xanım Muradzadə 25 manat;
Xanım Vəkilzadə 100 manat;
Rüdabə xanım Vəkilzadə 100 manat;
Şahnigar xanım Vəkilzadə 100 manat;
Güləndam xanım Vəkilli 100 manat;
Mələk xanım Qayıbzadə 100 manat;
Həmidə xanım Qayıbzadə 100 manat;
Dilruba xanım Şərifzadə 100 manat;
Böyükxanım Rəhimzadə 150 manat;
Fatma xanım Məhəmmədzadə 150 manat;
Mina xanım Eyyubzadə 150 manat;
Mədinə xanım Qiyasbəyzadə 200 manat;
Şükufə xanım Abdullazadə 100 manat;
Cəmilə xanım Vəkilli 60 manat;
Müqəddəsətünnisa xanım Qiyasbəyzadə 150 manat;
Zümrüd xanım Şıxlı 50 manat;
Sürəyya xanım Yusifzadə 50 manat;
Mədinə xanım Eyyubzadə 150 manat;
Dilşad xanım Şadlızadə 100 manat;
Dürrətünnisa xanım Vəkilzadə 200 ma-nat;
Səadət xanım Şıxlı 500 manat;
Şirin xanım Qiyasbəyzadə 200 manat;
Sultan xanım Qiyasbəyzadə 100 manat;
Şahzadə xanım Müftüzadə 50 manat;
Huri xanım Qiyasbəyzadə 100 manat;
Cəvahir xanım Eyyubzadə 500 manat.
Cümlətanı 4485 manat.

*9 Mart 1919, Qazax*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**İtibdir**

Barat xanım, 10 yaşında, əynində sarı kofta, sarı tuman, başında mixəyi rəngdə yaylıq, iki gündür itibdir. Onun barəsində məlumatları olanlardan acizanə təvəqqe edirəm ki, gəlib mənə xəbər versinlər. Ünvan: Verxni-Təzəpiriski küçə, 4-cü pereulok [döngə], ev nömrə 47. Məşhədi Talıb Xəlilov.

*8707*

Mağazadan ötrü şəhərin mərkəzində 2 qapı qəfəsləri ilə, "abstanovkası" [avadanlıqları] ilə icarəyə verilir. Ünvan: Vorontsovski küçə, nömrə 18. Səhər saat 9-dan 10-a qədər xidmətçidən xəbər almaq olar.

*8706*

**Elan**
**"Övraqi-nəfisə"**

"Övraqi-nəfisə" məcmuəsinə bu gündən etibarən abonə dəftəri açıqdır. Bakı üçün bir nüsxəsi 5 rublə, qeyri şəhərlər üçün nüsxəsi 8 rublə. Məcmuəmizə ədəbiyyat və sənayeyi-nəfisəyə [incəsənətə] dair yazılan məqalələr qəbul olunur. İdarəmiz səhər saat 12-dən 1-ə qədər açıqdır. Məhəlli-idarə [redaksiya ünvanı]: Bakı, Qubernski küçədə nömrə 43-45. Qəzetə və jurnal satanlara manata 20 qəpik güzəşt edilir.

*b.*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üz-

bəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Skripka dərsi**

Petroqrad Konservatoriyasının rəssamı M. Malkarov skripkada dərs verir. Ünvan: Birjavaya küçə nömrə 14, Desyatnikovun mənzilində. Telefon nömrə 46-83.

*5782*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 180. "…qanunu mahud altında saxlayır…": Xüsusilə rəsmi idarələrdə masaların üzərinə mahud örtük salınırdı; "mahud altında saxlamaq" qanunun yaxud başqa bir sənədin rəsmiyyət qazanmasını və icraya qoyulmasını gecikdirmək mənasında işlədilir.

səh. 182. "zillullah": "Allahın kölgəsi" deməkdir; tarixdə bəzi islam ölkələrində hökmdar "zillullah fil-ərz" yəni "Allahın yer üzündəki kölgəsi" sayılırdı.

**Teleqraf xəbərləri**

səh. 183. "Spartaklar": 1916-1918-ci illərdə Almaniyada fəaliyyət göstərən marksist təşkilat olan "Spartak" təşkilatının üzvləri. "Spartak" təşkilatı ümumdünya proletar inqilabı tərəfdarı idi. Təsisçiləri arasında Roza Lüksemburq, Karl Libknext və başqaları yer alırdı.

səh. 184. "Kral tövləsi": Berlinin tarixi binalarından olan Marstall nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 186. "cəmadiyəlaxir": Hicri təqvimin 6-cı ayı. Burada hicri 1337-ci ilin cəmadiyəlaxir ayından bəhs edilir ki, bu da miladi təqvimlə 1919-cu ilin mart-aprel aylarına müvafiqdir.

"Sabah": İstanbulda 1875-1922-ci illərdə nəşr edilmiş gündəlik qəzet.

"Elani-hərbə təqəddüm edən…": qəzetdə "təqəddüm" yerinə "təqdim" getmişdir.

**Bakıda yaşayan İran tacirlərinə xitab**

səh. 188. "Qarun həlak şod ke çehel xane gənc daşt / Nuşirəvan nə mord ke name neku qozaşt": "Qırx otaq xəzinəsi olan Qarun həlak oldu / Yaxşı ad qoyan Nuşirəvan isə ölmədi." (farsca)





**"Baharın ilhamları və ictimai rəmzlər" şeiri (səh. 190) üçün lüğət:**

pərdeyi-mənhus: uğursuz, nəhs pərdə
güli-zində: canlı gül
səza: uyğun, münasib
mədfuneyi-ziruh: canlı-canlı dəfn edilmiş qadın
mail: meyil edən
dili-məcruh: yaralı ürək
hicab: örtü
səhab: bulud
gülşəni-rüxsareyi-alın: sənin al yanağının gül bağçası
nəş'əti-üxra: başqa bir nəşə, başqa bir sevinc; başqa bir həyat, axirət həyatı
tairi-xanəndə: nəğməkar quş
gülşəni-rövşən: işıqlı gül bağçası
tabanü-dirəxşan: işıqlı və parlaq
ruy: üz
çöhreyi-fəyyaz: feyzli, bərəkətli üz; ilham verən üz; təmiz üz
dilbəri-məstur: örtü altında qalmış dilbər
tərki-səhab etmək: buluddan çıxmaq
Nuri-cahan: cahanın nuru (eyni zamanda qadın adı)
tərki-niqab etmək: niqabdan çıxmaq
Səmən-rüx: yasəmən çiçəyi kimi ağ üzlü (eyni zamanda qadın adı)
behiştanə: cənnət bağı kimi olan
üzar: yanaq
huriyi-səhhar: füsunkar huri
qərqeyi-ənvar: nurlara qərq olmuş
pərdeyi-müzlim: qaranlıq pərdə
Zöhreyi-Zəhra: parlaq Zöhrə (Venera) ulduzu (eyni zamanda hər ikisi qadın adı)

**Haqsız təcavüzlər**

səh. 190. "Şamaxı qəryəsi İvanovkada": qəzetdə "qəryəsi" yerinə "vəqəsi" getmişdir.

səh. 191. "cildli kitablar": qəzetdə "kitablar cildli" getmişdir.

**Ələkbər bəyin mərasimi-dəfni**

səh. 192. "Allahümmə innə la-nə'ləmu minhə illa xeyrən": Cənazə namazında oxunan ərəbcə dualardan biri. Mənası: "Allahım, biz onun haqqında xeyirdən başqa bir şey bilmirik."

**Konfrans**

səh. 193. "…məcburiyyətini meydana atmışdı": qəzetdə belə getmişdir: "məcburiyyətini meydan almışdı."

səh. 195. "(Кооперативы)": qəzetdə belə getmişdir: "(Коопер)"

"O dilək də kooperativ şirkətlərinin…": qəzetdə "şirkətlərinin" yerinə "şirkətlərilə" getmişdir.

**Azərbaycanda**

səh. 197. "Döymə qapımı, döyərlər qapını": Haşim bəy Vəzirovun komediyası.

**Ermənistanda**

səh. 198. "Araratyan": qəzetdə "Artaryan" getmişdir.

səh. 199. "…ərzaq şeyləri gətirməkdən ötrü…": qəzetdə "şeyləri" yerinə "işləri" getmişdir.

**İzhari-təşəkkür**

səh. 200. "Nadir şah" faciəsi ilə "Xor-xor" məzhəkəsi": Nəriman Nərimanov və Sultanməcid Qənizadənin əsərləri nəzərdə tutulur.



*“Azərbaycan” qəzetinin 156-cı nömrəsinin 1-ci səhifəsi*





**Bazar, 13 aprel 1919-cu il, nömrə 156**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 12 rəcəbül-mürəccəb sənə 1337. 13 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Maliyyə nazirinin qətnaməsi**

8 aprel 1919 sənə

Aksiz patentlərinin artırılması xüsusunda bu ilin 6 mart[ın]da qəbul olunmuş qanunun 1-ci fəsli mövcibincə [əsasında] Maliyyə naziri şunu qət etdi:

1) Aksiz vergili ticarətə və sənaətə [sənayeyə] patent almış şəxslərin, həmin ticarətlərin və sənaətlərin alınmış patentlərin qiymətinə münasib və bunlara 25%, 10%, 50% xəzinə mənfəətinə əlavə edərək yürüdə bilərlər; lakin vaxtın hesabı 6 mart qanunu mövcibincə patentin qiymətindən hesab olunur.

2) İşbu qətnamənin əvvəlinci maddəsində zikr olunmuş vaxtdan sonra ticarət və sənaət sahibləri öz işlərinə davam etmək istədikdə, vaxtın bitdiyi günə 6 mart qanunu mövcibincə təyin olunmuş qiymətə nəzərən içki ticarəti üçün 6 aylıq və qeyri ticarət üçün bir illik patentlərin təfavütünü Hökumət xəzinəsinə verib, qəbzlərini Aksiz İdarəsinə pişnihad [təqdim] etsinlər.

Qeyd: Patentləri təftiş olan gündə vaxtları bitmiş ticarətxanalara yeddi günə kimi patentlərin təfavütünü Hökumət xəzinəsinə verməyə müsaidə olunur.

3) O şəxslər, hansılar ki, Hökumət xəzinəsinə yuxarıda zikr olunmuş fəsillər mövcibincə patentlərin təfavütünü verməyiblər, ticarətlərinə və sənaətlərinə davam edəmməzlər, edərlərsə patentsiz ticarət adlanaraq qanuna münasib cəzalanacaqlar.

4) Patentlərin təfavütünü yeddi günə kimi verməyənlərdən aksiz müfəttişləri patentləri alırlar.

*Əslinə mütabiqdir: M[əhəmməd bəy] Hacıyev*

**Qanun**

6 martda 1919 sənədə Məclisi-Məbusan tərəfindən qəbul olunmuş aksiz və patentlərin fiyatını artırmaq xüsusunda qanun.

1) İçki və tütün patentlərinin fiyatları 1919 sənəsinin yanvar ayının 1-dən 10 dəfə artırılır.

2) İçki ticarətindən 25% və tütün ticarətindən 10% və 50% vergisi qanunu ləğv olunur.

3) Aksiz vergisi qanununun 112-ci

fəslinin üçüncü qeydini böylə oxumalı:

Patent vergisi yerlərindən əvvəlinci sinifə daxil olunur: Bakı şəhəri və Gəncə şəhəri istasyonu ilə bərabər; ikinci sinifə – cəmi qəza şəhərləri, tren üstündə olan köylər və yaylaq kəndləri, böyük ticarətləri olan kəndlər, sərhədlərdə olan kəndlər və körpülər; üçüncü sinifə - cəmi qeyri yerlər.

Üçüncü sinifə daxil olan kəndlərin və yerlərin adlarını və saylarını Maliyyə naziri ilə Daxiliyyə naziri təyin edirlər.

*Əslinə mütabiqdir:*
*M[əhəmməd bəy] Hacıyev*

**Maliyyə nazirinin qətnaməsi**

8 aprel 1919 sənə, nömrə 1

6 mart 1919 sənədəki qanunun ikinci maddəsinə binaən [görə], Aksiz qanununun 248, 249, 252 və 279-cu fəsilləri mövcibincə aksizsiz üzüm və meyvə arağının və konyakın buraxılması may ayının 1-dən etibarən ləğv olunur.

*Əslinə mütabiqdir:*
*Məhəmməd bəy Hacıyev*

1919 6 martda Məclisi-Məbusan qəbul etmiş aksizsiz üzüm və meyvə arağının və konyakın buraxılmasını ləğv etmək xüsusunda qanundur.

[1] Aksiz qanun külliyyatının 348, 349-353, 379-381 fəsilləri mövcibincə [əsasında] aksizsiz araq və konyak buraxılması ləğv olunur.

2) Hansı vaxtdan sonra aksizsiz spirto hazır etmək ləğv olunacağını təyin etmək Maliyyə nazirinə həvalə olunur.

*Surəti imzalanmış*
*Surətinə mütabiqdir:*
*M[əhəmməd bəy] Hacıyev*

## SİYASƏTƏ QARIŞMAZ

Oxuyucular bilirlər ki, Məclisi-Məbusan qanunnaməsinin bir fəslinə görə Bakıdakı Həmkarlar Şurasının dəxi Məclisə üç əza [üzv] göndərmək haqqı vardır.

Bu qanuna binaən [görə], vaxtilə Hökumət rəisi Fətəli xan Xoyskinin Həmkarlar Şurası idarəsinə (Soyuza) vəkillərini göndərmək üçün yazdığı kağızına məzkur [adı çəkilən] idarənin nə kimi şiddətli bir rədd məktubu yazdığı məlumdur. Bu kağızla Soyuz bütün Bakı proletariyasına nümayəndəlik edərək Məclisi-Məbusanı və Azərbaycan Hökumətini inkar edir, əmələlərin rəyi[nin] demokratik və vahid Rusiya ilə olduğunu söyləyirdi.

Bu o zamanlarda idi ki, bu gün bolşeviklərlə qucuşmaqda və öpüşməkdə olan Roxlinlər və bilxassə Sako Saakyanlar bizi dənizlər adlayıb, dərələr keçib də Ufa hökuməti ilə yapışdırmaq istəyirlərdi.

Zaman dəyişdi, ufaçılar [Məclisi]-Məbusana gəlmək istədilər. Ərizə yazdılar. Müsəlman sosialistləri də öz tərəflərindən Soyuzu Məclisə gətirmək istədilər. Bu dəfə Soyuz şiddətlə deyil, hikmətlə rədd edirdi. Əsas etibarilə biz Məclisin əleyhində deyiliz; yalnız bu qədər var ki, dedilər:

– Həmkarlar İttifaqı siyasətə qarışmaz!

Atılan qədəmin bu, zahiri dəlili idi. Batini dəlili dəxi o qədər üstüörtülü bir şey deyildi. Müsəlman əmələlər Məclisi-Məbusan tərəfində idi. İlk günlərdə olduğu kimi türk demokratiyası təşkilatsız və səssiz dəxi deyildi. Əmələ Konfransında rəislərin ikiüzlü siyasətləri puçunurdu [puç edilirdi]. Rus əmələləri isə biləks [əksinə] [Məclisi]-Məbusanın əleyhində idilər. Soyuz iki tərəfi də incitmək istəməyirdi. Onun üçün də Həmkarlar İttifaqının siyasi deyil, sinfi və silki bir müəssisə olduğunu xatırlayır, bu surətlə həm xoşbavər [sadəlövh] müsəlman sosialistlərini, həm də inadçı rus demokratiyasını razı salırdı.

Günlər keçdi, həftələr ötdü. Çurayev-Roxlin və kompaniyasının ruhunda başqa bir dönüklük hasil oldu. Artıq böyük Rusiya fəraqı [ayrılığı, həsrəti] ilə titrəyən millətlər, əldən çıxmış hakimiyyət üçün sızlayan ciyərlər Ufadan deyil, Moskvadan ümid bəkləməkdə, rus idarəsinin gəlişini gözləyən həsrətkeş gözlər "Qızıl ordunun" hərəkətinə baxmaqda idilər.

Meydanda yeni simalar, yeni isimlər zühur edir: Bakı əmələsinin mürşidi sayılan Roxlin haranın çağalası bəlli olmayan mirzoyanlara tərki-mövqe eyləmək [öz yerini vermək] məcburiyyətində qalır.

"İskra" və "Znamya truda" qəzetələri "bolşevizm"ə doğru yol tutmaq, "sovet" hökumətini tanımaqdan bəhs edirlər.

Bu məqsədlə yeni manevrələr başlayır: Zaqafqaziya, Dağıstan və Zakaspi həmkarlar ittifaqının ictiması [yığıncağı].

Professionalnı soyuzlar syezdi [Həmkarlar Şuraları Qurultayı].

Bu syezdə iqtisadi məsələlərdən əlavə və ümdə olaraq siyasi məsələlər, bilxassə [xüsusilə] Zaqafqaziya dövlətlərinin ittihadı [birliyi] kimi məsələlər qoyulur.

Tiflis mərkəzi soyuzu başda olan bütün Gürcüstan soyuzları bu proqramı qəbul etməyirlər. Sırf iqtisadiyyata aid olmaq və həm də Zaqafqaziya dairəsinə şamil olmaq üzrə Tiflisdə bir syezd çağırırlar. Bakıda bir, Tiflisdə iki syezd açılır.

Məqsəd hasil olmayır. Bakılıların istədiyi "demokratiya ittifaqı", təbiri-məxsusla "cəbhə bütünlüyü" hasil olmayır.

İstiqlalçı gürcülər ayrılırlar.

Nə isə, syezd toplanır. Tamam da olmasa, açılır. Deyirlər ki, bu Azərbaycan ilə Dağıstan və Zakaspi syezdidir. Fəqət heyəti-ümumiyyəsi etibarı ilə bu, rus əmələlərinin syezdidir.

Həmkarlar İttifaqı siyasətə qarışmaz!

Fəqət Həmkarlar İttifaqının syezdi siyasətdən başqa bir şeylə məşğul olmadı. Soyuzlar naminə toplanan hakimiyyətə həsrətkeş böyük rusiyaçı siyasilər həman vahid Rusiyadan, bolşevizmdən, hökuməti ələ almaq lüzumundan bəhs edib durdular.

Bizim sosialistlər dəxi bu vahid Rusiya eşqilə qızışan qafalar içində, alqışlara məzhər [nail] olaraq söz söylədilər; söylədikləri sözlərinin "demokratik Rusiya ilə onlar da əsasən zidd deyildirlər" məfhumundakı qismi o qədər gurultulu alqışlara nail oldu ki, "millətlər təyini-müqəddərata haqlıdırlar" misalındakı cümlələrini tamamilə gurultuya vermiş oldu.

Bilməm böylə Həmkarlar İttifaqının syezdi deyil, qaynar bir siyasət qazanı içində qızışan "Hümmət"çilər, Həmkarlar İttifaqı Şurasının vaxtilə kəndilərinə yazmış olduğu:

– Soyuz siyasətə qarışmaz! – məzmunlu kağızı xatırladılarmı? Yoxsa "İnternasional" mahnısının avazi-dilarası [könül alan avazı] təsiri iləmi hər şey unuduldu?!..

Hər şey unudulsa da, bir şey qətiyyən unudulmaz. Bunu əlbəttə ki, bizim sosialistlər dəxi bilxassə nəzərdə tutar; süni bir surətdə çağırılan “soyuzlar syezdi”ni, bərfərz [fərz edək ki] Azərbaycan əmələsinin misli kimi qələmə vermək istəyənlərə “yalan söyləyirsiniz” – deyərlər.

Azərbaycan demokratiyasının özəyini təşkil edən türk demokratiyası bu syezddə yoxdur, syezd yalnız hakimiyyətə həsrətkeş ruslardan və rusiyaçı politikanlardan ibarətdir.

Bu syezdin böylə olduğunu bilərək gürcü demokratiyası, Ermənistan demokratiyası kimi, türk demokratiyası kəndi münasibatını ona nisbət mənfi bir surətdə təyin etmiş oldu.

“Hümmət”çilərin və yaxud Azərbaycan sosialist-revolyusionerlərinin firqə nümayəndəsi olaraq orada iştirakları qətiyyən bu syezdin türk demokratiyası iştirakı ilə toplandığına dəlil olammaz.

Bu, Həmkarlar İttifaqının deyil, Rusiya hakimiyyətinə həsrətkeş bulunan politikaçıların syezdidir.

Yoxsa:

– Həmkarlar İttifaqı siyasətə qarışmaz!

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

7 aprel 1919. İclas saat 11.55 dəqiqədə açılır.

**Sədr** - Həsən bəy Ağayev.

**Katib** - Mehdi bəy Hacınski.

**Sədr** - Məclis açılır. Yövmiyyeyi-müzakiratımız [müzakirə gündəliyimiz] keçən iclasdan qalmış Daxiliyyə Nəzarətinin məvaciblər təzayüdü [artırılması] haqqındakı qanun layihəsi, sonra Hərbiyyə məhkəməsi təsisi haqqında verilən layiheyi-qanuniyyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında poçta və teleqraf münasibatı haqqında qanun layihəsi. Bunlardan savayı bir-iki günün ərzində iki qanun layihəsi daxil olmuşdur. Bunların biri hökumətə yenidən 410 milyon para buraxmaq müsaidəsi layihəsi, digəri Kür nəhri kənarında olan sədlərin təmiri üçün 641 min rublə buraxmaq barəsində Ziraət Nəzarəti [Əkinçilik Nazirliyi] tərəfindən daxil olmuş qanun layihəsidir. Göyçay şəhəri tərəfindən Parlamana intixab olunmuş [seçilmiş] mirovoy sudya [məhkəmə hakimi] Rza bəy Ağabəyovun intixabı haqqında bəratülqövl [protokol] və sair kağızlar varid olmuşdur [gəlmişdir]. Beləliklə, Rza bəy Ağabəyov Parlamana daxil olur. *(Rusca tərcümə edir)* Hərgah bu cür tərtib olunmuş yövmiyyeyi-müzakirata etiraz yoxsa, qəbul olunur. Ərz eylədiyim iki layihədən birisi: 410 milyon pul buraxılması üçün Hökumətə müsaidə verilməsi haqqındakı qanun layihəsi Maliyyə-Büdcə komisyonuna göndərilir. İkinci: Ziraət Nəzarəti tərəfindən idxal edilən qanun layihəsi hakəza [habelə, eləcə də] Büdcə-Maliyyə komisyonuna verilir. Ağabəyovun mandatı Mandat komisyonuna göndərilir. Növbədəki məsələ Daxiliyyə Nəzarəti tərəfindən maaş təzayüdü haqqında daxil edilmiş qanun layihəsinin üçüncü qiraətidir. Məruzəçi Musa bəy Rəfibəyov.

**Səslər** - Məruzəçi iclasda yoxdur.

**Sədr** - Öylə isə müsaidə buyursanız, məruzəçi gələnə qədər növbədəki ikinci layihəni müzakirəyə qoyarıq, etiraz yoxdur ki?

**Səslər** - Etiraz yoxdur.

**Sədr** - Etiraz yoxsa, müzakirəyə Hərbiyyə məhkəməsi təsisi haqqındakı layihə qoyulur. Məruzəçi Şəfi bəy Rüstəmbəyovdur.

**Rüstəmbəyov** - Azərbaycanda hərbi məhkəmə təşkil edilməsi üçün Hərbiyyə naziri tərəfindən bir layiheyi-qanuniyyə idxal edilmişdir. Bu layihəyə Ləvayehi-qanuniyyə komisyonunda baxılmışdır. Azərbaycanda Məhkəmeyi-hərbiyyə lazım olduğuna, yaxın gələcəkdə Azərbaycanda böylə qanun düzəltmək mümkün olmadığından Hərbiyyə naziri köhnə Rusiya qanunlarını Rusiya Müvəqqət hökuməti dəyişdiyi surətdə Azərbaycan məhkəməsində işlətməyi təklif edir. Bu qanunda bir neçə maddələr vardır ki, Müvəqqət Rusiya hökuməti yazmışdı. Hərbiyyə naziri həman maddələri dəyişməyi lazım görmüşdür. Hərbiyyə məhkəməsi son zamanlar intixab təriqi ilə [seçki yoluyla] olurdu. Saldatlar və zabitlər onda iştirak edirdi. Hərbiyyə naziri bunu mümkün görməyir və bunun dəyişilməsini təklif edir. Bu layihəyə görə Hərbiyyə məhkəməsi Hərbiyyə nazirinin təyini ilə olmalıdır. Bu qanunda bir maddə vardır ki, Müvəqqət Rusiya hökuməti qoymuşdu. Hərbiyyə naziri o maddənin qalmasını lazım görür. Əvvəldən əsgəri işlərə aid olan şikayətlər Hərbiyyə məhkəməsinə verilirdi. Sonra Müvəqqət hökumət dövründə bir qanun verilərək Divani-hərb [Hərbi məhkəmə] tərəfindən baxılan işlərin həpsinin məhkəmeyi-mülkiyyədə [mülki məhkəmədə] baxılmasına əmr edildi. Bu surətlə ağır və mühüm işlərə istinaf [apellyasiya], yüngül və xırda işlərə isə müsalihə [sülh] məhkəməsi baxırdı. Hərbiyyə naziri bu qanunu dəyişir. Çünki qoşun tez-tez bir yerdən o biri yerə köçür, yerini dəyişir. Məhkəmədə işi olan bir qoşun fərdini və şahidləri həmişə bir yerdə saxlayıb məhkəməyə yığmaq olmayır. İş məhkəməsiz qalır, ləngə düşür. Ona görə də lazım bilir ki, məhkəmə qoşunun öz arasında olsun. Bu məqsədlə qoşuna aid işlərin Hərbiyyə məhkəməsinə verilməsi lazım görülmüşdür. Bu nöqteyi-nəzərdən Hərbiyyə naziri bir layihə düzəltmişdir. Bu layihəyə Ləvayehi-qanuniyyə komisyonunun bir təshihi vardır ki, onu da axırda deyəcəyəm. Layihə budur. *(Layihəni oxuyur)*

**Rüstəmbəyov** *(Layihəni bitirdikdən sonra)* - Ləvayehi-qanuniyyə komisyonunun təshihi budur: Qanun layihəsinin 25-ci maddəsində deyilir ki: Təmyiz [kassasiya] məhkəməsi olmadığından, nahiyə məhkəməsində kəsilən iş təmyiz məhkəməsi təşkil olunanadək Hərbiyyə nazirinin ixtiyarına verilsin.

**Sədr** - Söz Sultanməcid Qənizadənindir.

**Sultanməcid** (İttihad) - Layihənin o hissəsini ki, məhkəməni düzəltmək və məhkəmə heyəti və üzvləri nə cür düzələcək, aydın başa düşmək olmadısa da, bu barədə bir söz demək istəməzdim. Çünki məhkəmə üzvü bir olacaq, iki olacaq onlar əhəmiyyətli deyildir. Ancaq burasını demək istərdim ki, əsasən Hərbiyyə məhkəməsinin köhnə qanun üzrə qalması bizə yaramaz. Ondan ötrü ki, hərbiyyunun [hərbçilərin, əsgərlərin] ayaqqabısına, yemək-içməyinə fikir verdikdə, öz millətimizin ruhani tələbatını yeməyə

isnad vermək [mənəvi dəyərləri nəzərə almamaq] müvafiq deyil. Biz buna razı olmarız ki, millətin ruhani, yəni məhkəmə üsuli-qanuniyyə cəhətini köhnə məhkəməyə müvafiq yetirək. Çünki bu Hərbi məhkəmə qanunu çarizm vaxtında verilmişdi, sonra hürriyyət alınanda müvafiq görülmədi. Ona görə də inqilab zamanında onun əsaslarını dəyişdirmək lazım göründü; yəni intixab [seçki] olsun, nəsb [təyinat] olmasın; ya camaat, ya Parlaman tərəfindən. İndi biz onu pozuban istibdadın köhnə qanununu qəbul etməyə razı olmarız. Hərçənd burada deyilir ki, müvəqqətidir, vaxt təngdir [dardır, azdır], qanun düzəltmək mümkün olmadı. Lakin mən deyərdim ki, işin əvvəlində müvəqqətən də olsa, köhnə əsasları meydana gətirmək camaat nəzərində yaxşı görünməz. Güman edirəm, möhtərəm məbuslar şahiddirlər ki, okrujnı sudda [qəza məhkəməsində], yəni o gün ki ümumən Azərbaycan Məhkəmə qanunu barəsində yığıncaq vardı, məlum oldu ki, Aleksandri-saninin [İkinci Aleksandrın] qanunu bilküliyyə [bütövlükdə] qəbul olunur və məlum oldu ki, köhnə qanunu, yəni Aleksandri-saninin qanununu qəbul etməklə böyük hikmət göstərmişik və hətta belə qərar qoyuldu ki, buna qərar verənlərə heykəl qoyulsun və adları da mərmərə yazılsın. Aleksandri-saninin qanununu ki, qəbul etmişik, o qanun indiki cümhuriyyət, milliyyət və hürriyyətimiz əsaslarına ziddir. Hərgah əhalinin danışdığı sözlərinə və əfkarına [fikirlərinə] qulaq assaq görərik ki, səhv etmişik. Qanuna qərar verənlərin adları nəinki mərmər lövhələrdə yazılmalıdır, bəlkə kağızlardan da pozulub məhv olmalıdır.

Şimdi bu məhkəmə məsələsi böyük bir məsələdir. Məsələn, əsakir [əsgərlər] üsyan etdi. Görək bunlar nə cür tənbeh olunacaqlar, ya başqalarına nə cür cəza veriləcəkdir. Yəni indi burada voyenni-polevoy sud [hərbi-səhra məhkəməsi] zahirdə, ümumun nəzərində, göz qabağında qisaslar, zəcirlər [cəzalar] və tənbehlər verilməsi böyük məsələdir. Görək bu nə cür icra olacaqdır. Bu barədə danışıq olacaq. İndi biz istiqlaliyyət, hürriyyət, milliyyət, insaf və vicdani-diniyyə əsaslarına müvafiq qanunlar yaratmalı ikən, köhnə istibdad qanunlarını qəbul etmək bizə yaraşmaz. Mən layihənin təfsilatı barəsində danışmayıb əsasən deyərdim ki, bu layihənin köhnə qanun üzrə qalmasına etiraz edirik.

**Camalbəyov** - Möhtərəm məbuslar! Rusiya inqilabi-kəbiri [Böyük Rusiya inqilabı] hökumətdə idarə üsulunu bir növ dəyişmişdi və Müvəqqət hökumət hərbiyyə məhkəmələrini ləğv etmişdi. Şimdiki layihə ilə bizə təklif olunur ki, köhnə hökumət üsulunu təzədən qəbul edək.

Bizə o üsulu təklif edirlər ki, Azərbaycan Cümhuriyyətində köhnə rus qaydası ilə Hərbiyyə məhkəməsi təsis edilsin. Biz sosialistlər hərbi və miri [mülki] məhkəmələrin intixabat [seçkilər] üsulu ilə təsisi tərəfdarı olmuşuz və tərəfdarıyız. Binaən [ona görə], bu nöqteyi-nəzərdən tələb ediriz ki, Rusiyanın yeni hökumətinin qoymuş olduğu əsası indi müvəqqətən Azərbaycan Cümhuriyyətində də tətbiq edilsin. Əgər böylə olmasa, Sosialistlər fraksiyonu öz tələbində israrla qanunun əleyhinə səs verəcəkdir.

**[İsak Nikitiç] Xocayev** - Rusca bir nitq söyləyərək təhvini-cəza [cəzanın yüngülləşdirilməsi] haqqındakı maddə ilə təmyiz[ə] (kassasiya) Hərbiyyə nazirinin baxması müqabilinə etirazla təhvini-cəzanın Rəisi-vükəla [Baş nazir], kassasiyanın isə Hərbiyyə naziri indində [nəzdində] təşəkkül edəcək olan xüsusi bir mütəxəssislər komissiyasına verilməsini və 7-ci maddənin bir qədər təbdilini [dəyişdirilməsini] təklif edir.

**[Stanislav] Vanseviç** *(rusca)* - Komissiya tərəfindən kassasiya barəsində izahat verərək deyir ki, Təmyiz [kassasiya] məhkəməsi haqqında xüsusi komissiya tərəfindən bir layihə tərtib verilir və yaxın zamanda layihə Parlamana idxal edilərək bir ayadək Təmyiz məhkəməsi mövcud olacaqdır. Nəzarət nəzdində yeni bir mütəxəssislər komissiyası təsisi az zaman çəkməz. Böylə ki, xüsusi komissiya təşəkkül edincə, Təmyiz məhkəməsi də hazır olacaqdır. Binaənileyh [ona görə], komissiya təşkilinə ehtiyac yoxdur.

**Sədr** - Daha danışmaq istəyən yoxdurmu? Yoxsa, söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

**Şəfi bəy** - Tarixdən məlumdur ki, köhnə hökumətdən ayrılıb da hələ özü üçün yeni qanunlar verməmiş olan təzə məmləkətlər həmişə köhnə hökumətin qanunu ilə getmişlərdir. Hər yerdə, hər millətdə, hər məmləkətin tarixində bu, böylə görülmüşdür. Biz dəxi hələlik özümüz üçün təzə qanun verməmiş olduğumuzdan, bir müddət sabiq hökumətin qanunu ilə getməliyiz. Fəqət, əlbəttə ki, türk-islam Azərbaycan həyatına müvafiq olmayan qanunlar özü-özündən ləğv olub gedəcəklərdir. Amma birdən-birə köhnə hökumətin qanununu atmaq olmaz, çünki bu o vaxt olardı ki, hökumətimiz özü qanun vermiş olaydı. Ona görədir ki, Hərbiyyə Nəzarəti də köhnə nizamnaməni qəbul və eyni zamanda bu nizamnamədən bizə müvafiq olmayan maddələri ləğv edir. Ona görəLəvayehi-qanuniyyə komissiyası təklif edir ki, sair qanunlar kimi Məhkəmeyi-hərbiyyə təşkili haqqında da köhnə qanun qəbul olunsun. Bir də Camalbəyov deyir ki, məhkəmə seçki əsası ilə təşkil edilsin. Rusiyada seçki əsası ilə idarələr qurulmasının nə surət aldığını və necə nəticələr verdiyini yaxşıca gördük. Onu artıq öz vətənimizdə də görmək istəməriz. *(Soldan səslər)* Bir də, Avropada heç bir yerdə seçki əsası ilə qurulmuş məhkəmə yoxdur. *(Soldan: Avropa demokratik üsul ilə idarə olunmayır.)* Xocayev cənabları 14-cü maddənin təbdilini [dəyişdirilməsini] və 4 ay əvəzinə 6 ay qərar verilməsini təklif edir. Burada Hərbiyyə Nəzarətinin adamı olsaydı izahat verərdi. Amma komissiya üçün heç bir fərqi yoxdur 4 ya 6 ay olsun və texnika məsələsidir. Bundan əlavə, 26-cı maddədə təhvini-cəzanın kimin ixtiyarında olmasından bəhslə, bu ixtiyarın Rəisi-vükəlaya verilməsini təklif edir. Mən təklif edərdim ki, o maddə həman komisyonun göstərdiyi kimi qalsın. Bir də 24-cü maddəni tənqid edərək deyir ki, kassasiya Hərbiyyə nazirinə deyil, komisyona verilsin. Mən buna da razı ola bilmərəm. Çünki məlumdur ki, hər işə Hərbiyyə naziri özü təkbaşına baxmayacaqdır. Yəqin onun yanında bir şura olacaqdır ki, həmin şurada yaxşı hüquqşünaslar dəxi olacaqlardır. Binaənileyh, kassasiyaya da Hərbiyyə naziri təkbaşına deyil, mütəxəssis təcrübəli adamlar baxacaqlardır. Ona görə təklif edərdim, bu

maddə dəxi eyni məzmunla qalsın.

Layihə maddəbəmaddə oxunaraq 7, 24 və 25-ci maddələr Ləvayehi-qanuniyyə komissiyasına qaytarılaraq, yerdə qalan maddələr qəbul olunur.

Bundan sonra Daxiliyyə Nəzarəti tərəfindən xidmətçilərin maaşının artırılması və bəzi məmuriyyətlərin ləğvi və təsisi haqqındakı qanun layihəsinin 3-cü qiraətinə keçilir. Səsə qonulduqda, sosialistlər əleyhinə olmaq üzrə əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilir.

Növbədəki Azərbaycan Hökuməti ilə Ermənistan və Gürcüstan hökumətləri arasında əqd edilmiş [imzalanmış] post-teleqraf müqavilənaməsinin təsdiqidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyli Azərbaycan-Ermənistan müqavilənaməsini oxuyur və Parlaman təsdiq edir. Vaxt gec olduğundan Azərbaycan-Gürcüstan müqavilənaməsinin qiraəti gələn iclasa təxir edilir.

## TELEQRAF XƏBƏRLƏRİ

### Amerika və Yaponiya

Vaşinqton - Tyanszində olan hadisat barəsində qəzetələr böylə əlavəli məlumat verirlər: Pekində olan Amerika səfiri Dövləti Departamentə xəbər vermişdir ki, Tyanszində Amerika saldatları ilə Yaponiya polisi və camaatı arasında müsadimə [toqquşma] vaqe olmuşdur. Məhəlli [yerli] qəzetələr deyirlər ki, Amerika bəhriyyunları [matrosları] Yaponiya konsulxanasını təhqir etmişlərdir. Verilən xəbərlərə nəzərən, müqəssirlərə tənbeh edilib [cəza verilib], Yaponiya Hökumətindən üzr istəniləcəkdir.

### Müttəfiqlər və Almaniya

Paris - Almaniya alacağı ərzağa müqabil qızıl verəcəkdir. Almaniyaya icazə verilmişdir ki, Şimal dənizində balıq tutsun. Ablukanı [blokadanı] yüngülləşdirmək üçün lazım gələn tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

### Yeni Kabinə

İstanbul - Yenidən təşkil edilmiş Tofiq paşa Kabinəsi istefa verdi. Yeni Kabinə təşkil edilmişdir. Damad Fərid paşa Sədrəzəm [Baş nazir] və Xariciyyə naziri, Mustafa Səbri əfəndi şeyxülislam, Maliyyə naziri Tofiq paşa, Camal paşa Daxiliyyə naziri.

London - Avam Kamerasında Çörçill Vedjvuda cavab verərkən demişdir ki, Blaqoveşensk yaxınlığında müharibə edən Yaponiya qoşunlarına müavinət [kömək] etməkdən Amerika qoşunları imtina etmişdirlər. Amerika qoşunlarının komandanı demiş ki, yaponlara hücum edənlərin bolşevik deyil, rus kəndçiləri olduğu və amerikalılar rus kəndçilərinə qarşı atəş açmayacaqları üçün, yaponlara müavinət [kömək] etməmişlərdir. İngilis qoşunları həyəcanı yatırmağa dəvət edilmişlərdi. Fəqət onlar Müttəfiqlərə müavinət edəcəklərdir. Çörçill əlavə etmişdir ki, yaponlara hücum edənlər gözəl surətdə təslih edilmiş [silahlandırılmış] bolşeviklər imiş.

Paris - Klemansonun canına sui-qəsd edən Kottini Brüksel [Brüssel] müdafiə edirmiş. O, qətlə qəsd etdiyi ilə ittiham ediləərək divani-hərb [hərbi məhkəmə] tərəfindən mühakimə edilmişdi. Müddəiyi-ümumi [prokuror] isbat etmişdir ki, Kottində anarxist ideyası vardır. O öz cinayətinə iftixar edirmiş. Kottin hiddətlənərək Klemansoya və burjuaziyaya hücum ilə bəyan etmişdir ki, hərgah qaçmağa müvəffəq olsaydı, ikinci dəfə Klemansoya sui-qəsd edərdi.





### Murmanda [Murmanskda]

London - Şimali Rusiya barəsində İngiltərənin məlumati-rəsmiyyəsi. Arxangelskin 150 ağaclığında bolşeviklərin hücumu dəf edilmişdir. Düşmənlər meydani-müharibədə 57 ölü, bir çox yaralı və pulemyot buraxmışlardır.

## SÜLH ƏTRAFINDA

### Yaponiyanın sülh məramnaməsi

Bu vaxta qədər sükut ixtiyar edən Yaponiya nümayəndələri Markiz Okuma tərəfindən tərtib verilən sülh məramnamələrini Sülh Konfransına təqdim etmişlərdir.

1) Balkan və Afrika müstəmləkələri məsələlərində Yaponiya; İngiltərə, Fransa və Amerika ilə həmrəydir.

2) Almaniya və Rusiyaya gələcəkdə olan əlaqəyə gəldikdə, Yaponiya Müttəfiqlərin hərəkatına müvafiqət edəcəkdir [uyğun hərəkət edəcəkdir].

3) Düşmənlərdən zərər almaq və təxribatı emar [bərpa] etmək məsələlərinin həllini Yaponiya Sülh Konfransına vagüzar edir [tapşırır].

4) Samoa cəzayiri [adaları] məsələsi İngiltərə və Amerika ilə birlikdə həll edilməli. Bu məsələ həllində Bəhri-mühiti-kəbirdə [Sakit okeanda] Almaniyanı üssülhərəkədən [bazadan] məhrum etmək əsas tutulmalıdır.

5) Novaya Qvineya [Yeni Qvineya] Avstraliyaya keçməlidir.

6) Hal-hazırda Yaponiya tərəfindən işğal edilən Marşall və Karolin cəzirələrinin [adalarının] Yaponiya üçün heç bir əhəmiyyəti yoxsa da, fəqət bu cəzirələrin nemeslər əlində olması Yaponiya üçün xətrəli [təhlükəli] olardı. Bu cəzirələrin ücüncü bir dövlətə verilməsinə əsas olmadığından, Yaponiya təvəqqe edir ki, bu cəzirələr Yaponiyanın kontrolluğu altında olsun.

7) Çindao, Jiçjao, Sedasao boğazı, hakəza Tyanan dəmiryolu Yaponiyaya keçməlidir. Bunlar almanlar tərəfindən müharibədən əvvəl alınmışdı.

8) Sibiryada qanunu saxlamaq kimi məsələdə Yaponiya Müttəfiqlərlə sazişə girir, fəqət heç bir dövlətin orada imtiyaz almağa səsi olmamalıdır.

9) Çində azad ticarət prinsipi saxlanmalıdır. Çünki Yaponiya hər bir dövlətdən artıq Əqsayi-Şərqdə [Uzaq Şərqdə] sülhün saxlanmasından maraqlanır.

Paris - İtaliya sülh heyətinin sədri Krispi məlum eyləmişdir ki, İtaliya ilə Serbiya arasında olan ixtilafın fövqəladə bir məclisdə müzakirə edilməsinə İtaliya bir səbəb görməyir. İtaliya nümayəndələri Sülh Konfransında məlum etmişlər ki, İtaliya Hökuməti əcnəbilərin hökmündən imtina edir.

### Dalmaçya məsələsi

Paris - İtaliya Hökumətinin məlumatına nəzərən, Dalmaçya [Dalmatiya] kənarlarının Serbiyaya verilməsi hərbi nöq-

teyi-nəzərlə İtaliya üçün xətrəli [təhlükəli] olardı. Hərgah, Serbiya oralarda istehkam yapmayacağına riza göstərsəydi, İtaliya bəlkə də Dalmaçyanın Serbiyaya verilməsinə razı olardı. Serblər də öz tərəflərindən tələb edirlər ki, Adriatik dənizi boyunda olan istehkamlarını məhv etsin.

Paris - Havas ajansı xəbər verir ki, Vilsona müalicə edən doktor, Vilsona məsləhət görmüşdür uzun müddət istirahətə çəkilsin. Vilson çox yorğundur. Bu gün polkovnik Hauz Dördlər Şurasında onun yerini işğal etmişdir [yerini tutmuşdur].

London - Bu gün ingilis kralı general-leytenant U[ilyam] R[eyn] Marşalı hüzuruna qəbul eyləmişdir. Bu gün də Ağa Xan Parisdən Londona varid olmuşdur. Mumaileyh [adı çəkilən şəxs] mövqifdə [stansiyada] Bikaner tərəfindən istiqbal edilmişdir [qarşılanmışdır].

Helsinqforsdan [Helsinkidən] "Deyli meyl" qəzetəsinə xəbər verilir ki, Bolşevik Hökuməti sülh xüsusunda yeni təklifdə bulunmaq istəyir. Belə ki, Müttəfiqlər[ə] Amudərya çayı ilə Qara dənizi birləşdirmək üçün imtiyaz vermək istəyir. Hakəza [habelə], Türküstanda pambıq istehsalı üçün də Müttəfiqlərə imtiyaz təklif edəcəklərdir.

## QƏZETƏLƏRDƏN

**Cəmiyyəti-Əqvam və bolşevizm**

Bolşevizmi qəti surətdə məhv etməkdən ötrü Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] beynəlmiləl bir diktatura təşkil edilməsi layihəsi daxil edilmişdir.

**Kottinin əfvi**

Klemansonun canına sui-qəsd edən anarxist Kottin Klemansonun əmrinə görə əfv edilmişdir.

**İspaniyada nazirə sui-qəsd**

İspaniya paytaxtı Madrid şəhərində İspaniya Xariciyyə naziri canına sui-qəsd edilmişdir. Nazir salamat qalmışdır. 10 nəfər ölüb, 5-i yaralanmışdır.

**Kerenskinin üzə çıxması**

Kerenski hökumətinin sabiq vəzirlərindən [Mixail İvanoviç] Tereşenko və [Aleksandr İvanoviç] Konovalov Klemanso və Pişon ilə müşavirədə bulunmuşlardır. Müşavirədə Kerenskinin üzə çıxarılmasından bəhs edilmişdir. Kerenski Parisdən Londona əzimət etmişdir [yola düşmüşdür].

**İzmir hadisəsi**

İzmirdən alınan axırıncı qəzetələr yunanlıların bihəyalığından və naxallığından [sırtıqlığından] nəşət etmiş [törəmiş] İzmir hadisəsini böylə təsvir edirlər:

Qəzetələrin verdiyi məlumata görə, hadisə böylə olmuşdur: Restoranların birisində kef edən yunanlılar atmağa başlayarlar. Polis məmuru Həmzə əfəndi öz vəzifəsini ifa edərək yunanlıların eyş etdiyi [yeyib-içdiyi] restorana atışmanı təhqiqə gəlir. Yunanlılar Həmzə əfəndiyə atəş açırlar. Qarğaşalıqda polis nəfərlərindən birisi çiynindən yaralanır. Həmzə əfəndi özünə kömək çağırmaq üçün havaya bir neçə güllə atır. Bu atışma səsinə 4 min nəfər yunanlılar yığışıb polis məmurlarını əhatə edirlər. Həmzə əfəndi on güllə ilə buradaca qətl edilir. Məhəlli-hadisəyə [hadisə yerinə] dərhal qoşun gəlib əhalinin mümaniətinə [maneçiliyinə] baxmayaraq onları dağıdır. Hərçənd ki, məhəlli [yerli] yunan qəzetələri buna başqa bir rəng vermək istəmişlərsə də, fəqət müvəffəq olmamışlar. Çünki yunanlıların günahı məlum idi. Polisi əhatə edən əhali tələfatsız pərakəndə edilmişlərdir. Bu hadisələr münasibətilə şəhərin türk komandanı ümum qəzetələrdə hadisəni olduğu kimi təsvir eyləmiş və yalan xəbərlər nəşr edən "Kvilio" nam [adlı] yunan qəzetəsi daimi surətdə qapanmışdır.

## AXISKA UYEZDİNDƏ

Axıska dəstəsi naçalniki general Kvinitadzenin verdiyi məlumata görə, müsəlmanlar yenə təzədən Potsxov rayonundan sərhədi keçib düşmənanə hərəkata başlamışlar. Aprelin 4-də müsəlləh [silahlı] müsəlmanlar dağdan enib Axıska uyezdində [qəzasında] olan Xanə kəndini işğal etmişlərdir. Axıska dəstəsi əsgərləri aprelin 6-da hücuma keçməyə məcbur olmuşlardır. Düşməni sıxışdırmaqla bərabər Carsiman, Çilvan və Pətrəvyan kəndləri xəttini işğal etmişlərdir. 60-a qədər əsir alınmışdır. Ərdəhan əsgərlərinin yaxınlaşması kəşf edilmişdir. Aprelin 7-də Gürcüstan əsgərləri cənuba tərəf irəliləyib Yeniköy, Çançax, Sakira kəndlərini zəbt etmişlər. Yeniköy rayonunda 3 top alınmışdır. Əsgərlərin başçısı Musakiyev Diqurda milli əhali tərəfindən qətl edilmişdir. Əsgərlər buna qisasən Diqur bəylərindən Əhməd bəy Abaşidzeni və onun oğlunu öldürmüşlərdir. Gürcüstan əsgərlərinin hücumu davam edir.

## DAĞISTAN ƏHVALI

**Mütarikə konfransı**

Aldığımız məlumata görə, srağagün aprelin 11-də Dağıstan Hökuməti nümayəndələri ilə general Denikinin arasında sülh mütarikəsi [atəşkəs] konfransının birinci iclası vaqe olmuşdur. İclasda Müttəfiq dövlətlər nümayəndələri dəxi, İngiltərə generalı Briks başda olmaq üzərə iştirak edirlər.

**Dağıstan sülh heyəti**

İstanbuldan alınan məlumata görə, Cibaliyyun [Dağlılar] İttifaqı Cümhuriyyətinin sülh heyəti martın 16-da İstanbuldan Parisə hərəkət və əzimət etmişdir [yola düşmüşdür].

**"Qurultay"**

Aprelin 4-də general Lyaxov tərəfindən osetinlərin syezdi "Qurultay" dəvət edilmişdir. Syezddə osetinlərin irticapərəstlərindən cüzi bir hissə ancaq iştirak edir. Bugünlərdə general Lyaxov kəndisi dəxi həman "Qurultayda" iştirak üçün Qroznıya hərəkət etmişdir.

**General Denikin Petrovska gələcəkmiş**

"Znamya truda" qəzetəsi yazır ki,

bugünlərdə Petrovskdan gələn bir nəfərin rəvayətinə görə, Könüllü ordu Baş komandanı general Denikinin Petrovska gələcəyi gözlənirmiş. Denikinin Petrovska gəlməsi Könüllü ordu nümayəndələrinin Dağıstan Hökuməti ilə Dağıstan daxilində müharibə hərəkatının qət edilməsi [dayandırılması] məsələsi haqqında müzakirədə bulunacaqları ilə əlaqədardır.

**Dağıstan nümayəndələri**

Könüllü ordu ilə olan münasibatı aşkar etməkdən ötrü bu yaxınlarda Terskdən Yekaterinodara Dağıstan heyəti gəlmişdir. General Lyaxov ilə müzakirədə bulunmaqdan ötrü məzkur [deyilən] heyət Pyatiqorska göndərilmişdir. Heyət Pyatiqorska azim olanda [yola düşəndə] general Denikinə bir müxtirə [yazılı qeyd; nota] vermişdir. Bu müxtirədə Dağıstan Hökuməti tarixi, bolşeviklərlə mübarizə əhvalatı və Dağıstan millətlərinin Müttəfiqlərə olan münasibatı və qeyri əhvalatlar yazılmışdır.

## TÜRKİYƏ XƏBƏRLƏRİ

**İstanbul türklərindir**

İttilaati-xüsusiyyəmizə [aldığımız xüsusi xəbərlərə] görə, İstanbulun bir türk mədinəsi [şəhəri] və türk paytaxtı olaraq buraxılmasına Paris Sülh Konfransınca qərar verilmişdir. Bu qərar sülh müqəddəratı ilə bərabər bu ayın 10-da hökumətimizə təbliğ ediləcək və bu təbliğ tarixindən etibarən sülh əqd edilmiş [imzalanmış] olacaqdır.

**Rumların vahi müddəəyatı [əsassız iddiaları]**

Venizelos təhriki ilə İstanbul rumları hər növlə intriqalar çıxarıb İstanbulun Yunanıstana verilməsi yolunda hərəkat çıxarırlar. Bu hərəkata bir nümunə olmaq üzrə İstanbuldakı rum kəlisalarında [kilsələrində] alınan qərarın bir nüsxəsini İstanbul qəzetələrindən nəqlən aşağıya dərc ediriz.

Martın 8-də rum kəlisalarında qiraət edilən qərarnamənin surəti-mütərcəməsi [tərcümə edilmiş surəti] şudur:

*"İstanbul və həvalisi[nin] [ətrafının] rum əhalisi hənuz əsarət altında bulunduğu cəhətlə sərbəstcə ictima edəbiləcəyi [yığışa biləcəyi] yeganə mərakizi [mərkəzləri] təşkil edən məbədlərində toplanmışlar və hürriyyətpərvər dövlətlərin müzəffəriyyətinin [qalibiyyətinin] nəticəsi olaraq təzahür edən millətlərin kəndi müqəddəratını və istədikləri tərzi-idarəni təyin xüsusunda sərbəst bulunmaları qəziyyəsini kəndilərinə də təşmil [şamil] edərək, əsarət altında bulunduğu halda belə bir amili-təməddün [mədəniyyət amili, mədəniyyətin hərəkətverici qüvvəsi] olduğu bu ərazi üzərində 25 əsrdən bəri haiz [sahib] olduğu hüququ elan etmişlərdir.*

*Hər xüsusda yüksək bir mövqedə bulunan və son beş əsrin zərfində bütün həyatı işgəncə və məzalim [zülmlər] silsiləsi təşkil edən bir millətin qeyri-qabili-təməddün [mədəniləşmə qabiliyyətinə sahib olmayan] zalımların barbar boyunduruğu altında daha ziyadə qalmasına nə hürriyyətpərvər Etilaf [Antanta] dövlətləri, nə də aləmi-mədəniyyət təhəmmül edəməyəcəyindən [dözməyəcəyindən] əmin olan və Hərbi-ümuminin [Dünya müharibəsinin] daha bidayətindən [başlanğıcından] bəri Etilaf dövlətlərinin əhrarənə [hürriyyətpərvər] prinsiplərini iltizam edən [qəbul edən, öhdəsinə götürən] və bundan dolayı türklər tərəfindən daha ziyadə şiddətlə təqibata düçar olan bütün Türkiyə rumluğu hissiyyat və amali-ümumiyyəsinə tərcüman olaraq təmayülati-milliyyəsinin [milli təmayüllərinin] kamilən təsviyəsi [tamamən həll edilməsi] haqqındakı layətəzəlzəl [sarsızlmaz] arzusunu elan və ana vətəni olan Yunanıstana iltihaqı [birləşməsi] atidə [gələcəkdə] inkişafı-təbiisinin təmini və Şərqi-qəribdə [Yaxın Şərqdə] yeni hərc-mərclərin mən'i [önlənməsi] üçün yeganə bir əsasi-mətin [möhkəm təməl]ədd [hesab] edərək, başqa dürlü tərzi-təsviyəni [başqa həll yolunu] bütün qüvvəti ilə rədd etməyə əzm etmiş olduğunu bəyan və ən yüksək məqami-millisi [milli kürsüsü] olan patrikxanadan işbu qərarnamənin Sülh Konfransında İngiltərə, Fransa, İtaliya, Amerika və yunan müməssillərinə [nümayəndələrinə] təbliğini rica eylər."*

**Ərəb hökuməti**

Məlum olduğu üzrə, böyük dövlətlərin nümayəndələrindən mürəkkəb [ibarət] olmaq üzrə Sülh Konfransında beş dövlətin ikişər [hərəsindən iki] nümayəndəsindən ibarət bir Onlar Məclisi təşkil olunmuşdur. Paris qəzetələrində oxunduğuna görə, Onlar Məclisi Əmir Faysalın Ərəbistana mütəəlliq [dair] məlumatını istema etmişdir [dinləmişdir]. Əmir parlaq əlbiseyi-milliyyəsini labis [milli libasını geymiş] olduğu halda tələbnaməsini məclisə təqdim etmiş və izahati-şifahiyyəsini [şifahi izahını] ərəbcə olaraq vermişdir. Bu izahat ingilis miralayı Laurens tərəfindən ingiliscəyə tərcümə edilmişdir. Hicaz mürəxxəsi [nümayəndəsi] mütaliatını [qiymətləndirmələrini] pək vasi [xeyli geniş] miqyasda tutmuşdur. Bütün ərəblərin müməssili [nümayəndəsi] sifətilə ortaya atdığı prinsiplər bir xeyli məsaili təşviş edəcək [bir çox məsələləri qarışdıracaq] mahiyyətdədir. Əmir İskəndərundan Diyarbəkirə və oradan Bəhri-mühiti-Hindiyə [Hind okeanına] qədər imtidad edən [uzanan] bütün Asiya həvalisində ərəbcə təkəllüm edən [danışan] bilümum [bütün] millətlərin Cəmiyyəti-Əqvamın kəfaləti təhtində [Millətlər Cəmiyyətinin zəmanəti ilə] bir hökuməti-müstəqilə halına vəzini [müstəqil hökumət halına gətirilməsini] tələb etmişdir.

**Orta Asiyada İslam Federasyonu**

İstanbul qəzetələrində görülmüşdür:

*"Bombeydən 11 şubat tarixi ilə "Tayms" qəzetəsinə çəkilən bir teleqrafnamədə əzcümlə [o cümlədən] atidəki [aşağıdakı] məlumat verilir:*

*Buxara əmiri Kabil şəhərinə və Rusiyaya bir taqım heyəti-mürəxxəsə [nümayəndə heyəti] göndərmişdir. Asiyayi-vüsta [Orta Asiya] xanları tərəfindən vasi [geniş] səlahiyyətlərlə təchiz olunan digər bəzi heyəti-mürəxxəsənin əlyövm [hal-hazırda] Kabildə bulunması Buxara heyətinin keyfiyyəti-ezamına [ezamiyyətinə] bir qat daha böyük bir əhəmiyyət verməkdədir. Anlaşıldığına görə, bunların səbəb və məqsədi-ezamı Asiyayi-vüsta müsəlman müluku [hakimləri, hökmdarları] arasında bir ittifaq vücuda gə-*

*tirməkdir. Əfqanıstan əmiri Buxara ordusu ilə idarəsinin tənsiq və islahına [qaydaya salınmasına və yaxşılaşdırılmasına] müzahirət [köməklik] edəcəyinə dair Buxara əmirinə vədlərdə bulunmuşdur. Digər tərəfdən, müsirrən [təkidlə] dəvəran edən [dolaşan, gəzən] bir rəvayətə nəzərən ittifaqi-cədidin [təzə ittifaqın] bir növ zəmanı [zamini] olmaq üzrə Əfqanıstan əmirinin oğullarından biri də Buxara əmirinin qızlarından birini alacaqdır.*

*Osmanlı imperatorluğunun son fəlakətlərinə rəğmən əfqanlılar ilə hüdud qəbaili [sərhəd qəbilələri] Zati-şahanəni ələn [hal-hazırda] xəlifeyi-islamiyan [müsəlmanların xəlifəsi] olaraq tanıyırlar. Türkiyənin məqasiməyə uğradılması [bölüşdürülməsi] isə fövqəladə hiddət və infiallarını mövcib olacaqdır [hiddət və qəzəblərinə səbəb olacaqdır]."*

* * *

13 şubat tarixli "Tayms" qəzetəsi Asiyayi-vüsta hökuməti-müttəhideyi-mənzuməsinə [qurulmaqda olan birləşmiş Orta Asiya hökumətinə] həsr etdiyi bir baş məqalədə şu yolda bəsti-mütaliə edir [fikirlərini meydana qoyur]:

*"Asiyayi-mərkəzi islam müluku [Orta Asiyanın müsəlman hökmdarları] arasında bir ittihad və ittifaq təsisi təsəvvürünə dair Bombey müxabirimizdən [müxbirimizdən] aldığımız məlumat son zamanlarda bu məsələyə dair dəvəran edən rəvayəti təyid edəcək [təsdiqləyəcək] bir mahiyyətdədir. Bu təsəvvürün başlıca amil və mürəvvici [əsas təşəbbüskarı, rəvac verəni] Əfqanıstan əmiridir. Anlaşılan, müşarünileyh [adı çəkilən şəxs], Buxara əmiri ilə bir ittifaq əqd etmək [imzalamaq] üzrə bulunur. Buxara xanının bir heyəti-mürəxxəsəsi ilə Asiyayi-vüstadakı daha kiçik müsəlman mülukunun [hakimlərinin] mümessilləri əlyövm Kabil şəhərində bulunurlar. Əmir Həbibulla Buxara ordusu ilə idarəsinin səlahı [yaxşılığı, asayişi] üçün müqtəzi müavinəti [lazım olan köməyi] göstərməyə hazır imiş. Ehtimal ki, bu yardım bolşevizmə qarşı olacaqdır. Məmafih [bununla belə], şurasını unutmamaq lazım ki, Əfqanıstan əmirləri ilə Asiyayi-mərkəzi müluki-islamiyyəsi arasında daima pək sıxı və dostanə münasibət cərəyan eyləmiş, əmir Həbibulla pədəri [atası] Səmərqənddə mənfi [sürgündə] ikən burada doğ[ul]muşdur. Asiyayi-mərkəzidə bir islam hökuməti-müttəhidəsi zümrəsinin [qrupunun] təşkili İngiltərə üçün naxoş bir şey deyildir. Bu mənzumə şübhəsiz Əfqanıstanın nüfuz və təsiri altında bulunacaqdır. Əmir Həbibulla isə İngiltərəyə və Hindistan hökumətinə qarşı sədaqətindən heç bir zaman inhiraf etmədi [dönmədi]. Müşarünileyh [adı çəkilən şəxs] alman və türk mühərriklərinin [təhrik edicilərin, qızışdırıcıların] qandırıcı təklifatını [aldadıcı təkliflərini] daima rədd eylədi. Vaqeən [həqiqətən də] əfqan böyüklərinin fəsadçı və qarışdırıcı qismini daireyi-etidalda [təmkin dairəsində] tutmaq ötədən bəri güc bir şeydir. Fəqət buna müqabil əmiri-Əfqanıstan qənaət və sədaqətində heç bir zaman zərrə qədər bir əsəri-tərəddüd göstərmədi. Etilafın [Antantanın] zəfəri əmir Həbibullanın məsləyindəki isabəti təyid və təsdiq eyləmişdir. Müşarüniley-hin mövqeyi heç bir zaman şimdiki qədər əmin və qüvvətli deyildi.*





*Asiyayi-mərkəzi mənzumeyi-müttəhidəsinin turançılıq məsləki ilə əlaqədar olacağını fərz və qəbul etmək üçün ortada bir səbəb yoxdur. Lakin eyni zamanda gərək Asiyayi-mərkəzi və gərək Hindistan müsəlmanları arasında Türkiyəyə qarşı pək qüvvətli hüsn-təvəccöh və təmayül mövcuddur. Müsəlman əfkari-ümumiyyəsinin [ictimai rəyinin] bu istiqamət və mətufiyyəti [yönəlməsi] Paris Konfransınca hər halda nəzəri-etibara alınmaq lazım gələn mühüm bir cərəyandır."*

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Odessanın işğalı**

Kiyev (radio xəbəri) - Odessa sortirovoçnı mövqif [tərtibat stansiyası] bolşeviklər tərəfindən işğal edilmişdir. Bizim hissələr iskələdə duran dava gəmiləri dəstəsi ilə müharibə etmişdir. Odessa iskələsində Müttəfiqlərin gəmiləri vardır. Düşmənlər Ağkirmana ricət etmişlərdir [geri çəkilmişlər].

- İngilis əmələləri tələb edirlər ki, Rusiyada olan ingilis qoşunlarını İngiltərə geri dəvət eyləsin.

**Amerikada bolşeviklər**

London - Nyu-Yorkda polis Rus Əmələ-Kəndçi İttifaqı mənzilini təftiş edərək 200 nəfər bolşevikləri həbs eyləmişdir. Bunlardan bolşevizmə aid bir çox kitablar tapılmışdır. Rus dilində yazılan intibahnamələrdə [təbliğat vərəqələrində] bolşeviklər Amerika hökumətini düşürməyi təklif edirlər.

- Vyanadan xəbər verirlər ki, Almaniya-Avstriya Şurası Avstriyanın nemeslərlə məskun olan hissəsinin Almaniyaya mülhəq olması [birləşməsi] qanun layihəsini qəbul eyləmişdir.

**Dağıstanda**

Aprelin 2 və 3-də Alxan-Yurt, Kuları və Berdıkel kəndləri Könüllülər tərəfindən əhatə edilmişdi. Alxan-Yurt iki həftəlik mühasirədən sonra büsbütün yandırılmışdır. Digər iki kənd isə çox mütəzərrir olmuşdur [ziyan çəkmişdir]. Alxan-Yurt kəndi əhalisi başqa yerə köçürülmüşdür. Alxan-Yurtda 400 nəfər şəhidimiz vardır. Kənddə qalmış olan həştad nəfər arvad-uşaq kazaklar tərəfindən amansız bir surətdə qətl edilmişlərdir. Aprelin 4-də Ustar-Qardoy altında düşmənlərdən min nəfər qətl edilmişdir. Könüllü qoşunlara komandanlıq edən general Şatilov qıçından ağır surətdə yaralanmışdır.

**Qudermesin işğalı**

Axırıncı məlumata görə, Könüllülər qızğın müharibədən sonra Qudermes mövqifini [stansiyasını] işğal etmişlərdir.

**Sülh danışığı**

Aprelin 7-də Könüllü ordusu Dağıstan Hökumətinə dəvətnamə göndərərək sülh barəsində danışmaq üçün aprelin 10-da Qroznıya gəlmələrini xahiş etmişlərdir. Bu şuraya general Denikin və Müttəfiq dövlətlərin nümayəndələri gələcəkdirlər.

- Dağıstan oblastı, Xasavyurt okruqu, Çeçen oblastı və İnquş dairəsi idareyi-əsgəriyyə [hərbi rejim] altına alınmışdır.

- Dağıstanda ümumi səfərbərlik elan edilmişdir. Çeçenistan və İnquşistandan qoşunlar cəm edilmişdir.

**VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]**

* Ədliyyə nazirinin Xüsusi təftiş və istintaq komisyonu əzası [üzvü] təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Bakı mirovoy sudyası İsmayıl bəy Sultanov ilə sabiq Tiflis Məhkəmə Palatası sədri Yuri Dmitriyeviç Rusanovu həman komisyon əzalığına təyin etməli. Bir yerə göndərdikdə xidmətdə olan həman komisyon əzasına gündəlik 100 rublə, xidmətdə olmayanlara gündəlik 140 rublə verməli.

* Ticarət və Sənaye nazirinin dövləti [dövlətə məxsus] mərmi zavodu fəhlələrinə mart ayının ikinci nisfi [ikinci yarısı] məvacibi üçün 50 min rublə təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət təhti-ixtiyarındakı 20 milyon fonddan borc təriqi [yolu] ilə 50 min rublə buraxılsın. Fəqət həman məbləğin ən yaxın zamanda geri verilməsi şərtdir.

**NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]**

**Məsai Nəzarətində**

* Keçən günkü nömrəmizdə Quliyev dəyirmanı fəhlələrinin tələbat verərək tətil etmələrini və Məsai Nəzarəti tərəfindən Rəhim Hüseynzadənin oraya göndərilməsini qareinə [oxuculara] xəbər vermişdik. Məzkur [adı çəkilən] Məsai Nəzarəti [Əmək Nazirliyi] nümayəndəsinin işə müdaxiləsi ilə tələbat dəyirman müdiriyyəti tərəfindən qəbul edildiyindən, dəyirman fəhlələri işə başlamışlardır.

* Tağıyev Fabrikası Fəhlələri İttifaqı Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, fabrika müdiriyyəti müştərək müqavilənaməni [kollektiv müqaviləni] qəbul etmək istəməmişdir. Bundan dolayı fəhlələr miyanında [arasında] ixtilaf baş verməkdədir. Məsai Nəzarəti Baş fabrika müfəttişinə müraciətən təklif etmişdir ki, fəhlə və Fabrika müdiriyyəti nümayəndələri və Məsai Nəzarəti nümayəndəsindən mürəkkəb [ibarət] bir komisyon təşkil etsin ki, fabrikada müştərək müqavilənaməni təhqiq etsinlər.

* Məsai Nəzarəti Biləcəri dairəsi dəmiryolları xidmətçilərinə elam etmişdir [bildirmişdir] ki, Nəzarət Moskva dekreti ilə əlavə almayan xidmətçilərə əlavəni vermək üçün Vükəla Şurası [Nazirlər Kabineti] nəzdində təşəbbüsatda bulunmuşdur. Binaənileyh [ona görə], Nəzarət təklif etmişdir ki, fəhlələr çıxışdan özlərini saxlasınlar. Zira ən yaxın zamanda məsələ müzakirə ediləcəkdir.

**MİLLİ DİLİMİZ**

Yer üzündə yaşayan hər millətin milli dili, milli lisanı, milli adatı [adətləri] olduğu hər kəscə bəllidir. Hər millət isə kəndi dili ilə qonuşur. Təbiidir ki, bu gün bir rus, yaxud bir alman kəndi dilini buraxaraq başqa bir dil ilə kəndi qardaşı və milləti





ilə əsla qonuşmaz. Çünki millət və milliyyət yalnız dil ilə ayrılar.

Əski hökumət zamanında rus dili cəbri [məcburi] olaraq hər yerdə oxudulurdu. Buna binaən [buna görə] də hər kəs rus dilini öyrənməyə çalışırdı. Lakin inqilab çıxdı, əski zülüm, əski hökumət ortalıqdan qaldırıldı. Hər millət kəndi hüququnu tanımağa başladı. Odur ki, Rusiyada bir neçə hökumət əmələ gəldi. Bunlardan birisi də türk və islam hökumətindən ibarət bugünkü Azərbaycanımızdır. Rusiyada mövcud hər millət kəndi istiqlaliyyətini elan etdikdə, Azərbaycan da bu yolda geri qalmadı. Üçrəngli sancağını yüksəltdi və yüksəldəcəkdir. Demək, Azərbaycan bütün dünyaya elan etdi ki, artıq o hürr yaşayacaq və kimsənin himayəsi altına girməyəcəkdir.

Azərbaycan kimi başqa millətlər də müstəqil oldular. Bütün dairələri, məktəbləri milliləşdirdilər. Azərbaycan da milliləşdi, lakin o qədər yox. Bu gün hökumət dairələrinin çoxlarında rus dili yenə davam edir. Ona qarışmayız. Çünki bir səbəb var ki, öylə də olmuş. Lakin Gəncədə bazar başına çıxılarsa, bir çox edadinin yuxarı sinif tələbələrinin kəndi türk və islam qardaşları ilə rusca qonuşduqları görülür. Keçmiş zamanlarda rusca qonuşulardı, çünki o zaman rusca rəsmi bir dil idi. Lakin şimdi, əcəba neyçün rusca qonuşalım? Şimdi ki, rəsmi dil türkcədir. Bizim də kəndi dilimiz türkcədir. Rusca qonuşaraq neyçün kəndi dilimizi unuturuz? Neyçün kəndi dilimizi təhqir ediriz?

Gəncədə təşkil olunmuş Gəncə vilayəti Türk Müəllimlər İttifaqı növbəti iclaslarının birində bütün türk müəllimlərinin bir-biri ilə, yaxud kəndi amirləri ilə hər zaman türkcə müxabirədə [yazışmada] bulunacaqları təhti-qərara alındı.

Əlbəttə, dilimizi yüksəltmək, tərəqqi etdirmək əhalinin ziyalı qismindən asılıdır. Bu iş, bu vəzifə müəllim və tələbələrimizdən asılıdır. Bir dükançı türkcə qonuşarkən bir türk tələbəsinin, yaxud müəlliminin arxadaşı ilə rusca qonuşması eyib deyilmi? Bu gün fransız lisanı ümumi bir lisan hökmünü almışdır. Neyçün əcəba? Çünki fransızlar mədəni bir millət olduqları kimi, çalışmaları sayəsində dillərini də gözəl bir rəngə qoyaraq zənginləşdirmişlər. Buna baxılarsa, türk dili də fəna deyildir. Türk dili söyləyişdə, nəfislikdə başqa dillərdən geri qalmamışdır. Çalışalım türkcə qonuşalım və türkcə yazalım ki, 80 milyonluq bir türk millətinin dili də geridə qalmasın, kəndisinin varlığını isbat etsin.

*Müəllim Davud*

**ƏCZAXANA TƏHLÜKƏSİ**

Malışev familiyalı bir şəxsin şikayətinə görə, mart ayının 20-də Səhiyyə Nəzarəti Nikolay küçəsindəki sabiq "Zumirov" əczaxanasını üç yüz rublə ilə cəriməiəmişdir. Cərimənin səbəbi isə doktor Şahnəzərovun nüsxəsi ilə həman əczaxanadan tələb olunmuş əczanın əvəzinə saxta və təbdil olunmuş [dəyişdirilmiş] qeyri-həqiqi əczanın buraxılmasıdır. Bunu təhqiq etmək üçün qayırılmış ədviyəni [dərmanı] şəhər emalatxanasında təhlil edirlər və məlum olur ki, doktorun yazdığı ədviyə əvəzinə ta-

mamən başqa bir şey vermişlər. İştə bu ikinci əczaxanadır ki, Səhiyyə Nəzarəti tərəfindən cəriməlvaluenir. Birinci əczaxananın günahı başqa idi, hökumət qoyduğu nırxdan artıq pul tələb olunmuşdu. Bu iki vəqənin hangi olursa-olsun, təhqiq və ya təftiş olmayınca əhali üçün kəşf olunmayacaq və üstüörtülü məsələlərdir ki, camaatı həmişə həyəcan və təşvişdə bulundurur.

Filhəqiqə [doğrudan da], ədviyənin həqiqi və ya qeyri-həqiqi olduğunu isbat etmək üçün həmişə təhlil üsuluna ehtiyac vardır ki, bu da hər saatda, hər dəqiqədə mümkün olan şeylərdən deyil. Doğrudan da, hangi əqli-səlim [məntiq] sahibi naxoşunu əzrayılın pəncəsində buraxaraq ədviyənin təhlili üçün emalatxanalara yüyürəcəkdir? Şəfa üçünmü, yoxsa həqiqətin kəşfi dalıncamı naxoş sahibi çabalasın? Ən ağır və çarəsiz halətlərdən biri də budur ki, insanı mat və məbhut [çaşqın, mat-məəttəl] buraxır. Qoy birə-beş, birə-on nırxdan artıq tələb etsinlər. Eybi yoxdur. Böylə qanunsuzluğa hər kəs razı ola bilər, lakin ədviyənin təbdilinə hər kəs razı olmayacaqdır. Hərarətini söndürməyə ədviyəsinə möhtac qalmış bir naxoşa bərəks [əksinə] hərarətini qovzayan [qaldıran] bir dərman verilərsə, şəkk yoxdur ki, bu təbdilat [dəyişiklik] biçarə naxoşu fövrən [dərhal] öldürəcəkdir. Əczaxanalarda ənvai [cürbəcür] zəhərlər mövcuddur ki, bunlardan kimsəyə şəfa hasil olduğu kimi, kimsəyə də dərhal ölüm tabutu hazır olur.

Söz yoxdur ki, dərmanlar dəyişik verilməzsə, bir bu qədər də səhv və xətalar baş verməz. Fərz edəlim ki, bir şəxs şərbətə, yaxud xörəyə bir zəhər daxil edib, onunla düşmənini tələf etmək istəmişdir. Böylə bir şəxs cani və qatillərə məhsub olaraq [sayılaraq] təhti-məsuliyyətə [məsuliyyət altına] alınmazmı? Ola bilsin ki, əcza təbdilatından Malışevin naxoşuna heç bir sədəmə [ziyan] toxunmamışdır. Lakin bununla əczaxana sahibi məsuliyyətdən azad olunammaz. Qatilliyə müqabil [bərabər] bir hərəkətdə müttəhim olmuş şəxsin cəzası 300 manatlıq bir cərimə ilə ölçülməz. Böylə caninin karastısı [iş alətləri] gərək əlindən alınsın və özü də tövqif olunsun [tutulsun]. Onun karastısı ki əczaxanadan ibarətdir, əlindən alınmamışdır. Binaənileyh [ona görə], ümid yoxdur ki, bu cənab adətkərdə [adət etdiyi] qəbahətindən əl çəkə bilsin. Buna biz adətkərdə adı verməkdə bir sübutumuz da budur ki, şəhərin məşhur doktorlarından biri Nikolay əczaxanasının emalından şübhələnərək sair əczaxanalara müraciət etməyi məsləhət gördü. Böylə olan surətdə həman əczaxana gərək tamamən qapanılsın. Əvəzinə bir hökumət əczaxanası açılsın. Bu da mümkün olmadığı surətdə, qoy Nikolay küçəsində heç əczaxana olmasın. Beş qədəm uzağa getməklə əhalinin halına bir o qədər də təfavüt etməz. Lakin bir ağanın mənfəəti-şəxsiyyəsi üçün yüzlərcə naxoşları vaxtsız qəbiristana göndərmək böyük bir cəlladlıqdır ki, bunu Səhiyyə Nəzarəti gərək imdiyə qədər düşünəydi.

Kim bilir ki, sair əczaxanalar nə kimi hərəkatda bulunurlar? Hangi dəlillə camaat əmin olsun ki, sair əczaxanalarda təbədüllat oyunu yapılmayır? Ta bu əczaxanalar hökumət əlinə keçməzsə, o vaxta qədər istənilən əminlik də hasil olmaz. Bari, bir dənə hökumət əczaxanası olaydı. Sairləri ehtiyatkaranə hərəkət edərdilər.

Təəccüb burasıdır ki, bir vaxt əczaxana sahibləri ilə mübarizəyə qalxan əczaçılar onların hər növ eyib və qüsurlarını qəzetələrdə yazırdılar. Amma bu gün sakitcə dayanıb sahiblərinin hərəkətlərindən heç bir şey xəbər verməyirlər. Səbəbi də budur ki, tamam xahiş və tələblərini alıb, sahibləri ilə barışmışlar. Bununla belə, biz istəməyirik buna qane olaq ki, əczaxana şagirdləri maddi ehtiyaclarının rəfi [aradan qaldırılması] ilə həqiqəti pərdələməyə qəsd bağlamışlar.

Xülasə, kim nə deyir, desin. Əhalinin mənfəti mülahizəsi ilə müttəhim əczaxana gərək qapadılsın. Əvəzinə hökumətinki açılsın, ta ki özgələrə də ibrət olsun. Buna cərimə ilə çarə olunammaz.

*Fərhad Ağazadə*

**KONFRANS**

**Krım nümayəndəsi Ədhəm Feyzi əfəndinin mühazirəsi münasibətilə**

**- 2 -**

Natiq buraya qədər olan sözünü tamamladıqdan sonra 5 dəqiqə tənəffüs edilməsini təklif etdi. Təklif fəhlənin alqışları və "Yaşasın möhtərəm müsafirimiz!" nidaları ilə qəbul edildi. Natiq də bu təqdirə, bu müsafirnəvazlığa qarşı təşəkkür və ehtiramını mütəbəssim bir çöhrə ilə reverans yaparaq iskəmləsinə çəkilib oturdu.

Rəis əfəndi məclisə xitabən: Vaxtımızı zaye etməmək istər isək, bu 5 dəqiqəlik tənəffüs müddətində şu anda Bakıdan məclisimizə təşrif edən möhtərəm Cavad bəy bizə sevincli xəbər gətirmiş, müsaidə ediniz də söyləsinlər, deyincə həp bir ağızdan "istəriz, buyursunlar" demələri üzərinə Cavad bəy milli bir ruh, atəşin bir lisan ilə qəhrəman ordumuzun paytaxtımıza kamali-ehtişam ilə girdiyini və paytaxt onları küçələr al, yaşıl, göy bayraqlar, rəngarəng xalılarla təzyin edildiyi [bəzədildiyi] halda böyük-kiçik, erkəkqadın kamali-məhəbbət və səmimiyyətlə qarşıladığını söyləyərək, bu gün tarixi-milliyə qeyd edilməyə layiq bir gün olduğunu və keçən sənəki məhrumiyyətə qarşı bu sənəki məsudiyyətini söyləyincə, fəhlə qardaşların sürəkli alqışları ilə "Yaşasın sülh və səlaha xidmət edəcək ordumuz!" cümləsi zalı titrətdi. Bundan sonra bir-iki kişi daha bu barədə söz aldı, söylədi. Onlar da alqışlara qərq oldu.

Tənəffüs zamanı keçməkdə idi. Söz yenə mühazirə sahibinə verildi. Mühazirənin ikinci qisminə keçildi.

Möhtərəm irqdaşlar!

Yaşayış ardı-arası kəsilməyən bir güləşdən ibarətdir. O güləşdə də təbiidir ki, güclü olan yenir. Fəhlələrlə sərmayədarlar güləşi də bu növdən idi. Əvvəlcə söylədiyim kimi, bu iki ünsürdən biri, yəni sərmayədarlar dayandıqları dəhşətli bir gücə, bir hökumət gücünə istinadən bu ana qədər hər istədiklərini yapdıra gəlmişlərdi. Çox dəfələr fəhlənin tətil etməsi bir qəbahət kimi tələqqi edilmiş, onun üçün də qırbaclar, süngülər altında zorla işlədilmişlər, kapitalistlərə fəda

edilmişlərdi. Bunun nümunəsini aramaq üçün uzaqlara, qərbi Avropaya qədər getməyə hacət yox. Bir qaç sənə əvvəl Rusiya imperializmi istibdadına bir dönər baxarsaq, onun canlı misallarını görməkdə heç güclük çəkməyiz. Bu haqsızlıq, bu ədalətsizlik sür-get davam edəməzdi. Əlbəttə, o dayandıqları gücün zəiflədiyi zaman da olacaqdı. O zaman, işte, gəldi çıxdı.

Həpimizə bəlli ki, kapitalistlərin mübarizə etdikləri yalnız fəhlə sinifi deyildir. Kəndiləri kimi digər kapitalistlər və bilxassə [xüsusilə] əcnəbi məmləkətlər kapitalistləridir. Yetişdirdikləri məhsulları, mətaları sərbəst məxrəclərdə, bazarlarda digər məmləkətlərin eyni məhsulları, mətaları ilə bir rəqabət qapısı açır. Bu rəqabət də onlara pək bahalı olur. Bu səbəbdən monopol edilmiş yerlər istərlər. Ondan ötrü də hökumətlərinə də imperializm fikrini təlqin və digər qitələr və ölkələr fəth və ilhaqını [birləşdirilməsini] tövsiyə edirlər. Bu surətlə qanlı qovğalara səbəbiyyət verirlər. Şimdiyə qədər olan qovğaların əksərisi və hələ Cahan müharibəsi bunun nəticeyi-təbiiyyəsindən başqa bir şey deyildi.

Sırası gəlmişkən, buranı bir parça izah edəlim. Qərbi Avropa millətləri kapitalistləri arasında ən irəli gedənlər ingilis kapitalistləri ilə alman kapitalistləri idi. Cahan bazarlarında və hətta İngiltərədə belə ingilis mətasına meydan oxuyan alman mətası və hələ Hamburq-Bağdad dəmir yolunun Hindistanı təhdidi ingilis imperialistlərinin uyxusunu çoxdan qaçırmışdı. Buna bir çarə, müəssir [təsirli] bir çarə aramaq lazım gəlirdi. O da Rusiya-Fransa ittifaqına yaxınlaşmaqla Almaniyanın şərqə doğru politikası önünə sədd çəkməklə olacaqdı. Bu səd də Balkanda slav millətləri ilə yapılmışdı ki, ergec [gec-tez] qiyamət o sədd başında qopacaqdı. Nəhayət qopdu. Dünya da alt-üst oldu.

O iki millət kapitalistlərilə imperialistlərinin iqtisadi təfəvvüqündən [üstün olmaq mübarizəsindən] meydan alan bu qovğa onlar üçün həyat və məmat [həyat və ölüm, ölüm-qalım] məsələsi idi. Onun üçün var qüvvətlərini sərf etdilər. Yalnız burada əhəmiyyətlə qeyd ediləcək bir şey varsa, o da almanların qüvvətlərinə görə diplomasiləri çox zəif idi. Qüvvətlərinə güvənərək bütün cahana meydan oxumaları təshih olunur [düzəldilə bilən] xətalardan deyildi. Lakin ingilislər o durbin nəzərli [uzaqgörən] diplomatları ilə bir qaç istisnadan sərf-nəzər edilərsə, bütün cahanı kəndi tərəflərinə çəkdilər. Müvəffəqiyyətin ən böyüyü, ən qiymətlisi də bunda oldu. Xüsusən, incə bir diplomatlıqla Amerikanı, o dəmiri, kömürü, buğdası, pambığı bol və zəngin məmləkəti kəndi tərəflərinə çəkməsi taleyi-hərbin ingilis imperialistlərinə doğru üz çevirdiyi[ni] müjdələmişdi.

Uzatmayalım, müharibəni qazandılar. Fəqət bu qazanc həqiqətdə kimlərin oldu? Kapitalistlərin, imperialistlərinmi, yoxsa fəhlələrin, xalqlarınmı? Biz buna tərəddüdsüz cavab verəcəyiz. Deyəcəyiz ki, birincilərin deyil, ikincilərindir.

Avropa üfüqlərini qara buludlar qaplamağa başladığı zaman sabiq Bordo Darülfünunu professorlarından və Fransa Məclisi-Məbusanı üzvlərindən məşhur





sosialist müsyö Jan Jores[in] kürsiyi-xitabətdən ümum Avropa imperialistlərinə qarşı söylədiyi sözlər heç unudulmayacaqdır. O vaxt müsyö Jores demişdi ki:

*"Bu hərəkətinizlə bilmiş olunuz ki, kəndi quyunuzu qazırsınız. Töküləcək o məsum qanlar, heç şübhəsiz, bir inqilab, bir inqilabi-ümumi doğuracaqdır."*

O zaman söylənən bu sözlər bu gün bir həqiqət olaraq qarşımızda təcəlli etdi [meydana çıxdı]. Fəqət yazıqlar olsun ki, bütün Fransanın kəndisinə hörmət bəslədiyi bu zat sözlərini bitirmədən imperialistlər tərəfindən barbarcasına güllələndi getdi.

İlk dəfə Rusiyadan başlayan atəşi-ixtilal Rusiyanı yaxıb qovurduqdan sonra, məğlublara və daha sonra yavaş-yavaş qaliblərə də sirayət etməyə başladı. Görülür ya, qalibiyyət sərxoşluğu ilə sərxoşlanan qaliblər də çox dayana bilməyəcəklər. Əlamətləri bəlirdi [özünü göstərdi]. İngiltərə fəhləsinin təklif etdiyi üçüncü şərtin – nasionalizasiyanın [milliləşmənin] altında gizlənmiş neçə mühlik [öldürücü] zəmirlər [daxili mənalar, sirrlər] var ki, bir gün olub onlar şiddətlə kəndini göstərəcək. Amerikada ümumi tətil xəbərləri də bundan aşağı qalmayacaq. Hələ əhvali-ictimaiyyəsi [ictimai vəziyyəti] daha müsaid olan Fransa və İtaliyada sosializm, bolşevizm hərəkatı heç də durdurulammayacaq. Onun üçün nə Rusiya və nə də Almaniya, Avstriya-Macarıstan bolşevizminə qarşı tədbirlər görüləmməyir. Biləks [əksinə], onlarla uzlaşmadan başqa məqul [ağlabatan] bir yol bulunmayır.

Qəzetə xəbərlərinə görə, keçənlərdə Lloyd Corc, Vilson, Klemanso, Orlando cənablarının Xariciyyə nazirlərini belə iştirakdan mən edərək [kənarlaşdıraraq] istişarə [müzakirə, məsləhət] etmələri dürlü-dürlü təvillərə [yozumlara] yol açmışdı. Hasili, kapitalizm ilə imperializmin üzləri kəndi əlləri ilə qazdıqları quyulara doğru çevrilmişdir. Qalibiyyət əncamı demokratiyanındır. Çünki haqq onlarındır. Bu mühəqqəq [şübhəsizdir].

**MƏTBUAT**

Məlum olduğu üzrə, İngiltərə komandanlığı miralay [polkovnik] Şattlvortun imzası ilə rəsmi bir intibahnamə [bildiriş] nəşr edərək [yayaraq] Cəbrayıl, Zəngəzur, Şuşa və Cavanşir qəzalarında general-qubernatorluq təsis edildiyi, general-qubernator Xosrov bəy Sultanov cənablarına İngiltərə komandanlığının müzahirət [dəstək] göstərdiyini qeydlə, bütün əhalinin ona tabe olması və onun əmrinə hamının bilaqeydü-şərt [qeydsiz-şərtsiz] əməl etməsi lazım gəldiyini təbliğ etmişdi. Bu iş Erməni Milli Komitəsinin xoşuna getməmişdir. Məzkur [adı çəkilən] komitənin naşiri-əfkarı [fikirlərini yayan orqanı] "Naşe vremya" qəzetəsi ingilislərdən narazı qalaraq şikayət edir ki:

*"Biz güman edirdik və inanmaq istəyirik ki, Böyük Britaniya Zaqafqaziyaya alman və türklər kimi hər növlə Azərbaycan və Gürcüstana kömək edib Ermənistanı zəif salmaq üçün gəlməyib, özünün sabiq müttəfiqi olan Ermənistana ayrıca iltifat göstərməsə də, bari həyati məsələlərdə türk və alman vəziyyəti də olmayacaqdır."*

Amma Londonda ermənilər şərəfinə nümayiş quruldüğu və ingilis hökuməti başçısı Lloyd Corc və sairləri ermənilərə xeyirxah olduqları halda, onların nümayəndələri burada hər işi Erməni Milli Komitəsinin kefi istədiyi kimi etməyirlər. Əlbəttə bu da sabiq "müttəfiq"in damağına dəyir.

Fəqət İngiltərə nümayəndələri nə yapmışlar?

Azərbaycanın ayrılmaz bir qismi olan Qarabağda hamının general-qubernatora tabe olmasını təbliğ etmişlərdir.

Bu isə "bütün erməniləri heyrətdə buraxaraq məyus etmişdir". Çünki:

*"Ermənilər deməyirlər ki, Zaqafqaziya millətləri arasından onları ayırıb tək onlar himayə altına alınsınlar."*

Amma:

*"Tatarlardan ayrı yaşayıb da türklərin hücumu vaxtı belə özünü türklərdən və azərbaycanlılardan müdafiə edə bilmiş 300 min nəfərlik bir əhaliyə xitabən böylə bir əmri ya erməni millətinin həqiqi və həyati mənafeyinə əhəmiyyət verməmək nəticəsindən vermək olar ki, bu da yarısı məhv olmuş millət arasında qan axıdılması və qırğına bais olar. Yaxud, Müttəfiqlər komandanlığının nə kimi bir vəziyyət içərisində işlədiyini anlamamaqdan nəşət edər [irəli gələr]."*

Əlbəttə, ermənilərin anası daşlı qovurğa verib onları xalqa tapşırmışdır. Ona görə, kefləri nə istəsə gərək mövcud olsun. Ancaq, Müttəfiqlər komandanlığı onların bütün istədiklərinə əməl etdikdən sonra Erməni Milli Komitəsinə məsləhət etməmiş çörək yesə, yenə həman "amma" meydana çıxacaqdır.

## BAKI XƏBƏRLƏRİ

**Gəncə Müəllimlər İttifaqı nümayəndələrinin vürudu [gəlişi]**

Bu günlərdə Gəncə Müəllimlər İttifaqı nümayəndələri Mirzə Cavad Axundzadə və İsmayıl bəy Bakıya varid olmuşlardır [gəlmişlər]. Mumaileyh [adı çəkilən] əfəndilər Azərbaycan Hökuməti nəzdində Gəncə müəllimlərinin maddi cəhətini yaxşılaşdırmaqdan ötrü təşəbbüsatda bulunmaqla bərabər, Bakıdakı Müəllimlər İttifaqı ilə irtibat peyda etməyə çalışacaqlardır.

**"Müsavat" firqəsi cənbində müvəqqəti mütəallimlər heyəti**

Bununla arxadaşlara nisan ayının 11-dən etibarən "Müsavat" firqəsi cənbində [nəzdində] müvəqqəti mütəallimlər [şagirdlər] heyəti təşkil olması xəbər verilir. "Müsavat" məramnaməsinə hüsnrəğbət göstərən mütəallim və tələbə arxadaşlardan kəndilərini məzkur [deyilən] heyətə üzv yazdırmaları rica olunur.

Müvəqqəti İdarə "Müsavat"ın təbliğat və təşkilat odasında açıqdır 5-dən 7-ədək.

*Müvəqqəti İdarə*

**Fəhlə həyatı**

Martın 29-da Suraxanı Fəhlə Klubu əzasından [üzvlərindən] bir neçəsinin təşəbbüsü ilə musiqi müsamirəsi [konserti] tərtib verilmişdi. Müsamirənin bütün məxarici 3497 manat, ümum mədaxili isə 5893 manat 50 qəpik olmuşdur. Saf hasilat 2396 manat yarım olaraq klubun maarif-mədəni məqsədlərinə sərf ediləcəkdir.





**Şəhər xidmətçiləri iclası**

Bazar günü Bələdiyyə Məclisi zalında Bakı Bələdiyyə İdarəsi xidmətçilərinin ümumi iclası təyin edilmişdir. Müzakirə olunacaq məsələlər bunlardır:

1) İdarənin məruzəsi;

2) 1917-1918 sənəsi məhsubatı [hesabatı];

3) 1919 sənəsi smetası;

4) İdarə əzasına [üzvlərinə] mükafat;

5) Yeni idarə intixabı [seçilməsi];

6) Təftiş komissiyası intixabı;

7) Nizamnamənin bəzi maddələrinin dəyişməsi;

8) Ariz ola biləcək [sonradan meydana çıxa biləcək] məsələlər.

İclas ikinci dəfə çağırıldığından, nə qədər əza gəlsə də qanuni hesab ediləcəkdir.

**Binəqədiyə su buraxılması**

Məlum olduğu üzrə, Binəqədi mədən dairəsi və kənddə yaşayan əhali susuzluqdan nəhayət dərəcə əziyyət və məşəqqət çəkərək Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi vasitəsilə Məsai Nəzarətinə [Əmək Nazirliyinə], Sovet Syezdə və Şəhər İdarəsinə müraciət eyləmişlərdi. Nəhayət, Şəhər Dumasının 10 nisanda vüqu bulmuş [baş tutan] iclasında Binəqədiyə su buraxılması məsələsi müzakirə edilmişdir.

Şəhər İdarəsinin bəyanatından məlum olmuşdur ki, Binəqədi su yolu xətti Şəhər İdarəsinin malı olmayıb, oraya ancaq Binəqədi su yolu şirkətinin xətti ilə su buraxılırdı. Şəhər İdarəsi ilə məzkur [deyilən] şirkət arasında əqd edilmiş [imzalanmış] müqavilənaməyə görə, şirkət bir qədər zərər etmişdir və müqaviləaməə onun üçün əlverişli deyildir. Şirkətin məxarici çox olduğundan müqaviləaməni təzələmək istəməyir. Buna görə də şirkət, Şəhər İdarəsinə olan borcunu verməmiş, o da artıq suyu kəsməyə məcbur olmuşdur. Məzkur dairə və kənd əhalisi ehtiyac içində qalmışdır. İndi isə Şəhər İdarəsi məzkur şirkətlə yenidən bir müqaviləaamə əqd edib onunla şirkətin nəfinə [xeyrinə] düşən hissəni hər vedrədə 4 qəpik artırmışdır. Bu miqdar gələcəkdə dəxi lazım olarsa, artırılacaqdır.

Həmin təzə müqaviləaməni Duma müttəfiqülqövl [yekdilliklə] qəbul və təsdiq etmişdir. Böyləliklə, bu günlərdə Binəqədiyə su buraxılacaqdır.

## TÜRK MÜƏLLİMİNƏ 25 SƏNƏLİK ŞƏNLİK

Nikolay rejimində türk müəllliminə olan həqarət heç bir sinifə olmayıbdır, zənn edəriz. Günəmuzd dəvət olunmuş türk müəllimi həftədə iki dərs ilə (əlbəttə, 5-6 və yaxud 6-cı dərsləri) müxtəlif məlumatlı məktəblilərə istədiyi dərsi verəmməyirdi. Dərslərin azlığı və məktəblilərin yorğun vaxtlarına təsadüf etməsi, amirlər, müdirlər aldıqları təlimat mövcibi [əsasında] milli dilləri qeyri-məcburi elan etmələri nə qədər böyük zülüm olduğunu ancaq-ancaq türk müəllimi haqqı ilə bilir. Türk dili müəllimi 50 sənə belə xidmət etsəydi nə Nikolay hökuməti, nə də millətimiz tərəfindən nəzəri-etibara alınmazdı. Ehtiram və hörmət, ancaq başımıza bəla təyin olunmuş missionerlər və onların mü-

rəvvici-əfkarına [fikirlərinin yayılmasına] xidmət edərək, nəcib millət balalarımızın dimağına [şüuruna] "Allah bir, padişahımız da, çarımız da bir, Allah göydədir, padişahımız, sevgili çar Nikolayımız yerdədir" cümləsini təlqin edənlər uğrunda hökumət sandığından külli paralar təxsis olunaraq [ayrılaraq] 10 sənəlik, 15 sənəlik, 20 sənəlik, 25 ilaxır sənəlik şənliklər yapılaraq, dostlarının ədədini artırırlardı. Fəqət türk müəllimi ölərkən belə ianə dəftəri açılaraq güc-bəla ilə dəfn olunurdu.

Şənliyi yapmaq istədiyimiz yaşlı müəllimlərimizdən Mirzə Abbas Abbaszadə cənablarıdır. Məzkur [adı çəkilən] Mirzə Abbas əfəndi bütün həyatını müəllimliklə keçirmiş bir zatdır. Məzkurun açdığı xüsusi məktəbi nəzərə alarsaq və xüsusi xidmətlərini sayarsaq, nəinki 25, 30 sənəlik şənlik yapmalıyız. Şərəfinə nə 10, nə 15, nə 20, 25 sənəlik şənlik yapılmamış möhtərəm üstadımıza layiq mütəntən [təntənəli] bir şənlik yapılacaqdır. Gəncə Türk Müəllimləri İttifaqı yubiley komisyonu seçmiş, məramnamə və smeta təqdim etməsini təklif etmişdir.

Həyatını türk millətinin tənviri-əfkarına [düşüncəsini işıqlandırmağa] həsr etmiş Mirzə Abbas Abbaszadə cənablarını Qafqaz ziyalılarının çoxu tanıdığı kimi, Kazan, Krım, Türküstan və İstanbul türkləri də tanıyırlar, zənn ediriz. Zira, məzkur dərs vermədən başqa, türkcə dərsinin təlimi-dərsi uğrunda çox çalışmış və nəticədə "Türk dili" "Birinci", "İkinci kitab" nam dərs kitabları təlif edərək [yazaraq] nəşr etmişdir. Azərbaycan məktəblərinin bir çoxunda Mirzə Abbasın əlifbaları qəbul olunmuşdur. Bundan başqa Abbas əfəndinin "Şəriət dərsi", "Qiraəti-farisi", "Məşq məcmuəsi", "Lətaif", "Arvad ağısı" nam mətbu [çap olunmuş] kitabları vardır.

Məzkuru tanıyanlar gözəlcə bilir ki, həqiqətən hörmətə layiqdir. Vücudu zəif, kəndisi yaşlı olduğu halda, işdən əsla çəkinməyir, yorulmaq, usanmaq bilməz məslək sahibi bir zati-möhtərəmdir. Həqiqi bir türk pedaqoqudur. Azərbaycan türkləri, ələlxüsus ziyalılar üstadımız Mirzə Abbas Abbaszadə əfəndinin şərəfinə tərtib olunacaq şənliyə iştirak etməklə vəzifeyi-milliyyələrini ifa edərlər, zənn ediriz.

*Gəncə, İdris [Axundzadə]*

## AZƏRBAYCANDA

**Qarabağ əhvalı**

Ərzaq Nəzarətinin Qarabağda olan vəkili Axundov böylə bir teleqraf göndərmişdir:

Aprelin 6-da Şuşada neft satışından ötrü olan mal təqsim edici [paylayıcı] şöbəyə varid olub [gedib], işi mütəşəkkil bir hala saldım. Zəngəzur uyezdində acından ölənlərin miqdarı gəldikcə artmaqdadır. Orada böyük üşr mövcudları vardır. Lakin yol olmadığına görə Hərbiyyə İdarəsi indiyə qədər bu taxıl mövcudunu təhvilə ala bilməyir. Bu taxılı oradan çıxarmağa heç imkan yoxdur. Taxıl anbarlarda çürüyür. Qaçqınları və ac əhalini doyurmaq üçün külli miqdarda olan üşr mövcudundan istifadə etməyə icazə almaqdan ötrü Zəngəzura getməyə məcbur olmuşam. Bu tərəfin





müsəlman əhalisi həlak olmaqdadır. Ciddi müavinət lazımdır. Cəbrayıl və Zəngəzur uyezdlərində [qəzalarında] olan vəkillər xəbər verirlər ki, minlərcə əhali çılpaq gəzir. İnsan onların ehtiyacına sakit baxa bilməyir. 30 min arşın manufaktura [parça] göndərilməsini və həmçinin Tağıyev fabrikasından bez almaq üçün tədbirlər görülməsini Hökumətdən ciddi surətdə xahiş edirəm.

## ERMƏNİSTANDA

Paris Konfransında Rus Komissiyası heyətinin nümayəndəsi Amerika leytenantı Xaçaturyan İrəvana varid olmuşdur [gəlmişdir]. Xaçaturyan izhar etmişdir [bildirmişdir] ki, Ermənistanın hökumət etməyə hazır olması məsələlərini öyrənməkdən ötrü Qafqaziyaya – Ermənistana göndərilmişdir. Xaçaturyan Ermənistanın və erməni millətinin həyatına hərtərəfli dəxli olan 60 qədər hazırlanmış suallar verib dürüst cavablar almışdır. Xaçaturyanla bərabər Amerika Müavinət Komitəsi nümayəndəsi, Amerika müxbiri və Xariciyyə Nəzarəti nümayəndəsi Arrol da varid olmuşdur. Aşkar olur ki, Ermənistan Amerikanın və ya İtaliyanın təhti-himayəsində [himayəsi altında] olsun. İngiltərə təhti-himayəsi təsəvvür olunmayır. Fransızlar da özləri istəməyirlər. Amerikalılar hansı bir təhti-himayəni öz öhdələrinə alacaqları məsələsini hələ əsasən həll etməmişlərdir. İtaliyalılar artıq həvəs edirlər. İrəvanda olan İngiltərə nümayəndəsi əmr almışdır, Zod kəndinə gedib Dağkəsəmənskinin tələb edilməsində Erməni İstintaq Komissiyasına müavinət [kömək] etsin. Həman Dağkəsəmənskinin evində erməni saldatları və zabitləri qətl edilmişdir. Hərgah, İngiltərə nümayəndəsi müsbət nəticələrə nail olmasa, Bakıya teleqraf edib əsgər tələb etməli olacaqdır.

**Skripka dərsi**

Petroqrad Konservatoriyasının rəssamı M. Malkarov skripkada dərs verir. Ünvan: Birjavaya küçə nömrə 14, Desyatnikovun mənzilində. Telefon nömrə 46-83.

*5782*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Mən, Bakı sakini Məhəmmədbağır Qafar oğlu bununla elam edirəm [bildirirəm] ki, hər kəsə bugünəcən bacımın və qardaşım Əliabbasın borcu varsa, bu gündən bir ayacan verməyə hazıram. Sonra qəbul etməyəcəyəm. Bakı, Verxni-Naqornı küçə, nömrə 7.

*Məhəmmədbağır Qafar oğlu*
*8709*

**Sentrodom**

Bununla Bakı əhalisinə elan edir ki, aprelin 12-dən hamı uçastkovı komitə dükanlarında əhaliyə quruyemiş ən ucuz qiymətə paylanacaqdır. Şeylərin adları və qiyməti hər dükanda mövcuddur.

*6711*

**Elan**

Bakı İstiqrazı-Mütəqabilə Cəmiyyəti İdarəsi bununla Cəmiyyət üzvlərinə elan edir ki, aprelin 6-da vaqe olan ümumi iclasın qətnaməsinə görə, bazar günü aprelin 13-də səhər saat 10-da Şəhər İdarəsi salonunda ümumi iclası təyin olunubdur. İclasda aprelin 6-dakı gündəlik məramnaməsinin mabədi müzakirə ediləcəkdir.

*T-104*

**Bakı İkinci İstiqrazı-Mütəqabilə Cəmiyyəti**

Cəmiyyət üzvlərini xəbərdar edir ki, fövqəladə iclası aprelin 13-də saat 10-da Bankın binasında təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) İdarəyə gəlməyən üzv Sergey İvanoviç Çiknaverovun yerinə təzə üzv intixabı.

2) Öz xahişi ilə istefa vermiş Cəmiyyətin hesabdarına (buxqalter) bəxşiş verilmək barəsində.

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 205. "Aksiz vergili ticarətə və sənaətə…": tərcüməsindəki və imlasındakı qüsurlar səbəbilə anlaşılmaz olan bu maddə belə başa düşülməlidir: Aksiz vergisinə cəlb edilən malların satışı və istehsalı ilə məşğul olan şəxslər, bu ticarət və istehsalat fəaliyyətini, Hökumət xəzinəsi xeyrinə əlavə 25%, 10% və 50% yığım da daxil olmaqla, ödədikləri patentə uyğun müddət ərzində davam etdirə bilərlər; müddətin hesablanmasında cari ilin 6 martında qəbul edilən qanunda göstərilən patent qiymətləri əsas götürülür.

**Siyasətə qarışmaz**

səh. 207. "haranın çağalası bəlli olmayan": "çağala" bəzi meyvələrin yetişməmiş halına deyilir; "haranın çağalası bəlli olmayan" ifadəsi "haradan çıxdığı məlum olmayan", "mənşəyi bilinməyən" mənasında işlədilir.

səh. 208. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 208. "Rza bəy Ağabəyov": qəzetdə "Rza bəy Ağasıbəyov" kimi getmişdir.

səh. 210. "…Aleksandri-saninin qanunu bilküliyə qəbul olunur…": II Aleksandr dövründə Rusiyada təhkimçilik hüququ, maliyyə, təhsil, yerli özünüidarə və bir sıra başqa sahələrdə islahatlar həyata keçirilmişdir. II Aleksandrın islahatlarının başlıcalarından biri də məhkəmə islahatı idi.

səh. 211. "Binaənileyh, kassasiyaya da Hərbiyyə naziri təkbaşına deyil…": qəzetdə "kassasiyaya" yerinə "Qafqaziyaya" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 212. "Tofiq paşa Kabinəsi": Osmanlı sədrəzəmi (Baş naziri) Əhməd Tofiq paşa (Əhməd Tofiq Okday) nəzərdə tutulur.

"Maliyyə naziri Tofiq paşa": Məhməd Tofiq Biren nəzərdə tutulur.

"Camal paşa Daxiliyyə naziri": Camal Keşmir nəzərdə tutulur.

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 214. "Ağa Xan": müsəlman ismaililərin lideri III Ağa Xan nəzərdə tutulur.

"…mövqifdə Bikaner tərəfindən istiqbal edilmişdir.": güman ki, Hindistanın şimal-qərbində mövcud olmuş Bikaner knyazlığının maharacası Qanqa Sinx [Ganga Singh] nəzərdə tutulmuşdur.

"Deyli meyl" [Daily Mail]: Londonda 1896-cı ildən etibarən nəşr edilən gündəlik qəzet.

**Türkiyə xəbərləri**

səh. 217. "Tayms" [The Times]: Britaniyada 1785-ci ildən etibarən nəşr edilən gündəlik qəzet.

"Buxara əmiri": Buxaranın sonuncu əmiri Alim xan (Seyid Mir Məhəmməd Alim xan) nəzərdə tutulur.

səh. 218. "Əfqanıstan əmiri Buxara ordusu ilə idarəsinin…": burada 1901-ci ilin oktyabrından 1919-cu ilin 20 fevralına qədər Əfqanıstan əmiri olan Həbibulla xandan söhbət gedir.

"Zati-şahanə": Osmanlı sultanı VI Məhməd nəzərdə tutulur.

"…pədəri Səmərqənddə müfti ikən…": söhbət Həbibulla xanın atası, 1880-1901-ci illərdə Əfqanıstan əmiri olan Əbdürrəhman xandan gedir.

"…-zəfəri əmir Həbibullanın məsləyindəki… təyid və təsdiq eyləmişdir.": Cümlənin bəzi yerləri oxunmur.

**Nəzarətlərdə**

səh. 220. "Baş Fabrik müfəttişi": Sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin baş müfəttişi.

**Milli dilimiz**

səh. 221. "edadi": orta məktəbin ali təhsilə hazırlıq mərhləsi; lisey.

"Müəllim Davud": bu imza Davud Ağamirzəyevə məxsusdur.

**Əczaxana təhlükəsi**

səh. 221. "Nikolay küçəsi": Bakıda, indiki İstiqlaliyyət küçəsi.

səh. 222. "Ola bilsin ki…": qəzetdə "öylə bilsin ki" getmişdir.

**Konfrans**

səh. 223. "Cavad bəy": çox güman ki, Əhməd Cavad nəzərdə tutulur.

səh. 224. "Bordo Darülfünunu professorlarından… Jan Jores": Jan Jores Tuluza Universiteti professoru olmuşdur.

səh. 225. "Lloyd Corc": qəzetdə "Lord Jorj" kimi getmişdir.

**Bakı xəbərləri**

səh. 227. "Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

**Azərbaycanda**

səh. 228. "üşr": əkinlərdən məhsulun onda biri miqdarında alınan vergi.

**Ermənistanda**

səh. 229. “Amerika Müavinət Komitəsi”: Birinci Dünya müharibəsindən sonra Avropa ölkələrinə qida yardımı göstərən Amerika Yardım Administrasiyası [American Relies Administration] nəzərdə tutulur.

“Dağkəsəmənski”: bu soyadı qəzetdə təhrif edilmişdir.





**Bazar ertəsi, 14 aprel 1919-cu il, nömrə 157**

# AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 13 rəcəbül-mürəccəb sənə 1337. 14 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**ELAN**

1919-cu sənəsi seşənbə [çərşənbə axşamı] günü aprelin 14-ündə, gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

*T-105*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Dəvət**

Azərbaycan Cümhuriyyətinin Bakı qəzası Əxzi-əsgər [Hərbi çağırış] idarəsi bina tutub fəaliyyyətə başlayıbdır.

Camaati-müsəlman! Fəramuş etməyin [unutmayın] ki, hər bir əsgərliyə dəvət olunan şəxs borcludur qəlbən gəlib öz vəzifəsini ifa eyləsin və bununla həmin şəxs öz millətinə böyük bir xidmət göstərər və Azərbaycan Hökumətinin yaşamağına səbəb olar.

Camaati-müsəlman! Yad ediniz ki, hökumətin paydar [daimi] olmağına ləşkər lazımdır. Ona binaən [ona görə] o şəxslər ki, əsgərlik vəzifəsindən gərdənkeş olub [boyun qaçırıb] gəlməzlərsə, özlərinə millət yanında böyük eyib gətirərlər və digər [yandan] qanuna müvafiq böyük bir tənbehə [cəzaya] düçar olacaqdır.

*Azərbaycan Hökumətinin*
*Bakı qəza Əxzi-əsgər idarəsi*
*tərəfindən*

## MALİYYƏ NAZİRİNİN QƏTNAMƏSİ

**30 Mart 1919 sənə**

**Azərbaycan Hökuməti tərəfindən buraxılacaq 100 manatlıqlar xüsusunda**

1) İndiyə qədər işlədilməkdə olan pullardan başqa hökumət tərəfindən təsdiq edilmiş şəkildə 100 manatlıq Azərbaycan dövləti pulları buraxılsın.

2) Göstərilən pullar dövlət əmvalı [malları] ilə təmin edilir.

3) Maliyyə nazirinə həvalə olunsun ki, həm[in] pulların işlənməsi qanunu və buraxılması qaydalarını nəşr edib “Azərbaycan” qəzetəsinin qismi-rəsmisində həmin pulun 1919-cu il şəklini təsvir ilə elan etsin.

*Maliyyə naziri*
*vəzifəsini ifa edən:*
*Əliağa Həsənzadə*

## AZƏRBAYCAN CÜMHURİYYƏTİ TƏRƏFİNDƏN BURAXILACAQ 100 MANAT QİYMƏTİNDƏ OLAN PULLARA DAİR QANUN

1) 1919-cu sənədə yeni təsdiq edilmiş 100 manatlıq pulların nümunələrini əhali görərək həman pullar ilə aşina olmaları üçün Cümhuriyyətin bütün xəzinəxanalarında qoyulması lazım olduğu kimi, bütün məhəlli [yerli] istiqraz idarələrində qoyulmalıdır ki, bu növlə bütün əhali həman nümunələri görüb onlarla aşina olsunlar.

2) Azərbaycan Cümhuriyyəti tərəfindən 1919-cu sənəsində buraxılacaq 100 manatlıq pulların əhali arasına Bakı xəzinəsindən 1919 sənədə aprel ayının 10-undan və qeyri xəzinələrdən isə məzkur [deyilən] 100 manatlıq pullardan onlara lazımi miqdarda verildikdən sonra intişar ediləcəkdir [yayılacaqdır].

3) 1919-cu sənə şəklində olan 100 manatlıq pullarını Bakı xəzinəsi ləkəli, əzilmiş, cırılmış, çirklənmiş vəyainki zədələnmiş buraxmamalıdır.

4) 1919-cu sənə şəklində olan zədələnmiş 100 manatlıq pulların dörddən üç hissəsi qalmamış ola vəyainki heç olmazsa nişanı, bir tərəfində nömrə və ya imzası olmaya vəyainki əvvəlki nömrələrdən biri olmamış ola və bir də yeni nömrələrin birisindən bütün nömrə düzəltmək qeyri-mümkün olarsa, alver məqamında qəbul edilməyəcəkdir. Cırılmış və ya parçalanmış yüz manatlıq pullar həmçinin qəbul edilməyir [o halda ki,] parçalanmış hissələr bir-birlərinə tutuşdurulduğu vaxtda nömrələri, nişanları cırılmamış pullar kimi düz gəlməyə vəyainki böylələrini tutuşdurduqda parçaların həman puldan olmadığı aşkar olar.

*Maliyyə naziri:*
*Əliağa Həsənzadə*

## 1919 SƏNƏSİNDƏ BURAXILAN 100 MANATLIQ PULLARIN TƏSVİRİ

Pullar adi ağ kağızda olaraq su nişanı olmadan təb [çap] edilmişdir. Pulun tulu [uzunu] 138 millimetrə və ərzi [eni] isə 89 millimetrədir.

**Üz tərəfi**

Üz tərəfi 1) yazılardan və 2) tor-misal [torşəkilli] nəqşlərdən ibarətdir.

**Yazısı**

Yazısı tünd qəhvəyi rəngdə təb edilmişdir. Biletin yuxarısında 5 millimetrə böyüklüyündə adi hürufla [hərflərlə] "Azərbaycan Hökuməti" yazılmışdır. Həman yazı biletin yuxarı tərəfdə olan haşiyəsinin ortasında xalis, sarı-əlif [sarı-zeytuni] fonunda yerləşdirilmişdir.

İkinci xətt [sətir]: "yüz manat" kəlmələri ilə müdəvvir-misal [dairəşəkilli], biletin ortasında, onun tulunun [uzunluğunun] üçdən bir hissəsini işğal edərək [tutaraq] yerləşdirilmişdir. Həman yazı böyük kəlmələrlə mənquş hürufat [naxışlı hərflər] ilə ki, bunun yuxarı yarısı qırmızı-misal [qırmızıya çalan] qəhvərəngi sayəsilə [kölgəsilə], aşağı hissəsi isə tünd qəhvəyi rənglə icra edilmişdir. Hürufat aşağı və sağ tərəfdən tünd qəhvəyi millərlə çəkilmişdir.

Üçüncü xətt: türk dilində biri-birlərilə müttəsil hürufatdan [birləşmiş hərflərdən] ibarət iki kəlməni təsvir edir: "Azərbaycan Hökuməti". Bu xətt 10 millimetrə ərzində nazik tünd qəhvəyi rənglərlə boyanmış millərin üstündə yazılmışdır. Bu sözlərdən birinin hürufatı tünd qəhvəyi rənglə yazılıb sarı-əlif xətt ilə dövrələnmişdir. O biri kəlmənin hürufatı isə açıq sarı rəngdən əlavə tünd qəhvəyi rənglə dəxi yazılmışdır.

Dördüncü xətt: biletin ortasında ən iri hürufat ilə türkcə "yüz manat" yazılmışdır. Hürufatın rəngi, kağızın əsl rəngi bəyaz olduğu kimi bəyazdır. Hürufat tünd qəhvəyi kontura ilə, aşağıdan və sağdan isə ikişər nazik xətt [ilə] dövrələnmişdir.

Beşinci xətt: "Saxta[sı]nı yapanlar qanunən təqib edilir" kəlmələri tünd qəhvəyi rəngdə kiçik hürufat ilə icra edilmişdir.

Altıncı xətt: "Qanun ilə" kəlməsi hər tərəfdən bir hərf [boyunda] yuxarıdakı xətdən qısadır. O, yuxarıdakı xətdən bir az iri və aralı olaraq yazılmışdır.

Yeddinci xətt: türk dilində yazılmış və beşinci, altıncı xətlərin eyni ilə tərcüməsidir.

4, 5, 6 və 7-ci xətlər açıq sarı rəngli tor nəqşli xalını təsvir edən yerdə yazılmışdır.

Biletin sol tərəfinin aşağı hissəsində sütunlar və xalı arasında sadə yazılmış "yüz" hürufatının üstündə tünd qəhvəyi rənglə iki xətdə yazılmışdır: "Heyəti-Vükəla rəisi" [Nazirlər Kabineti sədri] və bunun altında Heyəti-Vükəla rəisinin imzası.

Bir az aşağı həman hürufatla yazılmışdır: "Maliyyə naziri" və bunun aşağısında Maliyyə nazirinin imzası.

Biletin aşağı hissəsində sağ tərəfdə həman sözlərin tərcüməsi olaraq türk dilində yazılmışdır. "100" dəxi türkcə yazılmışdır.

Biletin haşiyəsi hər iki tərəfdən iki sütunlarla təkyələnmiş [dəstəklənmiş], Şərq üsulunda tağ təsvir edir. Sütunlar tünd qəhvəyi rənglə mənquşdur [naxışlanmışdır]. Haşiyənin yuxarı küncləri mürəbbe [kvadrat] olaraq, içərisində dövrə içində "100" yazılmışdır.

Biletin aşağı tərəfində sütunlarla xalının arasında 4 millimetrə tulunda [uzunluğunda] həndəsə üsulu ilə sınıq xətlərin arasında yeddi dəfə, yuxarıda "manat", aşağıda isə "yüz" yazılmışdır.

Sütunların əsası iki xətlə ayrılır və həman şrift ilə yazılmışdır: "yüz manat".

Biletin mərkəzi yuxarı tərəfdən iki böyük dövrə ilə sıxılmış, xalının yan və aşağı tərəfində dörd ulduzlu nəqşlər vardır. Bu nəqşlərin aşağı tərəfi qırmızı-qəhvəyi rənglə yazılmışdır. Xalının aşağı tərəfində saçaqlar var. Xalının yuxarısı iki tərəfdən yeddi dəfə dışarı çıxmış müdəvvir [girdə] xətləri mühitdir [əhatə edir]. Yuxarı və aşağı tərəfdən açıq sarı rəngli xətlər vardır.

Bu müdəvvir xətt xalının yuxarı guşələrindəki iki dövrələrlə mərbutdur [bağlıdır]. Bu dövrələrin içində qırmızı-qəhvərəngli və aşağı tərəfdən tünd rənglə rənglənmiş sol dövrədə "yüz", sağ tərəfdə isə türkcə "yüz manat" yazılmışdır. Bu dövrələrin aşağı və yuxarı tərəflərində nəqşlər vardır. Böylə ki, aşağıdakı nəqş yuxarıdakından böyükdür. Haşiyə[lənmiş] xalı və əsası açıq sarı rəngli bir-birinə keçirilmiş dövrələrlə yazılmış tor təsvir edir.

**Biletin dal tərəfi**

Biletin dal tərəfi 1) yazı 2) dalğa-misal [dalğaşəkilli] tordan ibarətdir.

**Yazısı**

Yuxarı xətdə "Azərbaycan Hökuməti" tünd qəhvəyi millərin üstündə yazılmışdır. Bu kəlmənin hürufatı [hərfləri] kağızın öz rəngi ilə yazılmışdır. Hürufatın içində bilinməz nazik xətlər vardır.

Bu kəlmələr adi hürufatla yazılıb hər iki tərəfdən nəqşlərlə araya alınmışdır. Haşiyənin mürəbbeləri[ni]n bitişdiyi yerdə səkkizguşəli ulduz əmələ gəlir ki, bunların sağ tərəfindəkində rusca "1919 il" və sol tərəfindəkində türkcə "1335 sənə" yazılmışdır.

İkinci xətdə müdəvvir [girdə] olaraq türkcə "Azərbaycan Hökuməti" yazılmışdır. Bu kəlmələrin hürufatı kağızın adi rəngi ilə yazılıb sağ və aşağı tərəflərdən tünd qəhvəyi rənglə əhatələnmişdir.

Üçüncü xətt: on mürəbbe-misal [kvadratşəkilli] yerdə açıq rəngli "yüz manat" yazılmışdır. Böylə ki, "yüz" mürəbbenin sol küncündə, "manat" isə sağ tərəfdə yazılmışdır. Bu kəlmələrin hürufatı açıq qəhvərənglə yazılıb mərkəzə yavuqlaşdıqca kiçikləşir.

Dördüncü xətt: mürəbbenin aşağı tərəfində sağ və sol guşələrində birər dəfə "yüz" yazılmışdır. Bundan daha aşağı xırda sadə xətlə yazılmışdır: yuxarıda birinci xətdə – "bərabər işlənir", ikinci xətdə əvvəlki xətdən bir qədər uzun və böyük hərflə – "Rusiya dövləti", üçüncü xətdə isə vəsəti [orta] hürufat ilə "kağız pulu ilə" yazılmışdır. Bu kəlmələr üç dəfə nazik millər ilə əhatələnmişdir.

Sağ tərəfdə həman növ ilə və həman sözlər türkcə yazılmışdır: "Rusiya dövlət kağız pulu ilə bərabər işlənir."

Biletin sol tərəfində rəngsiz haşiyə üstündə və aşağısında yazı ilə "yüz manat" yazılmışdır. Biletin sağ tərəfindəki haşiyəsində həmin bu sözlər rusca olaraq yazılmışdır.

Ancaq rusca manat kəlmələri mənquş [naxışlı] hüruf ilə yazılmışdır.

Biletin mərkəzi qırmızı-qəhvəyi rəngli və səkkiz guşəli ulduzu təsvir edən dövrədən ibarət olub, içərisində türkcə "yüz manat" yazılmışdır. Dövrənin ətrafını on altı parçalı özgə bir dövrə əhatə edir ki, hər bir parçasında rusca və türkcə "yüz manat" yazılmışdır. Parçaların dövründə [dövrəsində] isə rusca "rublə" yazılmışdır. Biletin dal tərəfi dalğalı tor misalında rənglərlə boyalanmışdır.

*Maliyyə naziri:*
*Əliağa Həsənzadə*

## KİRİMƏYİRLƏR

Qarabağın general-qubernatorluq şəklinə salınması işi Azərbaycanın daxili işlərindən olaraq bitmiş bir məsələ olduğu halda, erməni partiyaları – daşnaq və qeyri-daşnaq – "Qarabağ məsələsini" həll edilməmiş hesab edib, dedi-qodularına davam edirlər və kirimirlər.

Bu məsələdə erməni partiyalarını yandıran, Azərbaycan hökumətinin Qarabağda general-qubernatorluq təşkili əmrindən artıq, bu əmrin ingilis ali komandanlığı tərəfindən təsdiq və təsvib edilməsi [bəyənilməsi] keyfiyyətidir.

Bunun üzrədir ki, erməni partiyalarının qəzetələri ingilis baş komandanlığını söyüb erməni mənafeyini daim müdafiə edə gəlmiş olan ingilisləri "bivəfa"lıqla ittiham edirlər.

Görünür ki, ermənilər bu zəndə və bu ümiddə imişlər ki, erməni müdafiəsi ilə məşhur olan ingilislər ermənilərin bütün haqq və nahaq tələb və arzularını, başqalarının hüquq və ixtiyaratını tapdalayacaq qədər müdafiə edəcək və ermənilərin "xatirəsi" üçün haqqı nahaqqa verəcəklərmiş.

Erməni partiyaçılarının zənnincə, hər şey ki, ermənilər tərəfindən istənilir, ədalət üzrə ibraz olunan istəkdir və çünki Yevropa ədalətpərəstdir, erməni istəklərini əmələ gətirməyə borcludur.

Lakin görünür ki, Yevropa əhli olan ingilislər ədalətə erməni partiyalarının gözüylə baxmaq və bu təbiri [sözü, ifadəni] yalnız erməni mənafeyini əsas tutaraq təfsir etmək [yozmaq] istəməyib, öz gözləri və öz ağılları ilə iş görməyi səlah [doğru] bilirlər.

Yevropa əhlindən ingilislərdən başqa firənglər dəxi bu axır zaman erməni hirs [hərislik] və tamahına diqqət nəzərini yetirib bu hirs və tamahı azaltmağı vacib bilirlər.

Qarabağın Azərbaycan torpağı olmaq üzrə Azərbaycan general-qubernatoruna tapşırılması əmrinin Qafqaz inglis baş komandanlığı tərəfindən təsdiq və təsvib edilməsini bu məsələnin gələcəkdə bizim mənfəətimizə müvafiq olaraq həll ediləcəyini isbat edən bir əlamət kimi tələqqi etmək [qiymətləndirmək] olar. İngilislər bu məsələdə bizim haqq və erməni iddiaçılarının nahaq olduğunu iqrar etmiş [təsdiqləmiş] olurlar. Şübhəsiz, əgər biz general-qubernatoru Qarabağa deyil, İrəvan uyezdlərinə təyin etmək istəsəydiksə, ingilislər bizim nahaq iş tutmaq istədiyimizi görüb mane olardılar. Amma Qarabağa mane olmadılar. Çünki bu yerin Azərbaycan torpağı olduğu ingilis məhafilində [dairələrində] dəxi müəyyən və müqərrər [təsdiqlənmiş] bir məsələdir.

Qarabağı general-qubernatorluq şəklinə salmaq hökumətimizin məqul [məntiqli] əmrlərindən biri olan kimi, burada general-qubernator olmaq üzrə Xosrov Paşa bəy Sultanov həzrətlərinin təyin edilməsi dəxi eyni dərəcədə müvafiq və yerli-yerində qərar edilmiş bir intixab [seçim]ədd [hesab] edilməlidir. Xosrov Paşa bəy həzrətlərinin Qarabağ üçün ən münasib və müvafiq bir general-qubernator olmasını ingilis baş komandanlığı dəxi iqrar etmişdir ki, bu xüsusda bugünlərdə nəşr etmiş olduqları proklamasyonarında [bəyannamələrində] Xosrov Paşa bəyin əmrlərinə tabe olmağı yerli əhaliyə və baxüsus [xüsusilə] ermənilərə tövsiyə edirlər.

Həqiqət, Xosrov bəy Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşina olan bu zat sağlam bir vücuda malik olan kimi, sağlam və səlamət politika yeridən və təhti-idarəsinə [idarəsi altına] tapşırılmış olan yerin umumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilərin Xosrov bəyi "ermənisevməz" deyə nəzərə verməyi erməni partiyaçılarının bir çox qövlü [sözü] kimi müğayiri-həqiqət [həqiqətə zidd olan] rəylərdən biridir. Xosrov bəy Qarabağın, bilafərqi-millət [millət fərqi qoymadan] hər bir əhlinə bir nəzərlə baxan və ümum Qarabağ əhlinin asayiş və isti-

rahəti üçün bir dərəcədə çalışan ədalət tərəfdarı bir hakimdir. Əlbəttə, əgər erməni cühəlası [cahilləri] erməni partiyaçılarının təhrik və təşviqi ilə bəd-ədalıq [tərbiyəsizlik] edib ölkədə iğtişaş və şuriş [qarışıqlıq, şuluqluq] salmaq istəyəcəklərsə, Xosrov bəy bu kimi ümum Qarabağ əhli üçün zərər və ziyanlı olan hadisələrə qeydsiz baxmayıb, təmini-asayiş üçün əlindən gələn tədbirləri ittixaz edəcəkdir [tədbirləri görəcəkdir]. Buna da əminik, əgər Qarabağda sülh və asayişlə yaşamaq istəyən ermənilərə qarşı müsəlman cühəlası tərəfindən nalayiq hərəkətlər baş versə, Xosrov bəy bu xüsusda da lazımi tədbirlər görüb müqəssirləri cəzalandıracaqdır.

Hər halda Qarabağ ermənilərinin asayiş və istirahətlə yaşaması öz tərzi-hərəkətlərindən asılı bir məsələdir. Məhəlli [yerli] hökumətə tabe olub da öz iş-güclərinə məşğul olarlarsa, rahat yaşarlar, yox, əgər daşnaq və əmsalı təşviqatına uyub da Azərbaycan Hökumətini tanımamaq və qəsdən iğtişaş salmaq istəsələr, o halda yaman güzəran keçirmələrinə səbəb özləri olarlar.

İngilislər Qarabağ general-qubernatorluğunu təsdiq etmədən əvvəl erməni partiyaçılarının çığır-bağırlarına və fitnəamiz [fitnəkar] təhrikatlarına bir məna vermək olardı. Böylə məna ki, ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələndirmək istəyirlər. Lakin indi, yəni bir halda ki, baş komandanlıq pişəzvəqt [qabaqcadan] işdən və general-qubernatorun hərəkəti-müdəbbiranəsindən [tədbirli hərəkətindən] xəbərdar oldu və bu əmri təsdiq etdi, o halda erməni partiyaçılarının bugünkü qışqırığı yersiz və mənasızdır. Bu gündən sonra Qarabağda ermənilər tərəfindən bəd-ədalıqlar baş verərsə, deyil Azərbaycan general-qubernatoru, bəlkə ermənilərin özləri komandanlıq gözündə ləkələnib yaman ad qazanarlar. Bu isə gələcəkdə erməni məsələsi həllinə dəxi sui-təsirlər [mənfi təsirlər] buraxar. Hirs və tamah erməni partiyaçılarının gözünü yummamış olsa, işin bu cəhətini nəzərə alıb da, əvvəl-əvvəl erməni camaatı üçün zərər yetirə bilən fəna hərəkətlərdən əl çəkər və Qarabağ haqqında birkərəlik kiriyərlər.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

*(keçən nömrələrdən mabə'd)*

Qardaşlardan və oğullardan bəhs etdikdə, mən heç vaxt əziz bacılarımızı və qızlarımızı xatirdən çıxarmam. Cahanın birinci gözəllik mövqeyini və rütbəsini tutan əlbəttə qadındır. Qadın aləmi-islam dünyasında, baxüsus [xüsusən] türk aləmində bəzi narəva əhvallardan naşi [rəva görülməyən işlər, haqsızlıqlar səbəbindən] hüquqi-bəşəriyyədən məhrum qılınmışdır.

Əlbəttə, istiqlaliyyətimizi elan etdiyi[miz] gündən, şübhəsiz, qaldırdığımız istiqlaliyyət baydağımızın dəstəsindən qadınlarımız da kişilərlə bərabər bərk yapışmışlardır. Hərgah millətin sağ əlini





kişilər təşkil edirsə, təbii, sol əl qadınlardır. Zahirdə öylə görünür ki, guya bütün zəhməti çəkən sağ əldir və sol əl həqiqət üzrə mənfəətsizdir. Ancaq bu hal böylə deyildir. Sol əlin qədir-qiyməti o vaxt bilinər ki, şikəstlik tapa. Bizim türk xalqımız bu halda sızıldayan sol əl ilə meydana çıxıbdır. Xəstəyə əlac edilməzsə, o zaman ümidində olduğumuz tərəqqiyə çatmaq qeyri-mümkündür.

Mən burada qadın aləmini sol ələ müqayisə eylədikdə, heç vaxt onları rəncidəxatir etmək [xatirlərinə dəymək] qəsdində deyiləm, bəlkə qüvvə və hərəkət münasibətilə sol əldəki zəriflik xasiyyəti olmaq üçündür. Mən qadınların hüquqda tam mənasilə kişilərlə müsavi [bərabər] olması tərəfdarıyam. Ancaq mən arzu edirəm ki, qadınların gözəlliyi həya və ismət pərdəsində həyatımızın bütün cərəyanına belə daxil olub, qabalıqları zərifləşdirməklə həyati-ictimaiyyəmizə hüsn-təsir bəxş etsin.

Mənim şəkkim yoxdur ki, bizim Azərbaycan xanımlarımız gözlərini cahan mərkəzi olan Parisin ancaq "L'Avenyu Pera" küçəsinə tikməyəcəklər ki, orada gündə bir növ yeni moda libas icad olunur və bu xanımların ədəbiyyatı yalnız libas şəkilli jurnallardan ibarət olmayacaqdır. Biləks [əksinə], vətəndaş xanımlarımız ciddi təlim və tərbiyəyə istinad edib millətimizin onlardan gözlədiyi mənfəəti verə biləcəklərdir. Böylə işləmək nəticəsində Azərbaycanın bütün nöqtələri işıqlanmış olacaq və bizim asimanımızda genə vətənimizin şəfəqli ulduzları parıldamağa başlar. Həman ulduzların nurunu çoxdan bəri şimaldan gəlmiş istibdadın qara, qəliz və heybətli buludları almışdı.

Mən yenə keçirəm fövqdə [yuxarıda] zikr etdiyimiz siyasi əhvalımıza. Vətənimizi çulğamış və istibdad sayəsində şiddətlənmiş olan fırtına nəticəsində biz siyasi nəzərdən tam mənasilə qul olduq.

Gəncə xanlığı alınandan sonra Azərbaycanın o biri xanlıqları da bir-bir alındı. Bu əhvaldan sonra millətimiz üçün uzun bir dövrdür ki, təqribən yüz iyirmi sənə qəmginlik, işıqsızlıq və məyusluq bir həyat zamanı davam etdi və bu qədər uzun bir müddətdə millətimiz ağır zəncir altında əsarətdə saxlanıldı. Boyunduruğun cəfasını ancaq o millət anlayar ki, hansının boynunda daima istibdadın ağır zənciri asılmış ola.

İnsan istəyir ki, gözünü yumub millətimizin o qaranlıq aləmindən uçub, özünü 1918-ci sənənin yaz günlərinə yetirsin. Yəni Azərbaycan türklərinin qışın kəsaləti [ölgünlüyü] və şiddətindən qurtarıb da yaz günlərilə bərabər təzə həyata, tərənnümə və diriliyə başlamasına baxsın.

Hər millətin tarixi ya qəmginlikdən, yaxud şadlıq səhifələrindən ibarət olur. Qəmginlik və əsirliyə aid səhifələri vərəqlədikcə, o zaman hürriyyət – o ali müqəddəslik qədri bilinir. Burada xatirimə qəribə Venedikdə (Venesiya) Ədliyyə məhkəməsinin qapısı üstündə yazılmış bir lövhə düşdü ki, rəvayətə görə o lövhədə bu sözlər yazılmış imiş. Ədliyyə məmurları hər dəfə məhkəmə idarəsinə girməkdən əvvəl məcburdurlar ki, qapının astanasında dayanıb bu lövhəni oxusunlar: "Ricordeve del povero Fornaretto". Yəni "Xatirinizə bədbəxt dəyirmançının əhvalını salınız."

Dəyirmançının hekayəsi bu imiş: Dəyirmanının yavuqluğunda gündüz günorta bir nəfəri xəncərlə qətlə yetirirlər. Qatil dəyirmançını görüb xəncərini öldürdüyü adamın sinəsindən çəkib çıxartmağa fürsət tapmayıb qaçır. Dəyirmançı ölən şəxsə rəhmi gəlib xəncərin dəstəsindən tutub çıxartdığı halda bunu qarovullar görürlər. Bu cinayət məhkəməyə istintaqa verilir. Məhkəmənin hakimi dəyirmançının yalvar-yaxarmasına və bilmərrə [əsla] müqəssir olmadığına əsla inanmayıb qətlinə hökm verir. Dəyirmançını qətnaməyə görə boğazdan çəkirlər. Onun asılmasından sonra əsl qatil aşkar olur. Lakin iş-işdən keçmiş və yazıq dəyirmançı məhkəmə qətnaməsinin xətasının günahsız qurbanı düşür. Bizə də peşmançılıq və nədamət üz verməsin deyə qara mərmər daş üzərində iri və qızıl xətt ilə böylə bir şey yazmalıyıq: "Memento servitutem", yəni "Əsirliyi xatirdə saxla."

Bu cürə lövhənin təsiri o şəxslərə faydalı görülər ki, öz şəxsi mənfəətlərini millətin mənafeyindən fövq [uca] tutaraq sədaqətlə millətinə xidmət edənlərin ayaqları altında quyu qazırlar və unudurlar o gözəl və pürməna [mənalı] sözləri: "Salus populi suprema lex", yəni "Millətin mənfəətini gözləmək birinci və müqəddəs vəzifədir." Biz gərək bir-birimizə quyu qazmaq əvəzində təpələr qurmalıyıq ki, onların üstündən səsimizi səsə verib bilümum [hamılıqla] vətənimizin nəfinə [xeyrinə] çalışaq.

Əlbəttə, biz dünənədək ayağımızdakı zəncirin davamını və bugünkü şadlıq həyatımızı xatirəmizdən çıxararsaq, böyük xəyanət etmiş olarız. Əgər doğrudan-doğruya sədaqətlə, dürüstanə və pakizəliklə əlimizdəki hürriyyətin saxlanılması qeydinə səmimanə surətdə qalmaz isək, sizi əmin edirəm ki, hürriyyət genə qanadlarını bir-birinə çalıb əlimizdən uçub gedər. Biz isə yenə təkrar rəzalət içində əsirlikdə qalarız.

19-cu, baxüsus 20-ci əsrlər o əsrlərdir ki, millətimiz onlarda nəhayətsiz və hədsiz müsibətlərə və imtahanlara giriftar olmuşlardır. Burada millətimizin çəkdiyi müsibətlərini izhar etməyə imkanım yoxdur. Ancaq deməliyəm ki, bu qədər millətimizə rəva görülən zülmün baisi Türkiyə və İran ilə həmhüdud olduğumuz olmuşdur. Bura, yəni Azərbaycan ölkəsi bir çox vicdansız və insafsız jandarmalara bir meydan idi ki, bədbəxtliyimizdən və sədaqətimizdən onlar öz məmuriyyət xoşbəxtlik dərəcə və rütbələrini artırırlardı.

Birinci növbətdə bizə verilən əziyyətlərə "İttihadi-islam" [İslam birliyi] baydağı altında ittihad yapmağımız səbəb olmuş, sonra isə bizi "türkpərəstlik"də töhmətləndirdilər. Axırda muxtariyyət – separatizm ünvanı ilə təqsirləndirdilər.

Bu jandarmalara bir imzasız və adsız kağız kifayət edirdi ki, onlar onunla mərkəzdə tufan qoparıb Peterburqa dalı kəsilməz teleqram göndərirdilər ki, onların fəaliyyətləri və huşyarlığı [ayıq-sayıqlığı] nəticəsində hökumətə qarşı bir sui-qəsdin üstünü açmışlardır. Hərgah kimsəyə səhnə qabağında asılmış pərdənin qoparılması imkanı olarsa, o zaman səhnənin içində millətin müqəddəs tutduğu şeylərin zəlil olduğunu görəcəklər. Bealəvə [əlavə olaraq], orada dar ağacı, kündə, zəncir və qamçı görüləcək ki, onlarla günahsızlara sorğu-sualsız əziyyət verməkdə olurlar. Qabaq tərəfdə isə döşlərində parıldayan nişan taxanları, yəni jandarmaların gəzməyi müşahidə olunacaq.





İstibdad öylə bir şəkil almışdı ki, Allaha ediləcək ibadət də jandarmaların nəzarəti altında icra olunurdu. Camaatın ibadətinə xidmət edəcək məscidin tikilməsinə böyük zəhmətdən sonra icazə verilirdi. Xarabaya dönmüş məscidlərin təmirinə para buraxılmayırdı. Bütün Qafqaz müsəlmanlarının baş ruhanisi sayılan şeyxülislama verilən məvacib polisə idarəsinin ən kiçik məmuruna verilən məvaciblə bərabərdi. Bakı Ədliyyə Məhkəməsinin sədri inqilabi-kəbirdən [Böyük inqilabdan] əvvəl idarəsində "Quran"a məxsus qayırılan yerin götür[ül]məyinə əmr edir və "Quran"ı hörmətsiz dərəcəyə qədər məmurların gözü qabağında qoydurur. Rusiyada hüquq şöbəsini qurtarmış müsəlmanlara ədliyyə məhkəmələrinə qanuni vəkil sifətində daxil olmaq ixtiyarı verilməmişdi. Halbuki qeyri millətlərdən bu ixtiyar alınmamışdı. Qeyri hökumət idarələrinə baxanda ədliyyə idarələri əzəllərdə bir növ babat idi. Çünki ədliyyədə oturanların başlarında 1864-cü sənənin gözəl qanunnamələri hifz edilirdi. Fəqət zəmanə gərdişi ilə bərabər o qanunun yavaş-yavaş aradan götürülməsi vaqe olduqca, ədliyyə məmurları da qeyri məmurlar kimi ənam və nişan iştahasına düşdülər. Xırda və ibtidai təhqiqat şöbələrinə gəldikcə, oradakı yarımçılıq tərcümanlar vasitəsilə həll edilən [işlər], amma bununla bərabər, ədliyyə aləmində bugünədək Anatoli Fyodoroviç Koni və sair onun kimi şəxslər görünür, hansılar ki, 1864-cü ilin qanunlarının düzəlməyinə xidmət etmişlərdir.

Rusiyanın Koni və yaxında ölmüş Muromtsev kimi oğullarının hüzurunda yalnız Azərbaycan türkləri deyil, bütün İslam ziyalıları ehtiramla təzim edəcəklərdir. Əfsus ki, Qafqaziya məhkəmələri başında Konilər və Muromtsevlər deyil, Laqodalar kimi mərifətsizlər qoyulmuşlardı. Məhkəmə işləri ticarətə qoyulmuşdu. Şahidlər isə "Quran"a and içib, yalan deyib insaflarını qızıla satırdılar. Məhəlli [yerli] məhkəmə idarələrimizdə öz ana dilimiz işlənməyirdi. Oradakı hakimlər də dilimizi bilməyirdi və bilmək də istəməyirdilər və öz hüquqşünaslarımızdan da məhkəmələrimizdə hakim təyin etməyirdilər. Buna görə məhkəmədəki işlər[i] yarımçılıq tərcümanlar vasitəsi ilə verirdilər və onlardan asılı görüldüyündən bütün idarələrdə hüquqsuzluq və nizamsızlıq görünürdü.

Maarif idarələrinə gəldikdə – ki, bu idarələrə bizim əqidəmizcə maarif adı gərək verilməyəydi, bəlkə zülmətə xidmət edən idarələr adlandırılaydı – türk dilimiz bütün məktəblərdən qovulmuşdu. Rəsmiyyəti gözləmək xəyalı ilə türk balalarına ancaq həftədə bir dərs oxumaq ixtiyarı verilirdi ki, bu dərs də ancaq şagirdlərin yorğun və həvəsdən düşdüyü zamanda təyin olunmuşdu. İnsana qarşı bundan artıq da xəyanət və zülüm olarmı ki, millətin öz ana dilini oxumağına mane olsunlar. Bir millətin birinci və ali neməti və fəxri onun dilidir. Onun dilini əlindən almaq onu öldürmək deməkdir. Öylə ki, məşhur Mikelancelo və Rafael kimi rəssamların çəkdikləri şəkillərin ey-

ni rəngini silmək və onu pozulmuş halda qoymaq kimi əhvaldır. Şəkil və rəsimlərin şübhəsiz gözəlliyini göstərən ancaq onun rəngidir ki, bunun silinməsi ilə yerdə ancaq bez parçası qalar ki, o da zibil zənbilində özünə məkan tapar. Levitski kimi məşhur bədxah, müstəbid müəllimlərin bərəkətindən bizim ziyalı cavanlarımızın ana dili bir parça hərəkətsiz və nitqsiz ətə dönmüşdür. Əgər müsəlman xalqından bir nəfər türk balalarına məxsus milli bir məktəb güşadı [açılması] qəsdində olsaydı, dərhal qəsd etdiyi məramına dair ona lazımi cəza verilirdi və açıqcasına dövlətə xain zənn edilirdi.

Qeyri idarələrə keçdikdə, onların xətti-hərəkətlərini və fəaliyyətlərinin nə qədər fəna olduğunu dərk etməmək üçün yanlarından ötüb keçmək lazım gəlirdi.

Zülümün və hüquqsuzluğun ən şədidi [şiddətlisi] köçəri işləriylə mübaşir [məşğul olan] idarələrdə cəm edilmişdi. Bu idarələrin fəaliyyəti sayəsilə bütün məhsuldar və gözəl yerlərimizi müsəlman əkinçilərin zorla əlindən alı[nı]b Rusiyadan gəlmə xaxollara və sairələrə hədiyyə edilirdi. Təbii, bu da bir biinsaf siyasət idi ki, Azərbaycan türklərinin əlindən atababa yurdunu alıb və gəlmə rəiyyətinə sorğu-sualsız və ədaləti basdalayıb verilsin.

Hərgah bu dediklərim zülümlərin və hüquqsuzluğun üstünə Azərbaycan türk xalqından əsgər aparma[ma]ğı əlavə olunarsa, o zaman bu millətin üstünə qoyulan xərc və vergilərdən savayı, mühafizəsinə də yol verilmədiyi aşkar olar. Müsəlman xalqının bu vəziyyətdə və bu şərait altında gün keçirməklərini görməklə, onların üzərlərində rəva görülməyən cəfa və əziyyətlərin hər vaxtda cari olduğu şübhəsizdir. Azərbaycan türkləri üçün bu əhvalın nə qədər fəna olduğu daha bundan aşkar olur. Müsəlman ilə bərabər bir yerdə yaşayan qeyri millətlərə əsgəri təlim və nizam öyrədilir və müsəlmanlardan isə bu çağa qədər olan bütün var-yox silahları əllərindən alınır. Bu cəhətdən müdafiə və mühafizə günü müsəlmanlar qeyri millətlərin qarşısında namus və qeyrətlərinin qurbanı olurlar. Burada bir dəfə xatirə gətirməliyiz ki, müsəlmanlar əsgəri nizam və məşqi görülmədiyindən 1905-ci, 1914, 1917 və 1918-ci sənələrin qanlı faciələrindən hədsiz və hesabsız xəsarətə, can tələfatına düçar olmuşlardır.

Burada mən Rusiya müstəbid hökumətinin insafsız və rəhmsiz məmurlarının kim olduqlarını bir-bir göstərməyə lüzum görmədim. Çünki onların adlarının qeydi lüzumsuz olmaqla, əgər doğrudan o fikirdə olmuş olsaq, o zaman millətimizin hüququnu paymal edənlərin [tapdalayanların] siyahısını tutmağa böyük və pək də qalın bir təqsirnamə yazmaq vacib idi. Bu da, təbii, bizim işimiz deyildir.

Məəttəəssüf [təəssüf ki], biz Azərbaycan türkləri, üstündən alitəbiətlik, nəcabət və insaniyyət sifətləri əskik olmayan və Lev Tolstoylar və sairələr yetirmiş həqiqi rus millətini içimizdə görməmişik və o milləti ki, Azərbaycan müstəqil dövləti yenə vaxtında beynəlmiləl qayda üzrə onunla ticarət, iqtisad və sair cəhətdən dostanə əlaqə bərpa edəcəkdir. Təbiəti həmişə cahangirlik siyasətinə zidd və müğayir olan və Azərbaycan Cümhuriyyətinə inqilabi-kəbirin doğurduğu doğma bir çocuq kimi baxan və ona ehtiram bəsləyən ruslar bilməlidirlər ki, azərbaycanlılar həmişə onlara məhəbbət və qardaşlıq göstərəcəklərdir.

(yenə var)

*Adil xan Ziyadxan*

## TELEQRAF XƏBƏRLƏRİ

Yekaterinodar – İngilis heyətinin məlumatına görə Dinu mövqifində [stansiyasında] vaqondan çıxmaqda olan məşhur bolşevik Trotskiyə qatarın müşayiətçisi (pravadniki) bir neçə güllə atmışdır. Trotski Petroqrada xəbər vermişdir ki, güllə başından bir santimetrə yuxarı papağından dəymişdir. Trotskini müşayiət edən afserlərdən [zabitlərdən] biri qətl [edilmiş], digəri yaralanmışdır.

Stokholm – Leninin məşhur tərəfdarı və sol sosialist Emil Stanq Rusiya səyahətindən Norveçyaya qayıtmışdır. O özünün Rusiya səyahətindən "sosial-demokrat" qəzetəsinə böylə məlumat verir: Belə ki, özünün bolşevizmaya məhəbbətinə baxmayaraq Stanq Rusiya ticarətinin mükəmmələn [tamamilə] dayandığını bildirmişdir. Rusiyada 100 nəfər əmələdən [fəhlədən] fəqət [sadəcə] 30 nəfəri işləyir. Qalan əmələlər isə kəndlərə dağılıb bolşevik puluna çörək verməyən kəndçilərdən cəbrən [zorla] çörək alırlar. Rusiyada aclıq həddini keçmiş, əhali aclığa görə müflis olmuşdur. Stanq 6 min nəfərin atılmaqla edam edildiklərini təsdiq edir. Bu səyyah deyir ki, Müttəfiqlərin dəniz ablukaları [blokadaları] ancaq Rusiyada bolşevizmin yıxılmasına səbəb olacaqdır.

Cenevrə – Petroqradda olan İsveçrə səfiri Odier Stokholma varid olmuşdur [gəlmişdir]. Qəzetəçilərlə müsahibə edərkən mümaileyh [adı keçən şəxs] demişdir ki, Petroqradda İsveçrə səfarətxanasını [səfirliyini] 9 dövlətin təbəələri mühafizə edir: İngiltərə, Belçika, Hollanda, Lüksemburq, İtaliya, Yunanıstan, Fransa, Yaponiya və Çin. Səfarətxanalar öz qulluqçularının ədədini birə-on artırmağa məcbur olmuşdur. Odierin səyi nəticəsi olaraq nəinki neçə yüz əcnəbiləri, hətta 180 nəfər rusları da ölümdən xilas etmək mümkün olmuşdur. Odier Petroqradın və Moskvanın şimdiki halını qayət fəci [acınacaqlı] bir surətdə təsvir edir.

Şura Hökuməti Odierə məlum eyləmişdir ki, Rusiya, Müttəfiq dövlətlərin hamı şəraitini [bütün şərtlərini] qəbula hazırdır. Bu şərtlə ki, Müttəfiqlər iqtisadi ablukanı [blokadanı] qaldırıb, Rusiya ilə diplomasi əlaqəyə başlasınlar. Şura Hökuməti Rusiyanın ticarətini düzgün bir yola qoymaqdan qətiyyən acizdir.

Odier ilə bərabər Rusiyadan, İtaliyanın Moskvada sakin olan konsulu da qayıtmışdır. O da təsdiq edir ki, Rusiya əhalisinin bolşevizmdən ümidi kəsilmişdir.

Kiyev – Ümumrusiya Fövqəladə İstintaq Komissiyasının binagüzarlığı [sərəncamı] ilə bir çox sol eserləri həbs etmişlərdir.

**Şura Hökumətinin büdcəsi**

1918-ci ildə Şura Rusiyanın büdcəsi 31 milyard xəsarət vermişdir. Belə ki, Rusiyanın 1918-ci ildə 15 milyard mədaxili olduğu halda, 46 milyard zərər olmuşdur. Qırmızı ordunun saxlanmasına 15 milyard pul məsarif edilmişdir.

Melitopol – Bolşevik qoşunları Çonqar və Sivaş körpüsü təriqi [yolu] ilə Krım torpağına varid olmuşlardır [çatmışlar]. Ağ qoşunlar Canköyə ricət etmişlərdir [çəkilmişlər]. Fərarilərin sözlərinə görə, Ağ qvardiyanın arxasında kazaklarla afserlər arasında müsadimə [toqquşma] vaqe olmuşdur.

* Parisdən xəbər verilir ki, Polşa sərhədi rəyi-amm [referendum] ilə təyin ediləcəkdir.

**Polyaklar bolşevizm əleyhinə**

Bolşeviklərlə mübarizədən ötrü polyaklar beş korpus qoşun təşkil etmişlərdir. Bunların ikisi Litva qoşunları ilə birlikdə bolşeviklərlə müharibə edirlər.

**Almaniyanın təzminatı**

Parisdən xəbər verirlər ki, Almaniyanın verəcəyi təzminat 25 milyard hesab olunur. Bu pulu Almaniya nəğd verə bilmədiyindən, Almaniyanın qızıl mövcudatının və əcnəbi dövlətlərdə olan məbləğlərinin göndərilməsi təsəvvür olunur. Harold Koksun hesabına görə, Almaniyanın qızıl mövcudatı 150 milyon, əcnəbi dövlətlərdə olan məbləği isə 500 milyondan ibarətdir.

**Bolşeviklər və Gənc Türklər**

Londondan xəbər verirlər ki "Tayms" qəzetəsinin İstanbul müxbiri "İttihad və tərəqqi" (Gənc türklər) komitəsi ilə bolşeviklərin münasibatı olduğunu xəbər verir.

**Fransada həbslər**

Cenevrədən teleqrafla xəbər verirlər ki, Parisdən verilən məlumata görə, Paris fəhlə birjası sindikalistlərinin başçılarından bir neçə nəfəri həbs edilmişdir. Bu həbslərə səbəb ümumi siyasi tətil gözlənməsi olmuşdur.

**İtaliyanın təzminatı**

Zürixdən xəbər verirlər ki, "Stampa" qəzetəsinin məlumatına görə, İtaliya Mərkəzi dövlətlərdən 6 milyard lirə təzminat tələb etmişdir.

**Cəmiyyəti-Əqvam bayrağı**

Londondan xəbər verirlər ki, Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] bayrağı 3 parçadan ibarət olacaqdır.

Yuxarı, aşağı parçaları ağ, ortadakı isə mavi (göy) rəngdə olacaqdır. Bu bayraq birinci dəfə olaraq mütarikə müahidənaməsi mövcibincə [atəşkəs sazişinə əsasən] Müttəfiq dövlətlərə verilmiş olan düşmən gəmilərində qaldırılacaqdır.

**Vilhelmin oğlunun həbsi**

Berlindən xəbər verirlər ki, Vilhelmin kiçik oğlu Yoaxim, monarxiya hərəkatı qaldırmaq qəsdi ilə spartaklara külli miqdarda pul verməkdə müttəhim edildiyindən, Veymarda həbs edilmişdir.

**Transilvaniyada iğtişaş**

Odessadan xəbər verirlər ki, Transilvaniyada böyük iğtişaş başlanmışdır. 8 min nəfərdən ibarət Romaniya dəstəsi üsyançılar tərəfindən pərakəndə edilmişdir.

**Ukrayna pulları**

Odessadan xəbər verirlər ki, Ukrayna Xalq Komissarları Şurası Ukrayna pullarının məhv edilməsi əmrini vermişdir.

**Yaponiyalıların Sibiryadan çəkilməsi**

İstanbuldan xəbər verirlər ki, 34 min nəfərdən ibarət Sibiryada olan Yaponiya əsgərləri tədriclə Sibiryadan çəkilib getməkdədirlər. Sibiryada asayiş saxlamaqdan ötrü az bir miqdar əsgər saxlanacaqdır.

## SÜLH ƏTRAFINDA

**Çin və Yaponiya**

Parisdən bildirilir: Sülh Konfransında olan Çin vəkilləri qəzetə mühərrirləri ilə müsahibə edərkən demişlər: Çin öz üzərində olan ağırlıqdan azad edilməlidir və Almaniyanın Şantouda olan haqqı ləğv edilməlidir. Yaponiyanın Kiao-Çaoya olan iddiasına və nagəhani [gözlənilməz] bir surətdə 1915-ci ilin ibtidasında [əvvəlində] Yaponiyanın təqdim etdiyi 21 maddəli tələbnaməsinə qarşı protesto eyləmişlərdir. O zaman Çin dövləti Yaponiyanın bu tələbatını qəbula məcbur idi. Zira əks-təqdirdə Yaponiya dava ilə təhdiddə bulunmuşdu. Sonra bəyan etmişlər ki, 1914-1915-ci illərdə Çinin müharibəyə qarışmasına Yaponiya mane oldu və Çinin Müttəfiqlərə olan müavinətini [köməyini] qeyd etmişlərdir. Belə ki, müharibə zamanında Çin əmələləri Müttəfiqlərin fabrikalarında çalışmışlar və Çinin 100 min müsəlləh [silahlı] qoşunları Avropaya getməyə hazır idilər, fəqət nəqliyyat vasitələri olmadığından təxirə düşmüşdü.

Yaponiya nümayəndələri hakəza [habelə] qəzetə müxbirlərini qəbul etmişlərdir. Sayondzi müxbirə bəyan eyləmişdir ki, Yaponiyanın meyli Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfinədir. Yaponiya axirüləmr [nəhayət] insaniyyəti yeni bir dövrdə gördüyündən xoşbəxtdir. Nəhayət, Sayondzi əlavə eyləmiş: Mən ümidvaram ki, Çin Yaponiyanın ədalətli və qanuni tələblərini anlar, nəhayət sülh və müsalimətin [əmin-amanlığın] bərpasına müvəffəq olar.

**Sülh Konfransında ermənilərin tələbatı**

"Tayms" qəzetəsi 1919-cu sənə 27 fevral tarixindəki nömrəsində yazır:

Bu gün Müttəfiq Dövlətlər Şurası Ermənistan Cümhuriyyəti sülh nümayəndələrini istema etdi [dinlədi]. Ermənilər qonşuluqda olan müsəlman vilayətlərini də istəyirlər. Aqaronyan "Tayms" qəzetəsi müxbirinə böylə məlumat vermişdir:

*"Erməni Milli Şurası 1918-ci sənə mayın 27-sində Ermənistan istiqlaliyyətini elan etdi. Sonra erməni Parlamanı dəvət və hökumət təşkil edilib, Milli Şura bütün ixtiyaratını hökumətə vermişdir. Halhazırda Ermənistan Cümhuriyyətinin 60 min mürəbbe kilometrə [kvadrat kilometr] yeri vardır, əhalisi də 2 milyon nüfusdan [nəfərdən] ibarət, qoşunu 30 mindən 40 min nəfərədəkdir. Ermənilər Dünya müharibəsinin birinci günündən Müttəfiqlərə qoşulub türklərin təklifini rədd et-*

*mişlərdir. Ermənistan nümayəndələrinin Sülh Konfransına qəbul edilməmələri Ermənistan əhalisi üçün böyük bir zərbə olardı. Ona görə də mənim hökumətim, mənim təhti-idarəmdə [idarəm altında] olan vəkillərə mühəvvəl etmişlər [tapşırmışlar] ki, bu tələbatı Sülh Konfransına təklif edim:*

*1) Meydani-müharibədə tökülən qanlara müqabil qazanılan Ermənistan istiqlalı təsdiq edilsin.*

*2) Ermənistan Cümhuriyyəti nümayəndələri Sülh Konfransına buraxılsın.*

*O ki, qaldı bizim sair milli tələbatımıza, biz də milli prinsipə istinadən təklif ediriz:*

*1) Ermənistan Cümhuriyyətinə Türkiyənin də erməni ilə məskun olan yerləri mülhəq olmalıdır [birləşdirilməlidir].*

*[2)] Bir də ermənilər dənizə çıxmağa müsaidə istəyirlər."*

## QƏZETƏLƏRDƏN

**Culfa-Təbriz dəmiryolunda**

Culfa-İrəvan dəmiryolunda hərəkat başlanmışdır. Martın 24-ündə Culfadan Təbrizə bir çox sərnişinlərlə birinci qatar varid olmuşdur [gəlmişdir].

- Təbriz ilə Tiflis arasında bu yaxınlarda teleqraf münasibatı [rabitəsi] bərpa ediləcəyi təsəvvür olunur.

**Erməni siyasi nümayəndəsi**

Sarkis Araratyan İran hökuməti nəzdinə Ermənistan siyasi nümayəndəsi təyin edilmişdir.

**Rusiya məsələsi**

Rusiya məsələsi mühüm olduğuna görə, Müəzzəm [Böyük] Dövlət Nümayəndələri Şurası Rusiya məsələsini qəti surətdə həll edib qurtarmayınca, başqa məsələlərlə məşğul olmayacaqdır.

**Rusiya nümayəndələri**

Müəzzəm Dövlət Nümayəndələri Şurası qərar qoymuşdur ki, Parisdə olan rus firqələri nümayəndələri Ümumrusiya Hökuməti üzvləriədd [hesab] edilə bilməzlər. Ona görə Sülh Konfransında iştirak etməyə haqları yoxdur.

## TÜRKİYƏDƏ

**Türk xanımlarının xitabəsi**

İstanbulda nəşr olunan "İləri" qəzetəsi yazır:

*"Avropada hüququmuzu müdafiə məqsədi ilə milliyyətimizin heyəti-ümumiyyəsi haqqındakı yanlış cərəyanların önünə keçiləcək və bu xüsusda rəfiq və şəfiq [şəfqətli, mərhəmətli] və münsif [insaflı] qəlbli fransız nisvanına [qadınlarına] haqqı və həqiqəti bildirmək üçün xanımlarımız tərəfindən yazılan xitabənin düvəli-mötəlifə müməssilləri [Antanta nümayəndələri] vasitəsilə Parisə isal edildiyi [göndərildiyi] xəbər alınmışdır."*

**Yeni mətbuat müdiri**

Yenə həman qəzetənin yazdığına nəzərən, Türkiyədə mətbuat müdirliyinə məşhur şair üstad [Recaizadə] Əkrəm bəyin oğlu Ərcümənd Əkrəm bəy təyin edilmişdir.

**Tələbələrin övdəti**

Vyanada təhsildə bulunan türk tələbə və talibələri [oğlan və qız tələbələri] Hilali-Əhmər [Qırmızı Aypara] mürəxxəsi [nümayəndəsi] doktor Hikmət [Gizer] bəyin təşəbbüsatı ilə bugünlərdə İstanbula övdət edəcəkdir [qayıdacaqdır].

**"Etilaf və Hürriyyət" firqəsi**

İstanbul qəzetələrinin yazdığına görə "İttihad və Tərəqqi" komitəsi süqutundan sonra "Etilaf və Hürriyyət" firqəsi tərəfindən böyük hərəkat və fəaliyyət müşahidə olunmaqdadır. Məzkur [adı çəkilən] firqənin ən ciddi fəaliyyəti fəqət "İttihad-Tərəqqi" firqəsinə mənsub olanları tövqif [həbs] və divani-hərbə [hərbi məhkəməyə] təslim etməkdən ibarətdir. Bugünlərdə həman firqəyə mənsub olan bir çox adamlar tövqif edilmişdir. O cümlədən İsmayıl Haqqı bəy [Canbulat], [Qara] Kamal bəy, Nurəddin Ziya bəy, Yusif bəy, Şükrü əfəndi, Camal bəy və qeyriləri dəxi dərdəst edilmiş [tutulmuş] və divani-hərbi-örfiyə [hərbi məhkəməyə] verilmişdir.

"Etilaf və Hürriyyət" firqəsi ətraf şəhərlər və qəzalarda bir çox şöbələr açmaqdadır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

* Baş Fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, müştərək müqavilənaməyə [kollektiv müqaviləyə] baxan etilaf [uzlaşma] komisyonu iclasında aprelin 9-da fəhlə nümayəndələri aprelin 1-dən məvaciblərin artırılmasını və mənzil pulu və qeyrənin verilməsini tələb etmişdirlər. Bununla bərabər, fəhlə nümayəndələri müəssisə sahiblərindən tələb etmişlər ki, cavab aprelin 12-sinədək verilsin. Vaxtın az olduğunu nəzərə alaraq fəhlə nümayəndələri aprelin 16-sınadək bəkləməyə razı olmuşlar.

* Daxiliyyə Nəzarəti Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Bakıda işbu qayda üzrə mənzil həczi [müsadirəsi] qərara alınmışdır: Mənzillər fəqət [ancaq] hərbi müəssisələr, hökumət dairələri və hökumət əzasından [üzvlərindən] ötrü həcz edilə bilər.

* Gədəbəy zavodu fəhlə komitəsi sədri Mirzə Sadıq Məsai Nəzarətinə teleqrafən məlum etmişdir ki, nazirin qərardadı zavod müdiriyyəti tərəfindən qəbul edilmişdir. Müdiriyyət fəhlə komitəsini tanımaq belə istəmir. Fəhlə komitəsi təcili tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

## QAFQAZİYA KONFRANSI

**Azərbaycan Hökumətinin Ermənistan Cümhuriyyəti nəzdində olan siyasi nümayəndəsi M[əhəmməd] xan Təkinskinin Xariciyyə nazirinə verdiyi nota**

2 aprel 1919, nömrə 21

Ermənistan Cümhuriyyətinin Xariciyyə naziri cənablarına

Azərbaycan Cümhuriyyətinin Xariciyyə naziri Zaqafqaziya cümhuriyyətləri arasında dəmiryol, posta-teleqraf, gömrükxana, maliyyə və mübadileyi-əmval [mal mübadiləsi] məsələləri haqqında saziş və müqavilənamələr əqdi [bağlanması] üçün Gürcüstan Cümhuriyyətinin Xariciyyə nazirinin fevralın 22-sində te-

leqrafla verdiyi təklifi alıb, müzakirə üçün Azərbaycan Cümhuriyyətinin Vükəla Şurasına [Nazirlər Kabinetinə] idxal etmişdir. Azərbaycan Cümhuriyyətinin Vükəla Şurası həman təklifə baxıb təqdir etməklə bərabər, dəvət edilməsi təsəvvür olunan konfransda bu aşağıdakı məsələlərin də müzakirə olunmasını öz tərəfindən lazım görür:

1) Qafqaziya Cümhuriyyətləri Konfransında iştirak edənlərin istiqlaliyyəti mütəqabilən [qarşılıqlı surətdə] təsdiq edilib və bu barədəki bütün dövlətlərə xitabən təntənəli akt elan edilsin.

2) Məzkur [adı çəkilən] cümhuriyyətlərin müdafiəsi üçün Sülh Konfransında hər yerdə lazım olduğu zaman müttəhidülrəy [birgə, yekdil] çıxışda bulun[ul]sun.

3) İstiqlaliyyətimiz üzərinə kimin tərəfindən təcavüz olarsa, onu rəf etməktən [aradan qaldırmaqdan] ötrü müdafiə və tədarükat tədbirləri görülsün.

4) Hamı sərhəd, torpaq və yaxud başqa mübahisəli məsələlərin sazişlə həlli, hərgah saziş hüsula gəlməsə, hakəm [arbitraj] məhkəməsi köməyi ilə olsun.

Bütün cümhuriyyətlərdən ötrü kəskin bir vəziyyət alan qaçqınlar məsələsi nizama salınsın.

Konfransın dəvət ediləcəyi yerə gəldikdə, tutduğu mövqe və Dağıstan Cümhuriyyətindən ötrü də əlverişli olması nöqteyi-nəzərində ən münasib yer Bakı şəhəridir. Hərgah konfransın Bakıda dəvət ediləcəyinə mümaniət [maneə] görünsə, o zaman Azərbaycan Hökuməti konfransın Tiflisdə dəvət edilməsinə razıdır. Konfrans dəvətinin bu il mart ayında təyin edilməsi arzu olunur.

Bununla bərabər, Zaqafqaziya daxilində, Batum və Qars oblastları daxilində "Qafqaziyayi-Cənubi-Qərbi" [Cənub-Qərbi Qafqaziya] adında beşinci bir cümhuriyyət təşkil edilmişdir ki, bunun da mənafeyi Qafqaziya cümhuriyyətləri ilə sıxı bir surətdə əlaqədar olduğundan, siyasi və iqtisadi məramnamədə saziş hüsula gətirməkdən ötrü Azərbaycan Hökuməti məzkur [deyilən] cümhuriyyətin də həman konfransda iştirak etməsini lazım görür.

Azərbaycan Cümhuriyyətinin qətnaməsini sizin hökumətinizə xəbər verib rica edirəm ki, yuxarıda zikr olunan məsələlər haqqında hökumətinizin qərarını və konfransın dəvət edilməsi məkanının və vaxtının təyinini mənə xəbər verəsiniz.

*M[əhəmməd] xan Təkinski*

**Ermənistanın cavab notası**

Azərbaycan Cümhuriyyətinin siyasi nümayəndəsi həzrətlərinə

Zaqafqaziyanın dörd cümhuriyyətlərinin dəvət edilməsi təsəvvür olunan konfransı məramnaməsinə əlavə olmaq haqqında aprelin 2-də 21 nömrəli notanıza cavab olaraq xəbər verirəm ki:

Məzkur cümhuriyyətlərin istiqlaliyyəti nöqteyi-nəzərində durmaqla bərabər, Ermənistan hökuməti Gürcüstan hökumətinə etdiyi kimi, Azərbaycan hökumətinin istiqlaliyyətini öz tərəfindən təsdiq etməyini Azərbaycan hökumətinə xəbər verir. Bu münasibətlə bütün hökumətlər qarşısında təntənəli aktın elan edilməsini Ermənistan hökuməti ancaq Qafqaziya daxilində mövcuda gələn cümhuriyyətlərin sərhəd-torpaq ilə əlaqədar olan məsələlərin[in] mütəqabil [qarşılıqlı] saziş və sülhlə həllindən sonra mümkün və yerli ədd [hesab] edir.

Ermənistan hökuməti böylə təsəvvür edir ki, torpaq məsələlərinin həlli məzkur cümhuriyyətlərin istiqlaliyyətini müttəhidən müdafiə etmək üçün, həmçinin bu istiqlaliyyətləri mümkün olan təhlükələrdən müdafiə etməkdən ötrü müttəhid sazişlə tədbirlər görüldü.

Qaçqınlar məsələsinin nizama salınması bilatərəddüd [tərəddüdsüz] konfrans məramnaməsinə daxil edilməlidir.

Ermənistan hökuməti öz tərəfindən təklif edir ki, təbəiyyət [vətəndaşlıq] şərait və qaydaları və bir cümhuriyyət vətəndaşının digər cümhuriyyət daxilində hüququnun təmin edilməsi konfrans məramnaməsinə daxil edilsin.

Ermənistan hökuməti Qafqaziyayi-Cənubi-Qərbi Cümhuriyyətinin konfransda iştirak etməsinin qəbulunu qeyri-mümkün əd [hesab] edir.

Konfransın dəvət ediləcəyi yerin Tiflis şəhəri olması ən münasibdir. Konfransın dəvət edilməsi vaxtı konfransda iştirak edən hökumətlər arasındakı müxabirədən [xəbərləşmədən] sonra təyin edilə bilər.

*Ermənistan Xariciyyə naziri: Tiqranyan*

## HEYƏTİ-MÜRƏXXƏSƏLƏRİMİZ

Məlum olduğu üzrə, Paris Sülh Konfransına göndərilmiş olan heyəti-mürəxxəsələrimiz [nümayəndə heyətimiz] neçə müddətdən bəri İstanbulda dayanıb qalmışdı. Bunun səbəbləri haqqında da bir çox şayiələr çıxırdı. Heyəti-mürəxxəsəyə daxil olan həzəratdan müdirimiz Ceyhun bəy Hacıbəyli əfəndinin İstanbuldan yazmış olduğu xüsusi bir məktub bu məsələni bir dərəcə anlatmaqda olduğundan, qismən iqtibasla qarelərimizə [oxucularımıza] təqdim ediriz. Ceyhun bəy yazır ki:

*"... Olsun ki, bugünlərdə Parisə gedək. (Məktub çoxdan yazılmışdır.) Hələlik 3 nəfərə izin verirlər getsin. Bu barədə müzakiratda bulunuruq. Türk hökuməti Əhməd [Ağaoğlu] bəyi tutdu. Ona bu vəzifəni tapşırmaq böyük bir xəta idi. Onun səbəbinə fransızlarla ingilislər bizə dəxi fəna nəzərlə baxırlar. Mən fransız qəzetələrində bir qədər təşviqata girişdikdən və fransızlar arasında bir qədər tanış bulduqdan sonra bizə şimdi artıq iltifat edirlər və çalışırlar ki, hamımızı Parisə buraxmağa izin alsınlar."*

**İran heyəti-mürəxxəsəmizin Tehrana vürudu**

"Rə'd" qəzetəsinin məhəlli əxbarat [yerli xəbərlər] qismində yazıldığına görə, İran hökuməti yanına göndərilmiş olan Azərbaycan Cümhuriyyəti heyəti-mürəxxəsəsi İsmayıl xan Ziyadxanov, general şahzadə Hümayun Mirzə Qacar, Bakı konsulxanasının Mühakimat [Ədliyyə] şöbəsi rəisi Həbibulla xan cənablarının müşayiəti ilə cəmadiyəlsaninin 25-də Tehrana varid olub [çatıb] Müqtədir əl-Mülkün bağında iqamət etməkdədir.

## PARLAMAN ƏTRAFINDA

Azərbaycan Məclisi-Məbusanına aşağıdakı teleqraflar gəlmişdir:

Teymurxanşuradan: Azərbaycan ordusunun kəndi paytaxtlarına ilk vürudu [daxil olması] xəbərini aldıqda, Qafqaz Cibaliyyun Müttəfiqlərinin Cümhuriyyəsi [Birləşmiş Dağlılar Respublikası] Şurası mənə Şura və bütün Dağıstan tayfaları ismindən qardaşımız və yeganə müttəfiqimiz olan Azəri türklərinin müməssili [Azəri türklərini təmsil edən] Məclisi-Məbusanı təbrik eyləməsini tapşırmış. Bakı şəhərinə Azərbaycanın müsəlləh [silahlı] qüvvəsi daxil olmaqla, baha qiymətlərlə hasil olmuş yeni müsəlman hökumətinin istiqlaliyyətini mühafiz olub bir daha sabit olması müstərhəmdir [arzu olunur]. Müttəfiqlər şurası əmindir ki, nəcib Azərbaycan milləti irəlidə də daima və hər bir cəhətdə qövlən və feilən əskidə kimi yenidən genə Qafqaz hökumətlərinin hürriyyət və istiqlaliyyət[i] uğrunda qanını tökən Dağıstan tayfaları ilə çiyin-çiyinə gedəcək.

Yaşasın cavan Cümhuriyyənin ümid və dayanacağı olan şanlı Azərbaycan ordusu!

*Müttəfiqlər Şurası sədri naminə:*
*Vassan-Gəray Cabaqi[yev]*

* * *

6 aprel tarixli Ağdaşda olan Ərəş mahalı mitinqi ümidvar olur ki, Müttəfiqlər komandanı öz hökumətlərinə mitinqin zeyldəki [aşağıdakı] xahişini bəyan edər:

Əzim [böyük] Avropa müharibəsi nəticəsi olaraq böyük və kiçik millətlərin sərbəst və istiqlaliyyət üzrə yaşamaq haqları müdafiə ediləcəyi elan edildi. Bunun əksinə olaraq, cahangirlik [imperializm] iddiasında bulunan dəvairin [dairələrin] əskilərdən bəri İstanbul və Boğazları müdafiə üçün mütəmadiyən [daimi] davam etmiş olan müharibələrdən dolayı xurdxaş olmuş Türkiyəni dəhşətli bir surətdə cəzalandırmaq üzrə onun əlindən İstanbul və Boğazları almaq məramı sövq edilir. Türkiyənin müqəddəs hüququ ayaq altına alınmasına qarşı olan suiqəsdə müqabil mitinq protesto izhar edərək əzim dövlətlərin insaniyyətpərvərlik və mərhəmət hissiyyatına uyub, 400 milyonluq bir İslam millətinin başçısı olan Türkiyənin müqəddərat və hüququnu mühafizə üçün tədabir ittixaz edəcəklərinə [tədbirlər görəcəklərinə] ümidvar olur.

*Mitinq sədri: Məhərrəm Asif oğlu*
*Katib: Məhəmmədov*

* * *

Gəncədən – Biz Ağstafa deposu beynəlmiləl usta və fəhlələri həftə bayramı olmaq üzrə cümə günü hesab edilməsini təhti-qərara aldıq.

*Sədr: Kurat*
*Müavini-sədr: Malinko*

**Şəki və Ərəşdən erməni nümayəndəsi**

Şəkidən Erməni Şurayi-Millisi naminə böylə bir teleqraf gəlmişdir:

"Şəki Erməni Şurayi-Millisi müttəhidülqövl [yekdilliklə] Boqdan Balayan[s]ı Şəki və Ərəş uyezdlərinin erməni əhalisi tərəfindən Azərbaycan Parlamanına nümayəndə intixab etmişdir [seçmişdir]. Balayan[s]ın Parlaman əzalığına [üzvlüyünə] təsdiq edilməsi haqqında lazımi binagüzarlıqda bulunmağınızı [lazımi addımları atmağınızı] xahiş edirik.

*Milli Şura Sədri: Tumanyan[s]"*





**KONFRANS**

**Krım nümayəndəsi Ədhəm Feyzi əfəndinin mühazirəsi münasibəti ilə**

**- 3 -**

Bu inqilabın Turan və İslam aləminə faydasımı olacaq, yoxsa zərərimi? İştə, həpimizi düşündürən mühüm bir sual. Bu sual qarşısında mən yenə tərəddüd etməyərək deyəcəyəm ki, bu inqilab Turan və İslam aləminə faydalı, həm çox faydalı olacaq.

Bu hökmü də şu yolda isbat edəcəyəm: Bütün dünyada – nə saxlayalım – kultura (hərs), sivilizasiya (mədəniyyət) cəhəti ilə ən geri qalan biz olduğumuz kimi, qonşuların, bilxassə qeyrilərin o qüvvətli kapitalizminin təhəkkümünə, imperializminin təərrüzünə [hücumuna] ən ziyadə məruz qalan, əzilən də biziz. Bu təhəkküm və təərrüzdən öylə qolay-qolay qurtulammazdıq. Qurtulsaq belə, neçə-neçə sənələr mənən, maddətən yüksəlmək və ən sonra yenə hesabsız qurbanlar vermək, nəhayətsiz qanlar tökmək icab edərdi [lazım gələrdi]. Halbuki şimdi o qolumuzu-qanadımızı sımsıxı bağlayan zəncirlər kəndiliyindən qırılır, boşalırsa, bundan eyi bir şey, bundan böyük bir nemət təsvir oluna bilərmi?

Bu sözləri sizə söylərkən, sosializmin tətbiqində bizim maddi zərərlərimiz olmazmı, deyə bir sual xatirə gəlir. Ümumiyyət etibarı ilə bütün dünyada mənəviyyatda olduğu kimi, maddiyyatda da ən geridə qalan, əzilən biz olduğumuzu söylədim, keçdim. Türklərin, islamların zənginlikcə ən ziyadə gözə çarpanları Bakıdadır. Bu təsadüfi zənginlərimizin sayısını, varlığını böyük, pək böyük bir əksəriyyətlə fəqirlərdən və kəndi əlinin əməyi ilə keçinənlərdən təşəkkül edən 350-400 milyonluq Turan və İslama nisbət edəcək olarsaq, o sayının, o varlığın əhəmiyyətsizliyi əyan-bəyan meydana çıxmazmı? Ondan ötrü bu məsələ bizi heç ürkütməməlidir. Gələcək cəmiyyəti-bəşəriyyət üçün bir səadət olacağı təbşir edilən [müjdələnən] sosializm proqramı tətbiq ediləcək olarsa, şəxslərin zənginliyi cəmiyyəti-bəşəriyyənin ilk təşəkkülündəki kimi ümuma aid olacaq, yəni xalqın əlinə keçəcək. Görülür ki, bu, xalqımızın səadətinə xidmət etmək cəhəti ilə bizim dini məfkurəmizə də təvafüq etmiş [uyğun gəlmiş] olur. Eşitmişsinizdir ki, peyğəmbərdən sonra xəlifələr, səhabələr xalqın səlaməti, islamın səadəti uğrunda olanca varlıqlarını fəda etmişlərdi. İnləyən əsirləri azad etmək, ağlayan yoxsulları, bikəsləri, ök-süzləri güldürmək onların ən mötəna [əhəmiyyətli] şüarlarından biri idi. Şu halda, ondan qorxmaqda, ürkməkdə bir məna yox. "Müsavat" firqəsinin tutduğu yol da bu. Bir fərqi varsa, o da mənim anladığım – tədrici təkamül[ü] proqramına idxal etmiş, bu gün millətinə, xalqına tətbiqi qabil ola biləcək maddələri ortaya sürmüş. Təbiidir ki, ehtiyac göstərdikcə, xalqa doğru daha geniş bir proqramla hərəkət edəcəkdir. Buna heç şübhə etməm.

Şurası əhəmiyyətlə tələqqi edilmə-lidir ki, milliləşmək məsələsi bizim üçün pək mühüm bir məsələdir. Turan və İslamın bulunduğu yerlərdəki bütün zənginliklər, varlıqlar və onlardan alınan vergilərlə dövlət namına yapılan müəssisələr və işlədilən təbii sərvətlər oluşu-duruşuyla öz əllərinə keçəcəkdir. Hər qisim xalq verilən proqramı, təlqin edilən lozunqu [şüarı] qəbul etmək şərti ilə bulunduğu yerin zənginliyini idarə edərək başqa yerlərlə, qitələrlə təklifsiz [maneəsiz], rəsimsiz [vergisiz] əşya mübadiləsinə girişəcək. Bir tərəfin insanları digər tərəfə gedib bir başqa nam ilə təhəkküm, təərrüz etməyəcək. Yol, ideal bu.

Bununla bərabər, bu təbşirləri [şad xəbərləri], bu fərziyyələri biz şimdilik ehtiyatla tələqqi edəlim [qiymətləndirəlim]. Sosializm tətbiqatının mümkün olub-olmadığını bizə zaman göstərəcək. Hər şey kamala təkamül edə-edə gələr. Bu, təbiətin olduğu kimi, sosiologiyanın da bir qanunudur ki, bunun xilafına yürüdülən mühakimələr, yapılan fərziyyələr büsbütün hökmsüz qalar. İqtisadi, ictimai əhvalda öylə incə məsələlər var ki, bugünkü insanın mənəvi inkişaf və tərəqqisi (emansipasiyası) buna kafi gələcəyinə heç ağıl erməyir. İnqilab olacaqdı, oldu. Revolyusionerlərin, anarxistlərin ötədən bəri devirmək, yıxmaq istədikləri o bəxtsiz cəmiyyəti nəhayət devirdilər, yıxdılar. Şimdi sıra o bəxtli cəmiyyəti qurmada. Məsələnin ən müşkül cəhəti də burada. Yapını yıxmaq qolaydır, amma yapmaq gücdür. Bunun bir çox şərtləri vardır. Bu şərtlər də yerinə görə dəyişir. Bu, dəlillərlə sabit ictimai bir həqiqəti-tarixiyyədir ki, inkar etməyə gəlməz.

Almaniyada doğan və fəhlədən başqa orta, yüksək təbəqələrə, hətta darülfünun [univeristet] kürsülərinə qədər yüksələn sosializm nəzəriyyələri Fransada, Belçikada, İtaliyada, Avstriyada, Rusiyada və sair Şərq məmləkətlərində müsaid zəminlər bulduğu, hökmünü sürdüyü halda, İngiltərədə, Amerikada heç müvəffəqiyyət görəmməmişdi. Gördü isə, anqlo-sakson fəhləsində deyil, onlarla bərabər işləyən digər millətlər fəhləsində görmüşdür. Bunun səbəbini də məşhur fransız sosioloqlarından Edmon Demolen təlif etdiyi [yazdığı] "Anqlo-saksonların səbəbi-faiqiyyəti [üstünlüyünün səbəbi] nədir?" nam kitabında pək sərih [açıq] bir surətdə təşrih [şərh, izah] etmiş, demiş:

*"Yer üzündəki nəbatat kimi ictimai vəq'ələrin [hadisələrin] də kəndilərinə məxsus coğrafi yerləri vardır. Onlar hər yerdə eyni tərzdə meydana gəlib bəslənəmməzlər. Bulunduqları mühitin təsirinə qapılacaqları şübhəsizdir. Bu da anqlo-saksonların ictimaiyyət [sosiologiya] nöqteyi-nəzərindən təşəkkülü təşəkküli-infiradi [fərdiyyət zəminində formalaşma]; almanların, fransızların, belçikalıların, italyanların ilaxır [və digərlərinin] təşəkkülü təşəkküli-iştiraki [birgə, kollektiv zəmində formalaşma] olmaqdan irəli gəlir."*

Əvət, bu pək doğrudur. Təşəkküli-infiradiyə mənsub millətlərin kişiləri [fərdləri] təşəbbüsi-şəxsini kəndilərinə adət və sənət edinmişlər. Hər nə olursa, öz gücləri və öz iqtidarları ilə olduğuna inanmışlar. Bu etiqadla da həyata atılmışlar. Alınlarının təri, əllərinin əməyi ilə əldə etdikləri məhsullara, mətalara özgənin iştirak etməsini təbiəti ilə arzu etməmişlər. Onun üçün də Karl Marksın şagirdləri sosialistlər bunların arasında kəndilərinə tərəfdar bulammamışlar.

Halbuki təşəkküli-iştirakiyə mənsub millətlərin kişiləri təşəbbüsi-şəxsini kəndilərinə adət və sənət edinəmməmişlər. Biləks [əksinə], ehtiyaclarının dəfini, diləklərinin qəbulunu cəmiyyətdən, hökumətdən bəkləmişlər. Əvət, onlara arxa vermişlər, qalmışlar. Onun üçün də sosialistlər buralarda haliylə [təbii olaraq] yol almışlar, yürümüşlər. İştə, sosializm proqramının hər tərəfdə mövqeyi-tətbiq bulub-bulammayacağını ehtiyatla tələqqi etdiyim, bu səbəblərdən iləri gəlir. Yoxsa, yoxsa sosializmi bəyənmədiyimdən deyil.

## MƏTBUAT

Rusca "Azərbaycan" qəzetəsi Türkiyənin şimdiki halından bəhs edərkən, "Bütün müsəlman aləmi kamali-diqqətlə Osmanlı hökumətinin başına gələnləri təqib etməkdədir" deyə müsəlmanların hissiyyatına tərcüman olmuş və bu fikrini izah edərək yazmışdır ki:

*"Müsəlman millətlərinin müqəddəratı hər zaman Türkiyə iqtidar və istedadı ilə əlaqədar olmuşdur."*

Daşnaksutyunların "Vperyod" qəzetəsi bundan narazı qalaraq "Panislamistlər" sərlövhəsi ilə bir məqalə yazıb "Azərbaycan"ın yazılarına bir ittihadı-islamçılıq [panislamizm] istinad vermiş və məqalənin məzmununu istədiyi kimi təhrif edərək öylə çıxarmışdır ki, guya "Azərbaycan" deyirmiş ki:

*"İstanbul türklərdən alınar, xəlifə Konyaya köçürülərsə, Başqırdıstan ilə Qırğızıstan tərəqqi edəmməz."*

"Müsavat"ın naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan "İstiqlal" qəzetəsi bu münasibətlə yazdığı baş məqaləsində daşnakların istibdad dövründə müsəlmanların hər hərəkətinə "ittihadi-islam", inqilab vaxtında "kontrrevolyusioner" [əksinqilabçı] adı qoyaraq töhmətləndirməklə min fəlakət çıxardıqlarını, Nikolay dövründə Qars, Ərdəhan və Batum faciələri, hürriyyət zamanında Bakı Mart hadisəsi çıxardıqlarını qeydlə deyir ki:

*"Zaman döndü, başqa vaxtlar gəldi. İndi kəndisinə ilqayi-fikir olunacaq [təsir ediləcək] nafiz [nüfuzlu] və hakim qüvvət nə çarizmdir, nə də bolşevizm.*

*– İngiltərə və Müttəfiqlər komandanlığı!*

*Onun üçün hangi surətlə Qafqaziya türkləri haqqında sui-zənn hasil etmək mümkün isə, bittəb' [təbii olaraq] o vasitəyə müraciət ediləcəkdi. "İttihadi-islam" töhməti hər ehtimala görə yenə mövsümünü bulacaqdı. Məlum a, Müttəfiqlərə qarşı bu fikirdən istifadə olunmuşdu. Onun üçün də təsəvvür etməliydi ki, "panislamizm" töhməti hər halda "kontrrevolyusioner" töhmətindən daha kəskin və daha "faydalı" olacaqdı."*

Sonra türklər haqqında ermənilərin nə fikirdə olduqlarını qeydlə, İstanbul məsələsinə və müsəlmanların əlaqəsinə keçərək yazır ki:

*"Fəqət İstanbul bu gün türk aləminin yalnız xəlifəsi oturan bir yer deyildir. Burası türk ədəbiyyatının, türk fəlsəfəsinin,*

*türk elm və ürfanının ən zəngin və ən mütərəqqi mərkəzidir, mərkəzi-ürfanıdır.*

*Türkləri hər bir haqla malik olduqları və bu mülkiyyətlərinə hər nöqteyi-nəzərdən haqlı olduqları İstanbuldan çıxararlarsa, xəlifə ilə mərbutiyyəti-diniyyələri [dini bağlılıqları] nöqteyi-nəzərindən deyil, türk və islam olan kütlələri ona görə rəncidə, ona görə münfəil edər [həyəcanlandırar, etirazlarına səbəb olar] ki, aləmi-mədəniyyət böyük müharibə və böyük inqilabın elan etmiş olduğu təyini-müqəddərat prinsipini iş Türkiyə ilə aləmi-islama gəlincə, ayaqlar altına salmış olar. Türk düşmənliyi ilə ruhlanmış, Türkiyə ədavətini bir ideal dərəcəsinə çıxarmış daşnaksutyun ruhlu mütəəssib [təəssübkeş] və intiqamcu [intiqam axtaran] bir erməni üçün əlbəttə ki, türklərin İstanbul kimi aləmşümul bir mərkəzdən ayrılıb da Anadolunun hücra [uzaq, tənha] bir guşəsinə qovulması arzu olunar bir vəq'ədir.*

*Fəqət bu arzu olunar vəq'əni heç bir türk-müsəlman ruhu üsyan etmədən təsəvvür edəmməz.*

*O abidati-milliyyəsi [milli abidələri], cəvameyi-şərifəsi [mübarək cameləri], ənənati-islamiyyəsi [İslami adət-ənənələri] ilə hər bir türkün və hər bir müsəlmanın mədəniyyət Kə'bəsini təşkil edən İstanbulu bir azərbaycanlı türkü bərfərz [fərz edək ki] İstanbul aşiqi bir firəng mühərriri Pyer Lotidən daha az bir eşqlə sevə bilməz. Böylə türk və müsəlman bir şəhər, nüfusunun [əhalisinin] əksəriyyəti-qatiəsi [mütləq əksəriyyəti] dəxi türk olduğu halda bilməm hangi mövhum [xəyali] bir haqq üçün başqalarına veriləcək də, buna qarşı üsyan etmək "ittihadi-islam" fikrinin "təcavüzkar" bir təzahürü kimi görüləcəkdir?"*

Nəhayət "İstiqlal"ın bu məsələyə necə baxdığını şərh ilə deyir ki:

*"Azərbaycanla bərabər biz də Türkiyədəki xırda millətlərin təyini-müqəddərat haqqına malik olduqlarını qəbul ediriz. Bu cümlədən ermənilərin dəxi böylə bir haqqa malik olduqlarını hər zaman qəbul etmişiz. Fəqət, bu tələb 2 milyonluq bir millətin qalxıb da 6 milyon nüfusu haiz [əhaliyə malik] olan bir ərazi üzərində təsisi-hakimiyyət etmək fikrinə münqəlib olarsa [çevrilərsə], təbiidir ki, böylə cahangiranə [imperialist] bir iştəhaya qarşı hər bir demokrat kimi, hər bir türk də üsyan edər.*

*Fəqət, daşnaksaqan zehniyyəti bu üsyanı anlamaz. Onun ruhiyyatı kəndisindən başqasının dərdini, hələ türkün faciəsini heç anlamaz.*

*Yeddi vilayət, Kilikiya və Qarabağ Ermənistan olaraq tələb olunur. İki milyon bu qədər erməni, dörd milyon bu qədər türk və müsəlmana hakim olmaq istər. Bu hakimiyyəti o, dünyanın ətrafına dağılmış erməniləri toplayıb da böyük bir Ermənistan təşkil etmək surətilə istərkən, türk kütləsini ikiyə ayırıb da bir xəncər kimi qəlbgahına sapılar. Xəncərlənmək istənən vücud isə əsari-həyat göstərib kəndisini müdafiə istədikdə, onu "panislamizm" töhmətilə qorxudar.*

*Fəqət, beyhudə!*

*Dünya nə qədər ədalətsiz olsa da, daşnaksutyun istədiyi qədər ədalətsiz olammaz. Qaç milyonluq erməninin xatirinə böyük türk millətinin həyati mənfəətləri ayaq altına alınammaz.*





*Avropanı qorxudan panislamizm bütün aləmi təsxir [zəbt] etmək və yaxud aləmşümul bir islam hökuməti vücuda gətirmək kimi xülyalarla yaşayan "panislamizm"dir. Bu fikir xülya olduğu kimi, Avropa üçün böylə bir təhlükə mövcud olduğu təhdidi dəxi xülyadır.*

*Fəqət islam millətlərini tapdatma[ma]q, türk millətlərinin hüququnu çiynətməmək [ayaqlatmamaq] mənasına olan ittihad fikri var – bu fikirdən kimsə qorxmaz. Bununla bilxassə [xüsusilə] daşnaksutyunçuların qorxutmaq istədikləri qüvvətlər qorxmazlar.*

*Türklərin kəndilərini anlamasından və türk səltənəti olan Türkiyənin müqəddəratına laqeyd qalmamasından yalnız öz səadətlərini başqalarının fəlakətindən gözləyənlər və kəndi tələblərini başqasının hesabına quran daşnaksutyun misilli dar fikirli millətçilər, intiqamcu mütəəssiblər qorxarlar.*

*Erməni millətinin müqəddəratını əllərində bulunduran əfəndilər bilməlidirlər ki, bugünkü "müsaid" vəziyyətdən bilistifadə [istifadə edərək] quracaqları hökuməti içində bulunduqları türk mühitinin qəlbini yaralamaq surətilə təqviyə etmək [gücləndirmək] istərlərsə, o zaman bundan böyük fayda görəmməzlər."*

## DOKTOR TAĞI KƏRİMOV

Şuşadan alınan xəbərlər Şuşa ziyalılarının ən fəal, ən möhtərəm bir yoldaşlarının uzun xəstəlikdən sonra vəfat etdiyini anladır. Doktor Kərimovu tanıyanlar, onun bu son il zərfindəki cansipəranə [canla-başla] fəaliyyətindən xəbərdar olanlar bu hadisənin ümum Qarabağ üçün nə qədər böyük bir zıya [itki] olduğunu təqdir edərlər. Doktor hənuz qayət gənc [ikən] tibb fakültəsini Hərbi-ümumi ibtidasına [Dünya müharibəsinin başlanmasına] bir az qalmış Xarkov Darülfünununda [Universitetində] bitirmişdi. Son zamanlar ümum Rusiyanı, ələlxüsus Qafqaziyanı tutan anarşi əsnasında əsla yorulmadan vətəninin asayişi uğrunda çalışdı. Nəhayət, səhhətini qeyb edərək, ailəsini və arxadaşlarını ələmnak edərək [qəmə boğaraq] pək sevdiyi vətəninin qara torpağına əbədi istirahətə getdi. Əvət, Tağı getdi. Onun gələcəyinə böyük ümidlər bəsləyənləri naqabili-tərif [sözlə ifadə edilə bilməyən] bir matəmə düçar etdi. Ümum Şuşa ziyalıları namından hörmətli yoldaşımıza "Allah sənə rəhmət eyləsin" deyib, aileyi-kədərdidəsinə [kədərli ailəsinə] Cənabi-haqqdan təsəlli niyaz eylərəm.

*Əli Yusif*

## BAKI XƏBƏRLƏRİ

**Dağıstan Cümhuriyyətinə müavinət**

"Müsavat" firqəsi tərəfindən Dağıstan Cümhuriyyətinə Denikinin qara qüvvəti ilə eylədiyi hürriyyət müharibəsində kömək eyləmək üzrə könüllü dəstəsi təşkili düşünülməkdədir. Yaxında könüllü dəstəsinə yazılmaq şəraiti [şərtləri] firqə tərəfindən elan olunacaq. Yoldaşlardan könüllü getmək meylində olanların şimdidən firqə İstixbarat [İctimaiyyətlə Əlaqələr] şöbəsinə müraciət edib də kəndilərini yazdırmaları rica olunur.

*"İstiqlal"*

* * *

Şirvanlıların Bakıda sakin olanlarının Məşixət İdarəsi tərəfindən təsdiq olunmuş prixod mollası Molla Səftər Molla Qafarzadə tərəfindən elan edilir ki, şirvanlılar gəlib özlərinin və ailələrinin adlarını və yaşlarını bittamam [əskiksiz, hamılıqla] ümumi dəftərə yazdırsınlar. Ona görə ki, lazım olan vaxtda adlarını indidən ümumi dəftərə yazdırmayan əşxasa [şəxslərə] şəhadətnamə və qeyrə verilməyəcəkdir. Lazım olan vaxtda müşkülata düşəcəklərini nəzərə alaraq tələsməlidirlər.

Məhəlli-iqamətim [sakin olduğum yer]: Bazarnı küçə, Məşhədi Bağı Molla Abbasəli oğlunun dükanında.

*Kamali-ehtiramla:*
*Molla Səftər*
*Molla Qafarzadə*

**Mədən dairələrində gecə kursları**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin mədən dairələrindəki ümum [bütün] şöbələrindən Mərkəzi Komitəyə və Azərbaycan Cümhuriyyəti Maarif nazirinə zeyldəki [aşağıdakı] məzmunda bir ərizə verilmişdir:

"Zeyldə isimləri mühərrər [aşağıda adları yazılmış] məruzəçilər 5 nisan tarixində təşəkkül etmiş müsəlman işçiləri iclasında işçilər üçün gecə məktəbləri açılmaq zimnində [barədə] təşəbbüsatda bulunmaq üzrə intixab edilmişlər [seçilmişlər]. Binaənileyh [ona görə], canibi-alilərinə müraciətən [uca hüzurlarına müraciət edərək], zeyldə göstərilən məntəqələrdə müsəlman işçiləri üçün gecə məktəbləri açılmasına müsaidə buyurmaları rica olunur:

1) Sabunçu dairəsində: [1)] Musa Nağıyev mədəni; 2) Yenə məzkur [deyilən] dairələrdə Moskovski mədəni;

2) Balaxanı dairəsində: 1) Sovet Syezd məktəb binası; 2) Benkendorf mədən evləri;

3) "Kaspi-Çernomor Yoldaşlarının" Ramana dağ üstündə 50 nömrəli mədən evləri;

4) Zabrat dairəsi "Kaspi Yoldaşlarının" mədən evləri;

5) Mədənlər mərkəzi "Bakı Neft Yoldaşlarının" Kokorev adlı 20 nömrəli mədən evləri;

6) Suraxanı Benkendorf mədəni.

Bu xüsusda əmri-aliləri müstədadır [xahiş olunur] əfəndim.

Müstədilər [xahiş edənlər]: Mirzəağa Kərimzadə, Rəhim Cahangirzadə, Həmid Paşazadə, Zülfüqar Məhəmmədzadə, Haşım Cahangirzadə."

**Balaxanıda mühazirə**

Seşənbə [çərşənbə axşamı] günü aprelin 15-ində Balaxanı məktəbi binasında Piri Mürsəlzadə əhvali-hazireyi-siyasiyyə [hazırkı siyasi vəziyyət] mövzusunda mühazirə (leksiya) oxuyacaqdır. Mühazirə axşam saat 3-də başlanacaqdır.

**"Şurayi-İraniyan" cəmiyyəti**

Eşitdiyimizə görə, Bakı və ətrafında yaşayan İran camaatı keçən səhv və xətalarını düşünərək azad bir məmləkətdə öz gələcək və səadətini təmin etmək üçün "Şurayi-İraniyan" [İranlılar Şurası] adında bir cəmiyyət təşkil edəcəkdir. Məzkur [adı çəkilən] cəmiyyətin ümdə məqsədi iranlıların füqəra və möhtaci-müavinət [köməyə möhtac] olub ədəmi-iqtidarlarından [gücləri olmadığı üçün] küçə və bazarlarda dilənçilik edənlərinə yardım etmək və biçiz [yoxsul; kimsəsiz] vəfat edənlərin səriyyən [vaxtında, dərhal] mədfun [dəfn] edilmələrinə var qüvvəsilə çalışmaqdan ibarət olacaqdır. Bugünlərdə məzkur cəmiyyətin heyəti-mütəşəbbisəsi [təşəbbüs heyəti] tərəfindən Bakı və ətrafında yaşayan iranlıların ümumi iclası dəvət və cəmiyyətə heyəti-idarə intixab ediləcəkdir [idarə heyəti seçiləcəkdir].

**Nəzər məscidində**

Nəzər məscidinin əhli 31 martda keçən Mart hadisatından şəhid olan müsəlman qardaşlar üçün təziyə məclisi bərpa edərək, məhəllə əhlinin əksəri fəqir-biçiz [yoxsul] olduğunu nəzərə alaraq, onlardan ötrü ianə toplamağı məsləhət görmüş və 2000 manata qədər ianə və bir qədər də çörək cəm olaraq o saatda məhəllə ruhanisi olan Hacı Şeyx Musa Axundzadə əliylə məsciddə 400-ə qədər fəqirlərə qismət edilmişdir. İanə edən şəxslərdən Məşhədi Əhəd Bağırzadə 200 manat, Məşhədi Ağababa Yəhya oğlu 200 m., Məhəmmədhənifə Bayraməli oğlu 200 m., Hacı Məhəmmədbağır Əbdüləli oğlu 200 m., Qasıməli 200 m., Hacı Mirnağı Mirməhəmmədnəbi oğlu 220 m., Məşhədi Qara Hacı Cəfər oğlu 200 m., Məşhədi Nəzər Soltanəhməd oğlu 100 m., Hacı Səməd Talıb oğlu 100 m., Qafur bənna 50 m., Məşhədi Mirağa Hacı Mircabbar oğlu 100 m., Məşhədi Əli Məhəmmədəlizadə və qeyrilər 100 m., Həsən Balaməhəmmədəli oğlu 200 m., Məşhədi Fəttah Durmuş oğlu 100 m.

**ERMƏNİSTANDA**

**Aclıq**

"Aşxatavor" qəzetəsinin müxbiri aprelin 4-ündə İrəvandan teleqraf edir ki, aclıq əvvəlki kimi hər yerdə hökmfərmadır [hökm sürməkdədir]. Bu aclıq hökumətindən kənarda olanları heç bir şeylə inandırmaq olmur ki, gündə Ermənistanda 1500-2000 adam acından ölür. Ehtiyac böyükdür, müavinət isə yoxdur. Bir tək İrəvanda gündə 29-32 adam ölməkdədir. Mart ayında Ermənistana 320710 put ərzaq şeyləri gətirilmişdirsə də, bir köməyi olmamışdır. Ermənistan əhalisinin 50 faizi (yarısı) qırılıb və qırılacaqdır. Çünki diri qalanlar da ölü namizədlərindən ibarətdir. Gec kömək olsa da onları xilas etməz. İkinci böyük ehtiyac toxumluq taxıldır. Əkin vaxtı keçir. Hərgah böylə olarsa, gələn il də aclıq olacaqdır. Aclığa görə hərc-mərclik geniş bir dairədədir. Ermənistan sərhədləri hər tərəfdən təhlükə içərisindədir. Heç bir şey tapmaq mümkün deyildir. Qoy heç kəs bizim vətənimizin bu faciəli halına şərik olmasın, lakin öz vicdanını sakit etmək xatirəsi üçün bu həqiqətlərə şübhə etməsin.

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

10 yaşında bir çocuğu ziyalı müsəlman külfətinə "pansiyona" vermək istəyirəm. Çocuğa rus dili öyrətmək dəxi xahiş olunur. Xahiş edənlər səhər saat 10-12-yə qədər Telefon ilə xəbər verə bilərlər. Telefon nömrə 21-13.

*8714*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**1919 sənəsində buraxılan**
**100 manatlıq pulların təsviri**

səh. 234. "İkinci xətti": qəzetdə "İkinci tərəfi" getmişdir.

səh. 235. "Sütunların əsası iki xətlə ayrılır və həman şrift ilə yazılmışdır…": "şrift" sözü qəzetdə təhrif edilmişdir.

**Azərbaycan haqqında**
**tarixi, ədəbi və siyasi məlumat**

səh. 240. "dürüstanə": qəzetdə "dostanə" getmişdir.

səh. 241. "1864-cü sənənin gözəl qanunnamələri": II Aleksandr dövrünün islahatları çərçivəsində, 1864-cü ildə zemstvo, yəni yerli özünüidarə qurumları və məhkəmə islahatları həyata keçirilmişdi.

**Teleqraf xəbərləri**

səh. 243. "eserlər": sosialist inqilabçılar.

səh. 244. "sindikalistlər": XX əsrin əvvəllərində fəhlə hərəkatında meydana çıxan sindikalizm cərəyanı nümayəndələri. Sindikalizm cərəyanına görə fəhlələr, sənaye müəssisələri və sahələri konfederasiyalarda yaxud sindikalarda birləşməli idilər.

"Vilhelmin kiçik oğlu Yoaxim…": bu ad qəzetdə təhrif edilmişdir.

"spartaklar": Almaniyada fəaliyyət göstərmiş marksist təşkilat olan Spartak İttifaqının üzvləri. Bu təşkilat ümumdünya proletar inqilabı tərəfdarı idi.

**Sülh ətrafında**

səh. 245. "Şantou" [Shantou]: Çinin cənub-şərqində şəhər dairəsi.

"Kiao-Çao" [Kiautschou]: Çinin şərqindəki Şandun yarımadasının cənub sahilində, 1898-1914-cü illərdə mövcud olmuş Almaniya koloniyası. 1914-cü ildə Yaponiya tərəfindən işğal edilmiş, 1922-ci ildə Çinə qaytarılmışdır.

**Qafqaziya Konfransı**

səh. 249. "Ermənistan hökuməti böylə təsəvvür edir ki, torpaq məsələlərinin həlli məzkur cümhuriyyətlərin istiqlaliyyətini müttəhidən müdafiə etmək üçün, həmçinin bu istiqlaliyyətləri mümkün olan təhlükələrdən müdafiə etməkdən ötrü müttəhid sazişlə tədbirlər görüldü.": Bu cümlə notanın orijinal mətnindən müəyyən qədər anlaşılmaz şəkildə tərcümə edilmişdir; belə olmalıdır: "Ermənistan hökuməti hesab edir ki, həmçinin ərazi məsələlərinin həlli; həm adları çəkilən cümhuriyyətlərin istiqlaliyyətlərinin müdafiəsi üçün birgə hərəkət etməyin, həm də bu istiqlaliyyəti mümkün təhlükələrə qarşı qorumaq barədə birgə tədbirlərə dair hər hansı razılaşmanın ilkin şərti olmalıdır."

**Heyəti-mürəxxəsələrimiz**

səh. 249. "cəmadiyəlsaninin 25-də": burada tarix hicri təqvimlə göstərilmişdir; 25 cəmadiyəlsani (yaxud cəmadiyəlaxir) 1337-ci il miladi təqvimlə 28 mart 1919-cu ilə uyğun gəlir.

**Konfrans**

səh. 251. "hərs": əslində "əkinçilik; torpağı əkib-biçmək" mənasına gələn ərəbcə "hərs" sözü Anadolu türkcəsində "mədəniyyət" mənasında da işlədilmişdir; qəzetdə bu söz təhrif edilmiş şəkildə yazılmışdır.

"…o qüvvətli kapitalizminin təhəkkümünə…": qəzetdə "təhəkkümünə" yerinə "təhkiminə" getmişdir.

səh. 252. "emansipasiya": bir sosiologiya termini olan "emansipasiya" hər növ asılılıqdan qurtulma, mütləq azadlıq mənasına gəlir.

**Bakı xəbərləri**

səh. 256. “Sovet Syezd”: Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayı Şurası.

“Benkendorf”: XIX əsrin axırlarında – XX əsrin əvvəllərində Abşeronda neft hasilatı ilə məşğul olan şirkət nəzərdə tutulur.

“Kaspi-Çernomor Yoldaşları”: Abşeronda fəaliyyət göstərən neft şirkəti.

“Kaspi yoldaşları”: Bakıda və Abşeronda neft istehsalı və ticarəti ilə məşğul olan şirkət.

“Bakı Neft Yoldaşları”: Bakıda XIX əsrin axırlarında qurulan neft istehsalı şirkəti.

“Bu xüsusda əmri-aliləri müstədadır əfəndim.”: “müstədadır” sözü qəzetdə təhrif edilmişdir.





**Çərşənbə, 16 aprel 1919-cu il, nömrə 158**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 15 rəcəbül-mürəccəb sənə 1337. 16 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## QİSMİ-RƏSMİ

**Dövlət Müfəttişliyinə əmrnamə**

Donskoy Darülfünun tələbəsi Ağacəfər Mustafayev Dövlət Müfəttişi İdarəsində xüsusi işlər məmurluğuna təyin edilir.

*Dövlət Müfəttişi vəzifəsini ifa edən:*
*Əliağa Həsənov*

## YENİ KABİNƏ

Həmən iki ay qədər tul [uzun] çəkən ağır və əziyyətli böhran bitdi. Böhranın bu qədər tul çəkməsinin səbəbi – necə ki, keçənlərdə bir kərə dəxi yazmışdıq – Kabinənin müştərək olmaq lüzumu keyfiyyətindən vücuda gələn əngəllər idi. Kabinə düzəlməsi öhdəsinə həvalə edilmiş olan Nəsib bəy həzrətləri koalisyon şəraitini riayəyə məcbur olduğundan, istədiyi adamlardan Kabinə düzəltməyə məşğul olmaq əvəzinə, portfelləri partiya fraksiyaları arasında paylaşdırmaq işinə məşğul idi. İşi çətinə salan dəxi bu paylaşma məsələsi idi. Hər bir paylaşmada hər tərəfi razı salmaq çətin bir əmr [iş] olduğu üçün bu paylaşmada da bir tərəfdən paylaşanların hamısı olmasa da əksəriyyətin razılığı və digər tərəfdən dəxi paylayanın özünün məqsədi hasil olmaq üçün bir bu qədər vaxt əlləşmək lazım gəldi.

Madam ki, paylaşma bitib Kabinə əmələ gəldi, deməli, paylaşanların əksərinin razılığı və paylayanın da məqsəd və arzusu əmələ gəldi. Öylə də oldu. Yeni Kabinəyə – siyasi dildə deyildiyi kimi – Parlaman fraksiyalarının əksəri bəyani-etimad edib razı qaldıqlarını izhar etdilər. Bunlar “Müsavat”, “Əhrar”, Sosialistlər bloku, Əqəliyyəti-milliyyə [Milli azlıqlar] və erməni fraksiyaları idi. “İttihad” sabiq Kabinə elanında olduğu kimi, bu Kabinə elanı bə’dində [sonrasında] dəxi etimadnamə bəyanından çəkindi və yeni təşəkkül etmiş “Bitərəflər” fraksiyası dəxi “İttihad” gedən yol ilə getdi.

Əcəba, partiyalıq əksəriyyətinin etimad və rizasına məzhər [nail] olan bu yeni Kabinə ümuri-dövlətə [dövlət işlərinə] və tərzi-idarəmizə partiya xaricində nəzərlərlə baxan camaatın dəxi rizası və hüsn-rəğbətilə qəbul oluna bilərmi?

Bu suala cavab vermək üçün əvvəlcə görək o nəzər sahiblərinin ki partiya xa-

ricindədirlər, etimad və rizası nə ilə hasil ola bilər.

Partiyalara mənsub olanların etimad və rizası Kabinədə o və ya bu partiya adamlarının miqdarına və portfellərin o tövr və ya bu tövr bölünməyinə bağlı isə, partiya xaricində olan camaatın rəğbət və rizası, əvvəla, Kabinə əzalarından [üzlərindən] hər birinin iqtidarca məşhur və məruflüğuna [tanınmışlığına] və saniyən [ikinci olaraq] Kabinə rəisinin deklarasiyasında elan etdiyi yolların və xətti-hərəkətin kifayət verə bilən dərəcəsinə bağlıdır.

Yeni Kabinəmiz içində öylə əzalar var ki, ümuri-dövlət işində bilümum [ümumiyyətlə] və öhdələrinə götürmüş olduqları Nəzarət [Nazirlik] işlərində bilxüsus [xüsusilə] iqtidar və bacarıqları ilə camaat arasında məruf və məşhurdurlar. Bu əzaların kimlərdən ibarət olduğunu burada sadalamağı, məlum səbəblərə görə, namünasib bilməklə bərabər, hərbiyyə işlərimizi təkrar öhdəsinə götürmüş olan general Səməd bəy [Mehmandarov] həzrətlərinin dövlətimizin istinadgahı olan ordumuzun təşkil və tənzimi ilə camaat arasında layiqli şöhrət qazanmış olan adını xüsusi surətdə zikr etməyi özümüzə caiz bilirik.

Daxiliyyə Nəzarəti kimi mühüm və böyük bir Nəzarətin dəxi Kabinə rəisi olmaq münasibətilə keçənlərdə haqqında xüsusi bir məqalə yazmış olduğumuz Nəsib bəy həzrətlərinin yədi-idarəsinə [idarəsinə, əlinə] keçməsi də camaatı kifayətləndirəcək və rizasını mövcib olacaq [razılığına səbəb olacaq] əhvallardandır.

Bununla belə, yeni Kabinəmiz içində ümuri-dövlət işində iqtidar və bacarıqları hələ camaatca bəlli olmayanlar dəxi vardır. İştə, bu yeni nazirlərimizin dövlət və məmləkət mənafeyi yolunda sərf ediləcək səylərindən "gələcək göstərər" deməyib də, bu gün bir təsəlli olmaq üçün bu nazirlərin xətti-hərəkəti müxtəsər də olmuş olsa cızılmış olan deklarasyona müraciət etməlidir [edilməlidir].

Deklarasyon denilən hökumət bəyannaməsi, ümum Kabinənin nə yolda işləyəcəyini bildirən ümumi bir proqramdır. Dünən Parlaman kürsüsündən eşitdiyimiz bu proqram, ümuri-idareyi-dövlət [dövlət idarəçiliyi işləri] üçün lazım olan bugünkü yolları ümumiyyətlə göstərmək və istiqlalımızı hər gunə [hər cür] təcavüzatdan qorumaq vədindən əlavə, bu gün bizi xüsusi surətdə maraqlandıran Lənkəran məsələsi ilə dövlətlilərin əsgərliyə ciddiyətlə cəlb edilməsi fəqərəsini [məsələsini] dəxi tezliklə həll edəcək deyə məxsusən xatırlaması hər kəsi qənaətləndirəcək dərəcə müvafiqi-məramdır [məqsədəuyğundur]. Bəyannamədən bəhs edərkən bunu da burada zikr etməyi lazım bildik ki, bəyannamədə Lənkəran məsələsi keçdikdən sonra, Parlamanda "Bəs Qarabağ məsələsi?" deyə nida və sədalar qalxdığını kamali-təəccüblə eşitdik və bu səslərin, deyil erməni məbusları tərəfindən, bəlkə müsəlmanlardan olan bitərəflər tərəfindən gəldiyini anlayıb heyran [heyrətdə] qaldıq.

Qarabağ məsələsi, Azərbaycan dövləti nöqteyi-nəzərincə həll edilmiş bir məsələdir. Bizcə daha bu xüsusda bir məsələ ola bilməz. Gəncə məsələsi, Bakı





məsələsi olmadığı kimi, Qarabağ məsələsi də yoxdur. Olmayan halda nədən ötrü bu məsələ bəyannaməyə salınmalı idi ki, bunu bitərəflər tələb edirdirlər?

* * *

Məmləkətində əksəriyyət təşkil edən Azərbaycan türk və islamlığı nöqteyi-nəzərincə dəxi on nəfəri türk və iki nəfəri xarici olan Kabinənin surəti-heyəti qənaətbəxş bir dərəcədədir. Üç Müsavat, iki sosialist, bir Əhrar, dörd partiyasız, iki erməni və bir rusdan təşəkkül etmiş olan Kabinəmizdə daşnak firqəsinə mənsub Azərbaycan naziri olması bizi heç də təşvişə salmaz. Biz bu yol ilə əvvəla haqq və ədalət tərəfdarı olmağımızı və saniyən [ikincisi], erməni milləti ilə türk milləti arasında olan bəzi etimadsızlıqları bərtərəf etmək [aradan qaldırmaq] və bu iki milləti biri-birinə isinişdirmək lüzumunu, hər iki millətin mənfəəti olduğu üçün mülahizəyə alıb da bu işi ümum aləm qabağında şərəf və heysiyyətimizi artıran bir əməl hesab edirik.

Fəqət daşnak və ümum erməni nazirlərimizdən də bizim böyük umacağımız və tələblərimiz vardır ki, bunlardan ən ümdəsi etibarımıza layiq olmaq və bunda baqi [daimi] qalmaqdır. Eyni umacaq və tələbimiz dəxi rus nazirindəndir. Ümidvarıq ki, yeni rus nazirimiz, keçən Kabinəyə daxil olan Protasov məsləkli olmayıb da, Azərbaycan istiqlalına sadiq bir nazir olaraq bizi sevindirəcək və etimadımızı həm özünə, həm də ümum [bütün] Azərbaycan ruslarına qarşı bərkidəcəkdir.

Ən böyük ümidimiz, əlbəttə, yeni Rəisi-vükəla [Baş nazir] olan Nəsib bəy həzrətlərinin dövlət və məmləkətimiz mənafeyi yolunda göstərəcək olduğu səbat və mətanətinə bağlıdır. Buna əmin olub da bu mühüm işdə müvəffəqiyyətlərini diləriк.

*Hacıbəyli Üzeyir*

**YENİ KABİNƏ ƏZALARI [ÜZVLƏRİ]**

Baş vəzir və Daxiliyyə naziri – Nəsib bəy Yusifbəyli (Müsavat)

Xariciyyə naziri – Məhəmmədyusif Cəfərov (partiyasız)

Hərbiyyə naziri – General Səməd bəy Mehmandarov (partiyasız)

Ədliyyə və Məsai [Əmək] naziri – Aslan bəy Səfikürdlü (sosialist)

Maliyyə naziri – Əliağa Həsənov (partiyasız)

Ticarət və Sənaət [Sənaye] naziri – Ağa Əminov (Müsavat)

Ziraət [Əkinçilik] naziri – Aslan bəy Qardaşov (Əhrar)

Posta-Teleqraf naziri – Camo bəy Hacınski (sosialist)

Dövlət müfəttişi – Nəriman bəy Nərimanbəyov (Müsavat)

Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri – Viktor Klenevski (Rus-Slav)

Səhhəti-Ümumiyyə [Xalq Səhiyyəsi] naziri – Dastakov (Erməni Milli Komitəsi)

Portfelsiz nazir – Xoren Amaspur (Daşnak)

Maarif və Ədyan [Dinlər] Nəzarəti – Münhəll [boş]

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*14 nisan iclası*

İclas doktor [Həsən bəy] Ağayevin sədarətilə saat 12-də açılaraq yeni Rəisivükəlanın [Baş nazirin] təzə Kabinə təşkili haqqındakı məktubu oxunur. Bədəhu [sonra] növbədəki məsələlərin müzakirəsinə keçilərək, saat 3 radələrində, gec olduğu üçün, saat 6-yadək tənəffüs elan edilir. Tənəffüsdən sonra iclas saat 7-dən də bir qədər keçmiş açılaraq söz yeni Kabinə rəisi Yusifbəyli Nəsib bəy həzrətlərinə verilir.

**Yusifbəyli** (Mərkəzdən və soldan şiddətli alqışlar içərisində kürsüyi-xitabətə çıxaraq şu nitqi irad edir [nitqi söyləyir]) – Möhtərəm məbuslar!

Əmrinizlə təşkil etdiyim hökumət, üzərinə nə qədər ağır və nə qədər böyük bir məsuliyyət almış olduğunu anlayır. Doğrudur, Azərbaycan milləti istiqlaliyyətini elan etdiyi bu az bir zamanda yar və əğyar [dost və düşmən] nəzərində müstəqil olmağa layiq bulunduğunu göstərdiyindən, bugünkü hal və mövqeyimiz iki ay əvvəlinkindən daha mətin və daha sağlamdır. Əvət, 10 aydan bəri bir əmri-vaqe [fakt] olan müstəqil Azərbaycan bu gün düvəli-müəzzəmə [böyük dövlətlər] tərəfindən dəxi hüsn-qəbul ərəfəsində bulunduğuna və Azərbaycan türklərinin yaxın bir zamanda dünyanın bilcümlə mədəni millətləri ailəsinə daxil olacağına ümidimiz qəvidir [möhkəmdir]. *(Mərkəzdən alqış)*

Bu böylə olacaq idi. Çünki Azərbaycan türkləri yekvücud olaraq erkək [kişi], qadın, gənc, ixtiyar, fəqir və zəngin, fəhlə və rəncbər, "Müsavat", "Əhrar", "Sosialist", "İttihad", xülasə bütün millət tənivahid [vahid bir bədən] kimi istiqlaliyyətimizi mühafizə etməyə yəmin etmişdir. *(Mərkəzdən və soldan alqış)*

Çünki millətin şu əzminə bilavasitə şahid olan böyük və demokratik İngiltərə komanda heyətinin aldığı təəssüratı qərəzsiz, mübaliğəsiz Parisdə iniqad edən məhkəmeyi-kübraya ərz edəcəyi şübhəsizdir. Əvət, əfəndilər, bunlar həp doğrudur.

Məmafih [bununla belə], bu gün qarşımızda istiqlalımızla bərabər, tamamiyyəti-mülkiyyəmizi [ərazi bütövlüyümüzü] təmin etmək üçün həlli bəklənilən bir çox məsələlər vardır. Hökumət bir an əvvəl məzkur [deyilən] məsələlərlə məşğul olmağı kəndisi üçün ən mühüm və müqəddəs vəzifələrdən ədd [hesab] edir.

Məlumunuzdur ki, Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzası hələ yabançılar əlindədir. Yüz minə qədər vətəndaşlarımızın həyatlarına, irz və namuslarına təərrüz [təcavüz] edilir. Azərbaycanın Tiflis və İrəvan vilayətlərində bulunan hissələrinə göz dikənlər dəxi vardır.

İştə, bu məsələləri həll etmək, həm də son imkana qədər sülhən [sülhlə] həll etmək, hökumətin ümdə və əsas vəzifələrindəndir. *(Sağdan: Qarabağ! Qarabağ!)* Hökumət inanmaq istəyir ki, Azərbaycanın bu haqqi-sərihi [açıq-aşkar, mübahisəsiz haqqı] bugünlərdə Tiflisdə iniqad edəcək [toplanacaq] konfransda dəxi qomşularımız tərəfindən təslim və qəbul olunacaqdır. Çünki biz biliriz ki, bizim kimi, qomşularımız dəxi bizimlə sülhlə yaşamaq istəyirlər. Mavərayi-Qafqazda [Zaqafqaziyada] təşəkkül etmiş cümhuriyyətlərin istiqbalı [gələcəyi] işbu cümhuriyyətlər arasında sülh və səlahın [əmin-amanlığın] davamına bağlıdır. Bu isə hər kəsin haqqı kəndisinə verilməklə mümkündür.

Qomşulardan bəhs edərkən bir-iki söz Dağıstan Cümhuriyyəti xüsusunda ərz etmək istərdim.

Əfəndilər! Dağlılar İttifaqı Cümhuriyyəti ilə bizim aramızda ixtilaf deyil, heç bir gunə [heç bir cür] ayrılıq-qeyrilik belə təsəvvür oluna bilməz. Şimali Qafqaz azərbaycanlıların vətəni, Azərbaycan şimali qafqazlı dindaşlarımızın yurdu, ocağı məsabəsindədir [yerindədir]. Məlumi-alilərinizdir, Denikinin orduları Şimali Qafqazın üzərinə hücum edərək cəsur və şücaətli dindaşlarımızın qarlı dağlarını al qanlara boyayıb, onları və onlarla bərabər bizləri yenidən təhtiəsarətə [əsarət altına] almaq fikrindədirlər. Halbuki bu işin o qədər qolay olmadığını Qafqaz qartalları şu günlərdə o qasiblərə [qəsbkarlara] qanlı dərslər verməklə isbat edirlər. Şu arslan mücahid qardaşlarımız bilməlidirlər ki, hər zaman biz onlarla bərabəriz.

Möhtərəm əfəndilər! Digər qomşularımızla dəxi şimdiyə qədər olduğu kimi sülh və müsalimətlə [asayişlə] yaşayacağız. Sevgili Azərbaycanımızın şan və heysiyyətini mühafizə etməklə bərabər, hökumət, qomşular arasında zühur edən cümlə məsələlərin sülhlə həll edilməsi tərəfdarıdır. Bunu biz böylə bilir və qomşularımızın dəxi böylə düşünəcəklərinə şübhə etmiriz. Təbii, bu sülh və səlahın başqa şəraiti [şərtləri] dəxi vardır. O da əqəliyyətdə [azlıqda] qalan millətlərin haqqını tanımaqdır. Zülüm və istibdad altında yaşayıb da "inarodes" namı təhtində [altında] bir əsrdən bəri maddətən və mənən bir çox təzyiqlərə məruz qalan Azərbaycan türkləri Azərbaycan daxilində bulunan bütün vətəndaşlarına bir gözlə baxmaqla, hər kəsin kəndi dilində yazıb-oxumasına, kəndi dilini və kəndi milliyyətini mühafizə etməsinə müsaidə etməzsə, tarixi bir səhv yapmış olar. Onun üçün hökumət, sevgili Azərbaycanımızın cümlə vətəndaşlarımız üçün həqiqi bir vətən olmasına çalışacaqdır.

Böyük dünya yanğınının doğurduğu anarşinin nəticəsi olaraq zühur edən buğz [kin] və ədavətin önünü almağa və təkrar yenə meydan verməməyə səy və iqdam ilə [çalışmaqla], hökumət bu kimi milli xüsumət və təərrüzlərə [düşmənçilik və təcavüzlərə] heç bir vəchlə yol verməyəcəkdir.

Burada torpaq məsələsindən, əmələ məsələsindən uzun-uzadıya bəhsə lüzum görməyirəm. Çünki rəncbərə torpaq, fəhləyə iş məbusan əksəriyyətinin [Parlament üzvlərinin əksəriyyətinin] şüarı olduğundan, təbii, hökumətin dəxi şüarı olacaqdır.

Torpaq məsələsini qəti surətdə həll etmək, təbii, milləti behəqq [layiqiylə] təmsil edəcək Məclisi-Müəssisan haqqıdır. Bu xüsusda bugünkü hökumətin üzərinə ancaq bir vəzifə tərəttüb edir [düşür]. O da məsələni ətraflı hazırlamaq, torpaq işlərinə dair bütün vəsaiqi [sənədləri] cəm və təlif etmək [toplamaq və tərtib etmək] və bu surətlə Məclisi-Müəssisanın heyni-iniqadında [açılışı vax-

tında] şu ağır və mühüm məsələnin qolaylıqla həll edilməsinə müavinətdə bulunmaqdan ibarətdir.

Bununla bərabər, gərək torpaq və gərək əmələ məsələsində bir ixtilaf zühur edərsə, hökumət hər zaman zəhmətkeşlərin hüququnu müdafiə edərək onların tərəfində bulunacağını vəd eylər. *(Mərkəzdən və soldan alqış)*

Hökumət əmələnin haqqi-səyini [zəhmətinin haqqını] müdafiə və kəndisini sığorta üçün qanunlar hazırlayacaq.

Məbus əfəndilər! Hürriyyəti-kəlam, hürriyyəti-mətbuat, hürriyyəti-ictima [söz azaldığı, mətbuat azaldığı, toplaşma azadlığı] mədəni və demokratik bir dövlət təşkilinin şəraiti-əsliyyəsindədir [əsas şərtlərindəndir]. Bu xüsusda zənn edərəm hər kəsdən biz irəli getdik. Azərbaycanda görülən şu hürriyyətlər dünyanın heç bir tərəfində mövcud deyildir. Hökumət, təbii, müqəddəs olan bu hürriyyətləri mühafizə edəcəkdir. Hər kəs nə yazarsa yazsın, hər kəs nə istərsə söyləsin, nerədə ictima edərsə etsin. Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül ediləmməz [dözülə bilməz]. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir. *(Ümumi sürəkli alqış)*

Şu istiqlaliyyəti, millətin şu müqəddəs və məşru [qanuni] haqqını təhqir etdirməməyə, şu ülvi hissiyyatına toxundurmamağa hökumət var qüvvəsi ilə çalışacaqdır. *(Mərkəzdən, soldan alqış)*

Bu məsainin [çalışmanın] məcrayi-təbiisində [öz təbii axarında] və bir intizam daxilində cərəyanı üçün hökumət yaxın vaxtlarda müəyyən bir qanun layihəsi tərtibi ilə təsvib [bəyənmə] və təsdiqinizə təqdim edəcəkdir və böyləliklə şu müqəddəs hürriyyətlərdən sui-istemal [sui-istifadə] edənlər məmurların deyil, ədliyyə məhkəmələrinin adilanə və qanuni qərarlarına tabe tutulacaqlardır.

Əfəndilər! Bu hürriyyətlərin ən müqəddəsi məlumi-alilərinizdir ki, hürriyyəti-vicdani-şəxsiyyə və məsuniyyəti-beytiyyədir [mülkiyyət toxunulmazlığı hüququdur]. Təbii, əqidə və vicdana aid məsələlər üçün demokratik cümhuriyyətimizdə kimsə təqib ediləmməz. Burada diqqətə şayan [diqqətəlayiq] bir cəhət vardır ki, o da bütün Cümhuriyyət daxilində məzkur [deyilən] hürriyyətləri anlayaraq mühafizə edə biləcək zəbtiyyə [asayiş] və polis məmurları bulunmasıdır.

Hökumət bu dəvairə [dairələrə, idarələrə] millətin münəvvər [ziyalı] fikirlərini dəvət etməyə təşəbbüs edəcəkdir. Hərgah bu xüsusdakı dəvət qəbul edilməzsə və bu dairələr ləyaqətli əllərə tövdi olunmazsa [tapşırılmazsa], millət əfradı [fərdləri] bu yolda yapılan qanunsuzluqlardan, haqsızlıqlardan xilas olammaz.

Hökumət bu babda [bu barədə] əlindən gələni əsirgəməyəcəkdir. Məmafih [bununla belə], bu xəstəliyin önünü almaq üçün hökumət başqa çarələrə dəxi təvəssül [müraciət] edəcəkdir.

Məlumi-alilərinizdir ki, hər hangi bir sui-istemalın [sui-istifadənin] önünü almaq üçün ən qəti və yeganə çarə onu doğuran səbəbləri izalə etməkdən [aradan qaldırmaqdan] ibarətdir. Bunun böylə olduğunu isbata hacət belə yoxdur. Binaənileyh [ona görə], hökumət hər xüsusda və bilxassə ümuri-daxiliyyədə [xüsusilə daxili işlərdə] ilk öncə mövcud əsbabın [səbəblərin] izaləsi fikrinə çalışacaqdır. Şöylə ki, bir an əvvəl zemstvo





idarələrini [yerli özünüidarə qurumlarını] vücuda gətirmək və bu vasitə ilə cümlə məmurları hökumətin nəzarət və tərəssüdündən [diqqətli baxışından] maəda [əlavə], əhalinin dəxi müraqibəsi [nəzərdiqqəti] altına almaq. İştə bunun üçün zemstvo idarələrini sürəti-mümkünə ilə [mümkün qədər sürətlə] meydana gətirməyə hökumət təşəbbüs və mövcud şəhər idarələrini həyata dəvət edəcəkdir. Və bununla bərabər, hökumət məmləkətin təqsimati-idarəsini [inzibati bölgüsünü] dəyişdirməyə müsaidənizlə iqdam edəcəkdir [başlayacaq, təşəbbüs edəcək].

Təbii, sui-istemalatla mübarizənin başqa çarələri dəxi vardır.

Ən müəssir [təsirli] çarələrdən biri də cinayət işləyənləri qanunən təqiblə, canilərə, hər kim olursa-olsun, cəzayi-səzasını [layiqli cəzasını] verməkdir. Hökumət bu xüsusda üzərinə düşən vəzifəni ifa edəcəkdir.

Bu cəzalar dəxi, əlbəttə, ədalət və həqqaniyyətə istinad edilməli və hər dürlü səhv və qərəzdən bəri [uzaq] bulundurulmalıdır. Bunun üçün də ədliyyə məhkəmələri əhaliyə daha yaxın və milli bir ruhda olmalıdır. Bu xüsusda dəxi hökumət bir yenilik, bir əsəri-təcəddüd [yeniləşmə əsəri] göstərməyə və tez bir zamanda müməyyiz [yaxşını pisdən seçən] hakimlərin ədliyyə məhkəmələrinə cəlbinə çalışacaqdır.

Möhtərəm əfəndilər! Hökumət bütün səyini bir an əvvəl Məclisi-Müəssisan toplamağa həsr edəcəkdir. Bunun üçün komisyonca qəbul edilmiş olan intixabat layiheyi-qanuniyyəsinin [seçki qanunu layihəsinin] tezliklə Məclisdən keçirilməsini arzu ediriz.

Möhtərəm məbuslar! Məlumunuzdur, istiqlalımız, istiqbalımız [gələcəyimiz] həp maarifə bağlıdır. Əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə, bizim üçün fəlah [qurtuluş] və nicat ümidi qalmaz. Hökumət bunu bilir. Bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlamağa və işbu eylüldən [sentyabrdan] etibarən mütəəddid [çoxsaylı] ibtidai məktəblər açmağa təşəbbüs edəcəkdir. Sənaye məktəblərinə ayrıca diqqət edəcəkdir. Mövcud edadilərdən bir qismi tədricən milliləşdiriləcək, digər qismi isə qeyri-müslim çocuqlar üçün rus lisanında ibqa ediləcəkdir [davam etdiriləcəkdir]. Hər millətin kəndi lisanında oxumasına heç bir mane olmadığından, onların çocuqları üçün hökumət hesabına məktəblər açılacaqdır. Edadi məktəblər bulunmayan məhəllərdə [yerlərdə] yenilərini açmağa müsariət ediləcəkdir [tələsiləcəkdir].

Müəllimlərə olan ehtiyacımızı rəf [aradan qaldırmaq] üçün kafi miqdarda darülmüəlliminlər [pedaqoji məktəblər] açmaqla bərabər, xaricdən dəxi müəllimlər dəvət etməyə hökumət çalışacaqdır.

Dərs kitablarımız dəxi azdır. Maarif Nəzarəti bunun çarəsini düşünəcəkdir. Şimdidən mütəəddid komisyonlar təşkil edilmişdir. Bir taqım kitab intixab [seçilmiş] və tərtib edilmişdir. Bunların təb'inə [nəşrinə] müstəcələn şüru edərək [təcili surətdə başlayaraq], eylülə qədər lüzum görülən kitabları kamilən ehzar [hazırlamağa] və tədarükə səy edəcəkdir.

Hökumət ali təhsili dəxi düşünmüşdür. Bunun üçün ali ziraət [kənd təsərrüfatı] məktəbi qanun layihəsi təsvibinizə

[təsdiqinizə] təqdim edilmişdir. Tiflisdə bulunan Mavərayi-Qafqaz Darülfünununun [Zaqafqaziya Universitetinin] paytaxtımıza nəqli üçün müzakirata girişilərək, eylül ibtidalarında [sentyabrın əvvəllərində] tədrisata burada davam edilməsinə səy və iqdam edilməkdədir. Darülfünunumuzda, təbii, lisanımızın, tariximizin, ədəbiyyatımızın inkişafına xidmət edə biləcək kürsülər [kafedralar] açılacaqdır.

Məbus əfəndilər! İstiqbalımızın [gələcəyimizin] təmini üçün başqa tədbirlər ittixazı da [tədbirlər görülməsi də] lazımdır. O da iaşə, ticarət və maliyyə işlərini yoluna qoymaqdır. Ərz etdiyim bu işlər birbirinə sıxı-sıxıya bağlıdır.

İaşə məsələsi Azərbaycanda şimdi başqa bir rəng almışdır. Müharibədən dolayı başqa məmləkətlərdə olduğu kimi, bizim vətənimizdə dəxi bütün ticarət inhisar altına alınmışdı. Nəticədə, təbii, süni olsa da böyük bir dairə [idarə], hətta İaşə Nəzarəti namı ilə başqa məhəllərdə [yerlərdə] olduğu kimi bizdə də bir Nəzarət [Nazirlik] təşkil edilmişdi. Məqsəd xüsusi ticarətə yol verməyərək, əhalinin iaşəsinə həsri-diqqət etmək idi. Bunun üçün daxili və xarici ticarəti dövlət kəndi öhdəsinə almışdı. Bu üsulun nə qədər müzirr və vəxim [zərərli və təhlükəli] nəticələr verdiyi məlumunuzdur. Bittəbi [təbii olaraq], Azərbaycan Hökuməti bu üsuldan vaz keçdi. Daxildə ticarəti yenidən ehyaya [canlandırmağa] çalışdı.

Şimdi hökumətin öhdəsinə düşən bir vəzifə varsa, o da əşya fiyatlarının həddindən ziyadə yüksəlməməsi üçün bazara kafi miqdarda əmtəə və ərzaq çıxararaq, tüccarla [tacirlərlə] rəqabət etmək və mümkün olduğu qədər Azərbaycana xaricdən ərzaq və əmtəə cəlb etməkdir. Bu isə artıq Ticarət Nəzarətinin işidir. Ona görə hökumət İaşə Nəzarətini ləğv edərək, bu Nəzarətin bəzi vəzifələrini Ticarət Nəzarətinə tövdi etməklə [tapşırmaqla] iktifa edəcəkdir [kifayətlənəcəkdir].

Möhtərəm məbuslar! Şu çəkdiyimiz bahalıq və bundan dolayı keçirdiyimiz sıxıntı həp ticarətimizin mehvəri-əslisində [əsil mehvərində] cərəyan etmədiyindəndir. Bunun da səbəbi məlumdur.

Bizim sərvətimiz, rifahi-halımız həp neft ticarətinə bağlıdır. Halbuki neftimizin ən böyük bazarı olan Rusiyanın yolu bağlıdır. Bazar açılmazsa, biz güclük çəkəcəyiz. Digər tərəfdən də, Rusiyanın bizim neftimizə ehtiyacı o dərəcədədir ki, bizimlə anlaşmazlar, bizimlə bir "modus vivendi" vəz [tətbiq] və təyin etməzlərsə, Rusiya üçün olduqca böyük və təhlükəli müşkülat zühur edə biləcəyi bədihidir [aşkardır]. Binaənileyh [ona görə], hərgah Astraxan tərəfindən bizə ticarət qapılarını açmaq təklifi vüqu bularsa, müəyyən şəraitlə qəbul edə biləriz.

Filhəqiqə [doğrudan da], bizim üçün Rusiyanın daxili işlərinə qarışmağa haqqımız yoxdur. Rusiyada hangi firqə qalib gələcək, hangi adamlar iş başına keçəcək, bu bizim vəzifəmiz deyil, böyük, hürr Rusiyanın kəndi işidir. Biz Rusiya dövləti ilə hər zaman sülh və səlahla [əmin-amanlıqla], dostanə keçinmək istəriz. Yalnız bir məsələ var ki, Rusiya (bolşevik Rusiyamı, menşevikmi, yoxsa [başqa] birimi olsun) bizim daxili işlərimizə qarışmamalıdır. Biz Rusiyadan yalnız bunu tələb ediriz. Bu da bizim haqqımız olduğunu, təbii, kimsə inkar etməz zənn edəriz. *(Mərkəzdən, soldan alqış)*

Bunun üçün Rusiya ilə hər bir ticarətə girişməyi, münasibati-dostanə [dostluq münasibətləri] təsis etməyi Azərbaycan Hökuməti hər zaman kəndisinə borc biləcəkdir. Astaraxan yolu açılarsa, iki yüz milyon puta baliğ [çatan] neftimizi ixrac edə biləcəyimizdən, nəticədə iki milyard qədər bir para Azərbaycana daxil olmuş bulunacaqdır. Əgər nefti yalnız kəndi paramıza satarsaq, şimdiyə qədər buraxdığımız paranın cümləsini toplamış olacağımızdan, nəticədə, təbii, paramızın etibarı yüksələr, məta və ərzağın fiyatı düşər, həyat və məişətimiz kəndi məcrayi-əslisinə övdət edər [təbii yoluna qayıdar]. O vaxt ümuri-maliyyəmiz [maliyyə işlərimiz] dəxi yoluna girər. Bu gün olduğu kimi, gərək burada və gərək Tiflisdə hesabsız kağız paralar buraxmağa artıq məcburiyyət qalmaz. Hələ bu iki "emissiya" – bu, artıq təhəmmül ediləcək [dözüləcək] hallardan deyildir. İki yerdə para çıxarmaq heç bir zaman, heç bir məmləkətdə görünməmiş bir işdir. Hökumət bu hala bir an əvvəl xitam verməyə təşəbbüs edəcəkdir.

Möhtərəm əfəndilər! Dəmiryollarımızda dəxi islaha möhtac bir çox cəhətlər vardır. Bu xüsusda hökumət çalışır və çalışacaqdır. Yalnız bir məsələdən bəhs etmək istəyirəm. O da Ələt-Culfa dəmiryoludur. Bu yola hökumət pək ziyadə əhəmiyyət verir. Bu iş üçün hökumət sizdən para istəyəcəkdir və bu yolun qəribən [yaxın vaxtda] başa gəlməsinə səy edəcəkdir. Bundan başqa torpaq və şose yollarımız dəxi vardır. Bunlar da təmirə möhtacdır. Bu yollarımız mətlub [arzuolunan] dərəcədə olmazsa, nə poçtamız işlər, nə də əhalimiz bunlardan istifadə edə bilər.

Möhtərəm məbus əfəndilər! Ərz və tedad etdiyim [saydığım] şu tədabirin [tədbirlərin] ifa və icrası bizim varlığımız və qüvvətli bulunmamızla mümkün ola biləcəkdir. Bunu birdəfəlik bilməliyiz. Qüvvətli olmazsaq nə hürriyyətimiz olar, nə də istiqlalımız. Onun üçün hərbi işimiz hökumət təşəbbüsünün üssi-əsası [əsası, bazası] olacaqdır. Əsgərimizin ehtiyacına, ləvazimatına hökumət ayrıca diqqət və ehtimam edəcəkdir [qayğı göstərəcəkdir].

Əsgərlik kimi müqəddəs vəzifənin ilk əvvəl zənginlərin, qəvilərin [güclülərin], ziyalıların övladlarının vəzifəsi olduğunu hökumət onlara anladacaqdır. *(Ümumi sürəkli alqış, Qara bəy [Qarabəyli] yerindən: Böylə...)* Bundan boyun qaçıran bulunarsa, lazım gələn cəza veriləcəkdir.

Xülasə, əfəndilər! Təkrar edirəm, hər şeydən əvvəl istiqbalımız qüvvətə və millətin əzminə möhtacdır. Birincisi, Hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə sizin əlinizdədir.

Əfəndilər! Təşkil etdiyim hökumət, aranızda bulunan bütün firqələri ehtiva etməyir. Onun üçün, təbii, müxalifətdə qalanlar dəxi sizin aranızda olacaqdır. Mən ancaq bir şeyə əminəm, o da istiqlaliyyət məsələsində olan birliyinizdir. Bu məsələdə mənimlə və təşkil etdiyim hökumətlə həmrəy olmayan bir zatın belə bulunmadığını bilir və bunun üçün də var qüvvəmlə və böyük imanımla çalışacağımı vəd edirəm. *(Səslər: Qarabağ, Qarabağ məsələsi? Ümumi, şiddətli və sürəkli alqış.)*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərin hərəkatı**

London – İngiltərə Hərbiyyə Nəzarətinin bolşeviklər haqqında yazdıqları "Ağ kitab"da bolşeviklər məzalimi [zülümləri] haqqında bir çox məlumat verilir. Bu kitabda 1918-ci sənədə bolşeviklərin hərəkatı barəsində İngiltərənin bir çox rəsmi məlumatı vardır. Bu "Ağ kitab" bolşeviklərin göstərdikləri dəhşət və fəlakəti təsvir edir. Dekabrda Moskvadan hərəkət etmiş olan bir ingilis afiseri [zabiti] xəbər verir ki, Moskvada minlərlə əhali asılmaqla edam edilmişlərdir. Bolşeviklər axır zamanlar qurşun sərf etməyərək "müqəssirləri" asırlar. Həman afiser bunu da əlavə edir ki, Pskovda bolşeviklər 50 afiseri tutub, sonra mişarla parça-parça etmişlər. Yekaterinodarda olan ingilis konsulu xəbər verir ki, hər bir işğal edilmiş şəhərdə bolşeviklər yüzlərlə əhalini qətl edirlər, afiserlərin çiyinlərindən çinlərini çıxarıb bədənlərinə mıxlayırlar.

**Lloyd Corc sülh haqqında**

Lloyd Corc Parlamanda 300 nəfər üzvə cavab verdiyi zaman izhar etmişdir ki, ümumi seçkilərdə sülh haqqında verilən vədlərinin hamısını əmələ gətirmək niyyətindədir.

**Lloyd Corcun teleqrafı**

Lloyd Corc Avamlar Kamerası üzvlərinin teleqrafına cavab olaraq Kennedi Consa göndərdiyi teleqrafda deyir ki:

*"Mən və mənim yoldaşlarım seçicilərimizə verdiyimiz vədlərin hamısını əmələ gətirmək niyyətindəyik. Biz hər bir vaxtda hərgah məmləkətimizin rəyinə görə lazım olarsa, öz vədələrimizə vəfa etməyə hazırıq."*

**Müharibə zərəri**

Paris müxbiri xəbər verir ki, zərərlərin verilməsi haqqındakı məsələnin maliyyə cəhətinə dəxli olan və hal-hazırda alınan təkliflərin həll edilməsini təsəvvür etmək əsası vardır. Xəbər verildiyinə görə, Almaniyanın müharibə zərərlərinə məsul olduğu etiraf edilmişdir. 1919 və 1920-ci illərin müddətində Almaniya bir milyard ingilis lirəsi verməlidir.

**Odessanın alınması**

Parisdən xəbər verirlər ki, Moskvadan alınan teleqrafda Odessanın Şura və Ukrayna əsgərləri tərəfindən işğal edildiyi xəbər verilir. Londondan xəbər verilir ki, Odessanın Müttəfiqlər tərəfindən təxliyə edildiyi rəsmi surətdə təsdiq edilir.

**Müttəfiq əsgərləri**

Londondan xəbər verirlər ki, Çörçill suala cavab olaraq demişdir ki, bu ayın müddətində Misirə və İstanbula külli miqdarda əsgər göndəriləcəkdir. Bundan əlavə, orada çoxdan bəri məzuniyyətsiz qalan əsgərləri əvəz etməkdən ötrü may, iyun və iyul aylarında lazımi qədər əsgər göndəriləcəkdir.

**Dörd dövlət nümayəndələri**

Parisdən xəbər verirlər ki, bu gün dörd dövlət nümayəndələri siyasi məsələlər müzakirəsinə məşğul olmuşlardır. İngiltərə ilə Fransa Vilhelmin məsul olduğunu etirafla [qəbul etməklə], onun tələb edilməsinə və beynəlmüttəfiqin [müttəfiqlərarası] məhkəməyə verilməsinə razı olmuşlardır. Amerika Vilhelmin məsul olduğuna razı olmuşsa da, lakin onun məhkəmə ilə təqib edildiyini təqdir etməyir.

## SÜLH ƏTRAFINDA

- Parisdə "Matin" qəzetəsinin müxbiri Lloyd Corc ilə müsahibədə bulunmuşdur. Lloyd Corc mümaileyhə [adı çəkilən şəxsə] demişdir ki, o, Pişonun rəyinə şərik olur və sülh şəraiti Pasxa bayramları üçün hazır olacaqdır. Mümkündür ki, aprelin axırlarında, yaxud mayın ibtidalarında [əvvəllərində] Müttəfiqlər Almaniya nümayəndələrini sülh imza etməyə dəvət edəcəkdirlər.

- Parisdə ciddi surətdə şayiat dövran edir [şayiələr gəzir] ki, Amerika Rəisi-cümhuru Vilson Avropadan çıxmaq istəmişdir. Bəzi nümayəndələrin sülhün bəzi xırda məsələlərinə diqqət vermələri sülh şəraiti tərtibinin təxirinə səbəb olmuşdur. Sülh şəraitini tezliklə bitirmək əvəzinə, öylə nitqlər söyləyib və öylə hərəkətlərdə bulunmuşlar ki, onların vüququna [meydana gəlməsinə] imkan verilməməli imiş. Cümə günü müttəhid [birləşmiş] iclas vaqe olaraq, hazır edilmiş daklad orada istema ediləcəkdir [dinləniləcəkdir]. Bəzi nikbinlər deyirlər ki, o vaxtadək sülh müahidənaməsi [sazişi] də hazır ediləcəkdir.

## QARS ƏHVALINA DAİR

İngilis qüvveyi-əsgəriyyəsi [hərbi qüvvəsi] Qafqaziyada asayişi təmin etmək məqsədilə gəldi. Qars Şurası ümum əhali üçün işbu məcburiyyətində ifayi-xidmət edib yardım etməyə dəvət olunmuşdu. O bunu yapmadı. Asayiş təmin edib əhalini rahat saxlamaq əvəzində, Qars Şurası əhali arasında qarışıqlıq saldı. Şimdi bu Şura ingilis komandanlığı tərəfindən əzl olunmuşdur [işdən kənarlaşdırılmışdır]. Bundan sonra idarə büsbütün ingilis komandanlığı əlində olub, Qars nahiyəsi, hökumət və idarə onlar tərəfindən tərtib və tənzim olunur. Əhali ingilis komandanlığı tərəfindən olan hər bir əmrə itaət etməlidir. İngilis komandanlığı əhaliyə kəndi əvvəlki yerlərində iqamətgah verib, onların orada rahat yaşamasını mümkün etməyə çalışacaqdır. Silah daşıyanlar kəndilərini ingilis komandanlığı əmrinə müğayir [zidd] bulunmaqda göstərib mücazata [cəzaya] düçar olacaqlar.

Əhali kəndi evlərinə və yaxud onlara göstərilən məxsusi yerlərinə övdət edib [qayıdıb] yaşayacaqlar. İşbu elanatda olan qanunları davami bir hökmdə deyildirlər. Qəti surətdə hər məsələ Sülh Konfransında yalnız təyin oluna bilər.

Əhali kəndi yerlərinə övdət edib zəxirə [ərzaq] əldə etməyə çalışacaqdır. Hər kəs bu məqamda ona yardım göstərməyə məcburdur. Hər bir millət üzərində ingilislər bir gözlə baxacaqdırlar.

[Qars] nahiyəsi mirliva general [general-mayor] Devi təhti-idarəsində [idarəsi altında] olub, onun hər bir əmri icra olunmalıdır. Onun əmrinə mütabiq [uyğun] müamilə [rəftar] etməyənlər mücazat olurlar [cəzalanırlar].

Sülh Konfransı hər bir millətin istiqbalını qərar etdiyində, onların göstərdiyi müamiləni nəzəri-diqqətə alıb ona görə davranar.

*İmza: Qafqaziya İngilis ordu*
*Baş komandanı*
*general Tomson*

**QƏZETƏLƏRDƏN**

**Rusiyada**

Samara – Xüsusi işlərə görə Samaraya varid olmuş [gəlmiş] Ufa bolşevik komitəsinin üzvü xəbər verir ki, Ufada Kolçak dəstələrinin yapdıqları cinayət bu vaxta qədər Belı [Ağ] qvardiyanın yapdığı cinayətlərin hamısını ötmüşdür. Kolçak dəstəsi bütün əmələləri və Şura hökuməti ixtiyarında olan məmurların həpsini asıb öldürmüşlərdir. Ufa kəndçi və əmələ qanı ilə boyanmışdır. Şəhərdə həyat əsəri yoxdur. Əhali çox pərişandır. Kolçak əsgəri dəstələri ancaq afiser hissələrindən ibarətdir. Cəbrən [zorla] cəm edilmiş olan kəndçilər ya qaçırlar, yaxud Şura qoşunları cərgəsinə keçirlər. Hətta Kolçak qoşunları ricət etdikdə [geri çəkildikdə], Kolçak ordusundan 150 nəfər bolşeviklərə mülhəq olmuşlardır [qoşulmuşlar].

Kiyev – Odessa altında qəti surətdə pərişan edilmiş olan düşmənlər külli ləvazimi-hərbiyyə buraxaraq qaçmışlardır. Odessadan çıxarılmış olan düşmənlər Tatarqadını kənddə özlərinə xəndək hazırlayıb oradan müharibəyə başlamışlardır. Qırmızı qoşunlar Odessaya daxil olmuşlardır.

**DAĞISTAN ƏHVALI**

**Mütarikə**

Aprelin 10-da Qroznı şəhərində Denikin başda olmaq üzrə, Könüllü ordu nümayəndələri Müttəfiq dövlət komandanlığı və Dağıstan millətləri nümayəndələrinin müşavirəsi olacağı haqqında general Prjevalskinin Dağıstan Hökumətinə verilən təklifinə görə, aprelin 7-də Dağıstan Parlamanının örtülü iclası vaqe olmuşdur [baş tutmuşdur]. Bu məsələ müzakirə edildikdən sonra məzkur [deyilən] nümayəndələrlə müşavirədə bulunmaqdan ötrü Parlaman sədri knyaz Qaplanov, Türüq-Məabir [Rabitə və Nəqliyyat] naziri mühəndis [Zübeyr] Teymurxanov, Şəriət idarəsi başçısı Qatsbinski və katib Vəlibəyovdan ibarət fövqəladə siyasi bir heyət intixab edilmişdir [seçilmişdir]. Bundan əlavə, Azərbaycana və Gürcüstana əzimət edib [gedib], oraların siyasi dairələrini xəbərdar etməklə bərabər, Dağıstan Cümhuriyyətinin halhazırdakı siyasi şəraiti haqqında müzakirədə bulunmaqdan ötrü digər bir siyasi heyət dəxi intixab edilmişdir. Bu heyətə Parlaman üzvü dava vəkili Mutuşev, mühəndis Xanməhəmmədov və hökumət tərəfindən Pliyev daxil olmuşlardır.

**Torpaq məsələsi**

Dağıstan millətləri Parlamanı torpaq məsələsini müzakirə edib və 1917-ci ildə bu məsələ haqqında vaqe olan iki ictimanın [baş tutan iki yığıncağın] qətnamələrini nəzərə alaraq, aprelin 1-də vaqe olan iclasda böylə qərar qoymuşdur:





Dağıstan Hökumətinə təklif edilsin ki, sosializatsiya əsasında olaraq torpaqların zəhmətkeşlər əlinə verilməsi üçün tez bir zamanda qanun layihəsi tərtib etsin; qanun layihəsi hazırlanmasında, həmçinin torpaqların zəhmətkeşlər əlinə verilməsi planını tərtib etməkdə hökumətlə bərabər iştirak etməkdən ötrü Parlaman komisyonu intixab edilsin [seçilsin].

**Dağıstanlılar və Kuban Radası**

Mövsuq [etibarlı] məlumata görə, Denikinin Dağıstan millətləri əleyhinə hərəkəti Kuban Radasının həyəcanına və Könüllü ordunun hərəkətlərinə görə onun düşmənçiliyinə bais olmuşdur. Kuban nahiyə hökuməti özünü haqlı və heyətcə sosialist və demokrat ədd [hesab] edərək, Dağıstan Millətləri İttifaqının da Rada davam etdiyi şərait üzrə yaşamasını arzu edir. Kuban Radası Denikinin cənub-şərqdəki hərəkatını aşkara surətdə irtica adlandırır.

**General Əliyev**

Çeçen nəslindən olan general [Erisxan] Əliyev Lyaxov vasitəsilə Könüllü ordu ərkani-hərbi [hərbi qərargahı] tərəfindən Çeçenistan hakimi təyin edilirmiş. Mövsuq [etibarlı] xəbərlərə görə, general Əliyev bundan imtina edib izhar etmişdir ki, Lyaxov onu öz doğma çeçen xalqının üzərinə hakim etməyə vəkil edilməmişdir.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

* Maarif nazirinin Bakıda darülfünun [universitet] güşadı [açılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

1) Maarif nazirinə tapşırılsın ki, 1919-cu və 20-ci təhsil illəri üçün Bakıda darülfünun güşadı barəsində lazımi tədabir ittixaz etsin [tədbirlər görsün] və bundan ötrü də 10 milyon rublədən artıq olmamaq şərti ilə bir smeta təqdim etsin.

2) Bakı Ticarət məktəbi mülkünü həman darülfününa verməli.

* Hərbiyyə nazirinin miralay [polkovnik] Məhəmməd bəy Əlizadənin Gürcüstandakı siyasi nümayəndəlik cənbində [nəzdində] attaşe-militər [hərbi attaşe] təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin təklifini qəbul ilə təsdiq etməli.

* Maarif nazirinin müəllim və Nəzarət müəssisələri məmurları məvaciblərinin artırılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maarif naziri[nin] qanun layihəsini təsviblə [bəyənməklə], nazirə tapşırılsın ki, təsdiqdən ötrü Məclisi-Məbusana idxal etsin.

* Maliyyə nazirinin xırda neftçilərə borc verməK haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin "neftapravod" orderləri rəhni ilə neftçilərə borc vermək haqqındakı məruzəsi təsvib edilsin [bəyənilsin].

* Daxiliyyə nazirinin Gəncə Bələdiyyə İdarəsinə ərzaq işləri üçün bir milyon borc vermək haqqındakı qanun layihəsi istemasından [dinlənilməsindən] sonra qət edilmişdir:

Qanun layihəsini təsviblə, təsdiq üçün Məclisi-Məbusana idxal edilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

- Kazino xidmətçiləri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən kazino sahiblərindən şikayətdə bulunmuşdurlar. Kağızın axırında öz tələbatlarını da Nəzarətə pişnihad [təqdim] edərək, qəbulu üçün lazım gələ biləcək tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdirlər.

- İngilis komandanlığı Rəisi-vükəla [Baş nazir] dəftərxanasına xəbər vermişdir ki, bu gün saat 11 radələrində Bayılda İngiltərə batareyasından altı dənə top atılacaqdır. Məqsəd topları sınamaqdır. Bayıl əhalisindən rica olunur ki, şüşələr sınmamaqdan ötrü pəncərələri açıq buraxsınlar.

## O QIZA

*Ə[li] Nəzmiyə*

Ömür dedikləri: çapraşıq bir yol,
O çapraşıq yolun yolçusuyam bən.
- Gəl, yolum üstündə, bir sözüm vardır,
Gözəl qız, bu yolda, gəl Xızrım ol sən!

Sevda dedikləri: çılğın bir dəniz!
Bən çıxdım dənizə, qaldım yelkənsiz.
Bən ölmək, qurtulmaq istəməm sənsiz,
Sənsiz hər ikisi nə gücdür bilsən!

Söylərsəm dərdimi göydə ulduza,
Olur pək pərişan dərd yaza-yaza...
Bir soran yoxmudur o gözəl qıza –
Verdiyi dərdlərin dərmanı kimdən?

Çıplaq omuzlara pərişan tellər
Tökülər, aşiqi pərişan eylər.
Neyləyim, dərd bilən deyil bu ellər!
Ağla, yazıq könlüm, yoxdur bir kimsən!..

*[Əhməd] Cavad*

## PAYLAŞMAQ İSTƏYİRLƏR

Gürcü və erməni hökumətləri yarım milyonluq türk-islam kütleyi-müəzzəməsini [böyük kütləsini], yəni Qars, Batum oblastları [vilayətləri] ilə Axıska və Axalkələk uyezdlərini [qəzalarını] öz aralarında paylaşmaq istəyirlər.

Axıska faciəsi Qars oblastı hüdudu daxilində olan Posxov müdiriyyətinin bugünlərdə bir bəhanə ilə gürcü əsgəri tərəfindən zəbti, Ermənistan Hökumətini tanımaq istəməyən (?) Dronun Qarsa doğru hazırlaşması, paylaşmaq planının bir qədəmeyi-feiliyyəsidir [əməli bir addımıdır].

Gürcü Hökuməti Axıska hadisələrindən çox əvvəl ora komandanına yazdığı gizli bir əmrnamədə Posxovu almaq üçün hüdud üzərində bulunan yeddi-səkkiz köyün bir bəhanə ilə silahlarını alıb zəifldilməsi arzusunu bildirirdi.*

İştə, o arzularını bu gün şiddətli top və pulemyot atəşləri ilə rast gəldikləri müsəlmanları qırıb tələf etməklə meydani-feilə gətirirlər.

Əvət, Gürcü Sosial-Demokrat Hökuməti Osmanlının, Azərbaycanın və Dağıstanın bugünkü məşğuliyyətindən, müvəqqəti siyasi sükutundan istifadə edərək türklük, islam demokratı [xalqı] ziddinə olaraq, bu yolda fürsəti qənimət sayaraq silahsız müsəlmanları insafsızca qətliam edib, ərazisini vücuda gətirdikləri "əksəriyyəti" "əqəliyyət"ə ["çoxluğu" "azlığa"] endirmək istəyir.

Çoxdan düşündüyü planını bu gün meydanı boş görüb istədiyi kimi tətbiq edir. Bunun üçün çox da uzun bəhanələrə hacət qalmayır:

"Türk agentləri, Axıska bəyləri, əksinqilabçılar" hazır. Bu siyasi moda sözləri hər dürlü bəhanəyə bəsdir. Lakin vəziyyətə, zəmanəyə, hətta günə görə bir az daha fəzlə uydurulsa daha əla!

Məsələn: "bir neçə yüz" "Posxov" köylüləri Osmanlı (?) zabitlərinin təhtikomandasında [komandanlığı altında] gürcü əsgəri üzərinə – ki 10-15 min miqdarındadır – hücum edir. Gürcü əsgərini qırır, camaatı üsyan etdirir. Əlbət ki, onları tərbiyə lazım. Hüdudun əmniyyətini saxlamaq gərək.

İştə, sizə böyük səbəblər! Daha artıq nə lazım? Həman müqabilə (?) edib Posxovu zəbt etməli. Asiləri (?) tərbiyə etməli.

Böylə də eylədilər. Qars oblastının ən gözəl parçası olan və 15-20 min nüfusu [əhalisi] bulunan Posxovu uddular. Yarın, o biri gün Dronun hücumunu gözləyib, onun Qarsa, bunun Ərdahan, Oltuya doğru irəliləməyəcəyi nə məlum?

* * *

İngilislərin politikası da anlaşılmaz bir hal! Və ya anlaşılan bir bəla!

İngilislər nə Qars Hökumətini yerində qoyur və nə də kəndiləri himayə və mühafizə edirlər. Bu hal, bu qarışıqlıq isə kəndi vəd və şərtlərinin tamamı-tamamına xilafınadır.

İngilislər Qars və Batum oblastlarını Osmanlıların əlindən aldılar ki, Sülh Konfransında o yerlərin müqəddəratı həll edilənə qədər mühafizə edələr. Daxili idarəsini yerli camaatın ixtiyarına buraxıb, kəndiləri asayişi təmin üçün kontrolyor və nazir [nəzarətçi] vəzifəsini görərlər. Halbuki, bu gün Qars oblastı idarəsi əsla gözlənməyən bir şəkil almaqdadır:

Batum oblastı idarəsi müsəlmanların çoxluğuna rəğmən beş-on xristianın əlinə buraxıldığı halda, Qars müsəlman hökuməti xoşa getməyib və ya onun istiqbalından [gələcəyindən] qorxan qomşuların fitnələrinə qulaq asılıb dağıdıldı.

Bu keyfiyyət ingilislər tərəfindən ümid edilməyən bir haqsızlıqdır.

Yarım milyon islam camaatının hüquqi-sərihəsinə [danılmaz hüquqlarına] apaşkar bir təcavüzdür.

Qafqaziyaya qanun və asayiş üçün gələn bir hökumətdən bəklənilməyən qanunsuzluqdur.

İngilislərin bu hərəkəti xeyli vasi [geniş] islam ərazisinin parçalanmasına bir vasiteyi-sühulətdir [asan bir vasitədir]. Qomşuların hırs [hərislik] və tamahlarına bilə-bilə meydan verməkdir.

Bu səbəblə, məsələ qayət ciddidir. Bu məsələni hər bir türk-islam, xüsusilə türk demokrasiyası dərin-dərin düşünməlidirlər. Düşünməlidirlər də, deməlidirlər:

Bu xüsusda iki dürlü siyasət ola bilməz. Ya ingilislər hazırdakı Qars Hökuməti heyətini bacarıqsız isə dəyişdirib

* Axıska hadisəsinə dair ələ keçən rəsmi gizli əmrnamələri, siyasi intriqaları, hadisatın əsbabi-həqiqiyyə və nəticəsini [həqiqi səbəblərini və nəticəsini] bildirən məlumatı gələcəkdə bir kitab surətində nəşr edəcəyiz.

daxili idarələrini kəndilərinə verməli və ya müştərək idarə edib Qars və Batum oblastlarından bir arşın yer də yad qomşu hökumətə verməməlidir.

Əks təqdirdə, yəni gürcü və erməni hökumət əsgərləri hüdudu keçdikləri surətdə bütün camaat bir vücud kimi hərəkət edib, əldə silah müdafiə eyləməlidir.

Gürcü və erməni qəzetələri Qars Hökumətinin dağıdılmasından və oraların tezliklə gürcü və ermənilərin əllərinə keçəcəyindən bəhs edib şimdidən izhari-şadmani edirlər [şadlıqlarını büruzə verirlər].

Biz də hələ fürsət varkən izhari-qeyrət və həmiyyət göstərib, hüquqi-milliyyəmizin müdafeyi-biamanı [amansız müdafiəçisi] olacağımızı elan etməliyiz.

*Ümidvar*

## SANDIQLARDA YATAN PULLARI MİLLİLƏŞDİRMƏK OLMAZMI?

Bahalığın ümdə səbəblərindən başlıcası tacirlərin malik olduqları sərmayənin gündən-günə artıb hədsiz-hesabsız böyüməsidir. Məlum olduğu üzrə, bir çox səbəblərə görə, hökumətin mədaxili məxaricinə mütabiq [müvafiq] deyildir:

Əhalidən xəzinəyə toplanan vergilər keçmişdəki kimi kamali-rəğbətlə yığılmayır. Halbuki, hökumətin əsas mədaxili əhalidən alınan vergilərdən ibarətdir. Vergilər vaxtlı-vaxtında verilmədiyi üçün hökumət də mədaxildən məhrum qalaraq məxarici ödəmək üçün sair mənbələrə müraciət edir, ayrı vəsilələr [vasitələr] aramağa məcbur olur. Asayiş zamanı olsaydı, daxili və xarici istiqrazlar vasitəsilə ehtiyacı rəf etmək [aradan qaldırmaq] mümkün olardı. Lakin sabiq rus hökumətinin hər beş gündə bir istiqraz yapması əhalinin rəğbətini özündən uzaqlaşdırmışdı. Binaənileyh [ona görə], əhalini indiki halda istiqraz məsələsinə heç bir vəsilə ilə rəğbətləndimək mümkün deyildir. Ortalıqda bir çarə varsa, o da hələlik kağız pul kəsməkdən ibarətdir. Bolşevik dövründən indiyə qədər kağız pul meydana atılmışdır. Bir bu qədər pul əhalinin ehtiyacını rəf edəmmədi. Zira, pul artdıqca, bahalıq da o dərəcə kəsbi-şiddət edir [şiddətlənir].

Azərbaycan Hökuməti yenidən yenə yarım milyardlıq kağız pul kəsməyə iqdam etmişdir [addım atmışdır]. Bu pullar da yenə müştərək müqavilənamələrə, böyük məvaciblərə, əlavələrə sərf olunacaqdır; bunlardan çıxıb ət, çörək, libas və sair əmtəə satan tacirlərin ciblərinə daxil olacaqdır. Bəs [deməli], kağız pulun miqdarı artdıqca məvaciblər artır. Məvaciblər artıdqca da şeylərin nırxı artacaqdır. Bunun nəticəsi olaraq, qeyri-məhdud mənfəətlərin dairəsi aşıb-daşır və sərmayələrin həddən artıq böyüməsinə bais olur. Adi vaxtlarda ticarətini min manatlıq bir sərmayə ilə yeridən bir tacir bu gün həman ticarəti həman dairədə apardığı üçün yalnız yüz min manata möhtac qalır. Odur ki, adi tacirlərin indiki sərmayələri minlərlə deyil, milyonlarla ölçülür. Bugünkü milyonçular keçmişdəki on min manatlılardır. Bu





qiyasdan köhnə milyonçuların sərmayələri şişib yüz milyonları keçmişdir. Bunun müqabilində bazarda mövcud malların və ələlxüsus xaricdən gətirilmiş fabrik mallarının miqdarı gün-gündən əskilir. Odur ki, tacirlərin meyil və məhəbbətləri satmağa deyil, almağa həvəsləri artıq olduğundan əmtəə qiymətləri, camaat təbirincə, yeddinci asimana bülənd olmuşdur. Hər kəs çalışır ki, əlindəki sərmayəni verib əvəzində əmvali-mütəhərrikədən və ya qeyri-mütəhərrikədən [daşınan yaxud daşınmaz mallardan] nə olursa olsun, xülasə bir şey, bir mal sahibi olsun. Çünki anlamışdır ki, bir gün bu kağız pullarının məhşəri qopacaqdır. Hamının meyli satmağa deyil, almağa olduğundan, malların qiyməti gündən-günə, bəlkə saatdan-saata qalxır.

Bahalığın dərəcəsi bir məqama gəlmişdir ki, onun zərbələri füqəra sinfini əzib, bu gün əhalinin orta siniflərini xırpalamaqdadır. Hərgah, pul məsələsi bu qərarla davam edərsə, bir gün gələr növbət sərmayədarlara, yəni milyonçulara çatar.

Bahalıq məsələsi ilə hələlik əhalinin iki sülsü [üçdə ikisi] mübarizə edir. Vay o gündən ki, əhalinin hamısı bu bəlaya düçar olmuş ola! Bunun da düxulu [dəxli] sülh məsələsinə bağlıdır. O gündən ki, Müttəfiqlər imzası ilə sülhi-ümumi təsdiq olundu, dərhal Yevropa və ələlxüsus Amerika sərmayədarları yerlərindən qalxıb birbaş Qafqaza, əzancümlə [o cümlədən] Azərbaycana fövc-fövc [axın-axın] gələrlər, özləri ilə də kağız pul deyil, altun paralar gətirərlər. Ənvai [növbənöv] şirkətlər və səhmdarlar cəmiyyəti vasitəsilə məmləkətin ən böyük ticarətlərini, ən böyük sərvətlərini əllərinə alarlar. İştə, o zaman Azərbaycan sərmayədarları topladıqları milyon-milyon kağız pullarla dərdlərinə heç bir çarə qılammazlar. Bunu indidən düşünsünlər. Madam ki, sülh məsələsi tamam olmamışdır, bizim sərmayədarlarımız üçün mümkündür ki, müxtəlif səhmdarlar cəmiyyəti tərtib verib əllərindəki boş pulları məmləkətin ənvai ehtiyaclarına sərf etsinlər. Böylə olarsa, həm pulları nüfuzunu itirməz, həm də xarici tacirlərinə qismət ola biləcək mənfəətlər də özlərinə qalar. Hərgah, yüzlərcə səhmdarlar cəmiyyətləri tərtib verilsə ümidvaram ki, heç biri işsiz qalmasın.

Məsələn, bir çox şəhər və qəsəbələrin su, elektrik, tramvay, dəmiryol, telefon, sığorta və sairləri kimi bir çox şeylərə ehtiyacı vardır ki, bunların öhdəsindən ancaq səhmdarlar cəmiyyətləri gələ bilərlər. Bundan əlavə, nə qədər fabriklərə, quru yerləri sulamaq üçün böyük arxlara, kanallara ehtiyacımız vardır. İndi tacirlərimiz buyursunlar, qəflət etməyib səhmdarlar şirkətləri yapsınlar. Bunu əncama gətirmək üçün, həmdlər olsun ki, Peterburqa yüyürmək lazım deyil. Nizamnaməni ərizə ilə hökumətə təqdim edib iki həftənin ərzində icazə hasil etmək mümkündür. Bir bu qədər müsaidələrdən sonra meydanı yenəmi Nobel və Mantaşev kimi əğyara [qeyrilərə] buraxacaqlar? Bu məsələdən tacirlərimizə həm ziyarət, həm də ticarət!

*Fərhad Ağazadə*

## TÜRKİYƏ ƏFKARİ-ÜMUMİYYƏSİNİN HƏYƏCANI

İstanbulun türklərdən alınması, Şərqi Anadolunun ayrılması təsəvvürləri Türkiyə əfkari-ümumiyyəsini [ictimaiyyətini] son dərəcədə əndişənak və mütəhəyyic [narahat və həyəcanlı] bir hala qoymuşdur. Bu xüsusda hökumət müxtirəsindən [notasından] əlavə, məmləkətin hər tərəfində, millətin hər sinifi tərəfindən təzahürlər vaqe olur, cəmiyyətlər kəndi tələb və nəzərlərini Müttəfiq dövlətlərə bildirirlər. Əzcümlə [o cümlədən], "Türk Ocağı" cəmiyyəti aşağıdakı müxtirə ilə Müttəfiq hökumətlərin İstanbuldakı səfirlərinə müraciət eyləmişdir:

*"Əfəndilər!*

*Biz, milli Türk Ocağı əzaları [üzvləri], qəhrəman və bədbəxt millətimizin avazeyi-şikayətini sizə isal etmək vəzifeyi-əliməsi ilə mükəlləf bulunuruz [millətimizin şikayət səsini sizə çatdırmaq kimi kədərli bir vəzifəni daşıyırıq].*

*Avropa mətbuatı, Şərq məsailini həllə məmur [Şərq məsələlərini həll etmək tapşırılmış] konfransın paytaxtımızı, İzmiri və Anadolu vilayati-şərqiyyəsini [şərq vilayətlərini] ana vətəndən ayırmağa qərar verdiyini yazır. Bir bomba qüvvəti ilə aramıza atılan bu xəbərlərin hər halda həris və gizli düşmənlərimizin icad etdiyi xain bir səniə [hiylə, tələ], intiqamcu [intiqam istəyən] bir propaqanda olduğunu zənn ediriz. Zira, əfəndilər, pək eyi biliriz ki, sizin ədalətiniz, Vilson prinsiplərinin vüzuhu [açıqlığı] və bizim davamızın məşruiyyəti [haqlılığı, qanuniliyi] böylə bir haqsızlığa imkan verməz. Ən dəyərli və şayani-etimad [etimada layiq] istatistikləriniz belə, zikr edilən mənatiqdəki [məntəqələrdəki] türk-islam əksəriyyətiəziməsini [müsəlman türklərin böyük əksəriyyət təşkil etdiyini] isbat ilə lehimizdə şəhadət edirlər.*

*Madam ki, məmləkətlərin hakimiyyəti haqqındakı müqərrəratınızı [qərarlarınızı] oralarda mütəməkkin [yaşayan] əksəriyyəti-əhalinin milliyyəti üzərinə bina edirsiniz, biz də bu vəhdəti-milliyyəmizə toxunulmayacağından əmin ola biləriz.*

*Məmafih [bununla belə], insanlar qabili-sövqi-təəssür olduqlarından [təsir altında qaldıqlarından], Avropada hər gün nəşr edilən [yayılan] bu növ şayiatın [şayiələrin] Avropa əfkari-ümumiyyəsinə [ictimai fikrinə] təsir etməsindən qorxmamız da təbiidir. Halbuki, əfəndilər, İstanbul, İzmir və vilayati-şərqiyyəni [şərq vilayətlərini] Anadoludan ayırmaq türk vətəninin başını gövdəsindən qoparıb onu başsız və üzvsüz buraxmaq deməkdir. Bu hərəkət onu öldürmək ola-caqdır.*

*Əfəndilər, siz ədalət və sülh üçün hərb etdiyinizi iddia edirsiniz. Zənn edirmisiniz ki, məmləkətin yarısını ayırmaq oralarda mövcud qahir bir əksəriyyəti qəlil bir əqəliyyətin [böyük çoxluğu kiçik bir azlığın] – həm də nasıl bir əqəliyyət? – həris və cahil bir əqəliyyətin təhti-təhəkkümünə [hökmü altına] verərsəniz, sülh və ədaləti təmin etmiş olacaqsınız? Böylə bir haqsızlığa müsaidə etmək sülhdən sonra müdhiş bir cidali-daxilinin vüqusuna [daxili müharibənin] səbəbiyyət verməkdən başqa bir şey deyildir. Bunu, əlbəttə ki, siz də istəməzsiniz.*

*Sizinlə [qarşı-]qarşıya hərb etdik. Bunu bərabər, heç bir gün bizə hörmət etməkdən xali [boş, uzaq] qalmadığınızı bila-qürur [təkəbbürsüz] iddia edə biləriz.*





*Əfəndilər, diqqət buyurunuz ki, biz bu hərbə hüdudlarımızı genişlətmək, qonşu millətləri əzmək fikri-mənfuru [mənfur düşüncəsi] ilə girmədik. Zənn ediriz ki, qanlı çılğınlığın ən məğdur müharibələrindən [müharibənin ən çox haqsızlığa məruz qalmış tərəflərindən] biri idik. Bəzilərinin hökm etmək, əzmək, cahangir [imperialist] olmaq əməli [arzusu] ilə girdiyi bu fəci [faciəli] mücadiləyə biz yalnız əzəli düşmənimizin, milli düşmənimizin, türklərin tanıdığı yeganə düşmənin – çarlıq Rusiyasının mühəqqəq [qəti, qaçılmaz] hücumuna müdafieyi-nəfs üçün iştirak etdik.*

*Qədər sizi bu səfər – vaxtilə olduğu kimi ona qarşı deyil – onunla birlikdə qarşımıza çıxardı və istər-istəməz biz sizə qarşı da müdafiəyə məcbur olduq. Şimdi, söyləyiniz əfəndilər, siz ki, vətən məhəbbətini ən nəcib və ən qüdsi bir eşq olaraq tanıyanlardansınız, vətənimizi uğrunda öləcək qədər sevdiyimiz üçün bizi təcziyəmi edəcəksiniz [cəzalandıracaqsınızmı]? Vətənpərvərliyi edam ilə cəzalandırmağa bizimləmi başlayacaqsınız? Siz ki, məzlum millətlərin istixlası [qurtuluşu] yolunda hərb etdiyinizi, zəiflərin haqqını bütün haqları[n] fövqündə tanıdığınızı söyləyirsiniz. Biz türklərin ən müqəddəs və milli hüququmuzu nasıl inkar edəcəksiniz? Siz ki, zalımları qəhr etmək, bəşəri səadətə isal etmək [çatdırmaq] üçün ortaya atıldığınızı söyləyirsiniz. Əksəriyyəti əqəliyyətə əsir edərək yeni zalımlar, yeni bədbəxtlər vücuda gətirəcəksiniz.*

*Əfəndilər, siz ki, milli vüqarın ilk mübdelərisiniz [əsasını qoyanlarsınız]. Bizim ən məşru [qanuni] vüqari-milliyyəmizə öldürücü zərbəni sizmi vuracaqsınız? Düşününüz ki, biz də bu mübarək bədbəxt vətənimizi, sizin şanlı məmləkətinizi sevdiyiniz dərəcədə sevməkdən başqa bir şey yapmayırız.*

*Əfəndilər, siz – bizim bəxtiyar düşmənlərimiz, qiymətli türk gəncliyinin Çanaqqalanın yaşıl təpələrində, toplar və paslanmış tüfənglərlə möhtəşəm və müəzzəm [böyük] ahənin [dəmirdən] qalalarınıza qarşı nasıl qəhrəmanca öldüklərini gördünüz. Bu müdafiənin və eşqivətənin məmləkətimizin qayeyi-mülkiyyəsi [mülki məqsədi], vəhdəti-milliyyəsi [milli birliyi] ətrafında nasıl mətin və layətəzəlzəl [sarsılmaz] bir qala çevirdiyini [hördüyünü] hər kəsdən eyi təqdir edərsiniz. Bunun üçündür ki, millətimizin əmrini dinləmədən əvvəl, istiqbalımız [gələcəyimiz] haqqında bir hökm verməməyinizi rica ediriz.*

*Əfəndilər, şunu da unutmayasınız, bütün bəşəriyyət namütənahi istiqbalı [sonsuz gələcəyi] ilə sizin haqqınızda hökm vermək üçün bizim haqqımızda verəcəyiniz hökmə intizar edir."*

## İRANIN MƏTALİBİ

İran heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Bakıdan Parisə keçərkən rusca qəzetələrində bu münasibətlə bir xəbər nəşr olunmuşdu. Bu xəbərdə deyilirdi ki, İran mətalibi cüzündə [tələbləri qismində] bir də hüdud təshihi vardır. Güman olunurdu ki, bu təshih hüdudi-Zaqafqazi-

yanın, başqa təbirlə Azərbaycanın hesabına olacaqdır.

O zaman bu xəbərdən dolayı əfkari-ümumiyyəmizdə [ictimaiyyətimizdə] hasil olan sui-təsiri izalə etmək [mənfi təsiri aradan qaldırmaq] üçün biz heyət rəisi cənablarına müraciət eyləmək istədiksə də, məəttəəssüf [təəssüf ki], heyəti-möhtərəmənin kətumluğundan [sir verməməsindən; danışmağı xoşlamamasından] dolayı məqsədimizə nail olammadıq. Bu kərə alınan İstanbul qəzetələrində, nimrəsmi [yarı-rəsmi] ingilis qəzetəsi "Tayms" dan mənqul bir fəqərəyə [nəql edilən bir əhvalata] təsadüf eylədik. "İran mətalibi" ünvanı ilə dərc olunan bu fəqərədə "Tayms" qəzetəsi müqəddimətən [əvvəla] keçən sənə ingilis əsgərlərinin İranın cənubundakı icraatından bərvəchi-ati [aşağıdakı kimi] bəhs edir:

*"Keçən sənə ingilis və hind əsakirindən mürəkkəb [əsgərlərindən ibarət] bir qüvvət bəzi ingilis zabitləri tərəfindən təhti-silaha alınmış [silahlandırılmış] iranilərlə birlikdə Şiraz şəhərini mühasirə altına aldıqları, ehtimal bir çox kimsələri düçari-heyrət edəcəkdir.*

*Hökumətin Cənubi İranda icra eylədiyimiz hərəkat haqqında bu qədər kətum davranmasının əsbabını bir dürlü anlayammayırız. Qəzetələr uzun bir müddət bu babda [bu barədə] bir şey yazmaqdan mən edilmişdi [qadağan edilmişdi]. Mirliva [general-mayor] ser Persi Sayks 18 aydan bəri İranda bulunurdu. Bu isə gərək dost və gərək düşmənlərimizin məlumudur. Böylə olmaqla bərabər, mümaileyhin [adı çəkilən şəxsin] İranda bulunduğunun surəti-rəsmiyyədə elanı pək yenidir.*

*Persi Sayks 1916 sənəsi əvailində [əvvəllərində] İsveç zabitlərinin təhti-komandasında [komandanlığı altında] bulunan zorba jandarma təşkilatının yerinə iqamə edilmək [yerinə qoyulmaq] üzrə bir iranlı qüvvəti vücuda gətirməsi haqqında təlimat alaraq, İrana əzimət etmişdi [getmişdi]. İsveç zabitlərindən bir qismi almanlarla təşriki-məsai [əməkdaşlıq] eyləmişdi.*

*Ser Sayks 500 kişi və 2 topla vase [geniş] vilayətlər daxilində sərgüzəştcuyanə [macərapərəstcəsinə] bir cəsarətlə irəliləyib, Şirazda yerləşdi. İki sənə zərfində ingilis zabitanının komandası altında 6 min kişilik bir qüvvət vücuda gətirdi. Bu qüvvət 800 hindli əsgər ilə təqviyə edilmişdi [gücləndirilmişdi].*

*Ser Sayksın Cənubi İranda müstövli [yayılmış] bir halda bulunan şəqavəti [quldurluğu] surəti-müəssirədə [təsirli bir surətdə] basdırması düşmən məmurlarının təhti-təsirində [təsiri altında] qalan bəzi İran qəbilələrinin xüsumətini cəlb etdi [düşmənçiliyinə səbəb oldu]. Hərəkati-xəsmanə bəzi irəli qara qüvvələrinə icra edilən təərrüzlərlə [hücumlarla] başladıysa da, dəf və tənkil [rədd] edildi. General Sayksa Hindistandan təqviyə qitəatı [əlavə qüvvə] göndərildi. Fəqət keçən sənə mayıs nəhayətində Qaşqay qəbiləsi rəisinin komandası altında bulunan qüvvətlər tərəfindən Şiraz mühasirə edilmiş bulunurdu. Mühasirə pək sıxı deyildi. Ser Sayksın qüvvəti 2200 kişidən fəzlə olmamaqla bərabər, xüruc [çıxış, hücum] hərəkətləri yapmaq qabildi. Bilxassə, yaz sıcaqlarının hökm sürməkdə olmasından dolayı sahilə çəkilmək şıqqı varid deyildi [ehtimalı nəzərdə tutulmurdu]."*

Bu müqəddimədən sonra "Tayms"





İran məsələsi və onun mətalibinə nəqli-kəlam edərək [sözü gətirərək] deyir ki:

*"General Sayks ilə məiyyətində bulunan zabitan ciddi məhalik [təhlükələr] qarşısında və ərzaq fiqdanı [yoxluğu] içində yapdıqları uzun müsariədən [mübarizədən] dolayı şayani-təbrikdirlər [təbrikə layiqdirlər]. Mümaileyhimin [haqqında danışılan şəxslərin] vəzifələrini haqqı ilə ifa etmiş olmaqlarına rəğmən, əsil İran məsələsi müşkülat içində qalmışdır.*

*Şimdi, İran heyəti-mürəxxəsəsi Parisdə bulunur və məruzatının Sülh Konfransında istemasını [dinlənilməsini] tələb edir. Konfransın bu məruzatı istema edəcəyi mühəqqəqdir [qətidir]. Lakin, məaləsəf [təəssüf ki], işbu heyəti-mürəxxəsə Parisdə əmsalı sıx müşahidə edilməkdə olan bir xətada bulunmuş. Yəni bəzi müfrit mətalibat dərmiyan eyləmişdir [ifrat tələblər irəli sürmüşdür].*

*İran kəndisini bolşeviklərə qarşı müdafiə üçün Məvərayi-Xəzərdən [Zakaspiyskdən] və Cənubi Qafqaziyadan ərazi istəməkdədir. Bundan maəda [başqa], şahın Beynənnəhreyndəki [Mesopotamiyadakı] müqəddəs şəhəri olan Kərbəlanı İrana tərki tələb edilməkdədir. Lakin Samirə şəhəri dəxi bu mətləbə daxil bulunur. Fəqət bu son tələbi qəbul etmək mümkün deyildir. Çünki əsasən fəzlə və lüzumsuzdur. Kərbəla və Nəcəfdəki İran idareyi-ruhaniyyəsi [ruhani idarəsi] filhal [hal-hazırda] İran zəvvarının hüququnu siyanət etməkdədir [qorumaqdadır].*

*İran, hüdudu xaricində bulunan məhallara nigəhban olmadan [göz dikmədən] əvvəl, kəndi ərazisini müdafiəyə müqtədir olduğunu isbat etməlidir. Əcnəbi qitəat [hərbi dəstələr] tərəfindən İran hüdudu daxilində icra olunan təxribatın təmiri məsələsi nəzəri-etibara alına bilər. Bunun için də əvvəla İran qəbilələri tərəfindən iqa edilən [vurulan] xəsarətin nəyə baliğ olduğu [çatdığı] hesab edilmək icab edir.*

*İngiltərə siyasəti daima müstəqil bir İranın bəqasını [qalmasını] iltizam etmiş [lazım görmüş] və daima etməkdə bulunmuşdur. İran hər şeydən əvvəl müvasilatını (yəni yollarını) islah etməlidir."*

Əcəba İranın Zaqafqaziyadan istədiyi ərazi Azərbaycan Cümhuriyyəti mülkiyyətindəki ərazidən olmasın? Əcəba, bunun üçünmü idi ki, İran heyəti-mürəxxəsəsi Bakıda ikən son dərəcədə kətum bulunmuş, mətbuatla mülaqatdan [söhbətdən] kənarəculuq ixtiyar etmişdi [qaçmağa çalışmışdı]?!

## ERMƏNİLƏRİN İSTƏDİYİ

Qəzetələr erməni heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] Paris Sülh Konfransı hüzurunda öz mətləbləri haqqında bəyanat verdiyini bildirdi. Bu bəyanata görə, ermənilər Böyük Ermənistan təşkilini istəyirlər. Bu Böyük Ermənistan bir tərəfdən Qarabağ və bütün İrəvan quberniyası, digər tərəfdən Qara dənizdə Trabzon ilə Ağ dənizdə [Aralıq dənizində] İskəndərun limanına çıxmaq üzrə Anadolunun yeddi vilayətini ehtiva edir. Ermənilər eyni zamanda tələb edirlər ki, müəzzəm [böyük] hökumətlərdən birisi onları 20 il müddətinə öz himayəsi altına alsın. Bu hami hökumət gərək ki, Ermənistandakı Ermənistan Hökumətini tanımayan, oralara Türkiyə Hökuməti tə-

rəfindən mühacirət etdirilmiş olan müsəlmanları köçürtsün. Erməni heyəti sülh məclisinə verdiyi müxtirədə [yazılı qeyddə] deyir ki:

*“Ermənistan ərazisi məsələsi həll edildiyi əsnada diri qalan ermənilər deyil, ölənlər də hesaba alınmalı və yalnız bununla qalmayıb, burası da hesaba qoyulmalıdır ki, ermənilər Şərqin yeganə millətidirlər ki, mədəni bir hökumət təşkil edib qonşularını təmdin edə bilərlər [mədəniləşdirə bilərlər].”*

Ermənilərin bu müddəiyyatına [iddialarına] qarşı Osmanlı Hökuməti tərəfindən dəxi müqabil bir müxtirə verilmişdir. Bu müxtirədə denilir ki:

**Türkiyə Hökumətinin müxtirəsi**

Türkiyə Hökuməti Sülh Konfransında olan 4 böyük dövlət nümayəndələrinə böylə bir müxtirə təqdim etmişdir:

*“Türkiyə Hökuməti cahan xəritəsinin gələcək təbədüllatı [dəyişiklikləri] əsasına Rəisi-cümhur Vilsonun bütün aləmi-bəşəriyyət tərəfindən təqdir edilmiş əsaslarının [prinsiplərinin] qoyulacağına şübhə etmir. Bu əsaslar mövcibincə [bu prinsiplərə əsasən] Türkiyə Hökumətinin haqqi-hakimiyyəti qeyri-müslüm olan millətlərin təhlükəsiz və azad nəşvü-nüma [inkişaf, tərəqqi] etmələri şəraiti ilə saxlanmalıdır. Dardanel boğazı ticarətdən ötrü azad olmalıdır və gələcəkdə vücuda gətiriləcək bu axırıncı maddə əleyhinə Türkiyə etiraz etməyir. 1-ci maddəyə gəldikdə, bu məsələ belə təcili layihələrə bais olur ki, Türkiyə Hökuməti onların müqabilinə rəqəmlər və həqiqətlər göstərməyə özünü məcbur ədd [hesab] edir.”*

Türkiyə rəsmi sənədi Poqos Nubar paşa tərəfindən təqdim edilən və Yevropada kifayət qədəri elan edilən “Böyük Ermənistan” layihəsindən müfəssəl surətdə mübahisə [bəhs] edir. Ermənistanın iddia etdiyi 6 vilayət təqribən 6 milyon əhali ilə məskundur. Rəsmi statistika hesabına görə, bunlardan 4 milyon 453 min 250 nəfəri müsəlman, 918 min 875 nəfəri erməni və 632 min 875 nəfəri başqa xristianlardır. Hətta ermənilərə hüsn-təvəccöh göstərən İngiltərə qamusül-əlamı (ensiklopediya) müsəlmanların miqdarını az göstərməklə bərabər, Ermənistanın iddia etdiyi yerlərdə müsəlmanların əksəriyyət təşkil etdiyini etiraf etməyə məcbur olmuşdur. Türkiyə Hökuməti bu vilayətlərdə baş verən müəssif [təəssüflü] hadisələri və müsəlmanların müqəssir olduqlarını inkar etməyir. Lakin dövlətlərə xəbər verir ki, Türkiyə Hökuməti İspaniya, İsveçrə, Danimarka, Hollandiya və İsveç hökumətlərinə müraciət edib, bu hamı müəssif hadisələrdə bir tərəfdən erməni komitələrinin, digər tərəfdən müsəlmanların nə dərəcədə müqəssir olduqlarını aşkar etmək məqsədilə türk və erməni nümayəndələri iştirakı ilə məhəllində [yerində] anketa yapılmasını xahiş etmişdir. Türkiyə Hökuməti öz müqəssirlərini məsuliyyətə cəlb etməklə bərabər, eyni zamanda hamıya elan edir ki, erməni quldur dəstələri öz vaxtında rus padşahı ordusunun şərq vilayətlərə hücumundan istifadə edib milyondan ziyadə müsəlmanları qarət etmişlərdir. Bu həqiqət nəinki bitərəf dövlət nümayəndələri tərəfindən, hətta rus əsgəri dəstələrinin özlərinin verdikləri məlumatla dəxi təsdiq edilmişdir. Həlakətdən və qarətdən xilas olmaq





üçün müsəlman əhalisinin artıq bir hissəsi dağlarda və qonşu vilayətlərdə özü üçün sığınacaq axtarmışdır. Bunlar indiyə qədər də hələ buralarda yaşamaqdadırlar. Məmləkət büsbütün rus əsgərlərinin, ələlxüsus erməni quldur dəstələrinin qarətinə məruz qalmışdır. İndiyə qədər bir elə yer yoxdur ki, orada xarabazarlıq nişanəsi olmasın. Hər bir beynəlmiləl komitəsi bu vilayətləri gəzərsə, asanlıqla bu həqiqətləri təsdiq edə bilər.

Bir para erməni dairələri tərəfindən Qafqaziyadan Kilikiyaya qədər Böyük Ermənistan təşkil edilməsi məsələsi qaldırılmışdır. Fəqət böylə bir hökumət təşkili Rəisi-cümhur Vilsonun əsaslarına ziddir. Beş milyon müsəlmanı az bir miqdarda erməniyə tabe etməyə heç imkan yoxdur. Bu iş daimi iğtişaşa və qanlı müsadimələrə [toqquşmalara] bais olar. Çünki Böyük Ermənistan amalı vücuda gətirilməyəcək bir işdir. Erməni məsələsini həll etməkdən ötrü ancaq iki yol vardır: Biri budur ki, ya müsəlmanların əksəri[yyət]ni nəzərə alıb əqəliyyətin [azlığın] təhlükəsiz və azad nəşvü-nüma etməsindən ötrü möhkəm təminat qoyulmaqla Türkiyə hakimiyyəti saxlansın, yaxud Türkiyə hesabına olaraq Qafqaziya Ermənistanının torpağı bir qədər böyüdülsün, tainki Ermənistan köçmək arzusunda olan ermənilərin hamısını oraya köçürsün. Münasibatı nəzərə alaraq, bu axırıncı məsələ xeyli müvafiqdir. İsveç nümayəndəsinin sədarəti altında müsəlman və ermənilərin müsavi nümayəndələrindən ibarət müştərək komissiya sərhəd və mütəqabil mühacirət [qarşılıqlı köç] mənafeyi nöqteyi-nəzərindən bu məsələni təmin edə bilər. Məsələnin bu üsul ilə həll edilməsinin yaxşılığı ondadır ki, bu qarışıq məsələni birdəfəliyə həmişəlik qurtarar.

Ermənilərin artıq bir hirs və fəzlə bir iştaha nəticəsi olan bu mətalibinin [tələblərinin] Avropa əfkari-ümumiyyəsi [ictimai fikri] üzərinə nə kimi bir təsir verdiyini bilmək üçün Fransa Hökumətinin naşiri-əfkarı [fikirlərini yayan orqanı] bulunan “Tan” qəzetəsinin aşağıdakı məqaləsini dərc ediriz. “Tan” qəzetəsi deyir ki:

*“Erməni heyəti-mürəxxəsəsi konfransa verəcəyi müxtirədə erməniliyin hüququ yalnız sağ qalanların ədədi ilə ölçmək caiz olmayacağını, ölmüş və sağ nə qədər erməni varsa kaffəsinin [hamısının] sədasını eşitmək bir lazımeyi-ədalət [ədalətin şərti] olduğunu, baxüsus ki, ermənilər Etilafın [Antantanın] davası uğrunda hərb edərəkdən qanlarını tökdüklərini, 150 min ermənin rus ordusu süfufunda [səflərində] hərb etdiyi (Lejyon donör) qitəatında [hərbi hissələrində] bulunmuş olan bir çox ermənilərin həyatlarını fəda eylədiklərini, Şərqə məxsus olub əfradı əksəriyyət üzrə əcanibdən mürəkkəb olan bəzi qitəat mövcudunun bilxassə ermənilərdən tərəkküb etdiyini [fərdlərinin çoxu xaricilərdən ibarət olan bəzi hərbi hissələrin xüsusilə ermələrdən təşkil edildiyini]* zikr və bəyan edir.

*Şimdi erməni müddəiyyat və mətalibatının nə kimi həvaliyə təəllüq etdiyi [erməni iddialarının və tələblərinin hansı əraziləri əhatə etdiyi] məsələsini tədqiq edəlim. Bu ərazinin bir qismi Türkiyəyə və digər qismi Rusiyaya aiddir. Rus ərazisinin əlyövm [hal-hazırda] bir Erməni Cümhuriyyəti halında mütəşəkkil olan*

*əqsamı [hissələri] bütün İrəvan əyalətindən başqa, Tiflis əyalətinin həvaliyicənubiyyəsini [cənub tərəfləri], Yelizavetpol əyalətinin cənub-qərbi qismini və Ərdəhanın şimalındakı ərazi parçası müstəsna olmaq üzrə Qars əyalətini havi və camedir [əhatə edir və özündə birləşdirir]. Demək ki, erməni hökuməti ərazisi Batuma təqribən 30 kilometrə məsafədə kain [yerləşən] bir nöqtəyə qədər uzandıqdan başqa, Tiflisdən Bakıya doğru axmaqda olub, bəhri-Xəzər sahilindən etibarən 150 kilometrə uzunluğunda bir hövzə təşkil edən Kür nəhrinin isqa etdiyi [suladğı] yerləri və bir də Rusiyanın vaxtilə İrandan zəbt eylədiyi bəzi nəvahini [nayihələri] və əzcümlə [o cümlədən] Naxçıvan məntəqəsini ehtiva eyləyir.*

*Erməni heyəti-mürəxxəsəsinin Türkiyə ərazisinə aid müddəiyyatı Van, Bitlis, Diyarbəkir, Xarput, Sivas, Ərzurum və Trabzon vilayətinə təəllüq etməkdədir [aid olmaqdadır]. Tələb olunan ərazi xaricində buraxılan yeganə yerlər Murad çayının cənubunda kain və kürdlərlə məskun həvalidən başqa, Ordudan Sivasa mümtəd [uzanan] bir xəttin qərbində vaqe türk məmalikidir [diyarlarıdır].*

*Bundan başqa, erməni heyəti-mürəxxəsəsi Kilikiya qitəsini dəxi istəyir ki, o halda matmahi-nəzəri olan [göz dikdiyi] ölkə, Bəhri-Səfidə [Aralıq dənizinə] qədər uzayan və əzcümlə Mərsin və İskəndərun kimi iki mühüm limanı ehtiva edən məmaliki-vaseədir [geniş diyarlardır]. Demək ki, erməni hökuməti Asiyayi-süğranın [Kiçik Asiyanın, Anadolunun] Toros silsileyi-cibalının [dağ silsiləsinin] və Sivas ovasının şərqindəki bütün əqsamını [hissələrini] işğal edəcək və həm Bəhri-Səfid, həm Qara dəniz üzərində məxrəclərə [çıxışlara] malik olacaqdır.*

*Qara dəniz məsələsinə gəlincə, erməni heyəti-mürəxxəsəsi bu məsələ haqqında bundan bir müddət əvvəl, yunan hökuməti ilə uyuşmuş olduğunu bəyan edir. Bu etilafın [uzlaşmanın] nəticəsi olaraq, Yunanıstan Trabzon üzərində bir taqım hüquq iddia etməkdən sərfi-nəzər eyləmişdir [əl çəkmişdir]. Lakin Fransanın tarixi bir rol oynamaq və bəzi hüququnu müdafiə etmək vəzifəsi ilə mükəlləf olduğu [borclu olduğu, məsuliyyət daşıdığı] Kilikiya və İskəndərun həvalisi haqqındakı erməni mətaliblərinə [tələblərinə] gəlincə, bunlar Fransa Hökuməti ilə əvvəldən bir etilaf hüsula gəlmədən irəli sürülmüşdür.*

*Keçərkən qeyd və işarət etməyə lüzum gördüyümüz bu zühul [yaddan çıxmış məsələ], ermənilər naminə ərz olunan mətalibatı münsifanə bir fikirlə dərpiş etməkdən bizi mən edəmməz [insaflı bir surətdə qiymətləndirməyimizə mane ola bilməz]. Fransa, nəfs və tiynətinə [şərəfinə və xarakterinə] sadiq qalmaq üçün ədalət və xeyirxahlığı heç bir zaman əldən buraxmamağa məcburdur. Lakin tam ədalət fikri və ermənilərə qarşı tutduğumuz məhəbbət hissidir ki, bizi ermənilərin nəzəri-diqqətini proqramlarının zəif bir nöqtəsi üzərinə cəlb etməyə sövq eyləyir.*

*Ermənilərin qəbul etmək istədikləri eyni nöqtədən məsələni tədqiq edəlim. Guya 1918 qətliamları heç vüqu bulmamış və guya ölülər sağ imiş kimi mühakimə edəlim və erməni patrikxanası tərəfindən 1912 tarixində nəşr edilib, mösyö Learn 1913-də ermənilər lehində yazdığı bir əsərə nəql etdiyi ərqamı [rəqəmləri] əsas ittixaz edəlim [əsas götürəlim]. Bu ərqamdan müstəban olan [anlaşılan] həqiqət şudur ki, ermənilər Ərzurum, Bitlis, Xarput, Diyarbəkir və Sivas vilayətlərində əqəliyyətdə [azlıqda] bulunurlar və ancaq Van vilayətindədir ki, pək cüzi bir əksəriyyəti haiz [çoxluğa sahib] bulunurlar. Van vilayətində 350 min nüfusdan 180 mini ermənidir. Vilayəti-sittədə [altı vilayətdə] ermənilərin ümum əhaliyə qarşı nisbəti-ədədiyyəsi [say nisbəti] ancaq yüzdə 38,9 raddəsindədir.*

*Kilikiya məntəqəsində min-həysülməcmu [cəmisi] 407 min erməni vardır. Halbuki bu qitənin ancaq bir qismini işğal edən Adana vilayətinin nüfusu [əhalisi] 420 minə baliğdir [çatır]. Trabzon vilayətinə gəlincə, o tarixlərdə ermənilər bu həvaliyə hənuz göz dikməmişlərdi. Lakin erməni heyəti-mürəxxəsəsinə hər halda məlum olmaq lazım gələn bir xəritə bu vilayətdə sakin ənasiri-müxtəlifə [müxtəlif ünsürlər] haqqında bəzi məlumat verir. Vilayətin qismi-mərkəzisində 20 min və qismi-şərqisində 5 min erməni vardır.*

*Erməni qövmünün bu dağınıqlığı fütuhati-mütəvaliyə və mütənabiənin [dayanmadan, bir-birinin arxasınca baş verən fəthlərin] bir nəticeyi-zəruriyyəsidir [zəruri nəticəsidir]. Məzkur [adı çəkilən] qövm 8-ci əsrdə vüqu bulan [baş verən] ərəb istilasının bidayətində [əvvəllərində] dağılmağa başladı. Şübhəsiz ki, bu mühüm bir səbəbi-zə'fdir [zəiflik səbəbidir]. Ermənilər üçün hürriyyət və əmniyyət [əmin-amanlıq] dövrü hülul etdiyi [gəlib çatdığı] şu anda dağınıqlıq məhzur və müzirrinə [çəkiniləsi, təhlükəli və zərərli bir şey olan dağınıqlığa] bir çarə və dəvamı bulmalı, yoxsa bunu idaməmi [davammı] etdirməli? Erməni millətini bir kütleyi-mütəkasifə [kəsif, sıx kütlə] halında yaşayacağı daha kiçik bir vətənəmi sıxışdırmalı və ya hər tərəfində əqəliyyətdə qalacaq bir imperatorluğu erməniliyə bəxş və təfriq etmək [ayırmaq] surətilə bu ünsürün qəvafili-mütəfərriqə [bir-birindən qopmuş, ayrı-ayrı dəstələr] halındakı tərzi-həyatına bir mahiyyəti-daiməmi verməli [daimi bir mahiyyətmi qazandırmalı]? Erməni heyəti-mürəxxəsəsi məhdud bir vətən və ya vase [geniş] bir imperatorluq şiqqlarından [variantlarından] ikincisini tərcih eylədi. Biz kəndi irqdaşlarının mənfəəti naminə digər bir surəti-həlli hər halda müraccəh buluruz [daha üstün hesab edirik]."*

İstanbulda nəşr olunan "Kuryer de turki" Türkiyənin bu müxtirəsinə ciddi surətdə tərəfdar olur və deyir ki, türklər bu müxtirədə haqlıdırlar.

London mətbuatı cümləsində olan İngiltərənin ən məşhur "Morninq post" qəzetəsi bu barədə yazır:

*"Poqos Nubar bütün hərarəti ilə öz layihəsinə tərəfdar olur. Ermənilər barəsində olan əfsanələr barəsində cürbəcür nağılları dəlil göstərir. Amma bununla bərabər, fransız əhli-xibrələrinin [mütəxəssislərinin] və istatistiklərinin hesabına görə, ermənilər Türkiyənin beş vilayətində əqəliyyət [azlıq] təşkil edirlər. Fəqət yalnız bir vilayətdə ermənilər əhəmiyyətsiz bir əksəriyyət təşkil edirlər. Ona görə də ermənilərə Qara dənizdən Bəhri-Səfidə [Aralıq dənizinə] qədər böyük bir Ermənistan vermək deyil, ancaq müxtəsər Ermənistan Cümhuriyyəti tərtib etmək olar ki, oraya cahanın müxtəlif yerlərinə yığışan ermənilər oraya cəm ola bilsinlər."*

## YALAN ŞAYİƏLƏR

Vaxtilə İran şahı "tiryak çəkib də öldü" deyə xəbər verən qəzetə, bu kərə də neçə gündən bəridir Zaqafqaziya cümhuriyyətlərinin Müttəfiqlər tərəfindən tanınmadığına dair xəbərlər uydurub durur. "Znamya truda" qəzetəsinin üç gün əvvəl verdiyi müxtəsər xəbəri dünən dəxi general Tomsonun Gürcüstan Rəisi-hökuməti [Baş naziri] Jordanya ilə vaqe olan gizli müsahibəsini təqib eylədi. Fəqət bu kimi şayiələr qətiyyən heç bir rəsmi mənbədən alınmamışdır. Bu xüsusda bir xəbər olsaydı biz onu "Royter" acentəsindən, bolşevik acentəsindən və sair mənbələrdən həman eşidə biləcəkdik. Halbuki böylə bir xəbər yoxdur. Onun üçün dəxi bu kimi sui-niyyətlə nəşr olunan şayiələri ehtiyatla oxumalıdır.

## BAKI XƏBƏRLƏRİ

**Top atılacaqdır**

Bu gün, çaharşənbə günü Bayılda 6 danə ingilis topu atılacaqdır. Bayıl əhalisinə xəbər verilir ki, toplar atıldığı zaman pəncərələrinin şüşələri sınmamaq üçün təşvişə düşməyib pəncərələrini açıq qoysunlar.

**Fransa səfirinin əziməti**

Aprelin 12-də 7 nömrəli qatarla Fransa səfiri Bakıdan Batuma hərəkət və əzimət etmişdir [yola düşmüşdür].

- Aprelin 12-də İngiltərə nəqliyyat idarəsi rəisi polkovnik Braun "Evelin" nam [adlı] paroxodla Bakıdan Ənzəliyə hərəkət etmişdir.

**Naxçıvan general-qubernatorunun əziməti**

Aprelin 13-də 7 nömrəli sürət qatarı ilə Naxçıvan general-qubernatoru Gəncədən Tiflisə hərəkət və əzimət etmişdir.

**Təhqir**

Srağagün Bələdiyyə İdarəsində Ərazi şöbəsinin müdiri Heybətqulu Məhəmmədbəyov Fəllahət [Kənd təsərrüfatı] şöbəsi kargüzarı Qalanovskini vurmaqla təhqir etmişdir. Buna görə də bütün bələdiyyə xidmətçiləri iclas dəvət edərək həmin məsələni müzakirə etmiş və Məhəmmədbəyovun Bələdiyyə İdarəsindən əzl edilməsini [azad edilməsini] tələb etmişlərdir. Onların tələbi qəbul edilmədikdə, tətil edəcəklərdir.

**Dəlləklər İttifaqı**

Aprelin 14-də "Müsavat" idarəsində Dəlləklər Şurası vüqu bulub Abbasqulu Kazımzadənin Dəlləklər İttifaqı barəsində izahatından sonra zeyldəki əşxas [aşağıdakı şəxslər] müvəqqətən olaraq İttifaq idarəsinə seçilirlər: Məşhədi Qasım Məstanzadə, Məşhədi Muxtar Əlizadə, Qəzənfər Əlizadə, İmaməli Hüseynquluzadə.

Aprelin 15-də müvəqqəti idarənin iclası vüqu bulur [baş tutur]. Nizamnaməni tərcümə etmək qət olunur. Qəzənfər Əlizadə İttifaqın keçən ildəki mədaxil və məxarici barəsində izahat verir. İttifaqın məzkurda [adı çəkilən şəxsdə] bulunan 172 (yüz yetmiş iki) manat pulundan 62 (altmış iki) manat nizamnamələrin yazdırılmasına sərf olunubdur. Qalan 110 manatı Qəzənfər cənabları 2-ci ümumi iclasda seçiləcək xəzinədara verəcəkdir. Müvəqqəti idarə üzvləri üzvlər yazmalıdırlar.

* Aprelin 15-də hamballar tərəfindən seçilmiş nümayəndələrlə təbliğat və təşkilat şöbəsinin sədri Abbasqulu Kazımzadənin müşavirəsi oldu. Hamballar nümayəndələri zeyldəkilərdirlər [aşağıdakılardır]: Cavad, Məşhədi Əbdülhüseyn Xəlilzadə. Müşavirədə Əncüməni-İraniyan [İranlılar Şurası] tərəfindən Məhəmmədcəfər Əliabbaszadə, Heyəti-Şuraviyyə [Şura Heyəti] tərəfindən Mirzə Möhsün Əlizadə dəxi iştirak edirdilər. Hamballar nümayəndələri şikayət edirdilər ki, keçən il soyuz [ittifaq] onların bir çox pulunu yemişdir. Ona görə, şimdi ayrıca bir ittifaq təşkil etmək istəyirlər. Cümə günü saat 12-də hamballar nümayəndələrinin iclası olacaqdır və idarə seçiləcəkdir.

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Tərəzi**

Təzə tərəzi satılır hər bir şeyi ilə. Afiserski küçədə nömrə 5, Bağırovun mağazasında.

*8716*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 261. “Donskoy Darülfünun”: Don Universiteti, indiki Don Dövlət Aqrar Universiteti nəzərdə tutulur.

**Yeni Kabinə əzaları**

səh. 263. “Ümuri-Xeyriyyə və Nafiə naziri – Viktor Klenevski”: qəzetdə “Səhiyyə naziri – Viktor Klenevski” kimi getmişdir.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 264. “Parisdə iniqad edən məhkəmeyi-kübra”: Parisdə yığışan böyük məhkəmə; Paris Sülh Konfransı nəzərdə tutulur.

səh. 265. “inarodes” [инородец]: Rusiya imperiyası dövründə, ucqarlarda yaşayan, rus olmayan əhaliyə verilən ad; əcnəbi.

səh. 268. “modus vivendi”: gələcəkdə qəti və uzunmüddətli sazişlərlə əvəz edilməsi nəzərdə tutulan müvəqqəti razılaşma yaxud ilkin saziş.

**Teleqraf xəbərləri**

səh. 270. “Ağ kitab”: Bir sıra ingilisdilli ölkələrdə hökumətin gələcək siyasi kursunu izah yaxud müxtəlif mövzularda sənədləri ehtiva edən rəsmi nəşr.

“Avamlar Kamerası”: Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 271. “Matin” [Le Matin]: 1882-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

“Pişonun rəyinə şərik olur...”: qəzetdə “Pişon” yerinə “Mişon” getmişdir.

**Paylaşmaq istəyirlər**

səh. 275. “Əvət, Gürcü Sosial-Demokrat Hökuməti...”: qəzetdə bu cümlədə “ərazisini” sözünün yeri səhv düşmüşdür; düzəltdik. Cümlə qəzetdə belə idi: “Əvət, Gürcü Sosial-Demokrat Hökuməti Osmanlının, Azərbaycanın və Dağıstanın bugünkü məşğuliyyətindən, müvəqqəti siyasi sükutundan istifadə edərək ərazisini türklük, islam demokratı ziddinə olaraq, bu yolda fürsəti qənimət sayaraq silahsız müsəlmanları insafsızca qətliam edib vücuda gətirdikləri “əksəriyyəti” “əqəliyyət”ə endirmək istəyir.”

“...müsəlmanların çoxluğuna rəğmən...”: qəzetdə “çoxluğuna” yerinə “yoxluğuna” getmişdir.

səh. 276. “Ümidvar”: bu imza Ömər Faiq Nemanzadəyə məxsusdur.

**Türkiyə əfkari-ümumiyyəsinin həyəcanı**

səh. 279. “əzəli düşmənimizin”: qəzetdə səhvən “onu düşmənimizin” getmişdir.

**Ermənilərin istədiyi**

səh. 282. “Rəisi-cümhur Vilsonun bütün aləmi-bəşəriyyət tərəfindən təqdir edilmiş əsaslarının”: qəzetdə “təqdir” yerinə “təqdim” getmişdir.

səh. 283. “Tan” [Le Temps]: 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

“lejyon donör” [Légion d'honneur]: fəxri legion.

səh. 284. “müsyö Lear”: burada söhbət, əsərlərini Marsel Lear imzası ilə yazan Türkiyə ermənisi Kirkor Zohrabdan gedir.

səh. 285. “Vilayati-sittə” (Altı vilayət): Burada söhbət Osmanlı dövlətinin Ərzurum, Van, Mamürətüləziz, Diyarbəkir, Sivas və Bitlis vilayətlərindən gedir. Bu vilayətlər, Rusiya və Qərb dövlətləri tərəfindən, bölgədə erməni dövləti qurulması layihəsinin tətbiq sahəsinə çevrilmişdi. Bu vilayətlərə





“Ermənistan” yaxud “Erməni vilayətləri” deyilməyə, San-Stefano və Berlin sülh müqavilələrindən sonra başlanmışdır. 1877-1878 Türkiyə-Rusiya müharibəsi nəticəsində 3 mart 1878-ci ildə imzalanan San-Stefano sülh müqaviləsinin XVI maddəsində bu bölgədən “Ermənistan” deyə söz edilmiş və Türkiyənin burada dərhal reformlara başlaması, həmçinin erməni əhalisinin təhlükəsizliyini təmin etməsi tələb edilmişdir. 13 iyul 1878-ci ildə imzalanan və San-Stefano müqaviləsinin Türkiyə üçün ağır şərtlərini müəyyən ölçüdə yüngülləşdirən Berlin müqaviləsində də bu bölgədən “ermənilərin yaşadıqları vilayətlər” deyə söz edilmiş və eyni tələblər təkrarlanmışdır.



***“Azərbaycan” qəzetinin 159-cu nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 17 aprel 1919-cu il, nömrə 159**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 16 rəcəbül-mürəccəb sənə 1337. 17 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## ELAN

1919 sənəsi pəncşənbə [cümə axşamı] günü aprel ayının 17-sində gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

*T-106*

## OPERETTA VƏ “AZƏRBAYCAN”

### Hökumət Teatrosunda axşam tamaşası

Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli Qardaşları Müdiriyyəti
cümə günü rəcəbülmürəccəb ayının
17-sində (aprelin 18-ində 1919[-cu]
ildə) şükuhlu [təmtəraqlı] bir mənzərədə
mövqeyi-tamaşaya qoyulacaqdır
Zülfüqar bəy Hacıbəylinin
**“Əlli yaşında cavan”**
nam [adlı] operettası.
2-nci pərdədə Orduxan bəyin
qonaqlığında İsa bəy Aşurbəylinin
təzə yazmış olduğu
**“Azərbaycan” faciəsi** göstəriləcəkdir.
Tamaşa başlanacaq axşam saat 8-in
yarısında.
Biletlər teatrın kassasında
satılmaqdadır.

*T-107*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(dünənki nömrədən mabəd)*

### 14 aprel axşam iclası

**[Mixail] Vinoqradov** – Məclisi-Məbusanın Slav-Rus fraksiyası hökumətin bəyannaməsini istema edərək [dinləyərək] kəndi vəzifəsi bilir bəyan etsin ki, Slav-Rus cəmiyyəti məhəllində [yerində] anarşi ilə mübarizə və asayiş, qanun və nizamın bərpası uğrunda fəaliyyətdə bulunan hər bir hökumətə müzahirət [köməklik] etmək lazım gəldiyini dərklə, bu mülahizə ilə Müttəfiqlər komandanlığının tam rizası ilə, vaxtilə Azərbaycan Hökumətində müştərək Kabinə təşkilinə hər vəchlə müzahirət göstərmişdir.

Şimdi də Məclisi-Məbusanın Rus-Slav fraksiyası yenə həman mülahizat [mülahizələr] ilə 1918-ci sənəsi 10 dekabrda elam etmiş [bildirmiş] olduğu əsas və prinsiplərə sadiq qalır.

Eyni zamanda hazırkı Kabinə təşkil olunarkən sabiq hökumət təşkili vaxtı sabiq Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski ilə ruslar arasında təyin edilmiş

olan şəraitin [şərtlərin] pozulduğu və Kabinədə Slav-Rus cəmiyyətinə üç əvəzinə ancaq bir yer verildiyini qeydlə fraksiya bu hərəkətin müqabilinə protesto edir və pozulmuş etilafın [razılığın] təcdidi [bərpası] üçün israrla çalışacaqdır.

Fəqət bainhəmə [bununla birgə], vaxti-hazirənin şəraiti-siyasiyyəsindən [hazırkı siyasi şəraitdən] dolayı onsuz da çox uzanmış olan böhrani-vüzəranı [hökumət böhranını] bir daha uzatmaq və bu zəminədə, şu ağır zamanda hökumət üçün yeni böhran çıxarmaq istəməyərək, Məclisi-Məbusanın Slav-Rus fraksiyası bəyan edir ki, hökumətin fəaliyyəti Rusiya mənafeyinə zərər yetirmədikcə, biz yeni Kabinəyə müzahirətdə bulunacağız.

**Sədr** – Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Məhəmməd Əmin Rəsulzadə** - Həzərat! Hökumətin bəyannaməsi haqqında söz söyləmədən və ona əlaqəmizi göstərməkdən əvvəl, əqəliyyət [azlıq] təşkil edən rus nümayəndəsinin söylədiyi sözləri cavabsız buraxmadan keçməyəcəyəm. Burada Azərbaycan millətinin haqqından istifadə edərək təşkili-hökumət haqqının istifadəsini Slav-Rus cəmiyyəti nümayəndəsi haqsız olaraq xaricdən gələn qüvvələrlə əlaqədar göstərmək istədi. *(Sürəkli alqış)*

Burada yalnız millətin haqqı və Azərbaycan xalqının iradəsinə istinadən hökumətdən bəhs etmək olar. Bir taqım şəraitdən, Müttəfiq komanda müavinəti ilə kəndiləri üçün təmin olunan hüquqdan bəhs etmək millətlər hüququna tərəfdar olduqlarını söyləyən zatlara, yalançı deyilsələr, qətiyyən yaraşmaz.

Azərbaycan Parlamanında oturan məbuslar bu xüsusda açıq alınla oturmalıdırlar, alınları açıq olmayanlar burada oturmasınlar. *(Sürəkli alqış)*

Həzərat! Bu gün başdan-ayağa demokratik bir proqramla hüzurumuza çıxan hökumətin heyətinə əgər nəzəri-diqqət etsəniz, bu heyət gənc bir heyətdir. Ehtimal ki, bu heyət içərisində bir çoxları üçün yeni isimlər vardır.

Məlumdur ki, biz siyasətdə yeni təcrübəyə başlamış bir millətiz. Dünya inqilabı nəticəsində, hər şeyin dəyişdiyi və yeniliyə doğru getdiyi bir zamanda cavan qüvvətlərin iş başına gəlməsini hüsntələqqi edə biləriz [müsbət qiymətləndirə bilərik]. Bizə şöhrətli "bütlər"dən ziyadə, əzmkar və namuskar xadimlər lazımdır. Yeni hökumətin demokratik ənasirdən [ünsürlərdən] təşəkkül edən heyəti gənc olsa da, bizə ümid verir ki, demokratik proqramla hüzurumuza çıxan hökumət bəyannaməsindəki fəsillərin qövldən feilə [sözdən işə] çıxarılması işində məmləkətin çar-çeşmlə [dörd gözlə] gözlədiyi əzim və səbatı göstərəcəkdir. Elan eylədiyi bəyannaməsini əzim və səbatla yeridəcəyinə ümidlə, biz bütün etimad və müavinətimizi hazırkı hökumətdən əsirgəməyəcəyiz. Müvəffəq olmalarına çalışacağımızı bu kürsüdən elan edirəm. *(Alqışlar)*

**Sədr** – Söz istəyən yoxmu? Divani-Rəyasətə müştərəkən tərtib olunmuş bir formul daxil olmuşdur. *(Katibə)* Mehdi bəy [Hacınski], oxuyun!

**Katib** *(oxuyur)* – Hökumətin bəyannaməsini eşidərək Məclisi-Məbusan bəyani-etimadla [etimadını bildirməklə] bəyannamədəki əsasların fikirdən işə keçirilməsində hökumətə hər növlə müavinət edəcəyini bildirərək, növbədəki məsələlərin müzakirəsinə keçir. *(Rusca tərcüməsini oxuyur)*

**Qara bəy [Qarabəyli]** *(yerindən)* – İca-zə veriniz.

**Sədr** – Təklif edə bilərsiniz. Mən dəfəat ilə [dəfələrlə] dedim söz istəyən varmı, danışan olmadı.

**Qara bəy** *(yerindən)* – Biz sözümüzü deyib qurtarmamışıq.

**Sədr** – Mən təkrar dedim kim danışmaq istəyir, danışan olmadı. Ancaq iki fraksiyadan danışdılar.

**Səslər** – Formula barəsində danışmaq olar.

**Sədr** – Söz Parlaman üzvü doktor Quxmanındır.

**Quxman** – Hökumətin bəyannaməsi ruscaya tərcümə olunmadığına görə biz səs verə bilməyəcəyiz.

**Səslər** – Tərcümə edilsin. Veriniz tərcüməsini özləri oxusunlar.

**Sədr** – Belə olan surətdə belə eyləmək olar. Bəyannaməni verək özləri oxusunlar. O vaxta qədər tənəffüs elan eylərəm.

*(Tənəffüs elan olunur)*

**Təshih [Düzəliş]**

Dünkü nömrəmizdə "Yeni Kabinə əzaları" qismində Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] məəttəəssüf [təəssüf ki], qələmdən düşmüşdür. Türüq və Məabir Nazirliyinin sabiq nazir Xudadad bəy Məlik-Aslanov (heç firqəyə mənsub deyildir) cənablarına tapşırılmış olduğunu qeydlə, təshihi-keyfiyyət edəriz.

## SÜLH ƏTRAFINDA

### Sülh müahidənaməsi [sazişi] haqqında

Parisdən xəbər verirlər ki, Bonar Lui sülh şəraiti haqqında İngiltərə nümayəndələri ilə müşavirədə bulunmaqdan ötrü Parisə varid olmuşdur [getmişdir]. Onun vürudu isbat edir ki, ümdə maddələr qərarı həll edilib qurtarmışdır. Vilson səhhət tapıb bu gün Dörd Dövlət Nümayəndələri Şurasında iştirak etmişdir. "Corc Vaşinqton" paroxodunun göndərilməsi üçün Rəisi-cümhur Vilsonun Vaşinqtona gündərdiyi teleqrafı sülh müahidənaməsinin tezliklə hazırlanacağı şayiəsini təsdiq edir. Vaşinqtondan xəbər verirlər ki, "Corc Vaşinqton" paroxodu aprelin 15-i əvəzində 11-də yola düşmüşdür.

Dörd Dövlət Nümayəndələri Şurasının 4-5 iclasından sonra zərərlərin verilməsi məsələsinin həll ediləcəyi gözlənir. Fransa siyasi dairələri bu fikirdədirlər ki, sülh şəraiti nəinki bir tək Almaniyada, bəlkə başqa düşmən dövlətlərdə də tətbiq ediləcəkdir.

### Dörd Dövlət Nümayəndələri Şurasında

Londondan xəbər verirlər ki, "Havas" acentəliyinin verdiyi məlumata görə, Dörd Dövlət Nümayəndələri Şurasının işləri əfkari-ümumiyyə təzyiqatı [ictimaiyyətin təzyiqləri] altında müvəffəqiyyətli bir surətdə irəli getməkdədir. Məsuliyyət məsələsi həll edilib qurtarmışdır. Müharibə müqəssirlərini məhkəməyə cəlb etmək üçün ola bilər ki, heç bir tədbir ittixaz edilməsin [tədbir görülməsin]. Lakin

müharibə zamanında icra edilən cinayətlər beynəlmiləl həkəm [beynəlxalq arbitraj] məhkəməsində baxılacaqdır. Ola bilər ki, Vilhelmin ələ verilməsi Hollandiya hökumətindən tələb edilsin.

**Bolşeviklər təsdiq edilməyirlər**

Londondan xəbər verirlər ki, iki yüz nəfər Parlaman üzvləri tərəfindən imza edilən digər bir teleqraf dünən axşam Lloyd Corca göndərilmişdir. Parlaman üzvləri bu teleqrafda İngiltərə nümayəndələrinin Rusiya bolşevik hökumətinin etiraf edilməsi [tanınması, qəbul edilməsi] təklifindən imtina etmələrini təkid edirlər.

**Vilson haqqında şayiat**

Londondan xəbər verirlər ki, Vilsonun "Corc Vaşinqton" paroxodunun vəqti-müəyyənindən [qabaqcadan müəyyən edilmiş vaxtdan] tez göndərilməsi haqqındakı xahişi Parisdə bir çox şayiata [şayiələrə] bais olmuşdur. Fransa mətbuatının Amerika müxbiri xəbər verir ki, bu, Rəisi-cümhur Vilsonun müzakirat cərəyanından [müzakirələrin gedişindən] narazı olduğunu isbat edir. Rəisi-cümhur bu fikirdədir ki, hərgah Konfrans onun 14 maddəsini və mütarikə [atəşkəs] məsələsini müzakirəyə başlamasa, Konfransdan gedəcəkdir. Bu axır vaxt Vilson bu məsələlərin rədd edildiyini görür.

Digər tərəfdən "Royter" acentəliyinin müxbiri xəbər verir ki, Amerikada vücuda gələn əhval Rəisi-cümhur Vilsonun Amerikada olmasını tələb edir. Vilsonun siyasətcə həmfikirləri dəfələrlə Vilsona müraciət edib onun Amerikaya qayıtmasını xahiş etmişlərdir. Verilən xəbərlərə görə qeyd edilir ki, Vilsonun sülh müahidənaməsi altında imzası çox da vacib deyildir. Lansinq ilə Hauz Amerika nümayəndəliyinə vəkil edilmişlərdir.

**Sülh bu ay içində imza ediləcəkmiş**

Lloyd Corc ilə Balfurun xəstəliyinə baxmayaraq, sülh şəraiti tərtibi [sülh şərtlərinin hazırlanması] işləri irəliləyir. Ümumun zənnincə, bu ay içərisində sülh əhdnaməsi [sazişi] imza ediləcəkdir.

"Tayms" qəzetəsi yazır ki, iadeyixəsarət [vurulan ziyanın ödənməsi, təzminat] məsələsi həll edilib qurtarmışdır. Saar kömür hövzələri barəsində və Reyn boyu sərhəd məsələsi xüsusunda Fransa tələbatına əməl edilmişdir. Bolqariyanın Adalar [Egey] dənizinə çıxmaq haqqı Bolqariyadan alınıb Yunanistana verilmişdir.

**TELEQRAF XƏBƏRLƏRİ**

Paris – Klemanso Kabinəsi istefa vermişdir. Məclisi-Məbusanda Rusiya məsələsi müzakirə olunaraq, Rusiya işlərinə müdaxilə edilməməsi təhti-qərara alınmışdır.

**Koreyada inqilab hərəkatı**

Tokio – Koreyada 1 martda vaqe olan [baş tutan] nümayiş bir istiqlaliyyət hərəkətidir. Nümayiş zamanı koreyalılar ilə polis arasında müsadimə [toqquşma] vaqe olmuşdur. Bir çox adam, o cümlədən, 400 tələbə həbs edilmişdir.

Şanxaydan bildirildiyinə görə, Koreyada dəhşətli həyəcan vardır. Sabiq Koreya imperatoru dəfn edilərkən böylə bir xəbər şaye olmuşdur [yayılmışdır] ki, guya Sülh Konfransı Koreyanın istiqlaliyyətini təsdiq edir. Martın 1-də minlərlə koreyalılar küçələrə çıxıb nümayiş qurmuşlardır. Seulda hakəza [habelə] nümayiş vaqe olub, Fransa və Amerika konsulxanaları qarşısında konsulları alqışlamışlardır. 100 nəfər koreyalı imperatorun cəsədi bulunan saraya girib Koreya istiqlalının təsdiqini tələb etmişlərdir. Polis imarətinə inqilabçılar tərəfindən həmlə edildikdən sonra qoşun qüvvəsini işlətmək icab eyləmişdir [lazım gəlmişdir]. 100-dən ziyadə adam həbs edilmişdir. Hər iki tərəfin tələfatı küllidir.

**Bolşevik teleqraf xəbərləri**

"N-ski" briqadanın ştabı ["N" nömrəli briqadanın qərargahı] xəbər verir: Şura qoşunları tərəfindən Ağməscid (Simferopol) və Yevpatoriya işğal edilmişdir. Ağməscidə Qırmızı qoşunlar yaxınlaşdıqda, onların qarşısına inqilab komitəsinin nümayəndələri, nemes kolonistlərindən ibarət briqadanın naçalniki [rəisi] çıxmışlardır. Naçalnik demişdir ki, 700 nəfərdən ibarət olan briqada Şura hökumətini qəbul edir və onun tərəfinə keçir. Ağməsciddə külli silah və ləvazimi-hərbiyyə [hərbi sursat] vardır.

Kiyev – Berdiçev tərəfindən Qırmızı qoşunlar Jitomirə yaxınlaşırlar. Rubev səmtində Qırmızı qoşunlar Şepetovkaya yaxınlaşırlar. Kartopol səmtində Proskurov, Starokonstantinov qəzalarının üsyançıları Avstriyanın sabiq sərhədinə Ziroça yaxınlaşırlar. Odessa-Voloçisk arasında olan dəmiryolundan yunanilər, romaniyalılar və könüllülər çıxarılmışlardır.

Odessa – Odessada bolşeviklər tərəfindən alınan qənimət fövqəladədir. Minlərlə vaqonlar, paravozlar, avtomobillər bizim əlimizdə qalmışdır. 60 vaqon ləvazimi-hərbiyyə hakəza [habelə] əlimizə keçmişdir.

**Bolşevik ordusunun miqdarı**

London – "Tayms" qəzetəsinin Helsinqfors [Helsinki] müxbiri yazır: Etibara məzhər olan [etibarlı] mənbələrdən bolşevik ordusunun miqdarı xüsusunda mən məlumat almışam. Belə ki, onların tüfəng altında yarım milyon qoşun və min ədəd topları vardır. Fəqət bu yarım milyon qoşun müxtəlif cəbhələrdə mütəfərriq [dağınıq] haldadırlar. Arxangelsk cəbhəsində 15 min, 10 min də kəşifçi bolşeviklər vardır. Vyatka cəbhəsində 80 min nəfər, Fin-Baltik cəbhəsində 20 min, Petroqradda 8 min, dəniz boyu cəbhələrdə 50 min bolşevik qoşunları mövcuddur.

Moskva – Türklərin simsiz teleqraf mövqifindən [stansiyasından] xəbər verilir ki: "Neçə gündən sonra rəşid [rəşadətli] Şura qoşunları üzərinə Mərkəzi Asiyanın ürəyinə yollar açılacaqdır. Orada türk qardaş şurası onları mütəntən surətdə istiqbal və dərağuş etməyi [təntənəli surətdə qarşılamağı və qucaqlamağı] gözləyir."

**Müharibənin dayandırılması barəsində əmr**

Parisdən xəbər verilir ki, bu gün Ali Hərbi Şura Qaliçyanın əhvali-hərbiyyəsini müzakirə edərək qət etmişdir ki, Lemberq [Lvov] xətti-hərbində yek-digəri [bir-biri] ilə müharibə edən hər iki orduya hərbi dayandırmaq əmrini versin. Sonra Şura Polşanın qərbi sərhəd məsələsi mü-

zakirəsinə keçərək, Polşa işlərinə mübaşir [məşğul] olan komissiyanın ərzi-halını istema eyləmişdir [məruzəsinə qulaq asmışdır].

## QƏZETƏLƏRDƏN

"Təsviri-əfkar" qəzetəsində Amerika Rəisi-cümhuru Vilsonun canına hazırlanan sui-qəsdin kəşf edilməsi barəsində zeyldəki [aşağıdakı] xəbər dərc edilmişdir:

Gələcək sülh məsələsi müzakirə edildiyi və sülh barəsində saziş əmələ gəldiyi təqdirdə biz görürük ki, ibtida [əvvəlcə] Fransa və sonra Bavariyada sülh xüsusunda ciddi surətdə çalışan zatların canlarına sui-qəsd hazırlanır. Fransada Klemansonun canına sui-qəsd edildi. Xoşbəxtlik əlaməti olaraq Klemanso zərərsiz qaldı. Bavariyada Baş vəzir [Baş nazir] qətl edilib, Daxiliyyə naziri isə yaralanmışdı.

O ki qaldı Amerikaya, orada da Vilsonun canına hazırlanan sui-qəsd kəşf edilmişdir. Xoşbəxtlik olaraq bu sui-qəsd işin əvvəlində açılmışdır. Vilson sülh danışığı başlanandan bu anadək ədalət və həqiqət tərəfdarı türklərin haqlı tələblərini müdafiə eyləmişdir. Türklər Vilsonun salamat qalmasından fövqəladə surətdə şad olmuşlardır. Bu barədə Nyu-yorkdan böylə xəbər verilir:

Vilsonun şəhərə girməsindən əvvəl iskələlərin hamısında bombalar tapılmışdır ki, təbii bunları canilər partlatmaq istəmişlərdir. Bu işlərlə əlaqədar olaraq Nyu-Yorkda 14 nəfər İspaniya əhli tövqif [həbs] edilmişdir və Filadelfiyada isə 8 nəfər ispaniyalı, bir nəfər kubalı sui-qəsddə iştirak etdikləri şübhəsi ilə tutulmuşlardır. Zənn edilir ki, bu sui-qəsddən başqa digər bir sui-qəsd də hazırlanıbmış. Andrey Roqolski nam [adlı] bir anarxist, Vilsonun iqamət etdiyi [qaldığı] "Kopley Palas Hotel"ə gəlib Vilsonun olduğu apartmana girmək istəmişdir. Bu şəxs ciddi mümaniətdən [müqavimətdən] sonra hotelin nərdivanında tövqif [həbs] edilmişdir. Onun yanında tapança da var imiş. Mərqum [adı çəkilən şəxs] Vilson ilə görüşmək istədiyini etiraf eyləmişdir.

**Türkiyə ilə İran arasında teleqraf mübadiləsi**

İstanbulda müntəşir [nəşr olunan] "İqdam" qəzetəsinin məlumatına görə, İstanbul ilə Tehran arasında teleqraf müxabirəsi [xəbərləşməsi] başlanmışdır. Hər bir kəlmə sözə 45 quruş pul alınır. Bu vaxta qədər Tehran ilə əlaqəsi kəsilən İranın İstanbul səfiri Tehrana xüsusi bir məmur göndərir ki, Tehrandan, hökumətdən yeni təlimat alsın.

**Qara dəniz və Boğazlar məsələsi**

Yekaterinodardan xəbər verirlər ki, Müttəfiqlər Qara dəniz və Boğazlar məsələsini həll etməkdən ötrü bilavasitə mənfəətdar olan [birbaşa marağı olan] hökumət nümayəndələri iştirakı ilə xüsusi bir müşavirə dəvət edəcəklərdir.

**Bolşeviklər Arjentinada**

Londondan xəbər verirlər ki, Arjentinada və Uruqvayda yaşayan ruslar arasında bu axır vaxt Arjentinada olan həyəcan nəticəsi olaraq bir çox həbslər olmuşdur. Əvvəlcə 4 nəfər rus həbs edilmişdir. Bunlar Arjentina və Uruqvay hökumətləri əleyhinə guya sui-qəsd hazırlayan başçılar olduqlarını etiraf etmişlərdir. Onlar 42 nəfər başqa adam da ələ vermişlərdir. Hökumət elan etmişdir ki, bu sui-qəsd hazırlığı bolşeviklərin işidir. Bundan sonra 3 günün ərzində 800 adam həbsə alınmışdır. Polisənin verdiyi xəbərə görə, bunların 70 faizi rusdur. Həbslər əsnasında müsəlləh [silahlı] müqavimət göstərənlər də olmuşdur.

**Bolşeviklərin vəhşiliyi**

Bugünlərdə Hacı-Tərxanda [Həştərxanda] Atarbekov namın [adlı şəxsin] təhti-idarəsində [idarəsi altında] olan fövqəladə komisyonun qərarı ilə bolşeviklərlə müxalifət edən 184 nəfər atılmaqla edam edilmişlərdir. Edam edilənlərin siyahısı cümləsində zeyldəki [aşağıda əlavə edilən] müsəlmanların isimləri də gözümüzə ilişdi. Adları bərvəchi-ati [aşağıdakı kimi] dərc ediriz:

1) Mirdaməd Tağıyev; 2) Müsəlman alayının sabiq komandanı Qəzənfəroğlu; 3) Bilalov Hacı Mustafa – tacir; 4) Mustafabəyov; 5) Əncibadov; 6) Baybekov; 7) Abdullayev; 8) Sərvətdarlardan Vahabov; 9) Salehov; 10) Həsənov Ayn. Y.; 11) Ayn. E. Əhmədov; 12) H. Mustafayev.

## TÜRKİYƏ XƏBƏRLƏRİ

- İstanbulda bugünlərdə 12 nəfər rus təbəəsi olan ermənilər polis tərəfindən tövqif [həbs] edilmişlərdir. Bunların İstanbulda asayişi-ümumini xələldar etmək niyyətində olduqlarından şübhə edilərək, biltövqif [tutularaq] Etilaf [Antanta] dövlətlərinin polisinə verilmişlərdir. Polis dəxi bunları Malta cəzirəsinə [adasına] təbid [sürgün] eyləmişdir.

- İstanbulda Qalatada olan bir neçə mağazalardan təftiş nəticəsi olaraq bir çox silah tapılmışdır. Hətta mağazaların birisində mitralyoz tapılmışdır.

- İstanbulda İngilis Ticarət Palatası işə başlamışdır.

- Türkiyə Daxiliyyə naziri vilayətlərin administrasiyasını idarə edən Süleyman Fəhmi bəyin sədarətində olan komissiyaya tapşırmışdır ki, Türkiyənin qanunverici müəssisəsinə millətlərdən mütənasib surətdə nümayəndə intixab edilməsi [seçilməsi] üçün layihə tərtib eyləsin.

**Mədinənin təsliminə dair**

Qəzetələr müharibənin ibtidasından [başlanğıcından] üsyan edən ərəblərə qarşı istiqamət [mətanət] göstərib də təslim olmayan Mədinənin nəhayət mütarikə icabı olaraq [atəşkəs şərtlərinə görə] təslim olunduğunu xəbər vermişlərdi. Bu xüsusda son posta ilə alınan İstanbul qəzetələrində aşağıdakı fəqərə [xəbər] görülmüşdür:

Mədinəni müdafiə edən Fəxri paşa ən nəhayət mütarikə şəraiti mövcibincə [atəşkəs şərtlərinə əsasən] təslim olmuşdur. Məlum olduğu üzrə, əvvəla ərkani-hərb [hərbi qərargah] yüzbaşılarından Yusif Ziya bəy kəndisi[nə] mütarikə şəraitini təbliğə məmur edilmişsə də, mumaileyhin [adı çəkilən şəxsin] səyahəti müsbət bir nəticə verməmiş və bilaxirə [sonra] Məclisi-Vükəlanın [Nazirlər Kabinetinin] qərarı üzərinə bizzat [şəxsən] Ədliyyə naziri Mədinəyə getmişdir.

Fəxri paşa qırx beş-əlli yaşlarındadır. Sinfinin güzidə [seçilmiş, ən yaxşı] ərkani-

hərblərindəndi [hərbi xadimlərindən, zabitlərindən idi]. Hərbi-ümumidən əvvəl Ərzurum və İran hüdud komisyonlarında çalışmış, bu hərbin ibtidasında [başlanğıcında] Suriya tərəfinə təyin edilmişdir. Uzun müddət 12-ci Qolordu [korpus] komandanlığında və 4-cü Ordu komandanlığı vəkalətində bulundu. Bu məmuriyyəti əsnasında Adana səvahilinə [sahillərinə] vaqe olacaq bir ixraca [çıxışa, düşmənin hərbi qüvvə çıxarmasına] mane olmaq üzrə Torpaqqala tərəflərinin təhkimatına [istehkamlarla möhkəmləndirilməsinə] məmur olmuşdur. Bilaxirə [sonra] Urfa üsyanını təskin edən [yatıran], digər daxili vüquata [hadisələrə] qarşı hərəkət edən zat da Fəxri paşadır.

Fəxri paşanın Mədinədəki vəzifəsi haqqında "Axşam" rəfiqimiz şu məlumatı verir:

*"Əmir Faysal bəy Mədinəni tərk etdikdən və Hicaz əhvalı şübhəli bir şəkil aldıqdan sonra ordu Fəxri paşanı Mədinəyə göndərdi. O zaman Mədinədə hazır bulunan qüvvət ufaq-təfək həzəri [daimi surətdə yerləşmiş] qalalardan başqa Ədən mühasirəsinə iştirak etmək üzrə İstanbuldan göndərilib və vəziyyət qarışar-qarışmaz Mədinədə qalmağa məcbur olan üç min kişidən ibarətdi. Fəxri paşa bu qüvvətlə müdafiəsinə başladı.*

*Şamdan Mədinəyə qədər davam edən minlərcə kilometrə dəmiryolunu müdafiə üçün ayrıca qüvvətlər ayrıldı. Fəqət bilaxirə [daha sonra] Mədinəyə ərzaq sövq etmək, xətt boyundakı əsgəri iaşə etmək [yedirib-içirmək], Fələstində məşğul ordunun kadrosundan bu qədər əsgəri fəda etmək qabil olmayacağı anlaşıldı. Baş komandan vəkilinin də hazır olduğu bir məclisdə Mədinənin təxliyəsinə qərar verildi. Fəxri paşa kəndisinə altun göndərilmək şərti ilə əmrinə veriləcəyi ən əsğəri [ən az] qüvvətlə Mədinənin müdafiəsinə davam edəcəyini söylədi. Bunun üzərinə fəzlə [artıq] əsgərləri kamilən [tamamilə] cəbhəyə aldılar. Hətta bizzat zavallı Mədinə belə toplarından bir qismini Fələstinə göndərdi. Fəxri paşa toplarla muhat [əhatə olunmuş] Mədinənin içində bir ovuc xəstə əsgər və bir az altunla yalnız başına qaldı və 332 sənəsi mayısından bu günə qədər müdafiəsində davam etdi. Bir aralıq Nəcd tərəfinə Əmir İbnürrəşidin yardımı təmin edilmişsə də, gərək yolun uzunluğu, gərək İbnürrəşid ilə İbnüssüud arasındakı ixtilafatdan dolayı Nəcdi boş buraxmamaq məcburiyyəti və gərək bədəvilərin yerlərindən-yurdlarından ayrılmağa razı olmaması bu müavinəti faydasız buraxdı. İbnürrəşid ancaq məhdud bir müinlə [köməkçiylə] xətt boyuna gələbildi.*

*Fəxri paşa müsəlman, eyi ürəkli, nəfəri [əsgəri] fövqəladə sevən bir komandandır. Əsgərləri kəndisinə qəlblərindən bağlıdır."*

## DAĞISTAN ƏHVALI

**Dağıstan zabitləri və Denikin**

Bugünlərdə polkovnik Hacı Murad başda olmaq üzrə Teymurxanşurada bir çox Dağıstan zabitlərinin ictiması [yığıncağı] olmuşdur. İctimada əhvali-hazirə müzakirə edilərək zabitlərin Dağıstan hökumətinə olan soyuq münasibəti üçün müttəhim edilmələri qəti surətdə təkzib





edildikdən sonra qərar qoyulmuşdur ki, Dağıstan zabitlərinin Könüllü orduya olan münasibətləri şayiəsi təkzib edilsin. Parlaman sədrinə və hökumətə xəbər verilsin ki, millətin bir hissəsi olan zabitlər xalqın mənafeyini gözləyib axrıncı qüvvəyə qədər Dağıstan hökumətinin səlamətliyini [düşünərək], Denikin ordusu əleyhinə müdafiədə bulunacaqdır.

**Lyaxov və dağıstanlılar**

Verilən xəbərlərə görə fevralın 16-da Qroznıda general Lyaxov çeçen nümayəndələri ilə birinci dəfə görüşdükdə, nümayəndələrin danışıqlarından pərişan olub demişdir ki, mən sizi buraya məsləhət üçün deyil, rus hökumətinin ixtiyarını elan etməkdən ötrü dəvət etmişəm.

**Qroznıdan**

*(Öz müxbirimizdən)*

- Könüllü qoşunları Çeçenistanda Berdıkel, Alxan-Yurt kəndlərini alıb, bir neçə hissələrini yandırdıqdan sonra çeçenlər dübarədən hücuma başlayaraq həman kəndləri aprelin 10-da geri almışlardır. Könüllü ordu böyük tələfatla Qroznı dağlarına qədər qovulmuşlar.
- Qudermes istasyonu aprelin 13-də çeçenlər tərəfindən dübarə alınmışdır. 16 nəfər çeçenlərdən şəhid olub, Könüllü ordunun tələfatı minlərlədir.
- Qroznı xəstəxanalarında üç minə qədər Könüllü ordunun yaralıları vardır. Yaralılar arasında yatalaq naxoşluğu nəhayət dərəcədə şiddət etmişdir.
- Könüllü ordu bolşeviklər tərəfindən qalmış xəstəxanalarda olan bolşevik naxoşlarını xəstəxanalardan çıxarıb küçələrə atırdılar. Belə ki, naxoşların əllərinə kürək verib küçələri təmizlədirdilər. Könüllü ordu ilə olan davada çeçenlərin arvadları da kişiləri ilə bərabər iştirak edirdilər.
- Hər gün şəhərə Könüllü ordunun yaralılarını arabalarla gətirirlər. Könüllü ordu camaat həyəcana düşməsin deyə, yaralıları gecələr gətirirlər.
- Şəhərdə aclıqdır. Adam başına bir çətvər çörək verilir.

## VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

Hökumət dəftərxanası qulluqçuları sabiq Rəisi-Vükəlaya böylə bir ünvan [məktub, müraciət] təqdim etmişlərdir:

Alihəzrət Fətəli xan!

Hökumət dəftərxanası məmurini [qulluqçuları] və xidmətçiləri sizin hökumət başından getmənizə təəssüflər izhar etməklə, məmurin və xidmətçilərlə olan təmkin və müdafiəkaranə rəftarınızdan naşi [ötrü] sizə təşəkkürlər edirlər. Sizin on ayadək bir müddətdə yorulmaqsızın fəaliyyətiniz bəhrəsi olaraq vətənimiz başqa cümhuriyyətlər kimi lazımınca möhkəmləşib, lazımi dərəcəyə varmışdır. Biz sizin fəaliyyətinizin vətən yolunda olmağına şəhadət veririz.

*İmzalar*

* Xariciyyə nazirinin Nəzarət [Nazirlik] xidmətçiləri və maaşlarının təsdiqi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzəni təsviblə [bəyənməklə] nazirə tapşırılsın ki, təsdiq üçün Məclisi-Məbusana idxal etsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

- Yeni təyin edilmiş Ümuri-Xeyriyyə və Nafiə [Sosial-Təminat] naziri Viktor Viktoroviç Klenevski nisanın 15-dən etibarən öz vəzifəsinin ifasına başlamışdır.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən Mərkəzi Ev Komitəsi iaşə məntəqələri müdiri doktor Bron Şura üzvü hüququ ilə Nəzarət Xeyriyyə İşləri müdürlüyünə dəvət edilmişdir.

- Qazax qaçqınlarının ağır halını xəbər almış Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Gəncə nahiyə müfəttişinə teleqrafən müraciət edərək, təcili surətdə onlar üçün ərzaq almağı tapşırmışdır.

- Böyüklər üçün darüləcəzə [əlillər evi, qocalar evi] güşadı [açılması] ehtimalına görə Ümuri-Xeyriyyə və Nafiə naziri Səhhəti-Ümumiyyə Nəzarəti ilə etilafa [razılığa] girmişdir ki, bir qədər lazım olacaq əşyanı məzkur [deyilən] darüləcəzə üçün versin.

## "MÜSƏLMANLAR KƏNDİLƏRİNƏ ƏFƏNDİ DEYİL, DOST İSTƏYİRLƏR"

İngilis müstəşriqlərindən [şərqşünaslarından] Herbert Adams Gibbonsun yuxarıdakı cümləsini sərnameyi-məqal ittixaz edərək [sözünün başı, ünvanı qəbul edərək], türk mühərrireyi-şəhirəsi [məşhur türk qadın yazıçısı] Xalidə Ədib xanım əfəndi İstanbulda çıxan "Vaxt" qəzetəsində bizi Rəisi-cümhur Vilson həzrətlərinin nəzdində [yanında] Sülh Konfransına gedən Amerika ricalından [dövlət xadimlərindən] Herbert Adams Gibbonsun aləmi-islam və bilxassə [xüsusilə] türklər haqqındakı mülahizati-dostanəsi [dostcasına fikirləri] ilə aşina edir. Bizim qarelərcə [oxucularımız üçün] də şayani-əhəmiyyət olduğundan [əhəmiyyət daşıdığından], məzkur [deyilən] məqaləni aşağıya nəql ediriz.

Xalidə xanım yazır:

Rəis Vilsonun Sülh Konfransı üçün Avropaya məiyyətində [öz yanında] gətirdiyi sima və dimağlar [zehinlər] təbii olaraq bizdə əzim [böyük] bir maraq və diqqət oyandırır. Bilxassə Şərq məsaili [Şərq məsələləri] ilə iştiğal etmiş [məşğul olmuş], İstanbulda bulunmuş, bizim torpaqlarımızın tarixini sənələrcə tədqiq və mütaliədən sonra Amerikada böyük bir mövqe qazanacaq surətdə yazmış və nəşriyyat yapmış müvərrixlərin [tarixçilərin] Şərq məsələsində fikirləri soru[şu]lmaq üçün gətirilmiş olmaları böyük bir əhəmiyyətlə tələqqi olunur [qiymətləndirilir]. Rəis Vilsonla Parisə türk və müsəlman tarixi ilə iştiğal etmiş Laybayer kimi məşhur bir sima yanında, bir də Herbert Adams Gibbons gətirilmişdir. Son sənələrdə Amerikada asarı [əsərləri] pək çox satılmış və şöhrət almış adamlardan biri olan Gibbonsun müharibə əsnasında yazdığı siyasi məqalə və kitabları ələ keçirməyə çalışdıq. Bizim üçün çox dostanə bir surətdə yazılmış olan "İstanbul" məqaləsini əldə etməyə məəttəəssüf [təəssüf ki], hənüz müvəffəq olammadıq. Fəqət "Avropa və İslam" deyə yazdığı bir məqalənin bəzi parçalarını torpaqlarımıza, siyasətimizə və müsəlman bir millət olmaq sifəti ilə türklərə təəllüqü [dəxli] olduğundan, bəzi parçalarını xülasə edib nəqlini münasib gördüm:

*"Şərq məsələsində İslamiyyətin kəndinə məxsus bir əhəmiyyəti var. Sülh Konfransında gərək Avropa himayəsində, gərək müstəqil bir çox müsəlman hökumətlərlə müsəlman məmləkətlərində bulunan xristianların şikayətləri, əməlləri [arzuları] müzakirə ediləcəkdir.*

*Avropanı yeni əsaslar üzərinə yenidən bina edə bilmək üçün tətbiqi lazım gələn müttəhid [birgə] siyasətin ən mühüm icabatından [zərurətlərindən] biri də bu millətlərə qarşı adilanə və amilanə [ədalətli və təsirli] bir surətdə hərəkət edilməsidir. Şimdiyə qədər Avropanın müsəlman aləminə qarşı xətti-hərəkəti mənfəət və istila fikirlərinə istinad etmişdir. Avropa, ticari və siyasi istila hərəkətləri nəticəsində müsəlmanlarla təmasa gəlmiş və Avropanın islam aləminə qarşı beynəlmiləl siyasəti daima təhdid və mənfəət üzərinə təsis etmişdir. İttihadi-islam [İslam birliyi] və cihad, islam aləminin deyil, Avropa fikrinin bir-birinə qarşı qullanmaq üzrə yaratdığı və ortaya atdığı bir fikirdir. Bu fikri kəndinə mal edinərək ittihadi-islamı Avropa əleyhinə qullanmaq istəyən Əbdülhəmid məəttəəssüf [təəssüf ki], islamda Əl-Əfqani, Əl-Kövkəbi, Şeyx Məhəmməd Əbduh kimi dini siyasi qayələrə deyil, fikri və əxlaqi qayələrə istinad etdirərək islamiyyətdə təcəddüd [yenilənmə] və yeni bir həyat yaratmaq istəyən böyük mücəddidlərin [yenilikçilərin, reformistlərin] məsaisini əqim buraxdırmışdır [zəhmətini səmərəsiz qoymuşdur]. İslamiyyətdə siyasətin öldürdüyü həyat və səmimiyyəti iadə edəcək [geri qaytaracaq] olan və ancaq mənfəət və siyasəti dindən ayırmaq surəti ilə başlaması qabil bulunan təcəddüd hərəkəti bu surətlə söndürülmüşdür. Əbdülhəmid ittihadi-islam siyasətinin bir dərəcəyə qədər müvəffəqiyyətini Avropanın islam müstəmləkələrində adil və insaniyyətkar olmamasına mədyundur [borcludur]. Əgər Avropa kəndi idarəsindəki müsəlman əhaliyə və müstəqil müsəlman hökumətlərinə qarşı geniş bir siyasət, insaniyyətkar bir vəziyyət alsaydı, bu siyasətdən qorxmağa məhəl [yer] qalmazdı. Avropa islam aləmində təcəddüdə və demokrasiyə qarşı oyanan təmayülü təşviq etməli idi. Əgər Avropa islam aləminə mərdanə müavinət etmiş olsaydı, oralarda yaşayan insanlar da dini təcəddüd sayəsində etila [tərəqqi, inkişaf] edər, onlar da Avropadakılar kimi hürr və milli idarələr təsis edə bilərdi.*

*Fəqət bunu Avropa istəmədi və Poloniyanın aqibətini fəna siyasəti ilə müsəlmanlara da tətbiq etdi. Müsəlmanların iddiayi-haqqı və fəryadı nafilə [boşuna] göylərə çıxır, fəqət Avropa bunu dinləməyir. Avropadakı kiçik millətlərin fəryadının dinlər kimi görünməsi də sırf siyasi mənfəətlərinin göstərdiyi lüzumdandır.*

*Halbuki, həqiqətdə ittihadi-islam qorxusu xəyaldan başqa bir şey deyildir. Siyasət üzərinə bina edilən ittihadlar zənn edildiyi qədər qüvvətli deyildir. Xristian Avropa nasıl bir-birinə ayrı və müxasim [düşmən] qalmışsa, müsəlman Asiya və Afrika da məzhəb, lisan və millət fərqləri ilə bir-birindən uzaq və bəzən də müariz [müxalif, rəqib] qalmışdır. Bunun*

*ən bariz bir dəlili türklərin cihad elanı ilə canlı bir surətdə meydana çıxmışdır. Cihad, zənn edildiyi kimi aləmi-islamı türklərin arxasına toplamamışdır.*

*Fəqət müsəlman millətlər arasında ümumi və müştərək olan başqa bir hiss vardır ki, o da bu gün bir həqiqət halını haizdir [bir həqiqət halını almışdır]. Müsəlmanlar xaricdəki ümum əcnəbilərə şübhə və əmniyyətsizliklə [etimadsızlıqla] baxdıqları kimi, kəndi aralarındakı xristianları da o əcnəbilərin mənfəətinə və siyasətinə xadim [xidmət edən] ənasir [ünsürlər] sifəti ilə sevməzlər. Bunda müsəlmanların yanlış olduğunu isbat etmək, Şərq məsələsini bu isbatla həll edə bilmək üçün Sülh Konfransı müsəlmanlara parlaq cümlələrlə deyil, feillərlə şu iki mühüm nöqtəni təsbit etməlidirlər:*

*1) Şimdiyə qədər istiqlaliyyətini mühafizə etmiş olan müsəlman məmləkətlərini təqsimdən [bölməkdən] təvəqqi [çəkinmək], onları məhkum bir millət halına soxmaqdan ictinab [saqınmaq].*

*2) Avropanın hakim sifəti ilə bulunduğu məmləkətlərdə əhalini ən səri [sürətli] surətdə kəndilərini idarə edə biləcək, istiqlallarına sahib olacaq hala soxmağa çalışmaq.*

*Bütün bu iddialarımız arasında statükonun [mövcud vəziyyətin, status-kvonun] mühafizəsinə tərəfdarız. Buna toxunmaq yalnız müşkül deyil, faydasızdır. Müharibədən əvvəl avropalıların idarəsində bulunan müsəlman məmləkətləri olduqları kimi qalacaqlardır. Bunlarda iyirminci əsr əsasatına [əsaslarına] daha müvafiq bir idarə təsisi hər halda yalnız ədalət naminə deyil, bəsirət [uzaqgörənlik] naminə də lazımdır. Misirdə İngiltərənin yaratdığı maddi ümran [rifah; tərəqqi] hər halda misirliləri türk idarəsindən ziyadə İngiltərəyə bağlamışdır. Misirlilər kəndilərini idarəyə müqtədir bir hala gəlincəyə qədər Misir İngiltərədə qalacaqdır. Türkiyə, İran, Əfqanıstan şimdiyə qədər hürriyyətini mühafizə etmiş müsəlman məmləkətlərindən məduddurlar [sayılırlar]. Bunların istiqlaliyyətinə toxunulmamalıdır.*

*Bunlardan biri Türkiyə, dünyanın su yollarından birinə, yəni Boğazlara sahib bulunur. Türkiyənin Boğazlardakı hakimiyyəti Amerikanın Panama, Almaniyanın Kil kanallarına hakimiyyəti kimi məqbul olmalıdır. Bu kanalların həpsi birdən beynəlmiləl ola bilər. Fəqət içindən birini ayıraraq beynəlmiləl yapmaq doğru olammaz.*

*Əfqanıstan və İranın bitərəfliyi və istiqlaliyyəti yalnız insaniyyət nöqteyi-nəzərindən deyil, daimi bir sülh təmini üçün də əlzəmdir [əhəmiyyətlidir].*

*Sülh Konfransının ən çox müşkülatla və bəlkə ixtilafla müzakirə edəcəyi məsələ Osmanlı imperatorluğudur. Osmanlı imperatorluğunda Avstriyada olduğu kimi din, lisan, ənənə və milli şüurunu ayrı-ayrı mühafizə edən bir çox millətlər vardır. Bu millətlərin hakim millət tərəfindən olduqca fəna müamiləyə məruz olması məsələni müşkülləşdirir. Türklərin bilxassə müharibə sənələrində qital [qırğın] ilə, dillərini tədbil [dəyişdirmək] ilə və müdhiş cinayətlərlə bu millətləri imhaya [məhv etməyə] təşəbbüsü məsələni daha qarışıq bir hala soxmuşdur.*

*Bundan başqa, bir də Suriya xristianları ilə Fələstin məsələsi vardır ki, onlar da ayrıca mütaliəyə şayandır [ayrıca qiymətləndirilməyə layiqdir]. Fransa, İngiltərə, Rusiya və İtaliyada Osmanlı İmperatorluğunun təqsimini [bölünməsini] təklif edən bir çox məşhur imzalara təsadüf ediriz. Bunların dəlailindəki [dəlillərindəki] düşüklük ciddən şayani-heyrətdir [heyrətə layiqdir]. Bu adamların bəşərin hürriyyəti üçün müharibə etdiklərini elandan sonra bu kimi iddialarla bitərəflərin məhəbbət və təqdirini tələb etmələri pək qərib[ə]dir. Hələ kiçik millətlərin hüququ deyə hayqıranlar eyni nəfəslə Balkanları Almaniyanın müttəfiqi olan balkanlı və türk şəriki-cürümlərindən [cinayət şəriklərindən] təthir ilə [təmizləməklə], oraları kəndi pənçələrinə keçirmək istəmələri əmniyyət oyandıra bilərmi?*

*Bu yerlərin həqiqi sahibləri kimlərdir? Yalnız bir qaç imtiyazlı millətmi istiqlalına və hüququna sahib olacaq? Bir belçikalı ilə bir əfqanlı və ya bir iranlının hüququ arasında nə fərq vardır?*

*Bu məsələnin bu qədər tikanlı görünməsi Avropa diplomatlarının əsəridir. Həqiqi olaraq Avropa dövlətləri müharibəni hürriyyət müharibəsi olaraq tələqqi etsinlər [qiymətləndirsinlər], istila və mənfəətdən sərf-nəzər etsinlər [vaz keçsinlər] – məsələ bəsit və qolay olar. Suriyada bir Suriya hökuməti, Ermənistanda bir erməni hökuməti, adaların yunanlılara tərki [verilməsi] daimi bir sülh təmin edə bilər.*

*Türklər və yaxud kəndini türk ədd [hesab] edən müsəlman qisim on milyon kəsafəti-nüfusu havi [əhali sıxlığına malik] çox canlı bir millət kütləsidir. Onların hakimiyyət altına alınmağ[ın]dan bəhs etmək mənasız və budalaca bir iddiadır.*

*Arzular hər vaxt həqiqət olammaz. Binaənileyh [ona görə] yunan, erməni və Suriya hüdudunu çox etidal [təmkin] və diqqətlə cızmalıdır."*

## MİLLİLƏŞDİRMƏ HAQQINDA

Beş-on gün bundan əvvəl Posta və Teleqraf Nəzarəti tərəfindən bilümum [bütün] Azərbaycan posta və teleqrafxanalarında türkcə olaraq teleqrammaların qəbulu və tədiyəsi [verilməsi] rəsmi surətdə elan edilmişdi və xüsusunda ayrıca qəzetə sütununda müxtəsər məlumat verilmişdi. Elandan sonra təati və cari olan [mübadilə edilən və göndərilən] teleqrammaların məzmunu türkcə olaraq və yazısı rus yaxud latın hürufatı [hərfləri] olduğundan bəziləri narazı qalmış və nə üçün birdəfəlik yazısı da türkcə ifa edilməyir sualı kimi verilmişdi. Bu cəhətdən lüzum görülür ki, hazırda bütün müəssisələrimizdəki əhvala dair müvafiq məlumat verilsin.

Bu dəfə mövcud hürufatımızı və bu hürufatın müəssisələrdəki müstə'məl [istifadə edilən] teleqraf aparatı ilə müayinə [yoxlayaq], eyni zamanda əski hökumətin bizə buraxdığı türkcə savadı olmayan çoxlu məmuru nəzəri-etibara alalım. Hürufatımızın şəkli və hər bir kəlmədə qeyri lisanların hürufatı kimi daim bir surətdə yazılması pək görülmədiyindən və hər dəfə başqa-başqa şəklə girib də yazılması ən birinci işkal [çətinlik] və birinci maneə təşkil edir. Həm də sədası bir və kəlmələrdə yazıldıqları halda cürbəcür məna verən bir çox hürufat da teleqraf işlərində süubət [çətinlik] göstərir. Bu cəhətdən hürufatımıza mü-

tənasib birdən-birə təlimat və üzərləri ilə istemalda bulunan üç-dörd növlü teleqraf aparatlarına təlimat hazır etmək bu zamanda səhl [asan] deyildir. Doğrudur Morze aparatı ilə və onun əlamətləri üzrə hər bir cürə hürufat icra edilir. Fəqət onun üçün də yenə lazımi təlimat hazırlamalı.

Sair aparatlara yəni "Hyuz" və "Bodo"[ya] gəldikdə, bu aparatlar əsasən öylə hazırlanmışdır ki, onlarla ancaq bitişikli və daim sabit hürufat verilir. Bizim qırıq hürufatımız isə onunla ifa edilməz. Bu səbəbdən şimdilikdə hürufatımıza müqabil aparat əldə etmək müsaid görülmədiyindən, həm də büsbütün müəssisələrimizdə mövcud türkcə bisavad məmurini [məmurları] bərtərəf etmək [aradan qaldırmaq] qeyri-mümkün olduğundan, hələlik rus hürufatıyla teleqramların verilməsi imkanı verilmişdir. Fəqət əmin olmalı ki, Nəzarət [Nazirlik] bu nöqsanı bərtərəf etməkdən ötrü çalışır.

Birinci növbədə Nəzarətin məktəbindən bir az keçməz türkcə savadlı bir çox məmurlar çıxacaqdır. Eyni zamanda müəssisələrimizdə bulunan məmurlar türkcəni öyrənməyi və bu lisan üzrə hürufatın ifasına çalışacaqlar.

Posta və Teleqraf Nəzarəti qeyri-müsəlman məmurini bu halda lisan bilməmələri üçün birdən-birə teleqrafxanadan kənar etmək və yerlərində sayı çox az görünən türk məmuru təyin edə bilməzdi. Nəzarət cümhuriyyət məmləkətimizi nəzəri-etinaya alaraq adilanə, həm də imkan daxilində buluna bilinən işlərlə və müamilə ilə [davranışla] rəftar edir və milliləşdirmək işində də başqa Nəzarətlərdən daha ciddi və daha fəaliyyət göstərir. Nəzarət, müəssisələrimizdə xidmətdə bulunan bir çox fəna ünsürlü, məsləki və əqidəsi cavan cümhuriyyətimizə mütəzadd [zidd] görülən şəxsləri işdən kənar edir. Eyni zamanda ümum müəssisələrin baş müdiriyyətini qayət fəal və qayət vətənini və millətini sevən Bəhram bəy Vəzirov kimi bir zata həvalə etmişdir. Və bu zat hər bir cəhətdən müəssisələrin nizam və qaydaya düşməsini, milliləşdirmək işini irəliyə salmağını, müəssisələrdəki bir para rəva görülməyən şeylərin qaldırılmasını, müxtəsər, hər bir xüsusda idarələrin doğru və əhalinin arzu etdiyi üzrə qoyulmasına böyük diqqət və əhəmiyyət verir. Ümidvar olmalıyız ki, bu cürə zatların fəaliyyəti sayəsində get-gedə Nəzarət işləri milli bir şəkil və tərz alacaqdır. Fəqət çox gözəl olardı ki, qeyri Nəzarətlər də Posta və Teleqraf Nəzarəti kimi mililəşdirmək haqqında bir az fəaliyyət göstərəydilər. Məəttəəssüf [təəssüf ki], qeyri Nəzarətlərdə bu haqda çalışan yoxdur.

Bu gün Azərbaycan daxilində mövcud bütün milliləşdirilmiş ibtidai məktəblərdə dərslər türkcə gedir. Müəllimləri türk, qəza xalq məktəbləri müdiri türk, fəqət mabeynlərində təati və cari olunan münasibat və məktubat [aralarında mübadilə edilən və göndərilən xəbərləşmə və məktublar] rusca gedir.

Halbuki bu kimi bir münasibat da türkcə olması imkan daxilindədir. Həmçinin Daxiliyyə Nəzarətindəki işləri milliləşdirmək işlərində ən artıq çalışan gərək müsəlman əhalimiz olsun. Çünki onlar Nəzarətlərə və hökuməti müəssisələrə [hökumət müəssisələrinə] rücu [müraciət] etdikdə, ərizələrini rusca yazmayıb da türkcə yazmalıdırlar. Halbuki əhalimiz də milliləşdirmək işinə heç də əhəmiyyət verməyib, əski adət üzrə iş görməkdədirlər. Doğrudur, əhali rusca yazılıb verilən bir ərizənin nəticəsi türkcə yazılmış bir ərizədən daha çabuq olar fikrindədirlər. Lakin bu fikir doğru olmasın gərək zənn edirəm. Ancaq əhalinin milliləşdirmək işinə əhəmiyyət verməsindən, olsun ki, bu iş daha sürətli irəli getsin. Bu cəhətdən əhalimiz hökuməti müəssisələrə rücu etdikdə ərzihallarını türkcə yazmaları səvabdiddir [düzgündür] və eyni zamanda Nəzarətlərdə bulunan məmurin hökumətin rəsmi lisanını öyrənib bilməyini icbar edərlər. Hər halda əhali müraciətlərində diqqət verməlidirlər.

*R[əsul] Rəhimli*

**İdarədən:** Doğrudur; ancaq bu gün teleqrafları türkcə yazmağa mane olan bir şey varsa, o da nə teleqraf aparatının türkcə yaza bilməməsi, nə də hürufatımızın yararsızlığıdır. Bəlkə teleqrafçının türkcə savadsızlığıdır.

İş bundadır ki, teleqraf aparatı rus və ya qeyri-rus hərfləri ilə yazmayıb, özünə məxsus başqa hürufatı vardır ki, o hürufat ilə qeyd edilən sözləri hansı dildə istəsən teleqraf sahibinə göndərilən blank üzərində yaza bilərsən və bu gün madam ki, Azərbaycanda teleqrafların məzmunu türkcə yazılır, o halda o məzmunu bizim öz hürufatımızla blank üzərində qeyd edərsək, mətləbimiz tamamilə hasil olar. Bunun üçün indi ki, hələ türklərdən teleqrafist yoxdur, o halda qeyri-türk olan teleqrafist yanına bir nəfər savadlı türk oturtmalıdır ki, həmin blankları türk hürufatı ilə yazsın, həm də türk hürufatı ilə yazılmış teleqrafları qəbul etsin.

## MÜƏLLİMLƏRİN HALINA DAİR

Gəncə vilayəti Türk Müəllim və Müəllimələri İttifaqının ümumi iclası qətnaməsi mövcibi [əsasında], müəllim və müəllimələr nisan ayının 5-dən etibarən üç günlük tətil elan etdilər. Bu tətildən məqsəd kəndi hali-pürməlallarını [kədərli hallarını] Maarif Nəzarətinə bildirmək və haqlarında göstərilən ədəmi-etinaya [etinasızlığa] etiraz etmək idi. Kəndim müəllim olduğum üçün onların haqlı ya haqsızlıqlarına dair bəhs etməyim münasibətsiz isə də, müəllimlərin maddi və mənəvi həyatına müəllim olduğum həsəbi [səbəbi] ilə aşina olduğumdan, bir neçə kəlmə yazmağa kəndimi haqlı görürəm.

*"Gər bovəd dər matəmi səd növhəgər,*
*Ahe sahebdərdra başəd əsər."*

Dərd sahibinin dərdini dərdlilər bilər.

Gəncə müəllimlərinin bir qismi rus hökumət dövründən qalma, bir qismi diyari-axərdən [başqa yerdən] gəlmə, digər qismi də yeniyetmələr olduğu müşahidə olunur. Başqaları ilə şimdilik işim yox. Əski müəllimlər – rusluq dövründən qalma əqaid [dini inanışlar] və türk dili müəllimlərinin halından başlayalım. Bu

zavallılar o zaman məvacib alıb dərs verərdilər, amma verdikləri dərsdən məsul deyildilər. Yəni dərsləri nə qədər zəif keçsəydi, o qədər kəndi amirlərini məmnun edərdilər. Hələ bəlkə "xaraşo" ["yaxşı"] olardılar. Aldıqları maaş kəndilərini idarə etməyirdisə də, axundluq, mollalıq, mirzəlik, əkinçilik və qeyri kəsblərlə [işlərlə] məişətlərini [dolanışıqlarını] təmin edərdilər. Müəllimlik də mədaxil mənbələrindən biri idi. Camaat arasında nüfuz və etibarları da olmasaydı, əhəmiyyət verilməzdi. Çünki qurulan planın quruluşu öylə idi ki, çocuğunu məktəbə qoyan atalar çocuğunun türkcə deyil, rusca oxumasını, "net", "yes" bilməsini arzu və tələb edirdilər. Bunu da təlim edən rus dilinə dar[a] [rus dilindən xəbərdar, rus dilini bilən] türk, erməni, gürcü və rus müəllimləri idi. Nəzərdə tutulan rus dili müəllimi və rus lisanı idi. Müsəlmanca və türkcə oxumaq bir parça məsxərə, "zakon bojiy" [ilahi qanun] adlanan elmi-ilahi dərsi isə başdan-ayağa gülünc idi.

Şükürlər olsun ki, zaman dəyişdi, hər iş tərsinə döndü, türkcə oxumaq əhəmiyyət kəsb etdi [qazandı]. Rus lisanı əhəmiyyətdən düşməyə başladı. Qulluqdan azad olduq, haqqı-məşrumuzu [qanuni haqqımızı] aldıq və bu halın nəticəsi olaraq məzkur [deyilən] müəllimlərin vəzifələri ağırlaşdı. Məhkum və məzlum türk və əqaid müəllimləri – dövlət müəllimləri, türk dili də hökumət dili oldu. Məktəblərimiz milliləşməyə, türk müəllimlərinin dərəcəsi yüksəlməyə başladı. O vaxtdan müəllimlərimiz kəndi mövqelərini düşünərək, öz əməllərindən məsul olduqlarını bilərək, kəndi vəzifeyi-müqəddəsələrinə [müqəddəs vəzifələrinə] başqa həvəs, digər məqsədlə girişdilər. Keçmişdə rus müəllimləri 200 manat alarkən 8 manat, ən nəhayət 20 manat alan müəllimlər maddi cəhətdən təmin ediləcəklərinə şübhə etmədilər. Bəxtlərinin yar olduğunu yəqin etdilər. 20 manat alan müəllimlər birdən-birə 200 manat, bir az sonra 300 manat, 450 manata qədər alıb, 6 ay xidmət edəndən sonra duydular ki, aldıqları 400 manat deyil, ancaq 4 manat imiş. Heç olmazsa 20 manat almış olan kimi olmaq üçün 2000 manat almaq lazım imiş. Bu məsələni son vaxtlarda duymadılar. Müəllimlər hesab elmindən xəbərsiz deyildirlər. Onları məşğul edən ikramiyyələr [mükafatlar, hədiyyələr], vədələr və ümidlər idi. Xüsusi dərs vermək, yazı yazmaq və qeyri işlər ilə təmini-məişət edən müəllimlər var imiş. Ayda 15 manat alan müəllimlər birdən-birə 400 manat aldıqlarına görə səs çıxarammayırlarmış. İştə, İttifaqın sayəsində müəllim əfəndilərdən əksəri aldıqları maaşları iki gündə sərf edib, 28 gün möhtac qaldıqları, boş əkməklə keçinməkləri meydana çıxdı. Böylə fövqəladə zamanda öylə qeyri-qabili-təhəmmül [dözülməz] yaşamağa səbr və davam edəmməyib, üç günlük tətil ilə hallarını deyil ancaq Maarif Nəzarətinə, bəlkə əhaliyə də elan etməyə məcbur oldular. Bu hal süni deyil, təbii idi. Təbiətin önünü almaq mümkün olmadığı kimi, bu tətilin də önünü almaq imkan xaricində idi. Baxalım nəticəsi nə olacaq!

*Mirzə Abbas [Abbaszadə]*





## ÖMƏR FAİQ ƏFƏNDİ ÜÇÜNCÜ DƏFƏ HƏBSDƏ

Faiq əfəndi beş aydan bəridir ki, Tiflisdə gah həbsxanalarda, gah beşər-onar gün azad edilərək polisə nəzarətində bulunmaqda idi. Aprelin ikisində üçüncü dəfə tutularaq Metex qalasına salındı. Bu dəfəki həbsin səbəbi də əski səbəblər kimi "Gürcüstan üçün müzirr [zərəli] fikirli" olması idi. Bu siyasi müzirr fikirlinin, yəni Faiq əfəndinin həbsi, əlbət ki, adi həbslər kimi deyil, bəlkə hazırdakı Axıska vüquati-hərbiyyə və tarixiyyəsi ilə əlaqədar və əhəmiyyəti-siyasiyyəni haiz [siyasi əhəmiyyət daşıyan] bir həbsdir. Bununla bərabər, mən burada bu həbsin əhəmiyyətindən, əsbabından [səbəblərindən], məhbusun çəkdiyi əzab və bəlalardan bəhs edəcək deyiləm. Ancaq bu həbsdən çıxardığım iki həqiqəti qarelərə [oxuculara] bildirmək istəyirəm:

1) Sosialist Ramişvili hökumətinin müstəbidanə hərəkəti;

2) Faiq əfəndinin ənudanə [inadkar] səbatı.

Əvət, bu həbs adi həbslərdən deyildi. Bu, Daxiliyyə naziri Ramişvili ilə Faiq əfəndinin arasında və intiqamcuyanə [intiqam almaq fürsəti axtaran] siyasi bir mübarizə idi. Ramişvili əlindəki hökumət ixtiyarı və gücü ilə Faiqi əzmək, məsləkindən çevirmək istəyir. O isə ürəyindəki böyük əqidə və ümidlə ruhlanıb, hər dürlü bəlalara təhəmmül edir [dözür], xəstəliyinə baxmayaraq fövqəladə bir səbat, həm də qayət ənudanə bir səbat göstərirdi.

Faiq əfəndi, həbsxananın müstəkrəh [ikrah doğuran] və qəmli həyatı ilə əsla kəndini üzməyir, bütün vaxtını kitab mütaliəsi əyləncəsi ilə keçirir, məyusiyyətdən uzaq, daima uzaq bulunurdu.

Faiq əfəndi birinci dəfə əsgəri həbsxanada bir ay qədər həbs edilib polisə nəzarətində bulunmaq üzrə beş-on günlüyə azad edilirdi. Lakin bu azadlıq onun üçün həbsdən artıq bir bəla olurdu. Məmləkəti Axıska haqqında yazılan böhtanları oxuduqca, camaata edilən zülmləri eşitdikcə ürəyi daha ziyadə yanır, beyni daha artıq sızlayırdı. Edilən təcavüzlərə, siyasi intriqalara qarşı sükutu kəndisi üçün həqarət sayırdı. Axırda böhtanları rədd üçün qələmə sarılır, rusca qəzetələrdə elani-həqiqət edir və bu yol ilə gürcü əfkari-ümumiyyəsini [ictimaiyyətini] həqiqətdən xəbərdar etməyə çalışırdı. Bu xüsusda bir saat olsun boş durmaq, fürsəti qaçırmaq istəməyirdi. Bu isə, yəni həqiqətin üstünü açmaq isə, Ramişvili hökumətinə xoş gö-rünməyirdi. Buna görə idi ki, on günlük əzabavər [əzab verən] bir azadlıqdan son-ra Faiq əfəndi yenə bir bəhanə ilə ikinci dəfə həbs edilir və bu surətlə vücudu ilə bərabər "dili" də bağlanırdı.

Biçarə həbsxanada belə yalnız öz dərdi ilə qalmayırdı. Xəbər alırdı ki, Axıskada qardaşlarını, yegənlərini, yaxın qohumlarını, fikirdaşlarının həpsini həbs eyləmişlər. Hətta bir gecə on-on beş gürcü, Faiq əfəndinin ailəsi bulunduğu evə hücum edib oranı dağıtmaq, talan etmək, çocuqlarını doğramaq istəmişlər... İştə bunları, bu kmi zülmləri həbsxananın qorxulu divarları arasında xəbər alan Faiq əfəndi yenə məyus olmayır, ümidi-istiqbal ilə ruhunu, səhhətini əsla pozmayırdı.

Axıskanın yeddi martda gürcülər tərəfindən zəbt edilməsinə görə Faiq əfəndi ikinci dəfə həbsdən azad edilirdi. Lakin bu azadlıq onun üçün daha böhranlı, hətta həbsdən daha həyəcanlı, daha xələcanlı [narahat] olurdu. Çünki heç bir gün keçməyirdi ki, Axıska faciəsini bildirən birər qara xəbər, birər acı kədər almayaydı. Böylə qara xəbər və ciyərsuz [ciyər yandıran, qəmli] halların təsiri ilə idi ki, Faiq əfəndi gürcü dairələrində sevilmədiyinə baxmayaraq hər gün gah hökumət rəisi Jordaniyaya, gah Xariciyyə naziri Gegeçkoriyə, Hərbiyyə naziri müavini Gidivanova müraciətlə axıskalılara edilən zülm və təcavüzlərin bir saat əvvəl qət edilməsini [dayandırılmasını] insaniyyət naminə rica edirdi. Hətta bəzən sıx-sıx müraciətini təciz dərəcəsinə qədər çıxarırdı. Lakin bunun üçün əsla çəkinməyirdi. Çünki özü üçün deyildi.

Heç yadımdan çıxmaz, bir gün: "Madam ki, bəzi nazirlər xatirini sayır, ricanı qəbul edirlər, neyçün kəndin üçün də bir ricada bulunmayırsan" deyə soruşmağım üzərinə Faiq əfəndi sərt bir səslə: "Mərhəmət dilənçisi deyiləm. Biləks [əksinə] işimin ən şiddətli əsgəri məhkəməsinə verilməsini tələb etmişəm" cavabı ilə məni adəta utandırdı. Doğrudan da kəndisinin yüz dürlü dərd-ehtiyacını buraxıb daha aciz olanların xilasına çalışır, köylü biçarələrin fəryadlarına yetişmək istəyirdi. Son vüquat [hadisələr] əsnasında Axıskada tutulub Tiflis həbsxanasına göndərilən əlliyə qədər köylü əsirlərin haləti-pərişaniləri Faiq əfəndini kəndi həbsindən artıq mütəəssir edir və min zəhmət və möhnəti boynuna alıb, onların təxlisinə [xilasına] müvəffəq olurdu. Lakin iki-üç gün so[n]ra bu hal Ramişviliyə xoş görünməyib Faiq əfəndi üçüncü dəfə Metex həbsxanasına salınırdı.

Bu dəfəki həbsi isə əski həbslərə bənzəməyirdi. Bu həbs, o səbirli, o mütəhəmmil [dözümlü], o sükut Faiqi fövqəladə acıqlandırır, mütəəssir edirdi. Çünki bu daha hökumət həbsi deyil, açıqdan-açığa məsxərəlik, adi qərəzkarlıq idi.

Əvət, bu dəfə Faiq əfəndi yenə məyus olmayırdı, amma fəna halda həyəcanlanırdı. Hələ böylə xələcanlı bir halında öz kəndindən aldığı kağız: "Gürcü əsgərləri Faiq əfəndinin Aqara kəndində bir milyon qiymətindəki maşina dəyirmanlarını, taxta zavodunu, taxta ilə dolu skladını, taxıl anbarını, iki mərtəbəli evlərini, kantorunu tamamilə yandırıb kül eyləmişlər. Bütün Axıska köylülərinə nümunə üçün öz əli ilə yetişdirdiyi müntəzəm və qiymətli meyvə bağçasını qismən kəsib və qismən çıxarıb məhv eyləmişlər. Bunlarla kifayət eyləməyib, Axıskadakı evinin əşyasını, hətta çocuqlarının yeyəcəklərini talan edib bütün ailəsini ac və biəlac buraxmışlar və hətta kiçik çocuqlarına baxacaq qardaşlarını da pərişan və fərara məcbur eyləmişlər" xəbəri ki, hər dəmir ürəklini düçari-yə's [ümidsizliyə düçar] etməmək mümkün deyildi. Faiqin doğrudan fikir və əməl ilə dolu ürəyinə, elmi qənaətlə möhkəmləşmiş imanına, ümidlə ucalmış ruhuna əsla yə's vermədiyini görüb təəccüb, həm çox təəccüb etdim.

Hələ dünənki həbsxana qapısındakı söhbətimiz əsnasında: "Tək Qars Hökuməti dağılmasın, tək hüquqi-milliyyəmiz talan edilməsin, öylə xüsusi xırda sərvətlərin məhvinin əhəmiyyəti yox" sözü ilə mənə cürət verməsi həqiqətən unudulmaz böyüklüklərdəndir.

İştə ufaq müvəffəqiyyətsizliklər, zərərlər, əziyyətlərlə məyus olan gənclərimiz üçün böyük bir nümuneyi-imtisal!

*Tiflisli*

**Yazandan sonra:** Faiq əfəndi doktorun raporuna görə ki, həbsxana həyatı onunçün təhlükəlidir, dörd gün həbsdən sonra azad edildi.

*T*

## KONFRANS

### Krım nümayəndəsi Ədhəm Feyzi əfəndinin mühazirəsi münasibətilə

**- 4 -**

Revolyutsionerlər, anarxistlər deyirlər: "Madam ki, bu cəmiyyət müsavatsız, ədalətsiz təşəkkül etmiş və bu hal da yeni məsud cəmiyyəti qurmaq niyyəti ilə ortaya atılanlarca qəbul və təsdiq edilmişdir, şu halda nə olursa-olsun bunu devirməli, yıxmalıdır."

Bizim diləyimiz də qomşuluq, Qərbin o insafsız kapitalistləri ilə mərhəmətsiz imperialistlərinin yuxarıdan aşağı yuvarlanması deyil mi?

Ötədən bəri Rusiya və Yevropa imperializminin və hələ bundan bir qaç ay əvvəl sonki qaliblərin Osmanlı türklərinin yurdları haqqındakı mənhus planları pək açıq bir surətdə meydana çıxmışdı. Suriyanı, Fələstini, Hicazı, Yəməni, Əlcəzirəni ayırdıqdan başqa, Tiflisdən Qara dəniz yalılarına da çıxmaq şərti ilə Ağ dənizdəki [Aralıq dənizindəki] İskəndərun körfəzinə qədər olan yerləri ermənilərə, Adalar [Egey] dənizi sahillərindən İzmiri, həvalisini [ətrafını], İstanbulu daha bilməm nərələri rumlara [yunanlara] verməkdə ədalət və insafı xatırlamayırdılar. Halbuki, istər ermənilərin istədikləri yerlərdə, istər rumların göz tikdikləri səmtlərdə çoxluq yenə qardaşlarımız olan türklərdə, islamlardadır. Bilfərz [misal üçün] İstanbulun hər hangi qismini alsaq, son istatistiklər göstərir ki, əhalinin yüzdə altmışdan ziyadəsi (bütün rum, erməni, yahudiyə müqabil) türk və islamdır. Rumların iddia etdikləri İstanbul üçün türklər yalnız Çanaqqalada yarım milyona yaxın qurban vermişlərdir ki, bu yekun onların İstanbuldakı nüfuslarını, canlarını fəzləsi ilə keçər. O qəhrəman, fədakar türk qardaşlarımız cəngavər olduqları qədər də, alicənab və demokratdırlar. Şimdiyə qədər hökmləri altında bulunan millətlərə qarşı göstərdikləri müamilələr [rəftarlar] və bu müamilələrin verdiyi nəticələr bu iddianı pək gözəl isbat edir. Onlara qarşı isnad edilən zülümlər, qədirlər [əziyyətlər] həp uydurma şeylər idi. Bu dolablar [hiylələr], bu fırıldaqlarla Yevropa əfkari-ümumiyyəsini [ictimaiyyətini] qaynatmaq və bu surətlə məhkumluqdan hakimliyə keçməkdi. Tarix bizə bu əmri-vaqiləri [faktları] pək əyan bir şəkildə göstərdi, keçdi.

Türk qardaşlarımızın alicənablığı, insanlığı və hələ zəiflərin, istimdad edən-

lərin [imdad istəyənlərin] imdadına ildırım kimi yetişmələri tarix səhifələrində pək gözəl birər örnəkdir. Vaxtilə iki atəş arasında qalan fransızları cermen [german] hücumundan, polyakları, isveçləri rusun təərrüzündən [hücumundan] və son zamanlarda azəri türk qardaşlarını və bilxassə [xüsusən] fəhlələri, qadınları, balaları bolşevizm maskası altında qana susayan o mənhus çetelərin qətliamından qurtarmışlardır ki, bu sonki xidmətləri ilə azəri türk qardaşlarına bir də müstəqil bir Azərbaycan hədiyyə etmişlərdir. *(Davamlı, şiddətli alqışlarla qarışıq "Yaşasın Osmanlı qardaşlarımız!", "Var olsun Türklük!" nidaları divarları sarsdı.)* Bu yolda can verən möhtərəm şəhidlərin mübəccəl [əziz, uca] ruhları önündə təzimlər, təkrimlərlə [hörmətlə] əyiləlim. *(Bütün zal ayağa qalxdı, səfbəsteyi-ehtiram oldu [ehtiramla sıraya düzüldü], əyildi).*

Haqları, istiqlaliyyətləri, əvət, yalnız bu müqəddəs məqsədləri üçün qoç kimi igidlər verən, sel kimi qanlar axıdan türk qardaşlarımızın yardımçısı haqq və haqqı tanıyanlar ola bilər. Haqqı tanıyanlar da olsa-olsa Avropada Avropa demokratiyası [xalqı] olacaqdır.

Avropa kapitalizmi ilə imperializmi yaşayıb höküm etdikcə nə sosializmin xalqın sədrinə [köksünə, qəlbinə] şəfa verən təbşirləri [müjdələri] kar edər, nə də Vilsonun zəif millətlərə ümid verən prinsipləri. O qüvvətlərin haqq və ədalət namindən şimdiyədək tökdükləri məsum qanların neçələrini tarixi-insaniyyət pək açıq yolla qeyd etmiş, keçmişdir.

Təşəkkür olunur ki, bütün dünya demokratiyasının qüvvəti, qüdrəti sezilməyə, görülməyə başladı. Bu qüvvət və qüdrət getdikcə şiddət və heybətini artıracaq və müqəddərati-cahanı [dünyanın müqəddəratını] öz əllərinə alacaqdır. Mən əminəm ki, bu gün Osmanlı elində türklərin, islamların haqqı da o gücün müzahirəti [köməyi], siyanəti [himayəsi] ilə çeynənməyəcəkdir [tapdalanmayacaqdır]. Çünki zülüm və təzyiq görmədə müştərəkdirlər, həmdərddirlər.

Türk xalqı ilə ərəb xalqına gəlincə, bu iki nəcib ünsür biri-birinə ayrılmayacaq əsaslar, qopmayacaq dini, ruhi bağlarla bağlıdır. Varsın milli adətləri, tarixi ənənələri ilə daha sərbəst inkişaf və tərəqqiyə xidmət edəcək istiqlaliyyət təşkil etsinlər. Etsinlər də, sonra o istiqlaliyyətlər konfederasyon şəklində birləşsinlər, ömür sürsünlər.

Turan və islamın gələcəkdəki tərzi-idarəsi zatən böylə olmalıdır. "Müsavat" firqəsinin ədəmi-mərkəziyyət [desentralizasiya] üsulu o aləmin maddi və mənəvi inkişaf və tərəqqisi üçün ən kəsdirmə bir yoldur deyə tanıram. Ancaq anqlosaksonlar[ın] verdikləri tərbiyəni, təşəbbüsi-şəxsiyyəni millətin, xalqın gələcək nəs-linə gərəyi kimi aşılamalıdır. İstiqbal [gələcək], parlaq istiqbal bununla hazırlana biləcəkdir.

Mən bütün etiqadım ilə ümidvaram ki, istiqbal gənc və dinc [gümrah] millətlərindir. Turan və islam da o gənc və dinc millətlərdən biridir. Tarix təkərrürdən ibarətdir, denir. Şu halda növbət bizimdir. Haydi qardaşlar, tarix səhifələrindəki o şanlı ömrü bu dəfə də hürriyyət və mədəniyyətlə diriltəlim, yaşadalım. *(Şiddətli alqışlarla "Yaşasın demokrat türklər, islamlar!", "Yıxılsın, batsın onları zəncirləyən əllər!" nidaları yüksəldi.)*

Turanın mühüm və zəngin bir qismi sayılan Azərbaycan istiqlaliyyətini aldı, əməlinə [arzusuna] qovuşdu. Azərbaycanın bu varlığı ilə Turan və islamın, Qərb və Şərqin ortasında bir keçid halında bulunuşu bizcə pək mühüm bir vəziyyətdir. Etiqadım bu ki, Azərbaycan neçə illərdən bəri qaranlıqda qalan həmcins və [həm]dininə ilanihayə [əbədi] nur saçan, həyat bağışlayan şəmsi-taban [parlaq günəş] olacaq, qalacaqdır. Yaşasın Azərbaycan istiqlaliyyəti! *(Sürəkli alqışlar)*

Möhtərəm yoldaşımız Cavad bəyin bu möhtərəm məclisə müjdələdikləri gənc və möhtəşəm ordu o istiqlaliyyətin ən mühüm və qiymətli bir rüknüdür [əsası, istinadgahıdır]. Türkün bu yurdunda sülh və səlahı təmin edəcək qüvvət bu qüvvətdir. İnsanlığa doğru yürüyən, gedən insanlar hədəfə erişdiklərində bu qüvvətə bəlkə ehtiyac qalmayacaqdır. Lakin oraya varıncaya qədər sərhədləri aşacaq, xalqın irz və namusunu ayaqlar altına alacaq, fəzlə olaraq bir də onu al qanlara boyayacaq qara qüvvətlərin önünü almaq yalnız bu qüvvətlə müyəssər olacaq. Onun üçün ruhumuzdan qopan, yüksələn səda şudur: Yaşasın ordu, var olsun bu ordunu meydana gətirən, bəsləyən millət və onun möhtərəm məbusları, nazirləri! *(Alqış zalı sarsdı.)*

Sayğılı qardaşlar, rəis əfəndi məni sizə təqdim etdiyi zaman Krım Parlamanı nümayəndəsi deyə təqdim etmişdi. Əvət, mən Krım Parlamanı tərəfindən vəkalətlə gəldim. Sizə Krımlı qan qardaşlarınızdan xülus [səmimi] salamlar, səmimi təbriklər gətirdim. Keçən sənə sizin başınıza gələn müsibət və fəlakətdən Krımlı qardaşlarınız nə qədər ruhən əzilmişlər, üzülmüşlərsə, ondan sonraki hürriyyət və istiqlaliyyətinizə də o nisbətdə sevinmişlər, bayram etmişlərdir. Onun üçün bu dəfə də Krımlı qardaşlarınız Parlamanları namindən onların müməssili [nümayəndəsi], vəkili sifəti ilə sizi salamlayır, qutlayıram. *(Şiddətli alqışlarla "Yaşasın Krımlı qardaşlarımız!", "Var olsun Krım Parlamanı!" sədaları ilə zal doldu.)*

Bundan sonra ictima [yığıncaq] iki rezolyutsiya [qətnamə] qəbul etdi. Biri Krım Parlamanına salam və təbrik göndərmək, digəri dağıstanlı qardaşlarımıza təərrüz [hücum] edən qara qüvvətə qarşı protesto etmək idi.

Rezolyutsiyalara xitam verildikdən sonra rəis əfəndi tərəfindən iclasa üç mühüm məsələnin baxılmasını təklif etdilər. Məsələlərin birincisi fəhləyə gecə məktəbləri açmaq, ikincisi kooperativlər təşkil etmək, üçüncüsü də profesyonalnı sayuz [həmkarlar ittifaqı] qayırmaq idi. Məsələlərin üçü də böyük bir istək və yüksək bir ruhla qəbul edildi və icrası üçün də komissiyası seçildi.

Fəhlə qardaşların bu ictimadan aldıqları ləzzət və məhzuziyyət [həzz] alqışlarından, gülümsəyən üzlərdən bəlli olurdu.

Heyət avtomobilə minib hərəkət edincəyə qədər yanlarından ayrılmadılar. Danışdılar, dərdləşdilər, nəhayət onları artıq olan bir şərəflə təşyi etdilər [yola saldılar], ayrıldılar.

*(bitdi)*

## BAKI XƏBƏRLƏRİ

**Şəhər xidmətçiləri**

Şəhər Duması, [Məsai] Nəzarəti [Əmək Nazirliyi] tərəfindən təsis edilmiş Müsalihə [Barışıq] Komissiyasının tərtib verdiyi müqavilənaməni qəbul etmək istəmədiyindən, Xidmətçilər İttifaqı nisanın [aprelin] 15-də Tətil Komissiyasının fövqəladə iclasını dəvət etmişdir. Bu iclasda qərar verilmişdir ki, hələ bir müddət feilən çıxışda bulunmayaraq, işi Kəsbkarlar [Həmkarlar] İttifaqları Şurasına mühəvvəl etsin [tapşırsın].

**Ərzaq Nəzarətində**

Sabiq Ərzaq naziri Lizqar əvvəlki Kabinə ilə bərabər istefaya getdiyindən, dün Ərzaq Nəzarəti xidmətçiləri onu təntənəli bir surətdə təşyi etmişlərdir [yola salmışlar]. Yaxşı rəftarından naşi [ötrü] xidmətçilər nazirə təşəkkürlərini bəyan etmişlərdir.

**Sentrodomda**

Mərkəzi Ev Komitəsi qərar vermişdir, Azərbaycan Hökumətinə müraciətlə, çörək bişirib satmaq üçün on milyon manat borc istəsin. Bundan əlavə, doktor Allahverdiyev ilə Lopatinskiyə tapşırmışdır ki, Ümuri-Xeyriyyə [Sosial Təminat] nazirinə müraciətlə kənd və dairə komitələri təsis və saxlanması üçün pul buraxmasını istida [xahiş] etsinlər.

**Şəhər və ingilislər**

Hacı-Tərxanda qalmış olan bakılıların Bakıya gəlmələrinə çalışan komissiya İngiltərə komandanlığına müraciətlə, Hacı-Tərxanda qalmış olan Bakı sakinlərini gətirmək üçün gəmi istəmişlər. Komandanlıq cavab vermişdir ki, şəhər onsuz da doludur. Binaənileyh [ona görə], gəmi verə bilməz. Komissiya dübarə gəmi istəyərək bəyan edir ki, o adamların həpsinin Bakıda evi və ailəsi var. Ona görə onların gəlməkləri şəhərə artıq yük olammaz.

**Nisanın 14-də Bakıya varid olan [gəlib çatan] ərzaq**

Buğda – 500 put
Un – 3234 put
Arpa – 1385 put
Saman – 374 put
Ot – 3000 put

**Nisanın 12 və 13-də varid olmuş ərzaq**

Buğda – 4180 put
Un – 4301 put
Odun – 8000 put
Arpa – 2665 put
Saman – 2068 put
Ot – 700 put

**Fəhlə həyatından**

Srağagün aprelin 14-də Suraxanı "Narodnı dom"unda [Xalq evində] Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Suraxanı şöbəsi tərəfindən yığıncaq dəvət edilib, mühazirə verilmişdir. Əvvəlcə Piri Mürsəlzadə əhvali-hazirə haqqında müxtəsər məlumat verərək, sonra Əbdülvahab Məhəmmədzadə milliyyət və sosializm mövzusunda mühazirə oxumuş və bu barədə iki saatlıq bir nitqində olduqca ətraflı surətdə məlumat vermişdir. Mühazirədə hazır olan əmələ [fəhlə] və kəndçilər ələlümum [hamılıqla] çox razı qalmışlardır. Bədəhu [sonra] iclasa əksəriyyəti-ara [səs çoxluğu] ilə Bəşir Bünyadovu sədr intixab edib [seçib], zeyldəki [aşağıdakı] məsələlər müzakirə və həll edilmişdir:

1) Suraxanı mədən dairəsində olan işsiz fəhlələrin çətin halını nəzərə alaraq, əmələlər yığıncağı onlar üçün tezliklə iş tapılmasını Məsai Nəzarətindən [Əmək Nazirliyindən] xahiş edilməsini rica və arzu edir.

2) Məzkur [deyilən] dairədəki kəndçilərin azuqə cəhətdən fəna halını və böyük ehtiyac içində olduğunu nəzərə alıb Suraxanı əmələ və kəndçiləri fəqir və biçizlərə [yoxsullara] məccanən [pulsuz] olaraq azuqə buraxılmasını hökumətdən rica edirlər.

3) Suraxanı dairəsində içki dükanlarının əmələlərə fəna surətdə təsir edib əxlaqlarını pozduğunu və həmçinin onların pullarını əlindən alıb məişətlərini artıq dərəcə çətinliyə sövq etdiyini nəzərə alaraq, tez bir zamanda həman dükanların bağlanması hökumətdən tələb edilsin.

Qətnamə qəbul edildikdən sonra sədr cənabları əmələlər haqqında bir qədər məlumat verib onların məzkur [deyilən] dairə uçastokun pristavından son dərəcə narazı olduqlarını və kəndçilərin arasında bəzi müzirr [ziyankar] şəxslərin fəna hərəkətlərini və bilaxirə [axırda] xarici əmələ yoldaşların Azərbaycan haqqında göstərməkdə olduqları pis sifətlərini bəyan ilə hökumət tərəfindən bu barədə ciddi tədbirlər ittixaz edilməsini [tədbirlər görülməsini] arzu etdi və axşam saat 7 radələrində məclis xitam buldu.

## İRANLILARIN MAARİF CƏMİYYƏTİ

Fövqəlzikir [yuxarıda adı çəkilən] cəmiyyət müəssisləri [təsisçiləri] fəaliyyətlərini genişlətmək məqsədi ilə qeyd olunmuş üzvlərdən olmaq üzrə rəcəb ayının 10-da cümə günü ümumi iclas dəvət etmişdilər.

Mədüvvinin [dəvət edilənlərin] müəyyən vaxtdan saat yarım ertə gəlmələri bu vaxta qədər ictimalarımızda görülmədiyindən, kəndilərində maarifpərvərlik və insaniyyətpərəstlik hissinin oyanmasını göstərirdi.

Saat 4 tamamda Hacı müəllim Cəfərzadə cənabları sədr, Mircəfər Cavadzadə katib təyin olundu. Əvvəlcə Mircəfər heyəti-mütəşəbbisə [təşəbbüskarlar heyəti] tərəfindən cəmiyyətin məramı, ələlxüsus iclasi-hazirə barəsində lazımi məlumat verib, bu iclasda ancaq cəmiyyət xüsusunda danışılmağı xahiş etdi. Sonra Hacı müəllim cənabları "Mən kənə əqdəmuhu əzyədu min əf'alihi fə'ləmu ənnə ədəməhu xeyrun min vücudihi və fənaəhu əhsənu min bəqaihi" əmri-şərifini söyləməklə ha-zirunu qövl ilə deyil, feil ilə [sözlə deyil əməllə] səy etməyə dəvət edib, İranın və iranlıların nicatı fəqət maariflə, "Maarif müştərək yaxud münfəridən [birgə yaxud fərdi] yaşayış yollarını layiqincə bilməkdən ibarət olub, yaşamaq təriqəsini [yolunu] bilməyən millətlərin maarifdən bibəhrə olmaları,

o cümlədən iranlıların maarif yoxluğundan müştərək və münfərid məişətlərinin fəna bir halda olduğunu" söyləyib, "Maarif cəmiyyətinin mümkün olduqca yaşayış yollarımızı asanlaşdıracağını nəzərə alıb, biz bu cəmiyyətin əzalarından [üzvlərindən] olmaqla, milliyyət və insaniyyətə xidmət etmək hamı İran ziyalılarının borcudur" dedi.

Üzvlərdən Qulam Möhsünzadə cənabları "Bir millətin bəqası [daimi olması] maarif ilə, izmihlalı [çöküşü, məhv olması] dəxi maarif yoxluğundandır" deməklə və Vüsuqüddövlə Kabinəsinin yeni siyasəti və maarifə verdiyi əhəmiyyəti, "Bugünlərdə təzə varid olmuş [gəlmiş] mövsuq əşxasın [inanılmış şəxslərin] məlumatına istinadən paytaxtda və İranın sair şəhərlər, bəlkə kəndlərində ticarət, sənət və ziraət [əkinçilik] məktəbləri açılmış və açılmaqdadır" sözləri ilə hazırları [iştirakçıları, orada olanları] ümidləndirdikdən sonra, heyəti-mütəşəbbisənin iqdamatını [təşəbbüslərini] kəndi və yoldaşları tərəfindən təbrik və təşəkkürlərlə qarşılayıb, şu müqəddəs arzuya müvəffəqiyyətlə nail olmalarını Allahtaala həzrətlərindən rica etdi.

Sonra 11 nəfərdən ibarət müvəqqəti bir heyət intixab olunub [seçilib], cəmiyyətin məram və nizamnaməsini tərtib etmək, üzvlərin ədədini çoxaltmaq üçün elanlar nəşr etmək, ümum iranlıları dəvət edib cəmiyyətin məqsədini onlara bildirməklə üzv yazılmağa təşviq etmək vəzifələri ilə müvəzzəf olundu [vəzifələri onlara tapşırıldı].

Gənclərimizin maarif uğrunda hər bir fədakarlığa hazır olmalarını gördükdə, millətimizin bir dəxi əvvəlki dərəcəyə tərəqqi etməsinə əmin olmaqla Rəsuli-Əkrəmin "Vələv kanəl-elmü müəlləqən bis-Sürəyya lətunavilühu yədu əhlil-fürs" buyurduğu hədisi-şərifi dərxatir etmək pək səzadır [yada salmaq tamamilə yerinə düşər].

Sədi, Firdovsi, Xəyyam, Əbu Əli Sinaların asari-ədəbi və fəlsəfilərini [ədəbi və fəlsəfi əsərlərini], İstəxr, Bisütun, Şüştər, Dizvul, Mədain xarabalarındakı asari-sənayeni [sənət əsərlərini] nəzərə gə- tirdikdə, Rəsullulahın "Elm Sürəyya ulduzunda müəlləq [asılı] olsa da, iranilər əxz edəcəklər" buyurduğu qeyri-qabili-inkar [inkar edilməsi mümkün olmayan] bir həqiqətdir. İranlıların fitri qabiliyyətlərini, ərəb və moğol [monqol] istilaları ilə məhv olmuş ədəbiyyatlarını əvvəlkindən də parlaq bir surətdə meydana gətirməkləri göstərməkdədir. Əvət, İran milləti məhv olmaz, çünki altı min illik bir tarixə malikdir. Yenə iranlı kəndinin kim olduğunu düşünər, düşünüb də bir an əvvəl həmqatarlarına yetişmək üçün iqdamata [adımlar atmağa] başlar.

İştə, Azərbaycan paytaxtında yaşayan İran ziyalıları maarif cəmiyyəti təsisinə şüru etmiş [başlamış], yaxın bir zamanda ümum iranlılar dəvət olunub Müdafiyeyi-Məzluman [Məzlumları Müdafiə] ismində füqəraya müavinətçi [kömək edən] bir komitə intixab ediləcəkdir [seçiləcəkdir]. Bu da şərəfi-iraniyyət [İranlı olmaq şərəfini] və namusi-islamiyyəti mühafizə etmək deməkdir.

Əlbəttə, Azərbaycanın başqa şəhərlərində, bəlkə İranın daxiləsində bu işə həvəskarlar tapılıb iqdam olunacaqdır.

Hər iki müəssisənin müvəffəqiyyətini ümid etməklə, hər bir iranlının onlara müavinət edəcəyinə əminəm.

*M[ir] C[əfər] Cavadzadə*





## GÜRCÜSTANDA

### Gürcüstan Sülh Konfransı qarşısında

"O. L." qəzetəsi Gürcüstanı bolşevik hökuməti əleyhinə mübarizə edən məmləkətlər cərgəsində hesab etdiyi münasibəti ilə Marsel Kaşen, qəzetəsində protesto edib yazır ki, Gürcüstan heç bir kəsin əlində alət olmaq istəməyir. O ancaq öz istiqlaliyyəti yolunda çalışır. Gürcüstan hökuməti bunu Sülh Konfransı qarşısında da iddia edir.

"Peti Parizyen" qəzetəsi Parisdə Sülh Konfransında olan Gürcüstan nümayəndələri [Nikolay] Çxeidze ilə [İrakli] Seretelinin müsahibəsini dərc etmişdir. Onlar ikisi də demişlər ki, Gürcüstan hökuməti ancaq Türkiyə əleyhinə lazımi müdafiə almaq arzusu ilə Rusiya heyətinə daxil olmuşdur. Hal-hazırda bu ehtiyac rəf olmuşdur [aradan qalxmışdır]. Gürcü milləti rus milləti ilə həmtaifə deyildir. Onun rus milləti ilə heç bir mədəni və tarixi əlaqəsi yoxdur. Buna görə ümumi pərişanlıq zamanında Gürcüstan millətinə Rusiyadan ayrılmaqdan başqa bir çarə qalmamışdır. Hal-hazırda onlar Gürcüstan istiqlaliyyətini müdafiə etməyə vəkil edilmişlərdir.

Sereteli demişdir ki, bu və ya başqa əsaslar mövcibincə [prinsiplər əsasında] Rusiya ilə bitişmək haqqında hal-hazırda bir söz belə ola bilməz. Çünki indiki halda Rusiyada ancaq iki qüvvət vardır. Bunlardan biri bolşevik, digəri irtica qüvvəsidir. Demokratiya boğulmuşdur. Bu iki qüvvə ilə gürcü milləti yol gedə bilməz. Hərgah bir vaxt demokratiya verilsə, o vaxt ola bilər ki, Gürcüstan ilə Rusiya münasibatının təbəddülatı [münasibətlərinin dəyişməsi] məsələsi qaldırılsın. Hələliyə isə Gürcüstan onun istiqlaliyyətinin təsdiq edilməsini təkid edir.

### Axıska dairəsində

Axıskadan "yerli" müsəlmanlar ricət etdikdən [qayıtdıqdan] və gürcü qoşunları oraya daxil olduğundan sonra şəhərdə sükunət edən erməni və yəhudi fərarilərinin [qaçqınlarının] əhvalı çox fənalaşmışdır. Bütün şəhərdə həbs, qarət və təftiş davam edir. Gürcü saldatlarının göstərdiyi vəhşətləri təsvir etmək mümkün deyildir. Ermənilərdən Ayvazyan və digərləri həbs edilmişlərdir. Bunlar müsəlmanların gürcülərə qarşı hücum etmələrinə tərəfdar olduqları ilə ittiham edilir. Kəndlərdə də əhval böylədir. 45 kənd talan edilmişdir. Arvadlar saldatların təcavüzündən ehtiyat edərək şəhərdə ingilislərin himayəsinə sığınmışlardır. Bunlar da 50 nəfərdən ziyadə deyildirlər. Bir həftəlik fasilədən sonra yenə müharibə başlanmışdır.

## ERMƏNİSTANDA

Ermənistan hökuməti Xariciyyə naziri Parisdə erməni sülh heyətinə bu məzmunda bir teleqraf çəkmişlərdir:

Zaqafqaziyada yaşayan ermənilər böyük təhlükə hədəsi altındadırlar. Müsəlmanlar türk afserlərinin təhti-idarəsində [idarəsi altında] Şərur, Naxçıvan, Sürməli və Qarabağda külli qoşun cəm edib, məhəlli [yerli] erməni qüvvələrinin silahını alaraq bəyan etmişlər ki, bu oblastlar Azərbaycan hökumətinə tabedirlər. Müttəfiqlərə lazımdır ki, müsəl-

manların bu iqdamatına [addımlarına] qarşı tədbirlər ittixaz edib [tədbirlər görüb], onların qabağını alsınlar, tainki bu yol ilə zühuru möhtəməl [ehtimal olunan] qanlı müsadimələr [toqquşmalar] olmasın. (Burada teleqraf buraxılmışdır.)

Erməni Xariciyyə naziri bu əhvalları Müttəfiqlərə və erməni sülh nümayəndələrinə bildirərək təvəqqe edir ki, bilatəxir [dərhal] müsəlmanların iqdamatına qarşı tədbirlərə təvəssül [müraciət] edilsin. Zaqafqaziyada türk zabitanı və əsgərlərinin olması yaman nəticələr verə bilər. Ermənistan ordusunu müntəzəm hala gətirmək lazımdır, çünki bunlar asayişi bərpa etmək üçün yeganə bir ünsürdür.

**Doktor Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 292. "qövldən feilə çıxarılması": qəzetdə səhvən "qüvvədən feilə çıxarılması" getmişdir.

**Sülh ətrafında**

səh. 293. "Dörd Dövlət Nümayəndələri Şurası": Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən əmələ gələn şura ("Böyük Dördlük" yaxud "Dördlər Şurası"); bura ABŞ prezidenti Vudro Vilson, Britaniya, İtaliya və Fransa Baş nazirləri Lloyd Corc, Vittorio Orlando və Jorj Klemanso daxil idi.

"Corc Vaşinqton": qəzetdə "Georq Vaşinqton" getmişdir.

səh. 294. "Ola bilər ki, Vilhelmin ələ verilməsi...": Alman imperatoru II Vilhelm nəzərdə tutulur.

**Teleqraf xəbərləri**

səh. 295. "Proskurov": Ukraynanın qərbində indiki Xmelnitski şəhəri.

**Qəzetələrdən**

səh. 296. "Təsviri-əfkar": Türkiyədə nəşrə başlayan ilk (xronoloji baxımdan dördüncü) türkcə qəzetlərdən biri; əsası 1862-ci ildə qoyulmuşdu.

"...və sonra Bavariyada...": qəzetdə "Bavariyada" yerinə səhvən "orada" getmişdir.

"Filadelfiyada": bu coğrafi ad qəzetdə təhrif edilmişdir.

səh. 297. "Atarbekov": qəzetdə bu soyadı təhrif edilmişdir.

**Türkiyə xəbərləri**

səh. 297. "Fəxri paşa": Türkiyənin hərbi və siyasi xadimi Ömər Fəxrəddin (Türkkan) nəzərdə tutulur.

səh. 298. "Urfa üsyanı": 1915-ci ildə ermənilərin Daşnak və Hnçak komitələrinin Türkiyənin Urfa vilayətində qaldırdıqları üsyan.

"Axşam": İstanbulda türk dilində nəşr edilən gündəlik qəzet. İlk nömrəsi 1918-ci ilin sentyabr ayında çapdan çıxmışdır.

"332 sənəsi mayısından": burada tarix rumi təqvimlə verilmişdir, 1332-ci il nəzərdə tutulur; miladi təqvimlə 1916-cı ilin may ayına uyğundur.

**Dağıstan əhvalı**

səh. 299. "çətvər": yüz qrama bərabər ağırlıq ölçüsü.

**"Müsəlmanlar kəndilərinə**
**əfəndi deyil, dost istəyirlər"**

səh. 300. "Herbert Adams Gibbons": qəzetdə hər yerdə "Herbert Adam Gibbon" kimi verilmişdir.

səh. 301. "adilanə və amilanə": "adilanə və amilanə" [ədalətli və təsirli] yerinə bəlkə də "adilanə və alimanə" [ədalətli və ağıllı] olmalı idi.

"Avropa əleyhinə qullanmaq istəyən Əbdülhəmid": Osmanlı sultanı II Əbdülhəmid nəzərdə tutulur.

səh. 302. "...türklərin cihad elanı ilə canlı bir surətdə meydana çıxmışdır.": qəzetdə "çıxmışdır" yerinə "çıxmasıdır" getmişdir.

**Milliləşdirmə haqqında**

səh. 304. "Hyuz və Bodoya gəldikdə...": ingilis və Amerikan ixtiraçısı Hyuz tərəfindən və fransız ixtiraçısı Bodo tərəfindən ixtira edilmiş teleqraf cihazları nəzərdə tutulur. Qəzetdə "Hyuz" yerinə, bu familiyanın bəzi rus mənbələrində istifadə edilən forması (Yuze) yazılmışdır.

"Bəhram bəy Vəzirov kimi bir zata...": bu məqalə haqqında "Azərbaycan" qəzetinin 20 aprel 1919-cu il tarixli 161-ci nömrəsində verilmiş düzəlişə görə, "Bəhram bəy Vəzirov"

yerinə burada "Bəhlul bəy Vəzirov" olmalı idi.

**Müəllimlərin halına dair**

səh. 305. "Gər bovəd dər matəmi səd növhəgər, / Ahe sahebdərdra başəd əsər.": "Yasda yüz növhəxan olsa, / Dərd sahibinin ahı daha təsirli olar." (farsca)

**Ömər Faiq əfəndi üçüncü dəfə həbsdə**

səh. 307. "yegən": qardaş yaxud bacının övladları.

səh. 309. "Tiflisli": Professor Ədalət Tahirzadə, bu imzanın çox güman ki, Əhməd Cövdət Pepinova məxsus olduğu qənaətindədir. Tahirzadəyə görə, "Tiflisli" imzasının sahibi Pepinov deyilsə, Əziz Şərif olmalıdır.

**Konfrans**

səh. 310. "rusun təərrüzündən": qəzetdə "rumın təərrüzündən" getmişdir.

səh. 311. "möhtərəm yoldaşımız Cavad bəyin": Əhməd Cavad nəzərdə tutulur.

**İranlıların Maarif Cəmiyyəti**

səh. 313. "rəcəb ayının 10-da": burada tarix hicri təqvimlə göstərilmişdir. 10 rəcəb 1337-ci il, miladi təqvimlə 11 aprel 1919-cu ilə uyğundur.

"Mən kənə əqdəmuhu əzyədu min əf'alihi fə'ləmu ənnə ədəməhu xeyrun min vücudihi və fənaəhu əhsənu min bəqaihi": (ərəbcə) "Hər kimin irəli getmək səyi feillərindən artıqsa, bilin ki, onun yoxluğu varlığından xeyirlidir və fənası bəqasından yaxşıdır."

səh. 314. "Vələv kanəl-elmü müəlləqən bis-Sürəyya lətunavilühu yədu əhlil-fürs": (ərəbcə, hədis) "Əgər elm Sürəyya ulduzunda asılı olsa, İranlıların əli ona çatacaq."

"Sürəyya" Buğa bürcündə "Ülkər" yaxud "Pərvin" də deyilən ulduz (əslində ulduz topası).

"İstəxr": İranın cənubunda qədim şəhər. Əhəmənilər imperiyasının paytaxtı olmuşdur.

"Bisütun": İranın qərbində, Kirmanşah şəhəri yaxınlığında, üzərində relyefli kitabə olan qaya.

"Şüştər": İranın cənub-qərbində qədim şəhər.

"Dizvul" (yaxud Dizful): İranın qərbində qədim şəhər.

"Mədain": İraqın şərqində, Bağdad yaxınlığında Parfiyanın və Sasanilərin paytaxtı olmuş qədim şəhər.

**Gürcüstanda**

səh. 315. "O. L.": 1913-1939 və 1951-1953-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet olan "L'Om libr" [L'Homme libre] (Azad insan) nəzərdə tutulur.

"Marsel Kaşen, qəzetəsində...": 1904-cü ildən etibarən Parisdə nəşr edilən kommunist qəzeti "L'Humanite" [L'Humanité] nəzərdə tutulur. Marsel Kaşen 1918-ci ildən etibarən bu qəzetin baş redaktoru idi.

"Peti Parizyen": [Le Petit Parisien] Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.





**Cümə, 18 aprel 1919-cu il, nömrə 160**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 17 rəcəbül-mürəccəb sənə 1337. 18 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## DAĞISTAN İMDADINA!

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Mərkəzi Komitəsi tərəfindən intixab olunmuş [seçilmiş] xüsusi bir komisyon tərəfindən dağıstanlı qardaşlarımız üstünə hücumavər olan [hücum edən] hürriyyət və istiqlal düşməni Denikinin qara qüvvəsi ilə hərb etmək üçün Azərbaycan könüllü dəstəsi təşkil olunur. Yazılmaq istəyənlər hər gün Məclisi-Məbusan binasında, "Müsavat" fraksiyonu mənzilində gündüz saat 8-dən 2-yə və axşam saat 5-dən 7-yə qədər yazıla bilərlər.

"Cəmiyyəti-Maarifi-İraniyan"a üzv olmaq və müavinət [köməklik] etmək arzusunda bulunan arxadaşlar hər gün "İttihad" məktəbində (Qubernski, nömrə 37) saat 9-dan 2-yədək Hacı müəllim cənablarına müraciət edə bilərlər.

*Müvəqqəti İdarə Heyəti*

## İXTAR
**[XƏBƏRDARLIQ]**

Elektrik işığı olmadığından, bu gün qəzetəmiz kiçik qitədə [ölçüdə] çıxır.

## OPERETTA VƏ "AZƏRBAYCAN"

**Hökumət Teatrosunda axşam tamaşası**

Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli Qardaşları Müdiriyyəti
cümə günü
rəcəbülmürəccəb ayının 17-sində
(aprelin 18-ində 1919[-cu] ildə)
şükuhlu [təmtəraqlı]
bir mənzərədə
mövqeyi-tamaşaya qoyulacaqdır
Zülfüqar bəy Hacıbəylinin
**"Əlli yaşında cavan"**
nam [adlı] operettası.
2-nci pərdədə
Orduxan bəyin qonaqlığında
İsa bəy Aşurbəylinin
təzə yazmış olduğu
**"Azərbaycan" faciəsi** göstəriləcəkdir.
Tamaşa başlanacaq axşam saat 8-in yarısında.
Biletlər teatrın kassasında satılmaqdadır.

*T-107*

## ELAN

Bu cümə günü saat 12 tamamda aprel ayının 18-də Parlaman binasında

“Müsavat” firqəsi idarəsində hamballar iclası olmağa görə bütün tamadalar, podratçı, işçi, işsiz hamballların dəvətnamə almayan ağsaqqallarından iclasda hazır olmaları rica olunur.

*“Müsavat”ın*
*Təbliğat-Təşkilat şöbəsindən*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**14 aprel axşam iclası**

*(tənəffüsdən sonra)*

**Sədr** - İclas davam edir. Söz verilir Parlaman üzvü doktor Quxmana.

**Quxman** – Hökumət bəyannaməsi rusca tərcümə edilmədiyindən və biz onun məzmununu bilmədiyimizdən, formulaya səs verə bilməyəcəyimizi xəbər vermişdik. Şimdi məzmununa aşina olduq. Ona görə də lehinə səs verəcəyiz.

**Sədr** – “İttihad” firqəsi ilə bitərəflər tərəfindən böylə bir təklif var. *(Katibə)* Oxuyun!

**Katib** *(oxuyur)* – Hökumətin bəyannaməsini dinləyərək “İttihad” fraksiyası və bitərəflər elan edirlər ki:

1 – Çünki Azərbaycan istiqlalını müdafiə edən firqələr arasında koalisiyon üsulu bu hökumətin təşkilində nəzərə alınmamışdır;

2 – Çünki "İttihad" fraksiyası hökumətin təşkilində iştirak etməmişdir;

3 – Çünki bu hökumətin gələcəkdə fəaliyyəti xüsusunda heç bir zəmanət yoxdur:

Firqələr bu hökumət haqqında öz nöqteyi-nəzərlərini təyin etməyir və məsuliyyəti də üzlərinə almayırlar.

**Sədr** – Cəlil bəy, siz danışmaq istəyirdiniz, buyurunuz.

**Cəlil bəy Sultanov** (bitərəf) - Rəisi-vükəlanın [Baş nazirin] bəyannaməsində Qarabağ məsələsi üstüörtülü keçdiyindən bizim fraksiyamız səs verməkdən imtina edir.

**Sədr** – Mən başa düşmürəm, burada bitərəflər ismindən rəsmən təklif olunur, siz isə başqa söz deyirsiniz.

**Qara bəy [Qarabəyli]** *(yerindən)* – Bu başqa motivdir.

**Sədr** – Belə olan surətdə etilafa [razılığa] gəlin.

**[Behbud xan] Cavanşir** (bitərəf) *(yerindən)* – İcazə veriniz.

**Sədr** – Buyurunuz.

**Cavanşir** – Hökumət rəisi bu gün öz bəyannaməsində Azərbaycanın hər yerini adbaad çəkdi. Nə fikri olduğunu söylədi. Hətta Lənkəran, İrəvan və Naxçıvan uyezdləri adını da çəkdi. Amma ən mühüm Qarabağın adı çəkilmədi. Məlumatımıza görə, Qarabağ məsələsi bəyannamədə var idi. Fəqət bilmirəm kimin xatirəsi üçün bu gün bəyannamədən götürülmüşdür. Məlumdur ki, Qarabağ həlakətdə [həlak olmaqda] idi. İndiyədək orada müsəlmanlar Andranikin əlindən çox böyük cəfalar çəkirlər, çox qurbanlar vermişlər. Hətta yüzə qədər kənd xarabaya dönmüşdür. Onlar gözləyirdilər ki, hökumət bəyannaməsində Qarabağ məsələsi zikr ediləcəkdir. Hökumət, özünüz bilirsiniz ki, oraya general-qubernator göndərib və ona böyük ixtiyarlar vermişdir. Bizim arxamızda duran üçüncü böyük hökumət də ona geniş vəkalət veribdir ki, Qarabağ müsəlmanlarını düşmənlər əlindən xilas etsin. Bu gün isə hökumət rəisi bu barədə bir söz danışmadı. Öylə nəzərə gəlir ki, guya Qarabağ məsələsi qurtarıb...

**Səslər** – Qurtarıbdır.

**Cavanşir** *(davam edir)* – Sizdən ötrü ola bilər ki, qurtarıb, amma bizdən ötrü hələ qurtarmayıbdır. Qarabağ əhlindən bir nəfər Şuşadan o yana adlaya bilmir. Hər kəs getsə, ölümdən savayı bir şey görməz. Necə ki, bu gün Lənkərana gedib-gəlmək mümkün deyildir, öyləcə də Qarabağın dağlarına keçmək mümkün deyil. Biz ümid edirdik ki, hökumət bu gün Qarabağ məsələsi haqqında nə tədbirlər görəcəyini söylər. Amma bu məsələ barəsində heç bir şey eşitmədik. Bilmirəm hökumətin bu barədə nəzəri nədir. Qarabağ məsələsinə münasibətimiz böylə ikən, bəyannamənin qalan hissələri haqqında "İttihad" fraksiyasının formulasına iştirak edirik. Hökumətə olan münasibətimiz isə hökumətin gələcək fəaliyyəti ilə məlum olacaqdır.

**Sədr** – Söz hökumət rəisi Nəsib bəy Yusifbəylinindir.

**Nəsib bəy** – Möhtərəm məbuslar! Mənim bəyannaməmdə nə qədər mübahisəli yerlər və məsələlər varsa, o xüsusda sözümü dedim. Çox mübahisəsiz məsələlər vardır ki, hökumət o xüsusda söz söyləməyi artıq bilir. İrəvan, Lənkəran, Tiflis sözü oldusa, o da ondan ötrüdür ki, onlar mübahisəlidir. Qarabağ xüsusunda mübahisə yoxdur. Onun üçün də mən mübahisəli olmayan məsələ haqqında bir söz belə söyləməyi artıq bildim.

**Sədr** – Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Məhəmməd Əmin** – Biz bu təklifin əleyhindəyiz. Nə üçün əleyhində olduğumuzun dəlilini söyləmək istərəm. Bəyannamədə Qarabağ fəqərəsi [məsələsi] yoxdur. Bu xüsusda hökumət rəisi dəxi nə mülahizə ilə məzkur fəqərəyə [deyilən məsələyə] lüzum olmadığını söylədi. Həqiqətən öylədir. Meydanda Lənkəran məsələsi var. Çünki Lənkəran daha əlimizdə deyil, çünki oraya hələ Azərbaycan məmurini [məmurları] təyin edilməmiş. Tiflis quberniyasından Borçalı məsələsi var. Çünki orası da bizim hökumət və qüvvətimizin xaricindədir. İrəvan quberniyasının bəzi yerlərinə aid məsələ var. Çünki kəza [həmçinin] hökumət oralara hələ nüfuz edəmməyib, torpaqlarımız başqa əllərdədir. Halbuki, Qarabağ məsələsi böylə layənhəll [həll edilməmiş] bir halda deyildir. Oraya general-qubernator təyin olunmuş, oradakı hüquqi-mülkiyyəmiz hətta bir dərəcəyə qədər beynəlmiləl bir halı belə iktisab eyləmişdir [əldə etmişdir]. Bir də İrəvan quberniyasının davasını edən hökumətdən qalxıb da Qarabağ məsələsini istizah etmək [soruşmaq] yersizdir. Çünki İrəvana gedən hökumət təbiidir ki, Qarabağ dağlarını aşıb keçmədən gedəmməzdi.

Bizcə və hökumətcə Qarabağ məsələsi yoxdur. Nasıl ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarabağ ünvanı ilə vaqe olan hər növ təklifi rədd ediriz.

**Sədr** – Söz Parlaman üzvü [Arşak] Malxazyanındır.

**Sədr** – Parlaman üzvü Malxazovun etirazı əsassızdır. Mən söz verdim, bəyannamə münasibəti ilə iki fraksiya öz

rəyini dedi də. Məsələnin əsası üzərində danışan olmadı. Müştərəkən verilən təklifdən başqa, başqa təklif yoxdur. Bu təklifi səsə qoyuram.

**Sağdan** – Biz də təklif verdik.

Sədr – Sizin verdiyiniz təklif deyil. Siz ancaq nə üçün səs verməyəcəyinizin səbəbini göstərirsiniz. Mən bunu səsə qoya bilmərəm. *(Katibə)* Müştərəkən verilən təklifi oxuyun.

**Katib** *(oxuyur)* – "Hökumətin bəyannaməsini eşidərək Məclisi-Məbusan bəyani-etimadla [etimad göstərməklə], bəyannamədəki əsasların fikirdən işə keçirilməsində hökumətə hər növ ilə müavinət edəcəyini bildirərək, növbədəki məsələlərin müzakirəsinə keçir." *(Rusca tərcüməsini oxuyur.)*

**Sədr** – Qoyuram səsə. Hər kəs bu təklifi qəbul edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Sayın. Lehinə - 43. Kim əleyhinədir? Əleyhinə yox. Kim səs vermir? 21 nəfər. Lehinə - 43, əleyhinə yox, səs verməyən - 21. Beləliklə, formul əksəriyyətlə qəbul olunur. *(Sürəkli alqış)*

Vaxt təng [dar, az] olduğuna görə başqa məsələlər müzakirəyə qoyulmayacaqdır. Məclisi qapamadan əvvəl gələn iclasın yövmiyyeyi-müzakiratını [müzakirə gündəliyini] elan edirəm. Gələn iclasın yövmiyyeyi-müzakiratı böylə olur: Mükələfiyyəti-əsgəriyyədən [hərbi mükəlləfiyyətdən] maarif yaxud sənət cəhətilə azad olunması haqqındakı imtiyazat qanununun tövsisi [genişləndirilməsi]. Cibaliyyun [Dağlılar] hökumətinə 30 milyon qərz [borc] xüsusunda layiheyi-qanuniyyə. Kür nəhri sahillərində sədlər inşası üçün müəyyən məbləğ buraxılması haqqında layiheyi-qanuniyyə. Bu cür yövmiyyeyi-müzakiratı təsdiq ediniz. Etiraz yoxsa, qəbul olunur. Məsələ bitdiyindən iclas qapanır.

*(İclas saat 8.50 dəqiqədə qapanır)*

## TELEQRAF XƏBƏRLƏRİ

### Müsəlmanların gələcək üsuli-idarəsi haqqında

London – Balfura yazılmış və "Müsəlman" imzası ilə imzalanmış olan bir məktubda Balfura yenidən deyirlər ki, Türkiyənin və Ermənistanın istila edilmiş yerində muxtariyyət üsuli-idarəsi təklifini təbrik edirlər. Bu üsuli-idarə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfindən təmin ediləcəkdir. Fəqət məktubu yazanlar bu yerlərin Türkiyədən ayrılması təklifinə mənfi nəzərlə baxırlar. Məktubu imza edənlər təklif edirlər ki, İngiltərə Hökuməti müharibədən əvvəl, Türkiyə Hökumətinin etmiş olduğu təklifini qəbul eyləsin. O təklif də bu idi ki, Asiyayi-suğranı [Küçük Asiyanı, Anadolunu] idarə etmək üçün İngiltərə ingilis-hind administratoru təyin eyləsin və bunlar Asiyayi-suğranın mülki və mali [maliyyə] işlərini idarə etsinlər. Bunlar ciddiyyən təklif edirlər ki, hər bir halda yeni muxtariyyətli dövlətlər Osmanlı xəlifəsinin ruhani nüfuzu altında olsunlar. O ki, qaldı Fələstində yəhudi [dövləti] təşkili məsələsinə, məktubu imza edənlər deyirlər ki, hərgah, Sülh Konfransı Fələstinin müstəqil bir dövlət olmasını qət edərsə, hərgah, o dövlətin başında müsəlman olmasa, bütün aləmi-islam bu qətnamədən dilgir [narazı; dilxor] olacaqdırlar.





* * *

Helsinqfors [Helsinki] – Verilən xəbərlərə nəzərən, bolşeviklər Narva cəbhəsinə külli qoşun və ağır toplar yeridirlər. Litvadan xəbər verirlər ki, Litva-Kurlanda [Latviya] cəbhəsində bolşeviklər ümumi yürüşə keçmişlərdir. Şimali Litvada bolşeviklər qəti surətdə məğlub olmuşlardır. Mitava xətrə [təhlükə] altındadır.

Kopenhaq – Berlindən xəbər verilir ki, almanlar Müttəfiqlərin komissarlarına xəbər vermişlər ki, Almaniya Hökuməti heç bir halda polyakların Dansiqə girmələrinə müsaidə verməyəcəkdirlər. Eyni zamanda Müttəfiqlərin və polyak ofiserlərinin Vistuldan [Visla çayından] şərq tərəfinə keçmələrinə razı deyildirlər. Müttəfiqlərin Dansiq barəsindəki tələbatına bu nota qəti bir rəddir.

- Vaşinqtondan xəbər verilir, Amerika ərkani-hərb idarəsinin naçalniki [hərbi qərargahının rəisi] general Març bəyan eyləmişdir ki, Amerika ordusunun daimi qoşunlarının miqdarı 510 min nəfərdən əskik olmayacaqdır.

### Petroqradda üsyan

Fin Teleqraf Agentliyinin məlumatına görə, aprelin əvvəllərində Petroqradda böyük bir üsyan vaqe olmuşdur [baş vermişdir]. Böyük patıltı səsləri eşidilmişdir, sonra bu patıltıdan yanğın əmələ gəlmişdir. Petroqrada həyəcan hökmfərmadır [hökm sürməkdədir]. Əhalinin əksəri oradan çıxmışdır. Bu üsyanın səbəbi hələlik məlum deyildir. Yalnız burası məlumdur ki, ümumi əhəmiyyəti olan su yolu və sair idarələri patlatmaq istəmişlərdir. Digər bir məlumata görə, Finlanda sərhədində qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur. Fin qəzetələri bu əhvalın Şura Hökuməti ilə finlər arasında müharibəyə səbəbiyyət verəcəyindən ehtiyat edirlər.

### Xüsusi teleqraflar

Gəncə - Gəncə komandanı divarlara əmrnamələr yapışdırtmışdır ki, şəhərdə olan və yeni gələn ümum zabitlər kağız və sənədlərlə komandanlığa gələrək adlarını qeyd etdirməlidirlər. Vəqti-müəyyənədə gəlməyən zabitlər həbs və nəfy [sürgün] ediləcəklərdir.

Rəvayətə görə, bu əmrnamənin nəşrinə səbəb bu olmuşdur ki, son zamanlar Gəncəyə Könüllü orduya mənsub zabitlər gəlirmişlər. Məclisi-Məbusana bu məzmunda bir teleqraf varid [daxil] olmuşdur:

*Gəncədən: Bakıda Parlamana*

*Gəncə şəhəri və qəzası nümayəndələrindən ibarət kəsrətli [izdihamlı] mitinq İstanbulda vaqe olan hadisələrdən naşi [ötrü] sair hökumətlər tərəfindən rəva görülən Türkiyənin müqəddəs paytaxtı[nı] əlindən almaq, türkləri təbaiyyətə gətirmək, 400 milyonluq aləmi-islamı təhti-təhəkkümünə [hakimiyyəti altına] almaq, yəni aləmi-bəşəriyyətin böyük bir hissəsini hüquqi-bəşəriyyətdən və öz müqəddəratını təmin etməkdən məhrum qılmaq kimi hərəkətləri müqabilində protesto edir və sizdən təvəqqe edir ki, öz hökumətimizə və əcnəbi hökumətlərə bu xüsusda məlumat verəsiniz. Mitinq ümidvardır ki, Etilaf dövlətləri Türkiyənin və bütün aləmi-islamiyyətin gələcəyinə edilməkdə olan zərbəni dəf edəcəklər.*

*Mitinq sədri Pişnamazzadə*

## SÜLH ƏTRAFINDA

**Şurayi-Hərbiyyədə**

London – Havas ajansı xəbər verir ki, Hərbi Şura Almaniyaya təqdim ediləcək olan hərbi və bəhri [dəniz] və hava əməliyyatı şəraitini təsvib etmişdir [bəyənmişdir]. Bəhri şərait çox ağırdır. Müttəfiqlərə təslim ediləcək gəmilərin miqdarı artırılmışdır. Almanlara sualtı qayıqları inşası qadağan edilmişdir. Almaniya məcbur ediləcəkdir ki, bütün ləvazimi-hərbiyyəni təslim eyləsin. Ordusu isə 100 min nəfərdən artıq olmamalıdır. Bunlar da iki il müddətə çağırılan könüllülərdən təşkil edilməlidir. Vəzir [nazir] Leyq bu rəydədir ki, Kil kanalının Almaniyanın əlində qalması xətrəli [təhlükəli] olarmış. Zira bu kanalı nemeslər möhkəmləşdirə bilərlər. Şura bu rəydədir ki, Süveyş kanalına tətbiq edilən vəziyyət Kil kanalına da tətbiq edilməlidir.

Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] layihəsini sülh şəraitinə daxil etməyə hənuz Fransanı razı edə bilməmişlərdir. Lakin zənn olunur ki, nəhayət razı olacaqdırlar. Bu gün Klemanso eston, latış, Litva və Ukrayna hökumətlərinin nümayəndələrini hüzuruna qəbul eyləmişdir. Klemanso bunlara demişdir, üç həftə bundan sonra konfransda Rusiya məsələsi müzakirə edilərkən, bu hökumət nümayəndələri bəyanatda bulunmalıdırlar.

Paris – Lloyd Corc, Vilson, Klemanso və Orlando yazmış olduqları bir məktubda bəyan edirlər ki, əgər Lloyd Corc iki həftə daha Parisdə qalarsa, sülh müahidəsi ilə əlaqədar olan məsələlərin həpsi həll olunar.

## QƏZETƏLƏRDƏN

**Franşe D'Esperinin teleqrafı**

"N. S." qəzetəsi yazır ki, aprelin 2-də Odessa məntəqəsində olan Müttəfiq əsgərlər Baş komandanı D'Anselm Parisdən general Franşe D'Esperidən bir teleqraf almışdır. Bu teleqrafda deyilir ki, Məclisi-Məbusan Klemanso Hökumətinə bəyani-etimaddan [etimad bildirdikdən] sonra, hökumət tərəfindən Məclisə təqdim edilən hərbi istiqrazı əksəriyyətiara [səs çoxluğu] ilə rədd etmişdir. Bu əhvalatdan sonra, Klemanso Kabinəsi istefa vermişdir. Kabinənin istefası qəbul edilib, təzə hökumət təşkil edilmişdir. Odessada alınan məlumata görə, hökumət başına Albert Tomas, digər bir rəvayətə görə Viviani keçmişdir. Yeni hökumət əhaliyə müraciətən nəşr etdiyi dəvətnaməsində məmləkətdə asayiş saxlanılmasını xahiş etməklə bərabər izhar edir ki, yeni hökumətin məqsədi mümkün olan qədər sülh müahidənaməsinin [sazişinin] tezliklə imza edilməsindən və dörd ilin ərzində cəbhədə müharibə edən əsgərlərin vətənlərinə qayıtmalarından ibarət olacaqdır. Fransız əsgərlərinin Odessanı tərk etməyə hazır olmaları haqqında keçən gün binagüzarlıq [sərəncam] alınmışdır. Odessa komandanlığına təklif edilmişdir ki, Fransa əsgərlərini Romaniyaya göndərməyə hazırlasın.





**General D'Anselm**

General Anselma ərkani-hərbindən [hərbi qərargahından] general Şvartsa telefonla xəbər vermişlər ki, fövqəladə mühüm xəbərlər alındığına görə, general Şvartsın tezliklə fransız komandanlığına gəlməsi lazımdır. General Şvarts bilatəxir [dərhal] general D'Anselm yanına gedib xəbərdar olmuşdur ki, Fransa Məclisi-Məbusanı Rusiya işlərinə qarışmaq üçün hökumətin istədiyi hərbi istiqrazı rədd etdiyindən, Klemanso Kabinəsi istefa vermişdir. Bununla bərabər, general D'Anselm general Şvartsa izhar etmişdir [bildirmişdir] ki, Cənubi Rusiyada olan hamı Müttəfiq qüvvələrin çıxarılmaları haqqında Müttəfiqlər ordusunun Baş komandanlığından binagüzarlıq [sərəncam] alınmışdır. General D'Anselm general Şvartsa demişdir ki, Fransa komandanlığı Odessada qanun və asayişi saxlamaq, həmçinin Könüllü ordunun Odessadan bilamümaniət [maneəsiz] təxliyəsi üçün hər cür tədbirlər görəcəkdir. Bu müsahibədən sonra general Şvarts öz ərkani-hərbinə qayıtmışdır. Könüllü ordu komandanları general Timanovski, Levandovski və Melqenov general Şvartsın ərkani-hərbinə dəvət edilmişlərdir.

## DAĞISTANDA

**Könüllü ordu ilə dağıstanlıların müharibəsi**

Aldığımız məlumata görə, aprelin 9-10-11-də Qudermes altında Dağıstan qoşunları ilə Könüllü ordu dəstələri arasında bir neçə gündür müharibə davam etməkdədir. Bu vaxtın ərzi-müddətində Qudermes bir neçə dəfə əldən-ələ keçmişdir. Aprelin 11-də dağıstanlılar qəti surətdə Qudermesi işğal edib, ona malik olmuşlardır. Həman gün saat 3 radələrində Könüllülər yenidən hücum etmək istəsələr də, müvəffəq olmamışlardır.

Aprelin 11-də Dağıstan qoşunları düşməni Ustar-Qardoy kəndindən dəxi çıxarmışlardır. Hal-hazırda şiddətli müharibələr Məskər-Yurt kəndi ətrafında davam etməkdədir. Hər iki tərəfin tələfatı küllidir. Qudermes – Ustar-Qardoy xəttində Könüllü əsgərləri geri çəkilməkdədir. Səngərlərin bəzilərində kazakların səsi eşidilirmiş ki, onlar "Dağıstanlı qardaşlar, bəsdir müharibə etdik, gəliniz barışaq" deyə çağırırmışlar.

**Dağıstan çeteləri**

Aprelin 15-də Cibaliyyun [Dağlılar] İttifaqı Cümhuriyyətinin rəisi Kotsev Dağıstanı gəzərək Teymurxanşuraya övdət etmişdir [qayıtmışdır]. Dağıstan Hökumət vəkilinin dediyinə görə, Andi, Qunib və Avar nahiyələri Uzun Hacını vəkil etmişlər Kotsevə məlum etsin ki, onlar vətəni mühafizət etmək üçün Denikin ordusu əleyhinə hərəkatda bulunmağa 20 min nəfərdən ibarət bir partizan dəstəsi (çete) təşkil edirlər və axırıncı nəfərlərinə qədər Dağıstan istiqlaliyyətini müdafiə və mühafizət etməyi kəndilərinə vəd və yəmin etmişlərdir.

**Könüllülərin qüvvəsi**

Dağıstan mənbələrindən alınan məlumata görə, axırkı müharibələrdə Könüllü ordu tərəfindən müharibədə İkinci Plastun firqəsi, Birinci Kuban firqəsi,

Tersk və Sunjen könüllüləri iştirak etmişlərdir. Könüllü ordunun halı get-gedə fənalaşmaqdadır.

## ŞİMALİ QAFQAZİYADA

Novorossiyskdən, Yekaterinodardan və Rostovdan gələnlər oraların əhvalını böylə təsvir edirlər:

Könüllü ordu tərəfindən zəbt edilmiş olan Şimali Qafqaziya şəhər və rayonlarının hamısından artıq monarxiya üsulu Novorossiysk şəhərində hökmfərmadır [hökm sürməkdədir]. İş bu yerə çatmışdır ki, Novorossiysk Kubanı tanımaq istəməyir. Çünki orada nahiyə radası davam edir. İstiqlaliyyət elan etmiş Zaqafqaziya cümhuriyyətlərini də həmçinin Novorossiysk tanımaq istəməyir. Xüsusən Gürcüstanı rədd edir. Ona görə, Batuma göndərilən paroxodlar tutulub malları çıxarılır. Könüllü ordu başçıları da Novorossiyskin Gürcüstana olan nifrətinə şərikdir. General Denikinin müavini Draqomirov teleqrafla böylə bir əmr vermişdir:

Novorossiyskdə Qara dəniz sahili qubernatoruna Baş komandan əmr etmişdir ki:

1) Novorossiyskdən Gürcüstana mal aparılması bilkülliyyə [tamamən] qadağan edilsin.

2) Əvvəlcədən verilən icazələr və şəhadətnamələr ləğv edilib geri alınsın.

3) Qaçaqmalları tutmaq üçün ciddi tədbirlər görülsün.

4) Mal çıxarmaq ancaq Baş komandanının icazəsi ilə olur.

Novorossiysk şəhərini general-qubernator [Yevgeni] Volkov idarə edir. Halhazırda Novorossiyskdə Müttəfiq və Könüllü ordu əsgərləri yoxdur. Çünki hamı əsgərlər Don cəbhəsinə aparılmışdır. Burada bolşeviklər böyük qüvvələrlə hücum edib Könüllü ordunu sıxışdırmaqdadırlar.

Kuban əhvalı isə başqadır. Könüllü ordunun Tersk bolşeviklərinə qalib gəlməsindən sonra qalxmış olan nüfuzu məcburi istehzari-əsgəriyyə [hərbi çağırış] ilə sıfır dərəcəsinə endirilmişdir. 36 yaşında olanları, hətta yuxarı siniflərdə olan şagirdləri əsgərliyə alırlar. Pulu və mümkünü olanlar gizlənirlər. Kəndlərdə Könüllü ordu əleyhinə şiddətli və müvəffəqiyyətli təşviqat yapılmaqdadır.

Hal-hazırda Denikin ordusunun əhvalı fövqəladə dərəcədə ağırdır. Bolşeviklər Könüllü ordunu cəbhədən sıxışdırmaqdadırlar. Arxada isə dağıstanlılar müharibə elan etmişlərdir. Dağıstanlıların müharibə elanını böyük güzəştlərlə olsa da, Denikin təsviyə [ləğv] etməyə çalışmaqdadır. Dağıstan Hökuməti ilə sülh haqqında beşəxsən müzakiratda bulunmaqdan ötrü Denikin Qroznıya azim olmuşdur [yola düşmüşdür]. Burası o cəhətlə gözə çarpır ki, bir ay bundan əqdəm [qabaq] Denikin müzakirədən ötrü Yekaterinodara gələn Dağıstan nümayəndəsini qəbul etmək istəməyib, Lyaxovun yanına göndərmişdi.

Ələlümum Kuban əhvalı ümidli deyildir. Kazaklar yorulub, müharibəni qət etmək [dayandırmaq] istəyirlər. Kubanda ərzaq şeyləri və çörək boldur, fəqət manufaktura, ayaqqabı və neft yoxdur. Kuban əhalisi neft əvəzinə günəbaxan yağı işlətməkdədirlər. Rostov şəhəri cəbhə şəhəri olduğundan, şəhərdə möhtəkirlik və həyəcan vardır. Ehtikarçılıq [möhtəkirlik] o dərəcəyə qalxmışdır ki, heç bir şeyi olmayanlar bir az müddət ərzində böyük dövlətə sahib olurlar, amma dünənki milyonerlər dilənçi halına düşürlər.

## RUS TİCARƏTİNİN TARİXİ

**- 2 -**

Tatarlar bir müddət Rusiyada hökmranlıq sürəndən sonra, ruslar kimi onlar da təfriqə [ayrılıq, ikitirəlik, bölünmə] bəlasına düçar oldular. Böylə ki, Altun Ordu [Qızıl Orda] hökumətini dağıdıb, yerində ayrı-ayrı üç xanlıq düzəltdilər. Xanlıqlar arasında zühur edən rəqabət və ədavət gedə-gedə böyüyüb tatarları zəif və axırda da xaric[i] düşmənin təcavüzatından aciz buraxdı. Odur ki, yollarda və güzərgahlarda əmin-amanlıq pozulduğu üçün rus tacirlərinin malları soyulub, bir çox yerlərdə canlarına da xəta və cəfa toxunurdu.

Tatarların bu dəfəki təfriqəbazlığı rusların bir-birindən ayrılmış knyazlıqlarını yenidən birləşməyə və qəvi [güclü] bir istiqlaliyyət yapmağa bais oldu. O vaxta qədər tatar şəhərlərində ticarətlə məşğul olan rus əhalisi, özlərinin yeni istiqlaliyyətini və tatarların da əczi-halını [acizliyini] anlayıb, bundan sonra ticarət işlərini rus mərkəzlərində bitirməyə çalışdılar. Bunların səy və ehtimamları sayəsində Makaryev yarmarkası açılıb, axirüləmr [nəhayət] rus malları yollarda köçəri soyğunçularının çəngalından [caynağından] qurtardı. Bundan sonra, ruslar kamali-asayişlə mallarını öz yarmarkalarında satıb qorxusuz və arxayınlıqla evlərinə qayıdırdılar.

Bundan sonra, bir tərəfdən rus tacirlərinin təşəbbüs və qeyrətləri sayəsində və o biri tərəfdən də yarmarkanın mövqeyi və su yollarının ayrıcında düşdüyü üçün rus ticarəti gündən-günə vüsətlənib tərəqqi tapır.

İkinci ticarət mərkəzi yeni təsis olunmuş Maskov şəhəri olmuşdur. Burada da tacir sinifləri arasında knyaz və əsilzadələr birinci tacirlərdən ədd [hesab] olunurlar. Hətta ruhanilər də meyil göstərib həvəslənirlər. Burada da yuxarıda zikri keçmiş rus malları satılarkən, əhalinin kəlisa [kilsə] pəhrizlərində möhkəm olduğu cəhətinə balıq ticarəti hamısından artıq olur.

Ticarət vüsətləndikcə tacirlərin pula olan ehtiyacı gündən-günə artır. Bundan əlavə, ruslar ilə lehlər (поляки) arasında vüqu bulmuş müharibədən sonra pul ehtiyacı kəsbi-şiddət edib [şiddətlənib] hökuməti təşvişə saldı. Hələ o vaxtlar Rusiyada böyük gümüş mədənləri kəşf olunmadığı üçün Maskov knyazının hökmü ilə xaricdən gəlmə “yefimka” adlı gümüş pullarını əridib, təzədən rus sikkəsi kəsilməsinə hökm verilmişsə də, bu da ehtiyacı rəf edəmməyib [aradan qaldıra bilməyib], buna ayrı bir əlac görülməsinə tədbirlər ittixaz olunurdu [tədbirlər görülürdü]. Gümüş pul əvəzinə mis pul kəsdirmək məsələsindən başqa sair bir çarə tapılmadı. İştə, ərzan qiymətə tamam olmuş [ucuz qiymətə başa gəlmiş] mis pullarının gümüş pulları ilə bərabər qiymətə

sərf olunmasına hökm verilmişdi. Böylə ki, 100 rubləlik mis pul kəsdirmək üçün hökumət tərəfindən buna ancaq 160 təngəlik (bir rublədən də az) mis sərf olunaraq, xəzinəyə böyük-böyük mənfəətlər daxil olurdu. Əhali tərəfindən bu mis pullara qabaqca hüsn-rəğbət göstərildisə də, sonralardan hədsiz və hesabsız dərəcədə kəsilmiş mis pullarının ehtiramı azalmağa başladı. Buna bais hökumətin iş başında oturmuş kişilərə əmin olaraq, laqeyd və nəzarətsizliyi idi. Böylə ki, bir çox boyarlar çarın qayınatası ilə bərabər hökumətin etinasızlığına istinadən kənardan mis gətirdib, sikkəxanada rüşvət zoru ilə hökumət sikkəsi ilə bir yerdə özləri üçün ayrıca mis pulları kəsdirirdilər. Binaənileyh [ona görə], mis pulu bazarları, meydanları doldurub tamam aləmi boyadı. Bunun nəticəsi olaraq qabaqca gümüş pullar mürur ilə [vaxt keçdikcə] azalıb, axırda tamamən yox oldu. Malların qiyməti gün-gündən qalxıb kəsbi-şiddət etdi. Tacirlərdən bir çoxu müflis düşdü. Füqəra və əhli-kəsəbə qismi bahalığın öhdəsindən gələ bilməyib, aclıq bəlasına giriftar oldular. Mis pul gümüş pulu qiymətində daha durmayıb şiddətli bir surətdə tənəzzülə başladı. Məsələn, əvvəllərdə gümüş bir rubləyə bir rublə 4 qəpik mis pulu verildiyi halda, sonralardan 15 rublə mis pulu verilirdi. Bahalığın öhdəsindən gələ bilməyən əhali qiyam edib axırda "bunt" [üsyan] çıxardılarsa da, hökumət tərəfindən böyük zülmə giriftar oldular. Böylə ki, qiyamçılardan 7 mini edam cəzasına və 15 mini də sair şiddətli cəzalara məhkum oldular. Yəni "qaş qayırılarkən göz çıxarılır".

Bu gün bizim kağız pulları məsələsi kimi hər bir məsələ hali-təbiisindən çıxarılarsa, axırda fəna bir nəticə göstərəcəkdir! Bu vaqeə rus ticarəti tərəqqi göstərdiyi bir halda böyük bir zərbə endirib, böhranına da səbəb oldu. Vətən ticarətinə müavinət göstərmək məqsədi ilə mis pullarını icad etmiş hökumətin oxu daşa dəydi. Bundan sonra təzədən gümüş pulları kəsilərək mis pulları aralıqdan götürüldü.

Maskov hökumətinin vətən ticarətinə yeni bir xidmət göstərmək niyyətilə o vaxtlar Yevropada cərəyan edən "merkantil" (меркантилическая теория) üsulunu qəbul etmək idi. Bu üsul bundan ibarət idi ki, vətən məhsulatı kənara çox aparılsın, ta ki, bu ticarətdən hasil xariciyyə nüqudu [nağd pulu] axıb Rusiyada biriksin. Bunun müqabilində xarici əmtəəsi Rusiyaya az daxil olsun, ta ki, rus nəqdiyyəsi əcnəbi tacirlərinin ciblərinə girməsin. Xülasə, bu üsulun ümdə məqsədi mal buraxıb pul yığmaq, pul cəm etmək idi.

İştə, bu nöqteyi-nəzərlə bir çox rus taciri Yevropa şəhərlərinə mal aparıb satmaq niyyətində bulunurlarsa da, əsl məqsəd hasil olmayır, zira rəqabəti öldürmək üçün əcnəbi tacirləri rus tacirlərinə Yevropada ənvai mümaniət [cürbəcür maneələr] yapırlar. Məsələn, Anton Laptev adlı bir Maskov taciri bir gəmi heyvan dərisi Amsterdam şəhərinə aparır ki, orada satsın. Lakin bunun mətasını heç kəs almaq istəməyir. Axırda malı yenə Rusiyaya qaytarmağa məcbur olur. Bunun malı rus sahilinə çatar-çatmaz dəfətən [dərhal] holland tacirləri böyük qiymətlə tamam dəriləri alıb dübarə geri qaytarırlar. Antonun məzəmmətinə qarşı holland tacirləri böylə cavab verirlər ki, rus tacirlərinin Yevropada ticarət etməyinə biz razı deyilik. Bunun müqabilində rus hökuməti təzə bir qanunla əcnəbi tacirlərinə Arxangelsk şəhərindən başqa sair rus şəhərlərində ticarət etməyə izin verməyirsə də, yenə rus tacirləri Arxangelsk şəhərindən uzağa gedə bilməyirlər. Zira, əcnəbi tacirləri buna mane olurlar.

Xülasə, Maskov hökuməti vətən ticarətinə yüz cürə ənam və hörmət göstərirsə də, əsl məqsəd hasil olammayır. Zira islahata möhtac tək bir ticarət məsələsi olmayıb, bundan başqa siyasi, milli, mali, iqtisadi bir çox islahata möhtac məsələlər vardı ki, bunları hökumət islah etməyincə, ticarət də qaydaya düşməyəcəkdi. İştə, bu məsələləri kökündən qazıyıb islah edici bir dahiyə, bir pəhləvana ehtiyac var idi. Onu da zamanə yetirdi. Bu - Pyotri-Kəbirdən [Böyük Pyotrdan] ibarət idi. Bu barədə gələn dəfə.

*Fərhad Ağazadə*

## NƏZARƏTLƏRDƏ

**Məsai Nəzarətində**

- Ağabala Quliyev dəyirmanı xidmətçilərindən birisi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, Nəzarət tərəfindən təsdiq edildiyinə baxmayaraq, dəyirman müdiriyyəti onu xidmətdən əzl etmişdir [qovmuşdur]. Ona düşəcək əlavəni verməkdən imtina edir. Xidmətçi rica etmişdir ki, bu barədə lazım gələcək tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Nəzarət məmuru Rəhim Hüseynzadənin təminatına baxmayaraq, Ağabala Quliyev dəyirmanı müdiriyyəti tələbatın heç birinə əməl etməməklə bərabər, xidmətçiləri bir-bir xidmətdən əzl edir və müdiriyyət əlavə edir ki, mayısın 1-də dəyirmanı bağlayacaqdır.

Kəsbkarlar İttifaqı işbu tələbatı Ağabala Quliyevi qəbul etməyə məcburi rica etmişdir:

1) Xidmətçilərin bütün tələbatını imza etməklə, xidmətdən əzl edilmiş xidmətçiləri geri qəbul etmək.

2) Əzl edilmiş iki nəfəri xidmətçi hesab etməklə, İttifaq əzası [üzvü] fəhlələrə əziyyət etməməyi birdəfəlik qəbul etməli.

3) Müqavilədən kənar heç fəhləni xidmətdən əzl etmək olmaz.

Bunların qövldən feilə [sözdən əmələ] gətirilmələri nisanın [aprelin] 20-dən gec olmamalıdır.

Dünən nisanın 17-də xidmətçilərlə Ağabala Quliyev dəyirmanı müdiriyyəti miyanında [arasında] baş qalxızmış ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] qəsdilə Rəhim Hüseynzadə cənabları oraya göndərilmişdi.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

* Məclisi-Məbusanın erməni fraksiyonu Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən məlum etmişlər ki, Gəncə qəzasının Xankəndi, Qaradonlu və Sarov kəndi er-

mənileri öz ərazisinin bir hissəsini əkdikdən sonra müsəlman qaçqınları o kəndləri tutmuşlardır. Binaənileyh [ona görə], erməni kəndçilərinin işləri yarımçılıq qalmışdır. Ümuri-Xeyriyyə və Nafiə naziri Gəncə qubernatorundan rica etmişdir ki, ermənilərin çöl işlərini itmama yetirmək [tamamlamaq] üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

* Gəncədəki nahiyə müfəttişi tərəfindən Qarabağ dairəsi qaçqınları üçün bir çox ərzaq alınmışdır ki, başqa-başqa nöqtələrə aparılmalıdır. Ümuri-Xeyriyyə və Nafiə naziri Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən rica etmişdir ki, Yevlax yollarına lazımi əmr verilsin o ərzağı növbəsiz olaraq aparsınlar.

* Məclisi-Məbusanın erməni fraksiyonu Soltannuxa kəndi əhalisinin təşəbbüsatını Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə təqdimən məlum etmişlər ki, 1918-ci sənədə onların kəndi ləzgilər tərəfindən tutulduğu üçün çöl işlərindən məhrum qalmışlardır. Nəzarət Gəncə qubernatoruna müraciətən rica etmişdir ki, bu barədə lazımi tədbir ittixaz edilsin.

* Ümuri-Xeyriyyə və Nafiə naziri Klenevski darüleytam [yetimxana] müdirəsi Vaykova xanım ilə müsahibədə bulunaraq məlum etmişdir ki, ətraf və əknafda [bu tərəflərdə və yerlərdə] Nəzarət bir çox darüleytamlar güşadını [açılmasını] ehtimal edir və xanımdan rica etmişdir ki, həman şöbə müdiriyyətini öz öhdəsinə qəbul etsin. Nəzarət məlum etmişdir ki, bütün Azərbaycan Ətfala [Uşaqlara] Yardım Bürosu təşkil ediləcəkdir.

## İRANLILARA DAİR

*Suxəndane pərvərde pire kohen*
*Beyəndişəd angəh ke quyəd soxən*

"Al bayraq" ruznaməsində [qəzetində] "Müdafieyi-məzluman" [Məzlumların Müdafiəsi] adında heyəti-müvəqqətə [müvəqqəti heyət; müvəqqəti komitə] tərəfindən İran fəhlələrinə təvəccöh olunub [üz tutulub] yazılan elan nəzəri-əhqərimə [həqir, aciz nəzərimə] çarpandan sonra islamiyyət qanı damarlarımda mütəhərrik olub [hərəkətə gəlib], neçə kəlmə də olmuş olsa da yazmağa məcbur oldum.

Həman adları zikr olan ağalar deyildilərmi ki, öz şəxsi rəyasətlərindən ötrü şaumyanlarla siğə qardaş olub bielm və öz hüquqi-bəşəriyyələrin düşünməyən biçarə İran fəhlələrin[i] "Krasnı armiya"[ya] yazdırıb tüfəng-bəduş etmişdilər [çiyinlərinə tüfəng vermişdilər] və onların tüfəng-bəduş olmaları səbəbincə İranın neçə minlərlə bitəqsir və bigünah fəhlələri Dağıstan mahalında, Quba dəhatlarında [kəndlərində] cərgəyə qoyulub fəcianə bir surətdə məzlumanə məqtul [qətl edilib] və qərib cəsədləri vəhşi və dərəndə [yırtıcı] heyvanata tömə [loğma, yem] oldular. Əcəba, bunlar imiş, Müdafieyi-Məzluman Komitəsi! Vaəsəfa [Təəssüflər olsun]! İranlıların "İttihad" mədrəsəsində məşğuli-təhsil olan biçiz [yoxsul] və yetim ətfalları [uşaqları] zalımlardan hesab olunurlarmışmı ki, həmin məzlumları müdafiə etməyə müntəxəb olan [seçilən] ağalardan 17 min manat şəhadətnamədən aid olan mənafeyi-mədrəsəni [mədrəsənin xeyrini] tüfəng gücü ilə yədi-qasibanələrinə [öz qəsbkar əllərinə] keçirəndən sonra bəl eylədilər [uddular]. Aya [görəsən], bu müdafieyi-məzlumançı ağalardan deyilmidirlər ki, 6 min illik bir qədim dövlət və millətin şərəf və ehtiramlarını iki cift [cüt] "malades" və bir cift "çox sağ ol"a satıb, minli [minlərlə] İran camaatın nəinki islam arxadaşlarının nəzərində, bəlkə sair millətlər ənzarında [nəzərlərində] tənfir və tövhin və təlinlərə [nifrətə, zəiflətməyə və lənətə] layiq və səzavar [yaraşan] etmişdilər.

*To toxmi beyəfşan ke çon bedrəvi*
*Ze məhsule xod şad-xorrəm şəvi.*
*Əz həmin toxmi ke sabeğ kəştei*
*To nəmidani ke rosva gəştei.*

"Yətəşəkkəlunə biəşkalin müxtəlifə" müfadınca [mənasına uyğun olaraq], indi də müdafieyi-məzluman maskaları çəkilir. İran camaati-məzluməsi avam da olmuş olsa, qabaqkı rəzalətləri görəndən sonra, daha bu tövr vahi [boş, puç] adlara və avamfirib [adamaldadan] heyətlərə bavər [etibar] edəmməyəcəklər. Çünki qabaqkı təcrübələr milli bir tarix olub, heç bir iraninin xatirindən çıxması mümkün deyil!

*Varhan xodra əz in həmsohbətan*
*Cümlə məhtabənd əmma to kətan.*

Hərgah, müdafieyi-məzlumançı ağalar müdafiə məqamına gəlsələr də, fəqət mən də bir nəfəsim qalanca haqq və haqqaniyyətlə öz sözlərimi söyləyəsiyəm.

*Ta siyəhruy şəvəd hər ke dəru ğəş başəd*

*İrani Nejad*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycana qarşı sui-niyyət**

Srağagün, aprelin 15-də Bakıda hökumət əleyhinə sui-niyyət [terror; cinayət] hazırlanması kəşf edilmişdir. Bədəfkarların [cinayətkarların] "yuvası" Balaxanski ilə Krasnovodski küçələrin küncündə məşhur Petinkenin evi, "Qlaz" aptekxanasının altındakı padvalda [zirzəmidə] imiş. Sui-niyyətin kəşf edilməsində 6-cı uçastok milis nəfəratından [nəfərlərindən] bir nəfər dağıstanlı milisioner böyük fəaliyyət göstərmişdir. Böylə ki, məzkur [deyilən] padvalda böylə hərəkat davam etdiyini bildikdə təhqiqata başlamış və öyrənmişdir ki, sui-qəsdçilər Könüllü orduya adamlar qəbul edirlər. Milisioner dəxi özünü yazdırmaq bəhanəsilə oraya getmiş və yazılmışdır. Böyləliklə hərəkatın künhünü [mahiyyətini] anlamaqla lazımi məlumat toplayaraq, polis idarəsinə xəbər vermişdir. Polis nəfəratı, pristav başda olmaq üzrə məzkur evi əhatə etmiş və bir neçə nəfəri padvala girərək orada böyük dəftərxana və silah anbarı tapmışdır. Padvalın bir neçə kiçik odalarında 20 nəfər və digər rəvayətə görə, 40 nəfər bədəfkar dərdəst edilmişdir [cinayətkar tutulmuşdur]. Bədəfkarların çox hissəsi ermənilərdir. Onlar, dərhal tövqif [həbs] edilərək təhtəlhifz [mühafizə altında] ərkani-hərb idarəsinə [hərbi qərargaha], oradan da mərkəzi həbsxanaya göndərilmişlərdir.

Padvaldan bir çox kağızlar, sənədlər, yazı makinaları, telefon, teleqraf aparatları və bir neçə dənə də bomba ilə silah tapılmışdır.

Sənədlərdən anlaşıldığına görə, sui-

niyyətçilərin Denikin Könüllü ordusu ilə əlaqə və münasibatı var imiş, hətta rəvayətə görə, Könüllü ordu Yalama mövqifinə yetişdikdə bunlar dəxi içəridən hərəkata başlayacaqlarmış.

Bədəfkarlar tövqif edildikdən sonra pristav tərəfindən evin ətrafına gizli surətdə adamlar qoyulmuş və əhvalatdan bixəbər olub da oraya – padvala gəlmiş olan "yoldaşlardan" bir neçə nəfəri dəxi tövqif edilmişdir. Böyləliklə, hökumət və Azərbaycan istiqlaliyyəti əleyhinə hazırlanmaqda olan böyük bir xəyanət və suiniyyət hazırlanması kəşf edilmiş və bədəfkarların "yuvalarından" birisi dağıdılmışdır.

**Qara qüvvələrin hərəkatı**

Yeni gömrükxanada qulluq edən müsəlman əmələlərindən [fəhlələrindən] birisi hökumət idarəsinə məlum edir ki, o və bir çox başqa müsəlman əmələləri işlədikləri yerdə hər gün görürlər ki, bir çox erməni və rus saldatları gəlib oradan tüfəng alıb aparırlar. Böylə hərəkət hər gün 5-6 dəfə təkrar olunur. Tüfənglər kimin tərəfindən verildiyi məlum deyildir. Amma onlar görürlər ki, tamojnada ingilis saldatı (çasavoy) dayanır. Bir neçə gün bundan əqdəm [qabaq] 1500 dənəyə qədər xarab olmuş tüfənglər dənizə atılmışdır. Bir qədər də silah bugünlərdə paroxoda yüklənib aparılmışdır.

**Könüllü əfradı cəm edilməsi**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən qərardad və fraksiya tərəfindən təsdiq edilməsinə məbni [əsasən], Dağıstan Cümhuriyyəti və istiqlaliyyətinə qara qüvvələrlə mübarizə etməkdə kömək verilməsindən ötrü indidən könüllü əfradı [əsgərləri] cəm edilməsinə şüru olunmuşdur [başlanmışdır]. Həmin qərardadı qövldən feilə [sözdən əmələ] gətirmək və həmçinin könüllüləri yazıb məhallinə [yerinə] göndərməkdən ötrü 3 nəfərdən ibarət bir hərbi komissiya təşkil edilmişdir. Könüllü yazılmaq istəyənlər və bu xüsusda başqa işləri olanlar Məclisi-Məbusan binasında səhər saat 9-dan 2-ə qədər və axşam saat 5-dən 7-ə qədər məzkur [deyilən] komissiyaya müraciət etməlidirlər.

**Məhkəməyə cəlb**

Bakı nahiyə məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna məlum edir ki, onun tərəfindən Bakı Mərkəzi həbsxanasının müdir müavini Perkis sui-istemalda [sui-istifadədə] bulunduğu üçün təhti-mühakimə [mühakimə altına alınmış] və məsuliyyətə cəlb edilmişdir. Məzkur [adı çəkilən] müavin istintaq müdirinin binagüzarlığı [sərəncamı] ilə həbsə alınmışdır. Buna binaən [buna əsasən], müddəiyi-ümumi qubernatordan rica edir ki, tezliklə yeni bir müavin təyin etsin. Çünki naçalnik qulluq işlərindən ötrü başqa bir yerə getdikdə, həbsxana müdirsiz qalır.

**Oğurluq**

- Binəqədidə Rus Neft Cəmiyyəti müdiri 6-cı uçastok pristavına məlum etmişdir ki, məzkur [deyilən] mədəndən naməlum şəxslər tərəfindən 23 dənə Amerika trubası, 20 dənə taxta oğurlanmışdır. Oğurlanan malların qiyməti 60 min manatdır. Bədəfkarları [cinayətkarları] axtarmaqdan ötrü ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

- Əmirhacıyan kəndinin əhli Əbülfəz Əbdülkərim oğlu polisəyə məlum etmişdir ki, həman kəndin əhli Əli Həmzəli oğlu onun tövləsindən 12 min manatlıq atını oğurlamışdır. Əli tövqif [həbs] edilmişdir.

**Balaxanı məktəbləri**

Neçə ildən bəri davam etməkdə olan Balaxanı zükur və ünas [oğlan və qız] məktəblərində qeyri-müntəzəm bir halda olsa da, dərslər davam etməkdədir. Zükur məktəbi 4 şöbədən ibarət olaraq, 3 rus-müsəlman müəllimi ilə bir də elmi-ilahi müəllimi vardır. Mütəallimlərin [şagirdlərin] miqdarı 200 nəfərdən ziyadə olub, müvəffəqiyyətlə oxumaqdadırlar.

Ünas məktəbində 3 şöbə olub, 80 mütəallimə [qız şagird] dərs oxumaqdadır. Münasib yer olmadığından, ancaq bir odada dərsə məşğul olurlar. Burada ancaq bir müəllimə (Sara xanım Əfəndiyev) vardır ki, 3 şöbənin mütəallimələrinə ayrı-ayrı dərs verməkdədir. Bu məktəbin halı fənadır. Çünki müəllimə və mütəallimələr nə qədər hümmət etsələr də, namüsaid şərait içərisində şübhəsiz ki, dərs o qədər müvəffəqiyyətlə keçməz.

* Məşixət İdareyi-cəliləsi [cəlallı Şeyxülislamlıq İdarəsi] Qəzavətxana [Qazılıq İdarəsi] təvəssütü [vasitəsi] ilə Bakıda sakin şamaxılılara xəbər verir ki, Mart hadisəsi zamanı Şamaxı prixod dəfatiri [dəftərləri] yanıb məhv olduğu və bir nüviştəcat [yazılı sənəd] əldə olmadığı üçün məzkur bəldə [adı çəkilən diyar] camaatına təvəllüd-vəfat xüsusunda şəhadət vermə çox müşkül olduğu üçün onlar üçün sabiq Şamaxı prixod mollası Molla Səftər Molla Qafarzadə yenə kəndi ruhanilik vəzifəsini ifa etməyə təyin olunur. Prixoda mütəəlliq [bağlı] olan işlərdə ona müraciət etməlidirlər.

*Bakı qazısı*
*Axund Əbdürrəhim Hadizadə*

**Mühazirə**

Aprelin 11-də şənbə günü saat 4 tamamda şəhər arabaçılarından ötrü Əbdülvahab Məhəmmədzadə tərəfindən hal-hazıra dair mühazirə oxunacaqdır (Abozda). Arabaçılarn həman mühazirədə hazır olmaları rica olunur.

## FƏHLƏ HƏYATINDAN

**Balaxanıda**

Seşənbə [çərşənbə axşamı] günü aprelin 15-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxanı şöbəsi tərəfindən bir mühazirə (leksiya) tərtib edilmişdi. Mühazirədə bir çox əmələ [fəhlə] və kəndçilər hazır olaraq, məclis Nasir Əlikərimovun sədarəti [sədrliyi] ilə açılmış, Kəndlilər İttifaqına Balaxanı kəndi tərəfindən 5 nəfər vəkil seçilməsi təklif edilmişdir. Bu vəkillər vasitəsilə Balaxanı kəndi üçün həman ittifaqlara Ərzaq Nəzarətindən azuqə gətirilməklə bərabər, məzkur [deyilən] kəndin ehtiyacı üçün eyni ləvazimat [lazım olan şeylər] dəxi müheyya [hazır] ediləcəkdir. Böylə ki, kəndin məktəbi, işığı, yolları, dəvaxanası və başqa ehtiyaclarının rəfinə [aradan qaldırılmasına] səy ediləcəkdir. Bəzi səbəblərdən dolayı məzkur 5 nəfərin in-

tixabı [seçilməsi] başqa bir vaxta təxir edilmiş, mühaziræçi Piri əfəndi Mürsəlzadə əhvali-hazireyi-siyasiyyə mövzusunda mühazirə oxumuşdur.

**Balaxanı krujokunda**

Seşənbə [çərşənbə axşamı] günü axşam Balaxanı krujokunda Balaxanıdakı "Qardaş birliyi" maarif cəmiyyəti tərəfindən həvəskarların iştirakı ilə "Köhnə Türkiyə" faciəsi ilə "Nə qanır, nə qandırır" komediyası oynanılmışdır. Hasilatın hamısı məzkur [adı çəkilən] cəmiyyətin nəfinə [xeyrinə] veriləcəkdir. Cəmiyyətin fəaliyyəti əmələlər üçün gecə kursları açmaq və biçiz [yoxsul] əhaliyə yardım etməkdə get-gedə geniş bir dairə almaqdadır.

**Tağıyev fabrikasında gecə məktəbi**

Müdiri-möhtərəm, acizanə təvəqqe edirik sizin cənablarınızdan bizim bu neçə kəlmədən ibarət maarif barəsindəki sözlərimizi "Azərbaycan" cərideyi-mübarəkəsinin [mübarək "Azərbaycan" qəzetinin] sütunlarında dərc edəsiniz. Bu 1919 sənədə, əvvəli-yanvardan "Müsavat" firqəsinin fabrikada olan şöbəsinin təşəbbüsü ilə gecə məktəbi güşad olunub [açılıb], fəhlə qardaşlarımıza dərs verilir. Əlan [hal-hazırda] 120 nəfər fəhlə təhsil edirlər. Gecə saat 7 tamamdan dərs başlanır, ta 10 tamama kimi. Əlan əvvəlinci şöbə ilə ikinci şöbədə dərs verilir və hər gecə fəhlələr gəlib yazılırlar. İnşallah, yenə bir şöbə artırmaq xəyalında bulunuruz və bir də fabrika müdirinə təşəkkür ediriz ki, o cənabların təşəbbüsü ilə və Hacı cənablarının mərhəməti ilə 3 nəfər müəllimin məvacibi və məktəbin xərci hamısı kantordan verilir və gələcəkdə məktəbin dairəsi böyüdükcə, sizə məlumat verərik.

*Məşhədi Yusif Salehzadə*

## BAKI QUBERNİYASINDA

**Maştağa kəndindən**

Maştağa kəndində olan halətlərdən biri məzkur [adı çəkilən] kəndin əmin və amanda yaşamağıdır. Keçən illərdə olan hərəkətlərdən asar [əsər-əlamət] görünməyir və divanxanada polis xidmətçiləri öz vəzifələrini yaxşı ifa edirlər və təzə açılan Türk Ədəmi-Mərkəziyyət "Müsavat" şöbəsinin üzvlərindən baş qaradovoy Dadaş Baba oğlunun hümməti vasitəsilə keçmiş cümədən hər həftə cümə günü dükan və bazar qapanır və camaat günorta zamanı məscidə cəm olur. Namaz qılıb ziyarəti-cümə oxuyurlar və yerli vaizlərdən Hacı Mirzə Əbdülkərim Hacı Əhmədzadə minbərdə əyləşib xütbədən sonra Qurani-əzimüşşandan [şanı uca Qurandan] ayələr oxuyub və təfsirinə şüru edir [başlayır]. Belə ki, keçən cümə camaata dedi:

*"Camaat, necə ki, Həzrəti-Peyğəmbər səllallahu aleyhi və alihi və səlləm dünyada olan zamanda Allahi-əzimüşşan ayeyi-şərifənin dəlaləti ilə və o Həzrətin vasitəsilə əhli-islamı birləşməyə çağırır, qardaşlığa və yoldaşlığa çağırır və birlik münasibətilə o Həzrət ucaltdı islamın bayrağın və küffara qalib oldu və tapşırdı islam əhlinə birliyi öz aralarında və sizə vacib və lazımdır birləşmək, qardaşlıq, yoldaşlıq. Camaat, məgər sizin yadınızdan fəramuş [unudulmuş] ola bilər o günlər ki, matəm saxladınız – Mart hadisatı və siz islam və türklərin əhl və əyal və namusların paymal olmağı [tapdalanmağı]. Əlbəttə, o günlər islam və türk övladının xəyalından heç bir zaman unudulmaz. Aya [görəsən], bu qəziyyə bizim üçün özlərimizin birlikdən uzaqlaşdığımızdan deyilmiydi? Və həmçinin, gördüz, sentyabr ayında birliklə düşmənə qalib olduq. Əgər hümmət etməsəydiniz, türk qardaşlarımız özlərin bizə yetirənə kimi bizim kəndlərimizdən və evlərimizdən və özlərimizdən və bu məscid və bu minbərimizdən, necə ki, Şirvanda qalmadı, bu yerdə də asar qalmazdı və bir zihəyat [canlı] bu hüzzardan [burada olanlardan] diri qalmazdı. Bəs [elə isə], Allah-taalanın buyurduğu və gözlərimizlə gördüyümüz imtahan şəhadət verir buna ki, gərək biz türk və islamlar qardaşlıq eyləyək və cavan hökumətimiz Azərbaycan istiqlalını mal, can və başımızla mühafizət eyləyək. Əgər, hökumətimizin arxasında dayanıb onu yekdil və yekcəhət mühafizət etməsək, gələr bizim tərəfimizə gördüyümüzdən də çox qara buludlar və qara günlər. Hər bir vətən övladının əvvəlinci borcu hökumətin fərmanlarını əmələ gətirmək və əsgərliyə getmək və baş qaçırtmayasınız əsgərlikdən. Necə ki, bizim Peyğəmbərimiz zamanından bəri islam millətləri tüfəng atmağı və qədim zamanda ata minib ox atmağı təlim alırdılar və əgər mənim övladım olsa əsgərlik yaşında, öz əlindən tutub hökumətin əlinə tapşırardım, öz razılığım ilə. Əgər cavanlar əsgərə getməsə və təlim almasa, sizi düşməndən kim saxlar və irz-namusun necə amanda ola bilər və vətənimizi kim mühafizət eylər? Aya, siz şad olmayırsınız ki, öz yoldaşlarınız və qardaşlarınız silah altında və sizə salam verirlər vəhalonki [halbuki], bundan əqdəm [qabaq], silahlıları görəndə o[n]lardan əziyyət gözləyib həzər eyləyirdik. "Və kəlbühüm basitun ziraeyhi bilvəsidi" ayəsi oxuyurduq və ürəkdə güşadə [açıq-aşkar] olan sözlərimizi biz aşkara məscidlərdə, minbərlərdə sizə deyə bilməzdik qorxumuzdan ki, məsul olmayaq. Əlhəmdülillah, indi məscid bizim, minbər bizim, vətən bizim və hökumət bizim. Hamı özümüzündür."*

Bu növ nəsihətlərdən sonra, hökumətimizə və əsgərlərimizə dua olundu və Fatihə oxuyub ölən əsgərlərə məclis tamam oldu.

Yaşasın Azərbaycan!
Yaşasın əsgərlərimiz!

*M. Hüseynzadə*

## GÜRCÜSTANDA

**Gürcüstanda ermənilər**

Tiflisdə olan Erməni Şurayi-Millisi Gürcüstanda olan ermənilərin milli-mədəni muxtariyyəti haqqında Gürcüstan Məclisi-Müəssisanına bir layihə daxil etməyi qərara almışdır. Qanun layihəsini hazırlamaq işi Popovyana və Qazaryana həvalə edilmişdir.

**Dəniz münasibatı**

Azərbaycan dəmiryolları naçalniki Teymur bəy Məlikaslanov və ticarət xidməti naçalniki Şimanski Yevropa ilə Cənubi Rusiya arasında daimi münasibat bərpa

edilməsindən ötrü "Rusiya" və "R.E.T.V.P." paroxod şirkətləri ilə müzakiratda bulunmaq üçün aprelin 10-da 5 nömrəli qatarla Batuma əzimət etmişlərdir [yola düşmüşlər].

**Məlikaslanovun şərəfinə ziyafət**

Bugünlərdə Tiflisdə Artistiçeski Obşestvada Azərbaycan dəmiryolları naziri Xudadad bəy Məlikaslanovun şərəfinə olaraq Gürcüstan hökumət əzaları [üzvləri], siyasi və ictimai xadimləri iştirakı ilə bir ziyafət kəşidə edilmişdir [ziyafət verilmişdir].

**Əcnəbi məmləkət paroxodları**

Aprelin 9-da Batumdan teleqraf edirlər ki, sabun, kibrit, dəri və cürbəcür manufaktur malları ilə yüklü iki böyük paraxod varid olmuşdur [gəlmişdir]. Bu paraxodların dalınca Qafqaziyadan ötrü hazır paltar və ayaqqabı gətirməkdə olan iki paroxod dəxi gəlməkdədir.

* Axıska və Axalkələk dairəsində erməni fərarilərinin [qaçqınlarının] halı təhəmmül edilməz [dözülməz] bir haldadır. Bütün müharibə zamanı fərarilərə müavinət edən müəssisələr bunlara kömək etməkdən aciz olmuşlardır. Tiflisdəki Erməni Milli Şurası müavinət üçün oraya adam göndərmişsə də, fəqət ona pul vermədiyindən bu xüsusda müavinət göstərməmişdir. Gürcülərin yeni əmrnaməsinə görə, bunların halı fənalaşmışdır.

* Gürcüstan Hökuməti şəhər upravalarında olan cavan erməni və yəhudiləri səfərbərliyə dəvət edir. Səfərbərliyə alınmış olan yəhudi və ermənilər bilatəxir müsəlmanlarla müharibə yapmaq üçün meydani-müharibəyə göndəriləcəkdirlər. Bu xəbər şəhər əhalisinə artıq dərəcədə sui-təsir etmişdir [pis təsir göstərmişdir].

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Skripka dərsi**

Petroqrad Konservatoriyasının rəssamı M. Malkarov skripkada dərs verir. Ünvan: Birjavaya küçə nömrə 14, Desyatnikovun mənzilində. Telefon nömrə 46-83.

*5782*

**Türk mütəəllimləri**
**və tələbələri iclası**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın proqramına hüsn-rəğbət göstərən mütəəlim [şagird] və tələbə arxadaşlardan rica olunur, cümə günü aprel ayının 18-də, saat 4-də "Müsavat" bürosuna təşrif gətirsinlər. Daimi büro seçiləcəkdir.

*Müvəqqəti büro*
*T-109*





**İtibdir**

Şamaxılı Məşhədi Həmid Qəniyevin Lənkəran uyezdindən aldığı pasport, Tiflis Tacirlər Bankından aldığı çek və oğlu tərəfindən ona verilmiş vəkalətnaməsi itibdir.

Etibardan saqitdir.

*8719*

**Komisyon kantoru**

Hər cür komissiya, ticarət, sklad, neft və cövhər işlərini qəbul edirik. Ünvan: Yevlax, Məşhədi Firidun və İsmayıl Hüseynovların öz mülklərində.

*9154*

**Tərəzi**

Təzə tərəzi satılır hər bir şeyi ilə. Afiserski küçədə nömrə 5, Bağırovun mağazasında.

*8716*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 321. "Sədr – Parlaman üzvü Malxazovun etirazı əsassızdır.": "Azərbaycan" qəzetində Malxazyanın çıxışı verilməmişdir; Malxazyan, mövzunun mahiyyəti ilə bağlı mübahisələr qurtardıqdan sonra, çıxış edənlərin yenə mahiyyətə dair danışmalarına etirazını bildirmişdir.

"Mən söz verdim…": qəzetdə "Mən səs verdim…" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 323. "Mitava": Latviyada, indiki Yelqava şəhəri.

"Març": qəzetdə "Marşal" kimi getmişdir.

"…yəni aləmi-bəşəriyyətin…": qəzetdə "yəni" yerinə "yeni" getmişdir.

**Sülh ətrafında**

səh. 324. "Havas": Fransız xəbər agentliyi. 1835-ci ildə təsis edilmişdir. Franspress agentliyi [Agence France-Presse] daha sonra "Havas"ın bazasında yaradılmışdır.

**Qəzetələrdən**

səh. 325. "General D'Anselm": qəzetdə "General Anselma" kimi getmişdir.

**Rus ticarətinin tarixi**

səh. 327. "Makaryev yarmarkası": Rusiyada, indiki Nijeqorod vilayətinin Lıskov rayonunun Makaryevo qəsəbəsində qurulan böyük yarmarka. İldə bir dəfə qurulan və bir gündən dörd həftəyə qədər dəyişən müddətlərdə davam edən Makaryev yarmarkası XVII əsrin əvvəllərindən XIX əsrin əvvəllərinə qədər mövcud olmuşdur.

"yefimka" (yaxud yefimok): XVIII əsrin ortalarına qədər Rusiyada da işlədilən Qərbi Avropa gümüş talerinə rus xalqı arasında

verilən ad idi. Bu ad, XVI əsrin I yarısında Yoaximstal (indiki Yaximov) şəhərində kəsilən “yoaximstaler” adlı gümüş sikkədən götürülmüşdür.

səh. 328. “çarın qayınatası”: söhbət rus çarı Aleksey Mixayloviçin birinci arvadı Mariya Miloslavskayanın atası İlya Miloslavskidən gedir.

**Nəzarətlərdə**

səh. 329. Xankəndi: Gəncə qəzasında, indiki Goranboy rayonu ərazisində mövcud olmuş kənd.

**İranlılara dair**

səh. 330. “Suxəndane pərvərde pire kohen / Beyəndişəd angəh ke quyəd soxən”: “Söz bilən kimi tərbiyələnmiş köhnə qoca / Söz deyən zaman düşünər.” (farsca)

“Al bayraq”: “Hümmət” partiyasının Bakıda nəşr etdiyi qəzet.

səh. 331. “To toxmi beyəfşan ke çon bedrəvi / Ze məhsule xod şad-xorrəm şəvi. / Əz həmin toxmi ke sabeğ kəştei / To nəmidani ke rosva gəştei.”: “Sən elə bir toxum səp ki, biçərkən / Öz məhsulundan şad-xürrəm olasan. / Keçmişdə əkdiyin həmin toxumdan / Bilmirsənmi ki, rüsvay olacaqsan.” (farsca)

“Yətəşəkkəlunə biəşkalin müxtəlifə”: “Onlar müxtəlif şəkillərdə özlərini göstərirlər.” (ərəbcə)

“Varhan xodra əz in həmsohbətan, / Cümlə məhtabənd əmma to kətan.”: “Özünü bu həmsöhbətlərdən kənar tut, / Hamısı məhtabdır, sən isə kətansan.” (farsca)

“Ta siyəhruy şəvəd hər ke dəru ğəş başəd”: “Hər kimdə ürəkkeçməsi varsa, o, üzüqara olar.” (farsca)

**Bakı xəbərləri**

səh. 333. “prixod dəfatiri”: camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma mollalarının (prixod mollalarının) əhalinin doğum və ölümlərini qeyd etdikləri dəftərlər.

“Aboz” (yaxud Qorodskoy aboz): Bakı şəhərində at arabalarının saxlandığı, dəmirçi emalatxanalarının, həmçinin yük anbarlarının olduğu mərkəz.

**Fəhlə həyatından**

səh. 334. “Köhnə Türkiyə”: Rza Zakinin faciə əsəri.

“Nə qanır, nə qandırır”: Mirmahmud Kazımovskinin komediya əsəri.

**Bakı quberniyasında**

səh. 335. “Və kəlbühüm basitun ziraeyhi bilvəsidi”: Quranın Kəhf surəsinin 18-ci ayəsindən bir parça. Mənası: “Onların iti də qabaq ayaqlarını mağaranın girişinə uzadıb yatmışdı.” Ayənin davamı belədir: “Əgər sən onları bu vəziyyətdə görsəydin, yəqin ki, qorxudan dönüb qaçardın, dəhşət səni bürüyərdi.”

**Gürcüstanda**

səh. 336. “Artistiçeski Obşestva”: Tiflisdə, XX əsrin əvvəlində tikilmiş teatr binası. Halhazırda Şota Rustaveli adına Gürcü Dövlət Akademik Teatrı bu binada yerləşir.





**Bazar, 20 aprel 1919-cu il, nömrə 161**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 19 rəcəbül-mürəccəb sənə 1337. 20 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## DAĞISTANA İMDAD!

Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin Mərkəzi Komitəsi tərəfindən intixab olunmuş [seçilmiş] xüsusi bir komisyon tərəfindən dağıstanlı qardaşlarımız üstünə hücumavər olan [hücum edən] hürriyyət və istiqlal düşməni Denikinin qara qüvvəsi ilə hərb etmək üçün Azərbaycan könüllü dəstəsi təşkil olunur. Yazılmaq istəyənlər hər gün Məclisi-Məbusan binasında, “Müsavat” fraksiyonu mənzilində gündüz saat 8-dən 2-yə və axşam saat 5-dən 7-yə qədər yazıla bilərlər.

## TƏKZİB

“Znamya truda” qəzetəsində və sonradan başqa qəzetələrdə bir xəbər yazılmışdı ki, guya Qafqaziyada olan Müttəfiq dövlət komandanı general Tomson Gürcüstan Şurayi-Vükəlası [Nazirlər Kabineti] sədri Jordaniyanı üç dəfə İngiltərə ərkani-hərbinə [qərargahına] dəvət edib və guya axırda Jordaniyaya demişdir ki, Sülh Konfransı Eçmiyədzin uyezdindən başqa Rusiyanı 1914-cü il sərhədlərində bərpa eyləmək əsası ilə Zaqafqaziya cümhuriyyətlərini təsdiq etməyir. Sonrakı xəbərdə deyilirdi ki, guya bu söz Jordaniyaya artıq təsir bağışladığından, Jordaniya bu xəbərin əqəllən [heç olmasa] mayın 1-nə qədər elan edilməməsini Tomsondan xahiş etmişdir.

Azərbaycan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsinin məlumat bürosu bu əhvalatın əsilsiz olduğunu xəbər verir. Jordaniya ilə Tomson arasında yuxarıdakı məsələlər haqqında heç bir məhəbbət [söhbət] olmamışdır.

**İdarədən:** Qəzetəmizin keçən nömrələrinin birində “Yalan şayiələr” ünvanı ilə fövqdəki xəbərin əsilsiz və uydurma olduğunu yazmışdıq. “Vperyod” qəzetəsi də bu xəbərin yalan olduğunu yazdıqdan sonra deyir ki, erməni siyasi dairələrinin Parisdən və İstanbuldan aldıqları məlumata görə, Sülh Konfransı Zaqafqaziya cümhuriyyətlərini təsdiq etməyə maildir.

## BÖHTANLARLA BÖYÜK İŞLƏR GÖRÜLÜR

Biz Qafqaz türkləri haqlı sədamızı, təbii haqqımızı yanımızda, aramızdakı

Müttəfiqlər müməssili [nümayəndəsi] Tomsona yetişdirəmmədiyimiz, ona həqiqəti-halı anlatammadığımız halda, ermənilər yüz dürlü böhtan və qırmızı yalanlarını Parisə, Londona qədər çatdıraraq Qafqaz siyasətində böyük rol oynamaqdadırlar. Həm öylə dəhşət və əhəmiyyətli rol oynamaqdadırlar ki, ona qarşı bir saat səbr və sükut, ona qarşı bir tədbiri-siyasi aramamaq hüquqi-sərihəmizə [açıq-aşkar, danılmaz hüquqlarımıza], həyati-istiqlalımıza olan aşkar təcavüzü qəbul eyləmək deməkdir. Bu isə müstəqil yaşamağa əzm etmiş bir millət üçün deyil, adi bir cəmiyyət üçün belə bir eyib, bir nöqsandır.

Yalnız bir eyib və nöqsanmı? İş bununla qalsa yenə dərd yarı, yenə nöqsanı ikmal mümkün. Fəqət daşnaksaqanlar öylə qızıl iftira və ağulu dillərlə, öylə ustalıq və sərbazlıqlarla [cəsarətlə] Müttəfiqləri və onların buralardaki vəkillərini aldadırlar ki, nəticəsi vücudumuzun mühüm bir üzvünü xəncərlə kəsib aparmaq və bu surətlə həyati-istiqbaliyyəmizi [gələcək həyatımızı] bir daimi zə'f və mərəzə düçar etməkdədir.

Heyf ki, bəyanatım quru bir söz deyil. İştə, Ermənistan Xariciyyə nazirinin Parisdəki erməni mürəxxəslərinə [nümayəndələrinə] vurduğu teleqraf!

İştə bu teleqrafın nəticəsi olaraq Qars Cənub-Qərbi Qafqaz Hökumətinin dağıdılması.

Ehtimal ki, oxuyanların bir qismi bu teleqraf məzmununu bilməyir. Teleqrafın xülaseyi-məzmunu böylədir:

*"Qarabağ, Şərur, Naxçıvan, Sürməli və Qars tərəflərində Osmanlı zabitlərinin komandaları ilə böyük türk qüvvətləri toplanmaqdadır. Bunlar top və ataş qüvvətləri ilə yenidən erməni qanı axıtmaqla bu yerləri Azərbaycana zorla ilhaq etmək istəyirlər. Vəziyyət qayət ciddi və təhlükəlidir. Müttəfiqlər qüvvətinin müavinəti [köməyi] ilə bu qanlı qitalın [qırğının] qabağı saxlanmalıdır. Vəilla [yoxsa] yaxında böyük və qanlı facilər üz verəcəkdir."*

Parisə çəkilən bu həyəcanamiz [həyəcan doğuran] teleqraf Parisi vəlvələyə saldığı bir anda, Tiflisdə çıxan ingiliscə "Di Trans-Qafqazian-post" qəzetəsindəki "Türk intriqaları" məqaləsi də buradakı Müttəfiq komandanlarını şübhəyə buraxdı.

İştə bu şübhə səbəbiylədir ki, Müttəfiqlər komandanı Tomson, bir az əvvəl Qars Hökumətini təqdir və təsdiq etdiyi halda, bu həftə adi bəhanələrlə onu dağıtdı və aprelin 14-ündə bütün Kabinə əzasını [üzvlərini] dustaq edib təhtəlhifz [nəzarət altında] Batuma göndərdi. Yarım milyonluq türk demokratiyasını daşnaksaqanların, erməni sərmayədarlarının pənçeyi-intiqamlarına buraxdı.

İştə, safdil [sadəlövh] türklər görsünlər, sadədil Azərbaycan türk demokratları anlasınlar ki, daşnaksaqanların kiçik bir qeyrətləri, daha doğrusu hiylə və böhtanları nə böyük işlər, şayani-əsəf [təəssüf edilasi] təbəddüllər [dəyişikliklər] vücuda gətirir!

Nasıl can alacaq damarı bilirlər! Nasıl əhvali-hazirə tilsimini qırırlar! İngilisləri nasıl "Qafqazda Osmanlı nüfuzu" ilə quşqulandırırlar [şübhələndirir, qorxudurlar]!

İştə, bu da bir siyasi hünər, bir hiylə müvəffəqiyyətidir. İngilislər əli ilə böyük məram və qayələrinə çatmaqdır. Zəhmətsizcə yarım milyonluq bir türk kütləsinin ittihadını [birliyini], siyasi müəssisatını [müəssisələrini, qurumlarını] dağıtmaqdır. Bu məgər az hünərmidir?

Bugün-yarın Qars şəhəri ermənilərə keçəcək. Daşnaksaqanaların əski hakimiyyətlərini quracaq. Bütün müsəlman füqərası uzaqlara, issiz [kimsəsiz, boş] yerlərə qaçacaq. Qayalara, dağlara, sığınacaq. Ac, çılpaq qalacaq. Minlərcə naxoşlayacaq, yüzlərcə qırılacaq.

Əvət, daşnaksaqan hakimiyyəti Qarsa köçəcək. Oradaki yüzlərcə top, minlərcə tüfəng, milyonlarca patronu əllərinə keçirəcək, müsəlmanlar əleyhinə işlədəcəklər.

Ermənistan hüdud və nüfuzu altında 486 müsəlman kəndinin ermənilər tərəfindən zəbt və işğal edilmələrinə rəğmən, Qarsdakı 86 erməni kəndinə sığınan yersiz müsəlman kəndliləri yerlərindən qovulacaq, dağlara, bayırlara sürüləcəklər. Bu il dağ otları ilə yaşasalar belə, gələn qışda aclıqdan ölümə məhkum olacaqlar.

İştə daşnaksaqan propaqandasının qızıl böhtanının nəticəsi!

İştə ingilisləri inandırmalarının, siyasi manevra və hiylələrinin səmərəsi!

İştə buna müqabil də bizim sükut və "təvəkkül"ümüz!

Əcəba, bizim bu sükut və təhəyyürümüz [çaşıb qalmağımız, mat qalmağımız] doğrudan uzun sürəcəkmi?

Zənn etməm, daha zənn etməm ki, türk demokratiyası əskisi kimi uzun yatsın!

Ümidvaram ki, tezliklə bu hiyləkarlıqların, ingilis səhvlərinin üstünü açsın və tələb etsin ki, Qars hökumət heyəti bacarıqsız idisə onu təməlindən pozmaq, dağıtmaq olmaz. Mövcud olan Məclisi-Məbusanı vasitəsilə təzələmək, əhvalı islah etmək mümkündür.

Ümumi demokat qanunu ilə vücuda gələn bir məmləkət Məclisi-Müəssisanını heçə saymaq, onun Kabinəsini tutub həbs eyləmək, qonşular təşviqatı ilə Məclisi-Məbusanı ilə bərabər bir hökuməti-mütəşəkkiləni [mütəşəkkil, təşəkkül tapmış bir hökuməti] dağıtmaq, millətlər müqəddəratını təmin üçün Qafqaza gələn ingilislərin mənfəətinə müvafiq olmasa gərək.

*Ümidvar*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**17 aprel 1919**

İclas saat 12.15 dəqiqədə açılır.

**Sədr** – Həsən bəy Ağayev.

**Katib** – Mehdi bəy Hacınski.

**Sədr** – Məclis açılır. Bugün ruznameyi-müzakirat [müzakirə gündəliyi] Divani-Rəyasət tərəfindən böylə tərtib edilmişdir:

1) Daxil olmuş kağızlar: o cümlədən:

A – Daxiliyyə Nəzarəti tərəfindən təqdim olunmuş Salyan qışlaları [kazarmaları] təmiri üçün istida olunan [tələb edilən] məbləğ xüsusunda layiheyi-qanuniyyənin [qanun layihəsinin] eyni Nəzarətə təshih və müəyyən eyləmək üçün iadəsi;

B – Ləvazimat Komisyonunun üzvlərinin diyətəsi (məvacibi) təzayüdü [artırılması] haqqında layihəsi;

C – Ziraət və Əmlak Nəzarətinin Nuxa

şəhəri ilə Nuxa-Yevlax şose yolunu Kiş çayının daşqınından mühafizə etməkdən ötrü mövcud olan daş və çəpərdən mürəkkəb [ibarət] yarımsəddin təmiri üçün lazım olacaq məbləğ haqqında layiheyi-qanuniyyəsi;

Ç – Sabiq Parlaman üzvü Bağır Rzayevin istidası [ərizəsi];

D – “Əhrar" fraksiyonunun bəyannaməsi.

2) Mükəlləfiyyəti-əsgəriyyədən maarif yaxud sənət cəhətilə azad olunması haqqındakı imtiyazat qanununun tövsisi [genişləndirilməsi] xüsusundakı layiheyi-qanuniyyənin üçüncü qiraəti.

3) Şimali Cibaliyyun [Dağlılar] Hökumətinə 30 milyon rublə qərz [borc] buraxılması layihəsi;

4) Kür nəhri sahillərində sədlər inşası üçün müəyyən məbləğ buraxılması haqqında layiheyi-qanuniyyə.

Buna əlavə etmək istəyirəm ki, Ziraət və Əmlak Nəzarəti tərəfindən gələn layihə Maliyyə-Büdcə komisyonuna göndərilir. Ləvazimat komisyonundan təqdim olunan layihə də eyni komisyona gedir. Bunu da ərz edirəm ki, Parlaman qulluqçularının məvaciblərinin təzayüdü xüsusunda gələn pəncşənbə [cümə axşamı] günü başqa bir layihə gələcəkdir. İcazə versəniz, bu layihəni də Parlamana gəlmədən birbaş Maliyyə-Büdcə komisyonuna göndərərəm ki, ikisi də bir yerdə müzakirə edilsin. Bağır Rzayevdən gələn kağız bu məzmundadır. *(Katibə)* Oxuyun!

**Katib** *(Oxuyur)* – Azərbaycan Məclisi-Məbusanı Rəyasəti-Aliyyəsinə sabiq Məclisi-Məbusan əzası Bağır Rzayev tərəfindən.

“Möhtərəm əfəndim həzrətləri! Acizləri Məclisi-Məbusan açıldığından yanvar ayının 21-nə qədər keçmiş Seym əzası olduğum kimi, Məclisi-Məbusan əzalığında da qalaraq türklər Qafqazyadan çəkildikdən sonra İrəvandan Naxçıvana çəkilməyə məcbur oldum. Ermənilərlə Naxçıvan Şərur islamları arasında davam etməkdə olan hərb qarğaşalığına məruz olub da böyük bir müşkülat qarşısında qaldım və heç bir vəsilə ilə Bakıya Məclisi-Məbusana gəlməyə müvəffəq olammadım. Hətta Məclisi-Məbusanın açılmasına dair də heç bir məlumata dəstrəs olammadım [əlim çatmadı]. Bunun üçün naqabili-rədd [aradan qaldırılması mümkün olmayan] səbəblərdən naşi [ötrü] gələmmədiyimi nəzərə alaraq, hüquqi-şəxsiyyəmin müdafiə edilib də sabiq əzalıq yerimin təkrar kəndimə verilməsini Məclis əzayi-möhtərəməsindən [möhtərəm üzvlərindən] rica və istirham eylərəm.”

*Bağır Rzayev*

**Sədr** – Divani-Rəyasət təklif edir ki, bu istida Etibarnamə (Mandat) komisyonuna verilsin. Etiraz yoxdurmu?

**Səslər** – Etiraz yoxdur.

**Sədr** – “Əhrar" fraksiyonunun bəyannaməsi. *(Katibə)* Oxuyun!

**Katib** *(Oxuyur)* – El [xalq] fraksiyası "Əhrar" tərəfindən Azərbaycan Parlamanına məruzədir.

“İşbu nisan 14-ündəki Parlaman iclasında yeni Kabinə təşkili haqqında "Əhrar" fraksiyası özündən asılı olmayan səbəblərdən naşi öz nöqteyi-nəzərini söyləyəmmədiyindən, hökumətə etimad məsələsi səsə qoyulduqda bitərəf qalmağa məcbur olmuşdu.





Vətənin hər yerində hökumətin mexanizmasının hər şöbəsində pozğunluq, nizamsızlıq, başsızlıq və rüşvətxorluq tabəhal [indiyə qədər] hökmfərma olduğundan [hökm sürdüyündən], yollarımızın təmiratına layiqincə iqdam edilmədiyindən [təşəbbüs edilmədiyindən], torpaq məsələsinin həlli üçün heç bir tədbir görülmədiyindən, ədliyyə işlərimiz nizam altına alınmadığından, məktəblərimiz, mədrəsələrimiz fəna hallar keçirdiyindən; maliyyə, ərzaq, posta-teleqraf işlərimiz təmamilə yoluna qonulmadığından aşkardır ki, sabiq hökumətin verdiyi və’dlər əncampəzir olmamışdır [nəticə verməmişdir].

Yeni hökumətin verdiyi vədlər sabiqki kimi kağız üzərində qalmayıb, qövldən feilə [sözdən işə] keçəcəyinə ümid edərək, ona müzahirət [kömək] edəcəyimizi vəd ediriz. Siyasətimizin əhəmiyyətini və incəliyini dərk edən fraksiyamız Kabinə təşkilini təxirə uğratmamaq üçün iştirakdan vaz keçmiş idisə də, bilaxirə [daha sonra] Rəisi-Vükəla [Baş nazir] cənablarının rəy və tənsibi [münasib görməsi] üzərinə Kabinəyə dəvət olunan [Aslan bəy] Qardaşov cənablarının iştirakına da fraksiyamız mane deyildir.”

*Sədr: A[bdulla bəy] Əfəndizadə*

**Katib** *(Oxuyur)* – Azərbaycan Məclisi-Məbusanı Divani-Rəyasətinə.

1919 sənəsi aprelin 16 tarixli "Əhrar" fraksiyasının qətnaməsi surəti.

Məclisi-Məbusan Rəyasətinə bəyan olunur ki:

1-ci maddə: Məclisi-Məbusanda söylənən rusca nitqlər türkcəyə bəhaməhal [dərhal] tərcümə edilməlidir.

2-ci maddə: Məclisi-Məbusan nizamnaməsi təshihi ilə təb [çap] etdirilib səriyyən [qısa müddətdə] fraksiyalara tövzii [paylanması].

3-cü maddə: Məclisi-Məbusan komisyonları müzakirələrində rusca müzakirə davam etdiyi müddətcə fraksiyalarımız nümayəndələri komisyonlara iştirak etməyəcəkdir.

*Sədr: A[bdulla bəy] Əfəndizadə*

**Sədr** – Bu xüsusda Divani-Rəyasətin rəyi belədir: Əvvəlinci maddə nakaza (nizamnaməyə) aiddir ki, rusca danışılmış nitqlər türkcəyə tərcümə edilsin. Nakazda dil xüsusunda bir şey yazmamışdır. Ona görə də bu maddə nakazın təğyir-təbdilinə [dəyişdirilməsinə] aid olduğu üçün komisyona verilməlidir. Keçən dəfə məlumunuzdur elan olundu ki, Nakaz komisyonu işlərini bitirdiyindən ləğv olunur. İndi təzədən ayrı bir komisyon seçilməsi lazımdır ki, əlavə maddələrə baxıb işləsin. İki son maddələr xüsusunda Divani-Rəyasət bir şey söyləməyir. Bunu nəzərdə tutun və özünüz etilafa [razılığa] gəlin. Növbədəki məsələyə keçmədən rica edirəm ləğv olunmuş Fəhlə Komisyonu əvəzinə təzədən komisyon seçəsiniz. Çünki Fəhlə Komisyonu üzvləri üç dəfə iclasa gəlməmişlərdir. Nakaza görə də bir komisyon üzvləri üç dəfə iclasa gəlməsələr, 23-cü maddəyə görə o komisyon ləğv olur. İclasın axırında qapalı olaraq yeni komisyon seçilməlidir. Növbədəki məsələ Mükəlləfiyyəti-əsgəriyyə [Hərbi mükəlləfiyyət] qanun layihəsinin 3-cü qiraətidir. Məruzəçi Musa bəy Rəfiyev.

*(Qanun layihəsi maddəbəmaddə oxunub səsə qoyulur. Hər maddə əksəriyyətlə qəbul olunur. Sonra layihə tamamən səsə qoyulur, əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur və Təshihiyyə Komisyonuna [Redaksiya Komissiyasına] verilir.)*

**Sədr** – Növbədəki məsələ Cibaliyyun [Dağlılar] Hökumətinə 30 milyon faizsiz qərz verilməsi layihəsidir. Məruzəçi Musa bəy Rəfiyevdir.

**[Musa bəy] Rəfiyev** – Şimali Qafqaziya Hökuməti Azərbaycan Hökumətinə müraciət edib 30 milyon faizsiz qərz [borc] istəyirlər. Bu barədə varid [daxil] olan layihəni Büdcə-Maliyyə Komisyonu müzakirə edib və Dağıstan Hökumətinə müavinət [kömək] lazım olduğunu nəzərə alıb, dəyişiksiz qəbulunu Parlamandan rica edir. Layihə üç maddədən ibarətdir. *(Oxuyur)*

Layihə:

1) 1919 sənəsinin fövqəladə smetasına salınaraq Şimali Qafqaziya İttihadi-Cibaliyyun Cümhuriyyəti [Birləşmiş Dağlılar Respublikası] Hökumətinə otuz milyon rublə faizsiz qərz vermək üçün Maliyyə nazirinə izin verilsin.

2) İttihadi-Cibaliyyun Cümhuriyyəti Hökuməti Azərbaycan Hökuməti ilə birlikdə para çıxarmaq haqqında saziş əmələ gələrsə, məzkur qərz [deyilən borc] birlikdə para buraxıldıqdan sonra ödəniləcəkdir.

Birlikdə ümumi para buraxmaq haqqında xüsusi saziş olmazsa, İttihadi-Cibaliyyun Cümhuriyyəti Hökuməti kəndisinə verilmiş borcu iki il müddətində aşağıdakı qayda üzrə üç növbədə verməlidir:

1 - On milyon, qərz verildiyi gündən bir il sonraya qədər;

2 - On milyon, bir il altı ay sonraya qədər;

3 - Mabaqisi [qalanı] iki il sonraya qədər ödəməlidir.

3) İttihadi-Cibaliyyun Cümhuriyyəti hökumətinin vəkilinə qərz verilənə kimi onun ödənilməsi haqqında işbu layiheyi-qanuniyyənin 2-ci maddəsində göstərilən şərtlərlə müqavilə bağlamaq Maliyyə nazirinə tapşırılsın.

**Sədr** – Kim bu barədə danışmaq istəyirsə, vərəqə ilə bildirsin.

**Məhəmməd Əmin Rəsulzadə** *(yerindən)* – Bu barədə danışmaqdamı lazımdır?

**Sədr** – Söz istəyən yoxmu?

**Səslər** – Yoxdur, yoxdur, səsə qoyun!

**Sədr** – Onda səsə qoyuram. Layihəni maddəbəmaddə səsə qoyuram.

*(Layihə maddəbəmaddə oxunub səsə qoyulur. Əksəriyyətlə qəbul olunur. Sonra tamamən səsə qoyulur, əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.)*

**Sədr** – Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ Kür nəhri sahillərində sədlər inşası üçün məbləğ buraxılması haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Abuzər bəy Rzayevdir.

**[Abuzər bəy] Rzayev** – Möhtərəm məbuslar! Ozünüzə məlumdur ki, yaz fəsli seylab [sel, daşqın] vaxtı Kür çayı daşıb çox zərər verir. Camaatın əkin və malını məhv eyləyir. Əlbəttə, hökumətin borcudur buna bir çarə etsin, məsələn mühəndislər göndərsin, proje hazırlasın, milyonlarla pul buraxıb bu fəlakətin önünü alsın. Fəqət, hələlik bunların həpsini etmək mümkün deyildir. 1915-ci ildə Kür nəhri daşıb xalqa nəhayət dərəcədə böyük zərər yetirmişdi. O vaxt rus hökuməti tələsik bir layihə qayıraraq camaatın zəhmətindən istifadə edərək çay boyu torpaq tökdürməyə başladı. Həman layihəyə görə 90 min sajın torpaq tökülüb sədd qayrılmalıydı. Fəqət iş qurtarmamış iğtişaş düşüb 70 min sajın torpaq töküldükdən sonra camaat dağıldı və iş yarımçıq qaldı. İcarədar dəxi işdən əl çəkdi, amma o vaxt bir neçə xətalı yerlər sədsiz qaldı. Ona görə də sonradan hökumət öz xərci ilə oraları düzətməyə başladı. Fəqət yenə başa vurulmadı. Böylə ki, cümlətanı 226 sajın torpaq töküldükdən sonra iş yenə yarımçıq qaldı. İndi iki ildir ki, həman işlərə bilmərrə [yerli-dibli] qulaq asan olmayır. Yağış yağır, sədləri xarab edir. Böyləliklə, təzəsi qayrılmadığı halda, qayrılmış olanı da sökülüb dağılır. Şimdi bu sədləri təmir etmək lazımdır. Yenidən təmir ediləcək olan yer təqribən 7 verstə qədərdir ki, bura da cümlətanı 262 sajın torpaq tökülməlidir. Təxminən hər sajına bir neçə fəhlə lazımdır. Fəhlənin gün muzdu 20 manatdan hesab edildikdə, cümlətanı 500 min manat lazım olur. Bundan əlavə, texniçeski nadzor [texniki nəzarət] dəxi lazımdır ki, bunun xərci təqribən 3 faiz götürülərək onun da məsarifi hesab edildikdə cümlətan yekunu 641 min manat lazım olur. Nəzarət bu xüsusda Məclisi-Məbusana tələsik bir qanun layihəsi təqdim etmişdir. Maliyyə Komissiyası məzkur [deyilən] layihəyə baxıb heç bir irad tapmayaraq tamamilə qəbul etmişdir. Qanun layihəsi də budur. *(Oxuyur)* Maliyyə-Büdcə Komisyonu bu layihənin qəbulunu və Ziraət [Əkinçilik] naziri binagüzarlığına [sərəncamına] 641 min manat buraxılmasını təklif edir.

**[Sultanməcid] Qənizadə** – Əlbəttə, Kürün daşmasından çox böyük zərər hasil olur. Şübhəsiz bu xüsusda təşəbbüslər edilib sədd çəkmək lazımdır. Çünki əhalinin mənfəəti gərək gözlənsin. Amma əsl mətləb buradadır ki, Kürün daşmağın vaxtı keçidbir. Həmişə daşqın təqribən aprel ayının əvvəllərində olurdu. Bəzi illər əbədən daşmazdı. Şimdi bu vaxtadək daşmayıb və bu ziyanın olacağı da gözlənməyir. Daşqının vaxtı keçibdir. Ona görə də sədd üçün 600 min manat buraxmaq nahaqdır. Çünki pul hədər gedər. Binaənileyh [ona görə], mən layihənin qəbulunu lazım bilməyirəm.

**Mahmudov Mustafa** – Məruzəçinin dediyi kimi, Kür sahilindəki səngərlər neçə ildən bəridir ki, qayırılır. Fəqət bu axır vaxtlar şuluqluq olduğuna görə, oraya heç fikir verilməyib, qulaq asılmayıbdır. Mən zənn edərdim ki, bu barədə heç danışıq olmayacaq. Amma bizə indi deyirlər ki, lazım deyil, çünki vaxt keçibdir. Fəqət bu doğru deyil. Çünki çayın daşmağı hələ bundan sonradır. Kür hələ daşqın halına gəlməyibdir və biləks [əksinə] bu il daha yaman daşqın gözlənilir. Bir də, hökumət qabaqcadan bu barədə sərəncamda bulunmuşdur, hətta səddin təmirinə 200 min manat buraxmışdır, bu ümidlə ki, bu layihə qəbul edildikdən sonra həman kreditdən o 200 min manat dövlət xəzinəsinə qaytarılacaqdır. İş çoxdan başlanıbdır. Mən təklif edirəm, başlanmış iş yarımçıq qoyulmasın və layihə qəbul edilib istənilən pul buraxılsın.

**[Sultanməcid] Qənizadə** – Görünür ki,

iş başlanıbdır. Əgər böylə isə, əlbəttə, lazımdır pul buraxılsın. Ancaq mən iltimas edərdim layihə oxunanda ətraflıca məlumat verilsin, tainki natiq işə yaxşı bələd olsun. Şimdi mən də deyirəm ki, pulu buraxmaq vacibdir.

**Hacı Hüseyn Əfəndizadə** – Kür sahilinə, əlbəttə, sədd çəkmək lazımdır. Bunun üçün 641 min manatın da buraxılması fərzdir [vacibdir]. Fəqət mən təklif edərdim ki, bu pul buraxılanda kəndlərə təqsim olunsun [bölünsün]. Çünki pul buraxılır, amma desyatnik [briqadir] və sairləri öylə adamlardan olur ki, camaatı pulsuz (iməci) işlədirlər. Pul da qalır bəzi adamların cibində.

**Sədr** – Bu barədə daha kim danışmaq istəyir? Səsə qoyuram. Hər kəs layihənin komissiya təklif etdiyi kimi qəbulu tərəfdarısa, əlini qaldırsın. *(Əllər qalxır.)* Deməli layihə əksəriyyətlə qəbul olunur.

Ruznameyi-müzakirat bitmiş olduğundan, iclası qapayıram.

*(İclas saat birdə qapanır.)*

## TELEQRAF XƏBƏRLƏRİ

### London hücumuna dair

London – Londona və ətrafına müharibə zamanı almanlar 857 bomba tökmüşlərdir. Bunlardan 573 nəfər dərhal tələf olmuşdur. 1115 nəfər də yaralanmışdır ki, onların da əksəri vəfat etmişlər. 1192 ev də xarab olmuşdur.

### Fransa Lloyd Corc barəsində

Fransanın ali idarələri tərəfindən Lloyd Corcun zəhməti təqdir edilərək "Lloyd Corc böyük sülhçüdür" namı verilmişdir. Fransa, Avropa və bütün cahan Lloyd Corca minnətdardır. Xüsusən Fransa ona mədyundur [borcludur]. Lloyd Corc Avropanın sair fəal şəxslərindən ziyadə Fransanın halını düşünür və bizim halımızı təqdir edir. Biz həmişə onunla razı olmayırdıqsa da, fəqət heç vaxt onun Fransaya olan həmiyyət və sədaqətini yaddan çıxarmarız.

### Rusiya Şurasının Almaniyaya təklifi

"D. T. Z." qəzetəsi yazır ki, düşənbə [bazar ertəsi] günü Rusiyanın Almaniyaya etdiyi təklif elan ediləcəkdir. Rusiya Şurası Almaniya hökumətinə təklif edir ki, Rusiya ilə Almaniya ittifaq bağlasın. Rusiya Almaniyanı 1914-cü il sərhədi ilə təmin edir. Rusiya və Macarıstan Almaniyaya yarım milyon qoşun kömək verir. Bu şərtlə ki, Almaniya da Rusiyanı əzmək istəyən Etilaf [Antanta] dövlətlərinin hərəkətinə mane olsun. Almaniyada sosialist hökumət olsun və zavodlar da ümumiləşsin.

* Paris – Saksoniya Hərbiyyə naziri Nyurerin qətl edildiyi Odessadan xəbər verilir. Yaralı saldatlar nümayəndələrini nazir hüzuruna qəbul etməyi rədd etdiyi üçün əhali həyəcana düşüb, orada olan pulemyot rotasını tərksilah etdirərək silahlarını özləri alıb, sonra Nəzarətə girib, naziri tutub, dışarı çıxıb Fridrix Avqust körpüsünə çəkib, onu Elba çayına atmışlardır. Nazir üzməklə xilas olmaq istəsə də, bir qurşun ilə qətl edilmişdir.





### Saksoniyada idareyi-əsgəriyyə

Saksoniya hökuməti bütün Saksoniya qitəsini [ərazisini] idareyi-əsgəriyyə [hərbi rejim] altına almışdır. Komandanlıq hərbi komandana vagüzar edilmişdir [tapşırılmışdır].

### Bolşeviklər haqqında Avamlar Kamerasında

Londondan teleqrafla xəbər verirlər ki, Avamlar Kamerasında Edvards ümumun nəzər-diqqətini sülh haqqında Lenindən alınan təklifə cəlb etmişdir ki, bu da kəskin münaqişata bais olmuşdur. Bir çoxları bolşeviklərlə müzakirat əleyhinə danışmışlardır. Şort hökumət namından [adından] danışarkən demişdir ki, biz Rusiya ilə müzakiratda bulunmaqdan imtina etməyə çalışmırıq. Lakin biz bütün Rusiyanı dəhşət içrə saxlayan quldur dəstəsi ilə əlaqədar olmaq istəməyirik. Biz Rusiya camaatına deyə bilərik ki, hərəkatı [hərəkətləri] mədəniyyəti təhdid edən hökumətlə iş görmək arzusunda deyiliz. Şort demişdir ki, Leninin müzakirat başlamağa hazır olması Almaniyanın işidir ki, bununla da bolşeviklərin dinc və mədəni adamlar olduğunu inandırmaq qəsdindədir. Almaniya mümkün olan yerdə bolşevizmi nəşr edir [yayır]. Bolşevizm onların yeganə ümididir, çünki bolşevizm olan yerdə hökumət zəifləşir.

## SÜLH ƏTRAFINDA

### Türkiyə ilə sülh

Konfransın məsaisindən [işindən] bəhs edən son "Tayms" qəzetəsi xülasətən deyir ki:

*"Fransa Rusiyanı qeyb etdi. Biz də Fransa ilə bərabər qeyb etdik, çünki Rusiya ikimizə də müqtəzi [lazım] idi. Bu dövlət yerinə bir yeni qüvvət iqamə etmək [qoymaq], eyni zamanda Şərq ilə Qərb arasında bir sədd vücuda gətirmək lazımdır. Rusiyanın inhilalı [çöküşü] üzərinə Fransa Rusiyada yeni bir hökumət istədiyi kimi, biz də Türkiyənin inhilalı üzərinə onun yerinə qaim olmaq üçün Hindistan şəklində bir hökumət istəyiriz. Suriya işində də böylə. Suriya da bizim Misir yolumuzdur. Suriyada Fransanın şədid [güclü] əlaqəsini də təsdiq edəriz."*

*"Zaman"*

Paris – Lloyd Corc katiblərindən birisi Klark demişdir ki, sülh müahidənaməsi [sazişi] üç həftə müddətində qurtaracaqdır. Sonra Almaniya nümayəndələri də Versala dəvət ediləcəkdir.

## QƏZETƏLƏRDƏN

### Cənub-Qərb Qafqaz Hökumətinin həbsi

İngilis komandanlığı Qarsda Cənubi-Qərbi Cümhuriyyəti hökumətini həbs eyləyib Tiflisə gətirmişdir. Məhbuslar Tiflisdə qarovul təhtində [altında] xüsusi vaqon içində saxlanırlar.

### Sərvər bəyin qətli haqqında

Tiflisdə alınan məlumata görə Cənubi-Qərbi Qafqaziya hökumətinin sədri Sərvər bəy Atabəyov kəndçilər tərəfindən qətl edilmişdir.

**Əhməd bəy Ağayevin həbsi**

İstanbulda həbs edilən Əhməd bəy Ağayevin həbsdən azad edilməsi haqqında şaye olan [yayılan] xəbərlər hələ təsdiq edilməyir.

**Vəhib paşa**

Keçənlərdə xəbər verilmişdi ki, sabiq Qafqaziya cəbhəsi Baş komandanı [Məhməd] Vəhib paşa ilə İstanbul siyasiyyunundan [siyasi xadimlərindən] mühərrir [yazıçı] Hüseyn Cahid bəy qurşuna dizilməklə edam edilmişlərdir. İdarəmizə yetişən mötəbər xəbərlərə görə Vəhib paşa və Hüseyn Cahid bəy edam edilməmişlərdir, ancaq onları tutub həbs etmişlərdir və istintaq davam edir.

**Batumda**

* Odessadan və Krım kənarlarından fərarilərlə [qaçqınlarla] paroxodlar gəlir. Axırıncı paroxodla Odessadakı Blaqorodnı institutun qızları gəlmişlərdir.

* Pasxa bayramı münasibətilə ingilislər əhaliyə girvənkəsi 8 manatdan ət, 2 manatdan lobya, yarım girvənkə qənd vermişdir. Burada bahalıq çox artıqdır. Otaq böhranı da şiddətlidir.

* Bakı-Batum dəmiryolunun açılması xəbəri burada məmnuniyyətlə qarşılandı.

* Həbs edilmiş Tətil Komitəsi üzvlərindən 25 nəfər azad edilmişdir. Məhbuslardan birisi "Tezeus" kruvazöründə [kreyserində] füccətən [qəflətən] vəfat eyləmişdir. Beş nəfər hələ də həbsdədir.

Yekaterinodar – "Mariya" nam [adlı] drednout [zirehli gəmi] dənizin dibindən qaldırılmışdır.

**DAĞISTAN ƏHVALI**

**Təkzib**

*(Rəsmi)*

Azərbaycan Hökuməti nəzdində olan Dağıstan siyasi nümayəndəsi Kantemir cənablarından:

"Yedinaya Rossiya" qəzetəsinin 15 aprel tarixli 79-cu nömrəsində Qudermes ilə Xasavyurtun Könüllü ordu əsgərləri tərəfindən alınması, Şamilqala (Petrovsk) ilə Teymurxanşura arasındakı dəmiryol hərəkatının dayandırılması və Şamilqalada general Prjevalski tərəfindən qanun və qaydalar qoyulması haqqında dərc edilən irticai xəbərlər əsilsizdirlər. Xasavyurt Dağıstan hökuməti əlindədir. Qudermes üç günlük müharibədən sonra Dağıstan əsgərləri tərəfindən alınmışdır. Şamilqalada zəbtiyyə [asayiş] və hərbiyyə işləri polkovnik Məhəmmədov başda olmaq üzrə Dağıstan hökuməti ixtiyarındadır. Polkovnik Məhəmmədov eyni zamanda qarnizon naçalnikidir. Beş gün bundan əqdəm [qabaq] Müttəfiqlər müvəqqətən Şamilqalada dayanmış olan Prjevaliski dəstəsinə Şamilqalanı tərk etməyi təklif etmişlərdir. İndiyə qədər Prjevaliskinin hökmü ancaq öz dəstəsinə şamil idi. Dağıstan hökumətinin heç bir əsgəri dəstəsi Çeçenistana Denikin əleyhinə getməkdən imtina eyləməmişdir. Çeçənlər Denikinə tabe olmayıb, Dağıstan hökumətinə sadiqdirlər.

"Yedinaya Rossiya" qəzetəsi dediyi kimi, Qroznıda ictima [yığıncaq] deyil, ancaq Denikin iştirakı ilə konfrans davam edir. Bu konfransda Dağıstan hökuməti nümayəndələri və general Briks başda olmaq üzrə Müttəfiq dövlət nümayəndələri də iştirak edirlər.

**Şimali Qafqazda**

Könüllü ordu ştabında xüsusi bir Təbliğat şöbəsi açılmışdır. Bu şöbənin başında Rostov milyonerlərindən məşhur Paramonov durur. Bu Təbliğat şöbəsinin külli pulu vardır. Bu Təbliğat şöbəsinin xüsusi Dağıstan şöbəsi də vardır. Bu şöbənin başında Sergey Qadjimukov nam bir zat əyləşir. Dağıstanlılar arasında Könüllülərin irticakaranə ideyasını təbliğ etmək üçün Denikin tərəfindən 25 milyon pul təxsis edilmişdir [ayrılmışdır].

**İrtica dəhşətləri**

Mədən Sularından gələn xəbərlərə nəzərən Könüllü ordu Kislovodsk və Pyatiqorsk şəhərlərinə daxil olduqdan sonra bu şəhərlərdə böyük qanlı hadisələr vaqe olmuşdur [baş vermişdir]. Könüllü ordu bu yerlərdə asudəlik bərpa etmək deyil, intiqam alırdı. Kislovodskda gün vannası yanında üç həftə müddətində qurulan dar ağacları gecə və gündüz dayanmadan işləyirdi. Şəhər kənarında olan qəbristanda çox adamlar edam edilirdi. Kislovodskda Könüllülər məşhur professor Neçayevi öldürmüşlərdir.

**Şimali Qafqaza heyət gedir**

Azərbaycan Parlamanı fraksiyaları əksinqilabçılarla mübarizə edən dağıstanlıları təbrik və Şimali Qafqazın əhvalına bələd olmaq üçün Şimali Qafqaza bir heyət göndərirlər. Heyət işbu zatlardan ibarətdir: Rəhim Vəkilov (Müsavat), Sultanməcid Qəniyev (İttihad), Vəzirov (sosialist), Bakı zəhmətkeş inteligensiyasından A. B. Abaşidze gedir. Heyət bu gün Teymurxanşuraya, oradan da cəbhəyə əzimət edəcəkdir [yola düşəcəkdir].

**Denikin ordusu**

Aprelin 9, 10 və 11-də Qudermes altında Dağıstan əsgərləri ilə Denikin ordusu arasında inadlı müharibələr olmuşdur. Bu müddət ərzində Qudermes dəfələrlə əldən-ələ keçmişdir. Aprelin 11-də Dağıstan əsgərləri qəti surətdə Qudermesi işğal etmişlərdir. Həman gün saat 3-də Könüllü ordu əsgərləri Qudermesi almaq üçün hücum etmişlərsə də, dəf edilmişlərdir.

Aprelin 11-də Dağıstan əsgərləri düşməni Ustar-Qardoy kəndindən də çıxarmışlardır. Hal-hazırda Məskər-Yurt hərəkati-hərbiyyə mərkəzidir. Burada ciddi və inadlı müharibələr vaqe olmaqdadır. Hər iki tərəfdən tələfat vardır. Könüllü ordu əsgərləri Qudermes və Ustar-Qardoy xəttində geri çəkilirlər. Bir para yerlərdə xəndəklərdən kazak səsləri eşidilmişdir. Səslər deyirmişlər ki: "Dağıstanlı qardaşlar, bəsdir müharibə, gəliniz barışaq."

**Dağıstan hökuməti rəisi Kotsev**

Dağıstan hökuməti rəisi Kotsev aprelin 15-də Dağıstan səfərindən Teymurxanşuraya qayıtmışdır. Andi, Qunib və Avar nahiyələri Uzun Hacını vəkil etmişlər Dağıstan hökumətinə xəbər versin ki, onlar Denikin əleyhinə 15 mindən ibarət bir partizan dəstəsi çıxarıb axırıncı imkana qədər öz vətənlərini irticadan mühafizə edəcəklərdir.

**Həbslər**

Dağıstan hökumətinin Çeçenistanda olan hərbi idarəsi iki zabit həbs etmişdir. Bunlar mart ayının axırlarında Qroznıda Lyaxovdan pul və məktub almışlarmış. Zabitlərdən tutulan sənədlərə görə, bu pullardan 27 min manatı bir nəfər nüfuzlu çeçenə rüşvət verilmək üçün imiş. 30 min rubləsi də bazar natiqlərinə təxsis edilmiş imiş.

**Düşmənin qüvvəsi**

Verilən xəbərlərə görə, axırıncı müharibələrdə Könüllü ordu səflərində [sıralarında] Birinci plastun, Birinci Kuban firqələri [diviziyaları], Tersk könüllüləri və sunjenlilər iştirak edirmişlər. Könüllü ordunun əhvalı gün-gündən fənalaşmaqdadır.

## SOSİALİSTLƏRİN KÖNÜLLÜ BÖLÜYÜ

Sosial-demokrat "Hümmət" firqəsi konfransının qərarına görə firqənin Bakı komitəsi Dağıstanda Denikin qüvvələri ilə mübarizə etmək üçün sosialist bölüyü təşkil edilməsi üçün hərbiyyə komisyonu tərtib etmişdir. Parlaman idarəsində "Hümmət" firqəsi odasında hər gün saat 10-dan 2-ə qədər könüllü qəbul olunur.

"Hümmət" firqəsinin hərbi təşkilatı fəhlə və kəndlilərə müraciət edərək aşağıdakı bəyannaməni nəşr etmişdir.

**Cümlə cahan füqərayi-kasibəsi [proletarları] toplaşın!**

Yoldaşlar!

Hürriyyət günəşinin qabağını qara buludlar tutmaqdadır. Tac və taxtı sərnigun olmuş [başaşağı olmuş, devrilmiş] Nikolay Romanovun cəllad və xunxar [qaniçən] yaranalları [generalları] əllərindən getmiş şövkət və əzəmətlərini qaytarmaq arzusu ilə əsrlərlə Rusiya demokratiyasını [xalqını], Rusiyada yaşayan qeyri-rus millətlərini əsarət zəncirində saxlayan çarizmanı təzədən bərpa etmək istəyirlər.

İki il müddətində Rusiya demokratiyasının qanın[ı] tökən, daxili Rusiyada Qızıl ordu qarşısında davam edə bilməyib tülkü kimi qaçan Kolçak, Denikin və Lyaxovlar bu dəfə də cümlə hücumlarını Dağıstan demokratiyasının tərəfinə keçirib hürriyyətin bəxş etmiş istiqlal, hüquqi-milliyyə və bəşəriyyələrini payimal etmək [tapdalamaq] istəyirlər.

Dağıstan demokratiyası bu qaragüruhun təcavüzü qarşısında qəhrəmanana durub çarpışır, lakin Lyaxovların müsəlləh [silahlı] və müntəzəm [nizamlı] cəlladlarının qabağında qeyri-müntəzəm surətdə davam etmək dağıstanlı yoldaşlarımıza nə qədər çətin olduğu aşkardır. Ona görə də üzlərini bizə tutub bizdən kömək istəyirlər, bizi çağırırlar.

Yoldaşlar! Hürr və azad yaşamaq istəyən, Rusiya inqilabı[nın] bəxş etmiş hüquqlarını əldə saxlamaq arzusunda olan bəni-növi-bəşəri [bəşər övladlarını, insanları] mütləqiyyət və sərvətin istibdad və zülmündən xilas etmək istəyən hər kəs Dağıstan demokratiyasına yardım etməlidir.

İştə, yoldaşlar! "Hümmət" firqəsi sizi dağıstanlı yoldaşlarımıza yardım etməyə çağırır. Onu gözəlcə düşünməlisiniz ki, bu gün dağıstanlılar məğlub olarsa, sabah növbə bizə çatacaq və o qaragüruhlar bizim üstümüzə hücum edəcəklər. Onu yaxşı bilməlisiniz ki, Rusiya demokratiyası məğlub olarsa, biz də məğlub olarız. Onu yaxşı biliniz ki, dünya səhneyi-mübarizəsində istibdad ilə hürriyyət, sərvət ilə zəhmət, zülüm ilə ədalət çarpışmaqdadır. Denikin və Lyaxovlar beynəlmiləl istibdad və sərvətin bir cinah, bir hissəsidir. Dağıstan demokratiyası isə beynəlmiləl demokratiyasının bir qismidir.

Dağıstan demokratiyasına yardım etməklə, biz Rusiya demokratiyasına yardım edirik. Rusiya demokratiyasına yardım etməklə, beynəlmiləl demokratiyasına yardım etmiş oluruz. Bununla da öz istiqlaliyyətimizi, hüququmuzu, hürriyyətimizi əldə saxlamış oluruz.

İştə, dünya füqərayi-kasibəsi hər yerdə olursa-olsun, bir ordunun əfradıdırlar [əsgərləridir] və bir bayrağın altına toplaşmalıdırlar. O bayraq isə inqilabın qırmızı bayrağıdır. İştə, sosial-demokrat fəhlə firqəsi "Hümmət" sizi bu qırmızı bayrağın altına toplaşıb Dağıstan demokratiyasına yardıma getməyə çağırır.

"Hümmət" firqəsi Parlaman binasında olan otağında dağıstanlı yoldaşlarımıza kömək etmək üçün könüllü əfradı cəm edir.

Haydi, yoldaşlar! Gəliniz bu əfradlara yazılınız. Yoldaşlıq, əhrarlıq [azadlıqsevərlik] və inqilabiyyunluq [inqilabçılıq] vəzifənizi ifa ediniz.

Yaşasın cahan demokratiyasının birliyi!

Yaşasın Dağıstan demokratiyasının əksinqilabla müharibəsi!

Yox olsun o istibdadpərəstlər ki, Dağıstan demokratiyasının əlindən al bayrağını alıb ayaq altına salmaq istəyir.

Könüllü əfradlar qəbul olunur Parlaman binasında, sosial-demokrat fəhlə firqəsi "Hümmət" idarəsində saat 10-dan 2-yə kimi, axşam saat 6-dan 7-yə kimi.

*"Hümmət" firqəsinin*
*Hərbi Təşkilat Komisyonu*
*15 aprel 1919*

## İRANIN HÜQUQU

Sülh konfransında İranın hüquq və mənafeyini müdafiə etmək üzrə İrandan Xariciyyə nazirinin rəyasəti altında bulunan bir heyətin İstanbuldan keçərək Parisə əzimət etdiyi [getdiyi] məlumdur.

"Tan" qəzetəsi heyətin Fransa paytaxtına müvasiləti [çatması] münasibətilə "İranın hüququ" sərlövhəsi altında uzun bir məqalə nəşr etmişdir. "Tan" bu məqaləsində İranın hərb əsnasında ittixaz etdiyi [tutduğu] xətti-hərəkəti tədqiq edərək pək xalisanə bir lisan qullanmaqdadır.

"Tan" qəzetəsi deyir ki:

*"Müharibə əsnasında Rusiyanın və bizim başımıza gələn fəlakətlərin başlıca səbəbi Rusiya ilə aramızda doğrudan-doğruya təmas təmin edəcək bir yol bulunmaması idi. 1914 sənəsi ağustosun 5-ci günü Boğazların qapanması ilə başlayan Rusiyanın ablukası [blokadası] 1915 təşrini-əvvəlində [oktyabrında] almanlarla bolqarların Serbistanda ittisal peyda etmələri [birləşmələri] üzərinə ikmal edilmişdi [tamamlanmışdı]. 1915 sənəsi sonlarına doğru bizim üçün Rusiya ilə mü-*

*nasibətdə bulunacaq ancaq bir yol qalmışdı ki, o da qışın əksər aylarında buzlayan Arxanjel [Arxangelsk] təriqi [yolu] idi. O zaman dəmiryollar da hənüz sahilə qədər varmadığından, böyük ehtiyacı təminə kafi deyildi. Bəhri-mühiti-kəbir [Sakit okean] təriqi ilə gəliş-gedişin təmini üçün isə dünyanın yarısını qət etmək lazım gəlirdi. İştə bu sırada yeni bir yol açıldı. Tehran hökuməti Etilaf [Antanta] dövlətlərinə iltihaq etməyi [qoşulmağı] təklif eylədi. İran Xariciyyə naziri Müşavirül-Məmalik Rusiya və İngiltərəyə bir ittifaq müahidənaməsi əqdini [ittifaq sazişi imzalamağı] təklif etdi. İttifaq 15 sənə sürəcək, İran bütün qüvvəti ilə Etilaf dövlətlərinin tərəfinə keçəcəkdi. İran hökuməti bu ittifaqı təklif edərkən, Etilaf dövlətlərinin mənafeyinə xidmət etməklə bərabər, İranın mənafeyi-milliyyəsini də müdafiə etmiş olurdu."*

"Tan" qəzetəsi İran hökumətinin əvvəlcə bitərəfliyini elan etdiyi halda rusların İran daxilində irəliləməyə başlamaları, türklərin də rus qüvvətlərini qovmaq üçün İran hüdudunu təcavüz etmələri üzərinə bitərəf qalammayacağını anlayaraq Rusiya əleyhindəki kin və xüsumətinə [düşmənçiliyinə] rəğmən Etilaf tərəfini iltizam etdiyini [tutduğunu] söylədikdən sonra deyir ki:

*"Həqiqətdə İran hökuməti pək nöqsan vəsaitlə ittifaq təklif edirdi. Nə ordusu, nə jandarması, nə maliyyəsi, nə dəmiryolu, nə də sürətlə təşkilatını ikmal etməsinə müsaidə edə biləcək təşkilat idarəsi yoxdu. Fəqət əcəba bunun səbəbi nə idi? Buna səbəb iranlıların zəkaca dun [aşağı] bir səviyyədə bulunması və ya kafi dərəcədə vətənpərvər olmamaları deyildi. Hərbdən əvvəldən İranda yaşamış olan hər kəs rus məmurları ilə görüşməkdənsə, iranlılarla qonuşmaq daha ziyadə xoşa getdiyini bilir. Açıq söyləyəlim. Əsl səbəb Rusiyanın İranın şimalını rus himayəsi altına almağı hazırlamaq üçün İranı bir anarşi içində bulundurması idi."*

"Tan" qəzetəsi İran maliyyəsini islah etmək üzrə Amerikadan gətirilən heyətə qarşı Rusiyanın çıxardığı müşkülatı, bu səbəblə İranın Etilaf dövlətlərinə qiymətdar xidmətlər ifa edə biləcəyi bir sırada lazım gələn vəsaitə malik olammadığını izah etdikdən sonra şu surətlə məqaləsinə davam edir:

*"Bütün bu əhvala rəğmən İrana müavinət etmək qabil idi. Halbuki, heç bir şey yapılmadı. Hətta İranın ittifaq təklifinə cavab belə verilmədi. Nəhayət 1916 ağustosunda Rusiya və İngiltərə hökumətləri tərəfindən verilən bir nota ilə İran hökuməti maliyyəsini bu iki dövlətin müraqibəsinə [nəzarətinə] verməyə və biri şimalda rus komandanlarının, digəri cənubda ingilis komandanlarının idarəsi altında iki ordu təşkil eyləməyə dəvət edildi. Əsasən daha 20 mart 1915 tarixində Rusiya Xariciyyə naziri [Sergey Dmitriyeviç] Sazonov tərəfindən Paris səfiri [Aleksandr Petroviç] İzvolskiyə göndərilmiş bir notada İranda bitərəf məntəqənin ortadan qaldırıldığı bildirilmişdi. Binaənileyh [ona görə], o zamandan bəri İranın təqsimi [bölünməsi] təqərrür etmişdi [qərarlaşdırılmışdı].*

*Əski rus idarəsinin yıxılışı bu gizli müahidələri [sazişləri] hökümsüz buraxdı. Rusiya, ətrafında qeyri-məmnunlar ehdas edən [meydana gətirən], kor-koruna*





*təqib etdiyi politikanı bahalı ödədi. İngiltərə Hindistanın sükunəti üçün artıq bu qəbil etilaflar əqdinə möhtac bulunmayır. Binaənileyh, sülh əqd edilərkən İranın məruz qaldığı məşəqqətlər təlafi etdirilməlidir. Hərbə girən hər hangi bir hökumətdən ziyadə fəlakət görən, ittifaqımıza girmək istədiyi halda xaricdə buraxılan İran Paris Konfransına iştirak etməyə dəvət edilməlidir. İştə, İran Xariciyyə naziri – vaxtilə bizə ittifaq təklif etmiş olan Müşavirül-Məmalik bunu tələb etmək üzrə Parisə gəlmişdir."*

"Tan" qəzetəsi xatimə olaraq İngiltərə və Fransanın İranın konfransa iştirakına tərəfdar olduqlarını bəyan etməkdə və İranın tələblərinin is'afını [yerinə yetirilməsini] təmənna [xahiş] eyləməkdədir.

## "ERMƏNİ İMPERATORLUĞU"

**Dörd milyon müsəlmana qarşı bir milyon erməni**

Fransızca "Monitor Oriental"dan:

Poqos Nubar paşa böyük bir Ermənistan imperatorluğu təşkil etmək xülyası ilə Türkiyənin Anadolu vilayətlərindən bir qismini tələb etdiyi və bu müfrit mətalibin [ifrat tələblərin] erməni mühibbi olan [ermənilərə məhəbbət bəsləyən] məşhur "Tan" qəzetəsi tərəfindən belə düçari-hücum olduğu [hücuma məruz qaldığı] məlumdur.

Türk torpaqlarına mətuf olan [yönələn] erməni mətalibinin nə dərəcə qeyri-mühiqq [haqsız] olduğunu aşağıdakı rəqəmlərə görə yazırız. Erməni mürəxxəsləri [nümayəndələri] Sülh Konfransının Əncüməninə [Şurasına] ərz etdikləri tələblərində türklərin 6 vilayətlərini kamilən, 2 vilayətlərini isə qismən istəmişlərdir. Tamamən istədikləri vilayətlər: Ərzurum, Van, Bitlis, Xarput, Diyarbəkir, Sivas; qismən istədikləri isə Trabzon ilə Adanadır.

Əvvəla, bu vilayətlərin məsaheyi-səthiyyələri [ərazilərinin sahəsi] ilə bu vase [geniş] məmləkətdə nə qədər erməni və müsəlman olduğunu tədqiq edəlim.

| Vilayətlər | Mürəbbe-kilometr [kvadrat-kilometr] | Müsəlman | Erməni |
|---|---|---|---|
| Van | 39.300 | 179.000 | 67.000 |
| Ərzurum | 49.700 | 537.000 | 111.000 |
| Bitlis | 27.100 | 209.000 | 87.000 |
| Xarput | 36.900 | 446.000 | 87.000 |
| Diyarbəkir | 37.500 | 439.000 | 73.000 |
| Sivas | 62.100 | 939.000 | 151.000 |
| Trabzon | 16.600 | 931.000 | 40.000 |
| Adana | 20.000 | 341.000 | 57.000 |

Bu rəqəmlər Türkiyənin rəsmi istatistiklərindən alınmışdır. Baladakı [yuxarıdakı] rəqəmlərə nəzərən ermənilərin istədikləri ərazidə 4.175.000 müsəlman və 694.000 erməni nüfusu vardır. Bu ərqam [rəqəmlər] hərbdən əvvəlki təhriri-nüfuslara [əhalinin qeydə alınmasına] istinadən yapılmış olduğu halda, hərbin müxtəlif surətlərlə mövcib olduğu zayiatı [əmələ gətirdiyi itkiləri] unutmamaq lazımdır.

"Tan" qəzetəsi tərəfindən tamamən ermənilər lehində olduğu etiraf edilən mister Braysın hesabatına nəzərən hərbdən müqəddəm [əvvəl] Türkiyədə 1.600. 000 erməni varmış. Hərbdən sonra isə

bu miqdar 1.200.000 nüfusa tənəzzül etmişdir [geriləmişdir]. Şu halda Türkiyədə sakin bütün ermənilərin həpsi Poqos Nubar paşanın tələb etdiyi əraziyə sövq və cəm edilsə dəxi, yenə əksəriyyət türklərindir. Çünki o zaman da Ermənistanın nüfusu 1.200.000 erməniyə qarşı 4.175.000 müsəlmandan ibarət olacaqdır. Poqos Nubarın bu yekuna, məsələn Amerika və sair məmləkətlərdə sakin olan və oturduqları yerləri buraxıb şübhəsiz yeni Ermənistana gəlməyəcəyi mühəqqəq [şübhəsiz] bulunan və mübaliğəli bir surətdə 800.000 təxmin edilən dünyada digər erməniləri dəxi əlavə etsək əraziyi-məzkurədə [deyilən ərazidə] 2.000.000 erməniyə qarşı 4.000.000 müsəlman bulunacaqdır.

Binaənileyh [ona görə], görülür ki, Qafqaziya ilə Türkiyənin böyük bir qismində vase [geniş] bir ərazi imperatorluğu təşkil etmək xülyasına qapılıb da bu ərazidə əqəliyyəti haiz olmaqdansa [azlığa malik olmaqdansa], "Tan"ın dəxi dostanə tövsiyə etdiyi vəchlə "yorğana görə ayağını uzatmaq" ermənilər üçün daha müvafiq və xeyirli olar.

Əsasən İstanbulun erməni patriki [patriarxı] Zaven əfəndinin də şayani-təqdir [təqdirəlayiq] bir bəsirət və durəndişilə [uzaqgörənliklə] tövsiyə etdiyi "Türklər və Türkiyə ilə eyi keçinmək qayəsinə vüsul [çatmaq], erməniliyin hüququnu istehsal edərkən [əldə edərkən] türklüyün və islamiyyətin hüququna təcavüzdən ictinab eyləməklə [saqınmaqla] mümkün ola biləcəyi" unudulmamalıdır.

Xülasə, ermənilərin pək çox xəyalpərəst olmamalarını kəndi mənafeləri nöqteyi-nəzərindən dəxi tövsiyə eyləriz.

## BÖYÜK YERİŞ YERİMƏK İSTƏYƏN ÇOCUQLARA ÖYÜD

### Lloyd Corcun bəyanatı

İngiltərə Rəisi-nüzzarı [Baş naziri] mösyö Lloyd Corc kiçik dövlətlərə dair əxirən [son vaxtlarda] mühüm bir nitq irad eyləmişdir [söyləmişdir].

"Monitor Oriental" qəzetəsində mündəric [dərc edilmiş] nitqin mühim qisimlərini aşağıda yazırız:

*"Paris Konfransı şayani-təqdirdir [təqdirəlayiqdir]. Fəqət əsil şayani-heyrət [heyrətamiz] olan cəhət əsrlərcə təhti-əsarətdə mədfun [əsarət altında dəfn edilmiş] kimi nəzərlərdən nihan [gizli] qalan kiçik millətlərin birdən-birə bəsübədəlmövt [ölümdən sonra diriliş] sirrinə məzhər [nail; malik] olmuş kimi ərzi-əndam eyləmələri [meydana çıxmaları, özlərini göstərmələri] keyfiyyətidir. Vaqeən [doğrudan da] bu millətlər yek-digərini mütəaqibən [bir-birinin ardınca] hüzurumuza çıxıb mazidə [keçmişdə] düçar olduqları haqsızlıqları izah və bunların təzmin və təlafisini [əvəzinin ödənilməsini] tələb edirlər. Bu kiçik millətlərə bir qaç nəsihət irad etmək zamanının hülul edib-etmədiyini [vaxtının çatıb-çatmadığını] bilməyirəm. Fəqət səmimi bir mühibb [dost, məhəbbət bəsləyən] sifəti ilə bir qaç söz söyləməyi də kəndimə vəzifə ədd [hesab] eyləyirəm.*

*Kiçik millətlər bir zəfər, pək əzim [böyük] bir zəfər ehraz eylədikləri [qazandıqları] şu sırada böyük dövlətlərin xətalarını təqlid etmək təhlükəsinə düçar olurlar. Miləli-məzkurə [deyilən millətlər] kəndi millətlərinə mənsub olanların hüdudu xaricində ərazi fəth və zəbt etməyə təmayül edir və kəndilərinə aid bulunmayan bəzi yerləri ələ keçirmək istəyirlər. Kiçik millətlərə böyümək, tövsi etmək [genişləmək] fikri hakim olmağa başlayır. Halbuki, böyük-kiçik hər hangi hökumətlərin irtikab edə biləcəyi [işləyə biləcəyi] xətalarının ən təhlükəlisi budur. Kiçik millətlərin bugünkü və yarınkı qüvvət və qüdrətləri kəndi irqlərində mündəmicdir [öz köklərində cəm olmuşdur]. Bir millətin maziyyən [tarixən] cahanda haiz [sahib] olduğu nüfuz və qüdrət, tarixin isbat eylədiyi vəchlə [surətdə], işğal eyləməkdə olduğu sahələrə tabe olmamışlardır. Bu kiçik millətlər əlyövm [hal-hazırda] sadəcə ərazilərini tövsi surəti ilə nüfuz və qüdrətlərini təzayüd etdirəcəklərini [artıracaqlarını] fərz eyləməklə eynilə milliyyətini qırmağa qadir olacaqlarını təxmin eyləmiş olan böyük imperatorluqların xətalarını irtikab eyləmiş olurlar. Zira milliyyət, bəşəriyyət məfkurəsində layəmut [ölməz] bir düstur hökmündədir."*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Hərbiyyə nazirinin; xidmətlərindəki yararlıqdan dolayı Üçüncü Şəki süvari alayı komandanı minbaşı Xosrov Mirzə Qacar, Hərbiyyə məktəbi müdiri Kəsəmənski və Zaqatal taboru komandanı Dibirovun miralaylığa tərfiləri [polkovnik rütbəsinə qaldırılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə naziri tərəfindən pişnihad [təqdim] edilən tərfiləri təsdiq etməli.

* Hərbiyyə nazirinin; Kəlbəli xan Naxçıvanski və Kərim xan İrəvanskinin Şərur və Naxçıvan qəzalarını azad etməklərindən dolayı tərfiləri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə nazirinin qərarı təsdiq edilsin.

* Hərbiyyə nazirinin; kapitan Mağrubovu xidmətindəki yararlıqdan dolayı tərfii haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə naziri tərfiini təsdiq etməli.

* Səhhəti-Ümumiyyə nazirinin Bakının hifzüssihhəsi [gigiyenası] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Bələdiyyə İdarəsinin şəhər arabalarını fəaliyyətə cəlb etmədiyindən dolayı Səhhəti-Ümumiyyə Nəzarətinə tapşırılsın ki, şəhərə veriləcək qərz [borc] hesabına olaraq şəhər arabalarını fəaliyyətə cəlb etməli.

Səhhəti-Ümumiyyə nazirinə tapşırılsın ki, şəhər hifzüssihhəsi cəhətincə bilavasitə nəzarət yetirsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

### Məsai Nəzarətində

Məsai Nəzarəti [Əmək Nazirliyi] tərəfindən Quliyev dəyirmanı müdiriyyəti ilə xidmətçilər miyanındakı [arasındakı] ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] qəsdi ilə göndərilmiş Rəhim Hüseynzadə cənabları nazirə bir məruzə pişnihad ilə [təqdim etməklə] məlum etmişdir ki, müdiriyyət həqiqətən fəhlələrlə fəna müamilədə bulunmaqla [pis rəftar etməklə] müştərək müqavilənamə [kollektiv müqa-

vilə] maddələrinə əməl etməkdən imtina edir.

[Ağabala] Quliyev şəxsən fəhlələrlə fəna müamilədə bulunur. Hüseynzadə cənabları vasitəsi ilə fəhlələrə un haqqı və mənzil kirayəsi verilməyi qət edildiyindən, ixtilaf bərtərəf edilmişdir.

**ZAQATALADA GÜRCÜLƏRİN PROPAQANDASI**

20 martda Bakıdan hərəkət edib 24-ündə Zaqatalaya vasil oldum. Bura əhalisini payızda qoyub getdiyim halda bulmayıb, başqa bir halda gördüm. Əhali artıq istiqlaliyyət, cümhuriyyət, millət və milliyyət nədən ibarət olduğunu düşünmüşdür. Dost ilə düşməni fərq etməyə əksəriyyətlə istedad kəsb etmişdir [qazanmışdır]. Bu əhvalı Zaqatala Azərbaycanın ayrılmaz bir cüzü [hissəsi] olduğunu pək doğru və pək haqlı iddiada bulunan həmfikir arxadaşlarıma təbşir etməyimi [müjdələməyi] kəndimə bir vəzifeyi-milliyyəədd [hesab] edirəm.

Fəqət zahirən bizimlə hüsn-münasibatda bulunan gürcü hökuməti bu vilayət əhalisinin meyil və arzusunu nəzəri-etibara almayaraq yaxud almaq istəməyərək, XV-XVI əsr tarixinə, üç cift bir tək ingiloyların mövcud olmalarına istinadən Zaqatala vilayətini yədi-təsərrüflərinə keçirmək [zəbt etmək] üçün hər bir dürlü nalayiq hərəkətlər və həyasız rəftarlar irtikab etməkdən çəkinməyirlər.

25 martda arxadaşlarım vilayət Milli Komitə və Hilali-Əhmər [Qırmızı Aypara] cəmiyyətinin sədri və məhkəmeyi-şəriyyə əzası [şəriət məhkəməsinin üzvü] Nurulla əfəndi Qazızadə, xalq məkatib müfəttişi [xalq məktəbləri müfəttişi] İslam bəy Qəbulov və məhkəmeyi-şəriyyə kargüzarı İbrahim bəy Qəbulov cənabları ilə məsqəti-rəsim [doğulduğum yer] olan Faldar kəndinə gedərkən Əliabad nahiyəsinin mərkəzi olan Əliabad kəndində bir-iki saat istirahət niyyəti ilə əyləşdik. Bu əsnada xoşamədiyə [xoş gəldiniz deməyə] gəlmiş Əliabad əyan və əşrafı bir az müsahibədən sonra Gürcüstandan bir neçə zabitin propaqanda üçün gəldiklərini söyləyib qayət mütəəssir olduqlarını bəyan etdilər.

Lisanları gürcü lisanı olan Əliabad kəndi əyanının sələbəti-diniyyələrini [dini baxımdan mətanətlərini] görüb Zaqatala vilayətində Gürcüstana qoşulmaq istəyən heç bir fərd olmayacağına qəti surətdə hökm edərək, propaqanda haqqında məlumat toplamağa girişdim. Mart əvvəllərində Tiflisdən rəsmi surətdə Zaqatalanın sövqülceyş nöqteyi-nəzərindən [stratejik baxımdan] qolay yollarını bilmək üçün hərbi topoqraf Pavliyev Zaqatalaya göndərilir.

Pavliyev Laqodexə yetişdikdə, Zaqatalaya keçmək üçün bir çox yollar aradıqdan sonra ən-əsil [əslən] Zaqatalanın Qax kəndindən olub da Gürcüstanın Telav qəzasında məntəqə komandanı olan Tartaraşvilini və yenə həman Qax kəndindən olub da Gürcüstana hicrət etmiş Xutsiyevi Laqodexə dəvət etdirib Laqodex məntəqə komandanı Nadirov və 4 nəfər jandarma ilə Qax qəsəbəsinə qonaqlıq bəhanəsi ilə 21 martda Laqodexdən Zaqatala vilayətinə gəlmək üzrə hərəkət edirlər. Zaqatala şəhərinə yetişdikdə, ziyalılarımızdan bir çoxu bunlardan şübhələnib məhəlli [yerli] məmurlara, sonki günü vali [Əliyar bəy] Haşımbəyova müraciət edib bu çağırılmayıb gələn qonaqları[n] Qax və başqa istədikləri kəndlərə heç olmasa nə-zarət altında göndərilməsinin lazım ol- duğunu təklif etsələr də, nədənsə sözləri eşidilməmişdir və bu qonaqlar da nəza-rətsiz olaraq kəndi müsəlləh [silahlı] jan-darmaları ilə vilayət daxilinə sərbəst buraxılırlar. Qonaqlar ilk əvvəl ingiloylar mərkəzini təşkil edən Qax qəsəbəsinə yetişdikdə, arxadaşları Tartaraşvili vəfat etsə də, yollandığı işi ifa etmək üçün bəzi xristian və müsəlman gürcü kəndlərinə getmişlərdir. Əzancümlə [o cümlədən] Əlibəyli (xristian kəndi), Qorağan, Tasmalı, Əliabad (müsəlman) kəndlərini dolaşmışlardır. Getdikləri yerdə Azərbaycandan bir şey çıxmayacağını, Zaqatala əhalisinin siyasətən və iqtisadən mənafeyi ancaq Gürcüstan hökumətinə tabe olmaqda olduğunu və tez bir zaman içində Zaqatalanı istila üçün gürcü əsgərləri göndəriləcəyini dərmiyan etmişlərdir [irəli sürmüşlər]. Bu sözləri təbii camaat içində açıq-açığına deyil, xüsusi etibar etdikləri və camaat içində etibarı olan adamlara söyləmişlərdir. Bunların Zaqatalaya gəlmələri ilə hüdudun üç verstlik məsafəsində olan Laqodex və 12 verstliyində olan Haçaqaya qəsəbələrinə Gürcüstan hökumətinin əsgər toplamasının qayət sıxı münasibəti vardır.

İştə, bu yazdıqlarım şayiat olmayıb, xüsusi surətdə Laqodex və Haçaqaya qəsəbələrinə göndərdiyimiz mötəbər adamların verdiyi məlumatlarıdır. Binaənilyeh [ona görə], gürcü hökuməti Məvarayi-Qafqaz [Zaqafqaziya] cümhuriyyətlərinin hüdud məsələsini həll edəcək komisyondan əvvəl Axıska və Axalkələk kimi Zaqatalanı işğal edib, hökumətimizi əmri-vaqe [fakt] qarşısında qoymaq istədiyi anlaşıldığından, hökumətimizin bu işdə ciddiyyətlə davranmasını arzu edirəm.

*Bayram Niyazi [Kiçikxanov]*

**VAĞZALLARDA BİLET TİCARƏTİ**

Dəfəatla [dəfələrlə] Bakı vağzalındakı jandarmaların əmal [əməllərindən] və hərəkətindən bəzi şikayətlər eşitmişdik. Şikayətlərin ən böyüyü bundan ibarət idi ki, vağzalın kassasından üç-dörd bilet satılar-satılmaz dərhal kassa bağlanır və yüzlərlə növbətə dayanmış sərnişinlər naəlac qalıb jandarmalara müraciət edirlər. Hardansa bunların ciblərində hər cürə sərnişin biletləri olurmuş. Söz yoxdur ki, jandarmalar bu biletləri birə-iki qiymətə satırmışlar. Şikayətçilərin rəvayətinə görə, jandarmalar kassaçı ilə əlbir olub biletləri kassadan məxficə qəbul edərək, xahişmənd [istəyən] müştərilərə istədikləri qiymətə satırlar və bu "ticarətdən" hasil olmuş mənfəəti də öz aralarında bölürlər.

İştə bu minval şikayətlərin ardı-arası kəsilməyirdi. Şikayətlərini mühərrirlərə [qəzetçilərə] söyləyən cənabların məqsədi də bu idi ki, sərnişinlərin halına dair qəzetələrdə bir şey yazılsın, ta ki Dəmiryol İdarəsi əhvalatdan xəbərdar olaraq müqəssir kassaçı və jandarmaların şərarətindən [yamanlığından] naəlac sərnişinləri qurtarsın. Bu növ şikayətləri qə-

zetədə dərc etmək üçün buna dair xüsusi dəlil və sübutlara ehtiyac var idi. Lakin böylə dəlilləri şikayətçilər göstərə bilmədiyi üçün şikayətlərini də qəzetəyə yazmaq mümkün deyildi.

"Azərbaycan" (rusca) qəzetəsinin 77-ci nömrəsində sərnişin A. Sultanov cənabları mətlub [tələb olunan] dəlillərdən birini bugünlərdə oxuculara təqdim etmişdir. Bu barədə Sultanovun idarəyə göndərdiyi məktubunda yazır ki:

*"Mart ayının 31-də vağzala gedib bilet almaq üçün növbətə dayandım. Məndən geridə bir neçə nəfər kəndlilər dayanmışdılar. Bir vaxt jandarmalar gəlib bunları növbətdən xaric edirlər və yerlərinə də faxir* [gözəl, parlaq] *libaslı sair şəxsləri durğuzurlar. Bir neçə saatdan sonra özümə məxsus bileti alıb qayıdarkən növbətdən qovulmuş kəndlilərə rast gəldim. Məlum oldu ki, bunları növbətdən kənar etmiş jandarmalar biri 20 manat mənfəətinə neçə bilet satmışlardır. Həman jandarma hərəkatına məxfi diqqət yetirib anladım ki, bu cənablar aşkara bilet alış-verişi ilə məşğul olur."*

İştə, Sultanovun bu məktubundan apaçıq məlum olur ki, jandarmalarla kassaçının arasında sıxı bir ticarət əlaqəsi vardır. Odur ki, əllərdə yüzlərcə bilet satıldığı halda, kassadan ancaq dörd-beş bilet satılır. Təbiidir ki, bu hərəkatın ən böyük zərbələri biçarə, əlsiz-ayaqsız füqəra qisminə dəyir. Zira onsuz da bahalıq cəhətinə nırxı qalxmış biletləri bir də 20 manat mənfəət verib sair adamlardan almaq füqəra qisminə heç də müyəssər deyil. Odur ki, həftələrlə bu biçarələr vağzala yol döyüb bilet tapmayaraq məyusanə geri qayıdırlar.

Bu bəlaları jandarmalar ancaq şikayət üçün idarələrə yol tapa bilməyən avam camaatın başına gətirirlər. Xəvass [seçilmiş, sayılıb-seçilən] siniflərlə ehtiyatkaranə rəftar etdikləri üçün bunlardan hələ heç bir şikayət əlaməti indiyə qədər görülməmişdir. Lakin insanın fədakarlığı öz halına deyil, özgənin və ələlxüsus şikayətin yolunu anlamayan füqəranın halına yanmaqdan ibarətdir.

İndiyə qədər vağzallarda füqəranın başına nə oyunlar gətirilir, bunu bir Sultanov deyil, yüzlərcə onun kimiləri müşahidə etmişlərdir. Amma çifayda bunca ayın ərzində böylə fədakarlığa doğru və birinci qədəmi Sultanov cənabları atmışdır. Filhəqiqə [doğrudan da], müsəlman əhalisi arasında özgə dərdinə ağlayan göz çox az tapılır. Hamı "bemənçe" [mənə nə] deyib qonşu müsibətini qulaq ardına vurur. Heç kəs məzlumu zalımın çəngalından [caynağından] qurtarmaq istəməyir. El üçün ağlayan göz kor olar. Böylə xudpərəstanə [eqoistcə] sözlərlə özlərini səlamətə çıxarırlar. Halbuki qəbahətin ən böyüyü həqiqəti pərdələyib faş etməməkdən ibarətdir.

Sultanov cənabları jandarmaların kəndli sərnişinlərlə nə gunə [nə cürə] rəftarını qəzetə vasitəsi ilə aləmə bildirdi. O cənabın bu fəaliyyəti qoy sair ziyalılarımız üçün bir ibrət sərməşqi [nümunəsi] olsun ki, hər yerdə məzlumun fəryadına imdad göstərsinlər.

Kassaçı və jandarmaların əmalına [əməllərinə] gəldikdə, söz yoxdur ki, bu məsələ hökumət tərəfindən ətraflıca gərək təhqiq olunsun. Sultanovun iddiası təsdiq olunarsa, gərək müqəssirlər işlərindən kənar edilib məhkəməyə verilsinlər.





Xülasə, bu barədə hökumətin ən şədid [şiddətli] cəza və ən aqilanə tədbirini bəkləyiriz ki, daha bir də vağzallarda heç bir vəchlə bilet ticarətinə yol verilməsin, hər sərnişin biletini kassadan bilavasitə özü ala bilsin.

*Fərhad Ağazadə*

## "İRAN CAMAATININ NƏZƏR-DİQQƏTLƏRİNƏ"

Möhtərəm İran camaatı, hamınıza məlumdur ki, Bakı küçələrində ac, çılpaq iranlı balaları can verib tələf olmaqdadırlar. Tələf olmaqlarının səbəbi xunxar [qaniçən] və cəllad İran mülkədar və xanlarının zülümlərinə davam gətirəmməyib, axırda xaricə məmləkətlərinə pənah gətirib dilənməkləridir.

Əlbəttə, bunlar hamımıza məlum ola-ola, bu barədə heç bir yerdən bunlara bir çarə yolu aramaq fikri görülməyirdi. Fəqət çox təşəkkürlər olsun ki, bugünlərdə Bakıda yeni təşkil olunmuş "Müdafieyi-Məzluman" [Məzlumları Müdafiə] ilə "Şurayi-İraniyan" [İranlılar Şurası] cəmiyyətlərinin elanını oxuyub son dərəcədə xoşhal oldum.

Böylə ki, "Müdafieyi-Məzluman" komitəsi elanında yazır ki, bizim məqsədimiz İran zavallı dilənçi balalarını Bakı küçələrindən təmizləməkdir. Nə gözəl bir iş və nə ali bir məqsəd! İndi mən də üzümü iranlı həmvətəndaşlarıma tutub deyirəm ki, bugünlərdə həman cəmiyyətlərin iranlılara məxsus iclası olacaq və həman iclasda cəmiyyətə yeni üzvlər intixab olunacaq [seçiləcək]. Haydi vətəndaşlar, məzkur [deyilən] iclasa gəliniz. Fəal, çalışqan, bacarıqlı və milli hissi olan zatları intixab ediniz. Qoyunuz onlar da yorulmaqsızın vətən və millət yolunda işləsinlər. İşləsinlər də həman zavallı dilənçi balalarını küçələrdən təmizləsinlər və təmizləsinlər də xaricilər qarşısında xəcalətli və Allah yanında da üzüqara olmayaq.

Əlavə, həman komitələrdə tezliklə iranlılara məxsus olan iclası təyin etməklərini ayrıca tövsiyə edirəm. Allahtaala həzrətləri yardımınız olsun.

*Məhəmmədəli Əsədullazadə*
*Tabaqçı*

## TƏSHİH
## [DÜZƏLİŞ]

"Azərbaycan" qəzetəsinin dünkü nömrəsində "Milliləşdirmə haqqında" yazdığım sərməqalə [baş məqalə] altındakı "ümum müəssisələrin baş müdiriyyətini qayət fəal və qayət vətənini və millətini sevən Bəhram bəy Vəzirov kimi bir zata həvalə etmişdir" cümləsində müdirin ismi xatirimdən çıxdığından, posta bürosunun [müdirinin] ismi dərc eyləmişdi. Halbuki, Baş müdir Bəhram bəy deyil, Bəhlul bəy Vəzirovdur. Bu cəhətdən bütün Azərbaycan posta müəssisələrin baş müdiri Bəhlul bəy Vəzirovdur. Bakı Posta Bürosunun müdiri isə Bəhram bəy Vəzirovdur.

*R[əsul] Rəhimli*

## BAKI XƏBƏRLƏRİ

* General Hubert Qof Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki,

"Girsp və şərakəti [şərikləri]" nam İngiltərə müəssisəsindən Bələdiyyə İdarəsi 56171 funtluq mal götürmüşdür. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsi həman məbləği verməlidir. Əks-surətdə general məhkəmə ilə təhdidatda bulunmuşdur.

Bələdiyyə İdarəsi buna cavabən məlum etmişdir ki, Bələdiyyə İdarəsi bu barədə heç şey bilməyir və heç bir şərakət tanımayır. Binaənilyeh, ictimai müəssisəni məhkəmə ilə təhdid etmək bicadır [faydasızdır].

* Bələdiyyə İdarəsi Vükəla Şurasına [Nazirlər Kabinetinə] müraciətən bildirmişdir ki, Bələdiyyə İdarəsində alınan məlumata görə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Müdafiə Nazirliyi] şəhər teatro və başqa bu kimi tamaşaxana biletlərinə vergi təyin etmək istəyir. Halbuki, böylə vergiləri Şəhər İdarəsi Müvəqqəti hökumət qanunu mövcibincə [əsasında] çoxdan təyin etmişdir.

Bələdiyyə İdarəsi Vükəla Şurasına Bələdiyyə xəzinəsinin fəna əhvalını təsvirlə rica etmişdir ki, böylə vergilərin şəhər üçün qalmasına lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

* Maliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, şəhər və mədən dairələrində olan elektrik mövqiflərinin [stansiyalarının] siyahısını tərtiblə, işıq qiymətləri ilə məa [birgə] Nəzarətə təqdim etsin.

**Əmirhacıyanda**

Əmirhacıyan (Xilə) kəndində indiyə qədər bir hərbi komitə vardı ki, bunun da sədri Hacı Heybətqulu Məhəmməd oğlu, üzvləri Malik Rəhimov, Əlisəfdər Kərbəlayi Soltan oğlu və Əliyusif Almas oğlu idi. Aprelin 7-də həmin komitəyə yuxarıdakı əşxas [şəxslər] əvəzinə camaat tərəfindən sədarətə [sədrliyə] Kərbəlayi Əhməd Səməd oğlu və üzvlüyə Kərbəlayi Yusif Kərbəlayi Qəmbər oğlu intixab edilmişlərdir [seçilmişlər]. Bundan belə hərbi komitə işləri bu iki şəxsin əlində olacaqdır.

**Müfəttişin övdəti**

Bakı qubernatoru Rəşid bəy Axundzadənin binagüzarlığı [sərəncamı] ilə Şamaxı uyezdi [qəzası] hökumət və polis idarələrini təftiş etməkdən ötrü göndərilən polkovnik Qolovin bugünlərdə Bakıya övdət edərək [qayıdaraq] kəndi fəaliyyəti haqqında qubernatora bəyanat vermişdir. Bəyanatdan anlaşılmışdır ki, Şamaxı uyezdinin bəzi hökumət məmurlarından verilən şikayətlər bir dərəcəyə qədər haqlıdırlar. Həman məmurların öz xidmətlərində sui-istemalda [sui-istifadədə] bulunduqları təhqiq və təsdiq edilmişdir. Müfəttişin bu barədəki müfəssəl dakladı (bəyanatı) barəsində qəzetəmizdə məlumat veriləcəkdir.

**Polis müdirindən şikayət**

Məşqətə [Maştağa] kəndi əhli Hacı Əli Qəmbərəli oğlu Bakı qubernatoruna ərizə ilə məlum etmişdir ki, o, bağdan gələrkən neçə nəfər polis nəfəratına rast gəldikdə, məzkurun [adı çəkilən şəxsin] atını okolodoçnı [polis sahə rəisi] alıb, onu piyada buraxmış. Hacı Əli atı istəyərək tapançasını açıb okolodoçnıya verdikdə, o, tapançanı alıb özünü də tövqif [həbs] edərək polis idarəsinə gətirmiş və bir ay müddətinə onu məhbus etmişdir. Bunu göstərərək Hacı Əli tezliklə bu tövr qanunsuz hərəkatın qabağını almağı rica edir. Çünki onun həm atı, həm tapançası alınıb və özü də bir ay məhbus edilmişdir.

**Cərimələr**

* Səhhəti-Ümumiyyə Nəzarəti Bakı qubernatorundan rica edir ki, Bakı əhilləri Məhəmmədov və Avakov gizli surətdə qoyun və qara mal kəsdiklərinə görə müqəssir hesab edilib lazımi miqdarda cəriməyə məhkum edilsinlər.

* Aprel ayının 11-dən 18-nə qədər Bakı qalabəyisi [komendantı] tərəfindən edilən binagüzarlığa [sərəncama] görə bir çox şəxslər icazəsiz olaraq silah gəzdirməkdə müttəhim edildiyindən, 36 dənə bəratülqövl [protokol] tərtib edilməklə müxtəlif cərimələrə – cəzayi-nəqdiyyə [nağd pulla cəriməyə] və həbsə məhkum edilmişlərdir.

## BAKI QUBERNİYASINDA

**Öldürmək**

- Şamaxı uyezd naçalniki [qəza rəisi] Bakı qubernatoruna məlum edir ki, aprelin 2-də Ərəbşahverdi kəndinin əhli Əlibala Mürsəl oğlu qəflətən olaraq tüfəng gülləsi ilə həman kəndin əhli Nazlı Cavad qızı ilə Sərvər Saday qızını öldürmüşdür.

- Mədrəsə uçastokunun piristavı Şamaxı uyezd naçalnikinə məlum etmişdir ki, aprelin 9-da naməlum şəxslər tərəfindən Saqiyan kəndinin əhilləri Qriqori, Xaçatur və Saak Avakimovun 12 nəfərdən ibarət külfəti öldürülmüşdür. Bədəfkarlar [canilər] gizlənmişdir.

## DƏMİRYOLUNDA

*(İdarəyə məktub)*

Mart ayının 24-də biz Göyçay uyezdində Qaraman kəndi sakini Məhəmməd Əbdülkərim, Molla Fazil Cəbrayıl oğlu və Qaraxıdır kəndi sakini Həsən Hüseyn oğlu, Məhəmməd Məhəmməd oğlu, Ləkçılpaq sakini Kamil Şamil oğlu Bakıya göndərmək üçün Bərgüşad mövqifinə [stansiyasına] un gətirdik. Fəqət mövqifdə vaqon yox idi. Mart ayının 27-də mövqif naçalniki unu baqajnı vaqona [yük vaqonuna] yığdı. Mal sahibləri naçalnikdən təvəqqe ediblər ki, malları baqajnı vaqona yükləməsin. Naçalnik cavabında, gediniz işinizin dalınca, bunun sizə dəxli yoxdur, deyə cavab verir. Həman vaqon martın 28-də 200 nömrəli qatara qoşulub Müsüslüyə gəlmişdir. Martın 29-cu günündə Bərgüşad mövqifindən qəmisyəçi Məhəmməd Mikayılov və naçalnik müavini Kodsiye Müsüsliyə bir vaqon göndərmişlər ki, orada olanları baqajnıdan çıxarıb bu vaqona yükləsinlər. Martın 30-da raboçilərə [işçilərə] 18 manat verilib vaqonu əl ilə basıb qoşublar. 200 nömrə qatar gəlib Sağırlı mövqifinə. Fazil Məhəmməd və Kamil Zəkəriyya hambalbaşı Xanlardan sual eyləmişlər ki, boş vaqon varmı,

mallar baqajnıdan buraya yüklənsin. Cavabında, 400 manat verin, burada olan 2 boş vaqonun birisini sizə verək, demişlər. Biz 4 nəfər cavab verdik ki, 100 manat verə bilərik. Vaqonu bizə vermədilər, razı olmadılar. Nəhayət 400 manat alıb vaqonu Gəncə uyezdində Köküşkə sakini Yusif Murad oğluna verdilər. İkincisin[i] də Əli Həsən oğluna verdilər, bizə vaqon olmadı. Martın 31-də 2 dənə vaqon gəldi. Bir hambalbaşıdan təvvəqe eylədik. Dedi ki, vaqonların qiyməti 100 manat artıbdır. Deməli 500 manat verməlisiniz. Bu vaqonun birini də naçalnik Qalaqayında sükunət edən Abbasquluya satdı. Ondan bir kisə un aldı, ikinci vaqonu satdı. Sağırlıya 20 ədəd quzu aldı. Biz biçarələr vağzalda qalıb Sağırlı[lı] Məşhədi Əmirə dəxil düşdük [kömək istədik]. Məşhədi Əmir bizi apardı açarçı İlyasın yanına. İlyas biz 4 nəfərdən 250 manat alıb yanımızda verdi naçalnikə. Bizə boş vaqon verildi. Mallarımızı təzədən bu vaqona yüklədik. Aprelin 7-nə qədər vaqonu qoşmadı. Biz 4 nəfər gəldik Bakıya. Vaqon gəlmədi. Aprelin 11-də vaqonun nə səbəbə təxirə düşməyini bilmək üçün təzədən adam göndərməyə məcbur olduq.

Xudavəndi-aləm heç bir qadaşın Sağırlı mövqifinə yolunu salmasın. Yaman rüşvət alırlar. Bərgüşad mövqifində bir qəpik rüşvət almaq olmaz, vermək olmaz. Sağ olsun Bərgüşad mövqifində olan qəmisyəçi Məhəmməd Mikayılov, çox düzgün iş görür. Sağ olsun naçalnik müavini Kodsiye, düzgün adamdır.

*Molla Fazil, Məhəmməd Kamil,*
*Məhəmməd və Zəkəriyyə*

## AZƏRBAYCANDA

**Gəncədən**

Gəncə il yarım idi ki, qiraətxanadan məhrum idi. Gəncə Bələdiyyə İdarəsinin kəndinə məxsus mükəmməl bir kitabxanası ilə bərabər, yanında bir qiraətxanası da var idi. Ancaq anarşi həmin kitabxananı qapadılmağa məcbur etdi. Anarşidən sonra da Bələdiyyə İdarəsinin ətalətsizliyindən dolayı bu kitabxana və qiraətxana hələ də açılmayır. Allah bilir hangi padvalda onun kitabları oxumamazlığa məhkumdur.

Bu yaxınlarda Gəncə qəzası xalq məktəbləri müfəttişi Cavad bəy [Cuvarlinski] cənablarının təşəbbüsü ilə Gəncədə bir qiraətxana açılmışdır. İl yarımdan sonra Gəncənin qəzetə maraqlıları yenə bu ocağın başına toplaşa bilər. Gəncə kimi şəhəri qiraətxanasız buraxmaq doğrudan da bizim üçün böyük bir nöqsan idi. Bunu anlayaraq, müfəttiş həzrətləri iştə böylə mədəni bir təşəbbüsdə bulundu.

Qiraətxana Gəncənin qələbəlik caddələrindən Gəncə caddəsinin körpüyə yaxın bir yerində, qabaqda "Kompaniya Zinger" olan binaya yerləşmişdir. Qiraətxananın gözəl türkcə yazılmış lövhəsi oradan keçənlərin diqqətini kəndi gözəlliyi ilə cəlb edir. Böylə gözəl türkcə yazılmış lövhələrdən hökumət müəssisələrinin və xüsusi müəssisələrin və hətta istiqlalını qazanmış xalqın dükanlarının qapı başlarında asılı olsa həmi hökumət türk olduğunu, həmi də xalq türk xalqı olduğunu isbat edərdi. Nə fayda ki, qubernatorun evinin yanı başında Tiflis Ticarət Bankının lövhəsi gözü dəlir.

Qiraətxana açılması ilə Gəncə itirdiyi mədəni müəssisəni tapmış deməkdir. Əlbəttə, həyat adi izini bulduqca, sevgili Azərbaycanımızda böylə müəssisələr sayıca çoxalacaq və keyfiyyətcə eyiləşəcək. Mədəni müəssisələrimiz çoxaldıqca, bir taqım türk yeyicilərin və onu mədəniyyətə düşmən sayanların qələt və qərəz fikirləri əsasından yıxılacaq.

Qiraətxanaya paytaxtımız Bakıdan, Tiflisdən türk, rus, erməni dillərində qəzetələr yazılır. Qiraətxanada bu yaxından etibarən kitab da bulundurulmasını müfəttiş həzrətləri söylədi. Böylə mədəni müəssisələrin çoxalmasını istəriz və ilk təşəbbüskara səmimi təşəkkürlərimizi izhar edəriz.

*Qəmbər oğlu Qasım*

## KƏNARİ

Bu axır vaxtlarda Moskvadan təşrif gətirmiş Nəbi Əhmədzadə cənablarından bizim də Dərbəndə bir kağız gəlmişdi. Cənab Əhmədzadə kağızı Bakıdan yazmışdı. Kağızda Əminov Sadığın salamatlığından yazmışdı. Mən Bakıya gəlib cənab Əhmədzadəni axtardım, tapammadım çünki kağızda adres yox idi. Cənab Əhmədzadə nə yer[də] isə mənə məlum deyil. Ona görə qəzetədə yazmağa məcbur oldum. Şimdi cənab Əhmədzadədən acizanə təvəqqe edirəm Sadıq Əminov barəsində müfəssəl bir kağız yazsın. Adres: Dərbənd, Əminov. Yazsın görək Sadıq özü gələ bilərmi və yainki ardıycan adam göndərmək lazımdır.

*Əminov*

**İtibdir**

Bakı notariusundan verilmiş kupça krepost [daşınmaz əmlakın mülkiyyət sənədi] Kərbəlayi Talıb Cəfərovun adına itibdir. Etibardan saqitdir [etibarsızdır].

*8720*

**İtibdir**

Əliyullah Allahrza oğlunun Suraxanı 5-ci uçastokundan aldığı 123 nömrəli pasportu itib. Etibardan saqitdir.

*8723*

**İtibdir**

Vəlixan İmamverdi oğlunun Əmirhacıyandan aldığı pasportu itib. Etibardan saqitdir.

*8724*

**İtibdir**

Əlişükür Vəlixan oğlunun Əmirhacıyandan aldığı pasportu itib. Etibardan saqitdir.

*8725*

**İtibdir**

Ağaabdulla Teymur oğlu Abdullayevin Şamaxıdan aldığı pasportu itib. Etibardan saqitdir.

*8726*

**İtibdir**

Mixail Merdaxayevin Şamaxıdan almış pasportu itib. Etibardan saqitdir.

*8727*

**Acizanə təvəqqe edirəm**

Nəbi Qasım oğlunun nərədə olduğunu mənə xəbər versinlər. Məzkur [adı çəkilən şəxs] 2 aydan bəridir Gəncədən Bakıya gəlmiş, bu vaxta qədər bir xəbər yoxdur. Ondan xəbərləri olanlardan acizanə xahiş edirəm bu adresə xəbər versin:

Gəncə, Daş Qəstin, əllaf Məşhədi Əmiraslan Məhəmməd oğlu yaxud Bakıda komis-

yonçu Abdulla Fətəliyevə. Bəxşiş 1000 (min) manat.

*8722*

**"Diş həkimi kabineti"**

Hər bir aləti ilə almaq istəyirəm. Xahiş edənlər "Lion" qastinsasında 1-ci nömrəyə müraciət edə bilərlər. Mirzə Əhmədxan.

*8721*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Peyvənd etmək üçün təzə "limfa" vardır. Telefon nömrə: 58-39.

*5779*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Dağıstana imdad!**

səh. 339. "Dağıstana imdad!" yerinə qəzetdə "Dağıstan imdad!" getmişdir.

**Böhtanlarla**
**böyük işlər görülür**

səh. 340. "Di Trans-Qafqazian post": Tiflisdə ingilis dilində nəşr edilmiş "The Trans-Caucasian Post" ("Zaqafqaziya poçtu") qəzeti nəzərdə tutulur.

səh. 341. "...issiz yerlərə qaçacaq": qəzetdə "issiz" yerinə "işsiz" getmişdir.

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 341. "1) Daxil olmuş kağızlar, o cümlədən:": bu maddənin bəndləri qəzetdə ərəb qrafikalı əlifbanın hərf sırasına uyğun olaraq A, B, P, T və s. kimi işarələnmişdir.

səh. 343. "qövldən feilə": qəzetdə səhvən "qüvvədən feilə" getmişdir.

səh. 344. "1915-ci ildə Kür nəhri daşıb...": qəzetdə "1915" yerinə səhvən "95" getmişdir.

səh. 345. "Mahmudov Mustafa": qəzetdə "Mahmudov" yerinə səhvən "Məhəmmədov" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 346. "D. T. Z.": 1917-1919-cu illərdə Budapeştdə alman dilində nəşr edilmiş gündəlik qəzet olan "Döyçes Taqeblat Çaytunq" [Deutsches Tageblatt Zeitung] nəzərdə tutulur.

"...onu Elba çayına atmışlardır.": qəzetdə Elba çayının adı təhrif edilmişdir.

səh. 347. "Avamlar Kamerası": Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 347. "Zaman": İstanbulda 4 aprel 1918 – 10 sentyabr 1919-cu il tarixləri arasında türk dilində nəşr edilən gündəlik qəzet. Cəmi 480 nömrəsi çapdan çıxmışdır.

**Qəzetələrdən**

səh. 348. "Odessadakı Blaqorodnı institutun...": varlı və aristokrat ailələrin qızları üçün nəzərdə tutulmuş təhsil müəssisəsi olan Odessa Nəcib Qızlar İnstitutundan söhbət gedir.

"Bakı-Batum dəmiryolunun açılması xəbəri...": qəzetdə "açılması" yerinə səhvən "iclası" getmişdir.

"Həbs edilmiş Tətil Komitəsi üzvlərindən...": qəzetdə bu xəbər səhvən ondan əvvəlki xəbərin ardı kimi getmişdir.

"füccətən vəfat eyləmişdir": "füccətən" sözü qəzetdə təhrif edilmişdir.

**Dağıstan əhvalı**

səh. 349. Paramonov: qəzetdə səhvən "Panamoryov" getmişdir.

səh. 350. "plastun": piyada kazak qoşunu.

**İranın hüququ**

səh. 351. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet olan "Le Temps" nəzərdə tutulur.

səh. 352. "Əski rus idarəsinin yıxılışı...": qəzetdə "yıxılışı" yerinə "yıxılmış" getmişdir.

**Təshih**

səh. 359. "...dünkü nömrəsində "Millilləşdirmə haqqında" yazdığım...": Rəsul Rəhimlinin "Milliləşdirmə haqqında" adlı yazısı "Azərbaycan" qəzetinin 17 aprel 1919-cu il tarixli 159-cu nömrəsində dərc edilmişdir.

"R[əsul] Rəhimli": qəzetdə səhvən "B. Rəhimli" kimi getmişdir.

**Azərbaycanda**

səh. 362. "Bələdiyyə İdarəsinin ətalətsizliyindən dolayı…": "ətalətsizliyindən" yerinə "ətalətindən" yaxud "fəaliyyətsizliyindən" olmalıdır.





**Bazar ertəsi, 21 aprel 1919-cu il, nömrə 162**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 20 rəcəbül-mürəccəb sənə 1337. 21 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**ELAN**

1919 sənəsi düşənbə [bazar ertəsi] günü, aprel ayının 21-də, gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

**ELAN**

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, aprelin 28-də gündüz saat 1-də Ərzaq Nəzarəti binasında Olqinski küçə "Natsional" mehmanxanasında aşağıda göstərilən miqdar balıqlar hərrac ilə satılacaqdır:

| A) Hissə-hissə: | | |
|---|---|---|
| 1 – Jerex [xəşəm]<br>2 – Sudak [sıf]<br>3 – Şuka [durnabalığı]<br>4 – Leş [çapaq]<br>5 – Sazan [çəki]<br>6 – Som [naqqa]<br>7 – Vobla [külmə] | 2 tara<br>3 tara<br>16 tara<br>43 tara<br>169 tara<br>52 tara<br>129 tara | Vəzni təqribən 6,140 put 11 girvənkə |
| B) Seld [siyənək] | 1965 tara | Vəzni təqribən 5413 put |

Göstərilən miqdar balıqlar hamısı bir yerdə və ya seldin hamısı iki partiya və qalanları isə əlahiddə satıla bilər.

Satılan balıqlar Vinner şirkəti zavodunun dondurma anbarlarında (İrəvanski, nömrə 2) saxlanır. Tətil günlərindən başqa hər gün səhər 9-dan 12-yə qədər baxmaq mümkündür.

Hərrac aprelin 28-i gündüz saat birə qədər bağlı paketdə göndərilən bəyannamələrlə olacaqdır. Bəyannamələrdə seldin ayrıca və qalan balıqların da ayrıca put qiyməti göstərilməlidir. Qiymət rəqəmlərlə deyil, hərflərlə yazılmalıdır. Bəyannamə ilə bərabər seld üçün on min manat, qalan balıqlara isə iyirmi min manat zaloq verilməlidir.

Bundan əlavə, bəyannamə verənlər şəxslərini isbat edici sənədlər dəxi təqdim etməlidirlər.

Zaloq nağd pullarla, həmçinin mülki qanunlarda göstərilən qaydalar üzrə əmvali-qeyri-mənqulə də [daşınmaz əmlak da] qəbul olunur. Hərracın təsdiq edilməsi Ticarət, Sənaət və Ərzaq naziri tərəfindən olur.

Tətil günlərindən başqa hər gün saat 11-dən 2-yə qədər Ərzaq Nəzarətində 24 nömrəli otaqdan bu barədə lazım gələn müfəssəl məlumat almaq olar.

*Nazirin baş vəkili: İmza*

**OBŞESTVENNİ SOBRANİYANIN**
**[BAKI İCTİMAİ YIĞINCAĞININ]**
**YAY KLUBUNDA**

Düşənbə [bazar ertəsi] günü aprel ayının 21-də Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi tərəfindən **şərqi müsamirə** tərtib verilir. Müsamirənin səhnə tamaşalarını ifa üçün Hacıbəyli Qardaşları Müdiriyyətinin mahir aktyorları dəvət edilmişDir.

İkinci hissədə **kabare** olacaqdır.

Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

*Fəxri müdir:*
*Hacı Zeynalabidin Tağıyev*
*Müdiri-məsul:*
*Cəmiyyətin sədri Qasım Qasımov*

**ELAN**
**"ÖVRAQİ-NƏFİSƏ"**

"Övraqi-nəfisə" məcmuəsinə bu gündən etibarən abonə dəftəri açıqdır: Bakı üçün bir nüsxəsi 5 rublə, qeyri şəhərlər üçün nüsxəsi 8 rublə. Məcmuəmizə ədəbiyyat və sənayeyi-nəfisəyə [incəsənətə] dair yazılan məqalələr qəbul olunur. İdarəmiz səhər saat 12-dən 1-ə qədər acıqdır. Məhəlli-idarə [redaksiya ünvanı]: Bakı, Qubernski küçədə nömrə 43-45. Qəzetə və jurnal satanlara manata 20 qəpik güzəşt edilir.

*b.*

**ZAQAFQAZİYA KONFRANSI**

Aprelin 25-də Zaqafqaziya cümhuriyyətlərinin bir konfransı əqd olunacaqdır [keçiriləcəkdir]. Bu konfransda Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstan cümhuriyyətləri iştirak edəcəklərdir.

Konfransda mövzuyi-bəhs [müzakirə] olunacaq məsələlər:

Gürcülər tərəfindən vaqe olan təklifə görə:

1 - Gömrük məsələsində bir taqım mütəqabil [qarşılıqlı] imtiyazlar və ittisalat [yaxınlıq, birlik] vücuda gətirmək;

2 - Dəmiryol, posta, teleqraf üçün ümumi tənzim və tənsiq [nizamlama və qaydaya salma] idarəsi təşkil etmək və;

3 - Müştərək para çıxarmaqdır.

Azərbaycan hökumətinin təklifi ilə aşağıdakı məsələlər dəxi konfrans müzakiratına vəz edilmişdir [müzakirəyə çıxarılmışdır]:

1 - Hüdud məsələlərinin etilaf üzərinə [uzlaşmayla] həll və həll edilmədiyi təqdirdə bitərəf bir həkəmə [arbitrə] müraciət ilə həll etdirilməsi;

2 - Cümhuriyyətlərin mütəqabil [qarşılıqlı] olaraq yek-digərlərini təsdiqi [bir-birlərini tanıması];

3 - Xarici hücuma qarşı müdafieyi-müştərəkə vəsilələrini təkmil [birgə müdafiə vasitələrini işləyib hazırlamaq] və Yevropa məhafili [dairələri] qarşısında istiqlalımızın müdafiəsi üçün müştərək və mütəqabil bir bəyanatda bulunmaq;

4 - Cənub-Qərbi Qafqaziya hökumətinin dəxi məzkur [deyilən] konfransa iştirak etdirilməsi.

Mövzuyi-bəhs olunan məsələlər, möhtərəm qarein [oxucuların] gördüyü kimi mühüm məsələlərdir. Zaqafqaziya həyati-siyasiyyə və milliyyəsinin təmini üçün bir an əvvəl həlli lazım gələn ən böyük məsələlərdəndir.





Zaqafqaziya hər nə qədər müxtəlif millət və cinslərlə məskun olsa da, vəziyyəti-coğrafiyyəsi etibarı ilə iqtisadi bir vahiddir.

Qafqaziya silsileyi-cibalı [dağ silsiləsi] ilə mühafizə olunub da bir tərəfi Qara dəniz, digər tərəfi isə Kaspi dənizinə dayanan Zaqafqaziya, ekonomik nöqteyi-nəzərdən bir vahiddir.

Zaqafqaziyanı bu dənizdən o dənizə qədər vəsl edən [birləşdirən] böyük dərə başdan-başa bir dəmiryol ilə bitişdirilmişdir.

Zaqafqaziyanın ən böyük nəhrini təşkil edən Kür nəhri ilə bu nəhrin digər şaxəsini təşkil edən Araz nəhri kəza [həmçinin] Zaqafqaziya cümhuriyyətlərini müştərək bir surətdə suvarmaqdadır.

Bakı ilə Batumun müşabihəti [oxşarlığı] yalnız adlarının ahəngində deyildir. Zaqafqaziyanın bu iki müntəhası [iki ucu] yek-digərinə iqtisadən dəxi mərbutdur [bağlıdır].

Bakının nefti bir tərəfdən Astraxana gedirsə də, digər tərəfdən dəxi Batuma axır. Həm sözün tam mənası ilə axır. Məlum olduğu üzrə Bakı-Batum yalnız dəmiryol ilə deyil, neft borusu ilə dəxi vəsl edilmişdir [birləşdirilmişdir].

Qara dənizlə Kaspi dənizi arasında olan bu ərazi üzərində təşəkkül edən hökumətlərin iqtisadiyyatı bir olduğu kimi, siyasiyyatı da yek-digərinə bağlıdır. Bu hökumətlərdən birinin istiqlalına rəxnə [zərər] gələr və yaxud onun yerində kəndisindən başqa hökumət oturarsa, o zaman digər hökumətlərin müstəqil qalacağını təsvir eyləmək mümkün deyildir. Tarix dəxi bunu isbat edə gəlmişdir. Bir ayağı ilə Gürcüstanda duran Rusiya az çəkmədi ki, bütün Zaqafqaziyanı istila etdi. Bu bir həqiqəti-tarixiyyədir. Şərqi Zaqafqaziyanı istila edən türk və iran qüvvətləri Gürcüstanı dəxi rahat buraxmamışlardır. Bu da bir həqiqətdir. Şimdiki halda dəxi Denikin bir tərəfdən Gürcüstanı, digər tərəfdən də Dağıstanı təhdid edir ki, bu təhdidlərin bizə qarşı olduğunu hamımız biliriz. Şu sırada Gürcüstanın, məsələn müstəqil qalması Azərbaycan istiqlalının müdafiəsi üçün lazım olduğuna kim şübhə edə bilər. Gürcüstanın bizə və cənub-qərb islamlara qarşı eylədiyi bədrəftarlığa rəğmən biz mənafeyi-ümumiyyə naminə yenə Gürcüstanın istiqlalı tərəfdarıyız və bunun xatirinə hətta, əlbəttə, haq və hüququmuzdan deyil, mənafeyi-iqtisadiyyəmizdən və xəzineyi-milliyyəmizdən bəzi fədakarlıqlar və müavinətlər lazımsa, əlbəttə, əsirgəməyiz.

Ermənistan Cümhuriyyəti ilə kəza aramızda mövcud olan bütün ixtilafa və ixtilafi-hissü-nəzərə [hisslərimiz və baxışlarımız arasındakı fərqliliyə] rəğmən bir an əvvəl anlaşıb, keçmişləri tarixə və müvərrixlərin [tarixçilərin] mühakiməsinə buraxaraq, bugünkü vəziyyətimizin təyidinə [təsdiqlənməsinə, möhkəmləndirilməsinə] həsri-vaxt etmək tərəfdarıyız.

Gürcüstan ilə Ermənistan Azərbaycan hökuməti tərəfindən vaqe olan təkliflərdən Cənub-Qərbi Zaqafqaz hökumətinin konfransa haqqi-iştirakını rədd eyləmişlərdir. Hər nə qədər məzkur hökumətin başına gələn qəza – bu hökumət ingilislər tərəfindən dağıdılmış və əzası [üzvləri] həbs edilmişdir – artıq bu təklif

üzərində israr etmək üçün bir tutalğa [əsas] buraxmayırsa da, burası mühəqqəqdir [şübhəsizdir] ki, yarım milyondan ziyadə irqdaş və vətəndaşlarımızın müqəddəratını Gürcüstan ilə Ermənistan hökuməti yalnız öz aralarında həll etmək istər və bu xüsusda yerli əhalinin rəy və iradəsinə etina etməzlərsə, təbiidir ki, kəndiləri ilə bütün məsaili-mühimməni [vacib məsələləri] soyuq bir qanla oturub da həll edə bilmək imkanını bizim mürəxxəslərdən [nümayəndələrdən] ötrü bir dərəcəyə qədər çətinləşdirər.

Məəttəəssüf [təəssüf ki], cərəyani-əhval [hadisələrin gedişi] öylə göstərir ki, Ermənistan ilə Gürcüstan mürəxxəsləri [nümayəndələri] bu məsələdə, yalnız bu məsələ deyil, ehtimal ki, digər bir çox məsələlərdə dəxi anlaşmış olaraq konfransa gələcəklərdir. Hər halda ümid edə biləriz ki, onların bu anlaşdıqları məsələlər Azərbaycan həyati mənfəətlərinə qarşı əqd edilmiş [bağlanmış] bir ittifaqdan ibarət olmayacaq. Olsa belə, konfransda məsələlər etilafla [uzlaşma ilə] həll olunacağından, böylə bir blokun hər halda işi etilafa deyil, ixtilafa vardıracağını Gürcüstan və Ermənistan diplomatlarının da təqdir edəcəklərini təsəvvür edəriz.

Qonşu dövlətlərin bir dəfə daha aralarındakı məsələləri dostluq və etilafla həll edəcəklərinə inanmaq istəriz. Çünki bu dövlətlərin düçar olduqları böhrani-iqtisadi və siyasi o dərəcədə müəssirdir [təsirlidir] ki, arada mövcud hər növ uyuşulmaz və barışılmaz mətləblərin qaldırılmasını icab edir. Buraya gedən mürəxxəslər ixtilaf nöqtələrindən ziyadə etilaf xətlərini bulmalı, o surətlə çalışmalıdırlar.

Gömrük məsələsi yoluna qoyulmalı, yek-digərinə qarşı təshilat göstərilməlidir [işlər asanlaşdırılmalıdır; şərtlər yüngülləşdirilməlidir]. Əlbəttə ki, bu təshilat cümhuriyyətlərin məhzən birisi üzərinə təhmil olunmaq [yüklənmək] surəti ilə həll olunammaz. Müştərək para çıxarmalı, ayrı-ayrı kağız paralar çıxarmaqdan bəlkə də vaz keçməlidir. Fəqət bununla bərabər bilməlidir ki, hər kəs müştərək paradan kəndi gəlirinə görə istifadə eyləməli, qonşusunun cibindən xərcləmək niyyətini atmalıdır.

Hüdud məsələlərinin bir an əvvəl həllinə baxılmalı, bu məsələlər həll olunarkən, şübhəsizdir ki, qövmiyyət prinsipi ilə iqtisadi və coğrafi əsaslara dəxi göz örtməməlidir.

İxtilaflı məsələlər həll olunduqdan sonra, təbiidir ki, istiqlallarımızın müştərəkən müdafiəsi, müştərəkən düvəli-müəzzəmə [böyük dövlətlər] qarşısında bəyanatda bulunmaq və yek-digərini rəsmi surətdə tanımaq məsələləri özü-özlüyündən həll olunar.

Aprelin 25-də toplanacaq Konfransın müvəffəq olub-olmayacağı bittəb [təbii ki], konfransa iştirak edən dövlətlərin dərəceyi-səmimiyyətlərindən və bir dərəcəyə qədər də bu hökumətləri təmsil edəcək mürəxxəslərin hüsn-niyyət və məharətlərindən asılı bir məsələdir.

Fəqət əfkari-ammənin [ictimaiyyətin] bu məsələdəki arzu və hissiyyatına tərcüman olmaq istərsək, mürəxxəslərimizin Konfransdan boş qayıtmamağa var qüvvələri ilə səy etmələrini ixtar edəlim [xatırladalım].





## TELEQRAF XƏBƏRLƏRİ

"D. V." qəzetəsinin yazdığına görə Petroqradı hal-hazırda Yakovleva nam [adlı] bolşevik bir arvad idarə edir. Bu xanım Petroqradı bir hala salmış və Petroqrada o qədər fənalıqlar icra edilir ki, əhali şəhərdən qaçır. Petroqradda üsyani-ümuminin qarşısına çıxmaq üçün orada daima 50 min nəfər latış qoşunu saxlanır.

**Bolşeviklərin məğlubiyyəti**

Omskdan xəbər verilir ki, Perm cəbhəsində Kolçak qoşunlarının müvəffəqiyyəti irəliləyir. Qoşunlar Kama çayından keçib İdil nəhrinin qolunda bolşevikləri təqib edirlər. Bolşeviklər Qlazkar səmtinə ricət edirlər [geri çəkilirlər]. Bolşeviklərdən 37 min əsir alınıb. Bolşeviklərin Üçüncü Ordusu hərb iqtidarından düşürülmüşdür.

* Amsterdam "Teleqraf" qəzetəsinə Nyu-Yorkdan xəbər verildiyinə görə, orada işsiz əmələlər [fəhlələr] iğtişaş salmağa başlamışlardır.

## SÜLH ƏTRAFINDA

Sülh müzakiratı qurtarmaq üzrədir. Sülh məsələsində o qədər irəli gedilmiş ki, Vilson bütün məsələlərin qəti surətdə həll edildiyini etiraf eyləmişdir. İtaliyaya təklif edilmiş ki, müvəqqətən Fiumedən istifadə etsin. Lakin İtaliya bu vaxta qədər rizasını göstərməmişdir. Sülh Konfransı bu məsələni hələlik qət eyləməmişdir. Ola bilər ki, Fiumenin İtaliyaya mülhəq edilməsi [birləşdirilməsi] məsələsində İtaliya arzusuna konfrans razı olsun.

London – Böylə xəbər verilir ki, cümə günü konfransda Adriatik dənizi məsələsindən maəda [başqa] ümum məsələlər həll edilmişdir. Yenə həman mənbədən verilən xəbərlərə nəzərən, həman gün qəflətən sülh danışıqlarında bəzi müşkülat törəmişdir. Ona görə də Almaniya nümayəndələrini dəvət etmək təxirə uğramışdır. Almaniya 2 il müddətdə 5 milyon dollar Müttəfiqlərə pul verməlidir.

London – Veymardan almanlar xəbər verirlər ki, Almaniya hökumətinin başçısı Şeydeman Milli Məclisdə demişdir ki, sülh müahidənaməsi [sazişi] almanlar tərəfindən imza edilərkən, Almaniya millətin[in] mənafeyi gözlənəcəkdir. Almanlar istəyirlər ki, millətlər müxtəlif firqələrə, ittifaqlara bölünməyib birləşsinlər. Almaniya heç bir vaxt müsaidə etməz ki, Rusiya Almaniyanın daxili işlərinə müdaxilə etsin. Hərgah, Rusiya bolşevik təbliğatını tərk edərsə, Almaniya kamali-məmnuniyyətlə rus əhalisinə əlini uzadacaqdır. Fransa ilə Almaniya əlaqəsinə gəldikdə, Almaniyanın arzusu sülhü bərpa etməkdir.

Şeydeman nitqinin bir yerində qeyd eyləmişdir ki, ən əvvəl Almaniyanın riza göstərdiyi sülh şəraitinə müğayir [zidd] tərtib edilən müahidənaməni [sazişi] Almaniya imza etməyəcəkdir. Hal-hazırda Almaniyanın başqa hissələrində[n] qəti-əlaqə etmiş [əlaqəsini kəsmiş] olan qərbin ticarət və ziraət [kənd təsərrüfatı] işlərindəki əhəmiyyətini nəzərə alıb, oranın azad edilməsini tələb edir. Tezliklə ab-

lukanın [blokadanın] qaldırılmasına və ərzağın gətirilməsinə Almaniyanın əşədd [şiddətli] ehtiyacı vardır. Almaniya öz düşmənlərindən xammalların gətirilməsini gözləyir. Bunları almaq üçün Almaniyanın kreditə ehtiyacı vardır.

## RUSİYANIN SÜLH TƏKLİFLƏRİ

Məlum olduğu üzrə Nikolay zamanında Çar hökumətinin Almaniyaya müraciət edərək sülh təklif eylədiyi şayiələri şiddətlə dövran eyləmiş, hətta məzkur [deyilən] hökumətin süqutu dəxi bu təkliflə əlaqədar göstərilmişdi. Bu kərə alınan İstanbul qəzetələrində görüldüyünə nəzərən “Morninq post” ingilis qəzetəsi bu məsələ haqqında aşağıdakı təfsilatı nəşr edir:

“Pester Lloyd” qəzetəsi nəşr eylədiyi bir silsileyi-məqalatda [məqalələr silsiləsində] 1916 sənəsi sonbaharında və 1917 bidayətində [başlanğıcında] Rusiyanın Düvəli-Mərkəziyyəyə [Mərkəzi Dövlətlərə] sülh təklifində bulunduğu bəyan edilir. Bu təklif Sofiyada, Vyanada, hətta Berlində ruyi-qəbul gördüyü [müsbət qarşılandığı] halda, alman qərargahi-ümumisi, yəni general Lüdendorf tərəfindən rədd edilmişdir. İlk təklif 1916 sənəsi təşrini-əvvəlində [oktyabrında] Rusiya sarayi-kralisi [kral sarayı] tərəfindən bi-tərəf bir zat dəlaləti ilə vaqe olmuşdur. Bu təklifdə şayəd Almaniya İstanbul xüsusunda Rusiyanın nöqteyi-nəzərini tərvic edəcək [rəvac verəcək] olarsa, sülh dərhal əqd ediləcəyi və təhti-işğalda [işğal altında] bulunan Avstriya ərazisinin iadə olunacağı [qaytarılacağı] bildirilmişdir. Bolqar kralı bu təklifə müvafiqət etmiş [tərəfdar olmuş] və Avstriya-Macarıstan qərargahi-ümumisi onu nəzəri-etibara almışsa da, alman qərargahi-ümumisi surəti-qətiyyədə rədd eyləmişdir.

1917 sənəsi kanuni-saninin [yanvarın] 24-cü günü eyni bitərəf zat Rusiya sarayi-imperatorisinin [imperatorluq sarayının] ikinci bir təklifini təbliğ etmişdir. Məzkur [deyilən] təbliğ bərvəchi-ati fəqəratı möhtəvi idi [aşağıdakı maddələri ehtiva edirdi]:

*“Şayəd Düvəli-Mərkəziyyə məqul [ağlabatan] bir sülh təsisi üçün lazım gələn şəraiti surəti-səmimanədə münaqişə etmək – ki, biz buna hazırız – və keçən təşrini-əvvəldə [oktyabrda] dərmiyan etdiyimiz şəraiti [irəli sürdüyümüz şərtləri] qəbul eyləmək arzu edərlərsə, kəndiləri də vazeh şərait [açıq şərtlər] dərmiyan eyləməlidirlər. Biz keçən təşrini-əvvəldə dərmiyan etdiyimiz təklifə mərbut [bağlı] qalırız. Buna müqabil Düvəli-Mərkəziyyə dəxi sərih [açıq-aşkar] təkliflər dərmiyan etməlidirlər.”*

Nəticə yenə eyni oldu. Alman qərargahi-ümumisi təklifi-vaqeni [edilən təklifi] şiddətlə rədd etdi.

1917 sənəsi martında sarayi-imperatoriyə mənsub bəzi məhafil [dairələr] tərəfindən üçüncü bir təklif vüqu buldu. Qəbuldan imtina edən yenə alman qərargahi-ümumisi oldu. Bundan bir həftə sonra Rusiya ixtilalı zühur etdi və çar xəl edildi [taxtdan salındı].

1917 sənəsi nisanın [aprelin] 26-da çar ailəsinin bəzi ərkanı tərəfindən müxtəlif kimsələrin dəlaləti ilə yeni bir təklif daha vüqu buldu. Bolqar kralının Müttəfiq hökmdara vaqe olan müraciati-əkidəsi [təkidli müraciətləri] və kont Çerninin kral Şarla təqdim etdiyi müxtirə [yazılı qeyd] vəziyyətin Vyanada və Sofiyada qayət eyi mühakimə edildiyini isbat edir. Məmafih [buna baxmayaraq] Lüdendorf rədd xüsusunda israr etmiş və ümumi sülhün təəssüsünə mane olmuşdur.





## QƏZETƏLƏRDƏN

**İtaliya-Serbiya**

- Serbiya ilə İtaliya arasında olan münasibat kəskin bir halda qalmaqdadır. Dalmaçya məsələsi rəyi-amm [referendum] ilə həll ediləcəkdir. Dalmaçya sərhədində İtaliya güclü dəstələr saxlamaqdadır. Bütün Serbiya ordusu silah altındadır. Romaniya ilə Serbiya arasında olan Banata məsələsi belə görünür ki, Banatanın Serbiyaya mülhəq olması [birləşməsi] ilə həll ediləcəkdir.
- Verilən xəbərlərə görə, İtaliya Müttəfiq dövlətlərə çatan Avstriya donanmasının yarısının Serbiyaya verilməsi əleyhinədir.
- İtaliya hökuməti Serbiyaya xəbər vermişdir ki, hərgah 7 günün müddətində Serbiya əsgərləri Dalmaçya sərhədindən çəkilməsələr, İtaliya özünü Serbiya ilə müharibə halında hesab edəcəkdir.
- Berndən xəbər verirlər ki, Serbiya ilə İtaliya arasında olan siyasi münasibat qət edilmişdir [kəsilmişdir]. Nümayəndələr geri dəvət edilmişlərdir.

**İngiltərənin borcu**

Boldvinin Avamlar Kamerasındakı deklarasiyasına görə İngiltərənin milli istiqrazı [borcu] fevralın 1-ə qədər 182 milyard 350 milyon frank miqdarında imiş.

**Petroqradda adam əti yeyirlər**

Şimal-qərbi cəbhə komandanı general Yudeniçdən Baş komandan namına alınan bir məktubda Petroqradın şimdiki əhvalı haqqında dəhşətli xəbərlər yazılmışdır. Petroqradda aclıq o dərəcəyə çatmışdır ki, əhali adam əti yeməkdədir. Bu əti də çinlilər bazarda dana əti adına satırlar. Bu ət güllələnən adamların ətidir.

**Biçeraxovun dəstəsi**

Aprelin 10-da Kuban nahiyə idarəsində hökumət rəisi Suşkov Biçeraxov dəstəsi haqqında məruzədə bulunmuşdur. Onun dediyinə görə, Biçeraxov dəstəsi Bakıdan Kubana getməli imiş. Lakin Batumda ingilislər dəstə naçalnikinə demişlər ki, dəstənin silahını təslim etməlidir. Bu silah da Soçi hadisəsi təsviyə edilənə [aradan qaldırılana] qədər Gürcüstan cəbbəxanalarında, dəstənin öz qaraqolu altında saxlanmalıdır. Dəstə naçalniki ingilislərə demişdir ki, uzun müddət ingilislərlə yanbayan müharibə edən dəstə öz silahını heç kəsə verməz. Bu əhvalatdan sonra dəstə naçalniki müavinət [yardım] üçün Cənubi Rusiyada olan müsəlləh [silahlı] qüvvə Baş komandanlığına müraciət etmişdir. Müxabiratdan [xəbərləşmədən] sonra aprelin 4-də ingilislərdən məlumat alınmışdır ki, Biçeraxov dəstəsi silahı ilə bərabər Novorossiyskə gedə bilər. Aprelin 10-da dəstə Novorossiyskə varid olmalı [çatmalı] imiş. Oradan da Yekaterinodara gedəcəkdir.

**Qafqaziya üçün mal**

İngiltərənin "Kunard Layn" nam paraxod cəmiyyətinin Tiflisdəki nümayəndəsinə simsiz teleqrafla xəbər verilir ki, İngiltərədən üç paroxod çıxmışdır. Bunlar Qafqaziya üçün cürbəcür mal gətirirlər. Bugünlərdə paroxodlar Batuma varid olacaqdırlar [çatacaqlar].

**Soçi nahiyəsində üsyan**

Tiflisdə alınmış məlumata görə, Soçi nahiyəsində Könüllü ordu komandanlığına qarşı əhali üsyan eyləmişdir. Bu üsyana Könüllülərin irticakaranə hərəkətləri bais olmuşdur. Eşitdiyimizə görə, gürcülər Könüllü qoşunu neçə mənzil qovmuşlardır.

## DAĞISTAN ƏHVALI

**Dağıstanlılara kömək**

Dağıstanlılar fraksiyaları bürosu sədri Əhməd Tsalikov və Tersk oblastı Xalq Şurasının sabiq sədri Y. Boqdanov tərəfindən Gürcüstan Demokratik Cümhuriyyəti hökumətinə bu aşağıdakı məzmunda bir ərzhal verilmişdir:

*"Dağıstan millətləri və Şimali Qafqaziyanın rus əhalisi, kəndlilər və fəhlələr böyük Rusiya inqilabının fütuhatını [nailiyyətlərini] üzən və millətlərin milli istiqlaliyyət şuarına rişxənd edən Denikin dəstələri mübarizəsində qan axıtmaqdadırlar. Şimali Qafqaziyada Zaqafqaziyanın müqəddəratı həll edilir. Bilatəxir [təxirəsalınmadan] ciddi hərəkat zamanı çatmışdır. Şimali Qafqaziyanın rus əhalisi dağıstanlılara müavinət [kömək] üçün Zaqafqaziya demokratiyasına göz tikmişlərdir.*

*Şimalı Qafqaziyanın müsəlman və rus əhalisi namından azad Gürcüstan hökumətinə müraciət edib, hürriyyət və istiqlaliyyət mübarizəsində onlara kömək etməkdən ötrü aşağıdakı tədbirlərin ittixazını [tədbirlərin görülməsini] istida [xahiş] edirik:*

*1) Dağıstanlıların azadlığına və hüququna təcavüz edən Denikinin quldur dəstələri ilə mübarizə etməkdən ötrü dağıstanlılara qardaşlıq köməyi göstərmək üçün bilatəxir oraya göndəriləcək dəstə təchiz edilsin.*

*2) Şimali Qafqaziyanın hürriyyət və istiqlaliyyəti yolunda mübarizə etməkdən ötrü biz aşağıda imza edənlərə bütün Gürcüstan daxilində partizan dəstələri təşkilinə icazə verilsin.*

*3) Şimali Qafqaziyanın istiqlaliyyət və hürriyyəti uğrunda mübarizədən ötrü fond düzəltməkdən ötrü Gürcüstanın hər yerində ianə yığmaq, konsert, mühazirə və başqa tədbirlər görülməsinə icazə verilsin."*

## TÜRKLƏR HAQQINDA

Fransız qəzetələrindən "Över" qəzetəsi Türkiyə haqqında aşağıdakı məqaləni dərc eyləmişdir:

*"Hökuməti-Osmaniyyənin hal-hazırdakı əqsamında [hissələrində] hakimiyyət və əmniyyəti tamamən təmin edilməklə bərabər, eyni şəkli-idarə altında yaşayan digər millətlərə də mövcudiyyət və əmniyyətlərini inkişaf etdirməyə müsaid bir muxtariyyət bəxş olunacaqdır."*

İştə, Amerika rəisi-cümhuru Vilsonun əvvəla mütarikəyə [atəşkəsə] və bədəhu [ondan sonra] müsaliheyi-qətiyyəyə [daimi sülhə] əsas olmaq üzrə bilumum [bütün] dövlətlərə qəbul etdirdiyi proqramın 12-ci maddəsi yuxarıda dərc edilmişdir. Bu maddə hökuməti-Osmaniyyənin vəziyyəti-müstəqbələsini [gələcək vəziyyətini] vazehən [açıq-aşkar] təyin və təqrir eylədiyi [qərarlaşdırdığı] kimi, Etilaf [Antanta] dövlətlərinə proqramdakı digər məvadda [maddələrə] təmas etməksizin ixlal eyləyəmməyəcəklərini bir vəd və məcburiyyətdə təhmil etməkdədir [yükləməkdədir, boyunlarına qoymaqdadır].

Düvəli-Etilafiyyə [Antanta Dövlətləri] tədqiqati-muşikafanədən [həssaslıqla aparılan tədqiqatlardan] sonra bu yeni hüquqi-bəşər bəyannaməsini yalnız dənizlərin azadlığı haqqında bir qeydi-ehtiyat dərmiyan edərək [ehtiyat şərhi irəli sürərək] qəbul və təsvib etmişlərsə [bəyənmişlərsə] də, dənizlərin azadlığına mütəəlliq [dair] maddə haqqında Vilson ilə həmfikir olmadıqlarını söyləyərək, digər məvaddı eynən qəbul etdiklərini ima eyləmişlərdir ki, Amerika rəisi-cümhuru bunu bittəb [təbii olaraq] bir sənəd ittixaz etmişdir [saymışdır]. Şimdi Fransa, İngiltərə, İtaliya və Yaponiya bu proqramdakı maddələrdən birisini hökümsüz buraxmaq arzusuna düşərlərsə, sülhi-ümuminin müqavileyi-əsasiyyəsi təxrib olunmuş [ümumi sülhün əsas müqaviləsi pozulmuş] və beynəlmiləl əxlaq üçün bir şərti-əsli [əsas prinsip] olan vədə sədaqət xislətinə xəyanət edilmiş olmazmı?

Binaənileyh [ona görə], məqaləmizin balasına [yuxarısına, baş tərəfinə] nəql etdiyimiz 12-ci maddəni bir daha və kamali-diqqətlə oxuyalım. Maddə qısa, fəqət vazeh [açıq] bir surətdə tənzim olunmuşdur. Bu maddə hökuməti-Osmaniyyəyə qəbləlhərb [müharibədən qabaq] deyilsə belə, heç olmazsa 3 kanuni-sani [yanvar] 1918 tarixində sahib bulunduğu ərazi üzərində qəti bir hakimiyyət təmin etməkdə və bunun üçün də türk olmayan millətlər, yəni rumlar, ermənilər və kürdlərin mövcudiyyət və inkişaflarının təhti-zəmana [zəmanət altına] alınmasını və hətta siyasətən daima Babi-aliyə mərbut [bağlı] olmaq üzrə idari bir muxtariyyətə nail edilmələrini şərt qoşmaqdadır.

Rəis Vilsonun tərəfindən qayət səlis bir surətdə ifadə edilən məqsədi başqa bir surətlə təfsir etmək [yozmaq] qabil deyildir. Halbuki bu xüsus unutulmaqda və hətta həzf və ibtal edilməkdədir [pozulmaqda və ləğv edilməkdədir]. Bir çox həftələrdən bəri yunanlıların Şərqi Trakiya və qismən Bursa və İzmir vilayətləri üzərində bir haqqi-məşru və irsi [qanuni və irsi haqq] iddia eyləmələrinə müsaidə olunmaqda və ermənilərin mühəqqəq [qəti] surətdə əqəliyyətdə [azlıqda] bulunduqları dörd-beş vilayətdən mürəkkəb [ibarət] bir hökuməti-müstəqilə təşkil eyləmələri haqqındakı arzuları təşviq və təşci edilməkdədir [cəsarətləndirilməkdədir].

Dün isə daha irəliyə gedildi. Qəzetələr Sülh Konfransının yunan ümuru [işləri] ilə iştiğal edən [məşğul olan] komisyonu tərəfindən ümumi bir surətdə qərari-atinin ittixaz edildiyini [aşağıdakı qərarın qəbul edildiyini] yazdılar: *"Osmanlı imperatorluğunun külliyyən imhası [bütövlükdə məhv edilməsi], İstanbulun beynəlmiləl bir hala ifrağı [çevrilməsi] və*

*Anadolunun mərkəzində bir türk hökuməti təşkili."*

Şayani-təəssüf [təəssüfə layiq] olsun-olmasın, Vilson proqramı böylə bir şeyə qətiyyən müsaid deyildir. Bu proqram Osmanlı hökumətinin məhv və təxrib edilərək ənqazının [qalıqlarının] Anadolu içərilərinə atılmasına riza verməməkdədir. Bu proqram sadəcə rum və erməni millətlərinin düvəli-müəzzəmənin [böyük dövlətlərin] himayəsi və fəqət eyni zamanda hökuməti-Osmaniyyənin hüquqi-hakimiyyəti altında bilamüşkülat [maneəsiz, çətinlik çəkmədən] muxtariyyətlərini inkişaf etdirmələri xüsusunun təminini tələb etməkdədir. Binaənileyh [ona görə], Vilson prinsipləri ya külliyyən hökümsüz və yaxud qətiyyən vacibülicradır [icrası vacibdir]. Hökuməti-Osmaniyyənin müstəqil şəkli-idarə və hüdudlarını təyin edərkən məhəlli və mövzei təhqiqatda bulunmaq [yerli və regional şərtləri araşdırmaq] və əhalinin arayi-ümumiyyəsinə [ümumi səsinə, referenduma] müraciət eyləmək müvafiqi-ehtiyat və bəsirətdir [ehtiyata və uzaqgörənliyə müvafiqdir]. Əsasən millətlərin kəndi-kəndilərini idarə edə bilmələri üçün ən eyi çarə fikirlərini və arzularını rəy ilə izhar eyləmələri [səsvermə yoluyla bildirmələri] deyilmidir və bu üsul Hökumati-Mərkəziyyənin [Mərkəzi Hökumətlərin] təxlis [azad] edilən əqsamı [qisimləri] Sileziya, Pozen, Şlezviq və hətta Palatina haqqında pək münasibədd [hesab] edilməkdə ikən, hökuməti-Osmaniyyə üçün mövzuyi-bəhs olunmamaqdadır [dilə gətirilməməkdədir].

Pək müxtəlit əqvamın [qarışıq millətlərin] və aləmi-islamın sülh və səlamati mövzuyi-bəhs olan bir davada yalnız türkləri ittiham edənlər istema olunmaqdadır [dinlənməkdədir]. Ehtimal ki, müddəilər [iddiaçılar] hüsn-niyyət sahibidirlər, fəqət qəlblərindəki hissi-kin və hirs hesablarında yanılmalarını intac etməkdədir [hesablarında yanılmaları ilə nəticələnməkdədir].

Anadolunun səbur və mütəhəmmil [səbirli və dözümlü] türkləri – ki, əksəriyyət etibarı ilə idareyi-Osmaniyyəyə olduqca uzun müqavimətlərdən sonra il-haq edilmişlərdir [birləşdirilmişlər] – öncədən məhkum edilmişlərdir. Gərək Əbdülhəmidin və gərək qismi-əzəmi [böyük hissəsi] suriyalı, arnavud [alban], çərkəz və sairədən mürəkkəb [ibarət] ittihadçıların bütün xəta və günahları bunlara təhmil olunmaqda [yüklənməkdə] və Şərq məsələsinin bir qələmdə mətbuları tabe və tabeləri mətbu yapmaq [tabe olunanları tabe olana çevirmək, tabe olanları isə tabe olunana çevirmək; ağaları qula, qulları ağaya çevirmək] surəti ilə həll edilə biləcəyi zənn edilməkdədir.

Bütün dünyada böylə müamiləyə [rəftara] yalnız türklər hədəf olmaqda və bunun üçün türklərin bu cəzaya kəsbi-istehqaq eylədikləri [haqq qazandıqları] iddia və bu cəza bilamühakimə [məhkəməsiz] tətbiq edilməkdədir. Əgər bu naəhl və fəna rüəsaya [bacarıqsız və pis başçılara] ziyadə itaətə alışmış olan bu zavallı türk milləti də almanlar kimi müahidatı [sazişləri] parçalamış, hərbdə alçaqca vəsaiti-zalimanə istemal etmiş [amansız vasitələrə müraciət etmiş], mötəliflərə [Antanta Dövlətlərinə] namərdanə hücum eyləmişlərsə və bunların vücudu [varlığı] sülhi-cahan [dünya sülhü] üçün bir təhlükə təşkil edirsə, cəzadan müaf buraxılmalarını [cəzasız buraxılmalarını, əfv edilmələrini] tələb etməyiriz. Fəqət hər şeydən əvvəl bunun isbat edilməsi lazımdır. Gəliboludan və Səlanikdən gələrək türklərlə digər Şərq əqvamını [Şərq millətlərini] müqayisə edə bilən zabit və əsgərlər arasında türklərin əleyhində şəhadətdə bulunacaqlara təsadüf ediləcəyini zənn etməyiriz. Bizzat bizim generallarımız türklərin yalnız hərbdəki ətvari-alicənabanələrini [alicənab hərəkətlərini] deyil, bəlkə əfkari-mərdanalərini [mərdanə fikirlərini] də təqdir eyləməkdədirlər və bunlar Prins de-Linin yüz sənə əvvəl söylədiyi şeyləri təkrara amadə [hazır] bulunmaqdadırlar:

*"Əgər bir hökmdarın idareyi-keyfiyyəsinə [özbaşına idarəsinə] və bir qaç fəna sərkərdənin təhrikati-mütəmadiyyəsinə [daimi təhriklərinə] məruz olmasalardı, türklər dünyanın ən eyi insanları ola bilərlərdi."*

Bütün bunlar diplomatlarımızı, Vilson prinsiplərini ixlal edəmməyərək Şərqdə bir hərc-mərc iqa eyləyəcək [meydana gətirəcək] bir siyasət təqibində mütəənni və mütərəddid bulundurmağa [tələsmədən, yaxşı ölçüb-biçərək hərəkət etmək məcburiyyətində qoymağa] kafi deyilmidir?"

**AZƏRBAYCAN HAQQINDA SİYASİ VƏ TARİXİ MƏLUMAT**

Hökumət idarələrinin bizə qarşı üsulsuz quruluşu Azərbaycan türk xalqının yarımvəhşilikdə qalmasına bais olmuşdur.

Hökumət qəsdən xalqın cəhalətdə, bisavad və qaranlıqda qalmasına səy edirdi və bunun nəticəsində qətl, qarət, oğurluq, quldurluq artırdı.

Cinayət işlərimizin siyahısına baxan olsa, görər ki, köhnə hökumət dövründə həmişə cinayət işlərində məhkəmə müqəssirin təqsirini iki-üç dərəcə əskildib ki, bu, cahil, qanmaz adamdır. Halbuki yüz iyirmi il müddətində cəhalət və qaranlığı zail edib [aradan qaldırıb] camaata ibtidai də olsa savad öyrətmək və mədəni millətlərin bizim haqqımızdakı fəna fikrinin yanlış olduğunu göstərmək olardı. Çünki onlar bizə bələd olmadıqlarından, belə güman edirlər ki, quldurluq, qaçaqlıq bizim əsl adatımızdandır [adətlərimizdəndir]. Halbuki avropalılar bilmirlər ki, həmişə rus hökuməti bizim elmə, maarifə, mədəniyyətə çalışan adamlarımızı həbsə alırdı.

Ticarət, sənaət [sənaye], ləvazimat, xalqın səhiyyə işləri ən fəna halda qalmışdı. Bakının və bəlkə bütün Azərbaycanın sərvəti hesab olunan neft işlərinin də bir qədər tərəqqi etməsi genə xaricilərin sərmayə və makinası hünərilə meydana çıxmışdır.

Siyasi, ictimai, iqtisadi əhvalımız ən fəna bir halda idi. Rus hökuməti və rus padşahlığı bizə ögey ana, biz isə ona ögey övlad mənzələsində [yerində] olmaqla, bizə qarşı icra edilən hüquqsuzluğun müqabilində bir quru etiraz yeri qoymamışdı. Əlbəttə, bir [gün] tarixin bitərəfanə məhkəməsi bir əsrin ərzi-müddətində millətimizin maddi və mənəvi həyatını zəhərləmək kimi böyük bir xəyanətlə bəşəriyyətə cinayət etmiş olanları özü mühakimə edər.

Neva kənarında füqərayi-kasibə [proletariat] çəkicilə istibdadın başı əzildiyinə baxmayaraq, qol-qanadı kənar vilayətlərdə hələ məhv olmayıb, öz hərəkətlərilə bizə hürriyyətin fütuhatından [azadlığın nailiyyətlərindən] lazımınca feyziyab olmağa mane olurlar.

Ədalətsizlik və zülüm bu qayda ilə 1905-ci sənəyə, yəni Rusiya və Yaponiya müharibəsindən sonra Rusiyada vaqe olmuş [baş vermiş] inqilabadək davam etmişdi. Bu inqilab hərəkəti zamanında tətillər vüqu bulmuş və qurultaylar çağırılıb əhali tərəfindən hökumətə qəti surətdə siyasi təkliflər edilmişdir.

Fəqət Rusiya istibdad hökuməti Qafqaziya millətlərinin gözün[ü] bu siyasi hərəkətdən yayındırmaq qəsdilə, yəni "Böl və hökmranlıq et!" şüarı ilə öz hiylə və xəyanəti hünərilə bədbəxt müsəlman və erməni millətinin arasında milli davanı salıb, hər iki tərəfdən yüz minlərlə can tələfatı və yüz minlərlə xaniman xəsarəti olub, hökumət kəndisi də bu xüsusda və bu davanı yatırmaq üçün heç bir şiddətli tədbirə təvəssül etmədi [əl atmadı]. Onsuz da çox yaman gün keçirən müsəlmanların əhvalı və həyatı günü-gündən fənalaşır, təhəmmül olunmaz [dözülməz] bir hala düşür. Yenə həman bədbəxtanə milli davanın nəticəsi olaraq o qanlı faciə indi də İrəvan, Gəncə vilayətlərinin bəzi yerlərində davam etməkdədir. Bu vuruşmalarda müsəlmanlar təşkilatsızlıqdan, əsgəri nizam görmədiklərindən ermənilərdən daha artıq can və mal tələfat və xəsarətinə düçar oldular. Lakin ermənilər milli təşkilatlarının və gördükləri əsgəri nizamın səbəbinə az xəsarətlə çıxdılar.

Bu qardaş davasını[n] daha əvvəlinci dəfədə önünü almaq və onu bilmərrə [birdəfəlik] kökündən kəsməyə hökumətin imkanı və qüvvəsi vardı. Fəqət məəttəəssüf [təəssüf ki], bir dəfə əkilən toxumdan hər dəfə sünbül çıxacağı təbii oldu. Bu cürə əhval 1914-cü sənəyə qədər, yəni Cahan müharibəsinin başlanmasınadək davam etdi. Cahan müharibəsinin başlanması ilə müsəlmanlara qarşı fitnə və fəsad çoxalmağa başladı. Öylə ki, Cahan müharibəsi elan olundu, müfəttinlərin [fitnəkarların] fəaliyyəti Qafqaziya cəbhəsindəki ordunun içərisinə qədər sirayət etdi və bu ordudan bir firqə ayrılıb cəbhə yaxınlığında sükunət edən Acara müsəlmanlarının üzərinə hücuma keçdi və hücumun nəticəsi olaraq Qars və Batum nahiyələrində yüz minlərlə müsəlman xanimanının dağılmasına, qanlarının nahaq yerə tökülməsinə, ah və fəğanlarının ərşə çıxmasına, yurdlarından avara düşməyinə səbəb oldu. Zülüm və istibdad kitabının səhifələrində həmin bu müsibət yazıldı.

Keçirdiyimiz hadisələr Cahan müharibəsinin – ki, 1914-cü sənədə, iyul ayında başlamış və indi təzəcə axıra yetişməkdədir – həman müharibənin bir qığılcımıdır. İyirminci əsrdə tərəqqipərvər hesab olunan cəngcu [davakar] avropalılar Cahan müharibəsində göstərdikləri vəhşilik və qaniçicilik ilə özlərinə tarixdə ad qazandılar.

Sülh və asayiş zamanı Avropa nə qədər gözəl və nə qədər salim isə, öylə də müharibə zamanında mənfurdur ki, əsrlərdən bəri mədəniyyətin və böyük zəhmətlərin icadı və böyük səmərəsi olan cəhənnəm atəşli makinalar icadçılarını və uzun müddət üstündə zəhmət çəkən insanları bir türfətüleyndə [bir göz qırpımında] məhv etdi. Cəsarət edib onları cəhənnəm makinaları adlandırıram. Fəqət şübhə edirəm ki, cəhənnəmdəki hərarət və atəş ən böyük günahkar dəstəni yandırdıqda bu payəyə çatmasın ki, indiki cəngcular yerdə və havada, suyun üstündə və altında və bütün dünyanı bittamam [tamamən] odla doldurmuşlardır. Əskidən bəri yer üzündəki millətlərin müharibəsi, bir-birinin itlafına [tələf olmasına] çalışmaları fələyin təbii qanunlarındandırmı, yaxud insan zürriyyəsinin [nəslinin] müvazinəsini bir dərəcədə saxlamaqdanmıdır, yainki doğrusu bir tövqilənətdir [lənət halqasıdır] ki, insanın boğazına keçib və bilməz ki, nə vaxtı ondan azad ola biləcəkdir. Deyəsən, bu öldürücü bəladan xilas olmağa nicat yolu görünür. Bütün bəşəriyyət fəlakətdədir və qədimdən irs qalmış bu məlun [lənətli], mənhus [uğursuz] müharibələr nəhayət unudulsun gərək.

İndi insaniyyətpərvər olan Amerika rəisi-cümhuru Vilson və onun ilə həmməslək və həmfikir olan zatların [şəxslərin] təşəbbüsü ilə bəşəriyyətin qarşısında işıqlı və salamat yollar açılmaqdadır.

Əgər Vilson cənablarının məramnaməsi və nəzəriyyatı Parisdəki Cahan Sülh Konfransı məclisində keçərsə, şübhəsiz vəhşiyyət üzərinə nuraniyyət böyük zəfər çalacaqdır. Məəttəəssüf [təəssüf ki], bu iki hal və sifət, yəni vəhşiyyət ilə nuraniyyət hər ikisi də insanın qəlbində məskən salmışdır. Atilla və sair cahangirlər kəskin qılınclarının parıldamasına məst olub düşünmədilər ki, onların tənəli yolları insan qanına bulaşmış və onlara heykəl və mücəssəmə [abidə] qoymaq xatirəsi olarsa, təbii, insan kəllələrindən olacaq. Bu insanı qıranlar və insanı min cürə rəzalətə və təhlükəyə düçar edənlər hiss etmədilər ki, insanın üzərinə çaldıqları ən böyük qələbə, eyni zamanda ən müqəddəs fikir və əməllərin [arzuların] məğlubiyyətidir.

İndi təzə fatehlərin dəstəsi meydana çıxmış, fəqət bu fatehlər zənn olunduğu üzrə insana qənim, onları qıranlar, yaxud sərkərdələri bellərində poladdan qılınc bağlayıb mübarizəyə çıxanlar olmayıb, bəlkə insanın hüququnu müdafiə edənlər və hətta o müqəddəs kəlmələrin təbşirinə [müjdəsinə] qalxanlardırlar. Müqəddəs və gözəl əsaslar həyata keçib bəşəriyyətin yalnız zindəganlıqlarını [yaşayışını, dolanışığını] gözəlləşdirəcəkdir.

Cahan müharibəsinin qızğın vuruşması içində Rusiyanın böyük hürriyyət inqilabı 1917-ci sənədə mart ayında zühur etdi. Tarixin çarxı yüz illik ağır və vüsətli dövrünü məşəqqətlə tamama yetirib, genə bizə itirdiyimiz istiqlaliyyəti qaytarıb təslim etdi. Gəncə qalasının meydanında əvvəldən Xan məscidi olub sonradan, 1804-cü sənədə Oruc bayramı günü Gəncə qəhrəmanlarının qanı ilə bulaşmış və daha sonra kəlisaya [kilsəyə] döndərilmiş məbədxana genə hürriyyətin nəticəsi və zühuruna görə 1917-ci sənədə Novruz bayramı günü həman meydanda və həman məscid üzərində azadəlik bayrağı qaldırıldı.

Rusiyada yaşayan bilümum [bütün] əhali zənciri-əsarətdən xilas olduqları cəhətdən şad oldular və bunlarla bərabər Rusiya sərhədlərindən o üzdə ya-

şayan millətlər – ki, daima Rusiya cahangirlərinin hücumuna məruz qalırdılar – onlar da şad oldular. Misal üçün götürəlim Keyxosrovun, Keykavusun, Firdovsinin, Sədinin, Hafizin, Xəyyamın və sair müqəddəs zatların vətəni və yurdu olan qoca İran səltənəti ki, asudə nəfəs almağa imkan tapdı.

Cahangirlərin qoca İranın bədəninə batmış zəhərli dişləri axırda inqilab kəlbətini ilə çəkilib çıxarıldı. Tehrandakı Millət Məclisinin dağıdılması, bəzi Məbusan [Parlament] əzalarının [üzvlərinin] asılması, aşura günü hürriyyətpərvər mücahid və müctəhid Siqqətülislamın boğazına Təbrizdə ip keçirilməsi və ən axırda cümlə müsəlmanların müqəddəs ziyarətgahı olan Xorasandakı İmam Rza əleyhissəlamın rövzeyi-mübarəki həyasızcasına topa tutulması ümid edirəm heç vaxt və heç bir zaman müsəlman aləminin xatirindən çıxmayacaqdır.

Bizim millətimiz ümumi və insaniyyət bayramında iştirak etməyə qalxmadan, ağır zəncirdən boynunda qalan yaraya bir dəfə azad əl çəkmədən, dərhal bədxahlarımız bizi irticaçı, əksinqilabçı, hətta müsəlmanların silahlanıb da rusları qıracaqları kimi fitnə və fəsadları hər tərəfə yayıldı. Nahaqdan yayılan bu cürə böhtanların nəticəsi olaraq hürriyyətin işıqlı günləri bizə qarşı qaranlıqlaşdı. Zülüm, qətl və qarətə şüru edildi [başlandı]. Bunları quranlar, icra edənlər həman saldat əlbisəsinə girib milli ədavət üzrə yapan mütəəssiblər [təəssübkeşlər] oldu.

Hərb cəbhəsindən qayıdıb dəmiryollarla evlərinə rəvan olan saldatlar qabaqlarına rast gələn Azərbaycan türk xalqını atəşə və qılınca tutdular. Bunlarla bahəm erməni ordusunun da hissələri, özlərini bolşevik, menşevik və srednevik adlandıranların hamısı bu işdə iştirak edirdilər. Bu cürə hərəkətlərin nəticəsində axırda Bakıda 1918-ci sənədə Mart hadisəsi vaqe oldu və bu hadisədə 10 min Azərbaycan paytaxtının əlsiz-ayaqsız əhalisinin qanı axıdıldı.

Məəttəəssüf [təəssüf ki], bu qanlı faciədə başıpozuq rus saldatlarından savayı Bakıdakı erməni ordusunun saldatları da nədənsə birdən-birə dönüb bolşevik olub, bolşevik bayrağı altında iştirak etməkdə idilər.

Qəribə burasıdır ki, Bakıdakı erməni qoşunları üzlərinə tutduqları bolşevik maskasının rəngi hələ qurumamış, öz zərbələrini birinci növbədə müsəlman zəhmətkeş və fəhləsinin üzərinə saldırdılar. Bəs o zamanda demokratiyanın böyük əsaslarını özlərinə şüar və əsas ittixaz [qəbul] edən cənablar nərədə idi ki, paytaxtımızın küçələri fəhlə meyitləri ilə dolu idi? Məgər vaxt və zaman yetişməmişdir ki, üzlərindəki maskalar kənara atılıb sədaqət və qardaşlıqla birbirinə yardım edib, xırda millətlərin rifahi-halı və səadəti üçün müttəhid [birgə] işləsinlər? Aşkardır ki, erməni qoşunu bolşevik adı və bayrağından istifadə edib milli ədavət üzərindən müsəlmanlara atəş açmışlardır.

Şübhəsiz, erməni qoşununun bu cürə düşmənanə hərəkəti iki qonşu millətin arasında dostanə əlaqə əmələ gətirməsinin daha da çətinləşməyinə meydan açdılar. Halbuki bu iki millətin anlayıcı və salim [sağlam] fikirli ziyalıları daima sülh və müsalimətlə [əmin-amanlıqla] yaşamağı arzukeş olmaqla sədaqətlə bir-birilə müttəfiqən işləmək niyyətindədirlər. Fəqət heyhat ki, həman yaraları qurdaladılar ki, onlar yavaş-yavaş sağalmaqda idilər.

(Yenə var)

*Adil xan Ziyadxan*

**ODESSANIN SON GÜNLƏRİ**

Bolşeviklər Odessanı aldıqdan sonra iki gün orada qalmış və bugünlərdə Bakıya varid olmuş [gəlmiş] bir şəxs Odessanın son günlərini böylə təsvir edir:

Aprel ayının 2-də şəhər asudə idi. Həman gün axşam "Veçerniy ças" qəzetəsində Cənubi Rusiyada olan Müttəfiq qoşunların Baş komandanının elanı dərc edilmişdi. Baş komandandan həman elanda Müttəfiqlərin Odessaya ərzaq yetirmək imkanında bulunmadıqlarını, ona görə də Odessadan işsiz ünsürlərin çıxarılacaqlarını bildirirdi. Aprelin 3-də Odessada çıxan qəzetələr ağ sütunlarla nəşr edilmişdi. Fəqət bu əlamətdən Odessa əhalisi, Klemanso Kabinəsinin düşdüyünü və bolşevizim ideyasının orada faiq [üstün] gəldiyini onsuz da bilirlərdi. Böylə ağ sütunlar ilə qəzetələrin çıxması Odessa əhalisini şübhəyə salıb, banklara hücum edirlər ki, oradan pullarını alsınlar. Bu xəbərlər çıxdıqdan sonra çörəyin girvənkəsi 40 manata qalxır. Kerenskinin minlik pulları üç-dörd min Ukrayna puluna satılmağa başlayır. Saat 2-də Müttəffiqlərin və Könüllülərin qitəatı [hərbi hissələri] vağzaldan iskələyə tərəf gəlməyə başlayıb, sonra paroxodlara əyləşirlər.

Axşam general D'Anselmin elanları nəşr olunur. Guya Fransadan alınan əmrnaməyə görə, Müttəfiqlər komandanlığı Odessanı tərk eyləməyə məcbur olmuşlar.

Şəhərdə həyəcan son nöqtəsinə varmışdı. Axşam saat 5-də Əmələ Şurası əxbarnaməsi [xəbər bülleteni] nəşr olunur. O qəzetədə denilirdi ki, bütün mallar Odessada qalmalı, Könüllü dəstələr tərksilah edilməli, heç bir dövlətli şəhərdən çıxmamalıdır.

General D'Anselm cavab vermiş ki, Fransanın namusu fransız qoşunları ilə yan-yana müharibə edən Könüllü saldatların tərksilah edilməsinə heç bir vaxt müsaidə verməz. Buna cavab olaraq əmələlər ümumi tətil elanı ilə qəzetədə nəşr etmişlər ki, nə bir qətrə su, nə də bir girvənkə çörək şəhərin burjuaz hissəsinə verilməyəcəkdir. Eyni zamanda cəbhədə qalmış olan Romaniya, polyak, yunan qoşunları öz ərkani-hərbləri [qərargahları] ilə əlaqəni qeyb edib, başdanayağa silahlanmış əmələlər tərəfindən mühasirə edilib qətliama məruz qalmışlardır. Bu hissələrdən bəziləri şəhərə daxil olub küçələrdə Könüllü afserlərlə bərabər camaata olmazın zülmü edirdilər.

Bolşeviklərdən xilas olmaqdan ötrü iskələyə [limana] o qədər adam axmışdı ki, iskələ belə tanınmayırdı. Burada xuliqanlar və silahlı şəxslər durub, burjuyları soyundurub qarət edirlərdi. Axşam saat 10-da qəflətən dövlətlilər məhəllələrində elektriklər yanmağa başlamışdır və sonra məlum olmuş ki, general D'Anselm üsyan edən əmələlərin tələb-

lərini qəbul etməyə rizasını göstərmişdir.

Aprelin 5-də səhər Odessada yeni hökumət təşkil edildiyi anlaşılırdı. Hər yerdə, qarovulda Müttəfiq saldatları əvəzinə bolşevik qarovulları dayanmışdı. Baş poçtaxana, vağzalda al bayraq çəkilib şəhərin mühafizəsini Şura hökuməti, studentlər və yəhudi dəstələri öhdələrinə götürmüşlərdi.

Aprelin 6-da general D'Anselm elan etmişdi ki, Qafqaziya tərəfinə getmək istəyənlər ingilis paroxodlarına əyləşə bilərlər. Lodkaçılar və faytonçular bu köçhaköçdən istifadəyə başlarlar. İskələdən 200 sajen uzaqda durmuş olan paraxoda aparmaq üçün lodkaçılar adambaşı 4000 manat pul alırdılar. Faytonçular isə müxtəlif yerlərdən vağzala gətirmək üçün 2000 manatdan 2500 manatadək alırdılar. Bəzən faytonçular 5000 manat almışlardır. Bu məlumatı verən şəxs deyir ki, Odessada mehmanxanadan çıxdığında cibində 7000 rubləsi varmış. Fəqət paroxoda daxil olduqda 1000 rublə parası qalmış imiş. 6000 rubləni faytonçular, lodkaçılar almışlardır.

Odessada olan "Blaqorodnı institut"un qızları da köçürdülər. Müttəfiqlərin paroxodları Odessadan uzaqlaşdıqda al bayraq çəkmişlər imiş.

## AXISKA FƏLAKƏTİ ŞİDDƏTİLƏ DAVAM EDİR

Axıska müsəlman uyezdinin gürcülər tərəfindən zəbti tamam ay yarımdır. Bu qədər uzun müddətdə hərəkati-əsgəriyyə durdurulammamışdır. On minə yaxın qoşun müsəlman kəndlərində, şəhərdə saxlanılmaqdadır. Guya Ərdahan tərəfindən müsəlmanlar hücum edirlər bəhanəsilə gün-gündən Qars torpağında irəliləməkdədirlər.

Bütün uyezd əsgəri idarə altındadır. Gürcülərin irəliləməsinə, Ərdahan, Oltu kimi sırf türk yerlərini zəbt eyləmələrinə ingilislər aşkar surətdə yardım edirlər.

İki-üç ay əvvəl, müsəlmanlar tərəfinə meyl göstərib Sərvər bəyə və onun hərəkətinə mənən yardım edən ingilislər bu gün əks tərəfi, gürcüləri alqışlayırlar.

Bir neçə ay müqəddəm [qabaq] ingilislərin gülər üzlərinə, tatlı sözlərinə inanan, onlardan mərhəmət və himayə gözləyən biçarə axıskalılar bu gün ingilislərin gözləri qabağında talan, qətl və məhv edilirlər.

Yüzə yaxın müsəlman kəndi tamamilə soyulub soğana çevrilmişdir. 30-40 min kəndli bu gün ac, bir qəpiyə möhtac qalmışdır. Bu qədər min nüfusun bütün yeyəcək buğdası, unu, öküzü, inəyi, qoyunu, atı, eşşəyi, yatacaq döşəyi, qabıqazanı tamamilə gürcü əsgərləri və köylüləri tərəfindən talan və yəğma edilmişdir. On köydə su gətirəcək bir eşşək, yumurta qoyacaq bir tavuq buraxılmamışdır.

Bütün camaatın son qəpiklərinə qədər zorla alınmışdır. 30-40 min kəndli bir aydan bəridir ki, tamamilə boş, qismən yaxılmış evlərində torpaq və taxta üstündə yatmaqda, ölməyəcək qədər ordan-burdan bir zad tapıb, yarımac bir halda vaxt keçirməkdədirlər. Son vaxtlarda isə uzun aclığa təhəmmül edə bilməyib [dözə bilməyib], çoxu cürbəcür naxoşluqlara tutulur, gündə onlarca tələf olurlar.





Əgər böylə gedərsə, az vaxtda camaatın çoxu tələf olar və bu surətlə Ramişvilinin planı zəhmətsizcə meydana gəlmiş olar.

Bu gün Axıskadan min zəhmətlə qaçıb Tiflisə, oradan da Gəncəyə gələn bir şəxs böylə anladırdı:

*"Müharibə vaxtı yenə yaxşı idi. İnsan ya öldürür, ya ölür və ya əsir olurdu. Şimdi isə camaat çəkilməz bir bəla, ölümdən də betər bir fəlakət içindədir. Yeyəcək yox, yatacaq yox, geyəcək yox, çocuq ağlayır, ana inləyir, ata düşünür. İmdad, bir tərəfdən imdad yox, hər kəs bir halda, hər kəs ac, hər kəs qeyrinin əlinə baxır. Hər kəsin ciyəri yanıq, hər kəsin gözü yaşlı, hər kəsin boynu bükük, ümidi sönük, ruhu düşükdür. Heç kəs evindən çıxıb bağçasına, tarlasına gedə bilməyir. Gürcü köylüləri müsəlman bağçalarındakı meyvə ağaclarını tamamilə çıxarıb götürürlər. O gözəl Axıska bağçalarını məhv edirlər.*

*Kimsənin mane olmağa həddi yox.*

*Daima dövlətli müsəlman kəndlilərinə möhtac olan ac gürcü köylülərinin anbarları taxıl ilə, axırları heyvan[la] doldu. Müsəlmanlar gecələri rahat yatmağa belə həsrət çəkirlər. Gürcü əsgərləri, gürcü köylüləri gecələri dəstə-dəstə gəzirlər. Mərkəzdən uzaq köyləri bir gecə olsun rahat qoymayırlar. Axtarmaq bəhanəsilə zorla qapıları açdırırlar. Qalmış, saxlanmış son qəpiklərini də alırlar. Bəzi yerlərdə kişilərini dustaq bəhanəsilə bir evə və ya axıra doldurub qapılarını bağlayırlar. Sonra qız və gəlinləri bu evə yığıb iffətlərinə vəhşiyanə təcavüz edirlər.*

*Hasili, bu gün Axıska camaatı bir haldadır ki, çoxu ölümü həyata tərcih edir və vaxtilə əldə silah müdafiə edib ölmədiklərinə min dəfə peşman olurlar."*

Budur, sosialist Ramişvili Hökumətinin və müsəlman dostu gürcülərin müsəlman kəndlilərinin, demokratiyasının [xalqının] başlarına gətirdikləri bəla və fəlakət!

Budur, sosialist maskası altında oynanan ən mənfur millətpərəstlik!

Budur, Nikolayın kazaklarından daha vəhşiyanə rəftar edən demokrat gürcü qoşunu!

Hökumət Axıska fəlakətini yüngülləşdirmək üçün iki milyon pul buraxdı. Lakin bu iki milyon bu zamanda nə puldur? İki milyon bircə Azqur köyünün zərərini ödəyəmməz. Halbuki, ölməmək üçün boş çörəyə möhtac olan köy, bir-iki, on deyil, yüzə yaxındır. Hökumət ciddi müavinəti [köməyi] düşünməyib iki milyon ilə iktifa [kifayət] edərsə, göz görə müsəlman camaatının qırılmasını arzu edir və bu iki milyon da göz boyamaq üçün verilmiş bulunduğunu söyləməyə haqq qazanmış oluruz.

Ümidvaram ki, gürcü əfkari-ümumiyyəsi [ictimaiyyəti] Ramişvili siyasətinə qarşı izhari-nifrət ilə Axıska köylülərinin həyatını düşünər, haqlarında həqiqi vətəndaşlıq məhəbbətini göstərər.

*13 mart, Gəncə*
*Ümidvar*

## BAKI BƏLƏDİYYƏSİNƏ DAİR

Qafqaz şəhərləri arasında öylə bir şəhər yoxdur ki, idarəsi bizim Bakı şəhəri

kimi bir çox şöbələrə bölünsün. Məlum olduğu üzrə Bakı Bələdiyyə İdarəsi (upravası) yeddi-səkkiz şöbəyə təqsim edilmişdir [bölünmüşdür]. Hər şöbənin bir rəisi (idarə əzası) və hər rəisin də özünə məxsus kargüzarı və dəftərxanası mövcuddur. Böylə ki, Bakı upravası biri-birindən ayrı yeddi-səkkiz müstəqil dəftərxanaya malikdir. Hər dəftərxananın yazıçıları, maşınçıları, dəftərçiləri və sair ənvai [cürbəcür] məmurları mülahizə olunsa [nəzərə alınsa], burası uprava deyil, Belçika kimi bir balaca hökumətin müəssisələridir ki, guya hamısı bir böyük imarətə cəmləşmişlərdir. Filhəqiqə [doğrudan da], həştad üç milyonluq məxaricə möhtac olmuş bir idarəyə upravamı yoxsa "balaca hökumət"mi demək səzadır [münasibdir]? Rusiyanın hangi bir şəhəri bir bu qədər məxariclə idarə olunur?

Bakı şəhəri 300 min nüfusa [əhaliyə] malikdir. Böylə olan surətdə həştad üç milyon məxaricdən hər nəfsə [adama] 300 manata qədər pul düşür. Bir bu qədər böyük məxaricə ümdə səbəb bahalıqdır deyə iddia edənlər az deyildir, lakin məncə buna bais bir bahalıq deyil. Sair səbəbləri də vardır ki, sabiq rus hökuməti dövründən belə müşahidə olunur.

Əvvəla, Bakı qlasnılarının şöhrətpərəstliyi Yevropada belə məşhurdur. Ad qazanmaq üçün bir manatlıq məxarici istərlər ki, beş-on manatla tamam etsinlər.

Canişinin qərargahı Tiflis şəhərində qlavaya [Bələdiyyə İdarəsi sədrinə] dörd-beş min manat məvacib təyin edildiyi zamanlarda, Bakı qlasnıları Kursk şəhərindən Rayevskini gətirdib ildə 20 min manat məvacib verirdilər. Halbuki o vaxtlar böylə məvacibləri ancaq vüzəra əhli [nazirlər] ala bilirdi.

İkincisi, bir şəxsin vəzifəsini iki-üç və hətta dörd kişi arasında bölüb, hər birinə bir "uşaq payı" vermişdilər. Odur ki, bu gün uprava xidmətçilərinin ədədi onlarla deyil, yüzlərlə sayılır. Məşğuliyyətin azlığı bir dərəcəyə gəlmişdi ki, uprava şöbə rəisləri saat 12-dən irəli təşrif gətirməzdilər.

Hər rəis öz tərəfdarları üçün təbii və qeyri-təbii vəzifələr icad edərək "uprava qutabxorlarının" ədədini bir dərəcəyə gətirmişlərdir ki, bu gün onların məsarifinə həştad üç milyon manat pul tələb olunur. Təzə hökumətə "sədaqət" göstərmək məqsədi ilə Bakı Bələdiyyə İdarəsi neçə ay bundan irəli əhaliyə elan etdi ki, bekar xidmətçiləri kənar edəcəkdir. Upravanın bu hərəkatından nə hasil oldu? Rəvayətə görə, bir bu qədər xidmətçilərdən ancaq 8 nəfəri məzul [işdən azad] olunmuşdu!

İştə, hökumətin maddi müavinətinə möhtac qalmış uprava bir qədər pul hasilatı üçün bu üsulu icad edib, adına da "ştat ixtisarı" dedi. Pul verildi, upravanın da bir-iki aylıq ehtiyacı rəf olundu [aradan qaldırıldı].

Lakin bununla iş bitmədi. Hər ay yeddi milyona qədər məsarifə möhtac qalmış uprava daha artıq cürətlə meydana atılıb bu dəfə hökumətdən otuz beş milyon pul istəyir ki, buna şəhər mədaxillərini də əlavə edərək, bir tövr bu ili başa verə bilsin.

Fərz edəlim ki, hökumət buna razı oldu. Bakı upravası hökumətin müavinəti ilə dekabr ayınadək yaşaya bildi. Sonra nə olacaq? Hökumətin pul sandığına ümid bağlamış Bakı upravası yenəmi ayağını yorğanına tən uzatmayacaqdır? Sonrakı il də bu minval ilə keçərsə, bir bu qədər borc altına girmiş upravanın halı necə keçəcəkdir?

Bir bu qədər məxaricin müqabilində Bakı upravası fəal bir uprava olsaydı, çəndan da [o dərəcədə də] camaatımıza əsər etməzdi. Amma çifayda həştad üç milyon məxaricli upravamız özünü heç bir fəaliyyətlə büruzə verməyir, bər-əks [əksinə], upravanın fəaliyyətsizliyi bir dərəcəyə gəlmişdi ki, onun özünə məxsus vəzifələri sair müəssisələr icra edirlər. Məsələn, indiyə qədər upravanın bir çox vəzifəsini "Sentrodom" adlı Mərkəzi Ev Komitəsi olan bir idarə qəsb etmişdir. Bununla belə, şəhərin kəsafət [çirkliliyi] və natəmizliyi bir dərəcəyə gəlmişdir ki, Səhiyyə Nəzarəti də o biri tərəfdən işə müdaxilə edib upravanı iş görməyə dəvət edir. Lakin uprava məhəlgüzar olmayıb [məhəl qoymayıb], inadlıqla hər dəfə işdən boyun qaçırır. Odur ki, Səhiyyə Nəzarəti upravanı bəzi məsələlərdə müttəhim edib, bir çox şikayətlər edir. Şikayətlərin ən böyüyü şəhərin küçə və bazarları kəsif [çirkli] saxlandığı üçün və buna dair uprava tərəfindən heç bir iş görülmədiyi cəhətə yayda xolera kimi müsri [yoluxucu] naxoşluqların zühur edəcəyi mülahizə olunur. Böylə bir təhlükə mübarizəsi məqsədi ilə Səhiyyə Nəzarəti uprava fəaliyyətindən məyus və naümid olaraq, axirüləmr [axırda] onun tamam sihhiyyə əmalını [gigiyena işlərini] müraqibə [nəzarət] və kontrol altına almışdır. Lakin bununla Bakı upravası yenə iş görməyə məcbur olmayacaqdır. Zira o, ölü meyit kimi uzanıb heç bir təşəbbüsatda özünü bildirməyir. Üç aydır ki, şəhəri tərtib və qaydaya salmaq üçün upravaya 500 min manat pul buraxılmışdır amma indiyə qədər yenə şəhərin küçələri məşhur məzbələlər [zibilliklər] kimi dayanıb durmaqdadır. Buna kontrol deyil, hökumətin fövqəladə təftişatı (Сенаторская ревизія) lazımdır ki, bu ətalətin səbəbi meydana çıxsın. Görünür ki, upravaçı ağaların iki saatlıq dəftərxana məşğuliyyətindən başqa şəhərdən heç bir xəbərləri yoxdur. Madam ki, acların qeydinə Sentrodom və şəhərin təmizliyinə də Səhiyyə Nəzarəti çalışacaqmış, upravanın nə haqqı vardır ki, ildə həştad üç milyon pul xərcləyib şəhər əhlinin də heç bir dərdinə qalmasın. Sudan başqa Bakı upravası nəyə malikdir? Hanı Bakının telefonu, elektrik tənviratı [işıqlandırması], tramvayı, kanalları? Bəs bu qədər pullar nəyə sərf olunur? Barı dağlardan axıb şəhəri basan yağış sularına bir çarə aransın, bir sədd çəkilsin.

Hökumət bu işə müdaxilə etməyib heç bir şeyi söyləməzdən pul buraxsa, Bakı upravasının axırı ən fəna hallarla tamam olacaqdır. Onsuz da bu saat iş qorxulu görünür. Nə qədər təftişat tez yapılsa, bir o qədər də qarşımızdakı bəlanı tez rəf etmək [aradan qaldırmaq] mümkündür!

*Fərhad Ağazadə*

**GENƏ HAQSIZ BÖHTANLAR**

Bakı erməni daşnak firqəsi mürəvviciəfkarı [fikirlərini yayan orqanı] olan "Vperyod" qəzetəsi aprel 19 tarixli nömrəsində Göyçay uyezdinin [qəzasının] İva-

novka uçastokundan erməni Keşxurt kəndindən gəlmiş bir nəfərin rəvayətini bu yolda təsvir edir:

*"Bütün kəndlər dağılmış, erməni millət təhqir olunur. Zülümlər kəmakan* [əvvəlki kimi] *davam etməkdədir. Ermənilər öz işlərinə gedə bilməyib ölüm təhlükələrinə düçar olmaqdadırlar. Keşxurt kəndində hökumətin gözü qabağında bir erməni ailəsi qətl olunub, ev əşyası[nı] tamamən arabalarla Qubaxəlilli kəndinə apardılar. Hökumət əhəmiyyət verməyir. Məhəlli uçastok pristavı işə baxmayır. Hökumətin nəzər-diqqəti məzlum, bigünah erməni kəndçilərinin üzərinə dəvət olunur."*

Halbuki İvanovka nahiyəsində qətiyyən böylə bir şey olmamışdır və hökumət məmurları bu xüsusda ən ciddi tədbirlərə təvəssül etmişdir [əl atmışdır] ki, ermənilərin əhvali-siyasiyyə və ictimaiyyəsi təhvin olunsun [siyasi və ictimai vəziyyəti yüngülləşdirilsin]. Vaqedə [həqiqətdə] də belədir. Hər kəs öz iş və gücü ilə məşğuldur. İvanovkanın fəal pristavı Mustafayev həqiqətən dəyərli bir zat olub vətən və millət yolunda beş sənədən bəridir ki, mücahidlikdə bulunub, bir çox vətən müharibəsində fədakarlığı ilə şöhrət qazanmış, mücahid bir zabit olduğundan, bulunduğu mühit daxilində ədalətin ən nazik [həssas] nöqtələrini tətbiqdən çəkinməmişdir.

Əhali arasında müzirr [ziyanlı] fikirlərin bu surətlə olan asudəlikdən müzirr və fitnəəngiz [fitnəkar] bir vəziyyət alacağı təbiidir ki, bu gün bunu deyə bilərəm ki, Göyçay uyezdi fəal, salim, doğru, daha doğrusu heç görülməyəcək bir polisə təşkilatını haizdir [polis təşkilatına malikdir]. Bu idarənin başında naçalnik [rəis] Xankişi, müavinləri isə Talıbxan və Həmid bəylər təşkil etməkdədirlər. Bu xüsusda qubernator Rəşid bəy Axundzadəyə əhali namından təşəkkür etməyə vicdanən borcluyam.

Bununla belə, erməni qonşularımızın başçıları bundan əvvəl də bu kimi nəşriyyatlarla öz qüsurlarını örtbas eyləmək istəyirlər. Fəqət buna qarşı göstəriləcək dəlillər həpsi uydurma və yalan olduğu aşkar və məlumdur. Uyezdin bütün əhvalına aid müfəssəl məlumat əldə mövcud olduğundan, icab edən [lazım gələn] vaxtlarda meydana qoyacağız.

İvanovka mahalı erməniləri əcəba yandırdıqları müsəlman qonşu kəndlərini, apardıqları ev müxəlləfatlarını [ev əşyalarını], talan etdikləri müsəlman azuqələrini, sürülərlə kəsilib erməni Amazasp fədailərinə verilən müsəlman mallarını, oğurlanmış müsəlman çocuqlarını, hətk edilmiş [tapdalanmış] müsəlman ismətlərini hansı günah tərəzilərinin yüngül tərəfinə qoymuşlar?

Bəsdir, eyibdir, iki millətin arasına münafirətli [nifrət yayan], məzərrətli [ziyanlı] mikrobları salmaq. Genə o fikirlər ətrafında dolaşmaq axmaqanə bir vəziyyət almaq deməkdir. Cahan demokratiyasına qarşı üzüqara çıxmaqdan bir az sıxılmalı. Hər kəs millətini sevər, heç kəs qonşularımızdan əskik mütəhəssis [hissli, duyğulu] deyildir. Biz arzu etməyiz ki, tarixi-mazi [keçmiş tarix] təkrar etsin. Bir zaman gələr ki, zəhmətkeş sinifləri müttəhidən [birgə] hərəkət edəcəklər. O vaxt milliyyətpərvər erməni qonşularımız əlləri boş, üzləri qara qalacaqları təbiidir. Buna görə biz ümidvarız ki, bu kimi əracif [yalan xəbərlər] ilə qəzetə sütunlarını dolduran qonşularımız ədalət, hürriyyət və müsavat yolunda çalışsınlar, yazsınlar. Bütün bəşəriyyət də bunları istəyir.

*Hacı Hüseyn Əfəndizadə*

## BAKI XƏBƏRLƏRİ

### Qaçqınlara yardım

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsinə bir çox qaçqınlar müraciət edərək vətənə getmələrinə yardım və müavinət göstərilməsini rica edirlər. Həmin qaçqınların çətin və ağır əhvalını nəzərə alaraq onların bu barədə vermiş olduqları ərzihalları Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] göndərib, kəndi tərəfindən yardım və müavinətin lazım olduğunu və tezliklə onların getmələrinə imkan verilməsini tövsiyə etmişdir. Ümuri-Xeyriyyə Nəzarəti firqənin tövsiyəsi üzrə həman qaçqınlara lazımi qədər müavinətdə bulunmuşdur.

### Fəhlə həyatından
### Müsəlman əmələlərinin tətili

Balaxanıdan Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsinə telefonla xəbər vermişlərdir ki, Balaxanıda "Kaspiyskoye tovarişestvo" Qukasovun mədənində müsəlman əmələləri tətil etmiş və mədəni saxlamışlardır. Əmələlərin tətil etmələrinə zeyldəki fəqərə [aşağıdakı hadisə] səbəb olmuşdur:

Keçən Mart hadisatı vaxtında məzkur [adı çəkilən] firmada qulluq edən ermənilər Baxşı Saturov (buruq ustası), Qriqori və Mesrop (açarçılar) müsəlman əmələləri haqqında olmazın zülüm və əziyyətləri rəva görüb və bir çox müsəlman əmələlərini quyulara buraxmışlar. İndi həman ermənilər məzkur firma tərəfindən yenidən qulluğa qəbul edilmişlər və buna isə müsəlman əmələləri razı olmayıb protesto etmişlər və onların qulluqdan qovulmalarını tələb etmişlərdir. Əmələlərin bu tələbi qəbul edilmədiyindən, aprelin 19-u səhər saat 11-dən başlayaraq tətil elan edərək işləri saxlamışlardır.

"Müsavat" firqəsi tərəfindən bu barədə Məsai Nəzarətinə [Əmək Nazirliyinə] xəbər verdikdə, o bir nəfər rus göndərmişdir ki, o da dil bilmədiyindən müsəlman əmələlərinin tələbatını anlamamışdır. Bu isə daha da narazılığa səbəb olmuşdur. Bu münasibətlə firqə yenidən Məsai nazirinə müraciətən məzkur mədənə bir nəfər müsəlman göndərilməsini rica etmişdir. Tətil davam edir.

Əmələlər qəti surətdə olaraq məlum etmişlər ki, yuxarıda adları zikr olunan ermənilər oradan qovulmasa, onlar işə başlamayacaqlardır.

### Əmələlər üçün bez verilməsi

Tağıyev fabrikası əmələləri Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsinə müraciətən, orada işləməkdə olan əmələlərin sihhiyyə [gigiyenik] cəhətdən fəna halda olduqlarını bəyanla, fabrikadan onlara bez buraxılmasını rica və arzu etmişlərdir. Komitə əmələlərin həmin müraciətnaməsini Hacı Zeynalabdin Tağıyev cənablarına göndərib, tezliklə əmələlərə bez buraxılmasını ciddən arzu etmişdir.

* Tağıyev fabrikasında qulluq edən Hacı İsmayılzadə və Hacı Möhsün Kazımzadə "Müsavat" firqəsinə müraciətən, onlara müdiriyyət tərəfindən edilən zülüm və əziyyətdən şikayət etmişlərdir. Firqə həmin şikayəti Hacı Zeynalabdin Tağıyev cənablarına göndərib, bu barədə tezliklə binagüzarlıq edib [sərəncam verib] və böylə hərəkətlərə yol verilməməsini ciddən arzu etmişdir.

**Suraxanıda mühazirə**

Düşənbə [bazar ertəsi] günü aprelin 21-də Suraxanı "Narodnı dom"unda [Xalq evində] "Müsavat"ın Suraxanı şöbəsi tərəfindən mühazirə (leksiya) tərtib edilmişdir. Mühazirəçi Piri Mürsəlzadə "Qafqaziya cümhuriyyətləri və Könüllü ordu" mövzusunda olaraq mühazirə oxuyacaqdır. Mühazirə gündüz saat 2 tamamda başlanacaqdır.

**Qafqaziya Müsəlman Mütəəllimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsindən**

* Səşənbə [çərşənbə axşamı] günü aprelin 22-də gündüz saat 4-də Mərkəzi Komitənin iclası olacaqdır. Müzakirə ediləcək məsələlər bunlardır:

1) Müsamirə [konsert; tamaşa] hesabı;
2) İctima [yığıncaq] haqqında;
3) Komitənin nakazı [təlimatnaməsi];
4) Təshihiyyə [Redaksiya] Komisyonunun məruzəsi;
5) Vıqrişni [uduşlu] biletlər xüsusunda və qeyri məsələlər.

Hamı üzvlərin iclasda isbati-vücud [iştirak] etmələri lazımdır.

* Bu yaxınlarda Qafqaziya Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsi tərəfindən "Gənc qələmlər" məcmuəsinin ikinci nömrəsi nəşr ediləcəkdir. Məqalələr qəbul olunur. Yoldaşlardan xahiş olunur ki, öz yazıları ilə kömək eyləsinlər.

"Gənc qələmlər" məcmuəsinin birinci nömrəsi və Gəncə Mütəəllimlər Komitəsinin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olan "Əfkari-mütəəllimin" məcmuəsinin 2-ci nömrəsi vardır. Bu məcmuələri Kazımzadə və Şərifzadənin Nikolayevski küçədə olan kitab mağazasında və Mərkəzi Komitədə növbə saatlarında almaq olar.

Mərkəzi Komitənin adresi: Verxni-Təzəpir və Gimnaziçeski küçələrin küncündə, poçta qutusu nömrə 273.

**"Türkçü mütəəllim və tələbələr"**

Nisanın 18-də "Müsavat" bürosunda Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a hüsn-rəğbət göstərən türk mütəəllim və tələbələrinin iclası olub, əbədi büro seçilmişdir. Seçilənlər:

1) Məhəmmədbəyzadə İsmayıl bəy (tələbə);
2) Məhəmmədzadə Mirzəbala (mütəəllim);
3) Əbdülvahab Məhəmmədzadə (mütəəllim);
4) Nurizadə Hacıağa (tələbə);
5) Ələsgər Ələkbərzadə (mütəəllim);

Sədr: Məhəmmədbəyzadə İsmayıl bəy

Katib: Məhəmmədzadə Mirzəbala intixab olunmuşdur [seçilmişdir].



## BAKI QUBERNİYASINDA

**Yüzbaşıdan şikayət**

Cavad uyezdi Ərəbbalaoğlan kəndinin vəkilləri Bakı qubernatoruna bir ərizə verərək məlum etmişlər ki, məzkur [deyilən] kəndin yüzbaşısı Nədir Məşhədi Yusif oğlu əvvəla qaçaq olub, türklər gələndən sonra kəndxuda təyin edilib, məhz şəxsi mənfəəti üçün işləməkdədir. Böylə ki, camaat məzkur kəndxudanın əlindən təngə gəlmişdir. O, camaatdan cürbəcür bəhanələrlə vergilər, qaramal, qoyun, taxıl və ev müxəlləfatı [ev əşyası] almaqdadır. Bunlardan əlavə, camaatı çox incidib döyür. Bir çox böylə hərəkat barəsində qubernatora müfəssəl məlumat təqdim edərək məzkur kəndin vəkilləri rica edirlər ki, tezliklə onları həman yüzbaşının çəngalından [caynağından] xilas etsin.

Qubernator tərəfindən yüzbaşının qulluqdan qovulmasından ötrü uyezd naçalnikinə binagüzarlıq [sərəncam] göndərilmişdir.

**Muğan əhalisinin ricası**

Petropavlovkadan Daxiliyyə naziri cənablarına zeyldəki [aşağıdakı] məzmunda bir teleqraf göndərilmişdir:

"Biz Muğan əhalisi cavanlar, bizim əsgərliyə alınmamız barəsində edilən binagüzarlığı [sərəncamı] eşidərək çox şad olduq. Çünki onlar vətənimizin birinci müdafeyi [müdafiəçisi] olduqlarından, həm onlar və həm də bizlər kəndimizi xoşbəxt hesab ediriz. Lakin zati-alilərinə məlum etməyi lazım görürüz ki, sərhəddə Şahsevənlərin bizi narahat etmələrini nəzərə alaraq əsgər toplamaq binagüzarlığının iki ay müddətinə təxir edilməsini arzu ediriz. İyul ayının əvvəllərində Şahsevənlər yaylağa çəkilməlidirlər. Uyezd naçalnikinin [qəza rəisinin] təşəbbüsü ilə aramızdan təşkil edilmiş olan 200 nəfərdən ibarət dəstə ilə biz daima Şahsevənlərin qabağını saxlayıb, mal və canımızı onlardan bu vaxta qədər mühafizət etmişik. İndi bu 200 nəfərdən ibarət dəstə qüvvəsiz olduğundan, onun miqdarını 5-6 yüz nəfərə qədər artırmaq lazımdır ki, bunun üçün də cavanları təhti-silaha [silah altına] almalıyız. Binaənileyh [ona görə], zati-alilərindən acizanə rica ediriz ki, bizim böylə halımızı nəzərə alaraq əsgərlərin dəvətini iyul ayına qədər təxir etdirəsiniz.

**Atışma**

Rustov uçastokunun pristavı Quba uyezd naçalnikinə məlum etmişdir ki, aprelin 7-də Tülər kəndinin əhilləri [Əliabbas] Hacı Muradxan oğlu, Sirac Məhəmməd oğlu və Şahhəsən Hacı Muradxan oğlu bir tərəfdən, Seyidməhəmməd Bayram oğlu, Şahmirzə Ağarza oğlu arasında atışma vaqe olub, nəticəsində Əliabbas Hacı Muradxan oğlu, Sirac Məhəmməd oğlu ölüb, Seyidməhəmməd Bayram oğlu yaralanıb, Seyid Məhəmmədin qızı Həvva xanım ölmüşdür.

**Rüşvət**

Bakı əhli Allahverdi Əliyev qubernatora məlum etmişdir ki, Cavad uyezdi Çadırlı kəndinin əhilləri Nəcəfqulu Quluş oğlu, Vəlibəy Hacı Nağı oğlu, Hümmət Məşhədi Quluş oğlu onun çobanlarından 132 qoyun, 9 dənə camış, 3 at və qeyri şeylər qarət edib aparmışlar. Çobanlar Çadırlı kəndi yüzbaşısına şikayət etmişlərsə də, o, 6600 manat pul istəyib və aldıqdan sonra heç bir binagüzarlıq etməmişdir [heç bir tədbir görməmişdir].

## GÜRCÜSTANDA

### Abazalıların fəryadı

Gürcüstan hökuməti yalnız Axıskada deyil, Abaza[da] dəxi kəndi “hikməti-idarəsini” tətbiq eyləməkdədir. İstanbuldakı Qafqaz Cəmiyyəti-Xeyriyyəsindən mətbuata aşağıdakı təlim göndərilmişdir:

Abxaziyada cərəyan etməkdə olan fəcayeni [faciələri] haki [nəql edən], məhəllindən [yerindən] gələn bir məktubdan müfrəz [götürülmüş] şu fəryadları insaniyyəti-mütəməddinənin ənzari-şəfqəti önünə vəz ediriz [mədəni dünyanın şəfqət nəzərləri önünə qoyuruq]:

Gürcülər irqi və tarixi heç bir haqları olmadığı halda cəbrən [zorla] Abxaziyanı istila və Çxikvişvili ismində həyati-mazisi [keçmişi] pək parlaq olmayan bir xunxarı [qaniçəni] valiyi-ümumi [general-qubernator] təyin etmişlərdir. Abxaziyanın Peyzipin ismində iqa eylədiyi cinayatın [işlədiyi cinayətlərin] hənüz qanı qurumamış, Kartoçianı komissar olaraq göndərmişlərdir. Bu vali və komissarın yek-digəri [bir-biri] ilə müsabiqə edərcəsinə iqa etməkdə olduqları məzalim [zülümlər] qüruni-vüstada [Orta əsrlərdə] belə görülməmiş dərəcədədir. Kiçik millətlərin mühafizeyi-hüququ üçün ədalət üsulları tətbiq edilərkən, Yevropanın gözü önündə həqqi-istiqlalını mühafizə daiyəsində [arzusunda] bulunan bir qövmi-nəcib imha [məhv] olunur.

Gürcü zimamdarani-ümuru [işlərin cilovunu öz əllərində tutanlar] yarın bu qanlı nasiyələri [alınları] ilə bəşəriyyəti-mütəməddinənin müməsilləri [mədəni bəşəriyyətin nümayəndələri], hüriyyəti-əqvam nəzəriyyəsinin vazeləri [millətlərin azaldığı nəzəriyyəsini meydana qoyanlar] hüzuruna nasıl çıxacaqlardır? Gürcülər cəbr və qəhr ilə bir millətin imhasına bugünkü tələqqiyyati-hüquqiyyə və insaniyyənin müsaid olduğunu bilmək istəməyəcəklərmidir?

Keçən sənə almanlarla müştərəkən tərtib eylədikləri qətliam yetişməyirmiş kimi, bu dəfə də qızıl alaylarla bəqiyyətüssüyuf abazaları [abxazları] imha etməkdədirlər. Məqtulin miyanında [öldürülənlər arasında] mütəfəkkirindən Maçev, vətənpərvər miralay [polkovnik] Şervaşidze də bulunmaqdadır. Zavallı abazalar Rusiya kimi qəviyyülşəkimə [güclü, möhkəm] bir hökuməti-müstəbidəyə qarşı əsrlərcə mühafizə etdikləri mövcudiyyəti-milliyyələrini qaib eyləməkdədirlər.

Abaza köylərinin ənqazi-pərişanı [xarabalıqları] arasında dolaşan sülh gürcü ajansları bərhəyat [sağ] qalanlardan da cəbrən [zorla] sədaqət və tabeiyyət [tabeçilik] imzası alırlar. Bu surətlə gürcülər Abxaziyaya istilanı məşru [qanuni] göstərmək və Sülh Konfransında abazaları əmri-vaqe [fakt] qarşısında bulundurmaq istəyirlər. Zəhi xəyali-batil! [Necə də batil bir xəyaldır!] Etilaf [Antanta] donanmasının Qara dənizə gəlməsi abazaların ənzari-yə’si [məyus gözləri] önündə bir şöleyi-ümid oyandırmış və bu ümid saiqəsi [sövqü] ilə bir xilas hərəkəti göstərmək istəmişlərsə də, yazıq ki, bu hərəkəti-məşruə [qanuni, leqal hərəkət] də gürcü məzaliminin təşəddüdündən [zülmünün şiddətlənməsindən] başqa bir səmərə verməmişdir. Sərvəti-məbzulə [bol sərvətləri] və lətafəti-təbiiyyəsi [təbii gözəllikləri] üzündən gürcü hirsi-istilasına uğrayan gözəl Abxaziya bu gün başdan-başa bir matəmzardır [matəm diyarıdır].

Dağıstanın cəngavər övladları da sədayi-istimdadımızı [imdad səsimizi] eşidəmməyəcək dərəcədə məşğuldur. Kamali-şükranla söyləyirəm ki, Qafqaziyada fəryadımızı yalnız ermənilər eşidir, bir sədayi-haqq yalnız onlar tərəfindən yüksəlir. Bizi müdafiə vəzifəsi yalnız o alicənab qüvvətə qaldı. Qadın, erkək, çocuq, zihəyat [sağ] qala bilənlərin ənzari-ümidi [ümidli gözləri] kiçik millətlərin hüquqi-məğsubələrini [qəsb edilmiş hüquqlarını] iadə etməyi [qaytarmağı] bir qayeyi-insani bilən Hökumati-Mötəlifəyə mütəvəccihdir [Antanta dövlətlərinə çevrilmişdir]. Bu adil hökumətlərin birisi tərəfindən yüksələcək bu sədayi-haqq daha ziyadə təmadisi [uzanması] ədaləti-insaniyyəyə irasi-şübhə eyləyəcək olan fəcayenin [bəşəriyyətin ədalətinə şübhə əmələ gətirəcək faciələrin] xatiməsini elan eyləyəcəkdir.

Bunun üçün iyirminci əsri-mədəniyyətin ədalət-şüar hökumətləri bu cinayətə qarşı laqeyd qalmasınlar. Bunu ədalət və insaniyyət naminə rica ediriz.

## ERMƏNİSTANDA

“Aşxatavor” qəzetəsinin müxbiri yazır:

Ermənistanın ərzaq işləri sabiqki halda qalmaqdadır. Oraya gətirilən ərzaq az olduğundan, əhalinin ehtiyacını görməyir. Camaat aclıqdan qırılır. Bahar gəldiyi üçün əhali göyərti ilə dolanır. Lakin Ararat dərəsi kifayət edəcək qədər göyərti verməyir. Aclığa görə əmələ [işçi] tapılmayır. Diri meyitlər işləməkdən acizdirlər. Toxum olmadığı üçün əkin yerləri əkilməmişdir. Aclıqdan dolayı mal-qaranın 80 faizi yılmış və qırılmışdır. Şəhər istixbarında [xəbərlərində] xəbər verilir: Şəhərdə bu gün küçələrdən 28 meyit qaldırılmışdır. Dün 38 nəfər ölmüşdü. Şəhərdə yatalaq xəstəliyinə mübtəla olan 259 nəfər vardır. Qara çörəyin qirvənkəsi 7 manat, ağ çörək 9 manat.

### Ermənistan Amerika himayəsində

“Xüsusi fəqət mötəbər rəvayətlərə” müstənidən [istinad edərək] İstanbulda müntəşir “Caqatamart” qəzetəsi yazır ki, Ermənistanın kimin təhti-himayəsində [himayəsi altında] olması məsələsi həll edildi. Bu məsələ Amerika, İngiltərə, Fransa və İtaliya arasında çoxdan bəri müzakirə edilməkdə idi. Etilaf [Antanta] dövlətləri nəhayət Amerikanın Ermənistanı təhti-himayəsi altına alması təklifini qəbul etmişlərdir. Deməli, Ermənistan Amerikanın daireyi-nüfuzu və himayəsi altına keçəcəkdir.

- Aprel ayının 16-da Ermənistanın diplomasi nümayəndəsi T[iqran] A[rutyunoviç] Bekzadyan Amerika heyətinin nümayəndəsi hüzuruna gələrək təvəqqe eyləmişdir ki, Şəki, Araz, Göyçay, Şamaxı və Quba uyezdlərinin erməni fərarilərinə müavinət eyləsin. Bu məsələ barəsində Bekzadyan Tiflisdə baş Amerika nümayəndəsi ilə müsahibədə bulunacaqdır. Bekzadyan beş günlüyə Tiflisə əzimət eyləmişdir [getmişdir]. Pəncşənbə [cümə axşamı] günü qayıdaraq yenə öz işinə başlayacaqdır.

## İDARƏDƏN CAVAB

Zaqatala məbusu [Abdulla] Qəbulzadə əfəndiyə:

Məqalənizdən aşkardır ki, siz Hacıbəylinin Zaqatala haqqında yazmış olduğu məqalənin məzmununa lazımınca diqqət yetirməmişsiniz. Zira yetirmiş olsaydınız, Hacıbəylinin "İşi zaqatalalıların yalnız bir hissiyyat və təəssübü iqtizaatına [zərurətlərinə] həvalə edərsək" cümləsindən: "Zaqatalalılar bir güruhi-mütəəssib [təəssübkeş kütlə] imiş" mənasını çıxarmazdınız. Çünki o cümlədən çıxan məna o deyildir. O cümlənin mənasını burada təfsir etmək istəməyirik. Çünki o cümlə ümum camaatdan ötrü yazılmış bir mətləb deyildi ki, hər kəs başa düşmək üçün açıq yazılaydı. Məqalə məhz hökumət əzalarının [üzvlərinin] nəzər-diqqətlərini cəlb etmək üçün yazıldığından, hər cümləni təfsirlə bəyana ehtiyac yox idi.

Saniyən [ikincisi], Zaqatala üçün göndərilən hakim və sair hökumət əzalarının "müvəqqətən" yerli əhlindən olmamasını dərmiyan etmək [meydana atmaq] məsələsi də burada görüşdüyümüz Zaqatala vəkillərinin söhbətlərindən anlaşılan və arzularına müvafiq gələn bir məsələ idi. Əlavə "müvəqqətən" yəni hələlik böylə olsun, sonra Zaqatala əhlindən məmurlar təyin edilər və bir də Hacıbəylinin məqsədi məhz Zaqatala haqqında danışıq olduğundan, sair yerlərin rüşvətxor məmurlarından bəhs etməyə heç lüzum yox idi.

**İtibdir**

Həmin aprel ayının 18-də Nijni Priyutski və Bazarnı küçələrin küncündə balaca bir qız 14 misqal yarım iri mirvari və 6 parça qızıl (10 misqal) itiribdir. Tapan şəxslərdən acizanə təvəqqe edirəm, özü razı olan bəxşişə bu adresə göndərsinlər: Nijni Priyutski və Bazarnı küçələrin küncündə nömrə 74, Quliyevin evində Məşhədi Hacı Dadaşov, telefon nömrə 15-05.

*8729*

**İtibdir**

Rüstəm Kərbəlayi Nəriman oğlunun Göyçay uyezdindən [qəzasından] aldığı pasportu 100 manat pulu ilə bərabər itib. Etibardan saqitdir [etibarsızdır].

*8728*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 371. "Qlazkar": Udmurt Respublikasının şimalındakı Qlazov şəhərinin köhnə adı; qəzetdə təhrif edilmişdir.

"Teleqraf": Amsterdamda nəşr edilən gündəlik "De Teleqraf" [De Telegraaf] qəzeti nəzərdə tutulur.

**Rusiyanın sülh təklifləri**

səh. 372. "Nikolay zamanında": Rusiya imperatoru II Nikolayın hakimiyyət illəri nəzərdə tutulur.

"Morninq post" [The Morning Post]: Londonda 1772-1937-ci illərdə çap olunan gündəlik qəzet.

"Pester Lloyd": Budapeştdə alman dilində nəşr edilən gündəlik qəzet; əsası 1854-cü ildə qoyulmuşdur.

səh. 373. "kral Şarl": 1916-1918-ci illərdə hakimiyyətdə olan Avstriya-Macarıstan imperatoru I Karl nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 373. "Avamlar Kamerası": Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**Türklər haqqında**

səh. 374. "Över" [L'Œuvre]: 1904-1944-cü illərdə Parisdə nəşr edilmiş qəzet.

səh. 375. "Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

səh. 376. "Palatina" (yaxud Pfalts): Almaniyanın cənub-qərbində tarixi bölgə [Pfalz].

"Əbdülhəmid": 1876-1909-cu illərdə hakimiyyətdə olmuş Osmanlı sultanı II Əbdülhəmid nəzərdə tutulur.

"ittihadçılar": 1889-cu ildə siyasi bir cəmiyyət kimi qurulan, sonra siyasi partiyaya çevrilən və 1913-1918-ci illərdə Osmanlı dövlətində hakimiyyəti öz əlində saxlayan "İttihad və Tərəqqi" partiyasına mənsub şəxslər.

**Azərbaycan haqqında**
**siyasi və tarixi məlumat**

səh. 379. "...Rusiyanın böyük hürriyyət inqilabı 1917-ci sənədə mart ayında zühur etdi.": Rusiyada Fevral burjua-demokratik inqilabı nəzərdə tutulur; yeni təqvimlə mart ayına düşür.

**Genə haqsız böhtanlar**

səh. 386. "Keşxurt": qəzetdə kəndin adı təhrif edilmişdir.

**Bakı xəbərləri**

səh. 387. "Kaspiyskoye tovarişestvo" ("Kaspi ortaqlığı"): Bakıda və Abşeronda neft istehsalı və ticarəti ilə məşğul olan şirkət. Əsası 1886-cı ildə Qukasov (Qukasyan) qardaşları tərəfindən qoyulmuşdu.

**Bakı quberniyasında**

səh. 389. "Lakin zati-alilərinə məlum etməyi lazım görürüz ki...": qəzetdə "görürüz" yerinə "görməyiriz" getmişdir.

"Çadırlı": qəzetdə "Çarlı" getmişdir.

**Gürcüstanda**

səh. 390. "Çxikvişvili": bu soyadı qəzetdə təhrif edilmişdir.

"bəqiyyətülsüyuf": (qılınc artığı) bir qətliamdan sonra sağ qalanlar, xilas olanlar.

**Ermənistanda**

səh. 391. "Aşxatavor" (Fəhlə): Tiflisdə nəşr olunan erməni qəzeti.

**İdarədən cavablar**

səh. 392. "Hacıbəylinin Zaqatala haqqında yazmış olduğu məqalənin": Üzeyir Hacı-

bəylinin “Zaqatala məsələsi” adlı məqaləsi “Azərbaycan” qəzetinin 3 aprel 1919-cu il tarixli 149-cu nömrəsində dərc edilmişdir.

**İtibdir**

səh. 392. “Nijni Priyutski”: Bakıda, indiki Süleyman Rəhimov küçəsi.

“Bazarnı”: Bakıda, indiki Azərbaycan prospekti.





**Çərşənbə axşamı, 22 aprel 1919-cu il, nömrə 163**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 21 rəcəbül-mürəccəb sənə 1337. 22 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## BİR PİYALƏ ÇAY

Bakı İctimai Yığıncaq Klubunda nisan (aprel) ayının 24-də “İttihad” firqəsi tərəfindən “Bir piyalə çay” məclisi təşkil olunacaq. Səhnə tamaşası Hacıbəyli Bəradərləri müdiriyyətinin mahir artistləri tərəfindən idarə ediləcək. Məhz bu məclis üçün Qarabağdan məşhur “aşıqlar” daha dəvət olunub. Məclisə yalnız dəvətnaməsi olanlar buraxılacaq. İttifaqən [təsadüfən] dəvətnamə almayan zəvati-möhtərəm [möhtərəm şəxslər] məclisə gəlmək xahişində olsalar, dəvətnaməni Parlaman İdarəsində “İttihad” fraksiyonundan ala bilərlər.

*“İttihad” firqəsi*

## DAĞISTANA İMDAD!

Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin Mərkəzi Komitəsi tərəfindən intixab olunmuş [seçilmiş] xüsusi bir komisyon tərəfindən dağıstanlı qardaşlarımız üstünə hücumavər olan [hücum edən] hürriyyət və istiqlal düşməni Denikinin qara qüvvəsi ilə hərb etmək üçün Azərbaycan könüllü dəstəsi təşkil olunur. Yazılmaq istəyənlər hər gün Məclisi-Məbusan binasında, “Müsavat” fraksiyonu mənzilində gündüz saat 8-dən 2-yə və axşam saat 5-dən 7-yə qədər yazıla bilərlər.

## ELAN

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, aprelin 28-də gündüz saat 1-də Ərzaq Nəzarəti binasında Olqinski küçə “Natsional” mehmanxanasında aşağıda göstərilən miqdar balıqlar hərrac ilə satılacaqdır:

| A) Hissə-hissə: | | |
|---|---|---|
| 1 – Jerex [xəşəm] | 2 tara | Vəzni təqribən 6,140 put 11 girvənkə |
| 2 – Sudak [sıf] | 3 tara | |
| 3 – Şuka [durnabalığı] | 16 tara | |
| 4 – Leş [çapaq] | 43 tara | |
| 5 – Sazan [çəki] | 169 tara | |
| 6 – Som [naqqa] | 52 tara | |
| 7 – Vobla [külmə] | 129 tara | |
| B) Seld [siyənək] | 1965 tara | Vəzni təqribən 5413 put |

Göstərilən miqdar balıqlar hamısı bir yerdə və ya seldin hamısı iki partiya və qalanları isə əlahiddə satıla bilər.

Satılan balıqlar Vinner şirkəti zavodunun dondurma anbarlarında (İrəvans-

ki, nömrə 2) saxlanır. Tətil günlərindən başqa hər gün səhər 9-dan 12-yə qədər baxmaq mümkündür.

Hərrac aprelin 28-i gündüz saat birə qədər bağlı paketdə göndərilən bəyannamələrlə olacaqdır. Bəyannamələrdə seldin ayrıca və qalan balıqların da ayrıca put qiyməti göstərilməlidir. Qiymət rəqəmlərlə deyil, hərflərlə yazılmalıdır. Bəyannamə ilə bərabər seld üçün on min manat, qalan balıqlara isə iyirmi min manat zaloq verilməlidir.

Bundan əlavə, bəyannamə verənlər şəxslərini isbat edici sənədlər dəxi təqdim etməlidirlər.

Zaloq nağd pullarla, həmçinin mülki qanunlarda göstərilən qaydalar üzrə əmvali-qeyri-mənqulə də [daşınmaz əmlak da] qəbul olunur. Hərracın təsdiq edilməsi Ticarət, Sənaət və Ərzaq naziri tərəfindən olur.

Tətil günlərindən başqa hər gün saat 11-dən 2-yə qədər Ərzaq Nəzarətində 24 nömrəli otaqdan bu barədə lazım gələn müfəssəl məlumat almaq olar.

*Nazirin baş vəkili: İmza*

## DAĞISTANLI QARDAŞLARIMIZA KÖMƏK!

Hürriyyət və istiqlaliyyət uğrunda qan tökən dağıstanlı qardaşlarımıza kömək etmək üçün Parlamanın Bitərəflər firqəsi tərəfindən könüllü dəstəsi təşkil olunur. Könüllülərə əslihə [silah] və pul veriləcəkdir. Arzu edənlər, Parlaman binasında Bitərəflər fraksiyonu odasında (nömrə 4) şöbə zabiti Saleh bəyə müraciət etməlidirlər.

Gündüz saat 12-dən 2-yə;
Axşam saat 4-dən 6-ya.

## DAĞISTANA İMDAD!

Ey Azərbaycan cavanları! Aylardan bəri hürriyyət və istiqlaliyyəti uğrunda qəhrəmananə çarpışaraq qan tökən dağıstanlı qardaşlarımıza kömək edəlim. Adlarını insan qoyub bir yığın vəhşilər sürüsü təşkil edən canilərin yapmış olduqları zülümlərə bir nəhayət verəlim. Bu gün dağıstanlı qardaşlarımızın hürriyyət və istiqlaliyyətini əllərindən qəsb və onları əsarət zənciri ilə bağlamaq istəyən düşmənlər, yarın da bizim hürriyyət və istiqlaliyyətimizə göz tikərək, bizi də həman aqibətə sövq edəcəkdirlər. Bunun üçün gəlin toplaşalım, silahlanalım dağıstanlı qardaşlarımızın imdadına gedəlim. Ta ki yüz minlərcə şühədamızın [şəhidlərimizin] qanı bahasına istirdad etdiyimiz [qazandığımız] və hənuz tamamı ilə ləzzətyab olammadığımız hürriyyət və istiqlaliyyətimizi əldən qaçırmayaraq, mübarək əcdadımızın əhfadı [nəvələri] olduğumuzu bütün düşmənlərə isbat etdirəlim. Dinini, millətini sevən, vətəninə məhəbbəti olanlar "Bitərəflər" firqəsi tərəfindən təşkil olunan həman könüllü dəstəyə yazılmalıdırlar. Bu firqə tərəfindən könüllülərə tüfəng, patron və pul veriləcəkdir.

*"Bitərəflər" firqəsinin hərbi şöbəsi*

## TELEQRAF XƏBƏRLƏRİ

Böylə bir şayiə vardır ki, Vilson işlərin qurtarmasını Lansinq ilə Hauza və qeyri nümayəndələrə həvalə edərək, iyun ayında Amerikaya gedəcəkdir.





**Cəmiyyəti-Əqvam nizamnaməsi**

İşlər çox olduğundan Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] nizamnaməsinə baxılmamışdır. Bir çox məsələlər hələ qurtarmamışdır. Heç inanılmır ki, işlər aprelin 25-nə qədər qurtarsın. Aprelin 25-nə, alman nümayəndələrinin dəvət ediləcəyi gün təyin edilmişdir.

**Alman nümayəndələri**

Teleqrafla xəbər verirlər ki, Versala Sülh Konfransına gəlmək üçün, Alman nümayəndələrinə rəsmi dəvət göndərilib, aprelin 25-i təyin edilmişdir. Klemanso müahidənamənin [sazişin] məzmununu onlara oxuyacaqdır və müahidənamənin imza edilməsinin axırıncı müddəti mayın 10-u olduğunu yəqin [qəti] söyləyəcəkdir. (1871-ci sənə Frankfurt müahidənaməsi imza edilən günə.) O zaman sülh elan ediləcəkdir. Yaxud, mütarikənin 72 maddəsinin onlar tərəfindən xələldar edilməsi almanlara təqdim ediləcəkdir. Vücuda gətirilməsi təsəvvür olunan məramnamə bu qərar üzrədir.

- Amerika mənabeyindən [mənbələrindən] verilən xəbərlərə nəzərən, bitərəf dövlətlər Rusiyaya hər növ ərzaq işləri yetirmək üçün bir komisyon təşkil etmək istəyirlər. Onlar ümid edirlər ki, Müttəfiqlər buna icazə verərlər.

**Amerikaya imtiyaz**

Rusiyanın Şura hökuməti Şimali Rusiyada böyük dəmiryol inşası imtiyazını bir Amerika kompanyasına vermişdir. Ümumrusiya İqtisadi Cəmiyyətinin üzvü Rıkov bəyan eyləmişdir ki, Rusiya hökuməti bu imtiyazı verməklə ümum dövlətlər kapitallarının rəqabətini oyatmaq istəyir. İsveç sərvətdarları bu yolun imtiyazını qəbuldan imtina eyləmişdir.

**Amerikanın müavinəti**

Nyu-Yorkdan xəbər verilir: Amerika hər ay Avropaya bir milyon 690 min ton taxıl göndərməyi qət eyləmişdir. Bu vaxta qədər Romaniya, Ermənistan, Serbiyaya, Slovakiya[ya] taxıl göndərmək işləri intizama düşmüşdür.

## SÜLH ƏTRAFINDA

**İngilislər bolşeviklər haqqında**

London – Avam Kamerasında Edvards Leninin sülh əqdi [imzalanması] xüsusundaki təklifini elan eyləmişdir. Bu da Kamerada böyük mübahisata səbəb olmuşdur. Bir çoxları qətiyyən bolşeviklərlə danışığa girişmək əleyhinə danışmışlardır. Şort hökumət namından [adından] demişdir ki, biz Rusiya ilə danışığa girişməkdən çəkinməyiriz. Fəqət bütün Rusiyada dəhşətlər törədən quldur dəstələri ilə əlaqədar olmağı da arzu etməyiriz. Biz hər bir anda Rusiya əhalisinə deyirik ki, hərəkətləri bütün mədəniyyəti xətrə [təhlükə] altına salan şimdiki hökuməti ilə bir əlaqədə olmağı arzu etməyiriz. Şort bu rəydədir ki, guya Leninin sülh təklifi Almaniyanın işidir və bununla isbat etmək istəyir ki, həqiqətən də bolşeviklər mədəni və sülhsevən insanlardır. Almaniya mümkün olan yerdə bolşevizmi intişar etdirir [yayır]. Bolşevizm Almaniyanın yeganə ümididir. Çünki bolşevizm haraya keçərsə, orada hökumət zəifləşir.

**Cəmiyyəti-Əqvam müahidənaməsi**

Cəmiyyəti-Əqvam müahidənaməsi [Millətlər Cəmiyyəti sazişi] Cəmiyyəti-Əqvam komissiyası tərəfindən hazır edilib, bu günlərdə Sülh Konfransının müttəhid [birgə] iclasında qiraət ediləcəkdir. Müahidənamənin müzakirə edilmiş qismi Avropa mətbuatında elan edilmişdir.

* London qəzetələrindən birisi yazır: Dünən şəhərdə ciddi surətdə şayiat var idi ki, guya Paris əmələləri [fəhlələri] Sülh Konfransını qovmuşlardır. Bu şayiat rəsmi dairələrdən verilir.

* Nyu-Yorkdan xəbər verilir ki, sosialistlər bildirirlər, hərgah Vilson konfransda ixtilaf nəticəsi olaraq konfransdan çıxarsa, o zaman bütün Avropada inqilab əmələ gələ biləcəkdir.

* Liondan xəbər verilir ki, Sülh Konfransının son iclasından gəlməkdə olan xəbərlər hüsn-təsiri dəxi də artırır. Fransa daimi olaraq Saar (Almaniyadadır) dərəsində olan mədənləri alır. Orada Fransa qanunu yeridilib, hökumət məmurları da fransızlardan olacaqdır. Bu qitənin [regionun] əhalisi xüsus[un]da Almaniya öhdəsinə aldığı məsuliyyətdə baqi qalır [dəyişməz qalır]. Polis məmuriyyəti hakəza [habelə] Fransanın əlində olacaqdır. Ali siyasi işlər Cəmiyyəti-Əqvam ixtiyarında olacaqdır. Bunlar da Cəmiyyəti-Əqvam tərəfində təyin ediləcək. Siyasi məmurların dördü fransızlardan, biri də yerli əhalidən olmalıdır. Əhali hər növ hüquqa malik olacaqdır. Yalnız nemes nümayəndələri göndərməməlidirlər. 15 il bu cür idarə ediləcək, sonra əgər bu qitənin Almaniyaya mülhəq edilməsini [birləşdirilməsini] əhali arzu edərsə, o zaman Almaniya fransız qızılı verərək bu yeri satın almalıdır. 125 milyard xəsarəti [ziyanı; ziyanın əvəzini] Almaniya yaxın 13 il müddətində verməlidir. Bunun 55 %-i Fransaya vüsul olur [çatır]. Qalan məbləğ isə sonra da verilə bilər. Bu şəraitin təmini üçün Reynin sol kənarı işğal edilmişdir. Bu da təbiidir ki, Müttəfiqlər heç bir vaxt Almaniyaya Saar məsələsini müzakirəyə belə müsaidə verməzlər. Nemeslərə 10 gün vaxt veriləcəkdir ki, öz hökumətlərinə Müttəfiqlərin şərtnaməsini bildirsinlər.

## QƏZETƏLƏRDƏN

**Gürcüstanda**

Tiflisdə nəşr olan "F. S." qəzetəsi yazır ki, aprelin 7-də Aşqabaddan çıxıb Tiflisə varid olan [çatan] şəxs bu axır vaxt bolşeviklərlə olan mübarizə haqqında böylə rəvayət edir:

Türküstanda bolşeviklər əleyhinə olan növbədəki məsələ Daşkənddə olan bolşevik əsgərlərini dağıtmaqdır ki, bunların da miqdarı 20 minə qədərdir. Bolşevik əsgərləri arasında çinlilər, sabiq hərbi əsir macarlar və yerli əhalinin bir hissəsidir. Bu dəstənin başında ərkani-hərb [hərbi qərargah] zabitləri durmuşlardır. Aprelin 2-də əmiri-Buxara tərəfindən Aşqabada bir heyət gəlib Kolçak hökumətini etiraf edən [tanıyan] Müdafieyi-Ümumiyyə Komitəsinə demişdir ki, əmiri-Buxara əsgərləri bolşeviklər tərəfindən minalanmış Amudərya körpüsünü işğal etmişlərdir. Bolşevik əsgərləri arxasında külli miqdarda Buxara əsgərləri cəm edilmişdir. Hərgah Aşqabad komitəsinin Könüllü orduları hücuma başlayıb Çarcunu işğal etsə, bolşeviklər mühasirə içrə qalaraq, təslim olmağa məcbur olacaqdırlar. Hal-hazırda cəbhə Çarcunun bir neçə verst məsafəsində Qurbanqala yanındadır. Burada bolşeviklər tərəfindən xəndəklər atılıb istehkamat yapılmışdır. Aprelin 5-ci gecəsi Aşqabad komitəsinin əsgərləri hücuma keçib bir gecə-gündüz müharibədən sonra Qurbanqala yanında bolşevik qüvvələrini pərakəndə etmişlərdir. Bolşevik əsgərləri 165 meyit buraxıb Çarcuya ricət etmişlərdir [geri çəkilmişlər]. Müharibədə iştirak edən bolşevik aeroplanı topla vurulub salınmışdır. Borşeviklər Çarcuya çəkildikdə, Ravnina istasyonundan 10 verst məsafədə dəmiryolu bilkülliyyə xarab edib, relsləri də özləri ilə aparmışlardır. Dəmiryolun bu tövr xarab olması Aşqabad komitəsi əsgərlərinin irəli hərəkət etməsinə mane olmuşdur. Dəmiryol bölüklərindən ikisi dəmiryolu düzəltməyə başlamışlar. Bu əhvalatı nəql edən şəxs Çarcunun müqəddəratı həll edilməmiş oradan azim olmuşdur [getmişdir].

## YƏHUDİ HÖKUMƏTİ

Ərzi-Fələstində [Fələstin torpağında] "Sionizm" denilən məsləyin bir Yəhudistan hökuməti təşkili üçün çalışdığı məlumumuzdur.

Əxirən [son vaxtlarda] Avropa qəzetələrindən bir qismi bu hökumətin təşəkkül edib-edəmməyəcəyini tədqiq edirlər. Türk qəzetələrindən "Yeni qəzetə" bu xüsusda yazdığı baş məqaləsində bu məsələdən bəhslə deyir ki:

Əxirən, "Jurnal de Deba" sionizmə dair nəşr etmiş olduğu bir baş məqalədə də göstərmiş olduğu üzrə məsələ şöylə bir şəkil almışdır:

İngiltərə Xariciyyə naziri müsyö Balfur 2 təşrini-sani [noyabr] 1917 tarixində lord [Layonel] Rotşildə yazdığı məktubda demişdir ki:

*"İngiltərə hökuməti musəvi millətinin Fələstində yerləşməsini müsaid bir nəzərlə görür və Fələstində digər camaatların hüquqi-mədəniyyə və diniyyələrini və digər məmləkətlərdəki musəvilərin də hüquq və vəziyyəti-siyasiyyəsini xələldar etməmək [pozmamaq] qeydi-ehtiyatı [ehtiyat şərhi] ilə təshilati-laziməni [lazım gələn köməkliyi] göstərəcəkdir."*

Bundan bir ay sonra, Londrada əqd olunan [baş tutan] bir sionist mitinqində xariciyyə müstəşarı [xarici işlər üzrə məsləhətçi] lord Robert Sesil şöylə söyləmişdir:

*"Arzumuz şu mərkəzdədir ki, ərəb məmləkətləri ərəblərin, Ermənistan ermənilərin, saheyi-Yəhuda musəvilərin olsun."*

Fransa Xariciyyə naziri müsyö Pişon da 10 şubat [fevral] 1918-də sionist rüəsasından [başçılarından] müsyö Sokolova demişdir ki:

*"Fələstində musəvi təsisatı məsələsində İngiltərə və Fransa hökumətləri beynində [arasında] etilafi-tam [tam bir uzlaşma] mövcuddur."*

Əxirən, Paris Sülh Konfransı da məsələyi-İsrailiyyə haqqında sionist rüəsasından üç zatın [şəxsin] Fələstin haqqında musəvilərin mətalib və müddəiyyatı [tə-

ləbləri və iddiaları] haqqında verdikləri izahatı dinləmişdir. Bu üç zat ingilis musəvilərini təmsil edən Veyzman, Şərqi Avropa musəvilərini təmsil edən Silven Levi idi.

"Jurnal de Deba"nın yuxarıda bəhs etdiyimiz məqaləsində Fələstində bir hökuməti-İsrailiyyə təşkili iltizam olunmayır [lazımlı hesab edilmir], bunun bir taqım məhaziri [mənfi tərəfləri] ortaya qonulur. Əzancümlə [o cümlədən], şu nöqtələrə təmas edilir: Fələstin kimi əhalisinin əksəriyyəti musəvilərdən qeyri əqvam [xalqlar] təşkil edən bir yerdə nasıl bir hökuməti-İsrailiyyə təşkil edilə bilər! Bu fəqir məmləkət nəhayət bir milyon kişini bəsləyə bilərkən, burada dünyanın hər tərəfinə yayılmış on milyon musəvi nasıl iskan oluna [məskunlaşdırıla] bilər? Sülh Konfransında Suriyanın bütün əqsami-cənubiyyəsi [cənub hissələri] ilə Hayfadan Əqəbəyə qədər olan sahəni ehtiva etmək üzrə müvəqqətən Cəmiyyəti-Əqvam tərəfindən təyin olunacaq bir hökumətin himayəsində bir hökuməti-İsrailiyyə təsisi tələb olunmuşdur. Fələstinin şimdiki 500 min nüfusundan [əhalisindən] 120 mini musəvi ikən, Fələstinin digər əqvamı əsrlərdən bəri burada mütəməkkin [sakin] ikən bunlar yerlərindən, yurdlarından nasıl məhcur edilə [didərgin salına] bilər?

"Jurnal de Deba"ya nəzərən, Fələstində bir hökuməti-İsrailiyyə təsisi məsələsi tərbiyi-dairə kimi həlli düşvar [çətin], yaxud qeyri-mümkün bir məsələdir.

Biz bu gün hərbdən əvvəlki vəziyyətdə olmadığımız üçün, Fələstində hökuməti-İsrailiyyə təsisi Paris Sülh Konfransının müqərreratına [qərarlarına] tabe bulunmaqla bərabər, məsələyə daha bitərəfanə ətfi-nəzər edə [nəzər sala] biləriz. Fələstin milləti-israiliyyə nəzərində müqəddəs olduğu [qədər], miləli-islamiyyə və xristianiyyə [müsəlman və xristian millətlər] üçün də böylədir. İslamın orada müəssisati-müqəddəsəsi [müqəddəs binaları] bulunduğu kimi, xristianlığın da məhdi-zühuru [beşiyi, meydana çıxdığı yer] və bütün ənənat və müqəddəsatının ehtivagahı [bütün ənənələrini və müqəddəs dəyərlərini özündə ehtiva edən yer] orasıdır. Fələstin üzərində milləti-israiliyyənin haqqı təslim olunsa da, bu məsələləri də həll etmək lazımdır. Bundan böylə, Fələstin qitəsində milləti-israiliyyənin feyz və inkişafına, şimdiyə qədər vücuda gətirmiş olduqları müstəmərələrin [istismar etdikləri torpaqların] tövsisinə [genişləndirilməsinə] bir manеə təsəvvür olunammaz. Yer üzündəki bütün musəvilərin Fələstində iskanı isə həman-həman hüsul imkanı [əmələ gəlməsi] maddətən bulunammayacaq bir məsələ şəklində görülür. Məsələ Fələstin şəkli-idarəsinin təyinindədir. Məmaliki-Osmaniyyədə [Osmanlı ölkəsində] qalacaq və Osmanlı [vətəndaşı] sifəti ilə buraya gələcək olan musəvilərin burada hər dürlü sühuləti [rahatlığı, əlverişli şərtləri] görəcəklərindən, haqq və hürriyyətlərindən tamamilə müstəfid olacaqlarından [istifadə edəcəklərindən] əmin ola bilərlər. Vaxtilə dövri-Həmididə [II Əbdülhəmid dövründə] Fələstində bir taqım təhdidat və təzyiqata [təhdidlərə və təzyiqlərə] düçar edilmiş olmaları bir misal təşkil edəmməz. O dövrlər büsbütün qapanmışdır və şimdiyə qədər Türkiyədə yaşamış olan musəvilərin, dünyanın hər tərəfində əza və cəfaya uğradıqları zamanlarda Türkiyədə hüzur və rahat görmüş olduqları zənnindəyiz. Türklər üçün musəvilərin feyz və təalisini [inkişaf etmələrini və ucalmalarını] istəməyə, aralarında bulunanlara dəsti-səfvət və üxüvvəti [səmimiyyət və qardaşlıq əlini] uzatmağa bir mane yoxdur.

## ERMƏNİLƏRİN MÜDAFİƏSİ

"Peti Parizyen" qəzetəsi ermənilər tərəfindən dərmiyan edilən mətalib [irəli sürülən tələblər] üzərinə fransız qəzetələri tərəfindən vaqe olan nəşriyyatın erməni məhafilində [dairələrində] həm heyrət, həm də yəs [məyusluq] oyandırdığını xəbər verdikdən sonra, Fransız Erməni Cəmiyyəti katibi-ümumisi [baş katibi] olub Osmanlı xidmətində mütəsərriflik etdiyini iddia edən Aram ismində bir zatın [şəxsin], mühərrirlərindən birinə vaqe olan bəyanatını nəşr edir. Bu zat deyir ki:

*"Bizim iki tələbimiz vardır: Birincisi, Ermənistanın müttəhid [birləşmiş] və qeyri-qabili-təczi [bölünməz] bir küll təşkil etməsi; ikincisi, bir Avropa məmləkəti ola bilmək üçün Bəhri-Səfid [Aralıq dənizi] sahilində ərazisi bulunması. Talib olduğumuz ərazidə əqəliyyətdə [azlıqda] bulunduğumuzdan bəhs olunur. Qırx sənədir həp bu etirazı eşidiriz. Yunanıstan da elani-istiqlal etdiyi zaman türk paşalarının qitalından [qətliamından] qurtulmuş 400 min kişidən [nəfərdən] ibarət idi.*

*Ermənistan əhalisi içində az zamanda irqi, lisanı, harsı [mədəniyyəti] müştərək bir erməni əksəriyyəti-nisbiyyəsi [nisbi çoxluğu] təşəkkül edə biləcəkdir. Yəni, irq və lisanları ayrı olan türklərin və kürdlərin, çərkəzlərin, tatarların qarşısında ermənilər haizi-əksəriyyət olacaqdır [çoxluğa malik olacaqdır]. Bizim iddialarımıza qarşı istatistikdən bəhs olunur. İstatistik mütəməddin [mədəni] millətlərə təəllüq etdiyi [əlaqədar olduğu] zaman bir qiyməti haiz [qiymətə malik] ola bilər. Məsələn, Cənubi Arnavudluqdakı [Cənubi Albaniyadakı] yunan mətalibini [tələblərini] çürütmək üçün oradakı yarı-vəhşi və ibtidai əhalinin nisbəti-ədədiyyəsini mövzuyi-bəhs etmək [say nisbətindən danışmaq] nə qədər mənasız isə, türklər və kürdlər haqqında istatistikin şəhadətini qəbul etmək həm mənasız, həm də təhlükəlidir. Erməni müddəiyyatı [iddiaları] istatistik ianətilə [yoluyla] çürüdüləmməz. Bir əsrdən bəri Yevropa dövlətləri 6 milyonluq bir türk əqəliyyətinin [azlığının] kəndilərinə hər cəhətlə faiq [üstün] olan 30-40 milyon erməni, makedoniyalı, suriyalı və ərəb üzərində icrayi-təhəkküm etməsinə [hökm etməsinə] meydan buraxmışlardır. Eyni dövlətlərin bu gün silah arxadaşları olan erməniləri əqəliyyəti-ədədiyyə vəsiləsilə [saylarının azlığı səbəbindən] əməllərindən [arzularından] məhrum etmələri caiz olammaz.*

*Şurasını əlavə edəyim ki, ermənilərin təvəccöhünü [rəğbətini] cəlbə müvəffəq olan dövlət, Asiyayi-qərbi [Qərbi Asiya] üzərində siyasi və iqtisadi bir hakimiyyət təmin edə biləcəkdir. Bu təvəccöhün əsrlərdən bəri Fransa denilən və qəhrəmanlığın və məhasini-əxlaqiyyənin [müsbət əxlaqi keyfiyyətlərin] vətəni olan gözəl məmləkətə mütəmail [mail, yönəlmiş] olduğunu bəyana hacət varmı?"*

Bu fəqərəni dərc edən "Vakit" qəzetəsi kəndi tərəfindən aşağıdakı sətirləri əlavə edir:

Biçarə istatistik pək fəna siyasi ehtiraslara alət edilmişdir, pək çirkin surətlərdə təğlit olunmuşdur [təhrif edilmişdir]. Fəqət bir tərəfin istatistikin ehkamından [hökmlərindən] istifadə haqqını digər tərəfdən külliyyən nəz' edərək [əlindən alaraq] bu zəmində iddiayi-hüquq etməsi istatistik tarixində hər halda ilk dəfə olaraq vaqe olur.

## ÇAĞIRILACAQ BEYNƏLMİLƏL KONFRANS MÜNASİBƏTİLƏ NAXÇIVAN VƏ ŞƏRUR MAHALLARI

**- 1 -**

Hər bir qafqazlı və baxüsus [xüsusilə] azərbaycanlı, Qafqaziya cümhuriyyətləri miyanında [arasında] mövcud ixtilaflı məsələləri sülh təriqi [yolu] ilə həll etmək üçün çox vaxtdan bəri arzusunda bulunduğumuz beynəlmiləl konfransın artıq bu yaxınlarda iniqad edəcəyini [baş tutacağını] bilərək, Qafqaziya cümhuriyyətlərini gec də olsa nail olduqları bu az müvəffəqiyyətdən dolayı təbrik etməyə bilməz.

Zatən, Zaqafqaziya millətləri yüz illərlə yan-yana yaşadıqlarından milli, iqtisadi və bir çox başqa xüsuslarca bir-birləri ilə ən sıxı irtibatları [əlaqələri] mövcud və həm gələcək iqballarıı [taleləri, xoşbəxtlikləri] bir-biri ilə hüsn-münasibat [yaxşı münasibətlər] vücuda gətirmələri ilə mərbutdur [bağlıdır].

Hüsn-münasibat yalnız tərəfeynin [hər iki tərəfin] bir-birinin hüququnu riayət etməklə və kəndi-kəndinə yaşamaq imkanı verməklə olduğundan, istəriz inanaq ki, keçirilən bunca fəlakətlərdən, axdırılan bu qədər qanlardan və tarümar edilən bu qədər xanimanlardan sonra Qafqaziya millətləri şimdi artıq ümumi dil tapmağa müvəffəq olarlar və gözəl Qafqaziyamızı Balkan yarımadası deyil, İsveçrəyə təbdil etməyə [çevirməyə] sərfi-hümmət [səy] edərlər.

Rusiya inqilabi-kəbiri [Böyük Rusiya inqilabı] ümum bəşəriyyətlə bir yerdə Qafqaziya millətlərinə həm istibdadın bitdiyini, hürriyyət, ədalət, müsavat əsrlərinin yetişdiyini təbşir etdisə [müjdələdisə], məəttəəssüf [təəssüf ki], Qafqaziyanın xırda millətlərinə cahangirlər mərəzi [imperialistlərin xəstəliyi] həm sirayət etdiyindən [yoluxduğundan], onlar müsaid [əlverişli] vaxtlardan istifadə edərək bir-birlərini bəl etmək [udmaq; yemək] iştahasında olduqlarını və kəndi iqballarını qonşularının bədbəxtliyində bildiklərini kərratla [dəfələrlə] nümayiş etdilər.

Bunun nəticəsi olaraq Qafqaziya qan dəryasına döndü. Bu keşməkeşlərdə, bu fəlakətlərdə hamıdan artıq mütəzərrir [zərər çəkən] Qafqaziya islamları olduqlarını isbata ehtiyac yoxdur, zənnindəyəm.

Yetər yalnız ki, bütün Qars və Batum oblastlarında və İrəvan quberniyasında on dənə yanmamış və talan olunmamış islam kəndi belə tapılmaz. İrəvan quberniyasının erməni hökuməti icra olan qitələrinin daxilində yaşamaq məcburiyyətində qalan islamların halları şimdi belə pək fənadır.





Əlbəttə, Sülh Konfransı bu məsələlərə lazımi diqqət edəcək və 20-ci əsrin insanlarına insancasına yaşamaq imkanı veriləcəkdir.

Beynəlmiləl konfransın həll edəcəyi məsələlərdən ən böyük əhəmiyyəti haiz olan [daşıyan] şübhəsiz hüdud məsələsi olacaqdır. İxtilaflı sərhəd məsələlərinin birisi də bilməm hansı prinsip üzərinə İrəvan hökuməti rəyincə sabiq İrəvan quberniyasının Şərur və Naxçıvan uyezdləri olduqlarından, Azərbaycan əfkari-ümumiyyəsini [ictimaiyyətini] məzkur [deyilən] nahiyələrlə aşina etmək və ermənilərin tələblərinin nə qədər əsri-mədəniyyətə və milyonlarla qanlar bahasına alınmış "samooperedeleniye" [öz müqəddəratını təyin etmə haqqı] şüarlarına müğayir [zidd] olduqlarını sübuta çalışmaq hər bir Azərbaycan vətən-daşının və baxüsus naxçıvanlı bir türkün milli borclarındandır.

Məlum olduğu üzrə, sabiq İrəvan quberniyası yeddi uyezdə [qəzaya] təqsim olunurdu [bölünürdü]. Bu uyezdlərin üçündə (Aleksandropol, Novo-Bayəzid, Eçmiyədzin) ermənilər və başqa üçündə (Naxçıvan, Şərur və Sürməli) yerli türklər əksəriyyət təşkil edirlərdi.

İrəvan uyezdinin dəmiryol xətti ətrafları əksərən ermənilərlə, Vedi çay boyu əksərən islamlarla məskun idilər.

1916-cı ilin təhriri-nüfusu [əhalinin qeydə alınması] ilə İrəvan quberniyasında cəm'ən [cəmi] bir milyon yüz əlli minə yaxın bir camaat yaşayırdı. Sabiq Qafqaziya canişini dəftərxanasının kalendarında göstərilən rəqəmlərə inanılarsa, bu camaatın 50 faizi erməni, 45 faizi türk-islam, mütəbaqi [qalan] 5 faizi isə yezidi, kürdlər, assurilər, malakanlar və ruslardan ibarətdir. Lakin həmişə olduğu kimi, qeyd olunmamış islamlar nəzərdə tutularsa, ermənilərlə yerli türklərin ədədində olan fərq bir qədər həm müsəlmanlar mənfəətinə olaraq təbdil olunar [dəyişər].

Sürməli uyezdi şimdi Qars və Batum oblastları ittifaqına daxil olduğundan, təbii, buranın müqəddəratı həman oblastların müqəddəratı ilə müştərək həll olunacaqdır.

Naxçıvan və Şərur mahallarına gəldikdə, bu mahalların 300 mini mütəcaviz [keçən] camaatının 80 faizi həman 1916-cı ilin siyahısı ilə türk və islamlardır. Bu iki ölkə mart ayının ibtidasından [əvvəllərindən] türklərin işğalına kimi İrəvan Hökumətinin bütün təərrüzatına [hücumlarına] qarşı təni-vahid [vahid bir bədən] kimi müqabilə etmişlər və kəndilərini Azərbaycanın ayrılmaz bir hissəsi bildiklərindən, Ararata [Ermənistana] baş əyməyi heç xatirlərinə belə gətirməmişlərdir.

Naxçıvan uyezdinin ermənilərlə müsəlmanlarının sayılarını müqayisə etdikdə, bunu həm nəzərdə tutmalıdır ki, Naxçıvan ermənilərinin dəyərli bir faizi mühacir sifətilə başqa məmləkətlərdən gəlmişlər və bu gəliş biz naxçıvanlıların kəndi əsrimizdə olub. Məsəl[ən] Təzəkənd, Əliabad və bir çox bunlar kimi erməni kəndlərinin əhalisi yalnız 30-40 sənə əqdəm [qabaq] həmin torpaqlarda iskan etdikləri [məskunlaşdıqları] halda, yerli islamlar neçə yüz illərdir buralarda yaşayırlar.

Naxçıvan mahalına Ermənistan deyə adlandırmalarına böyük bir dəlil olaraq

erməni qonşularımız "Qızılvəng" və "Əbrəqunis" monastırlarını göstərirlər və bu monastırların erməni səltənəti dövründən qalma olduqlarını isbata uğraşaraq, buraların tarixi Ermənistan olduğunu iddia edirlər. Lakin ermənilərin bu tarixi dəlillərinin və onların başqa bir çox bu qəbil dəlilləri kimi isbata artıq ehtiyacı var. Çünki islam hökmdarları başqalarının din və məzhəblərinə təzyiq etdiklərinə dair tarixdə bir söz belə olmadığından, bu məbədlərin islam dövri-səltənətində vücuda gəlmələri onların "müstəqil Ermənistan əlamətləri" olduqları şayiələrindən daha həqiqətə müvafiqdir, zənnindəyəm. "Qızılvəng" monastrının üç verstlik məsafəsində bulunan Şah Abbasi-kəbir tərəfindən inşa edilmiş "Abbasabad" qalasının barıları [divarları], "Əbrəqunis" monastırının yaxınlığında bulunan "Əshabi-kəhf" və "Milaq" pirləri, Səlcuqilər əsrindən qalmış olan həşəmətli "Xan minarəsi"nin kufi xətti yazıları, "Qoşaqala" xarabalarının altından islam xətləri ilə yazılmış hürufat [hərflər] və sikkələrin tapılması, "Xan minarəsi"ndən daha qoca olan "Ana-baba" kəndi və bir çox bu qəbil asari-ətiqə [qədim əsər] erməni qonşularımızın tarixi iddialarının əsilsiz olduqlarını və buralarda islam səltənətləri çox qədim vaxtdan bina tapdıqlarını isbat edir.

Lakin Naxçıvan və Şərur mahallarına Azərbaycan dedikdə biz heç vaxt bu tələbimizi tarixə isnad etməyirik. Yalnız tarixi nöqteyi-nəzərdən həm bu ölkələri bizim əlimizdən almağa bir sübut olmadığını əlavə ediriz. Bütün tarixi və arxeoloji sübutlardan artıq Naxçıvan və Şərur nahiyələrinin kürreyi-ərzdə "Azərbaycan" namını [adını] daşıyan ərazinin bir qitəsi [hissəsi] olduğu və bu qitənin sakinlərinin 80 faizi türk və islam olduqları üçün bu iki ölkənin Azərbaycan cismindən ayrılmağının heç bir prinsiplə düz olmadığıdır. Bu torpaqlarda yaşayan türklər təsadüfi olaraq üç-dörd il deyil, belə əsrlərlə bu ərazidə yaşayırlar. Tarixi nişanələr, əlamətlər nə qədər əziz və dəyərli olsalar, yenə qeyri-ziruh [cansız, ruhsuz] daş və torpaqdan başqa bir şey deyildirlər. Bu qeyri-ziruh torpaqlar, daşlar xatirəsi üçün yüz minlərlə və yüz illərlə yaşayıb gələn bir kütlənin ata-baba yurdlarını əlindən almaq heç bir prinsiplə düz olmadığı kimi, heç bir vicdan buna həm təhəmmül etməz [dözməz].

Erməni qonşularımız tərəfindən iniqad edəcək [baş tutacaq] Qafqaziya Beynəlmiləl Konfransına gələn mürəxxəslərin [nümayəndələrin] Paris Sülh Konfransında olduğu kimi ölülərə pay istəyən xülyapərəst, cahangir [imperialist] yox, həqiqi demokrat olmalarını arzu ediriz.

Onların bizim də olmasa, nim-rəsmi [yarı-rəsmi] Fransa qəzetələrinin aqilanə tövsiyəsini dərk edərək yalnız kəndiləri əksəriyyət təşkil etdikləri bir ərazidə məmləkət təsis etməyə sərfi-hümmət [səy] edəcəklərini bəkləyiriz.

Əksinə olaraq, bugünkü "müsaid" ["əlverişli"] fürsətdən bilistifadə [istifadə edərək] qonşu islam ölkələrini bəl etmək [udmaq, yemək] iştahası yenə təcdidi-vücud edərsə [yenidən meydana çıxarsa], yarın "qeyri-müsaid" bir vaxtda həştad milyon türk-islam mühiti daxilində yaşamağa məhkum olan kiçik bir millətə bu heç də sərf etməz, zənnindəyəm.

Dünyanın məhəlli-həvadis [hadisələr yeri; dəyişkən] olduğunu beş sənə zərfində Cahan müharibəsi kərratla [dəfələrlə] isbat etdi. Binaənileyh [ona görə], "müsaid" vaxtlardan heç də istifadə arzusuna düşməyərək, gec də olsa kəndi-kəndimizə bəradəranə [qardaş kimi] əl uzadalım və aralığımızda mübahisəni mövcib [mübahisə yaradan] məsələləri məxfi diplomatiya təriqi [yolu] ilə və yaxud kənardan gəlmiş olan başqa bir qüvvəyə isnad ilə deyil, milyonlarla qanlar bahasına alınmış və Rusiya inqilabi-kəbiri tərəfindən bütün dünyaya təbşir edilmiş [müjdələnmiş] hürriyyət əsası [prinsipi] ilə, "samooperedeleniye" [öz müqəddəratını təyin etmə] şüarı ilə həll edəlim və əhalisinin 80 faizi türk və islam olan bir vilayəti mübahisəli məsələlər zümrəsinə daxil etməyəlim.

Azərbaycan Hökuməti tərəfindən Qafqaziya Beynəlmiləl Konfransında iştirak edən mürəxxəslərimizə [nümayəndələrimizə] verilən düsturüləmələdə [təlimatnamədə] "Naxçıvan və Şərur mahalları Azərbaycan vücudunun birər üzvləri olduqlarından, buralar mübahisəli məsələlər zümrəsinə heç də daxil ola bilməzlər" cümləsi havi [cümləsini ehtiva edən] bir fəsil olacağına əminiz. Bizim bu qüvvəti-qəlbimizi [mənəvi gücümüzü] Rəisi-vükəla [Baş nazir] həzrətlərinin Parlaman kürsüsündən oxuduğu deklarasiyası həm təqviyə edir [gücləndirir]. Zatən başqa dürlü olacağını heç bir Azərbaycan vətəndaşı belə təsəvvür edə bilməzdi.

*Tağı Nağdəlizadə*

**DAŞNAKLAR TÖHMƏTİNƏ QARŞI**

Gürcüstan ordusunun Axıska qəzasını təkrar istila etdikdə türk əhalisinə etdikləri zülmə qarşı Azərbaycan Hökumətinin protestosu haqqında Daşnaksaqan firqəsi mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olan "Vperyod" qəzetəsinin (27-ci nömrə) "Qərarsızlıq" ünvanı ilə baş məqaləsində *"Cənub-Qərb hökumətinin ordusu Gürcüstan içərisinə yürüdükdə sükutu qəbul edib bəlkə də ürəkdən məsrur olan [sevinən] azərbaycanlılar, Gürcüstan ordusu kəndi qüvvəsini təkmil edib [toplayıb] Axıskaya yürüdükləri əsnada mətbuat və rəsmi protesto vasitəsilə qeylü-qala [səs-küy salmağa] başladılar. Neyçün bu qeylü-qal bundan müqəddəm [əvvəl] də olmayırdı?"* deyir.

Və bunu da əlavə edir ki, Qars, Batum və Axıska kimi Qarabağ da vardır. Bəs neyçün "Azərbaycan xanları" onu da düşünməyirlər ki, Qarabağın da 300 min erməni əhalisi Azərbaycanı qəbul etməyib, Ermənistana mülhəq olmaq [birləşmək] istəyirlər?

Daşnaklar əla bilirlər ki, Axıska qəzası əskidən bu anadək bilkülliyyə [tamamən] islam-türk əhalisi ilə məskun və rus imperializmi dövründə belə idarə başlarında rus məmurları bulunmuşsa da, yenə də qəza ümuratının [işlərinin] üsuli-idarəsində nüfuza islam-türk əhalisi malik olmuşdur. Şimdi hürriyyət zamanında axıskalılar kəndi ixtiyaratını əllərinə alıb, kəndilərini idarəyə başlamışlar. Bunlara qarşı hərəkətdə bulunub, bunları silah gücü ilə kəndilərinə tabe etmək üçün əhaliyə zülümlə onları qətl və qarət etmək istiqlaliyyət dövründə

demokratik Gürcüstana şayəstə [layiq, yaraşan] görülmədiyi təbiidir və təbii bir halı qeyri-təbii etmək mümkünat xaricindədir.

Qarabağın əsrlərdən bəri islam məmləkəti olduğunu daşnaklardan başqa azca da olsa sahibi-vicdan olan heç bir fərd inkar edəmməz. Birə-beş dəfə ermənilərdən ziyadə nüfusa malik olan bir məmləkətin müsəlmanlar əlindən alınıb da sonradan gəlmə, künc-bucaqda yaşayan əmniyyətsiz [etibarsız; təhlükəli] bir güruha verilməsini nə insaf və nə də buranın sahibi qəbul edə bilməz və etməz də. Bunu daşnaklar gözəlcə anlayıb sükutla oturmalarını onların mənfəəti yolu ilə onlara tövsiyə ediriz.

*Məhəmməd*

## FİRQƏLƏRİMİZ VƏ KÖNÜLLÜ ƏSGƏRLƏRİMİZ

Bir qaç gündən bəri firqələrimiz Şimali Qafqaziyanın saf sinəsinə ayaq basmaq istəyən qara fikirli denikinlərin qarşısına göndərmək üçün könüllü bölükləri təşkil etməkdə qayət ciddiyyət göstərirlər. Təbii, böylə bir təşəbbüs gözəl bir təşəbbüsdür. Buna bir sözümüz olammaz. Zira əsrlərcə hüquqi-milliyyələri ayaqlar altına alınan və hürriyyətləri sui-istemal edilən Qafqaziya mil-lətləri qanlar tökərək, canlar verərək al-dıqları istiqlaliyyəti qara fikirli denikinlərin qanlı pəncələri ilə, kəskin dırnaqları ilə məhv etdirmək və yenidən o mənhus çarizmanın təhti-əsarətinə [əsarəti altına] girmək istəməz və bu yolda lazım gələn tədabiri-əsgəriyyəni [hərbi tədbirləri] görmək məcburiyyətində bulunur.

Fəqət burada bir sual ortaya çıxır ki, əcəba, şu tədabiri-əsgəriyyəni kimlər dəröhdə etməlidir [öhdəsinə götürməlidir]. Bizə qalarsa, biz deyə biləriz ki, hətta təcrübəmiz nəticəsi olaraq qəti bir surətdə cavab verə bilərik. Hər nə qədər siyasi firqələr əsgəri bir müəssisənin və əsgəri bir müəssisə siyasi firqələrin işlərinə müdaxilə etmişsə, vətən daha ziyadə təhlükələrə məruz qalmış və ən nəhayət, inqirazlara yüz çevirərək [çökməyə üz tutaraq] aqibət məhv olub getmişdir.

Bu gün böyük Rusiyanı və onun inqilabını dərxatir etsəniz [yadınıza salsanız], bu yolda uzun-uzadıya dəlillər gətirməyin lüzumu olmadığına qənaət kəsb edərsiniz. Əgər bu gün firqələrimiz denikinlərin çəngalından [caynağından] dindaşlarımızın vətənini qurtarmaq və bu surətlə kəndi vətənimizi də mühafizə etmək təsəvvüründə bulunurlarsa, onda hər bir firqənin topladığı könüllü əsgərlərin o firqəyə görə də bir siyasi fikri olacağını düşünməli. Halbuki vətən imdadına qoşan bir əsgərin isə siyasi bir fikir bəsləməsi hərb nöqteyi-nəzərincə caiz deyildir. Binaənileyh [ona görə], bir əsgərin siyasəti ancaq vətən, vətən olmalıdır. Bundan başqa bir fikir olmamalıdır. Buna görə lazımdır ki, hər bir firqə yalnız kəndi namından [adından] deyil, vətən namından könüllü əsgər toplamalıdır.

Bu da ancaq böylə mühüm zamanlarda ümum firqələrimizin bir araya gəlib beynəlfirəq [partiyalararası] bir əsgəri komisyon [hərbi komissiya] təşkili ilə olar və bu sayədə dindaş və vətəndaş imdadına qoşula bilər.

*R[za] Zaki*





## CƏNUB-QƏRBİ QAFQAZİYA CÜMHURİYYƏTİ

Bu son günlərdə Qərbi-Cənubi Qafqaz Cümhuriyyətində bəzi təbəddülat [dəyişikliklər] əmələ gəlmişdir. Həqiqətiəhvalı qarelərimizə [oxucularımıza] bildirməkdən ötrü bugünlərdə Qarsdan gəlmiş olan bir doktorla müsahibədə bulunduq. Mümaileyh [deyilən şəxs] bizə həman cümhuriyyət və o cümhuriyyətin təşkilindən bu ana qədər vaqe olan hallar barəsində böylə məlumat verdi:

Keçən il noyabrın axırlarında Qars və Batum oblastlarının türk qoşunlarından təmizlənməsi xəbəri alındıqda, Qarsda Müsəlman Milli Şurası təşkil edilmişdi və Milli Şura Batum və Qars oblastlarının ümuri-idarəsini [idarə işlərini] əllərinə almışdı. Türklər gedəndə bir çox şeyləri aparmışlardı. Ona görə də bu oblastların halı yaxşı deyildi. Milli Şura türklər getdikdən sonra müvəqqəti hökumət təşkil eyləmişdi. Bu hökumətin Baş nazirliyinə İbrahim bəy Cahangirov intixab edilmişdi [seçilmişdi]. Mümaileyh ağıllı və durbin [uzaqgörən] bir zatdır [şəxsdir].

Dekabrın 1-də Qarsda Milli Şuranın qərarı ilə Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti elan edilmişdi. Bu cümhuriyyətə Batum və Qars oblastları, Axıska, Axalkələk, Sürməli, Şərur və İrəvan mahalının cənub-şərq tərəfi və Naxçıvan uyezdi daxildirlər. Dekabrın ortalarında bir komisyon təşkil edilmişdi ki, Parlaman intixabatına şüru eyləsin [Parlament seçkilərinə başlasın]. Komissiya intixab layihəsi [seçki proqramı] tərtib edib ümumi, məxfi, müstəqim [birbaşa], müsavi üsullarla Parlamana yuxarıda zikr edilən yerlərdən hər 10 min nəfərə bir üzv intixab edilmişdir. Mart ayının 9-da təntənəli surətdə Qarsda Parlamanın rəsmi-güşadı vaqe olmuşdu [açılış mərasimi baş tutmuşdu].

Hələlik Parlamanda 72 üzv var idi. Parlaman sədarətinə doktor Əsəd bəy Hacıyev intixab edilmişdi. Parlaman qayət ciddiyyətlə işləyir. Mart ayının 27-də tənənəli surətdə Parlamanda Cənub-Qərbi Qafqaz Cümhuriyyəti istiqlaliyyəti elan edilmişdi. Parlaman təşkilindən sonra Milli Şura vəkaləti bitmişdi. Şimdi bu Cümhuriyyəti Parlaman və müvəqqəti hökumət idarə edir.

Məəttəəssüf [təəssüf ki], hökumət üzvlərinin bəzisi iqtidarsızdır. Bu Cümhuriyyətin ziyalılara fövqəladə ehtiyacı vardır. Böylələrini Azərbaycanda[n] gözləyir. Parlamana müsəlmanlardan əlavə, 3 rum (qrek) üzvü də daxil olmuşdur. Müvəqqəti hökumət heyətinə isə bir rus, bir rum daxil olmuşdur. O ki qaldı ermənilərə, Parlaman qərar qoymuşdur ki, qanlı müsadimələr [toqquşmalar] vaqe olmamaqdan ötrü və müsəlmanlarla ermənilərin hələlik mütəqabil [qarşılıqlı] əlaqələri anlaşılmadığı üçün ermənilər cümhuriyyət torpağına buraxılmasınlar. Bundan əlavə, bu cümhuriyyətdə öylə kənd və qəsəbə yoxdur ki, orada İrəvan və sair quberniyalardan gəlmiş müsəlman fərariləri [qaçqınları] olmasın. Binaənileyh, boş yer olmadığı üçün ermənilərin bu cümhuriyyətə buraxılmasına imkan qalmamışdır.

İngilis komandanlığının məlumatına nəzərən, İrəvan quberniyasında 482 müsəlman kəndini müsəlmanlar tərk edib qaçmışlar. Bunların əvəzinə isə Qars oblastında yalnız 82 erməni kəndi tutmuşlardır. Cümhuriyyətdə aclıq, tif son nöqtəyə varmışdır.

Xüsusən, Kağızman nahiyəsində tif şiddətlənmişdir. Hər gün orada acından, tifdən yüzlərlə müsəlman həlak olur. Nə həkim, nə dərman... Onlara təcilən müavinət etmək fərzdir. Gərək təbib və gərək dəvacat və ərzaqla onlara müavinət edilməlidir.

İngilislər zahirən müsəlmanların aclığını hiss etməyirlər. Ona görə də Sarıqamışda türklərdən qalmış və əhalidən cəm edilmiş buğdaları Ermənistana daşıyırlar. Tifdən, aclıqdan bəzi yerlərdə o qədər müsəlman tələf olur ki, onları vaxtında dəfn etmək belə qabil deyildir. Müsəlmanlar acından və tifdən divanə halına gəlmişlərdir. Hökumət pulsuz olduğundan, bu bəlaların qarşısına çıxa bilməyir. Bəzi hökumət üzvləri hökumətdə bimuzd [muzdsuz] işləyirlər.

Buğdalar aparılmasından dolayı martın 23-də Qarsda müsadimə vaqe olmuşdur [toqquşma baş vermişdir]. Camaat təvəqqe edir ki, Qars oblastından buğdaları aparmasınlar. Fəqət ingilislər əhalini silah gücü ilə pərişan etmişlərdir. Bu əhvaldan həyəcana düşən camaat silah sakladlarına hücum edib 100 ədəd yaramaz berdanka və 20 ədəd şaşka [qılınc] almışlardır. Cümhuriyyət hökuməti əhvalatı bilib, süvari qoşunlarını göndərib silahları camaatdan almaq istəmişdir. Sonra ingilis süvariləri də yetişib silahları camaatdan almışlar və böyləliklə bu hadisə bitmişdir. Keşməkeşdə bir müsəlman qətl edilmişdir. Yerli qəzetələr hərçənd bu müsadimədə bir çoxlarının qətl edildiyini yazırlarsa da, bunlar həpsi mübaliğəlidir.

Alınmış olan xüsusi xəbərlərə görə, ingilis komandanlığı Qarsda hökumət üzvlərindən bəzisini həbs eyləmişdir və xüsusi qatarla Batuma göndərmişlərdir.

Bir də Bakı qəzetələrində böylə bir xəbər verilirdi ki, guya Cənub-Qərbi Qafqaziya hökumətinin baş naziri Sərvər bəy Atabəyov qətl edilmişdir. Fəqət mərhum hökumət başçısı deyil, Axıska və Axalkələk müvəqqəti komissariat rəisi müavini idi. Axıska gürcü qoşunları tərəfindən geri alındıqdan sonra Sərvər bəy cümhuriyyət qoşunları baş komandan müavinliyinə təyin edilmişdi.

Bundan əlavə, Əfzəl bəy Musakov qətl edilmişdir. Mərhum, istiqlaliyyət yolunda canfəşanlıq edən və bu yolda yorulmaqsızın çalışan bir zat idi. Şimdi biçarənin əhli-əyalı pərəstarsız [himayəsiz, köməksiz] və parasız qalmışdır. Görünür ki, bu qətllərdə gürcülərin əlləri vardır.

Gürcülər son vaxtlarda müsəlmanlar arasında ciddi təbliğatda bulunub, Batum oblastını Gürcüstana mülhəq etmək [birləşdirmək] istəyirlər. Bir çox molla və xocaları pul gücü ilə öz tərəflərinə çəkib, onlar da gürcülər nəfinə [xeyrinə] müsəlmanlar içində təbliğatda bulunurlar.

*Felyeton*

## RUS TİCARƏTİNİN TARİXİ

### II

### Pyotri-Kəbir dövrü

### - 3 -

Pyotri-Kəbir [Böyük Pyotr] zamanına qədər rus ticarəti yalnız "xammalların" dairəsində dolaşıb durdu. Bu xammallar da Yevropa şəhərlərinə göndərilib, oradan "xas mal" surətiylə yenə Rusiyaya qaytarılırdı. Yəni, əhalinin mətası öz əllərindən alınıb özlərinə də birə-beş, birə-on baha qiymətə satılırdı. Buna təkcə bir çarə var idi ki, o da malların vətən fabrikasında xaslanması idi. Hələ fabrikaları işlətməyə qadir ustaların Rusiyada bulunmadığı səbəbə imperator Pyotr əcnəbi vilayətlərdən kamil və mahir üstad və sənətkarlar dəvət edib, rus cavanlarını öyrətmək üçün hökm və fərmanlar verdi. Sənətkarların ən qabili və ən məşhuru böyük-böyük məvaciblərlə çağırılırdı. Məsələn, firəng mühəndisi Leblon 40 min manat məvacibə dəvət olunmuşdu. Dəvət olunmuşların vəzifəsi rus şagirdlərindən heç bir şey gizləməyərək, bildikləri sənətlərin tamam fənn və üstadlığını təlim etmək idi.

Buna kifayət olunmayaraq, qabiliyyətli rus cavanlarından bir çoxu birbaş Yevropaya göndərilirdi ki, orada adi sənətlərdən başlayaraq sənayeyi-nəfisəyə [incəsənətə] qədər cümləsini öyrənsinlər. Təlimdən qayıdarkən bu cavanların hifz edə bildiklərini tədqiq üçün imtahanlar yapılırdı. Qabiliyyətlilərini iş başına qonduraraq fabrika və zavod idarəçiliyini onlara tapşırırdılar.

Fabrikaçılar hər bir vəsilə [vasitə] ilə təşviq və tərğib olunurdular [həvəsləndirilirdilər]. Hətta xəzinədən bunlara faizsiz pul buraxılaraq dövlət vergiləri də alınmayırdı. Əvvəlinci fabrikaları hökumət özü xəzinə məxarici ilə açaraq işəbaşa saldıqdan sonra, xahişmənd [istəyən] tacirlərin ixtiyarına verirdi. Fabrika mallarına birinci müştəri xəzinə olub, aldığı malları da tamamən hökumət və dövlət ehtiyacına sərf edirdi. Odur ki, xəzinə üçün işləyən fabrikaların həm işləri müntəzəm və həm də mətaları möhkəm və davamlı olurdu. Bundan əlavə, artıcaq səy olunurdu ki, fabrika malları rus camaatı arasında da intişar tapsın [yayılsın]. Bunu əncama gətirmək üçün əcnəbi fabrikaçılarına həman mallardan Rusiya məmləkətinə gətirməyə izin verilməyirdi. Bu minval ilə rus malları camaat arasında rəvac və iştihar tapırdı [məşhurlaşırdı].

O vaxtlar Rusiyada azadə zəhmətkeş sinfi bulunmadığı üçün fabrika işləri təng [çətin] keçirdi. Lazım olan qədər əmələ [işçi] tapılmadığına binaən [görə], bir çox vaxt fabrikalar işləməyib yatırdı. Buna xitam vermək üçün dövlət fabrikaları ətrafındakı dəhat [kənd] əhlinin ixtiyarları həman fabrika idarələrinə verilir, ta ki, minbəd [bundan sonra] biyar təriqi ilə [məcburi qaydada] fabrikalarda işləsinlər. Sair fabrikaçılara da ixtiyar verilir ki, ehtiyac əsnasında dəhat əhlindən istədikləri qədər satın alıb fabrikalarda işlətsinlər. Bu fəqərədən [hadisədən] sonra azadə zəhmətkeşlik tərk olub, əvəzində cəbri [məcburi] zəhmətkeşlik üsulu bərpa olur.

**2) Ziraət, orman və maldarlıq islahatı**

O vaxta qədər əkin və biçin işləri ən qədim bir üsul ilə icra olunurdu. Ona binaən [ona görə] məhsulat da çox az olurdu.

Pyotri-Kəbir Ostzey ölkəsindən oraq və çin [dişli oraq növü] qisimlərini [hissələrini] gətirdib qubernatorlara hökm

yazır ki, bu alat [alət-avadanlıq] ilə dəhat əhlini aşina qılsınlar. Bunların işlənilməsinə hökumət tərəfindən qərardadi-icbari verildiyi üçün az bir vaxtda əhali arasında yayılıb intişar tapır [məşhurlaşır].

Rus kəndliləri ormanlara “tanrının hazır neməti” adını verərək rəhmsiz, amansız və şədidanə [şiddətli] bir surətdə qırıb çatırdılar. Bunun vətənə gələcəkdə nə növ ağır bir zərbə endirəcəyini bilmiş Pyotr meşələrin daha qırılmayaraq hifz olunması üçün “orman qanunları” icad etmişdir. Cənubda tənbəki əkmək, barama qurdu bəsləmək və üzümdən şərab çəkmək üçün imtiyazatlar [imtiyazlar] verilmişdi ki, bunlar da birinci ildən məhsul verməyə başladı.

Əhalinin heyvanati-beytiyyəsi [ev heyvanları] həm zəif və həm də az məhsuldar olduğundan naşi [ötrü], Hollandiya məmləkətindən qəviheykəl [güclü bədən quruluşuna malik] inəklər gətirilir ki, bugünkü məşhur “xalmaqor” inəkləri onlardan törəmişdir. Fabrikaların qoyun yununa böyük ehtiyacları olduğu üçün imperatorun hökmü ilə Kiyev və Azov quberniyalarında bir çox qoyun sürüləri bəslənilməsinə hökm verilir və bundan əlavə, Voronej quberniyasında at zavodları təsis olunub cins və qüvvətli atlar ortalığa gətirilir.

**3) Mədəniyyat [mədənçilik] islahatı**

Mədən qisimlərini kəşf etmək üçün xahişməndlərə [istəyənlərə] öz yerlərində, özgə yerlərində və xəzinə yerlərində, xülasə harada olursa-olsun yer qazıb mədən çıxarmağa izin verilir. Şəraiti isə 10 faiz “dağ xəracı” adı ilə xəzinəyə və mənfəətdən də 32 faiz yer sahibinə veriləcəkdi. Mədənçilərə mümaniət [maneçilik] göstərən yer sahiblərinə, yaxud gizlədənlərə böyük cəzalar verilir.

Tamam mədən işləri Yevropadan gətirilmiş Geniq adlı bir mühəndisə tapşırılmışdı. Bu şəxs qabaqca Olonets quberniyasındaki nohur və göllərdə dəmir kəşf edib zavodlar təsis etdi. Bu işin sürətlə tərəqqisi həman yerlərdə Petrozavodsk şəhərinin binasına bais olmuşdu. Sonralardan həman mühəndisin təşviq və tərğibi [rəğbətləndirməsi] ilə Ural dağlarında gümüş, mis, dəmir və şora mədənləri kəşf olunmuş idi. Bunları əridib tökmək üçün dövlət zavodları açıldı və bunları idarə etmək üçün Uralda imperatorun qadını namı ilə Yekaterinburq şəhəri təsis olundu.

Demidov familiyalı sadə bir qundaqsaza iş görmək üçün Ural dağlarında yerlər bağışlanır və xəzinədən də pul buraxılır. Az bir vaxtda Demidov məşhur zavodçulardan sayılıb bugünkü milyonçu Demidovlar sərvətinin də müəssisi [təsisçisi] və banisi olmuşdur.

Demidovun şöhrəti sairləri də işə cəlb etdi. Məsələn, o vaxta qədər Ural dağlarında duzçuluq ilə məşğul olmuş bəradərani-Stroqonovlar [Stroqonov qardaşları] özlərinə məxsus Ural torpaqlarında böyük zavodlar açmışlardır. Xülasə, mədəniyyat işləri öylə bir sürətlə tərəqqiyab olur ki, o vaxta qədər əcnəbi dəmirinə möhtac olmuş Rusiya bu dəfə özgələrinə dəmir satmaq məsələsinə müvəffəq olmuşdur. Dəmir zavodları ilə bərabər, dəmirdən məmul əslihə [dəmirdən düzəldilmiş silahlar] zavodları da açılır.

Lakin imperatorun ürəyində bəslədiyi ən böyük arzu və amalı “rus saldatını rus





mahudu ilə libaslandırmaq” idi. Bu vaxtda cənub quberniyalarında saxlanılan qoyun sürülərindən daha yun hasil olurdu. Bu yundan imperatorun hökmü ilə təzə açılmış fabrikada boz mahud toxunub saldatlara birinci dəfə olaraq şinel tikildi. Bu vəqə [hadisə] imperatoru o dərəcə şad qıldı ki, hətta həman mahuddan əvvəlcə özünə saldat şineli tikilməsi üçün hökm vermişdi. Hazır olduğu əsnada əyninə geyib şad və xürrəm bir hal ilə küçə və bazarı dolanırdı. Mahud fabrikalarının ədədini artırmaq üçün imperator hökm vermişdi ki, beş ilin müddətində o qədər mahud fabrikası açılsın ki, daha əcnəbi mahuduna ehtiyac qalmasın. Filhəqiqə [doğrudan da], hələ imperatorun sağlığında bir çox rus saldatı rus mahudu ilə müləbbəs [libas geymiş] və rus zavodlarında qayırılmış əslihələr ilə müsəlləh olmuşdu [silahlanmışdı].

İmperator ömrünün axırıncı günlərinə qədər 233 fabrika və zavod açdırmağa müvəffəq olmuşdu. Buradan hasil malların sürətlə rəvacı üçün 1724-cü ildə gömrük tarifi (таможенный тарифъ) sadir oldu [meydana çıxdı]. Bu tarifin mövcibincə [əsasında] bir çox əcnəbi mallarının Rusiyaya gətirilməsi tamam qadağan, bəzilərinə də 50-75 faizlə ağır bir gömrük qoyuldu ki, binaənileyh [o səbəbdən] bunların gətirilməsi çox baha tamam olduğu üçün əhali yavaş-yavaş vətən əmtəəsini alıb işlətməyə adət-kərdə oldu.

**4) Türüq və məabir [nəqliyyat və rabitə] islahatı**

Rusiyanın Yevropa qitəsi ilə ticarət əlaqəsi dənizlərdən ancaq şimalda vaqe [yerləşən] Ağ dəniz vasitəsilə olurdu. Lakin bu dənizin ən böyük bir eybi var idi ki, tamam 9 ay donub, yalnız 3 ay buzdan açılırdı ki, bu da seyri-səfainin (навигация) [naviqasiyanın] müddətini daha da artıq gödəldirdi.

Bundan əlavə, Ağ dənizin mövqeyi-coğrafiyyəsi böylə düşmüşdür ki, həm Rusiyanın mərkəzlərindən kənar şimal tükənəcəyi və həm də Yevropadan uzaq bir iskələ [liman] idi. Hökumət işlərinin hamısından artıq bu məsələ imperatoru təşvişə salmışdı. Yevropaya yaxın bir su yolu açmaq üçün məmləkətin sərhədlərinə diqqət yetirildisə də, əcnəbi əllərində bulunan dənizlərdən birini dərdəst etməkdən [ələ keçirməkdən] başqa ayrı bir çarə tapılmadı. Odur ki, cənubda Azak [Azov] dənizini türklərdən almaq üçün elani-hərb olundusa da, gözlənilən məqsəd hasil olmadı.

Cənub dənizlərindən naümid olmuş imperator qərbdəki dənizlərdən birini ələ gətirmək fikri ilə bu dəfə İsveç hökumətinə elani-hərb etməyə məcbur oldu. Bu müharibdən müvəffəqiyyət qazanmış imperator dərhal Baltik dənizinin səvahilində [sahillərində] Peterburq şəhəri ilə bərabər mükəmməl bir iskələ təmirinə mübaşir oldu [girişdi]. Daxili və xarici tacirlərin diqqətini yeni iskələyə cəlb etmək üçün bir çox imtiyazat verildisə də, yenə bir şey çıxmadı. Çünki tacirlərin Ağ dəniz kənarındakı vaqe Arxangelsk iskələsində ənvai [müxtəlif] müəssisələri, malları, anbarları, kontorları mövcud olduğu üçün oradan ayrılıb kənara getmək mümkün deyildi. Müntəzəm və ticarəti abad bir iskələni tul-

layıb, yeni və qeyri-məşhur bir iskələyə köçmək tacirlər üçün qorxulu bir məsələ idi. Odur ki, məşhur rus tacirlərinin oradan Peterburq iskələsinə köçməkləri üçün icbari bir hökm verildi. Kənar şəhərlərdən malların Arxangelskə göndərilməsi qətiyyən qadağan və Peterburqa göndərilməsi üçün də müsaidələr göstərilirdi. Bu minval ilə təzə iskələdən Baltik vasitəsilə Yevropaya yaxın su yolu açılıb, ticarət əlaqəsi get-gedə böyüyürdü. Burada ticarətin tərəqqisi üçün Rusiyada birinci dəfə olaraq 1723-cü ildə borsa (биржа) açılır. Üç ildən sonra təzə iskələnin ticarəti 4 milyona qərib [yaxın] olduğu halda, Arxangelsk tənəzzül edib axırda tacirlər tərəfindən unudulmuş kimi görülür.

Pyotri-Kəbir çox çalışırdı ki, rus malları rus tacirləri əli ilə rus vaporlarında [gəmilərində] göndərilib Yevropada satılsın və bunu icra etmək üçün bir çox əcnəbi vilayətlərində ticarət konsulxanaları açıldı.

İskələ məsələsi bitdikdən sonra daxili su yollarına əhəmiyyət verilir. Böylə ki, imperatorun fərmanı ilə 1703-1709-cu illərdə Vışnevoloç kanalı qazılıb ticarət gəmiləri işləməyə başlayır. Quru yollara sərf ediləcək qədər xəzinənin nəqdiyyəsi [pulu] olmadığı üçün hələlik Peterburq ilə Mosko [Moskva] arasında bir şose yolu çəkilir. Lakin bu yol bataqlıq və göllər arasından keçdiyi üçün tez-tez xarab olur. Odur ki, Moskodan Peterburqa gedən müsafirlər həftələrlə yolda məəttəl qalırdılar.

Poçta işləri o vaxta qədər pozğun bir halda idi. Bunu nizama salmaq üçün poçta işləri tamamən xəzinə ixtiyarına verilir və bundan sonra məşhur rus şəhərləri arasında poçta əlaqəsi yapılır.

O vaxtlar yevropalıların gözlərini xirələndirən [qamaşdıran] Hindistan əmtəəsi Pyotrun da diqqətini cəlb etmişdi. Hindistana gödək bir yol arayıb, ora mallarını Rusiyaya daşıyaraq buradan da Yevropa qitəsinə göndərmək xəyalı imperatoru ciddi düşündürürdü. Binaənileyh, İran məmləkətinə xüsusi elçi göndərildi ki, "Hindistandan Xəzər dənizinə axar bir nəhrin olub olmadığı məsələsi öyrənilsin". Bu vaxtlar rus-İran ticarəti tamamən erməni tacirləri əlində idi. Bunların Hacı-Tərxanda böyük kantorları mövcud idi. Ermənilər buraya gətirilmiş İran mallarını, ələlxüsus ipək qismini Hollandiyaya göndərib müqabilində də mahud gətirərək İrana aparırdılar. İşbu tranzit ticarətini tamamən öz əllərində birikdirmək üçün ermənilər imperatordan buna dair ayrıca icazə alırlar ki, İranda hasil olan baramanı Yevropaya göndərmək üçün Osmanlı sularını və yollarını tərk edib ancaq Rusiya yolları ilə göndərsinlər. Buna razı olaraq imperator erməniləri bəzi gömrük məxaricindən müəf [azad] edib ipək ticarətini də Rusiya dairəsində ermənilərdən başqalarına qadağan edir.

1716-cı ildə Hacı-Tərxana gətirilmiş İran və Buxara malları 446 min manatlıq olmuşdu. Yeni bu Şərq ticarətinin birinci tərəqqisi Şamaxı və İsfahan şəhərlərində ticarət konsulxanaları açmağına imperatoru vadar edir. Bundan sonra rus tacirləri İran ilə əlaqədar olub Rəştdə, Nizabadda və Şamaxıda ticarətə məşğul olurlar. Lakin bu halda İranda iğtişaş başlandığı üçün Dərbənd və Şamaxıda rus tacirlərini soymuşdular. Bundan istifadə edərək rus imperatoru İrana elanı





hərb edir. Müharibənin nəticəsi olaraq Xəzər (Kaspi) dənizinin qərb və cənub cəhətləri Rusiya dövlətinə ilhaq olunur [birləşdirilir].

Xita [Çin] məmləkəti ilə başlanmış əlaqəni də sazlaşdırmaq üçün imperator hökm verir ki, oraya iki ildə bir dəfə rus karvanı göndərilsin ta ki, rus malları çoxalıb qiymətindən düşməsinlər.

İmperatorun arzu və amalı bulunan "müxtəsər Hindistan yolu" Kaspi dənizindən şərq cəhətlərində aranıldısa da, əsl məqsəd hasil olmadı. Zira Xivə və Buxaraya göndərilmiş səfir ora əhalisi ilə rəftarı bacarammayıb, həm özünü və həm yanındakı rus qoşununu fəlakətə verdi. Bir bu qədər rus ticarəti üçün ciddü-cəhd etmiş imperator Pyotri-Kəbirin varisləri isə babaları kimi artıq iş görə bilməmişlərdir. Bunların səyləri ancaq Pyotr başladığı işləri axıra yetirmək və bəzilərini də hətta pozmaq idi.

Birinci Katerina əsnasında Pyotrun vəsiyyətinə əməl olaraq rus mallarından üç gəmi İspaniyaya göndərilib satılırsa da, sonralardan bunun dalınca gedən olmayıb İspaniyanın ticarət əlaqəsi də pozulur. Həmçinin İtaliya, Fransa və Hollandiya ilə də ticarət əlaqəsi başa gəlməyir. Bundan istifadə edərək əcnəbi tacirləri və ələlxüsus ingilislər Rusiyanın xarici ticarətini ələ alıb, rus mallarını Yevropa qitəsinə daşıyırlar. Odur ki, rus malı almaq üçün əcnəbilər ruslara yox, ingilislərə müraciət edirlər.

1755-ci ildə İran ticarətini böyütmək üçün rus tacirləri bir şirkət yapırlar. O vaxta qədər bu ticarəti özlərinə məxsus bir "vərəsə" ədd [hesab] etmiş Hacı-Tərxandakı erməni tacirləri yeni şirkətin qapadılması üçün çox səylər yapdılarsa da, məqsədlərinə nail olammadılar. Naəlac qalaraq özlərini 600 min rublə sərmayə ilə bu şirkətə daxil edib yenə işləri ələ almağa müvəffəq oldular.

Asiyayi-vüsta [Orta Asiya] ticarətinə müavinət [kömək] göstərmək üçün 1734-cü ildə Orenburq şəhəri təsis olunur. Binaənileyh [ona görə], Buxara və Daşkənd karvanları ilə Şərq malları buraya gətirilir. Bundan əlavə, rus tacirləri Orenburqdan cənuba doğru irəliləyərək Balka şəhərinə qədər gedib, burada Hindistan tacirlərinə rast gəlirdilər və burada mübadilə edib hind malları ilə Rusiyaya qayıdırdılar.

Ticarət işlərini asanlaşdırmaq üçün 1729-cu ildə birinci dəfə olaraq "Veksel Nizamnaməsi" tərtib verildi. Bu qanuna görə, pul müamiləsi 12-15 və hətta 20 faiz olduğu üçün çox-çox ağır idi. Rusiyanın bugünkü bankaları Pyotrun qızı Elizabet əsnasında açılmışdır. Faiz miqdarı isə 6 % qədər enmişdir.

Bu vaxtlar imperatoriçələrə müqərrəb [yaxın] bəzi əsilzadələr ticarət işlərinə müdaxilə edib böyük fənalıqlar yapırdılar. Böylə ki, 1757-ci ildə qraf [Mixail İllarionoviç] Vorontsov əcnəbilərə taxıl satmaq ixtiyarını alıb, sairlərini qoymayırdı. Sair bir qraf da [Aleksandr İvanoviç] Şuvalov bu üsul ilə Rusiyanın meşə və tənbəki ticarətini ələ almışdı. Böylə fənalıqların nəticəsi olaraq daxili ticarət xaricisindən heç olmasa iki dəfə də artmamışdı. İşbu ticarət tənəzzülü İkinci Katerina dövrünə qədər davam edib, bu qadının səy və hümməti ilə yenə parlamağa başlayır. Bu barədə gələn dəfə.

*Fərhad Ağazadə*

*Ədəbi sütunlar*

**ƏSGƏRLƏRİMİZƏ - KÖNÜLLÜLƏRİMİZƏ**

Millətin namusu sizdən çox şücaət gözləyir,
Dövləti-növzadi-milli qalibiyyət gözləyir.
Bəkləyir sizdən zəfər atimiz, istiqlalımız,
Şanlı qeyrət, şanlı hümmət, şanlı cür'ət gözləyir.
Bir baxın nisvani-iffətpərvəri-millimizə
Dideyi-ümmid ilə sizdən həmiyyət gözləyir.
Payimali-düşmən olsunmu çəmənzari-vətən?
Yurdumuz sizdən bu gün çox ali hümmət
gözləyir.
Hifz üçün əğyar əlindən dilbəri-hürriyyəti
Müstəqil olmuş vətən əzmü-mətanət gözləyir.
Qoymayın olsun xəzan gülzari-istiqlalımız,
Sizdən istiqlalımız parlaq təravət gözləyir.
Millətin heysiyyətin yüksəldin ey qeyrətvəran!
Millətim sizdən böyük şanü-şərafət gözləyir.
Şanlı ölmək ölməməkdir, anlayın bu hikməti
Pürşərəf kim can verərsə anı rəhmət gözləyir.
Millətim istər ürəkdən çox şərəfli bir həyat.
Anlasın, etsin bunu idrak əhli-kainat!

*Bakı, 21 nisan 1919*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## BAKI XƏBƏRLƏRİ

**Rüstəmbəyovun əziməti**

Kuban Hökuməti nəzdinə Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəliyinə Cəfər bəy Rüstəmbəyov təyin edilmişdir. Rüstəmbəyov cənabları keçən gecə xüsusi tren [qatar] ilə məmuriyyətinə əzimət etmişdir [yola düşmüşdür].

**Qatarın dayanması haqqında**

Əmirhacıyan və Bülbülə kəndlərinin əhalisi Bakı-Sabunçu-Suraxanı qatarının məzkur [deyilən] kəndlərin arasında olan "Beş budka" denilən yerdə kiçik mövqifdə [stansiyada] Keşlədə olduğu kimi bir qədər dayanması haqqında dəfəatla [dəfələrlə] lazımi yerlərinə müraciətdə bulunmuşdularsa da, müvəffəqiyyət hasil edəmməmişlərdi. Böylə ki, qatarın məzkur yerdə dayanması üçün binagüzarlıq edildiyinə [sərəncam verildiyinə] baxmayaraq, naçalnik Lazarev buna razı olmayırdı. İndi həman kəndlərin əhalisi Azərbaycan Cümhuriyyəti Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən bu barədə, yəni qatarın məzkur yerdə dayanmasından ötrü binagüzarlıq edilməsini rica etmişlərdir.

**Təshih [düzəliş]**

Dünənki nömrəmizdə "Bakı xəbərləri" qismində Tağıyev fabrikasında qulluq edən Hacı İsmayılzadə və Hacı Möhsün Kazımzadə "Müsavat" firqəsinə müraciətlə, onlara müdiriyyət tərəfindən edilən zülüm və əziyyətdən şikayət etmişlər və ilaxır, deyə bir fəqərə [hadisə] dərc edilmişdi. Halbuki, həmin şikayət Cəfər Bəndəli oğlu tərəfindən öz xozeyinləri olan Hacı Kazım İsmayılzadə və Hacı Mirabdulla Mirmöhsünzadədən edilmişdir. Mühərririn xətası olduğunu göstərərək, bu barədə təshihi-keyfiyyət ediriz.

**Maştağa kəndindən**
*(İdarəyə məktub)*

Neçə dəfələr bizim kəndin fəqirlərinə pul, bez, ərzaq paylanıbdır. Amma bu zavallıların şəhərdən gətirilən qismətlərindən bir qismət də kənddə ayrılır və hətta bəzi hərəkətlərdən çoxlarına çatmayıb, bu xainanə məsələləri müzakirəyə qoyanda məhəllə ayrılığı münasibətilə çoxları o biri məhəllə vəkillərinin xainliyi barəsində danışmağa haqsız olmaqla tamam olur. Halbuki bu ərzaq beytülmaldır və ruhani atalar əli ilə verilməlidir, nə belə xainlər əli ilə. Qəzetə vasitəsilə rica edirik, pulsuz verilən ərzaq ruhanilər əli ilə verilsin.

*Mətləb Hüseynzadə*

## FƏHLƏ HƏYATI

**Suraxanıda mühazirə**

Aprel ayının 22-də düşənbə [bazar ertəsi] günü saat 1-də Suraxanıda "Narodnı dom"da [Xalq evində] "Müsavat" firqəsi tərəfindən Piri Mürsəlzadə cənabları "Qafqaziya cümhuriyyətləri və Könüllü ordu" ünvanı ilə mühazirə oxuyacaq və Səməd bəy Əliisgəndərzadə cənabları Azərbaycanın əyalətləri xüsusunda dakladda bulunacaqdır.

**İranlıların iclası**

Biz mədən dairəsində olan İran füqərayi-kasibəsi keçən cümə günü aprelin 4-də iki il bundan əqdəm [qabaq] füqərayi-kasibənin 300-ə qədər uşaqları oxudulan "Təməddün" məktəbinin o xarabazara dönmüş məktəb binasına cəm olub, çox danışıqdan sonra 7 nəfərdən ibarət bir heyəti-idarə seçdik ki, həmin heyət bu aprel ayının 11-ci gününə bir iclas çağırsın. Hər 50 adama bir adam seçilib bu cümə aprel ayının 11-də cəm olduq "Təməddün" məktəbinin imarətinə. 400-dən artıq vəkil gəlmişdi.

Möhtərəm "Müsavat" firqəsinin üzvü Məşhədi Həmid Paşazadə cənablarını camaat bir səslə məclisə sədr intixab edib [seçib], usta Rəhman Qənbərəlizadəni katib etdilər. Sədri-məclis nə üçün çağırıldığını camaata elan etdikdən sonra bir neçə adam danışıb, bədəhu [sonra] müvəqqəti heyəti-idarə siyahısını məclisə təqdim etdi. Məclis həmin heyəti bir səslə təsdiq edib 5 nəfərdən əlavə onlara köməkçi verdilər. Seçkidən sonra bir fəhlə nitqə başlayıb deyir:

*"Ey vətəndaşlar! Zalım şahın zülmündən xilas olmaq üçün biz İran camaatı bir neçə il bundan əqdəm [qabaq] silaha sarılıb, zalım Məhəmmədəli şahın hökumətini yıxıb, onun yerində məşrutəli [konstitusiyalı] bir hökumət qoyduq ki, biz füqərayi-kasibə bir gunə [bir növ] azad dolanaq, amma Nikolay zalımın o qəddar generalı Lyaxov bizim o müqəddəs binamızı İran zalımlarının köməyi ilə yıxıb bərbad etdi. Vətəndaşlar, hərçənd o bina yıxıldı, amma iranlı oğlunun məsləyi yıxılmadı. O, məşrutə qanunu üzrə davam etdi və bir də bu adamları ki, biz seçdik, yoldaşlar, bunların vəzifələri budur ki:*

*1) "Təməddün" məktəbinin əşyaları kimdə olmuş olsa, alıb yerinə qoysunlar və məktəbin skamyalarını və hər bir ləvazimatını düzəltsinlər ki, uşaqlarımız bundan artıq avara qalmasınlar.*

*2) Səidülvüzəra cənablarından tələb etsinlər bu məktəbin adından, genə bu Ramazan xan ki, bu qədər füqəraya zülüm edir, buradan bunu əzl etsin [qovsun] və onun yerinə gələn cənab da böylə olsa gəlməsin. Hansı bir nümayəndə füqərayi-kasibəni əzməyə, rüşvət almaya,*

*bizə vacibdir onu hökumətimizin nümayəndəsi bilib, ona var qüvvəmizlə kömək edək.*

*3) Biz bu intixab etdiyimiz adamlara ixtiyar veririk, hər barədə biz füqərayi-kasibəni mühafizə etmək üçün hökumət nümayəndəsi yanında təşəbbüsatda bulunsunlar. Çarə olmasa lazımi məhəllinə* [lazımi yerə] *məlum edib, bizləri onun şərindən xilas etsinlər. Səbəb ki, bizim vilayəti-İran bu saat məşrutə üzrə idarə olunur, binaənileyh* [ona görə], *gərəkdir bizim nümayəndələrimiz də bizlə qanunla rəftar etsin, nəinki rüşvət yemək, ölənlərinin qanını alıb iki özü götürüb, bir də sahibinə verməklə. Qətiyyən böylə şeylər gərək olmasın."*

Bu arada bir nəfər məclisdə həqiqi səsi olmayan bir adam istədi ki, məclisə bir iğtişaş sala. Cənabi-sədr onun sözünü kəsib, çünki məsələdən xaric olmuşdu, məclisdən xahiş etdilər ki, "Həzərat, bu adama söz verilsin, məsələdən xaric, ya yox?" Camaat bir səslə dedilər ki, "Nəinki ona söz, hətta onu biz iclasdan xaric edərik, səbəb, o xaindir, istəyir iclasa iğtişaş sala, biz də duraq gedək." Sədr səsə qoydu. Camaat bir səslə o xaini məclisdən ixrac etdi. Natiq sözə başlayıb dedi:

*"Camaat, bəsdir nə qədər biz bu Ramazan xanın zülmünə tab etdik. Lazımdır biz də bir siyasi firqə düzəldib böylə zalımların qabağını almaq."*

Camaat tamamən bu təklifi qəbul edib və ixtiyar verdilər sədr cənablarına bu qətnaməni qəzetəyə versin.

*Sədr: Məşhədi Həmid Paşazadə*

*Katib: Usta Rəhman*

**Fəhlə iclası**

19 nisan tarixində şənbə günü saat 9 radələrində "Kaspi yoldaşları"nın Zabrat mədən evlərində məzkur [adı çəkilən] şirkətin Balaxanı, Sabunçu dairələrində bulunan bütün mədənlərinin müsəlman işçiləri tətil edərək mitinq tərtib vermişlərdi.

Mitinqdə Nobel yoldaşlarının 3, 4, 5, 6, 7-ci mədənlərində, Lianozov Zabrat mədənində, Rotşild yoldaşlarının 38, 46, 107-ci mədənlərində, Ter-Akopov, Əsədullayev, "Moskovski", Musa Nağıyev, İretski mədənlərində çalışan müsəlman işçilərinin tərəfindən nümayəndələr dəxi iştirak edirdilər.

Sədr kənar mədənlərdən gələn nümayəndələrə xitabən bildirir ki:

*"Tətil etməkdən məqsədimiz haqlı bir tələbimizi qəbul etdirməkdir. Vəilla* [yoxsa] *heç bir siyasi və iqtisadi mənzurumuz* [niyyətimiz] *yoxdur. Keçən Mart hadisəsində həmin bu mənzildə sükunət edən* [yaşayan] *yoldaşlarımızdan 27 nəfəri xunxar* [qaniçən] *alçaqlar tərəfindən fəcianə* [faciəvi] *bir surətdə qətl edilərək quyulara doldur[ul]ublar. Məzlum arxadaşlarımızın qətlində iştirak etmiş canilərdən "Usta Baxşı"* [Saturov] *nam* [adlı] *bir nəfər erməni "Kaspi" yoldaşlarının Paçevski mədəninə prikazşik təyin edilmiş. Biz müsəlman işçiləri qardaşlarımızın qatili gözümüzün qabağında dolanmasına laqeyd qala bilməzdik. Kəndi əlimizlə intiqam almaq da hökuməti-mətbuəmizə* [vətəndaşı olduğumuz hökumətə] *qarşı suiədəb* [ədəbsizlik] *kimi tələqqi edəcəyi* [qiymətləndiriləcəyi] *şübhəsiz idi. Binaənileyh* [ona görə], *məzkur* [deyilən] *canini mədəndən kənar etmək zimnində* [barəsində] *kantora müraciət etdik.*





*İki həftə müddəti olar ki, təkrar müraciətimiz nəticə vermədiyindən maəda* [əlavə], *məzkur cani kəndi həmfikirlərindən ətrafına toplamağa şüru etmiş* [başlamış]. *İki gün əqdəm kantora caniləri mədəndən qovmadığı təqdirdə bütün "Kaspi" mədənlərini dayandıracağımızı ittila* [xəbər] *verdik. Tələbimizə etina edilmədi, tətil etdik. Şimdi bu mənzildə sükunət edən yoldaşlardan keçən ildə Mart faciəsində icra edilən cinayətlərdə Usta Baxşı namdan rəyüleyn* [öz gözləri ilə] *müşahidə etdiklərini haziruna ittila versinlər."*

[1)]Məşhədi Xəlil İsmayıl oğlu deyir ki:

*"Keçən il davanın ikinci günü şu mənzilləri təxliyə edib fərar edənlərin cümləsində mən də Zabrat kəndinə qaçdım. Sabahkı gün qalan əşyamı çıxarmaq və mənzillərdə qalan yoldaşlardan ittila hasil etmək* [xəbər bilmək] *sədədi* [məqsədi] *ilə gəlib həyətə baxdıqda, gördüm Usta Baxşı neçə nəfər müsəlləh* [silahlı] *canilərlə yoldaşımızdan Nəbi namı cəbrən mənzilə daxil etdilər. Bir az keçmədən güllə açıldı."*

2) Hacıbaba Rza oğlu dedi:

*"Yoldaşlar! Yoldaşımız dediyi kimi, davanın ikinci günü qaçanların cümləsində mən də Ramanı qəryəsinə* [kəndinə] *getmişdim. İki gün sonra saat 9 radələrində yoldaşlardan xəbər bilmək üçün gəlib gördüm Usta Baxşı durub həyətin vəsətində* [ortasında]. *Dağıstanlılardan Şalay nam mənzilindən həyətə çıxınca, Usta Baxşı məiyyətində* [ətrafında] *bulunan müsəlləh canilərə "Vurun!" deyə əmr verdi. Canilər isə filfövr* [dərhal] *biçarəni su boçkasının yanındaca qətl etdilər. Mütəaqibən* [ardınca] *iki nəfər qarabağlı Cəbrayıl namı mənzilindən kənara çəkdilər. Usta Baxşı kəndi əli ilə xəncəri Cəbrayıl namın qarnına soxdu."*

3) Məhəmmədsadıq nam ayağa qalxıb dedi:

*"Həzərat! Mən Zabrat kəndində idim. Xəbər gətirdilər ki, qardaşını tutublar. Bu dəhşətli xəbəri eşitdikdə üz qoydum həmin evlərə tərəf gəlməyə. Yaxınlaşdıqda gördüm divarın dibində bir çuxur yerdə Usta Baxşı iki nəfər başqa ermənilər məiyyəti ilə bir nəfəri xəncər ilə qətl edirlər. Kənardan əhvalı böylə gördükdə, fövrən* [dərhal] *Zabrat tərəfə qayıtdım. Həmin zikr etdiyim hadisə Hacıbaba yoldaşımız dediyi kimi, mənzildən çıxandan iki gün sonra ittifaq düşdü* [baş verdi], *ancaq mən əsr vaxtı* [axşam] *saat 4 radələrində bu ittifaqa təsadüf etdim."*

Məruzəçiləri mütəaqib [məruzəçilərin ardınca], ətraf mədənlərdən gəlmiş nümayəndələr birər-birər hərarətli nitqlər irad edərək [söyləyərək] "Kaspi" mədənləri işçi yoldaş və irqdaşlarının tələblərini qəbul etdirmək uğrunda həmə cür [hər cür] müzahirət və müavinətə [dəstək və köməyə] hazır olduqlarını izhar etdilər. Bədəhu [sonra] sədr camaata qəti qərar qəbulunu təklif etdi.

Müzakirat nəticəsində mitinq namından caniləri mədənlərdən kənar etdirmək xüsusunda Məsai Nəzarətinə [Əmək Nazirliyinə] və tövqif birlə istintaq bə'dində mühakimə edilməsi zimnində [həbs edilərək istiqtaqdan sonra məhkəməyə çıxarılması barəsində] Bakı vilayəti müddəiyi-ümumiliyinə [prokurorluğuna] müraciət

edilməsi ittifaqi-ara ilə [yekdilliklə] qət və təsvib edildi [qərara alındı və təsdiqləndi]. Əslinə mütabiqdir [uyğundur].

*Sədr: Cənnət Baxşəli oğlu*
*Katib: Məcid Sadiqzadə*

**ŞİKAYƏT**

*(Məşixətin [Şeyxülislamlıq İdarəsinin] nəzər-diqqətinə)*

Möhtərəm müdir əfəndi, rica edirik bizim bu neçə kəlmə şikayətimizi möhtərəm "Azərbaycan" qəzetəsinin bir guşəsində dərc buyurasınız.

Neçə ildən bəridir ki, Quba uyezdində Carxı icmasında ruhanilik vəzifəsini ifa edən molla Mehdiqulu Kərbəlayi Daşdəmir oğlu nam [adlı] molla, biçarə camaatın başına olmazın bəlalar gətirməkdədir. Həqiqəti kəşf etməkdən ötrü zeyldəki [aşağıdakı] əhvalatı bildirməyi mənfəətdən xali bilməyirik. İştə, əhvalat bu qərar iledir:

Carxı icmasında Qaraçaylı kəndində mərhum Məşhədi Əbusəttar ilə Hacı Ağahüseyn Kərəm oğlunun dəyirmanı var şərakətli [ortaq]. Məzkur Hacı Ağahüseyn Kərəm oğlunun hissəsini məzkur molla Mehdiqulu, bizim heç şeydən xəbərimiz yox, 1916-cı ilin iyun ayının 3 tarixli saxta bir kağız ilə Qaraçaylı kəndinin sakini mərhum Məşhədi Qoca Kərbəlayi Məhəmməd oğluna 400 manata satar və neçə nəfərin dilindən saxta imzalar da qoyar. Dəyirman sahibi Hacı Ağahüseyn Kərəm oğlunun dilindən bu kağızı yazdığı kimi, iki nəfər də şahid yazar, onların əvəzindən də həman vərəqəni imza edər. Həman şəxslər də bunlardır: Məşhədi Kərim İsmayıl oğlu və Mustafaqulu Ağabala oğlu. Guya bu şəxslər dəyirman satanda şahid olmuşlar, vəhalonki [halbuki] bir kəlmə də olsa onlar bu barədə bir şey bilməyirlər.

Fürsətdən istifadə edib kamali-cəsarətlə bunu da əlavə edirik ki, məzkur molla özünü Carxı icmasında sərbəst bir hökmran hesab edir. Nümunə olaraq bir sübut dəxi göstərə bilərik. Böylə ki, həman icmada nə qədər nikah işi olsa mollanın oğlu molla Əbülqasım ağa kəsməlidir. Başqa bir molla böylə işlərə müdaxilə etsə, molla Mehdiqulu ağa tərəfindən cəzaya giriftar olacaqdır.

Bunlardan əlavə, icmada nə qədər bivaris ölən olsa, cənab molla mütləq özünü "apekun" (qəyyum) təyin edir və mərhumdan qalma əmlak və qeyri varidatı bir neçə günün ərzində təməllük edib [sahiblənib], işləri sərəncam edir.

Bu sətirləri yazmaqda öylə xəyal etməsinlər ki, bizim molla ilə bir ədavətimiz var. Xeyr, əstəğfirullah. Biz fəqət bədbəxt camaatımızı qəflət yuxusundan ayıltmaqla bərabər, əziz və cavan Azərbaycanımızın paytaxtında yaşayan möhtərəm Məşixət İdarəsinin diqqətini məz-kur [adı çəkilən] mollanın işlərinə cəlb edirik. Burası da məxfi qalmasın ki, hə-man yuxarıda ərz etdiyimiz saxta kağız bizim əlimizdədir ki, bugünlərdə ərizə ilə bərabər divanxanaya verəcəyik. Qoy orada müfəttişlər gəlib bizim imzamızın əsil və ya saxta olduğunu təhqiq etsinlər və müqəssiri öz cəzasına yetirsinlər.

*(İmza)*





**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Peyvənd etmək üçün təzə "limfa" vardır. Telefon nömrə: 58-39.

*5779*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 397. “...mayın 10-u olduğunu yəqin söyləyəcəkdir.”: qəzetdə “yəqin” yerinə “təyin” getmişdir.

“1871-ci sənə Frankfurt müahidənaməsi imza edilən günə.”: Fransanın məğlubiyyəti ilə başa çatan 1870-1871-ci illər Fransa-Prussiya müharibəsi nəticəsində Frankfurtda 10 may 1871-ci ildə sülh sazişi imzalanmışdı.

**Sülh ətrafında**

səh. 397. “İngilislər bolşeviklər haqqında”: bu xəbər kiçik fərqlərlə “Azərbaycan” qəzetinin 161-ci nömrəsində “Teleqraf xəbərləri” bölməsində “Bolşeviklər haqqında Avamlar Kamerasında” adı altında getmişdir.

“Avam Kamerası”: Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

səh. 398. “Saar”: qəzetdə səhvən “Sara” kimi getmişdir; Almaniyanın qərbində, Fransa sərhədi yaxınlığında yerləşən və o dövrdə kömür istehsalı mərkəzlərindən biri olan Saar [Saarland] nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 398. “əmiri-Buxara”: Buxaranın sonuncu əmiri Alim xan nəzərdə tutulur.

səh. 399. “Çarcu”: Türkmənistanda indiki Türkmənabad şəhəri.

“Qurbanqala”: Türkmənistanda, Mərv şəhərindən təxminən 15 km şərqdə dəmiryol stansiyası.

“Ravnina istasyonu”: Türkmənistanda Marı-Türkmənabad arasında dəmiryol xətti yaxınlığında şəhərtipli qəsəbə; hal-hazırda Bərqərar adlanır. Ravnina stansiyasının adı qəzetdə “Ravnani” kimi getmişdir.

**Yəhudi hökuməti**

səh. 399. “Yeni qəzetə”: İstanbulda 1908-1913 və 1918-1919-cu illərdə türk dilində nəşr edilmiş qəzet.

“Jurnal de Deba” (yaxud “Jurnal de Deba Politik e Literer”) [Journal des Débats Politiques et Littéraires]: 1789-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

“saheyi-Yəhuda”: e. ə. X əsrlə e. ə. VI əsr arasında mövcud olmuş Yəhuda krallığı nəzərdə tutulur.

səh. 400. “tərbiyi-dairə”: “dairənin kvadrata çevrilməsi”; sahəsi verilən bir dairə ilə eyni sahəyə malik bir kvadratın çəkilməsi. Bu məsələ həndəsənin çətin məsələlərindən biri olmuşdur.

**Ermənilərin müdafiəsi**

səh. 401. “Peti Parizyen” [Le Petit Parisien]: Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.

“mütəsərrif”: Osmanlıda il və ilçə arasındakı inzibati ərazi vahidi olan sancağın idarəçisi.

“icrayi-təhəkküm”: qəzetdə “icrayi-təhkim” getmişdir.

**Çağırılacaq beynəlmiləl konfrans münasibətilə Naxçıvan və Şərur mahalları**

səh. 403. “Sabiq Qafqaziya canişini dəftərxanasının kalendarında...”: 1845-1916-cı illərdə Tiflisdə çap edilən, Qafqaz haqqında illik məlumat kitabı olan “Kavkazskiy kalendar” nəzərdə tutulur.

səh. 404. “Şah Abbasi-kəbir”: (Böyük Şah Abbas) 1587-1629-cu illərdə hakimiyyətdə olan Səfəvi şahı I Abbas.

**Cənub-Qərbi Qafqaziya Cümhuriyyəti**

səh. 408. “berdanka”: (yaxud Berdan tüfəngi) təkatılan tüfəng növü. Amerikalı odlu silah ixtiraçısı Hayrem Berdanın [Hiram Berdan] şərəfinə adlandırılmışdır. Rusiya imperiyası ərazisində XIX əsrin ikinci yarısından XX əsrin ortalarına qədər istifadə edilmişdir.

**Rus ticarətinin tarixi**

səh.409. “Ostzey”: Baltik dənizinin almanca [Ostsee] və bəzi digər dillərdə adı; qədim rus mənbələrində də bu ada rast gəlmək olur.

səh. 410. “xalmaqor” (xolmoqor): südlük inək cinsi; adını Arxangelsk quberniyasının Xolmoqorsk uyezdindən götürmüşdür.

“Geniq”: alman əsilli mühəndis Hennin (əcdadlarının familiyası Henninq olmuşdur) nəzərdə tutulur, təhrif edilmişdir.

“imperatorun qadınının namı ilə”: Yekaterinbuq şəhəri I Pyotrun arvadı I Yekaterinanın şərəfinə adlandırılmışdır.

səh. 413. “Pyotrun qızı Elizabet”: 1741-1762-ci illərdə hakimiyyətdə olan Rusiya imperatriçası Yelizaveta Petrovna.

“İkinci Katerina”: 1762-1796-cı illərdə hakimiyyətdə olan Rusiya imperatriçası II Yekaterina.

**“Əsgərlərimizə – könüllülərimizə” şeiri (səh. 414) üçün lüğət:**

dövləti-növzadi-milli: yeni yaranmış milli dövlət

ati: gələcək

nisvani-iffətpərvəri-milli: millətin ismətli qadınları

dideyi-ümmid: ümid gözü, ümidlə baxan göz

həmiyyət: qeyrət, təəssüb

paymali-düşmən: düşmən tapdağı

çəmənzari-vətən: vətən çəmənliyi, vətən bağı

əğyar: düşmən

qeyrətvəran: qeyrətlilər

pürşəraf: çox şərəfli

anı: onu

**Bakı xəbərləri**

səh. 415. “beytülmal”: dövlət xəzinəsinə məxsus olan şey.

**Fəhlə həyatı**

səh. 416. “Kaspi yoldaşları”: Bakıda və Abşeronda neft istehsalı və ticarəti ilə məşğul olan, əsası 1886-cı ildə Qukasov (Qukasyan) qardaşları tərəfindən qoyulan “Kaspi ortaqlığı” [Каспийское товарищество] şirkəti nəzərdə tutulur.



*"Azərbaycan" qəzetinin 164-cü nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə, 23 aprel 1919-cu il, nömrə 164**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 22 rəcəbül-mürəccəb sənə 1337. 23 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## ELAN

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, aprelin 28-də gündüz saat 1-də Ərzaq Nəzarəti binasında Olqinski küçə "Natsional" mehmanxanasında aşağıda göstərilən miqdar balıqlar hərrac ilə satılacaqdır:

| | | |
|---|---|---|
| A) Hissə-hissə: | | |
| 1 – Jerex [xəşəm] | 2 tara | Vəzni təqribən 6,140 put 11 girvənkə |
| 2 – Sudak [sıf] | 3 tara | |
| 3 – Şuka [durnabalığı] | 16 tara | |
| 4 – Leş [çapaq] | 43 tara | |
| 5 – Sazan [çəki] | 169 tara | |
| 6 – Som [naqqa] | 52 tara | |
| 7 – Vobla [külmə] | 129 tara | |
| B) Seld [siyənək] | 1965 tara | Vəzni təqribən 5413 put |

Göstərilən miqdar balıqlar hamısı bir yerdə və ya seldin hamısı iki partiya və qalanları isə əlahiddə satıla bilər.

Satılan balıqlar Vinner şirkəti zavodunun dondurma anbarlarında (İrəvanski, nömrə 2) saxlanır. Tətil günlərindən başqa hər gün səhər 9-dan 12-yə qədər baxmaq mümkündür.

Hərrac aprelin 28-i gündüz saat birə qədər bağlı paketdə göndərilən bəyannamələrlə olacaqdır. Bəyannamələrdə seldin ayrıca və qalan balıqların da ayrıca put qiyməti göstərilməlidir. Qiymət rəqəmlərlə deyil, hərflərlə yazılmalıdır. Bəyannamə ilə bərabər seld üçün on min manat, qalan balıqlara isə iyirmi min manat zaloq verilməlidir.

Bundan əlavə, bəyannamə verənlər şəxslərini isbat edici sənədlər dəxi təqdim etməlidirlər.

Zaloq nağd pullarla, həmçinin mülki qanunlarda göstərilən qaydalar üzrə əmvali-qeyri-mənqulə də [daşınmaz əmlak da] qəbul olunur. Hərracın təsdiq edilməsi Ticarət, Sənaət və Ərzaq naziri tərəfindən olur.

Tətil günlərindən başqa hər gün saat 11-dən 2-yə qədər Ərzaq Nəzarətində 24 nömrəli otaqdan bu barədə lazım gələn müfəssəl məlumat almaq olar.

*Nazirin baş vəkili: İmza*

## DAĞISTANA İMDAD

Dağıstana imdad məsələsi, görünür ki, qövldən feilə [sözdən əmələ] gətirilmək üzrədir. Şayani-diqqət və səzayi-

əhəmiyyət [diqqətəlayiq və əhəmiyyətli olan şey], partiyalarımızın bu imdad işinə – rəsmi hökumət imdadından ayrı olaraq – könüllü surətdə girişib də könüllü dəstələri təşkil etmələridir.

Bir tərəfdən "Müsavat", bir tərəfdən Sosialistlər İttifaqı və digər tərəfdən də Bitərəflər partiyası, hər biri öz adından könüllü yazılmaq və yazdırmaq dəftəri açıb dağıstanlı qardaşlarımızın imdadına yetişmək üçün çalışmaqdadırlar.

Azərbaycan türk və islamlarının əhali müməssilləri [nümayəndələri] olan partiyalarımızın bu xüsusda çalışması Azərbaycan və Dağıstan xeyirxahlarını sevindirəcək dərəcə layiqi-təqdir və şayani-təhsin [təqdirə və alqışlanmağa layiq] bir əməldir. Yalnız bir arzu qalır ki, o da bu çalışmadan hasil olacaq nəticələr yerini tutsun və imdad behəqq [doğrudan da] bir imdad olub dağıstanlı qardaşlarımızı müşkül haldan çıxara bilsin.

Bu son arzunun hüsula gəlməsi üçün hər bir partiyanın üzərinə könüllü yığmaqdan başqa digər vəzifələr dəxi tərəttüb edilir [qoyulur] ki, bu vəzifələr əhəmiyyətcə böyük bir mövqe ehraz etməkdədirlər [tutmaqdadırlar].

O vəzifələrin ən başlıcalarından biri bu "Dağıstana imdad" işini birləşdirmək və bu yolda ittihad və ittifaqla iş görməkdir. Bu işdəki ittifaq, partiya əzalarını [üzvlərini] "kənardan baxanlar" yanında məhcub edəcək [utandıracaq] və özlərinə töhmət, məzəmmət yetişdirəcək ittifaqlardan ədd oluna [sayıla] bilməz. Madam ki, məqsəd birdir, o halda bu məqsədin hüsulu yolunda sərf edilən əmək və əməllər də bir olmalıdır ki, işin içindən bir nəticə çıxsın.

Hər bir partiyanın xüsusi olaraq könüllü yığmasına sözümüz ola bilməz. Çünki təbiidir ki, könüllü yazılmaq istəyənlər öz bəyəndiyi partiyanın başına yığılacaqdır. Arzumuz fəqət budur ki, hər partiyanın könüllüləri yığıldıqdan sonra, bunların Dağıstana ezamı və orada nə vəchlə [nə cür] iş görmələri məsələləri ümumilikdə həll edilmək üçün bir mərkəzə mərbut edilsin [bağlansın]. Yəni partiyalar əzalarından birər, ikişər nəfərlər iştirakilə xüsusi bir komisyon təşkil edilib yığılmış könüllüləri göndərmək, Dağıstanda lazım olan mövqelərdə yerləşdirmək, saxlamaq, yemək-içmək ehtiyacatını rəf etmək [aradan qaldırmaq] və bu Azərbaycan könüllü qüvvəsini vahid bir qüvvə surətində dağıstanlı qardaşlarımızın imdad yolunda sərf etmək işi o komisyona tapşırılsın.

Bu Dağıstana imdad məsələsinin bir cəhətidir ki, zənn edirik, buna qarşı əsas etibarı ilə etiraz edən olmasın gərək, zira etiraz edən olarsa, müxtəlif proqramlı partiyaların bu məsələ üzərində və bu işdə ittihad və ittifaqı[nı] partiyalıq nöqteyi-nəzərindən "imkan xaricində" bir iş kimi tələqqi edənlər [qiymətləndirənlər] çıxarsa, öylələrin Dağıstana imdad məsələsində imdaddan başqa özgə bir məramın dəxi təqibində olduqlarına güman aparmağa haqqımız olar.

Məsələnin başqa bir cəhəti dəxi vardır ki, o da dağıstanlı qardaşlarımızla Denikin qaragüruhunun arasında vaqe olan müharibə gedişindən və iş nə yolda və nə vəziyyətdə olduğundan, dağıstanlı qardaşlarımıza nə miqdar imdad lüzumundan kamalınca vüquf və ittilaat [xəbər, məlumat] hasil etməkdir ki, bu da





məhəllində [yerində], yəni Dağıstanın özündə mümkündür.

Məlumumuz olduğu üzrə bunun üçün xüsusi adamlar seçilib, bugünlərdə Dağıstana gedəcəkdirlər. Genə arzu edərdik ki, müxtəlif partiyalara mənsub olan bu adamlar Dağıstana gedərkən xüsusi bir komisyon sifətilə getsinlər və gedib də hal və övzanın [vəziyyətin] necəliyindən dürüst məlumat əxz etsinlər. Ondan əlavə, buradan göndəriləcək olan könüllü köməyinin orada nə surətlə qəbulu və istemalı [istifadəsi] xüsusunda da pişəzvaxt [qabaqcadan] hazırlıqlarda bulunsunlar. İşin müəyyən bir nizam və qayda ilə yeriməsinə diqqət yetirsinlər. Sistemsiz və xudsəranə [özbaşına] işlər görülməsinə yol verilməsin. Qərəz, səy edilsin ki, imdad haqqı ilə imdad mahiyyətində olub da, dağıstanlı qardaşlarımızın feilən hiss edəcəyi mərtəbə müəssir [təsirli] olsun.

İştə, bu birlik və nizam ilə iş görmək arzularımız əmələ gələrsə, ümidvar olarıq ki, dağıstanlı qardaşlarımıza həqiqi kömək yetirə bilib onları da, özümüzü də qaragüruhlar təcavüzatından mühafizə edə bilərik. Bunun üçün partiyalarımızı bu mühüm işdə birliyə dəvət edib də müvəffəqiyyətlərini təmənna edirik.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

- Tokiodan xəbər verilir ki, bütün Koreyada həyəcan davam edir. Bir çox yerlərdə açıq üsyan əmələ gəlmişdir. 3500 nəfərdən artıq adam həbs edilmişdir. Bunların əksəri xaçpərəstlərdir. Baş vəzir [Baş nazir] qət eyləmişdir ki, Yaponiya müstəmləkələrini idarə üçün bir idarə təşkil edilsin. Gözlənir ki, hərbi qubernator əvəzinə general-qubernator təyin edilsin.

- Berndən xəbər verilir ki, Ukraynada bolşeviklərin halı getdikcə fənalaşır. Petlyura qoşunları təzədən hücuma keçib, bu hücumda da müvəffəqiyyət qazanmışlardır. Ukraynalılar şimaldan irəliləyib Sarını (mühüm dəmiryol nöqtəsidir), Dubroviç və İstolini işğal etmişlərdir. Rum qoşunları tərəfindən bolşeviklərin Xersondan çıxarıldıqları xəbəri təyid [təsdiq] edilir.

**Kolçak ilə mübarizəyə dəvət**

Petroqradda nəşr edilən "Pravda" qəzetəsinin bugünkü nömrəsində yazılan sərməqalə [baş məqalə] ilə əhali Kolçak ilə mübarizəyə dəvət edilir. Qəzetə Rusiyanın zəhmətkeş ünsürünə müraciət edərək təklif edir ki, Qırmızı İdil kənarını müdafiə edərək qaragüruh Kolçak bandasını Uraldan qovsunlar. Ümumi Həmkarlar İttifaqının və bir çox əmələ firqələrinin intibahnaməsi [bəyannaməsi] dərc edilmişdir. Bunlar həp əhalini mübarizəyə dəvət edirlər.

Bütün Moskva fabrika və zavodlarında mitinqlər tərtib verilərək Kolçak ilə mübarizə və qırmızı əsgər yazılmağa əmələlər dəvət edilirlər. Bütün əmələ qərarlarında denilir ki, vəhşi, xunxar [qaniçən], Şura Rusiyanı xətrə [təhlükə] altına alan Kolçak ilə mübarizə etmək lazımdır.

Həmkarlar İttifaqının Mərkəzi Komitəsi "Kolçak əmələlərə nə gətirir?" sər-

lövhəsi ilə bir intibahnamə dərc edərək deyir ki, Kolçak ətrafına çarın köhnə qulları, fabrikaçılar, zavodçular, jandarmalar, polis nəfəratı və xəfiyyəçilər, poplar [keşişlər], xəzinəni oğrayanlar və o adamlar yığışmışlar ki, onlar yerlərini, mənbələrini, zavodlarını öz əllərinə keçirmək istəyirlər. Rusiyanı Şura hökmranlığından azad etməyi vəd edən kolçakçılar nə istəyirlər? Onların arzuları aydın və tələbləri sadədir. Kolçak və onun ətrafındakılar istəyirlər ki, kəndçilərdən yerləri alıb mülkədarlara versinlər. Zavodlarda əmələləri qul halına gətirsinlər. Sərmayəni xozeyinlərə versinlər. Bankları bankçılara, afserlərə çinlərini qaytarsınlar. Əmələ ittifaqlarını, təşkilatlarını dağıtsınlar. Əmələnin iş vaxtını 10 saatdan 12 saatadək artırsınlar. Muzd qiymətini əksiltsinlər. Əmələləri işğal etdikləri burjuyların otaqlarından köçürtsünlər. Bütün klub və kitabxanaları bağlasınlar. Qəsb edilmiş olan evləri əmələ təşkilatından alıb sahiblərinə qaytarsınlar. Köhnə polis və jandarma və ya xəfiyyə polisləri yenidən təşkil edilsin. Nəhayət, Romanov xanədanından bir nəfəri inqilab taxtına əyləşdirsinlər. Bütün mərkəzi icra komitələri bütün əmələlərə təklif edir ki, təni-vahid [vahid bir bədən] kimi sabiq mülkədar, fabrikaçı, burjuy və zabitanın [zabitlərin] və çar generallarının qarşısına çıxıb bu əks-inqilabçıları və general Kolçakı məğlub və məqhur [qəhr, məhv] etsinlər.

**Bolşeviklər və Kolçak**

Omsk – Mənzil cəbhəsində Kolçak qoşunları cəbhəsinə Şura qoşunlarının 49 nəfər nümayəndələri çıxıb və demişlər ki, qoşunlarımızın Kolçak tərəfinə keçməsindən ötrü biz vəkil edilmişik. Fəqət, bu şərtlə ki, Şura qoşunlarına Kolçak firqəsi [dəstəsi] namı verilsin. Baş komandan, Qeyden firqəsinin arzusuna əməl ediləcəyini bildirərək, aprelin 18-də gecə Şura qoşunları Kolçak tərəfinə keçmişdir. Cəbhənin açıqlığından Kolçak dəstəsi istifadə eyləmişdir.

Omsk – Kolçak qoşunları ilə şimalda iş görən [Nikolay Vasilyeviç] Çaykovski qoşunlarının rabitəsi peyda edilmişdir.

**SÜLH ƏTRAFINDA**

- Nemeslərin sülh nümayəndələrini aprelin 25-də Parisdə gözləyirlər. Bunlara 75 min kəlmədən ibarət olan sülh müahidənaməsi [sazişi] təqdim ediləcəkdir. Hərbi şərtnamə 12 min kəlmə, zərərləri iadə etmək şəraiti [ziyanı kompensasiya etmək şərtləri] 12 min yüz, su yolu şəraiti 6 min kəlmə, dava məsuliyyəti məsələsi 6 min kəlmə, sərhəd məsələləri 7 min kəlmə, iqtisadi və maliyyə şərait[i] və Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələləri yerdə qalan kəlmələrdən ibarətdir. Cəmiyyəti-Əqvam məsələsi şərtnamənin müqəddiməsinə idxal [daxil] ediləcəkdir. Orada ümumi əsaslardan danışılacaqdır. Əhdnamədə [sazişdə] əvvəlkinə nisbətən bir şərt əlavə edilmişdir. Sülh əhdnaməsi Müttəfiqlərin düşmənləri tərəfindən imza edildikdən sonra Müttəfiqlər 30 gün müddətdə təsdiq etməlidirlər.

- Ən mövsuq [mötəbər] mənbələrdən xəbər verilir ki, hal-hazırda Reyn qitəsini [bölgəsini] istila edən Amerika qoşunları





qeyri-müəyyən vaxtadək orada qalıb, sülh imza edildikdən sonra bunlar çəkilərək 10 diviziya yeni Amerika qoşunları gətiriləcəkdir. Bunların yeddisi fransız ehtiyat qoşunlarına mənsub olacaqdır. Bu qoşunları oradan çəkmək bir ay çəkəcəyindən, avqustdan qabaq onların oradan çıxmalarını gözləmək olmaz.

- Almaniya Hökuməti öz şərtnaməsində hazırlaşır ki, Müttəfiqlərdən zərər iddia eyləsin. Zira Müttəfiqlər beynəlmiləl qanunu pozaraq Almaniyaya külli xəsarət yetirmişlər. Başlıca xəsarət ablukadan [blokadadan] toxunmuşdur. Xariciyyə Nəzarətində Almaniyanın digər bir tələbnaməsi müzakirə edilir. Almaniya Cənubi Polşada öz haqqının bərpa edilməsini tələb edir.

- Amerika Rəisi-cümhuru [Prezidenti] sülh əhdnaməsi imza edilənədək Parisdə qalmaq istəyir. Əfkari-ümumiyyəyə [ictimaiyyətin rəyinə] görə mayın ortalarında ancaq sülh imza edilə biləcəkdir. Lloyd Corc sülh əhdnaməsinin Konfransın müttəhid [birgə] iclasında qiraət edilməsinə ziddir. Onun rəyinə görə, ancaq dörd dövlətin nümayəndələri hüzurunda oxunmalıdır. O istəyir ki, xüsusi surətdə müahidənamənin məzmunu üzvlərə verilsin, tainki bu yol ilə mübahisata [mübahisələrə] meydan buraxılmasın. Əks-surətdə nemeslər müahidənamənin məzmununa vaqif olaraq, o xüsusda iqdamatda [təşəbbüsdə] buluna bilərlər.

- Vilson və Lloyd Corc artıq dərəcədə işdən yorulduqlarından xəstələnmişdirlər.

- Dördlər Şurasında müsəlləh [silahlı] surətdə Rusiya işlərinə müdaxilə etmək kimi Foşun planı müvəffəqiyyətsizliyə düçar olmuşdur.

- Rusiya quberniyalarına hər növ ərzaq yetirmək üçün bir komissiya təşkil edilmişdir. Bu komissiyanın başçısı Daniya [Danimarka] nümayəndəsidir.

- Rusiyada hangi tərəfi olursa-olsun müdafiə etmək üçün Rusiyaya müsəlləh qüvvə göndərmək məsələsi təxirə salınmışdır.

- Berlindən xəbər verilir ki, alman Avstriyasında vaqe olan əmələlərin [fəhlələrin] müttəhid [birgə] iclasında qərar qoyulmuşdur Almaniya Avstriyası ərzaq məsələsində mükəmməlën Müttəfiqlərdən asılı və onlarla əlaqədar olduğundan, Şura Rusiya ilə ittifaq bağlamaq kimi Macarıstan dəvətinə icabət etmək [dəvətini qəbul etmək] mümkün deyildir.

- Berlindən rəsmi surətdə xəbər verilir ki, Almaniya Hökuməti polyak qoşunlarının Dansiqə çıxmalarına ciddi surətdə mümaniət [maneçilik] göstərir.

**Klemansonun istefasına dair**

Rostov – Parisdən simsiz teleqrafla hənüz Fransada böhrani-vüzəradan [hökumət böhranından] və Klemanso Kabinəsinin təbdilindən [dəyişdirilməsindən] məlumat verilməyir. Fəqət burası məlumdur ki, Klemanso Fransa tərəfindən Sülh Konfransında baqi [yerində] qalacaq. Mövsuq mənabedən [etibarlı mənbələrdən] verilən xəbərlərə nəzərən aprelin axırlarında sülh müahidənaməsi [sazişi] tərtibi qurtaracaqdır.

**QƏZETƏLƏRDƏN**

14 martda çıxan Petroqraddakı bolşeviklərin “Pravda” qazetəsi rəsmi su-

rətdə Petroqrad əmələlərinin Şura Hökuməti qarşısına çıxdığını böylə təsvir edir:

Mart ayının 10-da Petroqradın bütün fabrika və zavodlarında əmələlər tətil elan etmişlərdir. Tətilə şəhər tramvay qulluqçuları da müdaxilə etmişlərdir.

Narv, Putilov və Moskva dairələrinin fabrika və zavodları hakəza [habelə] həman müddətdə işi tərk etmişlərdir. Zavodlarda əmələlər mitinqlər qurub qərar qoyulmuşdur ki, Şura Hökumətinə ədəmi-etimad izhar edilsin [etimadsızlıq bildirilsin] və tələb edilsin ki, bolşeviklər hökumətdən əl çəksinlər.

Vasiliyev və Nevski dairələrində tətil edilməmişdir. Putilov və Rojdestvenski fabrikalarının əmələləri Şura Hökumətinə əks gedirlərmiş. Petroqrad Şurası İcra Komitəsinin binagüzarlığı [sərəncamı] ilə Rojdestvenski parka matros dəstələri göndərilib. Əmələlər bunlara etiraz edərək tələb etmişlər ki, matroslar və qırmızı qoşunlar parkdan çıxsınlar. Qırmızı qoşun əfradı [əsgərləri] isə əmələlərdən tələb etmişdir ki, tətili tərk etsinlər. Əmələlər arasında həyəcan artır. Qırmızı qoşun əfradı içinə 10 ədəd bomba atılıb, 10 nəfər qırmızı qoşun nəfərindən qətl edilib, bir çoxları da yaralanmışlarıdır. Həman gün Putilov zavodunda mitinq qurulub, qərar verilmişdir ki, tətil davam eyləsin.

**31 milyard xəsarət**

Şura Hökumətinin məlumati-rəsmiyyəsinə [rəsmi məlumatına] görə Şura Hökumətinin 1918-ci il büdcəsində 31 milyard manat xəsarət vardır. Dövlət məxarici 46 milyard olduğu halda, mədaxili 15 milyard olmuşdur. 1918-ci ildə böyük məxaric hərbi komissariatda olmuşdur.

**Kiyevə hücum**

Hal-hazırda Proskurovda olan Ukrayna qoşunlarının Baş komandanı qoşunlarına Kiyevə hücum əmrini vermişdir. Kiyev cəbhəsində böyük hərbi ləvazimatı olan Qaliçiya korpusu da hərəkət edir.

Sevastopol – Yaltaya İngiltərənin "Kenterberi" nam [adlı] kruvazeri [kreyseri] gəlmişdir ki, orada padşah xanədanına mənsub olan şəxsləri İngiltərəyə aparsın.

Moskva – Mərkəzi Komitəsinin icra iclasında Maliyyə komissarı Krestinski bəyan eyləmişdir ki, hər ayda Şura hökuməti beş milyard Kerenski pulu çap edir.

## TÜRKİYƏDƏ İSLAM MÜHACİRLƏR

Balkan hərbində müsəlmanların nə kimi məzalimə [zülmə] uğrayıb da bilməcburiyyə Anadoluya hicrət [köç] eylədikləri məlumdur. Bu mühacirlər vaxtilə Anadolunun ermənilərdən xali [boş] qalan yerlərinə nəql olunmuşlardı. İndi isə erməni mühacirlərinin təkrar yerlərinə iadələri [qaytarılması] məsələsi ilə əlaqədar olaraq bu zavallılar təkrar mühacirət bəlasına uğrayırlar. Bu məsələyə aid olmaq üzrə İstanbul qəzetələrindən birisində aşağıdakı fəqərə [məsələ] dərc edilmişdir:





Gərək Balkan hərbi-zailində [keçmiş Balkan müharibəsində] Rumeli və Krit və gərəksə Hərbi-ümumidə [Dünya müharibəsində] təshihi-hüdud [sərhədlərə düzəliş edilməsi] nəticəsində Bolqarıstana ilhaq edilmiş [birləşdirilmiş] olan Dimetoka və həvalisi [ətrafı] əhaliyi-islamiyyəsindən bir qismi məmaliki-Osmaniyyəyə [Osmanlı torpaqlarına] hicrət etmişlər və təhcir edilmiş [köçürülmüş] olan rum və ermənilərlə Balkan hərbini mütəaqib [Balkan müharibəsinin ardından] Yunanıstana hicrət etmiş olan rumların əmlak və ərazisinə iskan edilmişlərdi [məskunlaşdırılmışlardı].

Təhcir dolayısı ilə Anadolunun müxtəlif qisimlərinə sövq edilmiş olan erməni və rumların əski mə'valarına iadələri həsəbi ilə [köhnə məskənlərinə qaytarılması səbəbindən] mühacirini-islamiyyənin [müsəlman köçkünlərin] də vəziyyəti və iskan və ibatələri [məskunlaşdırılmaları və yerləşdirilmələri] düşünülmək lazım gəlirdi. Bunu nəzəri-diqqətə alan Mühacirin Müdiriyyəti-Ümumiyyəsi [Mühacirlər Baş İdarəsi] Daxiliyyə Nəzarətinə müraciət etmiş və müraciət vaqeəsi is'af olunarak [tələbi qəbul edilərək] yalnız övdət edən [qayıdan] erməni və rumların xanə və ərazisi kəndilərinə təslim edilmiş və övdət etməmiş olanların isə övdətlərinə dəyin [qədər] xanələrinin islam mühacirlər tərəfindən işğalına müsaidə olunması təqərrür etmişdir [qərarlaşdırılmışdır]. Bu müsaidə üzərinə böyük olan xanələrdə iki-üç ailə birdən iskan edilmişdir. Bu qədər ailəni istiaba [içinə almağa] müsaid olmayan və yaxud boş xanə qalmayan yerlərdə isə mühacirini-islamiyyə mərkəzlərdə cəm və bədəhu nəvahi və qüraya sövq edilmişlərdir [mərkəzlərdə toplanmış və sonra nahiyələrə və kəndlərə göndərilmişlər].

Tərxis edilən ordunun məlazimeyiziraiyyə və heyvanatı [kənd təsərrüfatı alətləri və heyvanları] haqqında Maliyyə Nəzarəti ilə cərəyan edən müzakirat nəticəsində bu heyvanatın bilmüzayidə füruxtu [hərrac yoluyla satılması] və əldə ediləcək məbləğin vəznələrə təslimi təqərrür etmiş ikən [xəzinəyə təhvil verilməsi qərarlaşdırılmışkən], Mühacirin Müdiriyyəti-Ümumiyyəsi komisyonlara göndərdiyi bir təmimdə [direktivdə] bu müzayidələrə iştirak etmələrini və iştira olunan heyvanatın [satın alınan heyvanların] mühacirini-islamiyyəyə kəfaləti-mütəsəlsilə [zəncirvari zaminlik] surətilə verilməsini bildirmişdir. Məmaliki-müstəxləsəyə [xilas edilmiş məmləkətlərə] Mühacirin Müdiriyyəti-Ümumiyyəsi heç bir surətdə müavinət edəmməməkdədir. Çünki vəziyyəti-maliyyə dolayısı ilə keçən sənə verilmiş beş milyon lirə təxsisati-fövqəladə [fövqəladə vəsait] yerinə bu sənə ancaq bir milyon lirə verilmişdir.

Dimetoka və civarı [ətrafı] mühacirininin [köçmənlərinin] vəziyyəti-müstəqbələsi [gələcək vəziyyəti] müqərrərati-sülhiyyə [sülh qərarları] nəticəsində təqərrür edəcəkdir [müəyyənləşdiriləcəkdir]. Müdiriyyəti-ümumiyyə bunların vətəni-əslilərinə iadəsinə [əsil vətənlərinə qaytarılmalarına] tərəfdardır. Rumeli mühacirini haqqında isə Yunanistanla bu babda [barədə] əvvəlcə təqərrür etmiş bir mübadilə projesi mövcud idi. Vəziyyəti-siyasiyyə təvəzzöh edincə [aydınlaşdıqdan sonra], bu xüsusda dəxi qəti bir qərar veriləcək və hicrət etmiş rumlarla türk-

lərin əmval və əmlakı [malları və mülkləri] mübadilə ediləcəkdir. Mühacirini-islamiyyənin hal-hazırda təhvini-ehtiyacati-mübrəməsi [vacib ehtiyaclarının yüngülləşdirilməsi] hökumətcə böyük bir əhəmiyyətlə nəzər-diqqətə alınmışdır.

## DAĞISTAN MƏCLİSİ-MƏBUSANINDA

Dağıstan Məclisi-Məbusanının son iclasında müzakirə edilmiş olan məsələlərin əhəmiyyətinə görə, müzakiratı [müsakirələri] "Dağıstan" qəzetəsindən iqtibasla qarelərimizə təqdim ediriz:

14-cü apreldə olan Məclis rəisi müavini Cabaqiyev Qroznıya göndərilmiş heyəti-mürəxxəsənin [nümayəndə heyətinin] üzvü, Məclisi-Məbusan rəisi Rəşid xan Qaplanovdan gələn məktubu oxudu. Məktubun məzmunu:

*"10-cu apreldə heyəti-mürəxxəsə Şaliyə vasil oldu. 10-cu apreldə Denikin əsgəri Qudermesi zəbt etmişdilər. Sobunç xəttində vaqe qəryələr [yerləşən kəndlər] və Vedeno qəzasından bəzi qəryələr Könüllü əsgərin şürutunu [şərtlərini] qəbul etmişdilər. 10-cu apreldə Şalidə çeçenlərin ümumi məclisində bizim sualımıza cavabən:*

*– Biz Dağıstan Hökumətindən münfəridən [ayrı] heç bir məsləhət yapmayacağız və hökumətin əmrinə tabeyiz, – dedilər.*

*11-ci apreldə çeçenlərin vəkillər[i]lə bərabər Qroznıya getdik. Qroznıya Denikin və ingilis generalı Briks gəlmişdilər. Denikin qəti surətdə kəndi məqsədi-əslisini [əsil məqsədini] bizə söylədi:*

*1) Rusiyanı ehya etmək [diriltmək];*

*2) Dağıstan Hökuməti kəndi məqsədinə müğayir [zidd] olmaq;*

*3) Könüllü əsgər üçün Şamilqala lazım olmaq.*

*Bizim sözlərimiz və dəlillərimiz nəticəsiz qaldı. Biz Qroznıdan övdət etdik [qayıtdıq]. Bir qaç gün Çeçenistanda qalacağız. Denikinin qüvveyi-əsgəriyyəsi çox azdır. Şimdiyə qədər onların qalib olması çeçenlər arasında ittifaq və itaət olmadığındandır. Dağıstandan gələcək müavinət [kömək] təxir olunarsa, müzəffəriyyət düşməndə olacaqdır. Ümidsiz olmayalım. Fransada inqilab olub Klemanso və arxadaşları istefa verməsi Qroznıda məlum oldu."*

Sonra rəis müavini Cabaqiyev kəndi tərəfindən əlavətən deyir:

– İki gün əvvəl Qroznıda bizə bir məlumat gətirmişdilər. Guya Dağıstan Terek vilayətindən ayrılıb Azərbaycan ilə müttəhid olacaqmış [birləşəcəkmiş]. Bu xüsusda rəisimizin məktubunda heç bir şey yoxdur.

**Aşxatsava** (Abxazlı) – Biz əhalini düşmən əleyhinə təhrik və təşviq üçün Məclisi tətil edərək qəzalara getməyi qət etmişdik. Fəqət, bəzi şayiələrə görə qəzalara getməyi təxir etdik. Şimdi rəisimizin məktubundan məlum olur ki, işlər bizim eşitdiyimizin əksinədir. Öylə olduğu təqdirdə, bilatəxir [gecikmədən] qəzalara dağılıb, əhali arasındakı vəzifəmizi ifa etməliyiz.

**Hərbiyyə naziri miralay [polkovnik] Musalayev** – Hökumət bu gün Çeçenistandan dörd məktub aldı. O məktublarla şimdi oxunan rəisin məktubunun arasında fərq var. O məktubların müqayisə edilməsini tələb edirəm.





**Şanayev** (Osetin vəkili) – Məlum olur ki, çeçenlərin müavinətə ehtiyacı pək çoxdur. Halbuki Dağıstan süvari alayı ələn [indi] Teymurxanşurada bulunur. Dağıstan alayından mümkün olduğu qədər müavinət Çeçenistana neyçün getməyir? Dağıstan alayı ümumi müharibələrdə Rusiyanı mühafizə üçün şücaətlər ibraz edirdi [göstərirdi]. Nə üçün onlar bizim vətənimizi mühafizə etməyir? Mən Dağıstan alayının bilatəxir cəbhəyə getməsini lazım görürəm.

**Hərbiyyə naziri** – Şanayevin sözü doğru deyildir. Çünki, hökumətin əmri ilə Dağıstan alayı Qroznını mühafizə etmək üçün göndərilmişdi. İşlər dəyişincə, hökumət Dağıstan alayının geri çəkilməsini və Xasavyurt hüdudunda vüqu bulan fitnələri təskin [yatırmaq] üçün o civarda qalmasını əmr etdi. Məzkur [deyilən] alayın bir qismi də Teymurxanşuranı mühafizə etmək üçün buraya cəlb edildi. Biz də rahatlıqda yaşamayırız. Çeçenistanda iki divizion və bir tabor əsgər var. Əgər arzu edərlərsə, onlar vətəni mühafizə edə bilər. Hökumət nə vaxt əmr edərsə, Dağıstan alayı da meydani-hərbə getməyə hazırdır.

**Aşxatsava** – Hər bir aqil işə düşünərək başlar. Bütün dağıstanlılar kəndi dağları kimi hürrdürlər və şübhəsiz, öz hürriyyətlərini mühafizə edirlər. Hürriyyət uğrunda namlı əcdadımız fədayi-can etdilər. Biz zülmü istəməyiz. Beyhudə qan tökülməsini arzu etmədiyimizdən, əvvəldə dəxi Denikinə mürəxxəslər [nümayəndələr] göndərmişidik. O vaxt mürəxxəslərimizi Denikin görmək belə istəmədi. Şimdi də göndərmişdik və zənn edirik ki, Denikinlər fikir edərək bizim sözlərimizi istema edərlər [dinləyərlər]. Onların məqsədləri şimdi tamamən məlum olur. Biz çocuqlar deyiliz. Onların istədiyi işlərimizi buraxmaq qətiyyən caiz deyildir. Fransada inqilab zahir olmaq bizə məlum, bizimlə bərabər işləyəcək hürriyyətçilər çox olacaqdır. Fəqət denikinlərlə ancaq xəbislər arxadaş olur. Bizim münəvvər [ziyalı] sinifimiz eyi fikir etməyir. Əhvali-zamanı anlamaq istəməyir. Zabitlərimizin bəziləri bulvarda qızlarla gəzir, bəziləri də Denikinə mail olur və bəziləri də işlərimizi Denikinə ixbar edir [xəbər verir]. Şimdiyə qədər təhəmmül etdik [dözdük]. Artıq kifayət edər. Bizdən ayrılmaq istəyənlər açıq söyləsin və ayrılsın. Bizim müqərrər [qərarlaşdırılmış] işimizin təxir edilməsindən heç bir fayda çıxmayacaqdır. Məbuslarımızın tezliklə müəyyən edilmiş yerlərə getməsini münasib görürəm.

**Yusif Hacı** (Çeçen) – Rəisdən varid olan [gələn] məktub haqqında müzakirə etməyi münasib görməyirəm. Bəlkə heyəti-mürəxxəsəmiz gəlincəyə qədər işlər də dəyişmək möhtəməldir [ehtimal olunandır]. Bizə təfviz edilmiş [tapşırılmış] işi itmam edəlim [yerinə yetirək].

**Arslan Noqayev** (Çeçen) – Vəkillərimiz gəlincəyə qədər işi təxir etmək faydalı olammaz. Uzun Hacı buradadır. Yarın da Əli Hacı gələcək. Onları Məclisə dəvət edəlim və sonra dağılalım.

**Şaxi Tokayev** (Dağıstanlı) – İşlərimiz açıq, təxir etmək lüzumsuzdur. Biz və sair hökumət məmurları yəmin etdikdən sonra hər qəzaya bir məbus göndərilməsini münasib görürəm. Bütün Məclisin dağılmasına ehtiyac yoxdur.

**Rəis müavini Cabaqiyev** – İki [gün]

əvvəl Dağıstanda bir şayiə var idi ki, guya məmləkətimiz iki qismətə ayrılacaqmış: Dağıstan ingilislərin, Terek vilayəti Denikinin təhti-nəzarətində [nəzarəti altında] olacaqmış. Bizim mürəxxəslərimiz də guya buna razı olmuş imiş. Bu gün rəisimizin məktubundan mənə məlum olur ki, bu şayiə yalandır. Denikin Şamilqalamızı zəbt etmək istəyir. Ural və Mavərayi-Xəzərdə [Zakaspiyskdə] olan əsgərlərlə irtibat peyda etmək istəyir. Fəqət biz məmləkətimizin parçalara ayrılmasına qətiyyən razı olmayacağız. Eşidiriz ki, guya bəzi adamlar Dağıstanı Azərbaycana ilhaq etmək [birləşdirmək] istəyirlər. Amma biliniz ki, Azərbaycan bizə şimdiki müavinətdən ziyadə yardım göstərməyəcəkdir. Yenə məlumunuz olsun ki, Denikin Çeçenistanda qalmayacaqdır. Çeçenistanda iş tamam olar-olmaz Dağıstana gələcək, Dağıstandan da Bakıya əzimət edəcəkdir [gedəcəkdir]. Çünki Denikinin Bakıya olan ehtiyacı fövqəlhədd [həddən artıq] çoxdur. Dağıstanı Azərbaycana ilhaq edib Çeçenistandan ayrılmaq istəyənlər vətən xainləridir. Zira çeçenlər və dağıstanlılar İmam Şamilin zamanında da müttəhidən [birgə] çalışdılar. Zənn etməm ki, dağıstanlılar kəndi qardaşları olan çeçenləri qanlar içində buraxıb Azərbaycana ilhaq etsinlər. Bu böyük bir hiylədir. Böylə dəsisələrlə [kələklərlə] bizi aldatmaq istəyirlər.

**Ağarəhim Qazı** (Dağıstanlı) – Hökumət təşəkkül etdikdən bəri qulaqlarımız Denikinin xəbərlərindən qurtulammadı. Şimdi Denikinin məqsədləri bizə məlum. Mən əvvəla kəndimizi eyibləyirəm. Çünki söyləyiriz, unuturuz. Əhali bizə və hökumətə şübhə edir və deyirlər ki, Məclisi-Məbusan və hökumət vətənimizi Denikinə satmaq istəyir. Düşmənin qarşısına çıxmaq bizə vacibdir. Görürüz ki, düşmən geri getməyir. Biləks [əksinə], bizə yaxınlaşır və Şamilqalamızı zəbt etmək istəyir. Bilməyirəm düşmənin qarşısına nə vaxt çıxacağız. Biz qəzalara getmədən əvvəl İdareyi-Şəriyyədən [Şəriət İdarəsindən] cihad vacib olmaq haqqında istifadə edib fitvanı bizimlə bərabər götürməmizi münasib görürəm. Zabitlər xüsusunda dəxi sözlər çox olur. Fəqət işin həqiqəti açılmayır.

**Şanayev** təklif edir ki, mükalimə [danışıq] bitdirilərək əsil məsələyə şüru edilsin [başlansın]. (Əsil məsələ Rəisi-hökumətin istefası idi). Məslis bu təklifi qəbul edir. İstefa məsələsi haqqında müzakirata başlanır.

**Aşxatsava** – Zamana nəzərən istefanı qəbul etmək mümkün deyildir. Hökumət rəisi kəndi mövqeyində qalmasını istəyiriz. Bu vaxt hökuməti dəyişdirəcək vaxt deyildir. Vətənə xidmət etmək istəyən kimsə kəndi mövqeyində qalmaq vacibdir.

**Yusif Hacı** – Əhvali-zamana vaqif hökuməti dəyişdirib yenilərini intixab etmək [seçmək] müzirrdir [zərərlidir]. Biz onu qəbul etməyiz. Əgər şimdiki hökumət[ə] nərədən və kimlərdən olursa-olsun bir mane varsa, bizə söyləsin. Biz onları xaini-vətən hesab ediriz və Rəisi-hökumətdən yerində qalmasını rica ediriz. *(Ümum Məclisi əzaları "rica ediriz" deyirlər.)*

**Hökumət rəisi Kotsev cənabları** – Zənn edirdim ki, mənim istefamı Məclisi-Məbusan mükaliməsiz qəbul edəcəkdir. Mən soqaq xəbərləri ilə istefa verməmişdim. Həqiqətən vücudumda xəstəlik və məşğuliyyətin çoxluğundan yorğunluq vardır. İkinci səbəb, şimdi məmləkətimiz yalnız Dağıstan vilayətinə münhəsir [məxsus] olunur. Mən nə qədər dağıstanlıları çox sevərsəm də, kəndim dağıstanlı deyiləm. Buna görə Dağıstan vilayətinin halını az bilirəm. Mənim yerimdə Dağıstanı tanıyan bir adam olarsa, şübhəsiz fayda olacaqdı. Manelər [mane olanlar] isə sağdan və soldan yox deyildir. Mən bolşevik deyiləm və bolşevik olmağı qətiyyən qəbul edəmməm. Çünki bolşevik fikrinin qəbahətindən deyil, bolşeviklərə yoldaşlar olan xuliqanlar çoxdur. Mən onlara arxadaş olammam. Mən milli demokratam (nasional-demokrat). Bolşevik proqrammasını qəbul etməyi mənə təklif edənlər var idi. Mən o təklifi qəbul etmədim və etməm də. Kəndi məsləyimdən nə sağa, nə sola meyl etməm. Sizin təvəqqenizə görə kəndi mövqeyimdə qaldım və həsbəltaqə [gücüm çatan qədər] kəndi məsləyimi təqib edəcəyəm.

## AZƏRBAYCAN HAQQINDA ƏDƏBİ, TARİXİ VƏ SİYASİ MƏLUMAT

*(keçən nömrələrdən mabə'd)*

Genə ümumi xeyir və mənfəətdən ötrü gərək hər iki tərəfdən bu cürə əhvallar xatirədən çıxarılsın. Əlbəttə, millətimizə lazım gəlir ki, Mart hadisəsi zamanında türk mədəniyyətinə xidmət edən yurdu, yəni "İsmailiyyə"ni – nərədən ki, türk balaları pərvazlanıb [qanadlanıb] bütün Azərbaycana dağılırlardı – genə həman yerdə daha böyük və möhtəşəm bir gözəl imarət inşa etsinlər. Burda türk mədəniyyətinin yurdunu – "İsmailiyyə"ni yandıranların adları Efesdə yunanların böyük məbədi adını tarixdə zikr etdirmək üçün yandıran Herostrat kimi gərək tarixdə adları qeyd edilsin. Rəvayətə görə, Herostrat ağılsız olduğu cəhətdən tarixin məhkəmə cəzasından azad olur. Fəqət "İsmailiyyə"ni yandıranlar salim-əql [ağlı başında] olduqlarından həm də qabaqca məhvinə qəsd etmələri ki, yandırılmasI ilə hər dəfə xarabasını Azərbaycan türk xalqı gördükdə dərindən ah çəkib baislərinə lənət edəcəklər.

Mart hadisəsinin bir illiyi münasibətilə martın 18 (31)-də bütün millət matəm saxlayaraq şəhid olan ata, ana, bacı və qardaşlarının və diri-diri mıxlanmış körpə uşaqlarının ruhuna fatihə oxudular.

Amma uşaqların son vəhşətli çığırtıları gərək bizləri qisasa dəlalət etməsin. Lakin o vəhşilərin ürəyində bu iki millətin arasında qardaşlıq əlaqəsinin möhkəmləşməsi üçün tövbə fikri oyatsın.

Bu cürə ürəkyandırıcı hadisələrin üstündə kitab bağlamaq tarix yazanların işi olduğu üçün keçək Rusiya istibdad hökumətinin dağılmasından sonra Azərbaycan ilə Rusiya əlaqəsinin zəifləşməsinə.

Kerenski Müvəqqəti hökuməti zamanında Qafqaziyanı idarə etməyə Qafqaziya əhalisindən, yəni gürcülərdən bir nəfər, müsəlmanlardan bir nəfər, ermənilərdən bir nəfər və ruslardan da bir nəfər nümayəndə olmaqla bir komitə təşkil edildi. Bu cürə qurma bir idarənin təş-

kilindən Kerenskinin məqsədi Qafqaziyanı əldən buraxmamaq idi. Fəqət Qafqaziyada yaşayan millətlərin həyatı və əhvalı öylə idi ki, artıq süni çərçivəyə girməzdi və bu cəhətə görə 1917-ci sənəsi noyabrın 15-də Rusiyadan qəti surətdə ayrıldı. Dərhal Zaqafqaziyaya məxsus Tiflisdə bir Komissariat vücuda gəldi. Ondan sonra Seym təşkil olundu.

Zaqafqaziya Hökuməti təşəkkül edən kimi Türk Komandanlığı ilə sülh müzakiratına şüru edilib [başlanıb], 1917 sənəsi dekabrın 5-də fəriq [general] Vəhib paşa ilə Zaqafqaziya arasında (Ərzincanda) mütarikə [atəşkəs] şərtnaməsi imzalandı. Bu mütarikə sonra pozulub yenidən Trabzonda müzakirat başlandı. Trabzon mütarikəsi də kəsildikdən sonra Zaqafqaziya Seymi 1918 sənəsi aprelinin 22 (9)-sində müstəqil Zaqafqaziya Cümhuriyyəti elan etdi.

Lakin bir az zaman keçmədən Zaqafqaziyada yaşayan üç millətin bir yerdə səltənət edəcəyi qabil görülməyərək, hər millət milli və siyasi nöqteyi-nəzərlə ayrı-ayrı hökumətin təşkilinə iqdam etmək [başlamaq] niyyətində oldu. Bu səbəbə görə Azərbaycan, Gürcüstan və Ermənistandan ibarət üç dövlət təsis olundu və 1918 sənəsi mayısın 28-də Azərbaycan müstəqil bir cümhuriyyət elan olundu.

Nəinki bir türk aləmində, bəlkə bütün islam aləmində bu vaxta qədər əvvəlinci dəfə cümhuriyyət şəklini alan Azərbaycan Cümhuriyyəsi oldu. Azərbaycan coğrafi, milli, tarixi, dini və sairə bir çox əhvallarından naşi [ötrü] müstəqil bir dövlət şəkli almağına fələk özü də riza göstərmişdir. Baxüsus [xüsusilə] müstəqil olmasının binası, torpağımızın bütünlüyü sırf türk milləti ilə məskun olduğu, türk dili danışılmasından və demək olar ki, bütün əhalinin islam dini ilə mütədəyyin olmasındadır [etiqad etməsindədir].

Azərbaycanın istiqlaliyyəti mayısın 28-də elan edilib, hökumət təşkili sədrəzəm [Baş nazir] Fətəli xan Xoyski həzrətlərinə tapşırıldı və Milli Şura öz vəzifəsini tamam eylədi. Lakin Milli Şura özünü buraxmaqdan əvvəl Heyəti-Vükəlaya [Nazirlər Kabinetinə] tapşırdı ki, hökumət altı ay müddətində Azərbaycanın Məclisi-Müəssisanını [Təsisçilər Məclisini] dəvət etməyə çalışsın və bütün məmləkətə və millətə aid məsələlər məzkur [deyilən] məclisin rizası və qətnaməsilə məhəlli-icraya qoyulsun. Hökumət bu nəzarətlərdən [nazirliklərdən] düzəldi: Daxiliyyə, Xariciyyə, Hərbiyyə, Maliyyə, Türüq və Məabir [Nəqliyyat və Rabitə], Ədliyyə, Maarif, Ümuri-Xeyriyyə [Sosial Təminat], Posta və Teleqraf, Əmlak və Dövlət Müfəttişliyi nəzarətlərindən. Bu növ ilə təşkil olunmuş hökumətin ən əvvəldə qarşısında iki böyük məsələ durmuşdu. Bunların birincisi məmləkətdəki iğtişaşın yatırılması və Azərbaycanın paytaxtı olan Bakının bolşeviklər və qeyri düşmənlərimizin əlindən xilası, o biri isə genə Azərbaycan məmləkətinin bəzi ayrılmaz qitələri[nin] ermənilər tərəfindən tutulması idi.

Məmləkətin daxilindəki hadisələr o qədər şiddətli olurdu ki, Azərbaycan hökumətinə əsgər toplamaq və qüvvə hazırlamaq imkanı verməyirdi. Lakin hökumət iğtişaşı yatırmaqdan ötrü və məmləkətdə qanunu icra etdirməyə nə qədər mümkünü var isə çalışırdı. Fəqət





müntəzəm qüvvənin əldə olmaması axırda onu məcbur etdi ki, Türkiyə dövlətinə rücu [müraciət] edib ondan məmləkətindəki hərcü-mərcliyi yatırmaq və torpaqları düşmən əlindən xilas etmək üçün kömək istədi.

Dövləti-Aliyyeyi-Osmaniyyə xahişimizi qəbul edib dərhal bir ordu qüvvəsi Azərbaycana göndərdi və bu ordu iyun ayının əvvəllərində, 1918-ci sənədə Azərbaycana daxil oldu. Az bir zamanda Osmanlı türkləri və azərbaycanlılar köməkləşib davam edən iğtişaşı yatırtmaqla məmləkətimizi də bolşevik və ermənilərdən xilas etdilər. Türk ali komandası əvvəlcə Gəncə şəhərini özlərinə idarə mərkəzi qərar verdilər. Həman Gəncə ki, bolşeviklər onun zəbtinə nəhayət şövqlə hazırlaşırdılar. Lakin gəncəlilər bütün qüvvələrilə oranı mühafizə və müdafiə etdilər. Gəncə şəhərinin möhkəm durması həm də Şəmkir davasında bolşeviklər qabağını saxlamaqla Türk Ordusunun işini və hərəkəti-hərbiyyəsini bir dərəcə asanlaşdırmışdı. Unutmamalı ki, bu bolşeviklər adlarını, məəttəəssüf [təəssüf ki], sosialist qoymuşdular və sözlə hər millətə öz müqəddəratını həll etmək ixtiyarı vermişdilər. Amma feildə onlar bizi hürriyyətdən məhrum qoymaqla istəyirdilər ki, bizi genə zənciri-əsarətə düçar etsinlər. Şəmkirdə vüqu bulmuş [baş vermiş] faciələri ruznamələrdə [qəzetlərdə] həqiqətə müğayir [zidd] bir surətdə yazıb bu hadisələrin xanlar və bəylər tərəfindən icra edildiyini göstərirdilər. Halbuki xanların, bəylərin xəbəri yox idi. Burada fürsəti qənimət bilib bu hadisələr haqqında bəzi məlumat vermək istərəm. Çünki Şəmkir hadisələri mənim öz gözümün qabağında vaqe olmuşlardı.

Köhnə qayda ilə yanvar ayının 6-da 1918-ci sənədə Gəncə Müsəlman Milli Komitəsi Tiflisdən bu məzmunda bir teleqraf aldı:

*"Rusiyaya qayıdan saldatlar özlərilə bərabər silahlarını da aparırlar. Əgər sülh üzrə onlardan silahı almaq mümkün olmaz isə, o zaman Qafqaziya Milli Ordusu cəbhədə silahsız qalacaqdır. Bu cəhətdən Saldat, Fəhlə və Rəncbər Mərkəzi Şurası qət etdi ki, bütün milli və qeyri şuralara məlum etsinlər ki, evlərinə qayıdan saldatlardan silahları almaqdan ötrü lazımi tədbiri görsünlər. Bu xüsusda hər dəfə məzkur [adı çəkilən] Şuraya məlumat versinlər.*

*Sədr: Jordaniya"*

Bu teleqram alındığından bir gün sonra, yəni yanvar ayının 7-ci günündə Tiflisdəki zirehli qatar 60 nəfər saldat ilə Gəncə vağzalına gəldi.

Zirehli qatarın nümayəndələri şəhərə gəlib məlum etdilər ki, hər nəhv [yol, tərz] ilə olursa-olsun, saldatlardan silahlarını almağa əmr olunmuşdur. Bunu dəxi əlavə etdilər ki, onlara camaat kömək verməsələr də, onlar özləri gəlibgedən eşelonların silahlarını alacaqlar. Çünki məmləkətin hakimləri böylə əmr vermişlər və hər kəs vətənini sevirsə, bu işə kömək etməlidir.

Yuxarıdakı teleqramı, həm də bunların bu məqsədlə Gəncəyə gəldiklərini və ümum [bütün] eşelonlar keçərkən əhalini güllələməsini müsəlman əhalisi nümayəndələri nəzərə alıb onlara lazımi qədər kömək edəcəklərini vəd etdilər.

Bu cəhətdən müsəlman nümayəndələri – məşhur camaat xadimi, vətənpərəst olan mərhum Ələkbər bəyin oğlu Xudadad bəy Rəfibəyov və Aslan bəy Səfikürdski, zirehli qatar nümayəndələrilə bir yerdə, gəlməkdə olan eşelonların nümayəndələri də silahların təslimi haqqında müzakirat üçün yanvarın 8-də Şəmkirə getdilər. Eyni zamanda Rüstəmbəyli Şəfi bəy ilə Adıgözəl[ov] İmamverdi bəy Bakı tərəfindən gözlənilən bolşeviklərin qabağını saxlamaq üçün tədbirlər görmək qəsdilə Yevlax tərəfə göndərildilər.

Danışığın nəticəsində saldatlar silahlarını Şəmkirdə təslim etməyə razı oldular. Silahları öhdələrinə və təhvillərinə almaq qəsdinə Şəmkirə müsəlman ziyalıları ilə bərabər şəhər camaatı da getdilər. Həmçinin yaxın kəndlərdən də 2 min nəfərə qədər silahlı kənd camaatı cəm oldular. Yanvar ayının 9-da sübh saat 10-da Şəmkirin iki verstliyində və Şəmkir çayının sağ kənarında durmuş zirehli qatarın müqabilinə eşelonlar gəlməyə başladı. Ən əvvəl malorus eşelonu keçdi. 2-ci və 3-cü eşelonlar öz rizaları ilə silahlarını təslim etdilər. Onlardan alınan silahlar zirehli qatara yığıldı. Hər bir iş bütün sakitlik və nizam ilə keçdi. Guya ki, zirehli qatar bir-birinin dalınca gələn saldat qatarları ilə mehribanənə söhbət edirdi. Silahlarını təslim edən saldatlar Şamxor stansiyasına gedib camaatla xoşrəftarlıqlan keçirdi. Bu cürə şadlığa deyəsən təbiət özü də iştirak edirdi. Uzaqlarda şimalın və cənubun qarlı dağları da şəhadət göstərib təbəssüm edirdi. Qatar duran yerdən qibləyə doğru Şəmkirin üstündə bina olunan qalanın və körpünün xarabası görünürdü. Bu xaraba halı hərəkətdə insanın nəzərini özünə tərəf çəkirdi. Bu cəhətdən o xarabaya baxdıqda xatirimə ona dair tarixi bir əhvalatı yad etdim.

Bu xaraba keçmişdə bir şəhərin xarabasıdır ki, o zaman Şəmkir padşahlığının ismi ilə adlanmışdır. Bu vaxta qədər onun üstündə həman ad baqi qalmaqdadır. Mudavəş nəslinin ikincisi "Şəmkür" adında bir padşah 323-356 hicrisində (935-967) burada hökumət edib, bir şəhər tikib adını da oraya vermişdir. İndi o şəhərdən ancaq bir körpüsü və qalasının xarabası baqi qalmışdır. Əmir Teymur zamanında bu şəhər abad imiş.

Kim güman edə bilərdi ki, bu zikr etdiyim xoş mənzərə günortadan sonra cəhənnəmə dönəcəkdir. Birdən-birə yer və göy titrədi, nərildədi, toplar guruldadı, pulemyot və güllələr dolu kimi başımıza yağdı. Əgər dəstəbaşı gəncəli Kərbəlayi Həsən Şahsevənli mənə kömək verib öz silklərinə tərəf aparmasaydı, tələf olmağı gözümün altına almışdım.

Bu hadisəyə tamam camaat mat qaldı. Dördüncü eşelon gəlib silahlarını təslim etdikdə içlərindən bir nəfər onlara səslənib "Silahlarınızı təslim etməyiniz, atəş açın, müsəlmanları qırın!" – deyə qışqırdı, fitnəni ortalığa saldı. Bu zaman toplar açıldı. Topun gülləsi orada sakit duran zirehlinin baş tərəfinə dəydi. İçində olan komandir Abxazavanı, iki afseri, bir saldatı və bir müsəlmanı tələf etdi.

Bu top gülləsindən sonra yerdə qalan səkkiz eşelon yolun o tərəf-bu tərəfində duran əhalinin üstünə od yağdıra-yağdıra vağzala doğru yönəldilər. Bu əhvalı müsəlmanlar gördükdə artıq səbr etməyib atəş açmağa məcbur oldular. Qırğın və vuruşma başladı. Axırda eşelonlar taqət gətirməyib silahlarını verməyə məcbur qaldılar. Saldatlar silahlarını təslim edəndən sonra atışmanı dayandırdılar və bir nəfər də saldat öldürülmədi.

Təslim olan saldatların ədədi 10.000-ə qədər var idi. Hərgah müsəlmanlar doğrudan – necə ki, bədxahlarımız onları vəhşilikdə və qaniçicilikdə müttəhim edirlər – öylə olsaydı, o zaman bu qədər saldatları tələf edərdilər. Fəqət təslim olan saldatların qətlinə heç vədə ağayana türk milləti fitva verə bilməzdi. O saldatları bu odu yağdırmağa vadar edən içlərində olan fitnəçilər imiş.

Bu davada camaatın verdiyi tələfatdan qeyri üç nəfər məktəb mütəallimləri [şagirdləri] Məhəmməd Məşhədi Əli oğlu, Rəfizadə Yaqub (gimnaziyanın 8-ci sinif mütəallimi), Mehdizadə İsfəndiyar eşelonun atəşi altında canlarını vətən və millətlərinin uğrunda fəda edib şəhadətə yetişdilər. Dördüncüsü isə Mirzə Əliəkbər Bağır oğlu Hüseynzadə bərk yaralandı. Amma ölümdən qurtardı. Bu cavan elm sahibləri rəşidanə [rəşadətli] bir surətdə qabaqda olub eşelonlardan silahları cəm edirdilər. Mən kamali-ümid ilə inanıram ki, biz türk milləti bu cavanlarımızın vətəni və milləti yolunda fədakaranə bir surətdə çalışıb və axırda şəhid düşdüklərini xatirimizdən çıxartmayacayıq. Onların bu qəhrəmananə ölümləri əlbəttə cavanlarımıza bir nümunə göstərir ki, necə vətəninin yolunda lazım olan vaxt qeyrətlə can vermək lazımdır, nə ki, bir parə cavanlarımız binamusluğu qəbul edib vətənin əsgərlik vəzifəsindən baş qaçırırlar. Qeyrətsiz ataları da ana, bacı namusunun müdafiəsindən qaçan cavanlarını gizləyirlər.

Doğrudur, şəhidlərin cismi zahirdə görülməyirsə, fəqət ruhları diri hesab olunur.

Vaqonla bu tərəfdən digər tərəfə hərəkət edən bolşevik saldatların çöldə və zəmilərdə işləyən müsəlman əkinçilərinin üstlərinə atəş açmaları insanı dəhşətə salır. Halbuki həmin bu bolşeviklər rəncbərlərin müdafiəçisi, rəncbərlərə mülk və əkin yeri vəd edirlərdi.

Eyni zamanda Azərbaycan rəncbərləri yer və ixtiyar vəd edən bolşeviklərin ixtiyarıyla vəd olunan yerlərə ölümcül yaralı düşürlər, arzu etdikləri qanlar ilə boyadırdılar.

Bolşeviklərin və fitnəçilərin bihəyalığı bir mərtəbəyə çıxmış ki, özlərini fəhlə və rəncbərlərin hamisi adlandırdıqları zamanda bəzi hiylələri sayəsilə müsəlman fəhlə və əkinçiləri arasında və Azərbaycan türk camaatı arasında təfriqəçiliyi [ayrı-seçkiliyi], ədavəti salmaq istəyirdilər. Və əkinçilərə vəd verirdilər ki, onları xanların, bəylərin və ağaların əsarətindən xilas etmək üçün çalışırlar.

Qoy hamıya məlum olsun ki, cahangirlik [imperializm] dövrü bizim hamımızı bir əsarətdə və bir rəzalət içində saxlayıb da damğalayırdılar.

Azərbaycan xan və bəyləri rəiyyətdən daha bədtər [betər] istibdadın zülmü altında əziyyətdə idilər. Bu cürə zülüm və istibdad altından çıxan xan və bəylərin ancaq bir quru ləqəbləri baqi qalmışdır. Hal-hazırda vətəndaşlıq vəzifəsini anlayan hər bir xan və bəy qeyri vətən-

daşlar ilə bərabər, yəni əkinçi və fəhlə ilə müsavi surətdə vətənin və millətin nəfi [faydası] yolunda çalışıb, hürr Azərbaycan Cümhuriyyəsinin hürr vətəndaşlarıdır. Bunlar öz sinələrini vətənin və millətin mühafizəsində qabağa verib, hər bir fitnəçi – istər bolşevik və istər isə qeyri bir qara qüvvə – olmuş olsa dəf edəcəklərdir.

(yenə var)

*Adil xan Ziyadxan*

*Ədəbi sütunlar*

## ƏSGƏRLƏRİMİZƏ-KÖNÜLLÜLƏRİMİZƏ

"Arş, irəli, arş, bizimdir fəlah
Arş, igidlər, vətən imdadına!"
*Namiq Kamal*

\- 1 -

Qorxutmamalı bizləri yollardakı əngəl,
Məfkurəyə doğru yürü, qoş, durma, çapuq gəl!
Millət tikəcək namına ölsən dəxi heykəl,
Qoyma toxuna yurduna naməhrəm olan əl.
Bizlərdə bu gün olmalı bir məqsədi-əkməl,
Bir məqsədi-əkməl və bir ümmidi-mübəccəl.
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

\- 2 -

İstərsən əgər yurduna hürriyyəti-na-zan,
Düşmənləri ehraq üçün ol atəşi-su-zan,
Tənviri-vətən etməyə ol nuri-füruzan,
Dillərdə bu gün olmalı bir əzmi-xüru-şan,
Lərzəndə-qədəm olmamalı azimi-meydan,
Ehyayi-vətən içün, əvət, verməliyiz can,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

\- 3 -

Təhdid ediyor yurdumuzu düşməni-qəddar,
Boğmaq diliyor haqqımızı firqeyi-xunxar,
Afaqi-siyasiyyəmizə ətf qıl ənzar,
Olmaqda buludlar şu üfüqlərdə nümudar,
Etməklik üçün yurdumuzu qərqeyi-ənvar,
Biz də edəlim kəndi bəsalətmizi izhar,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

\- 4 -

Şansız yaşamaq istəməriz, şan diləriz, şan,
Əshabi-həmiyyət diləməz ömri-pərişan,
Himmətlilərindir, bilin, amali-dirəxşan,
Qeyrətsiz olan millət olar sahibi-xüsran,
Ehrazi-kamal etmək üçün qoşmalı hər an,
İstərsək əgər olmayalım bəndəyi-fərman,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

\- 5 -

Nazəndə vətən qibleyi-hürriyyətimizdir,
Məşcərləri, məzhərləri həp cənnətimizdir,
Bəslər bizi, bir mün'imi-biminnətimizdir,
Olduqca diri süfreyi-pürnemətimizdir,
Öldükdə qucağı əbədi türbətimizdir,
Qiymətli vətən madəri-zişəfqətimizdir,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

\- 6 -

Bil ki, vətənin sevgili bir madəri-candır,
Vermə bunu əğyar əlinə, rəhm et, amandır,
Hürriyyətimiz huri-füsunsazi-cahandır,
Bax bir nə gözəldir, necə candır, nə cavandır,
Biz verməriz əldən, bunu düşmənlərə qandır,
Hübbül-vətəni onlara fe'linlə inandır,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

\- 7 -

İlk məhdin ilə son yerin ağuşi-vətəndir,
Xaki-vətənin, bilməlisən, mayeyi-təndir,
Gülzari-vətən cənnəti-hər-qönçə-dəhəndir,
Ziruh çiçəklər yaradan işbu çəməndir,
Hifz etməyə bu gülşəni qurbani-bədəndir,
Rüxsareyi-gülrəngi-əməl rövşənü-şəndir,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

\- 8 -

Millət yaşamaz, yurdunu zəbt eyləsə düşmən,
Gəldikdə xəzan fəsli sönər rövnəqi-gülşən,
İstərsək əgər yurdumuz olsun da işıq, şən,
Göstərməliyiz düşmənə bir cür'əti-rövşən,
Qurbani-vətən olmalı bir can ilə bir tən,
Ən ülvi səadət: Vətən olsun tənə mədfən,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

\- 9 -

Hübbül-vətəni yazmalıdır qəlbinə millət,
Hübbül-vətəni sanmalı bir milli ibadət,
Hübbül-vətən uğrunda ölən zindədir, əlbət,
Ey hübbi-vətənlə dili ləbrizi-məvəddət,
Şəfqətli anandır vətənin, etməli xidmət,
Ey seyfü-qələm ərləri, ba-cür'ətü-qeyrət,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

*Bakı, 22 nisan 1919*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## ÇAĞIRILACAQ BEYNƏLMİLƏL KONFRANS MÜNASİBƏTİ İLƏ NAXÇIVAN VƏ ŞƏRUR MAHALLARI

**- 2 -**

Naxçıvan və Şərur mahallarını qeyb etmiş olarsaq, Azərbaycan vücudunun iki dəyərli əzasını [orqanını] qeyb etmiş olarız.

Lüzumlu iki əzasını qeyb etmiş insan nasıl təbii nəşvü-nümasında [inkişafında] bir taqım mümaniələrə [maneələrə] məruz qalar, Naxçıvan və Şərurunu qeyb etmiş Azərbaycan eyni surətdə kəndi nəşvü-nümasında böyük maneələrə məruz qalar. Zatən, Naxçıvan və Şərur mahallarının iqtisadi və siyasi əhəmiyyətləri Azərbaycan əfkari-ümumiyyəsində [ictimai fikrində] olduğundan neçə qat belə artıqdır. Əqsayi-Şərqdə [Uzaq Şərqdə] Azərbaycan tutduğu mövqeyi-coğrafisi cəhətincə atiyədə [gələcəkdə] iqtisadən böyük rollar oynayacağına şübhə yoxdur zənnindəyəm.

Şərqin bir çox mətası Qərbə və Qərbin həm bir çox mətası Şərqə yalnız Azərbaycan təriqi [yolu] ilə gedəcəkdir. Yevropa, Amerika bazarlarında satılan İran mətaları (xüşkbar, xalı) İrandan yalnız Azərbaycan təriqi ilə ixrac və İran bazarlarında satılan Yevropa, Rusiya mətaları yenə əksər Azərbaycan təriqi ilə idxal olur. Yalnız İran deyil, Asiyanın bəzi başqa qitələrinin [hissələrinin] həm ticarəti Azərbaycan təriqi ilə olacağından burası Şərq ilə Qərbin vəsətində [ortasında] mübadileyi-məta [mal mübadiləsi] olunan bir nöqtə təşkil edəcəkdir. Təbii, kəndi vəzifəsini layiqincə ifa etməkdən ötrü Azərbaycan həml-nəql [yüklərin daşınması] üçün əlverişli yaxşı yollara malik olmalıdır. Kaspi dənizi vasitəsi ilə İran, Türküstan və həm Rusiya ilə ticarətimiz əlbəttə bir dərəcəyə kimi asanlaşar. Lakin, Naxçıvan və Şərur mahallarını qeyb etmiş olarsaq, Azərbaycanın iki islam ölkəsi və yarım milyon nüfusa baliğ [çatan] yerli və mühacir

irqdaş və dindaşlarımızla bir yerdə İran və bəlkə həm Osmanlı ticarətinin bir qismini qeyb etmiş olarız.

Fikrimizi aydınlaşdıraraq, dəlillərlə isbat edəlim. Məlum olduğu üzrə İran Azərbaycanının əksər hissəsinin ticarəti Zaqafqaziya dəmiryolları vasitəsi ilə Culfa təriqi ilə olurdu.

Təbriz, Xoy, Urmu, Səlmas, Marağa və İran Azərbaycanının başqa bir çox nahiyələri min putlarla kəndi mallarını Culfa təriqi ilə ixrac edərək, bədəlində həman təriqlə yüz min putlarla qənd, çay, manufaktura və bir çox həm Yevropa və Amerika mallarını İran Azərbaycanına idxal etdirirlərdi. Bu ticarətlərin həml-nəqli Culfaya kimi Zaqafqaziya dəmiryolları vasitəsilə və İran məmləkəti daxilində isə Təbriz dəmiryolu, Urmu gölü və həm buralarda mövcud caddə yolları [quru yolları, magistral yollar] vasitəsilə olur. Məlum olduğu üzrə Rusiya ilə İran ticarətinin böyük bir hissəsi həmin bu təriq ilə olurdu və Culfa-Bakı dəmiryolunu Rusiya hökuməti yalnız İran ilə Culfa təriqi ilə olan ticarətini vüsətləndirməkdən ötrü düşünmüşdü. Culfadan Xoy, Dilməqan, Köhnəşəhər, Van və bir neçə başqa İran və Osmanlı şəhərlərinə gözəl caddələr var. Həkəza [habelə], Naxçıvan şəhərinin bir istasyon məsafəsində bulunan Şahtaxtı mövqifindən [stansiyasından] Maku xanlığına, Bayəzid[ə] bir dəmiryol və bir neçə şose yolları Rusiya hökuməti tərəfindən inşa edilib, həmin bu yollara Azərbaycan Cümhuriyyətinin örkən mənziləsində [yerində] bulunan və məzkur [deyilən] yollarla Naxçıvan mahalı daxilində vaqe Culfa qəsəbəsində yerləşən Culfa-Bakı dəmiryolu əlavə edilərsə, Naxçıvan və Şərur mahallarının Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu isbata belə hacət qalmaz zənnindəyəm.

Culfa-Bakı dəmiryolunun əhəmiyyəti bu gün Azərbaycan Cümhuriyyətində hamıca düşünülür. Hökumət həm bu yola lazimi əhəmiyyəti verdiyindəndir ki, belə Sədri-vükəla [Baş nazir] həzrətlərinin deklarasiyasında ondan bəhs olunur. Lakin, Azərbaycan camaatı əksərən bu yolun əhəmiyyətini avtomobil nöqteyinəzəri ilə düşünür. Azərbaycan Cümhuriyyətinin başqa-başqa hissələrini bir-birinə yapışdırır və həm bu hissələrə təbdili-məta [mal mübadiləsi] etmək və yaxud mətalarını bazarlara çıxartmaq imkanı verir deyirlər. Əlbəttə, bu əhəmiyyət kəndisi Azərbaycan miqyasında az əhəmiyyət deyil. Lakin, həmin yolun dünyanın altıdan bir hissəsini qəsb etmiş sabiq Rusiya hökuməti nöqteyi nəzərində olan böyük əhəmiyyəti həm baqi [yerində] qalır. Bu əhəmiyyət isə bu yolun Culfada Təbriz dəmiryolu ilə ittisal edərək [birləşərək], İran bazarlarını Bakı vasitəsi ilə Rusiya ilə yaxın bir yol ilə birləşdirməsidir.

Naxçıvan və Şərur mahalları Azərbaycan daxilində qalaraq Culfa-Bakı dəmiryolu Təbriz dəmiryolu ilə birləşərsə, Bakı neftindən sonra Azərbaycan xəzinəsinin birinci mənbeyi-sərvəti həmin yol olar.

Zaqafqaziya dəmiryolları və yaxud Gürcüstan və Ermənistan dəmiryolları kəndi mövqelərini itirər. İran ticarətinin həml-nəqli büsbütünə Azərbaycan məmləkətindən həmin yol vasitəsilə olar və böyləliklə, yol varidatı artaraq dövlət xəzinəsini təqviyə etməkdən [gücləndirməkdən] əlavə, Azərbaycan camaatına başqa xüsuslarca maddi və mənəvi bir çox müavinətdə bulunar.

Yol tərəddüdatı [gediş-gəlişi] və həm həml-nəql artdıqda, dəmiryol tarifəsindən əlavə bir çox başqa mənbeyi-varidat [sərvət mənbəyi] vücuda gələrək Azərbaycan camaatının maddi və iqtisadi cəhətdən kəsbi-qüvvət etməsinə [güclənməsinə] xidmət edər. Azərbaycan mətaları möhtəkirlər təvəssütü [vasitəçiliyi] ilə deyil, azərbaycanlıların kəndi əlləri ilə satılmağa imkan olar. Hakəza [eləcə də], dünyanın bir çox cəhətləri ilə rabitə vücuda gəldiyindən, Azərbaycan türklərinin əsrə doğru getmələri, tərəqqi və təkamül etmələri yolunda həm bəzi təshilat [asanlıqlar, əlverişli imkanlar] vücuda gələr.

İran Azərbaycanı ermənilər üçün qapalı qalar. Azərbaycan tacirlərinə İran ilə ticarət etmək üçün müsaid bir mövqe vücuda gətirər. Azərbaycan qitəsini qonşu İran və Osmanlı məmləkətləri ilə həmhüdud edər...

Bir qitənin əhəmiyyətindən bəhs etdikdə, onun mərkəzə yaxın və yaxud uzaq olduğunu yox, bəlkə tutduğu mövqeyi-coğrafisi və oynaya biləcəyi iqtisadi və siyasi rolları nəzərdə tutulmalıdır. Həmin nöqteyi-nəzərdən Naxçıvan və Şərur mahallarının əhəmiyyəti heç bir mükafatla təviz [əvəz] olunammaz.

Azəri türklərinin müstəqil olaraq mədəni millətlər ailəsinə daxil olmalarını tarix bizim əsrimizə təsadüf etdirdiyindən, kəndi vəzifəmiz ifasında qüsur göstərmiş olarsaq, həm vətən və həm gələcək nəsil qarşısında məsul yalnız kəndimiz olacağız. Yaralı vətəndə, parçalanmış yurdda yaşamaq məcruh [yaralı] bədənlə yaşamaqdan acı olduğunu hamımız düşünürüz. Binaənileyh [ona görə], övladlarımıza irs qoyacağımız Azərbaycanı parçalara təqsim olunmuş [bölünmüş] yox, bütün hissələrini cəm edərək salamat bir vücud şəklində qoymalıyız.

Xülasətül-kəlam olaraq bunu həm demək istəyiriz ki, Naxçıvan və Şərur mahallarının iqtisadi və siyasi əhəmiyyətlərindən bəhs etdikdə zənn edilməsin ki, haiz olduqları [daşıdıqları] əhəmiyyətləri cəhətincə biz buraları vətənimizə daxil etmək istəyiriz. Yüz ildən artıq bir zaman imperialist təhti-idarəsində [idarəsi altında] əzilən Azəri türklər imperializmaya yalnız lənət edirlər.

Naxçıvanın kürreyi-ərzdə behəqq [haqlı olaraq] birincilik qazanmağa layiq olan üzümü, peniri, Şərurun İrəvan quberniyasının yarısına kifayət edən buğdası, düyüsü, bu iki vilayətlərdə sənəvi [illik] min putlarla hasil olan pambıq, İtaliya bazarlarında şöhrət qazanmış ipək, bütün Qafqaziyaya kifayət edən duz mədənləri, islam dövri-səltənətlərindən qalan bir çox asar [əsərlər, abidələr], Azərbaycan güldəstəsinin birər müəttər [ətirli] çiçəklərini onun üçün təşkil edirlər ki, bu ərazi Azərbaycan qitəsi olaraq, əhalisinin səksən faizi Azəri türk və islamlarıdırlar.

*Tağı Nağdəlizadə*
*20 aprel 1919*

**ALÇAQ SİYASƏT**

Axıska qanlı hadisələrinin əsil səbəblərini bulmaq, fəlakətin dərəcəsini anlamaq üzrə oraya Məclisi-Müəssisan tərəfindən fövqəladə bir komissiya göndərildi.

O komissiya əzasından [üzvlərindən] biri də müsəlman idi. Heyf ki, adı yadımda deyil. O həm bütün müsəlmanların Məclisi-Müəssisanda yeganə vəkilidir. Amma deyirlər, adil, saf və avam bir köylüdür. Tiflisdə bir çox müsəlman oxumuşlarını Məclisi-Müəssisana namizəd göstərmişlər, lakin komissiya heç birini qəbul etməyib, həmin köylünü münasib və layiq (!) bilmiş.

İştə, bundan da gürcü sosialistlərinin siyasətlərini təqdir edərsiniz [başa düşərsiniz].

Məqsədə gələlim: Komissiya Axıskaya gedib, təhqiqatda bulunmuş və keçən həftə qayıdıb Məclisi-Müəssisana dakladını ərz eyləmişdir.

Budur, dakladın xülasəsi:

*"Axısqa 400 ilə yaxındır ki, türk-müsəlman nüfuzu altında qalmış, Osmanlıların çox zülm və cəfalarını çəkmiş, gürcülüklərini, dillərini tərk etdirilməyə çox çalışılmış, lakin axıskalılar yenə ana (?) dili gürcücəni saxlamışlar. (Halbuki yüzdə 95-i bir söz də gürcücə bilməz, çünki ana dilləri türkcədir.)*

*1918-də Axıska və Axalkələk uyezdləri 7 ay qədər Osmanlıların əlində qaldı. Noyabrın axırında Osmanlılar Axıskadan çəkildilər. Çəkiləndə camaatın var-yoxunu da bərabər alıb götürdülər. Dekabrın əvvəlində Axıskaya daxil olan gürcü qoşunu yerli müsəlman camaatı tərəfindən məmnuniyyətlə qarşılandı. Lakin gürcü idarəsi, torpaqları əllərindən gedəcək olan bəylər, Osmanlı agentlərinə xoş görünmədi. Bunların kimi qaçdı, çoxu evlərində qaldı ki, fürsət vaxtında camaat arasında hökumət əleyhinə təşviqatda bulunsunlar. Böylə də oldu. Çox çəkmədi, bunlar qoşunun azlığından istifadə edərək əhalini üsyana hazırladılar. Günün birində posxovlularla birləşib qoşunumuzun arxasından hücum etdilər. Qoşunumuz azlığı səbəbi ilə müvəqqətən çəkilməyə məcbur oldu. Sərvər bəy 25 gün Axıskada hökumət eylədi. Nəhayət, 7 martda Axıska yenə tərəfimizdən işğal edildi. Bu işğali-əsgəri [hərbi işğal] vaxtında bittəbii [təbii olaraq] bir çox köylər zərərə düçar edildi. Onlara tezliklə yardım lazımdır."*

İştə, rəsmi bir daklad ki, başdan-başa yalan və uydurmadır.

İnsan həqiqət naminə böylə şeytənəti-siyasiyyəni [siyasi şeytanlığı], əfkari-ümumiyyəni iğfal [ictimai fikri yanıltmaq] üçün böylə qəsdi [məqsədli] firqə saxtakarlığını, alçaq tərəfgirliyi gördükcə sosialist istibdadı ilə Nikolay istibdadı arasında nə fərq var, deyəcəyi gəlir. Əvət, daklad tamamilə yalan:

1) Osmanlılar gedəndə köylü camaatın heç bir şeyini götürməmişlərdir. Osmanlı vaxtında hər zad bol, oğurluq, talan qətiyyən yox idi. Alver hər kəs üçün sərbəst, hətta əsgəri podratçılar, böyük pul qazananlar yenə gürcü və ermənilərdən idi.

2) Axıskada Osmanlı tərəfdarı nə bir agent və nə də bir bəy qalmışdı.

Gürcü hökumətinin ən ziyadə qorxduğu Ömər Faiq əfəndi ki, köylü camaatın yanında böyük nüfuzu vardı, yoldaşları ilə bərabər Axıska işğalının həftəsində tutulub Tiflisə həbsə göndərildi. Qalan bəylər ki, Baxşı bəy Maçabeli, Ziya bəy Şərabçıyev, Teymur bəy Muxranski, Fəzail ağa Orconikidze, Xarcam imamı Molla Osman və qeyrilərdən ibarətdir, Axıskada qalıb Levan Ruxadze ilə bərabər gürcü hökuməti mənfəətinə çalışırdılar. Axıskada camaatı hökumət əleyhinə təşviq edəcək bir nəfs [adam] də yox idi. Həqiqətdə isə camaatı üsyana "məcbur" edən yeganə Levan Ruxadze və yoldaşları bəylər idi.

Osmanlı vaxtında camaat arasında ticarət qayət sərbəst idi. Hər kəs azadlıqla şəhərə gəlirdi. Ruxadze idarəsi qurulandan sonra şəhərə gəlib-getmə kəsildi. Ticarət söndü. Müsəlmanlar sıxılmağa, mallarını saxlamağa məcbur oldular. Çünki başıboş saldatlar, intiqamçı gürcü mühacirləri tərəfindən soyulmağa, təhqirə düçar olurdular. Uravel uçastokunda müsəlmanlar silah saxlayırlar bəhanəsilə çılpaqlandırılıb döyülürdülər. Oşora tərəfində komissarların etmədikləri rəzalətlər qalmayırdı. Ruxadzenin 18 yaşındakı qardaşı komissar, başına yığdığı "Nikolay jandarmaları" ilə istədiyini eyləyirdi.

Posxov hüdudu üzərindəki qarovullar gəlib-keçəni incitməkdə, soymaqda jandarmalardan aşağı qalmayırdılar.

İştə, böyləliklə camaat hökumətdən narazı olmağa, hüdud qarovulları ilə münaziəyə [mübahisəyə; münaqişəyə] başladılar. Həman bu kiçik münazię Ruxadzenin təşviqi ilə böyüyüb bildiyimiz Axıska hadisəsini meydana gətirdi.

Doğru, müsəlmanlar bir münazię nəticəsində hüdud qarovullarının silahlarını aldılar. Bu səbəblə üzərilərinə göndərilən 200-300 qoşun ilə vuruşub Ude kəndini zəbt və qismən talan etdilər. Lakin Ude gürcüləri, qonşuları müsəlmanlarla özləri uyuşa biləcəklərini, böylə ufaq şeylərlə işi böyütməməklərini Ruxadzedən rica etmişlərsə də o, biləks [əksinə], topla Kaxaret köyünü və camesini dağıtdırıb, civar [ətraf] köyləri də top atəşi ilə cəzalandırmağa və guya bu üsul ilə narazılığı söndürməyə çalışdı. Lakin müsəlmanlar şiddətə qarşı şiddətlə cavab verməyə məcbur oldular.

İştə, bu surətlə üsyan yanğınına lazım olan əcza [barıt] hazırlandı. Sərvər bəy Posxovda bunu duydu, fürsəti qənimət bildi, başındakı macərapərəstlərlə bərabər hüdudu keçdi. Ruxadzenin tədbirsizliklərilə hazırlanan əczaya od vurdu. Bu surətlə meydana gələn yanğın bütün uyezdi tutdu.

Ruxadzenin inad və tədbirsizliyi ilə hazırlanan yanğın Sərvər bəyin əfv edilməz dəlilik və avantürlüyü ilə böyüyüb biçarə Axıska köylülərinin, müsəlman demokratiyasının bədbəxtliyi ilə nəticələndi.

Budur, adi qarovul mücadiləsidir, o böyük Axıska fəlakətinin zahiri səbəbi! Arada nə Osmanlı agenti, nə torpaq məsələsi və nə də özgə böyük bir səbəb var. Ruxadzenin axmaqca rəftarı, Sərvərin dəliliyi.

İştə, həqiqi iki səbəb!

Bundan başqa hamısı yalan, uydurmadır.

Məclisi-Müəssisanda dakladını oxuyan təftiş komissiyası üzvü işin içini, əsil həqiqəti bildiyi halda, qəsdən təvilata

sapdı [sözü uzatdı, dolaşdırdı]. Firqə əzasından olub Ramişvilinin sağ qolu olan Ruxadzenin təqsirini örtdü. Ümumi bəylik və moda sözlərlə əfkari-ümumiyyəni [ictimai fikri] aldatdı. Göz görə həqiqəti basdırdı. Çünki müqəssir yalnız Ruxadze deyildi, onun şəriki-cürmü [cinayətdə şəriki] olan Ramişvili birinci cinayətkarlardandı.

Təəssüf, min təəssüf ki, gürcü sosialistliyi həqiqəti yoldaşları Ruxadzeyə qurban etdilər. O adama qurban etdilər ki, Axıskanın gürcü cəmiyyəti onun bir daha Axıskaya gəlməməsi, yenə ikinci bir fitnə qaldırmaması üçün hökumətə müraciət etdilər. O adama qurban etdilər ki, komissiyanın müsəlman üzvü onun, yəni Ruxadzenin məhkəməyə verilib həbs edilməsini şiddətlə tələb edirdi. O adama qurban etdilər ki, onun xatiri üçün daklad mətbuatda eynən nəşr edilib, əfkari-ümumiyyəyə bildiriləmmədi.

Əgər bu iş Azərbaycanda olmuş, Ruxadze Azərbaycan məbusu bulunmuş olsaydı, şimdi qiyamətlər qopmuş, Kabinə alt-üst edilmiş, mətbuat dili cəhənnəmi atəşlər yağdırmışdı. Lakin Tiflisdə Ramişvili siyasəti ki, ona heç vaxt əsil gürcü siyasəti deyəmməm, firqə xatiri, daha doğrusu öz xatiri üçün hər dürlü şeytənəti-siyasiyyəni istemal edib [siyasi şeytanlığı işlədib], həqiqəti örtdü və bu surətlə mövqeyini təmin etdi. Fəqət eyi bilməlidir ki, saxtakarlığın, alçaq siyasətin, əfkari-ümumiyyəni iğfalın ömrü uzun olammaz.

*14 mart, Gəncə*
*Ümidvar*

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Cümhuriyyətimizdəki kor ətfalın [uşaqların] əhvalını nəzərə alaraq onlar üçün təşkilatlar açmaq qəsdi ilə bütün nahiyə müfəttişlərinə müraciətən rica etmişdir ki, onların siyahısı tərtib verilib Nəzarətə göndərilsin. Habelə, kar və lallar üçün bir çox darüşşəfəqələr güşad edilmək [açılmaq] ehtimalı vardır.

- Axır vaxtlar erməni və müsəlman qaçqınları Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məskun edilmələrini rica və təmənna etməkdədirlər.

Müsəlman qaçqınları xüsusən İrəvan quberniyasından rica edirlər ki, ermənilər tərəfindən buraxılmış ərazini onlara versinlər. Ermənilər isə rica edirlər ki, öz yerlərinə köçməyə icazə verilsin.

İşbu məsələ Daxiliyyə və Ərazi Nəzarətlərinə də aid olduğu üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məzkur [adı çəkilən] nəzarətlərə müraciətən rica etmişdir ki, beynəlidarə [idarələrarası] bir komisyon təşkil edilsin. Komisyona nəzarətlər nümayəndələrindən maəda [başqa] erməni və müsəlman təşkilatları nümayəndələri də daxil olacaqdırlar.

- Bərdə Qaçqınlar Komitəsi Ümuri-Xeyriyyə və Nafiə Naziri [Viktor] Klenevskini nazir təyin edilməsi ilə təbrik etmişdir.

- Məsai Nəzarəti [Əmək Nazirliyi] Gədəbəy zavodu müdiriyyətinə müraciətən məlum etmişdir ki, nisanın 10-da zavod fəhlə komitəsi tərəfindən alınan teleqrafa görə, müdiriyyət müştərək müqavilənaməni [kollektiv müqaviləni] qəbul etməkdən imtina etmişdir. Nəzarət rica etmişdir ki, müştərək müqavilənamə maddələrinin həpsi qəbul edilməlidir. Əkssurətdə tətil və yaxud başqa ixtilaf çıxacaq olarsa, məsuliyyət müdiriyyətin üzərinə düşəcəkdir.

- Məsai Naziri Bələdiyyə rəisinə müraciətən məlum etmişdir ki, Bələdiyyə İdarəsi xidmətçilərinin qətnaməsi və Bələdiyyə İdarəsi xidmətçisi Taranovskinin şəxsən müraciətinə görə nazir həzrətləri rica edir ki, Bələdiyyə İdarəsi üzvü Məhəmmədbəyova məlum edilməlidir ki, xidmətçini əl ilə təhqir etmək qeyri-qabil bir işdir.

## BAKI XƏBƏRLƏRİ

**Sui-niyyət kəşfinə dair**

Neçə gün bundan əqdəm [qabaq] Azərbaycan Hökuməti və Cümhuriyyəti əleyhinə sui-niyyət [terror] hazırlanması kəşf edilməsi haqqında məlumat vermişdik. İndi rəsmi dairələrdən alındığı məlumata görə həmin sui-niyyətdə müttəhim edilən 40 nəfər erməni tövqif [həbs] edilmiş və Bakıdan, ələlümum Azərbaycan torpağından nəfy və təbid edilmişlərdir [sürgün edilmiş və qovulmuşlar]. Tövqif edilmiş olan ermənilər Daxiliyyə nazirinə müraciətən şikayət etmişlər ki, onları vağzala apardıqda milis nəfəratı bir çox döymüşlərdir. Daxiliyyə naziri tərəfindən icra edilmiş olan təhqiqat nəticəsində məlum olmuşdur ki, onları heç kim döyməmiş və lazımi nizam və qayda təhtində [altında] olaraq yola salmışlardır. Buna bir çox adamlar şəhadət vermişlərdir.

**Müsəlman mülki məmurları iclası**

Nisanın 11-də Post və Teleqraf idarəsində xidmət edən müsəlman mülki məmurlarının iclası vaqe olmuşdur. İclasda məmurların ədəbi və iqtisadi cəhətlərini təmin etmək məsələsi müzakirə edilmiş və qərardad edilmişdir ki, tezliklə müsəlman mülki məmurlarının ittifaqı təşkil edilib, var qüvvə ilə cavan Azərbaycan hökumətinə yardım və millətə xidmət edilsin. İttifaqı təşkil etmək üçün bir heyət intixab edilmişdir [seçilmişdir] ki, bunlardan ibarətdir:

Mirzəcani – sədr, Yusif Quliyev – katib, Bəhram bəy Vəzirov – xəzinədar, İbrahim Atabayi - müavini-sədr. Üzvlər: Rüstəm İbadov, Rza bəy Dadaşbəyov, İsgəndər İmamquluyev, Zülfüqar Əzimzadə, Dadaş Dadaşov.

**Müsəlman əmələlərinin tətilinə dair**

Aldığımız məlumata görə, Balaxanıda "Kaspi" Quqasov mədənində müsəlman əmələlərinin [fəhlələrinin] tətili davam etməktədir. Əmələlər məlum etmişlər ki, onlar keçən il bir çox müsəlman əmələlərinin öldürülüb quyulara tökülməsinə səbəb olmuş ermənilər mədəndən qovulmasa, işə başlamayacaqlardır. Məsai [Əmək] naziri tərəfindən bu işə böyük əhəmiyyət verilərək əmələlərin vəkilləri istənilmişdir. Əmələlərin dörd nəfərdən ibarət olan vəkilləri dünən Məsai nazirinin hüzuruna getmişlərdir. Əmələlər indi ermənilərin qovulmasından əlavə, məhkəməyə verilmələrini dəxi tələb edirlər. Eşitdiyimizə görə, əmələlərin tələbatı [tələbləri] Məsai naziri tərəfindən qəbul edilmişdir.

**Milli bayraq**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsi tərəfindən Tağıyev fabrikasına üçrəngli məxsusi bir milli bayraq sifariş edilmişdir.

**Yeni pullar**

Maliyyə naziri Parlamana (Məclisi-Məbusana) müraciətən rica etmişdir ki, yenidən 450 milyon manat kağız pul buraxılmasına icazə verilsin.

**Zaqafqaziya Konfransında Azərbaycan nümayəndələri**

Bu ayın 25-də Tiflisdə açılacaq olan Zaqafqaziya Cümhuriyyətləri Konfransına Azərbaycan Cümhuriyyəti tərəfindən nümayəndə olaraq Fətəli xan Xoyski, Xariciyyə naziri Məmməd Yusif Cəfərov və Məclisi-Məbusan üzvü Məhəmməd Əmin Rəsulzadə göndərilirlər.

**Müəllimlərin məvaciblərin[i] artırmaq**

Məclisi-Məbusanın Maliyyə-Büdcə Komisiyası tərəfindən qərardad edildiyinə görə, müəllimlərin məvaciblərini artırmaq məsələsi qəti surətdə həll edilib qurtarana qədər hələlik müəllimlərin məvacibləri Maliyyə Nəzarətinin iyirmi milyonluq fondundan artırılsın. Məvaciblərin artırılması yanvarın əvvəlindən hesab olunmalıdır.

**Bolşeviklərin həbs edilməsi**

Hökumətin binagüzarlığına [sərəncamına] görə şəhərdə bolşeviklər tövqif [tutulmaqda] və həbs edilməkdədirlər. Tövqif edilənlər Azərbaycan Cümhuriyyəti torpağından sürgün edilirlər.

**Kurslar**

Fəhlə Klubunun mədəni-maarif heyəti fəhlə qisminin mədəniyyətini təmin etmək üçün şəhər və mədən dairəsində kurslar (məktəblər) açmışdır. Bu kurslarda dəxi türk lisanı da öyrədiləcəkdir. Kurslar heyəti üç növ kurslar güşadı [açılması] qərara alınmış. İki aylıq əlifba kursundan yarım sənəlik kursadək və iki bölüklü (semestr) müxtəss [xüsusi] sənaye kursları. Əlifba kurslarının ən yavuq məsələ və məqsədi yazıb-oxumaq öyrətməkdir. Müsəlman fəhlələrindən ötrü şəhərdə dəxi kurslar düzəlmişdir və yavuq zamanda dərs başlanacaqdır. Özlərini kurslara yazdırmaq istəyənlər hər gün Parlaman imarətində "Hümmət" fraksiyonuna müraciət edə bilərlər. Kurslar pulsuz olacaqdır.

**BƏYANİ-TƏŞƏKKÜR**

Müdir-i möhtərəm əfəndi.

Bugünlərdə sevgili həmşirəmin [bacımın] vəfatından naşi [ötrü] kədər və müsibətimizə şərik olaraq bizə qarşı mənəvi ehtiramat ibraz edən [nümayiş etdirən] zəvati-möhtərəməyə [möhtərəm şəxslərə] bilümum [ümumiyyətlə], ətrafdan təziyət məktubları göndərən əhbaba [dostlara] bilxüsus [xüsusilə] ərzi-imtinan etməyə [minnətdarlıq bildirməyə] qəzetənizin vasitə olmasını rica eylərəm.

*Salyan: Rüstəm İskəndərzadə*





**İtibdir**

Novxanılı Ağaəmi Əhməd oğlunun Bakıda 4-cü uçastokdan aldığı pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*8730*

**İtibdir**

Hüseyn Əliyevin İrəvan quberniyasından aldığı pasportu itib. Etibardan saqitdir.

*8737*

**İtibdir**

Əhməd Abbasquluzadənin Bakı quberniyası Novxanı kəndindən aldığı pasportu itib. Etibardan saqitdir.

*8733*

**Satılır**

Ev abstanovkası [mebeli], stalovı [yemək mebeli], lednik [buzluq], yatacak (spalnı), qastin [qonaq otağı mebeli], pianino, şəkillər və qeyriləri. Baxmaq olar saat 11-dən 2-dək. Malakanski küçə, nömrə 24, mənzil 15, telefon nömrə 19-33.

**Mart hadisatı zamanında**

Kərbəlayi Qərib Kərbəlayi Ağa oğlu Hacı Səməd Heydərovdan aldığı icarə kağızı (prakatnı raspiska) itib. Etibardan saqitdir.

*8734*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Peyvənd etmək üçün təzə "limfa" vardır. Telefon nömrə: 58-39.

*5779*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul

edir. Ünvan: Telefonnı küçədə nömrə 6.
*8710*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.
*2629*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Sülh ətrafında**

səh. 427. “Dördlər Şurası”: Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən əmələ gələn şura (“Böyük Dördlük” yaxud “Dördlər Şurası”); bura ABŞ prezidenti Vudro Vilson, Britaniya, İtaliya və Fransa Baş nazirləri Lloyd Corc, Vittorio Orlando və Jorj Klemanso daxil idi.

**Qəzetələrdən**

səh. 428. “Proskurov”: Ukraynanın qərbində, indiki Xmelnitski şəhəri.

**Türkiyədə islam mühacirlər**

səh. 429. “Mühacirin Müdiriyyəti-Ümumiyyəsi”: (Mühacirlər Baş İdarəsi) Osmanlı dövlətində mühacirlər problemi ilə məşğul olan qurum.

“iştira olunan heyvanatın”: “iştira” yerinə qəzetdə “iştirak” getmişdir.

**Dağıstan Məclisi-Məbusanında**

səh. 430. “Dağıstan”: XX əsrin əvvəllərində Teymurxanşura şəhərində nəşr edilən qəzet.

**Azərbaycan haqqında ədəbi, tarixi və siyasi məlumat**

səh. 433. “Herostrat”: qəzetdə “Qerostad” kimi getmişdir.

səh. 436. “Bu xaraba halı hərəkətdə insanın nəzərini özünə tərəf çəkirdi.”: qəzetdə “hərəkətdə” yerinə “hərəkətdən” getmişdir.

**“Əsgərlərimizə-könüllülərimizə” (səh. 438-439) şeiri üçün lüğət:**

fəlah: qurtuluş
əkməl: kamil, mükəmməl
mübəccəl: uca; əziz
şitaban olmaq: tələsmək; yüyürmək





rah: yol
nazan: nazlı
ehraq: yandırıb-yaxmaq
suzan: yandıran-yaxan
əzmi-xüruşan: coşğun bir əzm
lərzəndə-qədəm: addımları titrək olan
azimi-meydan: əzm edib meydana çıxan
ehya: diriltmək, canlandırmaq
firqeyi-xunxar: qaniçənlər dəstəsi
afaqi-siyasiyyə: siyasət üfüqləri
ətf qıl ənzar: nəzər sal
nümudar: görünən, aşkar
qərqeyi-ənvar: nurlara boyanmış
bəsalət: igidlik
əshabi-həmiyyət: həmiyyət sahibləri
amali-dirəxşan: parlaq amal
sahibi-xüsran: ziyana məruz qalan
ehrazi-kamal: kamala çatmaq
bəndeyi-fərman: (özgələrin) əmrinə qul olan
məşcər: meşəlik
məzhər: çəmənlik
mün’imi-biminnət: minnət qoymadan nemət verən
süfreyi-pürnemət: nemətlərlə dolu süfrə
türbət: məzar; torpaq
madəri-zişəfqət: şəfqətli ana
madəri-can: can (kimi əziz) ana
huri-füsunsazi-cahan: bu dünyanın füsunkar hurisi
hübbül-vətən: vətən məhəbbəti
məhd: beşik
ağuşi-vətən: vətənin qucağı
xaki-vətən-vətən torpağı
mayeyi-tən: bədənin mayası
ziruh-canlı
cür’əti-rövşən: açıq-aşkar cürət
mədfən: dəfn yeri, məzar
zində: canlı, yaşayan
seyfü-qələm: qılınc və qələm
ba-cür’ətü-qeyrət: cürət və qeyrətlə

“Lərzəndə-qədəm olmamalı azimi-meydan”: qəzetdə “lərzəndə-qədəm” yerinə “lərzidə-qədəm” getmşdir.

“Hübbül-vətəni onlara fe’linlə inandır”: “Hübbül-vətən” sözünün mənası “vətəni sevmək”, “vətən məhəbbəti” deməkdir. Burada Peyğəmbərin “Hübbül-vətən min-əliman” (“Vətəni sevmək imandandır”) hədisi-şərifinə işarə edilir.

“Gülzari-vətən cənnəti-hər-qöncə-dəhəndir”: Vətənin gül bağçası qönçə ağızlıların cənnətidir.

“Rüxsareyi-gülrəngi-əməl rövşənü-şəndir”: Arzuların gül rəngli üzü işıqlı və şəndir.

“Ey hübbi-vətənlə dili ləbrizi-məvəddət”: Ey ürəyi vətən məhəbbəti ilə ağzına kimi dolu olan.

**Alçaq siyasət**

səh. 442. “Məclisi-Müəssisan tərəfindən…”: Gürcüstan Məclisi-Müəssisanı nəzərdə tutulur.

“O komissiya əzasından biri də müsəlman idi. Heyf ki, adı yadımda deyil.”: Komissiyanın üzvləri Georgi Nesteroviç Ancaparidze, Samson Georgiyeviç Pitsxalava, Pyotr Rostomoviç Surquladze və Hüseyn Gülməhəmməd oğlu Məhəmmədov olmuşdur.

səh. 444. “…komissiyanın müsəlman üzvü…”: qəzetdə “…komissiyadakı müsəlman üzvünü…” getmişdir.

“Ümidvar”: bu imza Ömər Faiq Nemanzadəyə məxsusdur.

**Nəzarətlərdə**

səh. 444. “darüşşəfəqə”: valideyn himayəsindən məhrum uşaqlar üçün pulsuz internet məktəbləri.



*"Azərbaycan" qəzetinin 165-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə axşamı, 24 aprel 1919-cu il, nömrə 165**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 23 rəcəbül-mürəccəb sənə 1337. 24 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

## BİR PİYALƏ ÇAY

Bakı İctimai Yığıncaq Klubunda nisan (aprel) ayının 24-də "İttihad" firqəsi tərəfindən "Bir piyalə çay" məclisi təşkil olunacaq. Səhnə tamaşası Hacıbəyli Bəradərləri müdiriyyətinin mahir artistləri tərəfindən idarə ediləcək. Məhz bu məclis üçün Qarabağdan məşhur "aşıqlar" daha dəvət olunub. Məclisə yalnız dəvətnaməsi olanlar buraxılacaq. İttifaqən [təsadüfən] dəvətnamə almayan zəvati-möhtərəm [möhtərəm şəxslər] məclisə gəlmək xahişində olsalar, dəvətnaməni Parlaman İdarəsində "İttihad" fraksiyonundan ala bilərlər.

*"İttihad" firqəsi*

## ELAN

1919 sənəsi pəncşənbə [cümə axşamı] günü aprel ayının 24-ndə, gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

## ZAQAFQAZ KONFRANSINA DAİR

Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrindən təşəkkül edəcək olan Zaqafqaz Konfransı sabahkı gündən etibarən Tiflisdə iniqada [toplaşmağa] başlamalıdır.

Konfransın müzakirəsinə vəz ediləcək [qoyulacaq] olan məsələlər xüsusunda qəzetəmizin keçənki nömrələrində məlumat verilmişdi. Bundan anlaşıldığı üzrə, Konfransda həm iqtisadi və həm də siyasi məsələlər müzakirəsi müqərrərdir [qərarlaşdırılmışdır] ki, siyasilərini təklif edən Azərbaycan və iqtisadilərini də Gürcüstan olmuşdur.

Həll ediləcək olan məsələlər istər siyasi olsun, istər iqtisadi olsun, son dərəcə mühüm olduğundan, Zaqafqaz cümhuriyyətlərinin biri-biri ilə yaxşı və yaxud yaman dolanması bu məsələlərin o tövr və ya bu tövr həll edilməsindən asılıdır.

Məsələlər mühüm olduğu kimi, onların həlli də çox müşküldür. Azərbaycan tərəfindən təklif edilmişdir ki, ixtilaflı məsələlər haqqında Konfrans heç bir qərara gələ bilməsə, o halda hər tərəf arbitraj qərarına tabe olsun, yəni bu işlərdə mənafecə zimədxal [məsələyə dəxli, işə qarışacağı] və əlaqədar olmayan bitərəflərdən hakəm və münsiflər dəvət edilib ixtilafın həlli onların qərardadına həvalə edilsin və onlar nə qərardad

qoysalar, hər tərəf buna razı olsun. Bu maddə bu surətlə qəbul edilərsə, ixtilaf və mübahisəli məsələləri həll etmək müşkülatı bir dərəcəyə qədər asanlaşar. Fəqət bu arbitraj qərardadının iki tərəfdən birinin mənafeyinə müvafiq olacağından, mənafeyini xələldar olmuş hesab edən tərəf genə də narazı qalacaqdır.

İştə bunun üçündür ki, bəziləri əzcümlə [o cümlədən] Erməni Milli Komitəsi naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan rusca "Naşe vremya" qəzetəsi dəxi siyasi məsələlərin həllini sonraya, yəni Ümumsülh Konfransı həllinə vagüzar [həvalə] edib də yalnız bir iqtisadi məsələlərdən bəhs edilməsini səlah [doğru] bilirlər.

Lakin biz bu zəndəyik ki, siyasi məsələlərə əl vurmamaq şərti ilə iqtisadi məsələləri müzakirəyə qoymaq və müzakirə bə'dində [müzakirədən sonra] müəyyən qərarlar ittixaz etmək [çıxarmaq] mümkün olan işlərdən deyildir. Ondan əlavə, siyasi məsələlərin müəlləq [qeyri-müəyyən] bir halda qalması heç bir kəsi şad edə bilməyib, arada genə də bürudət və küdurət [soyuqluq və nifrət] törədə bilər. Halbuki Konfransdan məqsəd bu küdurəti və bu bürudəti aradan götürmək, etibar və etimad əmələ gətirməkdir. Bunun üçün bir kərə açılışmaq lazımdır. Böylə açılışmaq ki, onun axırı möhkəm surətdə bağlaşılmağı müntəc olub [bağlanmaqla nəticələnib], aramızdakı kin və küdurəti rəf etsin [aradan qaldırsın].

Siyasi məsələlərdən ən mühümü və ən çətini hüdud təyini məsələsidir.

Bu məsələ zatən Zaqafqaz cümhuriyyətlərinin istiqlal elanı bə'dində [sonrasında] müzakirə və həll edilməli idi. O vaxt, yəni təqribən altı-yeddi ay bundan əvvəl bu xüsusda bir konfrans yığmaq üçün Gürcüstan və Azərbaycan hökumətləri tərəfindən təşəbbüslər edildi. Lakin Ararat Hökuməti o vaxt bu konfransa razı olmayıb işi pozdu. Pozmaqda da müəyyən qərəzi olduğunu, bunu mütəaqib [bunun ardınca] Gürcüstana qarşı açmış olduğu müharibə ilə isbat etdi. İngilislər tərəfindən toxtadılmış olan bu müharibədən erməni hökuməti heç bir şey qazanmadı, biləks [əksinə] maddi və mənəvi zərərlər çəkdi. İş genə qılınc zoru ilə deyil, danışıb görüşmək təriqi [yolu] ilə həll edilmək zərurətində qaldı.

Şayani-diqqət [diqqətəlayiq] burasıdır ki, o zaman Ararat Hökuməti Azərbaycan iştirakı ilə bir konfrans qurulmasına razı olmayıb da, məxsusi surətdə gürcülərlə danışmağa girişmək istəmişdi. Gürcü Hökuməti bu işə razı oldusa da, iş genə Ararat Hökumətinin təkrar rizasızlıq ibrazı [nümayiş etdirməsi] ilə baş tutmadı. Hər halda ümum Zaqafqaz konfransı təşkilindən əvvəl Gürcüstan və Ermənistan hökumətlərinin xüsusi görüşmələri niyyəti baqi [qüvvədə] qalmış imiş ki, bu Konfransdan əvvəl həman iş baş tutub, Ermənistan və Gürcüstan arasında bugünlərdə vaqe olan danışıq nəticəsində bu iki hökumət bir-birinin istiqlalını qəbul edib tanıdıqlarını rəsmi surətdə elan etdilər. Bundan aşkardır ki, Gürcüstan və Ermənistan arasında vaqe olan ixtilaflı məsələlər artıq həll edilib qurtarmışdır. O surətdə, deməli, hər nə ixtilaflı hüdud məsələləri varsa Azərbaycan ilə Gürcüstanın və genə Azərbaycan





ilə Ermənistanın arasında qalmışdır. Bu ixtilaflar bərtərəf edilərsə [aradan qaldırılarsa], bizim dəxi istiqlalımız zənn edilir ki, rəsmi surətdə tanılılacaqdır.

Rəsmi tanılmağın başqa bir mənası vardır. Məsələn, əgər Ermənistan Hökuməti Azərbaycan istiqlalını rəsmən tanıdığını elan edərsə, o surətdə Parisdə olan Nubar paşaların və sair erməni mümessillərinin [nümayəndələrinin] Azərbaycan torpağı hesabına "Böyük Ermənistan" qurmaq niyyətləri bir dərəcəyə qədər puç olar. Bunun üçündür ki, hökumətimiz tərəfindən rəsmi tanınmaq məsələsi təklif edildikdə, Ararat Hökuməti bu məsələnin həllindən əvvəl hüdud məsələsinin müzakirə və həllini lazım bildi.

İştə, məsələlərin ən mühümü və çətini bu hüdud təyini məsələsidir ki, sair siyasi və iqtisadi məsailin [məsələlərin] həlli də bu hüdud məsələsi həllinə bağlıdır.

Bu məsələnin çətinliyindən bir az olsa da xəbərdar olmaq və nə qədər mühüm olduğunu təsəvvürə gətirmək üçün misal olaraq burasını mülahizə etməlidir ki, məsələn Ermənistan hökuməti əksəri Azərbaycan türk və islamları ilə məskun olan Naxçıvan və Şərur mahallarını tamamilə mənimsəməkdən əlavə, Qarabağımıza dəxi iddiası vardır. Hakəza [habelə] Gürcüstan Borçalı islam və türkləri ilə məskun yerləri zəbt etdiyi bəs deyil ki, hələ Zaqatala ölkəsinə də göz dikmək istəyir.

Hüdud məsələsi müzakirəsinə başlarkən bir əsas [prinsip] üzərində dayanmaq lazımdır. Bu şərtlə ki, hər tərəf o əsası qəbul etmiş olsun. Böylə olarsa, məsələnin həlli bir dərəcəyə qədər asanlaşar. Halbuki, məlumumuz olduğu üzrə hər tərəfin iltizam etdiyi [lazım gördüyü] əsas başqadır. Məsələn gürcü və ermənilər əsas olaraq tarixi ortaya qoyurlar. Biz isə etnoqrafi əsas tərəfdarıyıq, yəni bir yerin, bir mahalın sakin olduğu millətlərdən çoxluq və azlıq kimin tərəfində olduğunu mülahizə edirik.

Zatən, biz də tarixə müraciət edə bilərik. Ancaq bu şərtlə ki, o tarix "Nuh əyyamının" tarixi olmaya, yəni qədim tarix olmayıb da yaxın tarix bəhsi ola.

Bizim "Böyük Azərbaycan" qurmaq xülyalarımız olmadığına görə, bu məsələdə ifrata girişmək xəyal və arzumuz da ola bilməz. Yalnız istədiyimiz budur ki, əksəri Azərbaycan türk və islamları ilə məskun olan yerlər Azərbaycan dövlətinə mütəəlliq [bağlı] olsun. Məsələ həll edilə bilmədiyi halda arbitraj qərarına tabe olmaq təklifimiz, insaf əhli olduğumuza böyük bir şahiddir.

Məsələnin həlli üçün arbitraj qərarına verilməkdən başqa bir də digər bir yol dəxi vardır ki, onun vasitəsinə də müraciət eyləmək mümkündür. Bu yol, mahal əhlindən əksəriyyətin kimə tabe olmaq arzularını bilmək və məsələni bu əksəriyyətin arzusuna müvafiq olaraq həll etmək.

Əgər tərəfeyndən [iki tərəfdən] birisi nə arbitraj qərarına və nə də əhali əksəriyyətinin arzusuna tabe olmaq istəməzsə, o halda insafsızlıq ibraz edib zor və cəbr tərəfdarı olduğunu bildirəcəkdir. Biz isə, təbiidir ki, cəbrə tabe olmaq və rəsmən tanınmaq üçün malmülk və əhalimizi fəda etmək istəməyəcəyik.

Ümidvar olmalıyıq ki, tərəfeyn hər bir qeyri-qabili-hüsul [əldə edilməsi mümkün olmayan] boş və çürük xəyallardan əl çəkib də bu mühüm məsələ müzakirəsində əqli-səlimlə [məntiqlə] iş görmək istərlər. Zaqafqaz cümhuriyyətlərinin əhvali-iqtisadiyyəsi [iqtisadi vəziyyəti] və bir-birinə olan rabitəsi bunu tələb edir. Ermənistan və Gürcüstanın iqtisad cəhətincə Azərbaycandan asılı bir çox ehtiyacatı olduğunu iqrar [təsdiqləyənlər] və etiraf edənlər olmasa da, həyat və məişət bunu isbat etməkdədir. Bizim dəxi köçəri məsələsi kimi əhalimizin bir çox qismindən ötrü ölüm-dirim məsələsi olan böyük bir əngəlimiz var ki, o xüsusda yaylaqlarımız yollarında yaşayan erməni ünsürü ilə etilaf [uzlaşma] və sazişimiz lazımdır...

Hər halda çox arzu edərdik ki, sabah açılan konfrans müzakirəyə qoyulacaq olan məsələləri həll edərkən, saziş və etilaf hissiyyatı ilə xeyirxahanə bir surətdə işə girişib ümum Zaqafqaz cümhuriyyətləri əhalisi üçün xeyir və mənfəət yetirsin və Yevropa gözündə dəxi öz istiqlallarının şan və heysiyyətini korlamasın.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Polyakların qələbəsi**

Varşava – Beş günlük qanlı müharibədən sonra, polyak qoşunları Lemberqi [Lvovu] mühasirə edib, Ukrayna qoşunlarının xəttini yararaq şəhərə daxil olmuşlardır. Ukrayna qoşunları təqib edilirlər. Polyaklar külli surətdə əsir tutaraq pulemyot və ləvazimati-hərbiyyə qənimət almışlardır.

Paris – Berlindən xəbər verilir ki, Almaniya mətbuatı yazır ki, hərgah polyaklar Dansiqə [Qdanska] çıxmaq istəsələr, almanlar onları silahla qarşılayacaqlar. Bundan əlavə, qəzetələr bu təqdirdə almanların Versal Sülh Konfransına getməyəcəkləri ilə təhdiddə bulunurlar.

London – Şimali Rusiya cəbhəsindən ingilislər rəsmən məlum edirlər ki, bolşeviklərin güclü dəstələri Belozerski işğal etdilər. Onları qaytarmaq üçün düşmənlərin səngəri bombardman edilməkdədir.

**Kaspi dənizində bolşeviklərlə müsadimə**

İngiltərə ərkani-hərbindən [hərbi qərargahından] rəsmi surətdə xəbər verilir ki, səhər aprelin 19-da İngiltərə müsəlləh [silahlı] gəmisi iki ədəd müxrib düşmən gəmilərinə rast gəlmişdir. Uzaq bir məsafədə müharibə vaqe olmuşdur. Düşmən gəmiləri mina buraxıb geri çəkilmişlərdir. Aprelin 21-də İngiltərə aeroplanları Hacı-Tərxanda olan bolşevik gəmilərini bombardman etmişlərdir.

## SÜLH ƏTRAFINDA

**Almaniya nümayəndələri Sülh Konfransında**

Paris – Simsiz teleqrafla xəbər verilir ki, aprel ayının 25-də Almaniya nümayəndələri Müttəfiqlərin nümayəndələri ilə Versalda görüşəcəkdirlər. Dördlər





Şurası bəyan eyləmişdir ki, Fransa Saar okruqunu öz əlində saxlayacaqdır. 15 il bu qitə [bölgə] Fransanın ixtiyarında olaraq Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] qarşısında məsul olan 5 nəfərin diktatorluğu ilə idarə ediləcək, 15 il bitdikdən sonra, hərgah, o yerin əhalisi Almaniya tərəfinə keçmək istəsə, o zaman o yer Almaniyaya mülhəq ola [birləşə] bilər. Bu şərtlə ki, Almaniya orada olan mədənləri qızıl pul ilə Fransadan almalıdır.

Dördlər Şurası qət eyləmişdir ki, Almaniya bilatəxir [dərhal] 125 milyon frank xəsarət [kompensasiya] verməlidir. Bunun 55 faizi Fransanın hissəsinə düşür. Bu pulu Almaniya qızıl ilə verməlidir.

**Royter ajansından**

Paris – Müharibə zərərlərini təxmin və emar komissiyası Almaniyadan və onun müttəfiqlərindən alınacaq zərərləri 8.000 milyon ingilis lirəsinədək əskiltmişdir. Bu hesab üzərinə 6 ildən sonra ümum məbləğ faizlə 6.000 milyon lirə edəcəkdir. Digər tərəfdən, Almaniyanın sərmayəsi Amerika mütəxəssislərinin hesabına görə, 2.400 milyon lirə edir. Xaricdəki 1.600 milyon Almaniya sərmayəsi buna daxil deyildir. Almaniyanın ticarət donanması, dəmiryolları, Elzas-Lorendə olan mədənləri, kömür mədənləri, Saar dərəsində dəmir mədənləri, sabiq Almaniya müstəmləkələrində olan dövlət əşyaları və əcnəbi banklardakı nəqdi və sairə komissiyanın rəyincə Müttəfiqlər tərəfindən zəbt edilməlidir. Böyləliklə, 1.600 milyon lirə Müttəfiqlərin müharibə zərərini ödəmək üçün alınmış olur. Qalan məbləğ nə vaxt alınacaq, o hələ bəlli deyildir. İngiltərə ilə Amerika bu rəydədirlər ki, Almaniyaya ticarət işlərini təcdid [bərpa] etməyə müsaidə verilsin. Zira bu pul ilə hər il Almaniyadan borcu hesabına 60 milyon lirə almaq mümkün olacaqdır. İngilis nümayəndələri istəyirlər ki, bu məbləğ müharib [savaşan] dövlətlər arasında hər kəsin hərbi xərcinə mütənasib surətdə təqsim edilsin [bölünsün]. Fransa hamıdan artıq dava xəsarəti çəkmişdir. İngiltərə isə öz əhalisindən böyük vergilər almışdır.

**Çinin tələbi**

Paris – Sülh Konfransında olan Çin nümayəndələri Sülh Konfransına bir müxtirə [nota; yazılı qeyd] təqdimlə tələb edirlər ki, Kiao-Çao Çinə verilsin və əlavə etmişlər ki, hərgah, əcnəbilər bu yeri istila edərlərsə, Çində nəticəsi fəna olan hadisələrə səbəb ola bilər. Heyət bunu da qeyd etmişdir ki, bu yer Yaponiya vasitəsilə deyil, bilavasitə Çinə verilməlidir.

* Berlin – Berndə istiqlalçılar qurultayında Kautski bəyan eyləmişdir ki, bütün beynəlmiləl əmələlər istiqlalçılar tərəfdarı olmuşlardır. Şeydemanovlar kənarda qalmışlardır. Kautski Müttəfiq məmləkətlərin halından bəhs edib, bu axır zamanlarda İngiltərədə vaqe olan hadisələrə son dərəcə böyük əhəmiyyət vermişdir.

* Paris – (Sosialist qəzetələrindən) Bir çox məsələlər barəsində Berndəki konfrans qətnamə qəbul etməmişdir. Bu konfransın mabədi [ardı] tezliklə Amster-

damda davam edəcəkdir. Beynəlmiləl Büronun katibi Hyusmanın dakladına görə, Mərkəzi Fransız Komitəsinə vagüzar edilmişdi [tapşırılmışdı] ki, Bern Konfransında iştirak etməkdən imtina edən bütün beynəlmiləl əmələ dəstələrə nüfuz yetirsin. Müharibə münasibətilə dağılmış olan beynəlmiləl əmələ hərəkatı Amsterdamda təkmil edilməlidir. Bernə nə şeydemanovlar və nə də bolşeviklər qəti müzakirələr üçün getməmişlərdir. Şimdi fransız firqələri bu iki barışmaz üzvü bir yerə cəm etmək istəyirlər.

Mayın 1-də bütün Fransada fransız firqələri bir nümayiş yaparaq Bern Konfransının qərarları ilə həmrəy olduqlarını isbat etməlidirlər. Xüsusi surətdə ümum əsirlərin öz vətənlərinə buraxılması rəyi meydana atılır. ("Tan")

* Stokholm – İngilis qəzetələrinin məlumatına görə, İtaliya Palatasının sosialist dəstələri qərar qoymuşlar ki, İtaliya, Fransa, ingilis sosialistləri və Parlamanlarının sosialist üzvlərindən mürəkkəb [ibarət] bir şura əqd [təşkil] edilsin. Bu məqsədlə ki, Etilaf [Antanta] dövlətlərini Rusiya və Macarıstan işlərinə müsəlləh [silahlı] surətdə qarışmağa qoymasınlar.

**İstanbul məsələsi**

İstanbulun yunanlara verilməsi haqqındakı şayiənin doğru olub-olmaması barəsindəki suala cavabən gürcü heyəti üzvü demiş ki: *"Şübhəsiz, yalandır. Mən İstanbulda bulunduğum zaman bu məsələ barəsində bir çox danışıqların şahidi olmuşam. Bu barədə Avropa mətbuatında və bu məsələdən maraqlanan tərəfeyn [tərəflərin] mətbuatında bir çox şeylər, dedi-qodular var idi. Ancaq mətbuatda İstanbulun şayəd bir beynəlmiləl şəhər olacağına ehtimal gedirdi. Hələlik bu barədə qəti bir qərar yoxdur."*

**Sülh Konfransı**

*"Tiflisdə böylə rəydədirlər ki, guya İstanbul vaxtı ilə Sülh Konfransında vaqe olan hallardan xəbərdar olur. Bu səhvdir. Mən sizi inandırıram ki, İstanbulun London və Paris kimi cahan mərkəzləri ilə müxabirə [xəbərləşmək] cəhətincə rabitəsi o qədər qənaətbəxş deyildir. Avropa qəzetələri İstanbulda 20 gündən sonra alınır. Teleqraflar da o qədər qırıq və müxtəsər gəlir ki, Sülh Konfransında nələr vaqe olduğundan çox az məlumat hasil etmək olur.*

*Fəqət İstanbulda bizə qətiyyən məlum oldu ki, necə ki, burası Tiflisdə də məlumdur, Müttəfiqlər arasında sülh məsələsi ətrafında böyük ixtilaf vardır. Baş ixtilaf mənim əqidəmə görə, dənizlərin azad olması barəsindədir. Vilson məramnaməsini mükəmmələn vücuda gətirmək sair müttəfiqlərdən, baxüsus [xüsusilə] İngiltərə və Fransadan böyük güzəştlər istəyir. Nə qədər ki, bu mübahisəli və əngəlli ən birinci məsələ barəsində Müttəfiqlər arasında etilaf [uzlaşma] əmələ gəlməsə, Sülh Konfransı işlərinin müvəffəqiyyətli olacağına ümid etmək olmaz."*

**Azərbaycan heyəti**

Sülh Konfransına gedən Gürcüstan heyəti üzvü N. Y. Nikoladze Azərbaycan heyəti haqqında böylə rəvayət eyləyir:





*"Azərbaycan heyəti bizimlə bərabər İstanbula azim olmuşdur [yola düşmüşdür]. Burasını qeyd etməlidir ki, heyət xeyli ehtiyatkaranə bir surətdə davranıb öz hərəkətlərində dövləti [dövlətçi] bir tərzi-hərəkət göstərməkdədir. Azərbaycan heyətinin mənə və Müttəfiq dövlətlər dairələrinə bağışladığı təsir bu cürdür. İngilislərin Azərbaycan Hökumətinin arzusuna olan münasibəti məsələsinə gəldikdə bu barədə söyləməliyəm ki, gələcəkdə İngiltərə ilə Azərbaycan arasında olacaq münasibatın [münasibətlərin] nə surətdə olacağı həll edilmədən, qeyd etməliyəm ki, İngiltərə nümayəndələri [ilə] Azərbaycan Hökuməti nümayəndələri arasında olan münasibat bilaşübhə [şübhəsiz] onu göstərir ki, ingilislər Azərbaycan Hökumətini nəzərə alırlar. Bu da gələcəkdə artıq və sıxı münasibatı isbat edir."*

**Müsəlman məsələsində ingilislərin mövqeyi**

Gürcü nümayəndəsi Nikoladze müsəlman məsələsində ingilislərin nə mövqe əxz etmələri [tutmaları] və İstanbula varid olduqdan [çatdıqdan] sonra müsəlman aləmini nə cür təsəvvür etdiyi sualına cavab olaraq deyir ki:

*"Bu məsələyə mən böylə cavab verərəm: İngilislərin hal-hazırdakı məqsədləri haqqında mən bir ingilis olmadığımdan, bir söz söyləyə bilmərəm. Ancaq mənim nəzəriyyatıma və sizi maraqlandıran məsələyə gəldikdə, məndə böylə bir təəssürat vücuda gəlmişdir ki, ingilislər müsəlmanlarla öz münasibətlərinin kəskinləşməsini istəməyirlər. İngilislərin müsəlman məsələsində ehtiyatkaranə davranmaqları ola bilər ki, dövləti nöqteyi-nəzərlə və İngiltərənin islam aləmində əxz etdiyi mövqe ilə olsun. Buna görə mən xəyal etmirəm ki, İngiltərə Türkiyəni parçalamaq məsələsində Türkiyə mirasını təqsim etmək [bölmək] xülyasında olan ünsürlərə şərik olsun. Bu məsələdə bilaşübhə İngiltərəyə lazım gələcəkdir ki, yunanlıların, fransızların, ermənilərin və qeyrilərinin iştahasının qabağını alsın. İngilislərin Türkiyə işləri dairəsində olan xətti-hərəkəti əqəllən [ən azından] mənə böylə görünür."*

## QƏZETƏLƏRDƏN

**Batumdan yazılır**

4-lər Şurası üzvlərindən bir mötəbərinin rəvayətinə görə, bugünlərdə Batuma Könüllülərin iki böyük desantı çıxacaqdır. Bunların rəsmən bəhanəsi budur ki, guya orada qalan rusların hüququnu müdafiə etsin. Fəqət əslində isə, onların başqa məqsədləri vardır. Soçi okruqunda və Dağıstan cəbhəsində Könüllülərin işləri fənalaşdığından, Könüllü desantı təxirə uğrayır.

Tiflisdə alınan məlumatə görə, general Denikin Soçi okruqunda səfərbərlik elan eyləmişdir. Əhali bundan həyəcana düşərək, 16 min nəfər abxaz, gürcülər və rus əhalisinin bir hissəsi dağlara qaçmışlardır. Şimdi bunlar Könüllü orduya qarşı partizan müharibəsi açmışlardır. Şayiata görə, Müttəfiq komandanlıq Könüllülərin bu hərəkətindən narazı qalmışlardır.

## TÜRKİYƏDƏ

### Qadınların təlimi

Əksərimizdən ötrü qadın məsələsinin Türkiyədə həll edilmiş olduğu məchul bir aləmdir. Halbuki orada qadın nəinki yalnız məmur, əmələ və mağaza xidmətçisidir, bəlkə məkatibi-aliyyə müdavimləri [ali məktəb tələbələri] arasında dəxi bir çox qadınlar vardır. Qadınlar tibb şöbə[sinə] və sair ülumi-aliyyə şöbələrinə davam edirlər. Bu günə Darülfünunun [Universitetin] iki şöbəsi vardır: Oğlan tələbə[yə] məxsusi ayrı, qız tələbə[yə] məxsusi ayrı. Şimdi isə İstanbul mətbuatı bu “iki odalı” Darülfünunun islah edilməsi lüzumundan bəhs edir. “Darülfünun tövhidi” [Universitetin birləşdiril-məsi] günün məsələsini təşkil etməkdədir. Nümunə olaraq “Zaman” qəzetəsinin aşağıdakı fəqərəsini [məqaləsini] nəql ediriz:

*“Məlumdur ki, Bayəziddə kain [yerləşən] Darülfünun binası iki darülfünunun – ünas və zükur [qız və oğlan] darülfünunlarının məqərridir [qərar tutduğu yerdir]. Müxtəlif fakültə müdavimləri öglədən [günortadan] əvvəl, müxtəlif fakültə müdavimləri öglədən sonra ayrı-ayrı dərs görürlər. Bununla bərabər, bəzi sərbəst dərslər, ümumi konfranslar var ki, xanımlarla erkəklər bərabər təqib edirlər. Cə’li [süni], saxta təəssüblərin, mənasız və əskimiş əqidələrin unudulması lazım gələn zamanda, biz bu ümumi konfransları, sərbəst dərsləri təsvib [bəyənir] və təqdir ediriz. Bu fikrə tamamilə tərəfdarız. Gərək Maarif Nəzarəti, gərək Darülfünun idarəsi də bu fikrə - xanımlarla əfəndilərin birlikdə oxumalarına tərəfdar olmalılar ki, sərbəst dərsləri təcviz edirlər [sərbəst dərslərə icazə verirlər]. Bu halda, xanımlarla əfəndilərin ümum dərsləri birlikdə təqib etmələrində bir məhzur [çəkinməli bir şey] yoxdur.*

*Hal böylə ikən, şimdiyə qədər nədən ünas və zükur darülfünunları tövhid edilmədi! Tövhid keyfiyyətinin məhzuru olmadığı kimi, Darülfünun büdcəsində mühümcə bir təsərrüfə [qənaətə] də meydan açar. Təsərrüf edilən bu məbləğ də vəsait etibarı ilə pək zəngin olmayan Darülfünunumuzda mühüm işlər görə bilər.*

*Əsasən Darülfünun elm yurdu olmaq dolayısı ilə bir olmaq lazım gəlir. Nədən ünasa və zükura başqa-başqa qisimlər ayrılsın! Tədrisat – bilxassə bir çox şöbələrdə – eyni deyilmidir?*

*Xeyli zamandan bəri Darülfünun müdavimləri ilə müdavimələrini [oğlan və qız tələbələrini] işğal edən bu fikir nəhayət asarını izhar edəcək [əlamətlərini göstərəcək] qədər qüvvətlənmiş olduğundan, əvvəlki gün ünas darülfünunu müdavimləri “zükur və ünas darülfünunlarının tövhidi” haqqında Maarif naziri Əli Kamal bəyə bir ərizə təqdim etmişlərdir. Bu ərizənin şayani-qəbul [qəbula layiq] görülməsini və əhəmiyyətlə, hörmətlə baxılması lazım gələn xanımlarımızın tənmiyyeyi-ürfanlarına bir qat gərmi verilməsini [ürfanlarının artırılması işinin bir qat da tezləşdirilməsini] bütün qüvvətimizlə təmənna ediriz.”*

## TÜRKİYƏNİN MÜXTİRƏSİ

Keçənlərdə Böyük Ermənistan təşkili niyyətilə erməni heyəti-mürəxxəsəsinin





[nümayəndə heyətinin] Paris Sülh Konfransı hüzurunda bəyanat verdiklərini və bu bəyanatlarla ermənilərin nə kimi müddəalarda bulunduqlarını xəbər vermişdik. Türkiyə Hökumətinin dəxi bu münasibətlə kətbi [yazılı] bir müxtirə [nota; yazılı qeyd] verdiyini və bu müxtirənin müxtəsər vəchlə mündəricatını qəzetələrdən nəql eyləmişdik. Bu kərə İstanbuldan alınan “İqdam” qəzetəsindən Türkiyə müxtirəsinin eynini aşağıya dərc ediriz:

Hökuməti-Osmaniyyə Parisdə cərəyan etməkdə olan sülh müzakiratına iştirak etməmişsə də, Osmanlı imperatorluğuna aid ərazi məsələlərinin heyni-müzakirəsində [müzakirəsi əsnasında] nəzəri-etibara almaq üzrə kəndi nöqteyi-nəzərini bir müxtirə ilə buradakı Etilaf düvəli-müəzzəməsi müməsilləri [böyük Antanta dövlətlərinin nümayəndələri] vasitəsilə Paris Konfransına bildirmişdir. Bu müxtirənin mündəricatı hər dürlü şübhədən ari [uzaq], vəsaiq və dəlaili-maddiyyəyə müstənid olduğundan [sənədlərə və maddi dəlillərlə söykəndiyindən], Konfransca diqqətlə tələqqi ediləcəkdir [qiymətləndiriləcək]. Baxüsus [xüsusilə], nüfus nisbəti-ədədiyyəsinə mütəəlliq olan müddəiyyat [əhalinin say nisbətinə aid olan iddialar] yalnız dövlətin qüyudi-rəsmiyyəsinə [rəsmi qeydlərinə] deyil, ingilis və fransız statistikalarına istinad etməkdədir.

Bundan maəda [əlavə], Babıali, məhəllərincə [yerlərdə] bitərəf heyətlər vasitəsilə yapılacaq tədqiqat nəticəsinə də şimdidən bəyani-müvafiqət eyləməkdədir [münasib gördüyünü bildirməkdədir].

Xariciyyə Nəzarəti tərəfindən İngiltərə, Amerika, İtaliya və Fransa ali komissarlarına tövdi edilən [verilən] 12 şubat [fevral] 1919 tarixli müxtirənin tərcüməsini bərvəchi-zir [aşağıda] dərc ediriz:

Beynəlmüttəfiqin [Müttəfiqlərarası] Sülh Konfransında məsaiyi-ehzariyyəyə mübaşirət edildiyi [tərəflərin öz tələblərini yazılı surətdə təqdim etməsi mərhələsinə qədəm qoyulduğu] və bu məsai [iş] əsnasında dünyaya ədalət və sərbəst inkişaf əsasları dairəsində sürəkli bir sülh və eyi bir istiqbal [gələcək] təmini qayəsinə mətuf [yönəlmiş] bir surətdə millətlərin müqəddəratı mövzuyi-bəhs [müzakirə mövzusu] olduğu əsnada Hökuməti-Osmaniyyə kəndisinə təəllüq edən [aid olan] bəzi əhəmiyyətli məsələlər haqqındakı nöqteyi-nəzərini Konfransa xülasətən ərz etməyi vəzifə ədd [hesab] edir.

Babıalinin qənaətinə görə, İngiltərə, Amerika, Fransa və İtaliya kimə düvəli-müəzzəməni [böyük dövlətləri] idarə edən ricali-dövlət [dövlət adamları] kəndilərinə tərəttüb edən [öhdələrinə düşən] ali və nəcib vəzifənin hini-ifasında [ifa edilməsi əsnasında] dövlətlərin təşkilati-müstəqbələsi əsaslarını [gələcəkdəki təşkilat prinsiplərini] rəis müsyö Vilson tərəfindən dərmiyan [irəli sürülən] və bütün millətlər tərəfindən bilittifaq [razılıqlar] qəbul edilən prinsiplər dairəsində həll etməyə qəviyyən [möhkəm] əzm etmişlərdir. Ali bir fikrin, nəcib və alicənab bir qəlbin mülahizati-əmiqəsi səmərəsi [dərin düşüncələrinin nəticəsi] olan bu prinsiplərdən biri də dövləti-Osmaniyyəyə təəllüq edir [aiddir] ki:

*“Şimdiki Osmanlı imperatorluğunun türk əqsamında [hissəsində] hakimiyyət*

*və əmniyyət [asayiş] surəti-tammədə [tamamilə] təmin ediləcək və fəqət imperatorluğun idarəsi altında əlyövm [hal-hazırda] yaşamaqda olan digər millətlər dəxi əmniyyətlərini və bilaməzahim sərbəstiyi-inkişaflarını kafil olacaq [asayişlərinə və maneəsiz sərbəst inkişaflarına zəmanət verəcək] təminata məzhər [nail] olacaqlardır. Boğazlar daimi olaraq açılacaq və bütün millətlərin gəmilərinə və ticarətinə beynəlmiləl təminat altında sərbəst tutulacaqdır."*

Bu prinsipin ikinci fəqərəsi [maddəsi] haqqında Hökuməti-Osmaniyyə gərək hali-hərbdə [müharibə şəraitində], gərək vəqti-sülhdə [sülh vaxtında] Boğaziçi və Çanaqqala boğazlarının bütün məmləkətlər sərbəstiyi-münaqilatına güşad [sərbəst gəliş-gedişinə açıq] bulundurulmasını və yalnız paytaxtın müdafiəsinə lüzumu olan tədbirlərin ittixaz edilə bilməsini [tədbirlərin görülməsini] təslim edir [qəbul edir].

Bu məsələnin təfərrüatı Hökuməti-Osmaniyyənin Sülh Konfransında dərmiyan edəcəyi [irəli sürəcəyi] məşru [qanuni] arzuların nəzəri-etibara alınması surətilə həll və təsviyə edilə [aradan qaldırıla] biləcəkdir.

Nüqati-ədidəni möhtəvi olan [bir çox nöqtələri özündə ehtiva edən] birinci fəqərəyə [maddəyə] gəlincə, Hökuməti-Osmaniyyə bu xüsusda məvaddi-atiyyəni [aşağıdakı maddələri] nəzəri-diqqətə ərz edir ki, bu məvadd [maddələr] Sülh Konqresinin ictimasında [yığıncağında] müzakirə, izah və itmam ediləcəkdir [tamamlanacaqdır].

Rəis Vilsonun prinsipləri nöqteyi-nəzərindən məmaliki-Osmaniyyə ərazisi iki böyük qismə təqsim edilə [bölünə] bilər: Birinci qisim Avropa və Asiyadakı türk vilayətləri, ikinci qisim ərəb vilayətləridir.

Fəqət türk vilayətləri içində Avropaca "erməni vilayətləri" namı altında yad edilən şərq vilayətləri mövcud olduğundan, bu vilayətləri də qisimlərə ayıraraq hər birini ayrı-ayrı tədqiq etmək münasibdir.

Birinci sinifə daxil olan vilayətlər şunlardır:

Avropada – əvvəla İstanbul vilayəti ki, paytaxt ilə bərabər Rumeli və Anadolu qəzalarını şamildir. Saniyən [ikinci], Ədirnə vilayəti ki, bunun əqsamından [hissələrindən] olan Qərbi Trakiya 1913 sənəsində Balkan hərbindən sonra Bolqarıstana ilhaq edilmişdir [birləşdirilmişdir].

Asiyada – Xüdavəndigar, Aydın, Kastamonu, Konya, Ankara, Adana, Hələb, Mosul, Trabzon vilayətləri ilə Əskişəhər, Antalya, Qeysəriyyə, Kütahya, İçəl, Nigdə, İzmit, Məntəşə, Bolu, Canik, Çatalca, Qarahisar, Qərəsi, Qəleyi-Sultaniyyə, Urfa, Maraş livaları və Bozcaada, İmroz və Midilli və digər adalardır.

Yalnız bir qaç ada istisna edilərsə, bütün bu yerlərdə türk əhalinin əksəriyyəti-əziməni haiz bulunduğu [böyük əksəriyyətə malik olduğu] hərbdən əvvəl tənzim edilmiş olan rəsmi istatistiklərlə və vəqti-sülhdə məmləkəti tətəbbö etmiş [tədqiq etmiş, araşdırmış] olan əcnəbilərin nəşr etdikləri rəqəmlərlə sabitdir. Əzancümlə [o cümlədən], erməni məsələlərinə dair 1898 sənəsində Parisdə nəşr edilən "Sarı kitab"ın ikinci səhifəsində "müxtəlif ünsürlər surəti-əmiqədə [dərin surətdə] tədqiq edildiyi halda, ermənilərin heç bir vilayəti-Osmaniyyədə əksəriyyət təşkil etmədikləri görülür" demişdir.

Anadolu vilayətləri əhalisi rəsmi istatistiklərə görə, bərvəchi-atidir [aşağıdakı kimidir]:

İslam 9.291.346, yüzdə 85.
Rum 1.144.612, yüzdə 9.
Erməni 542.575, yüzdə 5.
Musəvi və əcnəbi 93.364, yüzdə 1.

Fransa hökumətinin 1897 sənəsi "Sarı kitab"ında mündəric istatistikaları – ki, müsyö Vital Kinenin "Asiyayi-Osmani" ünvanlı əsərində mündəric rəqəmlərdən pək fərqli deyildir – əhalini bərvəchi-ati təqsim edir:

İslam 7.204.824, yüzdə 81,6.
Rum 912.458, yüzdə 10,3.
Erməni 443.713, yüzdə 5,3.
Musəvi və əcnəbi 261.331, yüzdə 2,8.

Bu rəqəmlər xristian patrikxanalarından verilən məlumata müstənid [istinad edir] və ənasiri-müslimə [müsəlman ünsürlər] haqqında mübaliğəli olmaqla bərabər, bəliğdir [aşkardır] ki, heç bir söz əlavəsinə ehtiyac buraxmaz. Yalnız şu nöqtəni qeyd etmək lazımdır ki, İstanbul, Ədirnə, Aydın və Xüdavəndigar vilayətlərində bəzi yunan məhafili [dairələri] guya rum [yunan] əksəriyyəti mövcud olduğunu iddia etməkdə isələr də, buralarda dəxi türk və rum əhalisinin təqsimatı [paylanması] şu surətlədir:

Rəsmi istatistik:
İstanbul vilayəti və Çatalca sancağı:
İslam 580.482, yüzdə 59,7;
Rum 242.559, yüzdə 25.

Qərbi Trakiya daxil olduğu halda Ədirnə vilayəti:
İslam 722.862, yüzdə 62,6;
Rum 310.932, yüzdə 26,7.

Aydın vilayəti:
İslam 1.437.983, yüzdə 79;
Rum 319.020, yüzdə 18.

"Sarı kitab"dakı istatistik:

İstanbul və Ədirnə vilayətləri bu kitabda mündəric deyildir [dərc edilməmişdir].

Aydın vilayəti:
İslam 1.093.334, yüzdə 78,2;
Rum 208.283, yüzdə 19,9.

Xüdavəndigar vilayəti:
İslam 1.296.595, yüzdə 79,7;
Rum 23.711, yüzdə 14,1.

Bu vilayətlərin əsasən türk olduğu heç bir zaman şübhə götürmədiyi kimi, zatən şimdiyə qədər heç bir bitərəf kimsə böylə bir şeyi iddia etməmiş olduğundan, buralarda ancaq Vilson prinsipi tətbiq edilə bilər. Yəni, əqəliyyətlərə [azlıqlara] sərbəstiyi-inkişaf [sərbəst inkişaf etmək] haqqı bəxş edilməklə bərabər, dövləti-Osmaniyyənin hakimiyyəti-mütləqəsi altında bulunmaq lazım gəlir.

Hökuməti-Osmaniyyə şimdiyə qədər xristian əhalinin hürriyyət və məzhəb nöqteyi-nəzərindən inkişafını bir zaman mən [qadağan] etməmiş olduğunu isbata müqtədir bulunmaqla bərabər, müxtəlif məmləkətlərdəki əqəliyyətlərin sərbəstiyi-inkişafını təmin üçün Sülh Konqresincə ittixaz ediləcək müqərrəratı qəbula amadədir [veriləcək qərarları qəbul etməyə hazırdır].

Bu cəhət təəyyün etdikdən [aydınlaşdıqdan] sonra, bir az qarışıq olan vilayati-Şərqiyyə [Şərq vilayətləri] məsələsinə nəqli-kəlam edə bilərik [sözü gətirə bilərik]. Vilayati-Şərqiyyə Diyarbəkir, Məmu-

rətüləziz, Van, Bitlis, Ərzurum, Sivas vilayətləridir. İstatistiklərə görə, buralarda türk və kürdlərdən mürəkkəb [ibarət] olan və yek-digəri [bir-biri] ilə müttəhid və mümtəzic [birgə və qarışıq, bir-biri ilə qaynayıb-qarışmış] bir halda yaşayan əhaliyi-islamiyyə əksəriyyəti-əzimәni [böyük əksəriyyəti] təşkil etməkdədir.

Vilayati-sittənin rəsmi istatistiki:

İslam 3.040.891, yüzdə 79;

Erməni 636.306, yüzdə 16,5;

Mütəfərriq [digər; dağınıq halda olanlar] 162.352, yüzdə 4,5.

"Sarı kitab"dakı istatistik:

İslam 2.669.386, yüzdə 73,5;

Erməni 666.453, yüzdə 18,5;

Mütəfərriq 272.581, yüzdə 7,5.

Bəzi erməni məhafilində [dairələrində] Adana və Trabzon vilayətlərinin bəzi əqsamı [hissələri] haqqında dərmiyan edilən müddəiyyata [irəli sürülən iddialara] qarşı bu iki vilayətə mütəəlliq [aid] olan istatistikləri ayrıca göstəririz:

Rəsmi istatistik:

Trabzon vilayəti:

İslam 1.187.078, yüzdə 71;

Erməni 68.813, yüzdə 4,5.

Adana vilayəti:

İslam 443.937, yüzdə 85,9;

Erməni 58.067, yüzdə 11,2.

"Sarı kitab"dakı istatistik:

Trabzon vilayəti:

İslam 806.700, yüzdə 77;

Erməni 47.200, yüzdə 4,5.

Adana vilayəti:

İslam 234.450, yüzdə 58;

Erməni 97.450, yüzdə 24.

Əsasən, ən mötəbər ingilis ensiklopediyası olan "Ensiklopediya Britannika"nın 1910 sənəsində nəşr edilən 11-ci təbinin [nəşrinin] 564-cü səhifəsində ermənilərin ən lehində olan təxminlərə görə, "ermənilər 159 qəza içində yalnız 9 qəzada haizi-əksəriyyətdirlər [çoxluğa malikdirlər] ki, bunun 7-i Van və 2-i Muş qürbündədir [yaxınlığındadır]" demişdir.

Yenə bu əsərdə Ərzurum, Van, Bitlis, Məmurətüləziz, Diyarbəkir, Sivas, Hələb, Adana və Trabzon vilayətlərinin məcmu nüfusu [cəmi əhalisi] 6 milyon göstərilmişdir ki, bunun 913.875-i, yəni yüzdə 15-i erməni, 633.875-i, yəni yüzdə 11-i digər xristian, 4.453.250-i, yəni yüzdə 74-ü islamdırlar.

Ən ziyadə erməni nüfusu möhtəvi bulunan [ehtiva edən] beş vilayətdə də məcmu nüfus 2.642.000 olub, bunun 633.250-i, yəni yüzdə 24-ü erməni, 79.875-i, yəni yüzdə 7-i digər xristian, 1.828.887-i, yəni yüzdə 69-u islamdır.

Baladakı [yuxarıdakı] rəqəmlər vilayati-məzkurədə [deyilən vilayətlərdə] əksəriyyətin islam olduğu və ermənilərin hər yerdə ufaq əksəriyyət təşkil etdiklərini qayət bariz bir surətdə göstərir.

Hökuməti-Osmaniyyə vilayati-məzkurəyə veriləcək olan münasib şəkli-hökumət haqqındakı nöqteyi-nəzərini Etilaf düvəli-müəzzəməsinin [böyük Antanta dövlətlərinin] nəzəri-təqdirinə ərz etməzdən müqəddəm [əvvəl], bu həvalinin vəziyyəti-hazirəsi [bu ətrafların hazırkı vəziyyəti] haqqında nəzəri-diqqəti cəlb etmək lüzumunu hiss edir. Babıali bu vilayətlərdə təhəddüs edən vüquati-müəssifənin [meydana gələn təəssüf doğuran hadisələrin] təfərrüatına bu mühtirədə girişmək və yaxud iqayi-cinayat edən [cinayətlər işləyən] bəzi müsəlman məmurların dərəceyi-mücrimiyyətini təxfif etmək sədədində [təqsirlərinin dərəcəsini yüngülləşdirmək qəsdində] deyildir. Yalnız Etilaf düvəli-müəzzəməsinin nəzəri-ittilasına şu nöqtəni ərz və iblağ edir [nəzər-diqqətinə bu nöqtəni çatdırır; bu barədə məlumat verir] ki, vüquati-müəssifeyi-məzkurədə [deyilən təəssüflü hadisələrdə] gərək müsəlman məmurlara, gərək erməni komitələrinə təvəccöh edən [düşən] hisseyi-məsuliyyətin təyini zimnində [məsuliyyət payının təyini barədə] türk və erməni mürəxxəslərinin [nümayəndələrinin] müavinəti ilə tədqiqat icrasına məmur beynəlmiləl müxtəlit [qarışıq] bir komisyon təşkili üçün mürəxxəslər göndərmələrini İspaniya, İsveçrə, Danimarka, Flemenk [Niderland] və İsveç hökumətlərindən rica etmişdir.

Məmafih [bununla belə], məhakimi-aidəsi [aidiyyətli məhkəmələr] nəzdində əlyövm [hal-hazırda] haqlarında təqibat icra edilməkdə olan birinci sinif mücriminin [günahkarların] dərəceyi-mücrimiyyətləri [təqsirlərinin dərəcəsi] hər nə olursa-olsun, hökuməti-Osmaniyyə bu gün bitərəf şahidlərin şəhadətləri ilə dəxi rus ərkan zabitanının [qərargah zabitlərinin] raporlarıyla təhəqqüq etmiş [aşkara çıxmış] olan bir həqiqətdən bəhs edə bilər ki, bu həqiqət erməni çətələrinin [silahlı dəstələrinin] təhcirdən [ermənilərin köçürülməsindən] əvvəl və bilxassə [xüsusilə] çar ordularının vilayati-şərqiyyəyə istilalarından sonra bir milyondan ziyadə müsəlmanı qətliam etmiş olmalarıdır.

Əhaliyi-islamiyyənin böyük bir qismi qətliamdan qurtulmaq üçün dağlara, yaxud vilayati-mütəcavireyi-Osmaniyyəyə [qonşu Osmanlı vilayətlərinə] ilticaya [sığınmağa] məcbur olmuşlar və əlan [hələ də] oralarda iqamət etməkdə [yaşamaqda] bulunmuşlardır. Məmləkət rus orduları və bilxassə erməni çətələri tərəfindən o dərəcəyə qədər düçari-təxribat olmuşdur ki, bu təxribatdan heç bir şəhər, qəryə [kənd] və qəsəbə xaric qalmamışdır. Bu babda tədqiqat icra edəcəklərdir.

İslam və erməni ənasiri [ünsürləri] haqqında balada [yuxarıda] göstərilən istatistik rəqəmləri və bəhs edilən əhval və vüquat müvacihəsində [qarşısında], vilayati-məzkurədə [deyilən vilayətlərdə] haqqaniyyətkaranə [ədalətli] bir vəziyyət ihdası [yaradılması] üçün ən münasib olan surəti-təsviyəni [çarəni, çıxış yolunu] bulmaq icab edir [lazımdır]. Bəzi erməni məhafilində [dairələrində] Qafqaziyadan Kilikiyaya qədər böyük bir Ermənistan təşkili təxəyyül edilməkdə isə də, böylə bir surəti-təsviyə bittəbii [təbii olaraq] qabili-təcviz [mümkün] deyildir. Çünki bu surətlə təşkil ediləcək olan "Böyük Ermənistan" Vilson prinsiplərinə müxalifdir. Beş milyon əhaliyi-islamiyyəni bir qaç yüz min erməninin ziri-hökmünə [hökmü altına] vermək nə Vilson prinsiplərinə, nə də heç bir qaideyi-haqq və ədalətə təvafüq edəmməyəcəyindən sərf-nəzər [uyğun gələ bilməyəcəyini nəzərə alaraq], böylə bir şey mütəvali iğtişaşata [arasıkəsilməz iğtişaşlara] və xunrizanə mücadilata [qanlı mücadilələrə] səbəbiyyət vermiş olar ki, düvəli-müəzzəmeyi-etilafiyyə [Antanta blokunun böyük dövlətləri] hissiyyati-insaniyyətkaranə saiqəsi ilə [insani hisslərini rəhbər tutaraq] vilayati-məzkurənin ümum əhalisi və

bilxassə [xüsusən] erməni əqəliyyəti [azlığı] üçün bundan bittəbii ictinab etmək [çəkinmək] arzusundadırlar.

Böylə bir surəti-təsviyə ədalətə müğayir [zidd] və qeyri-qabili-tətbiq [həyata keçirilməsi imkansız] olduğundan, digər iki şiqq[i] [seçənəyi] təsəvvür etmək lazımdır.

Birincı şiqq - vilayati-məzkurəyə əhalinin əksəriyyəti-əziməsi türk və islam olmaq həsəbilə [səbəbilə] hakimiyyəti-Osmaniyyənin iqası [bərqərar olması] və əqəliyyətin hüquq və sərbəst inkişafının təmini. Bu surət qəbul edildiyi təqdirdə, bütün müsəlmanlar və ermənilər yenə yerli-yerinə iskan ediləcəklərdir [məskunlaşdırılacaqlar].

İkinci şiqq - Qafqaziyada təşəkkül edən Erməni Cümhuriyyətini tövsi ilə [genişləndirməklə], gərək hal-hazırda orada bulunan və gərək Zor sancağına təhcir edilmiş olan erməni mühacirlərini baliğən-mabələğ [artıqlaması ilə] iskana [məskunlaşdırmağa] kifayət edəcək dərəcədə ərazinin cümhuriyyəti-məzkurəyə [deyilən cümhuriyyətə] ilhaqı [birləşdirilməsi]. Bu surəti-təsviyə qəbul edildiyi halda, Qafqaziyadakı Erməni Cümhuriyyəti ərazisində hələ bulunmaqda olan və cümhuriyyəti-məzkurəyə ilhaq ediləcək ərazidə yaşayan əhaliyi-islamiyyə hökuməti-Osmaniyyə idarəsində qalacaq olan vilayətlərə iskan ediləcəklərdir.

Bir isveçrəli mürəxxəsin rəyasəti altında türk və ermənilərdən müsavi ədəddə əzadan mütəşəkkil bir müxtəlit komisyon [bərabər sayda üzvdən təşkil edilmiş qarışıq bir komissiya] Ermənistana veriləcək olan ərazinin miqdarını məhəllində [yerində] icra edəcəkləri təd-qiqata görə təyin eyləyəcəkdir. Bu təd-qiqat bittəbii iskan ediləcək olan ermənilərin ədədini və bunların məmaliki-Osmaniyyədə mütəsərrif olduqları [malik olduqları, yiyələndikləri] ərazinin miqdarını təyinə mətuf olacaqdır [yönələcəkdir].

Əsnayi-hərbdə işğala uğrayan vilayətlər çar orduları və erməni çətələri tərəfindən təxrib edilmiş və gərək islam və gərək erməni əhalinin yenidən iskanlarına ehtiyac görülməkdə bulunmuş olduğundan, ikinci şiqq hər nöqteyi-nəzərdən haizi-rüchan [üstün] görülməkdədir. Bu surəti-təsviyə həvaliyi-məzkurədə [haqqında danışılan yerlərdə] intizam və asayişi təmin edəcək bir mahiyyətdə olduğundan, Etilaf düvəli-müəzzəməsincə bu surətin məzhəri-qəbul [qəbula nail] olacağını hökuməti-Osmaniyyə ümid edir.

Vilayati-ərəbiyyəyə [ərəb vilayətlərinə] gəlincə, ərəbləri əsrlərdən bəri Osmanlı imperatorluğunun əqsami-mütəbaqiyyəsinə [geri qalan hissələrinə] rəbt edən [bağlayan] siyasi, dini, ictimai və iqtisadi rabitələrin mahiyyəti-səmimiyyəsinə [həqiqi və dərin mənasına] və Osmanlı taxtına qarşı ötədən bəri daima izhar eylədikləri [göstərdikləri] sədaqəti-ciddiyyəyə və digər tərəfdən, milləti-məzkurənin daha sərbəst bir inkişafi-hərsi və ictimaiyə [mədəni və ictimai inkişafa] haqları aşkar bulunmasına [görə], kəndilərinə bir muxtariyyəti-idariyyə bəxş etmək mütənasibdir. Bu surəti-təsviyə [həll yolu] sayəsində ərəblər təbii bir təkamül ilə iqtisadi və hərsi [mədəni] sahələrdə istədikləri kimi inkişaf etmək hürriyyətinə nail olmaqla bərabər, tam bir istiqlala bilfeil [həqiqətən] nail olduq-





ları zamanlar daima aralarında əskik olmayan cidal və nizalardan [çəkişmə və toqquşmalardan] varəstə [uzaq] qalmış olacaqlardır. Bir çox misallar arasında bir misal göstərmək lazım isə, Yəmən ərəblərini zikr edə biləriz. Yəmən ərəbləri bir əsr əvvəl əşirətlər arasındakı münaziəti-xunrizanəyə [qanlı çəkişmələrə] nəhayət vermək üçün dövləti-Osmaniyyənin ziri-hakimiyyətinə [hakimiyyəti altına] daxil olmağa kəndiliklərindən qərar vermişlərdir. Bunlar Hərbi-ümumi [Dünya müharibəsi] əsnasında dövləti-Osmaniyyənin digər əqsamı [hissələri] ilə hər dürlü mürasilatdan [əlaqədən, xəbərləşmə və gediş-gəlişdən] məhrum olduqları halda, xilafətə qarşı sədaqət və itaətlərini tamamilə mühafizə eyləmişlərdir.

Ərəbistanı tanıyanlar, müxtəlif mahallara mənsub ərəblərin yalnız bir qəbilə və ya bəldənin [diyarın] hakimiyyətini tanıyacaqlarını bir dəqiqə belə fərz edəmməzlər. Bu məmləkətdə asayiş və sükutun ədasını [icrasını] ən eyi təmin edəcək çarə, məmləkəti-məzkurə üzərində balada [yuxarıda] izah edilən şərait daxilində, yəni vase [geniş] bir muxtariyyət verilmək şərti ilə hakimiyyəti-Osmaniyyənin mühafizəsidir. Ədalət və millətlərin sərbəstisi uğruna hərb edən Etilaf düvəli-müəzzəməsi Ərəbistan haqqında heç bir ilhaq fikri bəsləmədiklərindən, ən eyi çareyi-həll budur.

Babıali Sülh Konfransına ərz etdiyi bu çareyi-təsviyənin bu məmləkətlərdə intizamı mühafizə üçün yeganə çareyi-səlah [doğru çarə] olduğu fikrindədir.

Hökuməti-Osmaniyyə Etilaf düvəli-müəzzəməsinin məsələni eyicə tədqiq edəcəkləri, haqqaniyyətə [ədalətə] ən ziyadə təvafüq edən [münasib düşən] çareyi-həllin balada ərz edildiyi surətdə olduğuna qənaət gətirəcəkləri fikrindədir.

Əsasən, gərək Ərəbistanda və gərək məmaliki-şərqiyyə və Trakiyada əlaqədar mürəxxəslərin [nümayəndələrin] hazır bulunacaqları, bitərəf dövlətlər mürəxxəslərindən mürəkkəb [ibarət] beynəlmiləl bir komisyon mərifəti [vasitəsi] ilə arzu edilən təminat daxilində arayi-ümumiyyəyə [referenduma] müraciət edilərsə, millətlərin arzuları etiraz qəbul edilməz bir surətdə təzahür edər.

Əsbabi-məruzəyə binaən [ərz edilən səbəblərə görə], Dövləti-Aliyyə [Osmanlı dövləti] Etilaf düvəli-müəzzəməsinin bu əzim [böyük] məsələlər haqqında qərar ittixazında [qərar qəbul edilməsində] istecal etməyəcəklərinə [tələsməyəcəklərinə] qane bulunmaqdadır. Kəzalik [eləcə də] hökuməti-Osmaniyyə bu məsail [məsələlər] ilə tək bir müxtirədə tedadı [sayılması] qabil olmayan digər məsailin bilümum [bütün] dövlətlərin mürəxxəsləri hazır olduqları halda Konqredə xeyirxahanə və ədalətpərvəranə bir hiss ilə tədqiq və müzakirə ediləcəyinə mütməindir [əmindir].

Etilaf düvəli-müəzzəməsinin arzu etdikləri şəkildə adilanə və davamlı bir sülh ancaq böylə bir Konqrenin müzakiratı nəticəsində təmin edilə bilər. Dövləti-Osmaniyyə düvəli-müəzzəmeyi-etilafiyyənin hissiyyati-insaniyyə, müstəqimanə və xeyirxahanəsinə [başəri, müsbət və xeyirxah hisslər bəslədiyinə] son dərəcə etimad etdiyi üçün bu məsailin [məsələlərin] haqq və ədalətə müvafiq bir surətdə həll ediləcəklərindən bir dəqiqə belə şübhə etməz.

**NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]**

- Şamaxı nahiyə müfəttişi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən rica etmişdir ki, Ucarda ambulatoriya məntəqələri güşad edilsin [açılsın]. Zira buradan qaçqınlar Göyçaydan Şamaxıya və Şamaxıdan Göyçaya getməkdədirlər. Habelə, böylə məntəqələr Ağsu və Bərgüşadda da açılmalıdır. Çünki buralarda da yatalaq xəstəliyi artmaqdadır.

Ümuri-Xeyriyyə və Nafiə naziri buna əhəmiyyət verərək Səhhəti-Ümumiyyə Nəzarətindən lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

- Şamaxı və Qarabağ dairələrində evləri dağılmış əhali öz yurdlarını təmir etməyə başladıqlarından, Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə böyük məbləğ lazım olmuşdur ki, onlara müavinətdə bulunulsun. Binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə naziri Maliyyə naziri xəzinəsinə müraciətən rica etmişdir ki, 1919-cu sənəsində Nəzarət [Nazirlik] üçün istiqraz [borc] açılsın. Zira hissə-hissə kredit açılması işi ləngə salır.

- Şamaxı nahiyə müfəttişi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məlum etmişdir ki, bir nəfər pristav Nəzarətdən qaçqınlar üçün müavinət diləmişdi. Nəzarətin əmrinə məbni [əsasən], bir nəfər məmur qaçqınların əhvalını məhəllində [yerində] təhqiq etməyə göndərilmişdi. Məlum olmuşdur ki, qaçqınlar sırasına bir çox varlılar və pristav ailəsi ilə yazılmış imiş. Halbuki, həqiqətən də müavinətə möhtaclar pişnihad [təqdim] edilməmişlərdir. İşbu fəqərə [hadisə] Daxiliyyə Nəzarətinə bildirilmişdir.

**CƏNUB-QƏRBİ ZAQAFQAZİYA İSLAMLARININ MÜQƏDDƏRATI**

**- 1 -**

Durəndiş [uzaqgörən] kimsələr işin əvvəlində bilirlərdi ki, Qafqaziyanın ümumi vəziyyətinə (Status quo) görə, Cənub-Qərbi Zaqafqaziya islamlarının müqəddəratı mübahisə və münaqişəni mövcib olacaq [mübahisə və münaqişəyə yol açacaq] bəzi məsələləri möhtəvidir [ehtiva edir].

Biz Cənub-Qərbi Zaqafqaziyanın bir az tarixinə də göz atsaq görəcəyiz ki, Avropa böyük dövlətləri belə bu məsələni Rusiya və Türkiyə arasında mübahisə və münaqişəli bir şəkildə buraxmışlardır.

1878 rus-türk müharibəsində Batum qalası daha süqut etməmiş ikən, Avropa böyük dövlətlərinin müdaxiləsi ilə Berlin müahidəsini əqd etmək [sazişini bağlamaq] surəti ilə Qars, Batum, Ərdahan sancaqlarının təzminati-hərbiyyə və erməni məsələsi naminə Rusiyaya tərk edilməsi və Qıbrıs adasının da ingilis idarəsinə buraxılması kimi bir etilafla [uzlaşmayla] bu sancaqların islam əhalisinə xüsusi heç bir ixtiyar və imtiyaz verilməmiş və bu siyasət ora islamlarının həyatına xatimə çəkmək istəmişdir.

Deyirlər ki, Qars, Batum, Ərdahan mədəni, maarifi və milli bir tərəqqiyə məzhər [nail] olammaması üzündən siyasətən də zəif bir halda qalmasına imkan vermişdir. Bu nöqteyi-nəzər siyasəti anlamamış, ölçüb-biçməmiş kimsələr üçün təbii görülə bilər. Fəqət işin bir az əsasına baxan və məsələnin dərinliyini mühakimə edən kimsə üçün büsbütün başqa bir həqiqət ortaya çıxacaqdır.

Əvvəla, etiraf etməli ki, hüdud boylarında yaşayan millətlər ən çox həyat və məmatın [ölümün] arasında çalxalanıb durmuşlardır. Saniyən [ikincisi], bir dövlətdən digər dövlətə intiqal edən [keçən] bir ərazi siyasi bəzi təzyiqlər altında qalmışlardır.

Sabiq Almaniyanın Elzas-Loreni, sabiq Türkiyənin Arnavudluğu [Albaniyası], sabiq Rusiyanın Lehistan [Polşa] və Ukraynası və bunun kimi bir çox dövlətlərin bu şərait altında bulunan ərazisi yuxarıda göstərdiyimiz həqiqətlərə eyi bir misaldır.

Bundan başqa, islam millətləri üçün ümumi bir qayda daha vardır ki, daha da bir çox zaman bariz bir həqiqət kimi önümüzdə duracaqdır. Bu həqiqət isə şundan ibarətdir ki, başda ta islamların məqami-xilafəti [Xəlifəlik məqamı] olduğu halda bütün yer üzündəki islam millətləri avropalılar nəzərində əməli bir fəlsəfə ilə idarə olunurlar: təzyiq etmək!

Bu təzyiqin bəzi əksüləmelləri [akstəsirləri] çıxır və tibqi [eynən] bəni-israilin o cahanşümul, o giranbaha [çox qiymətli] səhifeyi-mücahidəsini görüb oxudur: iştə, Türkiyə və İranın son üç əsrlik həyat və mövcudiyyətləri bu səhifəni səhneyi-siyasətdə açıb-qapatmışdır...

Cənub-Qərbi Zaqafqaziya islamları üçün – və bu nəzəri də olsa – təyini-müqəddərat haqqını Lenin kimi düşünən bir baş və Rusiya bolşeviklərinin imza etdikləri Brest-Litovsk kimi bir müahidə [saziş] həqiqətən və ciddən lazım idi.

Vəqta ki [o vaxt ki], Brest-Litovsk müahidəsi əqd edilmişdi [sazişi imzalanmışdı], Cənub-Qərbi Zaqafqaziya islamlarının ciddi və səmimi düşünən simaları demokratik bir əsas ilə Cənub-Qərbi Zaqafqaziya istiqlaliyyətinin qövldən feilə [sözdən əmələ] gələcəyinə də ümidvar olmuşlardı. Həqiqətdə də, bizzat əhali arasında öylə qüvvətli bir cərəyan mövcud bulunurdu ki, daima özünə məxsus bir hökumət, özünə məxsus bir idarə üçün can verirlərdi. Türklərin bu həvalini [regionu] idarə haqqında göstərdikləri nöqsanlıq və təkasül də [başısoyuqluq da] başı aşmış kimi idi. Bunu olduqca tədqiq və tətəbbö edən [araşdıran] İstanbul, əlviyeyi-səlasə üçün "xüsusi bir idarəni" "fərmani-hümayun" [Padişah fərmanı] ilə elan etmişdi. Lakin bu bir elan şəklində qaldı. İdarə yenə "əski tas, əski hamam" kimi bir şey idi. Hər halda türklər əlviyeyi-səlasə islamlarının müqəddəratı haqqında səmimi idilər. Fəqət təcrübədidə və durəndiş [təcrübəli və uzaqgörən] deyildilər. Bu hal əlviyeyi-səlasə müqəddəratına böyük təsirlər yaptı. Bu cəhəti şimdi mövzuyi-bəhs [müzakirə mövzusu] etməyəlim.

Biz Cənub-Qərbi Zaqafqaziya islamlarının müqəddəratını tədqiq edərkən bu məsələnin yarım əsrlik tarixini və beynəddüvəl [dövlətlərarası] vəziyyətini yaddan çıxarmayacağız. Çünki zamanımız siyasət aləmində yek-digərlərinə mərbut [bir-birinə bağlı] bir çox məsələləri ortaya qoymaq surəti ilə bir məcrayi-həll və təlif [həll və uzlaşma yolu] bula bilər.

Daha doğrusu, hərhangi bir məsələnin bəsit ikən mürəkkəbə irca edilməsi [çevrilməsi] və buradan da bir tövhid [birlik] əsasını bulmaq şimdi ümumi bir qaydadır.

1878-də Ayastefanos və Berlin müahidələrinə [sazişlərinə] görə Rusiyaya tərk edilən Qars, Batum, Ərdahan islamları haqqında mühacirət siyasətini təmin edən bir bənddən başqa bir şey yox idi. Buna müqabil, bizzat ingilis, fransız və alman dövlətlərinin əndişə etdikləri bir məsələ var idi. Bizzat Bismark da bundan ürkmüş idi. O da Batumun Qara dənizə bir məxrəc [çıxış] olması və Türkiyə tamamiyyəti-mülkiyyəsinin [ərazi bütövlüyünün] Rusiyanın mənfəətinə ixlal edilməsi [pozulması] və İstanbula doğru həm quru, həm dəniz yolu ilə istiqbalda [gələcəkdə] Rusiyaya bir imkan verilməsi keyfiyyəti idi.

Bu səbəblə də Berlin müahidəsinə 34-cü maddə əlavə edilmişdi: "Batumu sərbəst liman (porto franko) halına gətirmək həşəmətli Rusiya imperatorunun niyyəti-hümayunlarıdır" [imperatorun niyyətidir] denilmişdi.

Bu maddəyə görə, Batumda heç bir təhkimat [istehkam, möhkəmləndirmə işləri] yapılmayacaq və ancaq ticari bir liman şəklində mühafizə ediləcəkdi. Fəqət sonraları Batumun ən müstəhkəm [möhkəmləndirilmiş] bir liman halına gətirildiyi məlumdur.

Keçən əsrlərdə müahidələr [sazişlər] ancaq zahiri bir sülhü müvəqqətən təmin edə bilən mütəntən [təntənəli] bir məntiq və siyasət ovutması idi. Bir də bu müahidələr Türkiyə və İrana təəllüq etdimi [aid oldumu], iş büsbütün dəyişirdi. Cənub-Qərbi Zaqafqaziya Rusiya idarəsində ancaq əsgər və polis siyasəti ilə idarə olundu. Bu məmləkətin əhalisi həqiqətdə hicran və atəşli bir ürək acısının ağır təsirləri altında qalmışdı. Kəndi müqəddəratına qarşı hər tərəfdən bu dərəcə qeydsizlik [laqeydlik] göstərilməsi çox əlim [acınacaqlı] bir şey idi. Bu səbəblə də Cənub-Qərbi Zaqafqaziya islamları Türkiyə zamanından qalmış milli maarifi, dini, təarüfü [adət-ənənəni] bütün şəkli ilə mühafizə etməyə və bu surətlə də müqəddəratının böyük bir qismini xilafəti-islamiyyəyə [islam xilafətinə] rəbt etməyə [bağlamağa] əhəmiyyət verirdi. Rus bürokrat idarəsi, iştə bu keyfiyyəti bildiyindən dolayı idi ki, əsgər və polis siyasətinə qüvvət və gücünü vermişdi. Bu siyasətlə millət təcziyə olunur [bölünür, parçalanır], bu siyasətlə 1914 fəlakəti əmələ gətirilir, bu siyasətlə erməni daşnaklarına vase [geniş] miqyasda təftin [fitnəçilik] və təhrik vəsaiti [vasitələri] təmin olunurdu.

Fəqət şayani-diqqət [diqqətəlayiq] idi ki, Rusiya Hökuməti bu həvalini [regionu] Qafqaziya millətləri arasında çıxacaq hər hangi bir ixtilal və inqilab üçün bir növ ehtiyat qüvvət şəklində mühafizə etməyə [çalışır] və məsələn Batumda gürcülərə qarşı acaralılardan qayət böyük bir miqyasda milis alayı təşkil edirdi.

Bütün bunlar göstərirdi ki, Cənub-Qərbi Zaqafqaziya islamları haqqında heç bir millət və dövlət məşğul olmaq istəməyir və arabir də paylaşılmaq əməliyyatına daha müsaid bir vəziyyət və tövr alırlardı [mövqe tuturdular]. Gürcülərin acaralılara 1914 vəq'ələri [hadisələri] əsnasında maddi-mənəvi yardımlara qalxışmaları da bu nəticədən çıxır, Batum oblastının Gürcüstan ərazisinə daxil olması arzusundan irəli gəlirdi. Məqaləmizin ikinci qismini gürcülərin Batum oblastı haqqında mətalibin[in] [tələblərinin] nə dərəcəyə qədər doğru bir şey olduğunu tədqiqə buraxaraq, bu məqaləni burada bitirəlim!

*Ə. Həmdi [Qaraağazadə]*

## ADVOKAT MƏHKƏMƏNİ QƏBUL ETMƏYİR!

Toyuq yumurta yumurtladığı halda öylə qaqqıltı, öylə qışqırıqlar çıxardar ki, tamam qonşuları həyəcana gətirər. Həmçinin bəzi cəmiyyət xadimləri əhalinin ucuz şöhrətlərini qazanmaq üçün cüzi ittifaqları sərlövhə ittixaz edərək [kiçik təsadüfləri, hadisələri şişirdərək] aləmi səs-küylə doldururlar, milçəkdən fil yaradırlar.

Bugünlərdə Bakı advokatlarından Miron Yakovleviç Şor cənabının Murtuza Muxtarov cənabları tərəfindən təhqir olunması fəqərəsini [hadisəsini] qəzetələrdə oxuduq. Həqarətin [təhqirin] səbəbləri və bunun qövlənmi, feilənmi [sözlə yoxsa feili surətdə] icrası barəsində qəzetələrdə heç bir şey yazılmamışdı. Məsələnin bir çox cəhətləri oxucular üçün qaranlıq və üstüörtülü qaldı. Burasını şərh və bəyan etmək təhqir olmuş zatın vəzifəsi idi. Lakin bizə məlum olmayan səbəblərə görə, o cənab burasını əhaliyə anlatmadı. Bəlkə heç anlatmaq da istəmədi. Bunu biz oxucular ondan tələb etməyə ixtiyarımız yoxdur. Çünki ola bilsin ki, o cənab bu üstü pərdəli cəhətləri oxuculara deyil, sud məhkəməsinə təqdim edəcəkdir. Böylə olan surətdə bir bu qədər cəmiyyətlərdə yapılmış etirazların, bəyanatsız qətnamələrin qəzetə sütunlarında dərcinə nə ehtiyac görülmüşdür? Madam ki, həqarətin əsbabı [təhqirin səbəbləri] qəzetə oxucularına məlum deyildir, zalımın zülmü və məzlumun da məzlumiyyəti aşkar olmadığı cəhətə, Şor cənabı heç vaxt əhalinin bu barədə gözləniləcək meyil və rəğbətini qazanammayacaqdır.

Filhəqiqə [doğrudan da], Şora qarşı nə kimi həqarətlər yapılmışdır? Həqarətin yapılmağına bais nə olmuşdur? Bunları bir çox cəmiyyətlər göstərmədən etirazlar qət etmişlər və etirazlar da qəzetələrdə peydərpey [bir-birinin ardınca] dərc olunmaqdadır.

Nə isə, Şor cənabı məhkəmə mütəxəssislərindən olduğu halda məhkəməyə deyil, ənvai [müxtəlif] cəmiyyətlərə müraciət edir. Bundan böylə məlum olur ki, Şor cənabı məhkəmə vasitəsilə bu məsələdə heç bir haqq qazana bilməyəcəyini dərk edib, dərdini ənvai cəmiyyətlərə söyləyir. Qeyri-təbii etirazlarla əfkari-ümumiyyəni [ictimai rəyi] öz tərəfinə cəlb edir. Bəlkə cəmiyyətlərə bu müraciətlər ucuz bir reklammadan (şöhrətdən) ibarət olaraq məsələnin müqəddiməsiədd [hesab] olunur.

Olar ki, sonradan məhkəməyə də müraciət olunsun. Zira, etiraz yapmış cəmiyyətlərin biri buna işarə etmişdir. Hərgah, məsələ məhkəmə əli ilə xitampəzir olacaqdırsa [qurtaracaqdırsa], daha bir bu qədər cəmiyyətlərə yüyürüb yortmağın mənası nədir?

Ya məhkəmeyi-ədliyyənin [ədalət məhkəməsinin] qətnaməsi, ya da əfkari-ümumiyyənin [ictimai rəyin] mənəvi və təsəlliyab [təsəlli olunan] bir tənqidi!

Bundan əlavə, madam ki, ədliyyə məhkəməsi təcavüzkarın təcavüzatını qərara almamışdır, yəni müqəssirin təqsiri sübut olunmamışdır, nə haqla cəmiyyətlərin bəzi etiraz və bəzi də məqhur [qəhr olunan] üçün izhari-təsliyət etmişlərdir [təsəlli, ürək-dirək vermişlər]. Fərz edəlim ki, bu nöqtəni cəmiyyətlərimiz anlamamışlardır. Bunu, hərgah, hüquqşünasların məşhuru Şor cənabı da düşünməmişsə, vay olsun bu kimi hüquqşünaslara möhtac qalmış əhalinin halına!

Muxtarov-Şor müsadiməsi [toqquşması] hər gün eşitdiyimiz və müşahidə etdiyimiz yüzlərcə vüqu bulan [baş verən] təbii və adi müsadimələrdən biri olduğu cəhətə, bir bu qədər cəmiyyətləri və qəzetə sütunlarını işğal etməyə ehtiyac yox idi və nəzərə öylə gəlməsin ki, bizim məqsədimiz müqəssir tərəfi hər nə tövr olsa təmizə çıxarmaqdır. Ancaq məsələyə bu axır vaxtlarda təfriqə [ikitirəlik] və millətbazlıq donu geydirildiyi üçün bu kimi müfsid [fitnə-fəsad törədən] cərəyanın və bundan tövlid edən [əmələ gələn] provokasiyanın önünü almaq niyyətilə işbu məqaləni qələmə aldıq.

Məlum olduğu üzrə, Şora qarşı, guya yapılmış həqarəti birinci dəfə Mərkəzi Ev Komitəsi elan etmişdir və izhari-etiraz ilə [etiraz bildirməklə] bərabər bunu da qət etmişdir ki, hərgah Şor cənabı məhkəməyə müraciət edərsə, advokat yoldaşları onun hüququnu və tələbatını müdafiə etsinlər. Necə ki məlumdur, Mərkəzi Ev Komitəsinin ərkani-heyəti [heyətinin üzvləri] inqilabdan sonra bikar qalmış Şor kimi məşhur advokatlardan ibarətdir ki, "Sentrodom" adlı süni bir idarə icad edib uprava [Şəhər İdarəsi] işlərini qəsb etmişlərdir. Təbiidir ki, burada yoldaşlardan sıxı ittihad [birlik] və tərəfdarlıq tələb olunur. Odur ki, Mərkəzi Ev Komitəsi öz məclisində yapdığı etiraza kifayət etməyərək, hələ Şəhər Dumasını da özü kimi bir etiraz yapmağa dəvət edir.

Şöhrət və şan tamahı Şor cənabını bir hala salmışdır ki, bu iki məclisin qətnamələrinə qane olmayaraq, üçüncü bir məclisin etiraz yapmağına razı olur. Bu da Yəhudi Milli Komitəsinin 16 nisanda vaqe olmuş fövqəladə (?) məclisindən ibarətdir. Ancaq burası məlum olmadı ki, bu fövqəladə məclis kimin vəsatəti ilə dəvət olunmuşdur. Lakin məncə, vəsatətçi kim olursa-olsun, burada işlədiyi qəbahətini düşünməmişdir. Tamam yəhudi milləti üçün bu bir həqarət deyilmi ki, onun milli komitəsini fövqəladə bir məclisə ancaq bir etiraz yapmaq üçün dəvət edirlər?

– İki şəxsin müsadiməsini təhqiq etmək üçün fövqəladə bir məclis dəvət olunur. Əcəba, nə olmuşdur? Qiyamətmi qopmuşdur?

– Bundan artıq nə olacaq ki, bir müsəlman bir yəhudini təhqir etmişdir. Binaənileyh [ona görə], Yəhudi Milli Komitəsi yığılsın da buna bir çarə etsin.

Tutalım ki, sabah bir yəhudi də bir müsəlmanı təhqir etdi. Bunun üçün milli müsəlman komitəsi də fövqəladə bir məclis dəvət etsə, doktor Quxman ilə advokat Şor cənabı buna nə nəzərlə baxarlar? Buna müfəttinlik və provokasiya deməzlərmi? Azərbaycanın ədliyyəsinə nə gəlmişdir ki, milli komitələrə müraciət olunur? Bəsdir təfriqəçilik, bəsdir müfəttinlik. Məhkəmənin qapısı açıqdır. Şor cənabı buyursun və haqqını da müdafiə etsin. Onun kimi advokata qəyyum nə lazımdır?

*F[ərhad] A[ğazadə]*

## ASARİ-ƏTİQƏMİZƏ [TARİXİ ƏSƏRLƏRİMİZƏ] DAİR

Keçən sənə Ömər bəy Abuyev cənablarının təşəbbüsatı sayəsində Bakıda Asari-Ətiqə Cəmiyyəti təşəkkül tapmışdı. Cəmiyyətdə bir çox ziyalılarımız da iştirak edirdi. Məqsəd Bakıda və Qafqaziyanın başqa-başqa nöqtələrindəki islam asari-tarixlərini [islam tarixi əsərlərini] birər abidə şəklinə salmaq, millətin varlığını bütün nəsli-atiyə [gələcək nəslə] göstərmək, onda ruh oyatmaq idi.

Məqsədin nə qədər ali, nə qədər şayani-təqdir [təqdirəlayiq] olduğunu yazmaq bicadır [yersizdir]. Zira bunun misalını bütün kürreyi-ərz[də] filcümlə [ümumiyyətlə], xüsusən Avropada görmək və onun nətayici [nəticələri] ilə hər addımda təmasda bulunduğumuz hər gün belə olur.

Bu gün vətənimiz adlandırdığımız Azərbaycanı bizə məşru [qanuni] vətən qərar verən xalqın "bizimdir" deməsi deyildir, Azərbaycandakı tarixi asardır. Bakının bizim paytaxtımız olduğunu aləmə sübut edəcək bir amir [abadlıq, tikili] varsa, o da fəqət [sadəcə] "İçərişəhər" namı [adı] ilə məşhur dar soqaqlı hissədəki "Xan sarayları", məscidlər və başqa bu kimi abidələrdir. Hər məzbur [danışılan] tarixdən qüvvətli, hər xalq sözündən əsaslı olsun gərək.

Sabiq Asari-Ətiqə Cəmiyyətimiz birinci iqdamatından [addımlarından] olaraq təntənəli surətdə "Xan saraylarını" əlinə aldı. Məlumatımıza görə, bir çox layihələr də tərtib verilmişdi ki, saraylar təmizləndikdən sonra, həqiqi bir abidə şəklinə gətirilməli idi. Təəssüflər olsun ki, Mart hadisati-əliməsindən [kədərli Mart hadisələrindən] sonra cəmiyyət öz fəaliyyətinə xitam verməyə məcbur oldu.

Yenə əski qayda üzrə "Xan sarayları", "İçərişəhər" müsəlmanları üçün bir məzbələ [zibillik] ola qaldı. Bu gözəl binaların insanı heyrətdə buraxan üsuli-memarisi, müəzzəm [əzəmətli] alaqapıları, möhtəşəm məhkəmə və başqa yerləri heç kəsi məhsus etməyirdi [heç kəsdə hiss oyandırmırdı]. Şayiata görə, təcəddüd etmiş [bərpa edilmiş] Asari-Ətiqə Cəmiyyəti heç bir iqdamatda bulunmayırdı.

Bakı Politexnik məktəbi və 3-cü Aliibtidai məktəbi rəsim və heykəltəraşlıq müəlliminindən [müəllimlərindən] Yakov İosifoviç Keylixis nam [adlı] bir cənab həman "Xan saraylarını" bir abidə şəklinə salmaq, millətin tarixi asarı olduğunu bütün dünyaya göstərmək kimi alicənabanə bir təşəbbüsə düşdü.

Etdiyimiz müsahibədə Keylixis cənabları müsəlman ziyalılarının nə qədər kəmetina [etinasız], nə qədər ruhən yorğun olduğunu qeydlə, Azərbaycan türkləri üçün "Xan sarayının" tarix və mə-

dəniyyət nöqteyi-nəzərindən nə qədər ziqiymət [qiymətli] bir bina olduğunu söyləyirdi.

*"Tarixi asar abidə kimi nəzərə çarpılarsa bütün insanlar o abidə qarşısında diz çökməyə məcbur olar. Abidə məzbələ kimi görülərsə, hər gələn heç olmazsa oraya bir daş atacaqdır"* – dedi.

Keylixis cənabları Maarif Nəzarəti və başqa müsəlman təşkilatlarına müraciətdə bulunmuşsa da, hələlik bir müavinət [köməklik] görməmişdir. Fəqət böylə kəmetinalıq bu zatı naümid etməmişdir. *"Mən yəhudiyəm, fəqət nəqqaşam, gözəl bir abidənin xaraba qalması mənim gözlərimi qamaşdırır"* – deyir.

Axır vaxtlarda "adı var, özü yox" Asari-Ətiqə Cəmiyyətinin əzası [üzvləri] Keylixis cənablarının mükərrərən [dəfələrlə] etdiyi müraciətinə məbni [əsasən] bir sandıqça günü tərtib etməyi qərara almışdır. Bu gündən gələcək mədaxil ilə "Xan sarayları" təmizlənəcək, təmir ediləcəkdir. Keylixisin layihəsinə görə, "Xan sarayları" təmizləndikdən sonra oranı bir müzəxana [muzey] etməlidir. Həyətdə ağaclar əkdirilməlidir. Sənayeyi-nəfisə [incəsənət] kursları açılmalıdır. *"Böylə olarsa millət öz qədrini və atababalarının qədrini bilməyə məcbur olacaqdır. Zira işsiz vaxtlarını müzəxana, musiqi, heykəltəraşlıq, nəqqaşlıq kurslarında keçirməklə bərabər, hər gün tarixlərini də xatirlərinə gətirəcəklər."*

Keylixis cənablarının təşəbbüsatının şayani-təqdir və ibrət [təqdir edilməyə və ibrət alınmağa layiq] bir təşəbbüsat olmağını qeydlə, lazımi təşkilatın ona müavinətdə bulunmasını rica və təmənna edirdik. Millət isə asari-ətiqə günündə öz müavinətini göstərəcəkdir, ümidindəyiz.

*Ayn. Rüfət*

**MƏTBUAT**

"Naş put" qəzetəsi Bakı bolşeviklərinin fəaliyyətindən bəhslə yazır ki:

*"Bakı kommunistləri Azərbaycan Cümhuriyyətini məhv və onun yerində Moskva Şura Hökuməti nəsb etmək [qurmaq] yolunda zəminə hazırlayır, müzakirat icra edir, hazırlaşır və müttəhid [birləşmiş] sosialist, daha doğrusu rusiyaçı cəbhə əmələ gətirirlər. Ümum [bütün] rusiyaçı firqələr bu xüsusda çox işləyirlər. Fəqət bu məhəl verilməz [yolverilməz] cinayatkaranə fəaliyyət Kəsbkarlar İttifaqlarının [Həmkarlar İttifaqlarının] son syezdində [qurultayında] açıq və müəyyən bir şəkil almışdır. Məzkur [deyilən] syezdin qəbul etmiş olduğu qərarnamə göstərir ki, Azərbaycanda rus hökuməti tərəfdarı olan kommunistlər, sosial-demokratlar və sosial-revolyusionerlər [sosialist-inqilabçılar] bizim üçün yeni imtahanlar, yeni qanlar hazırlayırlar."*

Fəqət qəzetəni ümum firqələrdən ziyadə "Hümmət" firqəsinin fəaliyyəti, bu uğurda çalışması acındırır. Binaənileyh [ona görə], "Hümmət" firqəsinin fəaliyyətinə nəqli-kəlam edərək [sözü gətirərək] deyir ki:

*"Bu siyasi macəraculuqda [avantürizmdə] "Hümmət" firqəsinin oynadığı rolları biz ürək ağrısı və can acısı ilə qeyd etməliyiz. Hümmətçilər bəyan etmişlər ki, əgər syezd ümumi bir qərarnamə qəbul etməsə, o halda hümmətçilər kommunistlərin, yəni Rusiya Bolşevik Hökuməti tərəfdarı olanların formulasına səs verəcəklərdir. Azərbaycan və sair Zaqafqaziya cümhuriyyətləri məsələsi haqqında kommunist hümmətçilər deyirlər ki, Zaqafqaziya, Dağıstan və Türküstan o vaxt birləşə bilərlər ki, həman ölkələr[də] şura (bolşevik) hökuməti təcdid [bərpa] edilsin."*

Hümmətçilərin hərəkətini qeyddən sonra, yenə İttifaqlar syezdinin fəaliyyətinə qayıdaraq qəzetə yazır ki:

*"Siyasi həyatı idarə üçün syezd bir "mərkəz" seçmişdir. Bu surətlə həman mərkəz bolşeviklərin siyasi mərkəzidir. Burada 15 üzvün 11-i kommunistdir. Bundan anlaşılır ki, Bakının türk olmayan ümum demokratiyası [bütün xalqı] kommunizm tərəfinə dönmüş və onlarla bərabər "Hümmət" firqəsi də onlarla gedərək Azərbaycanda Rusiya Bolşevik Hökuməti əmələ gəlməsinə ciddən çalışır. Müsəlman olmayan Bakı demokratiyasının siyasi vəziyyəti böylədir. Bu hərəkata heç şübhəsiz bizim istiqlalımızın düşməni olan ünsür dəxi bilafərqiməslək [məslək fərqi olmadan] hüsn-rəğbət göstərir. Təəssüf edəriz ki, bu işdə "Hümmət" firqəsi də iştirak edir."*

Axırda bu məsələdə "Müsavat" firqəsinin öhdəsinə düşən vəzifədən bəhslə deyir ki:

*"Həmişə öz millətinin və öz camaatının demokratik təbəqələrinin mənafeyi qarovulunda duran "Müsavat" firqəsi gələcək siyasi hadisələri ciddi surətdə nəzərə almalıdır. Firqə olmaq üzrə öz milləti qabağında məsul olaraq o "Müsavat" həmişə gərək hangi tərəfdən olur-olsun, məmləkətin nizam və asayişini təzəlzülə [sarsıntıya] gətirə biləcək hər bir hərəkata qəti surətdə müdaxilə qılsın."*

Yalnız "Müsavat" deyil, Azərbaycan istiqlalını şüar etmiş olan bütün türk-islam qardaşlar ayıq olmalı və hangi tərəfdən istiqlalımıza bir xətər hiss edilsə – sağdanmı, soldanmı – onu rəf və dəfə [aradan qaldırmağa və dəf etməyə] hazır və müheyya olaraq bir təni-vahid [vahid bir bədən] kimi müdafiəyə qalxışmalıdırlar.

**BAKI XƏBƏRLƏRİ**

**Yeni sui-niyyət**

Neçə gün bundan əqdəm [qabaq] Azərbaycan Cümhuriyyəti və istiqlaliyyətinin əleyhinə hazırlanmaqda olan böyük bir sui-niyyət [terror] və xəyanət kəşf edilməsini xəbər verməklə "xainlərin yuvalarından birisi dağıldı" deyə böylə xəyanətlərin daha bir neçə yerdə olduğunu göstərmişdik. Böylə də oldu.

Srağagün təhərri [axtarış] polisəsi naçalniki Kamenisti küçədə vaqe Əmiraslanov qardaşlarının evində bir çox şübhəli şəxslər olduğunu xəbər alaraq məzkur [adı çəkilən] evi polis nəfəratı [nəfərləri] ilə əhatə edib axtarış icra etməyə başlamışdır. Axtarış nəticəsində orada gizlənmiş və hökumət əleyhinə sui-niyyət hazırlamaqda proqram və planlar tərtib edən 6 şəxs tutulmuşdur ki, onların içində sabiq Biçeraxov dəstəsi və Qafqaziya-Kaspi hökuməti rəisi Voskresenski, "Sentrokaspi" müdiri Merfilov, general Radko-Dmitriyevin oğlu və Nəcəf Əmiraslanov dəxi vardırlar. Qalan iki

nəfəri də Könüllü ordunun ərkani-hərb [hərbi qərargah] zabitləridirlər. Tövqif edilənlər [tutulanlar] Nəcəf Əmiraslanov ilə bərabər həbsxanaya göndərilmişlərdir. Binanın alt mərtəbələri axtarıldıqda, padvalda [zirzəmidə] külli miqdarda azuqə – 200 kisə un, neçə min ayaqqabı, düyü, çay, qənd, kişmiş və qeyri ləvazimat və həmçinin silah və çoxlu patron, iki dənə böyük minik avtomobili tapılmışdır. Tapılan şeylərin hamısı həcz [müsadirə] edilib hökumətin təsərrüfünə [ixtiyarına] keçmişdir. Təhqiqat davam edir.

**Pambıq işləri**

Quba uyezd naçalniki [qəza rəisi] Bakı qubernatorunun sualına cavabən məlum etmişdir ki, Quba uyezdində pambıqçılıq işləri yoxdur. Bütün uyezddə bu il heç bir yerdə pambıq əkilməmişdir.

**Hadisat**

- Suraxanski küçə 61 nömrəli evdə sükunət edən [yaşayan] Sara xanım Abdulla qızı həman evdə sükunət edən Məryəm Tağı qızını dəhrə (qiyməkeş) ilə vurub ağır surətdə yaralamışdır. Sara tövqif [tutulmuş] və həbs edilmişdir.

- Digah kəndi əhilləri Şahrza Hacıbaba oğlu, Mirzə Həbib oğlu, Balakərim Ağakərim oğlu həman kəndin əhli molla Ağamalı Cəfər oğlunu evindən çağırıb, o, bayıra çıxdıqda tapança gülləri ilə atıb öldürmüşlər.

- 5-ci Paralelni küçədə Şamaxı uyezdi Mərəzə kəndi əhli Məhəmməd Əhməd oğlunun meyiti tapılmışdır. Məzkurun [adı çəkilən şəxsin] kimin tərəfindən öldürüldüyü məlum olmamışdır.

- Nisanın [aprelin] 22-də Bakıya gətirilən ərzaq:

buğda 16.855 put;
un 8.241 put;
kartof 2.125 put;
arpa 4.618 put;
saman 3.000 put;
ot 2.095 put.

**FƏHLƏ HƏYATI**

**Suraxanıda**

Srağagün, aprelin 22-də Suraxanı "Narodnı dom"unda [Xalq evində] Suraxanı mədən dairəsi əmələləri [fəhlələri] və həman kənd əhalisi nümayəndələrinin yığıncağı vaqe olmuşdur [baş tutmuşdur]. Yığıncaqda 300 nəfərə kimi fəhlə və kəndçilər hazır olmuşdur. Məclis açıldıqda, bugünlərdə Batumdan və Zaqafqaziyanın başqa yerlərini gəzib qayıtmış olan Səməd bəy Əliisgəndərzadə "Azərbaycan əyalətləri" ünvanında məruzədə bulunub və bu barədə ətraflı bəyanat vermişdir. Bədəhu [sonra], Piri Mürsəlzadə "Qafqaziya cümhuriyyətləri və Könüllü ordu" mövzusunda mühazirə oxumuş və Qafqaziyada xırda hökumətlər və ələlxüsus Azərbaycan istiqlaliyyətinin keçirməkdə olduğu əhvali-fövqəladəni və həmçinin şimaldan ümum Qafqaziya və Azərbaycan demokratiyasını təhdid edən qara qüvvələrin hərəkəti haqqında müfəssəl surətdə məlumat vermişdir. Mühazirədən sonra əmələlər və kəndçilərə əlaqəsi olan bir neçə məsələ müzakirə edilib zeyldəki [aşağıdakı] qətnamə müttəfiqülqövl [yekdilliklə] qəbul edilmişdir:





*"Biz, Suraxanı mədən dairəsi əmələləri və kəndçilər bir yerə cəm olub əhvali-hazirə haqqında məlumatı eşitdikdən sonra böylə qərara gəldik ki, şimaldan Azərbaycan və ümum Qafqaziya demokratiyasını təhdid edən qüvvənin önü alınması üçün hökumətdən ciddi iqdamat [addımlar] tələb edilsin və kəndimiz bu barədə heç bir fədakarlıqdan çəkinməyəcəyimizi dəxi bəyan ediriz. Naxçıvan, Şərur və Borçalı uyezdlərinin Azərbaycanın ayırlmaz bir hissəsi olduğu üçün onların Azərbaycana mülhəq edilməsi [birləşdirilməsi] hökumətdən və Tiflis Konfransından tələb edilsin. Axıska müsəlman əhalisinin çətin və ağır hallarını və 500-dən ziyadə müsəlman kəndlərinin talan edilmələrini nəzərə alaraq, tezliklə onlara yardım və müavinət edilməsi hökumətdən tələb edilsin. Suraxanı mədən dairəsində əmələlər və kəndçilər camaat dükanı və aşbazxana açılmağa hökumət dəxi bir qədər müavinətdə bulunsun. Avqust ayında müsəlman əmələlərinin qaçdıqları günlərin məvacibləri mədən sahiblərindən tələb edilsin. Bu tələbatı qövldən feilə [sözdən işə] gətirmək Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Bakı komitəsinə həvalə olunur."*

Bundan sonra beş nəfərdən ibarət bir komissiya təşkil edilir ki, dükan və aşbazxananı açmağa şüru etsin [başlasın] və yığıncaq bununla xitam bulmuşdur.

**Dəlləklər İttifaqında**

Dəlləklər İttifaqının müvəqqəti nümayəndələr heyəti ümum yoldaşlarından rica edir ki, cümə günü saat 10-da Parlaman binasında hazır olub bir neçə mühüm məsələləri müzakirə etsinlər. Yoldaşların vəqti-müəyyəndə [müəyyən edilmiş vaxtda] gəlmələri rica olunur.

**ERMƏNİ MƏTALİBİ**

Ermənistanın böyük hüdudu haqqındakı xəyalpərvəranə müxtirəsi [yazılı qeydi, müraciəti] Avropa mətbuatı tərəfindən müzakirə edilməkdədir. Fransa mətbuatının bu xüsusdakı mütaliəsindən [fikirlərindən] bir qismini nəql eyləmişdik. Bu kərə də ingilis mətbuatından "Deyli teleqraf" qəzetəsinin Sülh Konfransı nəzdindəki müxabirinin [müxbirinin] erməni mətalibi [tələbləri] haqqında qəzetəsinə göndərdiyi aşağıdakı məlumatı nəql ediriz:

*"Erməni müməssilləri [nümayəndələri] tərəfindən dün [dünən] Sülh Konfransı hüzurunda bəyanatda bulunuluncaya qədər erməni mətalibinin dərəceyi-ittisası [genişliyinin dərəcəsi] haqqında heç kimsədə tam bir fikir yox idi. Ermənilərin əzəmi mətalib dərmiyan etməyə [maksimum tələblər irəli sürməyə] meyl etmələri mövcibi-heyrət [heyrətamiz] bir şey deyildir. Ermənilər təbiətləri etibarı ilə bazarlıq xüsusunda mahir adamlardır. Halhazırı kəndi lehlərində bir bazarlığa girişməyə müsaid bulunca, bittəb [təbii olaraq], fürsəti ehmal etməmişlərdir. Bununla bərabər, ermənilər tərəfindən tələb edilən ərazinin vüsəti Parisdə az-çox mövcibi-heyrət olmuşdur. Ermənilər, dərmiyan etdikləri müddəiyyatın [iddiaların] mühiqq [haqlı] olduğunu irqi nöqteyinəzərdən isbat edəmməzlər. Hər nerədə iqtisadən az-çox əlaqədar bulunurlarsa,*

*orasına iddiayi-təsərrüf* [yiyəlik iddiası] *etmişlərdir. Bu cümlədən olaraq Şərqin ən mühüm mərkəzi-ticarətlərindən olan İsgəndərun, Adana və Trabzonu da istəmişlərdir. Yəni, ermənilər həm Avropadan Asiyanın qərbi-cənubisinə gedən şiməndifər* [qatar] *xətti güzərgahından bir parçanı, həm də İraqın təbii iskələsi* [limanı] *olan limanı tələb etmişlərdir. Bu mətalibdə bulunanlar tələblərinin rədd ediləcəyini pək əla bilirlərdi. Digər tərəfdən, vəhşiyanə qitalların* [qırğınların] *qurbanı olan bu bədbəxt millət haqqında pək sıxı surətdə davranılması, iddiayi-təsərrüf etdikləri hər yer haqqında mütləqa əhalisinin arayi-ümumiyyəsinə* [referendumuna] *müraciət edilməsi və qitaldan sonra qalan nüfusuna* [əhalisinə] *nəzərən əksəriyyəti təşkil edib-etmədiyinə baxılması da caiz* [uyğun] *deyildir.*

*Erməniləri yaxından tədqiq edən hər kəs şurasına vaqifdir ki, ermənilərin müstəqil bir cümhuriyyət vücuda gətirə bilmələri bir az gücdür. Tibqi* [eynilə] *müsəvilər kimi ermənilər də bədəni ilə deyil, dimağı* [beyni] *ilə çalışmağa alışmış bir irqdir. Ermənilər bu hallarla iftixar edirlər. Bir musəvi hökuməti təşəkkülünə nə kimi məvane* [maneələr] *varsa, ermənilər haqqında da eyni maneələr mövcuddur. Bir əsgəri təbir* [hərbi termin] *ilə məqsədi ifadə edəlim. Ermənilər arasında pək çox zabit, pək az nəfər* [sıravi əsgər] *vardır. Məmləkətləri daxilində iştiğalati-ziraiyyədə* [əkinçilik işlərində] *buluna biləcək olan kürdlər kəndilərinə xəsmi-candır* [can düşmənidir]. *Bu əsbab* [səbəblər] *dolayısıyla ermənilər Cəmiyyəti-Əqvamın* [Millətlər Cəmiyyətinin] *himayəsinə möhtacdır. Kəndiləri üzərinə icrayi-vəsayətə məmur ediləcək* [qəyyumluq vəzifəsi tapşırılacaq] *dövlətin vəzifəsi pək ağırdır. Bu dövlətin yeni məmləkətinin inkişafi-ziraisi* [kənd təsərrüfatının inkişafı] *üçün lazım gələn vəsaiti tədarük etməsi lazım gələcəyi kimi, ermənilərlə kürdlər arasında təmini-asayiş xüsusunda da pək böyük müşkülata uğrayacaqdır. Mali nöqteyi-nəzərdən* [maliyyə cəhətindən] *Ermənistanın vəziyyəti digər yeni məmləkətlərdən çox müsaiddir. Ermənilər zəngindir. Dünyanın hər tərəfinə dağılmış olan erməni ticarətinin bir qismi hər halda sərmayələrini alaraq məmləkətlərinə övdət edəcəklərdir* [qayıdacaqlardır]*."*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*





**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 454. "müxrib": kiçik və sürətli hərbi gəmi; destroyer.

**Sülh ətrafında**

səh. 456. "Beynəlmiləl Büronun katibi...": söhbət II İnternasionalın daimi icraedici orqanı olan Beynəlxalq Sosialist Bürosundan gedir.

"Huysman": qəzetdə "Qusman" kimi verilmişdir.

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" [Le Temps] qəzeti.

"İstanbulun yunanlara verilməsi haqqındakı şayiənin doğru olub-olmaması barəsindəki suala cavabən gürcü heyəti üzvü demiş ki:": Belə başa düşmək olar ki, burada söhbət Nikolay Yakovleviç Nikoladzedən gedir.

"Tiflisdə böylə rəydədirlər ki...": belə başa düşmək olar ki, bu sözlər də Nikoladzenin müsahibəsindən götürülmüşdür.

**Qəzetələrdən**

səh. 457. "4-lər Şurası üzvlərindən": qəzetdə "9-lar Şurası üzvlərindən" getmişdir.

**Türkiyədə**

səh. 458. "Bu günə Darülfünunun iki şöbəsi vardır.": burada söhbət "Darülfünuni-Şahanə" yaxud "İstanbul Darülfünunu" adlanan ali təhsil qurumundan gedir. Bu qurum 1933-cü ildə həyata keçirilən islahatla İstanbul Universitetinə çevrilmişdir.

"Bayəzid": İstanbulun Fatih ilçəsinin (rayonunun) sərhədləri daxilində yerləşən məhəllə.

"Bu halda, xanımlarla əfəndilərin...": qəzetdə "bu halda" yerinə "bir halda" getmişdir.

**Türkiyənin müxtirəsi**

səh. 459. "İqdam": 1894-1928-ci illərdə İstanbulda türk dilində nəşr edilən gündəlik siyasi və elmi qəzet.

səh. 460. "liva": Osmanlıda "il" ilə "ilçə" arasında inzibati ərazi vahidi.

Səh. 461. "Rum 1.144.612, yüzdə 9": qəzetdə "1.144.612" yerinə "11.144.612" getmişdir.

"Musəvi və əcnəbi 93.364, yüzdə 1": qəzetdə "yüzdə 1" yerinə "yüzdə 8" getmişdir.

"Sarı kitab": Fransa Xarici İşlər Nazirliyinin XIX əsrin axırları – XX əsrin əvvəllərində nəşr etdiyi diplomatik sənəd toplularının ümumi adı.

"...əqəliyyətlərə sərbəstiyi-inkişaf haqqı...": qəzetdə "inkişaf" yerinə "inkişafını" getmişdir.

səh. 462. "Vilayati-sittə": (altı vilayət) Burada söhbət Osmanlı dövlətinin Ərzurum, Van, Mamürətüləziz, Diyarbəkir, Sivas və Bitlis vilayətlərindən gedir. Bu vilayətlər, Rusiya və Qərb dövlətləri tərəfindən, bölgədə erməni dövləti qurulması layihəsinin tətbiq sahəsinə çevrilmişdi. Bu vilayətlərə "Ermənistan" yaxud "Erməni vilayətləri" deyilməyə, San-Stefano və Berlin sülh müqavilələrindən sonra başlanmışdır. 1877-1878 Türkiyə-Rusiya müharibəsi nəticəsində 3 mart 1878-ci ildə imzalanan San-Stefano sülh müqaviləsinin XVI maddəsində bu bölgədən "Ermənistan" deyə söz edilmiş və Türkiyənin burada dərhal reformlara başlaması, həmçinin erməni əhalisinin təhlükəsizliyini təmin etməsi tələb edilmişdir. 13 iyul 1878-ci ildə imzalanan və San-Stefano müqaviləsinin Türkiyə üçün ağır şərtlərini müəyyən ölçüdə yüngülləşdirən Berlin müqaviləsində də bu bölgədən "ermənilərin yaşadıqları vilayətlər" deyə söz edilmiş və eyni tələblər təkrarlanmışdır.

"Ensiklopediya Britannika" [Encyclopædia Britannica]: Ən qədim ingilisdilli ensiklopediya. İlk dəfə XVIII əsrin ikinci yasırında nəşr edilmişdir.

**Cənub-Qərbi Zaqafqaziya islamlarının müqəddəratı**

səh. 467. "qövldən feilə": qəzetdə "qüvvədən feilə" getmişdir.

"əlviyeyi-səlasə" (üç sancaq): Batum, Qars və Ərdahan sancaqlarını birgə ifadə edən termin.

səh. 468. "porto franko" [porto franco]: sərbəst liman, azad ticarət zonası.

**Erməni mətalibi**

səh. 475. "Deyli teleqraf" [The Daily Telegraph]: 1855-ci ildən etibarən nəşr olunan gündəlik ingilis qəzeti.





**Cümə, 25 aprel 1919-cu il, nömrə 166**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 24 rəcəbül-mürəccəb sənə 1337. 25 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**BAKI İCTİMAİ YIĞINCAĞI YAY KLUBUNDA MÜSAMİRƏ**

Şənbə günü aprel ayının 26-sında Bakı Politexnikum məktəbinin Mütəəlimləri [şagirdləri] İttifaqı tərəfindən tərtib veriləcək müsamirədə [konsertdə] kabare, rus və türk dilində pyeslər. Mahir rəqqaslar və sazəndələr iştirak edəcəkdirlər. Bunlardan əlavə **Yevropa və Asiya rəqsləri**, lotereya və torq [auksion] dəxi olacaqdır. Müsamirə başlanacaq axşam saat 8-in yarısında. Biletlər Politexnikum müsəlman mütəallimləri tərəfindən satılır. Müsamirə günü teatroda satılacaq.

**DRAMA AXŞAM TAMAŞASI HÖKUMƏT TEATROSUNDA**

Cümə günü rəcəbülmürəccəb ayının 24-ndə 1337 sənəsi (aprelin 25-ndə 1919-ncu ildə) Müdiriyyətin artistləri İbrahim Atakişiyev və Bağır Cabbarzadənin benefisinə (şərəfinə) mövqeyi-tamaşaya qoyulacaqdır **Ənvər bəyin Ədirnə fəthi**. Biletlər benefis qiymətinə teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

*T-112*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, aprel ayının 27-sində saat birdə Təsərrüfat Şöbəsi dəftərxanasında şəhər budkalarını icarəyə verməkdən ötrü torq [hərrac] olacaqdır. Budkaların biri bulvarda Tamojna [Gömrük] körpüsü qarşısında, digəri isə Mixaylovski bağda Nikolayevski küçədən girən yerdə, hovuzun qarşısında. Şəraiti [şərtləri] Təsərrüfat Şöbəsi dəftərxanasında oxumaq olar.

*T-113*

**DAĞISTANLI QARDAŞLARIMIZA KÖMƏK!**

Hürriyyət və istiqlaliyyət uğrunda qan tökən dağıstanlı qardaşlarımıza kömək etmək üçün Parlamanın Bitərəflər firqəsi tərəfindən könüllü dəstəsi təşkil olunur. Könüllülərə əslihə [silah] və pul veriləcəkdir. Arzu edənlər, Parlaman binasında Bitərəflər fraksiyonu odasında (nömrə 4) şöbə zabiti Saleh bəyə müraciət etməlidirlər: gündüz saat 12-dən 2-yə; axşam saat 4-dən 6-ya.

**ROYAL VƏ PİANİNOLAR**

Külli miqdarda təzə və bir az köhnə məşhur fabrika royal və pianinoları satılır. Bundan əlavə skripkalar, violon-

çellər, metronomlar, fortepiano altına qoymaqdan ötrü stul və podstavkalar [dayaqlar], notalar, notalara məxsus etajerkalar [etajerlər] dəxi satılır. Birjavaya küçə Adamovun evində nömrə 19, mənzil nömrə 7.

*8735*

İttifaqən satılır xalçalar. Suraxanski və Vağzalnı küçələrin küncündə Ramanovski məktəb. Xidmətçidən soruşmaq olar.

*8739*

## QİSMİ-RƏSMİ

### Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyə İdarəsindən

"Azərbaycan"ın 163-cü nömrəsində "Şikayət – Məşixətin nəzər-diqqətinə" sərlövhəli əhvalatda "sahibi-imza" [imza sahibi] bəyan edir ki, Carxı icmasında ruhanilik vəzifəsini ifa edən Molla Mehdiqulu Kərbəlayi Molla Daşdəmir oğlu camaatın başına olmazın bəlalar gətirməkdə bulunub da ənvai [cürbəcür] xəyanəti vəsf edərək Əbusəttar ilə Hacı Ağahüseyn Kərim oğlunun dəyirmanı xüsusunda bir saxta sənəd təhrir [yazdığını] və tərtib etdiyini və kəndisini camaat arasında bir sərbəst hökmran hesab etdiyini və bunun sübutu olaraq məzkur [adı çəkilən] molla kəndisini nə qədər bivaris vəfat edən olsa tamamına mütləq qəyyum (opekun) hesab edib hər növ mənqul və qeyri-mənqul mətrukatı [daşınan və daşınmaz mirası] olsa təməllük edir [yiyələnir] və nə qədər nikah işi olarsa öz oğlu Əbülqasım ağa kəsməli olur.

Binaənileyh [ona görə], İdareyi-Məşixət [Şeyxülislamlıq İdarəsi] lazım bilib cənabınızdan rica edir ki, həman imza sahibini müttəle [xəbərdar] etmək üçün möhtərəm qəzetənizdə dərc edəsiniz ki, məzkur qüsuratın [deyilən qüsurların] cümləsi cəza qanunu ilə rəftar olunası əmrlərdəndir [işlərdəndir] və onların mövcibincə [onların əsasında] müqəssiri cəzaya yetirmək polis vasitəsi ilə sud [məhkəmə] məmurlarına mühəvvəldir [həvalə olunub]. Ona görə fəqət qəzetə vasitəsi ilə bu kimi işləri şiyaya verməkdənsə [faş etməkdənsə], hər maddəyə dair öz vəsiqə və sübutları ilə bərabər təəllüqü [dəxli] olan məmurlara ərizə ilə vermək faydalı olardı. Məazalik [bununla birgə], məzkur Molla Mehdiqulu müsəddəq və ya qeyri-müsəddəq [təsdiqlənmiş yaxud təsdiqlənməmiş] prixod mollası olduğu Məşixətə məlum olmadığından, Quba qazısından sual olundu ki, bu barədə Məşixətə məlumat versin. Müsəddəq prixod mollası olduğu halda ondan cavabnamə alıb, təhqiqat icra edib mazöhrünü [meydana çıxan nəticəsini] İdareyi-Məşixətə məlum etsin, ta ki Məşixət məzbur [deyilən] mollanın təqsirini nəzərə alıb qanuna müvafiq rəftar eyləsin.

*Məşixət sədrləri: [Axund Ağa]*
*Ağaəlizadə və [Mustafa] Əfəndizadə*
*Katib: Əfəndizadə*

## DÖRDGÖZ OLMALIYIQ

Paytaxtımızda Azərbaycan istiqlalına qarşı sui-qəsd əməliyyatının kəşf edilməsi bizi, yəni hökumətimizi də və əhalimizi də dördgöz olmağa vadar edir. Bundan sonra bizim hər bir cüzi də olsa fəqərədən [hadisədən] şübhələnməmiz lazım gəlir və hər bir istiqlalpərəst və vətəndost şəxsin borcudur ki, hər kəsdən və hər bir əhvaldan və hadisədən şübhə edərsə, həman dəm lazım olan yerlərə bildirib kəşf etdirsin və bu ayıqlıq, təbiidir ki, həm Bakıda və həm də Azərbaycanın sair yerlərində dəxi ibraz edilməlidir [nümayiş etdirilməlidir].

Şükürlər olsun ki, Azərbaycanın türk və islam əhalisi arasında istiqlal və azad yaşamaq fikri o qədər bərkiyib və o dərəcə dərinləşibdir ki, əhalimiz əksəriyyəti-əzəminin [böyük əksəriyyətinin] vətənpərəstliyi şəkk və şübhə xaricindədir. Baxüsus [xüsusilə] Nikolay dövri-mənhusundan [uğursuz, bəd dövründən] qalma bir taqım sui-idarələrin ləğvini, böylə idarə başında duran bürokrat tərbiyəli adamların yavaş-yavaş iş başından rəf edilmələrini [götürülmələrini, aradan qaldırılmalarını] görən əhali, hökumətimizin böylə müdəbbiranə [ağıllı] tədbirlərindən xoşhal olub, öz-özümüzü özgələrdən yaxşı dolandırmaq iqtidarımıza iman və etiqad etməkdədirlər.

Bu gün Azərbaycan istiqlalı əleyhinə söylənən söz və icra edilən əməl, hər bir Azərbaycan türk və islamının hissiyyatına toxunmaqla qəlbini pərişan edir və acığını tutdurur.

Əhalimizin hal və hissiyyatı bu gün o haldadır ki, şərəflə ölməyi qul və əsir olmağa tərcih edir və bunu deyil yalnız bir sözlə söyləyir, bəlkə bütün ağıl və qəlbi ilə dərk edib anlayır.

Təəsüflər olsun ki, bizim sosialist firqələrimizdən bəziləri ifrat dərəcəyə varıb da özgə çəkməsinin bizim boynumuz üzərinə minməsini sosializim şüarlarının hüsulundan [əmələ gəlməsindən] ədd [hesab] edib, bu gunə [bu cür] xilafi-insaniyyət yollarda işləməyi özləri üçün caiz [uyğun] bilirlər. İstiqlallarını can və başla saxlamaq yolunda hər bir fədakarlıqlarda bulunan qoca gürcü sosialistlərindən ibrət almaq istəməyən cavan sosialistlərimiz böyük səhvdədirlər. Belə səhv ki, onun nəticəsi nəinki sosializim fikrinə xidmət göstərməz, bəlkə bir millətin məhv və itlafına [tələf olmasına] səbəb ola bilər.

Biz ifrata varan cavan sosialistlərimizi bu gunə əməllərin sonki təhlükələrindən xəbərdar etməyi özümüzə borc bilirik və bunu deyirik ki, müstəqil yaşamayan bir millət içində ali fikirlər əmələ gələ bilməz. Sosializmi ali fikirlərdən əDD [hesab] edib də bunun intişarını [yayılmasını] Azərbaycan türk və islamları arasında arzu edirsinizsə, əvvəlcə çalışın ki, bu millət azad yaşamağa imkan bulsun. Zira hər bir tərəqqi və o cümlədən fikir tərəqqisi dəxi ancaq azad yaşayan millət içində nəşvü-nüma tapıb inkişaf edə bilər. Hətta internasional fikri dəxi müstəqil yaşayan millətlər arasından törəyən bir fikir ola bilər.

Hal-hazırda bizdən ötrü bolşevik hücumu və ya Denikin qaragüruh hücumu – ikisi də bir təhlükədir. İstiqlalımızı itirmək, azad ikən qul və əsir olmaq və ola bilsin ki, bilkülliyyə [tamamilə] yer üzündən yox olmaq təhlükəsidir. Heç vaxt demək olmaz ki, bolşevik istilası Denikin istilasından eyidir. Çünki o da, bu da bir millətin istiqlalını və azadlığını əlindən almaqdır. Biz onu da, bunu da təcrübə ilə görmüşük, viran edilmiş ima-

rətlərimiz, talan olmuş malımız və günahsız yerə tökülmüş qanımızla imtahanlardan keçirmişik və bunu da hər bir sinifimizdən artıq demokrat və füqərayi-kasibə sinifimiz görüb və hiss edibdir. Özgə millətlərdən olan bolşevik hakimlərinin "ədalət" və "mürüvvət"indən hamıdan artıq zərər çəkən türk və islam füqərayi-kasibəsi [proletariatı] olduğunu heç bir insaf əhli dana bilməz. Bu füqərayi-kasibəni təkrar cəbir və zülüm pəncəsi altına verməkdə nə böyük fikir və nə ali məqsəd ola bilər? Zənn etmirəm ki, bu cürə "ali" fikir və məqsədlərə Azərbaycan türk və islamları içində müzahirət göstərən [dəstək verən] olsun!.. Bunun tərəfdarı ancaq bizim zillət və rəzalətimizi istəyənlər içində ola bilər...

İştə, istiqlalımıza qarşı hazırlanmada olan sui-qəsdlərdən özümüzü qorumaq müqəddəs vəzifəmizdir. Dördgöz olub da hər bir şübhə iqaz edən [oyadan] keyfiyyətə diqqət yetirməliyik və əlaqədar olan dairələrin diqqətini cəlb etməliyik ki, bu gunə sui-qəsdlər ibtidada [başlanğıcında] kəşf edilib böyüməyə imkan bulmasın.

İçimizdə olan düşmənlərimizin təhlükəsi xaricdə görünən düşmənlərinkindən daha zərərlidir. Xaricdə duranı görürük, lakin içimizdəkiləri hər dəfə görmək mümkün olmayır. Bunlar əlaltı işlər görürlər və bizə qarşı qəflətən hücumlar və şəbxunlar [qəfil basqınlar] hazırlayırlar.

Bu yolda hökumətimiz üzərinə böyük vəzifələr tərəttüb edir [düşür] ki, onlardan biri də əzcümlə [o cümlədən] budur ki, məmləkətimiz qapısı açıq məscid halında qalmasın ki, oraya Allah bəndələri ilə bərabər şeytana sitayiş edən, əyri və oğrular dəxi girə bilsin. Keçmiş işlərdə ləkəli olanları və söz və əməlləri ilə şübhəli görünənləri məmləkətimiz daxilinə buraxmamalıdır. Səhvən buraxılmışlar varsa tərd [qovulmalı] və ixrac etməlidir. Gürcülər və ermənilər öz məmləkətlərində böylə edirlər. Biz nə üçün etməməliyik? Bir halda ki, böylə rəftara böyük bir haqqımız vardır.

Xülasə, istiqlalımızı müdafiə və mühafizə yolunda dördgöz olub da xarici və daxili düşmənlərimizi dəf üçün hər bir tədbirə bilatərəddüd təvəssül etməlidir [tərəddüdsüz əl atmaq lazımdır].

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

* Peştədən xəbər verilir ki, Müttəfiqlər Komitəsinin başçısı Romaniya ilə Macarıstan sərhədi barəsində Macarıstan Rəisi-vükəlasına [Baş nazirinə] yeni ultimatum təqdim etdikdən sonra Kabinə istefaya çıxmış, Macarıstan sosialist firqələri hökuməti əllərinə alaraq şəhəri idareyi-əsgəriyyə [hərbi rejim] altında elan etmişlərdir.

* Moskva – Bolşevik qəzetəsinin məlumatına görə, Finlanda qoşunlarının komandanı general Mannerheym İngiltərə və Fransaya müraciət ilə təvəqqe edir ki, Petroqradı işğal etməyə ona müsaidə verilsin.

* Berlindən çəkilmiş olan teleqraflarda denilir ki, Münxendə iğtişaş [qarışıqlıq] artmaqdadır. Orada bolşeviklərlə sosialistlər arasında hökuməti yek-digərinin [bir-birinin] əlindən almaqdan ötrü mübarizə davam edir. Drezdendə üsyan edənlər bir naziri öldürmüşlərdir.

* Şura Hökumətinin simsiz teleqraf xəbəri: Petrozavodsk dairəsində 3 Qırmızı qoşun alayı Belı qvardiya [Ağ qvardiya] qoşunlarının tərəfinə keçmişdir. Yaxında olan şura qoşunları 45 verst cənub tərəfinə çəkilmişlərdir.

* Bolşevik kruvazeri [kreyseri] bütün nəfəratı ilə bərabər İngiltərənin tərəfinə keçib bolşeviklərə qarşı əməliyyati-hərbiyyəyə başlamışlardır.

* Sibirdə olan ingilis komissarı amiral [admiral] Kolçaka ingilis hökumətinin notasını təqdim eyləmişdir. Bu notada İngiltərə amiral Kolçakın Rusiyada ali hakimliyini təsdiq edirmiş. İngiltərə arzu edir ki, Rusiyada ümumun etibarına məzhər [nail] olan hökumət təşkil edilsin. Ancaq bu sayədə Rusiya da sair millətlər cərgəsində sayılıb da mədəniyyət yolunda çalışa bilərlər.

* Moskva – Bu axır günlərdə əhalinin halı son dərəcə həyəcanlıdır. Bolşevik hökuməti özünü itirmişdir. Qətl, qarət və təcavüz artmaqdadır.

## SÜLH ƏTRAFINDA

**Azərbaycan heyəti**

Alınan məlumata görə, indiyə qədər İstanbulda qalan Azərbaycan sülh heyətinə İstanbuldan əzimət etmək [yola düşmək] icazəsi verilmişdir. Azərbaycan heyətinin bir hissəsi Parisə azim olmuşdur [getmişdir].

**Dağıstan heyəti**

Sülh Konfransına getməkdə olan Dağıstan heyəti İstanbuldan Parisə azim olmuşdur.

**Alman nümayəndələri**

Bakı siyasi məhafillərində [dairələrində] alınan məlumata görə, alman nümayəndələri Parisə varid olub [çatıb], Sülh Konfransı iclaslarında iştirak etməkdədirlər.

**Dardanel**

Royter ajansına xəbər verilir ki, müxtəlif bəhri [dənizçilik] və hərbi komissiyalar bugünlərdə Dardanelə əzimət edəcək və 1915-ci ildə orada olan Türkiyə istehkamatın[ın] hal-hazırda nə halda olduğuna və Gəlibolu müharibəsi ilə əlaqədar olan sair məsələlərə bələd olaraq Parisdə daklad edəcəkdir.

* Parisdən xəbər verilir ki, 13 bitərəf dövlətin nümayəndələri Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] komissiyası tərəfindən qeyri-rəsmi surətdə komissiyaya qəbul edilmişlərdir. Cəmiyyəti-Əqvam nizamnaməsinin 15 maddəsinə baxılmışdır. Bitərəf dövlətlər nümayəndələri bəzi maddələrin dəyişməsini təklif etmişlərdir. Zənn edilir ki, sair maddələr sabah müzakirə ediləcək, sonra Cəmiyyəti-Əqvam təklif edilən maddələrin təbdilatı [dəyişdirilməsi] məsələsinə keçəcəkdir.

* Roytera xəbər verilir ki, Ali İqtisadi Şura müttəhidülrəy [yekdilliklə] qərar qoymuşdur ki, Avstriya-Macarıstan üzərindən abluka [blokada] qaldırılsın. Bu

qərar Ali Şurayi-Hərbiyyənin mülahizəsinə [qiymətləndirməsinə] təqdim edilmişdir.

* London – Amerikanın Bəhriyyə naziri Daniels Parisə varid olmuşdur [getmişdir]. Mümaileyh [adı çəkilən şəxs] sülh müzakiratında [müzakirələrində] iştirak edəcəkdir.

* Berlin – "Lokal-Anzeyqer" qəzetəsinə Vyanadan yazılır ki, Müttəfiqlər komissiyasının başçısı Volviks demişdir ki, Macarıstanın başqa nöqtələrindən bir neçəsi də işğal edilməlidir. Zira Macarıstan hökuməti bolşevizmlə mübarizə etməkdən acizdir.

## QƏZETƏLƏRDƏN

### Almaniya mətbuatı

"Ditşe çaytunq" qəzetəsi qayət maraqlı bir məqalə yazaraq bəzi alman dairələrinin halını təsvir edir. Qəzetə deyir ki:

"*Bizi həqiqətdə olduğumuzdan zəif və məğlub göstərmək üçün Etilaf [Antanta] dövlətləri hər nə qədər ciddü-cəhd edib çalışsalar da, heç kimi aldada bilməzlər.*

*Hal-hazırda Almaniya o dərəcədə qüvvətlidir ki, heç bir vaxt böylə olmamışdır. Bizim qiymətli qanımız nahaq tökülməmişdir. Bu müharibə tərəfindən puç edilən yeganə bir şey varsa, Rusiya çarizmi və onunla bərabər Rusiya-Fransa ittifaqıdır. Fransanın bu tələfatını dünyanın heç bir mükafatı ödəyə bilməz. Bunun sədəməsi [zərbəsi] də Fransaya yetəcəkdir. Fransız ordusu da bizim ordumuz kimi dava etmək istəməyir."*

Məqalə müəllifi Amerikada bəzi hadisələr vüqu bulduğunu [baş verdiyini] göstərir və deyir ki:

*"Amerikada öylə dəhşətlər və qiyamətlər qopacaq ki, Almaniyanın dəhşətinə əbədən [əsla] bənzəməyəcək. Hal-hazırda Almaniyanın başlıca vəzifəsi beynəlmiləl qarğaşalığa qarşı hazırlıqdır. Məğlub olmadığımızı isbat edən sabatımız, möhkəmliyimiz, iftixarımız, şücaətimiz bizə müsaidə verəcəkdir ki, düşmənə həddini bildirək və gələcəkdə Almaniya müsabiqəsinin xətrəsini [təhlükəsini] onlara hiss etdirək."*

* Kiyev – Moskvadan verilən xəbərlərə nəzərən Rusiya Xarici İşlər komissarı Almaniya Xariciyyə nazirindən bir nota almışdır. Notada nazir xahiş edir ki, Berndə olan Sosialist Konfransı nümayəndələrindən 10 nəfəri, o cümlədən Almaniyanın nümayəndəsi Kautski, Fransa nümayəndəsi Lonqe, Avstriya nümayəndəsi Bauer, İngiltərə nümayəndəsi Henderson Moskvaya buraxılsınlar. Konfrans üzvlərindən Rubanoviç və Akselrod Rusiyada bolşeviklərin hərəkətlərindən konfransa məlumat verməl追 ərindən dolayı bu heyət Rusiyaya gəlir ki, həqiqətiəhvala bələd olsun. Çiçerin Berlinə teleqrafən xəbər verir ki, onun tərəfindən heyətin gəlməsinə heç bir mümaniət [maneçilik] yoxdur.

* Vyanadan verilən məlumata nəzərən Almaniya imperatoru Vilhelm ailəsi ilə bərabər İsveçrəyə əzimət eyləmişdir [yola düşmüşdür].





## DAĞISTAN ƏHVALI

### Konfransda

Azərbaycan hökuməti nəzdindəki Dağıstan siyasi nümayəndəsi Əlixan Kantemirin aldığı məlumata görə, Dağıstan məsələsi haqqında Qroznıda Müttəfiq dövlət nümayəndəsi general Briks, Könüllü ordu nümayəndəsi general Denikin və Dağıstan hökuməti nümayəndəsi Qaplanov və qeyrilərinin iştirakı ilə cəm olan Konfrans Dağıstan hökuməti ilə Denikin arasında qəti-münasibat ilə [münasibətlərin kəsilməsi ilə] qurtarmışdır. Çünki Denikin tərəfindən təklif edilən şərait [şərtlər] Dağıstan İttifaqını və onun istiqlaliyyətini məhv etməkdən ibarətdir ki, Dağıstan hökuməti də bu təklifi qəbul etmək istəməmişdir. Bu əhvalatdan sonra Denikin məşhur irticapərəst general [Erisxan] Əliyev başda olmaq üzrə özlərini yalandan nümayəndə adlandıranlarla müzakirata [müzakirələrə] başlamışlar. Bu nümayəndələr də Parlaman, hökumət yaxud başqa bir ictimai müəssisə tərəfindən bu işə vəkil edilməmişlərdir. Verilən məlumata görə, Dağıstan hökuməti Denikini bilkülliyyə [tamamilə] öz torpağından qovub çıxarana qədər müharibəni davam etdirəcəkdir.

### Denikin əleyhinə protestolar

Qroznı konfransının müvəffəqiyyətsizliyi münasibəti ilə Çeçenistan və İnquşistanda izdihamlı ictimalar [yığıncaqlar] və mitinqlər olub, Denikini vətən daxilindən çıxarana qədər ümumi istehzari-əsgəriyyə [hərbi səfərbərlik] və mübarizə lazım olduğu haqqında qətnamələr çıxarılmışdır.

## DAĞISTAN GÜNÜ

Vətəndaşlar! Mədid [uzun] bir müddətdir ki, qara generalın başdan-ayağa müsəlləh [silahlı] ordusunun qızıl pula sitayiş edən xədəmələrinin [xidmətçilərinin] zülüm və sitəm oxlarına dağıstanlı qardaşlarımız o yüksək və geniş sinələrini qəhrəmanənə bir surətdə sipər edib çalınan zərbələri cansipəranə rədd edirlər!

Vətəndaşlar! Yəqininiz olsun gərək ki, tərəfeyinin [iki tərəfdən] biri qayət mühib [qorxulu, təhlükəli], münzəm [nizamlı] və müsəlləhdir [silahlıdır]. O biri isə pək zəif və biçizdir [kimsəsiz, yoxsuldur] və əlaməti-zə'f [zəifliklərinin nişanəsi] olaraq pak hürriyyəti, münəzzəh [təmiz, saf] istiqlaliyyəti qorumaqdan ötrü dağıstanlı qardaşlarımız cümlə qadınlarını belə silah altına almaq məcburiyyətində qalmışdırlar. Qonşu qardaşlarımız düçar olduqları fəlakətə sakit və samit [səssiz] durub baxmaq olmaz. Bu tövr rəftar nəinki qardaşlıq, hətta insanlıq vəzifəsinə belə sığışmaz. Bir an unutmamalıyız ki, bu gün Dağıstan qəhrəmanları üzərinə hücumavər olan [hücum çəkən] qaragüruhlar, yarın bizim hürriyyətimizə, istiqlaliyyətimizə, irz və namusumuza bişəkk və şübhə təcavüz etməyə amadə [hazır] olacaqlar. Bu əsəfnak vaqeənin [təəssüf doğuran hadisənin] əlacını pişəzvəqt [qabaqcadan] aramaqdan ötrü paytaxtımızda mövcud şəqilərə [quldurlara] – denikinçilərə əlverişli zəminənin məhv və nabud [yox] olmasına təni-vahid [vahid bir bədən] kimi çalışalım.

Binaənileyh [ona görə], Tələbələr Komitəsi azadəlik yolunda qəhrəmanənə

çalışan dağıstanlı qardaşlarımıza maddi və mənəvi yardımda bulunmaq üçün işbu may ayının 3-də "Dağıstan günü" tərtib verib paytaxtımızda və ətraf mahallarda cə'bələrlə [sandıqlarla, qutularla] ianə toplayacaqdır.

Vətəndaşlar! Haydi, müstəqil Azərbaycan tələbəliyinin bu ilk qədəmini müttəhidülrəy [yekdilliklə] qarşılamalısınız ki, azəri türk tələbəsi arxasına aldığı ağır və müqəddəs vəzifənin ifasına lazımınca müvəffəq ola!

*Bakı Müsəlman Tələbələrinin Komitəsi*

## TÜRKİYƏDƏ

### Cəbəli-Lübnan məsələsi

Şamatda Beyrut həvalisində [ətrafında] Cəbəli-Lübnan adında bir məmləkət vardır. Cəbəli-Lübnan Türkiyənin vilayati-mümtazəsindən [seçkin vilayətlərindən] ədd [hesab] olunub, hakimi düvəli-hamiyə [himayəçi dövlətlər] tərəfindən namizəd olaraq göstərilən əşxas miyanından [şəxslər arasından] olmaq üzrə sultan tərəfindən təyin olunur və daxilən bir növ muxtariyyəti-idarə ilə idarə olunurdu. Bu kərə məzkur [adı çəkilən] Cəbəli-Lübnan namına Sülh Konfransına gedən Şükrü Qanem "Tan" qəzetəsinin yazdığına görə cəbəllilərin mətalibini [tələblərini] bərvəchi-ati [aşağıdakı kimi] bəyan eyləmişdir. "Tan"ın yazdığına görə:

Bir milyon suriyalının rəyi ilə Suriya Milli komitəsi namına gəlmiş olan Şükrü Qanem Fransanın himayəsi altında Suriyanın ittihadı [birləşməsi] davasını irəli sürmüşdür.

Müsyö Bliss əhalinin fikrini anlamaq üzrə Suriyaya bir beynəlmiləl heyət göndərilməsini istəmişdir.

Lübnanlıların müddəası şu üç əsaslı nöqtədə toplanmaqdadır:

1) Lübnanın istiqlalı;

2) Tarixi və təbii hüdudunun iadəsi [qaytarılması];

3) Fransanın müavinəti [köməkliyi].

Lübnan mürəxxəsəsi [nümayəndələri] məmləkətlərinin daima muxtar bir idarə altında bulunduğunu və bu muxtariyyətin bəzi vaxtlar tamamilə müstəqil bir hökumət halına belə irca edildiyini [çevrildiyini] isbat edəcəkdir.

Bundan başqa, yeganə rabiteyi-vəsayəti haiz olan [qəyyumluq əlaqəsinə malik olan] Türkiyənin də inhidamı [dağılması] üzərinə bu məhzur da [çəkiniləsi şey də] ortadan qalxmışdır.

Təbii və tarixi hüduduna gəlincə, bu türklər tərəfindən Lübnana bəxş olunmuş olan xütut [xətlər] dairəsində bulunmaqdadır və bu hüdud olmaqsızın Lübnan yaşayammayacaqdır. Bundan başqa, bu hüdud daxilindəki əksəriyyəti-əziməni [böyük əksəriyyəti] təşkil edən əhali Cəbələ iltihaqı [birləşməyi] arzu etməkdədir.

Bundan başqa, lübnanilər kəndi başlarına icrayi-hökumət edəmməyəcəklərini bildiklərindən və təqdir etdiklərindən, başqa bir hökumətin himayəsinə ehtiyac göstərməkdədirlər. Bu hökumət də ancaq Fransa ola bilər. Çünki Lübnan ən müşkül zamanlarında müavinəti Fransadan almış, hürriyyəti Fransadan istehsal eyləmişdir.





Lübnan mürəxxəsləri bu haqlarının heç birindən vaz keçməyəcəklər və istiqlallarından heç bir şey tərk etməyəcəklərdir. Lübnanın taqındığı bu vəziyyət ilk günündən bəri türklərin intiqamını dəvət eyləmiş və əhalisinin yarısından fəzləsi imha [məhv] edilmişdir.

Lübnan mürəxxəsi Suriya ilə Hələbin mənabeyindən [mənbələrindən] bəhs edərkən aradakı münasibətin daha ziyadə səmimiləşməsini arzu etdiyini söylədikdən sonra, bunun ancaq bu şərtlə – Suriyanın Fransanın iştirakını istəmək şərtilə qabil olacağını əlavə etmişdir.

Sülh Konfransına tövdi edilən [verilən] bu bəyanat Lübnanın beş mürəxxəsi tərəfindən imza edilmişdir.

### Əhməd bəy Ağayevin həbsi ərtrafında

İstanbulda Türkiyə hökuməti tərəfindən həbs edilən Əhməd bəy Ağayevin azad edilməsi əsilsizdir. İstanbuldan gələnlərin rəvayətinə görə Əhməd bəy hələlik həbsdədir. Əvvəlcə Əhməd bəylə görüşməyə icazə verilirmiş, lakin indi heç bir məhbusla, o cümlədən Əhməd bəylə görüşməyə yol verməyirlər. Türkiyə qəzetələrində yazılan bir xəbərə görə, bugünlərdə Əhməd bəy fövqəladə hərbi məhkəməyə gətirilib danışdırılmışdır.

* İstanbul qəzetələrində oxunduğuna görə "İttihad və tərəqqi" firqəsinə mənsub bulunan mövquflardan [məhkumlardan] Xariciyyə naziri Əhməd Nəsimi bəylə Qarahisar məbusu Agaoğlu Əhməd bəy təhtəlhifz [mühafizə altında] həbsxanadan Divani-Hərbə [Hərbi Məhkəməyə] göndərilmiş və heyəti-təhqiqiyyə tərəfindən soruşdurulmuşlardır.

### Yunanıstanın Türkiyədən tələbi

Atinadan İstanbul qəzetələrinə xəbər verirlər ki, Venizelos Sülh Konfransına bir müxtirə [yazılı qeyd] təqdim edib 1912-ci il Türkiyə-Yunan müharibəsində Türkiyə hökuməti tərəfindən tutulmuş olan yunan ticarət paroxodlarının zərərini tələb edir. Bu cür gəmilər 60-a qədərdir.

### Həbslər

İstanbulda Bolqariya xəstəxanasına yapışıq evlərin birində silah anbarı kəşf edildiyindən, bir çox adamlar həbs edilmişdir. Tutulanlar arasında Rusiyadan İstanbula gələn bir neçə arvadlar da vardır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Fəhlə Konqresi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, əsgəri iskələ [hərbi liman] dairəsi xidmətçiləri üç aydan ziyadədir ki, məvacib almayırlar. Binaənileyh [ona görə], ziyadəsincə üsrət [sıxıntı, çətinlik] çəkməkdədirlər.

Əsgəri iskələ əşyasına təyin edilmiş müzayidəyə [hərraca] Azərbaycan Hökuməti icazə verməmişdir. Halbuki Məsai naziri həzrətləri bəyan etmişdi ki, İngilis Komandanlığı icazə verərsə, müzayidə ola biləcəkmiş. Konqre rica etmişdir ki, bu məsələ həll edilsin.

Məsai Nəzarəti konqre heyəti-rüəsasına [rəyasət heyətinə] xəbər vermişdir

ki, təhrirən [yazılı surətdə] İngilis Komandanlığına müraciətən əsgəri iskələ əşyasına olan əlaqəni isticvabda bulunmuşdur [soruşmuşdur]. Cavab alınan kimi xəbər veriləcəkdir.

- Məsai Nəzarəti Kəsbkarlar İttifaqına [Həmkarlar İttifaqına] müraciətən məlum etmişdir ki, bir neçə dəfə xüsusi müşavirə təyin edilmişsə də, Kəsbkarlar İttifaqı nümayəndələri gəlmədiklərindən iclas iniqad etməmişdir [baş tutmamışdır]. Nəzarət rica etmişdir ki, nümayəndələrin vaxtlı-vaxtında iclasa gəlmələri haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Göyçaydakı qaçqınlar işləri müvəkkillərinin mükərrərən [təkrarən] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Naizrliyinə] müraciətən qaçqınlar üçün etdikləri təşəbbüsatlarından dolayı Ümuri-Xeyriyyə və Nafiə naziri Şamaxı nahiyəsi müfəttişinə müraciətən rica etmişdir ki, təcili surətdə qaçqınların siyahısını tərtib verməklə məhəllində [yerlərdə] ən çox ehtiyac hiss edilən ərzaq və mühimmatın [ləvazimatın] miqdarını Nəzarətə [Nazirliyə] bildirsin.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Şamaxı nahiyəsi müfəttişinə müraciətən təcili surətdə bərvəchi-ati [aşağıda göstərilən] nöqtələrdə iaşə məntəqələri güşadını [açılmasını] əmr vermişdir:

Kürdəmirdə 300 adamlıq;
Şamaxıda 500 adamlıq;
Mədrəsə köyündə lazımi qədər.

- Bakıdakı darüleytamların [yetimxanaların] ərzaq yoxluğundan əhvalı olduqca fənadır. Bir çox ətfal [uşaqlar] isə zəif olduqlarından yeməyə möhtacdırlar. Binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə naziri Ticarət və Sənaye Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, darüleytamlar üçün hələlik öz qiymətinə 50 put qənd buraxılsın.

## MİLLİ LİSANIMIZDAN İSTİFADƏ EDƏLİM

Təbiidir ki, bir qövmü məhv etmək üçün onu yek-digərindən [bir-birindən] parçalamaq lazımdır. Milləti parçalamaq üçün də ibtida [ən başda] lisanını parçalamaq, saniyən [ikincisi] milliyyətini, mətbuatını, ədəbiyyatını əzməyinə iqtiza edər [əzməyi zəruri edər]. Həqiqətən türk millətinin yek-digərindən uzaq olmaları, saniyən bəziləri əcnəbilər boyunduruğu altında yaşamaları türk millətinin möhtəvi olaraq [ehtiva edən] milli lisan və ədəbiyyata malik olmalarına mümaniət etmiş [mane olmuş]. Nasıl ki, türk uluslarının bəziləri qərbdə, bəziləri şimalda və digərləri isə cənubda yaşamaları biri-birindən uzaq və vəsilələri [əlaqələri] pək dərəcə az olduğundan, getdikcə lisan etibarı ilə ayrılacaqlar və müstəqil ədəbiyyatlara malik olmaları da bu iftiraqı [ayrılığı] çabuqlaşdıracaqdır. Böylə ki, biz, yəni Azərbaycan türkləri rus hərsi [mədəniyyəti] ilə pərvərdə olduğumuz [bəsləndiyimiz] halda, Osmanlı türkləri də fransız yaxud alman hərslərindən feyz alırlar. Böylə olan surətdə türklük hərs və mədəniyyət etibarı ilə də iki mütəbaid [bir-birindən uzaq] parçaya ayrılır deməkdir.





Filhəqiqə [doğrudan da], türk ulusları posta, teleqraf və mətbuat kimi təarüf [tanışlıq] vasitələrinin mövcud olmadığı zamanlarda lisan və ədəbiyyat etibarı ilə biri-birindən uzaqlaşa bilərlərdi. Nasıl ki, vaxtilə Səlcuq və Cağatay türkləri eyni zamanda biri-birindən xəbərdar olmaqsızın kəndilərinə məxsus bir ayrı ədəbiyyat təsis etmişlərdi. Türklərin islamiyyətdən əvvəl yek-digərindən xəbərsiz olaraq müxtəlif dinlərə girmələri, müxtəlif yazılar qəbul etmələri də bu uzaqlığın və təmassızlığın nəticəsi idi. Məmafih [bununla belə], bu uzaqlaşma bütün türklərin məhza qövmiyyət duyğusunun ilhamı ilə müttəhidən [birgə] islamiyyəti qəbul etmələrinə mane olmadı. Fəqət bir zaman gəldi ki, yenə uzaqlığın, təarüfsüzlüyün təsiri ilə türklərin bir qismi farslara uyaraq şiəliyə meyl etdilər. Fəqət bu gün qövmiyyət duyğusunun məzhəb ixtilafı[nı] bərtərəf etməyə [aradan qaldırmağa] müvəffəq olduğunu görməyirmiyiz?

Əvət, cəhalət dövrü bir qaç əsr daha davam etmiş olsaydı, türklər də lisan və qövmiyyət etibarı ilə bir çox millətlərə ayrılacaqdı. Nasıl ki, slavlar, latınlar və kürdlər qədim zamanlardan bəri mütəəddid [çoxsaylı] qövmlərə ayrılmışlardı. (Bu gün kürdlər bir-birinin lisanını anlamayan beş qövmdən mütəşəkkildir.)

Fəqət türklərin lisanca uzaqlaşma[ma]larına türkcə kitabların uluslar arasında tədavül [dövr] etməsi də başlıca bir səbəbdir. Bir tərəfdən cağatayca divanlar qərb türkləri tərəfindən oxunur, digər cəhətdən də osmanlıca əsərlər sandıq[-sandıq] Krıma, Kazana, Qafqaziyaya, Türküstana götürülürdü. Osmanlıca kitabların intişarı [yayılması] bilxassə türk təarüfündən [türklərin bir-birini tanıyıb qaynaşmasından] sonra şiddət buldu. İbtida [əvvəla] Krımda və Qafqaziyada İstanbul ədəbiyyatı təqlid edilməyə, İstanbul türkcəsinə yaxınlaşmağa başlandı. Sonra bu hərəkət Kazana və Türküstana da sirayət etdi [yayıldı].

Fəqət bu sırada islamiyyətin düşmənləri cəmi dünya türklərinin yek-digərinə yaxınlaşmasına mane oldular. Ələlxüsus lisan səbəbincə türklərin haqqında olmazın təzyiqatlar icra etdilər. Fövqdə zikr etdiyimiz təzyiqatları isbati-vücud etmək üçün şu söylədiyimiz təzyiqlərdən birisini burada yazmalıyız. Böylə ki, bəzi hökumətlər müxtəlif türk uluslarının biri-birini tədris və tərbiyə etməsinə mane olmağa başladılar. Hər ulusa məxsus kitabların digər ulusların məktəblərində oxunması mən [qadağan] olundu. Bundan başqa, müsəlmanlar üçün hər mahaldakı ana dilinin tədris lisanı olması iləri sürüldü. Bütün bu təzyiqlərdən məqsəd türk millətini mütəəddid qövmlərə parçalamaq olduğu açıqdan-açığa anlaşıldı. Bir qövmü məhv etmək üçün parçalamaq lazımdır, necə ki, fövqdə [yuxarıda] zikr olundu. Milləti parçalamaq üçün də ibtida lisanını parçalamaq iqtiza edir. İştə bu vasitələrlə türk lisanını parçalamağa mütəəddid ədəbiyyatlar təşəkkül etməyə başladı.

Şimdiki halda Rusiya türklərində iki cərəyan var. Birincisi, məhəlli [yerli] ləhcələrə qiymət vermək, ikincisi İstanbul türkcəsini milli lisan olaraq qəbul edib bu lisandan istifadə etməli. Birinci cərəyana qapılanlar heç şübhəsiz bilməksizin türklük düşmənlərinin əkməyinə

yağ sürənlərdir. Həqiqi bir türk vicdanı ilə düşünənlərsə ikinci cərəyana meyl edirlər.

Təbiidir ki, hər bir millət üçün paytaxt lisanı siyasi şana, ictimai bir ecaza malikdir. Böylə olan surətdə bizim cavan hökumətimiz Azərbaycanın da paytaxtı böylə bir milli lisana malik olmalıdır. Şimdi biz bütün cahan türkləri nerə lisanını qəbul edib ondan istifadə etməliyiz sorduqda, şübhəsiz ki, həpsimiz bir səslə biz fəqət İstanbul türkcəsini qəbul etməliyiz söyləyəcəyiz.

Şimdi baxalım türk və islam aləmində İstanbul nerədir? İstanbulun bir paytaxt ecazına malik olması yalnız Osmanlı türklərinə nisbətlə deyildir. İstanbul yeganə türk xaqanlığının paytaxtıdır. Bu səbəblə bütün türklərin qibləgahıdır. Bundan başqa İstanbul islam xilafətinin də məqərridir [qərar tutduğu yerdir]. O halda İstanbul milli ecazdan başqa, dini bir qüdsiyyətə də malikdir. İstanbul türkcəsinin bütün türklərcə milli lisan olması və ecaz və qüdsiyyətin lisana da intiqalı [keçməsi] dolayısıdır. Fəzlə olaraq İstanbul türkcəsi türk ləhcələrinin ən gözəli, ən işlənmiş, ədəbiyyat elmincə ən zənginidir. O halda, göstəriləcək maneələrə rəğmən İstanbul türkcəsini ədəbi lisan ittixaz [qəbul] etmək bütün türklər üçün milli bir vəzifədir, ifa edildiyi zaman bütün türklər lisan və ədəbiyyatda müştərək və tək bir millət halına girər. Bütün dünya türklərinin yalnız bir hərsi [mədəniyyəti] olmalı və bu da kəndilərinin yaratdığı bir hərs olmalı. Türk almanlaşdıqca yaxud fransızlaşdıqca və yaxud ruslaşdıqca parçalanar. Fəqət türkləşdikcə milli vəhdəti daha ziyadə qüvvətlənər. Xülasə, İstanbul dilinin milli lisan ittixazı Avropa mədəniyyəti içində bir türk hərsi ibdasına [yaradılmasına] çalışması bir türk millətinin yeni təsisinə xadim olacaqdır.

*Fəttah əfəndi Seyidəlili*

## RUS TİCARƏTİNİN TARİXİ

### Katerina və onun varisləri dövrü

Firəng ədəbiyyatı ilə tərbiyələnmiş İkinci Katerina rus sənaye və ticarətinin sərbəst və azadəliyini istəyənlərdən idi. Bunun məsləkindən istifadələnmiş əsilzadələr fabrikalar açıb, ixtiyarlarında bulunan kəndliləri də oradaca cəbrən [zorla] işlədirlər. Böylə ki, 1809-cu ildə xəzinə üçün mahud toxuyan 98 fabrikanın 12-si əcnəbilərə, 12-si də tacirlərə və qalan 74-ü birdən dvoryanlara təəllüqü [bağlılığı] var idi.

Əl işi ilə məşğul olanlara bəzi mülatifə [lütfkarlıq] və müsaidə göstərildiyi üçün fabrika məhsulatı ilə bərabər əl ilə görülmüş işlərin də mətası [ticarət məhsulu] ticarət dairəsində artmağa başlayır. Buna hökumət müsaidəsindən başqa sair şeylər də bais olmuşdur ki, ümdələri üçdür:

1) Rusiyada cərəyan edən uzun qış günləri və gecələri əkin işlərini qurtarıb da evində bikar qalmış kəndliləri bir iş görməyə vadar edir.

2) Şəhər fabrikalarında işləyən əmələlər [fəhlələr] evlərinə, kəndə qayıdarkən öyrənib bildiyi sənəti burada işlətmək üçün fabrika misalında balaca kargahlar [dəzgahlar] düzəldib arvad-uşaqlarına da işbu sənəti təlim edirlər. Odur





ki, az bir vaxtda bir çox kəndlərin camaatı məhz kargahlıq və əl işi ilə güzəran etməyə başlayır.

3) Kəndlilərin zəhmətindən müftəcə istifadə etmiş mülkədarlar bir çox kəndliləri Maskov [Moskva] və Peterburq şəhərlərinə göndərirlər ki, orada ənvai [müxtəlif] sənətlərdən öyrənib kəndə qayıdarkən mülkədarların ənvai sənətkarlığa olan ehtiyaclarını da rəf etsinlər [aradan qaldırsınlar].

İştə, bu səbəblərə məbni [istinadən] rus kəndliləri arasında əl işləri və əl sənətləri intişar tapıb [yayılıb] sürətlə artır.

İkinci Katerinanın dövründə Azak [Azov] və Qara dənizin şimali cəhətləri Krım qitəsi ilə bərabər tamamən rus məmləkətinə ilhaq olunur [birləşdirilir]. Bu ilhaqatdan sonra rus vaporları [gəmiləri] Osmanlı sularında asudəliklə gəzib-dolaşaraq Yevropa iskələlərinə [limanlarına] mal daşıyırlar. Bundan əlavə, təzə alınmış yerdə şenlik və abadanlıq az olduğu üçün buranın bir çox cəhətini [yerlərini] Katerina qraflara və knyazlara bağışlayır. Bu şərtlə ki, bu cənablar da öz kəndlilərini buraya köçürüb təzə kənd və qəsəbəçələr salsınlar. Rus mühacirlərinə kifayət etməyərək və bu yerləri daha sürətlə məskun etmək üçün İkinci Katerina 1763-cü ildə Yevropa mühacirlərini bir çox müsaidələr vədəsi ilə buraya dəvət edir. Yevropadan hicrət etmişlərin arasında ən çoxu alman tayfaları olur. Bunlar güruh-güruh [dəstə-dəstə] köçüb Yekaterinoslav, Xerson, Tavriya, Peterburq və Saratov quberniyalarında gözəl kənd və qəsəbələr saldılar.

Alman mühacirləri boş qalmış yerlərdə məskun olaraq ziraətin [əkinçiliyin] ən mükəmməl üsulunu da işlədirdilər. Lakin bu üsullar rus kəndlilərinə heç də sirayət etmədi [keçmədi]. Bunun da səbəbi biçarələrin mülkədarlar əlində zənciri-əsarətlə yaşamaları idi.

O vaxtlar ticarətdə işlənən pulların mərufu [məşhuru] mis pullar idi. Lakin bunların ağırlığı nəqliyyata [daşımağa] yaramadığı üçün, Katerina hökumətini düşündürür və buna çarə olaraq əskinaz (ассигнация) pulları icad olunur. Yeni pullara tacirlər tərəfindən hüsn-rəğbət göstərildiyi üçün və bir də Osmanlı müharibəsinə güclü pul sərf olunduğuna binaən [görə], əskinaz pulları qanundan artıq və həddən ziyadə kəsilmişdir (156 milyon yarım). Odur ki, pulun kursu tənəzzül etməyə başlayır. Məsələn, əskinaz manat əvvəl 98, sonra 87 və axırda da 68 qəpiyə gümüş pula verilir. Pulun tənəzzülü yenə bir tərəfdən vergilərin artmasına və üçüncü tərəfdən də əhalinin müflis düşməsinə başlıca bir səbəb olur.

1772-ci ildə məşhur fabrikçi Demidovun nəvəsi məxaricinə birinci dəfə olaraq Maskov şəhərində ticarət məktəbi açılmışdır.

Katerina dövründə rus ticarəti beş dəfə artıq tərəqqi göstərmişsə də, yenə xarici ticarət holland və ingilislər əlində qalıb getmişdi.

Katerinanın oğlu Pavlus əcnəbi tacirlərini həvəsləndirmək üçün Qara dəniz səvahilində [sahillərində] gömrüksüz iskələ (порто-франко) tərtib verdilər. Bunun ziddi olaraq Birinci Aleksandr "kontinent üsulu"nu (континентальная система) qəbul edib iskələləri ingilis tacirləri

üzünə bağlatdırdı. Bu üsulun qəbulu rus sənaye və ticarətinə böyük zərbə endirdi. O vaxta qədər Yevropaya göndərilən xammalların yolları bağlanaraq milyonlarca iskələ və anbarlarda tıxınaşıb dayandı, qiymətlər sındı. Bunun müqabilində Yevropa və müstəmləkat [müstəmləkələrin] malları gətirilmədiyi üçün getgedə azalıb qurtardı. Rus fabrikalarının bu müstəmləkat mallarına və ələlxüsus boyaq və rəng qisimlərinə zəruri ehtiyacları olduğu üçün və bunların tapılmadığı cəhətinə rus fabrikaları naəlac qalıb qapadıldı. Kənardan malı gəlmədiyi üçün xəzinənin gömrük mədaxilindən əli çıxdı. Bahalıq kəsbi-şiddət etdi [şiddətləndi], ticarət işləri dayanıldı, veksel kursu düşdü, daxili ticarət də zəifləşdi. Müharibələrə və ələlxüsus firəng müharibəsinə sərf ediləsi qədər xəzinədə nəqdiyyə olmadığı üşün və bu ehtiyacın rəfinə [aradan qaldırılmasına] çalışan hökumət hədsiz və hesabsız əskinaz pulları kəsdirmişdi (839 milyon). Kağız pulların tənəzzülü bir dərəcəyə qədər şiddət etdi ki, hətta bir rublə əskinaz 20 qəpik qiymətinə gedirdi. Əskinazın böylə şiddətli tənəzzülünə ümdə bais müharibə əsnasında Maskov şəhərinə qədər iləriləmiş firənglər olmuşdu. Bunlar Rusiyaya daxil olaraq milyonlarla saxta rus əskinazları kəsib camaat arasına dağıtmışdılar.

Bir tərəfdən pul pozğunluğu və o biri cəhətdən də ticarət fənalığı hökuməti böyük təşvişlərə düçar etmişdi. Çarələr aranırdı. Pul məsələsi devalvasiya üsulu ilə (девальвація) və ticarət məsələsi də fritreder üsulu ilə (фритредерская система) həll olunmuşdur.

Birinci üsul bundan ibarətdir ki, camaat arasında işləyən pulları yığmaq üçün yenidən qızıl pul yaxud təzə əskinaz pulları kəsdirilib köhnə pul ilə mübadilə olunur. Lakin köhnə pulun əyarı naqis və təzə pulunki isə tam hesab olunur. Məsələn, xəzinə təzə puldan 1 manat verib, əvəzində köhnə puldan 3 manat tələb edir. Bu üsulun intişarına [yayılmasına] rus hökuməti müvəffəq ola bildi. Səbəbi də o idi ki, bu vaxtlar (1830-cu illərdə) Ural dağlarında və sair mədənlərdə bir çox qızıl külçələri tapılmışdır. Bunlardan 170 milyonluq qızıl pul kəsdirilib əhalinin əlindəki 600 milyonluq köhnə əskinaz pullarına mübadilə olundu. Bundan sonra rus pulları tammül-əyar ilə [əyarına uyğun, əskiksiz] işləməyə başladı.

İkinci üsul fritreder – ticarət azadəliyi deməkdir.

Necə ki, yuxarıda zikr olundu, kontinent üsulu rus ticarətinin axırına çatmışdır. Tacirlərin imdadına çatmaq üçün kontinent üsulu fəsx [ləğv] və yerinə fritreder üsulu qonuldu. Qonuldusa da, rus ticarəti əvvəlkindən daha betər günə qaldı. Zira işbu azadəlikdən istifadə etmiş əcnəbilər Avropadan Rusiyaya o qədər fabrika malları gətirdilər ki, Rusiya fabrikalarından çıxmış mallar həm möhkəmlikcə və həm qiymətcə onlarla rəqabətə davam gətirəmmədilər. Odur ki, bir çox rus fabrikaları qapadıldı. Bundan sonra hökumət bəstə himayə üsulunu (протекціонизмъ) qəbul etməyə məcbur olur.

Birinci Nikolayın dövründə bir çox şəhərlər arasında şose yolları çəkilmişdir (5189 verst uzaqlığında).

Birinci dəmiryol 1838-ci ildə Peterburq ilə Pavlovski şəhərləri arasında çəkilmişdir. 48-ci ildə Vyana-Varşava və 51-ci ildə də Peterburq-Maskov yolları çəkilib qurtarmışdır. Bunun dalınca Peterburq-Varşava yolu başlanmışsa da lakin İkinci Aleksandrın zamanında tamam olub bitmişdir.

Birinci teleqraf xətti 52-ci ildə Peterburqla Maskov arasında çəkilmişdir. Rusiyada teleqraf xətlərinin sürətlə çəkilməsinə ümdə səbəb Krım müharibəsi olmuşdur və Birinci Nikolayın səltənəti əvaxirində [axırlarında] 6832 verst uzunluğunda teleqraf xətləri hazır olmuşdu.

Dəniz ticarət vaporları ancaq 30-cu illərdə çıxıb, 40-cı illərdə də Yevropa və Rusiya iskələləri arasında müntəzəm seyri-səfainə [gəmi naviqasiyasına] başlayır. Lakin bu gəmilərinin çoxu yenə də əcnəbi tacirlərinə təəllüqü [əlaqəsi] var idi.

Bu vaxtlarda rus sənayesi cümləsindən pambıq mənsucatı [toxunma malları] ən böyük tərəqqi göstərmişdir. 1824-cü ilədək hər yerdə ingilis pambıq malları işləyirdi. Lakin bu ildən sonra rus çiti birinciliyi qazanıb kamali-sürətlə rus şəhər və kəndlərində intişar tapdı [yayıldı].

Ural və Sibir mədənlərində altun və ağ qızıl (платина) kəşfi ilə bərabər gümüş, mis, qurşun, dəmir, çuqun və duz çıxarılması böyük tərəqqilər göstərmişdir. Qafqaz qitəsi Rusiyaya mülhəq olandan [birləşdiriləndən] sonra Bakı ətrafında neft mədənləri kəşf olunmuşdur. Lakin neftin tənvirat [işıqlandırma] üçün işlənilməsi 60-cı illərdən başlanmışdır.

Qənd və şəkər zavodları üçün cənub quberniyaları çox əlverişli olduğu üçün bu iş oralarda çox sürətlə intişar tapır. Böylə ki, 50-ci illərin əvaxirində [axırlarında] qənd və şəkər zavodlarının ədədi 400-ü keçmişdir.

19-cu əsrin əvailində [əvvəllərində] makinalı fabrikaların pula olan ehtiyacı bir dərəcəyə qədər böyüyür ki, az pullar ilə bunları idarə etmək daha mümkün olmayır. Sərmayədarlıq [kapitalizm] kəsbi-şöhrət edərək [məşhurlaşaraq, yayılaraq] rus ticarətində də möhkəm bir mövqe işğal edir. Kəndlilərin bu vaxta qədər zəhmətindən cəbrən istifadə etmiş fabrikaçılar bunun sərmayədarlıq üsuluna müzirr [ziyanlı] bir şey olduğunu anlayıb, bunu fəsx və əvəzində muzd və mükafat ilə azadə əmələləri [fəhlələri] iş başına çağırırlar. Söz yoxdur ki, öz xahişi və həvəsi ilə işləyən əmələlər əsarət və cəbrlə işlədilən yoldaşlarından daha artıq iş görüb faydalı olduqları üçün onlara imtiyazat və diqqət verilirdi. 1839-cu ildə Dövlət Şurası bu məsələni məhəlli-müzakirəyə qoyub [müzakirəyə çıxarıb] fabrika ixtiyarlarında Pyotrun vaxtından azadəsərliklə [sərbəst, azad] yaşamış əmələlərin buraxılmasına icazə verilir. Bundan istifadə edərək fabrikaçılar bunları azad və əvəzində muzd və ücrətlə [pulla] tutulmuş əmələləri dəvət edirlər. Fabrikaların bir çoxu necə ki, qabaqda yazıldı, dvoryanlar əllərində bulunurdu. Bunlar özlərinə məxsus kənd əhlini fabrikalarında cəbrən və məccanən [zorla və pulsuz] işlədirdilər. Lakin bu qanundan sonra muzdsuz əmələ əvəzinə muzdlu əmələ işlətmək təvanasız [gücsüz] dvoryanlara mümkün olmadığı cəhətinə bunların fabrikaları mürur ilə [vaxt keçdikcə] satılıb axırda hamısı tacir sinifinə qismət

olur. Bu minvalla dvoryanların rəqabətindən qurtarmış fabrikaçılar tamam ticarəti öz sinifləri əllərində birikdirmək [toplamaq] üçün bu dəfə kargahçı [dəzgahçı] və çərçi [xırdavatçı] kəndlilərin də rəqabətindən qurtarmaq istəyirlərsə də amma müvəffəq olammayırlar. Zira buna hökumət razı olmayıb, ticarət təzkirəsi [vəsiqəsi] (гильди) almaq şərti ilə 1812-ci ildə kəndlilərə də ticarətlə məşğul olmağa izin verir. Bundan sonra kəndlilər arasında kargahçılıq, çərçilik və əl işçiliyi çox sürətlə ürüyüb artır. Hətta bunlardan bir neçə fabrikaçılar da əmələ gəlir.

Kənd fabrikaçılığı əl işlərindən törəmişdir. Böylə ki, əl işlərindən başlayaraq sonra kargahçılıq, sonra da sadə makinalarda iş görüb axırda kənd komasını fabrikaya mübəddəl etmişlər [çevirmişlər]. Məşhur Morozov firmasının müəssisi [təsisçisi] Savva Morozov bir mülkədarın rəiyyəti olaraq sadə bir şərbaflıqdan [toxuculuqdan] başlayıb 1797-ci ildə balaca bir ipək bafta fabrikası açır və işi öylə sürətlə tərəqqi tapır ki, 1820-ci ildə 17 min manat nəqdiyyə ilə özünü mülkədarın rəiyyətliyindən qurtardıb, tüccar sinifinə daxil olur.

Fabrikaçılıqda ələlxüsus İvanov kəndliləri iştihar tapmışlar [şöhrət qazanmışlar]. 1825-ci ildə bunların 125 çit və bomazı fabrikaları var idi. Bu kəndlilərin sahibi qraf Şeremetyev tüccar sinifinə daxil olmaq niyyətində olunan kəndlilərin hər birindən 20 min manat pul alıb sonra azad edirdi və bəzi dəfə bu qədər pula da razı olmayırdı. Kənd fabrikalarına hökumət mümaniət [maneçilik] göstərməyirdi. Zira bunlardan xəzinə böyük xərac yığırdı. Dvoryanlar da mane olmayırdılar, çünki bunları sağmal inək kimi sağıb asudəcə dolanırdılar. Kənd fabrikaçıları sərmayədar fabrikaçılarla rəqabətə girməyib, əhli-kəsəbə və dəhat qisminə [kasıblara və kəndlilərə] lazım şeyləri yaparaq ucuzca qiymətlərə satırdılar.

Fabrikaçılar himayəçi tarifi (покровительственный тарифъ) özlərinə istinadgah qərar verərək işlərinin təkmili [kamilləşməsi] üçün çalışmayırdılar. Köhnə makinalara kifayət edərək Yevropadan daha müntəzəmlərini gətirtməyirdilər. Odur ki, bunların qonşuluğunda əl işləri, əl mətası davam edib dururdu. Fabrikaçılar əl işçilərindən bir çox şikayətlər verdilərsə də, hökumət bu şikayətlərə əhəmiyyət göstərmədi.

50-ci illərdə yarmarka ticarəti böyüyüb sənəvi dairəsi [illik dövriyyəsi] 44 milyondan keçmişdir.

Birinci ticarət təzkirəsi ilə iş görənlər 50 min, ikinci təzkirə ilə 20 min və üçüncü təzkirə ilə də 8 min manat pul verirdilər.

*Fərhad Ağazadə*

## HİLAL ÜZƏRİNDƏ SƏLİB

Dövri-istibdadın ən mənfur və mənhus [nəhs] siyasətlərindən biri dəxi ümum rus məbədləri qüllələrində hilal üzərinə səlib rəkz edilməsi [sancılması] siyasəti idi ki, bu siyasətlə hökumətimüstəbidə [istibdad hökuməti] ümum müsəlmanların din və milliyyətlərini təhqir edərək ürəklərini cərihədar edirdi [yaralayırdı].





Vaxtlar, əsrlər keçdi. Böyük Rusiya inqilabı başladı. Əskimiş və çürümüş olan heykəli-istibdad bütün əvan və ənsarı [köməkçi və qoruyucuları] ilə devrildi, yıxıldı.

Məzlum və məqhur [əzilmiş] millətlərin öz müqəddəratlarını özləri təyin və idarə etmələri dövrü gəldi.

Rusiya parçalandı. Hər bir qitədə [hissədə] mövcud olan millətlər öz idarələrini quraraq, öz ümuratlarını [işlərini] idarəyə başladılar. Həman qitələrdə mövcud olan rus ünsürləri dəxi əmrivaqe [fakt] qarşısında riza və təslimə, itaət və inqiyada [boyun əyməyə] məcbur oldular.

O cümlədən Azərbaycanda.

Azərbaycan istiqlalı elan və Parlaman dəvət edildi. Parlaman əzası miyanında [üzvləri arasında] sair millətlər kimi ruslar dəxi isbati-vücud [iştirak edirlər] və fəaliyyətdədirlər. Hökumət dairələrində isə türklər əqəliyyət [azlıq] təşkil edərək cümlə mühüm və ciddi məmuriyyətlər ruslar əlindədir. Demək olar ki, rus vətəndaşlarımız bizimlə bərabər Azərbaycan istiqlalını feilən təsdiq və qəbul edərək, ümurati-dövlət və hökumətdə [dövlət və hökumət işlərində] tam mənası ilə iştirak etməkdədirlər.

Bununla bərabər, Azərbaycanda kain [yerləşən] cümlə rus məbədlərinin qüllələrində hilal üzərindəki səlib [xaç] ibqa edilərək [olduğu kimi saxlanılaraq] müsəlmanların cərəhati-qəlbiyyələrini xəraş etməkdədirlər [ürəklərindəki yaraları qaşımaqdadır].

Xüsusən Bakıda mürur edən [keçən] fəsx [pasxa] gecələrində hilallar, üzərlərindəki səliblərlə bərabər qüvveyibərqiyyə [elektrik enerjisi] ilə tənvir və təzyin edilərək [işıqlandırılaraq və bəzədilərək] şəhərin müxtəlif nöqtələrində ən uca mövqelərdən birər zəhralud [zəhərli] nizələr kimi əhaliyi-islamiyyənin gözlərini hədəf etməkdədirlər.

Əcəba hər bir mühavərələrində [danışıqlarında] dövri-istibdadı və onun mənfur və mənhus siyasətlərini və qanunlarını zəmm, tənqid və təqbih edərək [pisləyərək, tənqid edərək və qəbahətlərini söyləyərək] ümurati-hökumətimizdə [hökumətimizin işlərində] iştirak edən və bizimlə müsaviyül-hüquq [bərabərhüquqlu] vətəndaş olmalarını iqrar [təsdiq] və iddia edən, hər an ədalət, müsavat, insaniyyət və mədəniyyətdən dəm vuran rus vətəndaşlarımız bunu düşünməyirlərmi? Bundan sonra isə vətəndaşları olan islamların din və milliyyətlərini təhqir etməmək arzusunda bulunurlarmı?

Əgər həqiqətən müsəlmanlarla müsaviyül-hüquq bir vətəndaş olmalarını və onların ürəklərini din və milliyyətlərini təhqir edici əfal və hərəkat [işlər və hərəkətlər] ilə cərihədar etməyi [yaralamağı] xoşlamayırlarsa, o vaxt məbədlərinin qüllələrindəki səliblərin təhtindən [altından] hilalları götürərək yalnız öz əlaməti-diniyyələri [dini nişanları] olan səlibi ibqa etməyə [saxlamağa] müvəzzəf [borclu] deyildirmilər?

O vaxt, yəni böylə təşəbbüsati-nazikanələr [nəzakətli addımlar] gördükdə islam vətəndaşları ilə mabeynlərində [aralarında] nə qədər təzyidi-məhəbbətə [məhəbbətin artmasına] bais ola biləcəklərini təyin və təqdir edirlərmi?

Əks-surətdə bu xüsusda düşünmək, tədabiri-lazimədə bulunmaq [lazımi təd-

birlər görmək] hökumətin öhdəsinə tərəttüb edəcəyi [düşəcəyi] məlumdur. Camaat isə bir vaxt gələcəkdir bunu hökumətdən tələb edəcəkdir. Həm də müsirranə [israrlı] bir surətdə tələb edəcəkdir. Zira islam əqidə və ehkamınca türklər və ümum müsəlmanlar heç bir millətin hissiyyati-diniyyə və milliyyəsini təhqir etməyi özləri üçün təcviz etməyərək [rəva görməyərək], hər bir millətin dini və milli hissiyyat və əlamatına [nişanələrinə] kamali-ehtiram və hörmət göstərməyi vacib bildiyi kimi, heç bir millətin dəxi onun hissiyyat və əlamati-diniyyə və milliyyəsini təhqir və təcavüz etməyə müsaidə etməz.

Burası hər kəsə məlum və əyandır ki, müsəlmanlar çox mütəhəmmil və sabirdirlər [dözümlü və səbirlidirlər]. Hər bir şey müqabilində səbir və təhəmmül edirlər [dözürlər]. Fəqət dini və milli hissiyyatlarına təhqir və təcavüzə əsla səbir və təhəmmül edəmməzlər.

*Mim. Sin.*

## DAŞNAK QƏZETƏSİNİN ARZUSU

Daşnak firqəsinin "Vperyod" qəzetəsi 28[-ci] nömrədə "Yəzdan [tanrının] ədalət məhkəməsi" adlı baş məqaləsində guya İstanbulda Ənvər paşanın ermənilərin itlaf [tələf] edilməsinə dair teleqramı bulunduğunu və bunun dərhal Parisdə Beynəlmiləl Sülh Konfransına göndərildiyini dərc edir ki:

*"Beş sənə mürurunda [ərzində] ən şədid [şiddətli] və su yerinə qan cərəyan etdirməklə [axıtmaqla] davam edən müharibədə heç bir müharib [şavaşan] dövlət tərəfindən rəva görülməyən qanlılıq Türkiyə tərəfindən bütün erməni millətinə rəva görüldü və türk ermənilərindən başqa Türk Ordusu Qafqaza vürud etdikdə [gəldikdə] bu zülüm bura ermənilərinə də edildi. "Haqqın ədalət məhkəməsinə" vaxt gəldi. Kəndi qəhharlığı və cümlə beynəlmiləl hüququ nəzakətini təcavüz etmiş Vilhelm müstəhəqq [layiq] olduğu cəzaya amadədir [hazırdır]. Erməni qırğınına bais olan böyük türk paşaları İstanbulda birərbirər həbs edilib məhkəməyə verilməkdədirlər. Müttəfiqlərin ikiüzlü siyasəti sayəsində Qafqazda erməni qırğını icra edən canilər və onlarla birlikdə bu yolda hərəkət edənlər kəndi qalibiyyəti dövranını sürməkdədirlər. Dünkü çapğınlar [quldurlar] bu gün Qafqazın mütəaddid [müxtəlif] guşələrində "Xanlıq", "Cümhuriyyətlər" təşkil etmişlər. Məmləkətdə sülh və asayiş bərpa olduqca məzkur [deyilən] çapğınlar vahid bir hökumət nümayəndələri ədd [hesab] olunurlar..."*

Böylə bir laqqırtılar sonunda; *"Müttəfiqlərin göz önündə türk zabitanı [zabitləri] naməlum kötü bir məram üzrə müfrəzələr [silahlı dəstələr] təşkil etməkdə olduqlarını, mütarikə şürutunun [atəşkəs şərtlərinin] və Ali Müttəfiqlər Komanda[nlığı] əmrinin əksinə olaraq hələ Qars və başqa yerlər türklər tərəfindən təxliyə eyləmədiyi və Qarsda şimdi də bir qaç min türk əsgəri bulunduğu aşkar olduğunu" əlavə edərək; "Qafqaz gəlmə barbarlardan xilas edilib, bunların geriyə, kəndi məmləkətlərinə göndərilməsi, vəilla [yoxsa] burada qaldıqda Qafqaz millətlərinin mədəniyyəti-müqəddəratına qarşı bir məhzur [saqınca, qorxu] peyda etdiklərini" əlavə etməklə; "Qafqazda erməni qırğınına fitva verən və bu fitvaya əməl edib, Türkiyə burada qırğını icra etməkdə bulunanların cəzaya uğramaya məcbur olduqlarını" tövsiyə ilə "Bunu mədəniyyət aləminin insafı və Yəzdanın ədalət məhkəməsi tələb edir"* kəlmələri ilə qəzetə məqaləni təkmil edir [yekunlaşdırır].





Doğrudan da İstanbulda böylə teleqram bulunmuşmu və bulunmuşsa bu teleqram Ənvər paşa tərəfindənmi bir vaxt göndərilmiş yoxsa şimdimi inşa edilmiş? Bunu heç bir əqli-səlim [məntiq] sahibi qəvi [möhkəm] bir etiqadla söyləyə bilməz. Zira gözümüz önündə yüz dəfələrlə gördüklərimiz bizi böylə bir rəyə vadar edir. Və zənn ediriz ki, Fransa Sülh Konfransı yalnız ermənilərə zülüm edən kəsləri cəzalandırmaqla iktifa [kifayət] etməyib, beş sənə müharibə davamında Qars, Ərzurum, Batum, Trabzon, Bakı, Şamaxı, Naxçıvan, İrəvan, Zəngəzur və başqa yerlərdə islam əhaliyə qarşı rəva görülən zülüm sahiblərinə mükafat veriləcəkdir.

Gələlim məqalənin məzmununa. Bunu oxuyan bir zat "Yarəb, mən Azərbaycan torpağındamıyam və böylə isə oxuduğum məqalə Azərbaycan paytaxtı olan Bakıdamı çap edilmiş və yaxud Azərbaycan hökumətinə qarşı xüsumət [düşmənçilik] bəsləyən bir məmləkətdəmi çap olunur?" fikrindən kəndisini xilas edə bilməz. Yoxsa nasıl olur ki, Azərbaycan torpağında yaşayıb buranın ətməyi [çörəyi] ilə idarə edən bir kimsə öylə bir bihəyalığı qəbul edir ki, məmləkəti idarə edən bir hökuməti "çapğınlar və qırğınçılar" təsmiyə edir [adlandırır], ya "çapğın və qırğınçılar arxadaşı" deyə küfür söyləyir. Böylə bir vicdansız, qızıl bir dənini [alçağı] tədib etməyə [cəzalandırmağa] hökumət başqa bir çarəyə təvəssül [müraciət] etməyi kəndi vicdanına rəva görməyirsə, bunu məhkəməyə verib cəzalandırmağı da artıqmı hesab edir? Azərbaycandan başqa Mavərayi-Qafqazda [Zaqafqaziyada] Ermənistan və Gürcüstan cümhuriyyələri də vardır. Nasıl olur da böylə bir hərəkətə nə Gürcüstan, nə Ermənistanda yol verilmədiyi bir əsnada, olar-olmaz iftira və küfürlər Azərbaycana və Azərbaycan hökumət ərbabına [adamlarına] qarşı rəva görülür? Biz yəqin biliriz ki, nə Qarsda və nə də Qafqazın başqa bir yerində türklər qalmamışdır. Bunlar Qafqazı təxliyə etdikləri kimi, Qarsdan da çıxıb kəndi vətənlərinə azim oldular [getdilər]. Fəqət "Qarsda və başqa yerlərdə türklər qalmışlar və buralarda əsgər toplamaq fəaliyyətindədirlər" kimi iftiranı deməkdən Cənub-Qərb Hökumətini və Azərbaycanı Müttəfiqlər nəzərində müttəhim edib, məzkur [deyilən] yerlərdə əsgər təşkilatı işlərinə mane olsun mülahizəsi ilə böylə bir əsassız və aşkar yalan laqqırdıları nəşr etməklə [yaymaqla] Qafqazda islam əhaliyə müxalifət peyda etmək fikrini yürüdürlər. Aşnaların böylə fikirlərini eyicə anlayıb, onların böylə bir vicdansız çıxışlarına qarşı şədid bir tədbir ittixaz edilməlidir [şiddətli bir tədbir görülməlidir]. Vəilla [yoxsa] əski rus hökuməti vaxtından iftira və müzəvvirliyə [saxtakarlığa] adətkərdə olmuş aşnalar kiş-kiş ilə bizi rahat buraxmayacaqlar. Neçə sənələr dövründə islamlara qarşı kirvələrin yapdıqları hərəkət cümləmizin gözü önündədir.

*Məhəmməd*

## BAKI XƏBƏRLƏRİ

### Milli bayraqlar haqqında

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən rica etmişlər ki, bütün hökumət və camaat müəssisələri, məktəblər və qeyriləri, şəhərlərdə isə bütün ev sahiblərinin Azərbaycan milli bayraqlar[ı] almaları haqqında binagüzarlıq etsin [sərəncam versin]. Həmin bayraqlar bayram günləri və başqa təntənəli günlər vaxtında evlərin və hökumət, camaat müəssisələri binalarının üzərindən asılmalıdırlar.

### Balaxanı kooperativlərində

Cümə günü nisanın (aprelin) 25-də saat 4-də Balaxanı Kooperativ Klubunda (sabiq Balaxanı krujoku) Balaxanı dairəsindəki kooperativlərin idarə-təftiş komisyonu üzv və pay sahiblərinin ümumi iclası vaqe olacaqdır. Baxılacaq məsələlər:

1) Xəzər Müstəhliklər [İstehlakçılar] İttifaqının ticarət fəaliyyəti barəsində məruzə;

2) Əkmək fondunun təşkili;

3) Üzvlərin cəmiyyətlərə əmanət pul verməsi haqqında;

4) Paycı cəmiyyətlərinin pay haqlarının artması;

5) Balaxanı cəmiyyətlərinin birləşməsi barəsində.

- Aprelin 25-də axşam saat 4-də Üçüncü Ali-ibtidai məktəbin binasında bütün texniklərin, müsamirədə işləməyə dəvət olunanların iclası vaqe olacaq.

### Posta qarət edilməsi

Daxiliyyə naziri Bakı qubernatoruna məlum edir ki, neçə gün bundan əqdəm [qabaq] Yevlax postaxanasından 500 min manat qarət etmiş olan caniləri dərdəst etməkdən [ələ keçirməkdən] ötrü ən ciddi tədbirlər ittixaz edilsin [tədbirlər görülsün].

### Cərimə

Təhərri [axtarış] polisəsi tərəfindən Bakı qubernatoruna təqdim edilən qərardada görə, Bakı əhli Əmirxan Əhməd oğlu icazəsiz tapança gəzdirməkdə müqəssir hesab edilərək iki həftə müddətinə həbs edilmişdir.

### Sürgün

Neçə gün bundan əqdəm [qabaq] hökumət əleyhinə sui-niyyətdə [terrorda] müttəhim edilənlər təhtəl-hifz [mühafizə altında] Gəncəyə göndərilmişlərdir. Məzkur [deyilən] şəxslər Azərbaycan torpağından sürgün edilirlər.

- Mariya Adarovna Tişçova icazəsiz olaraq tapança gəzdirməkdə müqəssir hesab edilərək üç ay müddətinə həbs edilmişdir.

### Xainlər

Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Bakı qubernatoruna müraciətən məlum etmişdir ki, bəzi vaxtlar naməlum xainlər tərəfindən teleqraf xəttinin kəsilməsi müşahidə olunmuşdur. Böylə əhvalın dövlət və camaat işlərinə nə qədər zərəri olduğunu nəzərə alaraq nazir qubernatordan rica edir ki, tezliklə böylə-böylə xəyanətlərin önünü almaqdan ötrü ciddi tədbirlər ittixaz edilsin [tədbirlər görülsün]. Qubernator tərəfindən həmin fəqərə [hadisə] barəsində Cavad uyezd naçalnikinə və Balaxanı-Sabunçu qalabəyinə [komendantına] lazımi binagüzarlıq [sərəncam] göndərilmiş və ciddi surətdə hərəkət və fəaliyyətdə bulunmaq əmr olunmuşdur.

### Məhkəməyə cəlb

- Azərbaycan Cümhuriyyəti İstinaf Məhkəməsi müddəiyi-ümumisi [Məhkəmə Palatası prokuroru] Bakı qubernatoruna məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə Bakı Nahiyə Məhkəməsi müddəiyi-ümumisinin vasitəsilə Bakı 7-ci uçastok [sahə] pristavı müavini Abdullayev qulluğundan suiistifadə etməkdə ittihamla 347-ci fəslə müvafiq məhkəməyə cəlb edilmişdir.

- Azərbaycan İstinaf Məhkəməsi müddəiyi-ümumisi Bakı qubernatoruna məlum etmişdir ki, onun binagüzarlığı ilə Bakı 3-cü uçastok pristavı müavini Məhəmmədov kəndi xidmətindən suiistifadə etmək üçün məhkəməyə cəlb edilmişdir.

### Bələdiyyə İdarəsində

Daxiliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, 1912-ci sənənin 10 nisan qanunu mövcibincə [əsasında] şəhər polis məxaricatı [xərcləri] Bələdiyyə İdarəsi üzərinə düşür. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsi təcili surətdə polis üçün mənzil tutmaqla bərabər təmirat da yapmalıdır.

### Atışma

Srağagün saat 1 radələrində Qasımbəy məscidi yaxınlığında iki nəfər müsəlman miyanında [arasında] atışma olmuşdu. Atışmada iki nəfər müsəlman bacaqlarından məcruh olmuşlardı [yaralanmışlardı]. Polis nəfəratı tərəfindən canilər dərdəst edilmişdir [tutulmuşdur].

## FƏHLƏ HƏYATI

### Zəngəzurluların yığıncağı

Aprelin 22-də Balaxanı və Sabunçu dairəsində sükunət edən [yaşayan] Zəngəzur vətəndaşlarının yığıncağı vaqe olmuşdur. Yığıncaq Nobel qardaşlarının böyük firmasında vaqe olub, bir çox adam hazır olmuşdur. Bir çox müzakirat və mübadileyi-əfkardan sonra yığıncaqda atidəki [aşağıdakı] qətnamə qəbul edilmişdir:

*"Biz, Zəngəzur vətəndaşları aprelin 22-də bir yerə cəm olub bir qədər müzakiratdan sonra qərardad etdik ki, bu yaxın günlərin birisində Bakı şəhəri və ətrafında yaşayan ümum Zəngəzur əhillərini dəvət edib, lazımi məsələlərimizi müzakirə və həll etməklə bərabər, daimi bir komitə təşkil edərək qaçqınlara müavinət üçün lazımi məramnamə tərtib edək. Böylə bir ümumi iclası dəvət etmək üçün kəndi aramızdan 5 nəfərdən ibarət hələlik müvəqqəti bir komitə intixab ediriz [seçiriz] ki, ona da zeyldəki [aşağıdakı] şəxslər daxil olurlar: Məşhədi Məhərrəm, Zülfüqar Fərəczadə, Ağa bəy Ağayev, Ağalar bəy Əlixanov və Molla Qaraş."*

## AZƏRBAYCANDA

### Zəngəzur uyezdində

"Aşxatavor" erməni qəzetəsi xəbər verir ki, Andranik ingilislərin tələbatına görə Zəngəzur uyezdindən [qəzasından] çıxıb getmişdir. Andranik hərçənd bilirdi ki, o getdikdən sonra ingilislər Azərbaycana tabe olmağı tələb edəcəklər, lakin ingilislərin tələbatına əməl etdi.

**Ağdaşdan**

Həmin aprel ayının 13-cü bazar axşamı Ağdaş Qaçqınlara Yardım Cəmiyyəti tərəfindən bolşevik və ermənilərin hücumu ilə malları talan olunaraq vətənsiz, yurdsuz, sahibsiz, müavinətə möhtac qalan Şamaxı qaçqınlarının mənfəətinə ikinci dəfə olaraq Sultanməcid Qənizadə cənablarının yazdığı iki pərdəli "Axşam səbiri xeyir olar" komediyası ilə bir pərdəli "Dursunəli və Ballıbadı" məzhəkəsi mövqeyi-tamaşaya qoyuldu. Camaat fövqəladə bir həvəs və iştiyaqla [şövqlə] axıb gəlməyə başladılar. Oyun başlanmazdan əvvəl cəmiyyət tərəfindən Rza əfəndi Əbdizadə cənabları keçən teatronun hasilat və məsarifatı barəsində haziruna məlumat verdi. Oyunun başlanmağını səbirsizliklə gözləməkdə olan tamaşaçıların gurultu və şarpıltıları altında pərdə qalxaraq saat 8-də oyun başlandı.

Bu iki oyunun arasında məşhur şairlərimizdən mərhum Sabir əfəndinin "Ağlaşma" və "Ədəbiyyat" sərlövhəli mənzum və müzhik [gülməli] əsərlərindən iki parçasını haziruna bir nümuneyi-ibrət olmaq üzrə möhtərəm ziyalılarımızdan Qədir əfəndi Molla Səməd oğlu oxuyaraq, oyunun gözəlliyini bir qat daha artırmağa müvəffəq oldu.

Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin məqsədi keçən mart ayında törəyən müəssif vəqələrin xəsarətdidələrinə [təəssüflü hadisələrin zərərçəkənlərinə] və Şamaxı hadiseyi-əliməsindən [kədərli hadisəsindən] sonra çarəsiz qalıb çöllərdə, küçələrdə, onun-bunun qapısında, xüsusilə bazarlarda dilənməklə ismətləri tökülən din və millət bacılarımıza müavinət yollarını arayaraq hər dürlü qeydlərinə qalmaqla, o məzlumların məişətlərini təmin etmək və bu yolda öhdəsinə düşən vəzifəni layiqi ilə ifa edərək hər dürlü fədakarlıqdan çəkinməməkdir.

Birinci dəfə verilən teatronun hasilatı ilə cəmiyyət öz fəaliyyətinə başladı. Böylə ki, Ağdaş bazarında dilənməkdə olan qaçqın bacılarımız daha ondan-bundan Allah pulu istəmədilər. Cəmiyyət bunların məişətini təmin etdi. Vətəninə getmək istəyənləri müavinəti-nəqdiyyə [nağd pul yardımı] ilə yola saldı. Qalanlarını da öz himayəsi təhtinə [altına] alaraq hər dürlü qeydlərinə qaldı.

Ümüdvaram ki, möhtərəm Ağdaş camaatı cəmiyyətin yaşaması üçün minbəd [bundan sonra da] hər dürlü müavinət təkliflərinə qarşı, borclu olduqları din və milliyyət vəzifələrini ifa edərək cəmiyyətin tərəqqisinə səy ilə fəaliyyətinin daha vase [geniş] surətdə olmasına çalışarlar.

Bu cür müqəddəs bir cəmiyyətin səbəb və banilərinə qarşı qəlbimdə yüksələn məhəbbət və təşəkküratımın izharı ilə bərabər, məqsədlərinə müvəffəqiyyətlərini Cənabi-haqdan istirham [xahiş] edirəm.

Yaşasın millətin namusunu çəkən, "mədəd, mədəd" - deyə səfil-sərgardan qalan millət düşgünlərinə müavinət yollarını arayaraq onların maddi və mənəvi müşkülatlarını həll etmək üçün cəmiyyətlər açan qəyur [qeyrətli] ziyalı cavanlarımız.

*Müəllim: Məhəmməd Hacıməhəmmədzadə Nuxulu*

**Ərzihal**

*(Cavad uyezdindən)*

Cənab müdir əfəndi! Biz aşağıda qol qoyan Cavad uyezdinin [qəzasının] Ərəbbalaoğlan kəndinin rişsəfidləri [ağsaqqalları] sizdən acizanə iltimas [xahiş] edirik ki, həmin yazılan bir neçə kəlmə sözlərə ruznamə [qəzet] sütunlarında yer verəsiniz.

"Azərbaycan" ruznaməsinin 20 rəcəbülmürəccəb 1337 sənə tarixli və 162 nömrəli numrosunda [sayında] oxuduq ki, guya Ərəbbalaoğlan kəndinin vəkilləri həman kəndin kəndxudası Nədir Məşhədi Yusif oğlundan pis hərəkətlər baş verməkdən ötrü cənab Bakı qubernatoruna ərizə vermişlər. Ona görə cənab qubernator həman kəndxudanı qulluqdan qovulmaqdan ötrü cənab naçalnikə əmr yazıbdır. Binaənileyh [ona görə], biz rişsəfidlər kamali-cürət ilə deyirik ki, minlərcə heyif olsun ki, cənab qubernator işi həqiqət etməmiş bəzi ərazil [alçaq], nalayiq və böhtanpərəst adamların qərəzi və yalan ərizələrinə görə və heç bir vəchlə camaatdan vəkil olmayıb və vəkalətnaməsi də olmayan və camaatdan bixəbər və biizin [icazəsiz] öz şəxsi qərəzlərindən ötrü özlərini camaat vəkili adlandırıb böhtan ərizə verməklərindən bir belə doğru və dürüst kəndxudanı qulluqdan xaric edib camaatı bədbəxt edir. Camaatın bədbəxt olmağı aşağıda yazılan səbəblərdən ibarətdir:

1) Bizim kəndin kəndxudası Nədir Məşədi Yusif oğlu kəndxuda olan gündən bu hala qədəri camaatla yaxşı rəftar edib müqəssirlərə tənbeh və əlsiz-ayaqsızlara rəhm etməkdən başqa bir qeyri pis hərəkat ondan baş verməyibdir və bu haladək heç kəsdən bir qəpik də olsa pul və ya qeyri cinslərdən rüşvət almayıb və alası da deyil.

2) Hərgah məzkur [adı çəkilən] Nədir nam [adlı] yüzbaşı olmasaydı, yəqin ki, Ərəbbalaoğlan kəndləri bu hala qədər məhv və nabud [yox] olardı. Necə ki, cəmi adamlara məlumdur ki, hər il bahar zamanı İranın Şahsevən tayfası Cavad uyezdinə, xüsusən Ərəbbalaoğlan kəndlərinə nə qədər zərər və nə qədər can tələfatı verirlərdi. Amma bu il Nədir namın [adlı şəxsin] kəndxuda olmaq səbəbinə görə həman şahsevənlər Ərəbbalaoğlan kəndlərinə nə zərər və nə də can tələfatı verə bilməyiblər. Çünki kəndxuda Nədir öz qardaşları ilə şahsevənlərin öhdəsindən gəlirlər.

3) Genə məlumdur ki, həmin il Kür nəhrinin suyu nə qədər ziyadə və nə qədər kəskindir. Doğrudan şükürlər olsun kəndxuda Nədir namın zəhmətinə ki, çox etibarlıca bəndlər bağladıb ta ki Ərəbbalaoğlan kəndlərinin evlərini, canlarını, heyvanlarını və cəmi ziraətlərin[i] [əkinlərini] sudan mühafizət edibdir.

4) Cümləyə məlumdur ki, axrıncı hərc-mərcdən sonra hər kəndin cavanları sərxudkaranə [özbaşına] iş görməkdən zaye olmuşlar [zay olmuşlar; puç və hədər olmuşlar]. Əzancümlə [o cümlədən] Ərəbbalaoğlan cavanları da zaye olmuşdular. Bir belə zaye olmuş cavanlar kəndxuda Nədir namın hədəsindən və qorxusundan bu halacan dinc və salamat qalıblar.

Bunlardan əlavə, hərçənd bizlər bu halacan bilməyirik ki, adlarını yalandan Ərəbbalaoğlan kəndinin vəkili qoyub bu təhərdə böhtan ərizə verən kimdir, ancaq bunu deyə bilərik ki, cənab naçalnik Kür nəhrinin kənarında bənd bağlamaqdan ötrü hökmü sadir olubdur [əmri verilibdir] ki, bir neçə nəfər Ərəb-

balaoğlan camaatından bu işə mane olmaq səbəbinə tutulsun. Onların adları bu qərar ilədir: Tərlan bəy Əbdüləli bəy oğlu, Ruh Həmid oğlu, Hacı Atamalı Hacı Güləli oğlu, Vəliməhəmməd Hacı Mirzəməhəmməd oğlu və Paşa bəy Osman bəy oğlu. Və bu adamlar cənab naçalnikin qorxusundan kənddən qaçıb Bakı şəhərinə gəliblər və çünki bu adamların xasiyyətləri yaman olmağı bizlərə yəqindir ki və özləri də kəndxuda Nədir nam ilə ədavət edirlər (bir neçə səbəblərə görə), ona görə deyə bilərik həman yuxarıda yazılan böhtan ərizəni bu adamlar kəndxuda Nədir Məşhədi Yusif oğlundan veriblərdir.

İmza: Ərəbbalaoğlan rişsəfidləri: Şahkərəm İsmayıl oğlu, Abbas Alış oğlu, Yusif Yusif oğlu, Şirəli Kərbəlayi Xələf oğlu, Zeynal Möhbulla oğlu, Paşababa Paşababa oğlu, Şahpələng Hacı Qəhrəman oğlu, Xanlar Hacı Əbdülxaliq oğlu, Şuri Cahangir oğlu, Balaxan Muradəli oğlu, Məşhədi Ağa Məşhədi Məhəmməd oğlu, Balaqardaş Hacı Əsgər oğlu.

Fövqdə [yuxarıda] yazılan bisavadların əvəzinə və öz əvəzimə qol qoydum mən Yusif Yusif oğlu.

## GÜRCÜSTANDA

**Gürcüstan ilə Könüllü ordu müharibəsi**

İdarəmizə yetişən xəbərlərə görə Gürcüstan Hökuməti tərəfindən Könüllü ordu müqabilinə müharibə hərəkatı başlamışdır. Aprelin 17-də Soçi nahiyəsində Gürcüstan əsgərləri hücuma keçib Qaqranı işğal etmişlərdir.

**Gürcü Xalq Qvardiyası ərkani-hərbindən [hərbi qərargahından]**

Aprelin 17-də səhər saat 4-də Denikin əleyhinə hücum başlanmışdır. Süvari firqəsi [dəstəsi] yenə təzədən gecə Bzıb çayını keçmişdir. Çayı keçəndə bir suvari və üç at qərq olmuşdur. Sağ cinah Otradnoye mülkünə yaxınlaşıb, sol cinah isə Veliki knyazın Kolxida adlı yaylağını işğal etməklə bərabər, 4 zabit və 2 saldatdan ibarət zabit qaraqolxanasını ələ almışdır. Düşmən topxanası süvari firqəsini atəşə tutmaqdadır. Bizim qitəatımız [hərbi hissələrimiz] irəli hərəkət etməkdədir.

Bu gün aprelin 17-də Suxum dəstəsi əsgərləri Qaqranı işğal və 6 verst irəli hərəkət etmişlərdir. Hər iki cinahdan mühasirəyə alınmış Denikin əsgərləri müqavimət edə bilməyib qaçmışlardır. Bizim əsgərlərdən 2-si ölüb, 3-ü yüngül yaralanmışdır. Könüllü ordu zabit və saldatlarından bir çoxları əsir edilib, külli miqdarda qənaimi-hərbiyyə [hərbi qənimətlər] alınmışdır. Xalq qvardiyası və Suxum dəstəsi əsgərlərinin tərzi-hərəkəti hər növ tərifin mafövqündədir [üstündədir].

**Gürcüstan və Könüllü ordu**

Gürcüstan Məclisi-Müəssisanının [Təsisçilər Məclisinin] 17 aprel tarixli iclasında Şurayi-Vükəla rəisi [Baş nazir] vəzifəsini ifa edən Məclisi-Müəssisana xəbər vermişdir ki, Gürcüstan hökuməti aprelin 16-da Soçi nahiyəsində olan əsgərlərə hücuma keçmək əmrini vermişdir. Səhər aprelin 17-də Gürcüstan əsgərləri hücuma keçib irəli hərəkət etməkdədirlər. Əsgərlər cümhuriyyətin sərhədinə yetişənə qədər hücum edəcəklərdir.





**Batumdan bizə yazırlar**

Osmanlı parası burada çox yüksəlməkdədir. Qafqaziya parası ilə 50 manat – 25 ilə 40 manat, Kerenskiyə birər lirə satış olmaqdadır. Tüccarlar mal ticarətini yalnız Osmanlı parasına satmaq istədiklərindən çox müşkülat çəkməkdədirlər. Dərsəadətdə [İstanbulda] 50 rublə Kerenski qədər bir Osmanlı banknotunun fiyatı tərəqqi etmişdir [yüksəlmişdir]. Nikolay parası ilə 100 və 500-lük ilə 19-20-yə qədər banknot alınır və hər gün dəxi hər bir tərəfdə Osmanlı parası tərəqqi etməkdədir.

Bu ayın 16-cı günündən Batum şəhərində ümum hökumət dəvair [dairələrini] və işlərini ingilislər kəndi əllərinə alaraq buradakı Şuranı ləğv etdilər.

O vaxtdan bəri Batumda fəna bir vüquat [hadisə] olmamışdır. Batumun halı bundan sonra daha eyi olacağı düşünülür. Şimdiki halda ingilislərin sayəsində əhali bir buçuq rubləyə bəyaz əkmək yeyirlər. Müxtəlif fırınlarda [çörəkxanalarda] isə 6 rublədir və Batumun az bir vaxtda bütün iaşə və ərzaqını təmin edəcəklərini ingilislər vəd edirlər.

Buradan Dərsəadətə neft götürməkdə olan tüccarlar mallarını geri göndərdilər. Şimdi isə İstanbuldan buraya neft gətirirlər. Dərsadətdə bir təngə neft ki, 1 putdur, 3 ½ lirəyədir.

Burada Osmanlı altun lirə Qafqaziya parası ilə 270-280-dir. Osmanlı banknotu ilə 1 altun 560 quruşdur.

Odessa və Qara dəniz qaçqınları Batumu doldurmuşlardır. Batumda yer yoxdur. Peydərpey [bir-birinin ardınca] gəlməkdədirlər. Bunların əksəri rumlardır [yunanlardır].

Qəndin girvənkəsi 40 rubləyə bulunmayır. Batumun vəziyyəti böylə müxtəlif bir surətdə qarışmış olduğundan, buraya ticarətə gəlmiş olan tüccarlar dəxi pək mütəəssir və mütəzərrir olmaqdadırlar [bundan təsirlənməkdə və ziyana düşməkdədirlər].

*Yahya Hacızadə*

## TEATRO VƏ MUSİQİ

Bakı Politexnik məktəbinin Türk Mütəllimləri İttifaqı kəndi biçiz [yoxsul] arxadaşlarının nəfinə [xeyrinə] olaraq şənbə günü aprel ayının 26-da İctimai Cəmiyyətin yaya məxsus binasında təntənəli bir surətdə teatro və müsamirə [konsert] tərtib edəcəkdir. Dəvətnamə arzu edən əşxas [şəxslər] müsamirə günü İctimai Cəmiyyətə müraciət etməlidirlər.

Mütəallim və mütəallimələrin [oğlan və qız tələbələrin] dəvətnamələri məhdud olduğundan pişəzvəqt [qabaqcadan] Ələsgər Ələkbərzadədən ala bilərlər.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

"Azərbaycan" qəzetəsinin 165-ci nömrəsində, "Bakı xəbərləri" qismində "Yeni sui-niyyət" ünvanlı yazılmış əhvalatı oxuyub və bu yazılmış xəbərin böyük bir səhv olduğu haqqında bir neçə kəlmə yazmağı özümə lazım bildim.

Əvvəla, Kamenisti küçədə Əmiraslanov qardaşlarının evi 1916-cı ildə Ramazanov qardaşlarına satılmışdır və mən Nəcəf Əmiraslanov mart ayından

sonra Qubernski küçədə 48 nömrəli mülkə köçüb və hal-hazırda da orada yaşayıram və bir də həman xəbərdə yazılmışdır ki, həbs edilənlər arasında Nəcəf Əmiraslanov da vardır. Burasını söyləməliyəm ki, mən Nəcəf Əmiraslanov həbs edilməmişəm. Həbs edilən Cəlal Əmiraslanovdur ki, o da mənim qardaşım oğludur. Onunla da mənim heç bir münasibat və əlaqəm yoxdur. Cəlal Əmiraslanov Kamenisti küçədə həman 168 nömrəli evdə yaşayırdı ki, oradan da həbsə alınmışdır. Mənim bu kimi xainanə işlərdə səhvən adım çıxdığından çox pərişanhal olduğumu məni tanıyanlara bildirməyi özümə vacib bildim.

*Kamali-ehtiramla:*
*Nəcəf Əmiraslanov*

**İdarədən:** Adların dəyişik düşməsi və dolayısı ilə zimədxal [dəxli, qarışacağı olmayan] və müqəssir olmayan zəvatın [şəxslərin] müttəhim göstərilməsi kimi xətaya təəssüflə, Nəcəf Əmiraslanov cənablarının təqsirsiz ikən adı qeyd olunması münasibəti ilə bəyani-etizar ediriz [üzr istəyirik].

## BƏYANİ-TƏŞƏKKÜR

Müdiri-möhtərəm! Cənabınızdan rica edirəm, bu təşəkkürümü qəzetənizin bir guşəsində dərc buyurasınız.

Salyan uyezdinin [qəzasının] Xanqışlaq kəndinin füqəra əhalisinə Məhəmmədəli Əliməhəmmədzadə 2 min manat ianə etmişdir. Mən zeyldə [aşağıda] imza edən məzkur [deyilən] camaat tərəfindən vəkil olub, camaatın kamali-rizaməndliyini müşarünileyhə [adı çəkilən şəxsə] yetirməklə bərabər, Allahtaaladan əmsalının artmasını dilərəm.

*Məşhədi Heybət Məşhədi*
*Xanməhəmməd oğlu*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Ayaqqabı**

Arvad, kişi və uşaq ayaqqabısı külli qiymətdən satılır. Qara arvad ayaqqabılarına 10 faiz güzəşt edilir.

Ünvan: Aziatski və Varantsovski küçələrin küncündə, nömrə 79. Aşot Mixayloviç Levinin komisyon kantoru.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Drama**

səh. 479. "Ənvər bəyin Ədirnə fəthi": Cəfər Cabbarlının "Ədirnə fəthi" pyesi nəzərdə tutulur.

**Royal və pianinolar**

səh. 480. "metronom": musiqi əsərinin tempini müəyyənləşdirmək üçün istifadə edilən alət, takt ölçən.

"etajerkalar": qəzetdə təhrif edilmişdir.

**Qismi-rəsmi**

səh. 480. "Hacı Ağahüseyn Kərim oğlunun": "Azərbaycan" qəzetinin 163-cü nömrəsində "Hacı Ağahüseyn Kərəm oğlu" kimi yazılmışdır.

"prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

**Sülh ətrafında**

səh. 484. "Lokal-Anzeyqer" [Der Berliner Lokal-Anzeiger]: 1883-1945-ci illərdə Berlində alman dilində nəşr olunan gündəlik qəzet.

**Qəzetələrdən**

səh. 484. "Ditşe çaytunq": Berlində 1896-1934-cü illərdə nəşr edilmiş "Deutsche Zeitung" qəzeti nəzərdə tutulur.

"Berndə olan Sosialist Konfransı...": İkinci İnternasionalın Berndə keçirilən konfransı nəzərdə tutulur.

"Almaniya imperatoru Vilhelm": II Vilhelm nəzərdə tutulur.

**Türkiyədə**

səh. 486. "Cəbəli-Lübnan": (Cəbəli-Lübnan sancağı; Dağlıq Livan sancağı) 1861-1918-ci illərdə Osmanlı dövlətinə tabe olan muxtar bölgə idi.

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

**Milli lisanımızdan istifadə edəlim**

səh. 489. "Bundan başqa, müsəlmanlar üçün hər mahaldakı ana dilinin tədris lisanı olması iləri sürüldü.": qəzetdə "olması" yerinə səhvən "olmaması" getmişdir.

**Rus ticarətinin tarixi**

səh. 491. "Tavriya... quberniyalarında": qəzetdə "Tavriya" yerinə "Tavriç" ("Таврическая губерния" adından) yazılmışdır.

"1772-ci ildə məşhur fabrikçi Demidovun nəvəsi məxaricinə birinci dəfə olaraq Maskov şəhərində ticarət məktəbi açılmışdır.": əsası məşhur rus sənayeçisi Nikita Demidovun nəvəsi Prokofi Demidov tərəfindən qoyulan İmperatorluq Kommersiya məktəbi nəzərdə tutulur.

"Katerinanın oğlu Pavlus": II Yekaterinanın oğlu I Pavel nəzərdə tutulur.

"gömrüksüz iskələ": "porto franko" [porto franco] yəni sərbəst liman, azad ticarət zonası.

"kontinent üsulu": 1806-1814-cü illərdə Böyük Britaniyaya qarşı əsasən Fransa tərəfindən həyata keçirilən iqtisadi blokada; kontinental blokada.

səh. 492. "fritreder üsulu": dövlətin iqtisadiyyata və sahibkarlıq fəaliyyətinə müdaxilə etməməsi; azad ticarət.

"bəstə himayə üsulu": yerli istehsalatı dəstəkləmək məqsədi ilə hökumətin idxalatı tənzimləməsi şəklində özünü göstərən iqtisadi siyasətin (himayəçiliyin – proteksionizmin) bir növü; gizli proteksionizm. Gizli proteksionizmdə idxalat gömrük xarici metodlarla tənzimlənir.

"Peterburq ilə Pavlovski şəhərləri arasında": hal-hazırda Sankt-Peterburq şəhərinin Puşkin rayonunun tərkibində şəhərdaxili bələdiyyə qurumu olan Pavlovsk nəzərdə tutulur.

səh. 494. “İvanov kəndliləri”: söhbət Rusiyanın İvanovo vilayətindən və bu vilayətin inzibati mərkəzi olan hal-hazırdakı İvanovo şəhərindən gedir.

**Daşnak qəzetəsinin arzusu**

səh. 496. “Vperyod”: “Daşnaksutyun” partiyasının Bakı şöbəsinin orqanı olan, rus dilində nəşr edilən qəzet.

**Azərbaycanda**

səh. 501. “20 rəcəbülmürəccəb 1337 sənə”: burada tarix hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 21 aprel 1919-cu ilə uyğundur.





**Bazar, 27 aprel 1919-cu il, nömrə 167**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 26 rəcəbül-mürəccəb sənə 1337. 27 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, aprel ayının 27-sində saat birdə Təsərrüfat Şöbəsi dəftərxanasında şəhər budkalarını icarəyə verməkdən ötrü torq [hərrac] olacaqdır. Budkaların biri bulvarda Tamojna [Gömrük] körpüsü qarşısında, digəri isə Mixaylovski bağda Nikolayevski küçədən girən yerdə, hovuzun qarşısında. Şəraiti [şərtləri] Təsərrüfat Şöbəsi dəftərxanasında oxumaq olar.

*T-113*

**İNGİLTƏRƏ-QAFQAZİYA BANKİR KANTORASI**

*(Bakı, Velikoknyajeski küçədə, nömrə 1)*

Müamilat [əməliyyatlar] türk və rus dillərindədir.

İngiltərə-Qafqaziya Bankir Kantorası may ayının 3-ndən etibarən açılıb, bu aşağıdaki müamilatda bulunacaqdır:

Əcnəbi valyuta alıb-satmaq. Qiymətli kağızlar alıb-satmaq. Mal xərid və füruş [alıb-satmaq]. İldə 6 faizlə hesabi-cariyə tövdilər [cari hesaba əmanətlər] qəbulu. Təcili tövdilər qəbulu. Para bərat edilməsi [göndərilməsi]. Mal və mal sənədlərinə rəhn [girov] olaraq borc verilməsi. Bundan əlavə müxtəlif komisyon sifarişatı qəbul edilir. Tiflisdə, Batumda, İstanbulda və Londonda dəxi kantoralar açılır.

*8739*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Royter acentəliyindən)*

**Krımda mütarikə**

Bolşeviklər Krım hökumətini Sevastopolun təxliyəsi ilə ittiham edirlər. Müttəfiqlər Komandanlığı 8 günlük bir mütarikə əqd etmişdir [atəşkəs imzalamışdır].

**Sülh əhdnaməsinə dair**

Almaniya hökumətinə dəvətnamə göndərilmişdir ki, öz nümayəndələrini aprelin 25-də Versala göndərsin. 200 nümayəndənin vürudu [gəlməsi] gözlənir. Ümid edilir ki, sülh əhdnaməsi [sazişi] mayın 25-nə qədər imza edilsin. Almanlar öz nitqlərində hal-hazırda və gələcəkdə Almaniyanın fövqəladə tələfatına [itkisinə] səbəb olan sülh əhdnaməsini qəbul etməkdən imtina edirlər. Hökumətin sülh bərpa etməsi, adi işlərə başlaması və məmləkətə çörək verməsi arzuları düşmən müsabiqə amalını tərk

etmədiyi mümaniətə [maneəyə] düçar olur. Ablukanın [blokadanın] davamı Almaniyanı fövqəladə bir hala salacaqdır.

**Qərq edilmiş qayıqlar**

Bəhri idarələrin [dənizçilik idarələrinin] verdikləri hesaba görə, Müttəfiqlər Avropa müharibə[si] zamanında düşmənlərdən 205 sualtı qayığı qərq etmişlər.

**Çembersin bəyanatı**

Çembers mətbuat nümayəndələrinə məlum etmişdir ki, sülh əhdnaməsi imza edildikdən sonra Parlamana təqdim olunacaqdır. Sülh əhdnaməsi imza edilmədikcə onun elan edilməməsinə qarşı edilən protestoya cavab olaraq Pişon tələb etmişdir ki, hökumətə izhari-etimad edilsin [etimad göstərilsin]. Pişonun bu tələbi 120 səs əleyhinə 360 səslə qəbul edilmişdir.

- Almaniyanın əhvali-maliyyəsini [maliyyə vəziyyətini] təyin edən Paris komisyonu bəyan edir ki, iki il müddətində Almaniya 9 milyon qızıl, gümüş və qeyri qiymətli şeylərlə və 160 milyon nağd ilə borcunu ödəyə biləcəkdir.

**Almaniyada tətil**

Almaniyanın kömür mədənlərində olan tətil qayət xətərnakdır [təhlükəli hal almışdır]. 37 min nəfər əmələ [fəhlə] 6 saatlıq iş günü və Almaniya Şura Hökuməti[ndən] Rusiya ilə əlaqədə bulunmağı tələb edirlər.

**Macarıstanda anarşi**

Romaniya əxbar [xəbərlər] bürosu xəbər verir ki, Peştəni ümumi anarşiya xətrə [təhlükə] altında saxlayır. Sosialistlər hökuməti qeyb edir. Getdikcə hökumət Rusiyadan gəlməkdə olan bolşeviklərin əlinə keçir. Almaniya afserlərinin müavinəti [köməyi] ilə Macarıstan ordusu təşkil edilir.

## SÜLH ƏTRAFINDA

**Türkiyə və sülh**

İstanbulda fransızca çıxan "Monitor oriental" qəzetəsinun yazdığına görə, Türkiyə Xariciyyə naziri tərəfindən Ali Beynəlmüttəfiqin Komissariatına Paris Sülh Konfransı üçün aşağıdakı mürəxxəslərin intixab edildiyini [nümayəndələrin seçildiyini] bildirərək, Parisə ezam edilmələrini tələb etmişdir:

Mustafa Rəşid paşa – sabiq Xariciyyə naziri, Keçəçizadə İzzət paşa – Xariciyyə naziri müstəşarı, Rəşad Xalis bəy – yeni Bern səfiri, Qalib Kamali bəy – Tərki-Təslihat [Silahların Tərk edilməsi] Komisyonu rəisi, Rəşid bəy – Xariciyyə Nəzarəti Ümuri-siyasiyyə [Siyasi işlər] müdiri-ümumisi, qaimməqam [polkovnik-leytenant] Ədib bəy – mürəxxəsi-əsgəri [hərbi nümayəndə], Əmin bəy – Xariciyyə Nəzarəti Kabinəsi müdiri və heyəti-mürəxxəsə baş katibi. Bu mürəxxəslər bir həftə zərfində İstanbulu buraxıb Parisə gedəcəklər.

* Dördlər Şurası hər gündə iki dəfə iniqad edir [yığışır]. Şuranın qətnamələri məxfi tutulur.

**Vilsonun bəyanatı**

Paris – Bu gün Amerika rəisi-cümhuru [prezidenti] Vilson bu məzmunda bir müraciətnamə dərc eyləmişdir:

*“Bəzi dairələrdə böylə fikir hasil olmuşdur ki, guya Cəmiyyəti-Əqvam müahidəsi [Millətlər Cəmiyyəti sazişi] xüsusi komissiya tərəfindən müzakirə edildiyi üçün sülh əhdnaməsinin qəti surətdə qurtarması ləngə düşmüşdür. Şimdi mən bəyan edirəm ki, bu komissiya birinci olaraq öz qətnaməsini Sülh Konfransına təqdim eyləmişdir. Qətnamə fevralın 14-də Konfransa təqdim edilmişdir. Bu layihəni müzakirə üçün neçə ay vaxt var idi. Bu neçə ayda layihə maddə-maddə müzakirə edilə bilərdi. Son günlərdə komissiya bəzi maddələrin təbdili [dəyişdirilməsi] ilə məşğuldur. Komitə bitərəf dövlətlərin nümayəndələri ilə məşvərətdə bulunmuşdur. Bitərəf dövlətlər nümayəndələri Cəmiyyəti-Əqvama daxil olmağı arzu etmişlərdir. Hər halda komissiya üzvləri heç bir vaxt sülh danışıqları gedişinin təxirinə səbəb olmadıqları ilə özlərini təbrik edə bilərlər.”*

**Vilson hüzurunda**

Şənbə günü Vilson Assuriya və Xaldeya heyətini, İstanbul patrikini [patriarxını], yunan səfirini, Romaniya Rəisi-vükəlası [Baş naziri] Bratianunu, Albaniya sülh heyətinin rəisi Əsad paşanı, Ermənistan sülh mürəxxəsləri rəisi Poqos Nubar paşanı və Serbiya Rəisi-vükəlası Paşiçi hüzuruna qəbul eyləmişdir.

**İngilis donanması**

Xəbər verilir ki, İngiltərə donanması Baltik dənizində mühəyyadır [hazırdır]. Hərgah nemeslər Tupa, Livoniya və Vitebski işğal etmək fikrindən daşınmazlarsa, o zaman ingilis donanması Almaniya iskələlərini [limanlarını] işğal edəcəkdir.

* Versalda Sülh konfransına almanlar tərəfindən təqdim ediləcək şərtləri Almaniya mətbuatı müzakirə etməkdə davam edir. Yazıldığına görə, Müttəfiqlər alman nümayəndələrinin şəraitini [şərtlərini] dinləməyəcəkdirlər.

**Dördlər Şurasında**

Fələstin müstəqil bir dövlət olur. O qitəni [regionu] idarə etmək ixtiyarı İngiltərəyə verilir. Dünən Şura Helqoland məsələsini müzakirə edərək, həman təhkimatın [istehkamların, müdafiə qurğularının] dağılmasına qərar verilmişdir.

## QƏZETƏLƏRDƏN

**Qafqaziya əhvalı haqqında “Tayms”**

Londrada çıxan ingiliscə “Tayms” qəzetəsinin xüsusi müxbiri “Qafqaziyada milli rəqabətlər” sərlövhəsi ilə bir qaç məqalə yazıb göndərmişdir. İngilis mətbuatının Qafqaziya haqqında nələr düşündüklərini oxuculara bildirmək məqsədi ilə o məqalələrin ikincisini qismən tərcümə etdik:

*“İslam millətinin qüvvət və əksəriyyətini ən ziyadə haiz bulunan [əhatə edən] və Turançılıq fikrinin ocağı sayılan Azərbaycanda hökumət ilə Müttəfiq qüvayi-işğaliyyəsi [işğal qüvvələri] arasında münasibət olduqca yolundadır. Hökumət milli ordusunu ingilis Baş komandasının əmrinə görə mühafizə etdi. Axır zamanlarda səy və ücrət [əmək və əməkhaqqı]*

*məsələlərindən dolayı bəzi uyğunsuzluqlar əmələ gəldi amma tatar (!) fəhlələrinin ağıl və məntiqə görə hərəkət edə bilmələri haqqında çətinlik olmadı. Fəqət ruslar və erməniləri başa salmaq mümkün olmadı...*

*Azərbaycan Məclisi-Məbusanının birinci ictiması [iclası] dekabr ayının 7-də açıldı...*

*Rus əleyhdarlığı Azərbaycanda, Ermənistanda olduğu qədər şiddətlidir. (?)*

*Dağıstan ərazisində rus anarşisindən doğmuş bir Şimali Qafqaziya Cümhuriyyəti vardır. Bu hökumət milli deyil, bəzi siyasi təsirlərlə dünyaya gəldi. (?) O qədər qüvvətli bir irqi hissiyyata tabe olmadığı üçün mövcudiyyətini saxlaya bilməsi məsələsi şübhəlidir.*

*Bolşeviklərin irəliləmələri üzündən Şimali Qafqaziya mərkəz hökuməti Vladiqafqazdan Teymurxanşuraya köçürüldü. Bu axırıncı şəhər Dağıstanda olmaqla bərabər, hökumət dağıstanlıların müavinət və müzahirətindən [köməyindən] istifadə edəmməyir. (?!)*

*Ermənistan yaxud digər adla Ararat Cümhuriyyəti Batum müahidəsinə [sazişinə] görə hüdud vüsəti [sərhədlərinin genişliyi] təyin edilmiş və Qafqaziya hökumətlərinin ən kiçiyini təşkil eyləmişdir. Bu hökumət ermənilərin milli yurdu olan (?) İrəvan əyaləti ilə bunun ətrafında bulunan bəzi kiçik ərazidən ibarətdir.*

*Ermənistanda iki siyasi firqə vardır: Daşnaksütyunlar, yəni sosialistlər (?) və sosialist ziddi hürriyyətpərvərlər. Bu sol firqənin nüfuzu çoxalır. Ermənistanda bolşevizm məslək və cərəyanı yoxdur. Əmlakı müsadirə etmək məsələsi də heç mövzuyi-bəhs [müzakirə mövzusu] deyildir. Bütün firqələr xarici işlərdə bərabərdirlər. Nubar paşanı ermənilər millətinin mürəxxəsi [nümayəndəsi] olaraq tanıyırlar. Onların məqsədləri indiki Ermənistana Türkiyənin ermənilərlə sakin bulunan vilayətlərini birləşdirməkdir. Sülh Konfransı bu hüdudları göstərərsə, müvəqqətən müstəqil bir Ermənistan hökuməti təşkil edəcəklərdir. Əgər Nubar paşanın təklifləri qəbul edilərsə, Türkiyə Ermənistanı Qara dənizdən Ağ dənizə [Aralıq dənizinə] qədər böyüyəcəkdir.*

*Aldığım və öyrəndiyim fikirlərə görə, İrəvan həvalisindən [tərəflərindən] Kiçik Asiyaya doğru böyük bir mühacirət hərəkətinə intizar etməlidir [böyük bir köç gözləmək lazımdır]. Çünki nüfus [əhali] məsələsi xaricdən mühacirlər gətirmək və başqa tərəfə doğru köçənləri əski yurdlarına iadə eyləmək [qaytarmaq] surəti ilə həll ediləbiləcəkdir. 1915-ci ilindən bəri İrəvan həvalisi Türkiyədən gələn qaçqınlar və millətçilərlə dolmuşdur. Bunlara İttihad və Tərəqqi ordusundan qaçan Batum, Ərdahan, Qars erməniləri də iltihaq etmişdir [qoşulmuşdur].*

*Müstəqil bir Ermənistan təşkil edilməsi təsəvvür edilərsə, İrəvan həvalisinin dəxi əlavə ediləcəyi məmuldur [gözləniləndir]. Çünki ermənilərin rəisi-ruhanisi [dini rəhbəri] İrəvan əyaləti daxilində Eçmiyədzində oturmaqdadır.*

*Ermənilər gürcüləri ittiham edirlər ki, İttihad və Tərəqqi ordusunu Qafqaziyaya gətirənlər və yol verənlər onlardır. Onun üçün də gürcülərlə ermənilər arası yaxşı deyildir. Axalkələyə sahib olmaq üçün ermənilərlə gürcülər arasında çıxan qanlı müharibələrdən sonra iki tərəf arasında nifrət və düşmənlik hissləri daha da artmışdır. Bundan sərfi-nəzər [bundan əlavə], ermənilərlə müsəlmanlar arasında daha fəna bir münasibət vardır. İki millətdən birinə aid və əksəriyyəti-nüfusun əqəliyyətə [çoxluğun azlığa] qarşı göstərdiyi vəhşiyanə müqabileyi-bilmisillər [eynilə qarşılıq vermələri] nəticəsi olaraq qanlar töküldü. Qafqaziyalılarda sülhcuyanə əməllər [sülhpərvər niyyətlər] azdır. (?) Müttəhid [birləşmiş] bir hökumət təşkil ediləcəyi təsəvvürləri boş şeydir. (?) Digər tərəfdən, Rusiya da Qafqaziya məsələlərini həll edə biləcək bir halda deyildir. Bununla bərabər, üç və ya dörd millətin ittihadı [birləşməsi] ilə əgər bir intizam və sülh doğarsa, o zaman milli və irqi bir dairədə hökumətlər təşkili mümkün ola biləcəkdir. Hər nə olarsa da, Qafqaziyada payidar [qalıcı, daimi] bir vəziyyətin hüsulu üçün daha epeyi [çox] zaman lazımdır."*

**Osmanlı vilayətlərində islamların əksəriyyət təşkil etdiyinə qəti bir dəlil daha!**

Hökumət və millət arasında ciddi məsaisi [fəaliyyəti] ilə şayani-diqqət [diqqətəlayiq] bir çox işlər görən Osmanlı Milli Konqresi Vilson düsturlarına qəti bir surətdə mütabiqət edəcək [uyğun gələn] elmi və fənni bir istatistika tərtib etmişdir. Aşağıda mühərrər bulunan [yazılan] bu istatistikadan məlum olacaqdır ki, Osmanlı məmləkətində əqəliyyətdə [azlıqda] qalan millətlərin yekunu ancaq üç milyona qərib [yaxın] bulunmaqdadır.

Kastamonu, Konya, Ankara, Trabzon vilayətləri ilə Aydın vilayətinin dörddə üç hissəsi, Ədirnə vilayətinin üçdə ikisi və sair vilayətlərin isə əksəriyyətini islamlar təşkil etməkdədir.

Milli Konqre şu surətlə Osmanlı nüfusi-ümumiyyəsini [ümumi əhalisini] təyin etmişdir:

| Sayısı | Əsami [adlar] | Mində |
|---|---|---|
| 13,559,786 | islam | 804 |
| 1,614,981 | rum | 103 |
| 1,214,453 | erməni | 77 |
| 226,006 | başqa millətlər | 16 |
| 16,615,226 | yekuni-ümumi | 1,000 |

Bu istatistika son 1919 sənəsinə aid olmasına görə, Türkiyə 1912-dən bu tarixə qədər 10 milyon islam nüfusu qeyb etmişdir.

**"Tayms" yeni alman xətrəsi [təhlükəsi] barəsində**

Amerikanın məşhur siyasiyyunundan [siyasətçilərindən] Simyons Frank Almaniyanın yeni təhlükəsi ilə Müttəfiqləri xəbərdar edir.

Simyonsun rəyinə görə, Almaniya bu üç ayın müddətində nəinki yalnız fəlcdən [iflicdən] səhhətyab olmuşdur [sağalmışdır], eyni zamanda Almaniyada baş qaldıran bolşevizmi məğlub eyləmişdir və yeni ciddi müharibə üçün Almaniyanın ruhunu hazırlamışdır. Bu müharibə üçün ən birinci silah Amerikada və amerikalılar tərəfində istila edilən yerlərdə almanların təbliğatıdır.

Almanlar bu cür təbliğatda bulunurlar:

*"Biz nemeslər öz evimizdə asudəlik bərpa etmişik. Biz imperatoru və kronprinsi iş başından düşürdük. Ən xalis*

*demokrat olduq. Bütün köhnə günahlar iş başından düşürdüklərimizin öhdəsinədir. Şimdi biz təmiz əl və milli ruhla tələb ediriz ki, bizi də millətlər ailəsi heyətinə bir hüquqda qəbul edəsiniz. O millətlər heyətinə ki, Vilsonun 14 maddəli əhdnaməsini qəbul edirlər.*

*Burası təbiidir ki, Fransa, İngiltərə və onların müttəfiqləri ədalətli sülh axtarmayırlar. Yalnız biz Vilsonun dediklərini düşünürüz. Çünki, onu ancaq həqiqi demokratlar düşünə bilərlər."*

Almanlar bu sözlərlə ümid deyil, yəqin edirlər ki, nəinki müharibənin cəzasından azad olarlar, hətta müharibədə qazanarlar.

Hərgah, almanlar Elzas-Loreni qeyb etsələr belə, yeni beş milyon əhalisi ilə bir vüsətli [geniş] yer əllərinə keçirəcəklərdir.

Simyons deyir ki: Bundan əlavə, almanlar Rusiya sahillərinə də sahib olacaqdırlar. Müttəfiqlər Rusiya işlərindən vaz keçdilər. Onlar Böyükadada şura şüarını meydana qoydular. Bu da o deməkdir ki, Müttəfiqlər Şura Hökumətini qəbulla bir çox yerləri almanlara açıq buraxdılar. Almaniya Rusiyanın irticakar üzvlərini başına cəm edib, sülh zamanı Rusiyanın bütün ticarətini əlinə alacaqdır. O Rusiya üzvləri ki, Müttəfiqlərə müraciət edib, bolşeviklərdən xilas edilmələrini onlardan gözləyirdilər. Onlar üçün şimdi Almaniyanın ağuşuna atılmaqdan başqa heç bir çarə yoxdur.

Simyonsun bu bəyanatı zinhar [qətiyyən] mübaliğə deyil, əsl həqiqətdir. Hərgah, almanların fövqdə zikr edilən [yuxarıda deyilən] təbliğatı müvəffəqiyyətli olarsa, o zaman biz müharibəni uduzub, birinci müzəffər Almaniya olacaqdır və Almaniya bütün Rusiyanı özünə mükafat alaraq Şərq siyasətində də bəxtiyar olacaqdır.

Almaniya Paris Konfransına öylə töhfə hazırlayır ki, necə ki, Napoleon Vyana Konfransına hazırlamışdı.

**Almaniya ordusu**

Berlinə gəlmiş olan fransız müxbiri yazır:

Almaniyada hal-hazırda qayət ciddi surətdə yeni güclü ordu təşkil edilir. Berlində külli tanklar, zirehli avtomobillər, bomba atan makinalar vardır. Onlar Berlində asudəliyi saxlamaq üçündürlər. Ordunun cavan üzvləri hələ də silah altındadırlar. Sülh vaxtında olan bütün hərbi müəssisələr müstəqilən öz işlərini görürlər. Digər tərəfdən dövləti hər növ afətdən xilas və gələcəkdə Polşa ilə müharibə təqdirində müqabildə durmaq üçün külli könüllü dəstələri təşkil edilir. Almaniya qəzetələrində hər gün müxtəlif elanlar nəşr edilərək afserlər, əsgərlər könüllü orduya dəvət edilirlər. Forqun könüllü dəstələri, Qvardiya korpusu, Hindenburq alayları və sairə təşkil edilir. Əsgərlikdən azad edilən şəxslər böyük maaşla külli surətdə bu dəstələrə yazılırlar. Böyləliklə, nemeslər öylə bir qüvvəli müqtədir ordu təşkil edirlər ki, həqiqətən gələcəkdə almanların inadını müdafiə edə biləcəkdirlər.

**Krımda**

Üç gün bundan əvvəl Krımdan Batuma gələnlərin rəvayətinə görə Sevastopol, Feodosiya və Kerçdə əhval ümumən yaxşıdır. Krım hökuməti Sevastopoldadır. Müttəfiqlər və rus məmurları bu iskələlərin [limanların] əllərində qalmasına var qüvvələri ilə çalışırlar. Əhali arasında olan həyəcanı da inkar etmək olmaz.

Sevastopoldan Novorossiyskə əzimət edən [yola düşən] "Rion" paroxodunda cəhənnəm makinası partlayıb 70 nəfər sərnişini öldürüb və yaralamışdır.

**Qaqranın işğalına dair**

Batumdan Qaqraya iki paroxod rəngli qoşunlar göndərilmişdir. Bu münasibətlə şayiat [şayiələr] dövran edir ki, ingilislər Könüllü və gürcü müharibəsinə qatışmaq fikrindədirlər.

Novorossiyskdə ciddi surətdə səfərbərlik elan edilir. Buraya gələnlərin həpsini silahlandırıb cəbhəyə göndərirlər. Bugünlərdə cavanlar da səfərbərliyə alınacaqlardır.

## DAĞISTAN ƏHVALI

**Təkzib**

*(Rəsmi)*

Azərbaycan Hökuməti nəzdində olan Dağıstan siyasi nümayəndəsi Əlixan Kantemir Dağıstan Hökuməti rəisi Kotsevdən aşağıdakı məzmunda rəsmi bir məktub almışdır:

"Yedinaya Rossiya" qəzetəsində "Dərbənd" ünvanlı yazılan məqalə münasibətilə icra edilən təhqiqatdan sonra aşkar olmuşdur ki, həman məqalədə hökumətsizlik, mədənlərin dağıdılması, iş görülmək mümkün olmaması, qarətgərlik və qeyri bu kimi hadisələr haqqında yazılmış əhvalat Dağıstan Hökuməti zamanında deyil, bəlkə bolşeviklərin və biçeraxovların həman rayonda olduqları vaxt baş vermişdir. Qarətgərlik ancaq o zaman olmuşdur. İndi isə mühafizə vardır ki, iş görməyə də imkan verir. Dərbənd rayonunda xırda oğurluqlar və cinayətlər olursa da, onların əleyhinə tədbirlər görülmüşdür. Dağıstanda quldurluq və oğurluq özgə yerlərə nisbət azdır.

*Baş nazir: Kotsev*

**Çeçenistan və Denikin**

Aprelin 13-də Şali kəndində çeçen əhalisinin fövqəladə ictiması [yığıncağı] vaqe olub, Qroznıda olan konfransda Denikin ilə münasibat qət edilməsi [münasibətlərin kəsilməsi] münasibətilə əhvali-hazirə haqqında müzakirədən sonra böylə bir qətnamə çıxarılmışdır:

1) Dağıstan Cümhuriyyətinin hürriyyət və istiqlaliyyətini axırıncı qətrə qana qədər mühafizə etmək.

2) Silah daşımağa müqtədir kişilərin hamısını əsgərliyə dəvət etmək.

3) Hər külfətdən ancaq bir adam külfəti saxlamaq üçün azad edilir. Hər bir kənd camaatı öz əsgərlərini ərzaqdan təmin etməlidir.

4) Dağıstan hökumətinin hər bir əmrinə, binagüzarlığına [sərəncamına] bilatəəmmül [müzakirə etmədən] əməl etməlidir.

5) Qroznıya və düşmən tərəfindən işğal edilən yerlərə ərzaq aparılması qadağan olunur.

6) Bu qətnaməni xələldar edənlər [pozanlar] Dağıstan millətlərinin düşməniədd [hesab] edilib və xainlər kimi qanundan xaric elan edilirlər.

**Kabardada və Osetiyada**

Lyaxov tərəfindən əsgərliyə alınmış kabardinlər və osetinlərin hamısı qaçmışlardır. Kabardada və Osetiyada vaqe olan ictimalarda [yığıncaqlarda] ancaq Dağıstan Hökumətinə tabe olunması tələb edilir.

**Tersk kazakları və Denikin**

Tersk kazakları qan tökülməsinin ağır nəticələrini nəzərə alıb, dağıstanlılar əleyhinə müharibə etməkdən imtina ilə böyük dəstələrlə cəbhədən qaçırlar.

**Dağıstan Parlamanı və Denikin**

Dağıstan Parlamanının aprelin 7-də vaqe olan iclasında Denikin məsələsi haqqında böylə bir qətnamə qəbul edilmişdir:

Könüllü ordu ilə saziş hüsula gətirmək qəsdi ilə müzakiratda bulunmaqdan ötrü aşağıdakı əsaslar üzərinə heyət göndərilsin:

1) Bilatəxir [dərhal] Dağıstan Cümhuriyyəti Könüllü ordu dəstələrindən təmizlənib dağıstanlılarla məskun işğal edilən yerlər Dağıstan Hökumətinə qaytarılsın.

2) Dağıstan Cümhuriyyəti daxilində Könüllü ordu tərəfindən bərpa edilən əsgəri və mülki administriyasiya yığışdırılsın.

3) Könüllü ordu tərəfindən əsgərliyə alınan Dağıstan əsgəri dəstələri evlərinə buraxılsın.

4) Rusiya işlərinə qarışmaq qəsdi ilə Könüllü ordu ilə bərabər hər cür çıxışlardan imtina etməli.

5) Lyaxov tərəfindən təşkil edilən Dağıstan millətləri ictimasında Dağıstan Hökumətinin razılığı və xəbəri olmadan iştirak etməmək və bu cür ictimalar tərtibi əleyhinə protesto etmək.

**Dağıstanlılar və Kuban Radası**

Kuban Hökuməti sədri Dağıstan hökumətinə bir teleqraf göndərib Cənubi hökumət təşkilatlarının konfederasiya məsələsini müzakirə etməkdən ötrü mayın 18-də Yekaterinodarda vaqe olacaq konfransa üç nəfər nümayəndə göndərilməsini xəbər vermişdir. Verilən xəbərlərə görə, Dağıstan hökuməti bu dəvətin cavabını Qafqaziya cümhuriyyətlərinin ümumi arzusu ilə əlaqədar tutur.

**Dağıstanlılarla Könüllü ordu müharibəsi**

Qroznı Konfransında münasibat qət edilməsinə görə dağıstanlılarla Könüllü ordu arasında aprelin 16-da müharibə hərəkatı təzələnmişdir. Düşmən bütün cəbhədə geri əyləşdirilmişdir.

**Zaqafqaziya Konfransında Dağıstan heyəti**

Tiflisdə Zaqafqaziya Cümhuriyyətləri Konfransında iştirak etməkdən ötrü Dağıstan Hökuməti tərəfindən Penzulayev, Butayev və Kantemir vəkil edilmişlərdir. Dəmiryol hərəkatı başlanan kimi bu nümayəndələr yola düşəcəklər.

**Dağıstan dəmiryolunda tətil**

Neçə gündür ki, Dağıstan dəmiryolunda tətil başlanmışdır.

Dağıstan siyasi nümayəndəsi Əlixan Kantemir hökumət rəisi Kotsevdən aprelin 24-də böylə bir kağız almışdır:

Dəmiryol qulluqçularının noyabrın 1-dən öz məvaciblərinin Azərbaycan dəmiryol qulluqçuları məvacibi qədər artırılması haqqında təqdim etdikləri tələbnaməyə hökumət müsbət cavab vermişdir.

1918-ci il yanvarın 1-dən noyabra qədər Moskva dekreti üzrə para verilməsi tələbi rədd edilmişdir. Qalan maddələr isə qəbul edilmişdir. Bu şərait bu gün dəmiryol qulluqçularının ümumi ictimasında [yığıncağında] müzakirə edilir.

Dağıstan dəmiryol tətilini bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü Bakı Kəsbkarlar [Həmkarlar] İttifaqı Şurası tərəfindən Dərbəndə və Teymurxanşuraya üç nəfər nümayəndə azim olur [yola düşür]. Dağıstan Hökuməti ilə dəmiryol fəhlələri arasında olacaq saziş əsasları aşkar edilmişdir, məzkur [deyilən] nümayəndələr varid olduqdan [çatdıqdan] sonra elan ediləcəkdir. Yəqin olar ki, dəmiryol tətili sabah bərtərəf edilsin.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

Srağagün seyri-səfain [gəmiçilik] cəmiyyətlərindən bəzilərinə xəbər verilmişdir ki, Hacı-Tərxan kazaklar tərəfindən işğal edilmişdir. Rəvayətə görə, Hacı-Tərxanı Kalmık səhrası tərəfindən hücum edən Krım Gireyin dəstəsi ilə Ural kazakları almışlardır. Bir şayiə var ki, bolşeviklər şəhəri davasız təslim etmiş, fəqət çıxarkən yandırmışlardır. Şəhər hələ də yanmaqdadır.

**Yalandır**

İngiltərə komandanlığından aldığımız mövsuq [etibarlı] xəbərlərə görə, Hacı-Tərxan heç kəs tərəfindən işğal edilməmişdir. Bir neçə gün bundan əqdəm [qabaq] yapılmış hava kəşfiyyatı göstərmişdir ki, Hacı-Tərxanda bolşeviklərdir. Reyddə isə bolşevik gəmiləri durmuşdur.

**Müdafiə ittifaqı**

Amerikanın Fransa və İngiltərə ilə müdafiə ittifaqı bağladığı haqqındakı şayiələr təyid [təsdiq] olunurlar. Fransa, İngiltərə və Amerika heyətləri əzasından heç birisi bu xüsusda bir söz belə söyləməyirlər. Fransa mətbuatı birdən-birə gözlənmədiyi halda dilini dəyişərək Amerikanın ümum [bütün] layihələrini təsvib edir [bəyənir].

Səlahiyyətdar vəkillərdən birisi deyir ki, bu ittifaq fransızların Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] layihəsini qəbul etmələri bahasına əmələ gəlmişdir. Fəqət həman vəkil bu işdə böyük bir zəiflik təzahür etdiyini göstərir. Çünki, Cəmiyyəti-Əqvam güclü olsa, müdafiə ittifaqına lüzum qalmaz. İttifaq lazım isə, Cəmiyyəti-Əqvamın qiyməti qalmaz; xüsusi müttəfiqi bulunmayan bir çox millətlər üçündür.

**Qafqaziya haqqında Çörçilin bəyanatı**

İngiltərə Hərbiyyə naziri Çörçil Avam Kamerasında mükəlləfiyyəti-əsgəriyyə [hərbi mükəlləfiyyət] qanunundan bəhs edərkən demişdir ki:

*"İşğal ordusunun məsarif smetası 133 milyona yetişir. Almaniyadan alınacaq olan 80 milyon çıxıldıqdan sonra bu il işğal ordusunun məxaricində 2-3*

*qat ziyadə bir məbləğ alınacağı gözlənir. Ağ dənizdən [Aralıq dənizindən] Bəhri-Xəzərədək bütün məsafə alov içindədir. Xırda dövlətlər böyük təhlükə altındadırlar və əgər kəndi qoşunumuzu geri çağırsaq, Avropada cərəyani-həvadisə icrayi-təsirdən [hadisələrin gedişinə təsir etməkdən] aciz qalarız. İngiltərə qoşunları təqribən böylə təqsim ediləcəklərdir [paylaşdırılacaq]: İngiltərədə 170 min, Fransada 120 min, Reyndə 264 min, İtaliya və onunla həmhüdud yerlərdə 10 min. İtaliya ilə civarına bizim qoşunumuz hər iki tərəfin ricası ilə İtaliya ilə Cənubi Sloveniya arasındakı ixtilafı yatırmaq və qalxa biləcək binizamlıqların önünü almaq üçün göndərilmişlərdir. Heç bir yerdə əsgərlərimiz Qafqaziyadakı qədər insaniyyətpərvəranə məqsədlərə xidmət etməyir. Hal-hazırda Qafqaziyada 75 min əsgərimiz var. Fəqət, ümidvar olmalıdır ki, tədricən bunların miqdarını əskiltmək mümkün olacaqdır. Hələlik bizim qoşunlarımız orada Sülh Konfransının qəti qərarınadək nizam və asayişi mühafizə üçün saxlanır. Beynənnəhreyndə [Mesopotamiyada] 30 min və Şimali Rusiya ilə Sibiryada 20 min əsgərimiz var. 859 min nəfərdən ibarət işğal ordumuzun 208 mini qeyri-hərbidir."*

Çörçil qeyd edir ki:

*"İngiltərə əsgər və generalları haqqında hər nə desələr də, onlar hər bir məmləkətdə qanun və hüquq müdafeləri [müdafiəçiləri] olmaq üzrə məmuldurlar [arzuedilləndirlər]. Filhəqiqə [doğrudan da], kontrolu altında Misir nəşvü-nüma [tərəqqi] edən Britaniya ordusu heç vaxt əsgəri [hərbi] olmayıb, həmişə idareyi-mülkiyyə [mülki idarə] olmuşdur. Doğrudur, müharibə vaxtı fövqəladə tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Fəqət məmləkət həmişə idareyi-mülkiyyə tərəfindən idarə olunmuşdur."*

**Vüsuqüddövlə haqqında**

Srağagün İrandan Bakıya gələn bir çox mötəbər şəxslərin dediyinə görə, bu günlərdə Tehranda İran Rəisi-vükəlası [Baş naziri] və İran mürtəcelərindən Vüsuqüddövlə qətl edilmişdir. Vüsuqüddövlə ilə bərabər birinci müavinlərindən olan sabiq Məclisi-Məbusan əzası [üzvü] məşhur sərdar Mənsur dəxi qətl edilmişdir. Qatillər fərar eyləmişlərdir. Qəti surətdə bu xəbərin dərəceyi-səhhəti [doğruluq dərəcəsi] və təfsilat məlum deyildir.

Delbruk – Sevastopolda Müttəfiq qoşunları arasında həyəcan davam edir. Fransız generalı Amet ingilis paroxoduna köçmüşdür. Yunan qoşunları içində qarğaşalıq vardır. Hindistan qoşunları həkəza [həmçinin] intizamı pozaraq əhaliyə təcavüz və qarət edirlər. İnqilab komitəsi təşkil edilmişdir. Sevastopol qalaları çıxışa hazırlanırlar. Şəhəri mühasirə edən Qırmızı qoşunlar mütarikənin intəhasını [atəşkəsin bitməsini] gözləyirlər.

**Müsəlman əmələlərinin tələbi**

N – Əski ordunun ştabı İdilboyu kənarlarının altında olması müsəlman əhalinin inqilab hərəkətinə səbəbiyyət vermişdir. Alakozov zavodunun müsəlman əmələləri rus və beynəlmiləl əks-inqilabçılarla müharibə etməyə hazırdırlar, əsgərlikdən qaçanlarla amansız mübarizəni tələb edir. Müsəlmanlar Müttəfiqlərin cahangiranə [imperialist] siyasətlərinə qarşı mübarizə və Kazan və İdilboyunu Kolçak təcavüzündən xilas etmək üçün Qırmızı qoşun təşkilinə dəvət edirlər. Türkiyədə inqilab başlanması xəbəri bir qədər də onları ruhlandırmışdır. Müsəlmanlar Qırmızı alaylara yazılırlar.

Paris – Saar hövzəsindən yeni bir dövlət təşkil edilir. Bu dövlət Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] himayəsi altında olacaqdır. Kömür istehsalatı fransızlara yetişəcəyi kimi, ümuri-idarə [idarəçilik işləri] də fransızların əlində olacaqdır. Almaniya Reyn qoşunlarının maaşı üçün 586 milyon mark pul vermişdir. Fəqət təvəqqe eyləmişdir ki, bu məbləğ bir qədər əskilsin.

**AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT**

*(keçən nömrələrdən mabə'd*)*

Bədxahlarımızın, düşmənlərimizin xətalı hərəkətləri nəinki biz Azərbaycan türklərinə məşəqqət vermiş, bəlkə imdadımıza çağırılmış Türk Ordusunun da irəli yeriş etməyinə çox əngəl çıxarmışdır.

Türklər Kürdəmir stasyonundan başlayıb Bakıya doğru qədəm-qədəm ölkəmizi xilas edirdilər. Yayın hərarətli günləri altında Muğanın ilan mələyən susuz səhralarında canını fəda edən qəhrəman Türk Ordusu hər bir cəfaya davam edib axırda sentyabr ayının 15-ci günündə sübh zamanı Azərbaycanın paytaxtı olan Bakını hərb ilə zəbt etdilər və arxaları ilə Azərbaycan Hökuməti Gəncədən böyük şadlıqla Bakıya azim oldular [yola düşdülər].

Türklərin Azərbaycana gəlib iğtişaşın yatırılmasına etdikləri fədakarlığa və yaratdıqları nizam və qaydaya və istiqlaliyyətə bir tək türk azərbaycanlıları şad olmadılar, bəlkə, qeyri millətlər də məmnun qaldılar.

İnsaf üzrə türklərin heç bir vaxtda gərək bu yaxşılıqlarını yaddan çıxartmasınlar. Amma çifayda insan övladı nəməkbəharamdır [nankordur]. Quyruğu qapı arasından qurtarandan sonra nə qapını tanıyır, nə də qurtaranı. Türk Ordusu iğtişaşı yatırmaqla Azərbaycandakı yövmiyyə [gündəlik] adam öldürmək və quldurluğu bilmərrə kökündən qət etdi [kəsdi] və eyni zamanda Azərbaycanın istiqlaliyyətini möhkəmləşdirdi. Asayiş və asudəlik bərpa olunduqda dərhal bütün ictimai və hökuməti idarələr, dəmiryollar, postalar, məhkəmələr və sairələri işləməyə başladılar. Əsl nizam hökumətin paytaxtımızda iqamət etdiyindən [yerləşdikdən] sonra quruldu. Bu vaxtdan sonra hökumət məmuriyyətləri qaydaya salındı. Mahal və əyalət məhkəmələrinə lazımi əhəmiyyət verildi. Məmləkət qanun və ədalət üzrə idarələnməyə başladı. Məmləkətin bütün hər nöqtəsində həyat və hərəkət oldu. Məgər bir Qarabağdakı Andranikin təhtikomandasında [komandanlığı altında] erməni dəstələri tərəfindən mühasirəyə alınıb böyük xəsarət verməklə müsəlmanların kəndlərdə xırda və körpə uşaqlarına kimi qılıncdan keçirdilər.

*İbtidası [əvvəli] 146, 148, 152, 162 və 164-ncü nömrələrdə.

Bu quldur dəstəsi türklər ilə ingilislər arasında əqd edilən əhdnaməyə [bağlanan sazişə] görə türklərin buradan getmələrindən sonra artıq şiddət edib, məzlum və biçarə müsəlmanların qanlarının tökülməsinə səbəb olmuşdur. Fəqət hökumət səbir ilə türklərdən sonra buraya gələn Müttəfiq dövlətlərin erməni quldur dəstələrinin bu həyasızlığı barəsində edəcəkləri tədbiri gözləyirdi. Vaxt keçirdi, fəqət bu həyasızlıq ortadan götürülməyib davam edirdi. Bu cəhətdən Şurayi-Vüzəra [Nazirlər Kabineti] yanvar ayının 15-də 1919-cu sənədə öz iclasında Qarabağ mahalı üçün bir general-qubernatorluq mənsəbi müqərrər etdi [qərarlaşdırdı] və Xosrov bəy Sultanov general-qubernator təyin olundu.

Türklərin nə qədər başları Bakının alınması ilə məşğul idi, Andranik, vaxtında fürsət tapıb Qarabağda müsəlmanlara rəva gördüğü zülmü icra etdi. Mühasirəyə alınmış Qarabağ müsəlmanlarının əhvalı o qədər fənalaşmışdı ki, hətta o binəvalara şirin su içməyi haram etmişdi. Bu səbəbdən müsəlmanlar azuqəsizliklə bərabər şor su içib yay fəsli zindəganlıq edirmişlər [yaşayırmış]. Türklər Bakını aldıqdan sonra bütün diqqətlərini Qarabağa sərf edib oranı mühasirədən xilas etdilər. Türklər Qarabağ və Zəngəzur mahallarını daha tez xilas edərdilər, fəqət Müttəfiq ordunun buraya gəlməsi türklərə Qarabağ mahalını büsbütün xilas etməyə qoymadı.

General Tomsonun komandası altında paytaxtımıza varid olmuş [gəlmiş] Müttəfiq ordu namından Andranikə Qarabağa bu məzmunda bir teleqraf göndərildi:

*"Verilən məlumata görə, ermənilər Qarabağda müsəlmanlara qarşı bəd hərəkətlər və zülümlər icra edirlər. Mən Müttəfiq ordunun nümayəndəsi sifəti ilə məlum edirəm ki, ermənilərə söyləyəsiniz öz yerlərində rahat oturub binizamlıqlar eyləməsinlər. Əgər mənim bu hökmümə əməl etməyib də genə binizamlıqlar görülsə, o zaman bütün məsuliyyət şəxsən sizin öhdənizə düşəcəkdir. Xahiş edirəm, bu teleqram sizə vüsul olduqda cavabını məlum edəsiniz.*

*General Tomson"*

Müttəfiq ordunun nümayəndələri türklərə Azərbaycandan getməyi elan etdilər və Azərbaycanda asayiş və əminamanlığı öz öhdələrinə götürdülər. Türk ordusunun çəkilməyindən sonra qərbdə yaşayan müsəlmanların əhvalları fənalaşmağa üz qoydu. Axırıncı Batum əhdnaməsinə görə vaxtilə Türkiyədən zorla dartılıb alınmış olan Batum, Qars və Ərdahan nahiyələri genə türklərə qaytarılmışdı. Fəqət Müttəfiqlərlə bağlanan sülh əhdnaməsinə görə türklər bittamam [bütövlükdə] Qafqaziyanı tərk etməyə məcbur və 1914-cü sənədəki sərhədlərində bərqərar oldular. Türklər tərəfindən boşlanan həmin bu müsəlman yerlərinə dərhal bir tərəfdən gürcülərin, digər tərəfdən ermənilərin iştahası artıqlaşdı. Qoy gürcülər və ermənilər bilsinlər ki, o yerlər sahibsiz deyildir ki, onlar oranı rahat zəbt edə bilsinlər. O yerlərin birinci sahibi və təyini-müqəddərat hüququ üzrə həman o yerlərin yerli xalqı türklərdir.

Türklər Azərbaycandakı iğtişaşın yatırılması ilə tarixdə mühüm bir səhifə tutdular. Türk Ordusu paytaxtımıza daxil





olanda bir para kürdlərlə başıpozuqlar yerli əhalinin pis adamları ilə mart ayının qisasını almağı fikirlərində qoyub, başladılar ermənilərdən öldürməyə və qarət eyləməyə. Həman saat o nəcib Nuri paşa həzrətlərinin hökmünə görə bu fitnənin qabağını almaqdan ötrü yüz nəfərdən ziyadə öz müsəlmanlarının asılmasına hökm verdilər və icra etdilər. Türk komandası iğtişaş salanların gözlərini qorxuzmaq üçün hər bir asılmış şəxsin üstünə eylədiyi əməli kağıza yazıb yapışdırdılar. Və bu növ ilə türklər az bir zamanda bütün cinayətlərin, oğurluqların qabağına möhkəm bir sədd çəkdilər və xalqa, asayiş sevənlərə azad nəfəs çəkmək mümkün oldu. Mart və sentyabr hadisələri Bakının ticarət və sair əhvalına öylə bir ağır zərbə vurmuşdur ki, düzəlməyinə daha bir çox vaxt istər. Bakı alındıqdan sonra Azərbaycan Məclisi-Müəssisanı dəvəti üçün hazırlıqlar görəcək komisyonun işə başlaması mümkün olurdu.

Dörd aydan tez çağır[ıl]a bilməyən Məclisi-Müəssisan əvəzində məmləkəti məclissiz qoymamaqdan ötrü noyabr ayının 16-da 1918-ci sənədə köhnə Milli Şura, sabiq siyahıları üzrə çağırılıb bütün əzasını [üzvlərini] 130 nəfərə qədər artırmaq ixtiyarı verildi. Doğrudan noyabrın 16-da açılmış həmin bu məclis böyük qorxu altında olub birinci dəfədir ki, böylə bir məclisin dəvəti mümkün görülmüşdü. Məclisin müvəqqəti sədri Məhəmməd Əmin Rəsulzadə siyasi, ictimai əhvalımız xüsusunda əvvəlcə nitq söylədi, sonra Heyəti-Vükəla rəisi [Baş nazir] Xan Xoyski cənabları keçirdiyimiz əhvali-siyasiyyə xüsusunda lazımi bəyanat verdi.

Noyabr ayının əvvəllərində 1918-ci sənədə Şurayi-Milli açılmadan qabaq Azərbaycan hökuməti Amerika Cümhuriyyəsinin rəisi Vilson cənablarına bu məzmunda bir teleqraf göndərdi:

*"Cahan müharibəsinin yanğınlı və heybətli tufanı ki, onun gətirdiyi fəlakət və xəsarət artıq bəşəriyyəti cana gətirmiş, tökülən qanların sel kimi axdığı zamanda siz özünüzə insaniyyət və bəşəriyyət naminə hərəkət verib sülh və müsalimət [asayiş] baydağını ələ tutub bütün mövcud qüvvənizlə qan tökənlərə, fəlakət edənlərə artıq sülh və müsalimət zamanının və bilümum [ümumiyyətlə] bütün mübahisəli məsələlərin ancaq sülhlə həll olunacağı[nı] uca avaz ilə qulaqlarına yetişdirdiniz. Sizin göstərdiyiniz mərhəmətdən cəhənnəmnümun [cəhənnəm kimi] ataş yağdıran makinaların və topların gurultusu kəsildi. İnsanların məhvinə icad edilən silahları əridib rəncbər kotanları yenidən qayrılmasına vaxt yetişmişdir. Tarixi dəqiqələrdə ki insaniyyət namına qalxıb insanı onun məhvinə hazırlanılan bəlalardan müdafiə və mühafizə etmək üçün, həm də xırda və balaca millətlərin hüququnu gözləyib onları cahangirlərin istibdad pəncəsindən xilas etmək niyyəti ilə meydana çıxdınız və cümlə cahana mürüvvət və rafət [lütf, mehribanlıq] nə olduğunu eşitdirdiyiniz anda Qafqaziyada mövcud üç milyona qədər Azərbaycan türk xalqı ki, Cahan müharibəsinin hər bir fəlakətindən çıxmış, eyni zamanda Müttəfiq ordu ilə bərabər Karpat dağlarına qədər rəşidanə qanlarını tökmüşlər, indi istiqlaliyyət arzusu ilə müstəqil bir dövlət təşkil etmişlərdir. Bizim cavan Azərbay-*

*can Cümhuriyyəmizin binası əhalisinin bilafərqi-[millət] və məzhəb rizası ilə [millət və məzhəb fərqi olmadan bütün əhalisinin razılığı ilə] ədalət və müsavat üzrə mayısın 28-ndə 1918 sənədə qoyulmuşdur.*

*Azərbaycan Hökuməti, əhalisinə bütün siyasi, ictimai ixtiyaratı bəxş etmiş və bilümum səyini mədəniyyət, insaniyyət yoluna verməklə məmləkətdə ticarətin və sair mədəni işlərin davamına çalışır. Azərbaycan Cümhuriyyəsinin qaydalarını bilmək üçün həm də bu cümhuriyyətin getdiyi yolunu dürüst və doğrucasına dərk etməyə, mədəni hökumətlərin nümayəndələri şahid ola bilər.*

*Azərbaycan Cümhuriyyəsi də isbat etmiş ki, o da qeyri [başqa] mədəni, müstəqil millətlər kimi müstəqilcə yaşamağa müstəhəqq [haqqı çatan], qadir və qabildir. Ancaq rəsmiyyət üçün onun istiqlaliyyətinin və hüququnun qeyri müəzzəm millətlər [digər böyük millətlər] tərəfindən qəbulu arzu olunur. Və qeyri millətlərlə əlaqeyi-mədəniyyəni düzəldib yaşayacaqdır. Cümlə müəzzəm Avropa millətlərinə rücu [müraciət] etməkdən əvvəl cavan Azərbaycan Cümhuriyyəsi əvvəlcə sizin alicənab şəxsiyyətinizə – ki xırda millətlərin hüququnu müdafiə etməyə sizin cənablarınız qalxmışdır – müraciət edib də sizdən onun istiqlaliyyətini təsdiq etdirməyi və bütün millətlər üçün etiraf etmiş olduğunuz müstəqil yaşayış hüququndan istifadə etdikdə qarşımıza çıxacaq maneələri rəf və dəf etməkdə [aradan qaldırmaqda və uzaqlaşdırmaqda] millətimiz sizdən ali müzahirət [dəstək] gözləyir.*

*Heyəti-Vükəla rəisi: Fətəli xan Xoyski*

*Xariciyyə naziri vəzifəsini ifa edən: Adil xan Ziyadxan"*

Noyabr ayının 17-də 1918-ci sənədə Azərbaycan paytaxtında böyük bir əhvalat vaqe oldu. Böylə ki, həmin bu gündə bizim paytaxtımıza müttəfiq ingilis, Amerika və Fransa ordusu başda general Tomson komandan olmaqla varid [daxil] oldu. Məlum olduğu üzrə, Ənzəlidəki Müttəfiq ordusu nümayəndələri Bakıdakı Türk komandasına Türkiyə ilə bağlanan əhdnaməyə görə türklərin Bakıdan çəkilib getməli olduqları barəsində bir teleqram göndərmişlərdi. Bu əhvalat məlum olduqdan sonra Azərbaycan Hökuməti tərəfindən general Tomson ilə zəbanən [dillə; üz-üzə] danışıqdan ötrü məşhur ədib və mühərrir Əhməd bəy Ağayev, hazırkı Rəisivükəla Nəsib bəy Yusifbəyli və Məclisi-Məbusan əzasından [üzvlərindən] Musa bəy Rəfiyevdən ibarət bir heyət Ənzəliyə göndərildi. Danışıq əsnasında Azərbaycan nümayəndələri Müttəfiq nümayəndələrinə Azərbaycandakı idarə və bütün işlərin Azərbaycan hökuməti əlində olduğunu, eyni zamanda bu hökumətin Müttəfiqlər tərəfindən tanınmalarını və arada yanlışlıq və ixtilaf çıxmamaq üçün onlara lazımi əhvalı bildirmişlərdir.

Noyabr ayının 16-da Ənzəlidəki nümayəndələrimizdən bu məzmunda bir teleqram vüsul oldu [gəlib çatdı]:

*"Müttəfiq ordular nümayəndəsi Azərbaycan Hökuməti ilə əlaqədə bulunmaq istəyirlər. Bütün siyasi, ictimai idarələr və təşkilatlar öz qaydasında qalacaqlar. Tək-cə Bakıda Tomson general-qubernator vəzifəsində olacaq və Bakı polis işlərinin üstündə ingilislərdən bir nəfər olacaqdır."*

Bu teleqramı aldıqdan sonra hökumətimiz dərhal Ənzəliyə bu məzmunda bir cavabi teleqram göndərmişdir:

*"Müttəfiq ordunun Baş komandanı Tomson cənablarına.*

*Azərbaycan Hökuməti tərəfindən sizin komandanız altında Bakıya gəlməyə Müttəfiq orduya mane yoxdur. Hökumət əmindir ki, Müttəfiq ordunun Azərbaycana gəlməsi Azərbaycanın Hökuməti daxili işlərinə qarışmamaq surətdə istiqlaliyyətimizə və məmləkətimizin tamamiyyətinə xəta toxunmaz. Hökumət genə ümid edir ki, nümayəndələrimizlə edilən danışıqdan sonra bir daha şəxsi görüşməklə əlaqəmiz və münasibətımız daha da aydın olacaq. Azərbaycan Hökuməti tərəfindən gələcək ordu üçün lazımi tədarük görülməkdədir."*

Cavabında general Tomson bu məzmunda bir teleqram göndərmişdi:

*"Azərbaycan Cümhuriyyəsi rəisinə.*

*Mənə göndərdiyiniz teleqrama təşəkkür edirəm. Eyni zamanda ümidvaram ki, göstərdiyiniz yol ilə müttəhidən [birgə] hərəkət edər isək, hər iki tərəfin ehtiramına və əlaqəsinə səbəb olacaqdır.*

*General Tomson"*

General Tomsonun axırıncı teleqrammasının məzmunu, yəni Azərbaycan Cümhuriyyəsi rəisinə general Tomson müraciət etdikdə işlətdiyi sözlərdən – və göstəriləcək yol ilə hərəkət edəcəklər və bu hərəkətdən əlaqənin gözəlləşməsi, Müttəfiq ordunun buraya gəlməsini gözləməklə onların burada tutacaqları mövqe türklərin tutuğu mövqe olacaqdır – zahir də oldu.

Noyabrın 17-sində dəniz üzündə cənub səmtində gəmilər görünməkdə oldu və saat 2-də general Tomsonun xüsusi vaporu "Qafqaz-Merkuri" körpüsünə yanaşdı. Hökumət məni və Daxiliyyə naziri Behbud xan Cavanşiri Müttəfiq dövlətlər nümayəndələrinin paytaxtımıza gəldikləri münasibətilə təbrik etməyə göndərmişdi. Mənim təbrik sözlərim bu idi:

*"Azərbaycan Hökuməti tərəfindən mən Xariciyyə naziri vəzifəsini ifa edən, sizi pişvaz etməyə vəkil edildim. Bu surətlə Müttəfiq ordunun Baş komandanı və nümayəndəsi sifəti ilə paytaxtımıza vürudunuzu hökumət tərəfindən təbrik edirəm. Cahan müharibəsi nəticəsində millətlərin bir-birindən ayrı düşdüyündən, eyni zamanda qan içində qərq olmuş halda yenə təzə işıqlı bir aləm açılması aşkardır. Cavan Azərbaycan türk xalqı Cahan müharibəsinin fəlakətindən xilas olub əbədi qanuni və müstəqil səltənət həyatına qədəm qoyur. Bizim millətimiz əmindir və ümid edir ki, onların Avropa və Amerika mədəni qardaşları insaniyyətin təriqətini [yolunu] nəzərə alıb, mədəni ailələrinə daxil etməkdən baş qaçırmayacaqlar."*

Sonra generalı Daxiliyyə naziri, Bələdiyyə İdarəsinin rəisi müavini və sair təşkilat nümayəndələri təbrik etdilər. Təbrik nitqimə cavabən general Tomson belə söylədi:

*"Cahan müharibəsinin axıra yetişməsinə görə sizi təbrik edirəm və sizə məlum edirəm ki, mən Müttəfiq ingilis, Amerika və Fransa müəzzəm [böyük] dövlətlərinin nümayəndəsi sifəti ilə komandam altındakı ordu ilə buraya gəlməkdən məqsədim Türkiyə ilə əqd et-*

*diyimiz sülhnaməyə görə buranı sülh və müsalimət [asayiş] qaydası ilə saxlamaqdır. Və sizin daxili işlərinizə nə indiki zamanda və nə də gələcəkdə əbədən [əsla] müdaxilə etmək qəsdində deyiliz. Mən ümid edirəm ki, bir yerdə işləməklə gözlədiyimiz məqsəd əldə olacaqdır."*

(yenə var)

*Adil xan Ziyadxan*

*Ədəbi sütunlar*

**QÜRBƏT ELLƏRDƏ YADİ-VƏTƏN***

*("Karpat" xatirələrindən…)*

- 3 -

Qürbət ellər, əgərçi oldu yerim,
Sənə aid bütün düşüncələrim.
Ey məni bəsləyən çəmənzarım,
Ey xəyalı rəfiqi-əfkarım,
Karpat üstündəyəm, könül səndə
Tairi-dil o gülşən üstündə.
Sən yuvam, laneyi-həyatımsan,
Bağzari-tərənnümatımsan
Məni şair doğan anam səndə,
Əbədiyyət məzarı sinəndə.
Çox uzaq olsa da bu tən səndən,
Könlüm ayrılmayır, vətən, səndən.
Dostlar səndə, səndə yaranım,
Ey mənim aşiyani-zişanım!
Sənsən öz oğlunu qucaqda tutan,
Bəsləmək üçün əkməyin yaratan!
Və açan süfrəni həyatı üçün,
Qucağın son yeri məmatı üçün.
Ey xəzanı gözümdə fəsli-bahar!
Ən gözəl torpaq, ey sevimli diyar!
Sən kitabi-türab içində nəsən?
Ey gözəl parça, qit'eyi-əhsən!
Hüsnlər qaynayır zəminindən,
Mənbeyi-hüsnsən a şanlı vətən!
Dağların ziqürur, pürəzəmət
Eyləyir ərz çöhrə vü qamət.
Yüksələnlərdə var qüruri-vücuh,
İstəyir adəm olsun, istəsə kuh.
Gözəlin, yüksəyin təbiətidir –
Kibr satmaq həmişə adətidir.
Sən də, ey kuhi-zişükuhi-vətən.
Həm gözəlsən və həm də yüksəksən.
Yaxışır cisminə böyük əzəmət.
Ey uca boylu, heykəli-qüdrət.
Çünki var səndə qaməti-bala,
Ziqürur olmağın deyil bica.
Ey vətən, ey zəmini-müstəsna!
Sən gözəlsən, fəqət ki, biz ə'ma.
Açılanda üyuni-əhli-vətən,
Görəcəklər ki, sən nə dilbərsən.

*Şəhər: Ensteri, 1916*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

*Bu əş'arın [şeirin] əvvələri keçmiş nömrələrimizdə dərc edilmişdir.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

- Rəisi-vükəlanın [Baş nazirin] Ticarət və Sənaye naziri müavini Tağı bəy Səfərəliyevin istefa verməsi haqqındakı təşəbbüsatına dair məruzəsindən sonra qət edilmişdir:

Tağı bəy Səfərəliyevi öz vəzifəsindən ərizəsinə məbni [əsasən] azad etməli.

- Ticarət və Sənaye nazirinin müavin təəyyünü [təyin edilməsi] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Yusifəli Əliyevi Ticarət və Sənaye naziri müavinliyinə təyin etməli.

- Maarif nazirinin kitab almaq üçün para təxsisi [ayrılması] haqqında məruzəsindən sonra qət edilmişdir:

Hökumət ixtiyarındakı 20 milyon fonddan Nəzarətə [Nazirliyə] kitab almaq üçün 18 min rublə buraxılsın.

- Rəisi-vükəlanın Bələdiyyə İdarəsinə faizsiz 35 milyon qərz [borc] vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Maliyyə nazirinə tapşırılsın ki, təcili surətdə Bələdiyyə İdarəsinə 10 milyonluq 5 faizli qərz layiheyi-qanuniyyəsi idxal etsin. İşbu qərz bu qayda üzrə verilməlidir: birinci, ikinci sənə üçər milyon, üçüncü sənədə isə qərzin bütün qalan hissəsi.

2) Bələdiyyə İdarəsinin maddətən fəna bir halda olduğundan dolayı ki, xidmətçilərə məvacib vermək üçün bələdiyyə pulu yoxdur, Parlaman qanun layihə[si]ni təsdiq edənə kimi Divani-Rəyasətin icazəsi ilə həman qərz hesabına üç milyon buraxılsın.

3) 35 milyonluq faizsiz qərz vermək məsələsi Maliyyə və İqtisadi Komisyonuna verilsin.

- Ərazi naziri müavininin məzuniyyət istəməsi barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Ərazi nazirinə 12 günlük məzuniyyət verməli, nazir qayıdanadək onun vəzifəsini Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə həvalə etməli.

- Ədliyyə nazirinin Nəzarət məxaricatından ötrü 50 min rublə buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət təhti-ixtiyarındakı 20 milyon fonddan Ədliyyə nazirinə 50.000 rublə buraxılsın. Fəqət məbləğ hökumətin 12 fevral qanunu mövcibincə [qanununa əsasən] xərc edilməlidir.

- Maarif nazirinin ünas [qızlar üçün] Tutova gimnaziyasının əşyasını almaq üçün pul buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət təhti-idarəsindəki 20 milyon fonddan Maarif Nəzarətinə gimnaziya əşyasını almaq üçün 120.000 rublə buraxılsın.

- Ərazi nazirinin Gürcüstan siyasi nümayəndəsinə Gürcüstana mednıy kuporos [mis-sulfat] və kükürd aparılması üçün izin vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Gürcüstana fəqət [ancaq] 1500 put mal mübadiləsi əsası üzrə kükürd buraxılsın.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Klenevski bütün nahiyə müfəttişlərinə işbu məzmunda təmimnamə [göstəriş] göndərmişdir:

Qaçqınları işləməyə alışdırmaq halhazırın ən birinci məqsədlərindən olduğu üçün məhəlli [yerli] qüvvələr bu yolda ciddən çalışmalıdırlar. Böylə olarsa, dövlət xəzinəsinin xərci işə yaramaz qaçqınlar üçün bir qədər də asan olacaqdır, zira bir çox təşkilatlara ehtiyac

vardır. Buna görə bütün müfəttişlər və başqa Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müəssisələrindən rica edilir ki, işə yarar qaçqınlar üçün lazımi emalatxanalar və məhəlli iş müəssisələri güşad edilsin [açılsın].

Təmimnamənin axırında nazir rica etmişdir ki, işbu məsələyə lazımınca fikir verilərək qaçqınları zəhmətə alışdırmaq üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Məsai Nəzarəti dəftərxanası sabiq mülkündən Ticarət və Sənaye Nəzarəti mülkünə köçmüşdür.

## YANDIRICI XƏBƏRLƏR

Hər gün yüzlərcə çılpaq, bənizi soluq Göyçə qaçqınlarının soqaqlarda səfil-səfil dolaşdıqları görülür. Bu günlərdə Qaramurad kəndi vəkillərindən bütün Göyçənin düşmənlər tərəfindən zəbt və təxrib olunduğunu eşitdim. Zalımların xəncəri ağzından bir dürlü canını qurtaran zavallılar ətraf müsəlman kəndlərində səfilanə dolaşırlar. Düşmənlərin Azərbaycan sərhədini keçərək müsəlman köylərinə hücum etmək fikirləri vardır. Saysız türk və islam qardaş və bacılarımızı yurdundan dağıtdılar, qarlı, soyuq, sərt və daşla torpaqdan ibarət olan çöllərə salmışlar. Biz azərbaycanlılar bunları eşidərək heç bir təşəbbüsdə bulunmayırız. Minlərcə qarı-qızlarımızın namusuna təcavüz olunur. Minlərcə kişilərimiz ölümlə çarpışır. Biz yenə kəndi istirahətimizə məşğuluz.

Bu zülümləri, bu vəhşiliyi icra edən kimdir əcəba?

Əgər erməni hökuməti isə neyçin günahsız əhalini qılıncdan keçirir? Orada əksəriyyəti ermənilər qazanarsa, müsəlman əhalisini də kəndilərinə rəiyyət tanıyaraq, onlarla eyi müamilədə [xoş rəftarda] bulunsunlar. Yox, əgər erməni haydudları isə biz neyçin gözümüzü yumub da qardaşlarımıza edilən bu vicdansızlığı görməyiriz? Biz də könüllü dəstələri təşkil edərək o qanlı əllərə qarşı duralım. Namusi-millimizi müdafiəyə qalxışalım. Bunlar o zalımlardır ki, gürcülərə qarşı da müharibə etdilər. Haqsız yerə, onların da deyil, bir müsəlman ölkəsi olan Borçalını zəbtə qalxışdılar. Lakin, müvəffəq olammadılar. Aciz xoruz kimi geri qaçdılar.

İslam və türk hökuməti adını daşıyan Azərbaycan bu xüsusda tədabirdə bulunacaqdır [tədbirlər görəcəkdir] ümid edirəm. Lakin Azərbaycan türk və islamları isə göz yumaraq qəflət etmə-məlidirlər.

*Gəncə: Davud*

## MÜƏLLİMLƏRİN HALINA DAİR

Gəncə müəllimləri tərəfindən Bakıya hərəkət edən nümayəndələr hökumət dairələrində lazım gələn iqdamatda [təşəbbüsdə] bulunub övdət etdilər [qayıtdılar]. Maarif Nəzarətində tərtib edilən büdcə məvacibi aylıqların [aylıq maaşların] artırılmasından məlumat verib, məzkur [deyilən] büdcə təsdiq edilib həyata tətbiq edilənə qədər bir neçə həftə vaxt gözləmək lazım gəldiyi və bu üzdən müəllimlər pək naçar hala mübtəla olduğu mülahizəsi ilə 7 milyonluq məb-





ləğdən yanvarın əvvəlindən etibarən müəllimlərə artırılmış aylıqların peşin yaxud "bərdaşte" [artırma] üsulu ilə verilməsinə vəd buyurulduğunu müjdə verdilər.

İkinci xəbərin müəllimləri məmnun edəcəyi təbiidir. Çünki, qüvvəti-layəmut ilə [minimal, tükənmək üzrə olan güclə] güzəran edən zavallı müəllimlər birdənbirə bir qaç min rublə alacaqlarını mülahizə edib təsəlli tapdılar. Nümayəndələrə razılıq izhar edib məmnuniyyət göstərdilər. Fəqət maaşların artırılmaq xəbəri onları məmnun edəmməz. Çünki, əhvali-fövqəladə dolayısı ilə maaşlar artırıldıqca, mətaların və ləvazimi-zəruriyyənin də fiyatı tərəqqi edəcəyi şübhəsizdir. Necə ki, həqiqət meydandadır. Hökumətin layihəsi keçməmiş, insaflı tacirlərimiz kəndi "layihələrini" bir-iki ay bundan əvvəldən keçirdilər. Kibritin biri 3 manat, qəndin girvənkəsi 75 manat və qeyri zillət... oldu və həyata da tətbiq edildi. Demək ki, maaş artdıqca, yazıq aylıqçıların pul saymaq zəhməti artacaq və boş yerə sərf edəcəklər.

Məlumdur ki, müəyyən aylıq almaq və məhdud mədaxil ilə böylə qeyri-adi zamanda yaşamaq imkan xaricindədir və bu qədər rüşvətxorluq və sui-istemal da [sui-istifadə də] bu halın nəticeyi-məşuməsindəndir [uğursuz nəticələrindəndir]. Odur ki, hər bir aylıqçı aclıq və yoxsulluq sövqü yaxud halın icabı ilə [vəziyyətin zərurətindən ötrü] hər bir rəzalətə mürtəkib olub [bulaşıb], fürsətdən istifadə edib mənfəəti-şəxsiyyəsini mülahizə edir. Bərəkət versin ki, müəllimlər rüşvətxorluq mənbəyi bulammadığından və kəndi məişətlərinin üsrətlə [çətinliklə] keçməsindən təngə gəlib, namünasib mədaxil mənbələrindən təmini-məişətə [dolanışıqlarını təmin etməyə] məcbur olurlar.

Müharibədən əvvəl aylıq alan məmurlar birinci mövqe tuturdular. Onlar digərlərinə nisbətən təmiz və rahat yaşardılar. Aldıqları maaşa nisbətən xərc edib güzəran edərdilər. Əhali yanında da etibarları var idi. İndi isə aylıqçıdan zəlil və rəzil dolanan, onlardan bədbəxt sinif olmadığı hər kəscə məlumdur. Aylıqçılara nə miqdar maaş verilir-verilsin, nə qədər ki, mayehtacın [ehtiyac maddələrinin] məzənnəsi sabit deyil, zillət çəkəcəklər. Çünki bir tərəfdən bahalıq tərəqqi edib pulun qiyməti düşür amma aylıqçılara verilən manat, manat etibarilə hesab olunur. Halbuki, manatın qiyməti qəpikdən də naqisdir [əskikdir]. Müxtəsərikəlam, nə qədər ki, yalnız müəllimlərə deyil, bütün məmurlara ancaq aylıq verilir, sabit fiyat ilə mayehtac və ləvazimatizəruriyyə verilməyir və onlardan ötrü "Məmurin [məmurlar] kooperativi" yaxud iaşə idarələri təsis edilməyir, vay onların halına!

Şimdi səneyi-tədrisiyyənin nəhayətidir [dərs ilinin axırıdır]. Müəllimlər xahnaxah [istər-istəməz] kəndi vəzifələrini bitirəcəklər. Fəqət onların məişəti təmin edilməzsə, gələcəklərindən naümid olsalar, məəttəəssüf [təəssüf ki], hərəsi bir başqa kəsb [iş, qazanc] dalınca gedəcəkləri mühəqqəqdir [şübhəsizdir] və bu halları da hökumət nəzərə alıb maarif rəhbərlərinin məişətlərini təmin etmək üçün hər dürlü təşəbbüsatdan geri durmaz zənnindəyəm və bu barədə nəinki yalnız hökumət, bəlkə əhali və müəl-

limlərin kəndiləri də qeyrət etməlidirlər. Tacirlərimiz kəndi müamilələrində [əməliyyatlarında, alış-verişlərində] müəllimlərə güzəşt edərlər, müəllimlər də hökumətin maddi müavinəti ilə kooperativ dükanı açarlar və bir qədər də təqazayi-zamanəyə [zamanənin ehtiyacına] görə məxaricdə iqtisada [qənaətə] riayət edərlər və bu halların qeyri-təbii və müvəqqəti olduğunu mülahizə edib, öz müqəddəs vəzifələrinin ifasında qüsur etməzlər və gələcəklərinin parlaq olacağına iman edərlər zənnindəyəm.

*Bu yaman gündür, əzizim, bunun ömrü az olar,*
*Bu deyil Nuh nəbi, ömr qıla tulani.*

*Mirzə Abbas [Abbaszadə]*

## ŞƏRƏFLİ GÜNLƏRİMİZ

Keçmişdə Rusiya hökuməti-müstəbidəsi [istibdad hökuməti] dövründə Rusiyada yaşayan millətlərin öz milli amallarına nail olmamaqları hamıya məlumdur və bu istibdad inqilab ilə məhv olandan sonra hər millət dini, ictimai hüquqlarına malik olmaqdan əlavə, öz siyasi istiqlallarını da dərdəst etmişlərdir [ələ almışlar] və siyasi qüvvələrilə öz milli və ictimai amallarını yürütməyə başlamışlardır. Keçmişdə biz Azərbaycan türkləri məzkur [deyilən] amallara nail olmaqdan biləmərrə məhrum idik. Fəqət istibdaddan sonra istiqlal rifahiyyəti zimnində rifahülhal yaşamağımız [müstəqillik neməti ilə birgə, rifah içində yaşamaq] mədəni amalımız qəbilindən idi. Təşəkkürlər olsun ki, şu amala nail olduq. İndi bundan istifadə edib də, hər bir işlərimizə olduğu kimi öz şüari-milliyyə, diniyyə və ictimaiyyəmizə də əhəmiyyət verməliyik! Məsələn, şüari-milliyyə və diniyyəmizdən əyadi-milliyyə və diniyyəmizdir [milli və dini bayramlarımızdır] ki, bunların şərəfin[in] izdiyadına [artmasına] və əhaliyi-müslimə arasında rəsmən icrasına çalışmalıyız, necə ki, özgə millətlər çalışır. Məsələn, heyiflər olsun ki, bu il Nəbiyi-zişanımızın yövmi-təvəllüdünü [şanlı Peyğəmbərimizin anadan olduğu günü] istibdad əyyamındakı kimi saxladıq və Novruz bayramında xüsusi və rəsmiqəbul ziyarət məclisi olmadı.

İndi bu gün də 27 rəcəbülmürəccəb gəlir. Deməli, şərəfli bir eydi-milli [milli bayram] gəlir ki, bu gün Nəbiyi-əkrəmimiz [alicənab Peyğəmbərimiz] həzrətlərinin rütbeyi-risalətə məbus olan [peyğəmbərlik mərtəbəsinə ucalan] günüdür ki, yövmül-məbəs ilə məşhurdur ki, biladi-islamda [islam ölkələrində] şu günü şərəfli bir günlərdən ədd [hesab] edərək eydi-milli [milli bayram] saxlayırlar. İştə, biz Azərbaycan türkləri də bu cür günləri şərəfli bir gün hesab etməyimiz nəinki istiqlalımıza, bəli, mədəniyyəti-islamiyyətimizə xidmət etmək kimi olmaqdır zənn edirəm. Bu kimi ali bayramlarda qoşunumuz dəxi iştirak edib, rəsmi-keçidlər yapılsa, onun da əhali üçün hüsntəsiri ola bilər ümidindəyəm.

*M. H. Axund Nəsir oğlu*

## ARXADAŞLAR!

Rusiya istibdadının müdam [daim] zülüm və cəfaları və mütəvatirən [dalbadal] əza və təzyiqatı [əziyyət və təzyiqləri] altında əzilməkdə olan millətlərin miyanında [arasında] ən böyük zərbələrə və ən dərdnak [qüssəli] cəfa və əzaya məruz qalan biz Qafqaziya türk və müsəlmanları olmuşuz.

Düşmənlərimiz türklük və islamlığa qarşı ağıl və mürüvvətin qəbul edəməyəcəyi dərəcədə qudurmuşcasına öylə bir düşmənçilik və öylə bir vəhşət izhar etdilər, iləiəbəd hər bir müsəlman olan kimsə şu hadisələri xəvatirlərindən [xatirlərindən] çıxarmayacaq.

Bakıda, Zəngəzurda və qeyridə bir çox əziz və məsum türk və müsəlman qadınları vəhşi və zalım olan erməni könüllüləri əlində günlərlə inildəyib məhv oldu. Nazlı qızlar və gəlinlər küçələr və çöllər uzunu sürüklənib, olmazın həqarət və sərzənişlərinə [töhmətlərə] məruz qalaraq, analar, bacılar oğullarının və qardaşlarının qanlı nəşləri üstə baş açdılar, ağladılar.

Sənələrlə bu nəhv [bu sayaq] ürək dağlayan vəq'ələr [hadisələr] biz türk ünsürünə olub və olur. Fəqət şimdi aləmşümul müharibənin nəticəsi ilə hər bir rusiyalı azad olduğu kimi, biz Zaqafqaziya türkləri də azad olaraq miləlisairənin [digər millətlərin] istiqlaliyyəti-milli fikrinə uyduq. Uyduqsa da, qövldən feilə [sözdən əmələ] çıxarıb istiqlalimilliyyəmizə doğru böyük bir addım atdıq.

Arxadaşlarım! Sevgili vətənimiz Azərbaycan Cümhuriyyətinin yolunda sinələrimizi sipər etməklə namusumuzu və millətimizi müdafiə etmək ən birinci vəzifəmizdir. Biz[im] əllərimizə aldığımız silahlarımız Quranımızı, dinimizi və heysiyyəti-milliyyəmiz[i] mühafizə üçün olub da, Xudavəndi-əhədiyyət [Allah] hüzurunda din və milləti hifz etməyi dəryad etmişiz [öhdəmizə götürmüşük].

Sənələrdən bəri və hətta qərinələrlə bu məmləkət üzrə dalğalanmayan bayrağımızı bu gün təməvvüc etdirmək [dalğalandırmaq] üçün şu əlbisələrlə müləbbəs olub [bu paltarları geyib], ulu tanrının lütf və inayəti ilə məqsədə nail olduq.

Lakin, yoldaşlar!

Bir çox daxili və xarici düşmənlərimiz vardır ki, həpsi bizim məhv və nabud [yox] olmağımızı bəkləyir. Daxili düşmənlərimiz bir taqım vicdansızlardan mürəkkəb [ibarət] olaraq zahirdə sadiqanə bir azərbaycanlı, arxada isə bizim məhv və nabud olmamıza çar-çeşm ilə [dörd gözlə] müntəzirdir. Odur ki, bizim bir nəfərimizdən biməna olan bir qüsur anlayan kimi dərhal "Eh, ağlım bunlardan bir şey kəsmir, bu da başa getməyəcək" kimi nalayiq sözlər deməklə bütün aləmə söyləyir və məhəlli [yeri] gəldikcə də xarici düşmənlərimizlə öz ağıllarına gələnlərdən söyləşib, hər dəm, hər an ayağımızdan çəkirlər. Buna görə, qabaqca ərz eylədiyim kimi əza və cəfaların önünü alıb qərinələrlə və bəlkə əsrlərlə zülüm və sitəm altında əzilən və rəhmsiz bir səyaqda vəhşiliklə qırılan yazıq millətimizi çahi-fəlakətdən [fəlakət quyusundan] qurtarmaq üçün çarə aramalı.

Bu da nə ilə olur?!

"Birlik" və "qeyrət"lə!

Odur ki, hər an bizlərə vacibdir ki, ittihad və ittifaq edib öz heysiyyətimizi düşünəlim və hansı bir təklif qarşısında məsuluqsa, anlayıb, hər zaman namusumuzu və şərəfi-milliyyəmizi müdafiə və

mühafizə edəlim. Nə qədər ki, sülh zamanıdır, hamı millətlərlə ədalət və müsavat üzrə rəftar eyləyib də bütün Azərbaycan əhalisinin hürriyyətini təmin edəlim.

Müharibə vüqu bularsa [baş verərsə], bir qədəm geri durmayıb "marş, marş" vəziyyətində namusumuzun və cümhuriyyətimizin və dinimizin düşmənləri üzərinə yürüyüb, ölər isək vətən yolunda şanlı bir şəhadətlə dərgahi-haqqa [Allahın hüzuruna] alnı açıq gedəriz; qalar isək, milləti-nəcibəmizi bəxtiyar gördükcə günü-gündən iftixar edərək işbu kəlmələri təkrar edəriz:

Yaşasın Azərbaycan Cümhuriyyəti!
Yaşasın millət və Vətən!

*Həsən İxfa*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

- Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə müraciətən məlum etmişdir ki, Bələdiyyə İdarəsi xidmətçiləri yenidən Bələdiyyə İdarəsindən yanvar və fevral ayları əlavələrini istəmişlərdir. Bu məbləğ isə 1.800.000 rubləyədəkdir.
- Bələdiyyə İdarəsi Daxiliyyə nazirindən rica etmişdir ki, veriləcək qərz [borc] hesabına olaraq Vükəla Şurası [Nazirlər Kabineti] nəzdində Bələdiyyə İdarəsinə 1.500.000 rublə pul buraxılsın.

**Şəfiqə xanım Əfəndizadə**

Mart hadiseyi-əliməsindən [kədərli Mart hadisələrindən] sonra Dağıstana və oradan əsil yurdu olan Axıskaya getmiş olan görkəmli müəllimə və mühərrirələrimizdən [yazıçılarımızdan] Əfəndizadə Şəfiqə xanım əfəndi bu günlərdə Bakıya qayıtmışdır. Xanım əfəndi neçə müddətdən bəri İstanbulda idi. Azərbaycanda olduğu kimi orada dəxi camaat işlərində çalışmaq üzrə "Cəmiyyəti-Nisvana" [Qadınlar Cəmiyyətinə] daxil olmuşdu. Bakıya gəldikdən sonra xanım əfəndi burada daimi qalaraq daimi mühərrirlərimiz cümləsində qəzetəmizdə çalışacağını vəd etmişdir.

**Zaqafqaziya Konfransı**

Azərbaycan Hökuməti tərəfindən Zaqafqaziya Cümhuriyyətlərinin Konfransında iştirak etməkdən ötrü intixab olunmuş heyəti-mürəxxəsə [seçilmiş nümayəndə heyəti] üzvlərindən Məhəmməd Əmin Rəsulzadə əvəzinə sabiq Daxiliyyə naziri Xəlil bəy Xasməhəmmədov Tiflisə əzimət etmişdir [yola düşmüşdür]. Fətəli xan Xoyski ilə Məhəmməd Yusif Cəfərov Tiflisdədirlər. Heyəti-mürəxxəsə məiyyətində müxtəlif məsələlərin tədqiq və tənviri [aydınlaşdırılması] üçün ayrıca mütəxəssislər və mütəfənninlər [müxtəlif fənləri bilənlər] dəxi bulunmaqdadır.

**Konfransın təxir edilməsi**

Dünən aldığımız məlumata görə, Dağıstan Cümhuriyyəti nümayəndələrinin dəmiryol tətilindən naşi [ötrü] Tiflisə yetişmədiklərinə görə, Zaqafqaziya Cümhuriyyətləri Konfransı aprelin 27-nə təxir edilmişdir.

**Yeni siyasi nümayəndə**

Eşitdiyimizə görə, Azərbaycan Cümhuriyyətinin Gürcüstan hökuməti nəzdindəki siyasi nümayəndəliyinə Xariciyyə Nazirliyinə təyin edilmiş olan Məhəmməd Yusif Cəfərovun yerinə doktor Məhəmmədrza ağa Vəkilov təyin edilir.

**Candarmalar qəbulu haqqında**

Azərbaycan Dəmiryol mühafizəsi naçalniki Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsinə məlum edir ki, mühafizə qulluğunda artıq yer olmadığından və 120 nəfər namizədlər olduğundan naşi [ötrü] candarmalığa qəbul edilməkdən ötrü verilən ərizələr daha qəbul edilməyirlər. Bunu məlum edərək naçalnik komitədən rica edir ki, bundan sonra candarmalıq ərizələrini artıq qəbul etməsin.

**Məhəllə əhlinin ricası**

Üçüncü uçastok [sahə] dairəsində sükunət edən [yaşayan] əhali Bakı qubernatoruna müraciətən rica etmişdir ki, həman məhəllədə Suraxanski Nijni Naqornı küçələrin küncündə vaqe 54 nömrəli evdə milis nəfəratından olan bakılı Kərbəlayi Əsəd Dərviş Qurban oğlu iki müsəlman fahişəsi saxlayaraq, həman evdə ətraf məhəllə əlvatlarını [lotularını] toplayıb olmazın fənalıqlar yapırdı. Məhəllə əhlinin şikayəti ilə polis müdiri onu milis qulluğundan qovub, qadınları da həman evdən çıxarmışdı. Şimdi isə Əsəd yenə həman qadınları gecələr həman evə gətirib olmazın rüsvayçılıqlarla məşğul olur. Məhəllə əhli bu işdən tamamən nifrətlənərək qubernatordan rica edir ki, tezliklə Əsəd Dərviş Qurban oğlu həman evdən çıxarılsın.

**Zəngəzurluların iclası**

Bazar ertəsi aprel ayının 28-də saat 10-da Nobel qardaşlarının 7-ci mədəni aşxanasında Balaxanıda olan ümum zəngəzurluların iclası təyin edilmişdir. Mədən dairəsindəki bütün zəngəzurluların təşrif gətirmələri arzu olunur. Müzakirə olunacaq məsələlər:

1) Zəngəzur əhvalına dair Cəlil bəy Sultanovun məruzəsi;
2) Daimi komitə seçkisi;
3) Təşkilat məsələləri və məclisdə qalxan məsələlər.

*Müvəqqəti Komitə*

* Aprelin 23-də Bakıya gətirilmiş ərzaq: buğda 1929 put, un 2881 put, kartof 1660 put, arpa 879 put, saman 164 put, ot 1742 put.

**Mətbuat haqqında**

Bakı Nahiyə Məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna zeyldəki [aşağıdakı] məzmunda bir məktub göndərmişdir:

*"Azərbaycan Cümhuriyyətinin İstinaf Məhkəməsi müddəiyi-ümumisinin [Məhkəmə Palatası prokurorunun] 3 aprel tarixli 107 nömrəli tələbnaməsinə görə sizdən rica edirəm, Bakı şəhərində intişar etməkdə olan [nəşr olunan] qəzetələrin siyahısını mənə təqdim etməklə bərabər, 27 aprel 1917 sənəsində Müvəqqət hökumət tərəfindən mətbuat haqqında sadir edilmiş [verilmiş] olan qərardadın hal-hazırda kimlər tərəfindən tətbiq edilməsi haqqında məlumat verəsiniz."*

**Sürgün**

Bakı qalabəyisi [komendantı] qubernatora məlum etmişdir ki, Bakıda sükunət edən Sergey Padşinov Biçeraxov

dəstəsi ilə əlaqədar bir çox hərbi və qeyri ləvazimat saxlamaqda müttəhim edildiyindən tövqif [tutulmuş] və həbs edilmişdir. Məzkurun [adı çəkilən şəxsin] hökumət əleyhinə sui-niyyət və hərəkatda bulunduğunu göstərərək, qalabəyi onun Azərbaycan Cümhuriyyətindən sürgün edilməsini qubernatordan rica edir.

## FƏHLƏ HƏYATINDAN

**Avqust məvacibləri**

Musa Nağıyev mədənində işləyən bir çox müsəlman əmələləri [fəhlələri] avqust ayında qaçdıqları günlərin məvaciblərini almadıqlarından "Müsavat" firqəsinin Bakı Komitəsinə müraciətən rica etmişlər ki, onların haqları məzkur [deyilən] mədən kantorundan alınıb verilsin. Komitə bu barədə kantordan lazımi izahat istəmiş və fəhlələrin geriyə qaytarılmış olan 22 dənə sənədlərini kantor müdirlərinə təqdim etmişdir.

**Şikayət**

Azərbaycan dəmiryolunun Hacıqabul mövqifində [stansiyasında] yaşayan bir dəstə müsəlman konduktorları "Müsavat" firqəsinin Bakı Komitəsinə müraciətən məlum etmişlər ki, məzkur mövqifin naçalniki onları sükunət etdikləri mənzillərdən çıxarıb, kazarmada olduğu kimi hamısına bir dənə ev vermişdir. Böylə mənzilin hifzüssihhə [gigiyena] cəhətindən münasib olmadığını göstərərək konduktorlar rica edirlər ki, onların əvvəlki mənzillərində yaşamalarına imkan verilsin.

Komitə həmin şikayəti Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə göndərib kəndi tövsiyəsini dəxi əlavə etmişdir.

**Bəratülqövllər [protokollar]**

- Aprelin 19-unda Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Çornı-qorod [Qara şəhər] şöbəsinin ümumi iclası vaqe olub zeyldəki [aşağıdakı] məsələlər müzakirə edilmişdir:

Aksiz məmurlarının etinasızlıq göstərdiklərindən Çornı-qoroddan hər gün külli miqdarda aksizsiz olaraq ağ neft (cövhər) aparırlar. Böylə hərəkətin hökumətə xəyanət və zərər olduğunu nəzərə alaraq iclas qət edir ki, tezliklə həman dairədə ruslardan olan aksiz qulluqçuları çıxarılıb, əvəzində müsəlman və ələlümum hökumətin mənfəətini gözləyən şəxslər təyin edilsin.

Qaradovoylar və Çornı-qorod dairəsində olan baqqalların 10-uncu uçastok [sahə] dairəsi pristav müavini rusdan şikayət edib onun çıxarılmasını rica etdiklərindən, iclas onların haqlı olduqlarını nəzərə alaraq həman müavinin çıxarılması haqqında Mərkəzi Komitəyə müraciət etməyi təhti-qərara almışdır.

- Səşənbə [çərşənbə axşamı] günü aprelin 15-ində mədənlərdəki mərkəzi "Müsavat" idarəsinin ümumi iclası vaqe olub, zeyldəki [aşağıdakı] məsələlər müzakirə və həll edilmişdir:

Şəhərdə və mədənlərdə yek-digərinə mərbut [bir-birinə bağlı] fəhlələr ittifaqı təşkil edilməsi üçün bu yaxın günlər zərfində qanunnamə hazırlansın. Mədən dairələrində hər 4 məntəqədə ayrı-ayrı camaat dükanı açılması xüsusunda Bakı "Müsavat" komitəsi vasitəsilə hökumətdən müavinəti-nəqdiyyə [nağd pul yardımı] istənilsin. İdarə nəfinə [xeyrinə] olaraq bu yaxın vaxtlarda teatro verilsin.

3-üncü polis müdiri müavini fəna hərəkatda bulunub 5 nəfər əmələləri döyüb və "Müsavat" firqəsi əzasından [üzvlərindən] olan Cənnət Baxşəli oğlunu dəxi təhqir etdiyindən, tezliklə onun böylə vəhşiyanə hərəkatına bir daha yol verməməkdən ötrü qulluğundan əzl [kənar] edilməsi Mərkəzi Komitə vasitəsilə qalabəyidən [komendantdan] və qubernatordan tələb edilsin.

## AZƏRBAYCANDA

**Salyan xəstəxanası**

Salyan Bələdiyyə rəisi Bakı qubernatoruna məlum etmişdir ki, Salyan şəhər xəstəxanası maddi cəhəti zəif olduğundan qapanmağa məcbur olacaqdır. Bu isə hal-hazırda orada yatmaqda olan bir çox xəstələrin tələf olmasına səbəb ola bilər. Şəhərdə başqa bir xəstəxana olmadığını göstərərək rəis rica edir ki, xəstəxananın davamına lazım olan 20 min manat məbləğin Daxiliyyə Nəzarətindən verilməsi haqqında o dəxi kəndi tərəfindən müavinətdə bulunsun. Bu məbləğ verilməzsə, xəstəxana bağlanılacaqdır.

**Yüzbaşıdan şikayət**

Cavad uyezdi [qəzası] İmranlı kəndi əhilləri Bakı qubernatoruna ərizə verərək məlum etmişlər ki, həman kəndin yüzbaşısı Məşhədi Qəmbər Atakişi oğlu məzkur [deyilən] kənd əhalisinə son dərəcə zülüm və əziyyət etməkdən çəkinməyir. Böylə ki, kəndliləri nahaq yerə döyüb incidir və neçə günlərlə həbs edir və camaatdan külli miqdarda "vergi" alır.

**Lənkəran əhvalı**

Bakı əhli Ələkbər İbrahim oğlu "Müsavat"ın İstixbarat [məlumat] şöbəsinə Lənkəran əhvalı haqqında zeyldəki [aşağıdakı] məlumatı təqdim etmişdir:

- Gərmətük kəndində Zülfüqar Hacı Məhəmməd oğlunun evinə bir dəstə xaxol əsgər hücum edib pul tələb etmişlərdir. Pul tapammadıqlarından bədəfkarlar [canilər] məzkuru [adı çəkilən şəxsi] tüfəng gülləsi ilə ayağından yaralayıb qaçmışlardır.

- Yenə həman kənddə xaxollar Kərbəlayi Səfərəli Məşhədi Cabbar oğlunun evinə hücum edib pul tələb etmişlərdir. 7 min pul ilə bir qədər ev müxəlləfatı [ev əşyası] qarət edərək getmişlərdir. Hayküyə getmiş olan qaradavoy Balaağa Məşhədi Manqay oğlunun da 300 manat pulunu və bir pasportunu almışlardır.

- O günün sabahı bədəfkarlar Velədi kəndinə gedib Ağahüseyn Cavad oğlunu tüfəng gülləsi ilə öldürüb getmişlərdir. Həman canilərin arasında erməni saldatları dəxi vardırlar.

- Kazaklar rəisi olan quldur Xaliq bu günlərdə Azərbaycan əsgərlərinin Lənkərana tərəf hərəkət edəcəkləri xəbərini əhali arasında nəşr edir [yayır]. Buna görə də erməni saldatları əhaliyə artıq dərəcə əziyyət verməyə başlamışlardır və yenə Böyük Bazarda çayçı Dadaş xaxollar tərəfindən qılıncla ağır surətdə yaralanmışdır.

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Peyvənd etmək üçün təzə "limfa" vardır. Telefon nömrə: 58-39.

*5779*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

**Royal və pianinolar**

Külli miqdarda təzə və bir az köhnə məşhur fabrika royal və pianinoları satılır. Bundan əlavə skripkalar, violonçellər, metronomlar, fortepiano altına qoymaqdan ötrü stul və podstavkalar [dayaqlar], notalar, notalara məxsus etajerkalar [etajerlər] dəxi satılır. Birjavaya küçə Adamovun evində nömrə 19, mən-zil nömrə 7.

*8735*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 508. "Xariciyyə Nəzarəti Ümuri-siyasiyyə müdiri-ümumisi": qəzetdə "Ümuri-siyasiyyə" yerinə səhvən "Ümuri-xariciyyə" getmişdir.

"Dördlər Şurası" (yaxud Böyük Dördlük): Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən əmələ gələn şura ("Böyük Dördlük" yaxud "Dördlər Şurası"); bura ABŞ prezidenti Vudro Vilson, Britaniya, İtaliya və Fransa Baş nazirləri Lloyd Corc, Vittorio Orlando və Jorj Klemanso daxil idi.

**Qəzetələrdən**

səh. 511. "imperatoru və kronprinsi": Almaniya imperatoru II Vilhelm və onun oğlu, Almaniyanın kronprinsi (vəliəhd şahzadəsi) Fridrix Vilhelm nəzərdə tutulur.

səh. 512. "Almaniya Paris Konfransına öylə töhfə hazırlayır ki, necə ki, Napoleon Vyana Konfransına hazırlamışdı.": Fransa inqilabı və Napoleon müharibələrinin ardından 18 sentyabr 1814 – 9 iyun 1815-ci il tarixləri arasında keçirilən ümumavropa konfransının (Vyana Konfransının) gedişatı əsnasında Napoleon sürgün edildiyi Elba adasından 26 fevral 1815-ci ildə qaçmışdı.

səh. 513. "Qaqrın işğalına dair": "Qaqra" qəzetdə "Qaqr" kimi getmişdir.

**Dağıstan əhvalı**

səh. 513. "Yedinaya Rossiya": Bakı Rus Milli Şurasının gündəlik qəzeti. 1918-1919-cu illərdə Bakıda nəşr olunmuşdur.

**Cümə günkü**
**mühüm xəbərlər**

səh. 515. "reyd": liman girəcəyində gəmilərin dayanması için yer.

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

**"Qürbət ellərdə yadi-vətən"**
**şeiri (səh. 522) üçün lüğət:**

rəfiqi-əfkarım: fikirlərimin yoldaşı
tairi-dil: könül quşu
laneyi-həyat: həyat yuvası
bağzari-tərənnümatım: tərənnümlərimin, nəğmələrimin bağçası
tən: bədən
yaran: dostlar, sevgililər
aşiyani-zişan: şanlı yuva
əkmək: çörək
məmat: ölüm
kitabi-türab: torpağın kitabı
qiteyi-əhsən: ən yaxşı ərazi
hüsnlər: gözəlliklər
mənbeyi-hüsn: güzəlliklər mənbəyi
kuh: dağ
kuhi-zişükuhi-vətən: vətənin çiçəkli dağı
qaməti-bala: uzun boy
ziqürur: qürurlu
bica: boş yerə, səbəbsiz
zəmini-müstəsna: müstəsna torpaq
ə'ma: kor
üyuni-əhli-vətən: vətən övladlarının gözləri

"Dağların ziqürur, pürəzəmət / Eyləyir ərz çöhrə vü qamət": "Dağların öz çöhrəsini və qamətini böyük bir qürur və əzəmətlə nümayiş etdirir."

"Yüksələnlərdə var qüruri-vücuh": "Yüksələnlərin üzündə qürur olur."

**Müəllimlərin halında dair**

səh. 526. "Bu deyil Nuh nəbi ömr qıla tulani": "Bu Nuh nəbi deyil ki, uzun-uzadı yaşasın". Dini rəvayətlərə görə, Nuh peyğəmbər 1000 ilə yaxın ömür sürmüşdür.

**Şərəfli günlərimiz**

səh. 526. "qoşunumuz dəxi iştirak edib": "qoşunumuz" yerinə qəzetdə "qonşumuz" getmişdir.

“M. H. Axund Nəsir oğlu”: qəzetdə “M. X. Axund Nəsir oğlu” kimi getmişdir; bu imza müəllim Mirzə Hüseyn Axund Nəsir oğluna məxsusdur.

**Azərbaycanda**

səh. 531. “Böyük Bazar”: Lənkəran şəhərinin məhəlləsi.





**Bazar ertəsi, 28 aprel 1919-cu il, nömrə 168**

AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 27 rəcəbül-mürəccəb sənə 1337. 28 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ağaxanım, Əliheydər, Yasəmən Babayevlər birincinin əri və ikincilərin atası **Novruzqulu Babayevin** həmin aprel ayının 27-də vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər. Mərhumun cənazəsi aprelin 28-də, saat 10-da öz evindən (Aziatski küçə nömrə 96) Hacı İmaməli məscidinə aparılacaqdır.

*8740*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Hacıbala Səfərəliyev, Məhəmmədhüseyn Bünyadov öz sevgili qövmləri [qohumları] **Novruzqulu Babayevin** həmin aprel ayının 27-də vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər. Mərhumun cənazəsi aprelin 28-də, saat 10-da Aziatski küçədə öz 96 nömrəli evindən Hacı İmaməli məscidinə aparılacaqdır.

*8741*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Mirfəttah, Mirdaməd və Seyidağa Məhəmmədovlar öz sevgili dostları Əliheydər Babayevin atası **Novruzqulu Babayevin** həmin aprel ayının 27-də vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər. Mərhumun cənazəsi aprelin 28-də, saat 10-da öz evindən (Aziatski küçə nömrə 96) Hacı İmaməli məscidinə aparılacaqdır.

*8742*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Məşhədi Hüseyn, Məlikhüseyn, Mətləb Məlikovlar öz sevgili əmiləri **Novruzqulu Babayevin** həmin aprel ayının 27-də vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər. Mərhumun cənazəsi aprelin 28-də, saat 10-da öz Aziatski küçədə 96 nömrəli evindən Hacı İmaməli məscidinə aparılacaqdır.

*8745*

**ELAN**

Fəxri-kainat Peyğəmbəri-zişanımızın [Kainatın fəxri olan şanlı Peyğəmbərimizin] yövmi-bə’səti [peyğəmbərliyə başladığı gün] münasibətilə 28 aprel 1919 tarixin-

də iniqad edəcək [yığışacaq] Məclisi-Məbusan iclasının təxir edildiyi elan olunur.

*T-114*

**FƏHLƏ KONFRANSI**

Səşənbə [çərşənbə axşamı] günü aprelin 29-u səhər saat 10-da Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi Parlaman binasında Türk-İslam Fəhlələri Konfransı təyin edilmişdir.

Fəhlə arxadaşlardan xahiş olunur hər 50 nəfərə bir nümayəndə seçib göndərsinlər. Yoldaşlardan vaxtında gəlmələri rica olunur.

*T-115*

**ELAN**

Xırda Mədənçilər və Neftçilər İttifaqı idarəsi bununla şaxt[a] sahiblərinə elan edir ki, səşənbə [çərşənbə axşamı] günü aprelin 29-nda səhər saat 10-da "Minyon" teatrosu binasında (Şaxski küçə nömrə 35) 2-ci ümumi iclas təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) 1917-1918-nci illərin atçotu [hesabatı].

2) Təftiş komissiyasına və idarəyə üzvlər intixabı [seçilməsi].

3) "İttihad" istehlak cəmiyyətinin 1917-1918-nci illərinin atçotu.

4) İclasda qaldırıla biləcək məsələlər.

*8743*

**ELAN**

Bu il 9 mart tarixli və 5 nömrəli məsləhətnamə ilə Sabunçu camaatının iclası müqərrər edildiyinə [qərarlaşdırıldığına] görə, Sabunçuda üçüncü dalanda (tupik) vaqe mərhum Əsgərəli Cavad oğlunun yetimlərinə məxsus 68 nömrəli ev bu gələcək may ayının ikiminci cümə günü müzayidə [hərrac] ilə satılacağından, həman evi almaq istəyənlər yövmi-məzkurda [deyilən gündə] saat 12-də məzkur [deyilən] evin həyətinə gəlsinlər. Qəyyum: Süleyman Süleymanzadə.

*8746*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

## QİSMİ-RƏSMİ

**Daxiliyyə Nəzarətindən**

Əmrnamə 55

16 aprel 1919

Bu tarixdən Daxiliyyə Nəzarəti işlərini idarə etməyə başladığımı Daxiliyyə Nəzarəti idarəsinə elan edirəm.

Daxiliyyə Nəzarətinin fəaliyyət məsələsini mən gələcəkdə məmləkət içrə qanun və qaydanın möhkəmləşməsi qoyuram.





Hər millətdən, firqələrdən, əhali dəstələrindən və ya tək adamlardan baş verəcək hər cür anarxiya çıxışları mənim tərəfimdən ciddi müqavimətə düçar olacaqdır.

Vətəndaşların şəxsi və mülki mühafizələri üçün mən ən ciddi tədbirlər görəcəyəm.

Azərbaycan daxilində yaşayan hamı millətlər mənim şəxsimdə özləri üçün bir bərabərdə münasibat və onların qanuni hüquqlarının mühafizəsini görəcəkdirlər.

Heç bir milli ədavətə mənim tərəfimdən yol verilməyib, bu yolda olan hər cür nizamsızlıqlar mənim ixtiyarımda olan vasitələrlə yatırılacaqdır.

Mənim, həmçinin, bilavasitə qəsdim məəttəəssüf [təəssüf ki], məhəlli [yerli] məmurlar arasında, ələlümdə [əsasən] onun aşağı dərəcə xidmətçiləri arasında kök salmış rüşvətxorluq, pul oğurlamaq, əhalini soymaq və möhtəkirliklə mübarizədən ibarət olacaqdır. Bu cür işlər haqqında mən amansız olub vaxtlı-vaxtında cinayətləri ciddi surətdə istintaq edib, müqəssirləri tapıb, onları məhkəməyə vermək üçün hər cür tədbirlər ittixaz edəcəyəm [tədbirlər görəcəyəm].

Bu münasibətlə mən qubernatorlara uyezdni naçalniklər [qəza rəisləri] vəzifəsinə azad bir surətdə namizədlər tapmağı vagüzar edirəm [tapşırıram] ki, təqdim etdikcə mən təsdiq edəcəyəm. Uyezdlərdə [qəzalarda] aşağı dərəcə məmurlar vəzifəsinə namizədlər seçkisi üçün də uyezdni naçalniklərinə böylə azad bir ixtiyar vagüzar edilməlidir. Fəqət bunu da lazım bilirəm xəbər verim ki, təyin edilən şəxslərin hərəkəti məsuliyyətini mən qubernatorlara buraxıram.

Yuxarıda göstərdiyim məqsədlərə nail olmaqdan ötrü mən bütün Daxiliyyə Nəzarəti xidmətçilərindən ciddi iş və xidməti vəzifələrinin sədaqətlə ifa ediləcəyini gözləyirəm.

*Daxiliyyə naziri: Nəsib bəy Yusifbəyli*

**Əxzi-əsgərə [hərbi çağırışa] dair**

"İstiqlal" qəzetəsinin 12-ci nömrəsində "Seyr etdiklərim" ünvanlı məqalədə millətimizə aid bəzi nəsayeh [nəsihət] cümləsində yazılır:

*"Mollalarımız əxzi-əsgər [hərbi çağırış] məsələsini böyük bir mədaxil mənbəyi etmiş. Para alaraq dövlətlilərin balalarını əsgərlikdən xilas edir, xilas etdikcə iştahası artır və xilas etmənin qiymətini artırır."*

Məşixət [Şeyxülislamlıq] İdarəsi bunu təsdiq edir ki, "Hübbüldünya rə'sü külli xatiyətən", yəni "Hübbi dünya həst rə'si hər xəta – Əz xəta key mişəvəd iman əta."

Vaqiən [doğrudan da] təcrübə və müşahidə etdiyimiz əhvalatdan sübuta yetişir ki, quldurlar bəzi dövlətməndləri məst edib, mallarını qumar və ya başqa hiylələrlə əllərindən aldıqları kimi, xaricilər islam əhlinə fürsət verib onları alış-verişə məşğul etməklə, özləri milli işlərə iştiğal edib böyük tədarüklər görürlər.

İslam əhli huşa gələndən sonra nagah xəbər tuturlar ki, başqaların hər növ milli əmrləri [işləri] hazırdır və böylə olduqda islam əhli əgər tamam qazandıqlarını fəda etsələr də dəxi nicat və xilas imkanı olmayır.

Allahtaala bu tövr mərəzlərdən əhli-islama şəfa verib onları dünya və axirət işlərində huşyar [ayıq-sayıq] etsin.

Lakin bunuyla belə Məşixət İdarəsi lazım görür izhar qılsın ki, ümumi surətdə camaat, mollaları əxzi-əsgər əmrində [hərbi qulluğa çağırış işində] xain hesab etməsinlər. Zira mollalarımızın əksəri din əmrində və millət işlərində və əxzi-əsgər məsələsində artıq qəyur [qeyrətli, səy göstərən] və ziyadə hümmətlidirlər və hərgiz para almaqla əxzi-əsgər işlərində xəyanət etməzlər zənnindəyiz. Çox gözəl olardı ki, bu barədə xəyanət edən mollalar xüsusi halətlə və sübutlarla Məşixət İdarəsinə məlum ediləydi ki, böylə xainlərə xidmətdən kənar olmaqdan əlavə lazımeyi-cəza veriləydi və başqalara da ibrət olub böylə əmrlərdə islama xəyanət etməkdən ehtiraz edəydilər [çəkinəydilər].

*Şeyxülislam*
*[Axund Ağa] Ağaəlizadə*

## AZƏRBAYCAN VƏ İRAN

Tehran qəzetələri cümhuriyyətimiz naminə Tehrana gedən heyəti-mürəxxəsənin [nümayəndə heyətinin] vürudunu [gedib çatmasını] təbrik etməklə bərabər, "İran və biz" məqaləsində bəhs etdigimiz mövzunu təcdid edərək [yenidən gündəmə gətirərək] "Azərbaycan"ın özündən deyil, ismindən uzun-uzadıya bəhs etməyə başlamışlardır.

Başda möhtərəm "İran" qəzetəsi olduğu halda Tehran qəzetələri "Yeni doğmuş islam hökumətinin" adından "dilgir [dilxor] olduqlarını" qeyd edir, iki qardaş millətin arasına soyuqluq düşməməsi üçün "Azərbaycan" isminin dəyişməsini təklif edirlər.

İran qəzetələrincə bizim, Qafqaziyanın bir qismindən ibarət olan məmləkətimizə "Azərbaycan" ismi verməyə haqqımız yoxdur. Bu, İranın minəlqədim [qədimdən bəri] vilayəti kimi tanınan Azərbaycan əyalətinin haqqıdır.

Biz burada tarix, irq və coğrafiyaca "Azərbaycan" ismini daşımağa haqlı olub-olmadığımızı isbat və bu münasibətlə "İran" rəfiqi-möhtərəmimizin ədillə və istidlalatı [dəlilləri və sübutları] haqqındakı mülahizələrimizi bəyan etmədən əvvəl, bir mütaliə dərmiyan etmək [fikrimizi meydana qoymaq] istəriz:

Biz istərdik İran mətbuatı burasına diqqət etsin ki, Qafqaziyadakı azərbaycanlılar "Azərbaycan" kəlməsini coğrafi mənasından ziyadə, qövmi bir mənada istemal edirlər [işlədirlər]. Dünyada yalnız bir Azərbaycan qitəsi deyil, bir də Azərbaycan camaatı vardır. Bu camaat kəndisinə məxsus bir ləhcə ilə qonuşur türk əqvamından [tayfalarından] bir millətdir ki, İran rəfiqimiz bunlara "ətraki-müsəlmani-Qafqaz" [qafqaz müsəlman türkləri] deyir.

"Ətraki-müsəlmani-Qafqaz"ın bir ədəbiyyatı var ki, adına Azərbaycan ədəbiyyatı denilir. Şairləri o dildə, Azərbaycan dilində və yaxud təbiri-məruf ilə [hamının bildiyi sözlə ifadə etsək] – şivəsində yazırlar. Məktəblərində o dili tədris edirlər. Mətbuatları o dildə yazılır. Teatroları, operaları o şivədə tərtib edilir.

"Ətraki-müsəlmani-Qafqaz" ilə "azərbaycanlı" təbirinin eyni mənanı ifadə eylədiklərini coğrafiya nöqteyi-nəzərindən cərh eyləmək [tənqid etmək] mümkün olsa da, qövmiyyat [etnoqrafiya] nöqteyi-nəzərindən bunu inkar etmək mümkün deyildir. Zira İrəvan, Gəncə və Bakı quberniyalarındakı "ətrak" ilə Ərdəbil, Marağa, Xalxal, Təbriz və Qaracadağ mahallarındakı "ətrak"ın biri-birindən nə ilə ayrıldıqlarını mən eyi fərq edəmməyirəm. Eyni lisan, eyni adət, eyni məzhəb, eyni ənənat [ənənələr] burada da, orada da hökmfərma [hökm sürməkdədir]. Ortada yalnız yüz sənəlik digər bir həyati-siyasiyyə ilə yaşamanın təsiratı mövcud.

"Ətraki-müsəlmani-Qafqaz"ın "ətraki-müsəlmani-İran" kimi daha məruf bir ismi vardır – Azərbaycan türkü.

Əski Şirvan, Muğan, Aran, Bərdə, Albaniya, Bəsfərcan, nəhayət Gəncə, Bakı, İrəvan vilayətləri ilə adlanan bugünkü Azərbaycan Cümhuriyyətinin coğrafiya nöqteyi-nəzərindən bu ismə haqlı olduğu inkar olunsa da, burada böyük bir əksəriyyətlə yaşayan türklərin Azərbaycan türkcəsi ilə mütəkəllim [danışan] bir millət olduqları cərh [inkar] olunammaz.

Böyük müharibənin və misilsiz inqilabın nəticəsində zühura gələn növzad [yeni] hökumətlərin istinad eylədikləri ən qüvvətli və ən sağlam bir məbnaları [binaları] vardır: qövmiyyət binası. Tarix, coğrafiya, strateji mülahizatı ikinci, üçüncü dərəcədə gəlir mülahizələrdir. Yeni bir hökumətin təəssüs[ü] üçün ən əvvəlcə yekvücud bir milliyyət təşkil edən qövmün kəndisini tanımasıdır.

İştə Azərbaycan Cümhuriyyəti Tehran qəzetələrinin düşündüyü kimi bir taqım "xəyalpərvər" cavanların uydurub "mülahizəsiz" qocalara qəbul etdirdikləri bir isim deyildir. Azərbaycan Cümhuriyyəti müstəqil bir həyati-milliyyə ilə yaşamaq istəyən və milliyyətlərini dərk etmiş bulunan Azərbaycan türk millətinin təsis eylədiyi bir hökumətdir.

Deyirlər ki, "isminizi dəyişin də biz sizi böyük bir qardaş kimi dərağuş edək" [bağrımıza basaq]. Yoxsa biz sizdən "mükəddər və zəniniz" [incik və şübhəliyik] ("Gülşən", nömrə 85).

Bizdən neçün zənindirlər? Təsəvvür etmək lazım gəlir ki, İranın bir vilayəti olan Azərbaycanın ismini aldığımız kimi, müsəmmasına da [adın ifadə etdiyi obyektə də] gözümüz vardır.

Cümhuriyyətimizin, cümhuriyyətdən əvvəl Azərbaycan muxtariyyəti haqqındakı davamızın qətiyyən Araz nəhrinin cənubuna aid olmadığını dəfələrlə söyləmiş, bilfeil [əməli olaraq] dəxi isbat eyləmişiz. Buna qarşı: "Vaxtilə ermənilər dəxi məqsədimiz Türkiyə Ermənistanıdır deyirlərdi" – deyə şübhələr bəyan edirlər ("İran", nömrə 414).

Bu misal, yəni Azərbaycan Cümhuriyyətinin İran Azərbaycanı ilə işi olmadığı haqqındakı bəyanatı ermənilərin Ermənistan haqqındakı bəyanları ilə müqayisə eyləmək bizi isimdən ziyadə müsəmma üstündə dayanmağa vadar edir.

Əcəba, nə düşünürlər? İranlı qardaşlarımız necə təsəvvür edirlər? Arazın şimalında, ismindən sərfi-nəzər [adını bir tərəfə qoyaq], bir müsəlman cümhuriyyəti təşəkkül edir. Bu cümhuriyyətin lisanı Arazın iki tərəfində də qonuşulan bir türkcə olacaq. Hakimiyyəti "İran"ın təbirincə deyəlim, "ətraki-müsəlmani-Qafqaz"ın mənus olduğu [vərdiş etdiyi, adət etdiyi] ruh və ənənatdan [ənənələrdən], ülfət etdiyi adat [adətlər] və məişətdən doğma bir ruh və xüsusiy-

yətlə qüvvətlənəcək, ismini bərfərz [fərz edək ki], qərib[ə] olsa da Qafqaz türk hökuməti qoyacaq. Əcəba, bunda İran üçün bir xətər [təhlükə], bir zərər təsəvvür olunarmı?

Əgər İran Hökuməti Avropa mətbuatından anlaşıldığı vəchlə [anlaşılacağı kimi] Zaqafqaziya hesabına tövsiyi-ərazi etmək [ərazisini genişlətmək] fikrində deyilsə, bittəb [təbii ki], burada kəndisindən ötrü xətərnak [təhlükəli] bir şey təsəvvür olunammaz. Çünki yeni təşəkkül edən hökumətin kəndisinə qarşı mütəcaviz [təcavüzkar] olmadığını bildikcə, buna yalnız müsaidət etməsi [izin verməsi] lazım gəlir. Yox, bu xüsusda etimadı yoxsa, o zaman ismin bu və yaxud başqa olduğunun əhəmiyyəti qalmaz. Zira göstərdiyi misalda olduğu kimi, bugünkü Ermənistan Cümhuriyyəti adına bərfərz "Ararat" deməklə Türkiyə ərazisi üzərindəki müddəiyatından sərfi-nəzər etmədi [iddialarından vaz keçmədi], yaxud Türkiyə ərazisi üzərində "Ermənistan" ismi ilə deyil, bərfərz "Van" ismi ilə təəssüs etsəydi [qurulsaydı], madam ki, Qarabağa qədər tövsi etmək [genişlənmək] fikrindədir, kəndisinə Ermənistan deməməklə bundan fərağət etməyəcəkdi [əl çəkməyəcəkdi].

Bilməyiz təkəddür [incimə, könlü bulanma] yalnız İranın bir vilayəti ilə iltibas edən [qarışan] ismimizdənmi, yoxsa İran Azərbaycanındakı xalqın mənəviyyatına təmas edən bir müsəmmamızdanmı iləri gəlir?

Məsələ yalnız ismə aid olsaydı, o qədər əhəmiyyəti olmazdı. İsim üstündə beynəddüvəl [dövlətlər arasında] bir ixtilaf zühuru tarixi-aləmdə görülməmiş, islam tarixində dəxi inşallah görülməz.

Bizə öylə gəlir ki, Araz nəhri şimalında olan azərbaycanlıların təşkil eylədikləri müstəqil bir hökuməti-islamiyyənin paydar [daimi] olması İranın mənafeyindəndir.

Əgər Parisdəki İran heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] Zaqafqaziyadan yer almaq istədiyi haqqındakı nəşriyyat [yayılan fikirlər] doğru isə, o zaman haqqımız var düşünəlim ki, İran hökuməti bizim kimi deyil, başqa dürlü düşünür. Çünki "İran" qəzetəsinin də işarə eylədiyi kimi, vaxtilə İrandan kəsilən Azərbaycanı təkrar İrana (yəni Azərbaycana) bitişdirərlərsə, o zaman yerdə – sərih söyləmək lazım gəlirsə – bir Şamaxı ilə Şirvan qalar ki, Dağıstanla bərabər qalmaqdan başqa çarəsi qalmaz.

Heyəti-mürəxxəsəmizin vürudunu təbrik edən Tehran mətbuatı özümüzdən bir iki-üç sətirlə iktifa [kifayət] etmiş ikən, adımızdan hasil eylədikləri təkəddürlərinin [kədərlərinin] izahı üçün sütunlar deyil, səhifələr dolusu yazılar yazmağa lüzum gördüklərindən, bizdə böylə şübhənak [şübhəli] bir hiss oyatmışlardır.

Möhtərəm "İran" qəzetəsi "Azərbaycan" isminin və bu müsəmmadan qəsd olunan Azərbaycan məqsəd və fikrinin mürrəvici [rəvac verəni] olaraq acizlərindən bəhs edərkən, əvvəldə Qafqaziya Azərbaycanından bəhs etmişkən, sonra bütün Azərbaycan üçün istiqlal istədiyimi qeyd edirlər. Fəqət bilməm ki, bunu hangi bəyanım və hangi bənamımla [hansı adla] izhar eyləmiş, nə vaxt və nə yerdə söyləmişəmdir?! Hələ Azərbaycana müqabil əvəz olaraq İrana Mərv və Türküstandan təzminati-əraziyyə [ərazi təzminatı] təklifində bulunanlarımızdan dəxi bəhs olunur ki, əcaib bir şeydir.





İştə, iranlı qardaşlarımızın bu kimi yanlış və bir taqım iğraqlara [mübaliğələrə] batmış məlumatdan istifadə etdikləri üçündür ki, onlar Azərbaycan isminə bu qədər əhəmiyyət verib, nahaq şübhələrə və münasibətsiz gümanlara düşürlər.

Buradan keçdikdən sonra, "Azərbaycan" kəlməsi üstündəki tədqiqata gəlәlim: müqəddəmətən [qabaqcadan] söylədik, bizdən ötrü kəlmənin coğrafi mənasından ziyadə qövmi bir mənası vardır. Məmafih [bununla belə], bir az tədqiq olunarsa, coğrafiyaca dəxi Azərbaycanın mütləqa Təbriz və həvalisindən ibarət olduğunu iddia etmək pək doğru olammaz.

Azərbaycanın İrana daxil olduğunu istidlal [dəlillərlə əsaslandırmaq] üçün Şəmsəddin Sami bəyin "Qamus"u ilə "Laruss" kimi lüğət kitablarına müraciət olunmuş, Yaqut Həməvi və sairə kimi coğrafiyyun və müvərrixlərin asarından [coğrafiyaçıların və tarixçilərin əsərlərindən] alınan iqtibaslarla Azərbaycanın ayrı, Qafqazın da ayrı olduğu isbat edilmişdir. Şirvan ilə Bərdənin dəxi Azərbaycandan qeyri olması ayrıca istidlal olunmuşdur.

Bundan 24 sənə əvvəl yazdığı "Qamusül-ə'lam"ında Şəmsəddin Sami bəy mərhum Azərbaycanın İran daxilində olduğunu qeyd etməklə bərabər, "Azərbaycan" isminin vəchi-təsmiyəsini [adlandırılma səbəbini] dəxi anlatmışdır. Bu anladışa görə, "Azərbaycan" ismi Təbriz ətrafındakı neft quyuları, hava qazları və təbii ataş ilə yanan ataşkədələrdən dolayı bu məmləkətə ələm [bayraq; nişan] olmuşdur. Fəqət bir Osmanlı mühərriri [yazıçısı] yanılsa da, iranlılar bilirlər ki, Azərbaycan təsmiyyəsinin vəchi [adlandırılmasının səbəbi] olaraq göstərilən əlamətlərin həpsi Təbrizdə deyil, Bakıdadır.

Bir taqım türk sülalələrinin paytaxtı Təbriz olmaq üzrə Azərbaycanda hökmran olduqları iddia edilir. Fəqət bununla "Azərbaycan" isminin yalnız Təbriz ilə həvalisinə münhəsir [məxsus, həsr edilmiş] olduğu istidlal edilməz [əsaslandırılmaz] ki.

"Qafqaz" ismi ilə "Azərbaycan" isimlərinin ayrı olduğu və bu ayrı isimlərin ayrı-ayrı məmləkətlər adı olduğunda heç şübhə yoxdur. Fəqət dün rus dövlətinin təqsimati-idarisi [inzibati bölgüsü] ilə Qafqaz və yaxud Zaqafqaziya adlanan ərazinin Bakı, Gəncə, İrəvan kimi adlarla təqsim olunuşu [bölünməsi], İrəvan, Gəncə və Bakı vilayətlərindən bir qisminin Azərbaycan olmadığını icab etdirməz. Məsələn, eyni Şəmsəddin Sami bəy Gəncənin yaxınında olan Şəmkiri tərif edərkən deyir ki, "240 tarixində Azərbaycan valisi və Məsumun azadlısı [azad edilmiş köləsi] Bağa tərəfindən emar olunub "Mütəvəkkiliyyə" təsmiyə olunmuşdur [adlandırılmışdır]."

Demək ki, Azərbaycandan qeyri fərz olunan Gəncə quberniyası və daha qədim təbirlə Aran ilə Bərdə həvalisi [tərəfləri] dəxi Azərbaycan vilayəti daxilində imiş.

"Qafqaz" ismi amm [ümumi] olub da müxtəlif nəvahi [nahiyələr] və vilayətlərə şamil olduğu kimi, "Azərbaycan" ismi də Qaradağ, Xalxal, Marağa, Muğan, Aran, Bərdə, İrəvan, Naxçıvan, Bakı və sairə kimi idari, tarixi və coğrafi isimləri ehtiva edə bilər.

Burada cüzün küll namını [parçanın bütövün adını] ala bilmədiyi haqqındakı mülahizə və bu mülahizəyə qiyas olaraq Bismark ilə Avstriya arasındakı münaqişədən istidlal [dəlil gətirmək] dəxi doğru deyildir.

Çünki biz azərbaycanlı türklərin hökumətini təşkil etmək mövqeyində ikən, İrana "Azərbaycan" ismindən fərağət et desəydik, o zaman haqsız olardıq. Müxtəlif millətlərdən təşəkkül eylədiyi halda İran, Azərbaycana malik olduğu kimi, Avstriya da alman millətinə malik idi. Halbuki Avstriyanın almanlara malikiyyəti Almaniya hökumətinin təşəkkülünə mane olammaz və hələ bütün Almaniyaya hakimiyyət sövdasına düşmək üçün kəndisinə heç bir haqq verəmməzdi. Bismark bu nöqteyi-nəzərdən pək haqlı idi.

Bitərəfanə icra olunan müxtəsər bir tədqiqlə görülür ki, "Azərbaycan" ismi cümhuriyyətimizə İran qəzetələrinin düşündüyü kimi pək münasibətsiz bir "xam xəyal" nəticəsi olaraq verilməmişdir. Burada İran ərazisi haqqında heç bir suiniyyət [pis niyyət] mövcud olmayıb, yalnız bu gün kəndisini bir millət olaraq bilən sabiq rus təbəələri – Azərbaycan türklərinin müqəddəratı düşünülmüşdür. Böylə ikən yeni təşəkkül edən bəzi Polşa, Ukrayna kimi dövlətlərə qiyasən bizi də macəracuyanə [avantürist] bir siyasət təqibi ilə məlul [əlil, xəstə] təsəvvür etmək doğru olammaz.

Madam ki, yeni bir hökuməti-islamiyyənin vücudu İranca da mətlubdur [arzuedilləndir], o halda tehranlı rəfiqlərimiz isim üzərindəki mübahisəni coğrafiya və qövmiyyat mütəxəssislərinə buraxıb da, müsəmmadan bəhs etsəydilər, aramızda mətlub olan hüsn-münasibata daha ziyadə xidmət edərlərdi, zənn edəriz.

"İran" qəzetəsi Gürcüstan, Ermənistan hökumətləri ilə hüdud münaziələrimiz [mübahisələrimiz] mövcud olduğunu və sair bir çox əsaslı müşkülata məruz qala bilməmizi ixtar edərək [xəbərdarlıq edərək] cümhuriyyətimizin böyük qardaşı olan İranla hüsn-münasibatın son dərəcədə səmimiləşdirilməsini arzu edir. Öylə olarsa, o zaman iranilər bizə hər növ maddi və mənəvi müsaidələrini vəd edirlər.

"İran" bir az da tarixə müraciət edir. Böyük Nadirin İran padşahı olaraq Türkiyə sultanına ittihad [birlik] haqqındakı təklifini xatırlayır. O təklifin qəbul edilmədiyi üçün bugünkü İslam aləminin xəsarətinə, bilxassə Türkiyə fəlakəti-hazirəsinə təəssüfxan olur. Sonra da "nəşeyi-hürriyyət"lə sərşar olan [keflənən] "ətraki-müsəlmani-Qafqaz" cavanlarından bir-ikisinin "xam xəyallarına" uymamağı heyəti-mürəxxəsə əzamızın [üzvlərimizin] ağıl və dirayətlərinə etimadən "xatirnişan" edir [yada salır].

Görünür "təkəddür" yalnız "Azərbaycan" ismindən deyildir. "Nəşeyi-hürriyyətlə sərşar olan cavanlar"ın "xam xəyallarından" da əndişələr edilməkdə və həm bu xəyallar mövcud kimi görülməkdədir.

Biz buna ciddən mütəəssifiz [təəssüf edirik]. Nadir şahın fikri-ittihadını zənn edirsəm "Nadir şah" əsərini təmsil edən azərbaycanlılar yalnız tərvic [rəvaclandırmış, rəvac vermiş] deyil, tətbiq də etmişlərdir. Yalnız oğlunun gözü müqabilində çıxaracağı batmanlarla göz təhdidi





ilə deyil, eyni zamanda da mütəəssib və dar mollalara qarşı işlətdiyi siyasətə qurban olan Nadirin fikrini – məzhəb qovğalarının ortadan qaldırılmasını – qövldən-feilə [sözdən əmələ] gətirənlər yenə "ətraki-müsəlmani-Qafqaz"dır.

Fəqət unutmamalıyıq ki, Nadir şah kimi Sultan Süleyman da ittihad güdürdü. Birisi bunun üçün məzhəbləri ortadan qaldırıb da siyasi bir hakimiyyət təsisini lazım görərkən, digəri "rafiziləri" tənkil [cəza] ilə "haqqa" təslim etdirmək və bu vasitə ilə "tövhidi" əldə etmək istəyirdi. Feilən ikisi də cahangir ikən şübhəsiz ki, əvvəlinci nəzəriyyə daha doğru olub, ittihada yetişmək üçün daha səlim vəsilədir [doğru vasitədir].

Fəqət bu düsturu məzhəb dövründən çıxıb da milliyyət əsrinə girmiş olduğumuz bu zamana tətbiq edərsək, rabitəyi-islamiyyəni ibqa etməklə [əbədiləşdirməklə] bərabər, hüquqi-milliyyəyə ehtiramkar olmalı, bu xüsusdakı təmayülati-təbiiyyəyə [təbii yönəlişlərə] fəna bir nəzərlə baxmamalıyız.

Zamanımızda demokratik əsaslara istinad etməyən bir hökumət yaşayammaz. Xalq lisanı, adatı, ənənatı ilə mənus və məluf [isinişmiş, vərdiş və ülfət etmiş] olmayan bir hökumət isə demokrat olammaz.

Buna görə dəxi tamamilə milli və demokrat bir əsasat [prinsiplər] üzərinə təşəkkül edən cümhuriyyətimizə iranlı qardaşlarımız kəndi münasibətlərini təyin edərkən, ismimiz saməələrinə [qulaqlarına] xoş gəlməyirsə də, müsəmmamıza baxsınlar. Müsəmmamızı məqbul və kəndi nöqteyi-nəzərlərindən mətlub [arzuedilən] gördükdən sonra isimin o qədər əhəmiyyətə malik olmadığını kəndiləri də təqdir edərlər.

Biz böyük qardaş iddiayi-mühiqqində [haqlı iddiasında] bulunan Tehran mətbuatından şəkildən ziyadə mənaya aid nəşriyyata intizar ediriz. Çünki zəvahirlə [zahiri görünüşlə] fəzlə məşğul olmaq hər halda böyüklərin şüunundan [şanından] olmaz, deyə düşünürüz.

*M. Ə. Rəsulzadə*

**SÜLH ƏTRAFINDA**

London – Sülh Konfransı işlərinin gedişi barəsində İngiltərə Rəisi-vükəlası [Baş naziri] Lloyd Corc İngiltərə Parlamanında bəyanat verdikdə, Parlaman əhali ilə məmlu [dolu] idi. Camaat arasında prins Uelsski [Uels şahzadəsi] də isbati-vücud [iştirak] edirdi. Lloyd Corc demiş:

*"Sülh Konfransı işlərinin təxirə uğraması bütün cahanın səbir və təhəmmülünü [dözümünü] tükətdirirdi. Fəqət Konfrans üzvlərinin vəzifələri çox ağır idi. Ona görə də, onlara uzun müddət çalışmağa müsaidə [imkan] vermək lazım idi. Müharibə zərərdidələrini [müharibədən ziyan çəkənləri] razı salmaq və müharibə təxribatını emar etmək və pərişan edilmiş ticarət işlərini yoluna qoymaq üçün lazım gələn tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]."*

Baş vəzir deyir:

*"Üç əvvəlinci imperiyanın – Türkiyə, Rusiya və Avstriyanın düşməsini də nəzərə almalıdır. İş ondadır ki, hal-hazırda Rusiya Hökuməti yoxdur. Rusiyanı təq-*

*diri-qəzaya [taleyin hökmünə] buraxmaq barəsində danışıq belə olmamışdır. Böylə təklif heç bir vaxtda müzakirə edilməmişdir. Müttəfiqlər tərəfindən Rusiyaya qarşı hərbi iqdamatda [təşəbbüsdə] bulunmağı Rusiya təsvib [təsdiq] etməyir. Zira bizim siyasətimiz Rusiyanın və sair dövlətin daxili işlərinə qarışmamaqdan ibarətdir. Biz gərək admiral Kolçaka və general Denikinə müavinət edək. Bu iki qəhrəmanlar və mövsuq [mötəbər] mənbələrdən alınan xəbərlər göstərir ki, o zamanda ki zahirən bolşeviklər qüvvəti guya artır, fəqət əsil həqiqətdə isə bolşevizm bütün qurtarmaq üzrədir."*

Denikinin sülh təklifini Konfransa təqdim etmək şayiatını [şayiələrini] nazir təkzib edib demiş ki, Rusiya barəsində Sülh Konfransında olan müzakirat özünün və yoldaşlarının təklifi imiş.

**Almaniyanın sülhdən imtina etməsi**

Almaniya Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] Müttəfiq dövlətlər tərəfindən tərtib edilən mütarikə şəraitini [atəşkəs şərtlərini] xeyli ağır və ifasını qeyri-mümkünədd [hesab] etdiyindən, Almaniya Mütarikə Komisyonu üzvlərinə vəkalət vermişdir ki, bu şərait yüngülləşdirilmədiyi təqdirdə izhar etsinlər ki, Almaniya sülhü imza etmədən və mütarikəni təmdid etmədən [uzatmadan] müharibə halına çıxır. Almaniya Məclisi-Müəssisanı məmləkətin ittihadını [birliyini] dağıdan və əhaliyə qüvvəsindən artıq ağırlıqlar qoyan şəraiti imza etmək məsuliyyətini öz öhdəsinə götürməyi qeyri-mümkün ədd edir. Almaniya Məclisi-Müəssisanı bu nöqteyi-nəzərdədir ki, tarix qarşısında məsul olmaqdansa, hadisələri təbii halına buraxmaq əfzəldir [üstündür]. Bu iş də sülh işini xeyli ağırlaşdırır. Almaniyanın sülh müahidənaməsini [sazişini] imza etmədən imtinasının səbəbi Müttəfiq dövlətlərin Reyndə müstəqil hökumət təşkil etmələri, Lehistan [Polşa] iddialarının təsdiqi, Elzas-Lorendən başqa Saar rayonunun Fransaya verilməsi və böyük miqdarda olan hərbi məxariclərin verilməsini[n] Almaniya öhdəsinə buraxılması qərarlarından ibarətdir.

*(P. K.)*

\- - -

Verilən xəbərlərə nəzərən, İngiltərə, Fransa və Amerikanın Müdafiə İttifaqı sülh müahidənaməsi [sazişi] ilə bərabər elan ediləcəkdir. Üçlər Şurası Orlandonun qiyabətində [yoxluğunda] Fiume məsələsini müzakirə eyləmişdir. Bu şəhərin yarısında italiyanlar, yarısında isə slavyanlar məskun olduğu üçün yarısı italiyanlara, yarısı da slovaklara verilir. İskələdən [limandan] hər iki tərəf istifadə edəcəkdir. Kiao-Çao məsələsi də qalmışdır. Amerikalılar çalışırlar ki, bu iskələ Çinə verilsin.

**Tansen**

Doktor Tansen Dördlər Şurasına Rusiyaya ərzaq yetirilməsi təklifini etmişsə də, Dördlər Şurası razı olmamışlar ki, Rusiyaya ərzaq vermək bolşeviklərlə sülh etmək deməkdir.

## DAĞISTAN ƏHVALI

**Qroznı Konfransı haqqında**

Azərbaycan Hökuməti nəzdində olan





Dağıstan Məclisi nümayəndəsi Əlixan Kantemir Qroznı Konfransında heyətimürəxxəsə [nümayəndə heyəti] sədri sifətilə iştirak edən Parlaman sədri Qaplanovdan aprelin 23-də böylə bir teleqraf almışdır:

*"Parlamanın fövqəladə heyəti aprelin 11-də Qroznıda general Denikin və İngiltərə nümayəndəsi general Briks ilə görüşmüşdür. Heç bir növlə saziş olmayacağı aşkar olmuşdur. Çünki Denikin əvvəlcədən verilən hamı şərait [bütün şərtlər] üzrə ona tabe olmağı təkidlə, təqib etdiyi məqsədlər üzrə Dağıstan İttifaqının davamını qeyri-mümkün ədd [hesab] edir. General Briks Denikini müdafiə edib və onun tərəfindən təqdim edilən şəraiti ədalətli və Dağıstan millətləri mənafeyini təmin edici hesab edir. Lyaxov tərəfindən dəvət edilən çeçen ictiması [yığıncağı] bilavasitə Könüllü ordu zərbəsi altında qalmış və müvəqqətən Lyaxova tabe olmağa məcbur olan bir neçə Sunjen kəndləri nümayəndələrindən ibarət imiş. Çeçenistanın əksəriyyəti aprelin 12-də Şali kəndində olan ictimada Dağıstan Cümhuriyyətinin hürriyyət və istiqlalı yolunda axır qətrə qana qədər qəti surətdə mübarizədə bulunmağı izhar etmişdir."*

\- Dağıstanlı bir arxadaşımızdan aldığımız bir məktubda dağıstanlı hökumətinin şəhri-Dərbənd qəzasının Maarif müdiri tərəfindən Qayakənd milli məktəbinin birinci və ikinci şöbələrində icra edilən təftişat nəticəsində müəllim əfəndilərin səy və qeyrətləri nəticəsi olaraq pək qısa bir zaman zərfində əsəri-təcdid [yenilənmə əlaməti] göstərmələri şayəsteyi-təqdir [təqdirəlayiq] olmuş və kəndilər[inə] təltifi iqtiza edən [lazım gələn] mükafat irsal edilmişdir [göndərilmişdir]...

Tələbə əfəndilər əsgəri nizamları, hesab, coğrafiya və sairəki dərslərdən sual edildikdə pək parlaq cavablar vermişlər və müdir bəyə bəzi nitqlər irad eyləmişlərdir [söyləmişlər].

## OSMANLI YƏHUDİLƏRİ

**"Vakit" qəzetəsindən!**

Bir müddətdən bəri Osmanlı musəvilərindən bəziləri osmanlılıq fikri əleyhində bəzi təhrikatda bulunmaqda və hissiyyati-milliyyəni rəncidə edəcək bir tövr və hərəkət təqib etməkdədirlər. Musəvi vətəndaşlarımızın əksəriyyəti bu cərəyanın əleyhində bulunmaqda və bir əqəliyyət [azlıq] halında olan ərbabitəcavüzü [təcavüzkarları] nankorluqla ittiham etməkdə idi. Darülfünun [Universitet] müəllimlərindən Avram Qalanti əfəndi "Kuryer de turki" qəzetəsinin dünənki nüsxəsində Sədrəzəm [Baş nazir] paşaya xitabən nəşr etdiyi bir açıq məktubla bu hissiyyata tərcüman olmaqdadır. Məktubun başlıca nöqtələrini aşağıya dərc ediriz. Xəbər aldığımıza görə, osmanlılıq əleyhindəki tövr və hərəkətindən məktubda bəhs olunan, fəqət ismi zikr edilməyən zat sabiq Maliyyə qələmi-məxsus [xüsusi şöbə] müdiri Nəsim Russo əfəndidir.

*"Sədrəzəm paşa həzrətləri, zati-samilərinin [uca şəxsinizin] məqami-sədarətə [Baş nazir vəzifəsinə] təyininizdən bir qaç gün sonra xaxambaşı vəkili, rəfaqətində [yanında] musəvi camaatına*

*mənsub bir heyət olduğu halda bərmutad [adət olduğu üzrə] camaat namına mərasimi-təbrikiyyəni [təbrik mərasmini] ifa etmək üzrə nəzdi-samilərinə [hüzurunuza] qəbul buyurulmuşlardı. Bu ziyarətdən beş gün sonra Bəyoğlu qəzetələrinin bəzisində heyət əzasından [üzvlərindən] bir zat tərəfindən hüzuri-samilərində irad edilmiş [söylənmiş] olduğundan bəhs edilən bir nitq müsadifi-nəzərim oldu [gözümə sataşdı]. Qəvaidi-əxlaqiyyə və adabi-müaşirətlə qətiyyən qeyri-qabili-təlif [əxlaq qanunları və nəzakət qaydalarına qətiyyən uyğun gəlməyən] böylə bir nitq iradına cürət edilə biləcəyinə bir dürlü ehtimal verəmmədim. Bu nitqin ifadəsi musəvi camaatı arasında pək əlim [kədərli] bir təsir icra etdiyi kimi, Osmanlı məhafilində [dairələrində] də pək məşru [haqlı] bir nifrətlə qarşılanmışdır. Musəvi ərbabi-qələmindən [qələm sahiblərindən] olmaq və Türkiyə musəviləri tarixinin müəllifi bulunmaq sifətilə bu babda [bu barədə] məlumat almaq üzrə icab edən məqamata [lazımlı məqamlara, qurumlara] müraciət etdim. Rəsmi mənabedən [mənbələrdən] şunu öyrəndim ki, xaxambaşı vəkili ilə musəvi camaatının yeganə haizi-səlahiyyət bir mərcəyi [yeganə səlahiyyətli qurumu] olan Məclisi-Cismani əzası [üzvü] böylə bir nitqin mətnindən xəbərdar olmadıqları kimi, zati-samilərinə müraciət edən heyətə dair də məlumatları yoxdur. Bundan dolayı, bu babda zati-fəximanələrini tənvir etməyə [bu barədə zatialinizi məlumatlandırmağa] cəsarət edirəm.*

*Mütarikənin əqdindən [atəşkəsin imzalanmasından] sonra Məclisi-cismani bir istişari komisyon [məsləhət komissiyası] təşkil etmiş və bu komisyonun əzası da müxtəlif musəvi camaatlarının arasından intixab olunmuşdu [seçilmişdi]. Məclisi-Milli namı ilə [Milli Məclis adıyla] təvsim edilən [adlandırılan] bu məclisin rəyi, ismindən də anlaşılacağı vəchlə, sırf istişari bir qiyməti haizdi [tövsiyə xarakteri daşıyırdı]. Əksərisi qeyri-məmnunlardan və məmləkətə yabançı olanlardan mürəkkəb [ibarət] olan bu məclis əzaları haiz olmadıqları bir sifət və səlahiyyət iktisa edərək [daşımadıqları bir sifət və səlahiyyətə bürünərək], musəvi camaatının rəy və fikrini almaqsızın, bu camaat namına kəndi-kəndilərinə bir ziyarət yapmışlar. Bir taqım münasibətsiz [xoş olmayan, bəyənilməyən] təzahüratda bulunmuşlar və musəviləri nankorluqla ittiham etməyə vəsilə [səbəb] vermişlərdir. Bunlar, ərz etdiyim vəchlə [dediyim kimi], musəvi milləti namına söz söyləməyə qətiyyən səlahiyyətləri olmayan bu zəvat [bu şəxslər], zati-samilərini təbrik etməyə müsariət edən [tələsən] xaxambaşı vəkilinin hüququndan istifadə və bunu sui-istemal [sui-istifadə] eyləmişlərdir. Musəvi milləti 1492-də İspaniyadan tərd edilən [qovulan] musəvilərə qarşı İkinci Sultan Bayəzid tərəfindən göstərilən lütf və mürüvvət asarını [nişanələrini] heç bir vaxt unudammazlar."*

## İSTANBULDAN GƏLƏNLƏRLƏ MÜSAHİBƏ

İstanbuldan yeni varid olmuş [gəlmiş] bir zat [şəxs] mühərririmizlə müsahibədə bulunaraq bizi maraqlandıran bir çox məsələlər haqqında böylə məlumat vermişdir:

**Sülh mürəxxəslərimiz**

Parisə getmək üzrə yollanmış olan heyəti-mürəxxəsəmizin [nümayəndə heyətimizin] bu vaxtadək İstanbulda saxlanması və möhtərəm [Ağayev] Əhməd bəyin həbsinin səbəblərindən bəhslə müsahib deyir ki:

Mən İstanbula yetişdikdə heyran oldum. Dağıstan, Gürcüstan və Ermənistan heyətləri çoxdan getmişlərdi. Qalan yalnız Azərbaycan heyəti-mürəxxəsəsi idi. İbtida [əvvəlcə] bizim mürəxxəsləri buraxmayırmışlar. Əhməd bəy Ağayevi türk hökuməti həbs etmişdir. Əlimərdan bəy Topşubaşovu da əsla konfransa və Avropaya buraxmaq fikrində deyildirlər. Zahirən Əhməd bəyi İttihad və Tərəqqi firqəsinə mənsub olduğu üçün türk hökuməti həbs etmişsə də, həqiqətən fransızların da bu işdə əli var. Böylə ki, Əhməd bəyi həbs zamanı Müttəfiqlərin əleyhinə yazmaq bəhanəsi ilə ədavətkarlıqdan ittiham edirmişlər. Hətta, Əhməd bəy həbsxanadan bir məktub yazaraq, hərb vaxtı bir millətin əlbəttə düşmənə qarşı dostluq ibraz edəmməyəcəyini [nümayiş etdirə bilməyəcəyini] qeydlə, fransızların bu hərəkətlərinin mədəni millətə yaxışmaz bir şey olduğunu göstərməsi dəxi şayani-qeyddir [qeyd edilməyə layiqdir].

Fəqət Topçubaşovu nə üçün buraxmayırlar?

Gərək Əhməd bəyin tövqifi [həbsi] və gərəksə Topçubaşovun saxlanması və ümumiyyətlə heyəti-mürəxxəsəmizin bunca uzun müddət İstanbulda qalmasında ermənilər böyük rol oynamışlardır. Böylə ki, heyəti-mürəxxəsə Bakıdan çıxar-çıxmaz, İstanbulda və sair yerlərdə ermənilər özlərinə məxsus müfəttinlik [fitnəkarlıq] məharəti ilə "işləməyə" başlayaraq, Əhməd bəy və Əlimərdan bəy cənabları haqqında olmazın böhtan və iftiralar nəşr edərək [yayaraq], onları avropalılar nəzərində öylə qələmə vermişlər ki, Müttəfiqlər, xüsusən, fransızlar onların Parisə getmələrinə heç vəchlə razı olmamışlardır.

Nəhayət uzun cüstcu [araşdırma] və təşəbbüslərdən sonra Məhəmmədhəsən bəy Hacınski, Ceyhun bəy Hacıbəyli və [Məhəmməd] Məhərrəmova Parisə getməyə izin verilmişdir. Müsahibimizin dediyinə görə, bu günlər bu üç zat [şəxs] Parisdə olmalıdırlar.

**Türkiyədə**

Türkiyənin daxili siyasəti "boşluq və narazılıq"dan ibarət iki söz ilə təbir [şərh] edilə bilər. Hökumətin bütün fəaliyyəti ancaq "İttihad və Tərəqqi" firqəsinə mənsub olanları, daha doğrusu Türkiyədə ümum [bütün] başbilənləri həbs etmək kimi alçaq firqəçilikdən ibarətdir. "Etilaf və Hürriyyət" firqəsi hökumət başına keçər-keçməz bütün fəaliyyətini "İttihad və Tərəqqi"çilərdən intiqam almaq və bütün məmləkətdə onları ovlamağa həsr etmişdir və bu yolda şiddətini bir dərəcəyə gətirmişdir ki, bir amerikalı həman "Tərəqqi"çilər saxlanan həbsxananı göstərərək demişdir ki:

"Əgər bu həbsxana yansa, Türkiyə başsız qalar."

**Kamal bəy**

"Etilafçı" hökumətinin böylə siyasəti

bütün Türkiyədə hökumətə qarşı böyük narazılıq doğurmuşdur. Xüsusən Anadolu məmurlarından [Mehmed] Kamal bəyin asılması böyük narazılığa bais olmuşdur.

Etilaf hökuməti Kamal bəyi erməni qırğınında ittiham bəhanəsi ilə tutub asdırmışdır. Əsakir [əsgərlər] və jandarmalardan bir kəs onu asmaq istəməmişdir. Fəqət qəhrəman məmur kəndisi dar ağacına gedərək: *"Mən insanları qırdırmadım. Vətəni xainlərdən təmizlədim, vətənimə xidmət etdim. Adam öldürənləri edam edirsələr baxalım on minlərlə məsum çocuq və qadınları qıran erməniləri də cəzalandıracaqlardır? Mən vətənimə xülusi-qəlblə [təmiz qəlblə] xidmət etdiyim üçün ölməyə məruz isəm ölməyə, canımı vətənimə qurban etməyə də hazıram. Fəqət kəndim ölərkən övladıma bir şey buraxmayır və çocuqlarımı millətimə tapşırıram."* deyə kəndisi ipi boğazına taxmış və öylecə ölmüşdür. O gün bütün İstanbul xəcil, məyus və başıaşağı idi. Anadolu bu xəbərdən həyəcana gəlmişdir. Ümumiyyətlə, türklər hökumətdən çox narazıdırlar. Zatən razı qalacaq bir hərəkət və fəaliyyət ibraz etməmişdir [göstərməmişdir] də.

**Azərbaycan və Osmanlı türkləri**

Türkiyədə hökumətə qarşı nə qədər narazılıq və nifrət varsa, Azərbaycana qarşı yüz o qədər məhəbbət, hüsnniyyət və ümid müşahidə edilməkdədir. Bir çoxları Azərbaycandan ifrat dərəcə böyük şeylər gözləyir və böyük ümidlər bəsləyirlər. Hökumətdən narazı olanlar əksəriyyən müəllim, mühərrir, dövlət və hökumət məmuru olmaq üzrə Azərbaycana xidmət etmək arzusundadırlar. Bunlar ancaq münasibat və rabitənin asan və sıxılaşmasını bəkləyirlər. Çoxları Azərbaycanın həsrət və intizarını çəkərək "Nə olur-olsun və nə surətlə olur-olsun Azərbaycana xidmət üçün mütləqa oraya gedəcəyiz" deyə vaxt gözləyirlər.

**Beynəlmiləl münasibat**

Osmanlı türkləri ilə Avropa millətləri arasındakı münasibat [münasibətlər] müxtəlifdir. Məsələn, son zamanlar ümumən bəzi məsələlərdə, xüsusən italiyalılar türklərə müvafiqət [yaxınlıq, həmrəylik] və əksəriyyən dostluq göstərərək çox işlərdə türklərin tərəfini iltizam edirlər [tuturlar]. Ümumiyyətlə, türklərlə İtaliyanın münasibatı dostanə dərəcəsinə gəlmək üzrədir.

Bundan əlavə, amerikalılar türklərə qarşı xeyirxahanə münasibat ibraz edirlər [göstərirlər]. Bir çox işlərdə İtaliya kimi amerikalılar dəxi türklərin xeyrinə çalışırlar.

Türk-ingilis münasibatı o qədər aydın deyildir. Doğrudur, ingilislər türklərə qarşı ədavətkaranə rəftarda bulunmayırlar. Fəqət dostanə əlaqələri də o qədər gözə çarpmayır. Ümumiyyətlə, demək olar ki, türklər haqqında ingilislərin rəftar və münasibatı bir növ mütərəddiddir [qeyri-sabitdir]. Fəqət bainhəmə [bununla belə] ingilislər İstanbulda özlərini çox yaxşı aparırlar.

Fransızlara gəlincə, bunların əlaqəsi aşkara ədavətkaranədir. Fransızlar türklərə qarşı açıq və aydın ədavətkaranə bir vəziyyət alaraq hər işdə, hər məsələdə onların əleyhinə gedirlər.





Xırda millətlərdən şayani-qeyd [qeyd edilməyə layiq] rumlar (yunan) ilə ermənilərin hərəkətidir.

Rumlar (yunanlar) Türkiyəyə qarşı ifrat dərəcə ədavətkaranə bir vəziyyət alaraq "siyasətçilik" edən xırdalara məxsus bədrəftarlıq ibraz edirlər. Yunanlıların rəftarı bir növ cənkcuyanə [davakarcasına] və mütəkəbbiranədir [təkəbbürlüdür, lovğadır]. Fəqət türklər bunlara əsla əhəmiyyət verməməklə bərabər, hətta bir növ gülürlər də.

Rumların "Hamı İstanbuldan çıxsa da, biz çıxmayız, Ayasofiyanı bir daha türklərə buraxmayız" kimi kibir və qüruruna qarşı türklər ancaq təbəssüm və istehza ilə "Eybi yox, başqaları çıxsınlar, rumlar çıxmasalar da olar" deyə xırdaçılara qarşı böyüklərə məxsus vüqar və təmkinlə gülürlər. Yalnız türklər deyil, ümum [bütün] dost və düşmən millətlər hal-hazırda rumlardan nifrətlənmişlərdir. Xüsusən italiyalılar əsla rumları çəkəmməyirlər.

Ermənilərə gəlincə, onların rəftarı məlumdur. Ermənilər öz aləmlərində türklər üçün bir yağı kəsilmiş kimi həmişəki rəftarları bir qat daha bədxahlıq kəsb etmişdir. Zatən ermənilər ibtidadan türklərin ən böyük düşmənlərindən idilər. İndi isə Cahan müharibəsinin türklər zərərinə xitampəzir olması [başa çatması] onları bir daha "qanadlandırmışdır". Ermənilərin türklərə və Türkiyəyə qarşı rəftarı düşmənanə, bədxahanə və ədavətkaranədir. Burası bəlli. Onlar mütləqa Türkiyənin yox olması, parçalanması, hər parçasının bir ələ keçməsi, fəqət ən yağlı parçasının da ermənilərə düşməsinə çalışırlar. Lakin iştaha və tamahları artdıqca, tərəfdar və müinləri [köməkçiləri] azalır. Böylə ki, hal-hazırda bütün Müttəfiqlər ermənilərə və onların tamah və tələblərinə gülürlər. Rumlar kimi ermənilər dəxi İstanbulda özlərini çox fəna aparırlar. Bunların ən çox çalışdıqları Türkiyə ilə Azərbaycanı avropalılar nəzərində ləkələndirmək və nəzərdən salmaqdır.

Gürcülərlə sair millətlərin münasibatına gəlincə, bu xüsusdakı sualımıza müsahib əfəndi cavab verir ki, gürcülər öz hərəkətləri və şiddətli rəftarları ilə ümumu özlərindən nifrətləndirmişlərdir. Sözünü isbat üçün müsahib əfəndi gürcülərin sair millətlərlə necə rəftar etdiklərindən bəzi misallar göstərir.

İstanbulda ümum millətlərdən ingilislər yaxşı rəftar edirlər.

Şübhəsizdir ki, sair millətlərin, xüsusən rum və erməni kimi xırdaların hərəkətindən türklərin canı sıxılır. Fəqət həman sabiq ruh və qəhrəmanlıqla "Türk milləti məğlub olar fəqət ölməz" – deyə gələcəyə nikbinanə bir nəzərlə baxırlar.

Əsrlərdən bəri ömrünü hərbdə keçirmiş, böyük fəth və müzəffəriyyətlər gördüyü kimi, taleyi-hərbin dönəklikliyini də sınamış olan qocaman türk milləti əsla məyus deyil, biləks [əksinə] istiqbala [gələcəyə] böyük ümidlə baxır və bu ümid içində Azərbaycana çox böyük ümidlər bəsləyir.

Müsahibənin axırında səfərdən və yol təəssüratından bəhslə, ümum yollarda gediş-gəlişin nə qədər çətin olduğunu təsvirlə, xüsusən Gürcüstan sərhədində sərnişinlərə nə qədər əziyyət edildiyini göstərir. Deyir ki, bir cift çək-

mə, bir arşın parça ya bir girvənkə yeyilməli şey belə buraxmayırlar. Azərbaycan sərhədinə yetişdikdə məmurların xoş rəftarı və rahatlıq həsəbi [səbəbi] ilə insan geniş nəfəs ala bilir.

Odessadan gələn bir mühəndis Azərbaycana yetişdikdə *"Allaha şükür, insan içinə yetişdik. Zatən mən hələ Ukraynada ikən Azərbaycanın böylə olduğunu eşitmişdim. Şimdi özüm şahid oldum."* – deyə sevinmişdi.

Nəhayət, bolşeviklərlə mübarizə məsələsinə nəqli-kəlam edilərək [sözü gətirərək], Ukrayna əhvalı haqqındakı sualımıza cavabən deyir ki: Ukrayna sərhədində bolşeviklər tərəfi-müqabilə böyük bir zərbə endirib, əksəriyyən rumlardan ibarət olan düşmən qoşunlarını əzib dağıtmışlardır. Bolşeviklər rumlara qarşı nəhayət dərəcə nifrət və ədavət bəsləyirlər. Bir dərəcə ki, Ukrayna və Krım cəbhələrində rum qoşunlarını qırıb dağıtdıqdan sonra, saldat olmayan yerli rum sakinlərini də qırmağa başlamışlardır.

\- - -

Sair millətlərin, xüsusən gürcülərin yollarda sərnişinlərlə fəna [pis] müamilə və bəd rəftarları bir cəhətdən yaxşı deyilsə də, digər tərəfdən biz arzu edərdik ki, Azərbaycan Hökuməti də sərhədlərdə sərnişinlərə çox diqqət versin. Zira bizim insaniyyətpərvəranə rəftarımızdan suiistifadə edərək əvvəla məmləkətimizin malları külli miqdarda xaricə aparılır. Saniyən [ikincisi], sair məmləkətlərdə təqib olunan və narazı qalan ünsürlərin həpsi hürriyyətpərvər Azərbaycana dolaraq kəndimiz üçün siyasi və iqtisadi müşkülat törədirlər.

**NOVRUZDAN 45 GÜN GETMİŞ**

Azərbaycan əhalisi qismi-əzəminin [böyük hissəsinin] mənafeyi-iqtisadiyyəsi ilə bərabər, mövcudiyyəti üçün mühüm bir tarix:

Novruzdan 45 gün getmiş.

Həman bu gündən etibarən bəhri-Xəzərdən tutmuş Qarabağ dağlarınadək 10 minlərcə mürəbbe çağırım [kvadrat kilometr] bir məsafədə yaşayan 100 minlərlə əhali və milyonlarla qaramal, qoyun və at seyli-xüruşan [coşğun sel] kimi şərqdən qərbə, arandan yaylağa, yəni Mil, Muğan, Peyğəmbər və Şirvan səhralarından Qarabağ dağlarına mütəvəccehən [üz tutub] axın axmağa başlamalıdır. Bu axıntının azərbaycanlılar həyatında nə qədər mühüm bir mövqe tutduğunu təsvir üçün burasını ərz etmək yetişir ki, "köç" vaxtına, yəni yuxarıda zikir olunan günə bir həftə, on gün qalmış qoyun-quzular mələrkən daima üzlərini dağa tutarlar. Məzkur [deyilən] səhralarda köçdən başqa bir söz eşidilməz. Tainki müəyyən vaxt yetişər, Avşar (Əfşar), Qaradolax, Tərəkəmə və sair qəbilələr qışlaqdan tərpənərək qərbə doğru hərəkət edərlər. Öylə bir canlı seylab axıntısı başlar ki, ibtidada [əvvəlcə] 10 çağırımlarla [kilometrlərlə] məsafə tam mənası ilə örtülmüş olar.

Bu axıntının ələlümdə [başlıca] üç məcrası var: 1) Taxtabaşı (Dovşanlı), 2) Əsgəran (Yarma), 3) Hadrut (Araz) yolu. (Burada Gəncəbasar nəzərə alınmamışdır.)

Bu surətlə təqribən baharın ortasında Azərbaycan səhralarından 100 minlərlə arvad, uşaq və milyonlarla "dövlət" (köçərilər qoyuna və qaramala, ümumiyyətlə heyvanlarına dövlət deyərlər) bu üç böyük yol ilə "dağa köçərlər". Bunlar ələlümdə Qarabağ dağlarına köçərlərsə də, qismən İrəvan yaxınlarınadək (İstisu) gedib çıxarlar.

Azərbaycanlılar həyatında işbu "köç" məsələsi əhəmiyyət və böyüklüyü həsəbi [səbəbi] ilə Bakının ticarət və sənaəti [sənayesi] dərəcəsində də mühümdür desəm mübaliğə olmasın gərək. Zira Şuşa Milli Komitəsinin naqis istatistikası keçən ilki anarşi dövründə hələ yalnız Əskəran yolu gedən köçün miqdarını 415 min göstərmişdi. Naqis deyirəm, zira keçən il əvvəla yayın ortasında köç başlandığından bir çoxları aranda qalmışlardı. Saniyən [ikincisi], yolların qeyri-müsaidliyindən müntəzəmən hesab saxlamaq mümkün olmayırdı. Salisən [üçüncüsü], köçün qabağı getməmiş olduğu kimi axırı da kəsilmişdi. Lakin bununla belə, yenə yalnız Əskəran yolu ilə bu qədər köç getmişdi.

Bunlar üçün köçməmək qabilmidir?

Mütləq xeyr!

Zira yuxarıda ərz olunduğu üzrə, hələ köç vaxtına bir həftə qalmış qoyun-quzu üzünü qərbə çevirərək mələyir. Qoyun öylə zərif heyvandır ki, əsla istiyə tab edəmməz. Hava bir qədər qızdıqda mütləqa yaylağa getməlidir. Əks-surətdə 1918 sənəsində yollar namüsaid olduğundan (səbəbi aşağıda anlaşılacaqdır), el bir qədər gec köçdüyündən, bütün heyvan qızdırmaya tutularaq 10 minlərlə qırıldı. Eyni dərəcədə insanlar dəxi qızdırmadan tələf olurlar. Yenə keçən il güc [çətin] keçdiyindən 10 minlərcə uşaq və arvad qızdırmaya tutularaq çox adam qırılmışdı.

İl bir qədər güc keçərsə, kişilərlə qaramal təhəmmül edə [dözə] bilər. Çünki, adətən köç zamanı kişilər "köçü ötürdükdən sonra" aran işləri, xüsusən biçin işlərini görmək üçün arana qayıdarlar. Qaramal dəxi istiyə bir dərəcə tab edər. Fəqət qoyun ilə at, xüsusən qoyunlar istiyə əsla təhəmmül edəmməzlər və dərhal böyük qızdırma başlanar. Ona görədir ki, 100 minlərcə əhalinin mənafeyi-iqtisadiyyə və səhhəti nəzərə alınaraq hökumət tərəfindən onların köçmələrinin asanlaşdırılması üçün hər növ tədbirlər görülməlidir.

Söz burasındadır ki, yaylaqlar əksəriyyən ermənilərlə məskun yerlərdə olduğu kimi, yollar dəxi əksəriyyən erməni köyləri yanından keçirlər. Ona görədir ki, elatın işini asanlaşdırmaq üçün əvvəli-əmrdən [işin başından] öylə şərait hasil etməlidir ki, köç rahat gedə bilsin.

Keçən il elatın gec köçməsi və bu üzdən zikr olunduğu üzrə 10 minlərcə mal, heyvan və minlərlə arvad-uşağın qırılmasının səbəbi Əskəran yolunun ermənilər tərəfindən "bağlanmış" olması idi. Hətta iş bir dərəcəyə çatmışdı ki, bütün elat təngə gəlib, müsəlləh [silahlı] həmlə ilə yolları "açmaq" fikrinə düşürdülər. Fəqət yenə sülhpərvər rəislər elatı bu fikirdən daşındırır və "Öylə qanlı müsadimə [toqquşma] başlanarsa, mühasirədə bulunan Şuşanın halı bəlkə fəna olar" – deyə şəhər türklərinin səlaməti naminə onları sakit edirlərdi. Bu vəchlə köç məsələsinin hüsn-həlli ən əvvəl yollarda ermənilərin elata əziyyət etməmələri üçün tədbirlər görülməsindən asılıdır. Böylə azar və əziyyətin önünü hökumət almalıdır. Zira elat özü

ala bilməz. Çünki köç əksəriyyən mal, heyvan və külfətdən ibarət olduğundan "üstü ilə" gedən kişilər yol kəsənlərə müqavimət etməzlər, etmək istəməzlər: arvad, uşaq var!

İkinci şərt yaylaqların elat üzərinə açıq olması üçün şərait hazırlamaqdır. Bu məsələ nə qədər yalnız bizdən asılı bir şey deyilsə də, lakin hökumətimiz bu xüsusda qonşu millətlər və hökumətlər (xüsusən bu babda ən çox əlaqədar olan ermənilər) ilə anlaşmalıdır. Bilxassə sabah Tiflisdə Azərbaycan, Dağıstan, Gürcüstan, Ermənistan konfransı açılır və ümumun məramnaməsincə məzkur [deyilən] konfrans iqtisadi məsələlərə dəxi baxmalıdır. Azərbaycanın millətlər arasında müzakirə ediləcək mühüm iqtisadi məsələlərinin başlıcası, bəlkə yeganə məsələsi həman budur, bu olmalıdır. Əks-surətdə cavan məmləkətimiz külli can və mal xəsarətinə uğrar.

Köç məsələsi həyatımızda nə qədər mühüm isə, o qədər də müstəcəldir [təcilidir]. Köç vaxtı yetişmişdir. Bundan sonra hər həftə bizim üçün çox qiymətlidir. Tədbirlər görməlidir ki, bu məsələ tez həll olunsun.

*X[əlil] İ[brahim]*

## CƏNUB-QƏRBİ ZAQAFQAZİYA İSLAMLARININ MÜQƏDDƏRATI

**- 2 -**

Cənub-Qərbi Zaqafqaziya islamları ilə gürcülər arasında davalı bir məsələ vardır. Bu Batum və bir də Axıska məsələsidir. Gürcülərə görə, gürcü tarixiəsatirinin qəhrəmanı olan Xernavoz zamanından bəri Batum, Axıska, Axalkələk Gürcüstanın "Mesxet" deyə təarüf edən [bilinən] bir qismini təşkil etməkdədir. Bu, onların bütün kitablarında mühərrərdir [yazılmışdır].

Gürcü tarixşünaslarından və əsil, nəcib bir sima olan Kazbek Osmanlı təhtitabeiyyətində [tabeçiliyi altında] yaşayan bu ölkə haqqında yarım əsr əvvəl bir çox tədqiqatda bulunmuş, köyləri, qəsəbələri gəzərək gürcü asari-ətiqə və tarixiyyəsinə [tarixi və qədim əsərlərinə] aid bəzi şeyləri meydana qoymaq üçün olduqca çalışmışdır.

Kazbek gürcülərin Quriya ünsürü ilə acaralıların bir qövmdən ibarət olduğunu iddia etmiş, iddiasını isbat üçün də müfrit [ifrat] xəyalpərəstliyə saplanıb qalmışdır. Kazbekə görə çani (tzani), yəni lazlar epeyi zaman Bizans imperatorluğunun istilası altında qalıb da mədəniyyət və milliyyətcə bəzi istihalələrə [dəyişikliklərə] uğradığı halda, acaralılar bu təsirdən azad qalıb Samstxe-Saatabaqo deyə adlanan müstəqil bir hökumət idarəsi ilə yaşamışlar və Quriya ilə milli, irqi və dini rabitələrini mühafizə eyləmişlərdir.

Kazbekə görə əsil gürcü millətinin maarif və mədəniyyət, qüvvət və həyatını iştə bu məmləkətin qövmü vücuda gətirmiş və əsil gürcülük də onlarda imiş! Təbii, Kazbekin bu nəzəriyyəsi həyat üzərinə inşa edilmiş bir şeydir. Latınca məşhur bir əsər olan "Atlas Anteque" belə Qafqaziyada yerli olaraq yaşayan millətlərin həqiqi qövmiyyatiəsillərinə [əsl etnoqrafiyalarına] aid ciddi





bir şey ortaya qoyammadığı halda, Kazbekin böylə kəsdirmə mütaliəsi [qiymətləndirməsi] qərib[ə]dir. Digər tərəfdən Canaşvili kimi bir tarixşünas da acaralıların lazlara mərbut [bağlı] və lazların isə "minqrel" olduğunu iddia edərək, Bizans və Osmanlı imperatorluqlarının istila və təsirləri cəhətilə kəndi xüsusiyyətlərini başqa bir halətə cəlb eylədiklərini yazmışdır.

Bundan başqa, iyirmi ildən bəri işigücü Batum, Axıska, Axalkələk və Qarsda islamların əsillərini aramaqla keçən [Zaxari] Çiçinadze ancaq Batumun qövmiyyətcə bunlardan ayrıldığını, digərlərinin isə 16-17-ci əsrlərdə Osmanlı hökuməti tərəfindən məmləkətlərindən hicrət etdirilərək [köçürülərək] Türkiyə, Ərəbistan və sair yerlərə göndərildiyini iddia etmiş, Axıskanın, Qarsın, Ərdahanın əksəri əhalisindən türk, kürd, türkmən olduğunu anlatmışdır. Buna bənzər daha bir çox tarixi mütaliə [görüş] vardır.

Fəqət biz bunlardan bəhs etməyəcəyiz. Çünki zərafətlə siyasiyyat bir-birinə uymaz! Ancaq Batum və Axıska islamları haqqında gürcülərin nə dərəcəyə qədər mütərəddidanə [qərarsız] bir mühakimə bəslədiklərinə bizzat öz tarixlərindəki müxtəlif düşüncələr də şahiddir. Aşkar şeydir ki, gürcüləri əlaqədar edən keyfiyyət nə acaralıların dil, əxlaq və qəhrəmanlıqları, nə də Axıskanın "Maçabeli", "Kipiani", "Palavandişvili"lərdir. Məsələ ərazi üzərində, sırf tövsiyimahalın [mahalın genişləndirilməsi] arzusundadır. Bizim bu düşüncəmizi bir çox dəlillər isbat edə bilər. Əvvəla "qan qardaşımız" deyə acaralılara soxulub da köy komissarlarını belə gürcülərdən təyin etmək, bütün Batum oblastında acaralılar namı ilə yüz min dolab çevirmək [fırıldaq etmək] və sonra 1918 ilində Batumda acaralılara qarşı elanihərb etmək, bütün köyləri soymaq və mətbuatda "xain acaralılar" deyə aciz mübarizlər kimi reklamlar yapmaq və iştə bir qaç aydan bəri Axıskada islamlara məzalim [zülüm] eyləmək... Və bütün bunlar yaxın bir mazinin [keçmişin] hadisə və təcrübələridir.

Fəqət digər tərəfdən də Batum şəhəri, nüfus əksəriyyəti, ticarət və sərvəti etibarı ilə xristianlarda bulunurdu. Bunun böylə olmasına bizzat rus siyasətinin dəxi təsiri olmuşdu. 1878 müharibəsində ruslar Batumu işğal edib də təslim alacaqları zaman oblastın islam əhalisi Artvində Dərviş paşanın komandası altında yenidən ruslarla hərb etmiş və oblastı ruslara işğal etdirmək istəməmişdir. Buna müqabil də rus idarəsi islam əhalini gərək oblast və gərək şəhərdən yavaş-yavaş əskiltmək siyasətini tutmuşdu. Çünki rus polis idarəsi bir dürlü əhaliyə qane olammamışdı. Bizzat Batumda islam əhalinin övqafına [vəqflərinə] aid milyonlarca əmlak bələdiyyə idarəsinə və hökumətə keçir, bilxassə bununla əhalinin iqtisadi müqəddəratına xatimə çəkilirdi. Batumda islamların əleyhinə təqib edilən siyasət iştə bu amilllər altında bulunurdu. Batum oblastı islamlarına qarşı islamiyyət düşməni, xristian mühibbi [dostu] kimi bir siyasətə millətlərin beynəlmiləl ənasiri [ünsürləri] iştirak etmişlərdi. Həpsi şəhər və oblastı paylaşmaqda ittifaq eyləmişlərdi. Ruslar bu siyasətlərini canişindən, Hərbiyyə nazirindən aldıqları

əmrlərə görə tətbiq edirlərdi. Bu siyasətə əcəba ən ziyadə nə amil idi? Buna cavab vermək üçün Batumun yarım əsrlik tarixi-siyasisi üzərində bir az təvəqqüf etmək [dayanmaq] lazım gəlir.

*Ə. Həmdi [Qaraağazadə]*

## AZƏRBAYCAN DƏMİRYOL QULLUQÇULARININ SYEZDİ

Aprel ayının 23-də saat 5-də İzmail Leleviçin sədrliyi ilə Azərbaycan dəmiryolu qulluqçularının syezdi [qurultayı] olmuşdur. Rəis syezdə gələn mürəxxəsləri [nümayəndələri] təbrik edir. Sonra Gəncədən gələn mürəxxəslərdən Rəhim Məmmədov bir sual vermək üzrə söz istəyir və deyir ki:

*– Bu syezd burjua syezdimidir, yoxsa fəhlə syezdimi? Fəhlə syezdiysə, neyçün müsəlman fəhlələrindən burada nümayəndə yoxdur? Binaənileyh [buna görə], bu syezd qanuni syezd deyildir. Onlardan da nümayəndələr çağırılmalıdır.*

Rəhim Məhəmmədovun bu bəyanatı üzərinə məclisdə bir gurultu başlayır. Sədr aciz qalır və deyir ki:

*– Arxadaşlar! Rica edirəm gurultu etməyiniz, səs salmayınız, yoxsa məclisi bağlamağa məcbur olaram.*

Mürəxxəslər sükut edirlər. Rəhim Məhəmmədovun nitqi ruscaya tərcümə olunur. İndi də rus fəhlələri gurultu etməyə başlayır. Bundan sonra Cəlil İsmayıl oğluna söz verilir. O da deyir ki:

*– Fəhlə arxadaşlardan burada nümayəndə olmadığından, bu syezd qanunsuzdur. Təklif edirəm ki, onlardan tezliklə nümayəndələr seçilib göndərilsin.*

Bunun üzərinə sədr təzədən izahat verir və təzədən məclisdə patırtılar başlayır. Bir fəhlə daha söz alır və deyir ki:

*– Bir çox Bakıda dəmiryol işində bulunan fəhlələrin bu syezddən xəbərləri yoxdur. Binaənileyh, bu syezdə etiraz ediriz.*

Bunun üzərinə Rəhim Məhəmmədov yenidən söz alır:

*– Baxın, görün! Bu Bakı içində belə dəmiryol fəhlələrinin bu syezddən xəbərləri yoxdur. Böylə-böylə qanunsuz iş demokratiyada gərək olmasın!*

Bundan sonra sədr mübahisəni qət edir [kəsir] və müzakirati-yövmiyyəyə [gündəlik müzakirələrə] keçir. Sədr deyir ki:

*– Birinci məsələ smeta dakladı olmasına görə, 12 nəfərdən ibarət bir razılıq komisyonu seçilmiş, fəqət müsəlmanlardan nümayəndə olmadığına görə iki nəfər daha müsəlman nümayəndəsi seçilsin.*

Təklif qəbul olunur. Komisyona Cəlil İsmayıl oğlu ilə Rəhim Məhəmmədov seçilir. Sonra yenə smeta dakladı başlayır və məvaciblərin vaxtında verilmədiyindən dolayı şikayət olunur.

Bundan sonra Çurayev fəhlələr haqqında və siyasi məsələ barəsində söz söyləyir. Buna qarşı arxadaş Nurməhəmməd Nurizadə söz alır və deyir ki:

– Bizim Parlamanımız var. Siyasi, milli işlər orada həll olunur. Biz heç bir vaxt Azərbaycan fəhləsi olduğumuz halda, Dağıstan Hökumətinə hökm edib onlardan qulluqçuların iqtisadi tələblərinin qəbulunu tələb edə bilməyiz.





Sonra yenə gurultu olur. Sonra Çurayev təzədən izahat verir və bir çox natiqlər danışdıqdan sonra Çurayev təklif etdiyi bir qətnamə müzakirəyə qoyulur. Çurayevin qətnaməsi qəbul olunmayır. Çurayev ikinci bir qətnamə təklif edir. Bu qəbul olunur.

Qətnamə böylədir:

*"Petrovskda işləyən fəhlələrin tərəfindən gələn teleqrafa cavabən Petrovsk qulluqçularının zabastovkası [tətili] bizi mütəəssir etdiyi cəhətlə, Azərbaycan dəmiryolu Həmkarlarının İttifaqı syezdi iki nəfər sülh nümayəndələri seçərək müsalimətlə [əmin-amanlıqla] işi aparmaq və zabastovkanı tərk etmək məqsədi ilə göndərir."*

Bu qətnamə qəbul olunur və arxadaşımız Nurməhəmməd Nuruzadə ilə bir nəfər rus seçilirlər.

Gecə saat 10-da məclis bağlanır.

## BAKI XƏBƏRLƏRİ

**Bə'səti-rəsul**

Bə'səti-nəbi [Peyğəmbərin peyğəmbərlik vəzifəsini yerinə yetirməyə başlaması] bayramı münasibətilə bu gün idarə və mətbəəmiz tətil edəcək və qəzetəmizin növbəti nömrəsi çaharşənbə [çərşənbə] günü çıxacaqdır.

- Eyni münasibətlə bu gün Azərbaycan Məclisi-Məbusanın növbəti iclası olmayacaqdır.

**"Bəsirət"**

Yenə həman münasibətlə "Bəsirət" qəzetəsinin növbəti nömrəsi bu gün çıxacaqdır.

**Sui-niyyət kəşfinə [terror cəhdinin üstünün açılmasına] dair**

Aldığımız məlumata görə, neçə gün bundan əqdəm [qabaq] Biçeraxov və Könüllü ordu ilə əlaqədar olub və təhərri [axtarış] polisəsi tərəfindən tövqif [həbs] edilmiş olan polkovnik Voskresenski, [Cəlal] Əmiraslanov və qeyriləri Gəncəyə həbsxanaya göndərilmişlərdir.

**Hadisat**

Balaxanı-Sabunçu polis dairəsinin 6-cı uçastok [sahə] pristavı Bakı qubernatoruna məlum edir ki, neçə gün bundan əqdəm [qabaq] Xırdalan yaxınlığında olan qarovulxanaya 8 nəfər naməlum müsəlləh [silahlı] şəxslər hücum edib orada olan qaradovoylar Abbasqulu İmamqulu oğlu və Lazım Hacı Rəhim oğlu ilə atışmışlardır. Bir qədər atışmadan sonra bədəfkarlardan [cinayətkarlardan] bir nəfəri yaralanıb, qalanı isə gizlənmişlərdir.

## FƏHLƏ HƏYATINDAN

24 apreldə 1919-cu ildə Suraxanı qəryəsində [kəndində], "Narodnı dom"da [Xalq evində] Suraxanı, Bülbülə, Əmirhacıyan, Binə və Zığ qəryələrinin kəndçiləri və Suraxanı rayonunun rus və müsəlman fəhlələrinin cümlətanı iki min nəfərədək camaatın hüzuru [iştirakı] ilə böyük bir ictima [yığıncaq] oldu. Müzakirə olunan məsələ Əmirhacıyan sakini Nüsrət Qılıncxan oğlunun bitəqsir [günahsız] qətli və bir sürü qoyunların oğurlanması barəsində…

Natiqlərin nitqindən sonra məlum oldu ki, Suraxanı rayonunda adam öl-

dürmək, oğurluq və soyğunçuluq axırıncı vaxtlar adi bir iş olub. Biçarə kəndçilər və fəhlələr hər gün zalımların zülümlərinə düçar olurlar və onsuz da üsrətlə [çətinliklə] yaşayan fəhlələrin halı gündən-gündən fənalaşır və zülümlərdən dolayı Suraxanıda hərc-mərclik günü-gündən şiddət kəsb etməkdədir [şiddətlənməkdədir]. Hərgah böylə gedərsə, bu zülmün bəlası nəinki Suraxanı ətrafına, hətta hökumətə təsir edə bilər. Ona binaən [ona görə], lazımdır bu zülmə bir sərhəd çəkilsin.

Hazirundan [iştirakçılardan] bir çoxları qatillərin bu saat samosud ilə [məhkəməsiz] qətl edilməsinə fitva verdilərsə də, camaatın həyəcanını natiqlər bir növlə sakit edib, birsəslə zeyldəki [aşağıdaki] qətnaməni qəbul etdilər:

*“Çünki nahaq qan tökmək, soyğunçuluq və oğurluq Suraxanı rayonunda bir çox xainlərin içlərində adi bir iş olduğundan və günü-gündən zülüm və hərc-mərclik artıq şiddət etdiyindən, fəhlə və kəndçilərin fəna bir halda yaşamaqlarından və məhəlli [yerli] polisənin bu zülümlərə müqabil soyuqqanlılıqla baxmağından və zülümlərin axırının daha fəna olmağından dolayı biz kəndçilər və fəhlələr öz hökumətimizdən qəti surətdə tələb ediriz ki:*

*1) Tezliklə bu zülümlərin qabağı alınıb, bunlara bir sərhəd çəkilsin;*

*2) Fövqdə məzkur [yuxarıda adı çəkilən] mərhum Nüsrət Qılıncxan oğlunun qatilləri Qəmbər Abutalıb oğlu, Məhəmmədhüseyn Atamoğlan oğlu, Abbasqulu Məhəmməd oğlu və qeyriləri bilatəxir [dərhal] məhkəmeyi-hərbiyyə [hərbi məhkəmə] qanununun ən şədid [ağır] bir cəzası ilə cəzaya düçar edilsinlər ki, başqalarına ibrət olsun.”*

Bu işlərə tezliklə sərəncam etməkdən ötrü, yəni hökumətdən bu yolda bilatəxir lazımi binagüzarlıq [sərəncam] tələb etməkdən ötrü zeyldəki [aşağıdakı] şəxslər iclas tərəfindən intixab olundular [seçildilər]: Piri Atakişi oğlu, Məşhədi Əflatun Ağabaxış oğlu, Kərbəlayi Yusif Kərbəlayi Qəmbər oğlu, Məşhədi Həsənbala Baxşəli oğlu və Bəşir Bünyadzadə.

## GÜRCÜSTANDA

**İngilislər Ərzurumda**

Hnçakistlərin “Qordzavud” qəzetələri özlərinə məlum olan mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, bu günlərdə Qarsdan Ərzuruma 11 alay ingilis qoşunları əzimət eyləmişdir [getmişdir]. Guya ingilislər oranı istila edərək türk əsakirini [qoşunlarını] oradan çıxaracaqlarmış. Qoşunların bir hissəsi eyni məqsədlə Ərzincana qədər gedəcəkdir.

- General Andranik öz qoşunları ilə Eçmiyədzindən Qarsa gedir ki, ingilislərə mülhəq olsun [qoşulsun].

- Aprelin 18-ndə Tiflisdə Martınovski küçədə 3 nəfər müsəlləh [silahlı] naməlum şəxslər, birisi afser, ikisi milisioner libasında Azərbaycan Cümhuriyyəti Ədliyyə naziri müavini Teymur bəy Makinskiyə hücum edərək 3 min rublə pulu ilə saat və zəncirini almışlardır. Bu işə görə Kobridze nam [adlı] milisioner və afser libasında olan digər bir bədəfkar [cinayətkar] tövqif [həbs] edilmişdir.

**Gürcüstan cəbhəsində**

Kiçik Qaqra ştabından:

22 aprel – On yeddisi aprel müharibəsində bizim qoşunlar tərəfindən könüllülərdən 88 afser, 150 saldat əsir alınıb onlardan 87 saldat və afser qətl edilmişdir. Könüllülər qaçdıqda hərbi bir xəstəxana qoyub qaçmışlardır ki, içində 25 nəfər könüllü afser, 260 nəfər saldat qalmışdır. Cəbhədə gecə sakitliklə keçdi.

*Ştab naçalniki polkovnik Qusareli*

**İtibdir**

Təxminən 4 gün bundan irəli mən Möhsün Hacıağazadə bir göy cildli cib dəftəri itirmişəm. İçində bir neçə dənə qəbz və kvitansiya, 150 manat pul dəxi var idi. Onu tapan şəxsdən acizanə təvəqqe edirəm pulu özü götürüb, dəftəri və qəbzləri 100 manat bəxşiş olaraq götürüb bu ünvana versin: Naberejni küçə, “Fenomen” teatrosu müqabilində Hüseynovun evində Ağaəli Əkbərov və Məhəmməd Rəhimovun zərgər dükanı.

*8766*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi:**
**Əxzi-əsgərə dair**

səh. 537. “Hubbüldünya rə’sü külli xatiyətən”: “Dünya sevgisi bütün xətaların başıdır. (hədis; ərəbcə)

“Hübbi dünya həst rə’si hər xəta – Əz xəta key mişəvəd iman əta.”: “Dünya sevgisi bütün xətaların başıdır – İman xətadan örtük ala bilərmi?” Farsca şeir; beyt Şeyx Bəhainin “Nanü-halva” adlı əsərindəndir.

**Azərbaycan və İran**

səh. 538. “İran və biz”: Məhəmməd Əmin Rəsulzadənin bu məqaləsi “Azərbaycan” qəzetinin 8 aprel 1919-cu il tarixli 152-ci nömrəsində dərc edilmişdir.

səh. 541. “Qamus”: Türk müəllifi Şəmsəddin Saminin “Qamusül-ə’lam” adlı bioqrafiya, tarix və coğrafiya ensiklopediyası nəzərdə tutulur.

“240 tarixində”: burada tarix hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 854/855-ci illərə uyğundur.

Bağa (Buğa): Abbasi xilafətinin türk əsilli sərkərdələri, Bağa əl-Kəbir (Böyük Buğa) və Bağa əs-Səğir (Kiçik Buğa) adlı iki qardaşdan biri.

“Mütəvəkkiliyyə”: bir müddət Abbasilər xilafətinin işğalı altında qalan Şəmkirə xəlifə Cəfər əl-Mütəvəkkilin şərəfinə Mütəvəkkiliyyə adı verilmişdi.

səh. 543. “Sultan Süleyman”: Osmanlı padşahı I Süleyman (Qanuni Süleyman) nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 543. “Uels şahzadəsi”: Britaniya taxt-tacının kişi varisinin titulu. 1910-1936-cı illərdə bu titulu Eduard Albert (daha sonra Britaniya kralı olan VIII Eduard) daşımışdır.

səh. 544. "Üçlər Şurası": Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən (ABŞ prezidenti Vudro Vilson, Britaniya, Fransa və İtaliya Baş nazirləri Lloyd Corc, Jorj Klemanso və Vittorio Orlando) əmələ gələn Dördlər Şurası mövcud idi. Bəzən İtaliya Baş naziri Orlando olmadan yığışan Şura isə "Üçlər Şurası" adlanırdı.

**Osmanlı yəhudiləri**

səh. 545. "Vakit": İstanbulda 1875-1934-cü illərdə nəşr edilmiş gündəlik qəzet.

səh. 546. "Məclisi-cismani": Osmanlı dövlətində azlıqlara məxsus qurumlar əsasən dini məsələlərlə məşğul olan "Məclisi-ruhani" (Ruhani məclis), mülki məsələlərlə məşğul olan "Məclisi-cismani" (Mülki məclis) və hər ikisini özündə birləşdirən "Məclisi-ümumi"dən (Ümumi məclisdən) ibarət idi.

**Cənub-Qərbi Zaqafqaziya islamlarının müqəddəratı**

səh. 552. "tzani": qəzetdə latın hərfləri ilə verilmişdir.

"lazlar" (çani): əsasən Türkiydə yaşayan etnik qrup.

"Samstxe-Saatabaqo" (Samstxe atabəyliyi yaxud Mesxeti atabəyliyi): Gürcüstan ərazisində XV-XVI əsrlərdə mövcud olmuş dövlət təşkilatı. Mərkəzi Axalsıx şəhəri idi.

"Atlas Anteque": qəzetdə latın qrafikası ilə verilmişdir.

səh. 553. "minqrel": gürcülərin subetnik qrupu.

"Dərviş paşa": 1877-1878-ci il Osmanlı-Rusiya müharibəsində Batum ordusu komandanı olan Dərviş İbrahim paşa nəzərdə tutulur.

**İtibdir**

səh. 557. "Fenomen": Bakıda fəaliyyət göstərən teatr-kinematoqraf; Bakıda Dənizkənarı parkda, indiki Azərbaycan Dövlət Kukla Teatrının binasında yerləşirdi.





**Çərşənbə, 30 aprel 1919-cu il, nömrə 169**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharənbə, 29 rəcəbül-mürəccəb sənə 1337. 30 nisan 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**İNGİLTƏRƏ-QAFQAZİYA BANKİR KANTORASI**

*(Bakı, Velikoknyajeski küçədə, nömrə 1)*

Müamilat [əməliyyatlar] türk və rus dillərindədir.

İngiltərə-Qafqaziya Bankir Kantorası may ayının 3-ndən etibarən açılıb, bu aşağıdaki müamilatda bulunacaqdır:

Əcnəbi valyuta alıb-satmaq. Qiymətli kağızlar alıb-satmaq. Mal xərid və füruş [alıb-satmaq]. İldə 6 faizlə hesabi-cariyə tövdilər [cari hesaba əmanətlər] qəbulu. Təcili tövdilər qəbulu. Para bərat edilməsi [göndərilməsi]. Mal və mal sənədlərinə rəhn [girov] olaraq borc verilməsi. Bundan əlavə müxtəlif komisyon sifarişatı qəbul edilir. Tiflisdə, Batumda, İstanbulda və Londonda dəxi kantoralar açılır.

*8739*

**ELAN**

Cümə günü, may ayının 2-də Spasski küçədə, 137 nömrəli evdə, 18 nömrəli odada Əlihüseyn Əliyevin mənzilində, saat 9-da Şəki Həmvətənlər Cəmiyyətinin ümumi iclası olacağından Bakıda müqim [yaşayan] bilümum [bütün] şəkililərin məzkur [deyilən] mənzilə təşrif gətirmələri rica olunur.

*Müvəqqəti Komissiya*

May ayının 2-də, cümə günü, saat 10-da Şəhər Dumasının salonunda Cəmiyyəti-Maarifi-İraniyan [İranlılar Maarif Cəmiyyəti] barəsində məlumat veriləcəkdir. Binaənileyh [ona görə], ümum iranlıların məzkur vaxtda təşrif gətirmələri rica olunur.

*Heyəti-müvəqqətə*

*8752*

**BEYNƏLMİLƏL İCTİMAİ MƏCMƏ [YIĞINCAQ]**

Həmin aprel ayının 15-dən açılmışdır. Olqinski küçə, nömrə 5 (Kafe Parisin üstündə). İctima [yığıncaq] gündüz saat 12-dən və axşam isə saat 9-dan açılır. Rumınski orkestr məşhur skripkaçı N. Angeleskonun təhti-nəzarətində [rəhbərliyi altında] çalınır. Daxil olmaq ancaq üzvlərin müərrifliyi [tanışlığı, aşnalığı] ilə ola bilər.

*8747*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri**

Əmrnamə nömrə 96

Azərbaycan Məclisi-Məbusan İdarəsinin təhrirat xidmətçisi [məktub xidmətçisi] Ağalar İskəndərli 1919 sənəsi aprel ayının 6-dan etibarən həmin idarədə mütərcim təyin edilir.

Əmrnamə nömrə 97

Birinci Tatar Alayı zabiti Hüseyn bəy Qasımzadə 1919 sənəsi mart ayının 20-dən etibarən Azərbaycan Parlaman qorucu bölüyü komandanı yavərliyinə təyin edilir.

Əmrnamə nömrə 98

Azərbaycan Məclisi-Məbusan İdarəsinin telefonçusu Fatma xanım Mustafazadə həmin aprel ayının 13-dən etibarən məzkur [deyilən] idarə təhrirat xidmətçisi təyin edilir.

Əmrnamə nömrə 99

Azərbaycan Məclisi-Məbusanının rus [məzbətə] mühərriri [protokol katibi] Polina İosibovna Qoldman 1919 sənəsi aprel ayının 1-dən etibarən məzuniyyətdən vaxtında qayıtmadığı üçün vəzifəsindən kənar edilir.

Əmrnamə nömrə 100

Azərbaycan Məclisi-Məbusan İdarəsinin təhrirat xidmətçisi Zeynalabdin Gözəlzadə 1919 sənəsi 22 apreldən etibarən Parlaman Torpaq və Fəhlə komisyonu kargüzarlığına təyin edilir.

Əmrnamə nömrə 101

Miralay [polkovnik] Daniil Seoyev 1919 sənəsi aprel ayının 24-dən etibarən Azərbaycan Məclisi-Məbusanının rus məzbətə mühərrirliyinə [protokol katibliyinə] təyin edilir.

Əmrnamə nömrə 102

Sabiq Bakı müəllimələrindən Şəfiqə xanım Əfəndizadə 1919 aprel ayının 27-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsi müdirinin müavinliyinə təyin edilir.

*Məclisi-Məbusan Rəisi naminə:*
*doktor Həsən bəy Ağayev.*
*Mətninə mütabiqdir.*
*Kargüzar: C. Paşazadə*

## MƏTBUATDAN ÖTRÜ
## RƏSMİ BƏYANAT

1918-ci il dekabrın 26-da general Tomson tərəfindən verilən intibahnaməyə [bəyannaməyə] və 1919-cu il martın 25-də rəsmi bəyanata istinadən İngiltərə komandanlığı tərəfindən edilən təbədülatı [dəyişiklyi] xəbər verirəm. Yuxarıda söylənən intibahnamənin 3-cü və 4-cü maddələri ilə təmin edilən imtiyazat ləğv edilib, bu məsələlərin həlli Azərbaycan Hökumətinə vagüzar edilir [tapşırılır]. Bu maddələr ləğv edilmişdir:

3-cü maddə: Aşkarən davam edən təşkilat komitələrinin iclaslarına bilamümaniət [maneəsiz] örtülü olaraq icazə veriləcəkdir.

4-cü maddə: Siyasi həbslər ancaq Müttəfiq dövlət polisi iştirakı və orderləri ilə olacaqdır, təqsirnamə də 24 saat müddətində elan ediləcəkdir.

*Bakı şəhərində Müttəfiq dövlət əsgəri komandanı: General Şattlvort*
*Bakı, 28 aprel 1919*





## MÖHKƏM İDARƏ
## MÖHKƏM ƏXLAQLI İSTƏR

Fərdlərin, şəxslərin öz işlərində etibarları, müvəffəqiyyətləri, tərəqqiləri, şöhrətləri nasıl malik olduqları əxlaq və fəzilətləri ilə mütənasib isə, fərdlərdən vücuda gələn bir heyət, bir hökumətin də dərəceyi-ədl və etibarı [ədalətinin və etibarının dərəcəsi], mərtəbeyi-şərəf və qüvvəti də öyləcə əxlaqi-mədəniyyə və mətinəsi [mədəni və sarsılmaz əxlaqı] ilə mütənasibdir.

Bu öylə bir lütfi-haqdır ki, ülüləzm [ən böyük] peyğəmbərlər, ən böyük hadilər, dahilər, həkimlər, qəhrəmani-hürriyyətlər belə bununla, bu müsbət qanuni-ictimaiyyə ilə insanları təbşir və tənzir [müjdələməyə yaxud qorxutmağa], sövq və idarə eyləməyə müvəffəq olmuş və vücuda gətirdikləri inqilabi-ictimailərlə həqiqəti-məzkurəni [deyilən həqiqəti] e'la [ucaltmış] və elan eyləmişlərdir. Bu öylə bir həqiqətdir ki, bundan məhrum olanlar, bu vasiteyi-etila və iqbalı [ucalma və səadətə nail olma vastəsini] anlamayanlar, elm ilə əxlaqı, tərbiyə ilə ədəbi bir-birinə qarışdıranlar daima zəlalətə düşəcək, daima zərər görəcəklərdir.

Elm ilə əxlaq, tərbiyə ilə ədəb başqa-başqa şeylərdir, dedik. Əvət, öylədir.

Hüsni-əxlaq [yaxşı əxlaq] və tərbiyə mütləq təlimi-elm və fəzilət ilə olarsa da, hər sahibi-elm sahibi-fəzilət və əxlaq olammaz.

Mətin əxlaq və tərbiyə, şəksiz ki, beşikdən başlanan elmi və əsri [müasir] tərbiyə, fəzilətə tədrici adət [etmək] və haqq və ədlə [ədalətə] alışmaq, onu təbiəti-saniyə edinməklədir [onu özünə ikinci bir təbiət etməklə mümkün olar]. Bu isə ictimai nöqsanlarımızın ən böyüyü, məktəblərimizin qara ləkəsidir.

Əxlaqsızlıq istibdad və qara fikirlərin, zülm və haqsızlıqların yeganə vasitəsi olduğu kimi, vicdansızlığın, tamahkarlığın, büxl [paxıllıq] və həsədin də anasıdır.

Əxlaqsızlıq hələ təzə idarələrdə, yeni hökumətlərdə birər bəla, birər taundur. Xayır, xayır, bəlkə bunlardan da betər, bunlardan da əşəddir [şiddətlidir]. Çünki bunlar görünür, anlaşılır. Lakin o, o qara üzlü şeytan kimi görünməz, nəfsi-əmmarə kimi qafatasının içində gizlənər, zəhərli mikrob kimi qan damarında cövlan edər, fürsəti gözlər, vücudun zə'fini [zəifliyini], böhranını, anarşiyasını qənimət bilər. O vaxt həman özünü, feilini aşkar edər, zəhərini, bəlasını göstərər.

* * *

Bilməm, nə vaxtda Bakıda Ərzaqmı, hansı idarədənsə xeyli pul qeyb (?) olur.

Bilməm hangi idarədən bədəfkarlar [cinayətkarlar], ah, o bəlli əfkarlar neçə min hökumət pulunu oğurlarlar.

Bir ay qabaq bədbəxt Naxçıvan mühacir və fəqirlərinə paylamaq üzrə bir möhtərəm, mükərrəm [səxavətli], vətənpərəst, aşiqi-həqiqət, füqərapərvər, xadimi-millət, sahibi-şəfqət, mötəməd [etimad edilən], müqtəsəd [qənaətcil, israf etməyən], müəllim, müsəllim [idarəçi], mübarək, eyni-mələk [mələk kimi], mötəbər, dilavər [ürəkli], "bayramda paşa", hər yerdə dilgüşa [könül açan], fəzilətməab [fəzilət sahibi] və alicənab bir şəxsə bir neçə yüz min manat kağız pul verirlər. Bu cənabın da acından qırılan fəqirlərə

yazığı gəlir. Onlara kağız pul əvəzinə qızıl pul vermək istər. Onu tapmaq üçün də Rəştə gedər, Batuma qaçar. Aradan xeyli vaxt çıxar, amma bu arada Naxçıvan aclarından bir qisminin də canı çıxar. Zərəri yox, çoxu yenə sağ. Möhtərəm cənab, kağızı qızıla dəyişdirmək üçün təbii rahat oturammaz. Oraya-buraya baş vurar. Lakin bunun ali zəhmətini bədəfkar sosialistlər anlamazlar. Qışqırıq salarlar, nəhayət, pulu geri verər.

Bu pulun üstünə bir az da qoyarlar, olar 900 min. Daha mötəbər, daha fəzilətpərvər bir heyətə verərlər ki, Tiflis yolu ilə Naxçıvana gətirsin. İki-üç aydan bəri ölməyib sağ qalan mühacirlərə versinlər.

Heyət kamali-izzü-ehtişamla [böyük bir izzət və ehtişamla] Tiflisə "Orient" qastinitsasına [mehmanxanasına] düşər, 900 min manatı da çamadanı ilə nömrə otağında saxlar. Lakin bir gün sonra, 17 apreldə pul qeyb olar. Həm büsbütün qeyb olar. Əvət, əvət, 900 min manat, həpsi birdən uçar.

Şübhə üzərinə, heyət əzasından [üzvlərindən] birini tutub həbsə salarlar.

* * *

Məqsədimə misal üçün yuxarıda nəql eylədiyim zərifanə [olduğu] qədər əlimanə [kədərli] olan xitabəni buraxalım. Yenə məqsədə keçəlim:

Cavan Azərbaycan Hökuməti idarələrinə bir çox məmurlar lazım.

Bunların pisini bulmaq, ayırmaq çətin. Çünkü xainlər, əxlaqsızlar hər kəsdən ziyadə şirin dilli, qeyrət və həmiyyətli, mötəbər və bacarıqlı, aqil və məlumatlı görünürlər. Ürəklərindəki qaranlığı, qanlarındakı zəhəri, qafalarındakı xəyanəti əsla bəlli etməzlər. Ağızlarından guya məhəbbət, gözlərindən mərhəmət, işlərindən bərəkət tökülər. Biçarə, safdil [sadəlövh] rəislər, məsul müdirlər birdənbirə anlamazlar. Nədən sonra, işlərin üstü açılanda, xəzinəyə milyonlarla zərər dəyəndə ayılarlar.

Bu halda nə etməli? Əldə bir vasitə yox ki, xainlər, əxlaqsızlıqlar anlaşılsın, əmniyyət [etibar] edilməsin, təmizlənsin.

Bunun üçün zahirən bir aləti-təfriq [ayırmaq üçün bir vasitə] yox deyiləcək. Lakin bu bəhanə doğrumu? Əcəba, daireyi-elmimizdə əhvali-ruhiyyəni, əsrari-qəlbiyyəni [qəlbin sirlərini] bildirəcək heç bir miqyas, ölçü yoxmu? Sanıram ki, vardır. Həm öylə bir ölçüdür ki, çox az şaşar. Bu da şəksiz "qəvanini-ruhiyyə"dir ["mənəvi qanunlar"dır]. Qəvanini-ruhiyyə bizim sandığımız kimi qəvanini-fərziyyə və ehtimaliyyələrdən [güman və ehtimala əsaslanan qanunlardan] deyildir. Riyazi hesab qəvanini kimi müsbət və layəzal [əbədi] qanunlardandır.

Bu qanuni-təbiəti, bu mənəvi ölçünü başınıza alınız, filan dairə müdirinin, filan qulluqçununmu nasıl olduğunu, onun dərəceyi-sədaqətinimi bilmək istəyirsiniz? Çox gözəl. Həman onun "tərcümeyi-halını" tədqiq ediniz. Keçmişini, adətini, xüsusi hallarını, xasiyyətlərini öyrəniniz. Vaxtilə hökuməti-müstəbidə zülmünə müavinət [kömək] etmişmi, xəfiyyəlikdə bulunmuşmu, milləti mənfəətinə satmışmı, cinsdaş [eyni soya, irqə mənsub olan] bir hökuməti para və məmuriyyət müqabilinə qəzetə sütunlarında qaralamışmı? Xüsusi borclarını verməmişmi, yaxın qövm və qonşularına mərhəmətsizlik etmişmi? Hırs və səfahətə [ehtirasa və əyləncəyə], moda və keyfə düşkünmü? Yalan söyləyib hər şeyə and içirmi? Məmuriyyət və istiqbalından [dövlət qulluğundakı işindən və öz gələcəyindən] ümidsizmi? Ev tərbiyəsindən, möhkəm bir iman və məfkurədən məhrummu? Xalq cəhalətini vasiteyi-şöhrət və mənfəəti bilmişmi? ................................................

..........................................................

Bil ki, yenə öylədir. Nə isə, yenə odur. Adəti, öyrənişi təbiəti-saniyyəsidir [ikinci təbiətidir]. Bəlkə, validi-əf'alıdır [əməllərinin atasıdır], xaliqi-iradə və idarəsidir [iradə və idarəsinin yaradıcısıdır].

İştə, burasını nəzərə alaraq cavan Azərbaycanımızın təhkimi [möhkəmlənməsi] üçün məsuliyyətli dairələr, heyətlər başına mümkün mərtəbə möhkəm əxlaqlı insanlar qoymalı ki, istiqlalımıza rəxnə [ziyan], xəzinəmizə zərər, gəncliyə zəhər vurulmasın.

*Ümidvar*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

24 aprel 1919-cu il

İclas saat 11.40 dəqiqədə açılır.

**Sədr** - Həsən bəy Ağayev

**Katib** - Mehdi bəy Hacınski

**Sədr** - İclas açılır. Bugünkü ruznameyi-müzakirat [müzakirə gündəliyi] böylədir:

1) Etimadnamə komisyonunun məruzəsi;

2) Yevlax-Nuxa yolunu Kiş çayının daşqınından mühafizə etmək üçün Ziraət [Əkinçilik] və Əmlak Nəzarətinə iki yüz on bir min rublə buraxılması haqqında qanun layihəsi;

3) Beş yüz on milyon rublə dövlət pulu buraxılması haqqında hökumətə müsaidə verilməsi.

Etiraz yoxsa, yövmiyyeyi-müzakirat qəbul olunur. Növbədəki məsələ Etimadnamə komisyonunun məruzəsidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyli.

**Şəfi bəy [Rüstəmbəyli]** - Bakı Bələdiyyə idarəsi Əliağa Həsənov ilə Ağazeynal Tağıyevi Parlaman üzvü intixab etmişdi [seçmişdi]. Əliağa Həsənov Maliyyə naziri müavini və imdi də Maliyyə naziri olduğundan, Ağazeynal Tağıyev də üzvlükdən xaric olduğuna [görə], Parlaman üzvü hesab olunmayırlar. Bakı Bələdiyyə idarəsinin 45 müsəlman əzasından [üzvündən] 23-ü qanun üzrə əksəriyyət təşkil edir ki, əksəri iclasda varmış. Onlardan Əsədulla Əhmədov 24 səslə, Əsəd bəy Əmirov 15 səslə Parlaman üzvü intixab edilmişlərdir. Etimadnamə komisyonu onların seçki bəratülqövllərinə [protokollarına] baxıb, düz olduğunu qəbulla təsdiqini Parlamana təklif edir.

**Sədr** - Etimadnamə komisyonunun məruzəsi haqqında kim danışmaq istəyir? Söz istəyən yoxsa, səsə qoyacağam. Nakaz [Nizamnamə] üzrə Bələdiyyə İdarəsi tərəfindən seçilən üzvlərin əvvəlcə seçkilərinin düz olub-olmadığını, sonra da Etimadnamə komisyonunun qərarını səsə qoyacağam. Hər kəs Bakı Duması tərəfindən Əsədulla Əhmədov ilə Əsəd bəy Əmirovun seçkisini dürüst və qanuna müvafiq hesab edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Əksəriyyətlə seç-

kinin dürüst olduğu qəbul olunur. Hər kəs Etimadnamə komisyonunun qərarını qəbul edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Əksəriyyətlə qəbul olunur.

Növbədəki məsələ Yevlax-Nuxa yolunu Kiş çayının daşqınından mühafizə etmək üçün Ziraət və Əmlak Nəzarətinə iki yüz on bir min rublə buraxılması haqqında qanun layihəsidir. Məruzəçi Əbdüləli bəy Əmircanovdur.

**Əbdüləli bəy [Əmircanov]** - Nuxa-Yevlax şosesinin və Nuxa şəhərinin dağ çaylarından mühafizəsi üçün 1911-ci ildə bir sədd çəkilmişdi ki, çayın qabağını saxlasın. 1916-cı ildə bu səddin təmirinə bir çox şəhər və zemstvo [yerli özünüidarə qurumu] parası buraxılmışdı. Bütün bu sədd Şəki şəhərini və Yevlax-Şəki şosesini müdafiə edirdi. Bildir, 1918-ci ilin avqust ayında böyük bir sel gəlib bu səddin böyük bir parçasını xarab etmişdir. İki yüz əlli sajın ki, səddin boyudur, əlli sajını seldən bərbad olmuşdur. Bildir, şəhər və dövlət parası ilə 30 sajınını təmir etdilər. Qalanı təmir olunmadı. Çünki ləvazimat tapılmadı. Ona görə Gəncə valisi Ziraət nazirindən rica edir ki, dövlət meşəsindən çırpıntı almaqla və daşla səddin qalanı təmir olunsun və əvvəlki sədd alçaq olduğundan, bu dəfə bir az uca olsun. Bunun üçün də təqribən 211 min rublə təyin olunmuşdur.

Yevlax-Şəki şosesinin sel daşqınından xarab olması Şəki ticarətinə böyük zərər vurur. Gəncə qubernatoru burasını nəzərə alaraq, ona görə bu sədlərin təmirinə sərf olunacaq paranın hamısının dövlət xəzinəsindən verilməsini xahiş edir.

Bu barədə hökumət bunu qəbul eyləmiş ki, 211 min rublə əcələ [təcili] surətdə verilsin və bu sel may ayının axırında gəlməyə görə paranı əcələ olaraq vermişlər. İmdi hökumət rica edir ki, bu paranın verilməsini Parlaman qəbul etsin. Maliyyə-büdcə komisyonu bu qanuna baxıb qəbul eyləmiş. Maliyyə-büdcə komisyonunun arzusu bu olmuşdur ki, bu para sərf olunanda Bələdiyyə rəisi iştirak etsin ki, bu pul ancaq öz yerinə sərf olunsun.

**Əhməd Cövdət** – Mən əlbəttə bu qanunnamə barəsində danışmaq fikrində deyiləm. Çünki may yaxınlaşır və sel gəlir. Nuxa-Yevlax şose yolunu sel daşqınından müdafiə etmək üçün 211 min rublə istənilir. Verilməsi lazımdır. Lakin arzu edərdik ki, Nəzarət [Nazirlik] tərəfindən tədbirlər görülsün və diqqət olunsun ki, bu pullar yerinə xərc olsun ki, bir də bu sədlər xarab olmasın və yenidən bizdən pul istənilməsin. Ancaq mənim dediyim özgə şeydir. Neçə aydır ki, Parlaman açılmış və bura gələn qanunnamələri müzakirə edirik. Ziraət və Əmlak nazirindən bir-iki qanun gəlmiş. Biri bu, biri də Kür çayı sahillərində sədlərin inşası haqqında qanun layihəsi. Belə nəzərə gəlir ki, biz və Nəzarət böylə xırda qanunlara baxmaqdan başqa bir şey tapmayırıq. Guya bizim məmləkətimiz anarxiya keçirməmiş, kəndlər dağılmamış, evlər xarab olmamış. Bir çox yerdə bu saat əkinçilər kotansız və toxumsuz qalmışdır. Bu barədə Ziraət nazirinin köməyi lazımdır. Amma bu barədə indiyə qədər heç bir qanun layihəsi daxil edilməmişdir. Nəzarət iş görmür. Guya hər işimiz öz yolunda imiş və ya başqa böyük qanunlara ehtiyac yoxmuş, ancaq





çay daşqınının qeydinə qalmalı imiş. Doğrudur, buna da baxmalı və pul buraxmaq lazımdır. Lakin Cümhuriyyət içərisində ümumiyyətlə ehtiyacı rəf etmək [aradan qaldırmaq] üçün evləri sökülənlərin evlərini təmir etməli, malı olmayanlara mal verməli, toxumu, kotanı olmayanlara toxum və kotan tədarük etməlidir. Bu barədə gərək Nəzarət bir qanunla bizim qabağımıza çıxsın və pul istəsin. Arzu edərdim ki, bundan sonra hökumət böylə xırda-xırda qanunlarla deyil, gələcəkdə böyük dərdlərimizi və ehtiyaclarımızı yazıb qabağımıza çıxsın.

**Sədr** - Daha söz istəyən varmı? Yoxsa, müzakirə bitmiş olur. Səsə qoyuram. Hər kəs qiraət olunmuş [oxunmuş] layihəni komisyonun rəyi ilə bərabər qəbul edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Əksəriyyət qəbul edir. Növbədəki üçüncü məsələ 510 milyon dövlət pulu buraxılması haqqında hökumətə müsaidə verilməsidir. Məruzəçi Mustafa Vəkilov.

**[Mustafa] Vəkilov** - Hökumət tərəfindən təqdim olunmuş qanun layihəsi 510 milyon kağız pul buraxmaq üçün hökumətə müsaidə vermək xüsusundadır. Hökumət Parlamandan rica edir ki, yenidən kağız pul buraxılması üçün hökumətə müsaidə verilsin. Hökumət öz bəyannaməsində bu məsələnin tarixindən bəhs edib, bu paranın nasıl məsrəf olması haqqında məlumat verir. Böylə görünür ki, Bakı Bələdiyyə idarəsi tərəfindən "bon" adında kağız pullar buraxılıbdır. 1918-ci ildə Bakı şəhəri bir tərəfdən daxili Rusiya və digər tərəfdən Tiflis ilə münasibatı kəsildiyinə görə məhəlli [yerli] bazarda (rınokda) pula artıq ehtiyac olduğundan Bələdiyyə İdarəsi bon buraxmağa məcbur olmuşdu və bonun buraxılması, məsrəfi və təmin edilməsi xüsusunda Bələdiyyə İdarəsi bir qayda-qanun düzəltmişdi. O vaxt pul yerində bon idi. Bu, əsl pul mənasını verirdi. Lakin özləri və əhali ona pul kimi baxmırdı. Müvəqqəti pul yerini verib, veksel kimi işlənirdi. O vaxt şəhər idarəsi padşahlıq bank [Dövlət Bankı] vasitəsilə 62 milyon kağız pul buraxmışdı. Necə ki, məlumunuzdur, sonradan şəhər bolşeviklər ixtiyarına keçdikdə həman yenə o kağız pul bolşeviklər tərəfindən daha da şiddətlə buraxıldı. Hərçənd bu pul bələdiyyə adından hesab olunurdu, lakin bolşeviklər öz istədikləri kimi sərf edirlərdi. Bolşevik hökuməti elan eyləmişdi ki, bu kağız pulun əvəzini Rusiya öz varı ilə cavabdehdir. Hökumət bizim əlimizə keçənə qədər bolşeviklər zamanında 227 milyon manat kağız pul buraxılmışdır. Demək hökumət bizim ixtiyarımıza keçənə kimi cəmi 300 milyona qədər kağız pul buraxılmışdır. Sonra ixtiyar bizim hökumətimizə keçdikdə, hökumət və Maliyyə Nəzarəti bu barədə dərin düşünüb istədi ki, camaata və məmləkətimizə xeyir olan bir üsul tapıb böylə müşkül haldan çıxsın. Məlum olduğu üzrə, Bakı alınmamışdan qabaq bizim hökumət Tiflisdə gürcülər və ermənilərlə pul buraxmışdı və bəzi şərt-şurut ilə bir hissəsinə iştirak edirdi. Bakı alınandan sonra hökumətimiz gördü ki, rınoka 300 milyon kağız pul buraxılıb. Hökumət bir istədi ki, bir növlə Bakı pullarını yığıb ondan xilas olsun və Zaqafqaziya pulundan istifadə etsin. Sonradan bu tədbir həm hökumət və həm əhali üçün müşkül göründü. Qərar qo-

yuldu ki, iki pul işlənsin. Biri Bakı, digəri iştirak etdiyimiz Zaqafqaziya bonu. Sonradan hökumət öz ehtiyacını ödəməkdən ötrü getdikcə kağız pul buraxmağa məcbur oldu. Parlamandan əvvəl hökumət ehtiyacı olduğundan 90 milyon öz qərarı ilə pul buraxıb, sonradan bəyannamənin deməyinə görə hökumətin xərci artdığından, yüz milyon rublə də bir buraxılmışdır. Dekabr və yanvar ayında olan qərarlara görə sonradan 200 milyon rublə də buraxmışdır. Hökumətin dediyinə görə, artıq əcələ olduğundan Parlamanın müsaidəsi olmadan bu pulları buraxmışdır. Lakin hökumət tərəfindən buraxılan bu pullar ehtiyacı təmin etməyir. Ona görə hökumət Parlamandan rica edir ki, həmi müsadiəsiz buraxdığı 300 milyon para təsdiq olunsun və mayın axırına qədər xərci təmin eyləməkdən ötrü 210 milyon rublə buraxmağa icazə verilsin. Hökumətin cəmi istədiyi 510 milyondur.

Hökumət öz bəyannaməsində xərclərini ümumi bir formada göstərmişdir. Mayın axırına qədər 210 milyon rublə istəyir. İndi görək bu pullar nə cür sərf olur və ehtiyac nədir? Hökumətin göstərdiyinə görə, ayda 60 milyon rublə neft mədənçilərinə verilir. Bundan əlavə, 35 milyon da ingilis ştabına verilir. 40 milyon da hökumətin öz işlərinə, məmurlara və qeyri ehtiyaclara xərclənir. Bu hesabla hökumət zənn edir ki, may ayının axırına qədər 210 milyon kifayət edər. Onun üçün də 510 milyonun müsaidəsini istəyir. Əlbəttə, bu layihə Maliyyə və büdcə komisyonunda ətraflı müzakirə oldu. Büdcə və maliyyə komisyonu buna əhəmiyyət verib düşünür ki, kağız pul nə qədər artıq buraxılarsa, qiyməti o qədər düşər. Bu bir aşkar məsələdir ki, finansist [maliyyəçi] olmayan əhali də bunu bilir. Məsələnin əsil qüsuru və əsil bədbəxtliyi budur ki, bu kağız pul ki, buraxılır, dava zamanı bizdən daha zəngin məmləkətlərdə bizdən artıq buraxılıb. Ancaq onların qızıl təminatı var ki, vaxtında kağız pul əvəzinə qızıl pul alınır. Ancaq bizim hökumətin qızıl təminatı olmadığından, nə ki istehsalatı və dövləti varsa, onunla da buraxılan kağız pulları təmin edə bilər. Bundan savayı biz görürüz ki, bu kağız pul ki, buraxılır, əhalinin ehtiyacı qədər buraxılsaydı qiymətdən düşməzdi. Dərd burasındadır ki, əhalidə ehtiyacından artıq pul vardır. Hətta ən kasıbda pul çoxdur. Rınokda da pul ehtiyacdan artıqdır. Hökumətin də bu pulları öz bankına yığmağa lazımi qədər qüvvəsi çatmayır. Əhalidə pul çoxdur, hökumətdə isə yoxdur. Buna görə, hökumət getdikcə pul buraxmağa məcbur olur. Çünki ehtiyac çoxdur. Büdcə-maliyyə komisyonu bunu nəzərə alıb bir neçə arzular eylədi. Bu arzuları da sizə məlum edir. Əvvəla, bunu nəzərə aldı ki, hökumətin ehtiyacını bir tək pul kəsən makina vasitəsilə ödəmək olmaz. Bu böylə gedərsə, axırda öylə olar ki, bazara çıxıb bir şey almaq olmaz. Ona görə hökumət gərək naloqun (vergilərin) tezliklə yığılmağına böyük əhəmiyyət versin, tainki əhalidə olan pul xəzinəyə gəlsin və xəzinəyə əl uzadanda o pullardan istifadə etmək mümkün olsun. Yanvar ayında hökumətin mədaxili 5 milyon, məxarici 25 milyon olmuşdur. Fevral ayında isə mədaxili 8 milyon, məxarici 32 milyon olmuşdur. Əlbəttə, böylə davam





etsə, nə qədər pul buraxılmasına müsaidə etsək, yenə də hökumətin ehtiyacı təmin edilmiş olmaz. Ona görə Maliyyə-büdcə komisyonu mədaxilin artmasına diqqət verdi və gəlir vergisinə (podoxodnı naloq) ki, artıq mədaxil verir, Nəzarət tərəfindən əhəmiyyət verilməsini arzu edir, bu bir.

İkinci, nəzərə aldıq ki, gərək istiqraz müəssisələri, banklar nizama salınsın. Bunların indiki halda əvvəlki kimi müamilatda bulunmadıqları [əməliyyat aparmadıqları] məlumdur. Əvvəllər pul bankda müamilədə olurdu. Əhali və hökumət ondan istifadə edirdi. İndi bunlar zəif işləyirlər və bəlkə də heç işləməyirlər. Bunları qaydaya və nizama salmaq lazımdır. Ona görə mərkəzi hökumət bankı olmalıdır ki, qeyri müəssisələr də oradan kömək alıb işləsinlər. Hökumətdən işə başlamağı və qeyri müəssisələrə əhəmiyyət verib mərkəzi bank açılmasını arzu edirik. İkinci arzumuz budur.

Üçüncü, biz gördük ki, bir məmləkətdə iki cür pul işlətmək, işləri çətinləşdirir. Bir Bakı pulu, bir Tiflis pulu. Diqqət etsəniz görərsiniz ki, bizim pulumuz Tiflisdə az qiymətə gedir, amma Tiflis pulu Bakıda artıq qiymətə gedir və xalq arasında yaxşı pul hesab olunur. Bazarda satılır. Bizim pul ilə Tiflis pulu bir qiymətdə deyildir. Bizim orada hissəmiz olduğuna görə, iki tərəfə baxdığımızdan bu məsələdə bir növ şaşqınlıq və çaşlıq əmələ gəlir. Bizim zənnimizə görə, pul sistemi bir olmalıdır. Zaqafqaziyanın ümumi pulu olacaqmı yaxud məxsusi Azərbaycan pulu olacaqmı? Onu Maliyyə Nəzarətində olan mütəxəssislər eyi bilirlər. Ancaq bizcə hansı biri olursa-olsun, pul sisteminin bir olmasını indiki halda xeyirli bilirik.

Əlbəttə, aşkar məsələdir ki, hökumətin ehtiyacı da olsa, əcələ də olsa yenə Parlamanın müsaidəsi olmaya-olmaya izinsiz pul kəsilməsi Büdcə komisyonunun nəzəriylə mümkün və düz deyildir. Hərgah hökumət ancaq pul kəsmək təriqi [yolu] ilə ehtiyacını təmin üçün asanca pul əldə edə bilərsə, o zaman qeyri mənbələrə və mədaxil verici müəssisələrə bittəb [təbii olaraq] əhəmiyyət verməz. Əgər hökumət görsə ki, pul buraxmaq çətindir, onda qeyri vasitələr və başqa çarələrlə pul əldə etməyə çalışacaqdır. O vaxt bankların yaxşı müamilatda bulunmasına, vergilərin nizamla toplanmasına daha ciddi surətdə baxıb ehtiyacını təmin edər. Buna da hökumətin nəzəri-diqqətini cəlb edirik. Parlamandan izinsiz pul buraxmaq düz deyildir. Bu məlumatda[n] sonra hökumətin qanun layihəsini oxuyuram. Həqiqətdə bu cür pul buraxmaq böyük müşkülat çıxarır. Maliyyə-büdcə komisyonu düşünür və ətraflıca söylədiyi arzuları ilə bərabər görür ki, bu saat pul lazımdır, lakin əldə yoxdur. Ona görə komisyon təklif edir ki, hökumətin bu layihəsi qəbul edilsin. Hökumət də büdcə komisyonunun arzularını nəzərə alsın və gələcəkdə doğru yol ilə pul tapmağa çalışsın. Büdcə komisyonu təklif edir ki, layihəni qəbul edəsiniz.

**Sədr** - Kim danışmaq istəyir? Danışmaq istəyən varsa vərəqə ilə bildirsin. Söz Yusif Əhmədovundur.

**Yusif Əhmədov** (bitərəf) - Möhtərəm məbuslar! Bu qanun layihəsi Maliyyə Nəzarəti tərəfindən təklif olunur. Məncə

bu məsələnin çox böyük məna və əhəmiyyəti vardır. Özüm də tüccar sinifinə mənsub olduğum üçün bu barədə bir qədər izahat verməyi lazım bilirəm. Keçmişdə Bakı Bələdiyyə İdarəsi tərəfindən 62 milyon, ittilaatıma [məlumatıma] görə Seym tərəfindən 80 milyon, *(Səslər: 160 milyon)* 160 milyon və sonradan Parlamanın icazəsi olmadan Azərbaycan Hökuməti tərəfindən 300 milyon manat para buraxılıbdır. İndi isə həman 300 milyon və təzədən buraxmaq istədikləri 210 milyon ki, hamısı bir yerdə 510 milyon edir, təsdiq etdirmək istəyirlər. Eybi yoxdur, pulu makina kəsir. Lakin təfavütü budur ki, o vaxt kəsən kim olub? Mən bir neçə gün əqdəm [qabaq] Tiflisdə idim. Doğrudan da adama çox ağır gəlir. Bir pul ki, hər şəhərdə makina vasitəsilə kəsilir və buna müvəqqəti bon deyilir, təzə təşkil olunmuş cümhuriyyətlərdən heç birinin bu pullar əvəzində Azərbaycan məmləkəti qədər qüvvəsi və etibarı yoxdur. Fəqət heyiflər olsun ki, bizim pulumuz Tiflisdə, Batumda, Potidə, Ermənistanda heç bir şey deyil vəhalonki [halbuki] Batum və Potidə olan ingilislərlə əlaqəmiz yaxşıdır. Ancaq nədənsə bu barədə bu vaxta qədər bir tədbir və sərəncam olmayıbdır. Qəsdim heç bir kəsi şəxsən nəzərdə tutmaq deyil. Mən ümumi dairədə Parlamana bildirməyi lazım görürəm.

Mən istərdim o pullar ki, bir dövlət tərəfindən buraxılır, etibarı nəzərdə tutulaydı və bu barədə Gürcüstan və Ermənistanla əlaqəmiz məlum olaydı. Zaqafqaziya pullarının dərəceyi-etibarı bizimkindən 99 faiz artıq hesab olunur. Təəssüflər olsun ki, o pullar hər yerdə işləndiyi halda biz tacirlər çətinliklə 5-6 faiz pula alıb Tiflisdən mal almağa gediriz. Bu barədə lazım idi sərəncam olsun. Güman edirəm ki, olacaq. Lakin bir qədər tez olsaydı yaxşı olardı. İkinci, İran ilə əlaqəmiz və ticarətimiz vardır. Bizim pulumuz orada bir dərəcəyə çatıbdır ki, min manatımız 11 tümənə gedir. Sülh vaxtı hesabı ilə min manatımızın qiyməti 18 manat 70 qəpik eyləyir. Bununla da belə olur ki, oradan arşın malı gətirmək lazım olduqda 3 manatlıq şeyə 15 manat verilir. Burada da əhali şeyləri birə 8, birə 10 artıq qiymətə almağa məcbur olur. Mən deyirəm ki, bunlara necə çarə vardır. Məncə mürur ilə [vaxt keçdikcə] bu pullar kəsilib çoxaldıqca və ticarət dairəsinə buraxıldıqca, iş bir yerə çatar ki, indiki kimi qiyməti olmaz və bəlkə də heç olmaz dərəcə etibarı az olar. Onsuz da indi manatımız bir qəpiyə gedir. Bunun çarəsi vardır. Ola bilər ki, bu dediyim söz fəhlə sinfinə dair olsun, qərəzli görünsün. Lakin xəyalım o deyil. Biqərəz deyirəm: bir yerdə istəsələr pulun qiyməti artsın, gərək o məmləkətdə iş (trud) çoxalsın. Çünki zəhmət çox olanda pulun qiyməti artar. Amma indiki halət bir dərəcəyə çatıb ki, zəhmətdən hasil olan iş məvacib müqabilində heç dərəcəsindədir. Sülh vaxtındakı səkkiz saatlıq işin məhsulu indikinə nisbətən 100 faiz çox olurdu. Güman edirəm nəinki [fəhlə], başqa xidmətlər də böylədir. Asayiş vaxtında bir saatda işlənən iş, indi 6-8-10 saatda işlənməyir. Odur ki, zəhmət məhsulu az olub, pul da mürur ilə çoxalır. Bunun intəhası [axırı] yoxdur. Parlaman izin verəcək, pul kəsiləcək. Mən özüm də tacirəm. O şeyi ki, mən özüm almışam, onun əvəzində verdiyim pulu





heç kəs mənə verməyir. Ona görə məsləhət bilərdim ki, Maliyyə naziri cənabları bu yolda səy etsin ki, mümkün qədər zəhmətdən əmələ gələn məhsulat çoxalsın. Bunun nəticəsi də o olar ki, mal çoxaldıqca hər kəs özününkünü tez satmağına tələsər və ortada bir rəqabət olar ki, bununla pulun qiyməti artar. Bu bir çarə. İkinci çarə, məruzəçi dedi ki, Gürcüstan və Ermənistan ilə əlaqəmiz olsun. O[n]ların pulu ki, burada artığına işlənir, heç olmazsa bizim pulumuz orada manatı manata işlənsin. Üçüncü çarə olmaq üzrə İran ilə əlaqəmizi düzəltməliyiz. Rusiya ilə əlaqəmiz yoxdur. Ora bizim üçün ticarət tərəfindən əhəmiyyətli idi. Ukrayna ki, Rusiyanın bir parçası hesab olunurdu, əvvəlcə ora ilə böyük əlaqədə idik. Sonradan nə olacaq bilinməyir. Hələlik bizimlə yaxşı əlaqədə olan təzə hökumətlərlə əlaqəmizi öylə düzəldək ki, pulumuz sərbəst öz qiymətinə işlənsin. Bu asan bir şeydir. Çünki Gürcüstan Hökuməti ticarət barəsində bizdən asılı olduğundan, bizə tabedir. Biz onlara əmr edə bilərik. Onlarda alış-veriş yoxdur. Orada pul da yoxdur. Mən Gürcüstan ticarət təşkilatları ilə görüşüb aldığım təcrübəyə görə bilirəm ki, bir adam əlində çek 3-4 ay pul almaq üçün qapı-qapı gəzir. [Pul] tapılmayır ki, onlara verilsin. Və o pulu alınca çekin yarıdan çoxunu sərf edir. İranın sərfi kimi. İş ki belədir, Gürcüstan ilə pul məsələsində ciddi danışılsa bizim pulumuz onların pulu ilə bir dərəcədə olardı və özümüzə görə geniş varidatımız olduğundan bizim pulumuz onlarınkından artıq da gedə bilər. Ticarət əhli o biri kağızı alanda manata 50-60 qəpik artıq verir. Mən sözümü bitirərkən deyirəm ki, pul kəsilsin. 300 milyon da ki var, təsdiq edək, ancaq pul kəsilməsi barəsində bir az ehtiyatlı olmalı və diqqət edilməlidir. Denilməsin ki, bu hal müvəqqətidir.

Keçənlərdə Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] tərəfindən idxal edilmiş layihənin qəbul olunmasına tərəfdar idim. Çünki müvəqqəti denilirdi. İndi görürüz ki, işlərimiz bir növ yaxşılaşmış və halımız bir ay bundan əvvəlkindən möhkəmdir. Müttəfiqlər nümayəndələri ilə əlaqəmiz yaxşılaşıb və qonşularımızla da əlaqəmiz yaxşıdır. Mən deyərdim ki, bu makinaya bir qədər diqqət və ehtiyatla rəftar edilsin. Hərgah pul kəsmək məsələsi asanlıqla mümkün olmasa və çətinliklə qəbul olunsa, nazir cənabları başqa yol və mənbeyi-varidat tapmağa məcbur olacaqdır. Hər halda pulun çox olması ticarətə zərərdir.

## TELEQRAF XƏBƏRLƏRİ

### İşə dəvət

Avam Kamerasında Robert Sesil demişdir: Avropanın iqtisadi halı çox xətrəlidir [təhlükəlidir]. Ən qısa müddətdə dəniz mühasirəsi ləğv edilməlidir. Zamanı ki, ticarət yolları azad oldu, hamı millətlər ticarətin təcdidinə [bərpasına] var qüvvələri ilə çalışmalıdırlar. Bütün Müttəfiq dövlətlərin müttəhid [birləşmiş] qüvvəsi ilə Avropanı xətrədən qurtarmaq olar. O, bütün ingilis millətinə müraciətlə təvəqqe edir ki, onun dəvətinə icabət etsinlər [müsbət cavab versinlər]. Hərgah, Avropa ciddi surətdə çalışmazsa, mədəniyyəti xətrə təhdid edəcəkdir.

- Peştədən xəbər verilir ki, orada 30 min nəfərdən ibarət bir Qırmızı ordu təşkil edilmişdir.

- Helsinqfors [Helsinki] – Moskvada elektrik, qaz və su yolu dayanmışdır. Tramvay işləməyir.

- Roytera xəbər verilir ki, bu axırıncı günlərdə Orenburq cəbhəsində bolşeviklər təcilən ricət edirlər [geri çəkilirlər]. Ufanın cənubunda mükəmməl bir bolşevik alayı əsgərlikdən üdul [imtina] etmişdir. Bunlar dərhal əvvəlki yoldaşlarının əleyhinə hərb açmışlardır.

- Almaniyanın müxtəlif yerlərində olan nümayişlərdən görünür ki, almanlarla məskun olan yerlərin təqsiminə [bölünməsinə] qarşı etiraz hərəkətləri artır. Dansiq sosialistləri bütün cahan sosialistlərinə müraciətən Almaniyaya heç bir təcavüzə müsaidə etməmələrini tələb eyləmişlərdir.

- Qahirə - Rəsmi surətdə bildirilir ki, istilanın vüsətlənməsi [genişlənməsi] ilə nizam və asayiş təcilən bərpa edilir. Royter ajansına xəbər verildiyinə görə, Misir qitəsi [bölgəsi] hal-hazırda kontrol altındadır. İttixaz edilmiş tədabiri-hərbiyyə ilə [görülən hərbi tədbirlərlə] hər növ üsyan hərəkətləri bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Avam Kamerasında Pinkerton varid olan [daxil olan] suala cavabən demişdir ki, Misirdə mükəmməl nizam və asayiş bərpası və orada qanun və müsalimət təcdidi [əmin-amanlığın bərpası] məsələsi yaxın günlərdə qurtarar.

- Berlin - Rurski dairədə başlanmış olan tətil Krupp zavoduna da sirayət eyləmişdir [yayılmışdır]. Hal-hazırda 120 min əmələ [fəhlə] tətil edir. Hamburq oblastının mədən əmələləri də tətilçilərə qoşulmuşlardır.

**SÜLH ƏTRAFINDA**

- Paris - "Exo de Pari" qəzetəsi yazır ki, hərgah, Almaniya sülh əhdnaməsini [sazişini] imza etməkdən çəkinərsə, dərhal Almaniyaya qarşı bərri, bəhri tədbirlər ittixaz ediləcəkdir [quruda və dənizdə tədbirlər görüləcəkdir]. Bu barədə Müttəfiqlərin bəhri [dənizçilik] məmurları tərəfindən plan tərtib verilmişdir.

- Berlin - Münxen qəzetələri xəbər verirlər ki, Bavariya Hökuməti bolşeviklərlə ittifaq bağlamaq üçün bolşevik hökuməti ilə danışığa girişmişdir.

- Fransa diplomatik dairəsində deyirlər ki, Reyn nəhrinin sol kənarı bitərəf bir məntəqə elan ediləcəkdir. Almaniya zərərləri ödəyənədək bu məntəqə fransız və Belçika qoşunları tərəfindən işğal ediləcəkdir.

- Paris - İspaniya Hökuməti Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil olmaq arzusunda olduğunu bildirmişdir.

**QƏZETƏLƏRDƏN**

**Riqada**

Riqada dəhşətli surətdə aclıq hökmfərma olduğundan [hökm sürdüyündən], orada şiddətli anarşi davam edir. Vəhşiləşmiş qaragüruh özlərini ağa hesab edirlər. Aclıqdan hissdən [taqətdən] düşmüş müstəhəqlər [möhtaclar] küçələrdə düşüb ölürlər. Fəqirləri təmin etmək üçün qəsdən burjuylara çörək verilməyir. Onlar da acından qırılırlar. Orada olan məmurların əmri ilə dövlətlilər öz evlərindən çıxarılırlar və buna da heç bir səbəb göstərilməyir. Bunları şəhərin kənarına aparıb təqdiri-qəzaya [taleyin hökmünə] tapşırırlar.

- Bolşevik ştabının dünənki məlumatında Mariupolun qərbi cəhətində müharibə davam etdiyi bildirildi. Bu xəbərdən görülür ki, bolşeviklər oranı tərk etmişlərdir. Yekaterinodarda nəşr olunan "Utro" qəzetəsinin məlumatından anlaşılır ki, general Şkuro Mariupolu işğal eyləmişdir.

**Bolşeviklərin hərbi məlumatı**

Şimal cəbhəsində Şenkursk səmtində – Vaqanın 25 verstliyində bizim qoşunlar Qrişinskayanı işğal etdilər. Cənub cəbhəsində Mariupolun qərb cəhətində biz Manquş və Temirovkanı işğal etdik. Yozovka mövqifinin [stansiyasının] 10 verstliyində bir neçə kəndləri işğal eylədik. Luqanskoyenin cənub-şərq tərəfində biz on verst irəliləyib Kamenka-Krepeştina cəbhəsində bir çox kəndləri işğal etdik.

Ural cəbhəsində düşmənlər böyük dəstələrlə hücuma keçib Şipok dairəsində bir neçə kəndləri işğal etmişlərdir. Bu yerlər Uralskın 75 verstliyindədir. Uralskın 50 verstliyində vaqe Skuverşin tabyasının [istehkamının] işğalı üçün müharibə davam edir.

Pokrovskoye və Prigorodnoye cəbhəsində müharibə bizim üçün müvəffəqiyyətli gedir.

Çistopol səmtində bizim qoşunlarımız özündən çox olan düşmənlərin təzyiqinə baxmayaraq Çistopolun şərqi və cənub-şərqi hissələrindəki səngərlərini müdafiə edirlər.

Latış şura qoşunlarının məlumatı: Oryol və Kozlov şəhərləri tərəfimizdən işğal edildi. Marienburq dairəsində qızğın müharibə davam edir.

Litva və Belorus şura qoşunlarının məlumatı: Baranoviç səmtində və Baranoviçin şimal-şərq tərəfində Çernixovo və Yoşkoviçiyə qarşı edilən hücumda düşmənlər müvəffəq olmamışlardır.

**Münxendə**

Berlindən alınan teleqraflarda Münxendə nəzarətsizlik şiddət etdiyi xəbər verilir. Burada sosialist və kommunist hökuməti silah əldə bir-birləri ilə mübarizədə bulunub hökuməti ələ keçirmək istəyirlər. Düsseldorfda və Drezdendə də həmçinin əhval böylədir. Drezdendə üsyançılar tərəfindən vəzirlərdən [nazirlərdən] biri qətlə yetirilmişdir.

**Berlində**

Aprelin 17-ci gecəsi Berlinin sabiq polis naçalniki Eyxhorn aeroplana minib qaçmışdır, lakin Holtsminden yanında aeroplan aşağı enməyə məcbur olub, Eyxhorn hökumət əsgərləri tərəfindən dərdəst edilmişdir [tutulmuşdur]. Spartak başçılarından bir çoxları avtomobillərdə qaçmışlarsa da, hələ tutulmamışlardır.

**İtaliyada**

Serbiya ilə İtaliya arasında münasibati-siyasiyyə qət edilmişdir [siyasi əlaqələr kəsilmişdir]. Serbiya səfiri Roma şəhərini, İtaliya səfiri isə Belqradı tərk etmişdir. Hər iki məmləkətdən başqa siyasi nümayəndələr dəxi geri çağırılmışlardır.

**Amerika donanması**

Bəhri-mühiti-Atlasının [Atlantik okea-

nın] şimali hissəsində olan Amerika donanması Amerika sularında Hudson çayı yanında dayanmışdır. Bu donanma 100 ədəd gəmidən ziyadədir. Bu, böyük bir donanmadır ki, 14 drednot vardır. Bunlardan ikisi elektrik mühərrikləri ilə təchiz edilmişdir.

## ŞİMALİ QAFQAZİYADA

**Dağıstan cəbhəsində**

Neçə gün bundan irəli Dağıstan cəbhəsində böylə bir əhvalat olmuşdur: Zabitlərdən ibarət sağ cinahda (Qroznı rayonunda) duran Dağıstan alayı cəbhəni Könüllü ordu əsgərlərindən ötrü təmizləmişdir. Yaxında olan Dağıstan xalqı dəstələri, zabitlərin bu xəyanəti nəticəsini bərtərəf etməyə [aradan qaldırmağa] müvəffəq olub, məzkur [deyilən] alayı həbs etmişlərdir. Dağıstan əsgərləri teleqrafla dəmiryol qatarı tələb edib, zabitləri təmiz soyundurduqdan sonra qatarla Teymurxanşuraya yola salmışlardır.

## ZAQAFQAZİYA KONFRANSI

Aprelin 25-də Tiflisdə Zaqafqaziya cümhuriyyətləri nümayəndələri yek-digərləri [bir-birləri] ilə görüşmüşlərdir. Gürcüstan Cümhuriyyəti nümayəndələri – Xariciyyə naziri Gegeçkori, Daxiliyyə naziri [Noy] Ramişvili, Maliyyə naziri Kandelaki; Ermənistan Cümhuriyyəti nümayəndələri – Xariciyyə naziri [Sirakan] Tiqranyan, Ədliyyə naziri [Samson] Arutyunov, Parlaman üzvü [Stepan] Mamikonyan; Azərbaycan Cümhuriyyəti nümayəndələri – Xariciyyə naziri M. Y. Cəfərov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməhəmmədov; Dağıstan nümayəndələri – Kantemir, Penzulayev və Butayevlərdir. Bunlar mübadileyi-əfkarda bulunduqdan [fikir mübadiləsi apardıqdan] sonra qət olunmuşdur ki, konfransın 1-ci iclası aprelin 27-də Xariciyyə Nəzarəti imarətində olsun.

## İRAN İŞLƏRİ

**Tehranda nizamsızlıq**

Keçən gün Rəştdən gələn sərnişinlər Tehranda nizamsızlıq başlanması və güya Bəxtiyar dəstəsi tərəfindən inqilab qaldırıldığı haqqında Rəştdə şayiələr dövran etdiyini xəbər verirlər. Bəxtiyar dəstəsi başında Səmsamüssəltənənin dayanmış olduğunu və Kiçik xan ilə müttəhidən [birgə] hərəkət etdiyini söyləyirlər. Vüzəra Kabinəsi üzvləri Vüsuqüddövlə başda olmaq üzrə həbsdən xilas olmaq üçün İngiltərə konsulxanasına pənah gətirmişlərdir. Digər bir rəvayətə görə, Vüsuqüddövlə qətl edilmişdir. Müxbirimizin məhəlli [yerli] konsulxanadan əxz etdiyi məlumatına görə, bu əhvalat haqqında konsulxanaya heç bir şey məlum deyildir.

**İran Hökuməti və Kiçik xan müharibəsi**

10 aprel 1919-cu sənə Rəştdən alınmış teleqram xəbərləri. İran məlumati-rəsmiyyəsi:





Podpolkovnik Staroselski İran Rəisivükəlası [Baş naziri] Vüsuqüddövləyə rəsmən bildirir:

Kazaklar Kəsmə ilə Fuməni işğal etdilər. Orada anlaşılmışdır ki, Mirzə Kiçik xan öz topxanasını və dəstəsini alaraq ətrafda olan kəndlərə çəkilmişdir.

11 aprel

Bu gün İran kazakları Kəsmə və Fuməndə əhalidən silah cəm etməyə başlamışlardır. Külli silah zəbt edilmişdir.

12 aprel

Kiçik xanın sərtəbibi [baş həkimi] Həşmət günortadan sonra öz dəstəsi ilə Rəştə varid [daxil] olaraq hökumətə təslim olmuşdur. Hacı Əhməd [Kəsmeyi] dəxi öz dəstələri ilə şəhərə varid olaraq təslim olmuşdur. Şəhərdə mükəmməl asudəlik vardır. Rəştdən alınmış digər teleqramda denilir ki, doktor Həşmət qalan silahları da təslim üçün Lahicana əzimət etmişdir [yola düşmüşdür]. Cəngəldə hökumət qoşunları ilə cəngəllilər arasında olan müharibənin nəticəsi məlum deyildir.

1500 nəfər kazak tərəfindən təqib edilən Kiçik xan Rudxanə, Rudsəfid və Rəştabaddan ricət edir [geri çəkilir]. İki dəfə onlara mitralyoz atəşi açmışıq. Onların tələfatı böyükdür. Bizim müvəffəqiyyətimiz var. Fuməni işğal etdikdən sonra əhalini tərksilaha başlamışıq. Kiçik xanın ricəti davam edir. Görünür ki, hökumətin güclü qüvvəsini görərək Lahicana əzimət edilmişdir ki, Həşmət ilə birləşsin. Onun ricət yolunu kəsməyə tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Lahican nümayəndələri təvəqqe etmişlər ki, dava yatırılıb sülh danışığına başlansın.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏDƏ]

- Ticarət və Sənaye nazirinin qərardadı mövcibincə [əsasında] Fabriçni müfəttiş [Şeyxəli] Hüseynzadə cənabları işbu günlərdə Nəzarət tərəfindən Gəncə quberniyasına azim olacaqdır [yola düşəcəkdir]. Məsai Nəzarəti [Əmək Nazirliyi] də öz tərəfindən Hüseynzadə cənablarını püxtə [pambıq] zavodları və başqa müəssisələr fəhlələri əhvalı ilə məhəllində [yerində] tanış olmağa müvəkkil etmişdir.
- Bələdiyyə İdarəsi Məsai Nəzarətinə Daxiliyyə nazirinin qərardadı surətini irsalən [göndərməklə] rica etmişdir ki, təcili surətdə xidmətçilərə verilmək üçün veriləcək qərz [borc] hesabına olaraq 1.500. 000 rublə buraxılsın.
- Təcrübə göstərmiş ki, məhəllində [yerlərdə] iaşə məntəqələri məxaricatı üçün nahiyə müfəttişlərinə hər ay üçün istiqraz açmaq yaxşı nəticələr verməyir. Zira, smeta 6 aya tərtib verilməklə bərabər, gündən-günə ərzaq və mühimmatın [ləvazimatın] qiymətləri artır. İaşə məntəqələri məsələsi lazımi məsələ olduğundan dolayı Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Maliyyə nazirinə müraciətən rica etmişdir ki, sənəlik smetası tərtib edilərək nahiyə müfəttişlərinə bir sənəlik istiqraz açılsın.
- Qaçqınların əhvalını təcili surətdə yaxşılaşdırmaq lüzumundan dolayı Ümuri-Xeyriyyə və Nafiə naziri Bakı quberniyası nahiyə müffətişinə müraciətən rica etmişdir ki, təcili surətdə nahiyə müşavirəsi təşkil edilsin. Müşavirənin güşadı [açılışı] vaxtı və oraya daxil olacaq zəvatın [şəxslərin] siyahısı Ümuri-Xeyriyyə

və Nafiə Nəzarətinə pişnihad [təqdim] edilməlidir.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Şuşa xəzinə şöbəsinə xəbər vermişdir ki, Nəzarət [Nazirlik] müvəkkilinə qaçqınlar üçün 100 min rublə buraxılsın. Həman məqsəddən ötrü də Gəncə nahiyə müfəttişinə verilmək üçün Gəncə xəzinə şöbəsinə 200 min rublə göndərilmişdir.

## AZƏRBAYCAN DƏMİRYOL QULLUQÇULARI SYEZDİ

24 aprel iclası başlanır saat 5 tamamda. Sədr İzmail Laleviç. Növbədə olan məsələlər: smeta haqqında məruzə.

**Yoldaş Cəlil** - söz alıb su barəsində danışaraq deyir: Biz fəhlələr necə ki, zəhmətkeşlərik, əqəllən [heç olmasa] gərək içdiyimiz su təmiz olsun, amma çox təəssüf edirəm ki, Gəncə mövqifində [stansiyasında] içdiyimiz su çox bulanlıq olub, çox da naxoşlayırıq. Bununla bərabər, ərzağın adını eşidirik, üzünü görməyirik. Mən xahiş edirəm bu barədə lazımi sərəncamlar olsun və bir də doktorların dərmanı barəsində sizə xəbər vermək istərəm. Məsələn, başın ağrısa paraşok verəcək, qolum da sına paraşok verəcək, bir qeyri dərman verməyəcəkdir.

**Baykov** - Xaçmaz jandarm müdirindən şikayətlə füqəra haqqında rəva görülən zülümlərin nə payədə [nə həddə] olduğunu bəyan edir.

*(Məşhədi Yusif İbrahimli müdirin adını söyləməyi tələb edir.)*

Baykov cavab verir ki, adını bilməyir.

**Zamanov** deyir: Yoldaşlar! Mən fikir verib görürəm yoldaşlar hamısı doktordan, dərmandan şikayət edirlər. Mən isə deyirəm, lazımdır bizə yazan dərmanı bizim üçün buraxsınlar və biz də füqərayi-kasibəyə verək. Mən sizi inandırıram dərman yoxdur və çatmayır. Çox vaxt biz yazıb veririk yoldaşlara, onlar deyirlər bu dərman bizdə yoxdur. Gedirlər qeyri yerdən alırlar.

**Yusif İbrahimli** ev məsələsindən bəhslə deyir ki: Hacıqabul mövqifində altmış nəfər konduktoru, ələlxüsus müsəlmanları hazır oturduqları evlərdən çıxardıb töküblər bir kazarmaya. Bu naxoşluğun vaxtında, hal-övzanın [vəziyyətin] pis vaxtında əgər bir nəfəri tif tutarsa və ya bir qeyri müsri [yoluxucu] naxoşluqlar tutarsa, sizi inandırıram hamısını xəstəlik tutub məhv olarlar. İkincisi, dekabr ayından qalan məvaciblərini yoldaşlar indi də almayıblar. Axırıncı paltarlarını satıb yeyiblər. O barədə mənə verilən düsturüləməli [təlimatnaməni] sizə təqdimlə xahiş edirəm bu məsələni növbəyə qoyub lazımi sərəncam verəsiniz.

**Rəhim Məmmədov** - Yollar müdiri [Teymur bəy] Məlikaslanov Gəncəyə gəldikdə mən özüm 20-yədək naxoş fəhlələri hamısını yorğana bürünmüş halda gətirib onun hüzuruna, fəhlələrin sudan naxoş olmaqlarını bəyan etdikdə, Məlikaslanov cənabları Gəncə müdirinə əmr edib suların yaxşılaşmasına və hər rayonda paylamağına cidd-cəhd edib tezliklə əncam verməsini əmr edir. Amma təəssüflər olsun bu vaxta qədər bu barədə heç bir təşəbbüs belə olunmadı.

Sonra məclisə bir ərzi-hal daxil olur.





Məlumat verilir ki, Petrovskdan gələndə bir konduktoru rüşvət aldığı üçün tutub Bakı mövqifində həbs ediblər. O barədə təhqiqatdan ötrü, iki nəfər – biri Cəlil, biri rus, göndərdilər mühafizə müdirinin yanına. Müdirdən məlumat alandan sonra məlum olur ki, konduktor bir nəfər balıq tacirindən 200 manat rüşvət almağına görə həbs edilmişdir.

## BAKI XƏBƏRLƏRİ

### 1 May tətili

Dünən Parlaman binasında 31 Mart münasibətilə intixab edilmiş [seçilmiş] olan mərkəzi və rayonlardakı müsəlman əmələlərinin tətil komitələri üzvlərinin ümumi iclası vaqe və bir çox müzakiratdan sonra, 1 Mayda bir günlük tətil etməklə bərabər, həman günü təntənəli surətdə bayram saxlamaq təhti-qərara alınmışdır. Bayram nümayişatını nizam və qayda üzrə olaraq icra etmək üçün hər mədən dairəsindən bir nəfər olmaq üzrə bu gün tətil komitələri nümayəndələrinin icrası vaqe olacaqdır. Əmələlər hər dəstə öz rayonunda olaraq milli bayraqlarla nümayişat yapacaq və qeyri-müsəlman əmələləri şəhərə gələrlərsə, onlar dəxi kəndi bayraqları altında Parlaman qarşısına gələcək və bundan sonra isə başqa yerlərdə bayram nümayişatını icra edəcəklərdir.

### Şimali Qafqaziyadan gəlmək haqqında

Hökumətin binagüzarlığına [sərəncamına] görə Şimali Qafqaziyadan gələnlər Dağıstan Cümhuriyyəti nəzdindəki Azərbaycan siyasi nümayəndəliyindən icazə almalıdırlar. İcazəsiz sərnişinlər Yalama mövqifində [stansiyasında] qatardan düşürüləcəklərdir.

### Darülmüəllimin

Darülfünundan [universitetdən] əlavə, Bakıda bir də darülmüəllimin [pedaqoji institut] açılması üçün Maarif Nəzarəti tərəfindən layihə hazırlanmaqdadır. Darülmüəllimin 4 sənəlik olub, onda birinci olaraq müəllimlik dərsləri tədris ediləcək. Hər sinifdə 20-25 tələbə olacaqdır. Xarici dillərdən Fransa, ingilis və yaxud alman dillərindən birisi oxunacaqdır.

### Nazir müavini

Maliyyə naziri müavinliyinə Abezqauz təyin edilmişdir.

### Sürgün

Neçə gün bundan əqdəm [qabaq] suiniyyətdə [terrorda; cinayətdə] müttəhim edilib və tövqif [həbs] edilmiş olan polkovnik Voskresenski, Yeqorov və qeyriləri həbsən azad edilərək Azərbaycan Cümhuriyyəti torpağından sürgün edilmişlərdir.

### Hacı-Tərxana getmək

Hacı-Tərxanda qövm-əqrəbası olub onları gətirmək üçün paroxod istəmiş olan komissiya Bakıda sükunət edən böylə şəxslərə məlum edir ki, Hacı-Tərxana getmək arzusunda bulunanlar səhər saat 10-dan 2-yə kimi zeyldəki [aşağıdakı] şəxslərə müraciətən yaza bilərlər: [V. İ.] Ponomaryov – Ticarət məktəbi, Krasnovodski və Tserkovnı küçələrin küncündə; Zurabov – Şəhər İdarəsi, Ter-

Andreasyan – Sentrodom [Mərkəzi Ev Komitəsi].

**Petrovskda**

Bizə xəbər verirlər ki, oraya bu günlərdə Hacı-Tərxan cəbhəsində mübarizədə bulunan kazaklardan bir eşelon yaralı gətirilmişdir. Onlar bolşeviklər əleyhinə əməliyyatda bulunan general [Vladimir Sergeyeviç] Tolstoyun ordusuna mənsubdurlar.

**İranlıların şikayəti**

* Eşitdiyimizə görə, sabiq Bakıda və hal-hazırda isə Aşqabaddakı İran konsulu Cavad xan Sənikidən Bakıda sükunət edən [yaşayan] bir çox iranlılar məhəlli [yerli] İran konsuluna və Azərbaycan Hökumətinə mümaileyh [adı çəkilən] konsulun atidəki sui-istemalını [aşağıdakı sui-istifadələrini] təqdim edərək şikayət və etirazda bulunmuşlardır. Məlum olduğu üzrə, Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti Azərbaycan Cümhuriyyətinə göndərilən kişmişdən hər puta 35 manat vergi alır. Cavad xan bu günlərdə, guya Bakı füqərası namına olaraq Bakıya 7000 put kişmiş göndərərək, həman 35 manat vergisini verməmiş və bundan hasil olan 300 min manatdan ziyadə vergi mənfəətini füqəraya verməyib, özü üçün götürmüşdür. Kişmişin isə yetişmədiyi dəxi məlum olmuşdur.

* Bu cümə günü, may ayının 2-də saat 11-də Bakı konsolu cənab Səidülvüzəra həzrətləri Ramazan xanın füqərayi-kasibə qardaşlarımıza eylədiyi zülümləri təftiş etməyə Sabunçuya "Təməddün" məktəbinə təşrif gətirəcək. Ümum iranlı qardaşlarımızdan, xüsusən o şəxsləri ki, Ramazan xan onlara zülüm edib, yövmi-məzkurda [deyilən gündə] "Təməddün" məktəbinə təşrif gətirməkliyi xahiş olunur.

**Cərimələr**

* Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [sərəncamına] görə Sergey Andreyev və Saşa Versanov külli miqdarda barut və iki danə Avstriya tüfənkləri saxlamaqda ittihamla hər birisi bir ay müddətinə həbsə məhkum edilmişlərdir.

* Mədən dairəsində qətl-qarət davam etdiyindən, Sovet Syezd və mədən sahibləri Daxiliyyə Nəzarətinə müraciətən böylə hərəkatın önü alınmasını rica etmişlərdir. Daxiliyyə naziri bu xüsusda Bakı qubernatoruna rəsmi bir məktub göndərib tezliklə mədən dairəsində nizam və asayiş bərpa etmək üçün ciddi tədbirlər ittixaz edilməsini [tədbirlər görülməsini] tələb və əmr etmişdir.

* Nisanın [aprelin] 24 və 25-də Bakıya varid [daxil] olan ərzaq: buğda 6726 put, un 656, arpa 3234, saman 1131, odun 750 [put].

## FƏHLƏ HƏYATINDAN

**Ərzaq işləri**

Ümum [bütün] mədən dairəsi müsəlman əmələlərindən [fəhlələrindən] Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Bakı komitəsinə ərizələr təqdim edilərək ərzaq cəhətindən nəhayətdə əziyyət və məşəqqət çəkdikləri xüsusunda məlumat verilir. Bunu nəzərə alaraq firqənin Bakı komitəsi Ticarət və Sənaət [Sənaye] nazirinə müraciətən əmələlərin çətin halını göstərərək tezliklə artıq ehtiyac içində olan mədən dairələrinə əmələlər üçün lazımi miqdarda ərzaq buraxılması ciddən arzu edilmişdir.

**Tağıyev fabrikasında**

"Müsavat" firqəsinin təşəbbüsü ilə fabrik əmələlərinə adam başına 10 arşın olmaq üzrə bez buraxılmışdır. Həmin bez bu günlərdə fabrika idarəsi tərəfindən əhaliyə paylanacaqdır.

**Bibiheybətdə**

* Aprelin 28-də Bibiheybətdə Sovet Syezdin ambulatoriyasında Bibiheybət mədən dairəsi əmələlərinin iclası vaqe olub, Piri Mürsəlzadə əhvali-hazirə haqqında məruzədə bulunmuşdur. Məruzədən sonra, Hüseyn Müzəffərov 1 May münasibətilə bayram edilməsi xüsusunda məlumat verib, həman gündə milli bayraqlar altında müsəlman əmələlərinin şəhərə getmələri təhti-qərara alınmışdır.

* Bədəhu [sonra] Mantaşov mədənində işləyən müsəlman əmələlərinin şikayətləri nəzərə alınaraq, bu barədə məzkur [adı çəkilən] mədən müdiri ilə müzakiratda bulunmaq üçün Müzəffərov ilə Cəmşid Sərdarov intixab edilmişlərdir [seçilmişlər]. Buruq ustası Məşhədi Abbasın fəhlələri vurması şikayəti müzakirə edildiyindən sonra qərar verilmişdir ki, bundan sonra onun böylə hərəkatına imkan verilməsin.

**Mühazirə**

İşbu aprel ayının 30-da çaharşənbə [çərşənbə] günü Suraxanıda Kokorevin həyətində saat 3-də mühəndis Səməd bəy Əliisgəndərzadə tərəfindən mühazirə oxunacaqdır: "İçki və müsəlmanlar" və "Birinci May bayramı".

Firqənin rayon komitə və ocaqları və bədəhu [sonra] Suraxanı şöbə idarəsinə yeni üzvlər intixab olunacaqdır [seçiləcəkdir].

## BAKI QUBERNİYASI

**Muğanda ixtilal**

Aprelin 25-də Muğan ictiması [yığıncağı] yeni hökumət təşkil etmişdir. Buna da səbəb Könüllü ordu nümayəndələrinin açıqdan-açığa padşah tərəfdarı olub, bu yolda təbliğat və təşviqatda bulunmaları olmuşdur. Bu isə istər müsəlman, istər rus əhalisinin narazılığına səbəb olmuşdur. Əhalinin böylə hərəkat əleyhinə olan narazılığı axırda üsyan haləti almış və Könüllü ordu zabitləri polkovnik Şevkunov, polkovnik Sambros, kapitan Maqilov və qeyriləri tövqif [tutulmuş] və həbs edilmişlərdir. Məşhur İlyaşeviç həbs edilməmiş, bunlardan əlavə, Yermolayev və Faynşteyn dəxi həbs edilmişlərdir.

**Şamaxı Bələdiyyə İdarəsinin rəsmi-güşadı**

Şamaxı şəhərində bu günlərdə Bələdiyyə İdarəsinin rəsmi-güşadı vaqe olmuşdur [açılış mərasimi baş tutmuşdur]. Bu münasibətlə Bələdiyyə İdarəsi rəisi Hüseynbəyov imzası ilə Bakı qubernatoruna bir təbrik teleqrafı göndərilmişdir.

**Şikayətlər**

Müskürlü kəndinin əhalisi Bakı qu-

bernatoruna bir ərizə verərək məzkur [adı çəkilən] kəndin yüzbaşısından nəhayətdə təngə gəldiklərini göstərərək, tezliklə onun əzlini [işdən kənar edilməsini] tələb etmişlərdir. Deyirlər, yüzbaşıdan öylə hərəkətlər sadir olur [baş verir] ki, onu yazmaqdan belə çəkinirlər.

**Molladan şikayət**

Səlimoba sakini Feyzulla Allahqulu oğlu Bakı qubernatoruna ərizə ilə məlum etmişdir ki, onun arvadını Bəybala Ağabala oğlu aparıb özgə adama vermək istəyir. Bu barədə Feyzulla kənd mollasına müraciət eyləmişsə də, o etina etməmişdir.

## AZƏRBAYCANDA

**Salyandan**

Xüsusi müxbirimizdən:

Türklər burada ikən İranın ərzi-vücud edəmməyən [meydana çıxa bilməyən] quldurları yenə hüdudumuzu keçərək bizləri narahat etməkdədirlər.

Bir qaç müddətdir ki, Qaradonlu nahiyəsi Saraytəpə postası [postu] ətrafından təkrar ələttəkrar [təkrar-təkrar] təcavüz edərək mal, qoyun və sair bu kimi dövlətlərimizi toplayaraq alçaqcasına götürdükdə, məzkur [deyilən] postada bulunan çavuş (uryadnik) Mirzəəli bəy Qulubəyov Qaragüvəndikli yüzbaşısı Cəlal Qurban oğlu, Xələc yüzbaşısı Zeynal Tanrıqulu oğlu məiyyətlərində bulunan sivil [mülki] silahlılarla vicdansız haydudlara [quldurlara] pək qəhrəmancasına saldıraraq götürməkdə olduqları əmval-heyvanatı [malları və heyvanları] istirdada [geri almağa] müvəffəq olmuşlardır. Lakin quldurlar yenə oraları rahat qoymayırlar. Hər daima hüdudumuza təcavüzat yapırlar. Bu təcavüzata qarşı inqilabdan bu ana qədər istiqlaliyyətimiz uğrunda vüqu bulan bütün müharibələrdə bahadırlıqları ilə məşhur olan Mirzəəli bəy Qulubəyov əfəndi hüdudumuzu bir dərəcəyə qədər müdafiə etmişdir. Bu gün haydudlar toplanaraq kəsbi-qüvvət edəcək [güclənəcək] olarsalar, o halda hüdudumuzu müdafiəyə müqtədir qüvvəmiz yox dərəcəsində qalacaqdır. Zira bu günə qədər (anifü'z-zikri-vəch üzərə [yuxarıda deyildiyi kimi]) buraları müdafiə edib duran qüvvət Mirzəəli bəy cənablarının bizzat ibraz etdiyi [şəxsən göstərdiyi] mətanət və qəhrəmanlıqları olmuşdur. Halbuki, şimdi müxaliflər mümaileyhi [adı çəkilən şəxsi] (hər nəhv [yol] ilə olursa-olsun) qətl etməyə qərar vermişlərdir və dəfəatla [dəfələrlə] bu məqsədlərinə ermək üçün təşəbbüslər edərək müvəffəq olmamışlardır.

Bundan böylə, hökuməti-cəliləmiz [uca hökumətimiz] hüdudumuzu nəzəri-əhəmiyyətə alaraq buraları bir an əvvəl mühafizəyə müqtədir qüvvələrin sövq və təhşidi [toplanması] xüsusunda ali binagüzarlıq etməlidir [sərəncam verməlidir]. Yoxsa, insaf və islamiyyətdən bütün-bütünə bibəhrə və qafil bulunan bu güruhi-həyadid [quldurlar dəstəsi] bizi daima məşğul edəcək və bu sənə hər ildəkindən daha bol olan məzruat [əkin] və məhsulatımızı da fəna [yox] edəcəkdirlər. Zatən şimdidən Muğan səhrasında bulunan məzruatımıza toxunmaqdadırlar.

*[Rüstəm] İskəndərzadə*





**Lənkərandan**

Xüsusi müxbirimizdən:

Bu axır vaxtlarda Lənkəranda Muğan və Lənkəran dəstələri arasında niza [münaqişə] əmələ gəlməsindən dolayı bu iki dəstə arasında böyük bir düşmənçilik baş vermişdir. Bu düşmənçilik axırda atışmaya müncər olub [çevrilib], Muğan dəstəsi Lənkəran dəstəsinə qalib gəlmişdir. Muğan dəstəsi Muğan Hökuməti müəssisi [təsisçisi] və başçıları olan Suxorukov ilə Kropotovları kənar etmişlər. Bunlar Bakıya gəlmək istəmişlərsə də, tövqif [həbs] edilmişlər. Bunlar 15 milyon manat pulu bica [boş] yerə sərf etmələrindən töhmət edilirlər. Bu barədə təhqiqat davam etmədədir.

Hal-hazırda Muğan Hökumətində polkovnik İlyaşeviç hökumət edir. Uyezdin hər bir tərəfində anarxiya şiddət edir. Qulluqçular neçə aydır ki, pul olmadığından məvaciblərini almayırlar. İlyaşeviç Denikindən pul gözləyir. Xaxollar ilə subbotniklər arasında toqquşmalar və müsadimələr olur.

Könüllü dəstələri Lənkəranda soyğunçuluq və qarətlə məşğuldurlar. Böyük xəsarətə və zərərlərə uğrayan əlbəttə müsəlman əhalisidir. Bunlar yurdlarını buraxaraq İrana və Bakıya qaçırlar. Müsəlman əhalisinə olan zülümlər barəsində biz dəfəatla qəzetələrə yazırıq, fəqət Azərbaycan Cümhuriyyətinin sabiq Kabinəsi nədən[sə] Lənkərana bir o qədər əhəmiyyət verməyirdi. Ümidvarız ki, yeni Kabinə öz bəyannaməsində elan etdiyi kimi, tezliklə Lənkəranı bu zalım və xunxarların [qaniçənlərin] pənceyi-zülmündən xilas edəcəkdir.

Bu günlərdə Muğan dəstəsinin nəfərləri Çaxırlı kəndinə gəlib Mirzə Əhəd Əhmədovun pulunu almışlar. Bunun və başqalarının bir çox qoyun, at və malqarasını da özləri ilə bərabər götürmüşlər. Privolnı kəndinin sakinləri Repin və Sapinkov nam [adlı] iki nəfər rus Mirzə Əhədin Biləsuvar yanında Balqar çayının üstündə olan dəyirmanına zorla malik olmuşlar. Mirzə Əhəd etiraz etmişsə, qəsbçilər onu ölümlə təhdid etmişlər. Mirzə Əhəd şikayət etmiş, fəqət şikayətinə baxılmamışdır.

*Teymur bəy Bayraməlibəyzadə*

**Ağdaşdan**

Bizə yazırlar:

Mart hadiseyi-əliməsi [kədərli Mart hadisəsi] münasibətilə, təbii, Ağdaşa da Şamaxı qaçqınları gəlmişlərdi. Ağdaş qaçqınları çəkdikləri möhnət və məşəqqət azmış kimi, qeyri yerlərdə olduğu kimi, naxoşluqla can çəkişdirməyə dəxi məhkum oldular. Heç bir yerdən bu bədbəxtlərə kömək əlini uzadan olmadı. Nəhayət, keçən ay Ağdaş cavanları bu bədbəxtlərin acınacaq hallarına az da olmuş olsa kömək etmək qəsdi ilə Qaçqınlara Yardım Cəmiyyəti binasına [yaradılmasına] müvəffəq oldular. Cəmiyyətin birinci fəaliyyəti olaraq qaçqınlar nəfinə [xeyrinə] teatrolar verilməkdədir. Ağdaş maarifpərvər gəncləri tərəfindən bina olunan Qaçqınlara Yardım Cəmiyyəti hər halda qaçqınların təmini xüsusunda çalışmaqda ikən, şübhəsiz ki, yüzlərcə cana malik olan ac, susuz, yalavac, həkimsiz, dərmansız can çəkişdirməyə məhkum Ağdaş qaçqın kütləsini təmin edəmməz və edə bilməzdi. Bunun üçün də Ümuri-Xeyriyyə və Mənafeyi-

Ümumiyyə Nəzarəti-cəliləsinə [şanı uca Sosial Təminat Nazirliyinə] bu xüsusda bir ərzi-hal göndərərək Nəzarəti-mümaileyhin [adı çəkilən Nazirliyin] dəxi köməyini rica etdi. Fəqət məəttəssüf [təəssüf ki], bu vaxta qədər Nəzarəti-cəlilədən bu xüsusda heç bir məlumat almamışdır. Ağdaş Qaçqınlara Yardım Cəmiyyəti bu xüsusda Nəzarəti-mümaileyhdən lazım olan tədbiri gözləməkdədir.

*Cəmiyyət rəisi: Qasım Qasımov*

**Ərzi-hal**

(Göyçaydan)

Möhtərəm müdir! Cənabı-alilərinizdən acizanə təvəqqe edirəm ki, bizim bu ərzimizi qəzetənizin bir sütununda dərc edəsiniz, eyni-mərhəmətdir.

Bu gün – rəcəbül-mürəccəb ayının 20-də Azərbaycan Hökuməti tərəfindən iki cənab Göyçaya təşrif gətirib, biz Şamaxı qaçqınlarını cəm edib, siyahı tutub, söylədilər ki, bizi hökumət tərəfindən göndəriblər ki, hər gün sizə şorba bişirib verək və bu da ona görədir ki, tif naxoşluğu əmələ gəlib, şorbanı veririk ki, həmin naxoşluğun qabağını alsın. Biz Şamaxı camaatı həmin cənabların cavabında söylədik ki, biz hökumətdən şorba gözətləməyirik. Şorbanı pis-yaxşı bir təhər tapıb yeyirik. Biz hökumətdən gözləyirik o şeyi ki, bizim xarabazar olan şəhərimizi təmir etsin. Başımızı soxmağa bir ev tapmırıq. Hər ayda 4-5 yer dəyişirik. Bir ay bir yerdə ev məskən edib oluruq və əlavə əynimiz çılpaq və bir yorğan tapmırıq üstümüzə salmağa. Biz hökumətdən bu kimi şeylər gözləyirik, nəinki şorba. Kirayə ilə ev tapmırıq. Hansı bir evdə beş gün otururuqsa, ev sahibləri çıxardırlar. Ev sahibləri o qədər "insaf" edirlər ki, Bakı evlərindən buranın ev kirayələri birə-iki artıqdır. Hökumətimiz bilsin ki, naxoşlar yalnız şorba ilə sağalmazlar. Göyçayda yaxşı xəstəxanalar var, qalıb boş. Həkim yox, dərman yox, iki dənə rus həkimi var, viziti 25 manat, 20 manat da fayton pulu. Bir dənə də əczaxana var, əlan [hal-hazırda] Bakı məzənnəsi ilə bir beş-altı prosent [faiz] artığına verir. Hökumətimiz istəyir əgər bizə köməklik eyləsin, bizdən ötrü bank açsın, ya prosentlə, ya prosentsiz pul buraxsın ki, biz kəsb [qazanc] edək, alış-veriş edək. Əlimiz qalıb boş. Biz həman adamlarıq ki, canımızı, dövlətimizi, gözəl evlərimizi, əhli-əyalımızı, irz və namusumuzu vətən yolunda fəda etdik. Hökumət bizə lazımi kömək yetirsinlər.

*Bir nəfər Şamaxı qaçqını*

## GÜRCÜSTANDA

**Məhəmməd Yusif Cəfərovun bəyanatı**

Gürcüstan Hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsi Məhəmməd Yusif Cəfərov Gürcüstan Xariciyyə nazir Y. P. Gegeçkoriyə müraciətlə, gələcəkdə ixtilaf olmasın deyə İrəvan quberniyasının mübahisəli uçastoklarına dəxli olan işlərin Ermənistan nümayəndələrinə verilməsini dayandırmağı xahiş etmişdir. Məhəmməd Yusif Cəfərov öz bəyanatında bu səbəbi göstərir ki, İrəvan quberniyasının mübahisəli hissələri məsələsi Zaqafqaziya Cümhuriyyətləri Konfransında müzakirə edilməlidir.





* * *

Azərbaycan Hökuməti tərəfindən neçə gün bundan əvvəl Ədliyyə naziri müavini Teymur bəy Makinski, dəftərxana müdiri Rəşid bəy İsmayılov və doktor Qəni Məhəmmədzadə Tiflisə göndərilmişdi ki, orada 900 min manat alıb da Cənub-qərbi Azərbaycan fərari [qaçqın] müsəlmanlarına sərf etsinlər. Aprelin 17-də yuxarıda adları zikr edilən şəxslər məzkur [deyilən] məbləği dövlət xəzinəsindən alırlar. Azərbaycan Hökumətinin vəkilləri pulla bərabər "Orient" mehmanxanasına gəlirlər. Mehmanxananın 12-ci nömrəsində dəftərxana müdiri Rəşid bəy İsmayılov məzkur məbləği gizləyir. İkinci gün saat 12-də Gürcüstan Cümhuriyyəti Daxiliyyə naziri, xüsusi dəstə naçalniki Paloçiyaya təklif eyləmişdir ki, Azərbaycan Hökumətinə məxsus olub da qeyb olmuş olan 900 min manatı axtarıb tapsın. Paloçiyaya xüsusi ixtiyarat verilmişdir. Paloçiya bu işi təqib edərək zeyldəki fəqərə [aşağıdakı hadisə] anlaşılmışdır:

Rəisi-vükəla dəftərxanasının müdiri Rəşid bəy İsmayılov və onun qasidi Yusif Novruzov qət etmişlər ki, fərarilərə məxsus aldıqları 900 min rubləni öz aralarında təqsim etsinlər [bölsünlər]. Belə ki, 700 min manatını özü götürüb mehmanxananın vanna olan odasında peçin turbası içərisinə soxmuş, Novruzov isə 200 min manat almış. O da pulu "Elbruz" mehmanxanasında gizləmişdir. O da nədənsə peçin içinə soxmuşdur. Bunlar pulu gizlətdiklərini boyunlarına almasalar da, Paloçiya bunların xəyanətkar olduqlarını təhqiq eyləmişdir. Pullar alınıb M. Y. Cəfərova tapşırılmış, İsmayılov və Novruzov həbs edilmişlərdir.

**Ərdahanın işğalı**

Axıska (22 aprel). Mənə etibar edilmiş qoşunlar dəstələri 18 və 19 apreldə təzyiq edərək Kərkaban-Ocas xəttindən onları dağlara tərəf püskürtmüşlər. Aprelin 20-də qoşunlar ciddi bir həmlə ilə düşmənləri həman təpədən də püskürtmüşlər. Düşmənlər öylə ricət edirlər [geri çəkilirlər] ki, Kürün sol kənarında vaqe Ərdahan təhkimatını [istehkamlarını] belə işğal edə bilməmişlərdir. Çaul dərəsində 100 ədəd top gülləsi tapılmışdır. Düşmənlər ricət edərək Kür üzərində olan körpünü yandırmışlar. Amma biz top atəşi ilə, yanan körpünü xilas edə bilmişik. Böyləliklə qoşunlarımızın bir hissəsinin Kürün sol tərəfinə keçməsinə müsaidə edilmişdir.

Eyni zamanda düşmənlərin çayın sağ tərəfinə keçərək Ərdahan istehkamatını işğal edirlərsə də, fəqət həmləmiz qarşısında dura bilməyib Oltu və Qars səmtinə ricət edirlər. 6-cı alay tərəfindən düşmənlər təqib edildikdə bir top, 18 yeşik top gülləsi qənimət almışıq. Ərdahanın özündə isə külli taxıl və sairə əlimizə keçmişdir. Ərdahanda kimsə qalmamışdı. Hələlik bizim tələfatımız məlum deyildir. Düşmənlərin tələfatı isə çoxdur.

Yerli əhalinin bəyanatına görə, bu qoşunların sərkərdəliyi Camal bəy və Rəhman bəy Ximşiyevlərdir. Sərvər bəy Atabəyovun qətl edilməsi şayiatı [şayiələri] doğru deyildir. Biləks [əksinə], o, qoşunlarımız Kürü keçənədək bizə qarşı müharibədə iştirak edirdi.

*General Kvinitadze*

**ERMƏNİSTANDA**

**Ermənistan nə haldadır?**

Ermənisan camaat xadimlərindən Azadyan Ermənistanın ictimai və siyasi əhvalatı haqqında məruzədə bulunmuşdur. Həman məruzənin bir para yerlərini əhəmiyyəti üçün tərcümə ediriz:

*Daşnaksaqan firqəsi dairəsindən çıxan Ermənistan Hökuməti bütün-bütünə hökmfərma [hökmran] olan burjuaziya sinifinə tabedir. Bu sinif heç bir vaxt bu axır vaxt küçələrdə yüzlərcə adam acından ölən bir zamandakı kimi yaxşı yaşamamışdır. Ciddi və qəhrəmananə tədbirlər lazım idi. Sosial-demokrat firqəsi, müavinət təşkilatı və Ermənistana çörək verməyə iqtidarı olan oblastlara müraciət vasitəsilə xilasiyyətə dəvət edirdi. Lakin bu firqənin səsinə səs verən olmadı. Burjuaziya əlində olan Parlamanın və hökumətin əksəri bürokratiyanın ən fəna nümunəsindən ibarətdir. Ermənistan ələhiddə xanlıqlara mübəddəl olmuşdur [çevrilmişdir]. Hər uyezd [qəza] və hər kənd başda qoyulmuş olan naçalnikin ixtiyarındadır. Bunlar[ın] xudsəranə [özbaşına] hökmranlıqları əleyhinə çıxmağa bir qüvvə yoxdur. Nəzarətlərdə [Nazirliklərdə] olan xəyanətlər və xudsəranə işlər hədsizdir. Əhaliyə müavinət göstərməkdən ötrü verilmiş olan 40 milyondan Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] ancaq 5 milyon hesab göstərmişdir. İrəvanda da qoçular (xumbapet) az deyildir. Bunlar gündə 10 minlərcə manatlar içkiyə və kefə sərf edirlər. Amma 12 kənd əhalisi tamamilə acından qırılmışdır. Hər yerdə xəyanət, hərcmərclik hökmfərmadır. Lakin bu işlərdə müttəhim edilənlərdən heç biri indiyə qədər məhkəməyə verilməmişdir. Çünki o zaman bütün hökuməti məhkəməyə vermək lazım gələr.*

*Daxili və xarici siyasəti öz əlinə alan Daxliyyə Nəzarəti öylə bir üsul vücuda gətirmişdir ki, ancaq bunu köhnə üsuli-idarə ilə bərabərləşdirmək olar. Məmləkət tədhiş [dəhşət; terror] içrə qalmışdır. Qarətgərlər və qatillər cəzasız bir surətdə azad gəzirlər. Külli miqdarda para sərf edən məhkəmə idarəsi varsa da, lakin fəaliyyətsizdir. Bu əhvalları söyləməyə bir tək yer varsa, o da Parlamanın kürsiyi-xitabətidir. Fəqət hökumətin siyasətini kəskin surətdə tənqid edən əqəliyyətdir [azlıqdır] ki, onun da bu siyasəti dəyişməyə qüvvəsi yoxdur. Hökumət siyasəti milli düşmənçilik atəşi yandırmaq və erməni əhalisini hamıdan ayırmaqdan ibarətdir ki, bunun da nəticəsində əhali aclıqdan, xəstəlikdən və ixtilafdan məhv olmaqdadır. Məmləkəti idarə edən firqə öz korluğuna görə bunları görmək istəməyib, öz təcavüzkaranə və xudsəranə siyasətini bilatəəmmül [düşünmədən] yürütməkdədir. Parlaman təsdiq etmədən qanunlar verilir. İstibdad hökuməti verməyə cürət etmədiyi qanunlar elan edilir. Belə ki, bu yaxınlarda verilən bir qanunda ailə üzvündən birinin əsgərlikdən qaçmasına görə onun valideyni və qövm-əqrəbasının məsul olacağı söylənir. Hər yerdə naməlum bir qayda ilə mühüm sənədlər oğurlanmaqdadır. Sosial-demokrat firqəsi onu göstərir ki, hökumət Parlamana tabe olmayır. Lakin, Sosial-demokrat firqəsi bunu təbdil etməkdən [dəyişdirməkdən] acizdir. Çünki Parlamanın əksəri hökumətlə həmfikirdir. Hökmfərma olan Daşnak firqəsi Sosial-demokrat firqəsinin, hökuməti xalq nəzərində öz istizahları [sorğuları] ilə tənqid etdiyini görərək, Parlaman əleyhinə hərəkətdə bulunmaqla axırda Parlamanın buraxılmasını isbat etdi. Lakin Daşnak firqəsinin Parlamanın lazım olduğunu düşünüb anlayan hissəsi Yevropanın rəyini qazanmaqdan ötrü Parlamanın buraxılması əleyhinə durdu. Firqənin bu hissəsindən ötrü Parlaman bir pərdədir ki, məzkur [deyilən] firqə həman pərdə dalında öz irtica və quldurluq siyasətini yürütməkdədir.*

*Hökmfərma olan firqə tənqiddən xilas olmaqdan ötrü sosialistləri Parlamandan qovmaq istəmişdir. Lakin buna müvəffəq ola bilməmişdir. Ölüm təhdidi ilə sosialistlər öz yerlərində qalmışlardır. Daşnak firqəsinin hökmranlığı Zaqafqaziya demokratiyasının [xalqının] hamısını bir bərabərdə təhdid edir. Zaqafqaziya demokratiyası bu hökmranlığa bir nəhayət verməkdən ötrü bütün qüvvəsini cəm etməlidir. Çünki bir məmləkətdə olan irtica hökuməti hamı hökumətlər üçün təhlükəlidir.*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**4-6 otaq lazımdır**

Xahiş edənlər telefon ilə xəbər verə bilərlər. Nömrə 17-64.

*8750*

**Satılır**

Çarxlara məxsus qara və sarı maz. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Merkuryevski küçə nömrə 34. Ayillunun mənzili. Telefon nömrə 33-09.

*8751*

**Drama**

Hökumət Teatrosunda
Axşam tamaşası
Cümə günü
şabanül-müəzzəm ayının 1-də 1337 sənə
(mayın 2-də 1919-cu ildə)
Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli Qardaşlarının Müdiriyyəti
Müdiriyyətin aktyorları
Ələkbər Hüseynzadə, Camal Paşayev və
Əliislam Dadaşovun şərəfinə (benefisinə)
Bu mövsümdə axırıncı dəfə olaraq
təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Şəmsəddin Sami bəyin
**"Gaveyi-ahəngər"** nam əsəri.
Biletlər imdidən benefis qiymətinə
teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq
axşam saat 8-in yarısında.

*T-116*

**Doktor**
**M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başla-

mışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 560. "...örtülü olaraq icazə veriləcəkdir.": belə başa düşülməlidir: "qapalı keçirilməsinə icazə veriləcəkdir."

**Möhkəm idarə möhkəm əxlaqlı istər**

səh. 561. "nəfsi-əmmarə": insana günahları, pis işləri əmr edən nəfs; nəfsin ən aşağı mərtəbəsi sayılır.

"...Ərzaqmı, hansı idarədənsə...": belə başa düşülməlidir: "Ərzaq İdarəsindənmi, hansı idarədənsə".

"bəlli əfkarlar": fikri müyyən bir şeydə olanlar; məqsədləri müəyyən bir şeyə yönələnlər. Müəllif bir tərəfdən bu şəxslərin bütün məqsədlərinin məlum olduğunu – oğurluq və mənimsəmə məqsədi güddüklərini deyir, digər tərəfdən isə "bədəfkarlar" sözü ilə ahəng yaradır.

səh. 563. "Xalq cəhalətini vasiteyi-şöhrət və mənfəəti bilmişmi? ...................... Bil ki, yenə öylədir.": Qəzet sütununda iki cümlənin arasında sətir yarımda nöqtələr qoyulmuşdur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 563. "Beş yüz on milyon rublə": qəzetdə "dörd yüz on milyon rublə" yazılmışdır.

səh. 566. "Bundan əlavə, 35 milyon da ingilis ştabına verilir.": qəzetdə "35 milyon" yerinə səhvən "305 milyon" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 569. "Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

səh. 570. "Rurski dairədə": Almaniyanın qərbində sənaye bölgəsi olan Rur regionu nəzərdə tutulur; qəzetdə "Rurski" yerinə səhvən "Rufski" getmişdir.

**Sülh ətrafında**

səh. 570. "Exo de Pari" [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet.

**Qəzetələrdən**

səh. 571. "Eyxhorn aeroplana minib qaçmışdır, lakin Holtsminden yanında...": "Eyxhorn", "Holtsminden" kimi xüsusi adlar rus dilindəki tələffüzə uyğun olaraq "Eyxkorn", "Qoltsminden" kimi yazılmışdır.

"Spartak" yaxud "Spartak İttifaqı" [Spartakusbund]: 1916-1918-ci illərdə Almaniyada fəaliyyət göstərən marksist təşkilat. Ümumdünya proletar inqilabı tərəfdarı idi. Təsisçiləri arasında Roza Lüksemburq, Karl Libknext və başqaları yer alırdı.

səh. 572. "Hudson": rus dilindəki tələffüzə uyğun olaraq Qudson kimi getmişdir.

"Drednot": hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).

**İran işləri**

səh. 572. "Bəxtiyar dəstəsi": İranda Çahar-Mahal və Bəxtiyari, Xuzistan, Luristan, İsfahan ostanlarında yaşayan etnik qrup olan Bəxtiyarilər nəzərdə tutulur.

səh. 573. "Kazaklar Kəsmə və Fuməni işğal etdilər.": Burada "kazaklar" deyərkən, İran kazak diviziyası nəzərdə tutulmuşdur. İran kazak diviziyası 1879-cu ildə İran kazak briqadası kimi yaradılmış, 1916-cı ildə İran kazak diviziyasına çevrilmişdir. İranda Tersk kazakları nümunəsinə əsasən qurulan süvari birliyi idi. Şahın, yüksək vəzifəli İran məmurlarının və xüsusi əhəmiyyətli obyektlərin mühafizəsini həyata keçirirdi. 1918-1920-ci illərdə diviziyanın komandiri polkovnik Vsevolod Dmitriyeviç Staroselski olmuşdur.

"Rudsəfid": İranın Gilan ostanının kəndi, Xəzər dənizinin cənub-qərb sahilində yerləşən Səfidrud nəzərdə tutulur.

**Nəzarətlərdə**

səh. 573. "Fabriçnı müfəttiş": Fabrik müfəttişləri sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin nümayəndələri idi. Fabrik Müfəttişliyi Rusiya imperiyasında sənayenin inkişafına bağlı olaraq XIX əsrin axırlarına doğru yaradılan, sənaye müəssisələrində əmək şəraitinin qanunlara uyğun olmasına nəzarət edən dövlət qurumu idi. Bakı quberniyasının Fabrik Müfəttişliyinin heyəti Baş Fabrik müfəttişindən və sahə müfəttişlərindən ibarət idi.

**Bakı xəbərləri**

səh. 576. "Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

**Azərbaycanda: Lənkərandan**

səh. 579. "subbotniklər": XVIII əsrin axırlarında ruslar arasında meydana gələn, iudaizm yönümlü cərəyana mənsub olanlar. Subbotniklər "şabat"a (şənbə günü işləməyə), sünnətə və iudaizmin digər əmrlərinə riayət edirdilər. Zaqafqaziyaya subbotniklər XIX əsrin I yarısında çar hökuməti tərəfindən köçürülmüşdü.

**Azərbaycanda: Ərzi-hal**

səh. 580. "eyni-mərhəmətdir": "mərhəmətin özüdür"; "özü də bir mərhəmətdir"; "elə bu (iş, hərəkət, addım və s.) mərhəmətdir ki var"; "savabdır".

"rəcəbül-mürəccəb ayının 20-də": burada tarix hicri təqvimlə verilmişdir; 20 rəcəb (1337) miladi təqvimlə 21 aprel 1919-cu ilə uyğundur.

**Gürcüstanda**

səh. 581. "...yanan körpünü xilas edə bilmişik.": qəzetdə "yanan" yerinə səhvən "yan" getmişdir.

"...Oltu və Qars səmtinə ricət edirlər.": qəzetdə səhvən belə getmişdir: "Olu Qars səmtinə ricət edirlər."

**Doktor M. B. Şaxnazarov**

səh. 583."əmrazı-cərrahiyyə": güman ki, "əmrazı-zöhrəviyyə" [zöhrəvi xətəliklər] olmalıdır.

səh. 584. "606 və 914 müalicəsi": "606" və 914" sifilis xəstəliyinin müalicəsində istifadə edilən "salvarsan" və "neosalvarsan" preparatlarının şərti adları idi.





# ADLAR GÖSTƏRİCİSİ


Abaşidze, A. B. 215, 349

Abaşidze, Əhməd bəy: Diqur bəylərindən olmuşdur. 215

Abbas I (Şah Abbas; 1571-1629): Səfəvi şahı; 1587-1629-cu illərdə hakimiyyətdə olmuşdur. 8, 404

Abbas Ağa Nazir: bax. Qayıbzadə, Abbas Ağa.

Abbas Alış oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502

Abbasqulu: Qalaqayın sakini. 362

Abbasqulu Ağa Mirzə Məhəmməd xan oğlu: bax. Bakıxanov, Abbasqulu Ağa.

Abbasqulu İmamqulu oğlu: Bakıda Balaxanı-Sabunçu dairəsində qaradovoy olmuşdur. 555

Abbasqulu Məhəmməd oğlu: Maştağa sakini. 556

Abbasquluzadə, Əhməd: Novxanı sakini. 447

Abbasov, Ağaəli (Hacı Ağaəli): Ağdaş sakini. 198

Abbaszadə, Abbas (Mizə Abbas; yaxud A. Mollazadə; 1870-1920): Azərbaycanlı pedaqoq və folklorşünas. Azərbaycan məktəbləri üçün dərsliklər qələmə almışdır. Bəzi əsərlərində "A. Mollazadə" imzasından istifadə etmişdir. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin və Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 192, 228, 306, 526

Abdinov, İbrahim bəy: Bakıda Mərkəzi Həbsxananın müdiri olmuşdur. 172

Abdullayev, Ağaabdulla Teymur oğlu: Şamaxı sakini. 363

Abdullazadə, Şükufə xanım: Qazax sakini. 201

Abxazava: zirehli qatar komandiri. 436

Abrami, M.: Fransa Hərbi Nazirliyinin kiçik katibi olmuşdur. 134

Abuyev, Ömər: Azərbaycanlı memar. 471

Adıgözəlov, İmamverdi bəy İsgəndər bəy oğlu (1900-1950): Peterburq Universitetinin Hüquq fakültəsini bitirmiş, ədliyyə sistemində işləmişdir. 436

Adil: Xıllı (Neftçala) qəsəbəsi sakini. 123

Ağa Ələsgər Qərra: bax. Qərra, Ağa Ələsgər

Ağa Xan III (Sultan Məhəmməd şah; 1877-1957): Müsəlman ismaililərin 48-ci imamı. Hindistanın müstəqilliyi, eləcə də Pakistanın maraqları uğrunda mübarizə aparmışdır. 214, 231

Ağa Seyid Həsən: Bakıda, İçərişəhərdə yaşamışdır. 189

Ağababa Cavad oğlu (Hacı Ağababa): Bakı sakini. 99

Ağababa Yəhya oğlu (Məşhədi Ağababa): Bakı sakini. 257

Ağabəyov, Rza bəy: Göyçaydan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. 49, 50

Ağacan Dadaşbala oğlu: Eynibulaq (Siyəzən) sakini. 127

Ağaəlizadə, Axund Ağa (1871-1954): Azərbaycanın dini xadimi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin, 1944-1954-cü illərdə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuşdur. 58, 92, 480, 538

Ağaəmi Əhməd oğlu: Novxanı sakini. 447

Ağahüseyn Cavad oğlu: Velədi kəndinin (Lənkəran) sakini olmuşdur. 531

Ağahüseyn Həsən oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151

Ağahüseyn Kərəm oğlu (Hacı Ağahüseyn): Qaraçaylı kəndinin (Şabran) sakini. 418, 480

Ağaisa: "Azərbaycan" qəzetində imza. 50

Ağakişizadə, Əbdürrəhim 73

Ağamalı Cəfər oğlu (Molla Ağamalı): Digah kəndinin sakini. 474

Ağamalıoğlu, Səməd ağa (yaxud Ağamalızadə; Ağamalıyev; Ağamalov 1867-1930): Azərbaycanın və Sovet İttifaqının dövlət xadimi. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Cümhuriyyəti Parlamentində Sosialistlər fraksiyasını təmsil etmişdir. Sovet dövründə Azərbaycanın Kənd Təsərrüfatı xalq komissarı vəzifəsini tutmuş, Azərbaycan Sovet Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olmuşdur. 35, 53, 60, 63, 108, 125, 148, 166, 179, 181

Ağamalov: bax. Ağamalıoğlu, Səməd ağa.

Ağamirzəzadə, Davud: Ağdamda müəllim olmuşdur. 221, 231

Ağaoğlu, Əhməd bəy (1869-1939): Azərbaycanın və Türkiyənin gökəmli ictimai-siyasi xadimi; hüquqşünas, şərqşünas, yazıçı-publisist. Türkçülük hərəkatının ideoloqlarından biri olmuşdur. 12, 186, 249, 348, 487, 520, 547

Ağarəhim Qazı 432

Ağası, Hacı Mirzə (İrəvani, yaxud Fəxri; 1783-1848): İranın siyasi xadimi; 1835-1848-ci illərdə İranda baş vəzir olmuşdur. "Fəxri" təxəllüsü ilə şeir yazmışdır. 12

Ağasıbəyov, Rza: Azərbaycan Parlamentində İdarə müdirini əvəz etmiş, daha sonra Daxili İşlər Nazirliyində Dəftərxana müdirinin müavini olmuşdur. 49, 57, 208, 230

Ağasıyev, Hacıbaba 51

Ağaverdi, Nəcəfqulu oğlu: Eynibulaq (Siyəzən) sakini. 127

Ağayev, Əhməd bəy: bax. Ağaoğlu, Əhməd bəy

Ağayev, Fərhad bəy Məşhədi Rəhim oğlu: bax. Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu.

Ağayev, Güləhməd: 1918-ci ilin Mart soyqırımında ailəsi ilə birgə şəhid edilmişdir. 49

Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 18, 58, 60, 94, 106, 147, 148, 208, 264, 341, 560, 563

Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün "İkinci il" dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin "Azərbaycan" qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 27, 44, 88, 142, 169, 223, 277, 329, 359, 385, 413, 471, 494

Axundov: Ağdaşda məhkəmə sədri olmuşdur. 197

Axundov: Ərzaq Nazirliyinin Qarabağdakı vəkili olmuşdur. 228

Axundov, Bəhram bəy Məşhədi Mirzə Cəfərqulu bəy oğlu (1872-1932): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 177, 196

Axundov, Məhəmmədhüseyn: "Müsavat" partiyasının Tağıyev fabrikindəki şöbəsinin idarə heyətinin üzvü olmuşdur. 98

Axundov, Muxtar: Salyan sakini. 172

Axundov, Yəhya: Lənkəran sakini; şəhərin Böyük Bazar məhəlləsində dükanı olmuşdur. 124

Axundov, Zülfüqar: Şuşa Milli Müdafiə Cəmiyyətinin müsahibi olmuşdur. 122, 123

Axundzadə, Ağababa (Molla Ağababa): Xıllı (Neftçala) qəsəbəsinin axundu olmuşdur. 123





Axundzadə, Cavad: bax. Əhməd Cavad.

Axundzadə, Cavad (Mirzə Cavad): bax. Əhməd Cavad.

Axundzadə, Hacı Mirzə Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 148

Axundzadə, Məhəmmədhüseyn: bax. Axundov, Məhəmmədhüseyn.

Axundzadə, Mirzə Fətəli (1812-1878): Azərbaycan dramaturgiyasının banisi; şair və filosof. 12

Axundzadə, Musa: Bakıda, Nəzər məscidinin ruhanisi. 257

Axundzadə, Rəşid bəy Hacı Əbdüssalam oğlu (1880-1940): Azərbaycanın ictimai-siyasi xadimi. 1895-1907-ci illərdə Qafqaz müsəlmanlarının Şeyxülislamı olan Axund Hacı Əbdüssalamın oğlu olmuşdur. Kiyevdə hüquq təhsili almışdır. Salyandan Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 1919-cu ilin fevralından avqustunadək Bakının valisi (qubernatoru) vəzifəsini tutmuşdur. Sovet hakimiyyəti dövründə Sibirə sürgün edilmiş və sürgündə ölmüşdür. 47, 59, 360, 386

Axundzadə, Süleyman (Kərbəlayi Süleyman, yaxud Mirzə Süleyman): "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 119

Axverdov, İvan Vasilyeviç (yaxud Ovanes Barseqoviç Axverdyan; 1873-1931): Rusiya imperiyasının və Ermənistan Respublikasının hərbi xadimi, general. Rusiya-Yaponiya və Birinci Dünya müharibələrində iştirak etmişdir. Ermənistanın Hərbi naziri olmuşdur. Sovet dövründə həbs edilərək güllələnmişdir. 198

Akselrod, Pavel Borisoviç (1850-1928): Rus sosial-demokrat; İkinci İnternasionalın liderlərindən biri olmuşdur. 484

Aqaronyan, Avetis Arakeloviç (1866-1948): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Ermənistanın müstəqilliyini elan edən Erməni Milli Şurasının sədri, Ermənistan Parlamentinin rəhbəri olmuşdur. İstanbulda danışıqlar aparan erməni nümayəndə heyətinə rəhbərlik etmişdir. Paris Sülh Konfransında iştirak edən erməni nümayəndə heyətinin rəhbəri olmuşdur. 1920-ci ildən Fransada mühacirətdə yaşamışdır. 245

Alakozov 516

Albert: bax. Eduard VIII.

Albert I [Albert I] (1875-1934): 1909-1934-cü illərdə Belçika kralı. 132,153, 182, 183

Aleksandr I (1777-1825): Rusiya imperatoru; 1801-1825-ci illərdə hakimiyyətdə olmuşdur. 26, 175

Aleksandr II (1818-1881): Rusiya imperatoru. 1855-1881-ci illərdə hakimiyyətdə olmuşdur. 259, 493

Aleksey Mixayloviç (1629-1676): Rus çarı; Romanovlar sülaləsinin ikinci çarı. 1645-1676-cı illərdə hakimiyyətdə olmuşdur. 338

Alim xan, Seyid Mir Məhəmməd (1880-1944): Buxaranın sonuncu əmiri. 10 yanvar 1911-ci ildə atasının yerinə taxta keçmişdir. Buxaranın Qırmızı ordu tərəfindən işğal edilməsi nəticəsində, 30 avqust 1920-ci ildə Əfqanıstana qaçmış və orada vəfat etmişdir. 231

Alimaskin, Yakov 146

Alimaskina, Yevdokiya Pavlovna 146

Allahverən İsmayıl oğlu: Ağdaş sakini. 99

Altman: Bakıda diş həkimi olmuşdur. 52, 99, 201, 258, 532

Amaspur, Xoren: "Daşnaksutyun" partiyasının üzvü; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 263

Amazasp: bax. Srvandzyan, Hamazasp.

Amet, Jan-Fransua-Şarl [Jean-François-Charles Amet; 1861-1940]: Fransız vitse-admiralı. Mudros sazişindən sonra Fransanın

İstanbulda Ali komissarı olmuşdur. 516
Anaplı, Əbülhəsən: bax. Anaplinski, Əbülhəsən.
Anaplinski (Anaplı), Əbülhəsən (1894-1921): Teatr aktyoru. Bir sıra teatr truppalarında, o cümlədən Hacı-bəyov qardaşlarının teatr dəstəsində çıxış etmişdir. Əsasən komik rollar oynamışdır. Qarabağda qastrol səfərində olarkən ermənilər tərəfindən xaincəsinə qətl edilmişdir. 24
Ancaparidze, Georgi Nesteroviç (1887-1937): Gürcüstanın siyasi xadimi; Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 1937-ci ildə güllələnmişdir. 449
Andranik: bax. Ozanyan, Andranik.
Andreyev, Sergey: Bakı sakini. 576
Aram: Osmanlı dövlətində mütəsərrif olmuşdur. 401
Araratov, Xaçatur: bax. Araratyan, Xristofor
Araratyan, Xristofor (yaxud Xaçatur Araratov; 1876-1937): Ermənistanın hərbi xadimi, general-mayor. 1919-cu ilin martından 1920-ci ilin mayına qədər Ermənistanın Hərbi naziri olmuşdur. 198
Araratyan, Sarkis (1886-1943): Ermənistanın siyasi xadimi. Ermənistanın Tehrandakı səfiri olmuş, habelə müxtəlif vaxtlarda Maliyyə, Sosial Yardım, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Mühacirətə getmişdir. 246
Arrol, James: Amerika Yardım Administrasiyasının nümayəndəsi olmuşdur. 229
Arutyunov, D. İ.: Bakıda, Sisyanov (indiki Təbriz Xəlilbəyli) küçəsində dükanı olmuşdur. 1, 29, 57
Arutyunov, Samson Stepanoviç (yaxud Samson Stepanoviç Arutyunyan; 1861-1941): Ermənistanın siyasi xadimi. Erməni Xalq Partiyasının təsisçilərindən və rəhbərlərindən biri olmuşdur. Ermənistan Respublikasında Ədliyyə naziri vəzifəsini tutmuşdur. 572
Arutyunyan, Samson Stepanoviç: bax. Arutyunov, Samson Stepanoviç.
Arzumanov, Mixail: Ermənistanın Şuşadakı ingilis komandanlığı nəzdindəki siyasi nümayəndəsi olmuşdur. 125
Asi, Abdulla bəy (1841-1874): Azərbaycan şairi. 12
Aslanov, Yusif ağa: Ağdaş sakini. 75
Asser: ingilis generalı; Qars qubernatoru olmuşdur. 200
Aşxatsava, Semyon Mixayloviç (1886-1937): Abxazların ictimai-siyasi xadimi; Dağlılar Respublikası Parlamentinin üzvü olmuşdur. 432
Aşurbəyli, İsa bəy (1878-1938): Azərbaycanın ictimai-siyasi xadimi və xeyriyyəçisi. Bakı Şəhər Dumasının və “Nicat” cəmiyyətinin üzvü olmuşdur. Birinci Dünya müharibəsində əsir düşən türk əsgərlərinə yardım edən komitənin işində fəal iştirak etmişdir. Mətbuatda “Həqqi” təxəllüsü ilə çıxış etmişdir. 1938-ci ildə güllələnmişdir. 98, 291, 319
Aşurbəyov, Cahangir bəy Mehdixan bəy oğlu (1894-1964): həkim. Cümhuriyyət dövründə Dövlət Müfəttişliyi İdarəsində işləmişdir. 2
Aşurov, Ağa (1880-1936): Azərbaycanın dövlət xadimi. Bakıda anadan olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə Ticarət və Sənaye naziri, Ərzaq naziri, Poçt və Teleqraf naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra Rostova köçmüş, orada vəfat etmişdir. 84, 499
Atabayi, İbrahim: Bakı Poçt və Teleqraf idarəsində işləmişdir. 445
Atabek, Osman Sərvər: bax. Atabəyov, Osman Sərvər bəy.
Atabəyov, Osman Sərvər bəy (yaxud Osman Sərvər Atabek, 1886-1962): Mesxet müsəlmanlarının siyasi və hərbi lideri olmuşdur. Türkiyəyə mühacirətə getmişdir. 347, 382, 408, 442, 443, 581
Atabəyov, Sərvər bəy: bax. Atabəyov, Osman Sərvər bəy.





Atakişiyev, İbrahim: bax. Atakişizadə, İbrahim.
Atakişizadə, İbrahim (yaxud İbrahim Azəri; 1898-1969): Aktyor. “Müsavat” partiyasının üzvü olmuşdur. Sovet hakimiyyəti illərində həbs və sürgün edilmişdir. 479
Atamalı Güləli oğlu (Hacı Atamalı Hacı Güləli oğlu): Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502
Atarbekov, Georgi Aleksandroviç (yaxud Atarbekyan; 1892-1925): erməni əsilli bolşevik, çekist. 1919-cu ildə Həştərxanda fövqəladə komissiyanın sədri olmuşdur. 1920-ci ildən sonra Bakıda işləmişdir. 297
Atarbekyan: bax. Atarbekov.
Atayan 51
Atayans, İshak Avetisoviç: Bakıda həkim olmuşdur. 258, 316, 364, 419, 447, 476, 532
Avakimov, S.: Bakıda, Stanislavski (indiki Azadlıq prospekti) və Balaxanski (indiki Füzuli) küçələrinin küncündə dükanı olmuşdur. 1, 29, 57
Avakimov, Saak: Saqiyan kəndinin (Şamaxı rayonu) sakini. 361
Avakov: Bakı sakini. 361
Ayn. Rüfət: “Azərbaycan” qəzetində imza. 472
Azər, Lütfəli bəy (1722-1781): şair və təzkirə müəllifi. “Atəşkədə” (“Atəşkədeyi-Azər”) adlı təzkirəsinə farsdilli şairləri daxil etmişdir. 26
Babacan Ağayar oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151
Babalyan, Artaşes (1886-1959): Ermənistanın ictimai-siyasi xadimi; həkim. Ermənistan Parlamentinin üzvü, Sosial Müdafiə naziri olmuşdur. Daşnaksutyun partiyasının üzvü idi. 51
Babayar Tağı oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151
Babayev, Arsen: Bakıda, Sisyanov (indiki Təbriz Xəlilbəyli) küçəsində dükanı olmuşdur. 1, 29, 57
Babayev, Artyom: Bakıda, Sisyanov (indiki Təbriz Xəlilbəyli) küçəsində dükanı olmuşdur. 1, 29, 57
Babayev, Əlisəttar 156
Babayev, Noruzqulu (? - 1919) 535
Bağı Abbasəli oğlu (Məşhədi Bağı Molla Abbasəli oğlu): Bakı sakini; Bazarnı küçədə (indiki Azərbaycan prospektində) dükanı olmuşdur. 256
Bağır ağa (Ağa Seyid Bağır ağa): Salyan ruhanilərindən. 95
Bağırov: Bakıda, Ofiserski (indiki Məmməd Əfəndiyev) küçəsində mağazası olmuşdur. 287
Bağırzadə, Əhəd (Məşhədi Əhəd): Bakı sakini. 257
Bahar, Mirzə Nəsrullah (1834-1883): XIX əsr Azərbaycan şairi. Şamaxıda doğulmuş, mükəmməl mədrəsə təhsili almışdır. Təbrizdə vəfat etmişdir. 12
Baxşı: Astara mahalının Tuluxanlı kənd sakini; Qaçaq Yunisin dəstəsinin üzvü olmuşdur. 74
Bakıxanov, Abbasqulu Ağa Mirzə Məhəmməd xan oğlu (1794-1847): Azərbaycan alimi və şairi. “Gülüstani-İrəm” əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoymuşdur. 11, 26
Bakıxanov, Həsən Ağa (1834-1898): general-mayor. Abbasqulu Ağa Bakıxanovun qardaşı oğlu. 11
Bakuvi, Əbdürrəşid (XV əsr): Azərbaycan alimi; səyyah və coğrafiyaşünası. 11, 26
Bakuvi, Seyid Əbu Səid Abdal: Azərbaycanın ilk sufilərindən biri olaraq qəbul edilir (təxm. X əsr). 11, 26
Bakuvi, Seyid Yəhya (? - 1462): Azərbaycanlı sufi, alim, filosof və şair. 26
Balaağa Manqay oğlu (Məşhədi Manqay oğlu): Gərmətük kəndində (Lənkəran) qaradovoy olmuşdur. 531
Balabəy Ağabəy oğlu: Quba qəzasının Ərşəli kəndinin sakini. 151
Balaxan Muradəli oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502

Balakərim Ağakərim oğlu: Digah kəndinin sakini. 474
Balaqardaş Əsgər oğlu (Hacı Əsgər oğlu): Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502
Balayans, Boqdan: Şəki və Ağdaşdan Azərbaycan Parlamentinə üzv seçilmişdir. 250
Balfur, Artur [Arthur Balfour; 1848-1930]: Britaniyanın dövlət xadimi. 1902-1905-ci illərdə Baş Nazir, 1916-1919-cu illərdə Xarici İşlər naziri olmuşdur. 294
Barat xanım: Bakı sakini; 10 yaşında. 201
Baratzadə, Hacı Yaqub: Gəncə ruhanilərindən; Gəncə oğlanlar gimnaziyasının şəriət müəllimi olmuşdur. 192
Baybekov: 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Bayəzid I (yaxud İldırım Bayəzid; 1360-1403): Osmanlı padşahı. 154
Baykov: Azərbaycan Dəmiryolu İdarəsində işləmişdir. 574
Bayraməlibəyov, Teymur bəy (yaxud Bayraməlibəyzadə, 1862-1937): Azərbaycanın ictimai-siyasi xadimi, maarifçisi və tarihçisi. Qori müəllimlər seminariyasını bitirmiş, Lənkəranda müəllim işləmişdir. "Müsavat" partiyasının Lənkəran şöbəsinin səri olmuşdur. 74, 124, 579
Bekzadyan, Tiqran Arutyunoviç (yaxud Artyomoviç; 1877-1942): Şuşada anadan olmuş, 1917-ci il inqilabından əvvəl Bakıda neft sənayesi sahəsində işləmişdir. Cümhuriyyət dövründə Ermənistanın Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. Fransaya mühacirətə getmişdir. 147, 391
Belyayev: Mal paylayıcı şöbə müdiri. 42
Bədəlov, Mehdi: Salyan sakini. 173
Bədr Şirvani: XV əsrdə yaşamış Azərbaycan şairi. 12
Bəhaəddin (Şeyx Bəhaəddin, yaxud Şeyx Bəhai; 1546-1622): riyaziyyat və astronomiya alimi; filosof. Səfəvi sarayında şeyxülislam olmuşdur. 557
Bəkir Sidqi: bax. Çobanzadə, Bəkir.
Bıyıklıoğlu, Mehmed Tevfik (1891-1961): Türkiyənin hərbi və siyasi xadimi, diplomatı. Müxtəlif cəbhələrdə döyüşmüş, Qafqaz İslam Ordusu Hərəkat şöbəsinin başçısı olmuşdur. Ordudan istefaya çıxdıqdan sonra Prezident İdarəsinin Baş Katibi, Moskva səfiri, Türk Tarix Qurumunun sədri kimi vəzifələr daşımışdır. 167, 175
Biçeraxov, Lazar Fyodoroviç (1882-1952): Rusiyanın hərbi xadimi. İrandakı Rusiya korpusunda xidmət edərkən, təxminən 1000 nəfərlik bir dəstə yaratmış, ingilislərlə əməkdaşlıq etmişdir. Bakı Komissarları da Qafqaz İslam Ordusuna qarşı Biçeraxovun yardımına müraciət etmişdilər, ancaq daha sonra bolşeviklərlə Biçeraxov arasında ixtilaf meydana gəldi və Biçeraxov öz dəstəsi ilə birgə Dağıstana çəkildi. Sentrokaspi Diktaturası Xəzər dənizindəki hərbi donanmanı Biçeraxovun əmrinə vermişdi. 7, 16, 81, 187, 473, 555, 529
Bilalov, Hacı Mustafa: tacir; 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Biren, Məhməd Tofiq (1867-1956): Türkiynin siyasi xadimi. Müxtəlif dövlət vəzifələri tutmuş, 1919-cu ilin martından 1920-ci ilin martına qədər, eləcə də 1922-ci ilin aprel-noyabr aylarında Maliyyə naziri olmuşdur. 212, 231
Bliss 486
Bodo, Jan Moris Emil [Jean-Maurice-Émile Baudot; 1845-1903]: fransız mühəndisi və ixtiraçısı. 317
Boqdanov, Y.: Tersk oblastı Xalq Şurasının sədri olmuşdur. 374
Braf: Qafqazdakı Antanta generallarından olmuşdur. 199
Bratianu, İonel [Ionel Brătianu; 1864-1927]: Rumıniyanın dövlət xadimi. Rumıniya Milli-Liberal Partiyasının lideri olmuşdur. Daxili İşlər, Müdafiə, Xarici İşlər naziri vəzifələrini tutmuş, müxtəlif vaxtlarda beş





dəfə (o cümlədən 1914-cü ilin yanvarından 1918-ci ilin fevralına və 1918-ci ilin dekabrından 1919-cu ilin dekabrına qədər) Rumıniyanın Baş naziri olmuşdur. 509
Brays, Ceyms [James Bryce; 1838-1922]: Britaniyanın dövlət xadimi; Millətlər Cəmiyyətinin (Millətlər İttifaqının) yaradılmasının təşəbbüskarlarından olmuşdur. 353
Briks: general; Rusiyadakı Böyük Britaniya heyətinin başçısı olmuşdur. 215, 348, 485
Bron: Bakıda fəaliyyət göstərmiş doktor; eyni zamanda Mərkəzi Ev Komitəsində işləmişdir. 300
Butayev, Aslambek (yaxud Aslanbek, 1880-1939): Dağlılar Respublikasının Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 514, 572
Bünyadov, Bəşir: "Müsavat" partiyasının Suraxanı şöbəsinin üzvü olmuşdur. 313, 556
Bünyadov, Məhəmmədhüseyn 535
Cabaqiyev, Vassan-Gəray (1882-1961): Şimali Qafqazın siyasi və dövlət xadimi; milliyyətcə inquşdur. Almaniyada təhsil almışdır. İnquş Milli Şurasının sədri olmuş, Şimali Qafqaz Dağlılar İttifaqının (Dağlılar Respublikasının) qurulmasında yaxından iştirak etmiş, İttifaqın Mərkəzi Komitəsinin üzvü və Maliyyə naziri olmuşdur. Dağlılar Respublikasının Müstəqillik Aktının müəllifi və Dağlılar Respublikası Konstitusiyasının müəlliflərindən biri idi. Şimali Qafqazın sovetləşməsindən sonra mühacirətə getmişdir. İstanbulda ölmüşdür. 41, 250, 430, 431
Cabbarzadə, Bağır (1894-1951): Azərbaycan aktyoru. 479
Cabbarzadə, Cəfər (yaxud Cəfər Cabbarlı; 1899-1934): Azərbaycanın məşhur dramaturqu, şairi və teatr rejissoru. Cümhuriyyət dövründə Qafqaz Türk Tələbələri Mərkəzi Komitəsinin üzvü, Parlamentin türkcə stenoqrafı olmuşdur. 505
Cahangirov, İbrahim bəy: bax. Cahangirzadə, İbrahim bəy.
Cahangirzadə, Haşim bəy: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyətinin üzvü olmuşdur. 203, 256
Cahangirzadə, İbrahim bəy (yaxud İbrahim Aydın; 1874-1948): Azərbaycanın və Türkiyənin hərbi və siyasi xadimi. Araz Türk Cümhuriyyətinin Hərbi naziri (1918), Qars Milli Şurasının rəhbəri (1918-1919), Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin Baş naziri (1919), Qars şəhər bələdiyyəsinin sədri (1922-1927) olmuşdur. 407
Cahangirzadə, Rəhim bəy: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyəti sədrinin müavini olmuşdur. 256
Camal bəy: Qazax qəzasında xidmət etmiş Azərbaycan Ordusu zabiti 247
Camal paşa: bax. Keşmir, Camal.
Camalbəyov, Qasım bəy (1881-1938): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. "Hümmət" partiyasının üzvü idi. Azərbaycan Parlamentinin üzvü olmuşdur. 33, 165, 166, 182, 183, 210, 211
Canaşvili, Moisey Georgiyeviç (1855-1934): Gürcü tarixçi və filoloqu. 553
Canbulat, İsmayıl Haqqı (1880-1926): Türkiyənin siyasi xadimi. Müxtəlif dövrlərdə millət vəkili, İstanbul valisi və İstanbul bələdiyyəsinin sədri olan Canbulat 1918-ci ildə qısa müddət Daxili İşlər naziri vəzifəsini tutmuşdur. Atatürkə sui-qəsddə təqsirləndirilərək edam edilmişdir. 247
Caparidze, Konstantin: Gürcüstan Məclisi-Müəssisanının katibi olmuşdur. 60
Cavad: Bakıda Hamballar İttifaqına seçilmişdir. 287
Cavad xan (1748-1804): Gəncə xanı; 1786-1864-cü illərdə hakimiyyətdə olmuşdur. Gəncə xanlığını işğalçı rus ordusuna qarşı müdafiə edərkən qəhrəmanca şəhid olmuşdur. 8, 9, 115

Cavad xan Səniki: İranlı diplomat; İranın Bakıda və Aşqabadda konsulu olmuşdur. 576
Cavadov, Məhəmmədhəsən (Hacı Məhəmmədhəsən): Bakı sakini. 146
Cavadzadə, Mir Cəfər: bax. Cavadzadə, Mircəfər.
Cavadzadə, Mircəfər: İran Maarif Cəmiyyətinin üzvü. 313, 314
Cavaxişvili, İvan Aleksandroviç: bax. Cavaxov, İvan Aleksandroviç.
Cavaxov, İvan Aleksandroviç (yaxud Cavaxişvili; 1876-1940): Gürcü tarixçisi. Tiflis Universitetinin əsasını qoyanlardan olmuşdur; bu universitet hal-hazırda onun adını daşıyır. 126
Cavanşir, Behbud xan (1886-1921): Azərbaycanın dövlət xadimi. Almaniyada Frayberq Dağ-Mədən Akademiyasını bitirmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Daxili İşlər naziri, Ticarət və Sənaye naziri kimi vəzifələr tutmuşdur. İstanbulda erməni terrorçusu Torlakyan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 320, 321, 521
Cavanşir, Həmidə xanım: bax. Məmmədquluzadə, Həmidə xanım.
Cəbrayıl: Qarabağlı fəhlə; Bakıda neft mədənlərində işləmişdir. 1918-ci ilin Mart hadisələrində ermənilər tərəfindən öldürülmüşdür. 417
Cəfər Bəndəli oğlu: Bakı sakini. 414
Cəfərqulu xan: İranda quldurluqla məşğul olmuşdur. 68
Cəfərov, Balaəmi 131
Cəfərov, Bəyəli (Hacı Bəyəli) 131
Cəfərov, Cəfər (Məşhədi Cəfər) 131
Cəfərov, Məmməd (yaxud Məhəmməd) Yusif (1885-1938): Azərbaycanın dövlət xadimi. Ali hüquq təhsili almışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif tarixlərdə Sənaye və Ticarət naziri, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. 263, 446, 528, 529, 580, 581
Cəfərov, Sahibqulu Bəyəli oğlu (? - 1919) 131
Cəfərov, Talıb (Kərbəlayi Talıb): Bakı sakini. 363
Cəfərzadə: Maştağa sakini, "Müsavat" partiyasının üzvü olmuşdur. 46
Cəfərzadə, Hacı: müəllim; İran Maarif Cəmiyyətinin üzvü olmuşdur. 120, 313
Cəlal Qurban oğlu: Qaragüvəndikli kədninin (İmişli) yüzbaşısı olmuşdur. 578
Cəlil İsmayıl oğlu: Azərbaycan Dəmiryolu İdarəsində işləmişdir. 554, 574, 575
Cənnət Baxşəli oğlu: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin üzvü olmuşdur. 418, 531
Cənnəti, Əbdülxaliq: bax. Qafarzadə, Əbdülxaliq Cənnəti.
Cons, Kennedi [Kennedy Jones; 1865-1921]: ingilis jurnalisti; Britaniya Parlamentinin üzvü olmuşdur. 270
Cuvarlı, Cavad bəy: bax. Cuvarlinski, Cavad bəy.
Cuvarlinski, Cavad bəy: Gəncədə maarif müfəttişi olmuşdur. 362
Çapçakçı, Xəlil (1889 - ?): Krım tatarlarının siyasi xadimi. Krım Xalq Respublikası Hökumətinin üzvü olmuşdur. 1928-ci ildə Sovet rejimi tərəfindən həbs edilmişdir. Sonrakı taleyi məlum deyil. 70
Çaykovski, Nikolay Vasilyeviç (1851-1926): Rus inqilabçı. Sankt-Peterburq Universitetini bitirmişdir. Sosialist İnqilabçılar Partiyasına qoşulmuşdur. 1874-1907-ci illərdə Amerika və Avropada yaşamışdır. Bolşeviklərin hakimiyyəti ələ keçirməsinə etiraz etmiş, Ümumrusiya Müvəqqəti Hökumətinin üzvü, Şimal Vilayəti Müvəqqəti Hökumətinin sədri olmuşdur. 133, 426
Çernin, Ottokar [Ottokar Czernin; 1872-1932]: Avstriya-Macarıstanın diplomatı və dövlət xadimi. 23 dekabr 1916 – 14 aprel 1918 tarixləri arasında Xarici İşlər naziri olmuşdur. 373
Çxikvişvili: Gürcüstanın Suxumidəki xüsusi vəkili. 390, 393
Çiçerin, Georgi Vasilyeviç (1872-1936): Rusiyanın siyasi xadimi və diplomatı. 1918-1923-cü illərdə Rusiyanın, 1923-1930-cu illərdə SSRİ-nin Xarici İşlər xalq komissarı olmuşdur. 484
Çiçinadze, Zaxari İqnatoviç (yaxud Zakariya Çiçinadze; 1853-1931): Gürcü tarixçi, yazıçı və naşiri. Əsərlərini "Mtatsmindeli" təxəllüsü ilə yazmışdır. 553
Çingiz xan (1162-1227): Monqol sərkərdəsi və Monqol imperiyasının banisi. Tarixin yetişdirdiyi ən böyük sərkərdələrdən biri olmuşdur. 8, 138, 154
Çobanzadə, Bəkir (Bəkir Sidqi; 1893-1937): Krım tatarlarının ictimai-siyasi xadimi; şair və türkoloq. 1937-ci ildə Sovet rejimi tərəfindən həbs edilmiş və güllələnmişdir. 70
Çörçill, Uinston [Winston Churchill; 1874-1965]: Britaniyanın görkəmli dövlət xadimi. 212, 270, 515
Çurayev, Andrey Yemelyanoviç [1881 - ?]: Fəhlə, menşevik. Bakıda inqilabi fəaliyyətlə məşğul olmuşdur. 1917-ci ildə Bakı Şəhər Dumasının üzvü, 1920-ci ildə qısa müddət Azərbaycan Fövqəladə Komissiyasının sədri olmuşdur. 208, 554, 555
D'Anselm, Filipp [Philippe d'Anselme; 1864-1936]: Fransız generalı. Cənubi Rusiyadakı Antanta ordularının komandanı olmuşdur; qərargahı Odessa şəhərində yerləşirdi. 168, 325, 381, 382
Dadaş: Lənkəranın Böyük Bazar məhəlləsində çayçı olmuşdur. 531
Dadaşbəyov, Rza bəy: Bakı Poçt və Teleqraf idarəsində işləmişdir. 445
Dadaşov, Dadaş: Bakı Poçt və Teleqraf idarəsində işləmişdir. 445
Dadaşov, Əliislam: Azərbaycan aktyoru. 583
Dadaşov, Hacı (Məşhədi Hacı): Bakı sakini. 392
Dadaşov, Həsən 155
Dadaşov, Paşa 155
Dağkəsəmənski 229, 232
Dalayev: Dağlılar Respublikası Parlamentinin katibi olmuşdur. 41
Damad Fərid paşa (1853-1923): Türkiyənin siyasi xadimi. 4 mart – 30 sentyabr 1919-cu il və 5 aprel – 17 oktyabr 1920-ci il tarixlərində Baş nazir olmuşdur. 186, 212
Daniels, Cazefus [Josephus Daniels; 1862-1948]: Amerikanın ictimai-siyasi xadimi və diplomatı. 1913-1921-ci illərdə Hərbi-Dəniz Donanması naziri vəzifəsini tutmuşdur. 1933-1941-ci illərdə ABŞ-ın Meksikadakı səfiri olmuşdur. 484
Dastakov, Abram Nikitiç (yaxud Abram Mkrtçyeviç Dastakyan; 1864-1929): Erməni əsilli ictimai-siyasi xadim. "Daşnaksutyun" partiyasının üzvi idi. Bakı Şəhər Dumasının üzvü, Neft Sənayeçiləri Şurasının İşlər İdarəsinin müdiri olmuşdur. 14 mart – 22 dekabr 1919 tarixləri arasında Azərbaycan Cümhuriyyətinin Səhiyyə naziri vəzifəsini tutmuşdur. 263
Dastakyan, Abram Mkrtçyeviç: bax. Dastakov, Abram Nikitiç.
Davud: Gəncəli müəllim. 524
Delbruk [Delbrück]: Almaniyada şəhər. 516
Demidov, Nikita (1656-1725): Rus sənayeçisi. Silah ustası olmuşdur. Demidovlar soyunun banisi hesab olunur. 410, 505
Demidov, Prokofi Akinfiyeviç (1710-1786): Rus sahibkar və xeyriyyəçi. 505
Demolen, Edmon [Edmond Demolins; 1852-1907]: Fransız tarixçisi və sosioloqu. 252
Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbərlərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 – yanvar 1919) və Cənubi

Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 – aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 66, 67, 69, 110, 111, 113, 133, 185, 215, 216, 219, 265, 298, 299, 326, 332, 348, 350, 351, 369, 374, 395, 430, 432, 457, 481, 485, 513, 544, 579

Derkovskaya 192

D'Esperi, Franşe [Franchet d'Espèrey; 1856-1942]: Fransanın siyasi və hərbi xadimi, marşal. Cənubi Rusiyada Fransanın Ali komissarı olmuşdur. 168, 324

Desyatnikov: Bakıda, Birjavaya küçəsində yaşamışdır. 99

Dərviş İbrahim paşa (1817-1896): Osmanlının hərbi xadimi. 1877-1878-ci il Osmanlı-Rusiya müharibəsində Batum ordusu komandanı olmuşdur. 553

Dərviş paşa: bax. Dərviş İbrahim paşa

Dibirov: Azərbaycanın hərbi xadimi. Zaqatala taborunun komandanı olmuşdur. 355

Dilbazi, Xeyransa Yusif qızı: pedaqoq Yusif Əfəndiyevin qızı; H. Z. Tağıyevin qız məktəbində təhsil almışdır. 200

Dilsuz, Məhəmməd Əmin: XIX əsr Azərbaycan şairi. 104, 128

Doluxanov, Arseni Sergeyeviç (1863-1920): Ermənistanın hərbi xadimi; general-mayor. 1918-1920-ci illərdə Ermənistan Hərbi Nazirliyində Baş Qərargah rəisi olmuşdur. 198

Draqomirov, Abram Mixayloviç (1868-1955): Rusiyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsində iştirak etmiş, 1917-ci ilin aprelində Şimal cəbhəsindəki Rusiya ordularının Baş komandanı təyin edilmişdi. Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü orduda və Xüsusi Şurada (Cənub) ali vəzifələr tutmuş, 1918-ci ilin oktyabrından 1919-cu ilin sentyabrına qədər Xüsusi Şuranın sədri (Xüsusi Şura Hökumətinin Baş naziri) olmuşdur. Ağqvardiyaçıların Vətəndaş müharibəsində məğlubiyyətindən sonra mühacirətə getmişdir. 326

Dro: bax. Kanayan, Drastamat.

Dubrovin, Semyon İvanoviç 120

Eduard VIII [Eduard VIII; 1894-1972]: 1936-cı ilin 20 yanvar – 11 dekabr tarixləri arasında Böyük Britaniya kralı olmuşdur. 557

Eldarzadə, İsabala: Sabunçunun kəndxudası olmuşdur. 48

Eyvaz: Xıllı (Neftçala) qəsəbəsi sakini. 123

Eyvazov, S. Q.: Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyətinin idarə heyətinin sədri olmuşdur. 75

Eyyubzadə, Cavahir xanım: Qazax sakini. 201

Eyyubzadə, Mədinə xanım: Qazax sakini. 201

Eyyubzadə, Mina xanım: Qazax sakini. 200

Ə. H.: bax. Qaraağazadə, Əhməd Həmdi

Əbdizadə, Məhəmmədrza: Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin üzvü olmuş, "Azərbaycan" qəzetinə Ağdaşdan yazılar göndərmişdir. 75

Əbduh, Şeyx Məhəmməd (1849-1905): müsəlman reformist. 301

Əbdülhəmid II [1842, 1918]: Osmanlı sultanı; 1876-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 301, 317, 376, 393, 400

Əbdülxaliq Cənnəti: bax. Qafarzadə, Əbdülxaliq Cənnəti.

Əbdülxaliq Yusif: bax. Yaqubzadə, Əbdülxaliq Yusif.

Əbdülsəlimzadə, Məhəmməd Hadi: bax. Hadi, Məhəmməd.

Əbdürrəhim Qüdsi: bax. Qüdsi Vənəndi.

Əbdürrəhimov, Məhəmməd: bax. Məhəmməd, Əbdürrəhim oğlu (Hacı Əbdürrəhim oğlu)

Əbdürrəhman xan (1844-1901): Əfqanıstan əmiri. 1880-1901-ci illərdə hakimiyyətdə olmuşdur. 231

Əbdürrəşid: bax. Bakuvi, Əbdürrəşid

Əbusəttar (Məşhədi Əbusəttar): Qaraçaylı kəndinin (Şabran) sakini. 418, 480

Əbülfəz Əbdülkərim oğlu: Əmircan kəndinin sakini. 333





Əbülhəsən: bax. Anaplinski.

Əbülqasım Mehdiqulu oğlu: Quba qəzası Carxı icmasının mollası olmuşdur. 418, 480

Əbülüla Gəncəvi: XI əsrdə yaşamış Azərbaycan şairi. Fars dilində yazmışdır. 11

Ədhəm Feyzi: bax. Feyzi, Ədhəm.

Ədib bəy (Qaimməqam Ədib bəy): Osmanlı hərbi xadimi; Paris Sülh Konfransına göndərilən Osmanlı heyətinin tərkibində hərbi nümayəndə olmuşdur. 508

Əfəndiyev, Abdullah bəy: bax. Əfəndizadə, Abdulla bəy.

Əfəndiyev, Əbdürrəhman: Ağdaş sakini 198

Əfəndiyev, Həmdulla əfəndi: bax. Əfəndizadə, Həmdulla əfəndi.

Əfəndizadə: Məşixət (Şeyxülislamlıq) İdarəsinin katibi olmuşdur. 480

Əfəndizadə, Abdulla bəy İsmayıl əfəndi oğlu (yaxud Əfəndiyev; 1875-1928): Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra şəhərlərində müəllimlik etmiş, Şəkidə müəllim kursları və məktəblər açdırmışdır. Şəki Şəhər Bankının və Şəki Şəhər Dumasının sədri olmuşdur. Şəkidən Azərbaycan Parlamentinə üzv seçilmişdir. 192, 343

Əfəndizadə, Əbdülbaqi: Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin üzvü. 74

Əfəndizadə, Hacı Hüseyn (yaxud Əfəndiyev; 1887-1920): Göyçay qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir. 191, 346, 387

Əfəndizadə, Həmdulla əfəndi (1870-1929): Azərbaycanın siyasi xadimi. Qubada anadan olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü idi. Sovet rejimi tərəfindən güllələnmişdir. 151

Əfəndizadə, Mövlud: Quba qəzasının Ərşəli kəndinin sakini. 151

Əfəndizadə, Muxtar (1880-1975): Azərbaycanın elm xadimi, şərqşünas. Maarif sahəsində böyük xidmətləri olmuşdur. Ərəş qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 38, 98, 198

Əfəndizadə, Muxtar (yaxud Əfəndiyev): Quba qəzasının Sumaqova kəndinin yüzbaşısı. 151

Əfəndizadə, Mustafa: Qafqazın müftüsü. 58, 92, 480

Əfəndizadə, Şəfiqə (1882-1959): Azərbaycan pedaqoqu və publisisti. 528, 560

Əfəndizadə, Şəmsəddin: Quba qəzası sakini; Parlamentin üzvü Həmdulla Əfəndizadənin qardaşı. 151

Əfəndizadə, Zəbihşah: Quba qəzasının sakini; Parlamentin üzvü Həmdulla Əfəndizadənin oğlu. 151

Əfqani, Cəmaləddin (1838-1897): müsəlman reformist. 301

Əflatun Ağabaxış oğlu (Məşhədi Əflatun): Bakı sakini. 556

Əfzələddin Xaqani: bax. Xaqani Şirvani.

Əhməd Cavad (Axundzadə, 1892-1937): Azərbaycanlı şair və ictimai xadim. Azərbaycan Respublikasının Dövlət Himninin sözləri Əhməd Cavada məxsusdur. 12, 27, 192, 193, 223, 226, 231, 274, 318

Əhməd çavuş: Qafqaz İslam Ordusunda xidmət etmişdir; İvanovkada müfrəzə komandiri olmuşdur. 191

Əhməd Məhəmməd oğlu: Quba qəzasının Bəbəli kəndinin sakini. 151

Əhməd Nəsimi bəy (1876-1958): Türkiyənin dövlət xadimi. Ticarət naziri (noyabr 1914 – fevral 1917), Xarici İşlər naziri (fevral 1917 – oktyabr 1918) vəzifələrini tutmuşdur. 487

Əhməd Səməd oğlu (Kərbəlayi Əhməd): Əmirhacıyan kəndindəki hərbi komitənin sədri olmuşdur. 360

Əhməd Tofiq paşa (Okday; 1845-1936): Osmanlı dövlət xadimi. 1909-cu ildə, 1918-1919-cu illərdə və 1920-1922-ci illərdə Baş nazir olmuşdur. Eyni zamanda Osmanlı dövlətinin axırıncı Baş naziri idi. Soyadı qanunu çıxdıqdan sonra "Okday" soyadını qəbul etmişdir. 231

Əhmədbəyov, Zivər bəy (1875-1925): Azərbaycanlı memar. Azərbaycan Cümhuriyyəti dövründə Bakı şəhərinin baş memarı təyin edilmiş və bu vəzifədə 1922-ci ilə qədər işləmişdir. 54
Əhmədxan: bax. Mirzə Əhmədxan
Əhmədov: Bakı Bələdiyyə İdarəsinin üzvü. 13
Əhmədov, A.: Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyəti şurasının üzvü olmuşdur. 75
Əhmədov, Ayn. E.: 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Əhmədov, Əhəd (Mirzə Əhəd): Çaxırlı kəndinin (Masallı) sakini. 579
Əhmədov, Əsədulla Əhməd oğlu (1867-1941): Azərbaycanın ictimai-siyasi xadimi, xeyriyyəçi. Nəşri-Maarif Cəmiyyətinin təsisçilərindən biri idi. Bakı Bələdiyyə Məclisinin, Azərbaycan Cümhuriyyəti Parlamentinin və Müsavat partiyasının üzvü olmuşdur. 563
Əhmədov, Yusif (yaxud Yusifəli Əhmədov; ? - 1938): Ticarət və Sənaye İttifaqının sədri olmuşdur. Azərbaycan Parlamentinin üzvü idi. 567
Əhmədzadə, Nəbi 363
Əkbər ağa Sadiq: bax. Sadıqov, Əkbər ağa Hacı Xəlil oğlu.
Əkbərov, Ağaəli: Bakıda Naberejni küçəsində (indiki Neftçilər prospektində) zərgər dükanı olmuşdur. 557
Əl-Əfqani: bax. Əfqani, Cəmaləddin.
Əl-Kövkəbi: bax. Kövkəbi.
Ələkbər İbrahim oğlu: Bakı sakini. 531
Ələkbərov, Ələsgər: bax. Ələkbərzadə, Ələsgər.
Ələkbərzadə, Cabbar (Mirzə Cabbar) 48, 49
Ələkbərzadə, Ələsgər: tələbə, "Müsavat" partiyasının üzvü. 388, 503
Ələsgərov, Məşhədi Şirin 123
Əli Hacı: Dağlılar Respublikasının ictimai-siyasi xadimi. 431
Əli Həmzəli oğlu: Əmircan kəndinin sakini. 333
Əli Həsən oğlu 362
Əli Həsən oğlu (Hacı Əli): Eynibulaq (Siyəzən) sakini. 127
Əli Qəmbərəli oğlu (Hacı Əli): Maştağa sakini. 360, 361
Əli Nəzmi: bax. Məhəmmədzadə, Əli Nəzmi.
Əliabbas Qafar oğlu: Bakı sakini. 229
Əliabbas Muradxan oğlu (Hacı Muradxan oğlu): Qubanın Tülər kəndinin sakini. 389
Əliabbaszadə, Məhəmmədcəfər: Əncüməni-İraniyyan tərəfindən Bakıda Hamballar İttifaqına seçilmişdir. 287
Əliağa Ağabala oğlu: Eynibulaq (Siyəzən) sakini. 127
Əlibala (Məşhədi Əlibala): Xıllı (Neftçala) qəsəbəsi sakini. 123
Əlihəsən Məhəmmədtağı oğlu: Əlixanlı icmasının (Siyəzən) mollası olmuşdur. 127
Əlihüseyn Əbdüləli oğlu: Bülbülə kəndinin sakini. 146
Əlihüseyn Xəlil oğlu: Salyan sakini. 172
Əlixanov, Ağalar bəy: Bakıdakı Zəngəzurlular Komitəsinin üzvü olmuşdur. 499
Əliisgəndərov, Səməd bəy: bax. Əliisgəndərzadə, Səməd bəy.
Əliisgəndərzadə, Səməd bəy: mühəndis; "Müsavat" üzvü. 415, 474, 577
Əlikərimov, Nasir: "Müsavat" üzvü 333
Əliməhəmməd Məhəmməd oğlu (Hacı Məhəmməd oğlu): Şamaxı qəzasının Qulular kəndinin sakini. 149
Əliməhəmmədzadə, Məhəmmədəli: Xanqışlaq kəndinin (Salyan qəzası) sakini. 504
Əlişükür Vəlixan oğlu: Əmirhacıyan sakini. 363
Əliyev, Allahverdi: Bakı quberniyası sakini. 389
Əliyev, Bəhman 156
Əliyev, Erisxan Sultan Girey (1855-1920): Rusiyanın hərbi xadimi; general. Çeçenistanın ali hakimi olmuşdur. 273, 485





Əliyev, Əlihüseyn: Bakı sakini. 559, 560
Əliyev, Əliməhəmməd (Göyçay) 49
Əliyev, Hüseyn: İrəvan quberniyası sakini. 447
Əliyev, Mirzə Vəli: Bakı sakini. 99, 127
Əliyev, Yusifəli: Ticarət və Sənaye nazirinin müavini olmuşdur. 42, 157, 183, 523
Əliyullah Allahrza oğlu: Suraxanı sakini. 363
Əlizadə, Əliağa: Azərbaycan Hökumət mətbəəsinin artelçisi olmuşdur. 177
Əlizadə, Həsən İxfa (1893-1972): Azərbaycan müəllimi; şair və dramaturqu. 528
Əlizadə, Qəzənfər: Bakıda Dəlləklər İttifaqı idarə heyətinin üzvü olmuşdur. 286, 287
Əlizadə, Məhəmməd bəy: Azərbaycanın hərbi xadimi; polkovnik. 1919-cu ildə Azərbaycanın Gürcüstandakı hərbi attaşesi təyin edilmişdi. 273
Əlizadə, Möhsün (Mirzə Möhsün): Heyəti-Şurəviyyə tərəfindən Bakıda Hamballar İttifaqına seçilmişdir. 287
Əlizadə, Muxtar (Məşhədi Muxtar): Bakıda Dəlləklər İttifaqı idarə heyətinin üzvü olmuşdur. 286
Əmin bəy: Paris Sülh Konfransına göndərilən Osmanlı nümayəndə heyətinin baş katibi olmuşdur. 508
Əminov, Ağa Məşhədi Kərim oğlu (yaxud Əminzadə; 1888-1921): "Müsavat" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 1919-cu ildə Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 181
Əminov, Sadıq: Dərbənd sakini. 363
Əmir (Məşhədi Əmir): Kürdəmirin Sağırlı kəndinin sakini. 362
Əmir Əkrəm (İran) 68
Əmiraslan Məhəmməd oğlu (Məşhədi Əmiraslan): Gəncə sakini. 363
Əmiraslanov, Cəlal: Bakı sakini. 504, 555
Əmiraslanov, Əşrəf (Kərbəlayi Əşrəf) 49
Əmiraslanov, Nəcəf: Bakı sakini. 473, 474, 503, 504
Əmircanov, Əbdüləli bəy (1870-1948): Azərbaycanın ictimai-siyasi xadimi. Tiflisdə Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra yerlə-rində müəllim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə naziri, Dövlət Nəzarəti naziri vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra Türkiyəyə mühacirətə getmişdir. 564
Əmircanov, Lütfəli bəy: Balaxanı-Sabunçu dairəsinin, sonra Bakının polis müdiri (komendantı) olmuşdur. 48
Əmircanzadə, Musa bəy: Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 189
Əmirxan Əhməd oğlu: Bakı sakini. 498
Əmirov, Əsəd bəy Abdulla bəy oğlu (1887 - ?): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Bakı Bələdiyyəsinin, Azərbaycan Parlamentinin üzvü olmuşdur. 563
Əncibadov: 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Ərcümənd Əkrəm: bax. Talu, Ərcümənd Əkrəm
Əsad paşa: bax. Toptani, Əsad paşa
Əsəd ağa: Ağstafa sakini. 161
Əsəd Qurban oğlu (Kərbəlayi Əsəd Dərviş Qurban oğlu): Bakı sakini. 529
Əsədov, Murtuza 123
Əsədullayev 416
Əsədullayev, İbrahim 156
Əsədullazadə, Məhəmmədəli (yaxud Məhəmmədəli Tabaqçı) 170, 359
Əsgərəli Cavad oğlu: Sabunçu sakini 536
Əzimzadə, Zülfüqar: Bakı Poçt və Teleqraf idarəsində işləmişdir. 445
Fateh Sultan Məhməd: bax. Məhməd II.
Faynşteyn: Muğandakı Könüllü ordu zabitlərindən. 577
Faysal I (1885-1933): Hicaz kralı Şərif Hüseynin oğlu idi. 1920-ci ildə Suriya kralı,

1921-1933-cü illərdə İraq kralı olmuşdur. 217, 298
Fazil Cəbrayıl oğlu (Molla Fazil): Göyçayın Qaraman kəndinin sakini. 361
Fazil Məhəmməd 361
Feyzi, Ədhəm: Krım Milli Şurasının üzvü olmuşdur. Türkiyəyə mühacirətə getmiş, "Gözaydın" soyadını qəbul etmişdir. 71, 72, 193, 223, 251, 309
Feyzulla Allahqulu oğlu: Xaçmazın Səlimoba kəndinin sakini. 578
Fəxrəddin paşa: bax. Türkkan, Ömər Fəxrəddin.
Fəxri paşa: bax. Türkkan, Ömər Fəxrəddin.
Fəxri, Hacı Mirzə Ağası: bax. Ağası, Hacı Mirzə.
Fələki Şirvani: XII əsrdə yaşamış Azərbaycan şairi. Fars dilində yazmışdır. 11, 12
Fərəczadə, Zülfüqar: Bakıdakı Zəngəzurlular Komitəsinin üzvü olmuşdur. 499
Fətəliyev, Abdulla: Bakı sakini. 364
Fəttah Durmuş oğlu (Məşhədi Fəttah): Bakı sakini. 257
Fətulla (Kərbəlayi Fətulla): Xıllı (Neftçala) qəsəbəsi sakini. 123
Firdovsi (935-1020): Fars şairi, fars ədəbiyyatının ən böyük nümayəndələrindən biri. 104, 116, 314, 380
Foş, Ferdinand [Ferdinand Foch, 1851-1929]: Fransanın hərbi xadimi, marşal. 85, 185, 427
Fren, Xristian [Christian Frähn; 1782-1851]: alman və rus şərqşünası. Kazan Universitetinin professoru, Sankt-Peterburq Elmlər Akademiyasının akademiki olmuşdur. 11
Fridrix Vilhelm [Friedrich Wilhelm; 1882-1951]: Almaniya və Prussiyanın vəliəhd şahzadəsi; Almaniya imperatoru II Vilhelmin oğlu. Birinci Dünya müharibəsində əvvəlcə Beşinci ordunun komandiri, sonra Kronprins Vilhelm Orduları Qrupunun baş komandanı olmuşdur. 185, 244, 259, 271, 294, 317, 484, 496, 505, 533
Gegeçkori, Yevgeni Petroviç (1881-1954): Gürcüstanın dövlət xadimi. Menşevik. Hüquq təhsili almışdır. Zaqafqaziya Komissarlığının sədri seçilmişdir. Gürcüstan müstəqilliyini elan etdikdən sonra Xarici İşlər naziri, 1921-ci ildə isə Ədliyyə naziri oldu. Gürcüstanın sovetləşməsinin ardından mühacirət etmişdir. 308, 572, 580
Genninq: bax. Hennin, Georq Vilhelm de
Georgi (Polkovnik Georgi): Ukraynadakı bolşevik komandirlərindən. 5
Gibbons, Herbert Adams [Herbert Adams Gibbons; 1880-1934]: Amerikalı jurnalist. 300
Gidevanov: polkovnik; Gürcüstan Hökumətinin Batumidəki nümayəndəsi olmuşdur. 308
Girs, Mixail Nikolayeviç (1856-1932): Rus diplomat. Rusiyanın Braziliyada (1895-1898), Çində (1898-1901), Rumıniyada (1902-1912), Türkiyədə (1912-1914) və İtaliyada (1915-1917) səfiri olmuşdur. 133
Gizer, Hikmət (1881-1966): Türk həkimi. 247
Gövhər xanım (mama): bax. Qazızadə, Gövhər xanım.
Gözəlzadə, Zeynalabdin: Azərbaycan Parlamenti İdarəsində məktub xidmətçisi, Torpaq və Fəhlə komissiyasının kargüzarı işləmişdir. 560
Gülhüseyn Allahyar oğlu: Quba qəzasının Ərşəli kəndinin sakini. 151
Gülməhəmməd Əhməd oğlu (Molla Gülməhəmməd Hacı Əhməd oğlu): Göyçaydan "Azərbaycan" qəzetinə məktub yazmışdır. 98
Gülməhəmməd Soltan oğlu: Bülbülə kəndinin sakini. 146
Hacı Xan: İran təbəəsi. 173, 174
Hacı Mirzə Ağası: bax. Ağası, Hacı Mirzə.
Hacı Murad: Dağıstanlı polkovnik. 298
Hacıabbasquluzadə, Həmid: Ağdaş tacirlərindən. 74





Hacıbaba Rza oğlu: Bakıda neft mədənlərində işləmişdir. 417
Hacıbəyli, Ceyhun bəy (yaxud C. Dağıstani; 1891-1962): Azərbaycanlı filoloq, tarixçi, jurnalist və ictimai xadim. Peterburq və Sorbonna universitetlərində təhsil almışdır. "Azərbaycan" qəzetinin redaktorlarından olmuşdur. Qəzetdəki yazılarını "C. Dağıstani" imzası ilə nəşr etdirmişdir. Üzeyir Hacıbəylinin kiçik qardaşıdır. 249, 547
Hacıbəyli, Üzeyir (1885-1948): Azərbaycanlı bəstəkar, musiqişünas, publisist, pedaqoq və ictimai xadim. Azərbaycanın müasir peşəkar musiqi sənətinin və milli operanın banisi. Dövrünün bir sıra qəzet və jurnallarında, o cümlədən "Azərbaycan" qəzetində məqalə, felyeton, hekayə və miniatürlərlə çıxış etmişdir. "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. Sovet dövründə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan SSR-in və Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. 24, 25, 32, 52, 75, 76, 98, 100, 127, 137, 153, 157, 159, 174, 202, 230, 238, 258, 263, 287, 316, 337, 364, 392, 419, 425, 448, 454, 476, 482, 504, 532, 557
Hacıbəyli, Zülfüqar (1884-1950): Azərbaycanlı bəstəkar. Üzeyir Hacıbəylinin böyük qardaşıdır. 25, 52, 56, 98, 157, 177, 291, 319, 583
Hacıməhəmmədzadə, Məhəmməd Nuxulu: Ağdaşdan "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 500
Hacıməhəmmədzadə, Məhəmmədşafi: Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin üzvü. 74
Hacınski, Camo bəy (1888-1942): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuş, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 1938-ci ildə sürgün edilmiş, həbs düşərgəsində ölmüşdür. 42, 263
Hacınski, Əbdülislam bəy: Bakı sakini. 146
Hacınski, Mehdi bəy: Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyində idarə müdürü olmuşdur. 208, 292, 341
Hacınski, Məhəmmədhəsən (1875-1931): Azərbaycanın dövlət xadimi. Peterburq Texnologiya İnstitutunu bitirmişdir. Cümhuriyyətdən əvvəl Bakının abadlaşdırılmasında xidmətləri olmuşdur. Zaqafqaziya Seyminin üzvü idi. Zaqafqaziya Demokratik Federativ Respublikasında Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. Azərbaycan Milli Şurasının üzvü idi. Azərbaycan Cümhuriyyəti Hökumətində Xarici İşlər naziri, Dövlət Nəzarəti naziri, Maliyyə naziri, Daxili İşlər naziri, Ticarət, Sənaye və Ərzaq naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra repressiyaya məruz qalmışdır. 547
Hacıyev, Əhmədəli 155
Hacıyev, Əsəd 155
Hacıyev, Əsəd bəy (yaxud Əsəd Oktay; 1885-1972): doktor, siyasətçi. Cənub-Qərbi Qafqaz Cümhuriyyəti Parlamentinin sədri, Türkiyə Parlamentinin deputatı olmuşdur. 407
Hacıyev, Həsən 155
Hacıyev, İsmayıl 123
Hacıyev, M.: Bakıda, Çelyayev (indiki Mirvarid Dilbazi) küçəsində yerləşən Aleksandro-Nevski pasajında (keçmiş Pasaj bazarı) dükanı olmuşdur. 1, 29, 57
Hacıyev, Məhəmməd bəy: Azərbaycan Cümhuriyyətinin Maliyyə nazirliyində işləmişdir. 205, 206
Hacıyev, N.: Bakıda, Çelyayev (indiki Mirvarid Dilbazi) küçəsində yerləşən Aleksandro-Nevski pasajında (keçmiş Pasaj bazarı) dükanı olmuşdur. 1, 26, 29, 57
Hacızadə, İsmayıl Haqqı 156

Hacızadə, Yahya: Batumdan "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 503
Hadi, Məhəmməd (Əbdülsəlimzadə; 1879-1920): Azərbaycanlı şair və jurnalist. 12, 43, 65, 118, 190, 414, 439, 522
Hadizadə, Əbdürrəhim: Bakı qazısı olmuşdur. 333
Haqverdiyev, Əbdürrəhim bəy (1870-1933): Azərbaycanın yazıçısı və dramaturqu, ədəbiyyatşünası və teatr xadimi. Azərbaycan Cümhuriyyətinin Dağıstandakı siyasi nümayəndəsi olmuşdur. 41
Haman Feyzulla oğlu: Bülbülə kəndinin sakini. 146
Hamburq, S. M.: Bakıda fəaliyyət göstərmiş diş həkimi olmuşdur. 24, 99, 153 202, 258, 316, 364, 419, 447, 476
Haşım Məhəmməd oğlu: Bülbülə kəndinin sakini. 145
Haşımbəyov, Əliyar bəy (1856-1920): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-mayor rütbəsinə yüksəlmişdi. Cümhuriyyət dövründə Zaqatala valisi (qubernatoru) olmuşdur. 357
Hauz, Edvard [Edward House, 1858-1938]: Amerika siyasi xadimi və diplomatı. Hərbçi olmasa da "polkovnik Hauz" kimi tanınmışdır. Amerika prezidenti Vilson, Hauzun təsiri altında qalmışdır. 214, 294
Hennin, Georq Vilhelm de [Georg Wilhelm de; 1676-1750]: alman əsilli mühəndis. 421
Hennin, Vilim İvanoviç de: bax. Hennin, Georq Vilhelm de
Herostrat: Qədim Yunanıstanın Efes şəhərinin sakini; bu şəhərdəki Artemida məbədini yandırmışdır. 433
Heybət: Quba qəzasında Dəvəçi pristavının kazakı. 151
Heybət Xanməhəmməd oğlu: Xanqışlaq kəndinin (Salyan qəzası) sakini. 504
Heybətqulu Məhəmməd oğlu (Hacı Heybətqulu): Əmirhacıyan kəndindəki hərbi komitənin sədri olmuşdur. 360
Heydərov, Səməd (Hacı Səməd) 447
Həbibulla xan (1872-1919): Əfqanıstan əmiri. 1 oktyabr 1901 – 20 fevral 1919-cu il tarixlərində hakimiyyətdə olmuşdur. Suiqəsd nəticəsində öldürülmüşdür. 218, 231
Həmid: Göyçay qəzası polis idarəsi rəisinin müavini olmuşdur. 386
Həmid əfəndi: Ağdaşda tacir olmuşdur. 197
Həmidə xanım Cavanşir: bax. Məmmədquluzadə, Həmidə xanım.
Həmzə əfəndi: 1919-cu ildə İzmirdə yunanlılar tərəfindən şəhid edilən türk polis nəfəri. 214
Həmzəzadə, Mirxəlil (Hacı Mirxəlil): Gəncə sakini. 115
Həmzəzadə, Mirqasım (Hacı Mirqasım): Gəncə sakini. 115
Həmzəzadə, Mirnağı (Hacı Mirnağı): Gəncə sakini. 115
Həsən Balaməhəmmədəli oğlu: Bakı sakini. 257
Həsən bəy: Bakı sakini. 25, 56
Həsən bəy: Türkiyənin Tiflisdəki konsulu olmuşdur. 125
Həsən Hüseyn oğlu: Göyçayın Qaraxıdır kəndinin sakini. 361
Həsən İxfa: bax. Əlizadə, Həsən İxfa
Həsənbala Baxşəli oğlu (Məşhədi Həsənbala): Bakı sakini. 556
Həsənov, Ayn. Y.: 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Həsənov, Əliağa (1871-1933): Azərbaycanın ictimai-siyasi xadimi; Cümhuriyyət dövründə Maliyyə naziri, Dövlət Müfəttişi, Azərbaycan Parlamentinin üzvü olmuşdur. "Nəşri-maarif" cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmiş, Bakı Şəhər Dumasının üzvü olduğu dövrdə Şollar su kəmərinin çəkilişi və şəhərdəki digər quruculuq-abadlıq işlərində xüsusilə böyük xidməti olmuşdur. 2, 57, 80, 103, 233, 234, 236, 261, 263, 563





Həsənov, Hacı Müseyib: tacir. 189
Həsənzadə, Əliağa: bax. Həsənov, Əliağa.
Həsənzadə, Seyid Hüseyn (Seyid Həsənzadə): Maştağa kəndinin axundu olmuşdur. 46
Həşmət: İranda Cəngəlilər hərəkatının üzvü; həkim. Hərəkatın lideri Mirzə Kiçik xanın həkimi olmuşdur. 57
Həvva Seyidməhəmməd qızı: Qubanın Tülər kəndinin sakini. 389
Hidayət Qərib oğlu: Eynibulaq (Siyəzən) sakini. 127
Höccətülislam, Hacı Mirzə Həsən ağa 68
Huysman, Jan-Jozef Kamil [Jean Joseph Camille Huysmans; 1871-1968]: Avropa sosialist hərəkatının xadimi. Belçika Fəhlə Partiyasının və Belçika Sosialist Partiyasının rəhbərlərindən olmuşdur. 1905-1922-cı illərdə Beynəlxalq Sosialist Bürosunun katibi idi. 1946-1947-ci illərdə Belçikanın Baş naziri vəzifəsini tutmuşdur. 456
Hülakü xan (1217-1265): Elxanilər dövlətinin qurucusu. Çingiz xanın nəvəsi idi. 8
Hümmət Quluş oğlu (Məşhədi Quluş oğlu): Çadırlı kəndinin (Salyan) sakini. 389
Hüseyn: İmam, Məhəmməd Peyğəmbərin nəvəsi, həzrəti-Əlinin oğlu. 96
Hüseyn Cahid (Yalçın; 1875-1957): Türk yazıçısı, publisisti və siyasətçisi. Bir müddət Türkiyənin məşhur ədəbiyyat və incəsənət jurnalı olan "Sərvəti-fünun"un redaktoru olmuş, daha sonra "Tənin" qəzetini qurmuşdur. Birinci Dünya müharibəsindən sonra ingilislər tərəfindən Malta adasına sürgün edilmişdir. Türkiyə Böyük Millət Məclisinin deputatı olmuşdur. Soyadı qanunu çıxdıqdan sonra "Yalçın" soyadunı qəbul etmişdir. 348
Hüseyn əfəndi (Molla Hüseyn əfəndi): Salyan ruhanilərindən, axund və rövzəxan. 96
Hüseyn Qulu oğlu: Dağıstan sakini. 172
Hüseyn Mustafa oğlu (Kərbəlayi Mustafa oğlu): Şamaxı qəzasının Qulular kəndinin sakini. 149
Hüseynquluzadə, İmaməli: Bakıda Dəlləklər İttifaqı idarə heyətinin üzvü olmuşdur. 286
Hüseynov, Əliəsgər 156
Hüseynov, Firidun (Məşhədi Firidun): Yevlax sakini; Yevlaxda komisyon kantoru olmuşdur. 337
Hüseynov, İsmayıl: Yevlax sakini; Yevlaxda komisyon kantoru olmuşdur. 337
Hüseynov, Məşhədi Məhəmmədəli 123
Hüseynov, Rəhim: Əmək Nazirliyində işləmişdir. 187, 220, 329, 355
Hüseynov, Saleh: Şuşa Milli Müdafiə Cəmiyyətinin müsahibi olmuşdur. 122
Hüseynzadə, Ələkbər (1887-1967): teatr və kino aktyoru. Azərbaycan SSR Əməkdar artisti idi. 538
Hüseynzadə, Əli bəy (1864-1940): Azərbaycanın və Türkiyənin görkəmli ictimai xadimi, eyni zamanda həkim, publisist və pedaqoq. 12
Hüseynzadə, Əliəkbər Bağır oğlu (Mirzə Əliəkbər): tələbə; Şəmkir hadisəsində yaralanmışdır. 437
Hüseynzadə, Mətləb: Maştağa sakini. 335, 415.
Hüseynzadə, Şeyxəli (yaxud Hüseynov; 1889 - ?): Azərbaycanın ictimai xadimi. 1919-cu ildə Fabrik müfəttişi təyin edilmişdir. 573
Hyuz, Devid Edvard [David Edward Hughes; 1831-1900]: ingilis və amerikan fizik və ixtiraçısı. 317
Xaçatur: Saqiyan kəndinin (Şamaxı rayonu) sakini. 361
Xaçaturyan: Amerika leytenantı. 229
Xaqani Şirvani (Əfzələddin Xaqani): XII əsrdə yaşamış Azərbaycan şairi. Fars dilində yazmışdır. 11, 12, 104
Xalxali, Məhəmməd Bağır (1829-1901): Azərbaycan şairi. 104, 128
Xalidə Ədib (Soyadı qanunundan sonra "Adıvar" soyadını qəbul etmişdir; 1884-

1964): Türk yazıçısı və siyasi xadimi. Türk Qurtuluş Savaşında iştirak etmiş, Türkiyə Böyük Millət Məclisinin üzvü olmuşdur. 300

Xankişi bəy: Göyçayda polis təşkilatının rəisi olmuşdur. 386

Xanlar Əbdülxaliq oğlu (Hacı Əbdülxaliq oğlu): Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502

Xanməhəmmədov: mühəndis; Dağlılar Respublikası Parlamenti Rəyasət Divanı sədrinin müavini. 41, 272

Xasməmmədov, Ələkbər bəy (1870-1925): Azərbaycanın ictimai-siyasi xadimi. "Difai" partiyasının, Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin, Gəncə Milli Komitəsinin üzvü olmuşdur. Fövqəladə Təhqiqat Komissiyasının sədri təyin edilmişdir. Azərbaycan Məhkəmə Palatasının sədri vəzifəsini tutmuşdur. 2

Xasməmmədov, Ələsgər bəy: Gəncə Şəhər Bələdiyyə İdarəsinin rəisi olmuşdur. 192

Xasməmmədov, Xəlil bəy (yaxud Xasməhəmmədov; 1873-1947): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya Dövlət Dumasının, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Ədliyyə naziri, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Azərbaycanın Türkiyədə səfiri təyin edilmiş, Cümhuriyyətin süqutundan sonra Azərbaycana qayıtmamışdır. Siyasi fəaliyyətini mühacirətdə də davam etdirmişdir. 83, 163, 528, 572

Xatisov, Aleksandr İvanoviç (1874-1945): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Müxtəlif dövrlərdə Ermənistanın Baş Naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olmuşdur. Ermənistanın sovetləşməsindən sonra Fransa və Portuqaliyada mühacirətdə yaşamışdır. 51

Xatisyan: bax. Xatisov, Aleksandr İvanoviç.

Xeyrənsə Qasım qızı: Bakı sakini. 146

Xəlil: Xıllı (Neftçala) qəsəbəsi sakini. 123

Xəlil İbrahim: bax. İbrahimov, Xəlil.

Xəlil İsmayıl oğlu (Məşhədi Xəlil): Bakıda neft mədənlərində fəhlə işləmişdir. 417

Xəlilzadə, Əbdülhüseyn (Məşhədi Əbdülhüseyn): Bakıda Hamballar İttifaqına seçilmişdir. 172

Xəttatov, Seyidcəlil Üsein oğlu (1873 - ?): Krım tatarlarının ictimai-siyasi xadimi, pedaqoq. Krım Xalq Respublikasının Maliyyə naziri olmuşdur. 1928-ci ildə Sovet rejimi tərəfindən həbs edilmişdir. 1936-cı ildə həbsdən azad edilmiş, 1937-ci ildə yenə həbs edilmişdir. Sonrakı taleyi məlum deyil. 70

Xəyyam: bax. Ömər Xəyyam.

Ximşiyev, Camal bəy 581

Ximşiyev, Rəhman bəy 581

Xocayev, İsak Nikitiç: Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur; Erməni fraksiyasına daxil idi. 210, 211.

Xoyski, Fətəli xan (1875-1920): Azər-baycan Cümhuriyyətinin qurucu-larından biri, görkəmli dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının sədri (1917-1918), Zaqafqaziya Seyminin üzvü və Zaqafqaziya Federativ Respublikasının Xalq Maarifi naziri (1918) olmuşdur. Azərbaycan Cümhuriyyətinin ilk hökumətinin sədri seçilmiş, Cümhuriyyət dövründə bir neçə dəfə Baş Nazir, eləcə də Daxili İşlər naziri, Ədliyyə naziri, Xarici İşlər naziri vəzifələrini icra etmişdir. Bolşevik işğalından sonra Tiflisə mühacirət etmiş və orada erməni daşnakları tərəfindən şəhid edilmişdir. 57, 80, 92, 103, 144, 147, 206, 291, 299, 446, 519, 520, 528, 572

Xubyar Xudayar oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151

Xurşidbanu Natəvan (1832-1897): Azərbaycan şairəsi. Sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı olmuşdur. 12





İbadov, Rüstəm: Bakı Poçt və Teleqraf idarəsində işləmişdir. 445

İbn Sina (980-1037): Orta əsrlər dövrünün böyük həkim və filosofu. 314

İbnüssuud (Əbdüləziz ibn Suud; 1880-1953): Müasir Səudiyyə Ərəbistanının banisi. 298

İbrahim (peyğəmbər) 139

İbrahim Tahir: bax. Musayev, İbrahim Tahir.

İbrahimli, Yusif (Məşhədi Yusif): Azərbaycan Dəmiryolu İdarəsində işləmişdir; "Müsavat" üzvü olmuşdur. 574

İbrahimov, Xəlil (Xəlil İbrahim; Xəlil İbrahimzadə; 1892-1938): Azərbaycanlı müəllim, publisist və tənqidçi. Şuşada anadan olmuşdur. Bakıda müəllim işləmiş, müxtəlif qəzet və jurnallarda, o cümlədən "Azərbaycan" qəzetində yazılar dərc etdirmiş, bir müddət "Azərbaycan" qəzetinin "müvəqqəti müdiri" olmuşdur. 1938-ci ildə həbs edilərək güllələnmişdir. 19, 552

İbrahimov, Şəfi 52, 229, 257, 316

İdaşkina, M. S.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 24, 99, 153, 202, 258, 316, 364, 419, 448, 476, 532, 572

İldırım Bayəzid: bax Bayəzid I.

İlyas: Sağırlı dəmiryol stansiyasında açarçı olmuşdur. 362

İlyaşeviç: Muğanda Azərbaycan Cümhuriyyətinin ordusuna qarşı döyüşən qüvvələrin komandirlərindən biri olmuşdur. 577, 578

İmam Rza 380

İmamquluyev, İsgəndər bəy: Bakı Poçt və Teleqraf idarəsində işləmişdir. 445

İmran Surxay oğlu 172

"İrani Nejad": "Azərbaycan" qəzetində imza. 331

İrəvanski, Kərim xan Abbasqulu xan oğlu (1885-1919): Rusiyanın və Azərbaycanın hərbi xadimi. 355

İsa (peyğəmbər) 139

İsfahani, Ağa Məhəmmədcəfər: Bakıdakı İranlılardan olmuşdur. 189

İskəndərli, Ağalar: Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusan İdarəsində məktub xidmətçisi və mütərcim işləmişdir. 560

İskəndərzadə, Rüstəm: Salyan sakini; "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 96, 97, 124, 124, 173, 446, 578

İsmayıl bəy: Gəncə Müəllimlər İttifaqının üzvü olmuşdur. 226

İsmayılov, Rəşid bəy (1877-1942): Azərbaycanın ictimai-siyasi xadimi, pedaqoq və publisisti. İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. Qafqazın müxtəlif yerlərində pedaqoji və publisistik fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan və tarixi və ədəbiyyatına dair əsərlər yazmışdır. Araz Türk Cümhuriyyəti hökumətinin nümayəndəsi olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökuməti Dəftərxanasının müdiri olmuşdur. Sovet dövründə repressiyaya məruz qalmışdır. 581

İsmayılzadə, Hacı: Tağıyev fabrikində işləmişdir. 388, 414

İsrafil (Məşhədi İsrafil): Xıllı (Neftçala) qəsəbəsi sakini. 123

İzvolski, Aleksandr Petroviç (1856-1919): Rusiyanın dövlət xadimi və diplomatı. 1906-1910-cu illərdə Xarici İşlər Naziri, 1910-1917-ci illərdə Rusiyanın Parisdə səfiri olmuşdur. 352

İzzəddin Şirvani: XII əsrdə yaşamış Azərbaycan şairi və alimi. 12

Jores, Jan [Jean Jaurès; 1859-1914]: fransız sosialisti; beynəlxalq sosialist hərəkatı xadimi. 225, 352

Kaçı, Məhməd Vəhib: bax. Məhməd Vəhib paşa.

Kamal bəy: bax. Mehmed Kamal bəy

Kamil Şamil oğlu: Göyçayın Ləkçılpaq kəndinin sakini. 361

Kamil Zəkəriyyə 361, 362

Kanayan, Drastamat (Dro; 1883-1956): Erməni terrorçu və hərbi cinayətkar; Daşnaksutyun üzvü. Şərqi Anadolu və

Qafqazda dinc müsəlman-türk əhaliyə divan tutulmasında xüsusi rolu olmuşdur. 198, 274
Kandelaki, Kateva: bax. Kandelaki, Konstantin Platonoviç
Kandelaki, Konstantin Platonoviç (yaxud Kateva Kandelaki; 1883-1958): Gürcüstanın siyasi xadimi; Maliyyə və Ticarət naziri olmuşdur. Mühacirətə getmişdir. 572
Kantemir: bax. Kantemirov, Əlixan Qadoyeviç.
Kantemirov, Əlixan Qadoyeviç (1889-1963): Dağlılar Respublikasının siyasi xadimi və diplomatı. Milliyyətcə osetindir. Peterburq və Kiyev Universitetlərində təhsil almışdır. Zaqafqaziya Seyminin üzvü, Dağlılar Respublikasının Azərbaycandakı diplomatik nümayəndəsi olmuşdur. 41, 66, 67, 113, 117, 485, 514, 572
Karl I, Frans İosif [Karl I. Franz Josef; 1887-1922]: Avstriya-Macarıstan imperatoru; 21 noyabr 1916 – 12 noyabr 1918 tarixləri arasında hakimiyyətdə olmuşdur. 373, 393
Kartoçian 390
Kartsivadze, Nikolay İotamoviç (1884-1937). Gürcüstanın ictimai xadimi və diplomatı. Ali hüquq təhsili almışdır. Menşeviklərin Gürcüstandakı rəhbərlərindən biri idi. Gürcüstanın Azərbaycan Cümhuriyyətindəki siyasi nümayəndəsi təyin edilmişdi. 1937-ci ildə Sovet rejimi tərəfindən həbs edilərək güllələnmişdir. 147
Kasparov, Y.: Bakıda, Telefonnı (indiki 28 May) küçəsində dükanı olmuşdur. 29, 57
Katerina I: bax. Yekaterina I.
Katerina II: bax. Yekaterina II.
Kautski, Karl [Karl Kautsky; 1854-1938]: Almaniyanın siyasi xadimi, marksizm nəzəriyyəçisi, sosial-demokrat; eyni zamanda iqtisadçı və publisist. Atası çex, anası avstriyalı olan Kautski Vyana Universitetində təhsil almışdır. 1920-ci ildə Gürcüstanda 3 ay qalmışdır. 455
Kazakov, Vasili Vasilyeviç 120
Kazımi, Mirmahmud (yaxud Mirmahmud Kazımlı; Mirmahmud Kazımovski; 1882-1940): Azərbaycan aktyor, rejissor və dramaturqu. 173
Kazımov, Ağahüseyn (1882-1937): Bakıda fəaliyyət göstərmiş həkim. Azərbaycan SSR-in ilk Səhiyyə komissarı olmuşdur. Stalin rejimi tərəfindən güllələnmişdir. 24, 52, 75, 127, 152, 174, 201, 229, 257, 287, 316, 336, 364, 392, 419, 447, 476, 504, 532, 536, 583
Kazımov, Məbud Əfəndizadə: Şəki sakini. 47
Kazımov, Möhsün: "Müsavat" partiyası Keşlə şöbəsinin sədri olmuşdur. 119
Kazımovski, Mirmahmud: bax. Kazımi, Mirmahmud.
Kazımzadə, Abbasqulu (1882-1947): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 18, 20, 72, 286, 287, 388
Kazımzadə, Möhsün (Hacı Möhsün): Tağıyev fabrikində işləmişdir. 388, 414
Keçəçizadə İzzət Fuat paşa (1860-1925): Osmanlı dövlət xadimi və diplomatı. 508
Keçəçizadə İzzət paşa: bax. Keçəçizadə İzzət Fuat paşa
Kerenski, Aleksandr Fyodoroviç (1881-1970): Rusiya Müvəqqəti Hökumətinin (1917) başçısı. 133, 214, 381, 433, 434
Keşmir, Camal (yaxud Artin Camal; 1862-1949): Türkiynin siyasi xadimi. Osmanlı dövlətinin son dövrlərində Daxili İşlər naziri, Ticarət və Əkinçilik naziri kimi vəzifələr tutmuşdur. 212
Keyxosrov 380
Keykavus 380
Keylixis, Yakov İosifoviç (1872-1950): memar, həykəltəraş. Odessa yaxınlığında Balta şəhərində anadan olmuş, 1908-ci ildə Bakıya köçmüşdür. 471, 472
Kəbirlinski, Ağa bəy 165
Kəlbəli xan Gəncəvi: bax. Müsahib, Kəlbəli xan
Kəminə, Fatma xanım (1841-1898):





Azərbaycan şairəsi. 12
Kərim Ağa Fateh (1788-1858): Azərbaycan şairi. Şəki xanlarından Fətəli xanın oğlu idi. 12
Kərim İsmayıl oğlu (Məşhədi Kərim): Qaraçaylı kəndinin (Şabran) sakini. 418
Kərimov, Tağı Hacı Əbdülkərim oğlu (1888-1919): Azərbaycanlı həkim. Xarkov Universitetinin Tibb fakültəsini bitirmişdir. 123, 255
Kərimzadə, Mirzəağa: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyətinin sədri olmuşdur. 256
Kəsmeyi Hacı Əhməd: İranda Cəngəlilər hərəkatının başçılarından biri olmuşdur. 573
Kiçikxanov, Bayram Niyazi oğlu (yaxud Kiçikxanlı; 1889-1922): Azərbaycanın siyasi xadimi. Zaqatalada maarif müfəttişi işləmişdir. Zaqataladan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, eyni zamanda Parlamentin katibi olmuşdur. "Əhrar" partiyasının üzvü idi. 30, 60, 68, 357
Kine, Vital 461
Klatterbak: Azərbaycandakı ingilis ordusunun zabiti; polkovnik. 92
Klemanso, Jorj [Georges Clemenceau; 1841-1929]: Fransanın dövlət xadimi. 1906-1909 və 1917-1920-ci illərdə Baş Nazir olmuşdur. 212, 225, 294, 324, 317, 427, 430, 448, 558
Klenevski, Viktor Viktoroviç (1883 - ?): Milliyyətcə polyak olan Klenevski Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, 1919-cu ilin mart-dekabr aylarında Sosial Təminat naziri olmuşdur. 263, 288, 300
Kolçak, Aleksandr Vasilyeviç (1874-1920): Rusiyanın hərbi və siyasi xadimi; admiral. Ağqvardiyaçılar hərəkatının başçısı, Rusiyanın Ali rəhbəri (noyabr 1918 – fevral 1920) və Rus ordusunun Ali Baş komandanı (noyabr 1918 – yanvar 1920) olmuşdur. 6, 40, 111, 133, 350, 425, 426, 483, 517
Koni, Anatoli Fyodoroviç (1844-1927): Rus hüquqşünası. Rusiya Dövlət Şurasının üzvü olmuşdur. 241
Konovalov, Aleksandr İvanoviç (1875-1949): Rusiyanın ictimai-siyasi xadimi. Müvəqqəti Hökumət dövründə (1917) Ticarət və Sənaye naziri olmuşdur. 214
Koş, Robert fon [Robert von Kosch; 1856-1942]: Almaniyanın hərbi xadimi; general. Almaniyanın Ukraynadakı işğal ordusunun tərkibində Krımda və Sevastopolda olmuşdur. 69
Kotsev, Pşemaxo Tamaşeviç (1884-1962): Şimali Qafqazın siyasi xadimi; Dağlılar Respublikasının Baş naziri olmuşdur. 14, 66, 325, 349, 432, 513, 514
Kottin, Lui Emil [Louis Émile Cottin; 1896-1936]: fransız anarxisti; 19 fevral 1919-cu ildə Fransanın Baş naziri Klemansoya sui-qəsd etmişdir. 212
Köçərli, Firidun bəy (1863-1920): Azərbaycanın görkəmli maarif xadimi, ədəbiyyatşünası və yazıçısı. Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək müstəqil bir seminariyaya çevirmiş və bu seminariyanın direktoru olmuşdur. Azərbaycan Milli Şurasının üzvü kimi İstiqlal Bəyannaməsini imzalayanlar arasında yer alan Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinə dair əsərləri xüsusilə dəyərlidir. Bolşeviklər tərəfindən güllələnmişdir. 12, 197, 200
Kövkəbi: müsəlman reformist. 301
Krasnov, Pyotr Nikolayeviç (1869-1947): Rusiyanın hərbi xadimi, general. Don kazaklarının atamanı olmuşdur. 39
Krıjanovski, F. A.. Bakı qubernatorluğunun müfəttişi. 145
Krım Girey 113, 128, 515
Krım, Solomon Samoyloviç (1867-1936): İkinci Krım Regional Hökumətinin başçısı. 70
Kriçinski, Aslan bəy: bax. Kriçinski, Leon Konstantinoviç

Kriçinski, Leon Konstantinoviç (Leon-Nayman Mirzə Kriçinski; Kriçinski Radvan; Aslan bəy Kriçinski; 1887-1939): Krım və Azərbaycanın ictimai xadimi, tarixçi. Polşa tatarlarından olan Kriçinski Vilnüsdə anadan olmuşdur. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Simferopol dairəsinin prokuroru olmuş, Krım Xalq Respublikası Hökumətində və Krım Regional Hökumətində müxtəlif vəzifələr tutmuşdur. 1919-cu ildə Azərbaycana gəlmiş, Azərbaycan Hökuməti İşlər İdarəsi Dəftərxanasının müdiri olmuşdur. 1920-ci ildə Vilnüsə getmişdir. 1939-cu ildə Polşanı işğal edən almanlar tərəfindən həbs edilmiş və güllələnmişdir. 70

Kriçinski, Leon-Nayman: bax. Kriçinski, Leon Konstantinoviç

Kriçinski, Radvan: bax. Kriçinski, Leon Konstantinoviç

Kulikov: Mərkəzi Valideyn Şurası sədrinin müavini olmuşdur. 22

Kurat: Ağstafa deposunda fəhlə. 250

Kvinitadze, Georgi İvanoviç (1874-1970): Rusiya imperiyasının və Gürcüstanın hərbi xadimi; general-mayor. Abxaziyanın general-qubernatoru, Gürcüstan ordularının Baş komandanı olmuşdur. Mühacirətə getmişdir. 215, 581

Qacar, Hümayun Mirzə: general; şahzadə. 249

Qacar, Xosrov Mirzə: Azərbaycanın hərbi xadimi. Üçüncü Şəki süvari alayının komandanı olmuşdur. 355

Qaçaq Məhəmməd: Zuvand mahalının komissarı olmuşdur. 124

Qaçaq Yunis: Cümhuriyyət dövründə Azərbaycanın cənub bölgələrində fəaliyyət göstərmiş qaçaq. 74, 124

Qadjimukov, Sergey Nikolayeviç: Könüllü ordunun Təbliğat şöbəsinin Dağıstan nümayəndəliyinin rəhbəri olmuşdur. 349

Qafarzadə, Əbdülxaliq Cənnəti (1855-1931): Azərbaycan şairi. 12

Qafarzadə, Səftər: bax. Səftər Qafar oğlu (Molla Səftər Molla Qafar oğlu): Şamaxı mollası. 256, 333

Qafur: Bakı sakini; bənna. 257

Qalanovski: Bakı Bələdiyyə İdarəsində Kənd təsərrüfatı şöbəsinin kargüzarı olmuşdur. 286

Qalib Kamali bəy: bax. Söyləməzoğlu, Qalib Kamali

Qambaşidze, David (? - 1946): Gürcüstanın siyasi xadimi və diplomatı. 1918-ci ilin noyabrından 1921-ci ilin fevralına qədər Gürcüstanın İngiltərədə diplomatik nümayəndəsi olmuşdur. 126

Qanem, Çakri: bax. Qanem, Şükrü

Qanem, Şükrü (1861-1929): Livanlı yazıçı; Livanın müstəqilliyi uğrunda mübarizə aparmışdır. 486

Qanqa Sinx [Ganga Singh; 1880-1943]: Hindistanın şimal-qərbində mövcud olmuş Bikaner knyazlığının maharcası (1883-1943) olmuşdur. 231

Qaplanov, Rəşid xan (1883-1937): Azərbaycanın və Dağıstanın siyasi xadimi. Kumık əsillidir. Sorbon Universitetinin (Paris) Hüquq fakültəsini bitirmişdir. İstanbulda müxtəlif təhsil qurumlarında, o cümlədən İstanbul Universitetində dərs demişdir. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Dağlılar Respublikasının Daxili İşlər naziri olmuşdur. Dağıstan Denikin qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycana gəlmiş, əvvəlcə Maarif və Dini Etiqad (aprel-dekabr 1919), sonra Maliyyə (dekabr 1919 – aprel 1920) naziri olmuşdur. 1937-ci ildə güllələnmişdir. 272, 430, 485

Qara Cəfər oğlu (Məşhədi Qara Hacı Cəfər oğlu): Bakı sakini. 257

Qaraağazadə, Əhməd Həmdi (1893-1928): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 469, 554

Qarabəyli, Qara bəy (1873-1953): Azərbaycanın ictimai-siyasi xadimi, eyni zamanda həkim və jurnalist; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. "Difai" partiyasının rəhbərlərindən, "İttihad" partiyasının sədri olmuşdur. "Həyat", "İrşad", "Kaspi" kimi bir sıra nəşrlərlə əməkdaşlıq etmişdir. 18, 19, 84, 148, 196, 247, 269, 293, 320

Qaraş (Molla Qaraş): Bakıdakı Zəngəzurlular Komitəsinin üzvü olmuşdur. 499

Qaraşarov, Rza bəy (yaxud Qaraşarlı; 1891-?): Azərbaycanın siyasi xadimi. Bir sıra məktəblərdə, o cümlədə Gəncə Ruhani Mədrəsəsində müəllimlik etmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Sovet dövründə repressiyaya məruz qalmışdır. 38

Qarayev, Əliheydər (1896-1938): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonar Bakı Sovetinin sədri, Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi Dəniz İşləri xalq komissarı, Əmək xalq komissarı və Ədliyyə xalq komissarı olmuş, bir sıra digər vəzifələrdə işləmişdir. 1937-ci ildə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir. 182

Qardaşov, Aslan bəy (1866-1920): Azərbaycan Cümhuriyyətinin dövlət xadimi. "Əhrar" partiyasının liderlərindən biri, Milli Şuranın və Parlamentin üzvü, Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 32, 33, 34, 60, 84, 263, 343

Qasım Qəmbər oğlu: Gəncə sakini. 363

Qasıməli: Bakı sakini. 257

Qasımov, Əli bəy: Salyanda müəllim olmuşdur. 96

Qasımov, Kazım 49

Qasımov, Qasım: Bakı Şəhər Dumasının üzvü. 147, 148, 368

Qasımov, Qasım: Ağdaşda Qaçqınlara Yardım Komitəsinin sədri olmuşdur. 198, 580

Qasımov, Ruhulla (Məşhədi Ruhulla): Lənkəran sakini; şəhərin Kiçik Bazar məhəlləsində dükanı olmuşdur. 124

Qasımzadə, Hüseyn bəy: Azərbaycanlı zabit; Parlamentin mühafizə bölüyü komandirinin yavəri olmuşdur. 560

Qasımzadə, Feyzulla (1898-1976): Azərbaycan alimi, ədəbiyyatşünas və pedaqoq. Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. 98

Qatsbinski: Dağlılar Respublikası Şəriət İdarəsinin başçısı olmuşdur. 272

Qayıbzadə, Abbas Ağa (1849-1919): Azərbaycan şairi. Şeirlərini "Nazir" təxəllüsü ilə yazmışdır. 12

Qayıbzadə, Həmidə xanım: Qazax sakini. 200

Qayıbzadə, Mələk xanım: Qazax sakini. 200

Qazaryan: Tiflisdəki Erməni Milli Şurasının üzvü. 335

Qazıxanov, Yusif (Məşhədi Yusif): Gəncə Sənətkarlar İttifaqının sədri olmuşdur. 20

Qazızadə, Nurulla (1876-1938): Zaqatala dairəsində Milli Komitənin və Qırmızı Aypara cəmiyyətinin sədri, şəriət məhkəməsinin üzvü olmuşdur. 356

Qazızadə, Gövhər xanım 24, 56, 99, 152, 201, 258, 316, 364, 419, 447, 532

Qəbulov, İbrahim bəy: Zaqatala dairəsində şəriət məhkəməsinin üzvü olmuşdur. 356

Qəbulov, İslam bəy (1879-1920): Azərbaycanın ictimai-siyasi xadimi. Qaxda və Bakıda müəllimlik etmiş, mətbuatda məqalələrlə çıxış etmiş, dərsliklər yazmışdır. Müsavat partiyasının, Zaqafqaziya Seyminin üzvü olmuşdur. 356

Qədir Səməd oğlu (Qədir əfəndi Molla Səməd oğlu): Ağdaş ziyalılarından. 500

Qədirov, Əmiraslan: Ağdaş sakini 198

Qəmbər Abutalıb oğlu: Bakı sakini. 556

Qəmbər Atakişi oğlu (Məşhədi Qəmbər): Cavad qəzası İmranlı kəndinin yüzbaşısı olmuşdur. 531

Qənbərəlizadə, Rəhman: Bakıda yaşayan İranlılardan. 415

Qəniyev, Həmid (Məşhədi Həmid):

Şamaxı sakini. 337

Qənizadə, Sultanməcid Murtuzəli oğlu (1866-1938): Azərbaycanın ictimai-siyasi xadimi; yazıçı, pedaqoq və publisisti. Tiflis Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 61, 173, 203, 209, 345, 349, 500

Qərib Ağa oğlu (Kərbəlayi Qərib Kərbəlayi Ağa oğlu) 447

Qərra, Ağa Ələsgər: Azərbaycan şairi; Şəkidə yaşamışdır. 12

Qəzənfəroğlu: Həştərxanda Müsəlman alayının komandanı olmuşdur. Bolşeviklər tərəfindən edam edilmişdir. 297

Qəznəvi, Sultan Mahmud (971-1030): Qəznəlilər dövlətinin hökmdarı; 998-1030-cu illərdə hakimiyyətdə olmuşdur. 116, 128

Qiyasbəyli, Mədinə xanım (yaxud Qiyasbəyzadə; 1889-1937): Azərbaycanlı pedaqoq, jurnalist və tərcüməçi. Anadan olduğu Salahlı kəndində (Qazax) qız məktəbi açmışdır. Maarifçilik fəaliyyətinə Bakıda da davam etmişdir. Sovet rejimi tərəfindən güllələnmişdir. 200

Qiyasbəyzadə, Huri xanım: Qazax sakini. 201

Qiyasbəyzadə, Mədinə xanım: bax. Qiyasbəyli, Mədinə xanım.

Qiyasbəyzadə, Müqəddəsətünnisa: Qazax sakini. 201

Qiyasbəyzadə, Sultan xanım: Qazax sakini. 201

Qiyasbəyzadə, Şirin xanım: bax. Qiyasbəyli, Şirin xanım. 197, 201

Qoca Məhəmməd oğlu: (Məşhədi Qoca Kərbəlayi Məhəmməd oğlu): Qaraçaylı kəndinin (Şabran) sakini. 418

Qof, Hubert [Hubert Gough; 1870-1963]: Britaniyanın hərbi xadimi; general. Qafqazda olmuşdur. 359

Qolovin: polkovnik; müfəttiş. 360

Qozzi, Karlo [Carlo Gozzi; 1720-1806]: İtalyan yazıçısı və dramaturqu. 26

Qriqori: Bakıda, Qukasovun mədənində işləmiş erməni. 361

Qriqori: Saqiyan kəndinin (Şamaxı rayonu) sakini. 387

Qriqoryans, L. M.: Bakıda, Telefonnı (indiki 28 May) küçəsində yerləşən Səfərəliyev pasajında dükanı olmuşdur. 1, 29, 57

Quxman, Moisey Arkadyeviç: Qulaqburun-boğaz həkimi. Yəhudi Milli Şurasından Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, Parlamentdə Milli azlıqlar fraksiyasının üzvü olmuşdur. 293, 320, 470

Quliyev, Ağabala (1862-ci ildə doğulmuşdur): Azərbaycanlı sahibkar və xeyriyyəçi. Bakıda və Rusiyanın bir sıra şəhərlərində un dəyirmanlarına və düyü təmizləmə fabriklərinə sahib idi. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qurucularından idi. Cümhuriyyətin süqutundan əvvəl İrana gedən Quliyev bir daha Azərbaycana qayıtmamışdır. 187, 220, 329, 356

Quliyev, Yusif: Bakı Poçt və Teleqraf idarəsində işləmişdir. 445

Qulubəyov, Mirzəəli bəy: Qaradonlu nahiyəsində (Salyan) çavuş olmuşdur. 578

Quluzadə, Hüseynqulu (Məşhədi Hüseynqulu): “Müsavat” partiyası Keşlə şöbəsinin mühasibi olmuşdur. 119

Quluzadə, Naib 48

Qusareli: polkovnik (Gürcüstan). 557

Qüdsi Vənəndi (Mir Əbdürrəhim; 1773-1861): Azərbaycan şairi; Ordubadda yaşamışdır. 12, 26

Laqoda, Nikolay Nikolayeviç: Tiflis Məhkəmə Palatasının sədri olmuşdur. 241

Laleviç, İzmail Arkadyeviç (1881 - ?): memar; Azərbaycan Dəmiryol İdarəsində işləmişdir. 574

Lansinq, Robert [Robert Lansing; 1864-1928]: ABŞ-ın dövlət xadimi; 1915-1920-ci illərdə Dövlət katibi vəzifəsini tutmuşdur. 111, 294, 396

Laptev, Anton: XVII əsr rus taciri. 328, 329





Laurens, Tomas Edvard [Thomas Edward Lawrence; 1888-1935]: Britaniyalı arxeoloq, casus və diplomat. 217

Lazım Hacı Rəhim oğlu: Bakıda Balaxanı-Sabunçu dairəsində qaradovoy olmuşdur. 555

Lear, Marsel [Marcel Léart]: bax. Zohrab, Kirkor.

Leblon, Jan-Batist [Jean-Baptiste Le Blond; 1679-1719]: fransız memarı; 1716-cı ildən etibarən Sankt-PEterburq şəhərinin baş memarı olmuşdur. 409

Lenin, Vladimir İliç (1870-1924): Rus inqilabçı və marksist. Əsl soyadı Ulyanov idi. Rusiyada 1917-ci il Oktyabr inqilabının təşkilatçısı və rəhbəri, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) qurucusu və SSRİ Nazirlər Sovetinin ilk sədri olmuşdur. 134, 135, 397

Levandovski, Vladimir Antonoviç (1873-1946): Rusiyanın hərbi xadimi, general-mayor. Biricni Dünya müharibəsi dövründə, 1918-ci ilin iyulundan etibarən Qafqaz cəbhəsi Qərargah rəisinin səlahiyyətlərini icra etmişdir. 1921-ci ildə mühacirətə getmişdir. 325

Levitski: Çarlıq dövründə xalq məktəbləri müfəttişi olmuşdur. 90

Levi, Silven [Sylvain Lévi; 1863-1935]: yəhudi əsilli fransız şərqşünası. 400

Leyq, Jorj [Georges Leygues; 1857-1933]: Fransanın siyasi xadimi. Müxtəlif nazirliklərə rəhbərlik etmiş, o cümlədən 1917-ci ildən 1920-ci ilin yanvarına qədər Dənizçilik naziri, 1920-ci ilin sentyabrından 1921-ci ilin yanvarına qədər Baş nazir və Xarici İşlər naziri vəzifələrini tutmuşdur. 110

Ləli, Mirzə Əli (İrəvani; 1845-1907): Azərbaycan şairi və həkimi. 12, 104, 128

Lətifbəyov, Rza (Rza Zaki): Azərbaycanlı pedaqoq və yazıçı. Bakı, Gəncə, Şəki, Göyçay və Batumda müxtəlif təhsil ocaqlarında ana dili və şəriətdən dərs demişdir. Bədii yaradıcılıqla da məşğul olmuş, xüsusilə tarixi mövzularda əsərlər yazmışdır. 17, 406

Lianozov, Stepan Georgiyeviç (1872-1949): Erməni əsilli neft sənayeçisi. 1907-ci ildə “G. M. Lianozov və oğulları” adlı neft şirkətini qurmuşdu. 27

Libknext, Karl [Karl Liebknecht; 1871-1919]: Almaniya və beynəlxalq fəhlə hərəkatının fəal iştirakçısı, Almaniya Kommunist Partiyasının banilərindən biri. 202

Lin, Şarl Cozef de [Charles-Joseph de Ligne; 1735-1814]: Avstriyanın hərbi xadimi və diplomatı. 377

Lizqar, Konstantin Nikolayeviç: Slavyan-Rus Cəmiyyətinin üzvü; Azərbaycan Cümhuriyyətinin Ərzaq naziri olmuşdur. 3, 44, 157, 312

Lloyd Corc, Devid [David Lloyd George; 1863-1945]: Britaniyalı siyasətçi. 1905-1908-ci illərdə Ticarət naziri, 1908-1915-ci illərdə Maliyyə naziri, 1915-1916-cı illərdə Hərbi nazir olmuşdur. 6 dekabr 1916 – 19 oktyabr 1922 tarixləri arasında Britaniyanın Baş Naziri vəzifəsini tutmuşdur. 38, 85, 110, 132, 134, 178, 185, 225, 226, 231, 270, 271, 294, 312, 317, 324, 346, 347, 354, 372, 427, 448, 533, 543, 558

Lomtatidze, Aleksandr Spiridonoviç (1882-1924): Gürcüstanın siyasi xadimi. Zaqafqaziya Seyminin, Gürcüstan Müəssislər Məclisinin və Gürcüstan Parlamentinin üzvü olmuşdur. 60

Lopatinski: Bakıda Mərkəzi Ev Komitəsində çalışmışdır. 312

Lou, Bonar [Bonar Law; 1858-1923]: Britaniyanın siyasi xadimi. 1916-1921-ci illərdə Mühafizəkarlar Partiyasının lideri olmuş, 1922-1923-cü illərdə Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 293

Lüdendorf, Erix (Erich Ludendorf, 1865-1937): Almaniyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsinində, 1916-cı ilin avqust ayından etibarən alman ordularını faktiki olaraq Lüdendorf idarə etmişdir. 372

Lüksemburq, Roza [Rosa Luxemburg;

1871-1919]: Almaniyanın polyak əsilli filosofu, iqtisadçısı və publisisti; marksizm nəzəriyyəçisi. 202

Lütfəlibəyov, Abbasqulu bəy: Ağdaş sakini 198

Lvov, Georgi Yevgenyeviç (1861-1925): Rusiyanın siyasi xadimi. 1917-ci ilin mart-iyul aylarında Müvəqqəti Hökumətin başçısı olmuşdur. 6, 132, 133

Lyaxov, Vladimir Platonoviç (1869-1920): Rusiyanın hərbi xadimi; general-leytenant. 14, 112, 114, 215, 216, 273, 299, 349, 350, 351, 415, 514

Maçabeli, Baxşibəy: Mesxet müsəlmanlarının liderlərindən olmuşdur. 443

Mah xanım: XIX əsr Azərbaycan şairəsi; Şəkidə yaşamışdır. 12

Mahmudov, Mustafa (1878-1937): Azərbaycanın siyasi xadimi. Qori seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. Rusiya II Dövlət Dumasının, Azərbaycan Milli Şurasının və Parlamentinin üzvü olmuşdur. Sovet rejimi tərəfindən repressiyaya məruz qalmış, güllələnmişdir. 345, 365

Mahtab xanım: bax. Mahtaban xanım.

Mahtaban xanım (yaxud Mahtab xanım): XIX əsr Azərbaycan şairəsi; Şəkidə yaşamışdır. 12

Mağrubov: kapitan; Azərbaycan ordusunda xidmət etmişdir. 355

Makarov: Lənkəranda ermənilərdən ibarət hərbi dəstənin başçısı olmuşdur. 124

Makdonald: İngilis diplomatı; İngiltərənin Qafqazdakı nümayəndə heyətinin tərkibində (konsul) olmuşdur. 185

Makinski, Teymur bəy (1874-?): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Bir müddət Ədliyyə naziri vəzifəsini tutmuş, daha sonra Ermənistan Hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 556, 581

Maknamara, Tomas [Macnamara, Thomas; 1861-1931]: Britaniyanın siyasi xadimi. Milli Müəllimlər İttifaqının prezidenti, Parlamentin İcmalar Palatasının üzvü olmuşdur. 1920-1922-ci illərdə Əmək naziri vəzifəsini tutmuşdur. 167, 175

Maqilov: Muğandakı Könüllü ordu zabitlərindən. 577

Maqomayev, Müslüm (1885-1937): Azərbaycanlı bəstəkar və ictimai xadim. Milli musiqinin inkişafında müstəsna xidmətləri olmuşdur. 98

Malxazyan, Arşak İoanesoviç (yaxud Malxazov): "Daşnaksutyun" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 33, 62, 63, 81, 82, 83, 160, 321, 337

Malışev: Bakı sakini. 221, 222

Malinko: Ağstafa deposunda fəhlə. 250

Malkarov, M.: Petroqrad Konservatoriyasının sənətçisi; Bakıda skripka dərsləri vermişdir. 99, 202, 226, 229, 336

Malsaqov, Səfərbek (1868-1944): Rusiyanın hərbi xadimi; general-mayor. Milliyətcə inquş olmuşdur. 14, 15

Mamikonyan, Stepan (1859-1921): Ermənistanın ictimai-siyasi xadimi; publisist. Ermənistan Parlamentinin üzvü olmuş, Zaqafqaziya Konfransında iştirak etmişdir. 572

Mannerheym, Karl Qustav Emil [Carl Gustaf Emil Mannerheim; 1867-1951]: Rusiyanın və Finlandiyanın siyasi və hərbi xadimi. 482

Mantaşev, Aleksandr İvanoviç (1842-1911): Erməni əsilli neft sənayeçisi. 277

Marağayi, Məhəmməd Səidülvüzəra: İranın Azərbaycandakı konsulu olmuşdur. 173, 174, 415

Marks, Karl (1818-1883): Alman filosofu, iqtisadçısı və sosioloqu. 253

Maslov: Batumidəki Rus Milli Şurasının sədri olmuşdur. 185





Maşallah xan (İran) 68

Mehdiqulu Daşdəmir oğlu (Kərbəlayi Daşdəmir oğlu): Quba qəzası Carxı icmasının mollası olmuşdur. 418

Mehdiyev, Əlixas 49

Mehdiyev, Mehdiqulu 49

Mehdizadə, İsfəndiyar: tələbə; Şəmkir hadisəsində şəhid olmuşdur. 437

Mehmandarov, Kərim: doktor, Şuşa Milli Müdafiə Cəmiyyətinin sədri olmuşdur. 123, 150

Mehmandarov, Səməd bəy (1856-1931): Azərbaycanın hərbi xadimi. Peterburqda hərbi məktəb bitirmiş, Çar Rusiyası ordusunda xidmət etmiş, Rusiya-Yaponiya müharibəsində göstərdiyi şücaətlərə görə mükafatlandırılmış, Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci ilin fevral inqilabından sonra Rusiya ordusundan istefa vermişdir. Cümhuriyyət dövründə Azərbaycanın Hərbi naziri olmuş, ordu quruculuğu sahəsində böyük işlər görmüşdür. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən həbs edilmiş, azadlığa çıxdıqdan sonra müxtəlif vəzifələrdə işləmişdir. 14, 72, 81, 82, 92, 93, 107, 141, 147, 148, 262, 263

Mehmanov, Əbdürrəhman: Xıllı (Neftçala) qəsəbəsi sakini. 123

Mehmanov, Mehman: Xıllı (Neftçala) qəsəbəsi sakini. 123

Mehmed Kamal bəy (1884-1919): Türkiyənin Yozqat vilayətinin Boğazlıyan qəzasının rəisi olmuşdur. Ermənilərin köçürülməsi (təhcir) əsnasında vəzifəsini yaxşı yerinə yetirməməkdə günahlandırılaraq edam edilmişdir. 1922-ci ildə "milli şəhid" elan dilmişdir. 547, 548

Melqenov: Rusiyanın hərbi xadimi; general. 325

Merdaxayev, Mixail: Şamaxı sakini. 363

Merfilov 473

Mesrop: Bakıda, Qukasovun mədənində işləmiş erməni. 387

Məhəmməd: "Azərbaycan" qəzetindəki imzalardan biri. 406, 497

Məhəmməd bəy: Ağdaşda qəza rəisi olmuşdur. 198

Məhəmməd Əbdülkərim: Göyçayın Qaraman kəndinin sakini. 361

Məhəmməd Əbdürrəhim oğlu (Hacı Əbdürrəhim oğlu): Ağdaş sakini 198

Məhəmməd əfəndi (Hacı Məhəmməd əfəndi): Qusarlı. 19

Məhəmməd Əhməd oğlu: Mərəzə kəndinin (Şamaxı) sakini. 474

Məhəmməd Əli oğlu (Məşhədi Əli oğlu): tələbə; Şəmkir hadisəsində şəhid olmuşdur. 361

Məhəmməd Məhəmməd oğlu: Göyçayın Qaraxıdır kəndinin sakini. 361

Məhəmməd Nuri oğlu: İran vətəndaşı. 171

Məhəmməd Peyğəmbər 73, 138, 334

Məhəmməd Səid: "Azərbaycan" qəzetində imza. 90

Məhəmməd Şərif: Xuluq (Qusar) kəndi rüşdiyyə məktəbinin müdiri olmuşdur. 122

Məhəmməd Tağı Sidqi: bax. Sidqi, Məhəmməd Tağı.

Məhəmməd Tofiq: bax. Bıyıklıoğlu, Mehmed Tevfik

Məhəmmədbağır Əbdüləli oğlu (Hacı Məhəmmədbağır): Bakı sakini. 257

Məhəmmədbağır Qafar oğlu: Bakı sakini. 229

Məhəmmədbəyov: Bələdiyyə İdarəsi üzvü. 445

Məhəmmədbəyov, Heybətqulu (yaxud Heybətqulu Məhəmmədbəyli; Məmmədbəyov; 1888-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin dekabrından 1920-ci ilin aprel ayına qədər Dövlət Nəzarəti naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən həbs edilmiş və güllələnmişdir. 32, 33, 286

Məhəmmədbəyzadə, İsmayıl bəy: tələbə, "Müsavat" partiyasının üzvü. 388

Məhəmmədəlizadə, Əli (Məşhədi Əli): Bakı sakini. 257
Məhəmmədhənifə Bayraməli oğlu: Bakı sakini. 257
Məhəmmədhüseyn Atamoğlan oğlu: Bakı sakini. 556
Məhəmmədhüseyn xan Müştaq: bax. Müştaq, Məhəmmədhüseyn xan.
Məhəmmədov: Ağdaş sakini. 250
Məhəmmədov: Bakı sakini. 361
Məhəmmədov: Dağıstanlı polkovnik. 348
Məhəmmədov, Abbas 55, 79
Məhəmmədov, Ağabala: Cümhuriyyət dövründə tələbə olmuşdur; Dövlət Müfəttişliyi İdarəsində işləmişdir. 2
Məhəmmədov, Hilal 55, 79
Məhəmmədov, Hüseyn Gülməhəmməd oğlu (1875-1921-ci ildən sonra): Gürcüstanın siyasi xadimi; Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının üzvü və Hümmət Sosial-Demokrat Müsəlman Partiyasının təsisçilərindən idi. 449
Məhəmmədov, İsmayıl 55, 79
Məhəmmədov, Məhəmməd 156
Məhəmmədov, Mirdaməd 535
Məhəmmədov, Mirfəttah 535
Məhəmmədov, Seyidağa 535
Məhəmmədsadıq: Bakı neft mədənlərində fəhlə işləmişdir. 417
Məhəmmədzadə, Cəmaləddin: Azərbaycan Cümhuriyyəti Parlamenti İdarəsində kargüzar olmuşdur. 58
Məhəmmədzadə, Əbdülvahab: bax. Yurdsevər, Əbdülvahab Məmmədzadə.
Məhəmmədzadə, Əli Nəzmi (1878-1946): Azərbaycan şairi və ədəbiyyatşünası. 12, 274
Məhəmmədzadə, Fatma xanım: Qazax sakini. 200
Məhəmmədzadə, Qəni: bax. Məmmədov, Qəni.
Məhəmmədzadə, Mirzəbala (1898-1959): Azərbaycanın ictimai-siyasi xadimi, publisist və dramaturq. 1924-cü ildən mühacirətdə yaşamışdır. 388
Məhəmmədzadə, Zülfüqar: Bakıda fəhlə təşkilatlarının işində fəal iştirak etmişdir. 256
Məhərrəm (Məşhədi Məhərrəm): Bakıdakı Zəngəzurlular Komitəsinin üzvü olmuşdur. 499
Məhərrəm Asif oğlu: Ağdaş sakini. 250
Məhərrəm Zərbəli oğlu (Məşhədi Məhərrəm Kərbəlayi Zərbəli oğlu): Şamaxı qəzasının Qulular kəndinin sakini. 149
Məhərrəmov, Məhəmməd (1895-1982): Azərbaycanın ictimai-siyasi xadimi. Moskva Universitetində təhsil almışdır. Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü, Paris Sülh Konfransına göndərilən nümayəndə heyətinin müşaviri olmuşdur. Aprel işğalından sonra mühacirətdə qalmışdır. 547
Məhməd II (Fateh; 1432-1481): Osmanlı sultanı. 1444-1446 və 1451-1481-ci illərdə hakimiyyətdə olmuşdur. İstanbulu fəth etdiyi üçün "Fa-teh" adıyla tanınmışdır. 154
Məhməd VI (1861-1926): Osmanlı İmperiyasının sonuncu sultanı Məhməd Vəhidəddin. Sultan Əbdülməcidin oğlu idi. 3 iyul 1918-ci ildə Osmanlı sultanı olmuş, Türkiyə Böyük Millət Məclisinin monarxiyanı ləğv etdiyi 1 noyabr 1922-ci il tarixinə qədər hakimiyyətdə qalmışdır. Mühacirətdə ölmüşdür. 231
Məhməd Vəhib paşa (Kaçı; 1877-1940): Türkiyənin hərbi xadimi; general. Qafqaz İslam Ordusunun da tabe olduğu Şərq Ordular Qrupunun komandanı idi. Türkiyədə soyadı qanunu çıxdıqdan sonra "Kaçı" soyadını almışdır. 348, 434
Məhsəti Gəncəvi: XII əsr Azərbaycan şairəsi. 10, 11, 104
Məlik-Karakozov, Georgi: bax. Məlik-Qaragözyan, Gevork.
Məlik-Qaragözyan, Gevork (yaxud Georgi Məlik-Karakozov; 1873-1940): Ermənistanın ictimai-siyasi xadimi. Bir sıra qəzet və jurnalların redaktoru, Ermənistanın Maarif naziri olmuşdur. 51
Məlikaslanov, Xudadad bəy (1879-1935): Azərbaycanın dövlət xadimi. Peterburqda mühəndislik təhsili almışdır. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti hökumətində Nəqliyyat və Rabitə naziri, Poçt və Teleqraf naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra da bir sıra vəzifələrdə işləmişdir. Repressiyaya məruz qalmış və həbs düşərgəsində vəfat etmişdir. 293, 336
Məlikaslanov, Teymur bəy: Azərbaycan Dəmiryolu İdarəsinin rəisi idi. 335, 574
Məlikov: Ağdaşda pristav olmuşdur. 197
Məlikov, Hüseyn (Məşhədi Hüseyn) 51, 535
Məlikov, Məlikhüseyn 535
Məlikov, Mətləb 535
Məlikov, Yusif bəy: Ağdaş sakini 198
Məlikzadə, Bəhram: Gəncə Türk Tələbələr İttifaqının üzvü. 192
Məmmədquluzadə, Həmidə xanım (1873-1955): maarifçi və xeyriyyəçi; Cəlil Məmmədquluzadənin həyat yoldaşı. 150
Məmmədov, Qəni (yaxud Məhəmmədzadə): Azərbaycanlı xeyriyyəçi; pambıq ticarəti və gəmi nəqliyyatı ilə məşğul olmuşdur. 581
Məmmədov, Rəhim: Azərbaycan Dəmiryolu İdarəsində işləmişdir. 554, 574
Mənsur: İran Baş nazirinin müavini olmuşdur. 516
Mənuçöhrov, Sarkis Xaçaturoviç: Zəngəzur sakini. 171
Məryəm Tağı qızı: Bakı sakini. 474
Məstanzadə, Qasım (Məşhədi Qasım): Bakıda Dəlləklər İttifaqı idarə heyətinin üzvü olmuşdur. 286
Mixaylov: tibb professoru. 258, 316, 364, 419, 447, 477, 532.
Mikayılov, Məhəmməd: Bərgüşad dəmiryol stansiyasında komissiyaçı olmuşdur. 361, 362
Mikayılov, Vəli (Kərbəlayi Vəli): Cümhuriyyət dövründə Hökumət mətbəəsinin müdiri olmuşdur. 177
Miloslavskaya, Mariya İliniçna (1624-1669): Rus çariçası; çar Aleksey Mixayloviçin birinci arvadı olmuşdur. 338
Miloslavski, İlya Daniloviç (1595-1668): Rus boyarı və diplomatı. Çar Aleksey Mixayloviçin birinci arvadı Mariya Miloslavskayanın atası idi. 338
Milyukov, Pavel Nikolayeviç (1859-1943): Rusiya siyasi xadimi, eyni zamanda tarixçi və publisist. Konstitusion-Demokratik Partiyanın (Kadetlər partiyası) liderlərindən biri idi. Müvəqqəti Hökumətdə (Rusiya) Xarici İşlər naziri olmuşdur. 15
Mirağa Mircabbar oğlu (Məşhədi Mirağa Hacı Mircabbar oğlu): Bakı sakini. 257
Mirmehdiyev, Mirtağı 99, 127
Mirmöhsünzadə, Mirabdulla (Hacı Mirabdulla): Bakı sakini. 414
Mirmustafa: Xıllı (Neftçala) qəsəbəsi sakini. 123
Mirnağı Məhəmmədnəbi oğlu (Hacı Mirnağı): Bakı sakini. 257
Mirzə Əhmədxan 364
Mirzə Həbib oğlu: Digah kəndinin sakini. 474
Mirzə Hüseyn Axund Nəsir oğlu: müəllim. 526, 534
Mirzə İsmayıl Zəbih: bax. Zəbih, Ağa İsmayıl
Mirzə Şəfi: bax. Vazeh, Mirzə Şəfi
Mirzəağa Ağarza oğlu: Zuvand mahalı sakini. 124
Mirzəcamalov, Hüseyn bəy Məhəmmədrəfi bəy oğlu (1890-1974): Azərbaycan Cümhuriyyəti Ziraət nazirinin katibi, Parlamentdə Qanun Layihələri şöbəsinin müdiri olmuşdur. Cümhuriyyətin süqutundan sonra maarif sahəsində çalışmış, 1921-1922-ci illərdə Türkiyəyə mühacirətə getmişdir. Türkiyədə "Yanar" soyadını qəbul etmişdir. 58

Mirzəcani: "Azərbaycan" qəzetində imza. 445
Mirzəyev: Kürdəmirin pristavı olmuşdur. 172
Mirzəyev, Əbdüləziz (Mirzə Əbdüləziz): Salyanda doktor olmuşdur. 173
Miskinzadə əfəndi: Ağdaşdan "Azərbaycan" qəzetinə məktub yazmışdır. 98
Mnasakanov, S. K.: Bakıda, Telefonnı (indiki 28 May) küçəsində yerləşən Səfərəliyev pasajında dükanı olmuşdur. 1, 29, 557
Molla Qasım Zakir: bax. Zakir, Molla Qasım.
Möhsünzadə, Qulam: İran Maarif Cəmiyyətinin üzvü. 314
Muxranski, Teymur bəy 443
Muxtarov, Murtuza (1855-1920): Azərbaycanlı sahibkar və xeyriyyəçi. 469
Muxtarova, Liza (Yelizaveta Tuqanova): Osetin zadəganlarından Aslanbek Tuqanovun qızı, Murtuza Muxtarovun həyat yoldaşı. 51
Muqumov, Balaoğlan: Ağdaş sakini 198
Muradzadə, Bənövşə xanım: Qazax sakini. 200
Muradzadə, Nəzifə xanım: Qazax sakini. 200
Muradzadə, Rüxsarə: Qazax sakini. 200
Muromtsev, Sergey Andreyeviç (1850-1910): Rus hüquqşünası. Birinci Dövlət Dumasının sədri olmuşdur. 241
Musa (peyğəmbər) 139
Musa Cabbar oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151
Musakiyev: gürcü zabiti. 215
Musakov, Əfzəl bəy: Cənub-Qərbi Qafqaz Respublikasının ictimai-siyasi xadimi. 408
Musalayev: Dağlılar Respublikasının Hərbi naziri olmuşdur. 430
Musayev: Ərzaq Nazirliyinin Ağdaşdakı nümayəndəsi olmuşdur. 74, 197
Musayev: Ərzaq Nazirliyinin Göyçay qəzasındakı vəkili olmuşdur. 23
Musayev, İbrahim Tahir (1869-1943): Azərbaycan şairi. 12, 27
Mustafa xan: təbib; Abbasqulu Ağa Bakıxanovun qohumu. 11
Mustafa Rəşid paşa (1858-1924): Osmanlı dövlət xadimi; 1918-1919 və 1919-1920-ci illərdə Xarici İşlər naziri olmuşdur. 508
Mustafabəyov: 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Mustafaqulu Ağabala oğlu: Qaraçaylı kəndinin (Şabran) sakini. 418
Mustafayev: İvanovkanın pristavı olmuşdur. 386
Mustafayev, H.: 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Mustafazadə, Azad: Cümhuriyyət dövründə Şəki Bələdiyyəsinin sədri olmuşdur. 47
Mustafazadə, Fatma xanım: Azərbaycan Cümhuriyyəti Parlament İdarəsinin telefonçusu və məktub xidmətçisi olmuşdur. 560
Mustafazadə, Xanım: Qazax sakini. 200
Mutuşev, Əhməd Magomedoviç (yaxud Əhmədxan; ? - 1943): Dağlılar Respublikasının ictimai-siyasi xadimi; milliyyətcə çeçen. Xarkov Universitetinin Hüquq fakültəsini bitirmişdir. 272
"Müəllim Davud": "Azərbaycan" qəzetində imza; Davud Ağamirzəyevə məxsusdur.
Müftüzadə, Şahzadə xanım: Qazax sakini. 201
Mürsəlzadə, Piri: "Müsavat" üzvü. 17, 72, 120, 256, 312, 334, 388, 415, 474, 577
Müsahib, Kəlbəli xan: XVII əsrdə yaşamış şair və Qarabağ bəylərbəyi. Sonuncu Gəncə xanı Cavad xanın babası idi. Şeirlərini "Müsahib" təxəllüsü ilə yazmışdır. 11, 115, 128
Müştaq, Məhəmmədhüseyn xan (? - 1780): Azərbaycanın siyasi xadimi və şairi. 1759-1780-ci illərdə Şəki xanı olmuşdur. Şeirlərini "Müştaq" təxəllüsü ilə yazmışdır. 12
Mütəvəkkil (Cəfər əl-Mütəvəkkil; 822-861): Abbasi xəlifəsi; 847-861-ci illərdə hakimiyyətdə olmuşdur. 557
Müzəffərov, Hüseyn: Azərbaycanda fəhlə hərəkatının fəal iştirakçılarından olmuşdur. 577
Müznib, Əliabbas (Mütəllibzadə; 1883-1938): Azərbaycan yazıçısı və jurnalisti. Eyni zamanda ədəbiyyatşünas və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. 167, 171
Myasoyedov, Sergey Nikolayeviç (1865-1915): Rusiyanın hərbi xadimi, polkovnik. Rusiya əleyhində casusluqda günahlandırılaraq edam edilmişdir. 141
Naci, Mirzə Mehdi (1805-1882): Azərbaycan şairi. Gəncədə yaşamışdır. 11
Nadir şah Əfşar (1688-1747): Əfşarlar sülaləsinin banisi və Əfşarlar dövlətinin I şahı; 1736-1747-ci illərdə hakimiyyətdə olmuşdur. 8, 543
Nadirov: Gürcüstanın Laqodexi qəzasının hərbi komandanı olmuşdur. 356
Nağdəlizadə, Tağı 46, 405, 441
Nağıyev, Məşhədiağa: Salyanda pristav müavini olmuşdur. 173
Nağıyev, Musa (1842-1919): Azərbaycanın neft sənayeçisi və xeyriyyəçi. 256, 416
Naxçıvanski, Kəlbəli xan Cəfərqulu xan oğlu (1891-1931): Rusiyanın və Azərbaycanın hərbi xadimi. 355
Nakam, İsmayıl bəy (1829-1906): Azərbaycan şairi; Şəkidə yaşamışdır. 12
Namiq Kamal (1840-1888): Türk şair, dramaturq və ictimai xadimi. "Hürriyyət şairi" kimi tanınmışdır. Türk ədəbiyyatı və siyasi mühiti üzərində böyük təsirə malik olmuşdur. 438
Napoleon I (1769-1821): 18 may 1804 – 6 aprel 1814 və 20 mart – 22 iyun 1815 tarixlərində Fransa imperatoru. 512, 533
Natəvan: bax. Xurşidbanu Natəvan.
Nazir, Abbas Ağa: bax. Qayıbzadə, Abbas Ağa.
Nazlı Cavad qızı: Ərəbşahverdi (Qobustan rayonu) kəndinin sakini. 361
Neçayev: professor. 349
Nemanzadə, Ömər Faiq (1872-1937): Azərbaycanın publisist və pedaqoqu; ictimai-siyasi xadimi. Milliyyətcə Axıska türküdür. 125, 276, 288, 307, 308, 309, 318, 341, 383, 442, 444, 449, 563.
Nəbati, Əbülqasim (1812-1873): Azərbaycan şairi. 104, 128
Nəbi Qasım oğlu: Gəncə sakini. 363
Nəbibəyov, Çərkəz bəy: Ağdaş sakini. 198
Nəcəfqulu Quluş oğlu: Çadırlı kəndinin (Salyan) sakini. 389
Nəcəfzadə, Nəcəfqulu: Ağdaş Qaçqınlara Yardım Cəmiyyətinin üzvü. 74
Nədir Yusif oğlu (Məşhədi Yusif oğlu): Ərəbbalaoğlan kəndinin yüzbaşısı olmuşdur. 389, 501, 502
Nəqdi Şeyxəli oğlu (Molla Nəqdi): Quba qəzasının Sumaqova kəndinin sakini. 151
Nərimanbəyov, Nəriman bəy Haşım bəy oğlu (yaxud Nərimanbəyli; 1889-1938): Azərbaycanın ictimai-siyasi xadimi, "Müsavat" partiyasının üzvü. Xarkov Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Zaqafqaziya Seyminin və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Dövlət Nəzarəti naziri olmuşdur. Sovet dövründə bir neçə dəfə həbs edilən Nərimanbəyov 1938-ci ildə güllələnmişdir. 263
Nərimanov, Nəriman (1870-1925): Azərbaycanın ictimai-siyasi xadimi və dövlət adamı; eyni zamanda yazıçı, publisist və həkim. 40, 203
Nəsim Russo: Türkiyə Maliyyə Nazirliyində xüsusi şöbənin müdiri olmuşdur. 545
Nəsir Əcəm oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151
Nəsirov, İsgəndər: Şuşa Milli Müdafiə Cəmiyyətinin müsahibi olmuşdur. 122
Nəzər Soltanəhməd oğlu (Məşhədi Nəzər): Bakı sakini. 257
Nikoladze, Nikolay Yakovleviç (1843-1928): Gürcüstanın ictimai xadimi; publisist.

Paris Sülh Konfransına gedən Gürcüstan heyətinin tərkibinə daxil idi. 126, 456

Nikolay I (1796-1855): Rusiya imperatoru; 1825-1855-ci illərdə hakimiyyətdə olmuşdur. 492, 493

Nikolay II (1868-1918): Rusiya imperatoru; 1894-1917-ci illərdə haki-miyyətdə olmuşdur. 59, 89, 108, 109, 121, 126, 150, 151, 164, 165, 166, 179, 180, 182, 227, 228, 253, 350, 372, 383, 393, 415, 442, 443, 481, 503

Nizami Gəncəvi (1141-1209): Dahi Azərbaycan şairi. 10, 104, 115, 137

Nizam Qədəş oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151

Noqayev, Arslan: Çeçenlərin ictimai-siyasi xadimi; Dağlılar Respublikası Parlamentinin üzvü olmuşdur. 431

Novruzov, Yusif: Azərbaycan Hökuməti Dəftərxanası rəisinin qasidi olmuşdur. 581

Nurəddin Ziya bəy: Türkiyədə "İttihad və Tərəqqi" partiyasının üzvü olmuşdur. 247

Nuri paşa (Killigil; 1889-1949): Osmanlı ordusunun general-leyte-nantı. Qafqaz İslam Ordusunun komandanı olmuşdur. 519

Nurizadə, Hacıağa (yaxud Hacıağa Nuri; 1894-1930): Almaniyada təhsil almışdır. Parlament İdarəsində kvestorun (təsərrüfat müdirinin) müavini işləmişdir. Cümhuriyyətin süqutundan sonra Türkiyədə yaşamışdır. 388

Nurizadə, Nurməhəmməd: Azərbaycan Parlamenti İdarəsində kuryer işləmişdir. 554, 555

Nüsrət Qılıncxan oğlu: Əmircan sakini. 555, 556

Odier: İsveçrənin Petroqraddakı səfiri olmuşdur. 243

Odişelidze, İlya Zuraboviç (1865-1925): Gürcüstanın hərbi xadimi; general-leytenant. Gürcüstan ordularının Baş komandanı olmuşdur. 126

Okuma Şigenobu (yaxud Markiz Okuma; 1838-1922): Yaponiyanın siyasi xadimi və diplomatı. 1888-1889, 1896-1898-ci illərdə Xarici İşlər naziri, 1898, 1914-1916-cı illərdə Baş nazir olmuşdur. 213

Oleq Veşiy (? - 912): 879-912-ci illərdə Novqorod, 882-912-ci illərdə Kiyev knyazı olmuşdur. 10, 26

Olenskaya, Yeva Nikitiçna (1900-1959): Azərbaycan aktrisası. Qubada doğulmuş, kiçik yaşda ailəsiylə birgə Bakıya köçmüşdür. "Nicat" və "Səfa" truppalarının, "Hacıbəyov qardaşları müdiriyyəti" truppasının üzvü olmuşdur. Uzun müddət Milli Dram Teatrının səhnəsində çıxış etmişdir. 1949-cu ildə Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür. 98

Orconikidze, Fəzail ağa 443

Orlando, Vittorio Emanuele [Vittorio Emanuele Orlando; 1860-1952]: İtaliyanın siyasi xadimi; 1917-1919-cu illərdə Baş nazir olmuşdur. 225, 317, 324, 448, 558

Orucov, Abuzər Əliağa oğlu (1878 - ?): Bakıdakı Orucov Qardaşları mətbəəsinin ortaqlarından olmuşdur. 1930-cu ildə həbs edilərək sürgünə göndərilmişdir. 60, 61, 62

Otoker: general 7

Ozanyan, Andranik (1865-1927): Erməni hərbçi. Daşnaksutyun partiya-sının üzvü idi. Başçılıq etdiyi silahlı dəstələr Qarabağda, Zəngəzurdə və Türkiyənin şərqində dinc əhaliyə qarşı törədilən qırğınlarda xüsusilə fəal iştirak etmişdir. 320, 499, 517, 518

Ömər Xəyyam (1048-1131): fars şair, riyazıyyatçı və astronomu. 104, 314, 380.

Paloçiya: Gürcistan Daxili İşlər nazirliyində işləmişdir. 581

Paramonov, Nikolay Elpidiforoviç (1876-1951): Rus sahibkar. Könüllü ordunun Təbliğat şöbəsinin (OSVAQ-ın) rəhbəri olmuşdur. 349

Paşa Osman oğlu (Paşa bəy Osman bəy oğlu): Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502

Paşababa Paşababa oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502





Paşabəyov, Hüseyn bəy (Göyçay) 49

Paşayev, Camal (1895-1953): Azərbaycan aktyoru; Üzeyir Hacıbəylinin bacısı oğlu idi. 583

Paşazadə, Camal: Parlament İdarəsində dəftərdar (qeydiyyat məmuru) olmuşdur. 58, 560

Paşazadə, Həmid (Məşhədi Həmid): Bakıda yaşayan İranlılardan, "Müsavat" üzvü. 256, 415, 416

Paşiç, Nikola (1845-1926): Serbiyanın və Yuqoslaviyanın siyasi xadimi. Bir neçə dəfə (həmçinin 1912-1918-ci illərdə) Serbiyanın Baş naziri və yenə bir neçə dəfə (həmçinin 1918-ci ilin dekabr ayında) Yuqoslaviya Krallığının Baş naziri olmuşdur. "Böyük Serbiya" ideologiyasının əsas ideoloqlarından idi. 509

Pavel I (1754-1801): Rusiya imperatoru; 1796-1801-ci illərdə hakimiyyətdə olmuşdur. 491, 505

Pekarski: Bakıda işləmiş polyak əsilli mühəndis. 18

Penzulayev, Muhiddin Mahmudoviç (1874-1942): Dağlılar Respublikasının Rabitə, Poçt və Teleqraf naziri olmuşdur. Zaqafqaziya Konfransına göndərilən nümayəndə heyətinin tərkibinə daxil idi. 514, 572

Pepinov, Əhməd bəy (yaxud Əhməd Cövdət Pepinov; 1893-1937): Azərbaycanın ictimai-siyasi xadimi; Azərbaycan Parlamentinin üzvü olmuş, Əmək və Əkinçilik naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir. (ayrıca bax: Axıskalı) 18, 19, 35, 38, 53, 106, 177, 180, 182, 318, 564

Petlyura, Simon Vasilyeviç (1879-1926): Ukraynanın siyasi və hərbi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 5

Peyzipin (Abxaziya) 390

Piri Atakişi oğlu: Bakı sakini. 352

PişnamazzadəPişon, Stefan [Stéphen Pichon; 1857-1933]: Fransanın siyasi xadimi. 1906-1911-ci illərdə Xarici İşlər naziri olmuşdur. Birinci Dünya müharibəsinin sonlarında və Paris Sülh Konfransı dövründə aktiv fəaliyyəti ilə diqqəti cəlb etmişdir. 214, 271

Pitsxalava, Samson Georgiyeviç (1872-1952): Gürcüstanın siyasi xadimi; Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 1921-ci ildə Fransaya mühacirətə getmiş, 1946-cı ildə Gürcüstana qayıtmışdır. 1951-ci ildə həbs edilərək Orta Asiyaya sürgünə göndərilmiş və sürgündə ölmüşdür. 449

Pliyev 272

Poqos Nubar paşa (1851-1930): Osmanlı dövlətində yaşayan ermənilərin siyasi təşkilatı olan Erməni Millət Məclisinin və Ümumi Erməni Xeyriyyə İttifaqının sədri olmuşdur. 152, 282, 285, 353, 354, 453, 509, 510

Popovyan: Tiflisdəki Erməni Milli Şurasının üzvü. 335

Pozanov, Timofey Konstantinoviç: Göyçay qəzasının dəmiryol stansiyalarında poçt işçisi olmuşdur. 149

Prins de-Lin: bax. Lin, Şarl Cozef de

Prjevalski, Mixail Alekseyeviç (1859-1934): Rusiyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsi dövründə, 1917-ci ilin iyun-dekabr aylarında Qafqaz cəbhəsinin komandiri olmuş, daha sonra ağqvardiyaçılar hərəkatına qoşulmuşdur. 14, 82, 272, 348

Prussiyalı Yoaxim [Joachim von Preußen; 1890-1920]: Alman imperatoru II Vilhelmin altıncı (ən kiçik) oğlu idi. İntihar etmişdir. 244

Puankare, Raymon [Raymond Poincaré; 1860-1934]: Fransanın dövlət xadimi. 1912-1913-cü illərdə Baş nazir və Xarici İşlər naziri, 1913-1920-ci illərdə Prezident, 1922-1924-cü illərdə yenidən Baş nazir və Xarici İşlər naziri olmuşdur. 6

Purişkeviç, Vladimir Mitrofanoviç (1870-1920): Rusiyanın siyasi xadimi; monarxist və qaragüruhçu. Rus Xalqının İttifaqı (Soyuz russkoqo naroda) adlı qaragüruhçu monarxist təşkilatın liderlərindən biri olmuşdur. 15,

16, 27

Pyer Loti [Pierre Loti; 1850-1923]: Fransız zabiti və yazıçısı. Həqiqi adı Lui Mari-Jülyen Vio [Louis Marie-Julien Viaud] idi. Ekzotik ölkələrin həyatından bəhs edən romanları ilə məşhur olmuşdur. 254

Pyotr I (1672-1725): Rusiya hökmdarı; 1682-1725-ci illərdə hakimiyyətdə olmuşdur. 408, 409, 410, 412, 413, 421, 493

Raci, Əbülhəsən (1831-1876): Azərbaycan şairi. 104, 128

Radko-Dmitriyev, Radko Dmitriyeviç (1859-1918): Bolqarıstanın və Rusiyanın hərbi xadimi, general. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində, Balkan müharibələrində və Birinci Dünya müharibəsində iştirak etmişdir. 473

Rafael [Rafaello; 1483-1529]: İtalyan rəssamı və memarı. İntibah dövrünün görkəmli nümayəndələrindən hesab olunur. 241

Ramazan xan: İranın Bakıdakı məmurlarından olmuşdur. 415

Ramişvili, Noy Vissarionoviç (1881-1930): Gürcüstanın dövlət xadimi. Menşevik. Ruhani seminariyasını bitirmiş, yarımçıq hüquq təhsili almışdır. Zaqafqaziya Demokratik Federativ Respublikasının Daxili İşlər naziri, Gürcüstan Demokratik Respublikasının Baş Naziri, eyni zamanda Daxili İşlər naziri, daha sonra Xarici İşlər naziri olmuşdur. 307, 308, 383, 444, 572

Rasizadə, Hüseyn Cavid (1882-1941): Azərbaycanın görkəmli dramaturqu, yazıçısı və şairi. 12

Recaizadə, Əkrəm (yaxud Recaizadə, Mahmud Əkrəm; 1847-1914): Türk şairi və yazıçısı. 246

Repin: Privolnoye kəndinin (Cəlilabad) sakini. 579

Reyhan xanım (yaxud Reyhanət xanım): Həsən Ağa Bakıxanoun qızı; Adil xan Ziyadxanovun arvadı. 11

Reyhanət xanım: bax. Reyhan xanım

Rəfibəyli, Bağır bəy Kərbəlayi Həsən oğlu (?-1927): Azərbaycanın ictimai-siyasi xadimi. 79, 103

Rəfibəyli, Cavad bəy Hadı bəy oğlu (1890-1956): Azərbaycanın maarif xadimi. Ölkənin müxtəlif orta və ali məktəblərində dərs demişdir. 80

Rəfibəyli, Ələkbər bəy Kərbəlayi Həsən oğlu (? - 1919): Azərbaycanın ictimai-siyasi xadimi. Peterburqda təhsil almış, Azərbaycanın müxtəlif yerlərində pristav kimi fəaliyyət göstərmişdir. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin, Gəncə Şəhər Dumasının üzvü olmuşdur. Erməni-daşnak dəstələrinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımların qarşısını almaq üçün mübarizə aparmış, eyni zamanda onların vəhşiliklərini ifşa edən çoxsaylı məqalə və məktublar yazmışdır. 55, 71, 79, 88, 89, 90, 100, 103, 191, 192, 436

Rəfibəyli, Xudadad bəy (1877-1920): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Xalq Səhiyyə naziri vəzifəsini tutmuşdur. Gəncə qubernatoru olduğu dövrdə erməni quldurlarının dinc əhaliyə qarşı törətdikləri soyqırımın qarşısının alınmasında böyük rol oynamışdır. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 55, 79, 90, 192, 436

Rəfibəyov, Abdulla bəy 55, 79

Rəfibəyov, Bağır bəy: Rəfibəyli, Bağır bəy.

Rəfibəyov, Cavad bəy: bax. Rəfibəyli, Cavad bəy

Rəfibəyov, Ələkbər bəy: bax. Rəfibəyli, Ələkbər bəy.

Rəfibəyov, Əli bəy 79

Rəfibəyov, Əsgər bəy (Məşhədi Əsgər) 56, 80

Rəfibəyov, Əyyub bəy (yaxud Əyyub Sayqın; 1890-1979): Gəncənin pristavı, Şəkinin qəza rəisi olmuşdur. Aprel işğalından sonra Türkiyəyə köçmüşdür. Türkiyədə "Sayqın" soyadını daşımışdır. 55, 80

Rəfibəyov, Əzim bəy (Məşhədi Əzim) 55, 79

Rəfibəyov, Xudadad bəy: bax. Rəfibəyli, Xudadad bəy.

Rəfibəyov, Qəhrəman bəy 79, 103

Rəfibəyov, Qənbər bəy: bax. Rəfibəyli, Qənbər bəy. 55, 80

Rəfibəyov, Məşhədi bəy 56, 80

Rəfibəyov, Zeynal bəy (Məşhədi Zeynal) 55, 79

Rəfiyev, Məşədi Əli (1886-1948): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi və xeyriyyəçi. "Müsavat" partiyasının, Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin aktiv üzvlərindən olmuşdur. 1920-ci ildə Türkiyəyə mühacirət etmişdir. 20

Rəfiyev, Musa bəy (1888-1938): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Səhiyyə və Sosial Təminat naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 24, 52, 62, 63, 75, 84, 100, 127, 152, 174, 189, 201, 208, 229, 258, 287, 316, 336, 343, 344, 364, 392, 419, 447, 476, 504, 520, 532, 536, 583

Rəfizadə, Yaqub: tələbə; Şəmkir hadisəsində şəhid olmuşdur. 437

Rəhimli, Rəsul: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyində kargüzar işləmişdir. 304, 359, 365

Rəhimov, Məhəmməd: Bakıda Naberejni küçəsində (indiki Neftçilər prospektində) zərgər dükanı olmuşdur. 557

Rəhimov, Səfdər 49

Rəhimzadə, Böyükxanım: Qazax sakini. 200

Rəhman: Bakıdakı iranlılardan; usta. 416

Rəsul Əhməd oğlu (Hacı Əhməd oğlu): Ağdaş sakini. 198

Rəsulzadə, Məhəmməd Əmin (1884-1955): Azərbaycanın görkəmli dövlət xadimi, Cümhuriyyətin qurucularından biri. Azərbaycan Milli Şurasının və "Müsavat" partiyasının sədri; eyni zamanda jurnalist və publisist. 5, 12, 18, 19, 34, 35, 38, 61, 81, 106, 108, 148, 180, 208, 230, 292, 321, 344, 446, 519, 528, 543, 557

Rəşad Xalis bəy (1883-1945): Osmanlı diplomatı. Berndə səfir olmuş, Sevr müqaviləsini imzalayan heyətin tərkibində yer almışdır. 508

Rəşid bəy: Osmanlı diplomatı; Xarici İşlər Nazirliyinin Siyasi İşlər şöbəsinin müdiri olmuşdur. 508

Robakidze, Qriqol (1882-1962): Gürcü yazıçısı, ictimai-siyasi xadim. Birinci Dünya müharibəsində (İran cəbhəsində) iştirak etmişdir. Paris Sülh Konfransına göndərilən Gürcüstan heyətinin katibi olmuşdur. Tiflis Universitetində gürcü ədəbiyyatı, Bakı Universitetində alman ədəbiyyatı haqqında mühazirələr oxumuşdur. 1931-ci ildə Almaniyaya mühacirətə getmişdir. 126

Roxlin, Abram Veniaminoviç (1881-1941): Menşeviklərin Bakı komitəsinin üzvü, Sentrokaspi Diktaturasının Ərzaq komissarı, Bakı Şəhər Bələdiyyə Şurasının üzvü. Sovet dövründə Bakıda kommunal təsərrüfatı sahəsində işləmişdir. Casusluqda təqsirləndirilərək 1939-cu ildə həbs edilmiş, 1941-ci ildə güllələnmişdir. 206

Rotşild 399, 416

Rubanoviç, İlya Adolfoviç (1859-1922): Rus inqilabçı. 484

Ruh Həmid oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502

Ruxadze, Levan Porfiryeviç (1884-1937): Gürcüstanın siyasi xadimi. Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 1937-ci ildə sovet rejimi tərəfindən güllələnmişdir. 443, 444

Rusanov, Yuri Dmitriyeviç: Tiflis Məhkəmə Palatasının sədri, Azərbaycan

Ədliyyə Nazirliyinin Xüsusi təftiş və istintaq Komissiyasının üzvü. 220
Rüstəm Qədəş oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151
Rüstəm Məhəmməd oğlu (Hacı Rüstəm Hacı Məhəmməd oğlu): Bakı sakini. 146
Rüstəm Nəriman oğlu (Kərbəlayi Nəriman oğlu): Göyçay sakini. 392
Rüstəmbəyli, Şəfi bəy (1893-1960): Azərbaycanın ictimai-siyasi xadimi. Kiyev Universitetinin Hüquq fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. 32, 33, 35, 209, 211, 436, 563
Rüstəmbəyov, Arslan bəy: Salyanda həbsxana müdiri olmuşdur. 173
Rüstəmbəyov, Cəfər bəy Mustafa bəy oğlu: bax. Rüstəmbəyli, Cəfər bəy Mustafa bəy oğlu. 414
Rüstəmbəyov, Mustafa bəy: Ağdaş sakini. 198
Rüstəmzadə, Mirsahib (Göyçay) 49
Rza Zaki: bax. Lətifbəyov, Rza.
Rzayev, Abuzər bəy Əliəsgər bəy oğlu (1876-1920): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Moskva Ali Texniki Məktəbini bitirmiş, Azərbaycanda neft mədənlərində mühəndis kimi işləmişdir. Gəncədən Azərbaycan Parlamentinə üzv seçilmişdir. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 38, 344
Rzayev, Bağır (1891-1927): Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuşdur. 342
Rzayev, Məhəmmədtağı (Hacı Məhəmmədtağı): İran taciri. 23
Saakyan, Sako: Sosialist-inqilabçı; Sentrokaspi Hökuməti İcraiyyə Komitəsinin üzvü, Bakı Sovetinin sədri olmuşdur. 206
Sabir, Mirzə Ələkbər (1862-1911): Azərbaycanlı şair, məşhur satira ustası. 12, 104, 500
Sabit, Həsənağa: Salyanda teatr rejissoru olmuşdur. 173
Sadıqov, Əkbər ağa Hacı Xəlil oğlu (1892-1928): Azərbaycan Cümhuriyyətinin Zakaspi Hökuməti nəzdindəki konsulu olmuşdur. 196
Sadiq (Mirzə Sadiq): Gədəbəy zavodu fəhlə komitəsinin sədri olmuşdur. 247
Sadiqzadə, Məcid: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyətinin üzvü olmuşdur. 418
Salahov, Ağa: Ağdaş sakini. 197
Saleh bəy: Parlamentdə şöbə zabiti olmuşdur. 479
Salehov: 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Salehzadə, Yusif (Məşhədi Yusif) 334
Salman Əsgər oğlu: bax. Salman Mümtaz. 12
Saltınski, Uzun Hacı (1848-1920): Şimali Qafqazın dini, hərbi və siyasi xadimi. Dağlılar Respublikası Parlamentinin üzvü, Dağıstan və Çeçenistanın imamı olmuşdur. 325, 349, 431
Sambros: Muğandakı Könüllü ordu zabitlərindən. 577
Sanders paşa: bax. Sanders, Otto Liman fon 135
Sapinkov: Privolnoye kəndinin (Cəlilabad) sakini. 579
Sara Abdulla qızı: Bakı sakini. 474
Sarablı, Hüseynqulu (yaxud Hüseynqulu Rzayev; 1879-1945): Azərbaycan aktyoru. Azərbaycan Cümhuriyyətinin mədəni həyatında fəal iştirak edən Sarablının, Azərbaycan teatrının, eləcə də musiqisinin inkişafında misilsiz xidmətləri olmuşdur. 98
Sarabski: bax. Sarablı, Hüseynqulu
Saruxanov, A. N.: Bakıda, Sisyanov (indiki Təbriz Xəlilbəyli) küçəsində dükanı olmuşdur. 1, 29, 57
Saturov, Baxşı: Bakıda, Qukasovun mədənində buruq ustası olmuş erməni. 387, 416.





Savinkov, Boris Viktoroviç (1879-1925): Rusiyanın siyasi xadimi. Sosialist-İnqilabçılar partiyasının liderlərindən biri olmuşdur. Bolşeviklərə qarşı mübarizədə kömək almaq məqsədi ilə Antanta hökumətləri ilə danışıqlar aparmışdır. 6
Sayks, Persi: İrandakı ingilis ordusu komandanlarından olmuşdur. 280
Sayondzi Kimmoti (1849-1940): Yaponiyanın siyasi xadimi və diplomatı. Mədəniyyət naziri, Xarici İşlər naziri, Baş nazir kimi vəzifələr tutmuşdur. Paris Sülh Konfransında ölkəsini təmsil etmişdir. 245
Sazonov, Sergey Dmitriyeviç (1860-1927): Rusiyanın diplomatı. Bir sıra ölkələrdə səfir kimi işləmiş, 1910-1916-cı illərdə Xarici İşlər naziri olmuşdur. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Mühacirətdə ölmüşdür. 6, 40, 133, 352
Seoyev, Daniil: Azərbaycan Cümhuriyyəti Parlament İdarəsində protokol katibi olmuşdur. 560
Sesil, Robert [Robert Cecil; 1864-1958]: Britaniyanın ictimai-siyasi xadimi. Millətlər İttifaqının ideoloqlarından biri olmuşdur. Millətlər İttifaqının həyata keçirilməsindəki xidmətlərinə görə 1937-ci ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. 184, 399 , 569
Seyid Abdal: bax. Bakuvi, Seyid Əbu Səid Abdal.
Seyid Alim xan: bax. Alim xan, Seyid Mir Məhəmməd.
Seyid Zülfüqar: bax. Zülfüqar Şirvani
Seyidəlili, Fəttah: "Azərbaycan" qəzetində imza. 490
Seyidməhəmməd Bayram oğlu: Qubanın Tülər kəndinin sakini. 389
Sezar, Yuli [Gaius Iulius Caesar; b. e. ə. 100 – b. e. ə. 44]: Qədim Romanın dövlət xadimi. 116
Sədi Şirazi: XIII əsrdə yaşamış fars şairi. 104, 314, 380
Səfər Şirməhəmməd oğlu: Bülbülə kəndinin sakini. 146
Səfərəli Cabbar oğlu (Kərbəlayi Səfərəli Məşhədi Cabbar oğlu): Gərmətük kəndinin (Lənkəran) sakini. 531
Səfərəliyev, Ağa bəy 155
Səfərəliyev, Əli bəy 155
Səfərəliyev, Əliisgəndər bəy 155
Səfərəliyev, Hacıbala 535
Səfərəliyev, Həsən bəy (? - 1919) 131, 155, 156
Səfərəliyev, Hüseyn bəy 155
Səfərəliyev, İsmayıl bəy (yaxud Səfərəlizadə): Azərbaycanlı xeyriyyəçi; Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. 75, 155
Səfərəliyev, Kamil bəy 156
Səfərəliyev, Məhəmməd bəy 155
Səfərəliyev, Sadiq bəy 156
Səfərəliyev, Tağı bəy (yaxud Tağı bəy Səfərəlibəyov; 1881-1936): Azərbaycanlı mühəndis. Neftçilər Şurasının üzvü, Ticarət və Sənaye nazirinin müavini olmuşdur. 155, 522
Səfərov, İsa 123
Səfərzadə, Bəşir: "Azərbaycan" qəzetində imza. 98
Səfikürdlü, Aslan bəy: bax. Səfikürdski, Aslan bəy
Səfikürdski, Aslan bəy (yaxud Səfikürdlü, 1881-1937): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuş, 3-cü hökumət kabinəsində Poçt-Teleqraf və Əmək naziri, 4-cü kabinədə Ədliyyə və Əmək naziri vəzifələrini tutmuşdur. 34, 35, 37, 92, 263, 436
Səidbəyov, Kərbəlayi Ələkbər bəy 123
Səidülvüzəra: bax. Marağayi.
Səlim xan: Qafqaz rəqsləri ifaçısı. 24, 25
Səlimov, Həbib bəy (1881-1920): Azərbaycanın hərbi xadimi; general-mayor. 91
Səlimzadə, Həbib bəy: bax. Səlimov,

Həbib bəy.
Səməd Talıb oğlu (Hacı Səməd): Bakı sakini. 257
Sərdarov, Cəmşid: Azərbaycanda fəhlə hərəkatının fəal iştirakçılarından olmuşdur. 577
Sərvər Saday qızı: Ərəbşahverdi (Qobustan rayonu) kəndinin sakini. 361
Sidqi, Məhəmməd Tağı (1854-1903): Azərbaycan şairi və pedaqoqu. 12
Sidqi Məhəmməd oğlu: Quba qəzasının Sumaqova kəndinin sakini. 151
Silikov, Movses Mixayloviç (yaxud Silikyan; 1862-1937): Rus ordusunun general-mayoru, Qafqaz cəbhəsində xidmət etmişdir. Daha sonra Ermənistan ordusunda xidmət etmiş, 1937-ci ildə güllələnmişdir. 198
Simyons, Frank: ABŞ-ın siyasi xadimi. 511, 512
Sirac Məhəmməd oğlu: Qubanın Tülər kəndinin sakini. 389
Sisianov, Pavel Dmitriyeviç (1754-1806): Rusiyanın hərbi xadimi, general. Gürcü əsilli idi. Rusiyanın Qafqazdakı ordularının Baş komandanı olmuşdur. 8, 9, 10
Söyləməzoğlu, Qalib Kamali (1873-1960): Türk diplomatı. 508
Srvandzyan, Hamazasp (1873-1921): "Daşnaksutyun" partiyasının liderlərindən, erməni qatil və terrorist. Türkiyənin Van şəhərində anadan olmuşdur. Gəncə, Şuşa, Quba, Bakı və başqa yerlərdə dinc Azərbaycanlı əhaliyə divan tutmuş, minlərlə dinc sakini qətl etmişdir. Bolşeviklər tərəfindən İrəvanda həbs edilmiş, həbsxanada öldürülmüşdür. 16, 27
Staxoviç, Mixail Aleksandroviç (1861-1923): Rusiyanın siyasi xadimi. Rusiya Müvəqqəti Hökumətinin İspaniyada səfiri (1917) və Finlandiyanın general-qubernatoru (1917) olmuşdur. Oktyabr inqilabından sonra Fransada mühacirətdə yaşamışdır. 133
Stanq, Emil 243
Staroselski, Vsevolod Dmitriyeviç (1875-1935): Rus zabiti. Kabardin atlı polkunun və İran kazak diviziyasının komandiri olmuşdur. 573, 585
Sulkeviç, Süleyman bəy (Məmməd bəy Sulkeviç; Matvey Aleksandroviç Sulkeviç; 1865-1920): Rusiyanın, Krımın və Azərbaycanın hərbi xadimi. Mənşəcə tatardır. Rus ordusunda xidmət etmiş, Krımda yaradılan Krım-Tatar Hökumətinin sədri olmuş, bu hökumətin Denikin tərəfindən aradan qaldırılmasından sonra Azərbaycana gəlmişdir. Azərbaycan Cümhuriyyəti Ordusunun Baş qərargah rəisi olmuş, milli ordu quruculuğuna böyük töhfə vermişdir. Cümhuriyyətin süqutundan sonra güllələnmişdir. 69
Sultanov, A.: "Azerbaydjan" qəzetinə məktub yazmışdır. 358
Sultanov, Cəlil bəy Əsgər bəy oğlu (1880-?): Zəngəzur qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 61, 320, 529
Sultanov, Xosrov bəy (1879-1943): Azərbaycan Cümhuriyyətinin siyasi və hərbi xadimi. Azərbaycanın İstiqlal Bəyannaməsini imzalayanlardan biri olan Xosrov bəy Sultanov Cümhuriyyət dövründə Hərbiyyə naziri, Kənd Təsərrüfatı naziri, Qarabağ general-qubernatoru kimi vəzifələr daşımışdır. Sovet işğalından sonra mühacirət etmişdir. 122, 150, 156, 168, 169, 198, 225, 237, 238, 518
Sultanov, İsmayıl bəy: Bakıda məhkəmə hakimi olmuşdur. 220
Sumbat Fərzəli oğlu: Bülbülə kəndinin sakini. 146
Surquladze, Pyotr Rostomoviç (1873-1931): Gürcüstanın siyasi xadimi; Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 1921-ci ildə İstanbula getmiş, orada ölmüşdür. 449
Suşkov, Filipp Semyonoviç: 1919-cu ildə Kuban hökumətinin sədri olmuşdur. 373
Suvorov, Aleksandr Vasilyeviç (1729-1800): Rusiya tarixinin ən böyük





sərkərdələrindən biri hesab olunur. 154
Süleyman I (Qanuni; 1494-1566): Osmanlı sultanı; 1520-1566-cı illərdə hakimiyyətdə olmuşdur. 557
Süleyman Nəzif: Azərbaycan Cümhuriyyəti Parlamenti İdarəsində türkcə protokol katibi olmuşdur. 58
Süleyman Nuri, İslam oğlu: Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusan İdarəsində məktub xidmətçisi işləmişdir. 57
Süleymanov, Məcid (Məşhədi Məcid) 123
Süleymanzadə, Süleyman 536
Sürahi Əli qızı (Hacı Əli qızı): Eynibulaq (Siyəzən) sakini. 127
Şadlızadə, Dilşad xanım: bax. Şadlinskaya, Dilşad xanım.
Şadlinskaya, Dilşad xanım (yaxud Şadlızadə): Qazax sakini. 201
Şahhəsən Muradxan oğlu (Hacı Muradxan oğlu): Qubanın Tülər kəndinin sakini. 389
Şahkərim İsmayıl oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502
Şahmirzə Ağarza oğlu: Qubanın Tülər kəndinin sakini. 389
Şahnamazov, Nurulla: Dağıstan sakini. 171
Şahnəzərov: Gəncə ermənilərindən. 221
Şahpələng Qəhrəman oğlu (Hacı Qəhrəman oğlu): Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502
Şahrza Hacıbaba oğlu: Digah kəndinin sakini. 474
Şahsevənli Həsən (Kərbəlayi Həsən) 436
Şaxnazarov, M. B.: Bakıda həkim olmuşdur. 583
Şaiq: bax. Talıbzadə, Abdulla Şaiq.
Şalay: Dağıstanlı fəhlə; Bakıda neft mədənlərində işləmişdir. 1918-ci ilin Mart hadisələrində ermənilər tərəfindən öldürülmüşdür. 417
Şamil (Şeyx Şamil; 1797-1871): Qafqaz dağlılarının rəhbəri, Şimali Qafqazda milli-azadlıq hərəkatının lideri. 9
Şanayev: Osetinlərin ictimai-siyasi xadimi; Dağlılar Respublikası Parlamentinin üzvü olmuşdur. 431, 432
Şatilov, Vladimir Pavloviç (1855-1928): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun Gürcüstandakı nümayəndəsi olmuşdur. Mühacirətə getmişdir. 219
Şattlvort, Diqbi [Digby Shuttleworth; 1876-1948]: Britaniya Hindistanı Ordusu'nun zabiti; general. 1917-1919-cu illərdə Britaniyanın Qafqazdakı 39-cu piyada briqadasının və Qara dənizdəki 83-cü piyada briqadasının komandiri olmuşdur. 92, 122, 225, 560
Şeremetyev, Dmitri Nikolayeviç (1803-1871): Rus dvoryan; xeyriyyəçi. 494
Şevkunov: Könüllü ordu zabiti, polkovnik; Muğanda Azərbaycanlı əhaliyə divan tutan silahlı dəstələrin rəhbərlərindən. 74, 577
Şeydeman, Filipp [Philipp Heinrich Scheidemann] (1865-1939): alman sosial-demokrat, 1919-cu ilin fevral-iyun aylarında Veymar Respublikasının Baş naziri olmuşdur. 371
Şeyx Bəhaəddin: bax. Bəhaəddin.
Şeyx Bəhai: bax. Bəhaəddin.
Şəfi Məhəmməd oğlu: Bülbülə kəndinin sakini. 145
Şəmkür (padşah) 436
Şəmsəddin Sami (1850-1904): Türk yazıçısı, publisisti və dil alimi. "Təəşşüqi-Tələt və Fitnat" adlı əsəri türk ədəbiyyatında ilk roman olaraq qəbul edilir. Müxtəlif qəzetlərdə baş redaktor olmuş, eləcə də məqalələr yazmışdır. Fransızca və ərəbcə lüğətlər, türk dilinin izahlı lüğətini ("Qamusi-türki") hazırlamışdır. "Qamusül-ə'lam" adlı biyoqrafiya, tarix və coğrafiya ensiklopediyasını nəşrə hazırlamışdır. Dram əsərləri, fransız ədəbiyyatından tərcümələri, türk mədəniyyəti və ədəbiyyatı tarixinə dair əsərləri var. 541, 583
Şərabçıyev, Ziya bəy 443

Şərifov, Hacıbaba: bax. Şərifzadə, Hacıbaba.
Şərifzadə, Dilruba xanım: Qazax sakini. 200
Şərifzadə, Hacıbaba (yaxud Hacıbaba Şərifov; 1895-1920): Azərbaycanın teatr aktyoru və rejissoru. 98
Şıxlı, Müqəddəsətünnisa xanım: Qazax sakini. 200
Şıxlı, Səadət xanım: Qazax sakini. 201
Şıxlı, Zümrüd xanım: Qazax sakini. 201
Şiller, Fridrix [Friedrich von Schiller; 1759-1805]: Alman şairi və filosofu. 10, 26, 137
Şimanski 335
Şirəli Xələf oğlu (Kərbəlayi Xələf oğlu): Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502
Şirvani, Seyid Əzim 104
Şor, Miron Yakovleviç: Cümhuriyyətdən əvvəl və Cümhuriyyət dövründə Azərbaycanda məhkəmə sistemində işləmiş, Bakı Şəhər Dumasının üzvü olmuşdur. 469
Şort, Alfred [Alfred Short; 1882-1938]: Britaniyanın siyasi xadimi; leyborist. 397
Şpitalski, Anatoli İvanoviç: Cümhuriyyətdən əvvəl Bakı quberniyası Torpaq və Dövlət Əmlakı İdarəsində çalışmışdır. Cümhuriyyət dövründə Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin Torpaq şöbəsinin müdiri olmuşdur. Cümhuriyyətin süqutundan sonra Xalq Torpaq Komissarlığında Torpaq idarəetməsi şöbəsinin müfəttişi işləmişdir. 22
Şternin, Boris Moiseyeviç: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 25, 75, 99, 153
Şuri Cahangir oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502
Şuvalov, Aleksandr İvanoviç (1711-1761): Rusiyanın dövlət xadimi, general və senator. 413
Şükrü əfəndi: Türkiyədə "İttihad və Tərəqqi" partiyasının üzvü olmuşdur. 247
Şvarts, Aleksey Vladimiroviç (yaxud fon-Şvarts 1874-1953): Rusiyanın hərbi xadimi; general-leytenant. 1919-cu ilin martında Odessanı tutan fransız orduları tərəfindən Odessa general-qubernatoru təyin edilmişdi. 1919-cu ilin aprelinde mühacirətə getmişdir. 168, 325
Tağıyev, Ağazeynal: bax. Tağıyev, Zeynal.
Tağıyev, Əşrəf bəy (yaxud Qarxunlu Əşrəf bəy; 1867-1930): Azərbaycanın siyasi xadimi. Ərəş qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 198
Tağıyev, Mirdaməd: 1919-cu ildə Həştərxanda bolşeviklər tərəfindən edam edilmişdir. 297
Tağıyev, Zeynal Sadıq oğlu (Ağa Zeynal Ağa Məhəmmədsadıq oğlu; 1893-1940): Azərbaycanın siyasi xadimi; Hacı Zeynalabdin Tağıyevin nəvəsi. Petroqrad Politexnik İnstitutunu və Petroqrad Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının, "İttihad" partiyasının və Parlamentin üzvü olmuşdur. 1940-cı ildə güllələnmişdir. 563
Tağıyev, Zeynalabdin: Azərbaycanlı milyonçu və xeyriyyəçi. 12, 17, 42, 92, 147, 148, 220, 229, 334, 368, 387, 388, 414, 446, 577
Tahirzadə, Ədalət 318
Talıbxan: Göyçay qəzası polis idarəsi rəsinin müavini olmuşdur. 386
Talıbzadə, Abdulla Şaiq (1881-1959): Azərbaycan şairi, yazıçısı və pedaqoqu. 12
Talu, Ərcümənd Əkrəm (1888-1956): Türk jurnalisti və yazıçısı. Məşhur yazıçı və şair Recaizadə Əkrəmin oğlu. 246
Tansen (doktor) 544
Taranovski: Bələdiyyə İdarəsi xidmətçisi. 445
Ter-Akopov: neft sənayeçisi. 416
Ter-Akopyan: Ermənistan Parlamentinin üzvü olmuşdur. 51
Ter-Andreasyan: Mərkəzi Ev Komitəsində işləmişdir. 575
Ter-Xaçaturyan: Ermənistan Parlamenti sədrinin müavini olmuşdur. 50, 51





Ter-Qriqoryan 51
Ter-Stepanov, Q. B.: bax. Ter-Stepanyan, Q. B.
Ter-Stepanyan, Q. B. (yaxud Ter-Stepanov): Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 75
Tereşenko, Mixail İvanoviç [1886-1956]: Rusiyada Müvəqqəti Hökumət dövründə (1917-ci ildə) Maliyyə və Xarici İşlər naziri olmuşdur. 1918-ci ildə mühacirətə getmişdir. 214
Teymur: XIV əsrdə yaşamış görkəmli türk sərkədəsi; Teymurilər dövlətinin banisi. 8, 154, 436
Teymurxan Abbas: Azərbaycan Cümhuriyyəti Parlament İdarəsində məktub xidmətçisi olmuşdur. 57
Təkinski, Məhəmməd xan (1880-1938): Azərbaycanın siyasi xadimi və diplomatı. Azərbaycan Cümhuriyyətinin Ermənistandakı siyasi nümayəndəsi (səfiri), həmçinin Azərbaycan Xarici İşlər nazirinin müavini olmuşdur. 247, 248
Tərlan Əbdüləli oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502
Tiqranyan, Sirakan Tatesoviç (1875-1947): Ermənistanın siyasi xadimi. Daşnaksutyun partiyasının üzvü. Rusiya imperiyası II Dövlət Dumasının deputatı olmuşdur. 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinə qədər Ermənistan Respublikasının Xarici İşlər naziri vəzifəsini tutmuşdur. Sonrakı dövrdə Maarif naziri, Maarif və Mədəniyyət naziri olmuşdur. 1938-ci ildə həbs edilmiş, sürgündə ölmüşdür. 136, 249, 572
Timanovski, Nikolay Stepanoviç (1885-1919): Rusiyanın hərbi xadimi; general. Cənubi Rusiyada Ağqvardiyaçılar hərəkatının aktiv iştirakçısı olmuşdur. 325
Tişçova, Mariya Adarovna 498
Tolstoy, Lev Nikolayeviç (1828-1910): Rus yazıçısı və mütəfəkkiri. Rus ədəbiyyatının ən görkəmli nümayəndələrindən hesab olunur. 242
Tolstoy, P. 134
Tolstov, Vladimir Sergeyeviç (1884-1956): Rusiyanın hərbi xadimi; general-leytenant. Ağqvardiyaçılar hərəkatının iştirakçısı, Ural kazaklarının atamanı olmuşdur. 576
Tomas, Albert [Albert Thomas; 1878-1932]: Fransanın siyasi xadimi, sosialist. 1916-cı ildə Fransanın Silahlanma naziri təyin edilmişdi. 324
Tomson, Vilyam Montqomeri [William Montgomerie Thomson; 1877-1963]: Britaniya generalı. Bakının general-qubernatoru olmuşdur. 36, 124, 125, 152, 167, 199, 272, 286, 339, 340, 518, 520, 521, 560
Topçubaşov, Əlimərdan bəy (1863-1934): Azərbaycanın siyasi xadimi; Azərbaycan Cümhuriyyətinin banilərindən biri. Tiflisdə anadan olmuş, Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya müsəlmanlarının təşkilatlanmasında və siyasi həyatında müstəsna xidmətləri olmuşdur. Rusyia Dövlət Dumasının üzvü, Dumada Müsəlman fraksiyasının sədri, "Kaspi" qəzetinin redaktoru olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Hökumətində portfelsiz nazir və Xarici İşlər naziri vəzifələrini tutmuş, Azərbaycan Cümhuriyyətinin Fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilmişdir. Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin sədri idi. Cümhuriyyətin süqutundan sonra mühacirətdə qalmış, siyasi fəaliyyətini davam etdirmişdir. Parisdə vəfat etmişdir. 148, 547
Toptani, Əsad paşa (1863-1920): Osmanlı zabiti; Albaniyanın siyasi və hərbi xadimi. 1914-1916-cı illərdə Albaniyanın Baş naziri olmuşdur. 110, 509
Torosyan, Saak (1885-1940): Ermənistanın ictimai-siyasi xadimi; Daşnaksutyun partiyasının üzvü. Ermənistan Parlamentinin

üzvü, Daxili İşlər nazirinin müavini, Sosial Təminat və Əmək naziri, Ərzaq naziri olmuşdur. 51, 54

Toşyan, Tadevos (? - 1937): İrəvan Bələdiyyəsinin sədri olmuşdur. 51

Trotski, Lev Davidoviç (1879-1930): Rus inqilabçı, dövlət xadimi. Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti icraiyyə komitəsinin sədri, Sovet Rusiya-sının Xarici İşlər naziri, Rusiya və SSRİ-nin Hərbi İnqilab Sovetinin sədri və Hərbi Komissarı olmuşdur. 7, 134, 243

Tsaxakaya, Qriqori İvanoviç: Gürcü Milli Şurasından Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. 38, 148

Tsalikov, Əhməd Tembulatoviç (1882-1928): osetin əsilli ictimai-siyasi xadim. 374

Tumanyans: Şəki Erməni Milli Komitəsinin sədri olmuşdur. 251

Türkkan, Ömər Fəxrəddin (1868-1948): Türkiyənin hərbi və siyasi xadimi. Bir sıra müharibələrdə iştirak etmiş, Birinci Dünya müharibəsində Mədinəni müdafiə edən Türk əsgərlərinin komandiri kimi məşhur olmuşdur. 1921-ci ildə Türkiyə Cümhuriyyətinin Kabildəki səfiri vəzifəsinə təyin edilmişdir. 297, 298, 317

Ümidvar: "Azərbaycan" qəzetində Ömər Faiq Nemanzadəyə məxsus imza; bax. Nemanzadə, Ömər Faiq.

Vahidov, Məcid: Ağdaş sakini. 198

Vaqif, Molla Pənah (1717-1797): Azərbaycan şairi; eyni zamanda Qarabağ xanlığının baş vəziri olmuşdur. 12

Valton: Azərbaycandakı Müttəfiq qoşunlar zabiti. 35, 36, 37, 38

Vanseviç, Stanislav: bax. Vonsoviç, Stanislav.

Vansoviç: bax. Vonsoviç, Stanislav.

Vazeh, Mirzə Şəfi (1794-1852): Azərbaycan şairi. Eyni zamanda müəllimlik də etmişdir. Azərbaycan və fars dillərində yazmışdır. "Vazeh" təxəllüsünü işlətmişdir. 11, 26

Vedjvud, Cozayya Klement [Josiah Clement Wedgwood; 1872-1943]: Britaniyanın liberal və leyborist siyasi xadimi. 212

Venizelos, Elefterios (1864-1936): Yunanıstanın siyasi xadimi. 1910-cu ildən 1933-cü ilə qədər dəfələrlə (o cümlədən 1917-1920-ci illərdə) Baş nazir vəzifəsini tutmuşdur. 6, 216

Versanov, Saşa: Bakı sakini. 576

Veselovski: Rus ədəbiyyat tənqidçisi. 10

Veyzman, Haim (1874-1952): Sinozimin liderlərindən, Ümumdünya Sionizm Təşkilatının prezidenti, 1949-1952-ci illərdə İsrailin birinci prezidenti olmuşdur. 400

Vəfa, Mehdiqulu xan (1855-1900): Azərbaycan şairi və hərbi xadimi; Xurşidbanu Natəvanın oğlu. 12

Vəkilli, Cəmilə xanım: Qazax sakini. 201

Vəkilli, Güləndam xanım: Qazax sakini. 200

Vəkilov, Məhəmməd ağa Mustafa ağa oğlu (1862-1941): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamenti İdarəsinin müdiri olmuşdur. 58

Vəkilov, Məhəmmədrza ağa (1864-1944): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi, həkim. 529

Vəkilov, Mustafa bəy Nadir ağa oğlu (1896-1965): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Parlamentin üzvü olmuş, 1920-ci ildə Daxili İşlər naziri vəzifəsini tutmuşdur. 38, 565

Vəkilov, Rəhim bəy (1898-1934): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. Sovet rejiminin təqibləri üzündən intihar etmişdir. 166, 349

Vəkilzadə, Dürrətünnisa, xanım: Qazax sakini. 201

Vəkilzadə, Xanım: Qazax sakini. 200

Vəkilzadə, Nursidə xanım: Qazax sakini. 200

Vəkilzadə, Rəhim bəy: bax. Vəkilov, Rəhim bəy

Vəkilzadə, Rüdabə xanım: Qazax sakini. 200

Vəkilzadə, Şahnigar xanım: Qazax sakini. 200

Vəli Dadaşbala oğlu: Eynibulaq (Siyəzən) sakini. 127

Vəlibəy Nağı oğlu (Hacı Nağı oğlu): Çadırlı kəndinin (Salyan) sakini. 389

Vəlibəyov: Könüllü ordu rəhbərliyi ilə danışıqlarda iştirak etmək üçün seçilən Dağlılar Respublikası heyətinin katibi olmuşdur. 272

Vəlibəyzadə, Cavad (Hacı Cavad): Xuluq (Qusar) kənd sakini və kənd icmasının nümayəndəsi. 72, 120

Vəlixan İmamverdi oğlu: Əmirhacıyan sakini. 363

Vəliməhəmməd Mirzəməhəmməd oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502

Vəlizadə, Baladadaş: "Müsavat" partiyasının Keşlə şöbəsinin üzvü olmuşdur. 119

Vənəndi: bax. Qüdsi Vənəndi.

Vəzirov, Bəhlul bəy: Azərbaycan Poçt İdarəsinin baş müdiri olmuşdur. 318, 359

Vəzirov, Bəhram bəy: Bakı Poçt İdarəsinin müdiri olmuşdur. 304, 317, 359, 445.

Vəzirov, Haşım bəy 203

Vilhelm II (Wilhelm II, 1859-1941): Almaniya imperatoru, 1888-1918-ci illərdə hakimiyyətdə olmuşdur. 185, 244, 259, 271, 294, 317, 484, 496, 505, 533

Vilson, Vudro (Woodrow Wilson; 1856-1924): ABŞ-ın 28-ci prezidenti (1913-1921). I Dünya müharibəsinə son qoymaq üçün sülh müqaviləsi layihəsini (Vilson prinsiplərini) işləyib hazırlamışdır. 38, 40, 66, 132, 134, 178, 214, 225, 300, 310, 324, 374, 375, 376, 377, 379, 396, 398, 427, 448, 460, 508, 509, 511, 512, 519, 558

Vinaver, Maksim Moiseyeviç (1863-1926): rus hüquqşünası və siyasi xadim. Kadet partiyasının liderlərindən biri. İkinci Krım Regional Hökumətində Xarici İşlər naziri olmuşdur. 69, 77

Vinoqradov, Mixail: Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. 18, 291

Vlasov, Nikolay Savileviç 120

Volkov, Yevgeni Nikolayeviç (1864-1933): Rusiyanın hərbi xadimi; general-leytenant. Rusiyanın müxtəlif yerlərində general-qubernator və bələdiyyə sədri olmuşdur. 326

Volviks: Antanta Komissiyasının sədri olmuşdur. 484

Vonsoviç, Stanislav Aleksandroviç (1888-1937): Polyak Milli Komitəsindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. Sovet dövründə repressiyaya məruz qalmışdır. 211

Vorontsov, Mixail İllarionoviç (1714-1767): Rusiyanın dövlət xadimi və diplomatı. 413

Vorontsov-Daşkov, İllarion İvanoviç (1837-1916): Rusiyanın dövlət xadimi. 1905-1915-ci illərdə Qafqaz canişini olmuşdur. Ermənilərə xüsusi rəğbəti ilə seçilmişdir. 90

Voskresenski, Vasili Qriqoryeviç (1888-1951): Rusiyanın hərbi xadimi, Rusiya-Yaponiya və Birinci Dünya müharibələrinin iştirakçısı. Qafqaz cəbhəsində döyüşmüş, Rusiyanın İrana göndərdiyi korpusun tərkibinə daxil olmuşdur. 1918-ci ildə Bakıda Hərbi Dəniz Qüvvələri baş komissarı idi. Daha sonra Fransaya köçmüş, Rus balet truppasına rəhbərlik etmişdir. 473, 555, 575

Vüsuqüddövlə, Mirzə Həsən xan Mirzə İbrahim xan oğlu (1868-1951): İran dövlət xadimi. 1916-1917 və 1918-1920-ci illərdə Baş nazir olmuşdur. 516, 572, 573

Y. Ç. zadə: "Azərbaycan" qəzetində imza. 143

Yaqubzadə, Əbdülxaliq Yusif (1853-1924): Azərbaycan şairi. 12

Yarəli Məhəmmədbağır oğlu: Quba qəzasında yüzbaşı olmuşdur. 151

Yejevski, S. A.: Bakıda diş həkimi kimi fəaliyyət göstərmişdir. 24, 52, 75, 99

Yekaterina I (1684-1727): Rusiya imperatriçası. İmperator I Pyotrun arvadı idi. 1725-1727-ci illərdə hakimiyyətdə olmuşdur. 413, 421

Yekaterina II (1729-1796): Rusiya imperatriçası; 1762-1796-cı illərdə hakimiyyətdə olmuşdur. 421, 490, 491, 505

Yeqiazarov, Y. Y.: Bakıda, Kolyubakin (indiki Nigar Rəibəyli) və Sisyanov (indiki Təbriz Xəlilbəyli) küçələrin küncündə dükanı olmuşdur. 1, 29, 57

Yeqorov 575

Yelizaveta Alekseyevna (1779-1826): Rusiya imperatriçası; imperator I Aleksandrın arvadı olmuşdur. 26

Yelizaveta Petrovna (1709-1762): Rusiya imperatriçası. 1741-1762-ci illərdə hakimiyyətdə olmuşdur. 413, 421

Yermolayev: Muğandakı Könüllü ordu zabitlərindən. 577

Yoaxim: bax. Prussiyalı Yoaxim

Yudeniç, Nikolay Nikolayev (1862-1933): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsində Qafqaz ordusunun qərargah rəisi, Rusiyada Vətəndaş müharibəsində Şimal-Qərb ordusunun komandiri olmuşdur. 373

Yurdsevər, Əbdülvahab Məmmədzadə (yaxud Məhəmmədzadə; 1898-1976): publisist və siyasi xadim; Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçısı. Siyasi və ədəbi fəaliyyətini mühacirətdə davam etdirmişdir. 17, 146, 312, 388

Yusif bəy: Türkiyədə “İttihad və Tərəqqi” partiyasının üzvü olmuşdur. 247

Yusif, Əbdülxalıq: bax. Yaqubzadə, Əbdülxalıq Yusif.

Yusif Hacı: Çeçenlərin ictimai-siyasi xadimi; Dağlılar Respublikası Parlamentinin üzvü olmuşdur. 431, 432

Yusif Qəmbər oğlu (Kərbəlayi Yusif Kərbəlayi Qəmbər oğlu): Əmirhacıyan kəndindəki hərbi komitənin üzvü olmuşdur. 360, 556

Yusif Murad oğlu: Gəncə qəzası sakini. 362

Yusif Yusif oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502

Yusif Ziya bəy (yüzbaşı) 297

Yusifbəyli, Nəsib bəy (1881-1920): Azərbaycanın dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin qurucularından biri. Odessa Universitetinin Hüquq fakültəsində təhsil almışdır. 1917-ci ildə Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını qurmuşdur. Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak etmiş, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətində Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə və Xalq Maarifi naziri, Xalq Maarifi və Dini Etiqad naziri, Daxili İşlər naziri və Baş Nazir vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra qətlə yetirilmişdir. 18, 22, 143, 144, 261, 262, 263, 264, 321, 520, 537

Yusifəli Cəlil oğlu: Bakı sakini. 99

Yusifov, Əliheydər: Cavad qəzasının rəisi olmuşdur. 96

Yusifzadə, Əliheydər: bax. Yusifov, Əliheydər.

Yusifzadə, Sürəyya xanım: Qazax sakini. 201

Zakir, Qasım bəy (1784-1857): Azərbaycan şairi. 12

Zakir, Molla Qasım: Azərbaycan şairi; XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Şəkidə yaşamışdır. 12

Zamanov: Azərbaycan Dəmiryolu İdarəsində işləmişdir. 574

Zeynal Möhbulla oğlu: Cavad qəzasının Ərəbbalaoğlan kəndinin sakini. 502

Zeynal Tanrıqulu oğlu: Xələc kəndinin (Ucar) yüzbaşısı olmuşdur. 578

Zeynalabdin: Şuşa Milli Müdafiə Cəmiyyətinin katibi olmuşdur. 123

Zeynalabdin Nəcəf oğlu: Quba qəzasının Ərşəli kəndinin sakini. 151

Zəbih, Ağa İsmayıl (1781-1868): Azərbaycan şairi. 11

Ziyadxanlı, Kəlbəli xan: bax. Müsahib, Kəlbəli xan

Ziyadxanov, Adil xan (yaxud Ədil xan; 1877-1957): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Xarici İşlər nazirliyində işləmiş, Azərbaycanın İranda diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bir müddət İranda, daha sonra Türkiyədə yaşamışdır. 12, 117, 140, 243, 381, 438, 520, 522

Ziyadxanov, İsmayıl xan (1861-1920): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Dinc əhaliyə qarşı soyqırım törədən erməni quldurlarıyla mübarizə aparmışdır. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 249

Zohrab, Kirkor (yaxud Marsel Lear; 1861-1915): Erməni ictimai-siyasi xadim. İstanbulda anada olmuşdur. Avropada, Erməni məsələsi haqqında kitablar nəşr etdirmişdir. Əsərlərini Marsel Lear imzası ilə yazmışdır. 288

Zoryan, David: Ermənistan Parlamentində Sosialistlər fraksiyası sədrinin müavini olmuşdur. 51, 54

Zurabişvili, İvan İvanoviç: bax. Zurabov, İvan İvanoviç.

Zurabov, İvan İvanoviç (yaxud Zurabişvili; 1872-1940): Gürcüstanın siyasi xadimi; hüquqşünas və ədəbiyyatçı. 126

Zülfüqar Məhəmməd oğlu (Hacı Məhəmməd oğlu): Gərmətük kəndinin (Lənkəran) sakini olmuşdur. 531

Zülfüqar Şirvani: XIII əsrdə yaşamış Azərbaycan şairi və alimi. 12

Korrektor: Azad Ağaoğlu
Kitab üzlüyü və tərtib: Fikrət Məlikov

**Nəşriyyat direktoru:** Rəhilə Soltanqızı
**Mətbəənin direktoru:** Zöhrab Vəlibəyli
**Texniki redaktor:** Ruslan Mahmudov

Çapa imzalanmışdır: 13.06.2023
Formatı 70x100 $^{1}/_{16}$. F.ç.v 30.5
Ofset kağızı, Ofset çapı. Səhifə sayı: 644
Tiraj: 300, Bakı-2023

**Hazır materiallar əsasında**
**GALAXY PRINTING MMC**
**mətbəəsində çap edilmişdir.**

ISBN 978-9952-8426-3-0
9 789952 842630